AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİ

# AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİYA TARİXİ

## (1991-2003)


**Baş redaktor:**

*Azərbaycan Respublikasının xarici işlər naziri, tarix üzrə fəlsəfə doktoru* ***Elmar Məmmədyarov***

**Redaksiya heyəti:**

*xarici işlər nazirinin müavinləri:*
***Araz Əzimov, Hafiz Paşayev, Xələf Xələfov, Mahmud Məmmədquliyev, Nadir Hüseynov***

*Xarici İşlər Nazirliyinin məsul əməkdaşları:*
*tarix üzrə fəlsəfə doktoru* ***Cavanşir Məmmədov,***
*tarix üzrə fəlsəfə doktoru* ***Cavanşir Vəkilov***



HEYDƏR ƏLİYEV

MUSA QASIMLI

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ
## (1991-2003)

*I HİSSƏ*

MÜTƏRCİM
Bakı – 2015

Azərbaycan Respublikasının diplomatiya tarixi / M.C.Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. I hissə. – Bakı: Mütərcim, 2015. – 648 səh.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin qərarı ilə "Azərbaycan Respublikasının diplomatiya tarixi" seriyasından hazırlanan və iki hissədən ibarət olan bu kitab 1991-2003-cü illərin xarici siyasətini əhatə edir. Tarix elmləri doktoru, professor Musa Qasımlı tərəfindən yazılmış monoqrafiyada Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə, ABŞ, Böyük Britaniya və digər ölkələrin mötəbər mənbələri, Praqada ATƏT arxivinin, Vyanada BMT və AEBA kitabxanalarının materialları əsasında Azərbaycan diplomatiyasının göstərilən illərdə keçdiyi yol işıqlandırılmışdır.

Əsərin I hissəsində XX əsrin sonlarında – dağılma ərəfəsində SSRİ-nin daxili ictimai-siyasi və beynəlxalq vəziyyəti, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycan diplomatiyasının fəaliyyəti, Azərbaycanın enerji diplomatiyası, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində Azərbaycan diplomatiyasının səyləri və Azərbaycanın qonşu ölkələr ilə münasibətləri araşdırılmışdır. Mənbələrin əksəriyyəti elmi dövriyyəyə ilk dəfə gətirilmişdir.

Kitab diplomatlar, siyasətçilər, beynəlxalq münasibətlər tarixi ilə məşğul olan mütəxəssislər, bu ixtisas üzrə təhsil alan tələbələr və Azərbaycan diplomatiya tarixi ilə maraqlanan şəxslər üçün nəzərdə tutulmuşdur.

**ISBN: 978-9952-28-208-5**

© Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, 2015
© M.C.Qasımlı, 2015

# İÇİNDƏKİLƏR

**GIRIŞ.,**

**I FƏSIL.**
**XX ƏSRİN 80-ci İLLƏRİNİN SONU - 90-cı İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ SSRİ-nin DAXİLİ VƏ BEYNƏLXALQ VƏZİYYƏTİ........................................................................ .28**

*Beynəlxalq şəraitin ümumi mənzərəsi - 28. Avropanın sosialist ölkələrində vəziyyət. "Sanitar dəhlizi"nin dağılması - 45. SSRİ-nin daxili ictimai-siyasi vəziyyəti - 51. Azərbaycanın daxili işlərinə Ermənistanın müdaxiləsi. Təcavüzün tarixi köklərinə qısa baxış - 57. Azərbaycanın Dağlıq Qarabağ regionuna Ermənistanın əsassız iddialar irəli sürməsi. Təcavüzün başlanması -102.*

**II FƏSIL.**
**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİ. ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜNÜN ARADAN QALDIRILMASI İSTİQAMƏTİNDƏ DİPLOMATİK SƏYLƏR ........................ .142**

*Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi - 142. Ermənistanın təcavüzünü dayandırmaq üçün beynəlxalq səylər. ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti. BMT Təhlükəsizlik Şurasının qətnamələri - 150. Atəşkəs elan edildikdən sonra diplomatik səylər - 213. Ermənistanın təcavüzünün Azərbaycan üçün nəticələri və işğal olunmuş ərazilərdə vəziyyət - 270. Münaqişənin həllinə dair Azərbaycanın mövqeyi - 278*

**III FƏSİL.**
**AZƏRBAYCANIN ENERJİ DİPLOMATİYASI. .284**

*Azərbaycan neftinin tarixinə qısa baxış - 284. "Əsrin müqaviləsi"nə aparan çətin yol - 286. Dönüş anı. Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsinin əsası qoyulur - 297. Azərbaycan enerji sahəsində əməkdaşlığı genişləndirir. Nefti hansı ölkə ərazisindən nəql etməli? - 310. Azərbaycanın neft strategiyasında yeni mərhələ - 337. Enerji diplomatiyasının həyata keçirilməsinin Azərbaycan üçün ilkin nəticələri - 364*

**IV FƏSIL.**
**XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ DİPLOMATİK FƏALİYYƏT.................................... .368**

*Xəzər dənizi beynəlxalq münasibətlərdə: tarixə baxış - 368. Xəzər dənizinin hüquqi statusu məsələsinin meydana çıxması və onun həlli istiqamətində diplomatik səylər-372*

**V FƏSIL.**
**AZƏRBAYCAN RESPUBLİKASININ QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI.......................................... 424**

*Türkiyə Cümhuriyyəti ilə münasibətlər. Qarşılıqlı münasibətlərin qurulması və ilk addımları - 424. Azərbaycan - Türkiyə münasibətlərində yeni dövrün başlanması - 441. Rusiya Federasiyası ilə münasibətlər. İlk addımlar - 522. Münasibətləri yaxşılaşdırmaq cəhdləri - 528.Qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanması - 549. İran İslam Respublikası ilə münasibətlər. Diplomatik-siyasi münasibətlərdə ilk addımlar. Ermənistanın təcavüzünü dayandırmaq üçün İranın vasitəçilik səyləri - 565. Qarşılıqlı münasibətlərin təzadlı inkişaf yolları - 568. Yeni mərhələnin başlanması. Etimadsızlıqdan qarşılıqlı anlaşmaya doğru - 570. Xəzər dənizində münaqişə. Münasibətlər sınağa çəkilir - 599. Mehriban qonşuluq ən düzgün yoldur - 602. Gürcüstan ilə qarşılıqll münasibətlər. Münasibətlərin qurulması və problemləri - 609. Dönüş anı. Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanması - 611. Qazaxıstan Respublikası ilə münasibətlər. Ilk addımlar - 627. Qarşılıqlı münasibətlərdə dönüş mərhələsi. Strateji tərəfdaşlığa doğru - 629. Türkmənistan ilə münasibətlərin qurulması və təzadlı inkişaf yolları. İttifaq dövlətindən mehriban qonşuluğa doğru - 637. Türkmənistan Prezidentinin Azərbaycana səfəri - 639. Münasibətlər sınağa çəkilir. Müzakirələrdə fayda vardır -641.*

*Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir.*

**Heydər Əliyev**

# GİRİŞ

"Azərbaycan Respublikasının diplomatiya tarixi"nin 1991-2003-cü illəri əhatə edən dövrünün tədqiq edilməsi həm tarixi gerçəklik, həm də diplomatik təcrübə baxımından mühümdür. Monoqrafiyanın yazılmasını bir sıra amillər şərtləndirmişdir. Məlum olduğu kimi, mərkəzi hakimiyyətin hökmranlıq etdiyi SSRİ-də müttəfiq respublikaların birliyi yeganə hakim partiya olan Kommunist Partiyası, sovet ordusu, təhlükəsizlik və hüquq mühafizə orqanları, ölkənin regionlarını iqtisadi baxımdan bir-birinə bağlayan planlı təsərrüfat sistemi, millətlərarası münasibətlərdə nisbi tarazlıq və sabitlik sayəsində qorunub saxlanılırdı. 1985-ci ilin mart ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi seçilən M.S.Qorbaçovun siyasi və sosial-iqtisadi sahələrdə olduğu kimi, milli siyasətdə də buraxdığı kobud səhvlər nəticəsində ölkədə sabitlik pozuldu. 80-ci illərinin ortalarından etibarən SSRİ-də siyasi şərait ağırlaşmağa başladı. Mərkəzi hökumət və Kommunist Partiyası güc strukturlarının vasitəsi ilə dinc vətəndaşlara qarşı kütləvi zorakılıq tətbiq etməklə özünü xalqların gözündən daha da saldı, olan inamı sarsıtdı. Respublikalar ilə Mərkəz arasında siyasi və iqtisadi əlaqələr qırılmağa başladı.

Bu zaman Şərqi Avropa ölkələrində də mürəkkəb sosial-siyasi hadisələr baş verirdi. Sosializm sisteminin dağılması prosesində həmin ölkələrin xalqları SSRİ-nin müdaxilələrindən xilas olaraq, müstəqil inkişaf yollarını müəyyənləşdirdilər. Soyuq müharibə başa çatdı.

Belə bir şəraitdə SSRİ-ni təşkil edən müttəfiq respublikalar da öz inkişaf yollarını axtarırdılar. Onlardan biri olan Azərbaycanda xalqın müstəqilliyə gedən yolu Ermənistanın irəli sürdüyü əsassız ərazi iddiaları, az sonra isə başlayan təcavüzünün təsiri ilə müşayiət olunurdu. Müttəfiq

respublika kimi Azərbaycanın hüquqlarını qorumalı olan mərkəzi hakimiyyət vəzifəsini yerinə yetirmir, Ermənistanın təcavüzkar siyasətinə imkan yaradırdı. Nəticədə Azərbaycanda ağır ictimai-siyasi şərait yaranmışdı. Xalqın təkidli tələbləri ilə Azərbaycan SSR Ali Soveti 1989-cu il sentyabrın 23-də Azərbaycanın suverenliyi haqqında bəyannamə qəbul etdi. Bundan sonra mərkəzi hakimiyyətin təzyiqlərini artırdığı Azərbaycanda ictimai-siyasi şərait daha da pisləşdi, hakimiyyət ilə xalq arasında uçurum dərinləşdi. Respublika idarəolunmaz həddə gəlib çatdı. SSRİ rəhbərliyinin göstərişi ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya daxil sovet qoşun hissələri dinc əhaliyə qarşı silah tətbiq etdi. Yüzlərlə insan qətlə yetirildi və yaralandı. Azərbaycanın həyatında dönüş mərhələsi olan qanlı 20 yanvar hadisəsindən sonra xalqın müstəqilliyə doğru yolu qətiləşdi. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı qəbul olundu. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi elan edildi.

Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqının tarixində böyük hadisə olmaqla, yeni bir dövrün başlanğıcı idi. Azərbaycan xalqı milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənərək demokratik və hüquqi dövlət quruculuğu yolunu seçdi. Bu dövrdə Azərbaycan Respublikasının qarşısında onun dövlət müstəqilliyinin tanıdılması və möhkəmləndirilməsi, Ermənistanın əsassız ərazi iddiaları ilə başladığı təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin milli maraqlara uyğun həlli və işğal edilmiş ərazilərin azad edilməsi, dövlət quruculuğu və xalqın təhlükəsiz yaşayışını, ölkənin inkişafını təmin etmək üçün əlverişli beynəlxalq şəraitin yaradılması kimi mühüm vəzifələr dururdu. Həmin vəzifələri yerinə yetirmək üçün ardıcıl, məqsədyönlü daxili və xarici siyasət kursunun hazırlanması və reallaşdırılması tələb olunurdu.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı 1991-2003-cü illər tarix baxımından qısa müddət olsa da, daxili və xarici siyasət sahəsində həyata keçirilən tədbirlərin məzmununa görə zəngin bir dövr sayıla bilər. Qısa zaman ərzində Azərbaycan xalqı böyük tarixi yolu qət etmişdir.

Müstəqilliyin bərpa edilməsi ilə Azərbaycan dövləti xarici siyasət sahəsində ilk addımlarını atmağa başladı. Hələ SSRİ mövcud olduğu bir zamanda Azərbaycan Respublikasının dövlət müstəqilliyini bir neçə ölkə tanıdı.

Yuxarıda qeyd edilən daxili və beynəlxalq amillərin təsiri nəticəsində yaranmış mürəkkəb şəraitdə 1991-ci il dekabrın 8-də Minsk yaxmhğm-

da Viskul məntəqəsində (Belovejskaya Puşa) görüşən Rusiya, Ukrayna və Belarus rəhbərləri 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətinin dayandırıldığım bildirərək, SSRİ-nin taleyini həll etdilər. Dekabrın 21-də isə Müstəqil Dövlətlər Birliyi yaradıldı.

Bundan sonra Azərbaycan Respublikasının xarici siyasət sahəsində imkanları daha da genişləndi və dövlət müstəqilliyini tanıyan ölkələrin sayı artdı. Azərbaycan Respublikası 1992-ci ilin yanvar ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM, 1994-cü ildən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı - ATƏT) üzv oldu və bir neçə beynəlxalq konvensiyaya qoşuldu.

Bu zaman xarici siyasət fəaliyyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və davam edən işğalı şəraitində həyata keçirilirdi. Müstəqilliyin bərpa edildiyi ərəfədə və ondan az sonra azərbaycanlılar Ermə- nistandan-öz tarixi torpaqlarından qovularaq qaçqına çevrilmişdilər. Azərbaycanın Dağlıq Qarabağ regionunda isə azərbaycanlılar yaşayan məntəqələr bir-birinin ardınca Ermənistan silahlı qüvvələri və terrorçu dəstələri tərəfindən keçmiş sovet hərbi hissələrinin köməyi ilə işğal edilərək yandırılır, əhalisi məcburi köçkünə çevrilirdi. Təcavüzün gedişində Ermənistan silahlı qüvvələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı soyqırım edərək, bəşəriyyət və sivilizasiya əleyhinə cinayət törətdi. Bu hadisələr Azərbaycanda hakimiyyət böhranı yaratdı.

Belə bir ağır şəraitdə, 1992-ci il martın 2-də Azərbaycan Respublikası xarici siyasət sahəsində mühüm bir addım atdı. Ölkə Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv oldu.

ATƏM Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də Helsinkidə keçirilən əlavə iclasında Dağlıq Qarabağ münaqişəsinə dair məsələ müzakirə edildi. Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zamanda münaqişənin ATƏM prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə tənzimlənməsi istiqamətində danışıqlar üçün forum təmin edəcək ABŞ, Rusiya, Türkiyə, Fransa, İtaliya, Almaniya, Belarus, İsveç, Finlandiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə konfransın çağırılması qərara alındı. Konfransın əsas məqsədi atəşin dayandırılması və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşdirilməsi üçün danışıqların başlanması idi. Yenicə yaradılmış MDB-nin İcraiyyə Komitəsi Minskdə yerləşdiyi, münaqişədə bitərəf ölkə olduğu və Belarus hökuməti ölkənin paytaxt şəhərini çağırılması nəzərdə tutulan həmin tədbirə verdiyi üçün ona Minsk konfransı deyilir. Konfran

sın reallaşması üçün yaradılan eyni adlı qrup münaqişənin tənzimlənməsi istiqamətində fəaliyyət göstərməli, konfransa üzv olan dövlətləri Minsk şəhərində toplamalı və yekun sənədi qəbul etməli idi.

Aparılan danışıqlara məhəl qoymayan Ermənistan işğalı genişləndirərək 1992-ci il mayın 8-də Azərbaycan musiqi mədəniyyətinin beşiyi sayılan Şuşa şəhərini zəbt etdi. Bununla Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalını başa çatdırdı. Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov vəzifəsindən istefa verdi. Mayın 15-də Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldi. Ermənistan bundan bir neçə gün sonra, may ayının 18-də Dağlıq Qarabağ regionunun ətrafında yerləşən Laçın rayonunu işğal etdi. Laçın rayonunun işğalı nəticəsində Ermənistan ilə Azərbaycanın Dağlıq Qarabağ regionu arasında birbaşa quru əlaqə yaradıldı, silah və sursat daşınması daha da artdı. Belə bir şəraitdə Azərbaycan Xalq Cəbhəsinin nümayəndəsi Əbülfəz Elçibəy prezident seçildi.

Təcavüzünü davam etdirən Ermənistan 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunu işğal etdi. Rayonun bütün əhalisi məcburi köçkünə çevrildi. Kəlbəcərin işğalından sonra Azərbaycanın diplomatik səyləri nəticəsində BMT Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixində işğalı pisləyən, işğalçı qüvvələrin işğal etdikləri ərazilərdən dərhal, tezliklə və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822 saylı qətnaməni qəbul etdi. Lakin Ermənistan tərəfi qətnamənin tələblərini yerinə yetirmədi.

Artan daxili siyasi sabitsizlik, keçid dövrünün sosial-iqtisadi çətinlikləri, dövlət idarəçiliyi sahəsində səriştəsizlik və ciddi problemlər, ölkənin şimalı və cənubunda xarici qüvvələr tərəfindən dəstəklənən separatçılıq fəaliyyətləri Azərbaycanda ümumi böhran yaratdı. Azərbaycan vətəndaş müharibəsi astanasında dayanaraq bir dövlət kimi dağılmaq təhlükəsi qarşısında qalmışdı. Ölkənin daxili və xarici siyasəti dalana dirənmiş, xalq ümidsizliyə düçar olmuşdu. Belə bir şəraitdə, 1993-cü ilin iyun ayında xalqın tələbi və Azərbaycan rəhbərliyinin xahişi ilə təcrübəli siyasi və dövlət xadimi Heydər Əliyev Bakıya dəvət edildi. Yaranmış hakimiyyət boşluğundan istifadə edən Ermənistan silahlı qüvvələri bir-birinin ardınca 1993-cü ilin yayı və payızında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etdi. Bu rayonların işğalından sonra Azərbaycanın diplomatik səyləri nəticəsində BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinə dair 1993-cü il 29 iyul tarixli 853, 14 oktyabr tarixli 874, 12 noyabr tarixli 884 saylı qətnamələrini qəbul etdi.

Azərbaycan dövləti Ermənistanın genişlənən təcavüzünü dayandırmalı, işğal edilmiş Dağlıq Qarabağ regionunu və digər əraziləri qaytarmağa nail olmalı, dövlət quruculuğunu təşkil və qabaqcıl dünya ölkələri ilə əməkdaşlıq imkanlarından faydalanaraq ölkə iqtisadiyyatının gələcək inkişafını təmin etməli idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimində etdiyi nitqində bununla bağlı olaraq deyirdi: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir... Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir... Bu yol ilə getmək həm tarixi keçmişimizə uyğundur, həm də bir müstəqil dövlət kimi dünya sivilizasiyasına daha yaxından qovuşmaq üçün lazımi şərtdir"'.

Heydər Əliyevin hakimiyyətə gəlməsi və gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycan Respublikası qarşıdurma, separatçılıq və dağılmaqdan xilas edildi, sabit və davamlı inkişaf edən dövlətin qurulması, xalqın inamının özünə qaytarılması mərhələsi başlandı. Azərbaycanda mürəkkəb daxili və xarici problemlərin həlli üçün fəal beynəlxalq siyasət xətti seçildi. Azərbaycanın gələcəyini dövlət müstəqilliyi ilə bağlayan Ulu öndər Heydər Əliyev deyirdi: "Respublikamızın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasət olmasıdır... Bizim xarici siyasətimiz birinci növbədə dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir... respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq"^.

Beləliklə, qarşıda duran mürəkkəb vəzifələri gerçəkləşdirmək üçün Azərbaycan Respublikasının xarici siyasətinə əvvəlki illərdən fərqli olaraq praqmatizm gətirildi, ölkəni regional təcridçiliyə aparan səmərəsiz xarici

**' Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. 204.**

**^ Yenə orada, s. 205-206.**

siyasət xəttindən imtina edildi. Tarazlaşdınimış və çoxistiqamətli xarici siyasət xəttinə üstünlük verildi. Daxili sabitliyin bərqərar edilməsi və dövlət institutlarının normal işləməsi üçün geniş fəaliyyətə başlandı. Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həlli üçün səylər xarici siyasətin başlıca istiqamətlərindən biri oldu. Rusiyanın vasitəçiliyi ilə 1994-cü il may ayının 12-dən etibarən Ermənistan və Azərbaycan arasında atəşkəs elan edildi. Atəşkəsin elan edilməsi xarici siyasət sahəsində bir çox məsələlərin həllinə, ilk növbədə beynəlxalq siyasi və iqtisadi əlaqələrin qurulması və genişləndirilməsinə imkan verdi.

90-cı illərdə Azərbaycan dövlətinin xarici siyasətində sonralar enerji diplomatiyası kimi tanınan vacib bir istiqamət yarandı. Dünyanın iri şirkətləri ilə 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndən sonra yeni böyük həcmli neft ixracı planlarının reallaşdırılması ölkənin daxili həyatı və xarici siyasətinin yenidən qurulması və canlandırılması üçün açar rolunu oynadı. Bakı - Ceyhan neft, Bakı - Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda neft, qaz paylaşdırıcı və tranzit ölkəyə çevrilərək Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Enerji diplomatiyası Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi.

Dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran mürəkkəb məsələlərdən biri oldu. Bu məsələyə dair Xəzəryanı ölkələrlə danışıqlar aparıldı.

Avropa ilə Asiyanın qovuşağmda mühüm, həssas geosiyasi bir məntəqədə yerləşən Azərbaycan dövlətinin qonşu ölkələrlə - Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə münasibətlərinin qurulub inkişaf etdirilməsi xarici siyasətin prioritet istiqamətlərindən biri oldu. Həmin ölkələrlə münasibətlərdə başlıca məqsəd mehriban qonşuluq və qarşılıqlı faydaya əsaslanan ikitərəfli və çoxtərəfli əməkdaşlıq qurmaq idi. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: "...Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətdə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə, bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır. Bu baxımdan Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr, şübhəsiz ki, respublikanın əhalisi tərəfindən bəyənilir.

Qonşu İran İslam Respublikası ilə bizim münasibətlərimiz yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir”^.

Daha sonra Heydər Əliyev vurğulayırdı: “Rusiya çox böyük dövlətdir, bizim şimalda olan qonşumuzdur. Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovet İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə - Ukrayna, Belarus, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu, çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir”'*.

Tədqiq edilən dövrdə bəzi qonşu ölkələr ilə ikitərəfli münasibətlərdə müəyyən çətinliklər meydana çıxsa da, bütövlükdə, münasibətlərin mehriban qonşuluq və qarşılıqlı fayda əsasında qurularaq inkişaf etdirilməsi siyasəti yürüdüldü. Həmin ölkələrlə münasibətlərin müqavilə-hüquq bazası yaradıldı.

Azərbaycan dövlətinin xarici siyasətinin üstün istiqamətlərindən birini Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişafı təşkil etdi. Bu istiqamətdə xarici siyasətin başlıca məqsədi Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq, beynəlxalq mövqelərini möhkəmləndirmək, Ermənistanın təcavüzü nəticəsində yaradılmış münaqişəni həll etmək və Avropaya inteqrasiya idi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi: “...Azərbaycan Respublikası artıq ümumi dünya miqyasına çıxıbdır. Bütün Avropa ölkələri ilə bizim əlaqələrimiz genişlənməlidir. Xüsusən, İngiltərə, Fransa, Almaniya və başqa Avropa ölkələri ilə”^.

ABŞ ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi xarici siyasətin mühüm istiqamətlərindən biri oldu. Birləşmiş Ştatlar ilə münasibətlərdən bəhs edən Heydər Əliyev vurğulayırdı: “Azərbaycan Respublikasına Amerika Birləşmiş Ştatları tərəfindən son zamanlar müsbət münasibət-

**^ Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il.-Müstəqilliyimiz əbədidir. I kitab, s. 11.**

**Yenə orada.**

**^ Yenə orada, s. 22.**

lər hamımızı sevindirir və güman edirəm ki, bu münasibətlər daha da genişlənib inkişaf etdirilməlidir”®.

Bu niyyəti reallaşdırmaq üçün fəal xarici siyasət xətti həyata keçirildi. ABŞ ilə münasibətlərdə qarşılıqlı maraqlar dəqiqləşdirildi və müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan müvafiq sənədlər imzalandı. Azərbaycan ilə ABŞ arasında təhlükəsizlik sahəsində tərəfdaşlıq münasibətlərinin qurulması üçün səylər göstərildi.

Azərbaycanın xarici siyasətinin istiqamətlərindən biri Asiya və Afrika ölkələri ilə münasibətlər oldu. Bu baxımdan Çin və Yaponiya ilə müxtəlif sahələri əhatə edən geniş əməkdaşlıq xüsusi yer tutdu. Həmin ölkələrlə münasibətlərin müqavilə-hüquqi əsası yaradıldı.

Ərəb və digər müsəlman ölkələri ilə münasibətlərin qurulub inkişaf etdirilməsi üçün geniş fəaliyyətə başlandı. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: “ Bütün müsəlman ölkələri ilə, ərəb ölkələri ilə, türkdilli ölkələrlə bizim əlaqələrimiz daha da sürətlə inkişaf etməlidir”’. Həmin ölkələrlə əməkdaşlığı inkişaf etdirmək üçün bir çox ikitərəfli müqavilə, saziş və protokollar imzalandı. Onların Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllində Azərbaycana dəstək verməsi beynəlxalq təsir imkanı yaratdı.

Azərbaycan Respublikası yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdərək beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutmaq üçün səylər etdi. Xarici siyasətin əsas istiqamətlərindən biri kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq quruldu, onların işində fəal iştirak etmək siyasəti gerçəkləşdirildi. Azərbaycan Respublikası BMT, ATƏT, İslam Konfransı Təşkilatı (İKT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), 2001-ci ildən isə tam hüquqlu üzv olduğu Avropa Şurasının işində fəal iştirak etməyə başladı, bəzi təşkilatların - Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Gürcüstan, Ukrayna və Moldova ilə birlikdə GUAM-m qurulmasında iştirak etdi. Həmin təşkilatlarla əməkdaşlıqda başlıca məqsəd ölkənin beynəlxalq mövqelərini möhkəmləndirmək, müxtəlif sahələrdə, o cümlədən təhlükəsizlik, beynəlxalq siyasi əməkdaşlıq və iqtisadiyyat üzrə qarşılıqlı faydalı münasibətlər qurmaq idi.

NATO və Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətləri quruldu. Azərbaycan dövləti bu təşkilatların müxtəlif proqramlarında iştirak etməyə başladı.

**^ Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 11.**
**’’ Yenə orada.**

Araşdırılan illərdə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində iqtisadiyyat amili mühüm rol oynamışdır. Azərbaycan dövləti beynəlxalq maliyyə-bank qurumları və digər təşkilatlarla iqtisadiyyat, maliyyə, bank, nəqliyyat və b. sahələrdə əməkdaşlıq siyasətini gerçəkləşdirdi. Bu əməkdaşlıq ölkədə sosial-iqtisadi islahatların həyata keçirilməsinə kömək edən amillərdən biri oldu. Səmərəli beynəlxalq fəaliyyət ölkə daxilində gedən proseslərə də müsbət təsir göstərdi. Azərbaycanın dövlət müstəqilliyi və mövqeləri möhkəmləndi, dövlət quruculuğu, xalqın təhlükəsiz yaşayışını təmin etmək üçün əlverişli beynəlxalq şərait təmin edildi.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən problemlər indiyədək Azərbaycan tarixşünaslığmda kompleks tədqiqat obyekti olmamışdır. Onların araşdırılması, ümumiləşdirmələrin edilməsi və başlıca nəticələrin çıxarılması beynəlxalq siyasət, elmi-tarixi və diplomatik praktika baxımından faydalıdır.

Əsərin yazılmasında başlıca məqsəd Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi və SSRİ-nin dağılması ərəfəsində daxili və beynəlxalq şəraiti, Ermənistanın təcavüzünü aradan qaldırmaq üçün Azərbaycan diplomatiyasının səylərini, enerji diplomatiyasını, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində fəaliyyəti, qonşu dövlətlərlə münasibətlərin formalaşması və inkişafını, Avropa, Amerika, Asiya və Afrika ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsini, beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində Azərbaycan Respublikasının tutduğu yeri, onun xarici siyasətində iqtisadiyyat amilinin oynadığı rolu və beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzinə çevrilməsində xarici siyasət fəaliyyətini araşdırmaq, ümumiləşdirmələr aparmaqdır.

Məqsədə nail omaq üçün mötəbər mənbələr dərindən öyrənilmişdir. Əsər indiyədək tədqiqatçılar tərəfindən istifadə edilməyən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Arxivinin (ARXİNA) materialları və dolğun mənbə bazası əsasında yazılmışdır. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi (ARSSA), Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Arxivi (ARMTNA), Rusiya Federasiyası Sosial-Siyasi Tarix Arxivi (RFSSTA), Rusiya Federasiyası Ən Yeni Tarix Arxivi (RFƏYTA), Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Xarici Siyasət Arxivi (RFXİNXSA) və Gürcüstan Mərkəzi Ən Yeni Tarix Arxivinin (GMƏYTA) materiallarından geniş istifadə edilmişdir. ATƏT-in Çexiyada (Praqa) yerləşən arxiv və kitabxanasının, BMT-nin və Atom

Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Avstriyada (Vyana) yerləşən kitabxanasının, ABŞ Milli Arxiv və Hesabatlar İdarəsinin və Konqres kitabxanasının, Türkiyə Cümhuriyyəti Baş Nazirlik Cümhuriyyət Arxivinin, Türkiyə Böyük Millət Məclisi Arxivi və kitabxanasının. Türk Tarix Qurumu kitabxanasının və Böyük Britaniya arxiv materiallarından istifadə olunmuşdur.

Əsərin yazılmasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəşr etdiyi xarici siyasət sənədləri külliyyatı əhəmiyyətli rol oynamışdır*. Bu nəşrlərdə Azərbaycan diplomatiyasının fəaliyyətinin başlıca məqamlarının əks olunduğu sənədlər, o cümlədən imzalanan bəzi müqavilə, saziş və protokolların mətnləri verilmişdir.

Araşdırma zamanı xarici siyasətə dair mənbələrin də mövcud olduğu Azərbaycan Respublikası Milli Məclisinin sənəd və materiallarına müraciət edilmişdir. Həmin mənbələr xarici siyasət fəaliyyətinin araşdırılmasında faydalı olmuşdur.

Tədqiq edilən dövr üzrə ölkənin xarici siyasətinin prinsipial əsaslarını və ən mühüm məqamlarını əks etdirən məsələlər Ulu öndər Heydər Əliyevin əsər, nitq və müsahibələrində toplandığından onlardan geniş istifadə edilmişdir^.

Monoqrafiya yazılarkən Azərbaycan Respublikasının keçmiş prezidentləri Ayaz Mütəllibov"' və Əbülfəz Elçibəyin" əsərlərinə də müraciət olunmuşdur.

Enerji diplomatiyasına və xarici siyasətin prinsipial əsaslarına dair məsələlər tədqiq olunarkən Azərbaycan Respublikasının Prezidenti İlham

*** Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Bakı, 2010; 2001. II hissə. Bakı, 2010; 2002. I hissə. Bakı, 2010; 2002. II hissə. Bakı, 2010; 2003. I hissə. Bakı, 2010; 2003. II hissə. Bakı, 2010; Müqavilələr toplusu. I cild. Bakı, 1999; Azərbaycan-Rusiya: 1992-2002. Sənədlər toplusu. Bakı, 2002 və s.**

**® Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab. Bakı, 1997; V kitab Bakı, 1997; Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 1-42-ci kitablar. Bakı, 1997- 2012; Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-V cildlər. Bakı, 1996-1999.**

**MyxajiHÖOB A. Kapaöax - nepubiü caa. floKyMeHxajibHoe noBecTBOBauHe. M., 2001.**

**" Elçibəy Ə. Bu, mənim taleyimdir. Bakı, 1992; Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992.**

Əliyevin əsərlərindən istifadə edilmişdir'^. Bu əsərlər Azərbaycana dair böyük dövlətlərin xarici siyasətinin bəzi məqamlarını, xüsusən enerji sahəsində siyasətinin incəliklərini müəyyənləşdirir.

Əsərin yazılmasında BMT, ATƏT və digər beynəlxalq təşkilatların Azərbaycana dair qəbul etdiyi qərar, qətnamə və hesabatlarından geniş istifadə olunmuşdur. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ATƏT-in Praqa arxivində saxlanılan materiallar tarixşünaslığı- mızda ilk dəfə olaraq təhlil edilmiş və elmi dövriyyəyə gətirilmişdir.

Monoqrafiyanın yazılmasında dövri mətbuat materialları da mühüm rol oynamışdır. Azərbaycan ilə yanaşı olaraq ABŞ, Türkiyə, Rusiya və b. ölkələrdə dərc edilən bəzi qəzet və Jurnalların xarici siyasətə dair materialları təhlil edilmişdir.

Mövzu araşdırılarkən Azərbaycanın və xarici ölkələrin diplomat, tarixçi və siyasətçilərinin əsərlərinə müraciət edilmişdir. Qeyd etmək lazımdır ki, 1991-2003-cü illərdə beynəlxalq münasibətlər, xarici siyasət və diplomatiya tarixi problemlərinə dair Azərbaycan Respublikasında bir sıra elmi-tarixi araşdırmalar aparılmışdır.

Azərbaycan diplomatlarından Elmar Məmmədyarov'^, Həsən Həsənov'"', Hafiz Paşayev'^, Vəfa Quluzadə'^ Xələf Xələfov, Araz Əzimov, Vaqif Sadıqov, Mahmud Məmmədquliyev'^, Yaşar Əliyev'^ İlqar Məm-

**AJIMCB H. KacnuHCKaH HeıjiTb AsepöafiaÄaHa. M., 2003; Əliyev İ.H. İnkişaf məqsədimizdir. I kitab. Bakı, 2008; II kitab. Bakı, 2009.**

**Mammadyarov E. Towards Peace in the Nagorny Karabakh region of the Azerbaijan through reintegration and cooperation. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2005, Xal 3; floöpbie coceflu, uaaeÄHbie naprnepbi. K 15 itexHio ycxaHOBJte- HHH ÄHnjlOMaXHHeCKHX OXHOUICHHH MOKÄy AsepƏaHrUKaHCKOÜ PeCnyÖJIHKOH H PoccHMCKoti OeaepauHeü. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2007, Xa 17.**

**facanoB T. AsepSaitaxraH - Espona: ua nyxH к HHxerpauHH. Baxy, 2003; rİHCbMO B CoBex BesonacHocxH OOH. 1992-1993. Baxy, 2004.**

**Paşayev H. ABŞ-la əməkdaşlığımızın vacib tərkib hissəsi. - “Dirçəliş-XXI əsr” jurnalı, Bakı, 2003, avqust, Xa 66; Bir səfirin manifesti. Bakı, 2007; Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri. Bakı, 2008.**

**Quluzadə V. Gələcəyin üfüqləri. Bakı, 1999.**

**” Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.**

**Aliyev Y. The Nagorno Karabakh Question UN Reaffırms the Sovereignty and Territorial İntegrity of Azerbaijan - "Azerbaijan İntemational", Washington, 1998 (6,4), p. 52-53.**

mədov və Tofiq Musayev , Elman Araslı və b. əsərlərində Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətləri, məqsəd və vəzifələri təhlil olunmuşdur. Həmin əsərlərdəki fakt, material və mülahizələrdən monoqrafiya yazılarkən istifadə edilmişdir.

Azərbaycan dövlətinin xarici siyasət məsələlərinə dair Ramiz Mehdiyev''', Əli Həsənov'''', Novruz Məmmədov^^, Səməd Seyidov^''* və digər lərinin əsərlərinə müraciət olunmuşdur.

Azərbaycan tədqiqatçıları ölkənin xarici siyasət və diplomatiya tarixi məsələlərinə bir sıra əsərlər həsr etmişlər. Bu baxımdan M.Qasımlı^^, I.Musa''^, N.Cəfərsoy^', A.Aslanlı və I.Həsənov^^, H.Babaoğlu''[29], İ.Şükü-

---

**® MaMeflOB H., Mycaee T. ApMHHo-asepöafİÄÄaHCKHH KOHCJIJIHKT: HCTOPHH, npa-** Bo, **nocpeflHHHecTBO. Baxy, 2007; Musayev T. From territorial clams to bellgarent occupation legal appraisal. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, Jfs 18-19, s. 30-49.**

**Apacjibi 3. rioJiBeKa na BjiH>KHeM BOCTOKC (BocnoMiiHanuH annaoMaxa). Ba-Ky, 2012.**

**Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı, 2000; Azərbaycanın inkişaf dialektikası. Bakı, 2000; XXI əsrdə milli dövlətçilik. Bakı, 2003; Gələcəyin strategiyasını müəyyənləşdirərkən. Modernləşmə xətti. Bakı, 2008; HaropHbiH Kapaöax: Hcxopna, npoHHxaHHaa no ncxoHHHKaM. MOCKB3, 2014.**

**Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, 1997; Azərbaycan - ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı, 1997; facanoB A., A56ac5eHJTH A. AsepöairaÄaH B cncxeMe Me>K- flynapoÄHbix H perHonajTbHbix oxnouenuH. BaKy, 1999; Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000; Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005; Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011.**

**Mammadov N. Azerbaijan's relations with the Islamic world and the countries of Asia. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.**

**Seyidov S. Democracy, Human Rihgts and Foreign Policy: from Winston Churshill to Heydar Aliyev. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.**

**Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996; Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997; Rusyanın Azerbaycan politikası. - "Avrasiya dosyası" dergisi, Ankara, 2002, cilt 7, sayı 4.**

**Musa İ. Azərbaycanın xarici siyasəti. III hissə. Bakı, 2011.**

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 - Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001.**

rov[30], E.Əhmədov[31], H.Rəcəbli və V.İbayev[32], N.Əliyev[33], K.İmranlı[34], F.Zeynalov[35], K.Ruintən[36], K.Makili-Əliyev[37], Q.Novruzov[38], R.Novruzoğlu[39], R.Sevdimalıyev[40], O.Əfəndiyev[41], S.Əliyarov[42], İ.Hacıyev[43],

---

[28] Aslanlı A., Hasanov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası. Ankara, 2005; Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyyəti, həll prosesi. Bakı, 2009.

[29] Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009.

[30] Şükürov İ. Budapeşt sammiti. Bakı, 1995.

[31] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998.

[32] İbayev V. İslam Konfransı Təşkilatı. Bakı, 1998; Ermənistan – Azərbaycan münaqişəsi beynəlxalq hüququn JUS COGENS prinsipləri prizmasında. Bakı, 1999; Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999.

[33] Алиев Н. Нагорно-Карабахский конфликт: правовые аспекты урегулирования. – Журн. "Центральная Азия и Кавказ" (Швеция) , 2005, №6 3 (39); Вопросы международного права в Нагорно-Карабахском конфликте. Тбилиси, 2009; Агрессия Республики Армении против Азербайджанской Республики и ее правовые последствия (Сборник документов). Тбилиси, 2009.

[34] Imranly K. Armenia – Azerbaijan conflict: origins and consequences. – "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19.

[35] Zeynalov F. The Nagorno Karabakh conflict: towards a just peace or inevitable war. A historical, geopolitical and legal approach. Paris, 2012.

[36] Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı, 2008.

[37] Makili-Aliyev K. Enforcement of International Law in Nagorno Karabakh Conflict. Tbilisi, 2008.

[38] Novruzov Q. Müasir beynəlxalq hüquqda öz müqəddəratını təyinetmə hüququ: nəzəri və praktiki problemlər. Hüquq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.

[39] Новрузоглу Р. Карабах: "черный рынок" для международного терроризма. Баку, 2003.

[40] Севдималиев Р. Международный терроризм–глобальная проблема современности. Баку, 2004.

[41] Эфендиев О. Вооруженные конфликты и военные преступления на Центральном Кавказе. Международно-правовой аспект. Баку, 2006.

[42] Əliyarov S. Ermeni genişlenme siyaseti və Dağlık Karabağ. – "Türk dünyası araştırmaları" dergisi, İstanbul, 1989, sayı 60.

[43] Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, 2012.

X.Məmmədov və N.Məmmədov'".44 N.Nəsibli'*^, A.Yaqubova"*, P.Darabadi və N.Əliyev"^, R.Məmmədov"*, E.Nəsirov"^, E.Məmmədli*", E.Kərimov*', C.Arıxov*^, E.Seyidov*^, S.Ruintən*", A.Əzimli**, S.Eyyubova**, M.Məm-
mədov və E.İbadov*', N.Süleymanov**, E.Nəsibov*', P. Səfərov** və b. əsərləri diqqəti cəlb edir. Həmin əsərlərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində tutduğu yer, xarici siyasətinin əsas istiqamətləri, Ermənistanın hərbi təcavüzü. Dağlıq Qarabağ münaqişəsinin

**Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı, 2006.**

**Nəsibli N. Azərbaycanın geopolitikası və neft. Bakı, 2000.**

**Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir. Bakı, 2004.**

**Darabadi P., Əliyev N. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan (qədim dövrlərdən XX əsrin sonuna qədər). Bakı, 2001.**

**MaMCflOB P. MeiKayHapoaHO-npaBaBOH craryc KacnuHCKoro Mopa: Buepa, ceroflHS, saBxpa. Baxy, 2006; PascpaniiHenHe KaonnücKoro Mopa (MOKÄyuapofl-HO-npaBOBbie Bonpocbi). Baxy, 2006.**

**Nəsirov E. Azərbaycan - ABŞ münasibətləri (1991-1997-ci illər). Bakı, 1998. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər). Bakı, 2003.**

***' Kərimov E. Azərbaycan - İtaliya əlaqələri. Roma, 2009.**

**Arıxov C. Azərbaycan - Gürcüstan dostluq münasibətlərinin inkişaf dinamikası (1992-2003-cü illər). Bakı, 2008.**

**Seyidov E. Azərbaycan - Çin münasibətləri. Bakı, 2007.**

**Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, 2005.**

**** Əzimli A. Azərbaycan - NATO münasibətləri (1992-2000). Bakı, 2001.**

**** Eyyubova S. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2007-ci illər). Bakı, 2009.**

**Məmmədov M., İbadov E. Beynəlxalq iqtisadi təşkilatlar. Bakı, 2008; Məmmədov M. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərinin bəzi məsələləri (1992-2007-ci illərdə nəşr edilmiş elmi əsərlərin toplusu). Bakı, 2008.**

**** Süleymanov N. Kimyəvi silahların qadağan olunması təşkilatı və Azərbaycan Respublikasının təşkilatla əməkdaşlığı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2006, Xal4.**

**Nəsibov E. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı, 2006.**

**** Səfərov P. Azərbaycan Respublikası Rusiya - İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı, 2011.**

statusu, Avropa, Amerika, Asiya və Afrika ölkələri, həmçinin qonşu dövlətlərlə ikitərəfli əlaqələr, beynəlxalq təşkilatlarla əməkdaşlıq, xarici siyasətdə iqtisadiyyat amilinin rolu və s. məsələlər araşdırılmışdır.

Azərbaycan Respublikasının xarici siyasətinə dair araşdırmalar bir sıra xarici ölkələrdə də aparılmışdır. Bu baxımdan Türkiyə tədqiqatçılarının əsərləri əhəmiyyətlidir. Azərbaycanın Türkiyə ilə əlaqələrinin qurulması və inkişafı prosesini araşdırarkən türk diplomatı, professor B.Şimşirin əsəri faydalı olmuşdur^'. Kitabda 80-ci illərin sonları-90-cı illərin əvvəllərində Azərbaycanda baş verən proseslərə Türkiyənin baxışı və ölkəmizin dövlət müstəqilliyinin tanınması ilə bağlı məsələlər şərh, 1991-1994-cü illərdə iki ölkə arasında imzalanan sənədlər və əməkdaşlığın başlıca istiqamətləri təhlil edilmişdir.

Türkiyə tədqiqatçılarından S.Oğan, H.Kanpolat T.Atmaca' ,[63] C.Oğuz®'*, D.Yıldırım və C.Özender[65], C.Taşkıran[66], M.Budak[67] və K.Kasımın®* əsərlərindən də istifadə olunmuşdur. Həmin əsərlərdə Azərbaycanın xarici siyasəti, Türkiyə ilə ikitərəfli əməkdaşlığın formaları, onların həyata keçirilmə mexanizmləri, Ermənistanın təcavüzünün başlanması, gedişi və nəticələri araşdırılmışdır.

---

**Bilal N. Şimşir. Azerbaycan. Azerbaycanın yeniden doğuşu sürecinde Türkiye-Azerbaycan ilişkileri. Ankara, 2011.**

**Sinan Oğan. Azerbaycanın Türkiye ile iktisadi münasebetleri ve gelecegi. - “Türk yurdu” dergisi, İstanbul, 1992, Eylül, İNb 12(61); Sinan Oğan, Hasan Kanpolat. Kafkasya terazisinde yeni dengeler: Putinin Azerbaycan ziyareti. - “Stratejik Analiz” dergisi, Ankara, 2001, Şubat, çilt 2, sayı 2.**

**Tayfun Atmaca. Azerbaycan - Türkiye münasebetleri ve petrol. - “Türk dünyası tarih dergisi”, İstanbul, 1996, Eylül, ffs 117; Yirminci yüzyılm sonunda Azerbaycan ve Türkiye münasebetleri (1993-1999). Ankara, 1999.**

**Cem Oğuz. Azərbaycan beynəlxalq fokusda. -“Azerbaijan Focus”, Bakı, 2009,** Mı 1 (1).

**Dursun Yıldınm, Cihat Özender. Karabağ dosyası. Ankara, 1991.**

**Cemalettin Taşkıran. Geçmişden günümüze Karabağ meselesi. Ankara, 1995.**

**Mustafa Budak. Azerbaycan - Ermenistan ilişkilerinde Dağlık Karabağ meselesi ve Türkiyenin politikası. - “Kafkas araştırmaları” dergisi, İstanbul, 1996, Kb 2.**

**Kamer Kasım. The Nagorno Karabakh conflict from its inception to the Peace Process. - Armenian Studies, Ankara, 2001, June-July-August, İNb 2; Azerbay- can’m dış politikası. Emine Gürsoy-Naskali ve Erdal Şahin (Der.). Bağım- sızlıklarının 10 Yılında Türk Cumhuriyetleri, Haarlam, Hollanda; SOTA, 2001; Soğuk savaş sonrası Kafkasya. Azerbaycan, Ermenistan, Gürcistan, Türkiye, Rusya, İran ve ABD'nin Kafkasya politikaları. Ankara, 2009.**

Monoqrafiya yazılarkən Türkiyənin digər tədqiqatçı və diplomatla rının da əsərlərinə diqqət yetirilmişdir. R.Özey A.Ateş™, B.Oran”, O.Oymenin’^ əsərlərində, H. Çakmakın^^ redaktorluğu altında nəşr edilmiş topluda Azərbaycana dair məsələlərə toxunulduğu üçün onlardan da istifadə olunmuşdur.

Azərbaycan dövlətinin xarici siyasət məsələləri ABŞ-m diplomat, siyasətçi, tarixçi və siyasətşünaslarınm əsərlərində işıqlandırılmışdır. Bu baxımdan J.J.Mereska’'*, R.O.Freedman^^, T.Svyatoxovski^*', H.Kis-sincer^’, P.GobP^ Z.Bjezinski’^, R.Finn“'-80, Z.Baran“', F.Starr' .82 A.Altstadt*8 və b. əsərləri diqqəti cəlb edir. Onların araşdırmalarında daha

---

**^^Ramazan Özey. Jeopolitik ve jeostratejik açıdan Türkiye. İstanbul, 1998.**

**™ Atilla Ateş. Dünya meselelerinin kesişme noktasında Türkiye’nin stratejik konumu. İstanbul, 1995.**

**” Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Cilt 11.1980-2001. Editör: Baskın Oran. İstanbul, 2001.**

**Onur Öymen. Türkiyenin gücü. 21.Yüzyılda Türkiye, Avrupa ve dünya. İstanbul, 2003.**

**Türk dış politikası. 1919-2008. Editör: Prof. Dr. Haydar Çakmak. Ankara, 2008. John J. Mereska. A Peace Pipeline to end the Nagorno Karabakh Conflict. - “Caspian Crossroads”, Washington, 1995, FTsl.**

**Robert O. Freedman. Russia and Azerbaijan. Are relations beginning to İmprove. - “Caspian Crossroads”, Washington, U.S. Washington, 1997, JV2I2.**

**Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bögə keçid dövründə. Bakı, 2000.**

**KnccHHaiKep F. Hy>KHa** *nn* **AMepnxe BHeuiHHa nojınxHKa? Flep. c aurjı. Floa pea. B.JI.HHOseMuesa. M., 2002.**

**Paul Goble. Georgia’s Azerbaijanis: problems and possibilities. - Azerbaijan in the World. Vol.l. Baku, 2008.**

B>Ke3HHCKHH 3. BbiGop. FjıoöanbUbie rocnoacxBo HJIH raoSanbHoe JiHflepcxBo. riep. C. aurjı. M., 2005; BejiHKaa maxMaxnaa aocna. FocnoacxBO AMepıiKH u ero reocxpaxexHHecKHe uMnepaxHBbi. M., 1999; İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı. Bakı, 2009.

**Finn R. Diplomatic beginning in Baku. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.**

**Baran Z. Azərbaycan - gələcəyi dərk edərək . - “Azerbaijan Focus”, Bakı, 2009,** ***Nol*** **(1).**

**Starr F. Emerging directions of Azerbaijan’s Foreign Policy. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.**

**Altstadt A. Nagorno Karabagh - “Apple of Discord” in the Azerbaijan SSR. - “Central Asian Survey”. Vol. Vll, Jfad, 1988.**

çox Azərbaycanın enerji diplomatiyası, regionda qonşu və böyük dövlətlərin maraqları ilə bağlı məsələlər önə çəkilərək təhlil edilmişdir.

Böyük Britaniyada da Azərbaycan dövlətinin xarici siyasət məsələlərinin tədqiqinə maraq yaranmışdır. J.Roberts,[84] M.P.Crossant[85], T. De Vall[86], T.Adams[87] və b. əsərlərində regionda baş verən proseslərə, böyük dövlətlərin və qonşu ölkələrin maraqlarına, Azərbaycanın enerji diplomatiyasına, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün edilən diplomatik-siyasi fəaliyyətə diqqət yetirmişlər. Monoqrafiyanın yazılmasında həmin əsərlərdəki fakt, material və mülahizələr əhəmiyyətli olmuşdur.

Azərbaycan Respublikasının xarici siyasət məsələlərinə Rusiya tədqiqatçıları və diplomatları bir neçə əsər həsr etmişlər. İ.Babanov və K.Voevodski[88], S.Çernyayevski[89], Y.Kojokin[90], Y.Pompeev[91], V.Kazimirov[92], A.Butayev[93], E.Şaripov[94], Y.Fyodorov[95], V.İnozemtsev[96], E.Çernya-

---

[84] Roberts J. Caspian Pipelines. London, The Royal Institute of International Affairs, 1996.

[85] Michael P. Crossant. The Armenian – Azerbaijan Conflict, causes and implications, London Praeger, 1998.

[86] Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan trough Peace and War. New York and London, New York University Press, 2003.

[87] Terry D. Adams. Baku Oil diplomacy and "Early oil" 1994-1998: an external perspective. – Azerbaijan in Global Politics: Crafting Foreign Policy. Baku, 2009.

[88] Бабанов И., Воеводский К. Карабахский кризис. Спб., 1992.

[89] Черняевский С. Внешняя политика Азербайджанской Республики (1991-2005). – Страны СНГ в системе международных отношений (Сборник статей). М., 2008.

[90] Kojokin Y. Rusiya və Azərbaycan: əməkdaşlıq və qarşılıqlı əlaqələrin perspektivləri. – "Azerbaijan Focus", Bakı, 2009, № 1(1).

[91] Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992.

[92] Казимиров В. Мир Карабаху. Посредничество России в урегулировании нагорно-карабахского конфликта. М., 2009.

[93] Бутаев А. Каспий: зачем он Западу? М., 2004.

[94] Шарипов Е. Проблемы международной эксплуатации ресурсов Каспийского моря и внешние связи Казахстана и Туркменистана. – Центральная Азия в системе международных отношений. Сборник научных статей. М., 2004.

[95] Федоров Ю. Каспийская нефть и международная безопасность. Выпуск 1. Аналитический доклад по материалам международной конференции. М., 1996.

[96] İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? – "Azerbaijan Focus", Bakı, 2009, №1(1).

vski[97], V.Mamyaş[98], Y.Qodin[99], Q.Kertman[100], İ.Paşkovskaya[101] və b. əsərləri regionda baş verən proseslərdə ayrı-ayrı dövlətlərin maraqlarını və məqsədlərini reallaşdırmaq naminə istifadə etdikləri metodları öyrənmək baxımından əhəmiyyətlidir.

Gürcüstan tədqiqatçıları da regionda gedən hadisə və proseslərə həsr edilmiş əsərlər yazmışlar. Q.Xuçişvili[102] və V.Papavanın[103] əsərlərində regiondakı hadisələr və Dağlıq Qarabağ münaqişəsində ayrı-ayrı dövlətlərin maraqları araşdırılmışdır.

Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycan və Ermənistan tədqiqatçılarından A.Əliyev, R.Musabəyov, S.Qriqoryan və B.Navasardyanın Almaniyanın "Fridrix Ebert fondu"nun vasitəçiliyi və dəstəyi ilə məqalələr toplusu nəşr edilmişdir. Müəlliflər Dağlıq Qarabağ münaqişəsinə müxtəlif yöndən, qarşılıqlı anlaşma və münaqişənin tənzimlənməsi üçün mümkün olan ortaq məqamları axtarmaq nöqteyi-nəzərindən yanaşmışlar. Onların fikrincə, Azərbaycan ilə Ermənistan arasında əməli dialoq üçün imkanlar açmaq olar[104].

Ermənistan tədqiqatçıları Q.Qaloyan[105], Q.Avakyan[106], V.Arutunyan[107], P.Seyranyan[108], A.Manasyan[109], A.Areşev[110], Q.Libaridyan[111],

---

[97] Чернявский Е. Каспийские антиномии. – Журн. "Политические исследования", М., 2006, №6.

[98] Мамящ В. Россия и США в Каспийском регионе – XXI век: проблемы и перспективы. Политический анализ. М., 2001.

[99] Годин Ю. Россия и СНГ: этнополитические вызовы. – Журн. "Мировая экономика и международные отношения", М., 2009, №4.

[100] Кертман Г. СНГ: между прошлым и настоящим. – Журн. "Политическое исследования", М., 2005, №6.

[101] Пашковская И. Деятельность Евросоюза на Южном Кавказе. – Журн. "Мировая экономика и международные отношения", М., 2009, № 9.

[102] Хуцишвили Г. Карабахская проблема: взгляд из Грузии. – От Майендорфа до Астаны: принципиальные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта (под ред. Г.М.Алексеева, доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова). М., 2010.

[103] Papava V. "Qafqaz tandemi"nin yaradılması və inkişafı. – "Azerbaijan Focus", Bakı, 2009, № 1(1).

[104] Алиев А., Григорян С., Мусабеков Р., Навасардян Б. Карабахский конфликт: понять друг друга. Ереван, 2006.

[105] Галоян Г.А. и др. Нагорный Карабах: историческая справка. Ереван, 1988.

[106] Авакян Г. Нагорный Карабах: ответ фалсификаторам. Ереван, 1991.

S. Qriqoryan[112], N. Melkumyan[113] və b. öz əsərlərində Azərbaycan dövlətinin xarici siyasətinə, xüsusən Dağlıq Qarabağ münaqişəsinə dair məsələlərə diqqət yetirmişlər. Lakin onlar Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə haqq qazandırmaq üçün tarixi gerçəklikləri kobudcasına saxtalaşdırır və məsələləri sırf Ermənistanın maraqları baxımından əsaslandırmağa çalışırlar.

Tarixi həqiqətlərin saxtalaşdırılması baxımından erməni müəlliflərinin Moskvada 2009-cu ildə nəşr edilmiş külliyatdakı məqalələri də diqqəti cəlb edir[114]. Gerçək tarix bundan ibarətdir ki, ermənilər Dağlıq Qarabağ regionuna və bütövlükdə Cənubi Qafqaza çarizm tərəfindən Azərbaycan bölüşdürüldükdən sonra köçürülmüşlər, Cənubi Qafqazda erməni dövləti olmamış, ilk dəfə 1918-ci ildə azərbaycanlılara məxsus torpaqlarda yaradılmışdır. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərə diqqət yetirən müəlliflər hər vəchlə sübut etmək istəyirlər ki, əgər Rusiya Azərbaycanın məntiqinə uyğun hərəkət edərsə, guya o zaman sonuncu erməni regiondan çıxarılacaq və əvvəlcə Cənubi, sonra isə Şimali Qafqazda Rusiyanın mövcudluğuna son qoyulacaqdır. Erməni tarixçilərinin əsərləri gerçək tarixi saxtalaşdırdığı və yanlış tarixi bilik formalaşdırdığı üçün tarixi tədqiqatların metodoloji tələblərinə cavab vermir.

Bununla belə, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin köklərini doğru şərh edən erməni müəllifləri də vardır. Dağlıq Qarabağda baş verən prosesləri müşahidə və dərindən təhlil

---

[107] Арутунян В.Б. События в Нагорном Карабахе: хроника. Ереван, 1993.

[108] Сейранян П.А. Карабах и Россия: страницы истории. М.,1997.

[109] Манасян А.С. Карабахский конфликт: ракурсы правового подхода. Ереван, 1998.

[110] Арешев А.Г. Нагорный Карабах в региональной и мировой политике. Сб. статей. М., 2006.

[111] Libaridian G. La construction de l"Etat en Armenia: un enjeu Caucasien. Paris, Karthala, 2000;

[112] Григорян С. Карабахский конфликт как "точка пересечения" регионалъных и глобалъных игроков. – От Майендорфа до Астаны: принципиальные аспекты армяно-азербайджанского нагорно-карабахского конфликта (под ред. Г.М.Алексеева, доктор исторических наук, профессор МГУ им. М.В.Ломоносова). М., 2010.

[113] Мелкумян Н. Нагорный Карабах: в поисках устойчивого мира. – "Централъная Азия и Кавказ", Лулеа, Швеция, 1999, № 3.

[114] Майендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха (Сборник статей). М., 2009.

edən R.Arakelov belə qənaətə gəlir ki, münaqişə Ermənistanın iddiaları və millətçi separatçı qüvvələrin fəaliyyəti nəticəsində yaranmışdır və onlar faciənin günahkarlarıdır"^.

Monoqrafiya yazılarkən digər ölkələrin tədqiqatçılarının da əsərlərinə müraciət edilmişdir. B.Şaffer"^ S.E.Komel'", N. Kirilova Milano- va"^ P.Kvyatkeviç"^, M.Lambusta'^°, T.Potier'^' və T.Çaladzenin'^^ Cənubi Qafqazda baş verən proseslərə, Dağlıq Qarabağ münaqişəsi və onun tənzimlənməsində ATƏT-in roluna və Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırıma həsr olunmuş əsərlərindən istifadə edilmişdir.

Məlum olduğu kimi, müasir xarici siyasət və diplomatiya proseslərindən yazarkən dərin təhlil və elmi ümumiləşdirmə aparmaq çətinlik təşkil etdiyindən tədqiqatçıdan baş verən hadisələrə daha obyektiv yanaşma, ehtiyatlı şərh tələb olunur. Ona görə də monoqrafiya yazılarkən tarixi tədqiqatlarda qəbul olunmuş şifahi tarix metodunun köməyindən də istifadə edilmiş, Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində iştirak etmiş bəzi diplomatlarla görüşülmüş, onların bu və ya digər məsələlərə dair fikirləri, baş vermiş hadisələrin pərdəarxası tərəfləri imkan daxilində öyrənilmişdir.

**ApaKeaoB P. HaropHbiü Kapaöax:** BHHOBHHKH **TparejiHH HSBecTHbi. Baxy, 1991.**

**Brenda Şaffer. Borders and Breathren. iran and Challence of Azerbaijani Identity. Cambridge, 2002; Iran's Internal Azerbaijani Challenge: İmplications for Policy in the Caucasus. - The Caspian Regiona A Re-Emerging Region. London, 2004.**

**Svente E.Cornell. Turkey and the conflict in Nagomo Karabakh: A delicate balance. -"Middle East Studies", 1999, January, Xs 1, vol. 34.**

**Nadia Kirilova Milanova. The conflict over Nagorno Karabakh. 1992-2002: Ten years of missed conflict resolution opportunities. 2 volumes. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November, 2002.**

**KBBTKeBHH** fl. **Hs** BOHHbi **H xaoca AsepöafifliKaH: poiKaeHHe** pecnyöJiHKH. **Topyn, 2009.**

**Lambusta M. Nagorno Karabakh: Una questione irrisolta. La Mediazone dell OSCE nel Conflitto tra Armenia ed Azerbaijan. Tesi di Laurea in Relazioni İnternazionali, Universita Degli Studi Di Firenze, Anno Academico, 2004-2005.**

**Potier T. Conflict in Nagorno Karabakh, Abkhazia and South Ossetia. A Legal Appraisal. Cambridre, Kluwer Law International, 2001.**

**Tajıanse T. KapaöaxcKHH renouHÄ: oöpeneHHbm Xoflxrajibi. floKyMeHxajibHaa xpoHHKa. Baxy, 2009.**

Xarici siyasət fəaliyyətinin bütün tərəflərini incəlikləri ilə bir əsərdə araşdırmaq imkan xaricində olduğundan müəllif, əsasən tədqiq olunan dövrdə dünyada baş vermiş ümumi proseslərin mahiyyətini göstərməyə, tərəflərin baxışlarım təqdim, onları obyektiv təhlil etməyə və qiymətləndirməyə, Azərbaycan Respublikasının bu proseslərdəki yeri və rolunu, diplomatiyasının fəaliyyətini araşdırmağa və nəticələr çıxarmağa çalışmışdır. Ona görə də əsərdə 1991-2003-cü illərdə Azərbaycan Respublikasının xarici siyasətinin formalaşması və əsas istiqamətləri, inkişafının başlıca meylilləri, ikitərəfli və çoxtərəfli diplomatiyasının ən qabarıq səhifələri işıqlandırılmışdır.

Əsərin əsas müddəalarından araşdırılan illər üzrə beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasət məsələlərinə dair gələcək tədqiqatlarda, diplomat və siyasətçilərin fəaliyyətində, ali məktəblərdə tədris prosesində istifadə edilə bilər. Onun yeni-yeni tədqiqat işlərinin aparılmasına yol açacağına, elmi-nəzəri və tarixşünaslıq bazası rolunu oynayacağına, xarici ölkələrin Azərbaycan üzrə mütəxəssisləri, diplomat və tədqiqatçıları üçün faydalı olacağına inanırıq.

Monoqrafiyanın yazılmasında yaratdıqları əlverişli şəraitə və verdikləri dəyərli tövsiyələrə görə Xarici İşlər Nazirliyinin rəhbərliyinə, redaksiya şurasının üzvlərinə, çalışdığımız arxiv və kitabxanaların bütün əməkdaşlarına təşəkkürümüzü bildiririk.

# I FƏSIL

# XX ƏSRİN 80-ci İLLƏRİNİN SONU - 90-cı İLLƏRİNİN ƏVVƏLLƏRİNDƏ SSRİ-nin DAXİLİ VƏ BEYNƏLXALQ VƏZİYYƏTİ

## Beynəlxalq şəraitin ümumi mənzərəsi

XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərində SSRİ-nin daxili və beynəlxalq vəziyyəti mürəkkəb, ağır olaraq qalırdı. Bunun da bir sıra səbəbləri var idi. Hələ 70-ci illərin sonlarında SSRİ-nin dünyada ümumi qəbul olunmuş beynəlxalq hüquq normalarını kobudcasına pozaraq Əfqanıstana hərbi müdaxiləsi nəticəsində beynəlxalq münasibətlərdə gərginlik artmış, iki əks sosial-iqtisadi sistemli ölkələr arasında soyuq müharibənin yeni bir dövrü başlamışdı. Avropa qitəsində gərginliyin zəiflədilməsinə tərəfdar olaraq müvafiq sənədləri imzalayan SSRİ rəhbəri Leonid Brej- nev'^^ dünyanın digər regionlarında tamamilə fərqli siyasət yürüdürdü. Sovet rəhbərliyi zəngin təbii sərvətləri olan, əlverişli hərbi-siyasi, strateji mövqedə yerləşən Fars körfəzinə və Hind okeanına, isti dənizlərə çıxmaq üçün bütün mümkün vasitələrdən istifadə edirdi.

Əfqanıstanın işğal edilməsində çoxlu məqsədlər var idi. Bu ölkədə nüfuz qazanmaq Sovet İttifaqının Çin, Hindistan və Pakistana təsir etmək imkanlarını artırırdı. Əfqanıstanın zəngin təbii sərvətlərinə yiyələnmək SSRİ-nin əsas hədəflərindən biri idi.

SSRİ-nin Əfqanıstana təcavüzünün ağır beynəlxalq nəticələri oldu. Bundan sonra beynəlxalq gərginliyin zəiflədilməsi prosesinə olan inam azaldı və dövlətlər arasında etimadsızlıq artdı. Heç şübhəsiz, etimadsızhğı artıran təkcə Əfqanıstana qarşı təcavüz deyildi. Bundan əvvəl, 1978-1979-cu illər İran inqilabının nəticələri və bu ölkədə nüfuz qazanmaq uğrunda gedən mübarizə də ona təsir etmişdi. İrandan ABŞ-m qovulması və Əfqanıstana sovet hərbi müdaxiləsi Birləşmiş Ştatların nüfuzuna ciddi zərbə vurmuşdu.

**Leonid Brejnev (1906-1982) - sovet dövlət və partiya xadimi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi (1964-1982). SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (1977-**  **982**).

Hərbi müdaxilədən SSRİ-yə də ziyan dəydi. Sovet dövlətinin beynəlxalq aləmdə güc nümayiş etdirməsi ilə ölkə daxilindəki mövcud vəziyyəti arasında böyük fərq yaranmışdı. Əhalisinin müəyyən bir hissəsinin çətin sosial-iqtisadi şəraitdə yaşamasına baxmayaraq, SSRİ rəhbərliyi güclü təbliğat apararaq xalqı "Qərb təhlükəsi" ilə qorxudub ümumi düşmənə qarşı mübarizəyə yönəldir, hərbi-texniki baxımdan həmin ölkələrə çatmaq üçün baha başa gələn sürətlə silahlanma proqramlarını davam etdirirdi. Belə proqramların həyata keçirilməsi sovet xalqını müflis edərək vəziyyətini daha da ağırlaşdırırdı.

ABŞ başda olmaqla Qərb dövlətləri SSRİ-nin beynəlxalq hüquqa zidd hərəkətlərinin qarşısını almaq üçün fəaliyyətlərini qətiyyən dayandırmadılar. Ona qarşı təzyiqlərini daha da artırdılar. ABŞ və müttəfiqləri əfqan mücahidlərinə yardımlar göstərirlər. Onları silahla təmin etdilər. Bununla yanaşı, BMT kürsüsündən sovet dövlətinə qarşı diplomatik-siyasi təzyiqlərə başladılar. SSRİ-yə qarşı sanksiyalar'tətbiq etdilər. 1980-ci il Moskva yay olimpiadasını boykot etdilər. SSRİ-nin artan təcavüzkarlıq siyasəti qarşısında ABŞ Prezidenti Ronald Reyqan'^'* onun üzərində tam hərbi üstünlüyə nail olmaq planını imzaladı. ABŞ digər tədbirləri də həyata keçirdi. ABŞ senatının xarici əlaqələr komitəsi iki ölkə arasında strateji hücum silahlarının məhdudlaşdırılması haqqında ikinci müqaviləni senatın təsdiqinə vermədi. ABŞ hökuməti nüvə silahları sınaqlarının tamamilə dayandırılmasına, kütləvi silahların ləğvinə və Hind okeanında silahlı qüvvələrin azaldılmasına dair SSRİ ilə aparılan danışıqlardan imtina etdi.

Belə bir şəraitdə böyük dövlətlər arasında sürətlə silahlanma yarışı yenidən gücləndi. Bu isə beynəlxalq gərginliyi daha da artırırdı. Lakin SSRİ-nin sürətlə silahlanma üçün kifayət qədər iqtisadi-maliyyə potensialı yox idi. Sovet iqtisadiyyatı Qərb ölkələrinkindən geri qalırdı. Rəqabətə tab gətirməkdə çətinlik çəkən SSRİ rəhbərliyi yeni sualtı qayıqlar hazırla- mamağa və Avropada yeni nüvə raketləri yerləşdirməməyə, həm Avropada, həm də Uzaq Şərqdə etimad tədbirlərinə dair danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Bütün bunlar sovet rəhbərliyinin Qərb ilə silahlanma yarışında fasilə götürməsi, "nəfəs alması" üçün bir manevri idi. Tərksilah sahəsində fəaliyyətdə irəliləyiş nəzərə çarpmırdı. Avropada yerləşdirilmiş ABŞ və SSRİ-nin nüvə silahları qitədə təhlükəsizlik üçün böyük qorxu törədirdi.

[124] **Ronald Reyqan (1911-2004) - ABŞ-ın 40-cı prezidenti (1981-1989).**

SSRİ - ABŞ münasibətləri 1985-ci ilin yazınadək donmuş halda idi. İki ölkə arasında münasibətlərin belə vəziyyəti bütün beynəlxalq münasibətlər sisteminə mənfi təsir edirdi. Artıq qeyd edildiyi kimi, raket- nüvə silahları sahəsində aparılan danışıqlar dayandırılmış, Avropada orta mənzilli raketlərin yerləşdirilməsi məsələsində SSRİ-ABŞ qarşıdurması kəskinləşmişdi. İki dövlət arasında üçüncü dünya ölkələrində nüfuz qazanmaq uğrunda mübarizə artmışdı. Ronald Reyqan SSRİ-ni şər imperiyası adlandıraraq ona qarşı "səlib yürüşü" elan etmişdi.

Lakin 80-ci illərin ikinci yarısından etibarən beynəlxalq münasibətlərdə dərin dəyişikliklər baş verdi. Buna ilk növbədə SSRİ-nin daxilində gedən proseslər ciddi təsir etdi. Sovet rəhbəri Konstantin Çemenkonun'^^ vəfatından dərhal sonra, 1985-ci il martın 11-də Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasında SSRİ xarici işlər naziri. Siyasi Büronun üzvü Andrey Qromıkonun'^^ təklifi ilə Mixail Qor- baçov'^^ MK-nm baş katibi seçildi'"*.

ABŞ ilə münasibətləri yaxşılaşdırmaq qərarına gələn M.S.Qorbaçov bunun üçün imkanlar axtarmağa başladı. O, 1985-ci il martın 25-də Ronald Reyqana məktubla müraciət edərək iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması, yarış və qarşılıqlı hörmət əsasında ümumi maraqlar naminə hər iki dövlətin məsuliyyət daşıması və etimad mühitinin yaradılması zəruriliyini vurğuladı'^^.

R.Reyqan aprelin 4-də M.Qorbaçova yazdığı cavab məktubunda ölkəsinin ümumi məqsədlər naminə nüvə silahını ləğv etmək, münasibətləri yaxşılaşdırmaq, humanitar və regional məsələləri həll etmək üçün əməkdaşlığa hazır olduğunu bildirdi. Lakin birmənalı olaraq SSRİ - ABŞ münasibətlərində ən ağır məsələnin Əfqanıstan olduğunu vurğuladı'^". O, iki

**^ Konstantin Çernenko (1911-1985) - Sov. İKP MK-nın baş katibi (1984-1985). SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (aprel, 1984-1985).**

**Andrey Qromıko (1909-1989) - sovet diplomatı. SSRİ xarici işlər naziri (1957-1985). 1983-cü ildən eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (1985-1988).**

**™ Mixail Qorbaçov (1931) - Sov.İKP MK-nın baş katibi (1985-1990). SSRİ-nin ilk və son prezidenti (1990-1991).**

SaceaauHe HojiHTÖıopo **IfK KHCC.** 11 Niapra 1985 roaa. **O** renepajibHOM CCK- pexape **U,K KHCC.** CoBepuıeHHO ceKperHO. - **PfAHH,** (J). 89, on.36, a.l6, jı.1-14.

**Gorbachev letter to Reagan. March 24, 1985. - The National Security Archive ofthe USA. Doc. 1. The Goerge Washington University in Washington.**

**Reagan letter to Gorbachev. April 4, 1985. - The National Security Archive of the USA. Doc. 1. The Goerge Washington University in Washington.**

ölkə arasında münasibətləri yaxşılaşdırmağın başlıca şərti kimi Əfqanıstandan sovet qoşunlarının çıxarılmasını irəli sürdü.

M.Qorbaçov ölkənin daxili və xarici siyasətində əvvəlki illərdən kifayət qədər fərqli xətti yürüdəcəyini elan etdi. Bu istiqamətdə ilk addımlar atıldı. 1985-ci il iyulun 1-də keçirilən Sov.İKP MK plenumunda xarici işlər naziri vəzifəsindən azad edilən və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə seçilən A.Qromıkonun əvəzinə heç bir zaman bilavasitə xarici siyasət məsələləri ilə məşğul olmayan, Gürcüstan KP MK-nın birinci katibi Eduard Şevardnadze'^' təyin edildi. Yeni şəraitdə SSRİ Xarici İşlər Nazirliyinin əsas vəzifələri M.Qorbaçovun iştirakı ilə keçirilən nazirliyin məsul əməkdaşları, xarici ölkələrdəki səfirləri və nümayəndələrinin müşavirəsində müəyyənləşdirildi. Müşavirədə çıxış edən M.Qorbaçov beynəlxalq aləmdə baş verən hadisə və proseslərə yalnız sırf maraqlar baxımından yanaşmağın lazım olmadığını bildirdi. O, hər bir ölkənin maraqları olduğunu deyərək əməkdaşlıq etməyin və güzəştə getməyin vacibliyini vurğuladı. Bundan sonra SSRİ Xarici İşlər Nazirliyinin fəaliyyətində mühafizəkarlıqdan imtina edildi. Müşavirədə silahların məhdudlaşdırılması və azaldılması, strateji sabitliyin möhkəmləndirilməsi, ümumavropa proseslərinin davam və inkişaf etdirilməsi, regional münaqişələrin tənzimlənməsi və bir sıra dövlətlər ilə ikitərəfli münasibətlərin genişləndirilməsi sovet xarici siyasətinin əsas istiqamətləri kimi müəyyənləşdirildi.

Ölkənin xarici siyasət konsepsiyası dəyişdirildi'^^. SSRİ-nin xarici siyasət fəaliyyətində beynəlxalq münasibətlərdə ziddiyyətli, lakin qarşılıqlı asılı, mahiyyətcə bütöv dünya konsepsiyası irəli sürüldü. Konsepsiyada qeyd edilirdi ki, nüvə müharibəsi siyasi, iqtisadi və ideoloji məqsədlərə çatmaq üçün vasitə ola bilməz, böyük hərbi münaqişələri ləğv etmək lazımdır. İki sistem ölkələri arasında güc tarazlığı deyil, maraqların tarazlığı prinsipi irəli sürüldü'^^. Təhlükəsizlik hamı üçün bərabər elan edildi. Xarici siyasət sahəsində yeni siyasi təfəkkür bəyan olundu. Onun da əsasını ümumbəşəri

**Eduard Şevardnadze (1928) - sovet və gürcü siyasi, dövlət xadimi. Gürcüstan KP MK-nm birinci katibi (1972-1985). SSRİ xarici işlər naziri (1985-1990). SSRİ xarici əlaqələr naziri (1991). Gürcüstan Prezidenti (1995-2003).**

**OnepKH HCTopHH MuHHCTepcTBa HuocTpaHHbix )],ejı PoccHH. T.II. 1917-2002. M., 2002, C. 440.**

**Yenə orada, s. 437.**

ropöaneB **M.C.** riepecrpoHKa H HOBOB MbiumeHne ÄJIH Hauıeü cxpaHbi H *asm* Bcero Mupa. **M., 1987, c. 137-149.**

Lakin Qərb ölkələrində yeni sovet rəhbərliyinə və onun yürütdüyü siyasətə birmənalı münasibət mövcud deyildi. Bu baxımdan ABŞ Prezidenti Riçard Niksonun'^^ xatirələri diqqəti cəlb edir. O yazırdı ki, Fransa Prezidenti Fransua Mitteranın'^® fikrincə, Qərb M.Qorbaçovun hakimiyyətdə qalmasında maraqlı idi. İslahatları yalnız uğurlu olacağı təqdirdə M.Qorbaçov hakimiyyətdə qala bilərdi. R.Niksonun fikrincə, buradan belə bir nəticə çıxırdı ki. Qərb ölkələri M.Qorbaçova yardım etməli idi. Lakin R.Nikson F.Mitteranm bu mövqeyi ilə razılaşmırdı. O, Qərbin M.Qorbaçov qarşısında altı şərt irəli sürməsini uyğun görürdü: SSRİ-də azad bazar iqtisadiyyatının tətbiq edilməsi; Şərqi Avropa ölkələrinin tam müstəqilliyə nail olması; NATO ilə Varşava Müqaviləsi Təşkilatı ölkələri arasında adi silahlara dair tarazlığın yaradılması; SSRİ və ABŞ arasında strateji hücum silahlarına dair real sazişin bağlanması; M.Qorbaçovun üÇüncü dünya ölkələrinə qarşı təcavüzkarlıqdan imtina etməsi; Sovet İttifaqında insan hüquqlarına hörmət edilən, xalqın azad seçkilərdə iradəsini ifadə edə bilən siyasi qaydanın yaradılması.

R.Niksonun fikrincə, əgər M.Qorbaçovun islahatları uğurlu olardısa, aşkarlıq SSRİ-də siyasi plüralizmə gətirərdisə, onda amerikalılar güman ki, XXİ əsrdə Berinq boğazının o biri sahilində ABŞ-dan fərqlənməyən bir fövqəldövlət görərdilər. Əgər bu islahatlar kommunist rejiminin iki ayaq üstə durmasına kömək edərdisə, onda növbəti yüzillikdə ABŞ daha güclü, özünə inamlı və təhlükəli bir rəqiblə üz-üzə qala bilərdi'^’.

SSRİ-də yaranmış şəraiti qiymətləndirən sovet rəhbərliyi ABŞ ilə münasibətlərin normallaşdırılması istiqamətində konkret addımlar atmağa başladı. 1985-ci ilin avqust ayında sovet hökuməti nüvə silahlarının sınaqlarını dayandırdığını bəyan etdi. Buna dair moratoriumun vaxtını 1986-cı il martın 31-dək uzatdı. Belə bir qərarın qəbul edilməsi çoxlu səbəblərlə yanaşı SSRİ-nin nüvə sınaqlarını keçirməkdə imkanlarının məhdud olması ilə bağlı idi. Qeyd etmək lazımdır ki, hələ 1984-1986-cı illərdə Stokholmda keçirilən Avropada etimadı, təhlükəsizliyi və tərksilahı möhkəmləndirmək tədbirlərinə dair konfransda qəbul edilən sənəddə qitədə hərbi qarşı-

**Riçard Nikson (1913-1994) - ABŞ Prezidenti (1969-1974).**

**Fransua Mitteran (1916-1996) - Fransa Respublikasının Prezidenti (1981- 1995).**

**PHHapa** HHKCOH. **Fla apene. BocnoMHHaHHH o noöeaax, nopa>KeHHHX** H BO3-**po>KÄeHHH. M., 1992, c. 371-372.**

durmanın zəifladilməsinə yönəlmiş siyasi və hərbi tədbirlər kompleski nəzərdə tutulmuşdu'^*.

1985-ci ilin sentyabr ayında SSRİ xarici işlər naziri E.Şevardnadze- nin Nyu Yorkda ABŞ dövlət katibi Corc Şults'*^ və Prezident R.Reyqan ilə görüşündə silahlara nəzarət, regional və ikitərəfli məsələlərə yanaşmada tərəflər arasında dərin fikir ayrılıqlarının olduğu aydınlaşdı. Buna baxmayaraq, yüksək səviyyəli SSRİ - ABŞ görüşünə hazırlıqlara başlandı. SSRİ Xarici İşlər Nazirliyi, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi və SSRİ Müdafiə Nazirliyinin keçirilməsi nəzərdə tutulan Qorbaçov - Reyqan görüşünə dair hazırladığı arayışda başlıca tezis ABŞ Prezidenti ilə ümumi dil tapmaq, bərabər münasibətlər qurmaq, beynəlxalq münasibətlərə ideoloji fərqləri gətirməmək idi'^"'.

Keçiriləcək görüş haqqında ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi də R.Reyqan üçün müvafiq məruzə hazırlamışdı. Məruzədə M.Qorbaçovun Cenevrə görüşünə ümidlərinin az olduğu qeyd edilirdi"".

Geniş hazırlıq işlərindən sonra nəhayət, 1985-ci ilin noyabr ayında Cenevrədə M.Qorbaçov ilə R.Reyqan arasında görüş oldu. Bu görüşdə yalnız tərcüməçilər iştirak edirdilər. Hətta xarici işlər nazirləri bağlı qapılar arxasında duraraq görüşün nəticəsini gözləyirdilər. M.Qorbaçov və R.Reyqan qarşılıqlı münasibətlərdə mövcud olan etimadsızlığı və şübhələri aradan qaldırmaq zərurətindən danışdılar. M.Qorbaçov sürətlə silahlanmanın dayandırılmasının vacibliyindən, R.Reyqan isə SSRİ-nin üçüncü dünya ölkələrində nüfuzunu yaymaq cəhdlərindən danışaraq sovet qoşunlarının Əfqanıstandan çıxarılmasını qəti surətdə tələb etdi. Görüş nəticəsiz sona çatdı. Bununla belə, Cenevrə danışıqlarında müsbət meyillər də müşahidə edildi. Ən başlıcası, ölkə rəhbərləri hərbi üstünlüyə çalışmamaq barədə razılığa gəldilər.

/foKyMCHTbi CxoKronbMCKOH KOHcJıepeHLiHH no MepaM yKpenacHHH flOBepna, öesonacHOCTH **н pa3opy5KeHHıo в** Espone. CxoKroJibM, 1986, c.102, **1**10; **CCCP в** 5opb6e **3a** öesonacHOcxb **н** coxpyflHHMecxBe **в** Espone. 1964-1987. CöopHHK **Äo- KyMCHXOB. M.,** 1988.

**Corc Şults (1920) - ABŞ dövlət katibi (1982-1989).**

**floöpbiHHH A.<f). Cyryöo aoBepnxeabHo. Oocoıı в BaıuHHrxoHe npn uıecxH npesHÄCHxax CIIIA. M., 1996, c. 622-623.**

**SİA. Assessmant: Gorbachev's Personal Agenda for the November Meeting. - The National Security Archive of the USA. Doc. 14. The George Washington University in Washington.**

Cenevrə görüşündən sonra sovet rəhbərliyi Əfqanıstan siyasətinin dəyişdirilməsinin zəruriliyini anladı. Bunun üçün müvafiq addımlar atdı. 1985-ci ilin dekabr ayında Əfqanıstan rəhbəri Babrak Karmal"*" SSRİ-yə səfərə dəvət edildi. Onunla birlikdə Əfqanıstan təhlükəsizlik xidmətinin rəhbəri Məhəmməd Nəcibulla"^^ və bir neçə nəfər də gəlmişdi. Nümayəndə heyəti ilə görüşdə M.Qorbaçov, A.Qromıko və E.Şevardnadze iştirak edirdilər. Danışıqların gedişində Əfqanıstanda vəziyyətin ağır olduğu bir daha məlum oldu. M.Qorbaçov əfqan nümayəndələrinə sovet qoşunlarının Əfqanıstandan çıxarılacağını, müstəqil şəkildə döyüşmək üçün əfqan hökumətinə istədiyi qədər silah veriləcəyini dedi. Əfqanıstan nümayəndə heyəti belə bir söhbəti heç gözləmirdi. Əfqanlar sovet siyasətinin dəyişdiyini təəccüblə qarşıladıqlarından M.Qorbaçov SSRİ rəhbərliyinin yeni mövqeyini bir daha təkrar etdi. Sovet qoşunlarının olduqları yerlərdə əfqan ordusunu yerləşdirməyi və silahlandırmağı məsləhət bildi. Danışıqlann gedişi və nəticəsi SSRİ-nin Əfqanıstan siyasətində yeni bir dövrün astanasında olduğunu göstərirdi.

Danışıqlardan sonra Əfqanıstandan sovet qoşun hissələrinin necə çıxarılması məsələsi SSRİ rəhbərliyinin başlıca qayğılarından birinə çevrildi. Sov.İKP MK Siyasi Bürosunun 1986-cı il martın 20-də keçirilən iclasında Əfqanıstan məsələsi geniş müzakirə edildi. Çıxış edən SSRİ DTK sədri Viktor Çebrikov’”'* B.Karmahn vəzifələrini yerinə yetirə bilmədiyini deyərək, onun sovet rəhbərliyinə göndərdiyi teleqramını oxudu"'^. Teleqramda Əfqanıstanda şəraitin ağır olduğu vurğulanırdı. Aparılan müzakirə sovet rəhbərliyinin Əfqanstandan qoşunları çıxarmağa tədricən hazırlaşdığının ilk göstəricilərindən biri idi. Az sonra B.Karmal hakimiyyətdən getdi. Onun yerinə Məhəmməd Nəcibulla gətirildi.

Bu zaman SSRİ rəhbərliyi xarici siyasət sahəsində bir sıra digər addımlar da atdı. Sovet dövləti ümumbəşəri dəyərlərin sinfi dəyərlərdən üstün, münaqişələrin dinc yolla həllinə və tərksilaha tərəfdar olduğunu bəyan etdi, nüvə dövlətlərini nüvə silahları sahəsində silahlanmanı dayandır-

**Babrak Karmal (1929-1996) — Əfqanıstan Prezidenti (1979-1986).**

**Məhəmməd Nəcibulla (1947-1996) - Əfqanıstan milli təhlükəsizlik xidmətinin rəhbəri (1980-1987), Prezidenti (1987-1996). Taliban tərəfindən öldürülmüşdür.**

**Viktor Çebrikov (1923-1999) - SSRİ DTK-nın sədri (1982-1988). Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd (1983-1985). Siyasi Büronun üzvü (1985-1989).**

**SaceaaHne nojiHTÖıopo U,K KnCC. 20** Мархa **1986 roaa. CoBepıuenHo** ceKpexHO. - **PFAHH, (}).89, on.36, a. 18, jı. 1-2.**

mağa çağıran 1985-ci il 28 yanvar tarixli Dehli bəyannaməsinə qoşuldu. Belə addımlar SSRİ - ABŞ münasibətlərinin normallaşmasına və bütövlükdə beynəlxalq münasibətlərə müsbət təsir edən amillər idi.

Qarşılıqlı münasibətlərdə mövcud olan bütün ziddiyyətlərə baxmayaraq, Cenevrə görüşündən sonra SSRİ rəhbərliyi ABŞ ilə yaxınlaşmaq xəttini davam etdirirdi. 1986-cı il sentyabrın 19-da ABŞ-a səfəri zamanı SSRİ xarici işlər naziri E.Şevardnadze M.Qorbaçovun yeni görüş təklifini və məktubunu R.Reyqana təqdim etdi. R.Reyqan M.Qorbaçov ilə İslandiyanın paytaxtı Reykyavikdə görüşməyə könülsüz razılıq verdi. Nəhayət, həmin il oktyabrın 10-12-də M.Qorbaçov və R.Reyqan Reykyavikdə təkbətək görüşərək ikitərəfli və beynəlxalq məsələləri müzakirə etdilər. R.Reyqan yenə də sovet qoşunlarının Əfqanıstandan çıxarılmasını tələb etdi. Lakin bu görüşdə də razılıq əldə olunmadı. Görüş başa çatdıqdan sonra maraqlı bir hadisə baş verdi. Avtomobilinə tərəf addımlayan R.Reyqan birdən ayaq saxlayaraq M.Qorbaçova tərəf dönüb dedi; “Siz mənə bir söz də deməyə imkan vermədiniz. Ona görə d^ biz heç bir şey barədə razılaşmadıq”"^. M.Qorbaçov yenidən danışmaq üçün geri qayıtmağı təklif etsə də, R.Reyqan imtina edərək çıxıb getdi.

Reykyavik görüşündən sonra Sov.İKP MK Siyasi Bürosunun 13 noyab tarixli iclasında Əfqanıstanda həyata keçiriləcək tədbirlər müzakirə edildi"’. M.Qorbaçov Siyasi Büronun üzvlərinə M.Nəcibullanın milli barışıq, siyasi və ölkə rəhbərliyi ilə kəndlilər arasında birlik istəklərini çatdırdı. Bildirdi ki, SSRİ Əfqanıstanda altı ildir döyüşür, yanaşma dəyişməsə, Sovet İttifaqı hələ 20-30 il də döyüşməli olacaqdır. M.Qorbaçov sovet hərbçilərinin Əfqanıstan müharibəsini pis bildiklərini, məsələni həll etmək üçün açar tapa bilmədiklərini etiraf etdi və qoşunların çıxarılması prosesini tezliklə başa çatdırmağın zəruriliyini vurğuladı.

A.Qromıko Əfqanıstanın İran və Pakistan ilə sərhədlərini bağlamağı təklif etdi. Lakin mürəkkəb relyef ucbatından sovet qoşunları bu vəzifəni yerinə yetirə bilmirdi. O, müharibənin tezliklə başa çatdırılması təklifini müdafiə etdi. A.Qromıkonun çıxışına müdaxilə edən M.Qorbaçov müharibəni bir, ən çoxu iki ilə qurtarmağın vacibliyini söylədi. A.Qromıko- nun fikrincə, Əfqanıstanın sosial vəziyyəti müharibəni qələbə ilə başa çatdırmağa imkan verməmiş, SSRİ bu ölkədə daxildən yardım ala bilməmiş-

™ UJeBapflHaase 3. Koraa pyxnya ÄCJiesHbiH sanaBec. Bcrpenn н BOcnoMHna-HHB. Oep. C. HCMCUKoro. **M.,** 2009, c.89.

SaceaaHHe OojiHTÖıopo ÜK KOCC. 13 Hoaöpa 1986 roaa. CoBepuıeHHO cck-pcTHO. - PfAHH, (|). 89, on. 42, fl. 16, a. 1-9.

di. Onun baxışına görə, B.Karmal əfqan xalqı üçün bir rəmzə çevrildiyi üçün ondan imtina etmək deyil, əksinə əlaqələr saxlamaq lazım idi. A.Qromıko amerikalıların Əfqanıstan məsələsinin həllində maraqlı olmadıqlarını və müharibənin davam etdirilməsini istədiklərini qeyd etdi. Daha sonra Hindistanın məsələyə necə yanaşacağını sual edərək "bizim xalqımız bu həll ilə azad nəfəs alacaq" dedi. Onun fikrincə, əsas məsələ müharibənin dayandırılması, sovet qoşunları çıxarıldıqdan sonra isə Əfqanıstanın bitərəf dövlət olması və düşmən tərəfə keçməməsi idi.

Viktor Çebrikov isə sovet qoşunlarının Əfqanıstana daxil olmasından sonra sərhədləri bağlaya bilmədiyini və xalqın sovetləri müdafiə etmədiyini açıq şəkildə bildirərək əlavə etdi: "Nəcibi Moskvaya çağırıb açıq danışmaq lazımdır".

E.Şevardnadze çıxışında qoşunların çıxarılmasının dəqiq vaxtını göstərməyin vacibliyini bildirdi. Eyni zamanda qeyd etdi ki, ordu olmadan Sovet İttifaqı Əfqanıstanda işləyə bilməz. O da Əfqanıstanın müstəqil olmasının, bir dövlət olaraq qərarları müstəqil qəbul etməsinin tərəfdarı idi.

İclasda çıxış edən Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK katibi Aleksandr Dobrının'"** M.Nəcibullaya sərbəstlik verməyin lazım olduğunu dedi. Onun fikrincə, M.Nəcibulla iki məsələdə - milli birliyin təmin edilməsində və Əfqanıstan ətrafında məsələnin siyasi həllində sərbəst olmalı idi. A.Qromıkodan fərqli olaraq, A.Dobrının B.Karmaldan imtina etməyə tərəfdar çıxırdı. O, milli birlik məsələsində Əfqanıstan Xalq Demokrat Partiyası Mərkəzi Komitəsində heç kimin M.Nəcibullanı müdafiə etmədiyini diqqətə çatdırdı. M.Nəcibullanı Moskvaya çağırmağı və açıq danışmağı təklif etdi.

Çıxış edən SSRİ müdafiə nazirinin müavini Sergey Axromeyev 149 Əfqanıstanın hər qarış torpağında sovet əsgərinin olduğunu, ancaq Sovet İttifaqının bu ölkədə heç bir hərbi problemi həll edə bilmədiyini etiraf etdi. Onun çıxışından məlum olurdu ki, Əfqanıstanda mərkəzdə hakimiyyət olsa da, yerlərdə mövcud deyildi. S.Axromeyev birmənalı olaraq dedi: "Biz əfqan xalqı uğranda mübarizəni uduzmuşuq. Xalq hakimiyyəti müdafiə etmir. 50 min sovet əsgəri sərhədi qorusa da, vəzifəsini yerinə yetirə

**Aleksandr Dobrının (1919-2010) - SSRİ-nin ABŞ-dakı səfiri (1962-1986). Sov.İKP MK katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvü (1986-1988).**

**Sergey Axromeyev (1923-1991) - sovet dövlət və hərb xadimi. Sovet İttifaqı marşalı. 1990-cı ildən SSRİ Prezidentinin müşaviri. 1991-cı il avqustun 24-də iş otağında ölü tapılmışdır.**

bilmir". O da sərhədləri qorumağın mürəkkəbliyini vurğulayaraq vəziyyətdən çıxmağı və Pakistan ilə əlaqə qurmağı təklif etdi.

SSRİ xarici işlər nazirinin müavini Yuri Vorontsov'^® çıxışında Əfqanıstan əhalisinin 80%-inin kəndli olduğunu, ölkənin 18 milyon nəfər əhalisinin yalnız 5 milyon nəfərinin hakimiyyətin nəzarəti altında olduğunu söyləyərək qoşunların çıxarılması təklifini müdafiə etdi'^'.

Müzakirələrə yekun vuran M.Qorbaçov 1987-ci ildə sovet qoşunlarının 50%-nin, 1988-ci ildə isə qalan 50%-nin çıxarılmasının, Pakistan və ABŞ ilə danışıqlar aparılmasının, M.Nəcibullanm Moskvaya çağırılmasının, onunla açıq danışılmasmm və problemləri özünün həll etməsinin vacibliyini söylədi.

Sovet rəhbərliyinin belə bir qərar qəbul etməsi səbəbsiz deyildi. Əfqanıstana müdaxilə nəticəsində SSRİ beynəlxalq nüfuzunu itirmiş, ona qarşı edilən tənqidlər artmış və təzyiqlərə məruz qalmışdı. Külli miqdarda vəsaitin hərbi əməliyyatların aparılmasına sərf edilməsi ölkə daxilində sosial-iqtisadi şəraiti ağırlaşdırırdı. Əhalinin vəziyyəti pisləşirdi. Xalq sonu görünməyən müharibənin davam etdirilməsindən, yad bir ölkədə hansı məqsədlər üçün hərbi əməliyyatlar apardığını bilməyən döyüşlərdə həlak olan əsgər meyitlərinin gətirilməsindən hiddətlənirdi.

Bu zaman SSRİ - ABŞ münasibətlərində digər məsələlərdə irəliləyişə nail olundu. Belə ki, Avropada adi silahların və silahlı qüvvələrin ixtisarına dair Vyana danışıqları davam etdirildi. Müzakirələr nəticəsində tərəflər problemə dair məsələlər barədə razılığa gəldilər. Bunun üçün bütün Avropa dövlətləri rəhbərlərinin iştirakı ilə yüksək səviyyəli müşavirənin keçirilməsi barədə razılıq əldə edildi. Yaxın və orta mənzilli raketlərin ləğvi məsələsində də irəliləyiş oldu. 1987-ci ilin aprelində ABŞ dövlət katibi Corc Şultsun Moskvaya səfəri zamanı sovet tərəfi Avropada orta mənzilli SSRİ və ABŞ raketlərinin, həmçinin Çexoslovakiya və ADR-dəki operativ-taktiki raketlərin ləğvi təklifini və ya "ikili sıfır" variantını irəli sürdü. Bütün məsələlərin müzakirəsi üçün geniş tərkibli danışıqlar keçirməyi təklif etdi. Nəticədə 1987-ci ilin dekabrında Vaşinqtonda M.Qorbaçov ilə R.Reyqan arasında keçirilən görüşdə yaxın və orta mənzilli raketlərin ləğvi haqqında müqavilə imzalandı. Nüvə silahları sınaqlarının da-

**Yuri Vorontsov (1929-2007) - diplomat. SSRİ-nin Hindistan, Fransa, Əfqanıstan və ABŞ-da səfiri. Rusiyanın BMT-dəki daimi nümayəndəsi.**

SaceaaHue **HojmTÖıopo B[K KHCC. 13** HOHÖpa **1986** roaa. CoBepmeHHO **cex-**pexHO. - **PFAHH, ({). 89,** on. **42, Ä. 16, JI.1-9.**

yandırılmasına dair danışıqlara başlamaq haqqında razılıq əldə edildi. Kimyəvi silahın ləğvi sahəsində də danışıqlar davam etdirildi.

Nəhayət, SSRİ və ABŞ rəhbərləri Əfqanıstandan sovet qoşunlarının çıxarılması barədə də ümumi dil tapdılar. 1988-ci ilin aprelində Cenevrədə Əfqanıstandan sovet qoşunlarının çıxarılmasına dair saziş imzalandı. Sazişə görə, qoşunların çıxarılması 1989-cu il fevralın 15-dək başa çatdırılmalı idi. Qeyd etmək lazımdır ki, qoşunların çıxarılması prosesi problemlərsiz də deyildi. Sovet rəhbərliyi Cenevrə sazişinin əksinə olaraq hər hansı bir yolla Əfqanıstanda mövcudluğunu saxlamağa çalışırdı. Bu mövqe E.Şevardnadze, V.Çebrikov, A.Yakovlev'^^, D. Yazov'^^, V.Muraxovski'^" və V.Kryuçkovun'^^ 1989-cu il yanvarın 23-də Sov.İKP MK-ya yazdıqları tamamilə məxfi qeydlərində əksini tapmışdıQeydlərdə Əfqanıstanda yaranmış şərait təhlil edilir və sovet siyasətinin yürüdülməsi üçün təkliflər verilirdi. Burada sovet qoşunlarının Əfqanıstandan çıxarılması ilə hökumət və müxalifət qüvvələri arasında döyüşlərin başlandığı, hökumətin yalnız sovet aviasiyasının köməyi ilə mövqelərini qoruya bildiyi vurğulanırdı. Sovet aviasiyası "düşmənlərin" olması adı altında dinc əhalinin yaşamasına baxmayaraq, kəndləri başdan-başa bombardman etməklə əfqan hökumətini hakimiyyətdə saxlayırdı. Qeydlərdə Əfqanıstanın ağır vəziyyətə düşdüyü, sovet yardımları olmadan keçinə bilməyəcəyi və Pakistanın Cenevrə sazişinin əksinə olaraq Əfqanıstanın daxili işlərinə müdaxilə etdiyi göstərilirdi.

Tədbirlər planında qoşunların çıxarılması məsələsinə dair beş variant təklif edilirdi: Birincisi, yaranmış ağır vəziyyətdən çıxış edərək Hayrotan-Kabul yolu ilə bir diviziya (12 min nəfər) çıxarılsın. Lakin bu, BMT Təhlükəsizlik Şurasında müzakirələrə gətirərdi. İkincisi, Kabulda

**^ Aleksandr Yakovlev (1923 - 2005) - sovet siyasi xadimi və tarixçi. M.Qorba- çovun hakimiyyəti illərində Sov.İKP MK-nın ideologiya katibi.**

**Dmitri Yazov (1924 - 2007) - sovet dövlət və hərb xadimi. SSRİ müdafiə naziri. Sov.İKP MK Siyasi Bürosunun üzvü (1987-1991). 1990-cı ilin yanvarında Bakıda kütləvi qırğının təşkilatçılarından biri.**

**Vsevolod Muraxovski (1926) - SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1985-1989).**

**Vladimir Kryuçkov (1924-2007) - SSRİ DTK sədri (1988-1991). Sov.İKP MK Siyasi Bürosunun üzvü (1989-1990).**

**Ə.UleBapflHaÄse, B.ReöpHKOB, A.flKOBjıeB, /f.üsoB, B.MypaxoBCKHÜ, B.KpiOHKOB - IfK KOCC. O MeponpmiTHax B CBH3H C npeacToauiHM BBIBOÄOM coBexcKHX BOHCK H3 AtjıraHHCxaHa. CoBepmeuHO cexpexHo. 23 HHBapa 1989 roaa, Na 65 / OC. - PfAHH, 89, on. 42, *jx.* 14, jı. 3-13.**

aclığın olduğunu əsas gətirərək BMT-ni yardıma çağırmaq olardı. BMT qüvvələri gələnədək sovet ordu hissələri humanitar məqsədlər adı altında Əfqanıstanda qala bilərdi. Üçünsücü, qoşunlar fevralın 15-dək çıxarılmalı idi. Dördüncüsü, qoşunları qismən çıxarmaq olardı. Beşincisi, qoşunlar tam çıxarılır, lakin SSRİ Əfqanıstana yardım edirdi.

Bu qeydlər Sov.İKP MK Siyasi Bürosunun 1989-cu il 24 yanvar tarixli iclasında müzakirə edildi. Qoşunların çıxarılması barədə qərar qəbul olundu'^^. Qərarda sovet təyyarəçilərinin Əfqanıstanda könüllü qalması məsələsinin öyrənilməsi, nəqliyyatın və təyyarələrin Əfqanıstana icarəyə verilə bilməsi, iqtisadi yardım edilməsi məsələləri də tövsiyə edilirdi. SSRİ qoşunları müəyyən edilmiş vaxtda Əfqanıstandan çıxarıldı.

Əfqanıstandan sovet qoşunlarının çıxarılması tarixi əhəmiyyət daşıyırdı. Sovet siyasətinin iflasını göstərən bu hadisə soyuq müharibənin sonunun başlanğıcı idi və beynəlxalq münasibətlərdə yeni şəraitin yaranmasından xəbər verirdi. Sovet qoşunları Əfqanıstandan çıxarılsa da, ölkə acınacaqlı bir vəziyyətə düşdü. Sovet müdaxiləsi ölkəyə görünməmiş fəlakətlər gətirmişdi. İqtisadiyyat dağılmışdı. Əfqan cəmiyyəti parçalanmışdı. Ölkəni uzun illər davam edən qanlı vətəndaş müharibəsi bürümüşdü. Hakimiyyət uğrunda silahlı mübarizə on minlərlə insanın ölümünə və vətənindən didərgin düşməsinə səbəb olmuşdu.Yüz minlərlə əfqan qaçqına çevrilmişdi.

Sovet qoşunlarının çıxarılması ABŞ ilə ikitərəfli münasibətlərin inkişafına ciddi təsir etdi. Belə ki, 1989-cu il dekabrın 2-3-də Maltada "Maksim Qorki" gəmisində keçirilən görüşdə Ronald Reyqan Almaniyanın birləşdirilməsi məsələsində Mixail Qorbaçovu razı sala bildi. Bunun müqabilində SSRİ-yə maliyyə vəsaiti veriləcəkdi.

Qeyd etmək lazımdır ki, Almaniyanın birləşməsi məsələsi ilə bağlı Böyük Britaniya və Fransa tərəddüd keçirirdilər. Lakin az sonra bu tərəddüdlər aradan qaldırıldı. Görüşün nəticəsində imzalanan bəyanatda artıq ABŞ və SSRİ-nin bir-birini antaqonist dövlətlər hesab etmədikləri, aralarında düşmənçilik dövrünün başa çatdığı yazılırdı. Bu görüş dünyada soyuq müharibənin başa çatmasında mühüm bir addım idi. Malta danışıqlarında çoxlu fikir ayrılıqlarının mövcud olmasına baxmayaraq, M.Qorba-

**BbinncKa H3 npoTOKOJia JÇa 46 saceaaHHa HojiHTÖıopo UR KUCC OT 24 anaa- pa 1989 roaa. O MeponpHHTHax B CBH3H C npeacTOHmHM BBIBOÄOM COBCTCKHX BOHCK H3 AcjıraHHCTaHa. CoBepmeHHO ceKpexHO. - PFAHH, (}). 89, on.42, Ä.14,** Ji.1-2.

çov və R.Reyqan iki ölkə arasında dialoqu davam etdirmək barədə razılaşdılar.

Lakin az sonra qarşılıqlı münasibətlərdə durğunluq yarandı. Bu da ABŞ-da prezident seçkilərinin keçirilməsi ilə bağlı idi. Seçkilərdən sonra SSRİ - ABŞ münasibətləri ziddiyyətli şəraitdə davam edirdi. Bunun da əsas səbəbi 1989-cu ildə Corc Buşun'^* ABŞ Prezidenti seçildikdən sonra SSRİ - ABŞ münasibətlərində fasilə götürməsi ilə bağlı idi. Həmin müddət ərzində Corc Buş, dövlət katibi Ceyms Beyker'^^ və milli təhlükəsizlik məsələləri üzrə müşavir B.Skoufroft "Çəkindirmədən sonra" adlı strategiya işləyib hazırladılar. Strategiyanın məqsədi SSRİ ilə yaxşı və daha sabit münasibətlər qurmaq idi.

Bu zaman SSRİ daxilində gedən mürəkkəb ictimai-siyasi və iqtisadi proseslər səbəbindən də ölkə rəhbərliyi ABŞ ilə münasibətlərin davam etdirilməsində maraqlı idi. Belə ki, ölkədə separatçılıq, mərkəzdənqaçma meyliləri güclənir, milli ziddiyyətlər kəskinləşir və hakimiyyət əleyhinə fəaliyyətlər artırdı. Ona görə də sovet rəhbərliyi xarici yardımlara ehtiyac duyurdu. Bu baxımdan SSRİ xarici işlər naziri E.Şevardnadzenin ABŞ-a növbəti səfərinə xüsusi əhəmiyyət verilirdi. 1990-cı il aprelin 4-6-da E.Şevardnadzenin ABŞ-a səfərində başlıca məqsəd SSRİ Prezidenti M.Qorbaçovun iyun ayında ABŞ-a nəzərdə tutulan səfərini tezləşdirmək, tərksilah sahəsində mövqeləri yaxınlaşdırmaq, Avropada və dünyada vəziyyəti sabit inkişafa yönəltmək, SSRİ - ABŞ əməkdaşlığını möhkəmləndirmək idi.

Martın 31-də, Lev Zaykov'^®, V.Kryuçkov, Eduard Şevardnadze Aleksandr Yakovlev, Dmitri Yazov, Oleq Baklanov'^', İqor Belousov 162
bu səfər barədə direktiv göstərişlərini Sov.İKP MK-ya yazdılar'^. Direk-

**Ata Corc Buş (1924) - ABŞ-ın BMT-dəki daimi nümayəndəsi (1971-1973). Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru (1976-1977). ABŞ-ın vitse-prezidenti (1981-1989). ABŞ-ın 41-ci prezidenti (1989-1993).**

**Ceyms Beyker (1930)-ABŞ dövlət katibi (1989-1992). Ağ ev administrasiyasının rəhbəri (1992-1993).**

**Lev Zaykov (1923-2002) - sovet dövlət və partiya xadimi. Sov. İKP MK katibi (1985-1990). Siyasi Büronun üzvü (1986-1990).**

**Oleq Baklanov (1932) - sovet dövlət xadimi. Sov. İKP MK Siyasi Bürosunun üzvü (1988-1991).**

**İqor Belousov (1928-2005) - SSRİ Nazirlər Sovetinin sədr müavini (1988-1990).**

**Jl.SaÜKOB, B.KpiOHKOB, Ə.UJeBapflHaflse, A.RKOBJieB, /(.RSOB, O.EaKJianoB, H.EejToycoB - U,K KİCC. O a,HpeKTHBax *jum* neperoBopoB MHHHcxpa HHocrpanHbix aejı CCCP C npesHaeHTOM CUIA flxc.EyuıeM u rocynapcTBenubiM ceKpexa-**

tivlərdə göstərilirdi ki, ABŞ tərəfi ilə danışıqlar zamanı SSRİ-nin daxili vəziyyəti barədə açıq söhbət etmək, Baltikyam respublikalarda baş verənləri söyləmək lazımdır. Elə etmək lazımdır ki, Vaşinqtonun sovet respublikalarında separatçı əhval-ruhiyyəni müdafiə etmək imkanları olmasın. Direktivlərdə strateji hücum silahları ilə raketdən müdafiə sistemlərinin bir-biri ilə əlaqəli olduğu göstərilirdi. Adi silahlara dair təkliflərdə hər iki blokun Avropada silahlı qüvvələrini 700-750 min nəfər azaltması və kimyəvi silahın ləğvi tövsiyə olunurdu. Dənizlərdə sabitliyin qorunmasının vacibliyi vurğulanırdı. Regional məsələlərə münasibətdə Almaniyanın birləşdirilməsində dörd dövlətin birgə hərəkət etməsi və başqa qüvvələrin ondan sui-istifadə etməsinə yol verilməməsi təklif edilirdi. SSRİ-yə sərmayələr qoymaq üçün sənədlərin hazırlanmasına dair təkliflər verilməsi tövsiyə olunurdu.

Təqdim olunan direktivlər Sov.İKP MK Siyasi Bürosunun aprelin 2-də keçirilən iclasında geniş müzakirə edilərək bəyənildi'®". Onlann əsasında SSRİ xarici işlər nazirinə ABŞ Prezidenti Corc Buş ilə söhbət zamanı müzakirə ediləcək məsələlər barədə konkret göstərişlər verildi'®®. Göstərişlərdə ABŞ Prezidenti ilə danışıqların iki başlıca çərçivədə aparılması tövsiyə edilirdi: Birincisi, SSRİ - ABŞ münasibətlərinin yeni mərhələsi həm hər iki tərəf, həm də dünya üçün əhəmiyyətlidir. SSRİ rəhbərliyi buna hazırdır. İkincisi, Avropada, dünyanın böhranlı rayonlarında şəraitin sabitləşdirilməsi zəruridir. Danışıqlarda Vaşinqtonu Baltikyam respublikalarda separatçı hərəkətlərdən çəkindirmək tövsiyə edilirdi. Birtərəfli üstünlük qazanmağın Vaşinqton üçün ziyanlı olduğu, SSRİ-nin dağılmasının və sabitsizliyin ABŞ-a ümid bəslədiyi faydanı gətirməyəcəyi izah edilməli idi. Hadisələrin belə gedişi ABŞ-m uzunmüddətli maraqlarına zərbə vurar, SSRİ-nin zəifləməsinin onun üçün ağır nəticələri olardı.

peM /f>K.BeHKepeM (BaııiHHrroH, 4-6 anpejiH 1990 r.). 31 **Mapra** 1990 r.ffa **320/OC.** CeKpexHO.- **PFAHH, (j).89,** on.**9, n.lOO, jı.2-7.**

’®‘* BbinHCKa **H3** npoxoKOJia **ffe 184** saceaaHna nojınxÖKipo **IfK KltCC** ox **2** an- pejiH **1990** roaa. **O** anpeKXHBax *jun* neperoBopoB MHHHCxpa nnocxpaHHbix aen **CCCP** C npesHflenxoM **ClUA** ffjK.ByıııeM H rocyaapcxBeHHbiM cexpexapeM /fjK.BeÜKepeM (BaınnHrxoH, **4-6** anpejıa **1990** r.). CoBepuıenHO ceKpexHO. - **PFAHH, 4). 89,** on. **9, Ä.IOO, JI.I.**

**VKaaaHHH ana öeceabi MHnncxpa HHOcxpannbix ÄCJI CCCP c npesHÄCHxoM CLUA 7f>K-BymeM (BaıuHHrxoH, 6 anpejıa 1990 rofla). CeKpexno. - PFAHH, 4).89, on. 9, fl.lOO, jı.8-10.**

Göstərişlərdə SSRİ xarici işlər nazirinə söhbəti bir neçə istiqamətdə aparmaq tövsiyə edilirdi. Birincisi, söhbətin tərksilahın bölümünün əsasını Maltada əldə edilən razılaşmalar təşkil etməli idi. Strateji hücum silahlarının və Avropada adi silahların 50% azaldılması təklif olunurdu. İkincisi, Almaniya məsələsi geniş qoyulmalı, SSRİ-nin Almaniya Demokratik Respublikasının anşlüsünə təzyiq altında razılıq verməsi təəssüratı yaranmamalı idi. Bunu açıq demək göstərişi verilirdi ki, SSRİ vahid Almaniyanın NATO-ya daxil olmasının əleyhinədir və hamı üçün məqbul qərarlar axtarılmalıdır. Əks-təqdirdə qitədə vəziyyət dəyişə bilərdi. Almaniyanın birləşməsi ilə sinxron olaraq Avropada təhlükəsizliyin yeni sisteminin qurulması təklifi edilməli idi. Almaniyanın birləşməsi məsələsində "altılıq" mexanizminin işə salınması tövsiyə olunurdu. Üçüncüsü, regional məsələlərin müzakirəsi zamanı SSRİ-nin Əfqanıstanda azad, demokratik seçkilərin keçirilməsinə tərəfdar olduğu vurğulanmalı idi. ABŞ və SSRİ-nin Yaxın Şərq, Mərkəzi Amerika və Kambocada birgə fəaliyyət göstərməsi tövsiyə edilməli idi. Dördüncüsü, ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsi təklif olunurdu. Bu sahədə mövcud olan maneələr Maltada əldə edilən razılaşmalara zidd idi. Beşincisi, keçirilən görüşlər zamanı SSRİ Prezidentinin ABŞ-a səfərinin müddəti müəyyənləşdirilməli idi.

SSRİ xarici işlər nazirinin ABŞ Prezidenti və dövlət katibi ilə danışıqlar zamanı riayət etməli olacağı ikinci direktiv isə daha geniş idi'®^. Buna görə, 1990-cı ilin iyun ayında SSRİ və ABŞ prezidentlərinin yüksək səviyyəli görüşü hazırlanmalı; SSRİ-nin daxili vəziyyəti barədə müfəssəl məlumat verilməli; SSRİ-nin vəziyyətindən istifadə edərək birtərəfli üstünlük qazanmağın sadə təzahür olmadığı izah edilməli; silahların azaldılmasına və məhdudlaşdırılmasma çahşılmah; açıq səmalar olmalı, təyyarələr sərbəst uçmalı idi.

Direktivlərdə regional problemlərin müzakirəsi zamanı aşağıdakı məsələlərə diqqət ayrılması barədə göstəriş verilirdi: Şərqi Avropa ölkələrinin daxili işlərinə qarışmaq yolverilməzdir; ərazi məsələlərini qaldırmaq və millətçi hissləri qızışdırmaq olmaz.

Avropa təhlükəsizliyi məsələlərinə dair də konkret göstərişlər var idi. Buna görə, Avropada yeni təhlükəsizlik sistemi yaradılanadək köhnə sistemi saxlamaq, Helsinki prosesinə yeni dinamizm vermək və 1990-cı ildə ATƏM ölkələrinin yeni müşavirəsini keçirmək təklif edilirdi. Bu za-

flnpeKTHBbi ÄJiH neperoBopoB MHHucrpa HHOcrpaHHbix aejı **CCCP** c npesH-neHTOM **CLLIA** /^>K.BymeM н rocyaapcTBCHHbiM ceKperapeM /tjK.BeÜKepeM. **4-6** anpejiB **1990** roaa. CeKpexHO. - **PFAHH, (j).89, on.9, a.lOO, jı.l 1-46.**

man SSRİ-nin ABŞ ilə birgə əməkdaşlıq etməyə hazır olduğunu bəyan etmək lazım idi.

Direktivlərdə Almaniya məsələsinə dair SSRİ-nin siyasəti əksini tapmışdı. Danışıqlarda Almaniyanın mərhələli birləşməsi ideyası vurğulanmalı və Avropa təhlükəsizliyi prosesi ilə əlaqələndirilməli idi. Almaniyanın birləşməsi ADR-in anşlüsü deyil, beynəlxalq hüququn iki subyektinin birləşməsi olmalı idi. SSRİ ADR-in müstəqil dövlət kimi mövcudluğuna tərəfdar çıxırdı. Birləşməyə dair sülh müqaviləsi bağlanılmalı; Qərbi Berlinə dair dördtərəfli saziş birləşmə başa çatanadək qüvvədə qalmalı; ADR-in NATO-ya daxil olmasına mənfi münasibət bildirilməli; “altılıq” çərçivəsində görüşlər keçirilməli idi.

Sənəddə Kipr probleminə də diqqət verilirdi. Bu problemin həllinə ABŞ-ın BMT Təhlükəsizlik Şurasım daha fəal cəlb etməsi təklif olunurdu. Həmin təklif əslində SSRİ-nin Aralıq dənizində maraqlarını reallaşdırmağa yönəlmişdi.

Direktivlərdə Əfqanıstan məsələsinə də yer verilmişdi. Qeyd edilirdi ki, SSRİ Əfqanıstana dair Cenevrə sazişinin yerinə yetirilməsinə tərəfdardır. Əfqanıstanda daxili dialoqa ABŞ və SSRİ-nin birgə çalışmaları təklif edilirdi. Bunun üçün SSRİ - ABŞ ekspert qrupunun təşkili təklifi irəli sürülməli, SSRİ-nin Əfqanıstanın qonşuları olan ölkələrlə və müxalifət ilə əlaqələrinin yaradılması üçün imkanlarının olduğunu vurğulamaq lazım idi.

Sənəddə Yaxın Şərq məsələsi də yer almışdı. Danışıqlarda Yaxın Şərqə dair beynəlxalq konfrans çağınnaq təklifi xətti qorunmalı, SSRİ - İsrail münasibətlərində yaxşılığa doğru dəyişikliklərin olduğu söylənilməli, İran - İraq müharibəsinin dayandırılması üçün BMT-nin səyləri dəstəklənməli, SSRİ, İran və İraq xarici işlər nazirlərinin sovet ərazisində görüşünün keçirilməsi ideyası vurğulanmalı idi.

ABŞ-a səfər edən SSRİ xarici işlər naziri verilən direktiv göstərişlərə uyğun olaraq dövlət katibi Ceyms Beyker və Corc Buş ilə görüşərək danışıqlar apardı. İki ölkə rəhbərinin görüşünün keçirilməsi barədə razılıq əldə edildi.

M.Qorbaçov ilə 1990-cı ilin may-iyun aylarında keçirilən görüşdə C.Buş Almaniyanın birləşməsinin zəruriliyini və NATO-ya daxil olmasının vacibliyini sovet rəhbərinə başa sala bildi. ABŞ-ın baxışma görə, NATO-dan kənarda və nəzarətsiz qalan birləşmiş Almaniya SSRİ üçün daha çox təhlükə törədə bilərdi. Buna görə də SSRİ rəhbəri birləşmiş Almaniyanın NATO üzvü olması təklifini qəbul etdi. ABŞ isə öz növbəsində

bu addımın SSRİ-nin milli təhlükəsizliyinə zidd olmaması üçün tədbirlər həyata keçirəcəyinə söz verdi. Sovet iqtisadiyyatına maliyyə yardımı edilməsi barədə razılıq əldə olundu. Yeni dünya nizamının böyük dövlətlər arasında əməkdaşlıq əsasında qurulması, SSRİ-nin sərhədlərinin xaricinə uzanan imperiyanın aradan qaldırılması, ancaq bu dövlətin özünün hakim qlobal oyunçulardan biri olaraq qalmaqda davam etməsi planlaşdırılırdı.

Beləliklə, iki ölkə arasında münasibətlərdə geniş əməkdaşlıq dövrü başladı. SSRİ - ABŞ münasibətləri eyni zamanda Fars körfəzindəki hadisələrdə, İraqın Küveytə müdaxiləsinin qarşısının alınmasında da əməkdaşlıq səviyyəsində özünü göstərdi.

1990-cı ilin iyun ayında SSRİ ilə ABŞ arasında Berinq dənizində dəniz sahəsi xəttinin müəyyənləşdirilməsinə, həmin il iyulun 31-də isə strateji hücum silahlarının məhdudlaşdırılmasma dair müqavilələr imzalandı.

SSRİ - ABŞ münasibətlərində baş verən bu hadisələr bütün beynəlxalq münasibətlər sistemində yeni bir səhifə açır, ümumavropa prosesinə də müsbət təsir edirdi. Belə ki, ATƏM iştirakçısı olan dövlətlərin hələ 1986-cı ilin noyabr ayından 1989-cu ilin yanvar ayına qədər keçirilən Vyana görüşündə üç əsas məsələ üzrə irəliləyiş əldə olunmuşdu: hərbi-siyasi; iqtisadi əməkdaşlıq; humanitar məsələlər və insan hüquqları. Həmin görüşdə etimad tədbirlərinə dair sənəd hazırlandı'^'.

Bundan sonra Avropa ölkələri ilə də ikitərəfli münasibətlər genişləndi. Fransa, Böyük Britaniya və İtaliya rəhbərləri ilə keçirilən danışıqlarda "Ümumavropa evi" ideyası irəli sürüldü, Almaniyanın birləşməsi zərurətə çevrildi.

Sovet rəhbərliyinin 80-ci illərin əvvəllərindən etibarən ABŞ - Çin hərbi əməkdaşlığına imkan verməmək üçün etdiyi bütün cəhdlər iflasa uğradı'^*. SSRİ eyni sistemdə olmasına baxmayaraq, uzun illər boyu düşmən olduğu Çin ilə münasibətlərini normallaşdırmağa məcbur oldu. İki ölkə arasında münasibətlərə mane olan üç amil aradan qaldırıldı. Yəni Çinin aşağıdakı şərtləri yerinə yetirildi: SSRİ Cenevrə sazişinə uyğun olaraq Əfqanıstandan qoşunlarını çıxardı; Kambocaya müdaxilə etməyəcəyini bil-

' BencKHH flOKyMeHT 1990 r. neperoBopoB no MepaM yKpenjıeHna noBcpHH n öesonacHOCTH. BeHa,1990, c. 183-219.

riocTaHOBJieHHe OoaHTÖıopo **U,K KFİCC** от **2** OKTaöpa 1980 roaa. **İNb O 217/157. O** npoBeaeHHH **aonojiHHTejibHofl** paöoTw в ıtejıax npoTHBoaeHCTBHa aMepHKaHO-KHTaficKOMy BoenHOMy coTpyaHHecTBy. CoBepuıcHHo ceKpexHO. - **PFAHH,** 4). 89, on.33, ***a.*** 10, л.1-8.

dirdi; Uraldan şərqə tərəf ərazilərindəki silahlı qüvvələrinin sayını azaltdı və ordu hissələrini Monqolustandan çıxardı.

Beləliklə, 80-ci illərin ikinci yarısından etibarən SSRİ - ABŞ münasibətlərində ciddi təkamül baş verdi. ABŞ tərəfinin SSRİ-nin məqsədlərinə açıq şəkildə etirazını bildirməsi və bu siyasətinə geniş xalq kütlələrinin dəstəyini cəlb etməsi Mixail Qorbaçovun başladığı yenidənqurma siyasətinin sosializm sisteminin ümumi böhranına çevrilməsinə kömək etdi. SSRİ-nin getdiyi güzəştlər və kompromislərin nəticəsində iki ölkə arasında böhranlı vəziyyətdən geniş dialoqa keçildi. İki sistem ölkələri arasında münasibətlərdə mövcud olan böhranlar aradan qaldırılsa da, Avropanın sosialist ölkələrindəki mövcud sistemləri böhran bürüdü. Yaranmış şəraitdə SSRİ-nin həmin ölkələr üzərində təsiri getdikcə zəifləyirdi. Belə bir zamanda SSRİ - ABŞ münasibətlərində müzakirə edilən başlıca məsələlərdən biri artıq qeyd edildiyi kimi, Avropanın sosialist ölkələrində baş verən proseslər idi. Beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər Avropanın sosialist ölkələrindən də yan keçmədi.

## Avropanın sosialist ölkələrində vəzi)ryət. "Sanitar dəhlizi"nin dağılması

Məlum olduğu kimi, soyuq müharibə illərində Şərqi Avropa ölkələri “dəmir pərdə” olan SSRİ ilə Qərb dövlətləri arasında “sanitar dəhlizi” rolunu oynayırdılar. Onlar SSRİ rəhbərliyinin hökmlərindən, təzyiqlərindən uzun illər idi əziyyət çəkirdilər. Əslində bu ölkələrdəki sistemlər sovet yardımları ilə mövcudluğunu qoruyub saxlayırdı. Avropanın sosialist ölkələrinin ərazilərindəki SSRİ qoşunları onların suveren hüquqlarını məhdudlaşdırırdı. Eyni sosial-siyasi və ideoloji sistemdə olmalarına baxmayaraq, sosialist ölkələri arasında dərin ixtilaflar hökm sürürdü.

80-ci illərin sonlarından etibarən dünyada baş verən dəyişikliklər bu ölkələrə də təsir etdi. Həmin ölkələrin xalqları SSRİ-yə xoş münasibət bəsləmirdilər. Bunu yaxşı bilən SSRİ rəhbərliyinin münasibətlərə mane olan amilləri aradan qaldırmaq üçün müəyyən zamanlarda etdiyi cəhdlər uğursuz nəticələnmişdi. Belə bir növbəti cəhd. 1986-cı il iyunun 26-da keçirilən Sov.İKP MK Siyasi Bürosunun iclasında edildi. Sov.İKP MK- nm baş katibi Mixail Qorbaçovun sosialist ölkələri arasında mövcud olan bütün maneələri aradan qaldırmaq üçün təklifləri əks olunmuş qeydləri

həmin iclasda müzakirə edildi'*^. Qeydlərdə sosialist ölkələri arasında əməkdaşlığı genişləndirmək üçün tədbirlər nəzərdə tutulmuşdu. Lakin heç də hər şey Mixail Qorbaçovun qeydlərində yazıldığı kimi olmadı. Dünyada və SSRİ daxilində baş verən proseslərin təsiri altında həmin ölkələr sosializmdən uzaqlaşmağa başladılar. Roma papası siyasi baxımdan təzyiq altında əzilən Şərqi Avropada on illər boyunca davam edən kommunizm ideologiyasının içinin boş olduğunu ortaya çıxararaq mənəvi oyanış hissini alovlandırdı. Mixail Qorbaçovun repressiyalardan yan keçərək müxalif siyasi fikirlərin ortaya çıxmasına icazə verməsi zəifləyən sosializm sisteminin zərərinə oldu. Qərb ölkələri SSRİ-ni zəif olduğu siyasi, sosial və iqtisadi sahələrdə rəqabət aparmağa məcbur etdilər. SSRİ isə rəqabət aparmaq gücündə deyildi.

Proseslərin sürətlə getdiyi ölkələrdən biri Polşa idi. Polyak xalqı dinc yolla, qan tökmədən sosializmdən imtina etdi. Ölkədə 1988-1989-cu illərdə radikal islahat tərəfdarları qələbə qazandılar. On ilə yaxın sosializmə qarşı mübarizə aparan “Həmrəylik” (“Solidarnost”) təşkilatı leqallaşdırıldı. Baş verən proseslərin təsiri altında ölkə rəhbəri Voysex Yaru- zelski’’° istefaya getdi. “Həmrəylik” təşkilatının rəhbəri Lex Valensa'^' ölkə rəhbəri seçildi. Polşa sosializm sistemindən qopan ilk ölkə oldu. Az sonra Polşa hökuməti SSRİ-yə qarşı ərazi iddiaları irəli sürərək 30-cu illərin sonlarında işğal edilmiş ərazilərini tələb etdi. Lakin 1990-cı il mayın 31-də keçirilən Sov.İKP MK Siyasi Bürosunun iclasında həmin iddialar rədd edildi”^.

Polşadakı hadisələr digər sosialist ölkələrinə də təsir etdi. Macarıstanda da siyasi sistemin böhranı baş verdi. Mövcud sistemin dağılması üçün siyasi, sosial və iqtisadi səbəblər çoxdan yaranmışdı. 1988-ci ilin

**® SaceaaHHe nojiHTÖiopo U,K KHCC. 26 HKIHH 1986 roaa. SanHCKaxoB. LopSa- HeBa M.C. 0 neKOTopbix aKxyaıibHbix Bonpocax coxpyaHHHecxB c couHajıncxH- necKHMH cxpanaMH. CoBepıneHHo cexpexHo. - PFAHH, (jı. 89, on. 36, *a.* 19, JT.I. '™ Voysex Yaruzelski (1923) — Polşanın dövlət, siyasi və hərb xadimi. Polşa Birləşmiş Fəhlə Partiyasının birinci katibi (1981). Ölkə Prezidenti (1989-1990).**

**Lex Valensa (1943)— Polşanın ictimai və dövlət xadimi. “Həmrəylik” təşkilatının rəhbəri. Nobel mükafatı laureatı. Polşa Prezidenti (1990-1995).**

OocxaHOBneHHe **IfK KHCC** ox **31** Mas **1990 roaa. Ifs 187-120. O** nauınx **ma-** rax B CBS3H C nojibCKHMH xpeööBaHHHMH **K** CoBexcKOMy **CoKDsy.** CexpexHO. -

may ayında Yanoş Kadar istefaya getdi. Əvvəllər rəhbərlikdən uzaqlaşdırılmış adamlar vəzifələrə qaytarıldılar. Çoxpartiyalı sistemə keçid baş verdi. Bununla SSRİ onsuz da zəif olan mövqelərini Macarıstanda tamamilə itirdi. Sovet qoşunlarının ölkədən çıxarılması məsələsi aktuallaşdı. Sov.İKP MK Siyasi Bürosu Macarıstandan sovet qoşunlarının çıxarılması haqqında 1990-cı il martın 9-da qərar qəbul etdi'"'. Bu isə ölkədəki bütün ictimai-siyasi şəraitə ciddi təsir göstərdi. Azad seçkilər keçirildi. Macarıstanda sovet modelində sosializm iflasa uğradı və yeni sistemə keçildi.

Dərin dəyişiklər Almaniya Demokratik Respublikasında da başladı. Erix Honekkerin'’^ rəhbərlik etdiyi ADR-də mövcud sistem böhran içində idi. Bu zaman ABŞ Prezidenti R.Reyqan Almaniyanın birləşdirilməsinin və Avropanın bütövləşdirilməsinin vacib olduğunu bildirdi. O, Almaniyanın parçalanmasının qəti şəkildə əleyhinə olan dövlət xadimi idi. Almaniyanın yenidən birləşməsi ideyası hələ 1986-cı il iyulun 26-da AFR-in xarici işlər naziri Hans Ditrix Genşerin”^ Moskvaya səfəri zamanı Mixail Qorbaçov ilə keçirdiyi görüşündə qaldırılmışdı. Bundan sonra birləşmə mövzusu tədricən AFR - SSRİ münasibətlərinin çərçivəsini aşaraq ABŞ - SSRİ münasibətlərinin gündəliyinə daxil olmuşdu. Lakin SSRİ rəhbərliyinin məsələyə yanaşması xeyli ehtiyatlı idi.

Mixail Qorbaçovun 1989-cu il iyun ayında AFR-ə səfəri zamanı Almaniyanın birləşdirilməsi məsələsinin mümkünlüyü məlum oldu. Səfərdən az sonra Macarıstan Avstriya ilə sərhədini açdı. Bundan sonra ADR vətəndaşlarının qərbə qaçması kütləvi xarakter aldı. Lakin mühacirət etmək istəməyənlər də var idi. Onlar ölkə daxilində dəyişikliklərin həyata keçirilməsini tələb edirdilər. Xalqın tələbləri qarşısında Erix Honekker istefaya getdi. ADR-də sosializm sistemi iflasa uğradı.

Belə bir şəraitdə iki Almaniyanın birləşdirilməsi məsələsi daha kəskin şəkil aldı. Alman xalqı birləşməni qəti surətdə tələb etməyə başladı. 1989-cu il noyabrın 9-da Berlin divan dağıdıldı. Almaniyanın birləşməsi beynəlxalq münasibətlərin aktual məsələsinə çevrildi. Artıq qeyd edildiyi kimi, Maltada keçirilən sovet-Amerika görüşündə müzakirə edi-

**Yanoş Kadar (1912-1989) - Macarıstan dövlət və siyasi xadimi, rəhbəri (1956- 1988).**

**nocTanoBJieHue nojiHTÖıopo IfK KITCC** ОТ **09.03.1990 r. JV2İ81-30 r. O** BBI- **BOae COB6TCKHX BOHCK H3 BeHppHH. CeKpcTHO. - PFAHH, ()).89, on.8, Ä.78, jı.1-13.**

**Erix Honekker (1912-1994)- ADR rəhbəri (1971-1989).**

**Hans Ditrix Genşer (1927) - AFR-in xarici işlər naziri (1974-1982).**

lən əsas məsələ Almaniyanın yenidən birləşdirilməsi olmuşdu. Mixail Qorbaçov Almaniyanın yenidən birləşdirilməsinin vacibliyini başa düşmüşdü. ABŞ rəhbərliyi birləşmə üstündə SSRİ-nin müharibəyə başlama- yacağma tam əmin olmuşdu. SSRİ Almaniyanın birləşdirilməsinin qarşısını almaqda aciz idi. Almaniya dinc yolla, qan tökülmədən aşağıdan, xalq tərəfindən birləşdirildi. Beləliklə, iki Almaniyanın birləşməsi faktiki olaraq baş verdi. Lakin birləşmənin hüquqi cəhətdən rəsmiləşdirilməsi lazım idi.

Bu məsələnin həllində SSRİ rəhbərliyinin mövqeyi ciddi rol oynadı. Sov. İKP MK Siyasi Bürosunun 1990-cı il yanvarın 2-də keçirilən iclasında "Şərqi Avropa ölkələrindəki hadisələr və SSRİ-nin mövqeyi haqqında" məsələ müzakirə edildi Həmin ölkələrdə baş verən hadisələr Sovet ittifaqının təhlükəsizliyi baxımından qiymətləndirildi. Yeni yaranmış hakimiyyət strukturları ilə əməkdaşlıq etmək barədə qərar qəbul edildi. Artıq Almaniyanın birləşdirilməsinə mane olan qüvvə mövcud deyildi.

Beynəlxalq diplomatiya səhnəsində Almaniyanın yenidən birləşməsi 1990-cı ilin fevral ayında real cizgilər almağa başladı. 1990-cı il iyulun 1-də ADR və AFR arasında hər iki ölkənin parlamentləri tərəfindən bəyənilmiş valyuta, iqtisadi və sosial ittifaq haqqında dövlət müqaviləsi imzalandı.

Yaranmış yeni şəraiti və növbəti addımları müzakirə etmək üçün 1990-CI il iyulun 15-16-da AFR kansleri Helmut Kol''*, Mixail Qorbaçov, Hans Ditrix Genşer və Eduard Şevardnadze Stavropol diyarının Arxız rayon mərkəzində görüşdülər. Danışıqlarda Almaniyadan sovet qoşunlarının çıxarılması məsələsi müzakirə edildi. SSRİ rəhbərliyi Almaniyadan çıxarılan qoşun hissələrinin yerləşdirilməsi üçün 20 milyard alman markası istəyirdi. Almaniya tərəfi 15 milyard marka və əlavə olaraq 5 milyard marka kredit verməyə razılaşdı. Bu görüşdən bir müddət sonra, avqustun 31-də ADR ilə AFR arasında Almaniyanın birləşdirilməsi haqqında müqavilə bağlandı. M.Qorbaçov ADR ərazisindən sovet hərbi hissələrinin çıxarılacağını bəyan etdi. Lakin sovet qoşunları bir qədər gec, yalnız 1994-cü ildə Almaniyadan çıxarıldı.

Almaniyanın birləşməsi məsələsinə dair 1990-cı ildə keçirilən 2-1-4 (AFR, ADR, ABŞ, SSRİ, Böyük Britaniya, Fransa) görüşündə alman xal-

' **O** coƏbiTHJix B BOCTOHHOH Bapone H nosHUHU **CCCP.** BbinucKa U3 npoxoKOJia **JÇ9I75** saceaaHHJi IloaHTÖıopo **U,K KIICC** OT **2** nHsapa **1990** roaa. **İNb 0175/11,.** CoBepuıeHHO ceKpexHO. - **PFAHH, (j).89, on.9,** a. 62, jı.l.

**Helmut Kol (1930)-AFR-in federal kansleri (1982-2000).**

qının təbii tarixi istəklərinin yerinə yetirilməsi zəruri hesab edildi. Sentyabrın 12-də Almaniya məsələsinin tənzimlənməsinə dair sənəd imzalandı. Bu müqavilə 1991-ci il martın 15-də qüvvəyə mindi. İki Almaniya arasında imzalanan müqavиləni hər iki ölkənin parlamenti sentyabrın 29-da təsdiq etdi. Sənəd oktyabrın 3-də qüvvəyə mindi. Beləliklə, ADR dinc yolla AFR-ə qatıldı. Bununla da Almaniyanın parçalanması qan tökülmədən aradan qaldırıldı. Avropa bütövləşdi. Qitədə və dünyada yeni şərait yarandı.

Dünyada gedən proseslər Avropanın digər sosialist ölkələrindən də yan keçmədi. 1989-cu ilin noyabrında baş verən "məxməri inqilablar" nəticəsində Çexoslovakiya və Bolqarıstan sosializmdən imtina etdilər.

Rumıniyada isə yeni cəmiyyətə keçid ağrılı oldu. Ölkəni bürüyən nümayişlərin nəticəsində Nikolae Çauşesku'^^ devrilərək həyat yoldaşı ilə birlikdə güllələndi. Hakimiyyətə Milli Qurtuluş Cəbhəsinin (MQC) lideri İon İliesku'*° gəldi.

Buxarestdə baş verən hadisələrin nəticəsində sovet vətəndaşlarının həyatı təhlükə altına düşmüşdü. Sov.İKP MK Siyasi Bürosunun 1989-cu il dekabrın 23-də keçirilən iclasında Rumıniyada yaranmış vəziyyət müzakirə edildi'*'. Qəbul edilən qərarda baş verən hadisələrdən narahatlıq hissi keçirilirdi. İlk növbədə Rumıniya MQC rəhbəri İon İliesku ilə birbaşa əlaqə qurmaq qərara alındı. Yaranmış vəziyyətə dair SİTA bəyanat verdi'*^. Bir müddət sonra sovet hökuməti yeni bir bəyanat verərək rumın xalqı və Rumıniya MQC ilə həmrəy olduğunu bildirdi. SSRİ hökuməti Nikolae Çauşeskunu təltif olunduğu bütün sovet orden və medallarından məhrum etdi'**.

Dəyişikliklər sosialist ölkəsi olan Albaniyada da oldu. Albaniya özünütəcrid vəziyyətindən çıxdı. Azad bazar iqtisadiyyatı yolunu tutdu.

Beləliklə, 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində keyfiyyətcə yeni şərait yarandı. Kommu-

**Nikolae Çauşesku (1918-1989) - Rumıniyanın dövlət və siyasi xadimi. Rumıniya KP MK-nın baş katibi (1965-1989). Ölkə Prezidenti (1974-1989).**

**İon İliesku (1930) - Rumıniya dövlət və siyasi xadimi. Ölkə Prezidenti (1989- 1996), (2000-2004).**

BbinHCKa H3 npoxoKOJia Ks **173** sacenaHHH FloJiiiTÖıopo **LIK KIICC** OT **23** ae-Kaöpa **1989** roaa. **O** nepBooHepenHbix ıwepax B CBHSH C oöcxaHOBKOH B PyMbiHHH. Jfo **0175/50.** CoBepmeHHO ceKpexHO. **-PFAHH,** (Jı. **89,** on. **9,** Ä. **67,** Ji. **1-2.**

**SaHBJienne TACC. - PFAHH, (}). 89, on. 9, *a.* 67, a.3.**
**SanBaeHHe coBexcKoro npaBHxeabcxBa. — PFAHH, <})• 89, on.9, Ä.67, *JIA*.**

nist rejimləri devrildi. Demokatiyaya keçid baş verdi. Qarşılıqlı İqtisadi Yardım Şurası dağıldı. Qərbi Avropa ölkələri qonşularının tədricən bazar iqtisadiyyatına keçmələrinə kömək etmək məqsədi ilə 1990-cı ilin aprelində Avropa Bərpa və İnkişaf Bankı yaratdılar.

Avropanın müharibədən sonrakı bütün simasını dəyişən bu proseslər 1990-cı il noyabrın 19-21-də ATƏM üzvü olan ölkələrin nümayəndə heyətlərinin yüksək səviyyədə Parisdə keçirilən görüşündə təsbit edildi. Zirvə görüşündə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçıları əməkdaşlıq və dostluq sahəsində yeni münasibətlər qurmaq niyyətlərini elan edən birgə bəyannamə imzaladılar. Yeni Avropa üçün Paris xartiyası qəbul edildi. Bu sənəd təşkilat üzvləri arasında münasibətlərin Helsinki prinsiplərini bir daha təsdiq edərək bütün ATƏM iştirakçısı olan dövlətlərin çoxtərəfli əməkdaşlıqda maraqlı olduğunu göstərdi. Müşavirə iştirakçılarının müntəzəm siyasi məsləhətləşmələrinin keçirilməsinin və ümumav- ropa qarşılıqlı fəaliyyətinin daimi strukturlarının yaradılmasının zəruriliyi etiraf edildi, ümumavropa prosesinin əsas istiqamətləri müəyyənləşdirildi. Yüksək səviyyəli növbəti görüşün 1992-ci ildə Helsinkidə keçirilməsi qərara alındı. Paris müşavirəsi Avropadakı dövlətlərarası münasibətlərdə parçalanma və qarşıdurma dövrünün başa çatdığını, yeni bir dövrün başlandığını göstərdi, qitədə təhlükəsizliyin yeni təməllərini yaratdı. Xartiya Avropa xalqları üçün ümumi dəyərlərə - demokratiya, insan hüquqlarına hörmət, azad bazar iqtisadiyyatı və qanunun aliliyinə əsaslanırdı.

Paris görüşündə Avropada adi silahlı qüvvələrin ixtisarına dair müqavilə imzalandı. Sənədə əsasən SSRİ üçün silahlarını azaltdığı zonaya Ural dağları. Ural çayı və Xəzər dənizindən qərbə tərəf bütün ərazi daxil edilirdi.

Bütün bu dəyişikliklər sosialist ölkələrinin hərbi əməkdaşlığına da təsir etdi. 1991-ci ilin martında Varşava Müqaviləsi Təşkilatı buraxıldı. Hərbi blokların qarşıdurmasına son qoyulsa da, NATO buraxılmadı. Bu da əsasən aşağıdakı amillərlə bağlı idi; yarandığı vaxtdan etibarən NATOnun fəaliyyəti uğurlu olmuşdu; soyuq müharibə başa çatsa da, dünyada təhlükəsizlik üçün təhdidlər hələ qalırdı; keçmiş sosializm sistemi ölkələrinin daxilində milli-etnik münaqişələr yaranmışdı; dünyanın müxtəlif regionlarında münaqişə ocaqları hələ də qalırdı; Avropa ölkələri ABŞ ilə həmin təşkilat vasitəsi ilə əlaqələrinin saxlanılmasında maraqlı idilər; ABŞ da avropalılarla belə əlaqələrinin qırılmasını istəmirdi; sabitliyi qorumağın ən etibarlı vasitəsi NATO idi; yeni şəraitdə artan mütəşəkkil cinayətkarlıq, ekstremizm və terrorizmə qarşı ölkələrin birgə mübarizəsi tələb olunurdu.

Beləliklə, Avropada sosializm sisteminin iflasa uğraması ilə Şərq ilə Qərb arasında ideya-siyasi və hərbi qarşıdurmaya son qoyuldu. Soyuq müharibə tarixə çevrildi. Beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi dağıldı. SSRİ İkinci dünya müharibəsində Şərqi Avropada əldə etdiklərinin çoxunu itirdi. Yeni dünya qaydası formalaşmağa başladı. Dünyanın siyasi xəritəsində dərin dəyişikliklər baş verdi. ABŞ dünyanın yeganə fövqəldövlətinə çevrildi. Şərqi Avropada sosializm sistemini qoruya bilməyən sovet rəhbərliyinin başlıca qayğılarından biri bundan sonra SSRİ-nin mövcudluğunu saxlamaq oldu. Lakin bu zaman SSRİ-nin daxilində də mürəkkəb proseslər gedirdi.

## SSRİ-nin daxili ictimai-siyasi vəziyyəti

80-ci illərin ortalarından etibarən SSRİ - ABŞ münasibətlərində və dünyada gedən proseslərlə paralel olaraq Sovet İttifaqının daxilində də mürəkkəb və ziddiyyətli hadisələr baş verirdi. “Sanitar dəhlizi”nin çat verməsi “dəmir pərdə” olan SSRİ-də daxili ictimai-siyasi şəraitə təsir edirdi. Sovet hökuməti ölkə daxilində mövcudluğunu ideoloji baxımdan Sov.İKP-nin hakim rolu, güc baxımından ordu və təhlükəsizliyin, milli münasibətlər baxımından xalqlar dostluğunun, iqtisadi baxımdan mərkəzləşdirilmiş iqtisadiyyatı sərtləşdirmək sayəsində qoruyurdu. SSRİ beynəlxalq mövqelərini xalqın müflisləşməsi hesabına aparılan və baha başa gələn sürətlə silahlanma proqramlarını artıraraq saxlayırdı. Lakin ölkədə yaranmış ağır sosial-iqtisadi vəziyyətdən narazılıq, Kommunist Partiyasının hakim roluna və orduya qarşı təbliğat aparılması artırdı.

M.Qorbaçov elan etdiyi demokratiya, aşkarlıq və yenidənqurma siyasətindən istifadə edərək rəqiblərini bir-birinin ardınca sıradan çıxarmağa başlamışdı. O, mövcud problemləri həll etmək əvəzinə onları özündən əvvəlki rəhbərlərin üstünə yıxırdı. Ölkə isə belə hərəkətlərə hazır deyildi. M.Qorbaçovun qeyri-ardıcıl, zəif və səriştəsiz siyasəti SSRf-də vəziyyəti daha da ağırlaşdırırdı.

Ölkənin ən narahat regionları Cənubi Qafqaz və Baltikyanı respublikalar idi. Milli münasibətlər baxımından SSRİ-nin mövcudluğundakı zəncirdə ən zəif yer Cənubi Qafqaz, burada isə erməni - azərbaycanlı münasibətlərindəki mürəkkəbliklər idi. ABŞ politoloqu Zbiqnev Bjezinskinin yazdığı kimi, bu dövrün bir xüsusiyyəti olaraq zorakılıq demokratiya və

milli müqəddəratı təyinetmə şüarı altında tətbiq olunurdu'*". Bu regionlarda gedən proseslər bir sıra özünəməxsus xüsusiyyətləri ilə səciyyələnirdi. Hadisələr müxtəlif formalarda baş versə də, mahiyyətinə görə, mərkəzdənqaçma meyillərini və ölkənin dağılmağa doğru getdiyini göstərirdi. SSRİ-də baş verən proseslər zəncirvari reaksiyaya çevrilirdi.

Cənubi Qafqaz regionu və Baltikyanı respublikalar narahat hesab edilmələrinə baxmayaraq, ölkə ərazisində ilk qan Qazaxıstanda töküldü. M.Qorbaçov SSRİ-nin türk respublikalarının rəhbərlərinə etibar etmir, həmin respublikaların müstəqilliklərini elan edəcəklərindən qorxurdu. Qna görə də 1986-cı ildə Qazaxıstan KP MK-nm birinci katibi Dinməhəmməd Kunayevi'*^ vəzifəsindən azad edərək yerinə qazax olmayan Nikolay Kol- bini'*" təyin etdi. Bu qərar respublikada narazılıq yaratdı. Alma-Ata küçələrinə çıxan tələbələrin etirazları polis və ordunun gücü, xüsusən qeyri-qa- zaxlardan təşkil edilmiş silahlı dəstələrin köməyi ilə amansızlıqla yatırıldı. Ölən və yaralananlar oldu. Kütləvi həbslər aparıldı. Sov.İKP MK Siyasi Bürosu Alma-Atada baş verən hadisələrdə iştirak edənləri millətçi və ekstremist adlandırdı.

Bu hadisədən bir müddət sonra SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri olan Ermənistan digər bir müttəfiq respublika olan Azərbaycanın daxili işlərinə açıq şəkildə müdaxilə edərək Dağlıq Qarabağ regionunda ekstremizmi və separatçılığı qızışdırmağa başladı.

Qanlı hadisələr Gürcüstanda da baş verdi. 1988-ci ilin noyabrından etibarən Tbilisidə kütləvi nümayişlər başladı. Mərkəzi hakimiyyət 1989- cu il aprelin 9-da nümayişləri silah gücünə dağıtdı. 19 nəfər öldürüldü, minlərlə adam qazla zəhərləndi.

Ölkədə elan edilmiş demokratikləşdirmə, aşkarlıq və yenidənqurma siyasətinə baxmayaraq, sovet rəhbərliyi qan tökmək bahasına belə köhnə sistemi zor gücünə saxlamağa, müttəfiq respublikaların hüquqlarını məhdudlaşdırmağa çalışırdı. Belə bir şəraitdə müttəfiq respublikalarda demokratik hərəkat güclənir və xalq cəbhələri yaradılırdı. Onların liderləri ölkədə rəhbərliyin zəif olduğunu görüb yuxarıdan inqilab və ya ciddi dəyişik-

**Bjezinski Z. İkinci şans: üç prezident və Amerika fövqəldövlətinin böhranı, s. 29.**

**Dinməhəmməd Kunayev (1912-1993) - Qazaxıstanın partiya və dövlət xadimi. Qazaxıstan EA-nın akademiki. Qazaxıstan KP MK-nın birinci katibi. Sov. İKP MK Siyasi Bürosunun üzvü (1964-1986).**

**Nikolay Kolbin (1927-1998) - Qazaxıstan KP MK-nın birinci katibi (1986-1989). SSRİ Xalq Nəzarəti Komitəsinin sədri (1989-1990).**

üklər tələb edirdilər. Moskvada isə hazırlanacaq ölkə konstitusiyasında ediləcək düzəlişlərə görə, müttəfiq respublikaların ən minimum hüquqlarının da məhdudlaşdırılacağını bildirirdilər. Bu isə qeyri-formal təşkilatların narazılığına səbəb oldu. Ölkədə dinc tələbləri özündə əks etdirən kütləvi mitinq və nümayişlər keçirilməyə başlandı.

Belə bir şəraitdə hələ 1939-cu il avqustun 23-də imzalanmış gizli Ribbentrop'*^ - Molotov'** paktı və ya sovet-nasist paktına dair Baltikyanı ölkələrdə açıq müzakirələr genişlənirdi. SSRİ rəhbərliyi paktın mövcudluğunu inkar edirdi. Həmin pakt SSRİ-yə Finlandiya, Litva, Estoniya, Latviya, Bessarabiya və Polşanın digər ərazilərini birləşdirməyə əsas vermişdi. Paktın şərtlərinin həyata keçirilməsi nəticəsində Baltikyanı ölkələrin müstəqillikləri ləğv edilmişdi. Lakin Baltikyanı respublikaların sovetləşdiril- məsi heç də bütün dünya tərəfindən legitim olaraq qəbul edilməmişdi. Bu respublikaların xalqları paktın mətbuat orqanlarında dərcini qətiyyətlə tələb edirdilər. Respublikaların rəhbərləri tez-tez Moskvaya gələrək müvafiq istəyi mərkəzi hakimiyyətə çatdırırdılar. Baltikyanı respublikaların rəhbərləri bu zaman SSRİ-nin federasiyadan konfederasiyaya çevrilməsinə razı idilər. Lakin SSRİ rəhbərliyi bu istəyi yerinə yetirmədi.

Nəhayət, təzyiqlər altında Ribbentrop - Molotov paktını axtarmaq üçün xüsusi komissiya təşkil edildi. Lakin sovet arxivlərində həmin sənəd tapılmadı. Aydın oldu ki, 1956-cı ildə xarici işlər naziri Vyaçeslav Molotov vəzifəsindən gedərkən paktı və protokolu SSRİ Xarici İşlər Nazirliyinin arxivindən öz adma götürmüş, lakin arxiv fonduna qaytarmamışdır. V.Molotovun vəzifəsindən çıxarılması ilə həmin sənədlər də yoxa çıxmışdı. SSRİ-də tapılmamasma baxmayaraq, bu sənədlər Almaniya arxivlərindən çıxarılaraq dərc edildi. Bir müddət sonra RSFSR parlamenti Baltikya- nı respublikaların Stalin ilə Hitler arasında razılaşmanın qurbanı olduğunu təsdiqlədi. Bu qərardan sonra Baltikyanı respublikalar artıq konfederasiya deyil, tam müstəqillik tələb etməyə başladılar.

Estoniyada rəsmi hakimiyyətə alternativ olaraq eston vətəndaş komitələri qurulurdu. Respublikada kommunistlər milli əlamətlərə görə ayrılırdılar. Belə şəraitdə Kommunist Partiyası açıq ideoloji mübarizədən çəkinirdi. Yaranmış şərait Sov.İKP MK-nı narahat etdiyindən 1989-cu il

**Yoahim fon Ribbentrop (1893-1946) - Hitler Almaniyasının xarici işlər naziri. 1946-cı il Nürnberq məhkəməsinin hökmü ilə edam edilmişdir.**

**Vyaçeslav Molotov (1890-1986) - sovet dövlət və siyasi xadimi. SSRİ Xalq Komissarları Sovetinin! sədri (1930-1941). SSRİ xalq xarici işlər komissarı, xarici işlər naziri (1939-1949, 1953-1956).**

iyulun 22-də Siyasi Büro iclasında geniş müzakirə edildi. Baş verən hadisələr pisləndi. Konkret tədbirlər müəyyənləşdirildi[189]. Lakin onlar nəticəsiz oldu.

Litvada millətçilik və demokratik hərəkat artırdı. Respublikanın iqtisadi azadlığı və dövlət müstəqilliyi tələbləri çoxalırdı. Litva qeyri-formallarının baxışlarına görə, yenidənqurma siyasətinin əsas məqsədi xalqların milli azadlığa çıxması idi. Respublika hakimiyyəti Litvanın 1940-cı il iyulun 21-də SSRİ-nin tərkibinə daxil edilməsi haqqında Xalq Seyminin və 1940-cı il avqustun 3-də sovet hökumətinin Litva SSR-i SSRİ-nin tərkibinə daxil etməsi haqqında qərarlarını ləğv etdi. Bu hadisə Moskvada narahatlıqla qarşılandı. Vəziyyəti düzəltmək üçün yollar axtarılırdı. Sov.İKP MK-nın partiya quruculuğu və kadr işi, ideologiya, dövlət-hüquq şöbələri Litvada yaranmış vəziyyətə dair 1989-cu il avqustun 26-da tamamilə məxfi arayış hazırlayaraq MK-ya təqdim etdilər[190]. Arayışda "Sayudis"in gücləndiyi, Litvanın SSRİ ilə federal əlaqələrini kəsməsi üçün respublika rəhbərliyi səviyyəsində təbliğat aparıldığı və Kommunist Partiyasında separatçı əhval-ruhiyyənin mövcud olduğu qeyd edilirdi. Sənəddə Kommunist Partiyasının nüfuzunu itirdiyi, ona inamsızlığın olduğu, respublikada müharibədən əvvəlki Litvanın bərpasına çalışıldığı, mətbuatda SSRİ əleyhinə təbliğat aparıldığı, katolik kilsəsinin "Sayudis" ilə həmrəy olduğu, milli hərbi hissələrin yaradılması məsələsinin gündəliyə gətirildiyi, sovet ordusunun gözdən salındığı və rus dilli əhaliyə qarşı təbliğatın artdığı vurğulanırdı.

Sov.İKP MK Siyasi Bürosu Litvadakı vəziyyətə dair məsələni müzakirə edərək Sov.İKP MK-nın bəyanatı barədə qərar qəbul etdi[191]. Sov.İKP MK 1989-cu il avqustun 26-da bəyanat verərək respublikadakı

---

[189] Выписка из протокола № 163 заседания Политбюро ЦК КПСС от 22 июля 1989 года. О политической ситуации в Прибалтийских республиках. № Р163/40. Совершенно секретно.– РГАНИ, ф.89, оп.9, д.6, л.1-6.

[190] Отдел партийного строительства и кадровой работы ЦК КПСС, идеологический отдел ЦК КПСС, государственно-правовой отдел ЦК КПСС. О кризисных явлениях в общественно-политической жизни Литовской ССР. 26 августа 1989 года. Совершенно секретно. – РГАНИ, ф. 89, оп. 9, д. 28, л.2-11.

[191] Выписка из протокола № 164 заседания Политбюро ЦК КПСС от 26 августа 1989 года. О заявлении ЦК КПСС о положении в республиках Советской Прибалтики. № П 164/168. Совершенно секретно. – РГАНИ, ф. 89, оп. 9, д. 25, л.1.

hərəkətləri pislədi[192]. Sov.İKP MK Siyasi Bürosu MK şöbələrinin təqdim etdiyi qeydləri 30 avqust tarixli iclasında müzakirə edərək bəyəndi. Müvafiq qərar qəbul etdi[193]. Lakin Litvada şəraiti sabitləşdirmək mümkün olmadı.

Sov.İKP MK-nın ideologiya şöbəsinin məsul işçisi P.Nadolişniyin hazırlayıb MK-ya təqdim etdiyi arayışda Litvada Sov.İKP-nin inkar edildiyi, mərkəzdə qəbul edilən qərarların yerinə yetirilmədiyi, ictimai rəyin Litva KP-nin qanundankənar elan edilməsinə hazırlandığı, respublikada "Sayudis" təşkilatının mövqelərinin gücləndiyi və hüquq-mühafizə orqanlarının partiyasızlaşdırılması təbliğatının artdığı vurğulanırdı[194].

Sov.İKP MK şöbələrinin Baltikyanı respublikalarda şərait barədə hazırladıqları arayışda Baltik böhranının ölkə üçün təhlükəli olduğu, baş verən proseslərin yaxşı planlaşdırıldığı və əlaqələndirildiyi vurğulanırdı. Arayışda yazılırdı ki, son məqsəd sosial quruluşu dəyişmək və SSRİ-dən ayrılmaqdır. Bu respublikalarda dövlət və partiya orqanları nüfuzdan salınır, antikommunist əhval-ruhiyyə, cəmiyyətdə qütbləşmə artır, kommunistlərə mənəvi təzyiqlər edilir və milli dirçəliş güclənirdi. Arayışda respublikaların rəhbərləri və əhalisinin M.Qorbaçov siyasətindən iki standartla istifadə etdikləri yazılırdı: söz azadlığı və yeni müstəqillik. Bütün bunların hamısı SSRİ-nin nüfuzunu sarsıtmaq kimi qiymətləndirilirdi[195].

Sov.İKP MK katibliyi MK şöbələrinin məlumatını müzakirə edərək bəyəndi və müvafiq tədbirləri nəzərdə tutan qərar qəbul etdi[196]. Lakin Baltikyanı respublikalarda şəraiti sabitləşdirmək mümkün olmadı. Əksinə,

[192] Заявление ЦК КПСС о положении в республиках Советской Прибалтики. – РГАНИ, ф. 89, оп. 9, д. 25, л.2-10 .

[193] Выписка из протокола № 164 заседания Политбюро ЦК КПСС от 30 августа 1989 года. О кризисных явлениях в общественно-политической жизни Литовской ССР. № П 164/200. Совершенно секретно. – РГАНИ, ф.89, оп. 9, д.28, л. 1.

[194] Ответорганизатор идеологического отдела ЦК КПСС П.Надолишний. О политической ситуации, сложившейся в Литовской ССР после февральского (1990 г.) Пленума ЦК КПСС. 26 февраля 1990 года. – РГАНИ, ф. 89, оп. 8, д. 54, л.5-9.

[195] О положении в республиках Прибалтики. Секретно . – РГАНИ, ф. 89, оп. 5, д. 12, л.2.

[196] Постановление секретариата ЦК КПСС. Об информации отделов ЦК КПСС о положении в республиках Прибалтики от 7 декабря 1991 года. № СТ-16/3. Секретно. – РГАНИ, ф. 89, оп. 5, д. 12, л. 1.

nəinki Baltikyanı respublikalarda, demək olar ki, bütün ölkə ərazisində siyasi mitinqlər artdı.

Bu zaman SSRİ-də milli münasibətlərdə gərginlik zəifləmir, müttəfiq respublikalarda yerli olmayan əhaliyə düşmən və nifrət hissləri bütün rayonları əhatə edirdi. Ölkədə yaranmış şərait Sov.İKP MK Siyasi Bürosunun 1990-cı il 12 mart tarixli iclasında müzakirə edildi'^'. Qəbul edilən qərarda 100 minlərlə qaçqının ədalətə və sovet hakimiyyətinin onların vətəndaşlıq hüquqlarının qorumasına inamını itirdiyi qeyd edilirdi. Belə vəziyyət milli nifaqı qızışdırırdı. Respublikalarda mərkəzdənqaçma meyillə- ri güclənirdi. Müxalifət yaranmış vəziyyətdən məharətlə istifadə edirdi. Mitinqlər tədricən Kommunist Partiyasının və sovet hökumətinin əleyhinə çevrilərək antisovet xarakter alırdı. Sov.İKP parçalanırdı. Artıq Litva KP Sov.İKP-dən ayrılaraq müstəqil təşkilat olduğunu bəyan etmişdi. Baltik- yanı respublikaların SSRİ-dən ayrılmasının qarşısını almaq üçün sovet rəhbərliyi Vilnüs və Riqaya ordu hissələri yeridərək hərəkatı boğmağa cəhdlər etdi. Lakin SSRİ-nin dağılması prosesini dayandırmaq mümkün olmadı.

80-ci illərin sonlarında SSRİ-ni təşkil edən müttəfiq respublikalar arasında ərazi mübahisələri yaranmışdı. 1990-cı ilin yayında Qırğızıstanın Oş vilayətinin Batıkənd rayonu əhalisi ilə Tacikistanın Leninabad rayonu əhalisi arasında sərhəd məsələsi üstündə mübahisə oldu. SSRİ DTK sədri V.Kryuçkov 1990-cı il iyulun 4-də Sov.İKP MK-ya yazdığı məxfi məlumatında sərhəd məsələsinin milli münaqişəyə çevrildiyini və bütün Orta Asiyadakı şəraitə təsir etdiyini vurğulayırdı'^*. DTK sədri vəziyyətə təcili müdaxilə olunmasını tövsiyə edirdi.

Ukraynanın qərb vilayətlərində də ictimai-siyasi şərait kəskinləşmişdi. Burada kommunistlər üzərində cəza tədbirlərinin tətbiq edilməsi barədə çağırışlar genişlənir və sovet ordusu əleyhinə kampaniya aparıhr-

BbinucKa H3 npoxoKOJia JVb 182 saceaaHHH riojiHxSıopo IfK KnCC ox **12** Mapxa **1990** roaa. **O** nojıuxuHecKHx uxorax **MHXHHXOB 24-25** c|)eBpaji5i **1990 r.** H HeOÖXOÄHMblX BblBOaaX H3 **ЗХНХ** COÖblXHH. COBepUlCHHO CCKpeXHO. **- PFAHH,**

**(j).89, on. 9, Ä.89, n.1-7.**

**npeacenaxejib KTB CCCP B.KpıOHKOB - IfK KnCC. TOB. FnpeHKO A.H. HH-(jjopMauHH 0 xeppHxopuanbHbix cnopax Me>Kay KnprH3CKOH n Taa^KUKCKon**

dı’®^. Sovet quruluşunun mövcudluğunu qoruyub saxlayan əsas dayaqlardan biri olan ordunun nüfuzu sarsıdılırdı. Milli münasibətlər qızışdırılırdı.

## Azərbaycanın daxili işlərinə Ermənistanın müdaxiləsi. Təcavüzün tarixi köklərinə qısa baxış

80-ci illərinin ortalarında ölkədə ən ağır hadisə SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri olan Ermənistanın digər bir müttəfiq respublikanın - Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi oldu. Ermənistan Azərbaycanın coğrafi-siyasi, etnik-mədəni baxımdan tarixi ərazisi olan Dağlıq Qarabağ regionuna əsassız iddialar irəli sürdü. Beləliklə, iki respublika arasında münaqişə yarandı.

Qeyd etmək lazımdır ki, Ermənistanın müdaxiləsi və hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin kökləri çarizmin müstəmləkəçilik siyasətinə gedib çıxır. Qədim zamanlardan XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən işğal olunanadək Qarabağ ərazisi müxtəlif Azərbaycan dövlətlərinin tərkibində olmuşdu. Hələ XVIII əsrin sonlarından etibarən çarizm gürcü çarı İraklini öz tərəfinə çəkərək Azərbaycan və Dağıstan ərazilərini işğal etmək planlarını hazırlamışdı^”’. Qarabağ xanı İbrahim Xəlil xan Cavanşir"’' və Rusiya imperatorluğunun nümayən

dəsi P.D.Sisianov arasında 1805-ci il mayın 14-də imzalanan Kürəkçay müqaviləsinə əsasən Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmişdi^”^.

3aM. 33B. HfleojıorHHecKHM OTÄeaoM U,K KIICC A./ferTHpeB, saM.saB oTaejıoM naprafİHoro cxpoHxejibCTBa н KaapoBOÜ paöoxbi IfK KITCC KD.PbOKOB, sam. saB rocyaapcxBeHHO-npaBOBbiM ox^ejıoM HK KIICC **A.CoIUHHKOB.** - IfK KOCC. 06 oömecxBeHHo-noaHXHHecKOH oöcxanoBKe **в** sananHbix o6jıacxHX YKpaHHbi. 29 aBxycxa 1990 roaa. CcKpexHO. - **PfAHH,** cj). 89, on. 8, a. 52, a.2-3.

**Rusların Tiflis hanı İrakli hanı da yanlarına çekerek Dağıstan ve Azerbaycan torpaklannda askeri hareket yapma planları. - Osmanlı belgelerinde Karabağ. İstanbul, 2009, s. 156-157.**

**İbrahim Xəlil xan Cavanşir (1730-1806) - Qarabağ xanı. Pənah Əli xan Cavanşirin oğlu.**

**Pavel D.Sisianov (1754-1806) - 1796-cı ildə qraf Zubovun rəhbərliyi altında Qafqaza göndərilmişdir. 1802-ci ildə Qafqaz piyada ordusunun müfəttişi təyin edilmiş, Həştərxanın hərbi qubernatoru, Gürcüstanda hərbi komandan olmuşdur. 1806-cı ilin əvvəlində Bakı qalasına yürüş təşkil etmişdir. Bakıda öldürülmüşdür.**

**Tpaxxax MC^ny KapaöaxcKHM xanoM n** Pоссннскон **HMnepnen o nepexoae xancxBa noa Bnacxb Poccnn ox 14 Maa 1805 roaa. - Akxbi coöpannbie**

Avropada yaranmış əlverişli beynəlxalq şəraitdən istifadə edən çarizm İranı zəiflətmək, Osmanlı imperatorluğunu parçalayaraq Qara dəniz boğazlarını tutmaq, isti dənizlərə çıxış əldə etmək üçün apardığı müharibələrdə qələbə qazanmaq naminə bütün imkanlardan istifadə edirdi. İşğalçılıq müharibələrində çarizmin istifadə etdiyi çoxlu əlverişli vasitələrdən biri Cənubi Qafqazda azsaylı olan, əsasən ticarət məqsədi ilə regiona gəlib-gedən, dini mənsubiyyəti, psixologiyaları ilə bu işə yarayan ermənilər idi. Niyyətlərinə çatmaq üçün İran və Türkiyəyə qarşı apardığı müharibələr çarizmin qələbəsi ilə başa çatdı.

Müharibə nəticəsində Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal edildi. İşğalların nəticələri 1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında imzalanmış Gülüstan sülh müqaviləsi ilə təsdiq olundu^®'*.

Bir neçə il sonra yenidən başlanan müharibənin nəticəsində Azərbaycanın digər şimal əraziləri də işğal edildi. 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay müqaviləsinə əsasən isə Naxçıvan və İrəvan xanlıqları da Rusiya tərəfindən işğal olunaraq imperiyanın tərkibinə qatıldı^°^ Beləliklə, çar Rusiyası bütün Şimali Azərbaycanı özünə birləşdirdi.

Çarizmin apardığı müharibələrin və Azərbaycan ərazilərinin işğalının ağır nəticələri oldu. Bütöv və vahid Azərbaycanın ərazisi və xalqı iki yerə bölündü.

Şimali Azərbaycan əraziləri süni bölgülərə məruz qalaraq Rusiya imperiyasının qanunlarına uyğun olaraq müxtəlif inzibati hissələrə parçalandı. Ən son inzibati bölgüyə əsasən Şimali Azərbaycan Bakı, Yelizavet- pol və İrəvan quberniyaları və Zaqatala mahalına bölündü. Ermənistanın əsassız iddia irəli sürdüyü və sonralar işğal etdiyi Dağlıq Qarabağ regionu Yelizavetpol quberniyasına daxil idi.

Çarizm işğal etdiyi ərazilərdə müstəmləkəçilik siyasətini həyata keçirmək üçün müxtəlif üsullardan istifadə edirdi. Onlardan biri digər xalqların regiona köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdiril-

**CKyio apxeorpacJiHHecKyio KOMHCCHIO. Apxue rjiasuoro yupasaanna HaMecTunKa KaBKaacKoro. T. II. Hsaan noa pe^aKunefi npeaceaaTeaa KOMHCCHH Aa. Bepa<e. TncjiaHC, 1868; YKasbi cenaxa sa 1818 r. MHpHbiü xpaxTax saxaıOHeHHbiH MOKay PoccHeS H nepcnefı B FıoaHCTaHe. - ARDTA, f 202, siy.l, iş 25, v.279-284; Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 271-276.**

**MaHH(J)ecT o6 OKOHHanHH BOHHBI H saKaraneHHH Mnpa c nepcnefi. — ARDTA, f.202, siy.l, iş 71, v.311-317; Azərbaycan tarixi üzrə qaynaqlar, s. 277-283. Şükürov K. Türkmənçay-1828: tarixi xronika (ixtisarla). Bakı, 2006.**

məsi idi. Köçürmə siyasəti çarizmin müstəmləkə siyasətinin tərkib hissəsinə çevrildi. Bu siyasət nəticəsində müxtəlif xalqlar - rus, erməni, alman, polyak və b. Azərbaycana yerləşdirildilər. Lakin yerləşdirmədə üstünlük ermənilərə verilirdi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan, itaətkar ermənilər həmin işə başqalarından daha çox münasib olduqlarından çarizmin müstəmləkə siyasətində ən əlverişli vasitəyə çevrildilər.

Çarizmin regiona gəlməsi ilə o vaxta qədərki tarixdə heç bir zaman olmayan “erməni məsələsi” də yarandı. Heç şübhəsiz, ermənilərin yerləşdirilməsi birdən-birə baş vermədi. Məlum olduğu kimi, belə bir plan hələ xeyli əvvəllər də var idi. Çarizm uzun illər boyu “parçala, hökm sür” siyasətini həyata keçirmək üçün özünə etibarlı elementləri Xəzərin şimal sahillərini işğal edərək yerləşdinnəyə çalışmışdı.

Ermənilərin Osmanlı və İran ərazilərindən köçürülərək Cənubi Qafqaza yerləşdirilməsi məsələləri ilə məşğul olan xüsusi komissiya yaradıldı. On minlərlə erməni Cənubi Qafqaza köçürüldü. Əgər 1823-cü ildə Qarabağ əyalətində 10 min nəfər erməni var idisə, 1828-1829-cu illərdə onların sayı 18 min, 1843-cü ildə isə 34 min 606 nəfərə çatdı^®^. Regionda çalışmış çarizm məmuru N.İ.Şavrov bununla bağlı olaraq yazırdı ki, 1828- 1830-cu illərdə Cənubi Qafqaza 40 min İran və 84 min Türkiyə ermənisi erməni əhalisinin yox dərəcəsində olduğu Yelizavetpol və İrəvan quberniyalarında ən yaxşı torpaqlarda yerləşdirildilər. Yelizavetpol quberniyasının dağlıq hissəsi (indiki Dağlıq Qarabağ - M.Q.) və Göyçə gölünün sahilləri ermənilərlə məskunlaşdırıldı. 124 mindən çox emıəninin rəsmi olaraq 120 mini və qeyri-rəsmi olaraq isə daha çox erməni həmin əraziyə yerləşdirildi. N.Şavrov yazırdı ki. Cənubi Qafqazda yaşayan 1 milyon 300 mindən artıq ermənin 1 milyondan çoxunun diyarın köklü sakinlərinə aidiyyatı yoxdur və bizim tərəfimizdən köçürülərək yerləşdirilmişlər^®’.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti mərhələsi xıx əsrin ikinci yarısında oldu. Osmanlı ərazisində hökumət əley-

**EjiHHKa C. OnHcaHue nepecejıeuHH apMau Aa,ep6aHÄ5KaHCKHX в npeaejibi PoCCHH, C KpaXKHM npeÄBapHTejlbHblM HSJlOJKeHHCM HCTOpHHeCKHX BpeMCH Ap- MCHHU. M., 1831; BepflHesa X. OepecejıeHHecKaa noJiHXHKa PoccHHCKOH HMne- pHH B CcBepHOM A3ep5afia>KaHe. Baxy, 1999, c.228.**

lIIaBpoB **H.H.** HoBaa yrpoaa pyccKOMy aejıy **в SaxaBKasbe н** ope^cxoamaa

hinə baş verən qiyamlardan^”^ sonra köçən 35-60 min erməni Şimali Azərbaycana yerləşdirildi^””. Əgər köçürülmə nəticəsində 1873-cü ildə Yeliza- vetpol quberniyasında 99 min 918 nəfər erməni yaşayırdısa, 1886-cı ildə onların sayı artaraq 258 min 324 nəfərə çatdırıldı^”. Artıq qeyd edildiyi kimi, köçürülənlər üstün olaraq İrəvan quberniyasına, Ermənistanın son- ralar iddia etdiyi Dağlıq Qarabağ regionuna və Naxçıvana məhz o zaman yerləşdirildilər”".

Şübhəsiz, ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsində güdülən əsas məqsəd heç də erməni maraqları deyildi. Ermənilərin arzu və istəkləri ilə çarizmin müstəmləkə siyasətinin həyata keçirilməsi üsulları üst-üstə düşürdü. Çarizmin həyatın bütün sahələrində - iqtisadi, hərbi, ərazi, dini, siyasi və s. tədbirləri müstəmləkəçiliyə xidmət edirdi. Hakimiyyət orqanları bununla diyarı iqtisadi və siyasi cəhətdən imperiyaya daha sıx bağlamaq, vahid təsərrüfat sistemi yaratmaq, təbii sərvətlərini talayıb aparmaq. Osmanlı imperatorluğu və İran ilə sərhəddə təhlükəsizliyi təmin etmək niyyətlərini güdürdü. Çarizm regionda özünə sosial dayaq yaratmağa, yerli əhali olan azərbaycanlıların xüsusi çəkisini azaltmağa və demoqrafik vəziyyəti dəyişməyə çalışırdı.

Azərbaycanlılara məxsus ərazilərə yerləşdirilmənin ermənilər üçün müsbət nəticələri oldu. Onlar azərbaycanlıların münbit torpaqlarına yerləşərək çarizmin yaratdığı imtiyazlar və güzəştlər hesabına qısa müddətdə varlandılar. Bununla bağlı olaraq sonralar “Daşnaksütyun Partiyasının əksinqilabi rolu” adlı tarixi oçerkdə etiraf edilirdi ki. Cənubi Qafqaza 1 milyon 200 min erməni yaşamaq üçün hər şeyə hazır vəziyyətdə gəldi”””.

**Ermeni olayları tarihi. I. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanlık Dev- let Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlıgı. Yayın JÇo 15, 1998; II. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlığı.Yayın Na 15, 1998.**

**HcManjısaae JX.H. PyccKoe KpecTbaHCTBO в SaxaBKasbe. M., 1982, c.l20; “ApMHHCKHH reHOima”: MUcj) H peajlbHOCTb. CnpaBOHHHK CJlaKTOB H ÄOKyMeHTOB. BaKy, 1992, c. 404.**

**BepaHeaa X. HepeceneHqecKaa nonnxHKa POCCHHCKOH HMnepnn B CeBepnoM AsepöannxcaHe, c. 232.**

**Uras Esat. Tarihde ermeniler ve ermeni meselesi. İstanbul, 1987, s. 623-624; Prof. Dr. Dursun Yıldınm, Doç. Dr. M.Cihat Özönder. Karabağ dosyası. Ankara, 1991, S.5.**

**/lauiHaKuyxıOH (Coıoa) ApMUHCKaa PeBOjnoımoHHaa OeaepaxHBHaa Hapxrw. HcxopHHecKHM OHepK. - ARSSA, f. 34, iş 85-1908/1909, v. 39-43; ARMTNA, L-164, V. 140.**

Köçürülmə siyasəti nəticəsində qısa bir müddət ərzində regionda demoqrafik şərait dəyişdi. Ermənilər yerləşdirməklə çarizm Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların toxumunu səpdi.

Erməni xadimləri Qnçak (Zəng), Daşnaksütyun (İttifaq) və b. siyasi, terror təşkilat və komitələr yaratdılar.^'^ Xəzər dənizi. Qara dəniz və Aralıq dənizi arasında tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" ideyası ermənilər üçün yaradıldı. Mövqeləri möhkəmlənən ermənilər az sonra yerli xalqlara düşmən münasibət bəsləyərək onları sıxışdırmağa başladılar. Regionda ağır sosial-iqtisadi, siyasi, milli və dini ziddiyyətlər yarandı.

Ermənilərin yerləşdirilməsinin azərbaycanlılar üçün ağır nəticələri oldu. Azərbaycanlıların hesabına sürətlə varlanan ermənilərin yerləşdiril-məsinə yerli əhalinin münasibəti mənfi idi. İqtisadi imkanları tədricən məhdudlaşdırılan azərbaycanlı əhali içərisində aclıq, xəstəlik və təhqirlər çoxalırdı. Nəticədə onlar tədricən tarixi torpaqlarını tərk edirdilər.

Azərbaycan ərazilərinə ermənilərin yerləşdirilməsi XX əsrin əvvəllərində də davam etdirildi. Belə ki, 1904-1905-ci illərdə xarici ölkələrdən 45 min erməni Cənubi Qafqaza gətirilərək yerləşdirildi^'".

Ermənilərin yerli əhaliyə nifrəti böhranlı anlarda açıq düşmənçiliyə keçdi. 1905-1907-ci illər inqilabının gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları törədildi^'^. "Daşnaksütyun Partiyasının əksinqilabi rolu" adlı tarixi oçerkdə yazıldığı kimi, inqilabi qüvvələri və onun döyüşçülərinin cərgəsini parçalamaq üçün Daşnaksütyun xüsusi silahlı dəstələr yaratdı^'^, 1905-1906-cı illərdə və ondan sonra Qarabağda, Ba

kıda və Cənubi Qafqazın digər şəhərlərində erməni - türk qırğınları törət-dP'^.

**Ermeni komiteleri (1891-1895). Ankara, T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın X2 48,2001.**

ITомоIHHHK HananbHHKa **OpuBancKoro fyöepHCKoro ^anflapıvıCKoro** VnpaB-**jıeHHH B KapccKOH oöaacTH - naHajibHHKy THcjiJiHCCKoro** **DKY. 15.09.1908. 1088. CeKperno. - ARSSA, f. 276, siy. 8, iş 275, v. 1.**

**Shafıyev F. Armenian - Azerbaijani conflict: roots. Massacres of 1905-1906. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, X2 18-19, s. 14-29.**

**KoHxppeBOJiıouHOHHaH pojib napTHH TtauiHaKuyxıoH. - ARMTNA, L-164, v. 143.**

**ApMHHO-xaxapcKaa CMyxa na KaBxase, xax** OÄHH H3 **(JiasHCOB apMBHCxoro Bonpoca. TnıjmHC, TnnorpacfmB lllxaöa KaBxaacxoro**

Bakıda azərbaycanlılara qarşı başlanan kütləvi qırğınlar Şimali Azərbaycanın bütün ərazisinə, o cümlədən indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərinə də yayıldı. Azərbaycanlıların yaşadıqları yüzlərlə yaşayış məntəqəsi dağıdılaraq yer üzündən silindi. Minlərlə dinc əhali vəhşicəsinə qətlə yetirildi, daimi yaşayış yerlərindən didərgin salındı^'*.

Qırğınları törədərkən erməni silahlı dəstələri kilsədən də istifadə edirdilər. Məsələn, arxiv sənədlərində qeyd edildiyi kimi, Gəncədə erməni dəstələri silahlarını iki kilsədə saxlayırdılar^'^.

Ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdir! 1 məsində və törətdikləri kütləvi qırğınlarda növbəti mərhələ Birinci dünya müharibəsi illəri oldu. Rusiya hakimiyyət orqanları müharibə illərində "Türkiyədə yaşayan qardaşlarının azad edilməsi" şüarı altında 1914-cü ildən etibarən ermənilərdən ibarət könüllü dəstələri Osmanlı ərazisi. Cənubi Azərbaycan və Cənubi Qafqazda yaradaraq ordunun cərgələrini doldurdu. Bu dəstələr Anadolu və Cənubi Azərbaycanda dinc türk və digər müsəlman əhaliyə qarşı kütləvi qırğınlar törətdilər^"®. Erməni silahlı

**Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni - müsəlman davasının tarixi. Bakı, 1991; Swietochowski T. Russia and Azerbaijan. A Borderland in Transition. New York, Columbia University Press, 1995, p. 37-42.**

**İsmayılov R. Azərbaycan tarixi. Bakı, 1993, s. 125.**

**Gencedeki iki ermeni kilisesinde çok miktarda tüfek ve patlayıcı ortaya çıkarılması. - Osmanlı belgelerinde Karabağ, s. 226-227.**

**Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi. I. 1906- 1918. 1. Hüseyn Nazim Paşa. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın ffe 23, Ankara, 1995; Armenians in Ottoman documants (1915-1920). The Turkish Republic Prime Ministry General Directorate of the State Archives. Directorate of Ottoman Archives. Publication Nb 25, Ankara, 1995; Salahi Sonyel. The Great War and the tragedy of Anatolia (turks and armenians as the maelstrom of major powers). Ankara, 2000; Bilal N. Şimşir. The genesis of the armenian question. Publicatıons of the Turkish Historical Society. Serial VII. Jfe 84. Ankara, 1992; Ermeniler tarafından yapılan katliam belgeleri (1919-1921). II. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın Jfs 50, 1921; Arşiv belgelerine göre Kafkaslarda ve Anadoluda ermeni mezalimi. IV. 1920-1922. Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Osmanlı Arşivi Daire Başkanlığı. Yayın Jtb 35, 1998; Azerbaycan belgelerinde ermeni şorunu (1918-1920). Ankara, T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlügü Cumhuriyet Arşivi Daire Başkanlığı. Yayın**

dəstələri Osmanlı dövlətini arxadan vurdular. Yaranmış ağır vəziyyətdə müharibə aparmasına baxmayaraq, türk hökuməti maliyyə vəsaiti, hətta jandarma qüvvələri və həkimlər ayırıb erməniləri mühafizə edərək ölkə daxilində daha təhlükəsiz ərazilərə köçürməyə məcbur oldu^^'.

Qafqaz cəbhəsində hərbi əməliyyatlar zonasından çoxlu sayda erməni Cənubi Qafqaza da gəldi. Çarizmin rəsmi statistik məlumatlarından aydın olur ki, 1914-cü ildə təkcə İrəvan quberniyasında 1 milyon 44 min 97 nəfər yaşayırdı. Onlardan 596 min 654 nəfəri erməni, 372 min 800 nəfəri azərbaycanlı idi. Azərbaycanlıların 201 min 115 nəfəri kişi, 171 min 685 nəfəri qadın idi^^'.

Belə bir şəraitdə Qafqaz canişini Qafqazda torpaq islahatı aparmaq barədə düşünürdü. Bu islahat əslində ermənilərə torpaq vermək niyyəti güdürdü. Rusiya Dövlət Şurasının üzvü A.M.Eristov^^^ "Birjevie vedomosti" qəzetində çap olunmuş Qafqazda torpaq islahatından bəhs edən məqaləsində yazırdı: "Görməmək mümkün deyildir ki, söhbət yalnız başdan-başa bircə erməni ərazisi yaradılması haqqında gedir". Canişinin layihəsinə görə, Axıska qəzası Tiflis quberniyasından alınıb Kars vilayətinə, Borçalı qəzasının xeyli hissəsi və Yelizavetpol quberniyasının ermənilər yaşayan hissəsi İrəvan quberniyasına birləşdirilməli, Yelizavetpol quberniyasını incitməmək üçün Tiflis quberniyasının Borçalı qəzasının qalan hissəsi kompensasiya kimi ona verilməli idr^"*.

Hərbi əməliyyatların gedişində Cənubi Qafqaza gələn ermənilər yenə də əsasən azərbaycanlılara məxsus torpaqlara yerləşdirilirdilər"^^. Belə bir fakt diqqəti cəlb edir ki, müharibə dövründə Erməni qaçqınlara

**28, 2001; Hacıyev S. Birinci dünya müharibəsi illərində Türkiyə - Rusiya münasibətlərində erməni terroru. Dissertasiya işinin avtoreferatı. Bakı, 1996.**

**Kemal Çiçek. Ermenilerin zorunlu göçü. 1915-1917. Ankara, Türk Tarih Kurumu, 2005; Armenian calms and historical facts. Questions and answers. Ankara, Center for Strategic Research, 2005; FypKO-KprDKHH B. ApMaHCKHü Bonpoc. Baxy, 1990.**

**"KaBKaacKHH KajıeHaapb" na 1914 ro/r. Hoa pea- A.A.Əjibsenrepa, H.n.CxejiMaıııyKa. THCJIJIHC, 1915, c.218-221, 250-258.**

**Andrey Eristov (1855-1932) - knyaz, siyasi xadim.**

**063op nenaxn. SCMCXBO na KaBxas. - Eaa. "Kaconü", Baxy, 1914, 26 Hoaöpn, Jf2 265.**

**Daha ətraflı bax: Qasımlı M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust - 1917-ci il oktyabr). Bakı, 2000; II hissə (1917-ci il noyabr-1918-ci il noyabr). Bakı, 2001; III hissə. Sənədlər, materiallar, şəkillər. Bakı, 2004.**

yardım üzrə Mərkəzi Komitəsinin fəxri sədri yepiskop Mesrop erməni qaçqınlarına yardım kampaniyasına başlayan Petroqrad şəhər başçısına 100 min Türkiyə ermənisini Qafqaz diyarında yerləşdirmək ümidində olduğunu yazırdı^^^. Ermənilərin yerləşdirilməsi iri şəhərlərdə münasibətləri kəskinləşdirdiyindən Bakı general-qubernatorunun təqdimatı ilə onların Bakı şəhərinə kütləvi şəkildə yerləşdirilməsi qadağan edildP^^. 1915-ci ilin yanvar ayında İrandan Qafqaza gələn ermənilərin sayı 20 min nəfər idi^^^. “Baku” qəzeti “Kavkazskoe slovo” qəzetinə istinadən yazırdı ki, 1915-ci ilin əvvəllərində İranda rusların işğal etdikləri ərazilərdən köçürülən və sayı 100-120 min nəfər olan erməni əsasən Naxçıvan, Sürməli, Eç- miadzin, İrəvan, Aleksandropol və Yelizavetpolda yerləşdirilmişdir^'^. Təbriz və onun ətrafı nəzərə alınmadan Cənubi Azərbaycandan Cənubi Qafqaza köçürülən ermənilərin sayı 60 min nəfər təşkil edirdi. 1915-ci ilin martında keçirilən Eçmiadzin kilsə qurultayının sənədlərindən aydın olur ki, Türkiyə və İrandan köçürülərək Cənubi Qafqaza yerləşdirilən ermənilərin sayı 60 min nəfər idi^^°. Təkcə 1915-ci ilin iyul ayında Qafqaz canişinin sərəncamına əsasən Cavanşir və Şuşa qəzalarına 24 min nəfər erməni yerləşdirilmişdi. Avqust ayında isə 52 min erməninin gəlməsi gözlənilirdi. Onların 15 mini Yelizavetpola, 15 mini Şuşa, 10 mini Qazax, 8 mini Cavanşir, 4 mini isə Ərəş qəzalarına yerləşdirilməli idi^^*.

Ermənilərin azərbaycanlılara məxsus ərazilərə yerləşdirilməsi milli ziddiyyətləri kəskinləşdirirdi. Heç əbəs deyildir ki, Qafqaz canişinliyi xüsusi şöbəsinin rəisi Pisarski 1915-ci il 28 avqust tarixli 3720 J4°-li məxfi məktubunda Rusiyanın İran ilə sərhəd komissarına yazırdı: “Erməni və müsəlmanların (azərbaycanlıların - M.Q.) bir-birilə*rinə nifrət etməsinin səbəbi qəzalara ermənilərin yerləşdirilməsidir”^^^.

**° ApMHHCKaa 5KH3HB. - Ta3. “BaKy”, Baxy, 1915, 14 anBapa, Na 10; ApMancKaa** )KH3Hb.- **ra3.“BaKy”, BaKy,1915, 21 ansapa, Na 16.**

**ApMancKaa >KH3Hb.** -Tas. **“KacoHÜ”, Baxy, 1915,11 ansapa, Na 8.**

**Baxy. 13 ansapa. - Faa. “Kaconn”, Baxy, 1915, 13 aneapa, Na 9.**

**ApMancKaa** >KH3Hb. **- Taa. “BaKy”, Baxy, 1915, 22 ansapa. Na 17.**

**ApMancKaa >KH3nb. K ƏnMnaÄanncKOMy cı.e3Äy. - Taa. “Kacnnn”, BaKy, 1915, 12 Mapra; Na 57.**

**noMomb** öeacenuaM. **- Faa. “BaKy”, BaKy, 1915, 1 aer^cra. Na 171. rioa aaBeflbiBaıouJHH ocoöbiM OTaeaoM OncapcKnü - PoccnncKOMy norpa-nHHnoMy c nepcnen KOMHCcapy. 28 aarycra 1915 r. Na 3720. CeKpexno. - ARDTA, f. 524, siy. 1, iş 39, v. 97-98.**

Bakıya ermənilərin yerləşdirilməsi dayandırıldığından onlar üstün olaraq yenidən Yelizavetpol quberniyasına, xüsusən Qarabağın dağlıq hissəsinə yerləşdirildilər. Lakin quberniya ərazisində çoxlu sayda ermənini yerləşdirməyə şərait yox idi. Cənubi Qafqaz işğal edilərək sovetləşdiril- dikdən sonra yaradılmış Zaqafqaziya Federasiyası İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının sədri Rakatadze, komissiyanın üzvü M.Karabek və katibi İsaakyan 1922-ci ilin dekabrında hazırladıqları izahat qeydində yazırdılar ki, 1915-ci ilin iyulunda türk cəbhəsində hərbi əməliyyatlardan sonra Türkiyə Ermənistanından (Türkiyənin şərq vilayətləri nəzərdə tutulur. - M.Q.) 250 min nəfər erməni Zaqafqaziya hüdudlarına gəlmişdir^^^. 1915-ci ilin avqust ayına olan məlumata görə isə Cənubi Qafqaza gələn ermənilərin sayı həmin ilin qışında 60 min nəfər idisə, avqust ayında artıq 260 min nəfəri ötüb keçmişdi^^".

Hakimiyyət orqanlarının bütün maneələrinə baxmayaraq, ermənilərin Bakıya yerləşdirilməsinin qarşısını almaq mümkün olmadı. Belə ki, 1915-ci il avqust ayının əvvəllərində Bakıda 1820 nəfər erməni məskunlaşdırılmışdı. Həmin müddətə qədər artıq Bakıya 2000-dən çox erməni yerləşdirilmişdi^^^. “Baku” qəzetinin 1915-ci il 4 sentyabr tarixli sayında dərc edilmiş “Ermənistanın göz yaşları” adlı məqaləsində Türkiyədəki bütün 1 milyon 200 min nəfər ermənidən 200 min nəfərinin Qafqaza köçürüldüyü yazılırdr^^. Başqa bir məlumata görə isə Cənubi Qafqaza köçürülən ermənilərin sayı 225 min nəfər idi^”. Bunların 110 min nəfəri İrəvan quberniyasına, 20 min nəfəri Yelizavetpol quberniyasına, 30 min nəfəri Tiflis quberniyasına, 20 min nəfəri Kars quberniyasına yerləşdirilmişdi. Qafqaz canişinliyinin 1915-ci il 1 oktyabr tarixli məlumatına görə, Yelizavetpol quberniyasına 10 min 672 nəfər erməni yerləşdirilmişdi^^*.

Ermənilərin Cənubi Qafqaza köçürülməsi heç də problemlərsiz deyildi. Regionun yerli xalqları ermənilərin yerləşdirilməsinə etiraz edirdi-

**KaKa5afl3e M., KapaGeıom, HaÄ)Ka(})OB, HcaaKan - B Coıo3HbiH COBCT CCP 3aKaBKa3bH. Oö-bacHHxejibHaa 3anHCKa Be^KencKOH KOMHCCHH npn COK)3HOM CO- Bexe CCP3. - GMƏYTA, f6I2 , siy.l, iş 27, v. 1-4.**

**noMomb apMHHaM H aücopaM. - Ta3. “Bany”, Baxy, 1915, 18 aBxycxa, ffo 183.**

**Be>KeHUbi B Baxy. - Faa. “BaKy”, BaKy,1915, 4 Hoaöpa, Jfs 246.**

**ApMBHCKaa >KH3Hb. Cjıe3bi ApMBHHH. - Tas. “Bany”, BaKy, 1915, 4 ceHXH6pa, Jfo 197.**

**BacHJiaa LLI. H. 3aKaBKa3be B roafai nepBOÜ MHpoBOH BOÜHbi. CyxyMH, 1968, C. 121.**

**^^^ApMaHCKaa >KH3Hb. - Fas. “KacoHÜ”, Baxy, 1915, 16 OKxaöpa, İNb 230.**

lər. Bu baxımdan “Baku” qəzetinin gürcülərin “Zakavkazskiy Reç” qəzetinə istinadən dərc etdiyi bir məlumat ermənilərin diyara köçürülməsinin məqsədlərinə bir daha aydınlıq gətirir. Gürcü qəzeti ermənilərin Qafqaza köçürülməsini 1828-1829-cu illər müharibəsi ilə əlaqələndirir, başlıca məqsədin onlara torpaq payının ayrılması olduğunu yazırdı . Qəzet ermənilərin geriyə, öz torpaqlarına qayıtmalarının vacibliyini vurpulayır, onlara Qafqazda ərazi verməyin gərginlik yaradacağını qeyd edirdi"‘’°.

Bütün bunlara baxmayaraq, Qafqaz canişinliyinin Qaçqınlar işi üzrə baş səlahiyyətli nümayəndəliyi ermənilərin azərbaycanlılara məxsus ərazilərə yerləşdirilməsini planlı şəkildə həyata keçirirdi. Yelizavetpol qubernatoru 1915-ci il 6 oktyabr tarixli 9028 Jfs- li məktubunda Qafqaz canişininin 24481 >f»-li məktubuna cavab olaraq 1915-ci il sentyabrın 25-dək Dilicandan keçərək Qazax qəzasına 4073 nəfərin gəldiyini yazırdı"”. 1915-ci il oktyabrın 25-ə olan məlumata görə, İrəvan quberniyasına 93 min erməni yerləşdirilmişdi^’’^. Yelizavetpol qubernatoru 1915-ci il 1 noyabr tarixli 10354 Jf₂-li digər bir məktubunda isə Qafqaz canişininə quberniyada hələlik 11 min 228 nəfərin yerləşdirildiyini qeyd edirdi. Onun yazdığına görə, daha 10 min nəfər də yerləşdirmək olardı. Lakin əgər quberniyaya bu normadan artıq göndərilərdisə, o zaman onları dağ kəndlərində yerləşdirməyə məcbur olacağını, orada aclıq və xəstəlikdən əziyyət çəkəcəklərini, ona görə də Yelizavetpol quberniyasına 10 min nəfərdən artıq qaçqın göndərməməyi, qalanlarını Bakı quberniyasına yerləşdirməyi xahiş edirdi^"^. Bundan sonra ermənilərin yenidən Bakıya yerləşdirilməsi davam etdirildi. Erməni qaçqınlarına Bakı yardım komitəsinin sədri T.Ter Mikaelyan Qafqaz cəbhəsinin qaçqınların yerləşdirilməsi üzrə baş səlahiyyətli nümayəndəsi general-mayor 'V.M.Tamamşevə 1915-ci il 18 dekabr tarixli məktubunda son vaxtlar Bakıya gələn erməni uşaqları üçün 400 nəfərlik məktəbin açıldığını, 300 nəfərin 2 yataqxanada, 100 nəfərin isə evlərdə yerləşdirildiyini, onlara yemək, xəstəxana və iş xidməti göstərildiyi-

**" ® OxBex “SaKaBKaacKOH Pemı”. - Pas. “BaKy”, Baxy, 1915, 16 OKXHÖpa, Jfs 230. Yenə orada.**

**H.Pl.EaHcaBexnoJibCKHH ryöepuaxop-B KaHuejiHpmo uaMecxHHKa ero HMne- paxopcKoro BejiHnecxBa na KaBxase. 6 OKxaöpa 1915 r. JÇo 9028. - ARDTA, f.l, siy.l, iş 1496,v.l.**

**ApMHHCKax >KH3Hb. - Pa3. “KacoHÜ”, Baxy, 1915, 6 HOHÖpa, 248. H.Tl.EaHcaBexnoabCKHÜ ryöepuaxop - B KaHueaapHK) uaMecxHHKa ero** MMne- **paxopcKoro BejiHHecxBa na KaBxase. 1 HOHÖpn 1915 r. Rs 10354. - ARDTA, f.l, siy.l, iş 1496 v.12-13.**

ni, 500 nəfərin işə düzəldildiyini yazırdı[244]. Qafqaz erməni xeyriyyə cəmiyyəti şurasının və Mərkəzi Komitəsinin sədri S.Arutunov isə 1916-cı il yanvarın 8-də Qafqaz canişinliyinə göndərdiyi teleqramında 1915-ci ilin avqust ayından dekabrın 1-dək Bakıya 3200 ermənin yerləşdirildiyini qeyd edirdi[245].

Ermənilərin yerləşdirilməsinin və silahlı dəstələrinin yaradılmasının ağır nəticələri özünü çox da gözlətmədi. 1917-ci ilin əvvəllərində ölkədə böhranlı vəziyyət yarandı. Fevral inqilabı nəticəsində Rusiyada Romanovlar [246]sülaləsi devrildi. Aleksandr Kerenskinin[247] başçılıq etdiyi Müvəqqəti hökumət "erməni məsələsi"nə beynəlxalq xarakter verdi. Onların nümayəndələrinə müharibə nəticəsində imzalanacaq sülh müqaviləsinin şərtlərinə Türkiyə Ermənistanına muxtariyyət verilməsi haqqında məsələni də daxil edəcəyini bildirdi[248]. Bu zaman Daşnaksütyun Partiyası yalnız yeni ərazilər tutmaq barədə düşünürdü[249].

1917-ci ilin oktyabrında Rusiyada çevriliş baş verdi. Bolşeviklər hakimiyyəti ələ aldılar. Cənubi Qafqazda çoxhakimiyyətlilik yarandı. Sovetlər, Milli Şuralar və Müvəqqəti hökumətin orqanları arasında mübarizə qızışdı. Hərc-mərclik artdı. Bolşevik Rusiyası Almaniya bloku ölkələri ilə Brest Litovskda barışıq imzaladı. Rus – türk cəbhəsi dağıldı. Dinc türk əhaliyə qarşı törətdikləri soyqırımlara görə cəzasız qalmayacaqlarından qorxaraq rus ordusu ilə birlikdə geri çəkilən erməni silahlı dəstələri yaranmış şəraitdən istifadə edərək məqsədlərini reallaşdırmaq üçün hərəkətə keçdilər. Onlar Anadoluda və Cənubi Azərbaycanda etdikləri kütləvi qır-

---

[244]Председатель Комитета по оказанию помощи беженцам-армянам. Т.Тер-Микаелян – главноподномоченному по устройству беженцев Кавказского фронта, генерал-майору Тамамшеву. 18 декабря 1915 г. – ARDTA, f.1, siy.1, iş 1495,v.10 – 12.

[245] И.Д.Елисаветпольский губернатор – в канцелярию наместника его императорского величества на Кавказе. 1 ноября 1915 г. № 10354. – ARDTA, f.1, siy.1, iş 1496 v.13.

[246] Romanovlar – rus boyar nəsli. Rus çarları sülaləsi (1613-1917).

[247] Aleksandr Kerenski (1881, Simbirski, Rusiya – 1970, ABŞ, Nyu York) – 1917-ci ilin iyulundan noyabrın 8-dək Rusiyada müvəqqəti hökumətin başçısı.Vəfat etdikdən bir müddət sonra məzarı Londona köçürülmüşdür.

[248] Рубен. Обвинения и действительность. № 2, с. 40. – Выписка из архивного дела № 8. Дашнаки, v.41-46. – ARMTNA, ÇF-852, v.43-46.

[249] Контрреволюционная роль партии Дашнакцутюн. – ARMTNA, L-164, v.150.

ğmları bu dəfə Borçalıda, İrəvan quberniyasında və Cənubi Qafqazın digər ərazilərində törətdilər.

1917-ci ilin noyabrında Bakıda elan edilmiş sovet hökuməti əksinqilabi ünsürlərə qarşı mübarizə şüarı altında 1918-ci ilin mart ayında bütün Bakı quberniyasında azərbaycanlıların məhvinə yönəldilmiş planı həyata keçirməyə başladr^°. İdeoloji fərqlərə baxmayaraq, Rusiya və erməni bolşevikləri Daşnaksütyun Partiyası ilə birgə hərəkət edirdilər. Minlərlə azərbaycanlı yalnız etnik və dini mənsubiyyətinə görə Bakı ilə yanaşı, Azərbaycanın Şirvan, Qarabağ, Zəngəzur, Naxçıvan, Quba, Lənkəran və digər bölgələrində kütləvi surətdə məhv edildilər. Bu ərazilərdə mülki əhali qırıldı, kəndlər yandırıldı və milli mədəniyyət abidələri dağıdıldı^^'.

Tiflisdə yaradılmış Transqafqaz Seymi qırğınların qarşısını ala bilmədi. Böhran daha da dərinləşdi. Kəskin ziddiyyətlər ucbatından 1918-ci il may ayında Transqafqaz Seymi dağıldı. May ayının 28-də Azərbaycan Cümhuriyyəti yaradıldı. Bütün müsəlman şərqində ilk dəfə olaraq Azərbaycan xalqı cümhuriyyət idarə üsulunu qurdu. Azərbaycan Milli Şurasının qəbul etdiyi İstiqlal bəyannaməsində “Bu gündən etibarən Azərbaycan xalqı suveren hüquqlara malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan da müstəqil hüquqi bir dövlətdir” yazılırdı. Beləliklə, Azərbaycan xalqı uğrunda mübarizə apardığı müstəqilliyinə qovuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin əhalisi 4 mln. 617 min 671 nəfər idi. Onun 75,4%-ni entik azərbaycanlılar təşkil edirdi. Ölkənin ərazisi 113895. 97 kv. km. idi^^l

Qafqazda heç bir zaman mövcud olmayan Ermənistanın da dövlət müstəqilliyi mayın 28-də elan edildi. Yeni yaradılan dövlət Ararat Respublikası adlanırdı. “Daşnaksütyun Partiyasının əksinqilabi rolu” adlı tarixi arayışda Ermənistan Respublikasının Yeni Bəyazit, İrəvan və Alek-

**Mart - 1918 r. CocTaBnxeiib: noKxop ncxopnHecKnx nayx CojiMaa PycxaMOBa -Torunu. BaKy, 2009; BanaeB A. MapxoBCKwe coƏbixna 1918 rona в AsepƏafi- n>KaHe. TÖHJIHCH, 2009.**

**İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşü- naslığı. 1918-1920. Bakı, 2006; Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s. 207-292.**

**Anpec-KajıeHnapb A3ep6aün>KaHCKOH PecnyöJiHKH. 1920 ron. Hon pen,. A.H.CxaBpoBCKoro. Baxy, 1920, c. 76-88; Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. II hissə (1917-ci il noyabr-1918-ci il noyabr), s.153.**

sandropol qəzalarının hissələrindən yaradıldığı yazılırdı . Azərbaycanlılara məxsus torpaqlarda yaradılan bu respublikanın ərazisi 9 min kv. km. idi. Lakin qısa müddət ərzində təcavüzkar siyasət nəticəsində Ararat Respublikası ərazisini xeyli genişləndirdi. Ermənistanın ərazisi barədə Tiflis- dəki ABŞ konsulu Smit dövlət katibinə 1918-ci il 15 iyul tarixli teleqramında məlumat verərək yazırdı: “Almaniya və Türkiyə tərəfindən tanınmış yeni Ermənistan dövlətinin ərazisi 12 min kvadrat kilometrə, sərhədləri isə Dilicandan sənub-qərbdə Alagözə, oradan isə Eçmiadzinin cənubundan İrəvanın şərqinə, oradan da Sevan gölünə qədərdir”^^".

Ermənistan adlı dövlətin yaradılmasında Osmanlı imperatorluğu da müstəsna rol oynadı. Osmanlı imperatorluğu həm də Rusiya ilə arasında Cənubi Qafqazda kiçik və zəif bufer dövlətlərin yaradılmasında maraqlı idi. Bəzi Osmanlı xadimlərinin baxışlarına görə, regionda sülh burada yaşayan xalqların istəklərinin yerinə yetirilməsindən keçirdi. Lakin həmin ümidlər özünü doğrultmadı. Ermənilər az sonra əsassız ərazi iddialarına düşdülər. Erməni bolşevik xadimi Anastas Mikoyan ^^^1919-cu ildə “Erməni imperializmi haqqında” adlı məqaləsində yazırdı ki, erməni xalqı üçün təəccüblü və tragikomediya olmasa da, özünün spesifikliyi, irticaçı xarakteri və məzmunu ilə erməni imperializmi mövcuddur. A.Mikoyan Ermənistanın faktiki olaraq İrəvan quberniyasının ərazisini əhatə etdiyini, burada müsəlman əhalinin ermənilərdən bir qədər az olduğunu, ermənilərin əhalinin nisbətən böyük kütləsini təşkil etdiyi yeganə ərazi olduğunu qeyd edirdi^^^.

Yeni yaradılan Ararat Respublikasının paytaxtı yox idi. Erməni Milli Şurası Azərbaycana müraciət edərək İrəvan şəhərinin paytaxt kimi verilməsini xahiş etdi. Müraciət Azərbaycan Milli Şurasının mayın 29-da Tiflisdə keçirilən iclasında müzakirə edildi. Məsələ üzrə çıxış edən Na-

**KoHxppeBOJiıouHOHHbiH pojib napTHH /lauiHaKuyTKDH. - ARMTNA, L-164, v. 169.**

**The Concul at Tiflis (Smith), temporarily in Moscow, to the Secretary of State. (Telegram). Moscow, July 15, 1918. - Papers Relating to the Foreign Relations of the United States. 1918. Russia ( İn three volumes). Volume II. Washington, 1932, p. 637-638; National Archive and Record Administration ( NARA ), File, No 861.00. 2458.**

**Anastas Mikoyan (1895-1978) -1918-ci ildə azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri (1964-1965). MHKOHH A. 06 apMSHCKOM HMnepnajiHSMe. - ARMTNA, L-164, v.264.**

zirlər Şurasının sədri Fətəli xan Xoyski^^' Erməni Milli Şurası ilə bu barədə aparılan danışıqlar barədə məlumat verərək ermənilərin dövlətinin yaradılması üçün onlara siyasi mərkəzin lazım olduğunu, Aleksandropolun (Gümrü) Türkiyəyə keçməsindən sonra belə mərkəzin yalnız İrəvan ola biləcəyini, İrəvanın güzəştə gedilməsinin qaçılmaz olduğunu söylədi. Müzakirələrin sonunda keçirilən səsvermə nəticəsində İrəvanın ermənilərə paytaxt kimi güzəştə gedilməsinin lehinə 16 nəfər, əleyhinə 1 nəfər səs verdi, 3 nəfər isə bitərəf qaldı (sənəddə belə yazılmışdır. Bu isə 20 nəfər edir - M.Q.). Azərbaycanlı deputatlar Ermənistan ilə konfederasiya yaratmaq məsələsini də müzakirə etdilər. Onun gələcək quruluşu barədə razılaşdılar^^*. Lakin Azərbaycanın ümidləri özünü doğrultmadı. İrəvanı paytaxt kimi aldıqdan sonra da Ermənistan sakitləşmədi. Ermənistan silahlı qüvvələri azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınları amansızlıqla həyata keçirməyə başladı. İngilis nümayəndəsi P.Koks 1918-ci il 30 oktyabr tarixdə Tehrandan göndərdiyi teleqramında həmin ilin mart ayında Cənubi Qafqazda 180 azərbaycanlı kəndinin dağıdıldığını və azərbaycanlıların öldürüldüyünü yazırdı^^^.

"Daşnaksütyun Partiyasının əksinqilabi rolu" adlı arayışdan isə aydın olur ki, Ermənistanda hakimiyyətdə olan Daşnaksütyunun 30 aylıq hökmranlığı dövründə (may 1918-ci il - noyabr 1920-ci il) azərbaycanlı əhalinin 60%-i yer üzündən silinmiş^", Ermənistanın bütün türk əhalisi qanundan kənar elan edilmiş, Ermənistan ərazisində yaşayan azərbaycanlı və kürd əhalisini qırmaq yolu ilə Daşnaksütyun ölkəni erməniləşdirmək

**' Fətəli xan Xoyski (1875-1920) - görkəmli Azərbaycan dövlət və siyasi xadimi. 1897-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Məhkəmələrdə işləmişdir. Ümumrusiya Müəssislər Məclisinə seçilmişdir. 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin ilk Baş Naziri təyin edilmişdir. Xarici işlər naziri olmuşdur. Azərbaycan 1920-ci ilin aprelində işğal edildikdən sonra Tiflis şəhərinə getmişdir. 1920-ci il iyunun 19-da muzdlu erməni tərəfindən qətlə yetirilmişdir. Tiflisdə Mirzə Fətəli Axundovun məzarının yanında dəfn edilmişdir.**

ripoTOKOJi Xs 3 saceaaHHH MycyjibMaHCKoro HauuoHajibHoro CoBexa, COCTOH-uierocH 29 Mas 1918 r. B ropoÄ TuijiJiHC BO ÄBopue. - ARDA , f.970, siy.l, iş 1, V. 51-52.

**Persia. Military. Decypher. Sir P.Cox (Teheran). November *2"^* 1918. Xa 936. My telegram Xs 931 of October 31 st. - The Great Britain Archive. FO 371/ 3262/ 27763.**

**KoHxppeBOJtıouHOHHas pojib napxnu ffamuaKLiyxıoH. - ARMTNA, L-164,** V. **144.**

ideyasını həyata keçirmiş, digər milli azlıqları təqib etməklə ölkədə milli qırğını qızışdırmışdı^^'. Daşnak hökuməti erməni millətindən olmayanları hakimiyyət orqanlarına yaxın buraxmamaq barədə dekret də vermişdi"^^.

1917- 1920-ci illərdə Ermənistanda əhalinin milli tərkibi zorla dəyişdirildi. Daşnaksütyunun hakimiyyəti illərində bütövlükdə ölkədə əhali 35,5% azalmışdı. Ermənistanda türklər əgər 1918-ci ildə 260 min nəfər idilərsə, 1920-ci ildə 60 min qalmış və ya 77%, kürdlər 25 min nəfər idilərsə, 0,5 min nəfər qalmış və ya 98%, yezidi kürdlər (sənəddə yezidlər yazılmışdır - M.Q.) 8 min nəfər idilərsə, 5 min nəfər qalmış və ya 40% azalmışdılar. Ruslar həmin müddət ərzində 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7%, digər millətlərin sayı isə 7 mindən 4 min nəfərə düşmüş və ya 43% azalmışdı^®^.

Erməni silahlı dəstələri kütləvi qırğınları Qarabağ regionunda da törətdilər^""*. Daşnak hökumətinin baş naziri işləmiş Ov. Kaçaznuni^^^ nəinki Qarabağ və Qazaxda, eyni zamanda Ermənistan daxilində də yerli azərbaycanlı əhali ilə bir sıra qanlı döyüşlərin aparıldığını sonralar, 1923-cü ildə Buxarestdə etdiyi nitqində etiraf edirdi^^^.

Azərbaycan hökuməti Qarabağda törədilən qırğınların qarşısını aldı. 1918- cu ilin yanvar ayında Azərbaycan hökuməti mərkəzi Şuşa olmaqla Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət müvəqqəti Qarabağ general-qubernatorluğu yaratdı.

Azərbaycanlılara qarşı törədilən qırğınlar qonşu ölkələrin rəsmi qurumlarının da diqqətindən kənarda qalmamışdı. Belə ki, İranın xarici işlər naziri Etela ül Mülk 1919-cu il oktyabrın 21-də P.Koksa göndərdiyi məktubunda “Britaniya hökumətinin ermənilər tərəfindən İrəvan, Naxçıvan, Kars və eləcə də bütün Ermənistanın sərhəd bölgələrində törədilən vəhşiliklərdən və soyğunçuluqdan xəbərdar olduğuna şübhə etmədiyini” yazır, “böyük dövlətlərin nümayəndələrinin ermənilərin vəhşi təcrübəsinin şahi-

**Yenə orada, v. 180.**

**Yenə orada.**

**Yenə orada, v. 189.**

**Məmmədova H.İ. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: erməni terrorunun güclənməsi (1918-1920). Bakı, 2006.**

**Ovanes Kaçaznuni (1868-1938) - Daşnaksütyun Partiyasının üzvü. Ermənistanın Baş Naziri (1918-1919). Azərbaycanlılara qarşı törədilən soyqırımın təşkilatçılarından biri.**

**KaMaanyHH Ob. TfamHaKuyxıOH: öoıibme** Henero **Äejıaxb. Baxy, 1990, c. 33.**

di olduqları üçün onlara qarşı tədbir görməyə və cəzalandırmağa qərar vermələri"ni xahiş edirdi[267].

Sovetləşdirildikdən sonra Gürcüstan Fövqəladə Komissiyasının rəsmi sənədlərində də erməni silahlı dəstlərinin törətdikləri qırğınlar barədə məlumat verilərək yazılırdı ki, Daşnaksütyunun yad qüvvəni məhv etmək üsulunu təkrar etdi, Kars vilayətində 80 kəndi yer üzündən sildi[268].

Qeyd etmək lazımdır ki, daşnak Ermənistanı təkcə Azərbaycana deyil, eyni zamanda Gürcüstana da qarşı ərazi iddiaları irəli sürərək hərbi əməliyyatlara başladı[269]. Gürcüstanda yaşayan ermənilərin bir qismi terror və separatçılığı genişləndirdilər[270].

20-ci illərdə yaranmış əlverişsiz beynəlxalq şəraitdə Azərbaycanın dövlət müstəqilliyi üçün təhlükə yarandı. Azərbaycan Cümhuriyyətinin varlığına bolşevik Rusiyasının işğalı nəticəsində son qoyuldu. 1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR) yaradıldı. Həmin ilin avqustun 5-də tərtib edilmiş arayışda Azərbaycanın Ermənistan ilə mübahisəsiz ərazisi belə göstərilirdi: sərhəd Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən başlayır, sonra Qazaxdan, Aleksandropoldan (Gümrü) və Yeni Bəyazitdən Maralıca dağlarına qədər, oradan birbaşa Göyçə gölünə enir, təxminən 11/2 verst şimala Çubuqlu kəndindən sonra Göyçə gölünü ikiyə bölür, onun cənub sahili ilə qərb istiqamətinə gedir, Göyçə gölünün cənub sərhədində sərhəd Zağalı və Gödək Bulaq kəndləri arasından başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yuxarısından Göyçə gölünün cənub sahillərinin dağlıq rayonlarından – Qızıl Harava (təxminən 10859) və Ağmahan yüksəkliklərindən keçir. Qərbdə İrəvan və Yeni Bəyazit qəzalarının sərhədlərindən Kiçik Ağdağa doğru gedir, müsəlmanların (azərbaycanlıların – M.Q.)

---

[267] Sd. Etela ul Mulk. Massacre of Moslems by Armenians/From the Persian Oficce to Sir P.Cox.October 21 st 1919. – The Great Britain Archive. FO 371/ 3660/ 27588.

[268] Чрезвычайная Комиссия Грузии. Инструкционное письмо Малого Президиума. №3. Совершенно секретно. Тифлис, Электропечатная Грузчека, 1922. – ARMTNA, PF-41065, 4-cü cild, v.18-19.

[269] Мархулия Г. Армяно-грузинские отношения в 1918-1920 годах. Тбилиси, 2007.

[270] Тетвадзе Ш., Тетвадзе Г. Армяне в Грузии. Тбилиси, 2008; Армяноязычное население всей Грузии и теневые стороны и проблемы возрождения единой Грузинской государственности (материалы научной конференции. Тбилиси, 2006, 27 октября). Тбилиси, 2006.

yaşadığı dağlıq rayonları ermənilərin məskunlaşdığı kəndlərdən ayırır. Sonra sərhəd Kiçik Ağdağ dağlarından şimal-qərbə Toğmahan gölü istiqamətində Təzəkənd kəndinə doğru gedir, oradan Gəmiçay çayı ilə Yuxan Ağbaş kəndinə çatır və onun qarşısından şimala doğru 3620 yüksəkliyə qalxır, oradan cənub-qərbə Uluxanlıya gedir, Uluxanlı kəndi və Ulu- xanlı dəmiryolu stansiyasının arasından keçərək Araz çayına qədər uzanır və şimalda Rəncbər kəndinə çatır. Rəncbər kəndindən Araz çaymadək sərhəd birbaşa qərbə. Sürməli qəzası ilə Eçmiadzin və Kars vilayətlərinin keçmiş inzibati sərhədləri ilə qovuşur və Təndürək dağlarına, keçmiş rus- türk sərhədlərinə doğru gedir^’’.

1919- ci ilin payızında Ermənistan sovetləşdirildi. Bundan sonra mərkəzi bolşevik hakimiyyəti çarizm dövründə yürüdülən siyasəti davam etdirməyə, Azərbaycana məxsus tarixi əraziləri Ermənistana verməyə başladı. Buna etiraz olaraq Azərbaycan SSR xalq ədliyyə komissarı Behbud Şahtaxtinski^’^ Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinə (RK (b) P MK) yazırdı ki. Zəngəzurda 123 min 95 nəfər azərbaycanlının, 99 min 257 nəfər erməninin yaşamasına baxmayaraq, 1920-ci il noyabrın 30-da Zəngəzur qəzasının qərb hissəsi Ermənistana verilmişdir”^. Bu ərazinin verilməsi nəticəsində Azərbaycanın Naxçıvan bölgəsi, Türkiyənin isə türk dünyası ilə quru əlaqəsi kəsildi.

Sovet Ermənistanında yaşayan azərbaycanlılara qarşı yürüdülən siyasət Daşnaksütyunun hakimiyyəti illərindəkindən o qədər də fərqlənmirdi. Sayca Azərbaycanda yaşayan ermənilərdən çox olmalarına baxmayaraq, Ermənistanda tarixi ərazilərində yaşayan azərbaycanlılara muxtariyyət verilmədi, Azərbaycanda yaşayan ermənilər üçün isə muxtariyyət yaradıldı. RK (b) P MK Qafqaz I3ürosu plenumunun RK( b) P MK üzvü

**OnHcanue rpannubi öeccnopnoH xeppHTopHn AaepöaBıuKaHCKOH COBCTCKOH CounajiHCTHHecKOH PecnyöanKH c ApMeHueü. - ARSSA, f. 276, siy. 5, iş 1, v.5; Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılanadək olan dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998, s. 209-210.**

**Behbud Şahtaxtinski (1881-1924) - sovet dövlət xadimi və diplomat. Azərbaycan SSR xalq ədliyyə komissarı. Azərbaycan SSR-in RSFSR-də fövqəladə nümayəndəsi. 1921-1924-cü illərdə Naxçıvan İnqilab Komitəsinin, Naxçıvan MSSR XKS sədri. 1921-ci ildə Moskva və Kars müqavilələrinin imzalanmasında xidmətləri olmuşdur.**

**Bexöytt LUaxTaxTHHCKHH — IfK PKIl (5). —ARSSA-nın surət fondu. Qovluq.**

I.V.Stalin^’'*, Qafqaz Bürosu üzvləri Q.(Serqo) K.Orconikidze"^^, F.İ.Maxaradze^’®, S.M.Kirov^’’, A.M.Nazaretyan^’ , İ.D.Oraxelaşvili^’^, Y.P.Fiqatner“*°, N.Nərimanov^*', A.F.Myasnikov^*^ və Azərbaycan SSR xalq xarici işlər komissarı M. Hüseynovun^*^ iştirakı ilə 1921-ci iyulun 5-də

**^ İosif Vissarionoviç Stalin (Cuquaşvili) (rəsmi olaraq 9 (21) dekabr 1879 - 5 mart 1953) - sovet dövlət, siyasi və hərbi xadimi. 1922-ci ildən Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin birinci katibi. 1941-ci ildən SSRİ hökumətinin sədri. 1945-ci ildən generalissimus.**

**Qriqori Orconikidze (partiya təxəllüsü Serqo) (1886 - 1937) - sovet dövlət və partiya xadimi. Azərbaycan Cümhuriyyətinin devrilməsində bilavasitə iştirak etmişdir. Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü (1930-1937).**

**Filipp Maxaradze (1868-1941) - sovet partiya və dövlət xadimi. Gürcüstanın sovetləşdirilməsində mühüm rol oynamışdır. 1921-ci ildən Gürcüstan SSR Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin sədrləri.**

**Sergey Kirov (əsl familiyası Kostrikov) (1886-1934) - sovet siyasi xadimi. 1921-ci ildən Azərbaycan KP MK-nın birinci katibi. 1926-cı ildən Leninqrad Vilayət Partiya Komitəsinin birinci katibi, eyni zamanda 1930-cu ildən ÜİK(b)P MK Siyasi Bürosunun üzvü. 1934-cü ildən UİK(b)P MK katibi. 1934-cü il dekabrın 1-də Leninqradda öldürülmüşdür.**

**Amayak Nazaretyan (1889-1937) - partiya xadimi. 1920-ci ildən RK(b)P MK Qafqaz Bürosunun katibi. 1924-cü ildən RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin katibi.**

**İvan Oraxelaşvili (1881-1937) - sovet partiya xadimi. 1923-1925-ci illərdə SSRİ XKS sədrinin müavini. 1926-1929-cu illərdə RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin birinci katibi. 1931-ci ildən ZSFSR XKS sədri.**

**Yakov Fiqatner (1889-1937) - sovet partiya və dövlət xadimi. Şimali Qafqazda “qırmızı terrorun” təşkilatçılarından biri. 1921-ci ildən RK(b)P MK Qafqaz Bürosunun üzvü.**

**Nəriman Nərimanov (1870-1925) - görkəmli Azərbaycan sovet dövlət, siyasi və ictimai xadimi, yazıçı-dramaturq. Azərbaycan SSR XKS sədri. Azərbaycan SSR xalq xarici işlər komissarı (28 aprel - 2 may 1920). 1922-ci ildə Genuya konfransında iştirak etmişdir. 1923-1925-ci illərdə SSRİ MİK sədrlərindən biri.**

**Aleksandr Myasnikov (Myasnikyan) (1886-1925) - inqilabçı. Sovet dövlət və partiya xadimi.**

**Mirzədavud Hüseynov (1894-1937) - Azərbaycan sovet dövlət və Kommunist Partiyası xadimi. Azərbaycan SSR xalq xarici işlər komissarı (2 may 1920 - dekabr 1921). ZSFSR xalq xarici işlər komissarı (yanvar 1923 - yanvar 1924).**

284

keçirilən iclasında Dağlıq Qarabağ məsələsi müzakirə edildi . Azərbaycanlılarla ermənilər arasında milli sülhün zəruriliyi, yuxarı və aran Qarabağın Azərbaycan ilə iqtisadi əlaqəsi, daimi əlaqəsi nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı. Ona inzibati mərkəzi Şuşa olmaqla geniş muxtariyyət vermək qərara alındı.

Bundan bir müddət əvvəl, 1921-ci il martın 16-da imzalanmış Rusiya - Türkiyə müqaviləsinin üçüncü maddəsi ilə Naxçıvanın ərazisi və statusu müəyyənləşdirildi^*^. Həmin il oktyabrın 13-də bir tərəfdən Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR, digər tərəfdən isə Türkiyə arasında Karsda Rusiya Sovet Federativ Sosialist Respublikasının vasitəçiliyi ilə müqavilə imzalandı. Müqavilənin 5-ci maddəsində Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri razı olduqlarını bildirirdilər: “Naxçıvan vilayəti [...] Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir”. Müqaviləyə üçüncü əlavədə Naxçıvanın sərhədləri müəyyənləşdirildi"**^.

Azərbaycan 1922-ci il martın 12-dən 1936-cı il dekabrın 5-dək olan dövrdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) tərkibində oldu. Azərbaycan SSR ZSFSR-ə qəbul olunanadək Yeni Bəya- zit qəzasının Basarkeçər bölgəsi Rusiya imperiyası sərhədlərində və Şə- rur-Dərələyəz qəzasının üçdə iki hissəsi artıq Ermənistana verilmişdi. Azərbaycan Zaqafqaziya Federasiyasına qəbul edildikdən sonra isə Qazax qəzasının xeyli hissəsi. Cəbrayıl qəzasının və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (Naxçıvan MSSR) bir sıra kəndləri Ermənistanın tərkibinə qatıldı"*’. Beləliklə, 1918-1920-ci illərdə 113895, 97 kv.km. ərazi olan Azərbaycanın ərazisi sovet dövründə 86,6 min kv.km. təşkil etdi.

Ermənistan Azərbaycan ərazilərinə yiyələnməklə yanaşı tarixi torpaqlarında yaşayan azərbaycanlıların qovulmasını davam etdirirdi. Ermənistan hökuməti torpaq çatışmazlığı bəhanəsi ilə əvvəlki illərdə tarixi tor-

**ripoTOKoa Na 3. SaceaaHua fİJieHyMa Kasüropo U,K PKO ox 5-ro Hiojıa 1923 rofla. - ARSSA, f.l, siy.2, iş 25, v. 107-108; AJIMCB H. HaropubiK Kapaöax: Hc- TopHH. <t>aKTbi. CoöbiTHa. BaKy, 1989, c.83.**

**TloroBop Me>Kay PoccMCH n Typuueti (nepeBoa c cjıpaHuyacKoro oıjiHUHajibHO- ro xeKcra).-PTACriH, (j). 298, Ji.l,a. 104, a. 100-104.**

**KapccKHH ÄoroBop. 13 OKxaöpa 1921 r. - ARDA, f 28, siy. 1, iş 69, v. 11; Bu barədə daha ətraflı bax: Qasımlı M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998; Qasımlı M. Azərbaycan - Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il - dekabr 1922-ci il). Bakı, 1998.**

**ARXİNA. 1994. Qovluq Ns 9, v. 10.**

paqlanndan qovulmuş azərbaycanlıların daimi yaşayış yerlərinə qayıtmalarına qəti şəkildə etiraz edirdi^^*. Belə ki, ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Daimi Komissiyasının üzvü İsaakyan Zaqafqaziya Diyar Partiya Komitəsinin Rəyasət Heyətinə geri qayıtmaq istəyən azərbaycanlı qaçqınları yerləşdirmək üçün Ermənistanda bir qarış da torpaq olmadığını ya- zırdı . Eyni zamanda qeyd edirdi ki, azərbaycanlı qaçqınların Zəngəzur qəzasına qaytarılması böhranlı vəziyyət yaradar, ona görə də məsələni Azərbaycanın boş torpaq fondu hesabına həll etmək olar. Zəngəzurdan qovulmuş azərbaycanlı qaçqınların Azərbaycan SSR-in Qubadlı rayonundan geri qaytarılaraq Zəngəzur qəzasında daimi yaşayış yerlərinə yerləşdiril- məsinə Ermənistan hakimiyyət orqanlarının mane olması barədə məsələ hətta ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının 1922-ci il iyunun 12-də (protokol IN2 17) və iyulun 9-da keçirilən iclaslarında (protokol INo 1) müzakirə edildi. Qəbul edilən qərarda yazılırdı: “Ermənistan SSR-də boş torpaq fondu olmadığı üçün Ermənistan SSR-dən olan və hazırda Azərbaycan SSR Naxçıvan diyarı ərazisində olan 28 min nəfər müsəlman (azərbaycanlı - M.Q.) qaçqını yerləşdirmək Azərbaycan SSR hökumətinə tövsiyə edilsin”^^®. Beləliklə, Zəngəzurdan qovulmuş azərbaycanlılar tarixi torpaqlarına qayıda bilmədilər. Onlan Azərbaycan tərəfi respublika ərazisində yerləşdirməyə məcbur oldu.

Azərbaycan hökuməti güzəştə getdikcə ermənilər daha da şirnikləşirdilər. Sovet rəhbərliyi isə Azərbaycan ərazilərinin Ermənistana verilməsi işini davam etdirirdi. Belə ki, 1922-ci il oktyabrın 25-də Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Xalq Xarici İşlər üzrə katibliyə təqdim etdiyi Azərbaycanın ərazisi haqqında arayışdan aydın olur ki, Azərbaycanın bütün ərazisi 7.989.105 desyatin idi və ondan Ermənistana keçmiş Qa-

**PesojııouHa HaxHHeBaucKoro KpacBoro c-besaa APCM no aoKJiaay Hap-KOMCoöesa o 5e>KeHeu. - GMƏYTA, f612, siy.l, iş 27, v. 53-53 a.**

**RjıeH nocTOHHHOH Ee>KeHCKoü** KOMHCCHH npn **CoıoBHoro CoBexa 3C<bCP UcaaKHH** - B **npesHÄHyM 3AKKPAHKOM-a. - GMƏYTA, f.612, siy.l, iş 27, v. 83-84.**

**npoTOKoa saceaaHHH** KOMHCCHH **no** ÖOKCHCKHM **BonpocaM 12-ro** HKJHH **1922 r. npoTOKOJi Jfo 17; OpoTOKOJT saceaaHHH** KOMHCCHH **no** ÖOKCHCKHM **BonpocaM** H **9-ro** HKDiijı **1922 r. npoxoKOJi X2 1. - GMƏYTA, f. 612, siy.l, iş 27, v.l5, 40.**

zax qəzasından 379.984 desyatini, keçmiş Zəngəzur qəzasından 405.000 desyatini verilmişdi[291].

Sovet hökuməti ermənilərin azərbaycanlı torpaqlarına yerləşdirilməsi və Azərbaycan ərazilərinin Ermənistana verilməsi işini 1922-ci ilin dekabrında SSRİ yaradıldıqdan sonra da davam etdirdi.

Ermənilərin Cənubi Qafqaza gətirilməsində yeni bir mərhələni Lozan konfransından sonrakı dövr təşkil edir. Məlum olduğu kimi, Türkiyə hökuməti konfransda ölkədəki bütün milli azlıqların hüquqlarını qorumaq haqqında təəhhüd götürdü[292]. Buna baxmayaraq, konfransda iştirak edən RSFSR xalq xarici işlər komissarı Georgi Çiçerin[293] 1923-cı ilin yanvarında Beynəlxalq Erməni Cəmiyyətinə göndərdiyi məktubda erməniləri sovet hökumətinin qəbul etməyə hazır olduğunu bildirdi[294]. Rusiya, Ukrayna və Gürcüstan nümayəndə heyətləri bu məsələyə dair Lozan konfransının sədrinə nota göndərdilər[295]. G.Çiçerin yanvarın 27-də Lozandan müavini Mixail Litvinova[296] göndərdiyi məktubunda ermənilərə ərazilər vermək barədə bəyanatın Beynəlxalq Erməni Cəmiyyətinə təqdim edildiyini yazır-

---

[291] Зам.нач. управление земельустройства – в секретариат по иностранным делам АССР. 25 октября 1922 г. № 5850. – ARDA, f.28, siy.1, iş 155, v.19-20.

[292] Türkiye Cumhuriyeti'nin uluslararası temelleri. Lozan. Montrö. Türkiye'nin komşularıyla imzaladığı başlıca belgeler (Suriye, Irak, İran, SSCB, Bulgaristan, Yunanistan). Lefkoşa, 1987, s.10-13.

[293] Georgi Çiçerin (1872-1936) – 1896-cı ildə Sankt-Peterburq Universitetinin tarix-filologiya fakültəsini bitirdikdən sonra 1897-ci ildə Xarici İşlər Nazirliyinin arxivində işə düzəlmişdir. Sonralar siyasətlə məşğul olmuşdur. Almaniya, Fransa, Belçika və b. ölkələrdə yaşamışdır. 1918-ci ilin yanvarında Rusiyaya dönmüş və xalq xarici işlər komissarı L. Trotskinin müavini təyin edilmişdir. 1930-cu ilədək SSRİ xalq xarici işlər komissarı vəzifəsində işləmişdir.

[294] Письмо тов. Чичерина на имя председателя международной филармянской лиги от 26-го января 1923 года. – Газ. "Известия", 1923, 8 февраля, № 28(1765); Карахан – господину Монтгомери. 28 января 1923 года. – GMƏYTA, f. 612, siy.1, iş 69, v. 41.

[295] Вербальная нота РУГ делегации на имя председателей Лозаннской конференции 27 января 1923 г. (анологичная нота послана американской миссии на Лозаннской конференции. – Газ. "Известия", 1923, 8 февраля, № 28 (1765).

[296] Mixail Litvinov (1876-1951) – 1930-1939-cu illərdə xalq xarici işlər komissarı, eyni zamanda 1934-1938-ci illərdə Millətlər Cəmiyyətində daimi nümayəndə.

Onun fikrincə, bu işdə ermənilərin mühacirətinə maliyyə yardımı və nəqliyyat ayıran təşkilatlar iştirak etməli idilər. Çünki sovet hökumətinin erməniləri köçürmək üçün vəsaiti çatışmırdı. G.Çiçerin digər bir müavini Lev Karaxana^^* yazdığı məktubunda bu məsələləri erməni komissarlığının və erməni milli hərəkatının Dro^^^ kimi görkəmli xadimlərinin yaşadığı Moskvada müzakirə etməyi məsləhət görürdü.

Bundan sonra ermənilərin mühacirəti üzrə komissiyanın 1923-cü il martın 23-də Xalq Torpaq Komissarlığının kollegiya üzvü Mesyaçevin sədrliyi ilə keçirilən iclasında 200 mindən çox olmamaq şərti ilə ermənínin Rusiya ərazisinə köçürülməsi barədə qərar qəbul edildi. Onların 15 min nəfəri Cənubi Qafqazda yerləşdirilməli idi^°°. Bu məsələ RK(b)P MK Siyasi Bürosunun 1923-cü il noyabrın 22-də keçirilən iclasında (protokol Xs 47) G.Çiçerinin təklifi əsasında "Türkiyədən olan qaçqın ermənilər haqqında" məsələ adı altında müzakirə edildP®'. Qəbul edilən məxfi qərara əsasən 10 min nəfər ennəninin Türkiyədən SSRİ hüdudlarında qəbul edilməsinə etiraz olunmurdu. Nəticədə Türkiyədən gətirilən ermənilərin bir qismi Cənubi Qafqaza yerləşdirildi.

**RuHepuH - TOB. JİHTBHHOBy. JlosaHua. 27 nuBapa 1923 r. Xs 93. - PfACriH, 4>.159,'on.2, Ä.19, J1.311.**

**Lev Karaxan (Karaxanyan) (1889-1937)- inqilabçı, sovet diplomatı. 1917-ci ildən Brest Litovsk sülh danışıqlarında sovet nümayəndə heyətinin katibi. 1918-ci ilin martından RSFSRxalq xarici işlər komissarının müavini. 1921-ci ildən Polşada, 1923-1926-cı illərdə Çində səlahiyyətli nümayəndə. 1927-1934-cü illərdə SSRİ xalq xarici işlər komissarının müavini. 1934-cü ildən SSRİ-nin Türkiyədəki səlahiyyətli nümayəndəsi. 1937-ci il may ayında Moskvaya çağırılmış və həmin ilin sentyabrında Ali Məhkəmənin Hərbi Kollegiyasının qərarı ilə ölümə məhkum edilmişdir.**

**Çiçerin Zəngəzurda türk və müsəlman soyqırımlarının əsas rəhbərlərindən biri, daşnak Ermənistanının hərbi naziri olmuş Kanayan Drastamatı (Dro) nəzərdə tuturdu. O, daşnak olmasına baxmayaraq, 1918-1920-ci illərdə Cənubi Qafqazda bolşeviklərlə birgə hərəkət etmişdir. 1921-ci ildə xaricə qaçmışdır. 11 Dünya müharibəsi illərində erməni legionları içərisindən nasist kəşfiyyat qruplarından birinin rəhbəri. Müharibə qurtardıqdan sonra isə yenidən Daşnaksütyun Partiyasının himayəsinə sığınaraq xarici ölkələrdə erməni silahlı dəstələrinin qurulması işinə rəhbərlik etmişdir.**

**HpoTOKOJi saceÄauHB** KOMHCCHH **no aMHrpaunn apMHH. 23 Mapra 1923 r. - GMƏYTA, f 617, siy. 1, iş 69, v. 40-41.**

**PemeuHe OoJiHTÖıopo L(K PK(6)H O 6e>KeHuax apMJiH** H3 **Typunu. 22 HOHÖpn 1922 r. ripoTOKOJT Xa 47. CeKpeTuo. - PfACHH, 4).17, on.3,** ***a.395,*** **Ji.l.**

Naxçıvanın azərbaycanlılar yaşayan 9 kəndi 1923-cü ildə Ermənistana verildi. Sonralar, 1925-ci il mayın 19-da Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin (MİK) Kiçik Rəyasət Heyətinin iclas qərarına uyğun olaraq (protokol Ko 12) çoxlu sayda erməni Naxçıvana yerləşdirildi^®^.

1923-cü il iyulun 7-də Qarabağın dağlıq hissəsində süni surətdə Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yaradıldı®®^. Muxtariyyətin inzibati mərkəzi Xankəndi şəhəri müəyyənləşdirildi. Həmin ilin sentyabr ayında şəhərin adı dəyişdirilərək azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri olan bolşevik xadimi Stepan Şaumyanın^®'* şərəfmə Stepanakert adlandırıldı. DQMV-nin inzibati ərazisi erməni icmasının çoxluğunu təmin etmək üçün müəyyənləşdirilmişdi. Azərbaycan hökuməti Dağlıq Qarabağ regionunda yaşayan ermənilərə geniş hüquqlar verdi.

Bu, Lenin və Stalinin ermənilərə və Azərbaycan xalqına olan münasibətini göstərirdi. Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılardan sayca az olmalarına baxmayaraq, Azərbaycandakı ermənilərə muxtariyyət yaradılması “parçala və hökm sür” siyasətinin konkret təzahürü idi. Ermənistanda yaşayan azərbaycanlılara nəinki muxtariyyət verilmədi, əksinə yerli hakimiyyət onları daha çox sıxışdırdı.

Sovetləşmədən sonra Cənubi Qafqaz respublikaları arasında bir sıra ərazi mübahisələri mövcud idi. Bu baxımdan Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin məsləhətçisi M.Skiditskinin 1927-ci il sentyabrın 21-də Tiflisdə hazırladığı “Zaqafqaziya respublikaları arasında hansı ərazi iddiaları olmuşdur?” adlı arayış diqqəti cəlb edir. O yazırdı: “Azərbaycan və Ermənistan arasında ümumi ərazisi 17816 desyatin olan 61 sahədə mübahisələr olmuşdur. Bunların 6750 desyatin ərazisi olan 46-sı üzrə Zaqafqaziya MİK-in yekun qərarı qəbul edilmişdir. Həmin qərara əsasən 3050

**PeuıeHHC Manoro npesHflHyMa 3aK.U,HK-a 19 laaa 1925 r. npoTOKOJi Ka 12. - GMƏYTA, f.607 , siy.l, iş 327, v.2.**

**05pa30BaHne aBxoHOMHOü oöjıacTH Haropnoro Kapaöaxa. fleKpcT Aaepöaü-a>KaHCKoro IfeHxpajifaHoro KoMurera CoBeroB ox 7-ro HKDJIJI 1923 roaa o6 o5pa-soBaHHH “aBXOHOMHOH o6aacxH HaropHoro Kapaöaxa”. — CoöpaHne yaaKOueHHH H pacnopajKCHHH Paöonee-KpecxbaHCKoro OpaBHxeabcxBa A.C.C.P. sa 1923 r. Eany, HsnaHHe HapoflHoro KoMHCcapnaxa IOCXHUHH. A.C.C.P, 1925, c.384-385; Köçərli T.Qarabağ: yalan və həqiqət. Bakı, 1998; Köçərli T. Qarabağ. Bakı, 2002.**

**Stepan Şaumyan (1878 - rəsmi məlumata görə 1918) — Bakı Xalq Komissarları Sovetinin sədri (1917-1918). Azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri.**

desyatin ərazi Azərbaycan SSR-in, 3700 desyatin ərazi isə Ermənistan SSR tərkibinə daxil edilmişdir”^®^

Ermənilərin Cənubi Qafqaza gətirilərək azərbaycanlılara məxsus ərazilərə yerləşdirilməsi 30-cu illərdə də davam etdirildi. Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi (ÜİK (b) P MK) Siyasi Bürosunun 1931-ci il 10 may tarixli iclasında (protokol X2 37) ermənilərin ZSFSR-ə gətirilməsi haqqında məsələ gündəliyin 25-ci maddəsi kimi müzakirə edildi^®®. Lakin təxirə salındı. Ancaq bir müddət keçmiş bu məsələ Siyasi Büronun iyunun 16-da keçirilən iclasında (protokol 43) yenidən müzakirəyə çıxarıldı. Məsələ barədə tamamilə məxfi qərar qəbul edildi^°’. Qərarın həyata keçirilməsi üçün tədbirlər həyata keçirildi. SSRİ Xalq Xarici İşlər Komissarlığı (XXİK) 1932-ci il martın 14-də 263 IN2-Iİ tamamilə məxfi məktubla ZSFSR MİK-ə müraciət edərək Türkiyədən gələn ermənilərin vətəndaşlığa qəbulunu tövsiyə etdi. Qeyd etmək lazımdır ki, onların vətəndaşlığa qəbul edilməsi barədə vəsatət hələ 1928-1929-cu illərdə qaldırılmışdı. ZSFSR MİK katibi Həmid Sultanov Azərbaycan SSR MİK İşlər İdarəsinə 1932-ci il martın 27-də 470-s X2-Iİ məxfi məktub göndərərək Türkiyə ermənilərinin “SSRİ vətəndaşlığına qəbul edilməsi məsələsini təcili həll etmək üçün sizin sərəncamınızı xahiş edirik” deyə yazdı^°*. Qəbul edilən qərarlar yerinə yetirildi.

1936-cı ilin may ayında təkcə Parisdən Ermənistana 2 min nəfər erməni gətirildi. Onların nümayəndələri Lavrentiy Beriyaya^”^ və Qəzənfər Musabəyova^'® mayın 22-də teleqram göndərərək yad ölkədən yem' ***vətənə***

**^ CKHÄHTCKHH M. KaKue ÖWJIH xeppHTopHanbHbie cnopbi MejKay pecnyöanKa-MH SaKaBKasbH ? - GMƏYTA, f607, iş 1790, v.148-149.**

**3aceaaHHe OojiHTÖıopo U,K BK (6)n . 10 Maa 193İr. IIpoTOKoa ffa 37. - PTACriH, 4). 17, on,3, a. 830, Ji.2.**

**Yenə orada, v.4.**

**CeKpexapb 3AKU,HK F. CyjıxauoB - B VnpaBaeHne aeaaMH IfHK ACCP. 27 Mapxa 1932 r. 470. CexpexHO. - GMƏYTA, f .607, siy.2, iş 1573, v.lO.**

**Lavrentiy Beriya (1899-1953) - SSRİ təhlükəsizlik orqanlarının rəhbəri. SSRİ Nazirlər Soveti sədrinin müavini (1946-1953). SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1953).**

**Qəzənfər Musabəyov (1988-1938) - Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri (1922-1931). Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri (1930-1931). ZSFSR Xalq Komissarları Sovetinin sədri (1931-1936).**

(kursiv bizimdir. Sənəddə belə də yazılmışdır - M.Q.) gəldiklərinə şərait yaradıldığı üçün təşəkkür etdilər^".

Beləliklə, sovet hakimiyyətinin ilk illərindən etibarən xarici ölkələrdən ermənilər kütləvi şəkildə gətirilərək Ermənistana yerləşdirildilər. Onların yaşayışını təmin etmək üçün azərbaycanlılar tarixi torpaqlarından sıxışdırıldılar. Sovet hakimiyyəti illərində köçürmə yolu ilə Ermənistanda ermənilərin sayının artırılması "Daşnaksütyun Partiyasının əksinqilabi rolu" adlı arayışda da etiraf edilirdi. Burada konkret olaraq yazılırdı: "Əgər 1920-ci ildə Ermənistanda 774 min nəfər əhali var idisə, 1936-cı ildə onların sayı 1 milyon 200 min nəfər oldu və ya 55% artdı^'^. Sovet hakimiyyəti erməniləri yerləşdirərək onlara əlverişli şərait yaratsa da, Ermənistanda azərbaycanlılar əhalinin böyük bir hissəsini təşkil etmələrinə baxmayaraq, onlara qarşı ayrı-seçkilik siyasəti həyata keçirildi. Azərbaycan çarizm və sovet dövründə köçürülərək ərazilərinə yerləşdirilən ermənilərə xüsusi qayğı göstərirdi.

Radikal erməni millətçiləri isə Azərbaycana qarşı əsassız ərazi iddialarını davam etdirirdilər. Bu işdə bir mərhələni İkinci dünya müharibəsindən sonrakı illər təşkil edir. Həmin dövrdən etibarən yenə də qatı millətçi erməni dairələri bir neçə istiqamətdə fəaliyyət göstərməyə başladılar. Onlar Azərbaycandan Dağlıq Qarabağ regionunu tələb etdilər; sovet rəhbərliyinin təhriki ilə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürdülər; xarici ölkələrdən ermənilərin Ermənistana köçürülməsini, özlərinin təbirincə desək "repatriasiya"sını istədilər. Bu tələblər ilk baxışda fərqli görünsələr də, əslində bir-biriləri ilə sıx bağlı idilər.

1945-ci ildə erməni dairələri Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistana birləşdirilməsinə dair əsassız iddialar irəli sürdülər. Ermənistan K(b)P MK katibi Q.Arutunov^'^ bu barədə 1945-ci ilin noyabr ayında Stalinə məktubla müraciət etdi^'"*. Məktubda o yazırdı ki, guya

**UİQ(b) P Zaqafqaziya ölkə komitəsi Beriya yoldaşa və Zaqafqaziya Xalq Komissarları Şurasının sədri Musabəyov yoldaşa mühacirətdən qayıtmış ermənilərin teleqramı. - "Kommunist" qəzeti. Bakı, 1936, 23 may, JVsl 18(4744).**

**KoHxppeBonıouHOHHbiH pojib napTHH flamnaKuyrıoH. - ARMTNA, L-164, v.194.**

**Qriqori Arutunov (Arutunyan) (1900-1957) - Gürcüstan KP MK-da işləmişdir. Tbilisi şəhər partiya komitəsinin katibi olmuşdur. Ermənistan KP MK-nın birinci katibi (1937-1953).**

**CeKpexapb LfK Kü (6) ApMCHHH r.ApyryHOB - H.B.CxajiHHy. Hoaöpb 1945 r.-ARSSA, f l,siy,222, iş 48, v. 1; TC. BCA. 930. 01.1.7.1.**

Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibinə daxildir və Ermənistan ərazisinə bitişikdir, vilayətin əhalisinin 153 min nəfərindən 137 min nəfəri ermənidir; Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynidir; Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına kömək edər və təsərrüfata rəhbərliyi yaxşılaşdırar; Ermənistan respublikasının orqanları tərəfindən əhaliyə ana dilində kütləvi-mədəni və siyasi xidməti gücləndirər; yerli kadrların Ermənistanda ana dilində təhsillərini davam etdirməsinə imkan verər; Ermənistan SSR Azərbaycanda istifadə edilə bilməyən Dağlıq Qarabağdan olan kadrları alardı.

Q.Arutunov Ermənistan KP MK və Ermənistan SSR Xalq Komissarları adından ÜİK(b)P MK və sovet hökuməti qarşısında Dağlıq Qarabağın Ermənistan SSR tərkibinə Qarabağ vilayəti kimi daxil edilməsi təklifini irəli sürdü. Məsələ müsbət həll olunacağı təqdirdə sovet hakimiyyəti qurulmamışdan əvvəl dağıdılmış Şuşa şəhərinin bərpasına dair hökumət qarşısında məsələni qaldıracaqdı.

Heç şübhəsiz, Ermənistan rəhbərliyinin belə bir əsassız iddiaları qaldırması yalnız onların istəkləri ilə bağlı deyildi. Bu məsələdə Yaxın Orta Şərqdə, xüsusən İranda yürüdülən sovet siyasəti ilə erməni istəkləri üst-üstə düşürdü. İkinci dünya müharibəsi illərində İrana yeridilən sovet qoşunlarının fəaliyyəti. Cənubi Azərbaycanda sovet hakimiyyətinin siyasəti və Cənubi Azərbaycanın Şimali Azərbaycan ilə birləşdirilməsi barədə mümkün istəklər də ona təsir edirdi.

Q.Arutunovun müraciəti əks olunan məktubu ÜK(b)P MK katibi Qeorgiy Malenkov^'^ 1945-ci il noyabrın 28-də Azərbaycan KP (b) MK katibi Mircəfər Bağırova^'® göndərdi^'’. O, Ermənistan KP (b) MK-nın

**Qeorgiy Malenkov (1901-1988) - sovet partiya və dövlət xadimi. ÜİK(b)P MK katibi (1939-1946). Siyasi Büronun üzvü (1946-1957). SSRİ Nazirlər Sovetinin sədri (1953-1955).**

**Mircəfər Bağırov (1896-1956) - Azərbaycanın sovet dövrü görkəmli siyasi və dövlət xadimi. Petrovskidə (Maxaçkala) pedaqoji kursu bitirmişdir. 1921-ci ildə Azərbaycan xüsusi xidmət orqanı olan Fövqəladə Komissiyanın sədri. 1927- 1928-ci illərdə Zaqafqaziya su təsərrüfatı idarəsinin, 1928-1929-cu illərdə isə Zaqafqaziya kənd təsərrüfatı idarəsinin sədri. 1929-cu ildə Dövlət Siyasi İdarəsinin (keçmiş FK) sədri. 1930-cu ildə Moskvada ali partiya təhsili almaq üçün göndərilmişdir. 1932-1933-cü illərdə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri. 1933-1953-cü illərdə Azərbaycan KP MK-nın və Bakı şəhər partiya komitəsinin birinci katibi. 1953-cü ildə Beriya işi ilə əlaqədar olaraq vəzifəsindən azad**

təklifi barədə Azərbaycan rəhbərinin fikrini bildirməsini istədi. M.Bağırov 1945-ci il dekabrın 10-da 330 Jf°-li məktubla ona cavab verdi^'*. 5 səhifədən ibarət olan məktubda Q.Arutunovun əsassız iddiaları qətiyyətlə rədd edilərək yazılırdı ki, Dağlıq Qarabaq Muxtar Vilayəti heç bir zaman Ermənistan SSR ərazisi ilə bitişik olmamışdır və bitişik deyildir. Sovet hakimiyyəti dövründə Azərbaycanda, Dağlıq Qarabağda vilayətin təsərrüfat- siyasi və mədəni inkişaf üzrə möhtəşəm işlər görülmüşdür. Buna parlaq nümunələrdən biri DQMV-nin mərkəzi Stepanakert şəhəridir. Azərbaycan SSR-də ali təhsil müəssisələrində və texnikumlarda tələbələrin 20,5%-i ermənidir. Onların da çoxu Dağlıq Qarabağ Muxtar Vilayətindəndir.

Məktubda M.Bağırov Şuşa istisna olmaqla Dağlıq Qarabağın Ermənistana verilməsinə etiraz etmirdi. Bununla belə, məsələyə baxmaq üçün komissiya yaradılmasını və DQMV-nin Ermənistan SSR tərkibinə daxil edilməsi məsələsi müzakirə olunarkən Azərbaycan Respublikası ilə sərhədə bitişik və əhalisi əsasən azərbaycanlılardan ibarət olan Ermənistan SSR-in Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR tərkibinə daxil edilməsi məsələsinə də baxılmasım ÜK(b)P MK qarşısında qaldırır, mədəni və iqtisadi cəhətdən son dərəcə geri qalmış həmin rayonların Azərbaycana verilməsinin əhaliyə maddi-məişət və mədəni-siyasi xidmət göstərilməsinə imkan verəcəyini yazırdı.

Yuxarıda göstərilənlərlə yanaşı M.Bağırov qeyd edirdi ki, Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarında 79 min nəfər əhalinin 9 min nəfərinin ingiloy olmasına baxmayaraq, Gürcüstandan olan yoldaşlar həmin rayonların Gürcüstan SSR tərkibinə qatılması məsələsini qaldırırlar. M.Bağırov buna cavab olaraq Gürcüstan SSR-in əhalisinin demək olar ki, hamısı azərbaycanlılardan ibarət və Azərbaycan SSR-ə

**edilərək Kuybışev neft idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. 1955-ci ildə həbs edilmişdir. Rəsmi məlumata görə güllələnmişdir.**

**CeKpexapb U.K BKITI (6) ManenKOB - ceKpexapıo LfK KO (5) AsepSanfl^ana xoB. EarnpoBy. 28.XI.1945 r. - ARSSA, f 1, siy.169, iş 249,1 hissə, v.7; Qasımlı M. İkinci dünya müharibəsindən sonrakı ilk illərdə Ermənistanın Azərbaycana ərazi iddiaları. - Qarabağ dünən, bu gün və sabah. 1-ci Ümumrespublika elmi- əməli konfransı. Tezislər, Bakı, 2002, s.l33.**

**CeKpexapb IfK KO (6) AsepSafta^aHa M.fl.BarnpoB. - IfK BKO (6) xoBapn-my MajıeuKOBy. 10 acKaöpH 1945 r. Xs 330. - ARSSA, f 1, siy.169, iş 249, 1 hissə, V. 8-12; Qasımlı M. Malenkovun Bağırova məktubu. - “Qanun” jurnalı, Bakı, 1998, X2İ3-14, s. 11-13.**

bilavasitə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR tərkibinə qatılması barədə məsələyə baxılmasını xahiş edirdi.

M.Bağırov həmçinin Azərbaycan SSR-ə bitişik və keçmişdə Bakı quberniyasının tərkibinə daxil olmuş Dağıstan MSSR-in Dərbənd və Qasımkənd rayonlarının Azərbaycana qatılması məsələsinə baxılmasını xahiş edirdi. Bu rayonların da əhalisi əsasən azərbaycanlılardan ibarət idi. Onların yarısından çoxu heyvandarlıqla məşğul olur, ilin doqquz ayını Azərbaycan ərazisində keçirirdilər.

Sovet rəhbərliyi əsassız erməni iddialarını rədd etdi. Buna baxmayaraq, erməni dairələri başqa istəklərinə nail oldular., 1946-cı ildə Qazax rayonundan 40 kv. km meşə sahəsi. Tovuz rayonundan 7,6 kv.km. ərazi Ermənistana verildi.

Türkiyə hökuməti də əsassız iddiaları qətiyyətlə rədd edərək Sovet İttifaqına torpaq vermədi. Türkiyədən ərazilər və Azərbaycandan Dağlıq Qarabağ bölgəsini ala bilməyən Ermənistan xarici ölkələrdən ermənilərin "repatriasiyası" məsələsini sovet hökuməti qarşısında qaldırdı. Sovet rəhbərliyi həmin təklifi bəyənərək müvafiq qərarlar qəbul etdi. Əslində bu repartasiya deyildi. Çünki Ermənistana gətiriləcək şəxslər burada doğulmamış, yaşamamış, çoxları heç onu görməmişdi. "Repatriasiya" məsələsinə Daşnaksütyun Partiyasının münasibəti erməni dairələrinin siyasətinə tam aydınlıq gətirir. Belə ki, Daşnaksütyun Partiyası 1947-ci ildə keçirilən qurultayında qəbul etdiyi 6 bənddən ibarət qərarında "repatriasiya"nı sovet hakimiyyətinin erməni diasporasını parçalamağa yönəldilən aktı kimi qiymətləndirməklə yanaşı, onu mühüm və siyasi iş kimi dəyərləndirir, erməni məsələsinin digər tərəflərinin uğurlu həlli zərurəti ilə bağlayır, kütləvi "repatriasiya"nm xüsusən erməni torpaqlarının azad edilməsi və Ermənistan sərhədlərinin genişləndirilməsi ilə əlaqədar olduğunu birmənalı olaraq vurğulayırdı^'’.

Ermənilərin yerləşdirilməsi üçün Ermənistanda lazımi şərait yox idi. Azərbaycan KP MK-nın katibi M.Bağırov və Ermənistan KP MK-nın katibi Q.Arutunov 1947-ci ilin dekabrında İ.V.Stalinə müvafiq məktubla müraciət etdilər^^”. Onlar son illərdə Azərbaycan və Ermənistan respublikalarının təsərrüfat həyatında baş verən dəyişikliklərlə əlaqədar olaraq yaranmış bəzi məsələlər barəsində fikir mübadiləsi edilməsi nəticəsində Sta-

**TlnpexTHBa HeTfaipHaauexoro konrpecca o noJiHTHHecKoä njıaT4)opMe napran TlaLUHaKuyxıoH. — ARMTNA, L-164, v. 21.**

**Cexpexapb IfR Kü (6) AsepGaÜÄXcaHa M./],.BarHpoB, ccKpexapı. U,K Kü (5) ApMCHHH r.A.ApyxyHOB - H.B.CxajiHny. - ARSSA, f.l, siy.222, iş 48, v.2.**

lin qarşısında məsələ qaldırdılar. Mingəçevir su elektrik stansiyasının tikintisi ilə bağlı olaraq yeni suvarılan torpaqların və pambıqçılıq rayonlarında fəhlə qüvvəsinə ehtiyac əmələ gəldiyini, həmçinin pambıq istehsalının çoxaldılmasmm Azərbaycan SSR-in bu rayonlarında əhalinin artırılması məsələsini irəli sürdüyünü zəruri etdiyini yazdılar. M.Bağırov və Q.Arutunov bu məsələnin real həllini Ermənistanda yaşayan 130 min nəfər azərbaycanlı əhalinin həmin rayonlara köçürülməsində görürdülər. Onların fikrincə, azərbaycanlı əhalinin köçürülməsi xarici ölkələrdən Ermənistana gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün şəraiti yaxşılaşdırardı. Azərbaycanlı əhalinin köçürülməsi nəticəsində boşalmış torpaq sahələri və mənzillərdən xarici ölkələrdən ermənilər Ermənistana köçürülən zaman istifadə edilə bilərdi.

Bütün bu mülahizələri nəzərə alaraq M.Bağırov və Q.Arutunov Stalindən aşağıdakı məsələlərə sanksiya verilməsini xahiş edirdilər:

1. Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-in əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsi, boşalan torpaqlarının və mənzillərinin xarici ölkələrdən Ermənistan SSR-ə gətirilən ermənilərin qəbulu və yerləşdirilməsi üçün istifadə edilməsi.
2. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə köçürülmənin şərtlərini və qaydalarını işləyib hazırlamaq, həmçinin köçürlümənin həyata keçirilməsinə rəhbərlik etmək üçün birgə komissiya yaradılmasına icazə verilməsi.
3. Bu tədbirlə bağlı xərclərin İttifaq büdcəsindən maliyyələşdirilməsi.

Müraciətə baxan SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də və 1948-ci il martın 10-da koLxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-də Kür-Araz ovalığına köçürülməsi haqqında xüsusi qərarlar qəbul etdi. Bu qərarlara əsasən, 1948 və 1953-cü illər ərzində 100 mindən artıq azərbaycanlı zor gücünə tarixi doğma torpaqlarından - Ermənistanın əsasən dağlıq rayonlarından Azərbaycan SSR- in susuz, heç bir şəraiti olmayan Muğan və Mil çöllərinə köçürüldülər^"'. Xaricdən gətirilən ermənilər isə Ermənistandan köçürülən azərbaycanlıların hər cür şəraiti olan evlərinə yerləşdirildilər.

Sonrakı illərdə də xarici ölkələrdən ermənilərin gətirilməsi işi davam etdirildi. Qeyd etmək lazımdır ki, xarici ölkələrdən Ermənistana 1961-ci ilin ortaları üçün 200 min, 1962-1973-cü illərdə isə 26 min 100

**Didərginlər. Tərtib edəni Hidayət. Bakı, 1990.**

nəfərdən çox erməni gətirilmişdi[322]. Onlar özləri ilə Cənubi Qafqaza qatı millətçilik və xalqlar arasında düşmənçilik hissləri gətirdilər. 60-cı illərdə Azərbaycan SSR ərazisində 60 nəfər keçmiş daşnak və digər erməni millətçisi qeydə alınmışdı[323]. Onlar düşmənçilik hərəkətlərini hər an büruzə verirdilər. 60-cı illərdə Dağlıq Qarabağ bölgəsində Ermənistandan göndərilən şəxslər qarşıdurma yaratmağa səylər etdilər. Erməni sovet xadimlərindən biri olan A.Mikoyan 1964-cü ilin əvvəllərində SSRİ rəhbəri N.S.Xruşşova[324] DQMV-nin Ermənistana birləşdirilməsi barədə təklif etdi. N.S.Xruşşov isə DQMV-dəki ermənilərin Ermənistana bir sutka ərzində köçürülməsi üçün 12 min hərbi yük maşını verməyə hazır olduğunu bildirdi[325].

70-ci illərdə də Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunda milli münaqişəni qızışdırmağa cəhd etsə də, onun qarşısı alındı.

Ermənistandakı müəyyən dairələr sovet rəhbərliyinə müraciətlər edir, əsassız iddialar irəli sürürdülər. Ermənistanda millətçi qrup və təşkilatların antitürk əhval-ruhiyyəsi güclənirdi. SSRİ DTK-nın 1975-ci il üçün fəaliyyətinə dair hesabatında yazılırdı ki, Ermənistanda millətçi qruplar mövcuddur[326]. Eyni vəziyyət DTK-nın 1976-cı il hesabatında da əksini tapmışdı[327]. 1977-ci ildə Ermənistanda millətçi qrupların olduğu göstərilir-

---

[322] Imranly K. Armenia – Azerbaijan conflict: origins and consequences. – "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, №18-19, s.10; Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.

[323] Начальник второго отдела КГБ при Совете Министров Азербайджанской ССР подполковник Г.Алиев, начальник 4-го отделения подполковник Багиров – начальнику II отдела 2 главного Управления Комитета Госбезопасности при Совете Министров Союза ССР полковнику товарищу Хамазюк В.М. 20 июня 1962 г. Совершенно секретно. – ARMTNA, iş 164, v. 356-363.

[324] Nikita Xruşşov (1894-1971) – Sov.İKP MK-nın baş katibi (1953-1964). SSRİ Nazirlər Sovetinin sədri (1958-1964).

[325] Помпеев Ю. Кравовый омут Карабаха. Баку, 1992, с.19-20.

[326] Отчет о работе Комитета Государственной Безопасности за 1975 год от 30 марта 1976 года. №709-А/ОВ, с.8-9. – The National Security Archive of the USA. The George Washington University in Washington.

[327] Отчет о работе Комитета Государственной Безопасности за 1976 год от 28 февраля 1977 года. №414-А/ОВ, с.8. – The National Security Archive of the USA. The George Washington University in Washington.

Növbəti ildə də bu respublikada millətçi qrupların fəaliyyəti qeydə alınmışdı^^’. DTK 1979-cu ildə Ermənistanda ekstremist əhval-ruhiyyəli şəxslərin millərçi təşklilat yaratmaq niyyətlərinin qarşısım almışdı.

Artıq qeyd edildiyi kimi, erməni radikal millətçi qrup və təşkilatların fəaliyyət istiqamətlərindən biri Azərbaycana qarşı əsassız ərazi iddiaları idi. Onlar Azərbaycan xalqının tarixi-etniki ərazisi olan Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsinə cəhdlər edirdilər. Əslində ermənilər tarixən Dağlıq Qarabağda yaşamamışdılar. Onlar 1828-ci ildə Şimali Azərbaycan Rusiya tərəfindən işğal edilib bölüşdürüldükdən sonra bu əraziyə çarizmin müstəmləkə siyasətinə xidmət məqsədi ilə köçürülmüşdülər. Hətta Dağlıq Qarabağa köçürülmələrinin 150 illiyi münasibəti ilə 1978-ci ildə bir abidə də qoymuşdular. Azərbaycan xalqı isə onlara isti qucağını açmış, torpağını vermiş və çörəyinin tikəsini bölmüşdü.

70-ci illərdə çoxlu erməni Dağlıq Qarabağı özünə doğma torpaq hesab etməyərək köçüb gedirdi. Buna bütün ölkədə gedən inteqrasiya prosesləri də təsir edirdi. SSRİ-də vahid sovet xalqının yaradılması niyyətlərini güdən güclü təbliğatın təsiri altında bir çox erməni ölkənin iri şəhərlərində məskunlaşmağa can atırdı. Amma bəzi erməni alim, yazıçı, şair və publisistləri bunu yanlış qiymətləndirir, antiazərbaycan baxışlarından heç cür əl çəkmirdilər. Onlar özlərini qəzəbli və kinli aparır. Dağlıq Qarabağ regionunda həyata keçirilən nəhəng təsərrüfat, mədəni quruculuq işlərini, onların mətbuatda əks olunmasını qısqanaraq daha məkrlə əsassız iddialarını davam etdirirdilər. Bəzi erməni ziyalıları Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbyacan KP MK-nm birinci katibi Heydər Əliyevin^^® rəhbərliyi altında Azərbaycanın sosial-iq-

**OTH6T O paöoxe KoMurera focyaapcTBeHHOH BesonacHocTH sa 1977 roa OT 27 Mapxa 1978 xona. İN25 77-A/OB, c.ll. - The National Security Archive of the USA. The George Washington University in Washington.**

**Oxnex o paöoxe KoMHxexa rocy/ıapcxBeHHOH BesonacHocxn sa 1978 roa ox 2 anpejıa 1979 xona. N2646-A/OB, c.6-7. - The National Security Archive of the USA. The George Washington University in Washington.**

**Heydər Əliyev (1923-2003)- Azərbaycanın ümummilli lideri, görkəmli siyasi və dövlət xadimi. Müasir Azərbaycan Respublikası dövlətinin qumcusu, tarazlaş- dırılmış xarici siyasəti və diplomatiyasının banisi. Azərbaycan Respublikasının III Prezidenti (1993-2003). 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri təyin edilmişdir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda MK-nın Büro üzvü və Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1971-ci ildən Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin**

tisadi, mədəni sahələrdə qazandığı uğurları qısqanır. Dağlıq Qarabağ regionunda aparılan quruculuq işlərindən əndişə duyurdular. Erməni dairələrinin müxtəlif mərkəzi orqanlara göndərdikləri şər və böhtan dolu şikayət məktubları və teleqramlarının ardı-arası kəsilmirdi. Dağlıq Qarabağ Muxtar Vilayətindən olan iki nəfər qocaman erməni bolşevikinin xahişi ilə müxbir İ.Y.Mesxinin “Oqonyok” jurnalının 1979-cu il 34-cü nömrəsində “Biz Qarabağdanıq” adlı oçerki dərc olunmuşdu. Oçerkdə Dağliq Qarabağın sosial-iqtisadi və mədəni həyatında qazanılan uğurlardan, millətlərarası dostluqdan söhbət açılırdı. Jurnalın işıq üzü görməsindən az sonra erməni ziyalılarının bəziləri oçerkdə əksini tapan məsələlərə etiraz etdilər. Belələrindən biri əslən Dağlıq Qarabağdan olan, atası Bakıda fəhlə işləyərək ailəsi üçün çörək pulu qazanmış Yerevan şəhər sakini. İkinci dünya müharibəsinin iştirakçısı, istefada olan zabit, həkim Georgi Karapetoviç Ter-Akopov idi. 1980-ci ilin mart ayında redaksiyaya beş səhifəlik məktub göndərən bu şəxs oçerkə etirazını bildirirdi^^’. Onun məktubunda irəli sürdüyü iddialar əsasən aşağıdakılardan ibarət idi: müxbir İ.Y.Mesxi öz oçerki ilə guya oxucuları çaşdırır; müharibə illərində SSRİ- nin əhalisi azalsa da, müharibədən sonrakı dövrdə ölkə əhalisi ümumən

**üzvü, 1976-cı ilin martından Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrından Siyasi Büronun üzvü seçilmişdir. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. Dünyanın fövqəlgüc dövlətlərindən olan SSRİ-ni idarə edən şəxslərdən biri olmuşdur. 1987-ci ildə vəzifələrindən çıxarılmışdır. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayəti Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında bəyanat verərək sərt ittiham etmişdir. 1990-cı ilin iyulunda Azərbaycana qayıtmışdır. Bəyanat verərək Kommunist Partiyası üzvlüyündən çıxmışdır. Əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuşdur. 1993-cü ilin may-iyununda Azərbaycan vətəndaş müharibəsi və müstəqilliyini itirmək təhlükəsi qarşısında qaldıqda xalqın tələbi ilə dövlət rəhbərləri onu Bakıya dəvət etməyə məcbur olmuşlar. İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. İyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. Azərbaycanı parçalanmaqdan və vətəndaş müharibəsindən xilas etmişdir. 1993 və 1998-ci illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür. 2003- cü il dekabrın 12-də ABŞ-da Klivlend xəstəxanasında vəfat etmişdir.**

**Tep-AKonoB F.K. - rjıaBHOMy peaaxTopy xcypuana “OroneK” A.CaıJıpoHOBy. - ARSSA, f. 1, siy.67, iş 196, v. 131 -135.**

təxminən iki dəfə, çarizm zülmü altında inləyən xalqlar isə daha çox artıb. Azərbaycanın əhalisi 1920-1978-ci illərdə 3,1, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının əhalisi 2,7, Ermənistanın əhalisi isə 4,2 dəfə artıb. Lakin Dağlıq Qarabağda tam tərsinə olan vəziyyət yaranıb. Burada əhali heç 1913-cü il səviyyəsinə çatmayıb. 1913-cü ildə burada 176 min, 1923-cü ildə 158 min, 1979-cu ildə 161 min əhali yaşayırdı. Dağlıq Qarabağ yeganə milli qurumdur ki, orada "yerli əhali" olan ermənilər azalmağa doğru gedib; bütün ölkədə iqtisadiyyat geniş inkişaf edir, fabrik-zavodlar tikilir, yollar çəkilir, 40 min əhalisi olan Stepanakert üçün 26 kilometrlik Ağdam - Stepanakert dəmiryolunun çəkilişi isə şişirdilir, axı hələ müharibə dövründə Stepanakertdə kiçik dəmiryolu var idi. Bakı - Ağdam dəmiryolu isə çoxdan işləyir; Qarabağın istedadlı adamları istəklərini illərlə yerinə yetirə bilmədiklərindən çıxıb gedirlər, onları iri şəhərlər özlərinə çəkir; Stepanakeptdə çoxdandır ki, yaşayış evləri tikilmir. Adamlar uzun illərdir mənzil növbəsində gözləyirlər. Buna baxmayaraq, xan sarayının şairi Molla Pənah Vaqifə 18 metrlik mavzoley ucaldılır, xan qızı şairə Xurşidbanu Natəvan mədh edilir. Ermənilərdən olan 15 akademik, 16 bəstəkar və 23 general unudulur. Muxtar vilayət yaradılarkən əhalinin 94%-ni təşkil edən erməni xalqı özünün çoxəsrlik tarixində məgər sıralarından xatirəsinin əbədiləşdirilməsinə layiq olan adamlar yetişdirə bilməyibmi? Xalq məktəbə, uşaq müəssisələrinə ehtiyac duyduğu və erməni memarlıq abidələri bir-birinin ardınca dağıdıldığı bir zamanda belə tikililər lazımdır- mı7; erməni əhalisinin yaratdığı iki milli ərazidən biri olan Ermənistan SSR-də əhali artdığı, elm, təhsil, mədəniyyət inkişaf etdiyi halda. Dağlıq Qarabağda bütün bunlar geriyə gedir; indiyədək heç bir respublikada yerli əhalinin köçməsinə rast gəlinməyib. Yerli erməni əhalisi sıxışdırıhr. Azərbaycan xalqının mədəni sərvətləri dirçəldilir. Diyarın əhalisinin çox hissəsini təşkil edən yerli erməni xalqının mədəni irsi barədə isə susulur. Məktub müəllifi Dağlıq Qarabağın Azərbaycan tərkibinə guya ədalətsiz qatıldığını əsassız yerə iddia edirdi.

Həmin məktubu jurnalın baş redaktoru Anatoli Safronov ^^^1980-ci il martın 28-də Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nm birinci katibi H.Ə. Əliyevə göndərərək, redaksiyanın müəllifə cavab verərkən istifadə etməsi üçün imkan olarsa, öz mülahizələrini

**Anatoli Safronov (1911-1990) - rus sovet yazıçısı, şairi, publisisti, ssenaristi, dramaturqu.**

bildirməsini xahiş etdi^^^. A.Safronovun məktubu Azərbaycan KP MK-da 1980-ci il aprelin 8-də 1569 Jla-lə qeydiyyatdan keçdi. H. Əliyev aprelin 10-da məktubla tanış olaraq "Mənimlə danışın. B.S.Kevorkovu tanış edin" dərkənarı yazaraq MK-nın ideologiya katibi Kamran Bağırova^^" göndərdi. Bundan sonra Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi B.S.Kevorkovla əlaqə saxlanıldı. O, vilayətin sosial-iqtisadi və mədəni inkişafına dair kifayət qədər əsaslandırılmış 11 may tarixli 59 s Jfo-li məxfi arayış hazırladı^^^. Bu arayış mayın 13-də Azərbaycan KP MK-da 1569 Ke-lə qeydiyyatdan keçirildi. Arayışda Ter-Akopovun məktubunda irəli sürülən iddiaların əsassızlığı fakt və materiallarla təkzib olunmuşdu.

H.Əliyev bundan sonra iyunun 23-də A.V.Safronova ünvanlanan 252 İNo-li məktubu imzaladı. Məktuba 7 səhifəlik müvafiq arayış da əlavə edildi^^^. Məktubda yazılırdı ki, Ter-Akopovun söylədikləri əsassız və saxta olduğundan onları təkzib etməyin heç mənası da yoxdur, bununla belə, redaksiyanın məktub müəllifinə müvafiq cavab verməsi üçün Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın sovet hakimiyyəti illərində keçdiyi inkişaf yolu barədə kifayət qədər faktiki material olan arayışı Sizə göndəririk.

Arayışın əsas müddəaları aşağıdakılardan ibarət idi:

Birincisi, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına və statusuna dair hüquqi-siyasi məsələlər Kommunist Partiyasının, dövlətin sənədləri və arxiv materialları əsasında tutarlı şəkildə izah olunurdu. Göstərilirdi ki, Azərbaycan ilə iqtisadi əlaqəsini, azərbaycanlılarla ermənilər arasında daimi sülhün zəruriliyini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılmışdır. 1923-cü ildə partiyanın qərarı ilə Muxtar Vilayət yaradılmışdır. Bu qərar yekdilliklə qəbul edilmişdir.

**A.CacJıpoHOB - KaHflHaaTy B HJieHbi rioaHTÖıopo LI,K KflCC, nepBOMy ccKpe- TapK) LI,K Kn A3ep5aKa>KaHa TOB. r.A.AjıneBy.** 28 Мapxa 1980 **rona. - ARSSA, f.l, siy.** 67, **iş** 196, **v.l**30.

**Kamran Bağırov (1933-2000) - Azərbaycan KP MK-nın ideologiya katibi. MK-nın birinci katibi (1982-1988).**

**CeRperapb Haropno-KapaöaxcKoro oÖKOMa Kü AaepöaHÄXcana E.KcBopKOB - IfK KO A3ep6aHfl>KaHa. 11 Maa 1980 roaa. — ARSSA, f.l, siy. 67, iş 196, v.l 19-129.**

**riepBbiH ceKpexapb L1,K KH AaepöaHflÄana F. AJIHCB - rjıaBHOMy penaKTopy >KypHajıa "OroncK" TOB. Ca<|ıpoHOBy A. B. 23 HKDHH 1980 roa,a. - ARSSA, f.l, siy.67, iş 196, v.137-144.**

İkincisi, göstərilirdi ki, Dağlıq Qarabağda əhalinin azalmasının 1913-cü illə müqayisə edilməsinin heç bir əsası yoxdur. Çünki həmin vaxt muxtar vilayət mövcud deyildi. Vilayətin ərazisinə Yelizavetpol quberniyasından (Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzaları) və respublikanın indiki rayonlarının bəzisi də daxil olmuşdu. Buna görə də müqayisənin istinad nöqtəsi kimi Muxtar Vilayətin yaradılması ili götürülməlidir. 1923- cü ildə vilayətin əhalisi 158 min nəfər idi. Böyük Vətən müharibəsi illərində o, təbii olaraq azalmışdı. 1980-ci il aprelin 1-nə olan məlumata görə, vilayətin əhalisi 163,1 min nəfər olmuşdu. Bu isə vilayət əhalisinin azalmadığını göstərirdi. Vilayətdə obyektiv miqrasiya, əhalinin və ölkənin həyatında beynəlmiləlləşmə prosesləri baş verdiyindən burada 49 millətin nümayəndəsi yaşayırdı. Əhalinin 76%-ni ermənilər təşkil edirdi.

Üçüncüsü, DQMV-nin iqtisadi inkişafı məsələlərinə aydınlıq gətirilirdi. Göstərilirdi ki, inqilabadək DQMV-nin sənayesi kiçik yarımkustar emalatxanalardan ibarət idi. 70-ci illərdə isə vilayətdə yüzlərlə məhsul istehsal edən və nəinki ölkənin müxtəlif yerlərinə göndərilən, eyni zamanda xaricə malları ixrac olunan 45 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində vilayətdə sənaye məhsulu istehsalı 724 dəfə artmışdı. Əgər əvvəlki beşillikdə vilayətdə sənaye məhsulu istehsalının həcmi 24% artmışdısa, 1976-1980-ci illərdə 50,3% artmışdı. Əmək məhsuldarlığı 17,1% əvəzinə 37,6 % olmuşdu. Bu müddət ərzində 80-dən çox yeni sənaye məhsulu buraxılmışdı. Stepanakertdə ildə 6 min maşın təmir edən zavod tikilmişdi. Vilayətdə aqrar-sənaye kompleksi də inkişaf edirdi. 1976-1979-cu illərdə kənd təsərrüfatı məhsullarının orta illik məcmu artımı planda nəzərdə tutulan 16,8% əvəzinə 49,1% olmuşdu. Bu illərdə əmək məhsuldarlığı beşillik planda nəzərdə tutulmuş 15,6% əvəzinə 42,8% artmışdı. Üzümçülük, maldarlıq və bağçılıq inkişaf etmişdi. Dağlıq Qarabağ bütün bu sahələr üzrə inkişaf baxımından Cənubi Qafqazda yaradılmış muxtar vilayətlərin hamısını geridə qoyurdu.

Dördüncüsü, Ağdam - Stepanakert dəmiryolunun çəkilməsinə dair tutarlı fakt və materiallar verilirdi. Dəmiryol xəttinin çəkilişi xərclərinin 50%-ni SSRİ Dəmiryol Nazirliyi, 50%-ni isə Azərbaycan SSR hökuməti ayırmışdı. Bu isə Azərbaycanın digər rayonları ilə Dağlıq Qarabağın əlaqəsini gücləndirir, nəqliyyatın inkişafına, vilayətdə istehsal olunan məhsulların ölkənin müxtəlif şəhərlərinə daşınmasına müsbət təsir edirdi.

Beşincisi, vilayət əhalisinin sosial-iqtisadi həyatının xeyli yüksəldiyi göstərilirdi. Onuncu beşillikdə əhalinin pul gəlirləri doqquzuncu beşilliyin müvafiq dövrü ilə müqayisədə 39,1% artmışdı. Pərakəndə ticarət

18,3%, əhaliyə göstərilən məişət xidməti 52% çoxalmışdı. Əhalinin təbii qazla təmin edilməsi 1980-ci il yanvarın 1-i üçün 95% olmuşdu. Yevlax - Stepanakert- Şuşa qaz boru kəmərinin çəkilişi vilayət mərkəzinin və Şuşa kurort şəhərinin problemlərinin həllinə kömək etmişdi.

Altıncısı, vilayətdə mənzil tikintisinə xüsusi diqqət yetirildiyi qeyd edilirdi. Doqquzuncu beşilliyin ilk dörd ilində dövlət vəsaiti hesabına 93,7 min kvadrat metr ev, 2000-dən çox mənzil tikilmişdi. 16681 şagird yeri olan ümumitəhsil məktəbləri, 1590 yerlik uşaq məktəbəqədər müəssisələri tikilib istifadəyə verilmişdi. Stepanakertin su təchizatının genişləndirilməsi vilayət mərkəzinin təminatının yaxşılaşdırılmasına imkan vermişdi.

Yeddincisi, vilayətin mədəni inkişafı haqqında məlumat verilirdi. İnqilabadək həmin ərazidə şəxsi adamlara məxsus olan yalnız üç mədəni-maarif müəssisəsi fəaliyyət göstərmişdi. Əhalinin 90%-dən çoxu savadsız idi. 70-ci illərdə isə vilayətin əhalisi başdan-başa savadlı olmuşdu. Burada 193 ümumtəhsil məktəbi, o cümlədən, 147 erməni məktəbi fəaliyyət göstərirdi. Stepanakert Pedaqoji İnstitutunda dərslər Azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-də dərslər erməni dilində keçirilirdi. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Stepanakert şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində və rus dilində dublyajı nəşr olunan "Sovetakan Karabax" qəzeti, 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Səkkizincisi, vilayətdə abidələrin qoyulması sahəsində həyata keçirilən tədbirlərə də aydınlıq gətirilirdi. Enuəni xadimlərinə də abidələr qoyulduğuna dair faktlar sadalandıqdan sonra göstərilirdi ki, əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşada indi Azərbaycan ədəbiyyatının klassiki Vaqifə abidə qoyulur. Vaqifin Qarabağ xanının vəziri-xarici işlər naziri vəzifəsinə uyğun gələn vəzifədə işlədiyi, onun xarici siyasət fəaliyyətinin Zaqafqaziya hakimlərinin İran şahma qarşı mübarizəsində mühüm rol oynadığı vurğulanırdı.

Erməni millətçilərinin xalqlar arasında düşmənçilik hisslərini qızışdırmaq cəhdlərinə baxmayaraq, Azərbaycan hökuməti Dağlıq Qarabağ regionunun sosial-iqtisadi və mədəni inkişafına daim qayğı göstərir, erməni

və Azərbaycan xalqları arasında dostluğa çalışırdı^^^. 1989-cu il yanvarın 12-də keçirilən əhalinin siyahıya alınmasına əsasən inzibati ərazisi 4 min 388 kv.km. olan muxtar vilayətdə təqribən 189 min nəfər yaşayırdı. Onlardan təqribən 139 mini (73,5 faiz) erməni, təqribən 48 mini (25,3 faiz) azərbaycanlı və təqribən 2 mini (1,2%) digər millətlərin nümayəndələri idi. DQMV özünü idarəetmənin bütün əsas elementlərinə sahib idi. Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ konstitusiyalarında təsbit olunmuşdu. SSRİ və Azərbaycan SSR konstitusiyalarına əsasən DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim edilmiş və 1981-ci il iyunun 16-da qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanunla tənzimlənirdi^^*. DQMV inzibati muxtariyyət formasına və əhalinin xüsusi tələbatlarının həyata keçirilməsini təmin edən bir sıra hüquqlara malik idi. SSRİ konstitusiyasına uyğun olaraq DQMV SSRİ Aii Sovetinin Millətlər Sovetində 5, Azərbaycan SSR Ali Sovetində isə 12 deputatla təmsil olunurdu. DQMV-nin hakimiyyət orqanı olan Xalq Deputatları Soveti geniş səlahiyyətlərə malik idi, milli və digər xüsusiyyətləri nəzərə alaraq vilayətdə yaşayan vətəndaşların maraqları əsasında bütün yerli məsələləri həll edirdi.

1971-ci ildən 1985-ci ilədək DQMV-nin inkişafına 483 milyon rubl sərmayə qoyulmuşdu. Bu, əvvəlki 15 illə müqayisədə 2,8 dəfə artıq idi. 1981-1985-ci illərdə ötən 20 illə müqayisədə vilayətdə adambaşına kapital qoyuluşunun həcmi təxminən 4 dəfə artaraq 1961-1965-ci illərdəki 59 rubla qarşı 1981-1985-ci illərdə 226 rubl olmuşdu. Əvvəlki 15 il ərzində Azərbaycanda mənzil tikintisi adambaşına 3.64 kv.m. idisə, DQMV-də 4.76 kv.m. təşkil edirdi. 1970-1986-cı illər ərzində respublikada sənaye istehsalı 3 dəfə artdığı halda, DQMV-də 3,3 dəfə artmış və ya artımın sürəti 8,3% yüksək olmuşdu. 1986-cı ildə vilayətdə 1970-ci ilə nisbətən 3,1 dəfə artıq daşınmaz əmlak istifadəyə verilmişdisə, respublika üzrə həmin göstərici 2,5 dəfə təşkil etmişdi. Əsas sosial inkişaf göstəriciləri baxımından da DQMV ümumrespublika yaşayış göstəricilərini ötüb keçirdi.

Mənzil, mal və xidmətlərin təmin edilməsi baxımından da vilayətin inkişafı respublika göstəricilərindən yüksək idi. Burada 10 min nəfər üçün

**CeKperapb Haropuo-KapaGaxcKoro oÖKOMa Kü AsepGaÜÄJKaHa E.KcBopKOB - IfK KO A3ep6aHÄ>KaHa. 11 Maa 1980 r. - ARSSA, f 1, siy. 67, iş 196, v.ll9- 130.**

**O Haropno-KapaöaxcKOH ABTOHOMHOH OöjıacTH. 3aKOH A3ep5aHÄ>KaHCKOH CCP. Eaxy, 1987; ARXİNA. 02.01.2003 - 18.03.2003. Qovluq Xg**

xəstəxana çarpayılarının sayı respublikanın digər rayonlarındakından 15%, orta səviyyəli tibbi kadrlarının sayı respublikanın orta səviyyəsindən 1,3 dəfə çox idi.

Vilayətdə maarif sistemi də inkişaf etmişdi^^^. DQMV məktəbəqədər müəssisələrdə yerlərin sayma görə, respublikanın rayonları arasında nisbətən yüksək yer tuturdu. Vilayətdə mədəni və informasiya xidmətləri göstərən daha geniş şəbəkə qurulmuşdu. Erməni dilindən vilayətdə bütün hökumət, inzibati və məhkəmə orqanları, həmçinin prokurorluğun işində, eyni zamanda vilayət əhalisi əksəriyyətinin dil tələbatını əks etdirən təhsildə də istifadə edilirdi. Bu dildə yerli televiziya və radio verilişləri yayımlanır, qəzet və jurnallar nəşr olunurdu. Respublikanın dağlıq rayonlarında və paytaxtdan uzaqda yerləşən Azərbaycanın digər inzibati ərazi vahidlərindən fərqli olaraq DQMV televiziya və radio proqramlarının qəbulu üçün texniki infrastruktur ilə təchiz edilmişdi. Muxtariyyət forması əhalinin özünəməxsus iqtisadi, sosial, mədəni, milli xüsusiyyətlərini və muxtar regionda həyat tərzini tam şəkildə əks etdirirdi.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionuna və digər ərazilərinə əsassız iddialarını davam etdirirdi. 1984-cü ildə Ermənistan rəhbərliyi Qazax rayonunun Kəmərli kəndinin 1675 ha ərazisinə iddia etməyə başladı. Bu ərazi Ermənistan SSR No- yemberyan rayonunun Dovex kəndi ilə Kəmərli kəndinin arasında yerləşirdi. Kəmərli əhalisi əsassız iddiaya etiraz edərək azərbaycanlı kənd rəhbərlərinin evlərini daşa basmışdılar. Erməni iddialarını dayandırmaq üçün kənd əhalisi rayon rəhbərliyinə və Azərbaycan hökumətinə dəfələrlə müraciət etmişdi. Hətta pul yığaraq həmin ilin oktyabr ayının birinci yarısında Moskvaya üç nəfərdən ibarət nümayəndə heyəti də göndərmişdi. Nümayəndələr Sov.İKP MK-da olmuşdular. Lakin Moskvaya müraciətin bir nəticəsi olmamış, onlara aydın cavab verilməmişdi. Moskva torpaqların Azərbaycandan qopardılması göstərişini vennişdi.

Oktyabrın 24-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ş.Rasizadə, Azərbaycan KP MK Qazax rayon partiya komitəsinin birinci katibi A.Süleymanov, rayon İcraiyyə Komitəsinin sədri B.Eyyubov və digər rəsmi şəxslər, Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini V.Movsesyan, Ermənistan KP MK Noyemberyan rayon partiya komitəsinin katibi P.Mamyan və b. Kəmərli kəndindən 6 km. aralıda yerləşən

**CoöbiTHH** BOKpyr **HKAO** в KpHBOM sepKaııe (jjajibCHcjjHKaropoB (cGopuHK MarepuanoB). **Baxy, 1989, c.l2.**

Bataqlı bulaq deyilən yerə gəldilər^'*”. Onlar Ermənistana veriləcək meşə massivinə yerində baxmaq istəyirdilər. Bu hərəkətlər azərbaycanlıları hiddətləndirdi. Həyati mənafelərinə toxunan məsələnin qoyuluşundan narazı olan Kəmərli kəndinin 150 nəfər sakini, əsasən qadınlar, gənclər və uşaqlar onlarla görüşə gəldilər. Kənddən təxminən 3,5 km. aralıda maşınları qarşılayaraq yolunu kəsən əhali etirazını bildirdi. Torpaqların verilməsinin səbəblərini soruşdu. Ş.Rasizadə bu ərazi barədə iki respublika nümayəndələrindən ibarət yaradılacaq komissiya tərəfindən son qərar veriləcəyini dedi^'". Kəndin rəhbərləri ərazinin Ermənistana verilməsinin nəzərdə tutulduğunu söyləyirdilər. Əhali Rasizadə, Movsesyan, Süleymanov, Mam- yan və Mehrabyanm oturduqları iki maşını əhatə etdi. Məsul şəxslər maşından çıxanda əhali onları təhqir etməyə başladı. Rasizadə, Movsesyan, Mehrabyan və Eyyubovu döydülər. Sonra onları zorla Kəmərli kənd klubuna gətirdilər. Məcbur etdilər ki, belə bir rəsmi akt imzalasınlar: “Torpaq Kəmərli kəndinə məxsusdur və ondan qoparılmayacaqdır”. Onlar əhalinin tələbini yerinə yetirdilər. Yalnız bundan sonra həmin adamları klubdan çölə buraxdılar. Klubda qayda yaratmaq istəyən Kəmərli kənd sovetinin sədri döyüldü. Zədə aldığından xəstəxanaya aparıldı. Qarışıqlıq yarandı. Məsələ böyüdü. Əhali imzalanmış sənədi aldıqdan sonra rəsmi dövlət adamlarını kənddən qovdu.

Məsələ Azərbaycan KP MK Bürosunun 1984-cü il 12 noyabr tarixli iclasında “Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında” adı altında müzakirə edildi^‘‘l İclası MK-nın birinci katibi Kamran Bağırov açdı. Bildirdi ki, baş verən münaqişə yerli əhali arasında qeyri-sağlam millətlərarası münasibətlərin, uzun müddət yığılıb qalmış qarşılıqlı ərazi iddialarının nəticəsidir. K.Bağırov baş vermiş hadisə üçün yerli rayon rəhbərliyini və Ş.Rasizadəni təqsirləndirdi. Məsələ ilə bağlı Moskvadan göstəriş verildiyini etiraf etdi: “... Sov. İKP MK bizim qarşımızda məsələni

**LfK KO AsepSanajKana. Copasxa o5** HHUHfleHxe в **ceaennH KeMepan KasaxcKoro pafiona. - ARSSA, f 1, siy.73, iş 17, v.55-59.**

**npeflceflaxejib KFB A3ep6anÄ)KaHCKOH CCP. lOcH(|)3aÄe 3.M., npoxypop A3ep5aHfl)KaHCKOH CCP SaManoB A.T.,** мhhhcxp **BHyxpcHHHX flcjı A3ep6ati-fl>KaHCKOH CCP BejıneB - IfK Kü AsepGaHfljKana. CeKpexHO. - ARSSA, fl, siy.73, iş 17, v. 60-62.**

**Maxepnajibi** к **npoxoKoay JÇs 150 3acenaHHfl 6ıopo IfK KO AaepGanroKaHa. 12 Hoaöpa 1984 rona. CeKpexHO. - ARSSA, f 1, siy.73, iş 157, v.**

həll etmək və geniş planda həll etmək vəzifəsini qoymuşdur”^'*^. İclasda Ş.Rasizadə çıxış etdi. O, indiyədək Azərbaycan ilə Ermənistan arasında 11 məntəqədə ərazi məsələsinin həll edildiyini söylədi. Ş.Rasizadə əhaliyə bildirmişdi; “... Bağırov yoldaş Dəmirçiyan^"" yoldaş ilə sərhədləri elə müəyyən etmək barədə razılaşmışdır ki, sizin su ehtiyatlarınıza toxunulmasın”^"^. Ş.Rasizadə özünü baş vermiş hadisədə təqsirli bildi. İclasda daha sonra L.Rəsulova və C.Müslümzadə çıxış etdilər. S.Tathyev isə çıxışında Ş.Rasizadəyə dedi: “Sizə tapşırılmışdı ki, rayona baxın, haradasa meşə massivini saxlayın, harada isə digər kolxozlardan götürün ki, bu torpaqları kompensasiya edin. Mənə elə gəlir ki, seçmək olardı, hətta ən yaxşı torpağı seçmək olardı ki, belə vəziyyətə gətirib çıxarmasın”^"®.

Azərbaycan KP MK-nın ikinci katibi Konovalov dedi: “Bu, əlbəttə, qorxuludur, təhlükəlidir. Bu, əlbəttə, siqnaldır ki, bizdə belə təzahürlərin olmaması üçün biz hər yerdə təşkilati və siyasi iş məsələlərinə daha diqqətlə baxmalıyıq”^"’. Əlavə etdi ki, münaqişə həm Azərbaycanda, həm də Ermənistanda mənfi siyasi əks-səda doğurmuşdur. Movsesyan beyin zədəsi almışdır. Bu isə Ermənistandakı antisovet əhval-ruhiyyəli elementlərin fəallaşması üçün material vermişdir.

Gərgin keçən müzakirələrdən sonra MK Bürosu müvafiq qərar qəbul etdi^"^. Ş.Rasizadəyə töhmət verildi. Bəzi azərbaycanlı rəsmi şəxslər cəzalandırıldılar və partiya sıralarından çıxarıldılar. Ərazi Azərbaycandan qoparılaraq Ermənistana verildi.

Ermənistan rəsmi dairələri, ziyalıları və xaricdəki erməni təşkilatları aralarındakı ideoloji fərqlərə baxmayaraq əlbir hərəkət edirdilər. Ermənistanda türk düşmənçiliyi bir neçə istiqamətdə genişləndirilirdi. İlk növbədə Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Azərbaycan və

**SaceaauHe öiopo IfK KO A3ep6aÜÄ>KaHa OT 12 HOHÖpa 1984 rona. 06 HHU,H-ÄeHxe B C. KeMepjiH KaaaxcKoro panona. CeKpexHO. - ARSSA, f.l, siy.73, iş 157, v.61.**

**Karen S.Dəmirçiyan (1932-1999) - Ermənistan KP MK-nın birinci katibi (1974-1988).**

**SacenaHHe 6ıopo 1J,K Kfl AsepöaüamaHa ox 12 Hoaöpa 1984 roaa. 05 HHUH-aeuxe B C. KeMepjiH KaaaxcKoro paüoHa. CeKpexHO. - ARSSA, f.l, siy.73, iş 157, V.63.**

[346] **Yenə orada, v.74.**

**Yenə orada, v.79.**

**05 HHunaeHxe B C. KeMepan KasaxcKoro paKona. rtpoxoKOJi İNbISO aaceaa- HHH 6ıopo IfK Kn A3ep6aHÄ>KaHa. 12 Ho?ı6pa 1984 roaa. CeKpexHO. - ARSSA, fl, siy.73, iş 157, V. 10-15.**

Türkiyə əleyhinə yazdıqları kitabların nəşri çoxalırdı. Ermənistan tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımı məsələsini yenidən qaldırdı. Ermənistan KP MK sovet rəhbərliyindən 24 aprel gününü "Soyqırım qurbanlarının xatirə günü" kimi qeyd etməyə icazə almağa çalışırdı. Bu məqsədlə Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-ya müraciət edərək Ermənistan SSR Ali Sovetinin müvafiq fərmanının qəbul olunmasına Siyasi Büronun razılıq verməsini istədi. Müraciət Sov.İKP MK Siyasi Bürosunun 1985-ci il fevralın 21-də keçirilən iclasının gündəliyinə daxil edildi. İclasda "Erməni soyqırımının 70 illiyi ilə əlaqədar tədbirlər haqqında" məsələ müzakirə olundu. Sov.İKP MK- nın baş katibi K.Çemenko xəstə olduğundan iclası MK katibi M.Qorbaçov aparırdı. M.Qorbaçov Ermənistan rəhbərliyinin istəklərinin yerinə yetirilməsinə, məsələ barədə qərarın qəbul edilməsinə çalışırdı. Siyasi Büronun bəzi üzvləri də ona tərəfdar çıxırdılar. SSRİ xarici işlər naziri A.Qromıko isə məsələnin müzakirəsinin hissiyyata qapılmadan keçirilməsini təklif etdi. Bildirdi ki, həmin dövrdə törədilən hadisələrdə Osmanlı Türkiyəsi ilə yanaşı çar Rusiyasının da günahı vardır. O, konkret faktlar və məntiqi dəlillər gətirərək məsələyə dair qərarın qəbul edilməsinin əleyhinə çıxdı.

Çıxış edən SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov^'*' da Ermənistan KP-nin təkliflərinin qəbul olunmasının əleyhinə danışdı. Təklifləri oxuyanda həyəcanlandığını söylədi. Bildirdi ki, SSRİ-nin Türkiyə ilə münasibətləri yenicə qaydaya düşür, Türkiyə rəhbərləri SSRİ-ni dost ölkə adlandırırlar. N.Tixonov 1984-cü ildə Türkiyəyə səfəri zamanı türk dövlət və hökumət başçılarının Ermənistandakı antitürk əhval-ruhiyyəni onun diqqətinə çatdırdıqlarını, şikayət etdiklərini dedi. SSRİ Nazirlər Sovetinin sədri türklərin Bosfor və Dardanel boğazlarından "qıfıl asmaq" imkanları olduğunu da xatırladaraq bu məsələyə dair qərarın qəbul olunmasını ölkənin milli maraqlan baxımından ziyanlı hesab etdi. Nəticədə Ermənistan rəhbərliyinin təklifləri qəbul edilmədi.

Təklif rədd edilsə də, erməni dairələrinin fəaliyyətinə başqa bir istiqamətdə şərait yaradıldı. Sovet mətbuatında antitürk yazıların çapı çoxaldı. Xüsusən Ennənistanda nəşr edilən ədəbi jurnallarda güclü antitürk təbliğatı aparılırdı.

Türkiyəyə qarşı əsassız iddialarını reallaşdıra bilməyəcəklərini dərk edən millətçi erməni dairələri başlıca hədəf olaraq Azərbayam seçdilər. 80-ci illərin ortalarında xarici ölkələrdəki ermənilərin Ermənistana köçü-

---

**Nikolay Tixonov (1905-1997) - sovet dövlət xadimi. SSRİ Nazirlər Sovetinin sədri (1980-1985).**

rülməsi məsələsini yenidən gündəliyə gətirdilər. Bu dəfə sovet hökuməti həmin təklifləri bəyəndi. SSRİ Nazirlər Soveti 1985-ci il iyunun 20-də "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərar qəbul etdi^^". Bu qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu erməni gətirildi. Onlar özləri ilə qatı millətçiliyi gətirərək azərbaycanlılara qarşı düşmənçiliyi qızışdırırdılar.

Ermənistan rəhbərliyi eyni zamanda xarici ölkələrdəki "mütərəqqi erməni mətbuat orqanlarına" sovet yardımlarının ayrılmasına nail olmağa çalışırdı. Ermənistan KP MK-nm birinci katibi K.Dəmirçiyan 1986-cı il iyunun 25-də Sov.İKP MK-ya 14-1240/ss K2İİ tam məxfi bir məktub yazdı^^'. Məktubda qeyd edilirdi ki, Sov.İKP MK-nın 1978-ci il 27 dekabr tarixli "Xarici ermənilərlə işin gücləndirilməsi haqqında" qərarına uyğun olaraq respublikanın idarə və təşkilatları xarici siyasət təbliğatını həyata keçirərək sovet Ermənistanının, bütövlükdə Sovet İttifaqının nailiyyətlərinin təbliğinə, dövlətimizin sülhsevər xarici siyasətinin müdafiə edilməsinə mütərəqqi xarici erməni təşkilatlarının və onların mətbu nəşrlərinin cəlb edilməsi sahəsində fəaliyyətlərini genişləndirmişlər. Xaricdəki mütərəqqi erməni qəzetləri, o cümlədən kommunistlərin himayəsi altında nəşr olunan "Kanç" (Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ), "Sevan" (Argentina) son illərdə daim çoxlu maliyyə çətinlikləri keçirirlər və onlara maliyyə yardımlarının göstərilməsi üçün dəfələrlə müraciət etmişlər.

K.Dəmirçiyan qeyd edirdi ki, bununla belə. Latın Amerikası ölkələrində, ABŞ, Livan və Fransada burjua-millətçi partiyası olan Daşnaksütyunun mətbu orqanları həmin ölkələrdəki erməni icması daxilində təsirini gücləndirmək və antisovet işi fəallaşdırmaq üçün müxtəlif mənbələrdən daim maliyyə yardımları alır, tirajlarını artırır və dövri nəşrlərinin keyfiyyətini yaxşılaşdırırlar. Hazırda yuxarıda göstərilən mütərəqqi qəzetlərdə ağır vəziyyət yaranmışdır. Onlar maliyyə çatışmazlığı ucbatından bağlanmaq təhlükəsi qarşısında qalmışlar.

Müraciətdə "Aşxar" qəzetinin nəşri üçün ildə 394 min frank istənilirdi. Bunun 132 min frankı redaktorun və bir köməkçisinin, 170 min frankı mətbəənin icarəsi, kağız və iki nəfər fəhlənin, 60 min frankı qəzetin yayılması, 20 min frankı nəqliyyat , 12 min frankı redaksiyanın digər xərc-

**CeKperapb IfK Kü ApMCHHH K..lleMHpHHaH - UK KIİCC. HoaSpb 1986 roaa. CoBepıueHHO ceKperao. Ocoöan nanKa. - PFAHH, (j).89, on. 11, Ä.40, JI. 1.**

**CeKperapb U,K Kfl Apınennu K./leMHpHHHH - LfK KIİCC. 25 HIOHS! 1986 rofla. CoBepıueHHO ceKperno. Oco5aH nanKa. - PFAHH, cj).89, on. 13, *a.4,* jı.1-9.**

ləri idi. Qəzetin Fransa, İsveçrə və Qərbi Avropanın digər ölkələrində satışı və abunəsindən 50 min frank, sovet "Beynəlxalq kitab" xətti ilə abunədən 125 min frank, turizmdən 70 min frank, ianələrdən isə 10 min frank gəlir götürülürdü. Gəlir cəmi 255 min frank idi. Beləliklə, illik büdcə kəsiri 139 min frank və ya 19 min 201 dollar təşkil edirdi.

"Lraber" qəzetinin illik xərci 73 min dollar idi. Onun 16 min 500 dolları bir redaktora, 18 min 800 dolları redaksiya binasının icarəsinə, 11 min 600 dolları kağız alınmasına, 8 min dolları bir yığıcıya, 5 min 500 dolları mətbəəyə, 6 min dolları qonorara, 2 min 280 dolları poçt xərclərinə, 2 min 600 dolları qəzetin yayılmasına sərf olunurdu. 1 min 720 dolları isə nəzərdə tutulmayan xərclər idi. Qəzetin gəliri 53 min 44 dollar təşkil edirdi. Bunun 32 min 544 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 15 min 500 dolları reklam və məlumatların çapından, 5 min dolları abunəçilərdən daxil olurdu. Beləliklə, qəzetin illik büdcə kəsiri 19 min 956 dollar təşkil edirdi.

Həftəlik "Kanç"qəzetinin illik xərci 960 min Livan funtu idi. Bunun 385 min funtu iki redaktorun, bir inzibati işçinin və bir köməkçinin, 130 min funtu bir yığıcmın maaşına, 40 min funtu qəzetin yayılması, 65 min funtu qonorara, 40 min funtu kağız alınmasına, 125 min funtu mətbəəyə, 30 min funtu Livan - Suriya marşrutu ilə nəqliyyata, 15 min funtu poçta, 80 min funtu redaksiya binasının icarəsinə, 25 min funtu redaksiyanın digər xərclərinə sərf edilirdi, 25 min funtu nəzərdə tutulmayan xərclər idi. Qəzetin illik gəliri 170 min funt idi. Bunun 85 min funtu Livan, Suriya və digər ölkələrdə satışdan, 55 min funtu "Beynəlxalq kitab" xətti ilə abunədən, 10 min funtu məlumatların dərcindən, 20 min funtu isə ianələrdən gələn gəlir idi. Beləliklə, büdcə kəsiri 790 min funt və ya 20 min 233 dollar təşkil edirdi.

Həftəlik "Sevan" qəzetinin illik xərcləri 40 min dollar idi. Bunun 9 min 600 dolları bir redaktorun, 5 min dolan yığıcmın maaşına, 700 dollar qəzetin yayılmasına, 2 min dolları qonorara, 8 min dolları kağız alınmasına, 3 min dolları mətbəəyə, 2 min dolları poçta, 8 min 400 dolları redaksiya binasının icarəsinə, 1 min 300 dolları nəzərdə tutulmayan xərclərə sərf edilirdi. Qəzetin gəliri 30 min dollar idi. Bunun 15 min 600 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 9 min 400 dolları reklam və məlumatların çapından, 5 min dolları ianələrdən gələn gəlirlər idi. Beləliklə, qəzetin büdcə kəsiri 10 min dollar idi.

K.Dəmirçiyanın yazdığına görə, qeyd olunan təşkilatlara və redaksiyalara yardım edilməsi təklifini ABŞ, Fransa, Argentina və Livandakı sovet nümayəndəlikləri, Livan Kommunist Partiyası da (J.Xaui) bəyənmişdilər.

Ermənistan KP MK-nın birinci katibi yuxarıda deyilənləri, həmçinin xaricdəki mütərəqqi erməni təşkilatları və onların mətbu orqanlarının fəaliyyətini aktivləşdirmək, xaricdəki erməni cəmiyyətlərində daşnak təbliğatına qarşı durmaq məqsədi ilə "Lraber", "Kanç", "Aşxar" qəzetlərinin hər birinə 20 min, "Sevan" qəzetinə isə 10 min dollar illik maliyyə yardımı ayrılmasını xahiş edirdi. K.Dəmirçiyan bu qəzetlərin nəşri üçün lazım olan illik xərclər haqqında maliyyə məlumatlarını da Sov.İKP MK-ya göndərdi. MK katibi A.Yakovlev və DTK sədri V.Çebrikov məsələni araşdıraraq SSRİ Maliyyə Nazirliyi ilə razılaşdırdılar. Onlar Sov. İKP MK katibliyinin müvafiq qərar layihəsini də hazırlayaraq avqustun 7-də tam məxfi məktubla təqdim etdilər[352]. Sov. İKP MK katibliyi 1986-cı il avqustun 14-də 19-17-qs-ST №-li tam məxfi qərar qəbul etdi[353]. Qərarda yazılırdı ki, xaricdəki mütərəqqi erməni qəzetlərinin redaksiyalarına maliyyə yardımı edilməsi barədə Ermənistan KP MK-nın təklifi qəbul olunsun. "Kanç"(Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ) qəzetlərinin hər birinə ildə 14 min 80 rubl xarici valyuta (20 min ABŞ dolları), "Sevan" (Argentina) qəzetinə 7 min 40 rubl xarici valyuta (10 min ABŞ dolları) yardım göstərilsin. SSRİ Maliyyə Nazirliyi bu məbləği SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə 60 min xarici valyuta ilə ayırsın[354]. Qərar yerinə yetirildi. Əslində bu qəzetlər Türkiyə və Azərbaycana qarşı düşmənçiliyi təbliğ edir, mahiyyətinə görə daşnak mətbuatından fərqlənmirdilər.

M.Qorbaçovun mövqeyi erməni dairələrinin Azərbaycan və Türkiyə əleyhinə hərəkətlərinin genişlənməsinə rəvac verirdi. Onlar yenə də bir neçə istiqamətdə fəaliyyət göstərirdilər: tarixdə heç bir zaman olmamış

---

[352] Чебриков В., Яковлев А. – ЦК КПСС. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 07 августа 1986 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.4, л.3.

[353] Постановление Секретариата ЦК КПСС об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 14 августа 1986 года. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.4, л.1.

[354] Выписка из протокола №19 заседания Секретариата ЦК КПСС от 14 августа 1986 года. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. № Ст-19/17 гс. Совершенно секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д.4, л.2.

uydurma erməni soyqırımının tanınmasını tələb edir, xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsini istəyir, Türkiyəyə və Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürürdülər.

Ermənistan KP MK-nm birinci katibi K.Dəmirçiyan 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya məxfi bir məktub yazdı. O, məktubunda göstərirdi ki, Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin "repatriasiyası" həyata keçirilmişdir. Guya onlar Birinci dünya müharibəsi illərində qaçqın olmuşdular. Məktubdan sovet hakimiyyəti illərində Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox ermənininin gətirildiyi aydın olurdu. K.Dəmirçiyan yazırdı ki, məlumata görə, Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər içərisində Ermənistan SSR-ə daimi yaşamaq üçün gəlmək istəyənlər vardır. Məktubun sonunda o, “repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq SSRİ Nazirlər Sovetinin 1985-ci il 20 iyun tarixli “1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında” qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılmasmı”^^^ xahiş edirdi.

Məktubla tanış olan Sov.İKP MK katibi Y.Liqaçov^^^ 1986-cı il 22 noyabr tarixdə “MK-ya təklif hazırlayın” dərkənarı yazaraq MK-nm şöbə müdirləri N.İ.Savinkinə və Y.Z.Razumovskiyə göndərdi. Tapşırığı yerinə yetirən Sov.İKP MK-nm inzibati orqanlar şöbəsinin müdiri N.Sa- vinkin və MK-nm partiya-təşkilat işi şöbəsinin müdir müavini N.Zolotar- yev 1987-ci il mayın 7-də MK-ya müvafiq məxfi məktubla müraciət etdilər^”. Məktubda yazılırdı ki, Sov.İKP MK-nın şöbələri tərəfindən sovet əhalisi içərisində mühacirət əhval-ruhiyyəsinin olması barədə təkliflər hazırlanmışdır. Bu materiallarda ermənilərin SSRİ-yə "repatriasiya" edilməsi barədə məsələyə də toxunulur. Qeyd edilənləri nəzərə alaraq Ermənistan KP MK-nın müraciətinə yuxarıda göstərilən bütün materialın müzakirəsi zamanı son olaraq baxılmasını mümkün hesab edərdik. Məktubla tanış

**^ CeKpexapb IfK Kü ApMCHHH K./(eMnpHH5iH - IfK KflCC. Hoaöpb 1986 roaa. CoBepıueHHO ceKperao. Ocoöası nanKa. - PfAHH, 4).89, on.l 1, Ä-40,** Jl.3.

**Yeqor Liqaçov (1920)- Sov. İKP MK katibi (1983-1990). Sov. İKP MK Siyasi Bürosunun üzvü (1985-1990).**

**H. CaBHHKHH, H. SojıoxapeB - LfK KOCC. 8** Maa **1987 roaa. CoBepmeHHO ceKpexHO. Ocoöaa nanKa. - PfAHH, (jı.89, on.l 1, a.40, jı.l.**

olan Y.Liqaçov, A.Lukyanov^^^, A.Dobrmin və b. "razılaşdırılsın" dərkənarını yazdılar.

Qeyd etmək lazımdır ki, SSRİ-yə köçmək istəyən ermənilər kommunist və ya sosialist deyil, daşnaklar, sovet hakimiyyətinə düşmən olanlar idi. Onların bir çoxu SSRİ-ni dağıtmağa çalışan xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdilər. Həmin müraciətin yerinə yetirilməsi təxirə salınsa da, bundan sonra emıəni dairələrinin əl-qolu daha geniş açıldı. Xarici ölkələrdən ermənilər Ermənistan SSR-ə gəlməyə başladılar. Onlar özləri ilə Cənubi Qafqaza qatı millətçilik, düşmənçilik və kin- küdurət gətirirdilər. Bu region milli münasibətlər baxımından SSRİ-nin ən zəif yeri idi.

## Azərbaycanın Dağlıq Qarabağ regionuna Ermənistanın əsassız iddialar irəli sürməsi. Təcavüzün başlanması

Erməni dairələri dayanmaq bilmirdi. Qarabağ bölgəsinin heç bir zaman Ermənistan tərkibində və erməni kütləsinin təsiri altında olmamasına baxmayaraq, Ermənistan SSR 80-ci illərin ortalarından etibarən Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürdü^^^. Erməni dairələri məqsədlərinə çatmaq üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Heydər Əliyev 1987-ci il oktyabrın İldə keçirilən Sov.İKP MK plenumunda vəzifəsindən azad edildikdən^" bir neçə gün sonra M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyanm^®' Parisdə "İnterkontinental" oteldə yerli erməni nümayəndələri qarşısında etdiyi və noyabrın 18-də "Humanite" qəzetində çap olun-

**Anatoli Lukyanov (1930) - SSRİ Ali Sovetinin sədri (1990-1991).**

**Musayev T.F. From territorial clams to belligerent occupation legal appraisal. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, Xs 18-19, s.30-49.**

**XXVIl C03BIB OKTHÖpcKHH HjıeuyM U,K KOCC (21 OKTuOpa 1987 r.). - PFAHH, 4).2, on. 5, a. 83, jı. 4 - 6, 74 -75, 92-93, 98-112, 118-120.**

**Abel Aqanbekyan (1932) - M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri. Rusiya Federasiyası hökuməti yanında Milli İqtisadiyyat Akademiyasının rektoru (1989-2002).**

muş çıxışı gərginlik yaratdı^". O, Azərbaycanın Dağlıq Qarabağ regionunun guya əlaqəsini nəzərə alaraq Ermənistana birləşdirilməsi barədə sovet rəhbəri M.Qorbaçovun razılığını aldığını bildirirdi^^^. Tezliklə xarici ölkələrdəki erməni mətbuatı və radiostansiyalarının başlıca mövzusuna çevrilən bu bəyanatın ardınca Ermənistanın əsassız ərazi iddiaları güclənməyə başladı.

Ermənilərin nümayəndələri 1987-ci ilin noyabrında Moskvaya gedərək mərkəzi orqanlar qarşısında əsassız tələblərini irəli sürdülər. Elə həmin ayda Ermənistanın Qafan və Meğri rayonlarında azərbaycanlılara qarşı hücumlar oldu. Bunun nəticəsində yüzlərlə azərbaycanlı qaçqına çevrilərək Azərbaycana gəldi. 1988-ci ilin yanvarında artıq Azərbaycanda Ermənistandan qovulan 4 min azərbaycanlı var idi.

Ermənistandan nümayəndələr 1988-ci ilin fevralında da Moskvaya səfər edərək sovet orqanları qarşısında tələblərini irəli sürdülər. 1988-ci il fevralın 11-də Stepanakertdə mitinqlər^^ və konstitusiya quruluşu əleyhinə hərəkətlər başladı^^^ Bu hərəkətlər Ermənistanda və vilayətdə azərbaycanlılara qarşı zorakılıq, hücumlar, bir müddət sonra isə azərbaycanlı qaçqın və məcburi köçkünlərin axını ilə müşayiət olunurdu^^^. Ermənistandan gələrək Azərbaycanın Dağlıq Qarabağ regionunda təbliğat aparan "Qarabağ" və "Krunk" təşkilatlarının fəalları, Z.Balayan və İ.Muradyan kimi şəxslər iki xalq arasında düşmənçilik toxumları səpir, separatçılığı qızışdırırdılar. Təşkilatların fəalları Sov.İKP MK-nın məsul işçiləri olan V.A.Mi- xaylova və A.V.Krıçinə istinad edərək Dağlıq Qarabağ məsələsinə mərkəzdə müəyyən dairələrdə baxıldığını deyirdilər^^'.

Dağlıq Qarabağ münaqişəsini Azərbaycan cəmiyyəti doğurmamışdı. Bu, Ermənistanın Azərbaycanın daxili işlərinə bilavasitə kobud müda-

rioMneeB K). KpoBaBbiH OMyr Kapaöaxa, c.20.

CoöbiTHH BOKpyr HKAO в KpuBOM aepKane (JıajibCHiJiHKaTopoB (cöopuHK Ma- TepuanoB), c. 7.

Mustafa Budak. Azerbaycan - Ermenistan ilişkilerinde Dağlık Karabağ meselesi ve Türkiyenin politikası. ■'Kafkas Araştırmalan" dergisi, İstanbul, 1996, Xa 2, s. 107-139.

ARXİNA. 1994. Qovluq Xs 9, v. 3.

Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Toplayan və tərtib edənlər: Fərhad Vahabov, Vəli Axundov, Elman Qasımov. Bakı, 2005.

MeMopaHÄyM no nncJıopMauHH KEB pecnyÖJiHKH (1987-1989) o6 oöcraHOBKe в ApMCHHH H AaepöaüfljKaHe, HaropnoM Kapaöaxe. - ARMTNA, Xs PF-872, V.3.

xiləsinin nəticəsi idi. Belə ki, 80-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər yanmieqal şəraitdə odlu silah, partlayıcı maddələr istehsal edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə göndərir, sovet Ermənistanı rəhbərlərinin himayəsi altında qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən nəqliyyatla təmin edirdilər.

Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etdi. M.Qorbaçov ətrafındakı erməni xadimlərinin təsiri altında idi. Yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasəti həyata keçirilmədiyi üçün o, yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edirdi.

Qeyd etmək lazımdır ki, SSRİ-nin dağılmasında maraqlı olan bəzi Qərb dövlətləri də milli münasibətləri qızışdırırdılar. Onlar Sovet İttifaqım demokratik və güclü bir dövlət kimi görməkdə maraqlı deyildilər. Ölkəni daha tez dağıtmağın yolu milli münasibətləri kəskinləşdirməkdən keçirdi.

Dağlıq Qarabağ münaqişəsi bir neçə mərhələdən - gizli münaqişə; aktuallaşdırılması və potensiala çevrilməsi; yetişdirilməsi; tələbata çevrilməsi; başlanması və ziyanlar vurması mərhələlərindən keçmişdir^^*. Heç şübhəsiz. Dağlıq Qarabağ münaqişəsinin kökləri “etnik amilin üstünlü- yündə”^^^ deyil, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarında idi. Uzun illər boyu antiazərbaycan, antitürk xətti Ermənistanda rəsmi dövlət siyasəti səviyyəsində qaldırılmışdı. Bu respublikada azərbaycanlıların sıxışdırılması, tarix və mədəniyyət abidələrinin dağıdılması davam etdirilmişdi.

Artıq qeyd edildiyi kimi, M.Qorbaçovun hakimiyyətə gəlməsi ilə həmin proseslər daha da artmışdı. 1988-ci il fevralın 18-də etdiyi çıxışında M.Qorbaçov SSRİ-də milli münasibətlər məsələsinə baxılmasının vacibliyini söylədi. Bu, müttəfiq respublikaların ittifaqdan ayrılması cəhdlərinə mane olmaq və Sov.İKP MK Siyasi Bürosundan uzaqlaşdırdığı rəqiblərinə qarşı bir təzyiq vasitəsi idi. M.Qorbaçovun çıxışı erməniləri daha da ruhlandırdı. Onlar fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin ic-

**Dmitri Furman. The Evolution of the Karabakh conflict. - “The Iranian Journal of International Affairs”, Tehran, 1994-95.Vol VI. Nos. 3 and 4, p. 520- 521.**

**Jack F. Matlock, Jr. The former Soviet Union Etnonationalism and US interess and values. - Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr.Richard, H.Shultz, Jr. Washington, U.S.Government printing offıce,1994, p.l81.**

lasını keçirdilər. Sovetin tərkibindəki 140 deputatdan 11 O-u erməni, qalanları isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar^™. Vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetinə müraciət etmək haqqında qərar qəbul etdilər^". Bu, Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da gərginləşdirdi. Vilayətdə azərbaycanlılara qarşı təzyiqlər artdı .

Ermənistandan da azərbaycanlıların qovulması çoxaldı. Qafandan qovulan 70 nəfər fevralın 21-də Azərbaycan KP MK-nın qəbul otağına gələrək Ermənistanda yaşamağın mümkün olmadığını söylədilər. Onları qəbul edən məsul işçilər bu barədə Ermənistan rəhbərliyinə müraciət etməyi məsləhət bildilər^™.

Sov.İKP MK fevralın 21-də "Dağlıq Qarabağda hadisələr haqqında" qərar qəbul etdi^^'*. Qərarda vilayətdə yaranmış şərait siyasi cəhətdən ciddi qiymətləndirilirdi. Qeyd edilirdi ki, bu regionda milli-ərazi quruluşunun dəyişdirilməsi hərəkətləri və tələbləri Azərbaycan və Ermənistan zəhmətkeşlərinin maraqlarına ziddir, millətlərarası münasibətlərə ziyan vurur, məsuliyyətli qərarlar qəbul edilməsə, çətin düzələn nəticələrə gətirə bilər. Qərarda bütün bunların hamısının ekstremist əhval-ruhiyyəli şəxslərin məsuliyyətsiz çağırışlarına yerli partiya və sovet orqanlarının gözləmə mövqeyinin nəticəsi olduğu göstərilirdi. Sov.İKP MK vəziyyəti normallaşdırmaq üçün bütün məsuliyyəti Azərbaycan və Ermənistan KP MK-nın və şəxsən MK-nın birinci katiblərinin üzərinə qoyurdu. Qərarda vilayətin sosial-iqtisadi inkişafına dair tədbirləri işləyib hazırlamaq tapşırıldı.

° **RajıaÄse T. KapaöaxcKHÜ reHouua: oOpeneMUbiü Xoa>Kajibi. floKyMeHxanbHaa xpoHHKa. Baxy,** 2009, c.l9.

**CoöbiTHH BOKpyr HKAO** в **KpnBOM** sepKane **cjıajibCHcjiHKaTopoB (cöopuHK** Ma- **repuanoB), c.** 8-9; **Haropubiü Kapaöax; PasyM noöcÄUT. /foKyMeuTbi u Marepua- Bbi. Baxy,** 1989, c.81-82.

**Michael P. Crossant. The Armenian - Azerbaijan conflict, causes and implications. London, Praeger, 1998, s. 10.**

MeMopanayM no uucJıopMauHH **KTB** pecnyöJiuKH **(1987-1989)** o5 oöcTauoBKe B ApMeHHH, AsepöaKruKaHe н HaropnoM Kapaöaxe. - **ARMTNA, Rç PF-872, v. 4.**

riocTaHOBaeHHe **IfK KOCC** OT 21 (jıeBpana 1988 rona o coöbixHax в Harop-HOM Kapaöaxe. CoBepıucHHO cexpexHO. - **ARSSA, f.l,** siy.83, qovluq **5,** iş 83, v.9-10.

Azərbaycan KP MK Bürosu fevralın 22-də bu qərarı müzakirə edərək bəyəndi. Müvafiq qərar qəbul etdi^’^. Azərbaycan KP MK Bürosunun qərarında Sov.İKP MK qərarı vacib əhəmiyyətli siyasi sənəd kimi qiymətləndirilirdi. Şəraiti normallaşdırmaq işi Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinə tapşırıldı. Vilayətin sosial-iqtisadi inkişafı üçün tədbirləri hazırlayıb Azərbaycan KP MK-ya təqdim etmək göstərişi verildi. Əhali arasında təbliğat işləri aparmaq tövsiyə edildi. Mətbuat, radio və televiziyanın imkanlarından istifadə edərək erməni və Azərbaycan xalqları arasında dostluğun təbliği vacib sayıldı.

Lakin bu qərarlar yerinə yetirilməmiş ilk qan töküldü. Xankəndi - Ağdam avtomobil yolu üstündə yerləşən Əsgəran qəsəbəsi yaxınlığında silahlılar DQMV Xalq Deputatları Sovetinin ayrılma barədə qərarına qarşı etiraz edən dinc azərbaycanlılara fevralın 22-də atəş açdılar. İki azərbaycanlı gənc həlak oldu. Onlar münaqişənin ilk qurbanları idi. SSRİ prokurorluğu təqsirli bilinən şəxsləri həbs etdi. Bəzi adamlar saxlanıldı^^^. Lakin həmin hadisəyə xarici ölkələrin kütləvi informasiya vasitələri kifayət qədər ciddi diqqət yetirmədilər.

Beləliklə, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin ilk qanlı nəticəsi Əsgəranda iki azərbaycanlının öldürülməsi oldu. Münaqişənin ilk qurbanları da məhz azərbaycanlılar oldular.

İşdə yol verdiyi nöqsanlara görə Boris Gevorkov fevralın 25-də Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edildi. Bu vəzifəyə Vilayət Xalq Deputatları Soveti sədrinin birinci müavini, Vilayət Aqrar-Sənaye Kombinatının sədri Nikolay Poqosyan gətirildi^’’.

Həmin gün Sov.İKP MK baş katibi Mixail Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciət etdi”*. Müraciətdən irəli gələn

**^ SaceaaHHe öiopo LfK KH A3ep5aHÄ>KaHa. O COÖBITHHX B HaropnoM Kapa-6axe. 22 ({lespana 1988 roaa. CoBepıueHHO ceKpexHO. - ARSSA, f.l, siy.83, qovluq 5, iş 83,v.l0-12.**

**npeÄceaareab KFB AaepöaH/ıxcaHCKOH CCP 3.M.K3cn({)3aae. K oöcTanoBKe B HaropnoM Kapaöaxe. 22 anpeaa 1988 roaa. CeKpexno. - ARMTNA, 10/407, V.131.**

**”’ SaceaaHHe 6ıopo IJ,K KO A3ep6aHa>KaHa. O x.x. norocane F.A. u KesopRO- Be E.C. 25 ({leBpajiH 1988 roaa. -ARSSA, f.l, siy.83, qovluq 5, iş 83, v.l3.**

**OöpameHHH FenepaJibHoro ceKpexapa U.K KFİCC x. FopöaHCBa M.C. K xpyaHiuHMCH, HapoaaM A3ep5aHa>KaHa n ApMennH. 25 cJıeBpajıa 1988 roaa. - HaropHbiH Kapaöax: paayıvı noöe/iHX. /],OKyMeHXbi n Maxepnaabi, c.l 1-13.**

vəzifələrin yerinə yetirilməsi tədbirləri barədə Sov.İKP MK qərar qəbul etdP’’. Azərbaycan KP MK Bürosu fevralın 26-da həmin qərarı bəyəndi. Respublikada əhali arasında geniş iş aparmaq tədbirləri müəyyənləşdirildi.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycan ərazilərini işğal etmək məqsədi ilə hərbi bazalar yaratmaq üçün əraziyə hərbi birləşmələr, böyük miqdarda silah, sursat göndərməyə, azərbaycanlı əhaliyə qarşı terror hərəkətlərini həyata keçirməyə, onları öldürməyə, evlərini yandırmağa və sərhəd kəndləri atəşə tutmağa başladı, Azərbaycanın daxili işlərinə kobud surətdə müdaxiləni davam etdirdi^*®. Ermənistan təcavüzkarlığını ört-basdır etmək üçün Azərbaycanın Dağlıq Qarabağ bölgəsində “erməni xalqf’mn öz müqəddəratını təyin etməsi, guya ermənilərin hüquqlarının pozulması, sosial-iqtisadi inkişafının geriliyi barədə mülahizələr irəli sürməyə başladı. Lakin artıq qeyd edildiyi kimi, bütün bunların heç bir əsası yox idi^*'.

Bu zaman Ermənistandan azərbaycanlıların qovulması artıq kütləvi hal almışdı. Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarına, xüsusən Bakı və Sumqayıt şəhərlərinə üz tuturdular. Ermənistandan qovularaq evsiz- eşiksiz qalan və yaşamaq üçün imkanları olmayan insanlar dövlət orqanlarından hüquqlarının qorunmasını tələb edirdilər. Əsgəranda iki nəfər azərbaycanlının öldürülməsi əhalini daha da hiddətlənmişdi. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda yaşayır və işləyirdilər.

Yaranmış gərgin vəziyyətdə 1988-ci il fevralın 26-28-də Sumqayıtda iğtişaş baş verdi. Azərbaycan SSR DTK sədri Ziya Yusifzadənin^*^ bu hadisədən bir neçə gün sonra, martın 7-də Azərbaycan KP MK-ya yazdığı məxfi arayışdan aydın olur ki, artıq o vaxtadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Onların içərisində 4 rus ailəsi də var idi. İğtişaşlar nəticəsində 32 nəfər öl-

**O nepBOOHepeflHHx ıvıepax no peajın3aunn sa^an, BbiTexaıomHX H3 oöpame- HH51 renepajibHoro ceKpexapa 1J,K KOCC T. ropöaneBa M.C. K TpyasmiHMCJi, na- poflaM A3ep5aüfl>KaHa H APMBHHH. 25 cjıeBpajnı 1988 roaa. - ARSSA, f.l, siy. 83, qovluq 5, iş 32, v.l4.**

**ƏcjıeHÄHCB O. BoopyxceHHbie KOH(})jiHKTbi H BoeHHbie npecxymıeHHH na IfenT- panbHOM KaBKaae. MexcflynapoaHO- npaBOBOÜ acncKT. Baxy, 2006, c. 178.**

**Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996, s. 98-126.**

**Ziya Yusifzadə (1929) - 1976-cı ildə DTK sədrinin birinci müavini. Azərbaycan SSR DTK sədri (1980-1988). General-leytenant. Azərbaycan Respublikası Milli Təhlükəsizlik**

dü. Onların 24 nəfəri erməni, 5 nəfəri azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi. Bədən xəsarəti alan 198 nəfərin 87-si xəstəxanaya yerləşdirildi. 60 mənzil qarət edildi. 14 avtomaşın yandırıldı. 8 maşın zədələndi. 16 ticarət obyektinin şüşələri sındırıldı. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi^*^.

İstintaq materiallarından aydın olur ki, hücum edənlər artıq əvvəlcədən müəyyənləşdirilmiş mənzilləri seçmişdilər^^". Öldürülən ermənilər erməni təşkilatlarına pul ödəməyən şəxslər idi. Onların siyahısı əvvəlcədən hazırlanmışdı. Hadisələrdə şəhərin qeyri-yerli əhalisindən ibarət olan cinayətkar elementlər iştirak etmişdilər.

Hadisənin təşkilatçılarından biri ermənilərin qətli və erməni qadınlarının zorlanmasında bilavasitə iştirak edən Eduard Qriqoryan idi. O, bu iğtişaşa qədər cinayət əməlləri üstündə bir neçə dəfə həbsxanada yatmışdı. Azərbaycan SSR Ali Məhkəməsi sonralar, 1989-cu il 22 dekabr tarixli qərarı ilə Qriqoryanm iğtişaş və qırğınların təşkilatçılarından biri olması barədə hökm çıxardı, onu 12 il həbs cəzasına məhkum etdi. Şahidlərin və zərərçəkənlərin məhkəməyə verdikləri ifadələrindən Qriqoryanda ermənilərin yaşadıqları mənzillərin siyahısının olduğu və intiqam aktlarına çağırdığı aydın olurdu. Onun qurbanlarının hamısı ermənilər idi. Əsasən erməni millətindən olan şahidlər məhkəmə prosesində Qriqoryanı zorakılığın təşkilatçılarından və fəal iştirakçılarından biri kimi tanıdılar. Əslində Ermənistan rəhbərliyinə geniş antiazərbaycan kampaniyasına başlamaq və Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə bəraət qazandırmaq üçün vasitə kimi lazım olan bu hadisə əvvəlcədən planlaşdırılmışdı. Sumqayıt hadisəsi respublikaya təzyiq etmək, onu nüfuzdan salmaq, DQMV-nin Azərbaycan tərkibində saxlanılmasının, ermənilərin azərbaycanlılarla bir yerdə yaşamasının qeyri-mümkünlüyünü dünyaya göstərmək üçün erməni qrupları və mərkəzi hakimiyyət tərəfindən törədilmişdi. Bununla belə, hadisə zamanı bir çox azərbaycanlı erməniləri mənzillərində gizlədərək ölümdən xilas etdi^*^.

**^ npeflceaaxejib KFB AaepöarifljKaHCKOH CCP 3.M.K)cH(|)3aÄe - U,K KO Aaep- *öaMavKma. 1* Mapra 1988 roaa. CeKpexHO. - ARMTNA, 10H92, v.22-24.**

**Qasımlı M. Sumqayıt hadisələri sovet rəhbərliyinin və erməni dairələrinin Azərbaycan xalqına qarşı təxribatı idi. - "Azərbaycan" qəzeti, Bakı, 2011, 2 mart.**
**İsmayılov A. Sumqayıt - SSRİ-nin süqutunun başlanğıcı. Bakı, 2010.**

Sumqayıt hadisəsi Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il 29 fevral tarixli iclasında müzakirə edildi^*®. İclasda sədrlik edən M.Qorba- çov Yerevanda vərəqələrin yayıldığını diqqətə çatdırdı. Həmin vərəqələrdə ermənilərdən mitinq etməyi dayandırmaq, silaha sarılmaq və türklərə qarşı hücuma keçmək çağırışları edilirdi. Yerevanda ordu qərargahına atəş açılmış, güllə qərargah rəisinin otağının pəncərəsinə dəymişdi. M.Qorba- çov onları ekstremist adlandırıraraq bildirdi ki, mitinqlərdə bütün çıxışlarda əsas mövzu Qarabağ və onun Ermənistana birləşdirilməsidir. Daha sonra o, Ermənistandan olan yazıçılar Silva Kaitukyan və Zori Balayan ilə etdiyi söhbəti xatırlatdı. M.Qorbaçov onlarla söhbətində bu tarixin çətin olduğunu demişdi. M.Qorbaçova görə, hadisələrin guya iki səbəbi var idi: bir tərəfdən Qarabağda çoxlu diqqətsizliklər olmuşdu, ikincisi isə ermənilərdə daim olan hissiyyat başlanğıc rolu oynamışdı. M.Qorbaçov reallıq hissini itirərək Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibinin 14 il ərzində bir dəfə də olsun Yerevana getmədiyini, Ermənistana aparan yolların baxımsız olduğunu, mədəni əlaqələrin kəsildiyini, bütün bunların düşünülərək edildiyini dedi. Daha sonra qeyd etdi ki. Dağlıq Qarabağda Türkiyə televiziya kanallarına baxırlar, Ermənistan televiziyasına isə yox.

İclasda qaçqınlar məsələsinə də toxunuldu. M.Qorbaçov Ermənistandan azərbaycanlıların qaçması faktının olduğunu təsdiq edərək, lakin sayı dəfələrlə azaldaraq 55 nəfərin qovulduğunu dedi. Georgiy Razumov- skiy^®’ isə 200 nəfər azərbaycanlının Ermənistandan getdiyini, Azərbaycanda isə qorxan 200 nəfər erməninin məktəbdə yerləşdirildiyini, daha 500 nəfərin də toplandığını qeyd etdi.

İclasda iştirak edən Sov. İKP MK-nın təşkilat-partiya işi şöbəsi müdirinin müavini E.Razumov çıxış edərək azərbaycanlının Ermənistandan çıxıb gedərkən qaçdığını söyləmədiyini, guya qonaq getdiyini dediyini, ona görə də hesabı Azərbaycan üzrə aparmağın lazım olduğunu bildirdi. Əlavə etdi ki, azərbaycanlı Ermənistandan Azərbaycana gəlir və birbaşa deyir ki, mən artıq Ermənistana qayıtmıram.

**3ac6ÄaHHe flojiHTÖıopo IfK KOCC. 29 ^lespajın 1988 roaa. O aonoaHHxejib-** Hbix Mepax B CBH3H C COÖblTHHMH B A3ep6aÜÄ*aHCKOH H ApMHHCKOH **CCP. Co-** BepmeHHO ceKpcTHo. - **PEAHH, c}). 89, on.42, a. 18, jı. 1-11.**

**Georgiy Razumovskiy (1936) - sovet dövlət və partiya xadimi. Sov.İKP MK Siyasi Bürosunun üzvü (1998-1990). SSRİ-nin Şanxaydakı baş konsulu (1990-1992).**

M.Qorbaçov Dağlıq Qarabağ Muxtar Vilayətində yeni rəhbərin təyin edilməsi məsələsinə də toxunaraq vurğuladı: "Ermənistandan ona zəng edib sizin üçün bütün Ermənistanı ayağa qaldırmışıq, bəs siz niyə gözləyirsiniz" deyildiyini Siyasi Büro üzvlərinin diqqətinə çatdırdı.

SSRİ DTK sədri Viktor Çebrikov kolxozlardan adamların Stepanakertə axışdığını, M.Qorbaçov isə Stepanakertdə ocaqların qalandığını, kababların bişirildiyini, 500, 1000 nəfərin meydanda qaldığını bildirdi. SSRİ daxili işlər naziri Aleksandr Vlasov^** mitinqlərdə iştirak edənlərin sayının 1000 nəfərdən çox olduğunu dedi. M.Qorbaçov isə vurğuladı ki, Ermənistanda deyirlər, elə etmək lazımdır, mitinq ocağı sönməsin. Daha sonra o, etiraf edərək dedi ki, burada onsuz da Ermənistandan gələn təlimat və əlaqə ilə hərəkət edildiyi açıq-aydın görünür. MK-mn baş katibi Əsgəranda iki azərbaycanlının öldürülməsi faktının üstündən sakitcə keçərək, Sumqayıt hadisəsini nəzərdə tutaraq ilk ölümün Azərbaycanda olduğunu, bunun şayiələr yaratdığını, azərbaycanlıların qisasdan qorxaraq Ermənistandan qaçmağa başladıqlarını, onlara yaşamağa imkan verilmədiyini söylədiklərini Siyasi Büro üzvlərinin diqqətinə çatdırdı.

M.Qorbaçov daha sonra Azərbaycanda başlayan hərəkat üzərində dayandı. Onun tənzimləndiyini, kombinə edildiyini, bunun xüsusən Naxçıvanda aydın göründüyünü vurğuladı. Əlavə etdi ki, orada da kütlələr toplaşmışlar, katib gəlib çıxış etmiş və 30 dəqiqədən sonra adamlar dağılışmışlar. Bununla da M.Qorbaçov Azərbaycanda mitinqlərin guya düşünülmüş şəkildə təşkil edildiyini vurğulayırdı.

M.Qorbaçov Sumqayıtda 14 nəfərin öldürüldüyü, Viktor Çebrikov isə 110 nəfərin yaralı olaraq xəstəxanaya yerləşdirildiyi barədə məlumat verdi. M.Qorbaçov Sumqayıt hadisəsini ermənilərə cavab kimi qiymətləndirdi. A.Vlasovun məlumatına görə, Sumqayıtda 14 nəfər, o cümlədən 3 qadın öldürülmüşdü. Onlardan 3-ü azərbaycanlı, 6-sı erməni idi. 71 nəfər isə bədən xəsarəti almışdı. Onların 48 nəfəri erməni idi. 47 nəfər hüquq mühafizə orqanları tərəfindən saxlanılmışdı.

İclasda baş verən hadisədə Azərbaycan rəhbərliyi təqsirləndirildi. Həm Ermənistanda, həm də Azərbaycanda rəhbərliyin dəyişdirilməsi barədə fikirləşmək haqqında razılaşdırıldı. MK katibi A.Yakovlev Sumqayıta ordu yeritməyin, hakimiyyətin gücünü göstərməyin lazım olduğunu

**Aleksandr Vlasov (1932-2002) - sovet dövlət və partiya xadimi. SSRİ daxili işlər naziri (1986-1988). Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, RSFSR Nazirlər Sovetinin sədri (1988-1990).**

söylədi. Şəhərdə komendant saatının tətbiq edilməsinə dair qərar qəbul olundu.

Sumqayıt hadisəsi sonralar, mayın 7-də Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun sədrliyi ilə MK Bürosunun iclasında geniş müzakirə edildi[389]. Müzakirə nəticəsində iki qərar qəbul edildi: Birinicisi, "Sumqayıt şəhərində vəziyyətin normallaşdırılması üzrə hökumət komissiyasının hesabatı haqqında"[390], ikincisi isə "1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində faciəvi hadisələrə gətirən səbəblər haqqında"[391]. Büro iclasında şəhərdə vəziyyəti normallaşdırmaq və milli münasibətləri sabitləşdirmək üçün konkret tədbirlər müəyyənləşdirildi.

Qərarların qəbul edilməsinə baxmayaraq, Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxilələri dayanmırdı. Ermənistandan azərbaycanlıların qovulması davam edir, Azərbaycana gələn qaçqınların sayı artırdı.

Azərbaycan hakimiyyətinin vəziyyəti sabitləşdirmək səylərinə baxmayaraq, Ermənistanın kobud müdaxilələrini dayandırmaq mümkün olmurdu. Millətçi əhval-ruhiyyəli şəxslər Ermənistandan DQMV-nin rayonlarına gələrək Dağlıq Qarabağ regionunun Azərbaycan SSR-in tərkibindən çıxarılması üçün yüksək dairələrə müraciət etmək və Ermənistan SSR və DQMV-dən Moskvaya nümayəndə göndərmək məqsədilə kütləvi imza toplamaq kimi qızışdırıcılıq fəaliyyəti ilə məşğul olurdular[392].

Qeyd etmək lazımdır ki, iki xalq arasında milli münasibətlərin qızışdırılmasında erməni din xadimləri də rol oynayırdılar. Bakıdakı erməni kilsəsinin dyakonu (aşağı rütbəli keşiş – M.Q) S.S.Davityan 1988-ci il martın 8-10-da Eçmiadzinə gedərək bütün ermənilərin katolikosu I Vazge-

---

[389] Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. – ARSSA, f.1, siy.83, iş 56.

[390] Решение бюро ЦК КП Азербайджана об отчете правительственной комиссии по нормализации обстановки в г. Сумгаите. Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. – ARSSA, f.1, siy.83, iş 56, v.2.

[391] Решение бюро ЦК КП Азербайджана о принципах, повлекщих за собой трагические события в г. Сумгаите 27-29 февраля 1988 года. Протокол №74 заседания бюро ЦК КП Азербайджана. 7 мая 1988 года. Совершенно секретно. – ARSSA, f.1, siy.83, iş 56, v.3.

[392] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. 7 марта 1988 г. Секретно. – ARMTNA, 10/192, v. 22-25.

qəbulunda olmuş, ieoromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan ilə görüşmüşdü. Matevosyan Bakı və Sumqayıtdakı vəziyyətə dair suallar vermişdi. Bakı ermənilərinin Dağlıq Qarabağ məsələsində bitərəf mövqe tutmasının səbəbləri ilə maraqlanmışdı. Bildirmişdi ki, Bakı erməniləri böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar. S.Davityan cavabında demişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinin vəziyyətinə mənfi təsir edə bilər. Bu zaman İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan belə söyləmişdilər; "Burada qorxulu heç nə yoxdur, onları (Bakı erməniləri nəzərdə tutulur - M.Q.) qurban vermək olar"

Şəraitin ağırlaşdığı bir zamanda Ermənistan hakimiyyəti Yerevanda yerli məscidi bağladı. Məcsidin bağlanması azərbaycanlıları hiddətləndirdi. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə^^^ məscidin açılması barədə I Vazgenə müraciət etdi. Lakin bu müraciət yerinə yetirilmədi. Məsələni həll etmək üçün SSRİ Nazirlər Soveti yanında dini işlər üzrə səlahiyyətli nümayəndənin Ermənistana təsir göstərməsindən ötrü müraciət etmək məsləhət bilindi. Lakin bu da bir nəticə vermədi^^®.

Ermənistanın Azərbaycana qarşı müdaxiləsi və iki respublika arasında münaqişə Sov.İKP MK-da 1988-ci il martın 9-da keçirilən müşavirədə geniş müzakirə edildi^^'. Müşavirədə Azərbaycan KP MK-nm birinci katibi Kamran Bağırovun və Ermənistan KP MK-nm birinci katibi Karen Dəmirçiyanm məlumatları dinlənildi. M.Qorbaçov çıxış etdi. O bəzi mürəkkəbliklərə baxmayaraq, respublikalarda şəraitin normal məcraya düşdüyünü bildirdi. Müəssisələr və təhsil ocaqları işləyir, ictimai qayda-qanuna əməl edilirdi. Sumqayıt hadisəsi üzrə istintaq işi davam etdirilirdi.

**" I Vazgen (Levon Karapet Baljian) (1908-1994) - bütün ermənilərin katolikosu (1955-1994).**

**MeMopanayM no HHcJıopMauHH KEB pecnyöjiHKH (1987-1989) o5 oöcxaHOBKe B ApMCHHH, AsepöaöruKaHe H HaropnoM Kapaöaxe. - ARMTNA, İNb PF-872, V. 3-4.**

**Hacı Allahşükür Paşazadə (1949) - Qafqaz Müsəlmanları İdarəsinin sədri (1980-ci ildən). Şeyxülislam. Tarix elmləri doktoru, professor.**

**MeMopanayM no HHiJıopMaıWH KTB pecnyöJinKn (1987-1989) o6 oöcxaHOBKe B ApMCHHH, AsepöaHÄJKane n HaropnoM Kapaöaxe. - ARMTNA, Na PF-872, V. 4.**

**CoBemanne B IfK KHCC. 9 Mapxa 1988 r. - ARSSA, f. 1, siy.83, qutu 5, İş 32, v.1-2.**

Sov.İKP MK Siyasi Bürosunun qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yığılıb qalmış problemləri dərindən və hərtərəfli öyrənmək tapşırılmışdı.

Müşavirədə Andrey Qromıko, Yeqor Liqaçov, Nikolay Rıjkov ,398 Aleksandr Yakovlev, Pyotr Demiçev , Vladimir Dolgix , Georgiy Razumovskiy, Anatoli Lukyanov, həmçinin Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov"®', Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qrant Voskanyan'*®^ və Ermənistan SSR Nazirlər Sovetinin sədri Fadey Sarkisyan"'’^ çıxış edərək şəraiti normallaşdırmağın vacibliyini vurğuladdan

Azərbaycan KP qarşısında duran vəzifələr isə 1988-ci il martın 13- də Azərbaycan KP MK Bürosunun iclasında müzakirə edildi''®''. Geniş bir qərar qəbul olundu. Qərarda Sov.İKP MK-nm 9 mart tarixli müşavirəsinin nəticələri bəyənilir, erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək xəttinə dönmədən əməl etmək yerli partiya, sovet və təsərrüfat orqanlarından tələb edilirdi. Dağlıq Qarabağ regionunun sosial- iqtisadi inkişafı layihəsini hazırlamaq üçün Vilayət Partiya Komitəsinə iki həftə vaxt verilirdi. Vilayətdə vəziyyəti normallaşdırmağa dair təşkilati- siyasi tədbirlər planı təsdiq edildi. Eyni zamanda Sumqayıtda da vəziyyəti normallaşdırmaq üçün tədbirlər müəyyənləşdirildi.

Azərbaycan tərəfinin vəziyyəti normallaşdırmaq cəhdlərinə baxmayaraq, Ermənistan kobud müdaxilələrini davam etdirirdi. Ermənistanda çap edilən məqalələrin bəzilərində müəlliflər bu və ya başqa şəkildə Azərbaycan SSR-in bəzi rayonlarının Ermənistana məxsus əzəli torpaqlar oldu-

**Nikolay Rıjkov (1929) - sovet dövlət və partiya xadimi. Sov.İKP MK katibi H982-1985). SSRİ Nazirlər Sovetinin sədri (1985-1990).**

**Pyotr Demiçev (1917)- Sov.İKP MK katibi (1961-1974). Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd (1964-1988).**

**Vladimir Dolgix (1924) - Sov.İKP MK katibi (1983-1990). Sov.İKP MK Siyasi Bürosunun üzvü (1985-1990).**

**Həsən Seyidov (1932-2004) - Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1981-1989).**

**Qrant Voskanyan (1924-2005) - Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1985-1990).**

**Fadey Sarkisyan (1923-2010) - Ermənistan SSR Nazirlər Sovetinin sədri (1977-1989).**

**HpoTOKOJi Jfs 67 saceflaHHH 6K>po IJ,eHTpajibHoro KoMHxexa KoMMyHHcxHHCC- KOH napxHH AsepöaÜÄJKaHa ox 13 Mapxa 1988 roaa. CoBepmcHHO ccKpexHO. - ARSSA, f. 1, siy. 83, qovluq 5, iş 32, v.1-5.**

ğunu saxtakarlıqla əsaslandırmağa cəhd edir, erməni əhalisinin müəyyən hissəsində "tarixi ədaləf'in bərpası zəruriliyi fikrini formalaşdırırdılar"'®^.

Ermənistandakı təşkilatlar martın 26-da Yerevanda böyük mitinq keçirməyə hazırlaşırdılar. Yaranmış vəziyyət Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il martın 21-də keçirilən iclasında müzakirə edildi"*®®. İclasdan əvvəl "Qarabağ" adlandırılan komitənin iclası haqqında Yerevandan alınan teleqram bütün Siyasi Büro üzvlərinə paylanmışdı. İclası açan M.Qorbaçovun sözlərinə görə, Dağlıq Qarabağda deyirdilər ki, döyüşü indi udmasaq, heç bir zaman udmayacağıq. O, aşkarlıq şəraitində buna müəyyən qədər səbr etdiklərini vurğuladı. Əlavə etdi: "Dağlıq Qarabağda hesab edirlər ki, onlar erməni xalqını daxildə və xaricdə ayağa qaldıraraq, eyni zamanda xarici mərkəzlərin diqqətini problemə yönəldə bilmişlər. Daxili şərait və xalqın bu ideya ilə silahlanması, xaricdəki həmrəylik baxımından onlar xoşbəxt anın gəldiyi qənaətindədirlər". M.Qorbaçov baş verən hadisələri sosializm və çoxmillətli dövlət baxımından qiymətləndirərək onu ən mühüm siyasi, dövlət əhəmiyyətli hadisə adlandırdı. O, hadisələrin Ermənistan çərçivəsindən kənara çıxdığı qənaətində idi. M.Qorbaçovun fikrincə, köklü məsələ, çoxmillətli dövlətin, Lenin tərəfindən əsası qoyulmuş milli siyasətin taleyi həll edilirdi. O, keçmişə qayıdaraq problemin köklərini araşdırmaq, təkrar etmək istəmədiyini, uzun illərdir tarixçilərin mübahisə etdiklərini, dissertasiya yazaraq müdafiə etdiklərini, akademik olduqlarını, amma bir-birinə heç nə sübut edə bilmədiklərini, bir masa arxasında oturanda müxtəlif mövqelərdən danışdıqlarını, müxtəlif nəticələr çıxardıqlarını dedi. M.Qorbaçov vəziyyətin kəskinləşməsini yanlış olaraq Azərbaycan hakimiyyətinin fəaliyyəti, guya ermənilərin sıxışdırılması ilə əlaqələndirdi. Belə bir misal gətirdi ki, bir zamanlar guya Naxçıvanda erməni əhalisi demək olar ki, yarıbayarı idi, indi isə 2%-ə qədər qalmış. Dağlıq Qarabağda isə ermənilərin sayı 20 il ərzində 85%-dən 76%-ə düşmüşdür. Belə yanlış yanaşma M.Qorbaçovun Azərbaycan xalqına mənfi münasibətinin göstəricisi idi.

M.Qorbaçov guya erməni xalqının vəziyyətinin ağır olduğunu, bütün dünyaya səpələndiyini, buna görə də onlarda birləşmə hissinin güclü

**npeaceaaxejib KfE AsepöaÜÄÄaHCKOH CCP S.M.KDcHcjısaae - UJC Kil AsepöaÜÄJKaHa. 7 Mapxa 1988 roaa. CeKpexHO. - ARMTNA, 10/192 ,v. 22-24.**

**SaceaaHHe OojiHTÖıopo LfK KFICC. 21 Mapxa 1988 roaa. O ueKoxopbix ueox- jıojKHbix Mepax no HopMajınsauHH oöcxauoBKH в Asepöaüa^KaHe н ApMeHHH в CBH3H C coöbixHBMH BOKpyx HaxopHOxo Kapaöaxa. CoBepmenHo cexpexHO. - PFAHH, (j). 89, on.42, a.l9, Ji. 1-8.**

olduğunu qeyd etdi. Onun fikrincə, bütün bunlar həm Azərbaycanda, həm də Ermənistanda qızışdırıcılar və millətçilər üçün təməl idi, yanğın olması üçün bir qığılcım lazım gəlirdi. M.Qorbaçov təhlükənin vaxtında qiymətləndirilmədiyi qənaətində idi. O, siyasi tədbirlərin həyata keçirilməsini təklif etdi, inzibati tədbirlərə tərəfdar olmadı. Bildirdi ki, hadisələr nəzarətdə saxlanmasa, Sumqayıt hadisəsinə çevrilə bilər. Daha sonra əlavə etdi: "Bütün ekstremist çıxışlarına baxmayaraq, onlar (Ermənistanda mitinqdə iştirak edənlər - M.Q.) özlərini ittifaqın daxilində hiss edirlər. Kütlənin təsiri altında antisovet və federasiya əleyhinə çıxışlar da ola bilər".

M.Qorbaçov K.Dəmirçiyanm "rezini uzatmaqla məşğul olduğunu". Dağlıq Qarabağın Azərbaycandan alınaraq Ermənistana verilməsindən başqa heç bir siyasi qərar istəmədiyini vurğuladı. Ermənilərin Moskvadan Yerevana komissiya çağırıb Qarabağ probleminin həllini istədiklərini qeyd etdi. M.Qorbaçov məsələnin belə həllinin yolverilməz olduğunu, onun ağır nəticələrinin olacağını bildirdi. Əlavə etdi ki, biz iki respublika ilə bacara bilməsək, bilmirəm, nə olacaqdır. Ona görə yox ki, biz onlara qarşı sərt mövqedəyik. Ona görə ki, bu, zəncirvarı reaksiya doğura, bütün bunlar sadəcə toqquşma İlə deyil, kütləvi qırğınlarla qurtara bilər. M.Qorbaçov birincisi, ilk qəbul edilən qərarı təsdiq etməyin, ikincisi, zaman udmağın, ictimai rəyə müraciət etməyin lazımlığını, belə şəraitdə bu və ya digər xalqı ittiham etməyin doğru olmadığını bildirdi, K.Dəmirçiyanm hərəkətlərini qızışdırıcılıq kimi qiymətləndirdi.

MK katibi Yeqor Liqaçov hakimiyyəti başqaları ələ keçirərlərsə, hərbi vəziyyət elan etməyi təklif etdi. M.Qorbaçov bu təkliflə razılaşdı, ekstremistlərin televiziya ilə rüsvay edilməsinin vacib olduğunu dedi. MK katibi A.Yakovlev isə onların həmin gün efirə verilməsini təklif etdi. M.Qorbaçov birinci addım kimi ekstremistlərin planlarının Azərbaycan və erməni xalqlarının maraqlarına zidd olduğunu söyləməyin, "Qarabağ" komitəsinin iç üzünü, şüarlarını, kimə xidmət etdiyini göstərməyin, ağıllı təbliğat aparmağın vacibliyini vurğuladı. Amma bunu səliqə-sahmanla etməyin lazımlığını, yarlıq vurmamağı tövsiyə etdi. Onun fikrincə, ikinci addım müttəfiq respublikaların baş verən hadisələrə münasibətlərini bildirməsi olmalı idi. Onların Azərbaycan və Ermənistana müraciətləri qəbul edilməli idi. İlk olaraq Rusiya Federasiyası Ali Sovetinin belə bir müraciət etməsi tövsiyə olundu. M.Qorbaçovun fikrincə, üçüncüsü, hadisələrin gedişi kütləni məsuliyyətsiz hərəkətlərə sövq edə biləcəyindən inzibati tədbirlər planını həyata keçirmək lazım idi. Bu plan xalq, ictimaiyyət ilə əlaqələri özündə birləşdirməli idi. M.Qorbaçov xalq ilə işləməyi, "Qarabağ"

komitəsinin üzvlərini xalqdan ayırmağı təklif edərək dedi: "Onları qəhrəman etmək olmaz. Onlar işə çıxırlar, amma işləmirlər. Mitinqlərə az adam çıxarırlar. Görünür, qorxurlar". Növbəti addım kimi M.Qorbaçov komitəçilərin, xüsusən onların başçılarının fəaliyyətinin inzibati orqanlar tərəfindən sənədləşdirilməsində görürdü. Əgər bu fəaliyyət qızışdırıcı xarakter alardısa, məsələ üzərində işləməyin, lazım gələrsə, onları həbs etməyin vacibliyini bildirdi.

SSRİ daxili işlər naziri A.Vlasov komitəçilərə xəbərdarlıq edildiyini dedi. Y.Liqaçov isə Sumqayıt hadisəsinin istintaqı barədə prokurorluğun məlumat verməsini vacib hesab etdi. M.Qorbaçov onunla razılaşaraq, ordu və Daxili İşlər Nazirliyinin qüvvələrinin yerləşməsinin nisbətini öyrənməyin vacib olduğunu bildirdi, Ermənistan KP MK-nın ikinci katibi Y.P.Koçetkovun mülahizələrini nəzərə almağı müdafiə naziri D.Yazova tapşırdı. Koçetkovun fikrincə, guya Azərbaycanda yerləşən ordu hissələrində azərbaycanlılar ermənilərə bir daha dərs vermək üçün hazırlaşırdılar. M.Qorbaçov heç yerdə silah ələ keçirilməməsi, ekstremizm təzahürlərinin baş verməməsi üçün tədbirlər görməyi tapşırdı. Həmin yerlərlə bağlı olmayan ordu hissələri axtarmağın və bunu təcili etməyin vacibliyini bildirdi. Ekstremistlərin radio binasını tutmalarını gözləməyin lazım olmadığını, radio binasını tutandan sonra hər hansı bir tədbir görüldükdə bütün dünyada guya onların məhv edilməsi barədə haray-həşir salacaqlarını söylədi.

M.Qorbaçov K.Dəmirçiyanın xahişini Siyasi bürö üzvlərini diqqətinə çatdırdı. O, radio və televiziya ilə işləyən komanda hazırlamağı xahiş etmişdi. İşçilərin indiki tərkibi ona tabe olmurdu. M.Qorbaçov daha sonra azərbaycanlıların və ermənilərin qarışıq yaşadıqları rayonlara ordu hissələri yerləşdirməyi təklif etdi. Əlavə etdi ki, Yerevanda hansısa qayda, güc olmalı, xalq bunu görməlidir. M.Qorbaçov "Əfqanıstanda bir şey edə bilmirik, burada isə vətəndaş müharibəsi qızışır" dedi. O, xaricə telefon və teleqraf çıxışlarının, Moskvadan Yerevana xarici jurnalistlərin səfərlərinin məhdudlaşdırılmasmı, ekstremistlərin saxlanılmasını vacib hesab edirdi. Lakin bütün bunları incə və çevik etməyi tapşırdı. O, mətbuat qrupunun yaradılmasını, baş verən prosesləri işıqlandırmağı, xalqlara hörmətlə yanaşmanı və ekstremistləri təcrid etməyi tövsiyə etdi. Onunla söhbətdə Zori Balayanın tətillərə tərəfdar olmadığını bildirməsini özünü təmizə çıxarmaq cəhdi və oyun adlandırdı.

Çıxış edən A.Qromıko təklif edilən tədbirləri bəyəndi. İnformasiyanı mexaniki deyil, seçib verməyi təklif etdi. İnzibati xarakterii tədbirlərin

görülməsini vacib saydı. Birmənalı olaraq dedi; "Hamı bilməlidir ki, hakimiyyət hakimiyyətdir." M.Qorbaçov əlavə etdi; "Hakimiyyət və güc."

Nikolay Rıjkov da edilən təklifləri bəyəndi. O, müdafiədən hücuma keçməyi təklif etdi. Məsələnin siyasi həllinə tərəfdar çıxaraq siyasi güzəştlərə gedilməsini ölümə bərabər qiymətləndirdi. Bildirdi ki, ölkədə belə bəlalı nöqtələr çoxdur, zəncirvari reaksiya başlayacaq, onun nəticələrini bu gün təsəvvür etmək, hətta dövlətin sonrakı həyatını təsəvvür etmək çətindir. Bütün hadisələrə qiymət vermək barədə fikirlə razılaşdı. "Pravda" qəzetində yaxşı məqalənin dərc edildiyini xatırlatdı. N.Rıjkov bununla kifayətlənməməyi, mətbuatda hücuma keçməyi, radio və televiziyanı geniş qoşmağı, onun ətrafında ümumittifaq rəyi yaratmağı təklif etdi. O, bütün müttəfiq respublikaların Ali Sovet Rəyasət Heyətlərinin baş verənlərə münasibətlərini bildirməsini, bütün ittifaqın Ermənistana qarşı qaldırılması kimi qiymətləndirdi. M.Qorbaçov isə bunun dost müraciəti olacağını dedi. N.Rıjkov həmin müraciəti ölkənin taleyi üçün narahatlıq müraciəti kimi qiymətləndirərək dedi ki, qoy, insanlar fikirlərini desinlər, ekstremistlər isə hansı təcridə düşəcəklərini anlasınlar. O, hadisələri mətbuat, radio və televiziyada geniş işıqlandırmağı, lakin bunu incə etməyi təklif etdi. N.Rıjkov bir neçə adamın həbsini minlərlərlə adamın qırılmasından daha yaxşı variant adlandıraraq, bu zaman salınacaq haray-həşirə fikir verməməyi tövsiyə etdi. Əlavə etdi; "Sonra bizdən soruşacaqlar; vəziyyətin bu həddə gəlib çatmasına niyə imkan verdiniz". O, aşkarlıq və təbliğatdan istifadə etməyi tövsiyə edərək, "yoxsa bunun ağır nəticələri olacaqdır" dedi.

Çıxış edən V.İ.Vorotnikov da mətbuatda Dağlıq Qarabağ ətrafında baş verən prosesləri işıqlandıran rubrikanın açılması təklifini müdafiə etdi. Sözünə davam edərək "indi onlar görürlər ki, onları dilə tuturlar, güzəştə gedirlər, izah edirlər. Artıq səbrimizin həddinin olduğunu göstərmək zamanı gəlib çatmışdır. Mənə elə gəlir ki, təkcə erməni ekstremistlərini deyil, azərbaycanlı ekstremistləri də diqqətə almaq lazımdır. Biz buna lazımi qədər diqqət ayırmamışıq. Bu, görünür, gözlənilməz oldu" dedi.

M.Qorbaçov silah ələ keçirilməsi halları barədə DTK-nın müfəssəl məlumat toplaması haqqında göstəriş verdi. V.Vorotnikov Yerevanda radio və televiziyanın nəzarətdən çıxması ilə bağlı bildirdi ki, bunların vasitəsi ilə istənilən müraciət ola bilər. M.Qorbaçov ya heyəti dəyişmək, ya da

**Vitali Vorotnikov (1926) - RSFSR Nazirlər Sovetinin sədri (1983-1988). RSFSR Ali Soveti Rəyasət Heyətinin sədri (1988-1990). Sov.İKJP MK Siyasi Bü rosunun üzvü (1983-1990).**

texniki qərarların qəbul edilməsinin lazımlığını bildirdi. V.Vorotnikov texniki vasitəni doğru hesab edərək televiziyanı söndürməyin, o cümlədən Yerevan daxilində telefon rabitəsini kəsməyin mümkünlüyünü söylədi. Bu, onun fikrincə, erməni ekstremistləri üçün müəyyən çətinlik yarada bilərdi. Şəhərdə komendant saatı tətbiq etmədən patrul xidmətini gücləndirməyin lazım olduğunu bildirdi. Azərbaycanlılara gəldikdə isə V.Vorotnikov hansısa partlayışın olacağını güman edirdi.

Təklif edilən tədbirləri bəyanən Y.Liqaçov dedi ki, hadisələrin gedişində yerli partiya, sovet və ictimai təşkilatlar doğru mövqe tuta bilmədilər, rəhbərlərin özləri xeyli dərəcədə millətçi əhval ruhiyyədədirlər, hər kəs bir tərəfə çəkir. O, hər iki respublikada rəhbərliyi möhkəmləndirməyi təklif etdi. M.Qorbaçov isə bu iki məsələni daha sonra müzakirə etmək istəyirdi. Y.Liqaçov DQMV-nin iqtisadi, sosial və mədəni inkişafına dair tədbirlər haqqında qərar verilməsini də təklif etdi. Çıxış edən Mixail Solo- mentsev'*®* ordu yeridilməsinin yubadılmasının doğru olmadığını deyərək, patrul xidmətinin keçirilməsini, lakin atəş açılmamasını təklif etdi. Əlavə etdi: “Qoy, gücü görsünlər.”

D.Yazov general Kurkotkini Ermənistana, general Kulikovu Azərbaycana göndərməyi təklif etdi. M.Qorbaçov isə "belə çıxır ki, onların başçılığı ilə iki cəhbə açırıq" deyərək etiraz etdi. M.Solomentsev yenidən bildirdi ki, bu qarışıqlığın içində orada kommunistlər da vardır. Cavab olaraq M.Qorbaçov dedi ki, hamısı kommunistdir. Belə çıxır, biz indi partiyanı buraxmalıyıq. Biz mübarizəni burada udmalıyıq. M.Solomentsev fikirlərini söylərkən ən qatı şəxsləri nəzərdə tuturdu.

M.Qorbaçov kadr məsələsinə toxunaraq K.Dəmirçiyanm azərbaycanlıların yanında işdən azad edilməsini, K.Bağırovun isə onun qəbuluna gələrək xəstə olduğunu, sutkada yalnız iki saat yatdığını, başı ağrıdığını söylədiyini, səhhəti ilə əlaqədar olaraq pensiyaya çıxarılmasını xahiş etdiyini deyərək vurğuladı: “Biz onları niyə saxlamalıyıq”? Bu zaman G.Razumovski K.Bağırovun respublikada tennisçi kimi tanındığını, rayonlarda bunu bildiklərindən tennis kortları yaratdıqlarını dedi. M.Qorbaçov əsəbi halda “hər şey elə qurulmuşdur ki, qızışan zaman işdən çıxsınlar” dedi. O, həm K.Bağırovu, həm də K.Dəmirçiyanı “siyasi meyif’ adlandırdı. Lakin onların indi işdən çıxması qəhrəman olmaları demək idi. M.Qorbaçov yaranmış vəziyyətdə Ermənistan KP MK plenumunun

**Mixail Solomentsev (1913-2008) - sovet dövlət və siyasi xadimi. RSFSR Nazirlər Sovetinin sədri (1971-1983). Sov.İKP MK Siyasi Bürosunun üzvü (1983- 1988).**

keçirilməsini hakimiyyəti həmin adamlara vermək kimi qiymətləndirdi. Y.Liqaçov respublikalarda vəzifələrə Əbdürrəhman Vəzirovun'*'*^ və Suren Arutunyanm'*'® gətirilməsini təklif etdi. M.Qorbaçov Ə.Vəzirovu yeni adam kimi səciyyələndirdi, S.Arutunyanm isə bu mərhələdə hamını qane edəcəyini dedi. Kadr məsələsinə aprel ayında qayıdacaqlarını bildirdi. M.Qorbaçov Y.Liqaçova müraciətlə hadisələrin pis nəticəsini fikirləşməsini, reaksiyanın necə olmasını, bunun xalq üçün intihar olduğunu deyərək təklif etdi: “Yeri gəlmişkən, bunu da səsləndirmək lazımdır. Qoy, türklərin üzərinə getsinlər. O zaman baş katib mütləq çıxış etməli olacaqdır”. Baş katib bununla erməniləri Türkiyə əleyhinə fəaliyyətə keçməyə təhrik edirdi. Y.Liqaçov isə Türkiyənin Dağlıq Qarabağda və Ermənistandakı hadisələri qəti şəkildə pislədiyini dedi.

İclasda müttəfiq respublikaların rəyasət heyətlərinin iclaslarının keçirilməsi və müvafiq müraciət etmələri təklif olundu. Ermənistana və Azərbaycana ilk olaraq Rusiya müraciət etməli idi.

Bir müddət sonra Rusiya, Ukrayna, Gürcüstan, Belarus, Özbəkistan, Qazaxıstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Türkmənistan və Estoniya SSR Ali Soveti Rəyasət heyətləri münaqişəni dayandırmaq barədə Azərbaycana və Ermənistana müraciət etdilər"'. SSRİ Ali Sovetinin Rəyasət Heyəti martın 23-də Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyətə dair müttəfiq respublikaların müraciət barədə tədbirlər haqqında qərar qəbul etdi'"^. Qərarda mürəkkəb milli-ərazi məsələlərinin dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə həlli cəhdləri pislənilirdi. Lakin bu müraciətin nəticəsi olmadı. Ermənistandan azərbaycanlıların qovulması dayandırılmadı. Azərbaycan SSR DTK sədri Ziya Yusifzadənin 1988-ci il 3 aprel tarixdə Azərbaycan KP

**Əbdürrəhman Vəzirov (1930) - Azərbaycan KP MK-nın birinci katibi (1988- 1990). 1990-cı il 20 yanvar hadisəsindən sonra Moskvaya qaçmışdır.**

**Suren Arutunyan (1939) - Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1986-1988). Ermənistan KP MK-nın birinci katibi (1988-1990).**

**SacenaHHe HpesHÄHyMOB BepxoBHbix COBCTOB CoıosHbix PecnyöJiHK. - Ha- ropHbiH Kapaöax: pasyM noöeaHT. /(oKyıvıeHTbi H MaTepHajibi, c. 23-40.**

**O Mepax, cBHsauHbix c oöpameHHSMH coıosHbix pecnyöjiHK no noBotty co6bi- THH B HaropnoM Kapaöaxe, B AsepöaÜÄiKaHe H ApMUHCKoR CCP. EIocTaHOBJie- HHe npesHÄHyMa BepxoBHoro CoBexa CCCP OT 23 Mapra 1988 r. - HaropHbiH Kapaöax: paayM noöeflHT. )(oKyMeHTbi H Marepuanbi, c.41-42; npoöJicMa Harop- HO-Kapa6axcKOH ABTOHOMHOH o6aacTO (cnpaBOHpaa ... ARXİNA 02.01.2003 18.03.2003 Qovluq ...**

MK-ya yazdığı məlumatdan aydın olurdu ki, son günlər Ermənistandan qovulanların sayı 6 min nəfər idi'"^.

Azərbaycan hakimiyyəti Ermənistanın müdaxiləsinin qarşısını ala, respublikanın hüquqlarını qoruya və böhrandan çıxara bilmədi. Yaranmış ağır vəziyyət Azərbaycanda hakimiyyət dəyişikliyinə gətirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırov 1988-ci il mayın 21-də vəzifəsindən azad edildi. Mərkəz tərəfindən həmin vəzifəyə uzun illər boyu Azərbaycandan kənarda yaşamış, milli ruha yad olan Əbdürrəhman Vəzirov, Ermənistanda isə Karen Dəmirçiyanm əvəzinə Suren Arutunyan gətirildi. Hakimiyyət dəyişkənliyi vəziyyəti nəinki düzəltmədi, əksinə xeyli ağırlaşdırdı. Böhran daha da dərinləşdi. İdarəçilik qabiliyyəti olmayan Əbdürrəhman Vəzirov problemi həll etməyi bacarmadığından diqqəti ondan yayındırmağa və səbəblərini əvvəlki rəhbərlərdə axtarmağa başladı. Bu isə Azərbaycanın daxilində gərginliyi daha da artırır, xalq ilə hakimiyyət arasında uçurum, hakimiyyət daxilində ziddiyyətlər daha da dərinləşirdi.

Hakimiyyət dəyişikliyi Ermənistandan azərbaycanlıların qovulmalarını dayandırmadı. Qovulmanın motivləri aşağıdakılar idi: azərbaycanlı əhali ətrafında yaradılmış qeyri-sağlam mənəvi-psixoloji mühit; "Ermənistandan rədd olun" şüarı; silahla hədələnmələri və həyatları üçün təhlükənin olması; ticarət obyektlərində azərbaycanlılara xidmət göstərilməmə- si və təhqir olunmaları; Ermənistanın partiya və sovet orqanlarının azərbaycanlıların şikayətlərinə baxmaması'*"'.

Sovet rəhbərliyinin müraciətlərinə baxmayaraq, iyunun 13-də Yerevanda böyük mitinq keçirildi. Bundan bir neçə gün sonra, iyunun 15-də keçirilən Ermənistan SSR Ali Sovetinin sessiya iclası DQMV Sovetinin yuxarıda göstərilən müraciətinə baxaraq DQMV-nin Ermənistan tərkibinə girməsinə razılıq verdi'*'^. Həmçinin DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi barədə müsbət qərar qəbul etmək haqqında Bakı və Moskvaya müraciət etdi. Cavab olaraq Azərbaycan SSR Ali So-

**^ npeÄceflaxejib KFB A3ep6aü^,)KaHCKOH CCP S.M.KDcncjısaÄe - 1J,K KH Aaep- öaÜÄiKaHa. O HCKoxopbix əjıeMenxax oöcxanoBKH B pecnyöjiHKe. 3 anpejın 1988 roaa. CeKpexHo. - ARMTNA, 10/312, v.78.**

**npeflcenaxejib KFB A3ep6afiÄ>KaHCKOH CCP S.M.KDcHcjısaÄe - U,K KH A3ep- öafiflÄaHa. O neKoxopbix əjıeMenxax oöcxanoBKH B pecnyÖJiHKe. 28 Maa 1988 roaa. CeKpexHO. - ARMTNA, 10/509, v.l95.**

**BepxoBHbiH CoBex ApMHHCKofi CCP. Co3biB 11-fi. CeccHB 7. CxenorpacJiH- HecKHH oxHex. 15 HKDHH 1988 r. EpcBan, 1988.**

veti və onun Rəyasət Heyəti 1988-ci il iyunun 13 və 17-də qəbul etdiyi qərarlarda SSRİ konstitusiyasının 78-ci və Azərbaycan konstitusiyasının 70-ci maddələrini əsas gətirərək DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsinin qəbuledilməz və qeyri-mümkün olduğunu bildirdi'*'®. Bundan sonra müttəfiq respublikalar arasında sərhəd dəyişikliyinin mümkünlüyünü müzakirə etmək üçün ciddi bir əsas olmadığını və SSRİ konstitusiyasının müddəalarını, Azərbaycan SSR və Ermənistan SSR-in qüvvədə olan əsas qanunlarını nəzərə alaraq məsələnin artıq bağlandığını hesab etmək olardı. Lakin belə olmadı. Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini daha da genişləndirərək xaricdəki erməni diasporunu da bu işə cəlb etdi. Belə ki, iyunun 16-da 100 minə yaxın erməni SSRİ-nin Parisdəki səfiriliyi önündə mitinq keçirərək Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etdi'"^.

Bu zaman Ermənistan daha bir kobud müdaxiləyə əl atdı. Ermənistan KP MK Sov.İKP MK-ya müraciət edərək Sumqayıt hadisəsi ilə əlaqədar olaraq həbs edilmiş şəxslərin məhkəməsinin Azərbaycandan alınaraq SSRİ Ali Məhkəməsinin icraatına verilməsini xahiş etdi. Sov.İKP MK katibliyi 1988-ci il iyunun 11-də həmin müraciət barədə mülahizələrini bildirmək üçün SSRİ Ali Məhkəməsinin sədri V.İ.Terebilova, SSRİ baş prokuroru A.Y.Suxarevə və SSRİ ədliyyə naziri B.V.Kravçevə məktub göndərdi. Onlar iyunun 17-də məsələ barədə mülahizələrini yazdılar. Cavab məktubunda hadisə ilə bağlı olaraq 84 nəfərin həbs edildiyi, onlardan 82 nəfərinin azərbaycanlı olduğu yazılırdı. Amma nəyə görəsə məktub müəllifləri digər iki nəfərin hansı millətə mənsub olduğunu qeyd etməmişdilər. Həmin şəxslərdən biri artıq qeyd edildiyi kimi, hadisələrin təşkilatçısı və başlıca icraçısı, 1959-cu ildə anadan olmuş, 1979, 1981 və 1982-ci illərdə bütövlükdə 9 il 2 ay 13 gün həbsdə yatmış Eduard Robertoviç Qriqoryan idi. İkinci şəxs də erməni idi. Məktubda bu işlərin istintaqının SSRİ prokurorluğu tərəfindən aparıldığı qeyd edilirdi. Bütün istintaq işləri qanunun tələblərinə uyğun aparılmış, üç iş başa çatdırılmış və Azərbaycan SSR Ali

**° nocxaHOBjıeHHe ripesufluyMa BepxoBUoro CoBexa AsepöaüaiKaHCKOH CCP o xoaaxaHCTBe aenyxaxoB CoBexa Hapoflubix TienyxaxoB HaropHO-KapaöaxcKoü ABXOHOMHOÜ oöaacxH o nepenane oöjıacxn H3 AsepöaüflÄaHCKOÜ CCP в cocxae ApMBHCKOH CCP. 13.06.1988. - Haropubiü Kapaöax: paayM noöeflux, c.81-82; riocxaHOBjıeHHe BepxoBHoro CoBexa AsepSaHa^aHCKoR CCP o xoaaxaücxBe aenyxaxoB CoBexa Hapoaubix /lenyxaxoB HaropHO-KapaöaxcKoü ABXOHOMHOM oöJiacxH o nepeaane HKAO H3 cocxaBa A3ep5aüa}KaHCKOH CCP в cocxas ApMHHCKOH CCP. 17.06.1988. - Haropubiü Kapaöax; pa3yM noöeaux, 96-97.**

**Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi. Ankara, Genel-kurmay Basımevi, 1995, s. 149; Əliyarov S. Ermeni genişleme siyaseti ve Dağlık Karabağ. -**

Məhkəməsinin icraatında verilmişdi. 26 nəfər barədə 12 iş yaxınlarda məhkəməyə göndəriləcəkdi. Terebilov, Suxarev və Kravçevin fikrincə, Azərbaycanda və Ermənistanda geniş ictimai əks-səda doğurmuş işləri RSFSR-in vilayət məhkəmələrinə, xüsusən Volqoqrad, Voronej və Kuybışev vilayət məhkəmələrinin icraatına vermək olardı. Onlar həmin işlərin SSRİ Ali Məhkəməsinin icraatına verilməsinə ehtiyac duymadılar[418].

Bununla kifayətlənməyən MK katibi Y.Liqaçovun göstərişinə əsasən digər şəxslərin də rəyləri soruşuldu. Y.Liqaçov 1988-ci il iyunun 17-də A.İ.Lukyanovdan fikirlərini bildirməsini xahiş etdi[419]. İyunun 18-də bu sorğuya cavab verən A.Lukyanov "təklif tamamilə qanunauyğundur" yazaraq qeyd etdi ki, məsələ MK-nın şöbələrində əvvəlcədən işlənilmiş və məqsədəuyğun sayılmışdır. Onlarla razılaşmaq olar[420]. Beləliklə, işlər Azərbaycandan alınıb RSFSR məhkəməsinə verildi.

Bu zaman Ermənistandan qovulan azərbaycanlılar kortəbii mitinqlər keçirərək DQMV-də qayda-qanun yaradılmasını, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyinin təmin olunmasını[421], həyat və əmək fəaliyyətləri üçün normal şəraitin yaradılmasını[422] tələb edirdilər. Azərbaycan hakimiyyəti bu haqlı tələbləri yerinə yetirə bilmirdi. Moskvada isə zəif, xalqdan ayrı düşmüş respublika rəhbərliyini dinləmək istəmirdilər. Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulmalarına cavab olaraq qaçqınlar da Azərbaycandakı ermənilərin işdən çıxarılmasını tələb edirdilər[423]. Ermənistandan qovulan azərbaycanlıların sayı bir müddət sonra 18 min 500 nəfər oldu[424].

---

418 В.И.Теребилов, А.Я.Сухарев, Б.В.Кравчев – ЦК КПСС. 17 июня 1988 г. №1-5-86 s-88. – РГАНИ, ф. 89, оп. 33, д. 11, л.1.
419 Е.К.Лигачев – А.И.Лукянову. 17 июня 1988 г. – РГАНИ, ф.89, оп.33, д.11, л.10.
420 А.И.Лукянов – Е.К.Лигачеву. 18 июня 1988 г. – РГАНИ, ф.89, оп.33, д.11, л.11.
421 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 23 июня 1988 года. Секретно. – ARMTNA, 10/637, v. 265-266.
422 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 24 июня 1988 года. Секретно. – ARMTNA, 10/624, v.259.
423 Yenə orada.
424 Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 28 июня 1988 года. Секретно. – ARMTNA. 10/644, v.277.

Belə bir şəraitdə Ermənistandan qovulmuş azərbaycanlıların, Azərbaycandan çıxıb getmiş ermənilərin geri qaytarılması məsələsi gündəliyə gəldi. İyunun 27-30-da Azərbaycana gəlmiş Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Y.E.Xocanberyana qovulan azərbaycanlıların geri qayıtması ilə bağlı Azərbaycan televiziyası və mətbuatında çıxış etmək təklif olundu. Lakin o, Ermənistanda mənfi reaksiya doğuracağını bəhanə gətirərək belə bir çıxışdan imtina etdi"^^ Y.Xocanberyanm Azərbaycana gəlişi qaçqınların Ermənistana qayıtmasına və təhlükəsiz yaşamasına təminat vermirdi. Bundan fərqli olaraq bir çox erməni Azərbaycan rəhbərliyinin çağırışı ilə geri qayıtdı. Lakin bu da Ermənistanı sakitləşdirmədi.

İyul ayının əvvəllərindən etibarən Yerevanda və Ermənistanın digər şəhərlərində kütləvi mitinqlər keçirildi. Bu mitinqlərlə təxminən eyni vaxtda, 1988-ci il iyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi"*^^. Buna cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında qanununa əsaslanaraq DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin müvafiq qərarının qanunsuz olduğu və heç bir hüquqi qüvvəsi olmadığı haqqında dair qərar qəbul etdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1988-ci il iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ haqqında məsələ üzrə qərarları barədə qərar qəbul etdi. Qərarda Ermənistan ilə Azərbaycan arasında konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyi bildirilirdi. Vurğulanırdı ki, SSRİ konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi"^'. Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR konstitusiyalarında da əksini tapmışdı.

**npeÄceÄarejib KEE AaepöaÜÄJKaHCKOH CCP - IfK KH AsepöaHflÄana. 06 oöcranoBKe** в pecnyÖJiHKe. **2 nıojıa 1988 roaa. CcKpeTHO. - ARMTNA, 10/752, v. 54-55.**

**ARXİNA. 1994. Qovluq X2 9, v. 16.**

**OocTaHOBaeHHe npeanaHyMa BepxoBHoro CCCP o peuıeHHnx BepxoBHbix CoBCTOB A3ep5aHflx<aHCKOH CCP H APMHHCKOH CCP no**

Beləliklə, Ermənistan SSR-in Dağlıq Qarabağ bölgəsini Azərbaycan SSR-dən qopararaq tərkibinə qatmaq məqsədilə başladığı açıq müdaxilə SSRİ konstitusiyasının kobud şəkildə pozulması ilə müşayiət olunduğundan hüquqi nəticə doğurmadı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti əsassız iddiaları rədd etdi.

Buna baxmayaraq, DQMV-də müəssisələr işləmirdi[428]. Az sonra vilayətdə milli zəmində toqquşmalar baş verdi[429]. Qanlı toqquşmaların qarşısını almaq üçün 1988-ci il iyulun 28-də Azərbaycanın Dağlıq Qarabağ regionunda fövqəladə vəziyyət elan edildi.

Ermənistanda isə azərbaycanlıların hüquqlarının pozulması və onların qovulması daha da artırdı. Azərbaycan hakimiyyəti Ermənistandakı azərbaycanlıların hüquqlarını qorumaq iqtidarında deyildi. Respublika böyük bir fəlakətlə üz-üzə qalmışdı. 1988-ci il avqustun 1-nə olan məlumata görə, Ermənistandan qovulan qaçqınlar Azərbaycanın 45 şəhər və rayonuna toplanmışdı. Onların bəziləri zorla Ermənistana qaytarıldı. Lakin bu qayıdışın elə də ciddi bir nəticəsi olmadı.

Bu zaman, 1988-ci il avqustun 11-də vəzifəsindən azad edilən Azərbaycan SSR DTK sədri Ziya Yusifzadənin yerinə təyin edilən İvan Qorelovskinin[430] Azərbaycan KP MK-ya yazdığı məxfi məktubdan aydın olurdu ki, 1988-ci ilin oktyabr ayının əvvəllərinə olan məlumata görə, Ermənistandan Azərbaycana 28 min 225 nəfər və ya 6 min 516 ailə qovulmuşdu. Azərbaycanlılar DQMV-dən də zorla qovulurdular. Stepanakertdən, Əsgəran, Martuni və Hadrut rayonlarından Şuşa, Ağdam və digər rayonlara 3 min 69 nəfər və ya 569 azərbaycanlı məcburi köçkün ailəsi gəlmişdi[431]. Onların konstitusiya hüquqları respublika daxilində pozulmuşdu. Hakimiyyət həmin hüquqları qorumaqda gücsüz idi. Mərkəzi hö-

---

Карабахе. 18 июля 1988 г. – Нагорный Карабах: разум победит. Документы и материалы, с.153-155.

[428] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 5 июля 1988 года. Секретно. – ARMTNA, 10/0668, v.290.

[429] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 7 июля 1988 года. Секретно. – ARMTNA, 10/681, v.4.

[430] İvan Qorelovski – Azərbaycan SSR DTK sədri (1988-1989).

[431] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 2 октября 1988 года. Секретно. – ARMTNA, 10/966, v.150.

kumət isə azərbaycanlıları qaçqına çevirən və digər müttəfiq respublikaya qarşı əsassız iddialar irəli sürən Ermənistanı cəzalandırmırdı.

Yaranmış şərait Azərbaycanda daim yaxşı yaşamış ermənilərə də mənfi təsir göstərirdi. Onlar da Azərbaycam tərk edirdilər. Dağlıq Qarabağ regionuna köçməyə icazə verilməsə də, erməni ailələri kütləvi şəkildə muxtar vilayətin ərazisinə yerləşirdilər. Belə bir fakt diqqəti cəlb edir ki, əgər 70-ci illərdə Dağlıq Qarabağda ermənilərin çəkisi təqribən 75%, azərbaycanlıların xüsusi çəkisi 25% idisə, 80-ci illərin sonlarında ermənilər artaraq 80%, azərbaycanlılar isə azalaraq 20% olmuşdu. Bunda əsas məqsəd vilayətdəki ermənilərin ümumi çəkisini artırıb Ermənistana birləşdirmək idi"^". Azərbaycan SSR DTK-nın məxfi məlumatına görə, 1988-ci il dekabrın 1-dək Azərbaycam 50 mindən çox və ya 13 min 131 nəfər erməni ailəsi"*^^, dekabrın 7-nə olan məlumata görə isə 78 min 728 nəfər erməni tərk etmişdi. Ermənistandan qovularaq qaçqına çevrilən azərbaycanlıların sayı isə 110 min nəfərə çatmışdı"^'*. Lakin onların Dağlıq Qarabağ regionunda yerləşdirilməsinə icazə verilmədi. Ermənistanda ev-eşiklərini itirmiş, vilayətə yerləşmiş azərbaycanlı qaçıqmIar mərkəzi və Azərbaycan hakimiyyəti tərəfindən zorla oradan çıxarıldılar.

Bu zaman, 1988-ci il dekabrın 7-də Ermənistanda 25 min adamın ölümünə və 500 min adamın evsiz-eşiksiz qalmasına səbəb olan zəlzələ baş verdi. Əsassız ərazi iddiaları irəli sürməsinə və tarixi torpaqlarında yaşayan azərbaycanlıları zorla qovaraq qaçqına çevirməsinə baxmayaraq, Ermənistan üçün Azərbaycanda humanitar yardım toplandı. Qəribə idi. Humanitar yardım toplayanların arasında Ermənistanda tarixi torpaqlarından qovulan, ev-eşiklərini itirən azərbaycanlılar da var idi. Azərbaycan dekabrın 12-də Ermənistana humanitar yardımla dolu İL-76 təyyarəsində 77 xilasedici də göndərdi. Lakin təyyarə Ermənistan səmasında vuruldu"*^^.

**npeflceaaxejib KEB AsepöaHÄÄaHCKOiı CCP - LI,K KO AaepöaHfljKana. 05 oöcTanoBKe в pecnySjiHKe. 2 OKXnöpa 1988 roaa. CcKpexHO. - ARMTNA, 10/966, v.150.**

**ripeÄceaaxejib KEB AsepSanaxcancKOH CCP - U,K KFI AaepöaiiÄJKaHa. 05 o5cxaHOBKe в pecny5ıiHKe. 2 aeKa5p5i 1988 roaa. CexpexHO. - ARMINA, 10/1076, v.219.**

**npeflcenaxejib KEB A3ep5ana>KaHCKOH CCP - U,K KEl A3ep5aHa>KaHa. 05 o5cxaHOBKe в pecny5jiHKe. 7 fleKa5pa 1988 roaa. CeKpexHO. - ARMTNA, 10/1089, v.233.**

**KBHXKCBHH** n. H3 **BOHHbi H xaoca AaepOaÜÄXfaH: pomaeHne pecny5jiHKH. Topyn, 2009, c.69.**

Bir nəfərdən başqa təyyarədəki bütün şəxslər həlak oldular. Ermənistan rəhbərliyi və kütləvi informasiya vasitələri həmin hadisəyə reaksiya vermədilər. Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün çalışan xarici ölkə xilasedicilərinin rastlaşdığı fakt təyyarə qəzasından da daha dəhşətli idi. Onlar ermənilər tərəfindən diri-diri doldurularaq qaynaqlanmış qaz borularından 30 nəfərədək azərbaycanlı uşağın meyitini tapdılar'*^®. Bu, Ermənistanda azərbaycanlılara qarşı düşmənçilik və nifrət hisslərinin həddinin olmadığını göstərirdi. Təbii fəlakət Ermənistanın işinə yaradı. Zəlzələdən ziyan çəkən əhaliyə yardım adı altında Ermənistana xarici ölkələrdəki erməni diasporu çoxlu silah və sursat göndərdi.

Sovet rəhbərliyi bu zaman Azərbaycanın hüquqlarını kobudcasına pozan bir addım atdı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il yanvarın 12-də Azərbaycan konstitusiyasına zidd olaraq 10025 Jfƨ-li qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaratdı. Komitənin tərkibinə 8 nəfər daxil edildi. Onların 5 nəfəri Sov.İKP MK, mərkəzi nazirlik və idarələrin nümayəndələri idi. Komitənin tərkibində SSRİ DTK-nın iki nəfər əməkdaşı çalışırdı. Sov.İKP MK Siyasi Bürosunun 13 yanvar tarixli P146/41 Jfs-li qərarı ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaradılmasına dair qərar qəbul olundu. Komitənin sədri Arkadiy Volski'*^' təyin edildi. Komitənin əməkdaşlarının Dağlıq Qarabağ regionuna səfər edərkən ezamiyyə xərcləri onlara kifayət etmirdi. Buna görə də MK-nm məsul işçiləri N.Kruçina və E.Razumov 1989-cu il fevralın 3-də MK-ya məktub yazaraq səfər edənlərin maddi təminatının yaxşılaşdırılması məsələsini qaldırdılar"^^ Müraciətə uyğun olaraq Sov.İKP MK katibliyi fevralın 9-da müvafiq qərar qəbul etdi. Qərara əsasən Moskvadan Azərbaycanın Dağlıq Qarabağ regionuna ezam olunan şəxslərə ezamiyyə xərcləri deyil, vəzifə maaşları

**Amerika Birləşmiş Ştatlarının senatına müraciət. 23 dekabr 1992-ci il. - ARXİNA materialları. 1992.**

**Arkadiy Volski (1923-2007) - Rusiyanın ictimai-siyasi xadimi. 1988-ci ildə Sov.İKP MK Siyasi Bürosunun və SSRİ Ali Sovetinin DQMV-də nümayəndəsi. 1989-cu ildə DQMV-də Xüsusi İdarə Komitəsinin sədri. Vilayətin Azərbaycanın nəzarətindən çıxmasında və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalında rol oynamışdır.**

**H.KpyHHua, E.PaayıuoB - L],K KOCC. O neKOTopux Bonpocax MaxepHajibHoro oGecnenenmı paSoTHUKOB KoMUTexa Ocoöoro ynpaBneHHs Haropno-Karaöax-CKOH OÖJiacxH. 3 (JıeBpajuı 1989 rona. CeKpexHO. - PFAHH, (|). 89, on. 33, fl. 9, jı.3-4.**

nın yarısı həcmində əlavə vəsait verilirdi. SSRİ DTK və DİN əməkdaşlarına, Xüsusi İdarə Komitəsində işləyən şəxslərə isə aylıq maaşlarının yarısı verilirdi

Belə bir komitənin yaradılması regionun Azərbaycanın nəzarətindən çıxmasında başlıca rol oynadı. Ermənilər Xüsusi İdarə Komitəsinin fəaliyyətini sabotaj edərək Azərbaycan dəmiryolları və avtomobil yollarına qarşı təxribatlar törətməyə, Dağlıq Qarabağ regionunda kütləvi talanlar etməyə, təbii sərvətləri dağıtmağa və meşələri qırmağa başladılar.

Buna cavab olaraq avqustun 12-də Bakıda kütləvi mitinqlər başladı. Əhali Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının və təcavüzünün dayandırılmasını tələb edirdi.

Lakin Ermənistanın müdaxilələri dayanmırdı. Belə ki, “Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi” 1989-cu il avqustun 16-da keçirilən iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etdiyini bildirdi. “Konqres” eyni zamanda DQMV-ni Azərbaycan SSR konstitusiyası və respublikanın digər qanunlarının işləmədiyi “müstəqil ittifaq ərazisi” elan etdi, DQMV-də müstəsna xalq hakimiyyətini bəyan edən “milli şura” yaratdı. Bütün bunlar Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərdiyi müddətdə baş verdi. Konstitusiyaya zidd olan bu hərəkətə cavab reaksiyası gecikmədi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti avqustun 26-da “Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi”nin qərarını qanunsuz elan etdi"'*®.

Bunun ardınca Azərbaycan SSR Ali Soveti 1989-cu il sentyabrın 23-də Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in konstitusiya qanununu qəbul etdi. Qanunun 5-ci maddəsində yazılırdı: “Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilir” və “Azərbaycan SSR- in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər”.

**® rtocTaHOBJieHHe CeKpexapHaxa U,K KtlCC o HeKoxopwx Bonpocax Maxepn- ajibHoro oöecneneHHH paöoxHHKOB KoMHxexa Ocoöoro ynpaBueHna Haropno- KapaöaxcKOH Oöaacxn. CoBepuıeHHO ceKpexHO. İNb CT-96/110 rc ox 9 cjıeBpajiH 1989 r. -PfAHH, ({). 89, on. 33, a. 9, jı. 1.**

**nocxaHOBJienne npeanÄHyMa BepxoBHoro Cosexa A3ep5aHfl>KaHCKOH CCP o neKOHCXHxyuHOHHOH aKUHH B HKAO ox 26 aBrycxa 1989 r. - HaropnbiH Ka- paGax: paayıvı noöeanx. /l,OKyMeHXbi n Maxepnanbi, c.384-385.**

Azərbaycan tərəfi Xüsusi İdarə Komitəsinin fəaliyyətinə narazılığını bildirdi. Geri çəkilən sovet rəhbərliyi noyabrın 28-də Xüsusi İdarə Komitəsini ləğv etdi. Onun əvəzində SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsini yaratdı. Ermənistan rəhbərliyi SSRİ Ali Sovetinin bu qərarını qəbul etmədi. Ermənistanda Erməni Milli Hərəkatı quruldu. Onun rəhbərliyinə şərqşünas alim Levon Ter-Petrosyan gətirildi. Hərəkatın başlıca məqsədi Azərbaycanın Dağlıq Qarabağ regionunu Ermənistana birləşdirmək idi. Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında qərar qəbul etdi. Xankəndində Ermənistan SSR bayrağı qaldırıldı. Heç şübhəsiz, Ermənistan parlamentinin bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirilməsini qanuniləşdirməyə və digər dövlətin ərazisində konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş bu və bir çox digər qərarları beynəlxalq hüquqa zidd idi'*'*^. Buna görə Azərbaycan tərəfi dekabrın 2-də həmin qərarın hüquqi əsası olmadığını bəyan etdi.

Azərbaycanda Xalq Cəbhəsi quruldu. Onun rəhbəri şərqşünas alim

Əbülfəz Əliyev (Elçibəy) oldu.

Bu hadisələrlə paralel olaraq Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulması davam edirdi. Kütləvi qovulma ölüm və zorakılıq hallan ilə müşayiət olunurdu. Azərbaycan SSR prokurorluğunun məlumatına əsasən 1988-1989-cu illərdə münaqişə zəminində 216 nəfər azərbaycanlı öldürülmüşdü""’. Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və yaşlı adamlar idi. Kütləvi zorakılıq və talanlar dövründə erməni hər- biləşdirilmiş qruplaşmaları xüsusi qəddarlığı ilə seçilirdilər. Münaqişənin gedişində azərbaycanlılar yaşadıqları 172 kənddən qovuldular'*"^. Ermənistan ərazisindən 185 min 519 nəfər və ya 40897 azərbaycanlı ailə qovulmuşdu. Onların hamısı əmlaksız və evsiz-eşiksiz qalmışdı.

Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi yer adları dəyişdirilərək erməniləşdirildi. Sonralar, 1991-ci il aprelin 9-da Ermənistan

**Levon Ter-Petrosyan (1945) - Ermənistan Prezidenti (1991-1998). Azərbaycanın Dağlıq Qarabağ regionunda separatçılığın təşkilatçılarından biri.**

**ARXİNA. 1993. Qovluq Xs 22, v. 94-94.**

**Əbülfəz Əliyev (Elçibəy) (1938-2000) - dövlət və siyasi xadim. Azərbaycan Respublikasının II Prezidenti (1992-1993).**

**'■"' ARXİNA. 1994. Qovluq Xa 9, v.26.**

**Yenə orada, v. 28.**

Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərar ilə azərbaycanlılara məxsus 94 kəndin də adı dəyişdirildi""^. Ermənistanda azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri, məzarlar və məscidlər tamamilə dağıdıldı, yerlə yeksan edildi. Azərbaycanlıların qovulmasından sonra Ermənistan iqtisadiyyatının düşdüyü ağır vəziyyəti SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkov da Yerevandakı çıxışında etiraf etmişdi""*'.

Vilayətdə də azərbaycanlılara qarşı zorakılıq dayanmırdı. Ermənistan SSR Ali Soveti Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirərək yanvarın 9-da Dağlıq Qarabağı 1990-cı il iqtisadi planına daxil etdi. Bu isə Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da pisləşdirdi. Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ konstitusiyasına uyğun oimaması haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə Dağlıq Qarabağın yenidən birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi. Buna cavab olaraq Ermənistan SSR Ali Soveti respublikada yalnız Ermənistan qanunlarının qüvvədə olduğunu bildirdi.

SSRİ və Azərbaycan SSR orqanlarının qərarlarına baxmayaraq, Ermənistan Azərbaycan ərazilərinə qeyri-qanuni silahlı dəstələr göndərməyi, hakimiyyət orqanlarına qarşı silah tətbiq etməyi, Azərbaycanın daxili işlərinə kobud surətdə müdaxilələrini və təcavüzünü davam etdirirdi.

Mərkəzi hökumətin azərbaycanlıların etirazlarına məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Azərbaycanda şərait daha da pisləşirdi. Uğursuzluqlar daxili siyasi sabitsizliyə və böhrana gətirib çıxardı. Bakıda mitinqlər ara vermirdi. Əhali Ermənistanın müdaxiləsini dayandırmağı, Dağlıq Qarabağ regionunda vəziyyəti normallaşdırmağı, Ermənistandan qovulan adamların problemlərinin həllini tələb edirdi. Xalqdan ayrı düşümüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Hakimiyyət orqanları fəaliyyətsiz hala düşmüşdülər. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxırdı. Azərbaycanın bölgələrində də vəziyyət gərginləşmişdi. Bir neçə rayonda Azərbaycan Xalq Cəbhəsinin fəalları hakimiyyət orqanlarını ələ keçirdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP şəhər partiya komitəsinin və yerli radio

**Yenə orada.**

**BbicxynjıeHHH npeaceaaTejiH CoBexa MHHHCTPOB CCCP H.H.PbijKKOBa ua coöpaHHH pyKOBOflumero cocraBa ApMHHCKoü CCP. - faa. "llpaBfla", 1989, 18 aHBapa.**

stansiyanın binalarını tutdular. Bir neçə rayonda da bu hal təkrar olundu. Yaranmış ağır şəraitdən istifadə edən Ermənistan silahlı qüvvələri Naxçıvan üzərinə hücum edərək Sədərək rayonunun Kərki kəndini yanvarın 15-də işğal etdi. Əhali məcburi köçkünə çevrildi.

Respublika bu zaman idarəolunmaz bir hala düşmüşdü. Baş verən proseslərin qarşısını almaq məqsədi ilə yanvarın 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri gətirilməyə başlandı. Azərbaycana yeridilən sovet əsgərlərinin sayı artıq yanvarın 19-da 24 min nəfərə çatmışdı. Azərbaycan xalqı sovet hərbi hissələrinin qarşısında əliyalın qalmışdı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku partladıldı. Əhali heç bir informasiya ala bilmədi. M.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında dekret imzaladı. Elə həmin gecə M.Qorbaçov başda olmaqla sovet rəhbərliyi əsasən Rostov, Krasnodar və Stavropoldan gətirilmiş ehtiyat əsgər və zabitlərdən komplektləşdirilmiş ordu hissələrinə etirazları yatırmaq üçün Bakıda dinc əhaliyə qarşı silah işlətmək əmrini verdi. Ordunun Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliyi nəticəsində dəhşətli qətliam baş verdi. 130 nəfərdən çox dinc azərbaycanlı öldürüldü, 700 nəfər yaralandı, 12 nəfər itkin düşdü.

20 Yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə yanvarın 25- də Ayaz Mütəllibov gətirildi.

Bu zaman sərt nəzarət altında olan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanat verdi, sovet rəhbərliyinin hərəkətlərini ittiham etdi, baş verən hadisəni hüquqa zidd, demokratiyaya yad, humanizm prinsiplərinin əleyhinə olan kimi qiymətləndirdi.

20 Yanvar hadisəsi sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət idi. Bu hadisənin mahiyyətini təhlil edən akademik Ra

**Ayaz Mütəllibov (1938) - dövlət və siyasi xadim. Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1989-1990). Azərbaycan KP MK-nın birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvü (1990-1991). Azərbaycan Respublikasının 1 Prezidenti. 1991-ci il sentyabrın 8-də ümumi seçkilərdə Prezident seçilmişdir. Ermənistan tərəfindən Xocalıda törədilən soyqırım hadisəsindən sonra 1992-ci il martın 6-da vəzifəsindən uzaqlaşdılmışdır. 1992-ci ilin may ayında hakimiyyətə qayıtmaq istəsə də, Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti ələ alması ilə mayın 16-da Moskvaya getmişdir. Siyasətdən uzaqlaşmış və 2012-ci ildə Azərbaycana qayıtmışdır.**

miz Mehdiyev yazır: “Totalitar kommunist rejimin XX əsrdə həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan bu təcavüz Azərbaycan xalqına qarşı, bəşəriyyətə və humanizmə qarşı dəhşətli cinayətdir”'*™.

SSRİ-nin mövcudluğuna son qoyan amillərdən biri 20 Yanvar hadisəsi oldu. Bu, SSRİ siyasi sisteminin böhranını və M.Qorbaçovun yenidənqurma siyasətinin iflasını göstərdi. Azərbaycan xalqı ilə hakimiyyət arasında uçurumu daha da dərinləşdirdi. Həlak olanların xatirəsinə ehtiram olaraq Azərbaycanda 40 gün fabrik və zavodlar işləmədi. Bu isə vahid bir zəncir kimi bir-birinə bağlanmış sovet iqtisadiyyatının dağılmasına ciddi təsir etdi. 20 Yanvar hadisəsi Azərbaycan xalqının həyatında bir dönüş mərhələsi oldu. Xalq mərkəz ilə yolunun bir olmayacağmı, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk etdi və yerli hakimiyyətə də etimad bəsləmədi. Müstəqillik və milli azadlıq mərhələsi başladı. Bundan sonra Azərbaycan xalqı nicat yolunu yalnız müstəqillikdə gördü.

Hakimiyyətə gələn Ayaz Mütəllibov da xalqı birləşdirə və Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının qarşısını ala bilmədi. Təkcə Azərbaycanda deyil, bütün SSRİ-də böhranın dərinləşdiyi bir zamanda M.Qorbaçov 1990-cı ildə prezident kreslosuna yiyələndi. Lakin münaqişənin dayandırılması istiqamətində təsirli tədbirlər həyata keçirə bilmədi. Ermənistanın Azərbaycana təcavüzü dayandırılmadı. Ermənistan təkcə Dağlıq Qarabağ regionunda deyil, Azərbaycan ilə sərhəd rayonlarda da azərbaycanlı əhaliyə qarşı silahlı hücumları genişləndirdi. 1990-cı il martın 23-24-də Azərbaycanın Qazax rayonunun sərhəd kəndlərinə hücum edən Ermənistan silahlı dəstələri 9 nəfəri öldürdülər. Həmin gün Bağanıs Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmaqla və doğranmaqla vəhşicəsinə qətlə yetirildi, 1 nəfər yaralandı, əmlakları talan edilməklə 13 yaşayış evi yandırıldı'*^’. Bu, dəhşətli bir cinayət idi.

**Ramiz Mehdiyev (1938) - dövlət və siyasi xadim. Görkəmli filosof Fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki.**
**1980- 1981-ci illərdə Azərbaycan KP MK-mn elm və təhsil şöbəsinin müdiri.**
**1981- 1983-cü illərdə partiya-təşkilat işi şöbəsinin müdiri. 1983-1988-ci illərdə Azərbaycan KP MK katibi. 1988-1994-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri. 1994-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri. 1995-ci ildən Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı.**

**Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri, s. 30.**

**Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər), s.ll.**

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il 3 aprel tarixli qərarı ilə Azərbaycan SSR və Ermənistan SSR arasındakı sərhədlərin və konstitusiya ilə müəyyən edilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməz olduğunu bəyan etdi'*^^. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsinin SSRİ konstitusiyasının 78-ci maddəsinə zidd olduğu birmənalı göstərilirdi.

M.Qorbaçovun ölkədə və dünyada baş verən hadisələri doğru qiymətləndirməməsi, səriştəsizliyi və qətiyyətsizliyi əhalinin əhval-ruhiyyəsinə mənfi təsir edirdi. Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxilələri artırdı. Vəziyyət yaxşılaşmır, böhran isə getdikcə dərinləşirdi. Belə bir vaxtda 1990-cı il may ayının 18-də Ayaz Mütəllibov Azərbaycan parlamenti tərəfindən respublika prezidenti seçildi"^^. Bir tərəfdən Ermənistanın hərbi təcavüzünün qarşısının alınmaması, digər tərəfdən iqtidar-müxalifət münasibətlərinin kəskinləşməsi Azərbaycanda vəziyyəti daha da gərginləşdirirdi.

Bu zaman beynəlxalq münasibətlərdə yeni hadisə baş verdi. 1990-cı il avqustun 2-də başlayan Körfəz müharibəsi bütün beynəlxalq münasibətləri silkələdi. Sovet rəhbərliyi əsas diqqətini Körfəz müharibəsi ilə bağlı diplomatik səylərə yönəltdi. Bu isə Ermənistanın işinə yaradı. Yaranmış şəraitdən istifadə edərək xeyli silah əldə edən Ermənistan onlardan Dağlıq Qarabağ bölgəsində, həm də Ermənistan ilə sərhəd kəndlərdə yaşayan azərbaycanlılara qarşı istifadə etdi.

Azərbaycana isə Ermənistandan qaçqınlar gəlməkdə davam edirdi. 1990-cı ilin sentyabrında artıq Azərbaycanda Ermənistandan qovulan 201 min azərbaycanlı, 2,5 min kürd, 1,5 minə qədər rus, Özbəkistandan qovulan 29 min Ahıska türkü var idi. Az sonra Ermənistandan qovulan qaçqınların sayı 250 min nəfərə çatdı. Azərbaycan ağır böhranın içində idi. Hakimiyyət uğrunda mübarizə də getdikcə şiddətlənirdi.

Müxalifətin hakimiyyətə can atdığı bir zamanda ölkə rəhbərliyi Sov.İKP-nin hakim rolunun ölkə konstitusiyasından çıxarılması məsələsi

**O HecooTBCTCTBHH KoHCTHTyuHH CCCP EKTOB PO HaropHOMy KapaSaxy. OocTaHOBJieHHe OpesHÄHyMa BepxoBHoro CoBera CCCP OT 10 BHBapa 1990 r. - BeaoMOCTH BepxoBHoro CoBera CCCP. M., 1990, Ra 3, c.38; O BBeacHHH B fleH- CTBHC saKona CCCP o nopnflKe pemeHHH BonpocoB, CBasaHHbix c BbixoaoM CO1O3H0H pecnyöJiHKH H3 CCCP OT 3 anpejıa 1990 r. - BeaoMocTH BepxoBHoro CoBera CCCP. M., 1990, Ks 15, c.308.**

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 - Ha- ziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s.27.**

ni müzakirə etməyə başladı. Sov.İKP MK Siyasi Bürosunun 1990-cı il 13 sentyabr tarixli iclasında ölkədə yaranmış vəziyyət müzakirə edilərkən Ayaz Mütəllibov Kommunist Partiyasının rəhbər xətti olmadan hakimiyyətdə qala bilməyəcəklərini bildirərək açıq şəkildə dedi: "Əgər Kommunist Partiyasının rəhbər rolundan uzaqlaşsaq, onda nə pambıq olacaq, nə üzüm, nə də heç nə"'"'^'*. A.Mütəllibov Kommunist Partiyasının hakim rolunun saxlanılmasının tərəfdarı idi. M.Qorbaçov isə partiyanın heç yerə getmədiyini və yeniləşdiyini düşünürdü. A.Mütəllibov respublikada müxalifətin gücləndiyini diqqətə çatdırdı. Cavabında M.Qorbaçov dedi: "Onlar necə hərəkət edirlər? Bizim əlimizdə hər şey vardır, amma biz hərəkət edə bilmirik". A.Mütəllibov mövqeləri getdikcə itirdiklərini, müxalifətin hər yerə adamlarını yerləşdirdiklərini deyərək əlavə etdi ki, Azərbaycanda müxalifət vərəqələrinə və müxalifətə cavab verən jurnalist tapa bilər, amma onlar qorxurlar, partiya aparatı qorxur. Sabah nə olacağını bilmirlər. Qeyd etdi ki, bütün strukturların siyasətsizləşdirilməsi kommunistlərin olmaması deməkdir, bundan sonra hər şey kortəbii baş verəcəkdir. Onun fikrincə, partiya orqanlarında islahatlar mərhələlərlə aparılmalı idi. Çünki belə dəyişikliklərə kommunistlər hazır deyildilər. Cəmiyyət isə tərəddüd keçirirdi.

M.Qorbaçov yeni şəraitdə işləməyi öyrənməyi təklif etdi. A.Mütəllibov müxalifətin Azərbaycan xalqına rəhbərlik edəcəyi təqdirdə nə olacağını soruşdu. Eyni zamanda bildirdi ki, Azərbaycan fundamentalizmin bir addımhğındadır, islam İranı və Türkiyə vardır. O, respublikada kommunistləri öldürmək üçün siyahı hazırlandığını da söyləyərək M.Qorbaçovun mövqeyi ilə razılaşmadı. Mübahisələrdən sonra M.Qorbaçov A.Mütəllibo- va "kart blanş" verdiyini və "istəyirsinizsə, sərbəst işləyin" deyərək məsələni bitirmək istədi. Lakin A.Mütəllibov "dövlət strukturları işləməsə, biz hüquqi dövləti necə qura bilərik" dedi.

İclasdan bir neçə həftə sonra, 1990-cı il sentyabrın 30-da Azərbaycanda parlament seçkiləri keçirildi. Deputat mandatı qazanan müxalifət nümayəndələri Demokratik blok yaratdı. Onlar güclənir, hakimiyyət isə zəifləyirdi.

Mərkəzdə qəbul edilən qərarların yerinə yetirilməməsi vəziyyəti daha da pisləşdirirdi. Ölkədə ordu əleyhinə kampaniya getdikcə artırdı. Bu prosesləri dayandırmaq və vəziyyəti sağlamlaşdırmaq üçün Sov.İKP MK

SaceaauHe OojiHTÖıopo **IfK KRCC. 13** ceHTnpöa **1990** roaa. CoBepmeHHO ceKpexHO. - **PFAHH, (}).89,** on. **42,** a. **29, jı.1-26.**

katibliyi 1990-cı il noyabrın 15-də tədbirləri müəyyənləşdirən qərar qəbul etdi'*^^. Lakin bu qərar da həyata keçirilmədi.

Ölkədə yaranmış şərait Sov.İKP MK Siyasi Bürosunun noyabrın 16-da keçirilən iclasında müzakirə edildi'*^®. Bu zaman Siyasi Büronun başlıca qayğısı ölkədə siyasi və ümumi şəraiti sabitləşdirməkdən ibarət idi. İclasda hətta ölkədə mitinq, nümayiş və qarşıdurmanın 6 ay müddətində dayandırılması üçün SSRİ Ali Sovetinin müfaviq qərar qəbul etməsi barədə təklif də səsləndirildi. Milli münasibətlər sahəsində hakimiyyətin siyasətinin yerlərdə doğru başa düşülmədiyi qeyd edildi. Yerlərdə yanlış olaraq belə hesab edirdilər ki, sərhədlərin dəyişdirilməsi dövrü gəlib çatmışdır. Milli münasibətlər mücərrəd səviyyəyə qalxmışdı. Belə vəziyyətdə Sov. İKP MK Siyasi Bürosu üzvlərinin bəziləri hesab edirdi ki. Sov. İKP- nin hakim rolu ləğv ediləcəyi təqdirdə bütün mövqelər əldən gedəcəkdir. Onların fikrincə, ölkədə prezident hakimiyyəti güclü olmalı və İttifaq müqaviləsi bağlanmalı idi. İqtisadi müqavilənin bağlanması isə lazım deyildi. SSRİ nüvə dövləti olduğundan İttifaq müqaviləsi imzalanacağı təqdirdə nüvə silahının necə olacağı da narahatlıq doğururdu. Çünki bəzi müttəfiq respublikaların ərazisində bu silah saxlanılırdı.

İclasda çıxış edən Siyasi Büro üzvləri DTK-dan şikayətləndilər. Bildirdilər ki, əvvəllər DTK Siyasi Bürö üzvlərinə məlumatlar verirdi. İndi DTK-dan informasiya almaq olmur.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev"” ölkədə Prezident Şurası yaradılmasının əleyhinə çıxaraq, İttifaq müqaviləsinin bağlanmasını vacib hesab etdi.

M.Qorbaçov ölkədə referendum keçirilməsini təklif etdi. Onun fikrincə, yaranmış şəraitdə dövlət üç vəzifəni öhdəsinə götürməli - müdafiə obyektlərini, dövlət mülkiyyətini və rusdilli əhalini qorumalı idi.

İclasda hətta ölkədə fövqəladə vəziyyət elan edilməsi barədə təklif də səsləndirildi. Onun tərəfdarı olanlar 2-3 istiqamətdə fövqəladə vəziyyə

^ nocTaHOBJieHue **ceRperapMaxa IfK KOCC** OT **15** Hoaöpa **1990** roaa. **Ns CT-11/17 r. O** HeoTjTO)KHi>ıx Mepax B CBHSH C ycHJieuHeM aHTHapMeücKux nponBJie- **HHH** B pjuıe perHOHOB CTpaHbi. CcKpeTHO. **-PfAHH, (J). 89,** on. **8,** *H*- **78, jı.1-7.**

**3aceflaHH6 flojiHTÖıopo IfK KOCC** OT **16 Hoaöpa 1990 roaa. CoBepuıeHHO ceKpexHO. - PFAHH, (jı. 89, on. 42, a.30, jı.1-37.**

**Nursultan Nazarbayev (1940) - görkəmli qazax dövlət və siyasi xadimi. Qazaxıstan KP MK-mn katibi (1979-1984). Qazaxıstan Nazirlər Sovetinin sədri (1984- 1989). Qazaxıstan KP MK-nm birinci katibi (1989-1991). 1990-cı ilin aprelindən Qazaxıstan Respublikasının Prezidenti.**

tin elan edilməsini zəruri sayırdılar. Dəmir yollarının gündəlik işləməsi təmin edilməli, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üçün hüquq-mühafizə orqanlarının rolu artırılmalı və Prezident Şurası buraxılmalı idi.

Çoxlu qərarların qəbul edilməsinə baxmayaraq, ölkədə şərait normallaşmırdı. Kommunist Partiyası hakim partiya olsa da, əslində ölkəni idarə edə bilmirdi. Sosial problemlər artmışdı. Ərzaq malları çatışmırdı. Hakimiyyətdən narazı olan xalq baş verən hadisələrin nə ilə qurtaracağını bilmirdi. M.Qorbaçov ilə Boris Yeltsin'*^* arasında hakimiyyət uğrunda gedən mübarizə ölkədəki vəziyyəti daha da ağırlaşdırırdı.

Respublikalar yaranmış ağır vəziyyətdən az itki ilə çıxmaq üçün yollar axtarırdılar. Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının qərarı ilə Naxçıvan MSSR adından "Sovet Sosialisf" ifadələri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi olaraq qəbul edildi. Sessiya Azərbaycan SSR Ali Sovetinə müraciət edərək "Sovet Sosialist" ifadələrindən imtina etməyi, üçrəngli bayrağı dövlət bayrağı olaraq qəbul etməyi təklif etdi. Azərbaycan ərazisində ilk dəfə olaraq Naxçıvanda sovet sistemindən imtina olunması geniş əks-səda doğurdu.

SSRİ daxilində və beynəlxalq münasibətlərdə baş verən mürəkkəb və ziddiyyətli proseslərin gedişində 1990-cı il dekabrın 20-də xarici işlər naziri E.Şevardnadze istefa verdi. Həmin vəzifəyə 1991-ci il yanvarın 15-

də A.A.Bessmertnix təyin edildi . Yeni nazir müttəfiq respublikaları, o cümlədən Azərbaycanı daha fəal şəkildə xarici siyasət məsələlərinin həllinə cəlb etmək istəyirdi. SSRİ Xarici İşlər Nazirliyində müttəfiq respublikaların xarici işlər nazirlərinin keçirilən görüşündə başlıca məqsəd xarici siyasət məsələlərində müttəfiq respublikaların maraqlarını üzvi surətdə əlaqələndirmək idi.'*^'.

Yaranmış şəraitdə Azərbaycan Prezidenti, Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibov Sov. İKP MK-ya göndərdiyi teleqramda res

**Boris Yeltsin (1931-2007) - sovet partiya və dövlət xadimi. Rusiya Federasiyasının birinci Prezidenti. 1991, 1996-ci illərdə iki dəfə prezident seçilmişdir. Sov.İKP-nin qadağan edilməsi haqqında qərarın qəbul edilməsi ilə məşhurdur.**

**Aleksandr Bessmertnıx (1933) - sovet diplomatı. SSRİ xarici işlər naziri (1991-ci il yanvar - avqust).**

**BecTHHK MHÄCCCP. M., 1991, X22, c. 1.**

**BecTHHK MHflCCCP. M., 1991, Ks 5, c. 23.**

publikada yaranmış vəziyyətə qiymət verdi, baş verənlərin Ermənistanın DQMV-yə əsassız iddiaları ilə bağlı olduğunu bildirdi. O, vəziyyəti sabitləşdirmək üçün konkret təkliflərini irəli sürdü. Onun fikrincə, SSRİ Ali Soveti DQMV-də yaranmış vəziyyətə dair xüsusi bəyanatla çıxış etməli, SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Komitəsi silahlı dəstələrin tərksilah edilməsi üçün Ermənistan və Azərbaycan orqanları ilə birgə əməliyyatlar həyata keçirməli, SSRİ baş prokurorluğu millətlərarası münasibətləri qızışdıranlar barəsində cinayət işi açmalı idi.

Azərbaycan tərəfinin təklifləri Sov. İKP MK-nm milli siyasət şöbəsində öyrənildi və bəyənildi. Şöbənin Sov. İKP MK-ya təqdim etdiyi arayışda'*^^ Azərbaycan Prezidentinin nəticələri əsaslı hesab edilirdi. Göstərilirdi ki, münaqişənin qarşısı alınmasa, o, Ermənistan ilə Azərbaycan arasında geniş miqyaslı toqquşmaya, Azərbaycanda hakimiyyət dəyişikliyinə gətirə, Azərbyaycan SSR Ali Sovetinin yeni tərkibi DQMV-nin ləğvi və ittifaq müqaviləsindən imtina haqqında qərarlar qəbul edə bilər.

Təkliflər Sov. İKP MK katibliyinin 1991-ci il 17 yanvar tarixli iclasında müzakirə edildi'"'. Qəbul edilən qərara görə, SSRİ vitse-prezidenti G.İ.Yanayev Azərbaycan Prezidenti ilə İttifaq Şurasının iclası keçirilən müddətdə görüşərək yaranmış vəziyyətdən çıxış yollarını müzakirə etməli idi.

Bu zaman SSRİ-də milli münasibətləri kəskinləşdirməyə və ölkəni dağıtmağa çalışan xarici qüvvələr fəallıqlarını daha da artırmışdılar. Yaranmış vəziyyət Sov. İKP MK Siyasi Bürosunun 199i-ci il 30 yanvar tarixli iclasında müzakirə edilərkən Özbəkistan KP MK-nm birinci katibi İslam Kərimov"^" respublikada islamçı qüvvələrin hakimiyyətə can atdığını diqqətə çatdıraraq bildirdi ki, Daşkənd Orta Asiyadır. Daşkəndin partlaması bütün Orta Asiyanın partlaması deməkdir. İclasda çıxış edən A. Mütəllibov partiyanın hakim mövqelərini getdikcə itirdiyini, mübarizənin ağır

**O TCJierpaMMe npeaHaeHxa AaepöaüfljKaHCKOH CCP, nepBoro ceKperapa LfK KoMnapxHH AsepöaHÄKana MyxajiHÖoaa A.H. SanncKa oxaejıa HauHOHajibHOH nojiHXHKH ÜK KOCC. CcKpexHO. - PTAHH, 4).89, on.20, fl.24, jı.2-3.**

**O xejıerpaMMe npesHflenxa AsepöaBflxcaHCKOH CCP, nepBoro cexpexapH IfK KoMnapxHH A3ep6aHa>KaHa MyxajınöoBa A.H. - HocxaHOBJieHHC ceKpexapnaxa UK KHCC. Ns CT - 15/lr ox 17.01.1991. CeKpexHO. - PfAHH, 4).89, on.20, jöi.24, Ji.l.**

**İslam Kərimov (1938) - özbək dövlət və siyasi xadimi. 1990-cı ildən Özbəkistan**

olduğunu, iqtisadi vəziyyətin çətinliyini və kommunistlər arasında həmrəyliyin olmadığım dedi. Digər çıxış edənlər də ziyalıların partiyadan uzaqlaşdıqlarını və müxalifətin hakimiyyəti ələ keçirmək istədiyini bildir- dilər^*'".

İclasda SSRİ-nin saxlanılması üçün referendum keçirilməsi haqqında qərar qəbul edildi. Lakin ölkədə referenduma birmənalı münasibət mövcud deyildi. Onun əleyhdarları Moskvada və ölkənin digər şəhərlərində etiraz mitinqləri keçirməyə başlamışdılar. Azərbaycanda mərkəzi hakimiyyətdən narazılığın həddi-hüdudu yox idi. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan Respublikası adı rəsmi olaraq qəbul edildi. SSRİ Daxili İşlər Nazirliyinin 1991-ci il 14 mart tarixli məxfi məlumatına əsasən Moskvada keçirilən mitinqlərdə əhali SSRİ- nin saxlanılmasının əleyhinə səs verməyə çağırılırdı'*®®.

Belə bir şəraitdə Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı silahlı hücumlar ara vermirdi. SSRİ daxili işlər nazirinin birinci müavini İ.F.Şilov Sov.İKP MK-ya 1991-ci il 14 mart tarixli məxfi məktubunda həmin gün saat 8.30-da Əsgəran rayonunda naməlum şəxslərin Şuşada təşkilata məxsus avtobusu avtomat atəşinə tutduğunu, üç nəfər sərnişinin öldürüldüyünü yazırdı. Onların arasında məzuniyyətdən qayıdan sovet ordusunun qulluqçusu da var idi. Üç nəfər güllə yarası almışdı. Yaralıların ikisi xəstəxanaya yerləşdirilmişdi. Zərərçəkən altı nəfərin hamısı azərbaycanlılar idi'*®^. İ.F.Şilov 1991-ci il martın 16-da Sov. İKP MK-ya göndərdiyi əlavə məlumatında ittifaq müqaviləsinin bağlanmasının əleyhinə Naxçıvanda mitinqlərin keçirildiyi, Sumqayıt, Ağstafa, Şəki və b. rayonlarda SSRİ-nin saxlanılması üçün keçiriləcək referendum əleyhinə aclıq aksiyalarının olduğunu yazırdı'*®*.

^ **SaceaaHue nojıuTÖıopo ÜK KflCC. 30 Husapa 1991 roaa. CoBepmeHHo cex-pexHO. - PFAHH, c{).89, on. 42, *R.* 31, JI.1-26.**

**riepBbiH saMecTHTejib MHHHcrpa BnyxpeHHHX aejı CCCP H.O.LLİHaoB - IfK KDCC. 06 oöcTanoBKe B crpane 14 Mapxa 1991 r. - PFAHH, c}). 89, on 22, a.62, a. 1-2.**

**üepBbiH aaMecxHxejib Mnnncxpa BnyxpenHHX aejı CCCP H.<J).IUHJIOB - U,K KHCC. 06 oöcxanoBKe B cxpane 14 Mapxa 1991 r. - PFAHH, 4). 89, on 22, a.l,** jı.l.

**B** flonojiHeHHe κ HHcJıopMaLiHH **o6** oöcxanoBKe в cxpane 15 Mapxa. SanncKa nepBoro saMecxHxeJia MBfl **CCCP** H.O.LUnjıoBa - **H,K KHCC. 16.03.1991. JVbl/983. - PFAHH, 4).89,** on.22, **a.64, jı.l**

Martın 17-də ölkədə referendum keçirildi. SSRİ-nin saxlanılması tərəfdarları üstünlük qazandılar. Azərbaycanda isə Naxçıvan Muxtar Respublikasında referendum keçirilmədi. Əhali səs verməyə getmədi.

1991-ci il martın ortalarında SİTA sovet hökumətinin mövqeyini bəyan edərək Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu bildirdi"*'^.

Sov.İKP.MK katibliyinin yuxarıda qeyd edilən məlum qərarına uyğun olaraq aprelin 16-da G.Yanayevin yanında SSRİ daxili işlər naziri B.Puqo, müdafiə naziri D.Yazov, DTK sədrinin müavini A.Aqeev, daxili qoşunların komandanı Y.Şatalin, Azərbaycan Prezidenti A.Mütəllibov və Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçkonun iştirakı ilə keçirilən müşavirədə DQMV-də şəraiti normallaşdırmaq üçün konkret təkliflər - silahlı dəstələrin çıxarılması, Ermənistanın Azərbaycanın daxili işlərinə qarışmasının qarşısının alınması və s. səsləndirildi"™. SSRİ DTK sədrinin müavini A.Aqeev hadisələri Ermənistanın qızışdırdığını birmənalı olaraq dedi. Müşavirədə DQMV-də şəraiti normallaşdırmaq barədə qərarlar qəbul edildi. Lakin M.Qorbaçov xarici təsirlər altında həmin tədbirləri həyata keçirməkdən imtina etdi.

Sovet rəhbərinin DQMV-dəki şəraitdən istifadə edərək həm Ermənistanda, həm də Azərbaycanda möhkəmlənmək istəkləri erməni tərəfini şirnikləşdirirdi. Qəti tədbirlərin həyata keçirilmədiyini görən Ermənistan Azərbaycanın daxili işlərinə müdaxiləsini daha da genişləndirərək SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair müraciət etdi"*'. Buna cavab olaraq Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti 1991-ci mayın 5-də etiraz qərarı qəbul etdi. Qərarda Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti və ermənilər yaşayan digər məntəqələri barəsində məsələni müzakirə etmək üçün “SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında” Ermənistan Respublikası Ali Sovetinin qərarı Azərbaycanın daxili işlərinə kobud müdaxilə, SSRİ konstitusiyasının 76-cı maddəsinə zidd qərar, regionda vəziyyəti yenidən kəskinləşdirmək, erməni və Azərbaycan

**Azerbaycan Cumhuriyeti’nin bağımsızlığı ve Karabağ olayları. İstanbul, Harb Akademileri Komutanlığı Yayınları, 1992, s. 58.**

**MyxajiHÖOB A. Kapaöax - nepubiü caa. floKyMeuTajibHoe noBecTBOBaHue, c.132-133.**

**SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair Ermənistan Ali Sovetinin əsassız müraciəti haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı. 5 may 1991-ci il. - ARXİNA. 1991.**

xalqları arasında düşmənçiliyi qızışdırmaq, bu çirkin işə yenidən İttifaqın hakimiyyət orqanlarını cəlb etmək cəhdi hesab edilirdi. Vurğulanırdı ki, dördüncü ildir, Ermənistan Azərbaycana qarşı elan olunmamış müharibə aparır, silahlı quldur dəstələri Azərbaycanın sərhədyanı kəndlərinə basqınlar edir, dinc sakinləri, SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının və sovet ordusunun əsgər və zabitlərini, respublikanın hüquq mühafizə orqanlarının əməkdaşlarını öldürürlər. Azərbaycanın yaşayış məntəqələrinin raket və top atəşinə tutulması adi hal olmuşdu. Evlərin dağıdıldığı və yandırıldığı, bütöv kəndlərin viran qoyulduğu, Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin sakinlərinin zorakılıqla qovulduğu və kəndin Ermənistan tərəfindən ilhaq edildiyi qeyd olunurdu. Vurğulanırdı ki, Ermənistandan DQMV-yə çoxlu terrorçu quldur dəstələri göndərilir, onlar adamları qətlə yetirir, soyğunçuluq edir, evlərə od vururlar. Ermənistan silahlı dəstələrinin basqınlar zonasına DQMV ərazisindən savayı, respublikanın on bir rayonu və Naxçıvan Muxtar Respublikası da daxil idi. Respublikanın sərhədyanı zonasının hər yerində yaşayış məntəqələri Ermənistan tərəfdən top atəşinə tutulurdu. Yaxşı təlim görmüş quldur dəstələri SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının, sovet ordusunun əsgər və zabitlərini tərksilah edirdilər. Ölkə rəhbərliyi isə qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi üçün uzun müddət tədbirlər görməmişdi. 1988-1989-cu illər ərzində Ermənistandan azərbaycanlı əhali əsrlər boyu yaşadığı ərazidən qəddarcasına qovulmuşdu. Azərbaycanlılar kütləvi surətdə qovulub çıxarılarkən onların bir çoxu qətlə yetirilmiş, qış vaxtı neçə- neçə qaçqın dağlarda soyuqdan ölmüşdü. Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdı. Erməni yaraqlıları Dağlıq Qarabağ Muxtar Vilayətində də xeyli azərbaycanlını evlərindən qovmuşdu. Azərbaycanda isə ermənilər yaşayır və işləyirdilər. Belə şəraitdə ermənilərin həyatı üçün azərbaycanlılar deyil, erməni quldur dəstələri təhlükə törədir, onları girov vəziyyətinə salırdılar. Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqında SSRİ Prezidentinin fərmanına Ermənistan rəhbərliyi açıq-açığına etinasızlıq göstərirdi.

Ermənistan Azərbaycan ərazilərinin bir hissəsini işğal etmək niyyətini ümumittifaq və dünya ictimaiyyətindən gizlədirdi. Təcavüz, terror və zorakılıq hərəkətləri Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək haqqında Ermənistan Ali Sovetinin qanunsuz, konstitusiyaya zidd qərarı ləğv edilməmişdi. Azərbaycan tərəfi SSR İttifaqından konstitusiyaya sadiq qalaraq hər bir respublikanın, o cümlədən Azərbay

canın ərazi bütövlüyünün təmin olunmasını tələb edirdi. Qərarda Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bir daha bəyan edilir, “Dağlıq Qarabağ problemi” adlandırılan problemin Azərbaycan Respublikasının konstitusiyası əsasında həll ediləcəyi bildirilirdi.

Bununla bağlı olaraq Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarda yazılırdı: “1. SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında” Ermənistan Respublikası Ali Sovetinin qərarı suveren dövlət olan Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə sayılsın və bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında məsələyə baxmağa SSRİ Ali Sovetini yenidən vadar etmək və SSRİ xalq deputatlarının buna dair növbədənkənar qurultayını çağırmaq üçün göstərilən hər hansı cəhdə qarşı qəti etiraz bildirilsin. 2. SSRİ konstitusiyasının 81-ci maddəsinə əsasən SSRİ Prezidentindən və SSRİ Ali Sovetindən tələb edilsin ki, Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzünə son qoymaq üçün qəti tədbirlər görsünlər, Ermənistanda qanunsuz yaradılmış silahlı dəstələrin buraxılmasına və DQMV-ni Ermənistana birləşdirmək barəsində Ermənistan Respublikası Ali Sovetinin konstitusiyaya zidd qərarının ləğvinə nail olsunlar”.

Lakin SSRİ rəhbərliyi Ermənistanın təcavüzünün qarşısım ala bilmədi. Bu isə erməni silahlı dəstələrini şirnikləşdirir və basqınlarının artmasına rəvac verirdi. Belə ki. Dağlıq Qarabağ regionunda hərbi əməliyyatları genişləndirməklə yanaşı Ermənistan silahlı dəstələri 1988-ci ildən 1991-ci ilin sonunadək Azərbaycanın Ağstafa, Qazax, Tovuz, Gədəbəy, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarına 304 dəfə hücum etmiş, 1249 kütləvi artilleriya atəşinə tutmuş, nəticədə 411 nəfər öldürülmüşdü'*’^. Hücumlar Naxçıvan, Sədərək və Qrdubad istiqamətlərində də edilmişdi.

Belə bir şəraitdə baş verənlərin nə qədər təhlükəli olduğunu dərk edən mərkəzi hakimiyyət müəyyən addımlar atdı. 1991-ci ilin aprel ayında SSRİ-nin mərkəzi hüquq-mühafizə orqanları Dağlıq Qarabağ regionundan kənarda, erməni silahlı qrupları tərəfindən cinayətkar mərkəzə çevrilmiş Azərbaycanın Xanlar rayonunun Çaykənd kəndində silahlı qrupları həbs etdi. Məhz buradan qonşu kəndlər və yollar mütəmadi olaraq bombardman edilir, top atəşinə tutulur, yerli azərbaycanlı əhali qorxu və vahimə içində saxlanılırdı. Qeyd etmək lazımdır ki, 1989-cu ildən 1991-ci ilədək

' ARXİNA. 1**994. Qovluq Xs 9, v. 31.**

Çaykənddə və ətraf ərazilərdə 54 nəfər yerli sakin erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdi.

Dünyada və ölkədə baş verən proseslərin təsiri altında SSRİ-nin dağılması sürətləndi. 1991-ci il avqustun 19-da M.Qorbaçovun devrilməsi məqsədi ilə edilən çevriliş cəhdi iflasa uğradı. Dünya birliyi və SSRİ xalqları çevrilişi müdafiə etmədilər. Bundan sonra xarici işlər naziri A.A.Bes- smertnıx vəzifəsindən azad edildi. Həmin vəzifəyə avqustun 28-də Boris Pankin'*''* təyin olundu'*’''. Noyabr ayında Xarici İşlər Nazirliyinin əvəzində SSRİ Xarici Əlaqələr Nazirliyi yaradıldı. Xarici İqtisadi Əlaqələr Nazirliyinin funksiyalarının bir hissəsi ona verildi. E.Şevardnadze noyabrın 19-da yenidən xarici əlaqələr naziri təyin edildi. Lakin SSRİ-nin dağılması ilə bu qərar yerinə yetirilmədi.

Çevriliş cəhdinin boşa çıxması ölkənin dağılmasını sürətləndirdi. Azərbaycan Respublikası Ali Soveti 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul etdi”’^. Sentyabrın 8-də A.Mütəllibov prezident seçildi. Ermənistan isə sentyabrın 21-də müstəqillyini elan etdi. Bu hadisələrə qədər əgər Ermənistanın Azərbaycanın daxili işlərinə qarışması və təcavüzü SSRİ tərkibində iki müttəfiq respublika arasında baş verirdisə, bundan sonra onun xarakteri dəyişdi.

**^ Boris Pankin (1931) - 1991-ci ildə qısa bir müddətdə SSRİ xarici işlər naziri.**

**BecTHHK MHfl CCCP. M., 1991, Ns 16-18, c.41.**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin bəyannaməsi. 30 avqust 1991-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 avqust 1991-ci il. Bakı, 1991, Ro 15-16, m.262**

# II FƏSIL

# AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLMƏSİ. ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜNÜN ARADAN QALDIRILMASI İSTİQAMƏTİNDƏ DİPLOMATİK SƏYLƏR

## Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi

Artıq qeyd edildiyi kimi, 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Soveti 1989-cu il 23 sentyabr tarixli konstitusiya qanununu əsas götürərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bəyan olunmuş dövlət müstəqilliyinin bərpasını Azərbaycan SSR hüdudlarında elan etdi'*'^. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamağa dair qərar qəbul olun- du'*^^. Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin əhatə etdiyi inzibati ərazi Azərbaycan Respublikası müstəqilliyini əldə edənə və beynəlxalq ictimaiyyət tərəfindən tanınana qədər Azərbaycanın tərkib hissəsi olmuşdur"^*. Bu qərar qəbul edildikdən bir neçə gün sonra, sentyabrın 2-də Dağlıq Qarabağ Muxtar Vilayət və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonunun inzibati əraziləri çərçivəsində qondarma "Dağlıq Qarabağ Respublika- sf'nın yaradıldığı bəyan edildi. Qondarma "Dağlıq Qarabağ Respublika- sf'nın elan edilməsi Ermənistanın təcavüzünü pərdələmək üçün atılmış bir addım idi. Bununla Ermənistan Azərbaycan ərazilərində baş verənlərdə özünün iştirakının olmadığını göstərmək istəyirdi.

**^ Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin bəyannaməsi. 30 avqust 1991-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 avqust 1991-ci il. Bakı, 1991, X2İ5-16, s.38-39.**

**Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamaq barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 30 avqust 1991-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 avqust 1991-ci il. Bakı, 1991, XalS-lö, s.39.**

**ARXİNA. 02.01.2003-18.03.2003. Qovluq X2S, v.234.**

Qondarma qurumun elan edilməsi Azərbaycan və SSRİ qanunlarına tamamilə zidd olub, heç bir hüquqi əsasa malik deyildi. Ermənistanın mövqeyinə görə, bu addımın hüquqi əsasını guya müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında 1990-cı il 3 aprel tarixli SSRİ qanunu təşkil edirdi'*'^. Guya Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi tarixdə "Dağlıq Qarabağ Respublikası" onun tərkib hissəsi olmamışdır. Lakin bu yanaşma uydurmadan başqa bir şey deyildir. Onun heç bir tarixi-siyasi əsası yoxdur. Belə ki, 1990-cı il 3 aprel tarixli məlum qanunun məqsədi müttəfiq respublikaların SSRİ-dən ayrılacağı təqdirdə riayət etməli olduqları xüsusi qaydalar yaratmaqla SSRİ daxilində qarşılıqlı əlaqələri tənzimləməkdən ibarət idi. Müttəfiq respublikanın ayrılma barədə müvafiq qərarı respublika əhalisinin referendum yolu ilə azad şəkildə ifadə olunmuş iradəsinə əsaslanmalı idi. Qərar müttəfiq respublikanın ali qanunverici orqanı tərəfindən təsdiq olunmalı idi. Müttəfiq respublikanın SSRİ-dən ayrılması mürəkkəb və çoxmərhələli prosedurun yerinə yetirilməsindən, nəhayət, yalnız SSRİ Xalq Deputatları Sovetinin müvafiq qərarının qəbulundan sonra qanuni hesab edilə bilərdi. Bununla belə. Sovet İttifaqı beynəlxalq hüququn subyekti olaraq mövcudluğunu dayandıranadək sözügedən qanunun hüquqi qüvvəsi yox idi. Çünki heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan SSRİ-dən ayrılmaq üçün orada təsbit olunmuş qaydalardan istifadə etməmişdi. Digər tərəfdən artıq qeyd edildiyi kimi, yalnız Azərbaycanın dövlət müstəqilliyi haqqında məlum qanunlar qəbul edildikdən sonra Dağlıq Qarabağ regionunda qondarma qurum elan olunmuşdu.

Ermənistanın kobud müdaxiləsi və təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün ilk addımlar hələ SSRİ mövcud olduğu bir zamanda RSFSR Prezidenti Boris Yeltsin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən atıldı. Onlar regiona səfər etdilər. Şəraitlə tanış olduqdan sonra Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi barəsində razılaşdılar. 1991-ci il sentyabrın 20-24-də Jeleznovodskda Rusiya Prezidenti Boris Yeltsin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Azərbaycan Prezidenti Ayaz Mütəllibov və Ermənistan Prezidenti Levon Ter-Petrosyan görüşərək münaqişənin həlli yollarını müzakirə etdilər. Müzakirələrin yekununda sentyabrın

**O BBencHiiH** в aeücTBue **SaKoua CCCP o nopanKe pemeHHH BonpocoB,** CBa- **saHHbix** c **BbixoaoM** COKD3HOH **pecnyÖJTHKH** нз **CCCP** OT **3 anpeaa 1990 roaa. Ooc- TauoBJieHue BepxoBUoro Cosexa CCCP. -** Bchomoctn **BepxoBuoro CoBera CCCP. M., 1990, N2I5, CT.308.**

23-də RSFSR, Qazaxıstan, Ennənistan və Azərbaycan prezidentləri bəyannamə imzaladılar. Bəyannaməyə görə, Azərbaycanın Dağlıq Qarabağ regionunda silahlı dəstələr tərksilah edilməli, yerli hökumət yenidən təşkil olunmalı, Ermənistan ilə Azərbaycan arasında yüksək səviyyəli görüşlərin keçirilməsi davam etdirilməli, atəşkəs elan edilməli, SSRİ Daxili İşlər Nazirliyinin bölmələri və SSRİ ordu hissələri döyüş bölgəsindən çəkilməli idi. Ayrıca imzalanan protokola görə, Ermənistan parlamenti Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni ərazisi olduğunu elan edən qərarını, bunun müqabilində də SSRİ Ali Soveti Dağlıq Qarabağa dair qəbul etdiyi qərarları ləğv etməli, Ermənistan və Azərbaycan qarşılıqlı olaraq girovları azad etməli idilər'**®.

B.Yeltsin və N.Nazarbayevin səfərinin yekunları barədə birgə rəsmi məlumat qəbul edildi. Jeleznovodsk görüşündən sonra Ermənistan Prezidenti imzalanan sənədləri "həll deyil, bu yolda atılmış addım", Rusiya Prezidenti Boris Yeltsin isə "tarixi bir addım" olaraq qiymətləndirdi.

Dövlət başçıları regionda atəşi dayandırmaq haqqında məsələləri müzakirə etmək üçün müdafiə nazirlərinə göstəriş verdilər. Sentyabrın 26- da Soçidə Rusiyanın təhlükəsizlik naziri V.Barannikov'**', müdafiə naziri P.Qraçov , Azərbaycan Respublikasının müdafiə naziri, Ermənistanın müdafiə naziri və Gürcüstanın müdafiə naziri səkkiz maddədən ibarət saziş imzaladlar. Saziş regionda atəşi dayandırmağı nəzərdə tuturdu. Az sonra Moskvada silahlı qüvvələri geri çəkmə haqqında protokol imzalandı. Lakin bu sənədlərin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi.

Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyəti isə bir sıra təkliflər hazırladı. Həmin təkliflər, eyni zamanda Rusiya və Qazaxıstanın vasitəçilik səyləri Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətində müzakirə edildi. Oktyabrın 7-də müvafiq qərar qəbul edildi'**®. Qərarda yazılırdı: "1. RSFSR Prezidenti B.N.Yeltsinin və Qazaxıstan Prezidenti

**"Hürriyef' gazetesi, İstanbul, 1991, 24 Eylül.**

**Viktor Barannikov (1940) - sovet və Rusiya dövlət xadimi. Ordu generalı. Rusiyanın təhlükəsizlik və daxili işlər naziri (1991-1992). Təhlükəsizlik naziri (1992-1993).**

**Pavel Qraçov (1948) - Rusiya Federasiyasının müdafiə naziri (1992-1996). RSFSR Prezidenti B.N.Yeltsinin və Qazaxıstan Prezidenti N.Ə.Nazarbayevin vasitəçilik səfərinin yekunları haqqında birgə rəsmi məlumatın həyata keçirilməsi sahəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin təklifləri barəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı. 7 oktyabr 1991-ci il.-ARXİNA. 1991.**

N.Ə.Nazarbayevin vasitəçilik səfərinin yekunları haqqında birgə rəsmi məlumatın həyata keçirilməsi sahəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin təklifləri bəyənilsin. 2. Azərbaycan Respublikası Ali Sovetinin daimi komissiyalarına tövsiyə olunsun ki, birgə rəsmi məlumatı həyata keçirmək üçün nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsini müvafiq nazirliklər və baş idarələr ilə birlikdə təmin etsinlər”.

Bundan sonra Ermənistanın İcevan rayonunda ikinci bir görüş oldu. Lakin görüşlər, imzalanan sənədlər və Azərbaycan tərəfinin hazırladığı təkliflər Ermənistanın müdaxiləsini dayandıra bilmədi. Bəyannamənin şərtlərinin Ermənistan tərəfindən yerinə yetirilməməsi vəziyyəti ağırlaşdırırdı.

Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionuna hərbi sursat və silah göndərilməsini, azərbaycanlılara qarşı silahlı hücumlarını davam etdirirdi. Mərkəzi sovet rəhbərliyində yüksək səviyyəli şəxslərin və xarici ölkələrdəki diasporanm müdafiə etməsi nəticəsində Ermənistanın müdaxiləsi və terror siyasəti genişlənirdi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistan ilə həmsərhəd rayonlarında şəraiti normallaşdırmaq sahəsində Azərbaycan Respublikası hökumətinin həyata keçirdiyi tədbirlər Ermənistan Respublikasında qatı millətçi qruplaşmaların kəskin müqavimətinə rast gəldi. Ermənistan bu tədbirlərə Azərbaycanın daxili işlərinə qarışmasını artırmaqla, müdaxiləsini və azərbaycanlılara qarşı zorakılığın miqyasını genişləndirməklə cavab verdi.

Belə bir şəraitdə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edildi'**". Oktyabrın 29-da isə Azərbaycan Respublikası Ali Soveti dövlət müstəqilliyinin bərpa olunduğu barədə Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul etdi'**^. Müraciətdə Azərbaycan Respublikası BMT nizamnaməsinə sadiqliyini və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək nizamnamənin 4-cü maddəsinə müvafiq surətdə BMT üzv-

**Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 18 oktyabr 1991-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 oktyabr 1991-ci il. Bakı, 1991, Ks 19-20 (848-849), s. 26**

**Birləşmiş Millətlər Təşkilatına müraciət haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 1991-ci il 29 oktyabr. - ARXINA. 1992.**

larindən onu təşkilatın üzvlüyünə qəbul etmək məsələsini nəzərdən keçirməyi xahiş edirdi"**’.

Ali Sovet həmin tarixdə müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan ölkələrin parlamentlərinə və hökumətlərinə də müraciət haqqında qərar qəbul etdi"*’. Müraciətdə Azərbaycan Respublikasının müstəqil, suveren dövlət kimi tanınması xahiş edilirdi. Dünya birliyinin üzvü olan dövlətlərin bu addımının Azərbaycan xalqının azadlıq və demokratiya istəyini, respublikada dərin sosial və iqtisadi islahatlar keçirmək arzusunu müdafiə etmək üçün həlledici əhəmiyyətə malik olacağı, Azərbaycanın dünya xalqları arasında qarşılıqlı anlaşma və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə töhfəsini verməsi üçün imkan yaradacağı qeyd edilirdi"**.

Bu müraciət qəbul edilən zaman Ermənistan Azərbaycana müdaxiləsini davam etdirirdi. Azərbaycanda vəziyyət getdikcə ağırlaşırdı. Ona görə də Azərbaycan Respublikası Ali Soveti respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətində və sərhədyanı rayonlarında şəraitin kəskin surətdə pisləşməsi ilə əlaqədar olaraq noyabrın 9-da suveren dövlətlərin parla

mentlərinə müraciət etdi . Müraciətdə Ermənistan silahlı dəstələrinin Azərbaycan ərazisində törədilən elan olunmamış müharibədə yüzlərlə azərbaycanlını, rusu, ukraynahnı, belarusu, digər millət və xalqların nümayəndələrini qətlə yetirdiyi, yaraladığı, şikəst etdiyi, kəndləri yandırdığı və talan etdiyi vurğulanır, Azərbaycan Respublikasına qarşı Ermənistanın rəsmi hakimiyyət orqanları tərəfindən idarə olunan və əlaqələndirilən geniş miqyaslı silahlı təcavüz edildiyi göstərilir. Mərkəzin Azərbaycana hər cür təzyiq etdiyi, kütləvi informasiya vasitələrinin də gərginliyin artırılması vasitəsinə çevrildiyi, ölkə əhalisinə və dünya ictimaiyyətinə yalan xə-

**^ Birləşmiş Millətlər Təşkilatına müraciət. 1991-ci il 29 oktyabr. - ARXINA. 1991; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 oktyabr 1991-ci il. Bakı, 1991, Xe 19-20 (848-849), s.28-29.**

**Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya dövlətlər birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə müraciət haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 1991-ci il 29 oktyabr. - ARXİNA. 1991.**

**Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya dövlətlər birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti. 1991-ci il 29 oktyabr. - ARXİNA. 1991.**

**Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 1991-ci il 9 noyabr. - ARXİNA. 1991.**

bərlər verməklə Azərbaycan haqqında mənfi fikir yaratmağa çalışdığı qeyd olunurdu. Jeleznovodskda RSFSR, Qazaxıstan, Ermənistan və Azərbaycan prezidentlərinin imzaladıqları kommunikenin şərtlərinin Ermənistan tərəfindən yerinə yetirilməməsinin vəziyyəti ağırlaşdırdığı, mərkəzin və xarici diasporanm müdafiə etdiyi, rəvac verdiyi erməni terrorizminə lazımınca cavab verilmədiyindən gündən-günə azğınlaşdığı və qəddarlaşdı- ğı bəyan edilirdi. Müraciətdə hər bir suveren dövlət sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü kimi prinsipial məsələdə Azərbaycan ilə həmrəy olmağa çağırılırdı'*^”.

Lakin bu müraciət bir nəticə vermədi. Ermənistan hərbi təcavüzünü daha da genişləndirdi. Noyabrın 20-də dəhşətli bir hadisə baş verdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, Qarakənd kəndi səmasında Azərbaycanın dövlət və siyasi xadimlərinin olduğu vertolyot Ermənistan silahlı dəstələri tərəfindən vuruldu. Vertolyotdakılar həlak oldular. Bununla da Ermənistan sülh prosesini pozdu.

Azərbaycan tərəfi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi haqqında qanun verdi"*”. Azərbaycan SSR Ali Soveti həmin qanunu təsdiq etdi"*”^.

Bundan bir gün sonra, noyabrın 27-də SSRİ Dövlət Şurası Dağlıq Qarabağın konstitusiya quruluşunun dəyişdirilməsinin yolverilməz olduğunu bəyan etdi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası noyabrın 27-də həmin qərara etirazını bildirdi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının bu barədə qəbul etdiyi qərarda yazılırdı ki, keçmiş SSR İttifaqı Dövlət Şurasının 1991-ci il 27 noyabr tarixli qərarının müstəqil Azərbaycan Respublikasında hüquqi qüvvəsinin olmadığı qeyd edilsin; Azərbaycan və Ermənistan Respublikalarının müstəqilliyi yolunda maneə olan Ermənistan - Azərbaycan münaqişəsinin dinc yolla və tezliklə həll edilməsinin zəruriliyini nəzərə alaraq Azərbaycan Respublikası ilə Er-

**Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti. 1991-ci il 9 noyabr. - ARXİNA. 1991.**

**Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikasının qanunu. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 dekabr 1991-ci il. Bakı, 1991, Xa 24 (853), s.16-17.**

**Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31 dekabr 1991-ci il. Bakı, 1991, Xs 24 (853), s.17-18.**

mənistan Respublikası arasında danışıqlar aparılması məqsədəuyğun sayılsm"^^.

Lakin bundan sonra Ermənistan danışıqlardan qaçaraq hərbi müdaxiləni daha da genişlənirdi. 1991-ci il noyabrın sonlarında Xankəndi ətrafında azərbaycanlılar yaşayan 19 kənd yandırıldı, əhalisi məcburi köçkünə çevrildi.

Bu zaman SSRİ bir dövlət olaraq artıq son günlərini yaşayırdı. 1991-ci il dekabrın 8-də Minsk yaxınlığında Viskul məntəqəsində (Belo- vejskaya Puşa) Rusiya, Ukrayna və Belarus rəhbərləri görüşərək SSRİ-nin taleyini həll etdilər. Onlar 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətinin dayandırıldığını bildirdilər. Beləliklə, uzun illər boyu dünyanı lərzəyə salan sovet dövləti süqut etdi. Bu, sadəcə bir dövlətin süqutu deyil, qlobal hakimiyyəti ələ keçirməyə çalışan bir ideologiyanın son nəfəsini verdiyinə işarə idi. Çürüyən bir sistem tarix səhnəsindən silinib atıldı.

SSRİ obyektiv daxili amillərin təsiri altında və dünyada baş verən proseslərin nəticəsində dağıldı. Məlum olduğu kimi. Sovet İttifaqı zorla yaradılan və inzibati-amirlik metodları ilə idarə edilən bir dövlət idi. Ölkənin varlığını qoruyan amillərdən biri Sovet İttifaqı Kommunist Partiyasının və mərkəzləşdirilmiş planlı iqtisadiyyatın mövcudluğu idi. Kommunist Partiyasının hakim rolunun ləğv edilməsi ölkənin dağılmasını sürətləndirdi. Uzun illər boyu formalaşmış təsərrüfat əlaqələri qırıldı. SSRİ-nin varlığını qoruyan digər amillər ordu və təhlükəsizlik qüvvələri idi. SSRİ xalqlarına qarşı ordunun silah işlətməsi onu gözdən salaraq sovet dövlətinin iflasını sürətləndirdi. SSRİ-nin varlığının ən zəif yeri milli münasibətlər idi. Ölkə xalqlar dostluğu və beynəlmiləlçilik prinsipləri üzərində dayanırdı. M.Qorbaçov hakimiyyətə gəldikdən sonra sovet xalqları bir-birinə dəymişdi. Milli münasibətlərin pozulduğu ölkə anarxiyaya sürüklənmişdi. Belə bir şəraitdə artıq SSRİ-nin varlığını qoruyub saxlamaq mümkün deyildi. SSRİ-də milli münasibətlərin ən nazik yeri Cənubi Qafqaz idi. Ölkənin dağılmasında subyektiv amillər, xüsusən M.Qorbaçovun zəif və iradəsiz hərəkətləri, Boris Yeltsin ilə aralarında gedən saray çəkişmələri müəyyən rol oynadı.

SSRİ-nin dağılmasına beynəlxalq amillər də təsir etdi. Baha başa gələn sovet hərbi proqramları ölkə əhalisinin sosial-iqtisadi vəziyyətini pisləşdirirdi. Sovet dövləti Qərb ilə rəqabətə davam gətirə bilmədi. Nəti-

**^ SSRİ Dövlət Şurasında Azərbaycan - Ermənistan münasibətlərinə dair 1991-ci il 27 noyabr tarixli qərar haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. İN26. - ARXİNA. 1991.**

cədə soyuq müharibə azad dünyanın qələbəsi ilə başa çatdı. İki sistemin mübarizəsi sona yetdi. Dünyada tamamilə yeni bir şərait yarandı.

SSRİ dağıldıqdan sonra "uti possidetis juris" beynəlxalq hüquq prinsipi yeni müstəqil dövlətlərin sərhədlərinin milli, regional və beynəlxalq legitimliyinin əsasını təşkil etdi. Bu prinsipə əsasən Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in inzibati sərhədləri beynəlxalq sərhədlər olaraq tanındı, Azərbaycan Respublikası beynəlxalq və regional təşkilatların üzvü oldu, beynəlxalq hüququn mühafizəsi altına alındı.

SSRİ dağıldıqdan bir neçə gün sonra, 1991-ci il dekabrın 10-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan ermənilər "Dağlıq Qarabağın SSRİ tərkibində müstəqil bir respublika olması" üçün saxta referendum keçirdilər. Bölgənin azərbaycanlı əhalisi hüquqa zidd olan bu referendumda iştirak etmədi.

1991-ci il dekabrın 21-də Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentləri Alma-Atada bəyannamə imzalayaraq Müstəqil Dövlətlər Birliyinin yaradıldığını elan etdilər. Uzun illər boyu dünyanı qorxu altında saxlayan böyük bir imperiyanın xarabalıqlarında yaranan yeni müstəqil dövlətlər yaranmış şəraiti gələcəklərini qurmaq üçün imkan kimi qiymətləndirir, milli və iqtisadi potensiallarından daha az itki ilə çıxmağa çalışırdılar. Bəziləri isə MDB-yə SSRİ-ni başqa ad altında bərpa etməkdə bir vasitə kimi baxırdılar.

Bu zaman M.Qorbaçov dağılmış ölkənin rəsmi prezidenti olsa da, əslində heç bir səlahiyyət sahibi deyildi. Rusiya ordusu respublika rəhbərliyinin hakimiyyəti altına keçmişdi. Belə bir şəraitdə M.S.Qorbaçov dekabrın 25-də prezident vəzifəsindən istefa verdi.

Yeni yaradılan Müstəqil Dövlətlər Birliyinin möhkəm və mahiyyətinin hələ tam aydın olmaması keçmiş sovet məkanında onsuz da gərgin olan şəraitin normallaşmasına müsbət təsir edə, o cümlədən Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini və təcavüzünü dayandıra bilmədi. MDB-nin qurulması tamamilə yeni ictimai-siyasi şərait yaratsa da. Rusiyadakı müəyyən dairələrin imperiya təfəkküründən imtina etməsinə gətirmədi. Ermənistanda yerləşən keçmiş sovet ordusunun komandirləri silah və sursatları erməni silahlı dəstələrinə verərək onları Azərbaycan əleyhinə silahlandırdılar.

## Ermənistanın təcavüzünü dayandırmaq üçün beynəlxalq səylər. ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti. BMT Təhlükəsizlik Şurasımn qətnamələri

Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi SSRİ- nin dağılması ilə iki müstəqil dövlət arasında açıq müharibəyə çevrildi. Ermənistan əgər əvvəllər Azərbaycanın Dağlıq Qarabağ regionuna gizli olaraq silah və sursat göndərirdisə, bundan sonra açıq şəkildə vertolyotlarla göndərməyə başladı. 1992-ci ilin əvvəllərindən etibarən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü mərhələsi başlandı. Sovet İttifaqının parçalanmasından və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış ictimai-siyasi sabitsizlikdən istifadə edərək xarici hərbi yardımlar alan Ermənistan Dağlıq Qarabağ regionunda qanlı hərbi əməliyyatlara başladı. Ermənistanın hərbi müdaxiləsinin gedişində azərbaycanlıların tarixən yaşadıqları ərazilər bir-birinin ardınca işğal edildi, yaşayış məntəqələri yandırıldı, dinc əhaliyə qarşı amansız terror aktları həyata keçirildi"®".

Azərbaycan rəhbərliyi Ermənistanın təcavüzünü dayandırmaq məqsədi ilə beynəlxalq təşkilatlara üz tutdu. 1992-ci il yanvarın 13-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası yaranmış vəziyyət haqqında BMT-yə müraciət etdi"®^. Müraciətdə BMT Təhlükəsizlik Şurasından Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının dörd ildən bəri davam edən və cəzasız qalan təcavüzünün pislənilməsi xahiş edilirdi. Yazılırdı ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsinin dağlıq hissəsində vəziyyəti sabitləşdirmək, mövcud problemləri Azərbaycan Respublikasının konstitusiyasına, beynəlxalq hüquq normalarına və BMT-nin müvafiq sənədlərinə uyğun surətdə həll etmək üçün Azərbaycan Respublikasının tədbirlər görməsinə baxmayaraq, Ermənistan Azərbaycan ərazisinin bir hissəsini qoparmaq kimi cinayətkar məqsədlə ona qarşı təcavüzü gücləndirməkdə davam edir. Müraciətdə Azərbaycan Respublikasının bəzi

**Ermənistanın Azərbaycana qarşı törətdiyi terror aktları üçün bax: Chronology of terrorist acts commited the course of the Armenia — Azerbaijan conflict. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, Xa 18-19, s. 95-97.**

**BMT-nin Təhlükəsizlik Şurasına müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 yanvar 1992-ci il. - ARXİNA. 1992; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 fevral 1992-ci il. Bakı, 1992, Jfs 3 (856), s. 7.**

ərazilərinin işğal edildiyi, Dağlıq Qarabağın ərazi mənsubiyyəti və bu ərazidə yaşayan ermənilərin öz müqəddəratını təyinetmə hüququ barəsində Ermənistan təbliğatının və beynəlxalq erməni diasporasmın yaydığı uydurmaların tarixi reallıqlara və beynəlxalq birlik prinsiplərinə uyğun gəlmədiyi qeyd edilirdi. Ermənistan rəhbərliyinin silahlı quldur birləşmələrinin Azərbaycan ərazisinə soxulmasına, millətçi ünsürlərin qızışdırılmasma və əhalinin qanuni hakimiyyət orqanlarına tabe olmamağa məcbur edilməsinə, dinc azərbaycanlı əhaliyə qarşı kütləvi terrorçuluq əməlləri törədilməsinə, onun əmlakının məhv edilməsinə, yüzlərlə kişi, qadın və uşağın öldürülməsinə gətirib çıxarmış hüquqa zidd hərəkətləri ilə erməni - azərbaycanlı münaqişəsini qəsdən genişləndirməyə, bu münaqişəni nəinki Yaxın və Orta Şərq bölgəsində, həm də Avropanın cənubunda sülh üçün real təhlükəyə çevirməyə çalışdığı vurğulanırdı. Azərbaycan dövlətinin humanizmə əsaslanaraq və dövlətlərarası ünsiyyətin əsl demokratik prinsiplərinə sadiq qalaraq dəfələrlə Ermənistan rəhbərliyini terror siyasətindən və qonşu dövlətin daxili işlərinə qarışmaqdan əl çəkməyə, danışıqlar prosesinə başlamağa və bütün problemləri dinc yollarla həll etməyə dair çağırışlarına cavabında Ennənistanm Azərbaycan şəhərləri və kəndlərinə qarşı geniş miqyaslı yeni hərbi əməliyyatlar keçirdiyi, mülki əhalini qırdığı, əsir götürdüyü və terror aktları törətdiyi qeyd edilirdi. Dağlıq Qarabağ bölgəsində Ermənistanın qanunsuz hakimiyyət strukturları yaratmaq və Azərbaycan Respublikasının ərazisinin bir hissəsini qoparmağa yönəlmiş fəaliyyətinin təcavüz və dövlət terrorizmi xarakteri daşıdığı vurğulanırdı. Müraciətdə Ermənistanın təcavüzkarlıq siyasətinin törətdiyi təhlükəni dərk edərək, təcavüzün və terrorun qarşısını almaq zərurətini əsas götürərək BMT Təhlükəsizlik Şurası yaranmış vəziyyəti obyektiv qiymətləndirməyə və BMT-nin sənədlərinə uyğun gələn qərar qəbul etməyə çağırılır- dı'^^

Azərbaycan Respublikası təkcə BMT-yə müraciət etməklə kifayətlənmədi. Az sonra, 1992-ci il yanvarın 20-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi AFR-in Moskvadakı səfirliyinə müraciət edərək ATƏM üzvü olan ölkələrin bir neçə gün sonra toplanacaq iclasında iştirak

**Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına müraciəti. 13 yanvar 1992-ci il. - ARXINA. 1992; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 fevral 1992-ci il. Bakı, 1992, Xs 3 (856), s. 7-8.**

etmə məsələsini qaldırdı"'^. Xarici işlər naziri Hüseynağa Sadıqov'* ,,498 yanvarın 22-də Azərbaycan Respublikasının ATƏM iclasında iştirakı barəsində müraciət etdi'*^^. Daha sonra, yanvarın 28-də ATƏM sədri, Çexiya və Slovakiya Federativ Respublikasının xarici işlər naziri Jiri Dienstbierə^" Azərbaycanın bu təşkilata üzvlüyə qəbul edilməsi məsələsinə baxmaq üçün məktub göndərdi^®'. Azərbaycanın müraciətinə baxıldı. Azərbaycan Respublikası yanvarın 30-da ATƏM-ə üzv qəbul edildi. ATƏM Nazirlər Şurasının yanvarın 31-də keçirilən birinci iclasında çıxış edən Hüseynağa Sadıqov Azərbaycanın müstəqilliyinin bərpa edilməsini, yeni dövlətlərin ATƏM-ə üzv qəbul olunmalarını müsbət qiymətləndirdi və Azərbaycanın Helsinki yekun aktını qəbul etdiyini, yeni dövrdə ölkələrin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərinin pozulmazlığının, insan hüquqlarının qo-

**' CSCE Communication No. 27. Prague, 21 January 1992. To the Points of Contact. Letter from Azerbaijan. The attached letter, dated 20 January 1992, from the Representative Plenipotentiary of the Azerbaijan Republic in Moscow to the Chairman-in-Office of the CSCE Council is circulated for the Information of participating States. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**Hüseynağa Sadıqov (1940) - peşəkar Azərbaycan diplomatı. Azərbaycan Dillər Universitetinin alman dili fakültəsini bitirmişdir. Müxtəlif sovet dövlət və partiya vəzifələrdə çalışmışdır. 1974-cü ildə Almaniya Demokratik Respublikasının Leypsiq şəhərində SSRİ konsulluğunda vitse-konsul. Rostok şəhərində SSRİ konsulluğunda konsul, 1988-ci ilin yanvarından 1992-ci ilin may ayınadək Azərbaycan Respublikasının xarici işlər naziri. 1992-ci ilin iyun ayından 2005-ci ilədək Azərbyacan Respublikasının AFR, İsveçrə, Hollandiya və Lüksemburqda fövqəladə və səlahiyyətli səfiri.**

**CSCE Communication No. 30. Prague, 22 January 1992. The attached telex, dated 22 January 1992 from the Minister of Foreign Affairs of Azerbaijan to the Chairman-in-Office of the Council, is circulated for the Information of participating States. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**Jiri Dienstbier (1937-2011) - Çexiya və Slovakiyanın siyasi xadimi, diplomat, jurnalist. Xarici işlər naziri (1989-1992).**

**Minister of Foreign Affairs of Azerbaijan Sadihov G.M. - Foreign Minister of the Czech and Slovak Federal Republic Chairman in Office of the CSCE Council of Ministers Jiri Dienstbier. - OSCE Archive in Prague. 2-nd Ministerilal Council. Journalis 1-2. Prague. 30-31 January 1992. File X223 8; CSCE Communication No. 49 Prague, 28 January 1992.To the Points of Contact Request by Azerbaijan for admission to the CSCE. The attached letter, dated 28 January 1992, to the Chairman of the Prague Council Meeting from the Minister of Foreign Affairs of Azerbaijan, is circulated at the request of the addressee. - OSCE Archive in Prague. Communication. 1992 a.**

runmasının, münaqişələrin hərbi deyil, siyasi yollarla həll edilməsinin vacibliyini vurğuladı. Xarici işlər naziri daha sonra Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başladığı hərbi əməliyyatlar üzərində dayandı, azərbaycanlıların bu respublikadan qovulmasına diqqəti cəlb edərək, Azərbaycan hökumətinin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi və ATƏM ölkələrini Ermənistanın təcavüzünü dayandırmağa səslədi^®^.

ATƏM çərçivəsində Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında başladı. Fevralın 6- da ATƏM regiona nümayəndə heyəti göndərmək barədə qərar qəbul et- di™^ ATƏM Nazirlər Şurasının qərarına uyğun olaraq Çexiya və Slovakiya Respublikasının xarici işlər naziri Karel Şvarçenberg^®" başda olmaqla nümayəndə heyəti fevralın 12-18-də Azərbaycana və Ermənistana səfər etdi^”^ Nümayəndə heyətinin tərkibinə ABŞ-dan Con J. Mareska, Böyük Britaniyadan Lorens O’Keeffe və b. daxil idi.

Respublika rəhbərləri ilə görüşlər keçirən nümayəndə heyəti səfərin yekunlarına dair hesabat hazırladı^®^. Hesabatda 1987-ci ildən etibarən

**BbicrymıeHHe MUHHCxpa UHOCxpaHHMX ÄCJI AsepGanaÄaHCKOH PecnyöJiUKH r.CaabiroBa na aaceaaHnu CoBexa MHHHCXPOB CBCE. Ifpara, 31 HHBapa 1992 roaa. - OSCE Archive in Prague. 2-nd Ministerilal Council. Journalis 1-2. Prague. 30-31 January 1992. FiIeX9238.**

**CSCE Communication No. 64. Prague, 6 February 1992. To the Points of Contact CSCE Rapporteur Mission to Nagomo Karabakh, Armenia and Azerbaijan. The attached two letters from the Chairman-in-Offıce of the Council addressed to Mr. Houssein M. Sadychov and to Mr. Raffı Ovanissian relating to the CSCE Rapporteur Mission to Nagomo Karabakh, Armenia and Azerbaijan, are circulated at the request of the Chairman-in-Office. - OSCE Archive in Prague. Communication. 1992 a; CSCE Communication No. 65. Prague, 6 February 1992. To the Points of Contact CSCE Rapporteur Mission to Armenia, Azerbaijan and Nagomo Karabakh. The attached memorandum, dated 6 Febmary 1992, from the Chairman-in-Offıce of the Committee of Senior Offıcials conceming the above-mentioned Mission, is circulated for the information of participating States. - OSCE Archive in Prague. Communication 1992 a.**

**Karel Şvarçenberg (1937) - Çexiyanın xarici işlər naziri (1992, 2007-2009,** 2010-2011).

**ARXİNA. 2008.**

**Interim Report of the Rapporteur Mission conducted by K. Schwarzenberg - Czechoslovakia. Communication No.79/reissue dated 26.02. 1992). — OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the**

münaqişənin təkamülü, baş verən hadisələr, ayrı-ayrı dövlətlərin mövqeləri və sülh təşəbbüsləri əksini tapmışdı. Sənəddə Ermənistanın təcavüzünü aradan qaldırmaq üçün görüləcək işlər barədə tövsiyələr verilmişdi^°'.

Nümayəndə heyətinin səfəri davam edərkən Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlılar yaşayan Malıbəyli və Quşçular kəndlərini işğal etdi. Təkcə Malıbəyli kəndində 50 nəfər öldürüldü, yaralandı və əsir götürüldü.

ATƏM-in təşəbbüsü Rusiyanı da müəyyən addımlar atmağa sövq etdi. Rusiya Federasiyası 1992-ci il fevralın 20-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etdi. Tərəflər dərhal atəşkəs elan edəcəklərini, blokadaları aradan qaldıracaqlarını, münaqişənin həlli məsələsində ATƏM prinsiplərinə sadiq qalacaqlarını, münaqişənin tənzimlənməsini axtarıb tapmaq, atəşkəs haqqında razılaşma mexanizmlərini və təminatı işləyib hazırlamaq üçün sabit danışıqlar prosesini təmin edəcəklərini bildirdilər^®*.

Lakin Ermənistan yenə də razılaşmanı pozdu. Ermənistanın xarici işlər naziri Raffi Ovanesyan "Dağlıq Qarabağ münaqişəsinin həllinin Ermənistanın deyil, Azərbaycan ilə Dağlıq Qarabağın daxili işləri" olduğunu bildirərək, bundan sonrakı müzakirələrə Dağlıq Qarabağ nümayəndələrinin də qatılmasını tələb etdi. Belə mövqe Ermənistanın təcavüzkarlığını ört-basdır etmək və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ermənilərini danışıqların subyekti kimi tanıtmaq məqsədi güdürdü.

**[Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.2.**

**CSCE Communication No. 79. Prague, 24 February 1992. To the Points of Contact İnterim report on the situation in Nagorno Karabakh. The attached İnterim report on the situation in Nagorno Karabakh, submitted by the CSCE Rapporteur Mission to Armenia, Azerbaijan and Nagorno Karabakh, is circulated for the Information of participating States in view of the Seventh Meeting of the Committee of Senior Officials to be held on 27-28 February 1992. - OSCE Archive in Prague. Communication 1992 a.**

**CSCE Communication No. 82. Prague, 26 February 1992. To the Points of Contact Communi que of Meeting of Ministers of Foreign Affairs of Azerbaijan, Armenia and Russia. The enclosed Communique of the Meeting of Ministers of Foreign Affairs of Azerbaijan, Armenia and Russia in Moscow on 20 February 1992, is circulated at the request of the Russian Federation. - OSCE Archive in Prague. Communication 1992 a.**

**Raffi Ovanesyan (1959) - Ermənistanın xarici işlər naziri (1991-1992).**

Azərbaycanın səylərinə baxmayaraq, Dağlıq Qarabağ regionundakı azərbaycanlılar yaşayan kəndlər bir-birinin ardınca işğal edilərək yandırılır, əhalisi öldürülür, didərgin salınır və girov götürülürdü^Ermənistan müxtəlif silah növlərindən və ağır hərbi texnikadan istifadə edərək işğalı qəddarlıqla genişləndirirdi.

Belə bir şəraitdə İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti^" vasitəçilik missiyası ilə regiona səfər etdi. O, fevralın 25-də Bakıda Azərbaycan rəhbərliyi ilə görüşdü. Daha sonra Yerevana səfər planlaşdırılmışdı. Lakin səfər zamanı Ermənistan silahlı qüvvələri azərbaycanlılara qarşı dəhşətli bir aktı həyata keçirdilər. Xocalıda soyqırım törətdilər.

Qədim insan məskənlərindən biri olan, böyük strateji əhəmiyyət daşıyan Xocalı şəhəri Ağdam - Şuşa, Əsgəran - Xankəndi yolunun üstündə yerləşirdi. Burada Azərbaycanın Dağlıq Qarabağ regionunda yeganə hava limanı var idi. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən blokadaya alınmışdı. Şəhərə gedən bütün avtomobil yollan bağlanmışdı. Əlaqə yalnız vertolyotlarla saxlanılırdı. 1992-ci ilin yanvar ayından etibarən şəhər ilə vertolyot əlaqəsi də kəsilmişdi. Ağır vəziyyət yaranmışdı. Nəhayət, Ermənistan silahlı birləşmələri və Xankəndində yerləşən 366-cı sovet hərbi alayı 7 min nəfər əhalisi olan Xocalı şəhərində mühasirədə olan azərbaycanlı əhaliyə qarşı 1992-ci il fevralın 25-dən 26- na keçən gecə hücuma keçdilər. Şəhər əhalisinə qarşı soyqırım həyata keçirildi^'^. 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, 487 nəfər şikəst edildi. Öldürülənlərin 63 nəfəri azyaşlı uşaq idi^'^. 8 ailə tamamilə məhv edildi. Bu, azərbaycanlılara qarşı əsl soyqırım aktı idi. Xocalıda insanlar yalnız azərbaycanlı olduqları üçün məhv edildilər. Öldürülənlər xüsusi amansızlıqla qətlə yetirilmişdilər.

Xocalıda soyqırım törətməklə Ermənistan azərbaycanlıları qorxutmaq, işğalçılıq niyyətini həyata keçirmək üçün ən qəddar üsullara əl atmağa hazır olduğunu göstərdi. Ermənistanın müdafiə naziri və sonralar prezi-

**In Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Bakı, 2008.**

**Əli Əkbər Vilayəti (1945) - İİR İslam Şurası Məclisinin deputatı (1980-1981). Xarici işlər naziri (1991-1997). Ali rəhbərin müşaviri (1997-ci ildən).**

**Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri, s. 168-195; Historical facts vs. The Armenian Myths. Baku, 2010, S.14.**

**ARXINA. 1994. Qovluq Ko9, v. 29.**

denti olan Serj Sarqsyan^'" Böyük Britaniya jurnalisti Tomas de Vaala verdiyi müsahibəsində etiraf edirdi: "Xocalıya qədər azərbaycanlılar belə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qadir deyillər. Biz bunu (stereotipi) qırdıq.M.Markaryan və S.Markaiyan isə yazırlar ki, Xocalı sakinləri altı mil qət edərək demək olar təhlükəsiz yerə çatmışdılar, lakin əsgərlər onlara çatdılar. Sonra çəkmələrinə bərkidilmiş bıçaqları qablarından çıxarıb adamları doğramağa başladılar^'^.

Xocalının məhv edilməsi ilə hava limanı Azərbaycanın nəzarətindən çıxdı^''. Ermənistandan silah və silahlı dəstələrin gətirilməsi daha da intensivləşdi. Ermənistanı belə cəsarətləndirən Rusiya rəhbərliyində və ordusundakı müəyyən qrupların hərbi, siyasi və mənəvi yardımları idi.

Xocalıda soyqırım Ermənistanın bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayətdir. Bu soyqırım haqqında ABŞ,^'* Türkiyə^'^ və[519]

**Serj Sarqsyan (1954) - Azərbaycan Respublikasının Dağlıq Qarabağ region- nunda azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri. Ermənistanın müdafiə naziri (1993-1995). Milli təhlükəsizlik naziri (1995-1996). Daxili işlər naziri (1996-1999). Müdafiə naziri (2000-2007). Baş Nazir (2007-2008). Prezident (2008-ci ildən).**

**Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan through Peace and War. New York and London, New York University Press, 2003, p.l72.**

**Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American's Fateful Journey to Armenia. London and New York. l.B.Tauris, 2007, p.213.**

**Michael P.Crossant. The Armenian-Azerbaijan conflict, causes and implications. London, Praeger, 1998, p. 78; Svente E. Comell. Turkey ant the conflict in Nagomo Karabakh: A delicate balance. -"Middle East Studies", 1999, January, Xsl, vol. 34, p. 59-60; Kamer Kasım. The Nagomo Karabakh conflict from its inception to the peace process. - "Armenian Studies", Ankara, 2001, June-July-August, *N°2*, s. 172-174.**

**Thomas Golts. Armenian Solidiers Massacre Hunderds of Fleeing families. - "The Sanday Times", 1992, 1 March; Massacre by Armenians. - "The New York Times", 1992, 3 March; Killings Rife in Nagomo Karabakh. - "The Washington Post", 1992, 3 March; Anatol Lieven. Massacre Uncovered. - "The Times", 1992, 3 March; Brian Killen. Attrocity Reports Horrify Azerbaijan. - "The Washington Times", 1992, 3 March; Paul Quinn-Judge. Armenians Killed 1000, Azeris Charge. - "The Boston Globe", 1992, 3 March; Jill Smolowe. Massacre in Khojaly. - "Time", 1992, 16 March.**

**Dünya, bu katliama dur demeli. - "Hürriyet" gazetesi, İstanbul, 1992, 26 Şubat; Ermeni öldürüyör, dünya susuyor. - "Tercüman" gazetesi, İstanbul, 1992, 29 Şubat; Ermeni subaylar ve erler katliama katıldılar. - "Türkiye" gazetesi, İstanbul, 1992, 6 Mart; Ermeni vahşeti lanetleniyor. - "Türkiye" gazetesi,**

digər ölkələrin mətbuat orqanlarında çoxlu məqalələr dərc edildi. Məqalələrdə azərbaycanlıların kütləvi surətdə məhv edilməsi təsvir olunmuşdu.

Azərbaycan hakimiyyətinin Xocalıda baş verənlərin miqyasını xalqdan gizlətmək cəhdləri respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirdi. Ölkə vətəndaşlarının hiddətinin həddi-hüdudu yox idi.

Belə bir şəraitdə, Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovun 1992-ci il fevralın 27-də Moskvada MDB-nin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə qatılmaq barədə sənədi imzalaması Azərbaycanda gərginliyi son həddə çatdırdı. Azərbaycan Respublikası Ali Sovetinin sədri Elmira Qafarova^“° istefa verdi. Bu vəzifəyə Yaqub Məmmədov^^’ seçildi.

Azərbaycan Respublikası Ermənistanın təcavüzünə dair məsələni yenidən ATƏM-in müzakirəsinə çıxardı. ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) fevralın 27-28-də Praqada keçirilən 7-ci iclasında ilk dəfə olaraq Ermənistan - Azərbaycan münaqişəsinin tənzimlənməsinə dair müzakirələr aparıldı. Müvafiq sənəd qəbul edildi^^^. Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsub olmasını təsdiq

**İstanbul, 1992, 8 Mart; Ermeni vahşetine lanet mitingi. - “Zaman” gazetesi, İstanbul, 1992, 6 Mart; Ermeni Dağlık Karabağ’da katliam yapıyor; dünya vahşete seyrçi kalıyor. - “Milli Gazete” gazetesi, İstanbul, 1992, 5 Mart; Ermeniler bir azeri kasabasım ele keçirdi. - “Hürriyet” gazetesi, İstanbul, 1992, 27 Şubat; Hocalı tepeleri ceset dolu. - “Güneş” gazetesi, İstanbul, 1992, 5 Mart; Hocalı’da vahşet. - “Cumhuriyef’ gazetesi, İstanbul, 1992, 2 Mart; İşte, ermeni vahşetinin belgeleri. - “Zaman” gazetesi, İstanbul, 1992, 14 Mart; Soykırımçı ermeni. - “Zaman” gazetesi, İstanbul, 1992, 5 Mart.**

**Elmira Qafarova (1934-1993) - Azərbaycan dövlət xadimi və diplomat. Ali Sovetinin sədri (1990-1992).**

**Yaqub Məmmədov (1941) -tibb elmləri doktoru, professor. 1992-ci il fevral - may aylarında Azərbaycan Respublikası Ali Sovetinin sədri. Ölkə Prezidentinin səlahiyyətlərini icra etmişdir.**

**CSCE Seventh Meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, Journal Jfg 2. - ARXİNA. 1992; 27-28 February (Prague)7* Meeting of the Committee of Senior Officials. Journal No. 2 + Annex & Interpretative statements by Azerbaijan and Armenia. - OSCE Archive in Prague. OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.2.**

edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərtilə münaqişənin sülh yolu ilə tənzimlənməsinə dair çağırış əks edilmişdi^^^.

Lakin Ermənistan bu qərara məhəl qoymadı. Azərbaycan isə Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün səylərini davam etdirdi. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi. Bundan əvvəl Baş Nazir işləmiş Həsən Həsənov Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi vəzifəsinə təyin edildi.

Azərbaycan Respublikasının parlamenti martın 3-də dünya parlamentlərinə müraciət edərək Azərbaycanın ərazi bütövlüyünə qəsd edən, Dağlıq Qarabağ regionunda azərbaycanlıları soyqırıma məruz qoyan Ermənistanın təcavüzünü pisləməyə çağırdı^^^. Müraciətdə Azərbaycanın Ermənistanın açıq təcavüzünə məruz qaldığı, Azərbaycan torpağında günahsız insanların qanının töküldüyü. Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların yaşadığı Xocalı şəhərində baş vermiş soyqırımının orta əsrlərin dəhşətlərini kölgədə qoyduğu, azərbaycanlıların daha bir yaşayış məntəqəsinin yerlə-yeksan edildiyi, şəhərə hücum zamanı dinc sakinlərin, qadın, qoca və uşaqların öldürüldüyü, Azərbaycan xalqına qarşı terror və açıq nifrət hissinin Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırıldığı vurğulanırdı.

Bu zaman artıq Ermənistan silahlı dəstələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlılar yaşayan 30-dan çox kəndi yandırmış, 25 mindən çox adamı ölkəsində tarixi torpaqlarından zorla qovaraq məcburi köçkünə çevirmişdi. Ermənistan, həmçinin bütün Azərbaycan - Er-

^ **Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar, s.** 11-12.

**Həsən Həsənov (1940) - dövlət və siyasi xadim. 1971-1990-ci illərdə partiya işində çalışmışdır. 1990-1992-ci illərdə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri. 1992-1993-cü illərdə BMT-dəki daimi nümayəndə. 1993-1998-ci illərdə xarici işlər naziri. 2004-2010-cu illərdə Azərbaycan Respublikasının Macarıs- tandakı fövqəladə və səlahiyyətli səfiri. 2010-cu ildən Azərbaycan Respublikasının Polşa Respublikasındakı səfiri.**

**riHCbMo nocTOHHHoro npeacxaBHxejifl AsepdafiruKaHa npn OpraHHsauHH OSbeÄHHeHHbix Haımü ox 31 Mapxa 1993 roaa ua HMS npeaceaaxejıa Cosexa BesonacHOCXH. - EacaHOB E. flHCbMO в CoBex BesonacuocxH OOH. 1992-1993, c.73-74.**

**Dünya birliyi dövlətlərinin parlamentlərinə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının müraciəti. 3 mart 1992-ci il. - ARXİNA. 1992; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, 5 (858), s. 8-9.**

mənistan sərhədi boyunca irimiqyaslı hərbi əməliyyatları da genişləndirmişdi. Ermənistanın ümumi təcavüz siyasətinin tərkib hissəsi olan bu hərəkətlərinin başlıca məqsədi Azərbaycan ərazilərini zorakılıqla işğal və ilhaq etmək idi.

ATƏM martın 5-də tərəflərə atəşkəs çağırışı etdi^^^. Lakin Ermənistan çağırışlara məhəl qoymayaraq silahlanmasını artırdı. Azərbaycanda şərait daha da pisləşdi. Martın 6-da xalqın qəti tələbləri ilə Ayaz Mütəllibov istefa verdi^^'. Bundan sonra Yaqub Məmmədov həm də prezident səlahiyyətlərini həyata keçirməyə başladı. Lakin o da Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün səmərəli tədbirlər həyata keçirə bilmədi. Azərbaycanlıların Dağlıq Qarabağ bölgəsindən - tarixi torpaqlarından qovularaq məcburi köçkünə çevrilmələri daha da artdı.

Erməni silahlı dəstələri Ermənistan ərazisində yerləşən bir Rusiya hərbi bazasına 1992-ci il martın 10-da basqın edərək 10 əsgəri girov götürdülər. 5 min Qrad raketi, 5 min top, 5 min tank əleyhinə bomba verilməsi şərti ilə onları azadlığa buraxacaqlarını bildirdilər. Rusiyanın təzyiqindən sonra girovlar azad edildi. Ermənilər istəklərinə çataraq silah və sursat ələ keçirdilər. Yeni silah və sursat əldə edən Ermənistan təcavüzü daha da genişləndirdi.

Belə bir şəraitdə Türkiyə hökuməti Ermənistanın təcavüzünü dayandırmaq üçün bəzi tədbirlər gördü. Türkiyənin Baş Naziri Süleyman Dəmirəl^^* ABŞ Prezidenti Corc Buş və Azərbaycan rəhbərliyi ilə əlaqə saxladı. Daha sonra Türkiyə ATƏM-ə müraciət etdi •529

Hərbi əməliyyatların şiddətləndiyi bir şəraitdə Macarıstan və Finlandiyanın xarici işlər nazirləri də atəşin dayandırılması, münaqişə bölgə-

**CSCE Communication No.89. Prague, 5 March 1992. To the Points of Contact Observers to monitor a cease-fire in Nagorno Karabakh. The attached urgent dispatch from the Chairman-in-Office of the Committee of Senior Officials, dated 5 March 1992, is circulated at the request of the Chairman. - OSCE Archive in Prague. Communication 1992 a.**

**Bakü yönetimi çöktü. - "Cumhuriyet" gazetesi, İstanbul, 1992, 7 mart.**

**Süleyman Dəmirəl (1924) - Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 7 dəfə Baş Nazir olmuşdur. Türkiyə Cümhuriyyətinin 9-cu prezidenti (1993-2000).**

**CSCE Communication No. 96. Prague, 10 March 1992. To the Points of Contact Observers to monitor a cease-fire in Nagorno Karabakh. The attached message, dated 10 March 1992, from the Ministry for Foreign Affairs of Turkey, is circulated at the request of the Chairman-in-office of the Committee of Senior Officials. - OSCE Archive in Prague. Communication 1992 a.**

sinə müşahidəçilərin yerləşdirilməsi və humanitar yardımların çatdırılması məsələlərini həll etmək üçün ATƏM-ə müraciət etdilər^^®.

Ermənistan isə martın 8-də Qazax rayonunu Xeyrimli, martın 12-də Aşağı Əskipara kəndlərini işğal edərək yandırdı.

Azərbaycan tərəfi daha bir addım atdı. 1992-ci il martın 13-də BMT Təhlükəsizlik Şurasına Ermənistanın təcavüzü haqqında müraciət etdi^^'. Müraciətdə Ermənistanın təcavüzü və nəticələri, Xocalıda törətdiyi soyqırımı, BMT nizamnaməsini pozması diqqətə çatdırılır, təcavüzkarı dayandırmaq üçün təcili tədbirlərin həyata keçirilməsi xahiş olunurdu.

Azərbaycan bununla da kifayətlənmədi. Həmin tarixdə dünya birliyi dövlətlərinin parlamentlərinə eyni məzmunlu məktubla müraciət etdi^^^.

BMT baş katibi Azərbaycan Respublikasının müraciətinə baxdı. Cavab olaraq münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün mart ayında xüsusi nümayəndəsi, ABŞ-m keçmiş dövlət katibi Sayrus Vensin”^ rəhbərliyi altında nümayəndə heyətini regiona göndərdi. Nümayəndə heyəti Bakı və Yerevanda oldu. Vəziyyəti öyrəndi. Geri döndükdən sonra səfər barədə BMT baş katibinə məlumat xarakterli hesabat təqdim etdi.

Azərbaycan Respublikası Ermənistanın təcavüzü məsələsini ATƏM-in müzakirəsinə çıxardı. ATƏM-in YVŞK-nm martın 13-14-də

**° CSCE Communication No. 100. Prague, 12 March 1992. To the Points of Contact Observers to monitor a cease-fire in Nagorno Karabakh. The attached message, dated 10 March 1992, from the Ministry for Foreign Affairs of Finland, is circulated at the request of the Chairman-in-Office of the Committee of Senior Officials. - OSCE Archive in Prague. Communication. 1992 a; CSCE Communication No. 101. Prague, 12 March 1992. To the Points of Contact Nagorno Karabakh - Group of eminent persons. The attached massage, dated 10 March 1992, from the Ministry of Foreign Affairs of Hungary, is circulated at the request of the Chairman-in-Office of the Committee of Senior Officials. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına. 13 mart 1992-ci il; Birləşmiş Millətlər Təşkilatına müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 mart 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, Xs 5 (858), s.16-17.**

**Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13 mart 1992-ci il; Dünya birliyi dövlətlərinin parlamentlərinə müraciət. 13 mart 1992-ci il. — Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 mart 1992-ci il. Bakı, 1992, X° 5 (858), s.17-19.**

**Sayrus Vens (1917-2002) - ABŞ dövlət xadimi. Dövlət katibi (1977-1980).**

Helsinkidə keçirilən 8-ci iclasında münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə edildi^^'*. Bundan sonra müvəqqəti atəşkəs yarandı.

Müzakirələrdən bir neçə gün sonra, martın 19-23-də ATƏM-in fəaliyyətdə olan sədri Çexiya və Slovakiyanın nümayəndəsi Yan Kubişin^^^ başçılığı altında nümayəndə heyəti münaqişə bölgəsinə səfər etdi^^^. Səfərdə əsas məqsəd atəşin dayandırılması və ATƏM müşahidəçilərinin münaqişə bölgəsinə yerləşdirilməsi idi. Şəraitlə tanış olan nümayəndə heyəti hesabat hazırladı^^’. Helsinkidə martın 23-də keçirilən YVŞK-nm 9-cu iclasında atəşin dərhal dayandırılması və ATƏM çərçivəsində sülh konfransını keçirmək üçün şərait yaradılması barədə çağırış edildi.

Məsələ ATƏM Xarici İşlər Nazirləri Şurasının iclasında da müzakirəyə çıxarıldı. ATƏM Nazirlər Şurasının martın 24-də Helsinkidə keçirilən əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zamanda münaqişənin ATƏM prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə tənzimlənməsi istiqamətində danışıqlar üçün forumu təmin edəcək ABŞ, Rusiya, Türkiyə, Fransa, İtaliya, Almaniya, Belarus, İsveç, Finlandiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə konfrans çağırmaq qərara alındı, [538] Belə bir fəaliyyətin təşkilində Türkiyə mühüm rol oynadı.

---

**13-14 March (Helsinki) 8th Meeting of Committee of Senior Offıcials. Journal. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.5.**

**Yan Kubiş (1952) - slovak siyasətçisi və diplomat. ATƏT-in baş katibi (1999- 2005). Slovakiyanın xarici işlər naziri (2006-2009).**

**19, 23- 24 March (Helsinki) 9* Meeting of Committee of Senior Offıcials. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.6.**

**CSCE Communication No. 117. Prague, p.t. Helsinki. 24 March 1992. To the Points of Contact. Report of the Second CSCE Mission on Nagorno Karabakh The attached Report of the second CSCE mission on Nagomo Karabakh is circulated for the information of participating. - OSCE Archive in Prague. Comunication 1992 a.**

**CSCE. First Additional Meeting of the Council. Helsinki, 24 March, 1992. - ARXİNA.1992; Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. ATƏM Şurasının birinci əlavə görüşü. Helsinki, 24 mart 1992-ci il. Yekun. - “Diplomatiya aləmi” jurnalı. Bakı, 2003, yanvar-mart, J422, s. 115-116; Tim Porter. Conflict**

Yenicə yaradılmış MDB-nin İcraiyyə Komitəsi Minskdə yerləşdiyi və Belarus hökuməti ölkənin paytaxt şəhərini çağırılması nəzərdə tutulan həmin tədbirə verdiyi üçün ona Minsk konfransı deyilir^^’. ATƏM Nazirlər Şurasının sədrinə atəşin səmərəli şəkildə dayandırılması və yenidən başlanmaması, habelə şəraitin dinc yolla hərtərəfli nizama salınması məqsədi ilə münaqişə bölgəsinə səfər etmək tapşırıldı.

Bir sıra ölkələr, o cümlədən Avstriya Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə atəşkəsdən sonra müşahidəçi göndərməyə və sülhməramlı missiyada iştirak etməyə hazır olduğunu bildirdilər^'”. ATƏM Çexiya və Slovakiya Respublikası Baş Nazirinin müavini, xarici işlər naziri Jiri Dienstbier başda olmaqla nümayəndə heyətini martın 31-dən aprelin 3-dək regiona göndərdi^”. Nümayəndə heyətinin hazırladığı hesabatda münaqişə başladıqdan sonra ötən müddət ərzində baş verən hadisə və proseslər əksini tapmışdı^"*^.

**in Nagorno Karabkh, Abkhazia and South Ossetia. A Legal Appraisal. Cambrigre, Kluwer Law International, 2001, p.83; Summary' of Conclusions from the First Additional Meeting of the Council of Ministers. Helsinki, 24 March 1992. - OSCE Archive in Prague. Nagorno Karabakh. Minsk. 1992 B-1993. II. No 652.**

**ARXİNA.1993. Qovluq N2 20, v.3.**

**CSCE Communication No.l21. Prague, 30 March 1992. To the Points of Contact Observers to monitor a cease-fıre in Nagorno Karabakh. The attached letter, dated 23 March 1992, ffom the Austrian Delegation to the Helsinki Follow-up Meeting, is circulated at the request of the Chairman-in-Offıce of the Committee of Senior Offıcials. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**OSCE Communication No. 130. Prague, 10 April 1992. To the Points of Contact Letter of the Chairman-in-Offıce of the CSCE Council to Ministers of Foreign Affairs of Participating States. The attached letter, dated 7 April 1992, from the Chairman-in-Offıce of the CSCE Council, Mr. Jiri Dienstbier, to Ministers of Foreign Affairs of Participating States, is circulated at the request of the Czech and Slovak Federal Republic. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**30 March to 3 April-Letter (report) by the C-I-0, Jiri Dienstbier, on his visit to Azerbaijan and Armenia. Communication No.l30, dated 10 April). - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.8.**

Belarus Respublikasının xarici işlər naziri Pyotr Kravçenko^'’^ aprelin 3-də müvafiq ölkələrə məktub göndərərək onları Minskə dəvət etdi^'*". Konfransı keçirmək üçün şərait yaratmağa ölkəsinin hazır olduğunu bildirdi.

Bu zaman qonşu İran İslam Respublikası da bəzi sülh təşəbbüsləri ilə çıxış etdi. 1992-ci ilin aprel ayının əvvəllərində İranın təşəbbüsü ilə Rusiya, İran, Azərbaycan və Ermənistan nümayəndələrinin İcevanda keçirilən görüşündə atəşkəsin elan edilməsi haqqında məsələ müzakirə olundu. Tehranda tərəflərin görüşünü keçirmək barədə razılıq əldə edildi.

Lakin aprelin 27-də Ermənistan Qazax rayonunun Barxudarlı və Sofulu kəndlərini işğal edərək yandırdı. Əhali məcburi köçkünə çevrildi.

ATƏM-in YVŞK-nin 1992-ci il mayın 1-də Helsinkidə keçirilən 10-cu iclasında Minsk konfransının təşkili, iclasların keçirilmə şərtləri, sədrin səlahiyyətləri və s. haqqında qərar qəbul edildi^'*^. Qərara əsasən Minsk konfransının reallaşması üçün yaradılan eyni adlı qrup münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə tənzimləndikdən sonra isə məsələnin həllində bitərəf dövlət olduğunu nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətləri toplamalı və yekun sənədi qəbul etməli idi. Minsk qrupunun əsas vəzifəsi müvafiq sənədləri hazırlamaq və xüsusi olaraq Minsk konfransını çağırmaqla münaqişəni aradan qaldırmaq idi. Konfransa hazırlıq məqsədi ilə İtaliya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi, professor Mario Rafaelliyə^'*^ sədr mandatı verildi^'*^.

**Pyotr Kravçenko (1950) - Belarus siyasi xadimi və diplomatı. Belarus Respublikasının xarici işlər naziri (1990-1994).**

**Pyotr Kravchenko, Minister for Foreign Affairs of Belarus to Jan Eliasson. 3 April 1992. - OSCE Archive in Prague. Minsk Conference. File Xs 809.**

**29 April-1 May (Helsinki). lOth Meeting of Committee of Senior Officials. Journal. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the fiSlagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.8-11.**

**Mario Rafaelli (1946) - 1992-1993-cü illərdə ATƏM-in Minsk konfransının ilk sədri.**

**CSCE Communication No. 128. Prague, 7 April 1992.To the Points of Contact. Chairman of the Conference on Nagorno Karabakh Participating States are informed that the Chairman-in-Office of the CSCE Council has appointed professor Mario Rafaelli, Italy, as Chairman of the Conference on Nagorno Karabakh under the auspices of the CSCE. - OSCE Archive in Prague. Communication. 1992 a.**

Mario Rafaellinm səfərinə hazırlıqlar aparılan zaman Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ bölgəsi ilə yanaşı Azərbaycanın Ermənistan ilə sərhəd rayonlarına da hücumlarını davam etdirirdi. Belə ki, may ayının 6-da Ermənistan silahlı qüvvələri Naxçıvan Muxtar Respublikası üzərinə şiddətli hücuma keçərək sərhədboyu yaşayış məntəqələrini top atəşinə tutdu^"*. Muxtar respublikada ağır bir vəziyyət yaranmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyənin Baş Naziri Süleyman Dəmirələ yardım üçün müraciət etdi. S.Dəmirəl də öz növbəsində ABŞ Prezidenti Corc Buş ilə telefonla danışıb vəziyyəti izah edərək dəstək istədi.

Bu zaman Ermənistanın təcavüzünü dayandırmaq üçün Türkiyənin hərbi müdaxiləsi barədə müxtəlif mülahizələr irəli sürülürdü^'*^. Türkiyə hökuməti Naxçıvana edilən hər hansı hücumlara qarşı 1921-ci il martın 16-da imzalanmış Moskva və 1921-ci il oktyabrın 13-də imzalanmış Kars müqavilələrinin şərtlərinə uyğun olaraq cavab veriləcəyini, Naxçıvanın statusunun dəyişdirilməsinə cəhdlər göstəriləcəyi təqdirdə Türkiyənin dərhal müdaxilə edəcəyini bildirdi. Bundan sonra MDB silahlı qüvvələrinin baş qərargah rəisi marşal Y.Şapoşnikov^^® "Azərbaycan - Ermənistan münaqişəsinə üçüncü tərəf qatılarsa üçüncü dünya müharibəsi başlayar" - dedi. Ona sanki cavab olaraq Türkiyənin xarici işlər naziri Hikmət Çə
tin [551] isə "belə fərdi baxışlarla müharibə olmaz" söylədi^^^.

Verilən mandat çərçivəsində mayın 7-də Mario Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə o, regionda sülhün bərqərar olması üçün atəşin uzun müddətə kəsilməsinin, iyun ayının ortalarında keçiriləcək Minsk konfransının çağırılmasının şərtlərinin və iştirakçılarının müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

Belə bir şəraitdə İran İslam Respublikası da vasitəçilik səylərini davam etdirirdi. Əvvəlcədən razılaşdırıldığı kimi, mayın 7-də İran Prezidenti

**KaauMupoB B.H. Mup Kapaöaxy. nocpeflHUHecxBo** PОССНН В **yperyaupoBa-**

[549] **"Milliyet" gazetesi, İstanbul, 1992, 19 Mayıs.**

**Yevgeni Şapoşnikov (1942) - sovet hərbi xadimi. SSRl-nin sonuncu müdafiə naziri. Marşal.**

**Hikmət Çətin (1937) - Türkiyənin görkəmli dövlət və siyasi xadimi. Xarici işlər naziri (1991-1994). TBMM sədri (1997-1999). NATO-nun Əfqanıstanda mülki təmsilçisi (2000).**

**"Milliyet" gazetesi, İstanbul, 1992,21 Mayıs.**

Əkbər Haşemi Rəfsəncaninin^^^ vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov və Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan arasında Tehranda görüş keçirildi. Görüş nəticəsində atəşin dayandırılması, münaqişənin sülh yolu ilə tənzimlənmə
sini nəzərdə tutan Tehran bəyannaməsi imzalandı . Lakin İranın vasitəçilik səyləri yenə də uğursuz oldu. Azərbaycan nümayəndə heyəti vətənə qayıtmamış Şuşa şəhəri üzərinə erməni silahlı dəstələrinin şiddətli hücumu başlandı. Azərbaycan mədəniyyətinin beşiklərindən biri, ərazisi 290 kv.km., əhalisi 50 min nəfərədək olan Şuşa şəhəri mayın 8-də işğal edildi. Şəhər əhalisinin bir qismi öldürüldü, bir qismi isə yaşayış yerlərini tərk etdi. Bununla da Azərbaycanın Dağlıq Qarabağ regionundan bütün azərbaycanlılar qovularaq məcburi köçkünə çevrildilər^^^. Şəhərdəki tarix və mədəniyyət abidələri, məscidlər, kitabxana, klub və məktəblər yerlə-yeksan edildi, qədim əlyazmalar yandırıldı. Şuşanın işğal edilməsi ilə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını başa çatdırdı.

1992-ci il mayın 8-də ABŞ-ın xüsusi nümayəndəsi Con Mareska Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış bu münaqişənin bir tərəfdən öz müqəddəratını təyinetmə, digər tərəfdən isə dövlətin ərazi bütövlüyü məsələsi olduğunu bəyan etdi^^^. ABŞ Dövlət Departamenti bəyanat verərək Ermənistanın adını çəkmədən Dağlıq Qarabağın və Naxçıvanın statusunun təktərəfli qaydada dəyişdirilməsini qəbul etməyəcəklərini bildirdi^^’. Heydər Əliyev yalnız bundan sonra diplomatik səylər nəticə verdiyindən Türkiyənin hərbi müdaxiləsinə ehtiyac olmadığını bəyan etdi. Ermənistan silahlı qüvvələrinin Naxçıvan üzərinə hücumlan dayandırıldı. Türkiyə Naxçıvan əhalisinə yük maşınları ilə humanitar yardım göndərdi.

**Əkbər Haşemi Rəfsəncani (1934) - İran İslam Respublikasının dövlət xadimi. İslam Məsləhət Şurasının sədri (1980-1989). İran Prezidenti (1989-1997).**

**Talıblı S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.**

**ƏxHonojTHTHHecKHe KOHcJmnKTbi** в **SaxaBKasbe:** нх нстокн н **nyxn pemenna. H,eHxp MeÄÄynapoÄHoro paaBHxna** н **KOHcjijmKxojıorHH MepnjıeHflCKHH VHHBep- CHxex. KojijTefl>K Hapx MepnneHÄ. CLUA, 1996, c. 87; Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009, s.28.**

**fiexanbHoe cocxoaHHe neperoBopoB no HaropnoMy Kapaöaxy. Texcx saaBJie- HHe nocjıa Mapecxa. -ARXİNA. 1993. Qovluq XS20, v.2.**

Ermənistan isə işğallarını davam etdirdi. Mayın 11-də Qazax rayonunun Qızılhacılı kəndi işğal edilərək yandırıldı, əhalisi məcburi köçkünə çevrildi.

Şuşanın işğalı Azərbaycanda daxili ictimai-siyasi şəraiti kəskinləşdirdi. Xalq artıq mövcud hakimiyyətə olan inamını itirmiş, daxili çəkişmələr və sonu görünməyən sabitsizlikdən bezmişdi. Xocalıda törədilmiş soyqırımdan sonra prezident vəzifəsindən istefa vermiş Ayaz Mütəllibov mayın 14-də yenidən hakimiyyətə qayıtdı. Bu, ölkədəki vəziyyəti daha da gərginləşdirdi. Azərbaycan Xalq Cəbhəsi 1992-ci il mayın 15-də mövcud hakimiyyəti devirdi. Hadisələrdə 1 nəfər öldü, iki nəfər isə yaralandı. Ayaz Mütəllibov Rusiya hərbi təyyarəsi ilə Moskvaya qaçdı^^*.

Azərbaycanda yaranmış qarışıqlıqdan istifadə edən Ermənistan təcavüzünü daha da genişləndirərək Laçın rayonu üzərinə hucuma başladı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi mayın 14-də ATƏM-ə müraciət edərək Laçın rayonu ətrafında yaranmış ağır vəziyyətə diqqəti yönəltdi və Ermənistanın hücumlarını dayandırmağa çağırdı^^^. Lakin bu səylər bir nəticə vermədi. Dağlıq Qarabağ regionundan kənarda yerləşən və 123 yaşayış məntəqəsi, 1840 kv. km. ərazisi olan Laçın rayonu mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Rayonun təqribən 60 min nəfər əhalisi məcburi köçkünə çevrildi^^®. Beləliklə, bu işğal nəticəsində Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan arasında quru əlaqəsi yaradıldı. Şuşa və Laçın rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Minsk konfransının keçirilməsi yolunda əngələ çevrildi.

Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsini mayın 18- də Azərbaycan Xalq Cəbhəsinin rəhbərlərindən biri İsa Qəmbərov^^' tutdu. O, həmçinin Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini icra etməyə başladı. Xarici işlər naziri Hüseynağa Sadıqov vəzifəsindən azad

**Cefersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993), s. 45.**

**CSCE Communication No. 173. Prague, 14 May 1992. To the Points of Contact Message from Azerbaijan. — OSCE Archive in Prague. Communication. 1992 a.**

**ArpeccHH PecnyönnKH Apıucunu npoxHB A3ep6ana>KaHCKOH Pecny6jiHKH. )foKjıafl no (fıaKTaM arpeccnn npeÄcraBJieHHbiH в MOKayHapoaHbie opranHsauHH. Bany, Man 1994 r. - ARXINA. 1994; ARXİNA. 1994. Qovluq Xo9, v. 36.**

**İsa Qəmbərov (Qəmbər) (1957) - Azərbaycan Respublikası Ali Sovetinin sədri (1992-ci il may - 1993-cü il iyun).**

edildi. Həmin vəzifəyə Azərbaycan Xalq Cəbhəsinin rəhbərlərindən biri olan Tofiq Qasımov^“ təyin edildi.

Bundan sonra da Azərbaycan Respublikası ATƏM ilə əməkdaşlığı davam etdirdi. Mayın 18-də Helsinkidə ATƏM-in YVŞK-nin 11-ci görüşü keçirildi^^^. Görüşdə Azərbaycan, Türkiyə, ABŞ və Ermənistan nümayəndə heyətləri bəyanatla da çıxış etdilər. Azərbaycan təcavüzkarın pislənməsini, Şuşa və Laçının boşaldılmasını, Ermənistana qarşı sanksiyalar tətbiq olunmasını tələb etdi. Ermənistan nümayəndə heyəti çağırışlara məhəl qoymayaraq təqdim edilən qərar layihəsinin əleyhinə səs verdi. Nəticədə konsensus əldə edilmədi. Ermənistanın təcavüzkarlıqdan əl çəkməyəcəyi məlum oldu.

Buna baxmayaraq, gərgin səylər hesabına Mario Rafaellinin sədrliyi ilə iyunun 1-7-də Romada Minsk qrupu çərçivəsində görüşlərin ilk mərhələsi başlandı^^'*. Görüşdə 11 ölkənin - ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Finlandiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələri iştirak edirdilər. Görüşün əsas məqsədi iyunun 23-də açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq idi. Azərbaycan tərəfi atəşkəsin elan olunmasını və səmərəli beynəlxalq nəzarətin qurulmasını təklif etdi^‘'^ Lakin Ermənistanın mövqeyi nəticəsində Roma görüşündə

**Tofiq Qasımov (1938) - 1990-1994-cü illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü. Xarici işlər naziri (1992-ci il may - 1993-cü il 26 iyun).**

**CSCE. Eleventh Meeting of the Committee of Senior Officials. Helsinki, 21 May, 1992, Journal Xs 4. - ARXİNA. 1992; 18-21 May (Helsinki). 11* Meeting of the Committee of Senior Officilas. Journal No. 4. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l 1-12.**

**1 June to 7 July (Rome). Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l2; 1 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. - OSCE Archive in Prague. Roma, 1992, session, 1.2; 4 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. - OSCE Archive in Prague. Roma, 1992, session, 1.2; 5 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. - OSCE Archive in Prague. Roma, 1992, session, 1.2.**

**Proposal of Azerbaijan. 3 June 1992. - OSCE Archive in Prague. Roma, 1992, 1,2 session.**

sənəd qəbul edilmədi. Bununla belə, Minsk qrupu üzvləri toplantı barədə geniş hesabat hazırlayaraq təqdim etdilər^^^.

İyunun 8-də yenidən Helsinkidə Yüksək Vəzifəli Şəxslərin toplantısı keçirildi^^'. İclasda münaqişənin dayandırılması yolları müzakirə olundu. Ermənistan isə buna məhəl qoymayaraq işğallarını davam etdirdi. Həmin gün Qazax rayonunu Yuxarı Əskipara kəndi işğal edilərək yandırıldı.

Belə bir mürəkkəb şəraitdə, 1992-ci il iyunun 7-də Azərbaycanda prezident seçkiləri keçirildi. Azərbaycan Xalq Cəbhəsinin rəhbəri Əbülfəz Əliyev (Elçibəy) Azərbaycan Respublikasının Prezidenti seçildi. İyunun 16-dan etibarən vəzifəsinə başlayan Prezident daha çox Türkiyə və Qərb ölkələri ilə əməkdaşlığa maraq göstərirdi^**. Yeni hakimiyyət işğal olunmuş ərazilərin azad edilməsi üçün səylərə başladı. Azərbaycan hökuməti iyunun 16-da Goranboy rayonu üzərində nəzarətini bərpa etdi. Bundan sonra Ermənistan bir tərəfdən atəşkəs elan edilməsini, digər tərəfdən ABŞ və Rusiyadan Azərbaycan hakimiyyətinə təzyiqlər göstərilməsini, o biri tərəfdən isə Fransadan Dağlıq Qarabağ münaqişəsinin BMT-də müzakirəyə çıxarılmasını xahiş etməyə başladı.

Romada Minsk konfransına hazırlıq üzrə görüşlərin iyunun 15-20-də keçirilən ikinci mərhələsində**® Ermənistan konfransın Şuşa və Laçının

**° Report on the Preliminary Emergency Meeting of the Minsk Group. 12 June 1992. - OSCE Archive in Prague. Minsk Conference. File Jf2809.**

**8-11 June 1992 (Helsinki). 12 th Meeting f the Committee of Senior Officials. Journal No. 2 (Statement & presentation of interim report by Mario Raffaeli). Journal No. 3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l2.**

**Kamer Kasım. Soğuk savaş sonrası Kafkasya. Azerbaycan, Ermenistan, Gürcistan, Türkiye, Rusya, İran ve ABD'nin Kafkasya politikaları, s.21.**

**Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome.Villa Madama. 15 June 1992. Second session. - OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama.16 June 1992. Second session. - OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE.Rome.Villa Madama. 17 June 1992. Second session. - OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome.Villa Madama. 18 June 1992. Second session. - OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 19 June 1992. Second session. —**

işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Ağdərənin də adını daxil etmək təklifini irəli sürdü Azərbaycan tərəfi bununla razılaşmayaraq diqqəti Ermənistanın təcavüzü, Şuşa və Laçının işğalına yönəltdi”', eyni zamanda işğal edilmiş ərazilər azad edildikdən sonra Ermənistan ilə kommunikasiyaları açmağa razılığını bildirdi. Ermənistan görüşlərdə Türkiyənin iştirakını arzuolunmaz hesab etdi. ABŞ nümayəndəsi atəşkəsin elan olunmasını, səmərəli beynəlxalq nəzarət qurulmasını, əlaqələrin yaradılmasını və bütün maraqlı tərəflərin razılığını təklif etdi”^.

Rusiya Federasiyası Xarici İşlər Nazirliyi iyunun 14-də bəyanat verərək beynəlxalq səylərin artdığı bir zamanda şəraitin pisləşməsindən narahatlığını ifadə etdi^^^. Bundan bir neçə gün sonra, iyunun 17-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistanın humanitar dəhliz adı altında Azərbaycanın yeni ərazilərini işğal etməyə hazırlaşdığına dair bəyanat verdi^’'*. ABŞ da hərbi əməliyyatları dayandırmaq və dialoqa başlamaq haqqında iyunun 18-də bəyanat yaydı^’^. Tərəflərə hərbi əməliyyatları dərhal dayandırmaq çağırışı edildi^’^.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi Avropa İttifaqı tərəfindən də mənfi qarşılandı. Təşkilat Azərbaycanın başlıca problemi olan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini əks etdirən bəyanatlarını

**OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 20 June 1992. Second session. - OSCE Archive in Prague. Roma, 1992, 1,2 session.**

**Rome, 19 June 1992. Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. 1992. Proposal of the Armenian Delegation. - OSCE Archive in Prague. File: Roma, 1992, 1, 2 session.**

**Rome, 19 June 1992. Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. 1992. Proposal of the Azerbaijan Delegation. - OSCE Archive in Prague. File: Roma, 1992, 1, 2 session.**

**U.S.Proposal. - OSCE Archive in Prague. File: Roma, 1992, 1,2 session.**

**Statement of the Ministry of Foreign Affairs of the Russian Federation of 14 June, 1992. — OSCE Archive in Prague. File: Roma, 1992, 1, 2 session.**

**Statement of the Minsitry of Foreign Affairs of the Republic of Azerbaijan. 17 June, 1992. - OSCE Archive in Prague. File: Roma, 1992, 1, 2 session.**

**U.S. Department of State Office of the Assistant Secretary/Spokesman For Immediate Release. June 18, 1992. Statement by Margaret Tutwiler/ Spokesman. - OSCE Archive in Prague. File: Roma, 1992, 1,2 session.**

**Resolution of the Preliminary Emergency Meeting of the Minsk Group of the CSCE in Rome. - OSCE Archive in Prague. File: Roma, 1992, 1,2 session.**

1992-ci il mayın 22-də^^’ və iyunun 18-də^’^ verdi. Bəyanatlarda təşkilat döyüşlərin intensivləşməsindən narahatlıq hissi keçirir, güc tətbiq edilməsini pisləyir, əhalinin üzləşdiyi əzab-əziyyətlərdən təəssüflənir, qəbul edilmiş prinsip və öhdəliklərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətləri pisləyir, tərəflərə müraciət edərək təmkinlik göstərməyə, zorakılığa son qoymağa, davamlı atəşkəsə nail olmağa, insan hüquqlarına hörmət etməyə və ATƏM prosesinə konstruktiv töhfə verməyə çağırırdı.

Görüşlərin növbəti mərhələsi iyunun 29-dan iyulun 7-dək^’’ Romada keçirildi. İyulun 1-də Azərbaycan tərəfi Ermənistanın əldə edilmiş razılaşmaları pozduğunu diqqətə çatdırdı^*®. Uğursuz olmasına baxmayaraq, Minsk qrupu iyulun 3-də atəşi 60 gün müddətində dayandırmaq üçün ça-

**' Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyantı. Brüssel, 22 may 1992-ci il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, JI26, s.135.**

**Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 18 iyun 1992-ci il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, ffeö, s.135.**

**Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 29 June 1992. Third session. - OSCE Archive in Prague. CSCE; Preliminary Emergency Meeting of the Minsk Group of the CSCE. Rome, Villa Madama. Third Session, June/July 1992. - QSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 30 June 1992. Third session. — OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 1 July 1992. Third session. - OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 2 July 1992. Third session. - OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 3 July 1992. Third session. - OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 4 July 1992. Third session. - OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 6 July 1992. Third session. — OSCE Archive in Prague. CSCE.**

**CSCE C5CE/RM.4. Rome, 1 July 1992. Emergency Preliminary Meeting of the Minsk Group. Rome. 1992. Proposal of the Azerbaijan Delegation. - OSCE Archive in Prague. CSCE.**

ğırış etdi^*'. Bu məqsədlə təxmini tədbirlər cədvəli layihəsi hazırlanaraq tərəflərə təqdim olundu^*^. İyulun 9-da bununla bağlı daha bir görüş keçirildi^*^. Lakin Ermənistan layihəni qəbul etmədi. Bununla belə, ATƏM-in Helsinki sammitinin açılışı ərəfəsində iyulun 9-dan etibarən 30 gün ərzində hərbi əməliyyatlar dayandırıldı. Bu, Minsk qrupunun konkret əhəmiyyətli addımı idi.

Bu zaman Avropanın siyasi həyatında mühüm bir hadisə baş verdi. 1992-ci il iyulun 9-10-da Finlandiyanın paytaxtı Helsinkidə ATƏM üzvü olan ölkələrin dövlət və hökumət başçılarının birinci zirvə görüşü keçirildi**"*. Zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin məruzəsində dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın Avropaya inteqrasiya xətti götürdüyü, demokratikləşdirmə siyasəti yürütdüyü qeyd olunur və Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması tələb edilirdi***. Görüşdə ATƏM-in Minsk konfransının sədri Mario Rafaellinin məruzəsi dinlənilərək qəbul edildi və münaqişənin nizama salınması istiqamətində səyləri artırmaq tövsiyə olundu***. Lakin münaqişənin həllinə dair heç bir sənəd qəbul edilmədi.

Belə görüşlərdə iştirak etməklə yanaşı olaraq Ermənistan hücumlarını davam etdirirdi. Bu zaman Ermənistan Respublikası Ali Soveti Dağlıq

**Appeal by the Minsk Group of the CSCE for an Interruption of military activities. - OSCE Archive in Prague. File; Roma. August, 1992. Minsk Group; Minsk Group Talks on Nagomo Karabakh. Dispatch. Vol. 3, İfa 32, August 10, 1992. - United States Information Service.**

****^ ARXİNA. 1993. Qovluq Xo22, v. 16- 18.**

***** 9 July 1992 (Helsinki) •- 14* Meeting of the Committee of Senior Officials. Journal. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p. 12.**

**Helsinki, 9-10-th July, 1992. - OSCE Archive in Prague. Helsinki summit. File Jfo 211,212, 213.**

**İntervetion by Abulfaz Elchibey, President of the Azerbaijan Republic at the Meeting of heads of CSCE participating States. Helsinki, 9-10 July, 1992. - OSCE Archive in Prague. Helsinki summit. File Jfe213.**

**CSCE Communication No. 214. Prague, 14 July 1992. To the Points of Contact Interim Report by the Chairman of the Minsk Conference on Nagorno Karabakh. The attached unofficial translation of the Interim Report by the Chairman of the Minsk Conference on Nagorno Karabakh, Mr. Mario Raffaelli, distributed on 9 July 1992 at the CSCE-Summit in Helsinki, is circulated at the request of Italy.- OSCE Archive in Prague. Communication.1992 a.**

Qarabağ bölgəsinin Azərbaycan tərkibində göstərildiyi heç bir qərarı qəbul etməyəcəyi barədə sənəd qəbul etdi. Cavab olaraq Azərbaycan Respublikası Milli Məclisi 1992-ci il iyulun 15-də dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsip və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında qərar qəbul etdi. Qərarda yazılırdı ki, Ermənistan Respublikasının Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə qəsd etməyə bir daha cəhd göstərmişdir^*^. Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasında qondarma "Dağlıq Qarabağ Respublikasını" və onun əhalisini müdafiə edən qərarlar qəbul etməsi mövcud olmayan qurumu "tanımaq", iki xalq arasında cəbhələşməni gücləndirmək, Ermənistan Respublikasının təcavüzünə və Azərbaycan ərazisinin bir hissəsini işğal etməsinə haqq qazandırmaq yolunda bir addım idi. Ermənistan Respublikası parlamentinin bu hərəkəti Azərbaycan Respublikasının konstitusiyasını, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktını kobudcasına pozmaq, dövlətlərarası münasibətlərdə hamıhq- la qəbul olunmuş beynəlxalq hüquq prinsip və normalarını bilərəkdən tapdalamaq idi. Bu, Azərbaycan ilə Ermənistanın qarşılıqlı münasibətlərində sülhə və razılığa gəlmək yollarının axtarışını pozmağa yönəldilən siyasi fitnəkarlıq idi. Ermənistan parlamentinin qərarı bölgə hüdudlarından çox- çox kənara çıxırdı. Ermənistan Respublikası Ali Sovetinin qərarı dünya birliyinə meydan oxuması, ümumavropa prosesi çərçivəsində üzərinə götürdüyü öhdəliklərə məhəl qoymaması demək idi. Milli Məclisin qərarında Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasının qərarı Azərbaycan Respublikasının dövlət suverenliyinə və ərazi bütövlüyünə qəsd, Azərbaycan xalqının milli mənafelərinə qarşı düşmənçilik əməli kimi qiymətləndirilir, hüquqi baxımdan tamamilə əsassız olduğu qeyd edilirdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə Ermənistan Respublikası Ali Sovetinin növbədənkənar iclasında konstitusiyaya zidd qərar qəbul olunduğunu və Ermənistan Respublikasının üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərini pozduğunu müvafiq beynəlxalq təşkilatların, ATƏM iştirakçısı olan dövlətlərin nəzərinə çatdırmaq tapşırıldı. Ermənistan Respublikası Ali Sovetinin hərəkəti ilə əlaqədar olaraq ATƏM iştirak-

**' Dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsiplərinin və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı.15 iyul 1992-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 iyul 1992-ci il. Bakı, 1992, Xs 13 (866), s. 17-18.**

ÇİSİ olan dövlətlərin parlamentlərinə və ATƏM iştirakçısı olan dövlətlərin Parlament Assambleyasına müraciət barədə qərar qəbul edildi.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistanın təcavüzü nəticəsində yaranmış humanitar fəlakət haqqında iyulun 22-də nota verdi^^*. Bundan bir neçə gün sonra, iyulun 27-də isə Azərbaycan parlamenti ATƏM-ə müraciətlə Ermənistanın işğalçılıq siyasətinə diqqəti cəlb edərək hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarını pozduğunu bildirdi^*^.

ATƏM-in vasitəçiliyi ilə iyulun 31-dən avqustun 4-dək Romada keçirilən görüşdə Azərbaycan Ermənistanın təcavüzünün genişlənməsini, azərbaycanlılara qarşı törətdiyi soyqırımı önə çəkdi, yeni təklifləri Minsk qrupunun mandatından geri çəkilmək kimi qiymətləndirdi^^^^. Görüşdə sülh təşəbbüslərinin edilməsinin vacibliyi bildirildi^^’. M.Rafaelli hərbi əməliyyatları dayandırmaq üçün tərəflərə çağırış etdi.

Bundan sonra, avqustun 7-8-də Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin görüşü keçirildi. Görüşdə hərbi əməliyyatların dayandırılması məsələsi müzakirə edildi. Təqdim edilən layihəyə görə, Azərbaycan və Ermənistan sərhədinin 300 km. hissəsində atəş dayandırılır, Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrindən ibarət qarışıq komissiya yaradılır, ATƏM müşahidəçiləri dəvət edilirdi.

**CSCE Communication No. 222. Prague, 27 July 1992. To the Points of Contact. Note Verbale of the Ministry of Foreign Affairs of Azerbaijan conceming the resource list of the humanitarian dimension mechanism, and - Letter of the Director of the ODIHR to the Ministry of Foreign Affairs of Azerbaijan The enclosed Note Verbale dated 22 July 1992 from the Ministry of Foreign Affairs of Azerbaijan to the ODIHR in Warsaw conceming the resource list of the human dimension mechanism and the reply dated 27 July 1992 ffom the Director of the ODIHR are drculated at the request of the ODIHR. - OSCE Archive in Prague. Communication 1992 a.**

**CSCE Communication No. 221. Prague, 27 July 1992. To the Points of Contact Position taken by the National Parliament of the Republic of Azerbaijan. The attached position taken by the National Parliament of the Republic of Azerbaijan about "the gross violation of general principles and standards of International relations by the Parliament of Armenia" is circulated at the request of Azerbaijan. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**Azerbaijan. 2 August 1992. - OSCE Archive in Prague. CSCE.**

**Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome, Villa Madama, 1 August 1992. Fourth session. - OSCE Archive in Prague. CSCE.**

Saziş layihəsi Azərbaycana və Ermənistana göndərildi. Lakin sənəd imzalanmadE^^.

Buna baxmayaraq, səylər davam etdirildi. Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə 1992-ci il avqustun 27-də Alma-Atada Azərbaycan, Ermənistan və Qazaxıstan xarici işlər nazirlərinin görüşü keçirildi. Görüşdə əsas məqsəd atəşkəsin elan edilməsi, Azərbaycan və Ermənistan rəhbərlərinin yüksək səviyyədə görüşünün keçirilməsi üçün hazırlıqlara başlamaq idi. Görüşün yekununda birgə bəyanamə imzalandı^^^. Münaqişə edən tərəflər sentyabrın l-dən etibarən hərbi əməliyyatları 60 gün ərzində dayandımıağa hazır olduqlarını bildirdilər^^".

Sənəddə nəzərdə tutulanların yerinə yetirilməsinə dair sentyabrın 3-də İcevan protokolu imzalandı^'*^. Protokolun yerinə yetirilməsi üçün Azərbaycan və Ermənistan işçi qrupları arasında sentyabrın 14-16-da Alma-Atada görüş keçirildi. Lakin bu görüş də nəticəsiz oldu. Keçirilən görüşlərdən fasilə kimi istifadə edən Ermənistan Laçın yolu ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna hərbi sursat və silah gətirilməsini artırdı. Beləliklə, Azərbaycan, Ermənistan və Qazaxıstan prezidentlərinin sammitinin keçirilməsi baş tutmadı.

Yüksək Vəzifəli Şəxlər Komitəsinin sentyabrın 16-18-də Praqada keçirilən iclasında hərbi əməliyyatların dayandırılması üçün müzakirələr keçirildi^®®. ATƏM-in Minsk konfrasının sədri hesabat hazırladı597

^ KasHMHpoB **B.H.** Mup Kapaöaxy. HocpejiHHHecTBO PoccHH B yperyaupoBaHHH uaropHO-KapaöaxcKoro KOHcJijiHKTa, **c.54.**

**CSCE Communication No. 264. Prague, 8 September 1992. To the Points of Contact Memorandum of the Foreign Ministers of Azerbaijan, Armenia and Kazakhstan. The attached Memorandum of the Ministers for Foreign Affairs of the Republic of Azerbaijan, the Republic of Armenia and the Republic of Kazakhstan concerning their meeting in Alma-Ata on 27 August 1992, is circulated at the request of the Chairman in-Office. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər), s. 101-102.**

**Yenə orada, s. 162.**

**16-18 September (Prague). 16* Meeting of the Committee of Senior Officials. Journal No. 3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l3.**

**CSCE Communication No. 279. Prague, 15 September 1992. To the Points of Contact Report of the President of the Minsk Group. The attached report of the**

Bundan sonra Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə sentyabrın 19-da Soçidə Azərbaycan, Ermənistan və Gürcüstan müdafiə nazirlərinin görüşü keçirildi. Razılaşmaların nəticəsində sentyabrın 25-dən etibarən atəşkəsə dair saziş imzalandı. Buna görə, Ermənistan ilə Azərbaycan arasında sərhəddə və Dağlıq Qarabağ regionunda iki ay müddətində bütün hərbi əməliyyatlar üzərinə moratorium qoyulurdu. Bütün silah növlərinin və silahlı dəstələrin mərhələli şəkildə geri çəkilməsi nəzərdə tutulurdu. Bunun mexanizminə və həyata keçirilməsi üzərində nəzarətə dair protokol hazırlanmalı idi^®^. Lakin Ermənistan bu sazişi də pozdu. Digər tərəfdən aralarında fikir ayrılığı olduğundan Rusiya XİN Müdafiə Nazirliyinin bu təşəbbüsünü bəyənmədi.

BMT baş katibi isə 1992-ci il oktyabrın 1-də Azərbaycana və Ermənistana faktları müəyyənləşdirmək üçün missiya göndərdi^'^. Missiya səfəri barədə hesabat hazırlayaraq baş katibə təqdim etdi.

Oktyabrın 7-də Azərbaycan Respublikası Milli Məclisi ölkənin Müstəqil Dövlətlər Birliyinə daxil olmasının əleyhinə səs verdikdən sonra Rusiya Ermənistana etdiyi yardımları daha da artırdı. Azərbaycan isə ATƏM ilə əməkdaşlığa üstünlük verdi.

Oktyabr ayının ortalarında Finlandiya generalı başda olmaqla münaqişə zonasına göndəriləcək beynəlxalq müşahidəçilərin formalaşdırılması layihəsi hazırlandı®®". Bu layihə müzakirələrdən sonra bəyənildi®"'.

**President of the Minsk Group dated Rome 16 September 1992 is circulated at the request of the Chairman of the Minsk Conference on Nagorno Karabakh under the auspices of the CSCE. - OSCE Archive in Prague. Communication. 1992 a.**

KasHMHpoB **B.H.** Mııp Kapaöaxy. nocpeÄHHHecxBO POCCHH B yperyjmpoBa-HHH Haropno-KapaöaxcKoro **KoncjiJiHKTa,** c.57.

Byrpoc Byrpoc Eaım. floKJiaa o paöoxe oprannsauMH sa nepHoa c copoK **ceflbMoü ao** copoK BocbMOH **ceccuH** EeHepajibHOH AccaMÖJien. CeuxHÖpb **1993.** HbK)-HopK, **1993,** C. **148.**

**CSCE Communication No. 305. Prague, 20 October 1992. To the Points of Contact Draft Plan for a CSCE Monitoring Mission to Nagorno Karabakh (MfNAK). The enclosed Draft plan for a CSCE Monitoring Mission to Nagorno Karabakh, prepared by Lt. Col. Heikki Happonen, Head of the CSCE Advance Monitoring Group to Nagorno Karabakh, is circulated at the request of the Chairman-in-Office. - OSCE Archive in Prague. Communication. 1992 a.**

**9 October-Draft Plan for CSCE Monitoring Mission to Nagorno Karabakh (MfNAK) by Col. H. Happonnen (Communication No. 305, dated 20 October 1992). - OSCE Archive in Prague. Decisions, adopted texts and background**

YVŞK-nin noyabrın 5-7-də keçirilən iclasında isə Minsk qrupu çərçivəsində danışıqları fəallaşdırmaq tövsiyə edildi^^.

Azərbaycan, Ermənistan, Rusiya, ABŞ və Türkiyə nümayəndələrinin ("beşlər") 1992-ci il noyabrın 7-9-da Cenevrədə keçirilən görüşündə ATƏM müşahidəçilərinin mandatı və tədbirlər qrafiki müəyyənləşdirildi. Lakin bunu saya salmayan Ermənistan hərbi əməliyyatları davam etdirdi. Ona görə də ATƏM ölkələri Nazirlər Şurasının 1992-ci il dekabrın 14-15- də Stokholmda®"^ keçiriləcək üçüncü görüşü ərəfəsində, dekabrın 12-də Minsk qrupu üzvlərinə məktub göndərən Azərbaycan Respublikasının xarici işlər naziri Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etdiyini, sərhədlərini pozduğunu, hərbi əməliyyatları genişləndirərək yeni əraziləri zəbt etdiyini vurğulayaraq sual etdi: "Belə şəraitdə Minsk qrupu sülh səylərini davam etdirə bilərmi?"®"'*. Məktub alındıqdan bir neçə gün sonra, dekabrın 14-də Stokholmda keçirilən görüşdə iştirak edən Ermənistan nümayəndə heyəti də sanki cavab məktubu göndərərək Azərbaycan tərəfinin sərhəddə yerləşən kəndləri bombardman etdiyi və Ermənistanı blokadada saxladığı barədə uydurma məlumatlar verdi®"®. Müraciətlərin müzakirəsindən sonra ATƏM iştirakçısı olan ölkələrin Nazirlər Şurası Mario Rafaelliyə Minsk qrupunun səylərini davam etdirməyi tövsiyə etdi®"®.

Mario Rafaelli 1993-cü il yanvarın 5-8-də Moskvada "beşlər"in iştirakı ilə görüş keçirdi. O, yanvarın 1 O-dan etibarən hərbi əməliyyatların

**documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l3.**

**5-7 November (Prague) 17* Meeting of the Committee of Senior Officials. Journal No. 2. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p. 13-14.**

**14-15 December 1992 (Stockholm). 3'^® Council of Ministers of Foreign Affairs. — OSCE Archive in Prague. CSCE. 3-nd Ministerial Council. Stokholm, 14-15 December, 1992. Statements. File J42244,**

**Letter of the minister of foreign affairs of the Azerbaijan Republic to the Minsk Group. 12 December, 1992. - OSCE Archive in Pragua..**

**Delegation of Armenia. Stokholm Meeting of the CSCE foreign ministers. December 14, 1992. - OSCE Archive in Pragua. CSCE. 3-nd Ministerial Council. Stokholm, 14-15 December, 1992. Statements. File 142244.**

**Summary of conclusions of the Stokholm Council Meeting. Shaping of New Europe-the role of the CSCE. Stokholm, 15 December, 1992. - OSCE Archive. CSCE. 3-nd Council. Stokholm, 14-15 December, 1992. Statments. File 142244.**

dayandırılmasına və martın 9-da Minsk konfransının açılmasına dair tədbirlər layihəsini hazırladı®®^. Layihəyə görə, münaqişənin tənzimlənməsi prosesi beş mərhələdə həyata keçirilməli, hərbi gərginlik aşağı salınmalı və tərəflər Minsk konfransında problemin tam həlli üçün danışıqlara başlamalı idilər. Mario Rafaelli Ermənistan və Azərbaycan arasında sülh sazişinin, onu həyata keçirmək üçün təqvimin,®”* həmçinin ümumi sülh proqramının layihələrini də hazırladı.®”” Ümumi sülh proqramının layihəsinə görə, problem yeddi mərhələdə həll edilməli idi.

Bu zaman, yanvarın 13-də Moskvada səfərdə olan ABŞ Prezidenti Corc Buş və Rusiya Prezidenti Boris Yeltsin imzaladıqları birgə bəyanatda Azərbaycanın Dağlıq Qarabağ regionunda və Ermənistan - Azərbaycan sərhədində gedən döyüşlərdən narahat olduqlarını ifadə edərək münaqişənin Minsk prosesi çərçivəsində həllinin vacibliyini vurğuladdan Azərbaycan tərəfi bəyanata müsbət yanaşdı. Ermənistan isə hücumlarını davam etdirərək fevralın 6-da Ağdərənin iki böyük kəndi olan Sırxavənd və Çaldıranı işğal etdi. Bir müddət keçmiş daha 6 kənd işğal olundu.

Mario Rafaelli Ankara, Bakı, Yerevan və Moskvaya, sonra isə ATƏM-in fəaliyyətdə olan sədri ilə görüşmək üçün Stokholma səfərlər etdi. “Beşləf’in fevralın 22-də Romada keçirilən görüşü Minsk qrupunun toplanması üçün zəmin yaratdı. 1993-cü il fevralın 26-dan martın 1-dək Romada Mario Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə görüş keçirildi. Görüşdə aşağıdakı məsələlər barəsində razılıq əldə edildi: ATƏM müşahidəçiləri missiyası atəşkəs dayandırıldıqdan dərhal sonra regiona göndərilməli; missiyanı hazırlamaq üçün ATƏM-in ekspertlər qrupu göndərilməli; atəşin dayandırılması müddəti, müşahidəçilər missiyasının işə başlaması və Minsk konfransının rəsmi açılışı ilə bağlı maddələr də daxil olmaqla sülh prosesinin konkret sənədləri barədə saziş imzalamaq üçün Minsk qrupunun aprel ayında daha bir görüşü keçirilməli idi®”’. Bu, atəşin dayandırılması və münaqişənin dinc yollarla həlli istiqamətində atılan bir addım idi.

Roma görüşü keçirilərkən Türkiyənin xarici işlər naziri Hikmət Çətin martın 1-də Moskvaya səfər edərək Rusiyanın xarici işlər naziri An-

' **ARXİNA. 1993. Qovluq Xe 22, v. 21-30.**

**Yenə orada, v. 30.**

BceoÖTjeMjnomaa MHpHaa nporpaMMa. nepBbiü HeocjiHUHajiHbiH npoexT ne HMeıomHÜ craryca. - **ARXİNA. 1993. JV2 22, v. 31-39.**

**ARXİNA. 1993. Qovluq Xs20, v.l.**

drey Kozırev^" ilə görüşdü. Danışıqlar zamanı Hikmət Çətin Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyə və Rusiyanın əməkdaşlıq etməsinin faydalı olduğunu, hər iki ölkənin bu regionda təhlükəsizlik üçün xüsusi məsuliyyət daşıdığını bildirdi və qarşılıqlı fəaliyyətini hansısa formada qurmağı təklif etdi. O, münaqişənin ekspertlər səviyyəsində tənzimlənməsinə az ümid edir, hər iki ölkənin rəhbərlərinin siyasi nüfuzuna üstünlük verirdi. Andrey Kozırev bu təkliflərlə razılaşdı, Rusiya - Türkiyə təşəbbüsünün tezliklə həyata keçirilməsi üçün planın hazırlanmasına dair Rusiya XİN-ə tapşırıq verdi. Hikmət Çətin Moskvadan sonra Bakıda danışıqlar apararaq Ankaraya döndü. Azərbaycan tərəfi Rusiya və Türkiyənin təşəbbüsünü bəyəndi. Süleyman Dəmirəl martın 8-də Ermənistan Prezidenti Levon Ter-Petrosyan ilə uzun bir telefon söhbəti edərək Azərbaycan ərazilərinin işğalını dayandırmağı tələb etdi.

ABŞ isə Kozırev - Çətin təşəbbüsünün məqsədəuyğunluğuna şübhə edirdi. ABŞ dövlət katibi Uorren Kristofer^'^ martın 10-da Hikmət Çətinə telefon edərək bu barədə fikirlərini bildirdi. Əslində Kozırev - Çətin təşəbbüsü Minsk prosesini pozmağa deyil, ona yeni impuls verməyə, ilk növbədə atəşi dayandırmağa yönəlmişdi. Türkiyə ABŞ-ın da bu təşəbbüsə qoşulmasını istəyirdi. Belə bir vaxtda Türkiyənin Baş Naziri Süleyman Dəmirəl, Baş Nazirin müavini Ərdal İnönü,^’^ xarici işlər naziri Hikmət Çətin ABŞ-ın Ankaradakı səfiri Richard Barkley ilə bir saata yaxın görüşərək Ermənistan ilə Azərbaycan arasında sülhün şərtlərini müzakirə etdilər. Onlar sülh planının layihəsini hazırladılar. Bu layihə Ankaraya səfər edəcək Rusiya nümayəndə heyəti ilə müzakirə edilməli, daha sonra Levon Ter-Petrosyana verilməli idi. Layihəyə görə, atəşkəs elan edilir; erməni silahlı qüvvələri geri çəkilir; Azərbaycan ilə Ermənistanın ərazi bütövlüyü təminat altına alınır; hər iki ölkə bir-birinin daxili işlərinə qarışmaqdan imtina edir; Türkiyə, Rusiya, ABŞ və Fransa başda olmaqla Minsk konfransına qatılan ölkələr müqaviləyə təminat verirdilər^"".

Layihənin həyata keçirilməsi Rusiyanın davranışından asılı idi. Bu zaman Rusiya Prezidentinin Dağlıq Qarabağ münaqişəsi üzrə səlahiyyətli

**Andrey Kozırev (1951) - Rusiya Federasiyası Dövlət Dumasının çağırış və 2-ci deputatı. Xarici işlər naziri (1990-1996).**

**Uorren Kristofer (1925-2011) - ABŞ dövlət katibinin müavini (1977-1981). Dövlət katibi (1993-1997).**

**Ərdal İnönü (1926-2007) - Türkiyənin görkəmli dövlət və siyasi xadimi. Baş Nazirin müavini (1991-1993). Xarici işlər naziri (1995).**

**“Milliyet” gazetesi, İstanbul, 1993, 9 Mart.**

nümayəndəsi Vladimir Kazimirov^’^ Ankaraya səfər edərək məlum təşəbbüsün həyata keçirilməsi planını müzakirə etdi. Plana görə, atəşkəs elan edilməli, Ermənistan ilə Azərbaycan arasında sərhəddə münaqişəyə yol verilməməli, Minsk qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə başlanılmalı, Ermənistan və Azərbaycan prezidentlərinin birgə bəyanatı verilməli idi. Lakin plan baş tutmadı.

Bu zaman, 1993-cü il martın 16-da Rusiya Federasiyası və Fransa Respublikasının prezidentləri birgə bəyanatla çıxış etdilər^'^. Onlar milyonlarla erməni və azərbaycanlıya bədbəxtliklər gətirmiş münaqişənin tezliklə həllinə səylər etdiklərini, hərbi əməliyyatlardan narahatlıq hissi keçirdiklərini, sülh, xalqların qanuni hüquq və azadlıqlarına hörmət edilməsinə, münaqişələrin dinc siyasi vasitələrlə tənzimlənməsinə tərəfdar çıxdıqlarını bildirərək tərəfləri dialoqa çağırdılar. Bəyanatda Minsk qrupunun səyləri müdafiə olunur və tərəflərə hərbi əməliyyatları dayandırmaq təklifi edilirdi.

Minsk qrupunun 1 mart tarixli qərarına uyğun olaraq YVŞK-nin Vyana qrupu martın 25-də hazırlıq missiyasının Azərbaycana səfəri barədə qərar qəbul etdi®*’.

Lakin Ermənistan atəşi dayandırmaq haqqında çağırışlara məhəl qoymayaraq Dağlıq Qarabağ regionunun ətrafındakı Azərbaycan ərazilərinin işğalını davam etdirirdi. Ermənistan silahlı qüvvələri Vardenis rayonu ərazisindən Kəlbəcərə zərbələr endirərək hücuma keçdi. Aramsız hücumlar nəticəsində Kəlbəcər rayonu ətrafında ağır vəziyyət yarandı. Hücumu dayandırmaq məqsədi ilə Azərbaycan Respublikası BMT-yə müraciət etdi. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi Həsən Həsənov martın 31-də BMT Təhlükəsizlik Şurasının sədrinə Kəlbəcər rayonunda yaranmış faciəli vəziyyətlə bağlı məktub göndərdi®'*.

**Vladimir Kazimirov (1929) - Rusiya diplomatı. Kosta Rika (1971-1975), Ve- nesuela, eyni zamanda Trinidad və Tobaqoda (1975-1980) səfir. XİN-də I Latın Amerikası şöbəsinin müdir müavini, müdiri. 1992-1996-cı illərdə Rusiya Federasiyası Prezidentinin Dağlıq Qarabağ münaqişəsi üzrə səlahiyyətli nümayəndəsi və Minsk qrupunun Rusiya tərəfindən həmsədri. 1996-cı ilin iyulundan Rusiyanın Kosta Rika və Qvatemala respublikalarında fövqəladə və səlahiyyətli səfiri. 1999-cu ildən təqaüdə çıxmışdır.**

**ARXİNA. 1993. Qovluq Xs 22, v. 64.**

**ARXİNA. 1993. Qovluq Xo22, v. 85-86.**

riHCbMO nocToaHHoro npeÄCTaBHxeaa A3ep6aÜA>KaHa **npn OpraHHsauHU 06'beÄHHeHHbix Haıturi** OT **31 Mapxa 1993 roaa ua** HMH **npeflceÄaxejıa CoBexa**

Azərbaycan Respublikası aprelin 1-də dünya ölkələrinin parlamentlərinə, Avropa Parlamentinə, ATƏM və BMT-yə müraciət etdi*‘’. Müraciətdə Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin yeni mərhələ- yə-açıq işğalçılıq mərhələsinə keçdiyi göstərilir və təcavüzkara münasibətin bildirilməsi xahiş edilirdi. Müraciətlərə məhəl qoymayaraq təcavüzünü davam etdirən Ermənistan 1993-cü il aprelin 2-də Kəlbəcər rayonunu işğal etdi. Rayon ərazisində kütləvi qırğın törədildi®^®. Yüzlərlə adam əsir alındı və itkin düşdü. 3050 kv. km. ərazisi və 150 yaşayş məntəqəsi olan Kəlbəcərin işğalı ilə təqribən 62 min adam məcburi köçkünə çevrildi^^'. Onların arasında azərbaycanlılarla yanaşı ruslar, ukraynlar, yəhudilər və b. xalqların nümayəndələri də var idi“". Rayon ərazisindəki tarix və memarlıq abidələri, klub və kitabxanalar, tarix-diyarşünaslıq muzeyi yerlə-yeksan edildi.

Kəlbəcərin işğalından dərhal sonra Türkiyə bəzi yeni diplomatik təşəbbüslər etdi. Xarici işlər naziri Hikmət Çətin ABŞ dövlət katibi Uorren Kristofer və Rusiyanın xarici işlər naziri Andrey Kozırev ilə əlaqə quraraq Ermənistan silahlı qüvvələrinin hücumundan Türkiyənin keçirdiyi narahatlığını çatdırdı®^^. Azərbaycan Prezidenti Əbülfəz Elçibəy Süleyman Dəmirələ məktub göndərərək hücumların dayandılması üçün Türkiyənin nüfuzundan istifadə etməsini xahiş etdi®^".

Azərbaycan Prezidenti aprelin 3-də BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktub göndərdi. Aprelin 4-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistanın təcavüzünün davam etməsi və Kəlbəcərin işğalı haqqında bəyanat verdi. BMT yanında Azərbaycanın daimi nümayəndəsi Təhlükəsizlik Şurasının sədrinə aprelin 5-də Əbülfəz Elçibəyin 3 aprel tarixli müraciətini və Azərbaycan Respublikası Xarici İşlər

**BesonacHocTH. - facaHOB F. IİHCbMo в Cobct BesonacHocTH OOH. 1992-1993, c.73-74.**

**Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü haqqında dünya ölkələrinin parlamentlərinə, Avropa Parlamentinə, ATƏM-ə və BMT-yə Azərbaycan Respublikası Milli Şurasının müraciəti. 1 aprel 1993-cü il.-ARXİNA. 1993.**

**Kelbecer’de büyük katliam. - “Milliyet” gazetesi, İstanbul, 1992, 4 Nisan.**

**ARXİNA. 1994. Qovluq X29, v. 36.**

**ARXİNA. 2002. Qovluq Xs S, v. 97-103.**

**“Milliyet” gazetesi, İstanbul, 1993, 3 Misan.**

**“Milliyet” gazetesi, İstanbul, 1993, 8 Nisan.**

Nazirliyinin 4 aprel tarixli bəyanatını göndərdi^^^. BMT baş katibinə həmçinin Ermənistanın hərbi təcavüzünə dair əlavə materiallar da təqdim olundu.

Aprelin 5-də Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev"^ xarici işlər naziri Tofiq Qasımovun adından ABŞ dövlət katibi Uorren Kristoferə məktubla müraciət edərək Azərbaycan ərazisində baş verən dəhşətli reallıqlara, Kəlbəcərin işğalına diqqəti cəlb etdi, ondan həmin işğalı pisləmək üçün BMT Təhlükəszilik Şurasına məktub göndərməsini və növbədənkənar iclasını çağırmaq üçün təşəbbüs göstərməsini xahiş etdi.

Bundan sonra Təhlükəsizlik Şurasının sədri BMT baş katibinə müraciət edərək ATƏM ilə məsləhətləşib, münaqişə regionunda vəziyyətə dair təcili məruzə hazırlamağı xahiş etdi®^'. Qeyd etmək lazımdır ki, bu zaman münaqişənin tənzimlənməsində BMT-nin rolu əsasən ATƏM səylərinə yardım etmək idi. BMT-nin müşahidəçisi ATƏM-in Minsk qrupunun işində müntəzəm olaraq iştirak edirdi.

Azərbaycanın təşəbbüsü ilə aprelin 6-da BMT Təhlükəsizlik Şurasının iclası keçirildi. Müzakirələrdən sonra məsələyə dair BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul edildi^^. Bəyanatda Ermənistanın Azərbaycan ilə münasibətlərinin pisləşməsindən, düşmənçilik hərəkətlərinin artmasından, xüsusi ilə "yerli erməni qüvvələrinin" Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahatlıq ifadə olunur, sülh və bölgənin təhlükəsizliyi üçün qorxu törədən düşmənçilik hərəkətlərinə dərhal son qoymaq və həmin qüvvələri oradan çıxarmaq tələb edilir,

**RaeHTHHHbie nucbMa npesufleHxa AaepöaüroKaHa ua** HMH **reuepajibHoro cex- perapa u npeflceaaxeaa Coaexa BeaonacHocxu.** 3 **anpeaa** 1993 **roaa; SaaBjıeuHe MuHHCxepcxBa HuocxpaHHbix /l^ejı AaepöaüaiKaHCKOH PecnySjiHKu. 4 anpejıa** 1993 **roaa. -TacaHOB f. nucbMO** в **CoBex BesonacHocxu OOH.** 1992-1993, **c.**78, 82.

**Hafiz Paşayev (1941) - Azərbaycan Respublikasının ABŞ-dakı ilk fövqəladə və səlahiyyətli səfiri. Fizik. Elmlər doktoru, professor. 1993-cü il fevralın 6-da ABŞ-a səfir olaraq gəlmişdir. Həmin il aprelin 14-də etimadnaməsini Prezident Bili Klintona təqdim etmişdir. 2004-cü ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və Azərbaycan Diplomatik Akademiyasının rektoru.**

**Byxpoc Byxpoc FariH. floKJiaa o paöoxe opraHusamm sa nepnoa c copoK ceÄbMOH flo copoK BOCbMOH ccccHH FeHepanbHOH AccaMÖJieH. CeuxaGpb** 1993. **Hbio-HopK,** 1993, **c.** 148.

**Təhlükəsizlik Şurası sədrinin bəyanatı. - FacanoB F. OncbMO** в **COBCX Bes-onacHOCXH OOH. 1992-1993, c. 89.**

bölgədəki bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyü, onların sərhədlərinin pozulmazlığı təsdiq edilir, ATƏM çərçivəsində sülh prosesinə tərəfdar çıxılırdı. Eyni zamanda Minsk qrupunun əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlərin də əlavə olunmasına və Minsk konfransının tezliklə çağırılmasına ümid ifadə edilir, mülki əhalinin iztirablarını azaltmaq üçün münaqişəyə cəlb olunmuş bütün rayonlara humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsi tövsiyə edilirdi.

Bütün müsbət tərəflərinə baxmayaraq, BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatı qüsursuz da deyildi. Belə ki, Kəlbəcərin işğalının “yerli erməni qüvvələrinin” hərəkəti kimi qələmə verilməsi reallığı əks etdirmirdi. Çünki Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icmasının əraziləri işğal etməyə qadir olan ordu qurmaq üçün insan potensialı, iqtisadi-maliyyə gücü və hərbi-sənaye kompleksi yox idi. Kəlbəcər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

Ermənistan BMT Təhlükəsizlik Şurası sədrinin həmin bəyanatına da məhəl qoymayaraq hərbi təcavüzünü genişləndirmək üçün bölgəyə hərbi texnika və sursat daşınmasını artırdı.

Yaranmış şəraitdə, 1993-cü il aprelin 7-də Avropa İttifaqı Dağlıq Qarabağa dair bəyanatla çıxış etdi®^®. Bəyanatda təşkilat Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq münasibətlərin pisləşməsindən çiddi təşviş keçirdiyini, Kəlbəcər və Füzuli rayonlarında döyüş əməliyyatlarının genişlənməsindən təəssüfləndiyini bildirir, Azərbaycan ərazilərini dərhal boşaltmağa, ATƏM-in Minsk qrupu çərçivəsində danışıqları davam etdirməyə çağırırdı.

BMT Təhlükəszilik Şurası sədrinin bəyanatından sonra Rusiya da hərbi əməliyyatları dayandırmaq üçün münaqişə tərəfləri arasında görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Azərbaycan tərəfi Rusiyanın təklifinə müsbət cavab verdi. Aprelin 8-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü keçirildi. Görüşdə Azərbaycan tərəfdən dövlət katibi Pənah Hüseynov^^°, Baş Nazirin müavini Abbas Abbasov^’, Rə

**Avropa İttifaqının Dağlıq Qarabağa dair bəyanatı. 7 aprel 1993-cü il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, Jfoö, s.136; Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s. 88.**

**Pənah Hüseynov (1957) - Azərbaycan Respublikasının dövlət katibi (1992). Baş Nazir (1993,28 aprel - 30 iyun). Milli Məclisin deputatı (2005-2010).**

him Qazıyev, deputatlar M.Kazımov, C.Nuriyev və E.lbrahimov, Rusiya tərəfdən müdafiə naziri Pavel Qraçov və köməkçisi, Krasnodar vilayəti icra hakimiyyətinin başçısı, Ermənistan tərəfindən isə Baş Nazirin müavini, müdafiə naziri Vazgen Sarqsyan, bütün güc nazirləri iştirak edirdi- lər^^^. Görüşü açan P.Qraçov yaranmış şəraiti qısa olaraq şərh etdi. O, Rusiyanın hövsələsinin tükəndiyini, vasitəçilik səylərinin sona çatmaqda olduğunu, tərəflərin Rusiyasız razılığa gələ biləcəyi təqdirdə ölkəsinin kənara çəkiləcəyini bildirdi. Görüş zamanı Azərbaycan nümayəndələri Ermənistanın təcavüzünə, Kəlbəcərin işğalına diqqəti yönəltdilər, təcavüzkarın dayandırılmasını tələb etdilər. Yaranmış vəziyyətə dair Azərbaycanın mövqeyini bildirdilər. Bu mövqeyə görə, işğalçı qüvvələr işğal edilmiş ərazilərdən çıxarılmalı idi. Əgər tərəflər arasında etimad olmazdısa, müşahidəçilər, o cümlədən rusiyalı müşahidəçilər də həmin prosesdə iştirak edə bilərdilər. Azərbaycan yalnız bundan sonra atəşi dayandıra bilərdi.

V.Sarqsyan Ermənistanın blokadada saxlandığını bildirərək ordu hissələrinin çıxarılmasını Meğri yolunun açılması ilə əlaqələndirdi.

Azərbaycan nümayəndələri Kəlbəcərin işğalının Dağlıq Qarabağ münaqişəsi ilə heç bir əlaqəsi olmadığını, bu işğalın münaqişəyə açıq müharibə xarakteri verdiyini, Ermənistan Kəlbəcərdən ordu hissələrini çıxardıqdan sonra Azərbaycanın Meğri yolunu aça biləcəyini, blokadanı Azərbaycanın yaratmadığını, Ermənistanın Meğri yolunu açdıqdan sonra yüklərin maneəsiz daşınacağını qeyd etdilər. Azərbaycan tərəfi nəqliyyat yolunun açılması problemini Kəlbəcərlə əlaqələndirməyin məqbul olmadığını bildirərək, əvvəlcə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən çıxarılmasını, yolların açılmasını, sonra isə münaqişənin dondurulmasını və Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun müzakirəsini təklif etdi.

Müzakirəyə qoşulan Pavel Qraçovun köməkçisi hər üç respublikada rus hərbi hissələrinin olduğunu vurğulayaraq Rusiyanın həmin ərazilərdə sabitlik yaradılmasında maraqlı olduğunu dedi. P. Qraçov isə atəşin dərhal dayandırılmasını təklif etdi.

Azərbaycan tərəfi atəşkəsə etiraz etməyərək Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri boşaltmasını arxa plana keçirməyin mümkünsüzlüyünü bildirdi.

**Abbas Abbasov (1949) - Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini (1992-2005).**

[632] **ARXINA. 1993. Qovluq Xe 22, V. 109-112.**

Bundan sonra Pavel Qraçov işinin çox olduğunu deyərək gürcü nümayəndələri ilə görüşə getdi. P.Hüseynov V.Sarqsyan ilə bir neçə dəqiqəliyə görüşdü. Tərəflər Rusiyasız da problemlərini həll edə biləcəkləri qənaətinə gəldilər. Bildirdilər ki, hərbi əməliyyatların davam etdirilməsi hər iki respublikada hakimiyyət böhranına gətirə bilər. Beləliklə, Soçi görüşü nəticəsiz başa çatdı. Ermənistan Kəlbəcəri azad etmədi. Ermənistana gedən dəmiryolu da açılmadı.

1993-cü il aprelin 11-də Azərbaycan Respublikası yenidən BMT baş katibinə müraciət edərək Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulmasını yeni dünya düzəninə təhdid kimi qiymətləndirdi və təcavüzün qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsini xahiş etdi®^^. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi aprelin 12-də Təhlükəsizlik Şurasının sədrinə Ermənistanın təcavüzkar hərəkətləri haqqında konkret fakt və materialları təqdim etdi^^'*. O, məsələyə dair BMT baş katibinin məruzəsi hazırlanarkən müvafiq məlumatların nəzərə alınması, “Dağlıq Qarabağın özünümüdafiə qüvvələri” silahlarının mənbəyinin müəyyənləşdirilməsi üçün komissiyanın yaradılması, Ermənistanın təcavüzünün dayandırılması, problemin siyasi yolla həllinə mane olan əngəllərin aradan qaldırılması, Azərbaycanın işğal edilmiş ərazilərinin BMT Təhlükəsizlik Şurasının tələbləri əsasında boşaldılması, regionun bütün dövlətlərinin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət edilməsinə əməl olunması təkliflərini irəli sürdü.

Həmin müraciətlərdən sonra BMT Təhlükəsizlik Şurası sədrinin xahişi ilə baş katib faktları müəyyənləşdinnək üçün nümayəndələrini münaqişə zonasına göndərdi. Regiona səfər edən nümayəndə heyəti faktları toplayaraq BMT baş katibinə təqdim etdi. Fakt və məlumatları topladıqdan sonra aprelin 14-də BMT baş katibi məsələyə dair məruzəsini təqdim etdi. Aprelin 15-də Azərbaycan Respublikası BMT baş katibinə təkrarən müra

**^ rİHCbMO npesHÄeHxa AsepöaiiÄÄaHCKOH PecnyöauKH OT 11 anpejıa 1993 rofla na HMH TeHepajibHoro CeKpexapa. - FacaHOB F. OncbMO B COBCX BesonacHOCXH OOH. 1992-1993, C. 100.**

**riHCbMO nocxoaHHoro npeacxaBHxejiH AaepöaüflÄaHa npn OprannsauHH OöbCAHHeHHbix HauHH ox 12 anpejıa 1993 rofla ua HMH npeace^ıaxejiH CoBCxa BesonacHocxH. - TacanoB F. IİHCbMO B CoBex BesonacHocxu OOH. 1992-1993, c.91-94.**

ciət edərək Ermənistan silahlı qüvvələrinin hücumları faktını təsdiq etmək üçün Kəlbəcərə BMT missiyası göndərməyi xahiş etdi“^.

Azərbaycan tərəfi məsələni ATƏM-in də gündəliyində saxladı. Ermənistanın təcavüzünün davam etməsi, o cümlədən Kəlbəcər rayonunun işğalı ilə əlaqədar olaraq aprelin 26-29-da Praqada YVŞK-nin fövqəladə iclası keçirildi^^. Lakin Ermənistan tərəfi apardığı döyüşləri pisləyən, Azərbaycanın işğal edilmiş ərazilərindən qoşunlarının çıxarılmasını tələb edən sənədin qəbuluna konsensus vermədi.

Azərbaycanın tələbləri ilə toplaşan BMT Təhlükəsizlik Şurasının 3205 saylı iclasında Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcərin işğalı məsələsi müzakirə edildi. 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 (S/RES822 (1993)) saylı qətnaməni qəbul etdi®^’. Həmin qətnamə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 29 yanvar və 6 aprel tarixli bəyanatlarına və BMT baş katibinin 14 aprel tarixli məruzəsindəki faktlara əsaslanırdı. Qətnamədə yazılırdı: “Təhlükəsizlik Şurası, Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurasının sədri tərəfindən edilən 1993-cü il 29 yanvar (S/25199) və 6 aprel (S/25539) tarixli bəyanatlarına əsaslanaraq, baş katibin 14 aprel 1993-cü il 3 tarixli məruzəsini nəzərə alaraq, Ermə

**rİHCbMO npesHÄenxa A3ep5aHÄX<aHCKOH Pecnyö/iHKH OT 15 anpejıa 1993 roaa na HMH FeHepanbHoro CeKpexapa. - TacanoB F. IİHCbMo B Cosex Beaonac- HOCXHOOH. 1992-1993, C. 102.**

**CSCE. Third Emergency Meeting of the Committee of Senior Officials. Prague, 26-29 Aprel, 1993. - ARXİNA. 1993; 26 April (Prague). 21 st Meeting of the Committee of Senior Officials. Journal No. 1, Journal No.3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l5; 26-29 April (Prague). 3"‘* Emergency Meeting of the Committee of Senior Officials on the conflict in and around Nagorno Karabakh. Journal. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.15-18.**

**PesojııouHH 822 (1993), npHHHxaa CoBexoM EesonacnocxH ua ero 3205-M sa-cenaHHH 30 anpejiH 1993 rozıa. -ARXİNA. 1993; Resolution 822 (1993) Adopted by the Security Council at its 3205 th Meeting on 30 Aprel 1993. - Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994, p. 13-14.**

nistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə, "yerli erməni qüvvələrinin" Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq, çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda, fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatçılığını ifadə edərək, regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq, möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir; münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır; mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir; baş katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin fəaliyyətdə olan sədri, həmçinin Müşavirənin Minsk qrupunun sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda, vəziyyətin qiymətləndirilməsini aparmağı, və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".

Qətnamənin bir sıra müsbət tərəfləri var idi. Burada Azərbaycan ərazilərinin işğal edilməsi faktı etiraf olunur, düşmənçilik hərəkətlərinin və hərbi əməliyyatların dərhal dayandırılması tələb edilir, bölgədəki bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi, zor gücünə ərazilər tutulmasının yolverilməzliyi təsdiq, işğal edilmiş ərazilərin dərhal boşaldılması tələb edilirdi.

Qətnamə qüsurlarsız da deyildi. Belə ki, sənəddə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin pisləşməsinin səbəbləri göstərilmirdi. Kəlbəcərin “yerli erməni qüvvələri” tərəfindən işğal edilməsi fikrinin yazılması yanlış idi. İşğal edilmiş ərazilərin konkret olaraq nə zaman boşaldılması və təcavüzkara qarşı hansı sanksiyalar tətbiq edilməsi göstərilmirdi.

Qətnamə qəbul edildikdən bir neçə gün sonra, 1993-cü il mayın 3- də ABŞ, Rusiya, Türkiyə sülh təşəbbüsü ilə çıxış etdilər. Təkliflər planını işləyib hazırladılar^^*. Üçtərəfli təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilməsi cədvəli Azərbaycan və Ermənistana göndərildi. Cədvələ görə, silahlı qüvvələr martın 27-nə olan vəziyyətə gətirilməli, 60 günlük atəşkəs elan olunmalı, müşahidəçilər Kəlbəcərdən erməni qoşunlarının çıxarılmasını təsdiq etməli, Minsk qrupunun məsləhətləşmələri davam etdirilməli idi. Azərbaycan həmin təkliflərlə razılaşdı. Ermənistan isə ondan imtina etdi.

Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsi üçün səylərini artırdı^*^. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi Minsk qrupunun üzvü olan ölkələrin BMT yanındakı daimi nümayəndələri ilə bir sıra ikitərəfli görüşlər keçirərək Ermənistanın beynəlxalq hüquq normalarını pozması, işğalçılıq hərəkətləri barədə məlumat verdi. Azərbaycandakı qaçqın və məcburi köçkünlər üçün BMT-nin humanitar yardımlarının ayrılmasına səylər etdi^"°.

Bu zaman, mayın 11-də Ermənistanın xarici işlər naziri Vahan Papazyan^'” BMT baş katibinə məktub göndərərək Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirakını inkar etdi®'*^. Buna cavab olaraq Həsən Həsənov Ermənistan Respublikasının təcavüzünə dair konkret faktları əks etdirən məktubu həm BMT baş katibinə, həm də Vahan Papazya- nm özünə göndərdi^"**.

Mayın 14-15-də Rusiya, ABŞ və Türkiyə nümayəndələri Moskvada görüşərək hazırladıqları təklifləri müzakirə etdilər. Görüşdə təxirəsalınmaz tədbirlər cədvəlində bəzi məsələlər aydınlaşdırıldı. Onlar münaqişə

**U.S. Hopes for Acceptance of Nagomo Karabakh plan. State Depatment Report. 3 May 1993. - United States Information Service. 1993.**

**ARXİNA. 1993.**

**ARXINA. 1993.**

**Vahan Papazyan (1957)- Ermənistanın xarici işlər naziri (1993-1996). ARXİNA. 1993.**

**ARXİNA. 1993.**

tərəflərini BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə əməl etməyə çağırdılar.

Ermənistan isə başqa bir addım atdı. Prezident Levon Ter Petrosyan mayın 26-da bəyanat verərək “Dağlıq Qarabağ əhalisi”nin təhlükəsizliyi və hüquqları üçün təminat istədi, “Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həll etməyə yönələn siyasətindən imtina etdiyinə tam əmin olmadığını” bildirdi^'"”. Belə yanaşma Ermənistanın təcavüzkahq və işğalçılıq siyasətindən diqqəti yayındırmaq niyyəti güdürdü.

Buna baxmayaraq, iyunun 3-4-də ATƏM təmsilçiləri Romada görüşüb münaqişənin tənzimlənməsi üçün təcili bir sənəd hazırlayaraq tərəflərə göndərdilər. Həmin sənədə görə, Ermənistan silahlı qüvvələri iyunun 15-dən etibarən Kəlbəcəri boşaltmağa başlamalı və iyunun 20-də bunu başa çatdırmalı, bölgəyə 50 nəfər ATƏM müşahidəçisi gəlməli, avqustun 7-dən gec olmayaraq Minsk konfransı işinə başlamalı idi. Azərbaycan tərəfi həmin planı qəbul etdi. Ermənistan isə bir ay vaxt istədi.

İyunun 14-də Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi Təhlükəsizlik Şurasının sədrinə Ermənistanın təcavüzkarlıq hərəkətləri barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatını təqdim etdi‘"*^

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğal edilməsi, hərbi-siyasi uğursuzluqlar ölkənin daxili ictimai-siyasi, iqtisadi həyatına, xalqın psixologiyasına ağır təsir edirdi. Səmərəsiz xarici siyasət Azərbaycanı təcrid edilmiş vəziyyətə salmışdı. Ermənistanın təbliğatının aparılması Azərbaycan tərəfindən adekvat addımlarla müşayiət olunmurdu. Ölkə həmin təbliğatın qarşısında aciz siyasət aparır, beynəlxalq aləmdə sözünü deyə bilmirdi. Azərbaycanın beynəlxalq aləmdə mənfi imici formalaşırdı.

Yaranmış çətin vəziyyət, sosial-iqtisadi, siyasi, hərbi və digər çoxlu problemlər Azərbaycanı məngənədə sıxır, böhran dərinləşir, iqtisadiyyat dağılırdı. Belə ki, 1993-cü ildə ölkədə ümumi daxili məhsulun həcmi 1988-ci il səviyyəsinin yalnız 60%-ni təşkil edirdi. Büdcə kəsiri 23,8 milyon manat və ya ümumi daxili məhsulun 14,4%-i qədər idi. 1990-cı

**‘■'“"ARXINA. 1993.**

**IİHCbMO nocTOHHHoro npeflcxaBHxejifl A3ep5aüfl>KaHa npH OpraHHsauHH OöıeflHHeHbix HanuS ox 14 UIOHH 1993 roaa ua HMH npeaceaaxejıa Coaexa BesonacHOCXu; SaaBJieuHe MuHucxepcxBa HuocxpaHHbix Rejı A3ep6aHa>KaH- CKOH PecnyöJiHKH. - TacanoB T. lİHCbMa в COBBX Be3onacHocxn OOH. 1992-1993, C. 171-173.**

illə müqayisədə 1993-cü ildə sənaye məhsulu istehsalı 63%, kənd təsərrüfatı istehsalı 47%, 1800%-ə çatan inflyasiya nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı düşmüşdü^®.

Xalq arasında nüfuzunu itirmiş rəsmi hakimiyyət ölkəni idarə edə bilmirdi. Hakimiyyətdaxili ziddiyyətlər kəskinləşmişdi. Ayrı-ayrı qruplar arasında hakimiyyət uğrunda mübarizə qızışmışdı. Hakimiyyətin qanadları arasında qarşıdurma yaranmışdı. Xalq ilə hakimiyyət arasında uçurum dərinləşmişdi. Hakimiyyətə olan inam sarsılmışdı. Ölkədə anarxiya tüğyan edirdi. Cinayətkar elementlər fəallaşmışdılar. Vətəndaşların təhlükəsizliyi təhdid edilirdi. Adamlar ümidsizliyə qapılmışdılar. Ölkənin şimal və cənub rayonlarında süni surətdə separatçı qurumlar yaradılırdı. Azərbaycan Respublikası dövləti parçalanma, dağılma həddində idi. Ölkəni xarici təcavüzdən qorumalı olan ordu daxili siyasi çəkişmələrin girovuna çevrilmişdi. Orduda ruh düşkünlüyü hökm sürürdü. Hərbi hakimiyyət ilə mülki hakimiyyət arasında ziddiyyətlər dərinləşmişdi. Siyasi qüvvələr silahlı dəstələrini yaradırdılar. Belə bir şəraitdə rəsmi hakimiyyətə tabe olmayan bir qrup hərbçi polkovnik Surət Hüseynovun*^^ başçılığı altında Gəncədə qiyam qaldırdı. O, öz hissələrini cəbhədən geri çəkərək Bakıya doğru hərəkət etməyə başladı. Cəbhə xəttində boşluq yarandı. Vəziyyət daha da ağırlaşdı. Belə bir böhranlı anda nəinki uğurlu xarici siyasət fəaliyyəti yürütmək mümkün deyildi, bütövlükdə Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi qarşısında idi. Xalqın mənəvi-psixoloji böhranı baş verirdi. Sabaha ümidsizlik yaranmışdı.

Nəticədə 1992-ci ilin may-iyun aylarında bir sıra daxili və xarici amillərin təsiri altında Azərbaycan ağır böhrana düşdü. Ölkədə yaranmış vəziyyəti təhlil edən professor Əli Həsənovun^'** yazdığı kimi, "... Əbülfəz Elçibəy hökumətinin xarici siyasət xətti Azərbaycan dövlətini beynəlxalq aləmdə tamamilə təcrid etməklə bərabər, respublikanın strateji mövqeyinə və təbii sərvətlərinə xüsusi maraq göstərən bəzi dövlətləri də qeyri-adekvat addımlar atmağa sövq etdi... Nəticədə 1993-cü ilin yayında Azərbay-

**™ Novruzov V. Yeni Azərbaycan quruculuğunun etibarlı sabahına təminat. - "İqtisadiyyat və audit" jurnalı, Bakı, 2003, XaO, s. 8.**

**Surət Hüseynov (1959) - Azərbaycan Respublikasının Baş Naziri (1993- 1994). 1994-cü ilin oktyabrında çevriliş cəhdinə rəhbərlik etmişdir.**

**Əli Həsənov (1960) - Azərbaycan Respublikası Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri (1996-cı ildən). Tarix elmləri doktoru, professor.**

can dövlətçiliyi qaçılmaz böhran və məhvolma təhlükəsi qarşısında qaldı”".

Belə bir şəraitdə, iyunun 13-də Azərbaycan parlamentinin sədri İsa Qəmbər vəzifəsindən istefa verdi. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev xalqın tələbi, mövcud hakimiyyətin xahişi və konstitusiyaya uyğun olaraq Naxçıvandan Bakıya gəldi. O, 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Parlamentdə etdiyi ilk nitqində Heydər Əliyev ölkənin qarşısında duran vəzifələrdən danışarkən dedi: “Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır”"°.

Bir müddət sonra, iyunun 17-dən 18-nə keçən gecə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Bakını tərk edərək doğulduğu Kələki kəndinə getdi.

Belə bir gərgin vəziyyətdə, iyunun 24-də Avropa İttifaqı Dağlıq Qarabağa dair qəbul etdiyi yeni bəyanatında Mario Rafaellinin təqdim etdiyi ATƏM planını tərəfindən qəbul etməsini alqışlayır və sülh yolu ilə problemin həllinə ümid ifadə edirdi'".

İyunun 25-də Azərbaycan parlamenti Heydər Əliyevə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini verdi. Buna etiraz olaraq hökumətdə təmsil olunan Azərbaycan Xalq Cəbhəsinin nümayəndələri vəzifələrini “dondurdular”. İyunun 26-da xarici işlər naziri Tofiq Qasımov, iyunun 30-da isə Pənah Hüseyn vəzifələrindən azad edildilər. İyunun 30-da Surət Hüseynov Baş Nazir vəzifəsinə təsdiq edildi. Beləliklə, 1988-1993-cü illərdə Azərbaycanda dörd dəfə hakimiyyət dəyişildi.

Hakimiyyətə ən ağır, mürəkkəb vəziyyətdə gələn Heydər Əliyev Azərbaycan dövlətini dağılmaqdan, xalqı vətəndaş müharibəsindən, sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhrandan xilas etdi. Ölkənin cənubunda və şimalında separatçılığın qarşısı alındı. Azərbaycan xalqında özünə və dövlətə inam hissi bərpa edildi, əvvəlki illərdə buraxılan səhvlər qətiyyətlə düzəldilməyə başlandı. Heydər Əliyev Azərbaycan xalqı və

**Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, s. 228.**

**Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.l5.**

**Avropa İttifaqı Avropa Siyasi əməkdaşlığı. 24 iyun 2003-cü il. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, JNs6, s.l36.**

dövlətinin mövcud və gələcək maraqlarının uğurla təmin edilməsinə, tərəqqisinə yönəldilən xarici siyasət ideologiyasını və strategiyasını müəyyənləşdirdi, onu formalaşdıraraq həyata keçirməyə başladı, dövlət və milli maraqların qoruması istiqamətində fəaliyyətini genişləndirdi.

Heydər Əliyev hakimiyyətə gələrkən ona əvvəlki rəhbərlərdən ağır bir miras qalmışdı. Bu, Kamran Bağırovdan Əbdürrəhman Vəzirova, Və- zirovdan Ayaz Mütəllibova, Mütəllibovdan Əbülfəz Elçibəyə, Elçibəydən də Heydər Əliyevə qalan Ermənistanın davam edən hərbi təcavüzü və onun ağır nəticələri idi. Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış şəraiti real qiymətləndirən Heydər Əliyev hakimiyyətə gələn kimi münaqişənin həlli üçün ATƏM-in vasitəçilik səylərini müdafiə etdi*"^^. O, iyulun 2-də dünya ölkələrinə, xüsusən ABŞ, Türkiyə və Rusiyaya müraciət edərək məlum təşəbbüsün həyata keçirilməsini istədi. İyulun 5-də isə həmin ölkələrin Bakıdakı səfirlərini dəvət edərək Ermənistan silahlı qüvvələrinin Ağdam istiqamətində hücumlarının dayandılırmasmı üç dövlətdən tələb etdi. Bundan az sonra, iyul ayının ortalarında Minsk konfransının sədri Mario Rafaelli Bakı və Yerevana səfər etdi. Münaqişə bölgəsinə getdi. Şəraitlə tanış oldu. Heydər Əliyev tərəfindən qəbul edildi. Görüşdə Ermənistanın genişlənən təcavüzünün dayandırılması məsələləri müzakirə olundu. Heydər Əliyev təkzibedilməz fakt və materiallar əsasında Ermənistanın təcavüzü haqqında məlumatları Mario Rafaelliyə çatdırdı.

Görüşün yekununda birgə mətbuat konfransı keçirildi. Mətbuat konfransında Heydər Əliyev bəyanat verdi. Tədbirdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərin boşaldılması planı açıqlan- dı^^l

Mario Rafaellinin regiona səfəri barədə hazırladığı məruzə iyulun 16-da Vyanada Minsk qrupunun növbəti iclasında dinlənildi. Müzakirələr zamanı Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsini və ATƏM-in Minsk qrupunun Romada işləyib hazırladığı təxirəsalınmaz tədbirlər cədvəlini yerinə yetirmək istəmədiyi məlum oldu.

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 5 iyul 1993- cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.19-21.**

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin və ATƏM-in Minsk konfransının sədri Mario Rafaellinin birgə mətbuat konfransında bəyanatı. 14 iyul 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.32-42.**

İyulun 20-də Vladimir Kazimirov Azərbaycana səfər edərək atəşkəs təşəbbüslərini müzakirə etdi. Azərbaycan tərəfi Kəlbəcərin boşaldılmasım və Ağdam istiqamətində hücumların dayandırılmasını istədi.

Lakin Azərbaycanda yaranmış ağır vəziyyətdən istifadə edən Ermənistan təcavüzünü daha da genişləndirdi. Minsk qrupunun danışıqlar prosesini bərpa etməyə və münaqişəni dinc siyasi vasitələrlə aradan qaldırmağa çalışdığı bir vaxtda Ermənistan silahlı qüvvələri 1993-cü il iyulun 23- də nəqliyyat qovşağı və strateji cəhətdən mühüm məntəqə, ərazisi 1150 kv.km. olan Ağdam rayonunu işğal etdi. Təqribən 133 min nəfər məcburi köçkünə çevrildi. Şəhər yandırıldı. Tarix və mədəniyyət abidələri, təhsil və mədəni-maarif müəssisələri, sənaye obyektləri yerlə-yeksan edildi.

Ağdamın işğalından dərhal sonra, iyulun 24-də Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktubla müraciət etdi^^'*. Məktubda Ermənistanın işğalçılıq siyasətinə dair konkret fakt və materiallar verilir, Azərbaycanın 503 yaşayış məntəqəsini işğal etdiyi, ölkədə qaçqın və məcburi köçkünlərin sayının artdığı vurğulanırdı. Heydər Əliyev Ermənistanın dünya birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmədiyini diqqətə çatdırır, BMT Təhlükəsizlik Şurasının sədrindən təcavüzkarın dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün təxirəsalınmaz tədbirlərin görülməsini tələb edirdi.

Azərbaycan Respublikasının tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası iyulun 29-da 3259 saylı iclasında Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 (S/RES/853 (1993)) saylı qətnaməni qəbul etdi"^^. Qətnamədə yazılırdı; “Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək, Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi

**^ ARXİNA. 1993; Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin baş katibinə. - Müstəqilliyimiz əbədidir. I kitab, s.44-45.**

**PesojiiouHH** 853 (1993), **npHHaxaa CoBexoM BesonacHocxH na ero** 3259-м **sa-** ceaaHHH 29 *mosm* 1993 **roaa. - ARXİNA; U.N.Resolution** 853 (1993) **Regarding the Armenia/ Azerbaijani Conflict United Nations Security Council Juli** 29, 1993. **- Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin.** 1994. **The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, p.**15-19.

narahatçılığını ifadə edərək, maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq, hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsi ilə əlaqədar narahat olaraq, Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Ağdam rayonunun və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal olunmuş rayonlarının işğalını pisləyir; bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir; bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir; maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır; yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq edir; 822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir; yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır; maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır; Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ermənilərі tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır; dövlətləri

münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır; mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə, regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir; baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir; baş katibdən ATƏM-in fəaliyyətdə olan sədri, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".

Ermənistanın təcavüzünü dayandırmaq üçün aparılan beynəlxalq səylər, Mario Rafaellinin Bakıda keçirdiyi danışıqlar və Ermənistanın davam edən təcavüzü ilə bağlı yaranmış vəziyyət iyul ayının sonlarında Azərbaycan Respublikası Milli Məclisinin iclasında müzakirə edildi. Danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında Heydər Əliyev məlumat verdi. Geniş müzakirələr keçirildi. Milli Məclis iyulun 29-da məsələyə dair müvafiq qərar qəbul etdi^^^. Qərarda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Qarabağ bölgəsində və respublikanın digər sərhəd bölgələrində yaranmış ağır vəziyyətlə əlaqədar siyasi, diplomatik və hərbi quruculuq sahəsində, BMT, ATƏM çərçivəsində, beynəlxalq aləmdə apardığı işlər təqdirəlayiq və məqsədəmüvafiq hesab edilir, həmin istiqamətdə fəaliyyətin davam etdirilməsi tövsiyə olunurdu.

İyulun 30-da Azərbaycan tərəfi Ermənistanın hücumları haqqında BMT Təhlükəsizlik Şurasına yenidən müraciət etdi. Azərbaycan Respubli-

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Rafaelli arasında danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistanın silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 28 iyul 1993-cü il. - ARXİNA. 1993.**

kası Xarici İşlər Nazirliyinin 30 iyul tarixli bəyanatı Təhlükəsizlik Şurasının sənədi kimi yayıldı. Azərbaycan 1993-cü il avqustun 5-də və 6-da da Təhlükəsizlik Şurasına müraciət edərək Ermənistanın təcavüzünün dayandırılması üçün təsirli tədbirlərin həyata keçirilməsini istədi.

Avqustun 9-da Romada ATƏM-in Minsk qrupunun Ermənistan və Azərbaycan nümayəndələri ilə məsləhətləşmələri keçirildi. Toplantıda Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını nəzərdə tutan təxirəsalınmaz tədbirlər cədvəli müzakirə olundu. Ermənistan nümayəndələri cədvələ etiraz etdilər. Bundan sonra yeni dəqiqləşdirilmiş cədvəl hazırlanaraq tərəflərə göndərildi. Lakin yeni cədvəldə Şuşa və Laçından Ermənistan silahlı qüvvələrinin çıxarılması göstərilmədiyi üçün Azərbaycan tərəfindən rədd edildi. Minsk qrupunun təqdim etdiyi planın təsirsiz olduğundan istifadə edən Ermənistan işğalı daha da genişləndirdi.

Buna cavab olaraq BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi Həsən Həsənov avqustun 9, 14, 15 və 16-da Təhlükəsizlik Şurasına təkrarən müraciətlər etdi. Müraciətlərdə Ermənistanın təcavüzünün nəticələrinə, azərbaycanlı qaçqın və məcburi köçkünlərin vəziyyətinə, tarix və mədəniyyət abidələrinin dağıdılmasına dair faktlar təqdim edilir, təcavüzün dayandırıhması və Ermənistanın BMT Təhlükəsizlik Şurasının tələblərinə əməl etməsi tələb olunurdu.

Beynəlxalq birliyin iradəsini yerinə yetirməyən Ermənistan təcavüzünü davam etdirərək işğallarını genişləndirirdi. Buna görə də Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədrinə 1993-cü il avqustun 18-də yenidən müraciət etdi®^’. Müraciətdə Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrini yerinə yetirmədiyi, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmadığı, əksinə digərlərini də işğal etdiyi, azərbaycanlılar yaşayan kəndləri tutub yandırdığı. Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində hücumu genişləndirdiyi yazılır, təcavüzün təcili dayandırılması üçün Təhlükəsizlik Şurasının iclasının çağırılması xahiş edilirdi®^*.

Müraciət edilən gün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi də bəyanat verdi. Azərbaycanın BMT yanında daimi nümayəndəliyi həmin bəyanatı BMT Təhlükəsizlik Şurasının üzvləri arasında yaydı. Bəya-

**Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin baş katibinə. 18 avqust 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.89.**

**' ARXINA. 1993.**

natda Ermənistanın işğalçı hərəkətləri pislənilir və təcavüzkarın dayandırılması tələb edilirdi^^®.

Azərbaycan Respublikasının müraciətinə baxan BMT Təhlükəsizlik Şurasının adından onun sədri 1993-cü il avqustun 18-də keçirilən 3264-cü iclasında bəyanat verdi“°. Bəyanatda Ermənistan ilə Azərbaycan arasında münasibətlərin pisləşməsindən narahatlıq ifadə edilir, Füzuli rayonu istiqamətində hücumlar pislənilir, hərbi əməliyyatların dərhal dayandırılması, işğal olunmuş ərazilərin boşaldılması tələb edilirdi. Sənəddə Azərbaycan Respublikasının və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir, tərəflər BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair Minsk qrupunun təqdim etdiyi təxirəsalınmaz tədbirlər cədvəlinin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə, məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırılır, münaqişə bölgəsinə silah göndərməkdən çəkinməyə, Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə, mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədi ilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair əvvəlki çağırışlar təkrar edilir, beynəlxalq humanitar hüququn prinsip və normalarına əməl etməyə borclu olduqları xatırladılırdı.

BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatına məhəl qoymayan Ermənistan 1993-cü il avqustun 23-də ərazisi 1390 kv.km. olan Füzuli və ərazisi 1050 kv.km. olan Cəbrayıl rayonlarını işğal etdi. İşğal nəticəsində Füzulidən təqribən 90 min. Cəbrayıldan isə 50 min adam məcburi köçkünə çevrildi. Həmin rayonların ərazilərindəki tarix və mədəniyyət abidələri, mədəni-maarif müəssisələri, kənd və qəsəbələr tamamilə yandırıldı.

Bundan sonra Azərbaycan tərəfi 1993-cü il avqustun 23 və 30-da BMT Təhlükəsizlik Şurasının sədrinə müraciətlər etdi*^'. Həmin müraciətlərə cavab verilməmiş Ermənistan silahlı qüvvələri avqustun 31-də 800 kv. km, ərazisi, 95 yaşayış məntəqəsi olan Qubadlı rayonunu işğal etdi.

**ARXINA. 1993.**

**““ ARXINA. 1993.**

**OHCbMO nocTOHHHoro npeacTaBHTejın A3ep5afifl>KaHa ox 23 aBrycxa 1993 roaa Ha нмн npeaceaaxejuı CoBexa EeBonacHocxH; riHCbMO nocxoııHHoro npea- cxaBHTeaa A3ep6aHa»aHa ox 30 aarycxa 1993 roaa Ha нмн npeaceaaxejıa Coae- xa BesonacHocxH. - EacaHOB E. IİHCbMa в COBCX BesonacHocxH OOH. 1992- 1993, c.267-269.**

Rayonun təqribən 30 min 300 nəfər sakini məcburi köçkünə çevrildi^^". Yaşayış məntəqələri tamamilə dağıdıldı.

Ermənistan tərəfindən Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal edilməsi və məcburi köçkünlər ordusunun yaranması ölkədə vəziyyəti ağırlaşdırmışdı. Azərbaycan işağim dayandırılması üçün səylərini davam etdirirdi.

Belə bir şəraitdə Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəsi Həsən Həsənov 1993-cü il sentyabrın 2-də ölkənin xarici işlər naziri vəzifəsinə təyin olundu. Azərbaycan tərəfi BMT və ATƏM ilə fəal işləməyə davam etdi. Azərbaycan Respublikası yenidən BMT Təhlükəsizlik Şurası sədrinə müraciət etdi^®^. Müraciətdə Ermənistanın hərəkətləri işğalçılıq olaraq qiymətləndirilir, yeni ərazilər tutmağın qarşısını almaq üçün Təhlükəsizlik Şurasının heç bir təsirli tədbir görmədiyi qeyd edilirdi.

Sentyabrın 3-də Azərbaycan Respublikasının Milli Məclisi Ermənistanın genişlənən hərbi müdaxiləsi nəticəsində yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq üçün Azərbaycan Respublikasının dövlət nümayəndələrinin silahlı münaqişədə iştirak edən tərəflərlə aparılan danışıqları haqqında məlumatı dinlədi. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin və Azərbaycan Respublikasının dövlət nümayəndələrinin yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq üçün silahlı münaqişədə iştirak edən tərəflərlə apardıqları danışıqları bəyəndi. Onlara fəaliyyətlərini davam etdirmək tövsiyə olundu^".

Hamin gün Avropa İttifaqı Dağlıq Qarabağa dair yeni bir qətnamə qəbul etdi. Təşkilata üzv ölkələr yerli erməni qüvvələrinin hücumlarını pisləyir, döyüş bölgəsinin daha geniş Azərbaycan ərazilərini əhatə etdiyini, ciddi qaçqın problemi yarandığını qeyd, region dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edir, BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə ümid edir, region

**ARXİNA. 1994. Qovluq Xa 9, v. 36.**

**ÜHCbMO nocTOHHHoro npeflCTaBHTe.riH AaepöaiiÄXcaHa npn OpraHusaunn OÖTjeuHueHHbix Hanuiı от 1 ceHxaöpa 1993 roaa ua HMH npeflcenaTejıa CoBera BesonacHOCTH. - facaHOB F. FTHCbMa в COBCT BesonacHOCTn OOH. 1992-1993, C. 275.**

**““ Azərbaycan Respublikasının dövlət nümayəndələrinin yaranmış vəziyyəti sülh yolu ilə nizama salmaq sahəsində fəaliyyəti haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 3 sentyabr 1993-cü il. - ARXİNA. 1993.**

dövlətlərinin ərazi bötüvlüyü və suverenliyi prinsipini təsdiqləyir, atəşin dayandırılmasına dair Minsk qrupunun səylərinə tərəfdar çıxırdılar®^^.

Sentyabrın 9-11-də Moskvada Minsk qrupu ölkələri nümayəndələrinin məsləhətləşmələri keçirildi. Məsləhətləşmələr zamanı BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin tələblərinin yerinə yetirilməsi, tənzimlənmənin hərbi və texniki tərəfləri müzakirə edildi. YVŞK- nin sentyabrın 21-23-də keçirilən görüşündə isə Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşünün təşkil olunması ideyası bəyənildi, Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi tövsiyə edildi®^^.

Azərbaycan tərəfi BMT və ATƏT-dəki fəaliyyətlə kifayətlənməyərək Ermənistan rəhbərliyi ilə ikitərəfli görüşlərin imkanından da istifadə etməyə başladı. Sentyabrın 25-də Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin toplantısında iştirak edən Heydər Əliyev Azərbaycanın həmin quruma üzv olması haqqında sənədi imzaladı. Həmin sənədin imzalamasına çoxlu beynəlxalq, regional, daxili siyasi, iqtisadi və digər amillərlə yanaşı Ermənistanın hərbi təcavüzünü dayandırmağa olan ümidlər də təsir etmişdi. MDB dövlət başçılarının Moskvada keçirilən toplantısında Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan ilə görüşdü^^^. Söhbət zamanı Azərbaycan - Ermənistan hərbi münaqişəsinə dair məsələlər ətrafında fikir mübadiləsi edildi, döyüş əməliyyatlarının dayandırılmasının və iki ölkə arasında sülh yaradılmasının zəruriliyi bildirildi. Fikir mübadiləsi nəticəsində tərəflər döyüş bölgələrində atəşkəsin müddətinin 1993-cü il oktyabrın 5-dən noyabrın 5-dək uzadılması barədə razılığa gəldilər.

Heydər Əliyev ilə Levon Ter-Petrosyanm görüşünün nəticələri Azərbaycan Respublikası Milli Məclisində müzakirə edildi. Milli Məclis Heydər Əliyevin məlumatını dinləyərək Levon Ter-Petrosyan ilə görü-

**Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 3 sentyabr 1993-cü il. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 29 aprel; “Diplomatiya aləmi” jurnalı, Bakı, 2004, yanvar-mart, Jfsö, s. 136-137.**

**21-23 September (Prague). 23"‘* Meeting of the Committee of Senior Offıcials. Journal No.3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.l8.**

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti L.Ter-Petrosyanla Moskva şəhərində görüşü haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 29 sentyabr 1993-cü il. - ARXfNA. 1993.**

şünü bəyəndi, Azərbaycan Respublikasının Ermənistan ilə sərhədboyu və digər rayonlarında döyüş əməliyyatlarına son qoyulması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin, sülhün və əmin-amanlığın bərqərar olunması naminə Ermənistan Respublikasının rəhbərliyi ilə əlaqələrini davam etdirməsini tövsiyə etdi.

Bu zaman Minsk qrupu da Ermənistanın təcavüzünü dayandırmaq və işğal edilmiş Azərbaycan ərazilərinin boşaldılması üçün fəaliyyətini davam etdirirdi. Belə ki, 1993-cü il sentyabrın 28-də Parisdə keçirilən görüşdə Minsk qrupunun üzvü olan ölkələrin hazırladığı yeni təxirəsalınmaz tədbirlər cədvəli tərəflərin müzakirəsinə verildi. Cədvəlin yeni layihəsində təklifləri nəzərə alınmadığı, BMT Təhlükəsizlik Şurasının 822, 853 saylı qətnamələrinə və Təhlükəsizlik Şurası sədrinin 18 avqust tarixli bəyanatına zidd olduğu, işğal edilmiş ərazilərin necə boşaldılması göstərilmədiyi üçün Azərbaycan tərəfi onu qəbul etmədi.

Azərbaycanda bu zaman prezident seçkiləri kampaniyası gedirdi. 1993-cü il oktyabrın 3-də Azərbaycanda prezident seçkiləri keçirildi. Heydər Əliyev böyük səs çoxluğu ilə qələbə qazandı. O, oktyabrın 10-da Prezident andı içdi. Andiçmə mərasimindəki nitqində Heydər Əliyev Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin həllinə dair Azərbaycanın mövqeyini birmənalı bəyan edərək dedi: “Biz, ümumiyyətlə, sülhsevər mövqe tutaraq, bu münaqişəni birinci növbədə sülh yolu ilə, danışıqlar yolu ilə həll etməyə üstünlük veririk. Biz Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in, BMT Təhlükəsizlik Şurasının, bu münaqişənin aradan qaldırılmasında iştirak edən bütün dövlətlərin və beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək, Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq üçün bundan sonra da səy göstərəcəyik”^^*.

Oktyabrın 6-14-də ATƏM nümayəndəsi, isveçli diplomat M.Moz-

berq münaqişəyə dair yekun hesabatı hazırladı . Hesabatda regionda yaranmış vəziyyət şərh olunmuşdu.

**Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.201-208.**

**Matias Mozberq - İsveç diplomatı. 1993-cü ildə ATƏT-in Minsk konfransının sədri funksiyasını yerinə yetirmişdir. İsveç XİN-də Yaxın Şərq və Afrika departa- mentinin rəisi vəzifəsində çalışmışdır. İsveçin Moskva, London və Nyu Yorkdakı diplomatik nümayəndəliklərində çalışmış, İordaniya və Mərakeşdə səfir işləmişdir. Yaxın Şərq məsələləri üzrə İsveçin səlahiyyətli nümayəndəsi olmuşdur.**

Azərbaycan isə Ermənistanın təcavüzünü dayandırmaq və işğal olunmuş əraziləri azad etmək üçün fəallığını daha da artıraraq beynəlxalq birliyə müraciətlərini davam etdirirdi. Azərbaycanın tələbləri üzrə toplanan BMT Təhlükəsizlik Şurası 1993-cü il oktyabrın 14-də keçirilən 3292- ci iclasında Ermənistan - Azərbaycan münaqişəsinə dair 874 saylı (S/RES/874 (1993)) qətnaməni qəbul etdi^^'. Qətnamədə yazılırdı; "Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının sədrinin Təhlükəsizlik Şurası sədrinin adma ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, münaqişə səbəbindən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar

**° 6 -14 October. Final report of the Mission of the Personal Representative of the CİO (M. Mossberg) to the area dealt with by the Conference on Nagomo Karabakh (Communication No.281/93 dated 21 October 1993). - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the P^agomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992- 2008, p.l8.**

PesojiKJUHH **874 (1993),** npnHHTaa CoBeroM **BesonacHOCTH na** ero **3292-м 3a-ceaaHHH 14 oxraSpa 1993 roaa. - ARXINA.1993; Resolution 874 (1993) Adopted by the Security Council at its 3292 nd Meeting on 14 October 1993. - Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p. 20-22.**

özünün ciddi narahatçılığını bir daha ifadə edərək, maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi səmərəli və daimi etməyə çağırır; ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir; 28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk qrupunun iclasında üzə çıxarılan və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəli"ni alqışlayır və tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır; münaqişədən irəli gələn və Yeniləşdirilmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsi vacibliyinə əmin olduğunu ifadə edir; bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun Yeniləşdirilmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır; ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, Yeniləşdirilmiş cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransının keçirilməsinə çağırır; baş katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və konfransın açılmasından sonra məsələyə dair başlanan danışıqlara bütün mümkün kömək göstərməyi xahiş edir; ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir; bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir; regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır; baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir; baş katibdən, ATƏM-in fəaliyyətdə olan sədrindən və ATƏM-in Minsk konfransının sədrindən Minsk

prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrin verilməsini davam etdirməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır”.

Qətnamənin qəbul edilməsindən bir neçə gün sonra, oktyabrın 16- da xarici işlər naziri Həsən Həsənov Minsk konfransının sədrinə məktub göndərərək ölkələri Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin pozulmasının qarşısının alınması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün daha səmərəli səylər göstərməyə çağırdı^’^. Yaranmış vəziyyəti öyrənmək üçün ATƏM sədri, İsveçin xarici işlər naziri Marqareta af Uqlas^’^ oktyabr ayının sonlarında regiona səfər etdi. Səfər çərçivəsində o, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşərək atəşin dayandırılması və münaqişənin həlli yolları barədə müzakirələr apardı*^^'*.

Görüş başa çatdıqdan sonra keçirilən birgə mətbuat konfransında Heydər Əliyev ATƏM-in fəal köməyinə ümid etdiklərini bildirdi®’^. ATƏM sədri hərbi əməliyyatların genişləndirilməsini dayandırmağı Ermənistan hökumətindən tələb etdi. Lakin çağırışlara məhəl qoymayan Ermənistan Marqareta af Uqlasın səfəri zamanı 710 kv. km ərazisi və 83 yaşa
yış məntəqəsi olan Zəngilan rayonunu oktyabrın 29-da işğal etdi . Əhalinin bir qismi öldürüldü. Rayonun təqribən 35 min nəfər əhalisi məcburi köçkünə çevrildi. Rayon ərazisindəki sənaye, səhiyyə müəssisələri, mədəni-maarif ocaqları, tarix və mədəniyyət abidələri dağıdıldı.

Zəngilan rayonunun işğal edilməsi ilə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların işğalını başa çatdırdı. Beləliklə, Ermənistanın təcavüzü nəticəsində yaranmış münaqişə daha da dərinləşdi.

**Letter by the Minister of Foreign Affairs of Azerbaijan to the chairman of the CSCE Minsk Conference. 16 October, 1993. - OSCE Archive in Prague. Minsk Conference. File JÇo809.**

**Marqareta af Uqlas - İsveçin xarici işlər naziri (1991-1994).**

**Əliyev H.Ə. ATƏM-in sədri Marqareta af Uqlas ilə görüşdə çıxış. 26 oktyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.210-215.**

**Əliyev H.Ə. Marqareta af Uqlas ilə danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında bəyanat. 26 oktyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, S.216.**

**ARXİNA. 1994. Qovluq fro9, v. 36.**

1993-cü il noyabrın 2-8-də ATƏM-in Minsk qrupunun üzvü olan dövlətlər Vyanada keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat verdilər. Bəyanatda döyüş əməliyyatlarının başlanması və yeni ərazilərin güc vasitəsi ilə tutulması ATƏM prinsiplərinin pozulması kimi qiymətləndirilir, işğalçı qüvvələrin Zəngilan və Horadiz rayonlarından birtərəfli qaydada çıxarılmasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə çağırış edilir, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu məsələsinin atəş dayandırıldıqdan, işğal edilmiş ərazilər boşaldıqdan sonra çağırılacaq Minsk konfransında müzakirə olunacağı vurğulanırdı. Görüşdə eyni zamanda təxirəsalınmaz tədbirlərə dair yeni cədvəl tərəflərə təqdim olundu. Lakin Azərbaycan tərəfi həmin cədvəlin Parisdə təqdim olunandan o qədər də fərqlənmədiyini əsas gətirərək qəbul etmədi. Çünki cədvəldə Ermənistan işğalçı qüvvələrinin Şuşa və Laçından çıxarılması nəzərdə tutulmur, həmin məsələyə Minsk konfransında baxılacağı qeyd edilirdi.

Noyabrın 9-da Avropa İttifaqı yeni bir bəyanat verdi^’’. Bəyanatda Dağlıq Qarabağ regionunda atəşkəs rejiminin pozulması pislənilir, işğal edilmiş ərazilərdən bütün qüvvələrin çıxarılmasına çağırış edilir, ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə əhəmiyyət verildiyi təsdiqlənir, silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən narahatlıq keçirilir, qaçqınların olmasının münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırdığı və regionun sabitliyi üçün təhdid olduğu qeyd edilir, zərər çəkmiş əhaliyə humanitar yardım etmək vəd olunur, münaqişənin siyasi vasitələrlə həlli istiqamətində Minsk qrupunun səylərini müdafiə edilirdi.

Ərazilərinin işğalı ilə barışmayan Azərbaycan Respublikası BMT baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistanın Azərbaycana qarşı birbaşa təcavüzünə cəlb etdi, təcavüzkara qarşı zəruri tədbirləri həyata keçirməyə çağırdı. Azərbaycan Respublikasının BMT yanında müvəqqəti işlər vəkili Yaşar Əliyev^^* bir sıra görüşlər keçirərək yaranmış şəraiti izah etdi. Azərbayca-

**Avropa Birliyinin Dağlıq Qarabağa dair bəyanatı. Brüssel, 9 noyabr 1993-cü il. - “Azərbaycan” qəzeti, Bakı, 1993, 20 noyabr; “ Diplomatiya aləmi” Jurnalı, Bakı, 2004, yanvar-mart, Jfsö, s.137.**

**Yaşar Əliyev (1955) - Azərbaycan Respublikası XİN məlumat və siyasi təhlil idarəsinin əməkdaşı (1989-1990), idarənin birinci katibi (1990-1991), rəis müavini (1991-1992), beynəlxalq təşkilatlar idarəsinin rəisi (1992), Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyində müşavir (1992-2001),**

nın tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası 1993-cü il noyabrın 12-də 884 saylı (S/RES/884 (1993)) qətnaməni qəbul etdi^^^. Qətnamədə yazılırdı; " Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini təsdiq edərək, ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının fəaliyyətdə olan sədrinin Təhlükəsizlik Şurası sədrinin adma ünvanlanmış 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək, Azərbaycan Respublikasının və regionda digər dövlətləinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək, son zamanda çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda. Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edil-

**daimi nümayəndə (2002-2006). ABŞ-da fövqəladə və səlahiyyətli səfir (2006- 2011). XİN-də xüsusi tapşırıqlar üzrə səfir (2011-2014). BMT yanında daimi nümayəndə, fövqəladə və səlahiyyətli səfir (2014-cü ildən).**

**PesojiıouHH 884 (1993),** npHHaTaa **COBCTOM BesonacHOCTH na** CBCCM **3313-M saceaaHHH 12 noaöpa 1993 roaa. - ARXİNA. 1993; Security Council. Resolution 884. - Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p.23-25; ARXİNA. 1994. Qovluq JVs 22, v. 90-91; Compilation of the UN documants on the Armenia - Azerbaijan Nagomo- Karabakh conflict. Baku, 2009, p. 55-57.**

məsini pisləyir; Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır; ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli bəyannaməsini alqışlayır və onun tərkibində atəşkəsin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir; maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəlinə" uyğun olaraq hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş başqa rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir; maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu effektiv və daimi etməyə, ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli iclasında edilmiş düzəlişlərlə birlikdə "Yeniləşdirilmiş cədvəl" kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır; regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır; baş katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun. Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaqdaköməklik etməyi xahiş edir; baş katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk konfransının sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini davam etdirmək barədə xahişini təkrar edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".

Lakin Ermənistan həmin qətnaməyə də məhəl qoymadı. Azərbaycan isə Ermənistanın təcavüzünü dayandırmaq üçün diplomatik səylərini

dayandırmadı. Azərbaycan tərəfi Ermənistanın təcavüzünə dair məsələni 1993-cü il noyabrın 30-dan dekabrın 1-dək ATƏM üzvü olan ölkələrin Nazirlər Şurasının Romada keçirilən dördüncü görüşündə^^° də qaldırdı. Görüşdə etdiyi məruzəsində xarici işlər naziri Həsən Həsənov Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ bölgəsində separatçılığı dəstəkləməsi, Azərbaycan ərazilərini işğal etməsi, "Böyük Ermənistan" yaratmaq iddiaları haqqında faktlar əsasında geniş məlumat verdi, 1989- cu il dekabrın 1-də Ermənistan Respublikası Ali Sovetinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini özünə birləşdirmək barədə qərar qəbul etdiyini vurğuladı. O, Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT sənədlərini yerinə yetirmədiyini, ATƏT-in fəaliyyətdə olan sədrinin səfərləri zamanı yen-yeni rayonları işğal etdiyini, Azərbaycan Respublikasının İran ilə sərhədinin işğalçı qüvvələrin nəzarəti altına düşdüyünü qeyd etdi. Bütün bunlara baxmayaraq, Azərbaycan tərəfinin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu vurğuladı^*'.

Elə həmin gün Ermənistan tərəfi Azərbaycanın sülh planına cavab kimi ATƏM Nazirlər Şurasına bir məktub göndərərək münaqişəni sülh yolu ilə həll etmək istəyini bildirdi^*^. Bu, erməni diplomatiyasının bir manevri idi. Verdiyi bəyanatlarında sülhə tərəfdar olduğunu göstərsə də, Ermənistan ATƏT Nazirlər Şurasının iclasında konsensus vermədiyindən münaqişəyə dair qərar qəbul edilmədi.

**30 November-1 December 1993 (Rome). 4*" Council of Ministers of Foreign Affairs. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.19-20.**

**İntervention Hassan Hassanov, Minister of Foreign Affairs of the Azerbaijan Republic. CSCE Council, Rome, November 30, 1993. - OSCE Archive in Prague. Statement by head of ministerial delegation to the Fourth Meeting of the Council of Foreign Ministers of the CSCE. November 30, 1993. Rome, 30 November-1 December, 1993. File N9251; Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda, s. 13.**

**Republic of Armenia. Ministry of Foreign Affairs. Statement on the Azerbaijan rejection on the CSCE Minsk Group Peace plan . - OSCE Archive. Statement by head of ministerial delegation to the Fourth Meeting of the Council of Foreign Ministers of the CSCE. November 30, 1993. Rome, 30 November-1 December, 1993. FileN2251.**

Tədbirin gedişində ATƏM-in fəaliyyətdə olan sədri, İtaliyanın xarici işlər naziri Beniamin Andreotti^*^ Minsk konfransının yeni sədri Yan Eliassonu**'* təqdim etdi.

Beləliklə, 1992-1993-cü illərdə münaqişənin həlli üçün hüquqi və siyasi əsaslar yaradıldı. Həmin əsaslar beynəlxalq hüququn norma və prinsiplərindən, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrindən, ATƏM və digər beynəlxalq təşkilatların müvafiq sənədlərindən doğurdu. BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul etdiyi qətnamələrində Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləyir, düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırırdı. Təhlükəsizlik Şurası ATƏM-in Minsk qrupunun səylərini bəyənərək Minsk prosesi çərçivəsində münaqişənin həlli yollarının axtarılmasına çağırış edirdi.

Lakin həmin qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Yerevan təcavüzkarlıq siyasətindən imtina etmədi. Heç şübhəsiz, Ermənistan Azərbaycan ərazilərini işğal edərkən daha çox Rusiya siyasi və hərbi hakimiyyətindəki bəzi şəxslərin antiazərbaycan mövqeyinə güvənirdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli üstündə bu zaman Rusiya və ATƏT arasında rəqabət gedirdi. 1993-1994-cü illərdə ATƏM ilə Rusiya hansının sülhməramlı qüvvələrinin münaqişə zonasına göndərilməsi məsələsində mübahisələr

edirdilər®*^ Rusiya həmin əraziyə sülhməramlı qüvvələr adı altında öz əs-

**Beniamin Andreotti (1928 - 2007) - İtaliya siyasətçisi və iqtisadçısı. 1984- 1989-cu illərdə Avropa Parlamentinin üzvü. İtaliyanın maliyyə, xarici işlər və müdafiə nazirləri vəzifələrində işləmişdir.**

**Yan Eliasson (1940) - İsveç diplomatı. 2005-2006-cı illərdə BMT Baş Məclisinin sədri. 2006-cı ilin aprel-dekabr aylarında İsveçin xarici işlər naziri. 2006- cı ilin dekabrından BMT baş katibi Kofı Annanm Sudanda, Darfurda xüsusi nümayəndəsi.**

**Nadia Kirilova Milanova. The conflict over Nagomo Karabakh 1992-2002: Ten years of missed conflict resolution opportunities. Two volumes. Second**

gərlərini göndərmək və hərbi bazasını qurmağa çalışırdı^*^. 1993-cü ilin sonunda Rusiya Xarici İşlər Nazirliyi Dağlıq Qarabağ münaqişəsinin həlli planını təqdim etdi. Buna görə, bir sıra məsələlərlə yanaşı Azərbaycan - İran sərhədi Rusiyanın nəzarətinə keçməli, Azərbaycanda Rusiya hərbi bazaları qurulmalı və Azərbaycanın Xəzər dənizində iqtisadi maraqları 10 mil məsafəlik zona ilə məhdudlaşmalı idi®*'. Azərbaycan həmin təklifləri qəbul etmədi. Həm də sülhməramlı qüvvələrin yerləşdirilməsi üçün münaqişədə iştirak edən tərəflərin razılığı lazım idi. Lakin həmin məsələdə fikir birliyi mövcud deyildi.

Bütün bunlara baxmayaraq, münaqişənin nizama salınması səyləri 1994-cü ildə də davam etdirildi. Ermənistanın Azərbaycana qarşı təcavüzü genişləndiyi bir zamanda Avropa İttifaqının sədrliyi adından 1994-cü il yanvarın 17-də Afina və Brüsseldə®** yayılmış bəyanatlarda təşkilat Dağlıq Qarabağ regionunda irimiqyaslı döyüş əməliyyatlarının başlanmasından dərin narahatlıq hissi keçirir, Azərbaycanın ərazi bütövlüyü prinsipini bir daha dəstəklədiyini bildirir, münaqişənin sülh yolu ilə nizamlanmasına dəvət edirdi.

Yanvarın 18-də Moskvada Rusiyanın xarici işlər naziri Andrey Kozırev Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov, yanvarın 20-də isə Ermənistanın xarici işlər naziri Raffi Ovanesyan ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə etdi. Bundan bir müddət sonra, fevralın 18-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşündə Rusiyanın hazırladığı və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsinə köməyi nəzərdə tutan 16 maddədən ibarət plan müzakirə edildi®*^. Ziddiyyətlərlə dolu olan həmin plana əsasən Ermənistan tərəfi Azərbaycan torpaqlarında olan əsgərlərini Dağlıq Qarabağa (sanki Dağlıq Qarabağ regionu Azərbaycana məxsus deyilmiş) toplamalı; Dağlıq

**volumes. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November 2002, p. 296.**

**Yeltsin Kahasları zorluyor. - "Zaman" gazetesi, İstanbul, 1994,17 Nisan. (heflopoB K). KacnHHCKaa HecJiTb H Me>KnyHapoaHas öesonaHOCXb. BbinycK 1. AHajiHTHHecKMH flOKJiaÄ no MarepuaııaM MeÄÄyHapoaHOH KonıjıepeHLiHH, c. 106-107.**

**Avropa İttifaqının sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 1994-cü il 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike. Azərbaycan. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2004, yanvar-mart, XaO, s. 137-138. Rus planı ölüm fermanı. - "Zaman" gazetesi, İstanbul, 1994, 24 Nisan.**

Qarabağ bölgəsi ilə Azərbaycan arasındakı bufer zonaya sülhməramlı qüvvələr gətirilməli (sülhməramlı qüvvələr dedikdə, Rusiya hərbi qüvvələri nəzərdə tutulurdu); Laçın rayonu dəhliz olaraq elan edilməli və erməni hərbi qüvvələrinin nəzarətində olmalı; Azərbaycan tərəfi Kəlbəcər və Laçında olan hərbi və texniki avadanlığı tələb etməməli (Azərbaycana məxsus olan işğaldan əvvəlki hərbi avadanlıq nəzərdə tutulurdu); Şuşaya əvvəlcə erməni əsgərləri yerləşdirilməli, sonra isə 60 min azərbaycanlı köçkün qaytarılmalı; sülh danışıqlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi erməniləri tərəf kimi qəbul edilməli; Azərbaycan - Ermənistan - Naxçıvan arasında kommunikasiyalar açılmalı; Azərbaycan - Ermənistan sərhədinə Azərbaycan ordusu tərəfindən nəzarət edilməməli; işğal edilmiş rayonlar azad edildikdən sonra oraya Azərbaycan ordu hissələri yeridilməməli; Dağlıq Qarabağın respublika statusu tanınmalı; Kür və Araz çayları arasındakı ərazi təhlükəsizlik bölgəsi elan edilməli idi və s.

Təklif edilən layihədə işğal olunmuş ərazilərin boşaldılmasından söz gedəndə Şuşa və Laçının adı çəkilmir, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun sonralar güzəştli zəmində müəyyən ediləcəyi, boşaldılmış ərazilərə hərbi qüvvələrin yerləşdirilməsinin MDB Birləşmiş Qərargahına həvalə olunacağı nəzərdə tutulurdu®^”. Bu təkliflər xeyli ziddiyyətli və mübahisəli idi.

Buna baxmayaraq, 1994-cü il fevralın 18-də Moskvada Azərbaycan, Ermənistan və Rusiya müdafiə nazirləri arasında mayın 8-9-dan etibarən atəşkəs elan ediləcəyi haqqında saziş imzalandı. Az sonra Rusiya müdafiə nazirinin müavini və digər şəxslər Bakıya və Yerevana səfər edərək atəşkəsə dair müzakirələr apardılar.

1994-cü il martın 2-4-də YVŞK-nin 25-ci iclasında regionda yaranmış humanitar vəziyyətin ağır olduğu vurğulandı, Yan Eliassona hərtərəfli kömək göstərilməsi barədə qərar qəbul edildi®^'. Yan Eliasson regiona səfər etdi. Şəraitlə tanış oldu. O, aprelin 6-da BMT Təhlükəsizlik Şurasının sədrinə bölgədə yaranmış ağır vəziyyətə dair məktub göndərdi®^^.

**Martin Sieff. Armenia Armed by Russia for battles with Azerbaijan. - “The Washington Times”, 1997, 10 April.**

**2-4 March (Prague). 25* Meeting of the Committee of Senior Officials. Journal No. 3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.21.**

**6 April. Letter from Jan Elliason to the President of the Security Council of the United States. - OSCE Archive in Prague. Decisions, adopted texts and**

Aprelin 14-15-də Minsk qrupunun Praqada keçirilən qeyri-rəsmi görüşündə etimadı möhkəmləndirmək tədbirləri müzakirə edildi . Görüşdə Azərbaycan Prezidentinin mövqeyini əks etdirən məktub da müzakirə olundu. Rusiyanın məlum planı müzakirəyə çıxarıldı. Lakin görüş iştirakçıları nizamlama prosesində üstünlük qazanmaq niyyəti güdən həmin planı məqbul saymadılar. Görüşün nəticəsində etimadı möhkəmləndirmək tədbirlərinə dair sənəd işlənib hazırlandı. Ermənistan Azərbaycanın işğal edilmiş rayonlarının boşaldılmasından söhbət gedəndə Şuşa və Laçın rayonlarından çıxmaqdan imtina edərək Minsk qrupuna verilmiş mandatı təftiş etmək yolunu tutdu. Danışqlarda böhranlı vəziyyət yarandı. Aprelin 14-də Yan Eliasson qrupun üzvləri adından müvafiq bəyanat verərək mülki əhali və obyektlərə qarşı hücumları pislədi®^'*.

Az sonra Vladimir Kazimirov Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə Azərbaycan tərəfi müzakirələr prosesini davam etdirməyə hazır olduğunu bildirdi.

Azərbaycan eyni zamanda beynəlxalq fəaliyyətini də genişləndirdi. Heydər Əliyev 1994-cü il mayın 4-də Brüsselə səfəri zamanı NATO-nun Sülh naminə tərəfdaşlıq proqramına Azərbaycan Respublikasının qoşulması barədə sənədi imzaladı.

Rusiya isə məlum planını qəbul etdirmək üçün səylərini daha da artırdı. 1994-cü il mayın 4-5-də Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkekdə Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair növbəti görüş keçirildi. Görüşdə Azərbaycan və Ermənistan parlamentinin üzvləri iştirak edirdilər. Hazırlanmış protokolda Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında silahlı münaqişənin dayandırılmasına hər vəchlə kömək edilməsi, tezliklə müvafiq saziş bağlanması, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi üçün MDB və

**background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.21.**

**14-15 April. (Prague) İnformal Meeting of the Minsk Group. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.21.**

**On the occasion of a Meeting of the CSCE Minsk Group in Prague this week, the Chairman of the Group: Ambassador Jan Eliasson made the following statement on behalf of the nine Members of the Group. Prague, 13 April 1994. - OSCE Archive in Prague. Minsk Conference. File Re 809.**

Parlamentlərarası Assambleyanın fəal rol oynaması qəbul edilir, atəşi dayandırmağa və müşahidəçiləri yerləşdirməyə, işğal edilmiş ərazilərdən orduları çıxarmağa, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmalarına dair çağırış edilirdi. Görüşün yekununda Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nümayəndəsi Bişkek protokolunu imzaladı. Regionun azərbaycanlı əhalisinin nümayəndəsinə isə belə bir imkan verilmədi. Ona görə də Azərbaycan tərəfi yekun protokoluna imza atmadı. Lakin bir müddət sonradan müvafiq qeydlərlə, "müşahidəçilər" sözünün əvvəlinə "beynəlxalq", "tutulmuş ərazilər" əvəzinə "işğal edilmiş ərazilər" ifadəsini yazmaqla Azərbaycan parlamentinin sədri və Dağlıq Qarabağ regionunun azərbaycanlı icmasının nümayəndəsi sənədi imzaladı.

Bişkek protokolu Azərbaycanda birmənalı qarşılanmadı. Milli Məclisdə bir neçə deputat onun əleyhinə çıxış etdi.

Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi Vladimir Kazimirova görə, Rusiya planının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Birinci mərhələdə altı gün ərzində atəşkəs elan edilməli idi. İkinci mərhələdə Azərbaycanın Dağlıq Qarabağ regionundan kənarda işğal edilmiş 6 rayon 34 gün ərzində boşaldılmalı idi. Üçüncü mərhələdə Dağlıq Qarabağ bölgəsinin statusuna dair müzakirələrə başlanılmalı idi. Onun fikrincə, həmin planı qəbul etməklə Azərbaycan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını geri qaytarır, Şuşa və Laçının taleyi ilə bağlı müzakirələr etmək imkanı qazanırdı®^. Vladimir Kazimirov Şuşa üçün Qüds (Yerusəlim) kimi ortaq şəhər statusu düşünürdü. Lakin həmin plan beynəlxalq hüquq normaları baxımından qüsurlu, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyinə zidd olduğundan rəsmi Bakı tərəfindən rədd edildi. Bununla belə, atəşkəsə nail olundu.

Rusiya və ATƏM-in səyləri ilə 1994-cü il mayın 9-da Ermənistan və Azərbaycan mayın 12-dən etibarən atəşkəs elan etdilər. Atəşkəs elan edildikdən sonra, mayın ortalarında ABŞ Dövlət Departamentinin yeni müstəqil dövlətlər üzrə əlaqələndiricisi Ceyms Kollinz və ABŞ-ın Minsk qrupundakı nümayəndəsi Cozef Pressel Yerevan, Bakı, Ankara və Moskvaya səfər edərək danışıqlar apardılar. Azərbaycan və ABŞ ATƏM-in və Minsk qrupunun səylərini müdafiə edirdilər. Atəşkəsin elan edilməsinin ardınca mayın 16-17-də Moskvada Rusiya, Ermənistan və Azərbaycan müdafiə nazirlərinin görüşündə atəşin tamamilə dayandırılmasını və Böyük siyasi sazişin imzalanmasını nəzərdə tutan sənəd layihəsi müzakirə

[695] **, 'Zaman" gazetesi, İstanbul, 1994, 17 Mayıs.**

edildi. Azərbaycan tərəfi həmin görüşə ATƏM nümayəndəsinin də çağırılmasını təklif etdi. Vladimir Kazimirov münaqişəni nizamlamanın birinci mərhələsinin, yəni atəşin dayandırılması və atəşkəsin möhkəmləndirilməsinin əsas məsələ olduğunu bildirdi. İkinci mərhələyə qədəm qoymaq üçün Böyük siyasi saziş imzalanmalı, bundan sonra işğal edilmiş ərazilərdən qoşunlar çıxarılmalı idi. Görüşdə Vladimir Kazimirov Azərbaycanın Dağlıq Qarabağ regionunda sülhməramlı qüvvələrin tərkibində Rusiya tərəfinin fəal olması təklifini irəli sürdü. Lakin onun yazdığına görə, Azərbaycanın müdafiə naziri ölkə rəhbərliyinin göstərişi ilə həmin görüşü tərk edərək sənədi imzalamadı®^®. Türk mətbuatı isə yazırdı ki, müdafiə nazirləri hərbi əməliyyatlar bölgəsində əsgərlərin geri çəkilməsini və oraya Rusiya əsgərlərinin yerləşdirilməsini nəzərdə tutan planı imzaladılar®^'.

Beləliklə, "nə sülh, nə də hərb" vəziyyəti yarandı®^*. BMT baş katibi müraciət olacağı təqdirdə ATƏM-in nəzərdə tutulan müşahidəçilər missiyasına texniki kömək göstərməyə hazır olduğunu bildirdi®®^. Lakin münaqişə bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilmədi.

Azərbaycan tərəfinin atəşkəsə razı olması yaranmış real şəraitdən doğurdu. Azərbaycan ya əlverişsiz beynəlxalq şəraitdə ölkəyə böyük maddi və mənəvi ziyanlar vuran, nə zaman bitəcəyi bilinməyən qanlı müharibəni davam etdirməli, ya da atəşkəsin elan edilməsinə razı olaraq sosial- iqtisadi sahələrdə islahatlar aparıb, yeni neft strategiyasını həyata keçirməklə ölkəyə daha çox xarici sərmayə cəlb etməli, xalqın həyat səviyyəsini yüksəltməli, ordusunu gücləndirməli, beynəlxalq mövqelərini möhkəmləndirməli idi. Azərbaycan Respublikası yaranmış şəraitə praqmatik yanaşdı. Real şəraitdən çıxış edərək atəşkəsə razılıq verdi. Məhz bu zamandan etibarən Azərbaycan Respublikasında əsl dövlət quruculuğu prosesi başladı.

° **KasHMupoB В.Н. Мир KapaSaxy. nocpeaHHHecTBO Россuu В yperyjıupoBa-HHH HaropHO-KapaöaxcKoro KoucjiJiHKTa, c. 190.**

**"Zaman" gazetesi, İstanbul, 1994, 17 Mayıs.**

**Marla Raquel de Sousa Freire. Conflict and Security in the former Soviet Union. The Role of the OSCE. A thesis submitted to the University of Kent at Canterbury in the subject of International Relations for the degree of doctor of philosophy. June 2001, p.l43; İst Senior Council Meeting, Charman's Summary, Annaex to SC (1/95) Journal 2, agenda item 5, Mart 31, 1995.**

**Вухрос Вухрос Tajın. Во нмн МНрa н pasBurna. 1994. fonoBon floıoıan o paöoxe opraHHsauHH. Hbio-HopK, 1994, c. 257.**

## Atəşkəs elan edildikdən sonra diplomatik səylər

Atəşkəs elan edilsə də, Azərbaycana qarşı Ermənistanın terroru da yanmadı™”. Bu da səbəbsiz deyildi. Ermənistanda terror dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Erməni terror təşkilatları üçün Ermənistan əlverişli bir məkana çevrilmişdi. Dövlət terror təşkilatlarını nəinki himayə edir, eyni zamanda onların fəaliyyətini genişləndirməyə şərait yaradırdı. ABŞ tədqiqatçısı Grahan H.Turbivellenin yazdığı kimi, erməni terror təşkilatları ilə sıx əməkdaşlıq edən ASALA keçmiş sovet respublikası olan Ermənistanda bazasını qurmuşdu™'. Qeyd etmək lazımdır ki, 1989-1994-cü illərdə Ermənistan Azərbaycan mülki əhalisinə və obyektlərinə qarşı 28 dəfə terror aktı həyata keçirmişdi. Nəticədə 2 mindən çox Azərbaycan vətəndaşı ölmüş, yaralanmış və ya zədə almışdı™^. Bakı metropolitenində törədilən partlayışlar bir sıra xarici ölkələrin kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdı™^. Sonrakı illərdə Ermənistan terror təşkilatlarının və xüsusi xidmət orqanlarının Azərbaycana qarşı törətdikləri terror aktlarının sayı 32-yə çatdı^”'*.

Bu zaman Rusiya planından fərqli olaraq Yan Eliasson da Azərbaycanın Dağlıq Qarabağ regionuna beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi planını işləyib hazırladı. Plan tərəflərə təqdim olundu. Azərbaycan onu qəbul etdi. Ermənistan isə Yan Eliassonun planına cavab verməyi yubadaraq vaxt qazandı. Yerevanın belə mövqe tutmasına Rusiyanın müdafiə naziri Pavel Qraçovun böyük təsiri oldu’”^ Çünki Minsk prosesi çərçivəsində davam edən çoxtərəfli səylər Moskvanı narahat edirdi.

**ARXİNA. 05.10.2001-07.11.2001.Qovluq Xbö, v.177-184; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003.**

**Grahan H.Turbivelle, Jr. The organized grime dimension on regional conflict and operations other than war. - Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr.,Richard H. Shultz, Jr. Washington, U.S.Government printing office,1994, p.l29.**

**XpoHHKa HeKOTopbix TeppopHCTHHecKHx H flHBepcMOHHbix aKu,HH, coBepuieH- Hbix в A3ep5aHÄ>KaHe aa nepHon 1989-1994 rr. - ARXİNA. 1994. Qovquq Xa S, v.16- 22.**

**™ ARXİNA. 29.01.1993-11.08.1994. Qovluq X22I, v. 4-5.**

**ARXİNA. 05.10.2001 -07.11.2001. Qovluq JÇs6, v. 177-184**

**Taha Akyol. Kafkaz denklemi. - “Milliyet” gazetesi, İstanbul, 1994, 26 Mayıs.**

Rusiya münaqişənin tənzimlənməsində təşəbbüsü hər vədilə əlində saxlamağa çalışırdı. Həmin məqsədlə Vladimir Kazimirov Bakı, Yerevan və Tehrana səfər etdi.l994-cü il iyunun 28-də isə o, Ankaraya gəldi™^. Türkiyə diplomatları ilə birlikdə münaqişənin həllinə dair Rusiya planını müzakirə etdi. Vladimir Kazimirovun sözlərinə görə, İran bu plana tərəfdar idi. Türkiyə tərəfi Rusiyanın təqdim etdiyi planda müsbət məqamlar olsa da, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin yalnız ATƏM çərçivəsində həllinin mümkünlüyünü, Şuşa və Laçının azad edilməsi nəzərə alınmadığı üçün onun qəbuledilməz olduğunu bəyan etdi.

Vladimir Kazimirovun səfərindən dərhal sonra ABŞ-m MDB ölkələri üzərində xüsusi nümayəndəsi Cozef Pressel Ankaraya səfər etdi. Müzakirələr zamanı ABŞ da Rusiya planının əleyhinə çıxdı. Cozef Pressel ABŞ-ın Avropa şəhərlərinin birində Heydər Əliyev ilə Levon Ter- Petrosyan arasında görüşü təşkil etmək niyyətini bildirdi™^.

Bu zaman Minsk qrupunun Ankarada keçirilən iclasında Azərbaycanın Dağlıq Qarabağ regionuna göndəriləcək beynəlxalq sülhməramlı qüvvələrin Ərzurumda arxa təminat qrupunun yaradılması və həmin qrupun tərkibinə Türkiyədən 4 zabitin daxil edilməsi barədə prinsipial razılıq əldə edildi”^. Lakin bu barədə Türkiyəyə rəsmi müraciət daxil olmadı.

Rusiyanın hazırladığı saziş layihəsi 1994-cü il iyulun 7-8-də Minsk qrupunun Vyanada keçirilən iclasında müzakirə edildi. Artıq qeyd edildiyi kimi, sülhməramlı qüvvələrin tərkibinin formalaşdırılması məsələsində ATƏM ilə Rusiya arasında fikir ayrılığı mövcud idi. Rusiya münaqişənin həllində xüsusi rol oynamaq istəsə də, Minsk qrupunun üzvləri olan Qərb dövlətləri münaqişənin yalnız ATƏM çərçivəsində həllinə üstünlük verirdilər. Belə ki. Yan Eliassonun təqdim etdiyi plana əsasən ATƏM münaqişənin nizama salınmasında çoxtərəfli vasitəçiliyin olmasına, sülh prosesinin beynəlxalq müşahidəçilərin nəzarəti altında aparılmasına, beynəlxalq sülhyaratma qüvvələrinin formalaşmasına üstünlük verirdi. Rusiya isə münaqişənin nizama salınmasını öz nəzarətində saxlamağa çalışırdı.

Beləliklə, münaqişəsinin nizamlanması məsələlərində ATƏM ilə Rusiya arasında hakim rol oynamaq uğrunda mübarizə getdiyindən ümumi razılıq əldə edilmədi. Buna baxmayaraq, münaqişənin həlli cəhdləri də dayandırılmadı. 1994-cü ilin iyul ayında Azərbaycan və Ermənistan prezi-

**“Zaman” gazetesi, İstanbul, 1994, 29 Haziran.**
**ARXİNA. 29.01.1993-11.08.1994. Qovluq Jfo21, v. 1-2, 89-90.**
708 **ARXINA. 29.01.1993-11.08.1994. Qovluq Xe21, v. 92-93.**

dentlərinin Moskvada keçirilən görüşdə atəşkəsin davam etdirilməsi barədə razılıq əldə olundu.

Münaqişənin həllinə dair məsələlər ABŞ-ın da diqqətində idi. İyulun 29-da ABŞ-ın Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Con Mareska konqresin Helsinki komissiyasında münaqişənin həllinə dair təkliflərini irəli sürdü. Həmin təkliflər aşağıdakılardan ibarət idi: Dağlıq Qarabağ regionu suveren Azərbaycan Respublikasının daxilində onunla sərbəst şəkildə birləşmiş, özü-özünü idarə edən, hüquqi şəxs kimi yenidən Dağlıq Qarabağ Respublikası kimi təsis edilsin; Ermənistan və Azərbaycan bir- birilərinin ərazilərinə keçmək üçün qarşılıqlı tranzit hüquqlarına dair saziş imzalasınlar; qaçqınlara beynəlxalq monitorinq üçün nəzərdə tutulmuş müəyyən kəndlərə qayıtmağa icazə verilsin; bütün Ermənistan və Azərbaycan, “DQR” də daxil olmaqla azad ticarət zonası olsun; bütün razılaşmalar iki sənədə daxil edilərək Minsk konfransında imzalanacaq diplomatik həllin əsası olsun; həmin sənədlərin müddəalarına ATƏM və BMT Təhlükəsizlik Şurası tərəfindən təminat verilsin; ABŞ Qafqazda ərazi məsələlərinin həllinə cəlb edilməsin, lakin o, “DQR” və Ermənistan arasında, Ermənistan və Azərbaycanın bir hissəsi olan Naxçıvan arasında keyfiyyətli yol tikintisində təşəbbüskarlığı əlinə alsın; regionda iqtisadiyyatın bərpası üçün maliyyə vəsaiti toplanması məqsədi ilə donor tərəfinin konfransı təşkil edilsin.

C.Mareskanın təklifləri üzrə çıxış edən Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev münaqişənin həllinin ən azı dörd istiqamətini göstərdi: Azərbaycan və Ermənistan respublikaları arasında dövlət səviyyəsində silahlı münaqişə; azərbaycanlıların mərkəzi hökuməti və Azərbaycanın Dağlıq Qarabağ regionunun etnik ermənliləri arasında münaqişə; Dağlıq Qarabağ regionunun qovulmuş azərbaycanlı icması ilə ermənilər və Ermənistan Respublikası arasındakı münaqişə; Ermənistandan qovulmuş azərbaycanlı qaçqınlar və Ermənistan Respublikası arasındakı münaqişə. Bildirirdi ki, ölkənin suverenliyini pozan heç bir qərarı Azərbaycan hökuməti qəbul edə bilməz. Hafiz Paşayev münaqişənin həllində ABŞ və Qərbin fəal iştirakı istəyini müsbət qiymətləndirdi, bu məsələdə qərəzsiz olmalarını şərt hesab etdi, Azərbaycana qarşı 1992-ci ilin payızında ədalətsiz olaraq tətbiq edilmiş Azadlığı müdafiə aktına 907-ci düzəlişin ləğvinin vacibliyini diqqətə çatdırdı, münaqişənin həllində ATƏM-in roluna tərəfdar çıxdı. Azərbaycan səfiri eyni zamanda C.Mareskanın təkliflərində olan bəzi məqamlara diqqəti yönəltdi. Həmin təkliflərdə işğal edilmiş Azərbaycan ərazilərindən işğalçı qüvvələrin çıxarılması göstərilmirdi.

Azərbaycan Dağlıq Qarabağ regionuna heç bir zaman tam müstəqillik verə bilməzdi. Ermənistandan və Azərbaycanın Dağlıq Qarabağ regionundan qovulan azərbaycanlılar, Azərbaycandan getmiş ermənilər evlərinə qayıtmalı idilər™^.

Ermənistan ilə Azərbaycan arasında atəşkəsin imzalanması Avropa İttifaqı tərəfindən müsbət qarşılandı. Təşkilat avqustun 5-də'"° və sentyabrın 15-də'" Brüssel və Bonn şəhərlərində yaydığı bəyanatda atəşkəsin yaradılmasını təqdirəlayiq hesab edir, ATƏT-in Minsk qrupuna səylərinə görə təşəkkür edirdi.

Bu zaman, sentyabrın 14-15-də Praqada Yüksək Vəzifəli Şəxslərin 28-ci görüşü keçirildi. Görüşdə atəşkəsin yaradılması bəyənildi''^.

Az sonra, 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair dünyanın iri neft şirkətləri ilə müqavilə imzalandı. Bu, tarixi əhəmiyyət daşıyan hadisə idi. "Əsrin müqaviləsi"nin imzalanması Qərbin Azərbaycana marağının artmasına təsir etdi''^.

Lakin həmin hadisə Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığına qarşı çıxan, regionu özünün nüfuz dairəsi hesab edən bəzi ölkələr tərəfindən heç də yaxşı qarşılanmadı. Azərbaycana edilən təzyiqlər artdı. Belə şəraitdə Azərbaycandakı müəyyən qruplar fəallaşmağa başladılar. Baş Nazir Surət Hüseynov 1994-cü il oktyabrın 4-5-də dövlət çevrilişinə cəhd etdi. Prezident Heydər Əliyev müraciət edərək xalqı Prezident sarayının qarşısına çağırdı. Xalq dövlət rəhbərini və legitim hakimiyyəti müdafiə etdi.

**Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s.29-35.**

**Avropa İttifaqının sədrliyi adından Dağlıq Qarabağa dair 1994-cü il 5 avqust tarixində Brüssel və Bonn şəhərlərində yayılmış kommünike. - "Diplomatiya aləmi"jumalı, Bakı, 2004, yanvar-mart, ftbö, s.l38.**

**'Avropa İttifaqının sədrliyi adından Dağlıq Qarabağa dair 1994-cü il 15 sentyabr tarixində Brüssel və Bonn şəhərlərində yayılmış kommünike. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2004, yanvar-mart, Xsö, s.138-139.**

**14-15 September (Prague). 28* Meeting of the Committee of Senior Offcials. Journal No. 3. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.20-21.**

**BocrpHKOB C. B. KapaSaxcKHH KpHSHC n nonwTHKa PoccHH na KaBxase. - "HesaBHCHMaa rasexa". M., 1996, 12 aarycTa.**

Xarici ölkələrin mətbuatı həmin hadisəyə xüsusi diqqət yetirdi. Dərc edilən məqalələrdə Azərbaycan xalqının Heydər Əliyevə inamı və ölkənin müstəqilliyini qoruyub saxlamaq əzmində olduğu xüsusi vurğulanırdı’*".

Qiyamın yatırılmasında az sonra, oktyabrın 17-də Minsk qrupunun Vyanada keçirilən görüşündə İtaliya nümayəndəsi münaqişə zonasına göndərmək üçün çoxmillətli qüvvələr yaratmağı təklif etdi. Plana əsasən münaqişə bölgəsinə 3 min nəfərə qədər hərbçinin və hərbi texnikanın göndərilməsi nəzərdə tutulurdu. Sülhməramlı qüvvələrin göndərilməsi məsuliyyətini Minsk qrupu üzərinə götürürdü. ATƏM üzvü olan 52 dövlət İtaliyanın təklifini müdafiə etdi. Həmin təkilfə görə, sülhməramlı qüvvələrin tərkibində Rusiyaya 33%, Almaniya və Avstriyaya 33%, Vişeqrad qrupuna (Çexiya, Polşa, Macarıstan, Slovakiya) 33% yer ayrılırdı. Rusiya sülhməramlı qüvvələrinə rus generalı, ATƏM qüvvələrinə isə Finlandiya generalı komandanlıq etməli idi. Münaqişənin həllində xüsusi rola sahib olmağa çalışdığından Rusiya həmin təklifi etirazla qarşıladı. Onun himayə etdiyi Ermənistan da beynəlxalq sülhməramlı qüvvələrin münaqişə bölgəsinə gətirilməsini nəzərdə tutan plana qarşı çıxdı.

Sülhməramlı qüvvələrin yaradılması və regiona göndərilməsi məsələsi bir müddət sonra Rusiya Prezidenti Boris Yeltsin ilə ABŞ Prezidenti Bili Klinton’*^ arasında keçirilən danışıqlarda da müzakirə edildi. Boris Yeltsin sülhməramlı əməliyyatlarda Rusiyaya 70% yer ayrılmasım tələb etdi. Bili Klinton isə Rusiyaya 50%, digər iştirakçılara da 50% ayrılmasına razı idi’*^.

Sülhməramlı qüvvələrin formalaşdırılması və göndərilməsi məsələsi 1994-cü ilin oktyabr ayının sonlarında Azərbaycan Respublikasına səfər edən BMT baş katibi Butros Butros Qalinin’*’ keçirdiyi görüşlərdə

**ARXİNA. 29.08.1994-11.10.1994. Qovluq X921, v.47.**

**Bili Klinton (1946) - 1978-ci ildə Arkanzas ştatının qubernatoru seçilmişdir. Demokratlar Partiyasından senator olmuşdur. ABŞ Prezidenti (1993-1997, 1997-** 2001).

**■'*® ARXİNA.1994. Qovluq Xs 22, v.53-54.**

**Butros Butros Qali (1922) - 1971-ci ildə Misir Ərəb Respublikasının xarici işlər naziri təyin edilmişdir. Misir-İsrail danışıqlarında iştirak etmişdir. 1981-ci ildə Prezident Ənvər Sadatın qətlindən sonra da bu vəzifədə qalmışdır. 1992- 1996-cı illərdə Birləşmiş Millətlər Təşkilatının baş katibi. O, bu vəzifəni tutan ilk misirli, ilk Afrika nümayəndəsi olmuşdur. Bakı Dövlət Universitetinin fəxri doktoru (1994).**

də müzakirə edildi. BMT baş katibini qəbul edən Heydər Əliyev Azərbaycanın Minsk qrupunun ciddi fəaliyyət göstərməsi üçün şərait yaratdığını söylədi, işğal edilmiş ərazilərin boşaldılması, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması, Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizliyinin təmin, Azərbaycanın Dağlıq Qarabağ regionunda demoqrafik şəraitin bərpa edilməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasının vacibliyini onun diqqətinə çatdırdı.

Baş katib münaqişənin həllinə dair layihəsini təklif etdi. Həmin layihəyə görə, Ermənistan ilə Azərbaycan arasında BMT-nin sülhməramlı qüvvələri yerləşdirilməli, Azərbaycanın ərazi bütövlüyü qorunmalı; sərhədləri mühafizə edilməli və ona hörmət edilməli; Azərbaycanın Dağlıq Qarabağ regionunda asayiş bərqərar edilməli; Azərbaycanın işğal edilmiş əraziləri boşaldılmalı idi. Butros Butros Qali BMT-nin münaqişəyə dair münasibətinin və qəbul etdiyi qətnamələrin aşağıdakı dörd əsas prinsip üzərində qurulduğunu söylədi: Azərbaycan Respublikasının ərazi bötüvlü- yü; sərhədlərinin toxunulmazlığı; ərazi zəbt etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyi; işğal edilmiş bütün ərazilərdən qoşunların qeyd- şərtsiz və təcili çıxarılması.

BMT baş katibi münaqişənin həllinə dair təşəbbüslərin çox olmasının sülhün bərqərar edilməsinə çətinlik yaratdığını vurğulayaraq üç əsas məsələnin həlli üçün çalışacağını bildirdi: BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsini təmin etmək; Minsk qrupunun regionda sülhyaratma əməliyyatlarını həyata keçirməsini maksimum dəstəkləmək, sülh və təhlükəsizliyin bərqərar olması naminə və müharibə cəhdlərinin təkrarlanmasına yol verməmək üçün həmin təşəbbüslər arasında əlaqələndirici rolu oynamaq.

Beləliklə, BMT baş katibi münaqişənin tənzimlənməsində təkbaşına hökmranlıq, inhisarçılıq cəhdlərinə qarşı çıxdı, çoxtərəfli səyləri və Minsk qrupunun fəaliyyətini müdafiə etdi. O, bu münaqişənin həm Ermənistan, həm də Azərbaycan üçün bütün ciddiliyini, xüsusən humanitar sahədə nəticələrini bilavasitə qiymətləndirdi’'^.

Mövqelərin toqquşması 1994-cü il dekabrın 5-6-da ATƏM üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə keçirilən zirvə toplantısında da özünü göstərdi. Zirvə görüşündə Azərbaycan Respublikasının Prezi-

[718] Вухрос ВуТрос Тапп. НаВсrpeny новwм BbisoBaM. foflOBOH aoKjıaa flenTejibHOCTH **OOH.** Hbio-HopK, **1995,** c. **321.**

denti Heydər Əliyev başda olmaqla nümayəndə heyəti iştirak edirdi”^. Dağlıq Qarabağ münaqişəsi xüsusi bir məsələ kimi ilk dəfə zirvə görüşünün gündəliyinə salındı™. Sammitdə həmin məsələ barəsində ABŞ Prezidenti Bili Klinton, BMT baş katibi Butros Butros Qali və b. çıxış edərək münaqişənin həlli məsələsində çoxtərəfli sülh səylərini müdafiə etdilər.

Ermənistan Prezidenti Levon Ter-Petrosyan çıxışında millətlərin öz müqəddəratını təyinetmə prinsipini bu münaqişəyə tətbiq etməyə, Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qələmə verməyə cəhd göstərdi.

Sammit çərçivəsində Heydər Əliyev ilə Levon Ter-Petrosyan arasında görüş keçirildi. Heydər Əliyev hamı üçün ədalətli sülhün təmin olunması, işğal edilmiş ərazilərin boşaldılması, məcburi köçkünlərin ev- eşiklərinə qayıtması şərtlərini irəli sürdü. Levon Ter-Petrosyan isə guya Ermənistanın blokadada saxlanılması, millətlərin öz müqəddəratını təyin etməsi. Dağlıq Qarabağın statusu haqqında ümumi ifadələr işlətməklə münaqişənin həllindən yayınmağa çalışdı.

Dekabrın 6-da zirvə görüşündə etdiyi nitqində Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğal edildiyini, azərbaycanlıların öldürüldüyünü, yaralandığını və əlil olduğunu, əsir düşdüyünü, doğma ocaqlarından qovulduğunu və çadır şəhərciyində yaşamağa məcbur olduğunu, işğal edilmiş Azərbaycan ərazilərində şəhər və kəndlərin dağıdıldığını, bütün evlərin, məktəblərin, xəstəxanaların yandırıldığını və qarət edildiyini, ən qədim mədəniyyət abidələrinin məhv edildiyini fakt və materiallar əsasında iştirakçıların diqqətinə çatdırdı^^'. Təcavüzün ağır nəticələrinə baxmayaraq, Ermənistan tərəfinə ədalət və humanizm prinsipləri, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında sülh təklif etdi, Azərbaycan dövlətinin Dağlıq Qarabağ regionunun erməni icmasının təhlükəsizliyinə zəmanət verməyə hazır olduğunu, münaqişə zonasına ATƏM-in sülhməramlı qüvvələrinin yerləşdirilməsinə razılaşdıqlarını, erməni azlığının hüquqlarının həyata keçirilməsini, Azərbaycan Respub-

**^ CSCE. Budapest summit. 1994. Journal X22. - OSCE Archive in Prague. OSCE Budapest summit. 1994. File JV°210.**

**™ UJyKiopoB H. ByaaneıuTCKHH caMMHT. Eaıcy, 1995.**

**’■' Statement Heydar Aliyev, President of the Azerbaijan Republic. - OSCE Archive in Prague. CSCE. Budapest summit. 1994. Journal Jf22; OSCE Archive in Prague. OSCE Budapest summit. 1994. File JÇ9 217; Əliyev H.Ə. ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə çıxış. 6 dekabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.573-576.**

likasının Dağlıq Qarabağ regionu ilə Ermənistan Respublikası arasında nəqliyyat kommunikasiyalarının normal fəaliyyət göstərməsini təmin etmək üçün Azərbaycan Respublikası tərkibində statusunu müzakirə etməyə hazır olduqlarını bildirdi. Heydər Əliyev Azərbaycan tərəfi üçün aşağıdakı norma və prinsiplərin müzakirə mövzusu olmadığını birmənalı olaraq bəyan etdi: sərhədlərin toxunulmazlığı; Azərbaycanın ərazi bütövlüyü; Ermənistan silahlı dəstələrinin bütün işğal edilmiş ərazilərdən çıxarılması; qaçqınların doğma yerlərinə qayıtması.

Budapeşt sammitində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏT- in fəaliyyətinin fəallaşması adlı 5 bənddən ibarət qətnamə qəbul edildi™. Qətnaməyə əsasən iştirakçı dövlətlər ATƏT rəhbərliyi altında ilk çoxmillətli sülhməramlı kontingentin Dağlıq Qarabağ bölgəsinə göndərilməsi haqqında razılıq əldə etdilər; çağırılacaq Minsk konfransında həmsədrlik institutunu təsis etdilər; atəşkəsin davamlı olmasına kömək etmək üçün dərhal addımlar atmağa və silahlı münaqişə başa çatdıqdan sonra siyasi sazişin imzalanması üçün müntəzəm görüşlər keçirməyə razılaşdılar. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi sazişin əldə edilməsi məqsədi ilə görüşlər keçirmək tapşırığı verdi. Həmin saziş münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk konfransının çağırılmasına imkan verməli idi. Budapeşt sammitindən sonra Rusiyaya Minsk qrupunda həmsədrlik səlahiyyəti verildi.

Budapeşt zirvə toplantısı Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə böyük dövlətlərin diqqətinin artdığını göstərdi. Avropa tədqiqatçısı Nadia Kirilova Milanova yazır ki, Budapeşt zirvə görüşü Rusiyanın Dağlıq Qarabağ münaqişəsində geosiyasi üstünlüyünün qarşısını almaq üçün vacib aktiv

**^ Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. Zirvə görüşü. Budapeşt. 6 dekabr 1994-cü il. II. Regional məsələlər. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏM fəaliyyətinin fəallaşması. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, >fc2, s.117-118; 6 December (Budapeşt) Budapeşt Summit Document. Extract from shapter II devoted to Regional Issues İntensification of CSCE action in relation to the Nagorno Karabakh conflict. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.23-24.**

və hələ ki, səmərəsiz olan ATƏT cəhdlərini yekunlaşdırdı’^^. Zirvə görüşünün gözlənilən müsbət nəticələrindən biri ATƏT-in keçmiş sovet respublikaları ərazisində səmərəli siyasi təşkilat kimi nüfuzunun artması və yer qazanması oldu.

Budapeşt sammitində ATƏM-in fəaliyyətində ciddi keyfiyyət dəyişikliyi baş verdi. ATƏM 1995-ci il yanvarın 1-dən etibarən yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyənləşdirən, sülh, demokratiya və insan hüquqlarının qorunmasını, üzv ölkələrin təhlükəsizliyini təmin edən və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən, özünüidarə mexanizmi olan ümumavropa təşkilatına - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) çevrildi. Müşavirədən təşkilata çevrilmək qurumun tarixində yeni bir mərhələnin başlanğıcı idi. Zirvə toplantısında “Yeni dövrdə əsl tərəfdaşlığa doğru” adlı bəyannamə qəbul edildi”^

Budapeşt zirvə görüşünün yekunlarına uyğun olaraq hələ 1993-cü ilin may ayında təşkil edilmiş İlkin Əməliyyat Planlaşdırma Qrupunun (İƏPQ) əvəzində silahlı münaqişənin dayandırılmasına dair tərəflər arasında saziş imzalandıqdan sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi və sülhyaratma əməliyyatlarını hazırlayan Vyana mərkəzi hərbi nümayəndələrindən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) yaradılması haqqında 1994-cü il dekabrın 20-də qərar qəbul olundu.

Minsk qrupu çərçivəsində nizamlanma səyləri 1995-ci ildə də davam etdirildi. Buna həsr edilmiş ilk görüş həmin il fevralın 6-11-də Ermənistan və Azərbaycan nümayəndələri arasında Moskvada keçirildi. Görüşə sədrlik edən Minsk qrupunun həmsədri Rusiyanın xarici işlər naziri Andrey Kozırev belə bir fikir söylədi: “Azərbaycan - Ermənistan münaqişəsi nəticəsində beynəlxalq sülh qüvvələri tezisi qəbul edilmişdir”. Bu, ATƏT-in Budapeşt zirvə görüşündə bölgəyə beynəlxalq sülh qüvvələrin göndərilməsi barədə qərarın Moskva tərəfindən qəbul edilməsi demək idi. Ermənistan isə yenə də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasını danışıqlarda tərəf kimi tanıtmağa çalışdı, azərbaycanlı əhalini

**Nadia Kirilova Milanova. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolition opportunities. Two volumes. First volume. To the University of Exter as a thesis for the degree of doctor of philsophy in politics. Novemver 2002, p.256.**
**™ CSCE. Budapeşt Documant 1994. Towards a Genuine Partnership in a new era. Budapeşt, 1994, p. 1-4.**

nəzərə almadı, münaqişə zonasına yerləşdirilməsi nəzərdə tutulacaq sülhməramlı qüvvələrin tərkibində Türkiyə nümayəndələrinin olmasına qarşı çıxdı. Nizamasalmanın başlanmasına mane olan digər bir məsələ Laçın və Şuşadan Ermənistan silahlı qüvvələrinin çıxarılmaması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu məsələsi idi. Moskva görüşündə Ermənistan tərəfi Laçın və Şuşa məsələsinin müzakirəsini Dağlıq Qarabağın statusu müəyyənləşdirildikdən sonra keçirməyi təklif etdi. Lakin həmin iddialar Azərbaycan tərəfindən rədd olundu. Moskva görüşü uğursuz nəticələndi. Bununla belə, iclasda Azərbaycan və Ermənistan atəşkəsin pozulması hallarında bir-birilərinə xəbər vermək üçün mexanizmin yaradılmasını qərara aldılar. Əsirlərin hamısının dəyişdirilməsi barədə qərar qəbul edildi™.

Moskva görüşü Ermənistanın münaqişənin tez bir zamanda sona çatdırılmasını, Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmaq istəmədiyini göstərdi. Qeyd etmək lazımdır ki, bu zaman Ermənistan rəhbərliyinə təkcə ölkə daxilində deyil, xarici ölkələrdəki diaspora tərəfindən də təzyiqlər edilirdi. “Türkish Daily News” qəzeti Levon Ter-Pet- rosyanm ABŞ və Fransada yaşayan ermənilərin siyasi təzyiqlərindən bezdiyini yazırdı.

Moskva görüşündən sonra, 1995-ci il fevralın 28-də ABŞ nümayəndəsi Cozef Pressel Bakıya səfər etdi. O, Azərbaycan Prezidenti Heydər Əliyev və xarici işlər naziri Həsən Həsənov ilə görüşdükdən sonra münaqişənin həlli üçün Azərbaycanın güzəştə getməsinin vacibliyini vurğuladı’^®. Bir tərəfdən Rusiyanın Ermənistanı dəstəkləməsi, digər tərəfdən isə ABŞ-m Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycandan güzəşt tələb etməsi təcavüzkar Ermənistanı daha cəsarətləndirir və şirnikləndirirdi. Belə ki, C.Presselin səfəri başa çatdıqdan bir neçə gün sonra, martın 5- də Ermənistan hərbi hissələri Tovuz və Qazax rayonlarının sərhəd kəndlərini top atəşinə tutdu. Bu, həm təcavüz, həm Azərbaycana qarşı güc nümayiş etdirmək, həm də Azərbaycan neftinin Gürcüstan ərazisindən keçərək dünya bazarlarına çıxarılmasına mane olmağa yönəlmişdi’”.

Əbəs deyildir ki, bu zaman müəyyən daxili və xarici qüvvələr Azərbaycan Respublikasında sabitliyi pozmaq üçün müxtəlif vasitələrdən is-

**™ ARXİNA. 26.05.1994-15.06.1994. Qovluq ftbS, v.28-31; Sedat Sertoğlu. Ermenistanın işi zordur. - “Sabah” gazetesi, İstanbul, 1995, 15 Şubat.**

**“Zaman” gazetesi, 1995, 3 Mart.**

**Nedim Yalçın. Ateşkes, boru hatı için mi bozuldu? ■ “Zaman” gazetesi, İstanbul, 1995, 14 Mart.**

tifadə edirdilər. Belə hadisələrdən biri 1995-ci ilin martında baş verdi. Xüsusi təyinatlı polis dəstəsi dövlətə tabe olmayaraq dövlət çevrilişini həyata keçirmək üçün cəhd etdi. Azərbaycanda daxili ictimai-siyasi vəziyyət gərginləşdi. Martın 13-17-də Bakıda dövlət çevirlişi cəhdi baş verdi. Lakin xalq hakimiyyəti müdafiə etdi. Nəticədə çevriliş baş tutmadı və iflasa uğradı. Azərbaycan Respublikası Milli Məclisi Bakıda fövqəladə vəziyyət elan etdi. Bir müddət sonra fövqəladə vəziyyətin müddəti 60 gün də uzadıldı. Bu barədə Azərbaycan hökuməti BMT-yə müvafiq məlumat verdi™.

Regionda baş verən mürəkkəb proseslərə baxmayaraq, Minsk qrupu münaqişənin həlli istiqamətində səylərini davam etdirirdi. Martın 23-də ATƏT-in fəaliyyətdə olan sədri Minsk prosesinin həmsədrlərinə mandat verdi (DOC.525/95). Mart ayının sonlarında Minsk qrupunun həmsədrləri olan V.Kazimirov və A. Bürner münaqişə bölgəsinə səfər etdilər. Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu məsələsini müzakirə etmək cəhdləri, Şuşa və Laçını boşaltmaq istəməməsi sülh prosesinin pozulmasına gətirib çıxardı. Bundan sonra Ermənistan atəşkəs rejimini daha çox pozmağa başladı. Etiraz olaraq Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Tofiq Zülfüqarovun’^®ATƏT-in Minsk konfransının həmsədrləri Valentin Lozinski və Yan Eliassona göndərdiyi məktubunda Ermənistan silahlı qüvvələrinin 1995-ci il martın 7-dən 31-dək olan müddətdə atəşkəsi 38 dəfə pozduğu qeyd edilirdi’^®.

Martın 30-da xarici işlər naziri Həsən Həsənov BMT-nin Bakıdakı ofisinin rəhbəri Mahmud Əl Səid ilə görüşdü’^'. Görüşdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələləri müzakirə edildi. Mahmud Əl Səid Minsk qrupu həmsədrlərinin regiona səfərinin nəticələri ilə maraqlandı. Həsən Həsənov Ermənistan tərəfinin danışıqlarda Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ermənilərinə status vermək tələblərini hüquqa zidd adlandırdı. Belə cəhdlər danışıqları dayandırmağa yönəlmişdi. Daha sonra Mahmud Əl Səid görüşlərdə Laçın və Şuşa mövzusunun qaldırılıb-qaldırılmadığı ilə

**™ ARXİNA. 1995. Qovluq Ns S, v. 67-68.**

**Tofiq Zülfüqarov (1959) - diplomat. 1994-cü ildə xarici işlər nazirinin müavini təyin edilmişdir. 1998-ci ildə fövqəladə və səlahiyyətli səfir rütbəsi verilmişdir. Xarici işlər naziri (1998-1999). Azərbaycan Respublikasının Latviyadakı (2005-2010), Estoniyadakı (2010-cu ildən) fövqəladə və səlahiyyətli səfiri.**

**™ ARXİNA. 1995. Qovluq Xo22, v.87-94.**

**ARXİNA. 1995. Qovluq NsS, v.79-80.**

maraqlandı. Həsən Həsənov ermənilərin yeni bir təklifinin olmadığını bildirdi. Görüşdə Azərbaycandakı qaçqın və məcburi köçkünlərə BMT xətti ilə ediləcək yardımlar məsələsinə də toxunuldu. Mahmud Əl Səid azərbaycanlı qaçqınlara BMT-nin yardımlar etməsinə çalışacağını bildirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə Minsk qrupunun fəaliyyəti əsasən üç istiqamətdə davam edirdi; atəşkəs rejiminin gücləndirilməsi; hərbi münaqişənin dayandırılması məqsədi ilə böyük siyasi saziş bağlamaq üçün danışıqlar prosesinin davam etdirilməsi; humanitar məsələlərin həll edilməsi. Münaqişənin həllində başlıca maneələrdən biri Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının ayrıca tərəf kimi tanınmasına dair Ermənistanın tələbi idi.

Münaqişə bölgəsində vəziyyət 1995-ci il aprelin 6-7-də Stokholmda Minsk qrupunun görüşündə müzakirə olundu. İclasın sonunda bəyanat qəbul edildi. İştirakçı dövlətlər münaqişə zonasında atəşkəs rejiminin qorunub-saxlanılmasını bəyənir; regiondakı şəraiti və danışıqlar prosesindəki vəziyyəti nəzərə alaraq münaqişədə iştirak edən tərəfləri hərbi əməliyyatların yenidən başlanmamasma xüsusi diqqət yetirməyə çağırır; siyasi sazişə dair danışıqları davam etdirməyə və münaqişənin nəticələrini heç bir ilkin şərt qoymadan aradan qaldırmağa dəvət edirdilər.

Bu zaman İsveçrənin fəaliyyət müddəti başa çatdığı üçün həmsədrlik funksiyası Finlandiyaya tapşırıldı’^^. Aprel ayında Minsk konfransının fmlandiyah həmsədri Heyki Talvitiye’^^ və Minsk qrupunun həmsədri Rene Niberq münaqişə bölgəsinə səfər etdilər. Keçirdikləri görüşlərdə onlar tərəflər arasında danışıqların sürətləndirilməsinə çalışdılar.

Belə bir şəraitdə münaqişənin nizama salınmasının ATƏT-dən alınaraq BMT-yə verilməsinə dair müxtəlif fikirlər səslənirdi. Azərbaycan tərəfi həmin müjahizələri məqsədəmüvafıq hesab etmirdi. Çünki hər şeyin yenidən başlanması işğalın davam etməsini uzadar və məcburi köçkünlərin evlərinə qayıtmasına mane olardı.

Bu zaman BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatının layihəsi hazırlanmışdı. Azərbaycan tərəfi həmin bəyanata düzəlişlər edilməsinə çalışırdı^^'*. Bu mümkün olmadıqda isə onun olduğu kimi qəbul edilməsinə

**OSCE. Handbook. Vienna, 1996, p.39.**

**Heyki Talvitiye (1939) - Finlandiyanın BMT yanında daimi nümayəndəsi (1972-1976). 1980-ciılədək Finlandiyanın Moskvadakı səfiriliyinin əməkdaşı BMT-nin insan hüquqları üzrə komissarı (1982-1984). ATƏT-in Minsk konfransının həmsədri (1995-1996).**

**ARXİNA. 1995. Qovluq Xa S, v. 75-76.**

qarşı idi. Çünki layihədə BMT Təhlükəsizlik Şurasının əvvəlki məlum qətnamə və bəyanatlarındakı məlum prinsipial müddəalarından geri çəkilmə var idi. Konkret olaraq layihədə heç bir yerdə Azərbaycanın adı çəkilmirdi; Dağlıq Qarabağ regionunun Azərbaycana aid olduğu xatırlanmırdı; Azərbaycanın suverenliyi və ərazi bütövlüyü, zor gücünə ərazilərin tutulmasının yolverilməzliyi, Laçın və Şuşa da daxil olmaqla işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tamamilə, qeyd-şərtsiz və tezliklə çıxarılması tələbi yox idi; regionda vəziyyətin qiymətləndirilməsi üçün BMT baş katibinə müraciət yer almamışdı; ATƏT-in Minsk qrupunun səylərinin dəstəkləndiyi göstərilmirdi; qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmalarının vacibliyi qeyd edilmirdi.

Azərbaycan belə bir layihədə ya düzəlişlərinin edilməsi, ya da bu mümkün olmadıqda qəbul edilməsinə mane olmaq üçün fəallığını artırdı. Xarici işlər naziri Həsən Həsənov Nyu Yorkda səfərdə olan xarici işlər nazırının müavini Araz Əzimova və Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəsi Eldar Quliyevə'^^ 1995-ci il aprelin 21-də məktub göndərərək layihənin Azərbaycan üçün məqbul olmadığını bildirdi^^'. Onlara layihəyə Azərbaycanın mövqelərini əks etdirən düzəlişləri daxil etmək tapşırığını verdi.

Azərbaycan bununla da kifayətlənmədi. Həsən Həsənov aprelin 26- da ABŞ, Almaniya, Böyük Britaniya və Fransanın Bakıdakı səfirlərini qəbul etdi^^*. Görüşdə BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatının layihəsi müzakirə edildi. AFR səfiri bildirdi ki, onun hökuməti üçün layihədə göstərilən “münaqişə tərəfləri” və “maraqlı tərəflər” ifadələri ilə bağlı problem yoxdur. Almaniya hökumətinin fikrincə, mühüm elementlər cərgəsində atəşkəs haqqında siyasi sazişin, Azərbaycanın ərazisinin bütövlü-

**Araz Əzimov (1962) - şərqşünas, diplomat. XİN informasiya şöbəsinin müdiri (1991-1992). Beynəlxalq təşkilatlar idarəsinin rəisi (1992-1994). Xarici işlər nazirinin müavini (1994-cü ildən). Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə Azərbaycan Respublikası Prezidentinin şəxsi nümayəndəsi.**

**Eldar Quliyev (1939) - 1963-1965, 1969-1973 və 1973-1976-cı illərdə SSRİ- nin Misirdəki səfirliyində, 1978-1983-cü illərdə İstanbuldakı baş konsulluğunda, 1984-1990-cı illərdə Yəməndəki səfirliyində və SSRİ XİN aparatında, 1990- 1994-cü illərdə Rusiya Federasiyası XİN aparatında baş müşavir işləmişdir. 1994- 2001-ci illərdə BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi. Rusiyada fəaliyyət göstərən Azərbaycan konqresinin icraçı direktoru.**

**ARXfNA.1995. Qovluq XsS, v. 57-58. '**

**Yenə orada, v. 52-53.**

yünün təsdiqinin və problemin ATƏT çərçivəsində dinc yolla həllinin xatırlanması zəruriliyi idi. Almaniya hökuməti ATƏT çərçivəsindən kənara çıxmaq üçün edilən hər hansı cəhdin əleyhinə çıxırdı.

Fransa səfiri qeyd etdi ki, BMT Təhlükəsizlik Şurası sədrinin belə bir bəyanatı qəbul etməsinin məqsədəmüvafiq olub-olmaması hələ açıq qalır. Onun fikrincə, İsveç və Finlandiya hazırki mərhələdə həmin bəyanatı səmərəsiz sayırdılar. Fransa Azərbaycanın və regionun digər ölkələrinin ərazi bütövlüyünə tərəfdar çıxır, Minsk qrupunun mandatının və münaqişəyə dair ATƏT-in Budapeşt zirvə görüşünün qərarlarının dəyişdirilməsinin əleyhinə idi.

Böyük Britaniyanı təmsil edən nümayəndə isə ölkəsinin işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş ərazilərindən bu və ya başqa formada çıxarılmasını müdafiə etdiyini birmənalı olaraq bildirdi. Onun məlumatına görə, BMT-dəki Azərbaycan nümayəndəsi "münaqişə tərəfləri" ifadəsinə etiraz etdiyi üçün kompromis variant təklif olunmuşdu və hazırda həmin təklifə baxılırdı. Son variant Böyük Britaniya səfirliyinə məlum deyildi. Bu və ya başqa termini müzakirə etmək isə onun səlahiyyəti çərçivəsindən kənar idi.

ABŞ səfirliyinin nümayəndəsi isə Azərbaycanın mövqeyini Vaşinqtona və Nyu Yorka çatdırdığını, lakin hələ cavab almadığını bildirdi.

Görüşü yekunlaşdıran Həsən Həsənov Azərbaycan üçün mühüm olan dörd elementi qeyd etdi: münaqişə tərəflərinə münasibətdə Budapeşt zirvə görüşünün terminologiyası təkrar edilsin; Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təsdiq edilsin və mətndə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu" ifadəsi işlədilsin; işğal edilmiş bütün ərazilərdən işğalçı qüvvələr çıxarılsın; danışıqları davam etdirmək üçün 1992-ci il 24 mart tarixli mandat xatırlansın.

Həsən Həsənov ölkəsinin mövqeyini Azərbaycan Respublikasının BMT yanındakı daimi nümayəndəliyinə də göndərərək üzv ölkələrin nümayəndələri ilə sənəd üzərində işlərkən onlara çatdırmağı xahiş etdi.

BMT Təhlükəsizlik Şurasının sədri 1995-ci il aprelin 26-da bəyanat verərək ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərini müdafiə etdi, münaqişə tərəflərini ilkin şərtlər və prosedur əngəllər olmadan konstruktiv danışıqlar aparmağa çağırdı. Təhlükəsizlik Şurası dinc nizamasalma üçün tərəflərin məsuliyyət daşıdığım qeyd etdi'^'.

**Вухрос Еугрос Тапп. НаВсrpeny** noBbiM BbiaoBaM. **ToaoBOH aoKJiaa aeaTejibHOCTH OOH, c. 320.**

1995-ci il mayın 15-də Moskvada Minsk qrupunun təşəbbüsü ilə Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü keçirildi. Lakin bu görüşün nəticəsi olmadı^"°.

Ermənistan danışıqlar prosesindən hər vəchlə qaçmaq və təcavüzkarlıq siyasətindən diqqəti yayındırmaq üçün müxtəlif bəhanələr axtarırdı. Nəhayət, belə bir bəhanə tapıldı. Gürcüstan ərazisindən Ermənistana keçən qaz boru kəməri partladıldı. Mayın 22-də Ermənistan tərəfi bəyanat verərək Gürcüstan Respublikası ərazisində qaz boru kəmərinin guya “Azərbaycan hökumətinin agentləri tərəfindən partladıldığını” bəhanə gətirərək Minsk qrupu çərçivəsində keçirilən görüşlərdə iştirakını dayandırdığını rəsmi şəkildə bildirdi.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi mayın 23-də bəyanat verdi’"'. Bəyanatda Ermənistanın əsassız iddiaları rədd edilirdi. Göstərilirdi ki, Azərbaycan Respublikası təkcə təcavüzün deyil, həm də terrorun obyektidir, onun qurbanları yüzlərlə günahsız adamlar olmuşdur, Ermənistan Respublikasının Azərbaycana qarşı terroruna dair təkzibedilməz faktları dəfələrlə təqdim etmişdir, özündə faciəvi nəticələri hiss edən Azərbaycan beynəlxalq terrorizmi pisləmişdir və indi də pisləyir. Ermənistan tərəfinin guya faktlara əsaslanması Azərbaycana qarşı təcavüzündən diqqəti yayındırmaq məqsədi güdürdü. Həmin siyasətin nəticəsində Azərbaycan ərazilərinin 20%-i işğal edilmiş, etnik təmizləmə həyata keçirilmiş, 1 milyondan çox azərbaycanlı daimi yaşayış yerlərindən qovulmuşdu. Bəyanatda həmin faktlar göstərildikdən sonra qeyd edilirdi ki, bununla əlaqədar olaraq BMT Təhlükəsizlik Şurası Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874, 884 saylı qətnamələrini qəbul etmişdir, lakin həmin qətnamələr təcavüzkar tərəfindən inkar edilir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını atəşkəs rejimini pozmağa və ictimai rəyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinin dərinliklərinə hücuma hazırlaşmağa yönəldilmiş təxribat adlandırdı. Ermənistan hökuməti bununla beynəlxalq birliyin iradəsini qəbul etmir, vasitəçilik səylərindən imtina edərək Azərbaycana qarşı təcavüzkar siyasətinin nəticələrini möhkəmləndirməyə çalışırdı. Bəyanatda belə bir sual verilirdi; Minsk qrupu çərçivəsində keçirilən görüşlərdə iştirakını dayandıran və yeni ilkin şərtlər irəli sürən Ermənistan hansı yollarla, hansı vasitələrlə münaqişəni tən-

**' “Zaman” gazetesi, İstanbul, 1995, 16 Mayıs.**

**ARXİNA. 1995. Qovluq NsS, v. 28-29.**

zimləmək istəyir? Azərbaycan Respublikası atəşkəs rejiminə əməl edəcəyini və ATƏT çərçivəsində münaqişənin həllinə sadiq qalacağını bəyan edirdi.

Yaranmış vəziyyəti aradan qaldırmaq üçün ATƏT-in YVŞK-nin sədri, macarıstanlı İştvan Dyarmoti Azərbaycana və Ermənistana səfər etdi. Ermənistan tərəfinin işğalı davam etdirmək üçün müxtəlif vasitələrdən istifadəyə yönələn mövqeyi ucbatından danışıqların bərpası üçün edilən səylər bir nəticə vermədi.

Ermənistan nəhayət, həmsədr ölkələrin iradəsini yerinə yetirərək müzakirələrə başlamağa məcbur oldu. İyun-iyul aylarında Minsk qrupu çərçivəsində Helsinki və Badendə keçirilən görüşlər Ermənistanın əsassız iddiaları ucbatından uğursuz nəticələndi.

1995-ci il iyulun 1-5-də Stokholmda (İsveçdə) Minsk qrupu çərçivəsində keçirilməsi nəzərdə tutulan növbəti görüş ərəfəsində rusiyalı həmsədr V. Kazimirov həmsədrlər tərəfindən təklif edilmiş və artıq razılaşdırılmış bəzi məsələləri yeni variantda hazırlayaraq tərəflərə göndərdi. Onun təkliflərində “Dağlıq Qarabağın müvəqqəti hüdudları” ifadəsi işlədilirdi. Belə yanaşma Azərbaycanın etirazına səbəb oldu. Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Tofiq Zülfüqarov Minsk konfransının həmsədrləri olan Heyki Talvitiyeyə və Valentin Lozinskiyə iyunun 28-də məktub göndərərək həmsədrlər tərəfindən təklif edilmiş və artıq razılaşdırılmış bəzi məsələlərin Minsk qrupunun rusiyalı həmsədri V.Kazi- mirov tərəfindən dəyişdirilərək “Dağlıq Qarabağın müvəqqəti hüdudları” kimi yazılıb tərəflərə təqdim edilməsindən ciddi narahatlıq keçirdiklərini, həmsədrlərin Moskva görüşündə irəli sürdükləri təkliflər əsasında işləməyə hazır olduqlarını bildirdi. Azərbaycanın rəsmi mövqeyni bir daha bəyan etdi’"^.

V.Kazimirovun belə ifadələr işlətməsi Azərbaycanın Dağlıq Qarabağ regionunun gələcək hüdudlarının genişləndirilməsi niyyətlərini güdürdü. Stokholmda keçirilən görüşdə Şuşa və Laçından Ermənistan silahlı qüvvələrinin çıxarılması, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun statusu məsələləri müzakirə edilərkən Ermənistan tərəfi qəbul edilməsi mümkün olmayan bir sıra tələblər, o cümlədən Goranboy rayonunun boşaldılması təklifini irəli sürdü. Bu görüş də nəticəsiz başa çatdı.

1995-ci ilin ikinci yarısından etibarən Minsk qrupunun fəallığı artdı. ABŞ, Türkiyə və Almaniya ATƏT-in Minsk qrupundakı nümayən-

■ **ARXİNA. 1996. Qovluq X2 22, v. 80.**

dələrinə münaqişənin həlli prosesində iştirak etmək üçün xüsusi səlahiyyətli səfir statusu verdilər. Bundan sonra ABŞ-ın xüsusi nümayəndəsi Cozef Pressel və ATƏT-dəki xüsusi nümayəndəsi Sem Braun’"*^ regiona səfər etdilər.

1995-ci il avqustun 28-də isə ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə şəxsi nümayəndəsi vəzifəsi təsis olundu.

Minsk qrupu çərçivəsində növbəti görüş sentyabrın 3-9-da Moskvada oldu. Ermənistan tərəfi Şuşa və Laçın boşaldılması məsələsinin əvvəl, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun isə sonradan müzakirə edilməsinə razılıq- verdi. Yerevanın belə mövqe tutması səbəbsiz deyildi. Ermənistan tərəfinin Azərbaycanın əvvəllər təklif etdiyi həmin məsələnin müzakirəsinə razılıq verməsi manevr olub, danışıqları uzatmaq, ona havadarlıq edənlərin isə münaqişənin həllindən ötrü bütün vasitələri əllərində saxlamaq məqsədi güdürdü.

Sentyabr ayında BMT baş katibi ATƏM səylərini müdafiə etmək məqsədi ilə müavini Aldo Aello başda olmaqla nümayəndə heyətini regiona göndərdi’"*". Görüşlər keçirən nümayəndə heyəti baş katibə müvafiq mərizəsini təqdim etdi.

Bundan az sonra, sentyabrın 11-12-də Minsk qrupunu üzvü olan ölkələrin nümayəndələri Moskvada toplaşaraq münaqişənin həlli üçün təkliflər paketi üzərində işlədilər’'*^. Müzakirələr davam edərkən Ermənistan silahlı qüvvələri sentyabrın 14-də Azərbaycanın Gədəbəy rayonunun kəndlərini top atəşinə tutdu. Bu, mövcud atəşkəsin pozulması olmaqla münaqişənin həllini uzatmaq və Azərbaycana qarşı güc nümayiş etdirmək cəhdləri idi.

Oktyabr ayında Moskvada daha bir görüş keçirildi. Azərbaycan tərəfi Minsk qrupunun həmsədrlərinə Laçın və Şuşa da daxil olmaqla işğal edilmiş bütün Azərbaycan ərazilərinin azad edilməsi. Laçın yolunun ATƏT-in sülhməramlı qüvvələr tərəfindən hərbi nəzarət altında fəaliyyət göstərməsi təklifini irəli sürdü. Ermənistan tərəfi isə sülhü qorumaq əməliyyatlarında ATƏT-ə etibar etmədiyini bildirdi. Laçın yolu üzərində nəzarətinin qurulmasına təkid etdi və Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu məsələsini qaldırmağa cəhd göstərdi, Şuşanın azad edilməsinin isə qəti şəkildə əleyhinə çıxdı.

**Sem Braun (1943) - ABŞ-ın ATƏT-də səfiri.**

**Byrpoc Byrpoc TajiH. ToflOBOH aoKJiaa o paöoxe OOH, nocBamcHHbiH 50-R roaoBiuHHe. 1995 rofl. Hbio-HopK, 1996, c.702.**

**“Yeni Yüzyıl” gazetesi, İstanbul, 1995, 12 Eylül.**

Növbəti görüş noyabrın 22-30-da Almaniyanın paytaxtı Bonnda keçirildi. Görüşdə silahlı münaqişənin dayandırılması haqqında saziş və ona dörd əlavə layihə müzakirə edildi. Müzakirələr ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin qarşıda keçirilməsi planlaşdırılan Budapeşt görüşünə hazırlıq məqsədi daşıyırdı. Lakin Ermənistanın əsassız tələbləri nəticəsində tərəflər regionun hərbsizləşdirilməsi yolları, əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Laçın yolunun azad olunması, Azərbaycanın Dağlıq Qarabağ regionunun gələcək statusu məsələlərində razılığa gələ bilmədilər.

Azərbaycan tərəfi münaqişəsinin həlli məsələsini 1995-ci il dekabrın 7-8-də ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Budapeştdə keçirilən 5-ci iclasında'"^ qaldırdı. Tədbirdə iştirak edən Azərbaycanın xarici işlər naziri Həsən Həsənov Avstriyanın xarici işlər naziri Volfanq Şyüssel,^'*' AFR xarici işlər naziri, federal kanslerin müavini Klaus Kinkel,'"^ Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə dövlət katibi Malkolm Rifkind^'*® və digərləri ilə görüşərək münaqişənin həlli istiqamətində səyləri və ikitərəfli münasibətlərin inkişafı məsələlərini müzakirə etdi'^°.

Müzakirələrdə çıxış edən Türkiyə Baş Nazirinin müavini Dəniz Baykal'^' Azərbaycan ərazilərinin 20%-nin Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğunu, azərbaycanlıların qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, ev-eşiklərini itirdiklərini, ağır qış şəraitində yaşamağa məcbur olduqlarını, Ermənistanın işğala son vermədən problemin

**7-8 December 1995 (Budapeşt). 5* Council of Ministers of Foreign Affairs. Journal No. 2. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.26-27.**

**Volfanq Şyüssel (1945) - 1989-cu ildə federal iqtisadiyyat naziri. 1995-ci ildən vitse-kansler və xarici işlər naziri.**

**Klaus Kinkel (1936) - ədliyyə naziri (1991-1992). Xarici işlər naziri (1992- 1998).**

**Malkolm Rifkind ( 1946) - 1974-cü ildən parlamentdə fəaliyyətə başlamışdır. 1983-cü ildə xarici işlər və daxili işlər naziri. 1986-cı ildən Şotlandiyanın dövlət katibi. 1990-1992-ci illərdə nəqliyyat naziri. 1992-1995-ci illərdə müdafiə naziri. 1995-1997-ci illərdə xarici işlər və birlik işləri üzrə nazir.**

**ARXİNA. 1995. Qovluq Ro 20, v. 1-119.**

**Dəniz Baykal (1938) - Türkiyənin dövlət və siyasi xadimi. Xarici işlər naziri, Baş Nazirin müavini (1995-1996).**

həllinin çətin olduğunu, Türkiyənin Minsk qrupunun səylərini dəstəklədiyini bəyan etdi'^^.

Lakin regionun hərbsizləşdirilməsi, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu, Şuşa və Laçın boşaldılması məsələlərində Ermənistanın əsassız iddiaları ucbatından razılıq əldə edilmədi. Regionun hərbsizləşdirilməsi məsələsində Ermənistan tərəfi Azərbaycanın Dağlıq Qarabağ regionunu işğal edilmiş ərazilərə aid etməyərək orada erməni silahlı qüvvələrinin saxlanılmasına çalışırdı. Azərbaycan işğalçı qüvvələrin Şuşa və Laçın da daxil olmaqla bütövlükdə münaqişə bölgəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağ regionuna yüksək status verilməsini təklif etdi. Ermənistan tərəfi Dağlıq Qarabağ bölgəsinin statusu və təhlükəsizliyi məsələsi həll olunmayanadək Şuşa və Laçın probleminin də həll edilmə- yəcəyini bildirdi. Beləliklə, Ermənistanın güzəştə getmək üçün məqbul sayılmayan tələbləri nəticəsində razılaşmaya nail olunmadı.

Qeyd etmək lazımdır ki, Minsk qrupu həmsədrlərinin hesabatı Vyanada geniş müzakirə olunduğu üçün Budapeştdə təqdim edilmədi"^. ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurası dekabrın 8-də müvafiq qərar qəbul etdi^^". Qərarda atəşkəsin davam etdirilməsi əzmi və münaqişənin nizamlanması istiqamətində Minsk qrupunun fəaliyyəti dəstəklənir, onu davam etdirmək tövsiyə olunur, ATƏT üzvü olan ölkələrin daimi nümayəndələrinə Minsk qrupunun səylərinə yardım göstərmək üçün çağırış edilirdi.

Budapeşt görüşündən sonra Minsk qrupunun üzvü olan dövlətlər, o cümlədən Rusiya və ABŞ münaqişənin həllinə dair müxtəlif təkliflər irəli sürdülər. ABŞ və Rusiyanın Minsk qrupundakı nümayəndələri Cozef Pressel və Vladimir Kazimirov, ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kotti^^^ başda olmaqla Minsk konfransının

**Statement by the Permanent Representative of Turkey to the OSCE, on behalf of the Deputy Prime Minister and the Minister of Foreign Affairs of the Republic of Turkey Deniz Baykal. - OSCE Archive in Prague. 5-th Ministerial Council. Budapeşt, 7-8 December, 1995. File X2257.**

**Minsk Group. Nagorno Karabakh. - OSCE Archive in Prague. 5-th Ministerial Council. Budapeşt. 7-8 December 1995. File İNb 257.**

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şurasının 5-ci görüşü. Budapeşt. 8 dekabr 1995-ci il. ATƏT-in Minsk prosesi üzrə qərarı. - "Diplomatiya aləmi" jurnalı. Bakı, 2003, yanvar-mart, JVs 2, s.l 19.**

**Flavio Kotti (1939)- İsveçrənin xarici işlər naziri (1993-1999).**

həmsədrləri Valentin Lozinski və Heyki Talvitiye, yenə də Vladimir Kazimirov və Pene Niberq 1995-ci ilin sonlarında regiona səfər etdilər.

Ermənistanın təcavüzünü aradan qaldırmaq və münaqişəni həll etmək istiqamətində Azərbaycanın səyləri 1996-cı ildə də davam etdirildi. Həmin il yanvarın 9-14-də Moskvada Minsk qrupu çərçivəsində keçirilən görüşdə münaqişənin nizama salınmasına dair əsas məsələlər müzakirə olundu. Yanvarın 13-də Rusiya xarici işlər naziri Yevgeni Primakov^^^ iştirakçılar ilə görüşdü. Ermənistan tərəfi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin təhlükəsizliyinə təminat verilməsinin zəruriliyini əsas gətirərək Laçının boşaldılması haqqında məsələnin müzakirəsindən imtina etdi. Həmsədrlər növbəti görüşdə müzakirə etmək üçün tərəflərə bir sıra “ev tapşırıqları” verdilər.

Bundan bir neçə gün sonra, yanvarın 19-da MDB ölkələri dövlət başçıları şurası Azərbaycan, Ermənistan və digər dövlətlərin rəhbərlərinə müraciət edərək silahlı münaqişənin dayandırılması haqqında saziş imzalanana qədər atəşkəs rejiminə əməl etməyə çağırdı.

1996-cı il fevralın 21-dən 23-dək ATƏT-in fəaliyyətdə olan sədri İsveçrənin xarici işlər naziri Flavio Kotti, Minsk konfransının həmsədrləri V.Lozinski və H.Talvitiye, Minsk qrupunun həmsədrləri V.Kazimirov və R.Niberq Azərbaycana və Ermənistana səfər etdilər. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyev ilə keçirilən görüşlərdə münaqişənin həllinə dair geniş fikir mübadiləsi aparıldı. Heydər Əliyev Azərbaycanın mövqeyini bir daha nümayəndə heyətinin diqqətinə çatdıraraq dedi: “Bizim əsas mövqeyimiz ondan ibarətdir ki, bütün sazişlər, qərarlar Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında qəbul oluna bilər. Təəssüf ki, Ermənistan tərəfi indiyə qədər Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Şübhəsiz, belə halda istənilən sazişi əldə etmək çox çətindir”

Flavio Kottinin fikrincə, onun Azərbaycana səfəri ATƏT-in həmin münaqişənin həllinə ciddi yanaşdığını göstərirdi’^^. ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ regionuna Azərbaycan tərkibində yüksək muxtariyyət statusu verilməsi təklifinə tərəfdar çıxdı, eyni zamanda ATƏT-in həmin məsələni həll etməkdə çətinlik çəkdiyi üçün münaqişə edən tərəflərin məsələlərin həllinə qoşulmasının zəruriliyini söylədi. Ermənistan və

**Yevgeni Primakov (1929)-Rusiyanın xarici işlər naziri (1996-1998).**

**Əliyev H.Ə. ATƏT-in sədri, İsveçrənin xarici işlər naziri Flavio Kotti ilə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə mətbuat konfransında bəyanat. 29 fevral 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.377.**

**Yenə orada, s. 378.**

Azərbaycanın özlərinin razılığa gəlmələri barədə ATƏT-in fəaliyyətdə olan sədrinin baxışı heç şübhəsiz, yanlış idi. Çünki Azərbaycan ərazilərini işğal edən və onun bütün əhalisini məcburi köçkünə çevirən işğalçı Ermənistan müzakirələrdə əməli mövqe tutmur, münaqişənin həllini uzadırdı. Belə bir şəraitdə təzyiqlər olmadan Ermənistanın Azərbaycan ilə razılığa gəlməsi mümkün deyildi. Bu isə münaqişənin illər boyu uzanması demək idi. Ən başlıcası isə ATƏT-in Minsk qrupu məhz Ermənistanın təcavüzü nəticəsində meydana çıxmış münaqişənin həlli üçün yaradılmışdı.

Həmin ilin martın 25-28-də Moskvada Minsk qrupunda Rusiya nümayəndəsinin vasitəçiliyi ilə növbəti görüş keçirildi. Lakin aparılan müzakirələr Ermənistanın mövqeyində dəyişiklik olmadığını göstərdi.

Bir müddət sonra Vyanada ATƏT Daimi Şurasında Minsk konfransının həmsədrləri olan Rusiya və Finlandiyanın hesabatı dinlənildi. Hesabatda Minsk qrupunun və onun ayrı-ayrı dövlətlərinin fəallığının artdığı qeyd edilirdi.

Lüksemburqa səfər zamanı 1996-cı il aprelin 21-də Azərbaycan Prezidenti Heydər Əliyev Levon Ter-Petrosyan ilə görüşdü. Tərəflər münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduqlarını, Minsk qrupunun səylərinin davam etdirilməsinin vacibliyini, humanitar problemlərin, ilk növbədə bütün girov və hərbi əsirlərin azad edilməsinin vacibliyini vurğuladılar’^^. Atəşkəsin ikinci ilində keçirilən həmin görüşü Minsk qrupunun üzvləri müsbət qiymətləndirdilər’^®.

Minsk qrupu çərçivəsində 1996-cı il iyunun 15-18-də Moskvada keçirilən növbəti görüşdə Şuşa və Laçının boşaldılması, tərəflərin təhlükəsizliyi məsələləri müzakirə edildi. Ermənistan Azərbaycanın hərbi cəhətdən gücləndiyini əsas gətirərək daim təhlükə törədəcəyini söyləyir, bununla da silahlı birləşmələrinin işğal olunmuş ərazilərdə saxlanılması zəruriliyini sübut etməyə çalışır, Şuşa və Laçının boşaldılmasının mümkünsüzlüyünü bildirirdi. Minsk qrupu həmsədrlərinin təkliflərində isə işğalçı qüvvələrin işğal edilmiş ərazilərdən çıxarılmasının dəqiq vaxtı və müddəti göstərilmirdi. Ona görə də Azərbaycan tərəfi həmin təklifləri rədd etdi.

Bu görüş ilə eyni vaxtda, iyunun 17-də MDB dövlət başçıları şurasının iclasında Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat qəbul edildi. Bəyanatda münaqişənin həlli istiqamətində Rusiyanın səyləri bəyənilirdi. Dövlət başçıları

**ARXİNA. 21.08.1996-18.031997. Qovluq Xs9, v.l75.**
**The OSCE Minsk Conference. Press Release. - OSCE Archive in Prague. File:**

**Minsk Conference. 1993-2003.**

zamanı 110 nəfər əsir və girovun azad edilməsini böyük humanist addım və siyasi aksiya kimi qiymətləndirdilər.

1996-cı ilin ikinci yarısında Minsk qrupunun üzvü olan dövlətlərin nümayəndələri regiona səfərlər etdilər. Almaniya nümayəndəsi F. Lam- bax, səlahiyyət müddəti başa çatan rusiyalı həmsədr V.Kazimirovu əvəz edən Yuri Yukalov, ABŞ-m xüsusi nümayəndəsi C.Pressel regionda oldular. Münaqişənin həllinə dair müzakirələr keçirdilər.

Oktyabr ayının əvvəllərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Minsk konfransının həmsədrləri Valentin Lozin- ski və Heyki Talvitiye başda olmaqla nümayəndə heyətini qəbul edərkən “nə sülh, nə də hərb” vəziyyətinin Azərbaycanı razı salmadığını, atəşkəs rejimini sonsuzadək saxlamağın mümkünsüzlüyünü deyərək təşkilatın səylərinin artırılmasının istədi. Həmsədrlər növbəti görüşün keçirilməsi ilə bağlı məsələləri müzakirə etdilər.

Bunun nəticəsi kimi oktyabrın 29-30-da Moskvada Minsk qrupu çərçivəsində görüşlərin növbəti mərhələsi oldu’^'. Görüşdə ATƏT-in Lissabon sammitinə qədər münaqişənin həlli istiqamətində müəyyən irəliləyişlərin əldə olunması məsələsi müzakirə edildi. Lakin görüş nəticəsiz oldu. Bir müddət sonra Helsinkidə keçirilən görüş də konkret nəticə vermədi.

Bu zaman ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabonda keçiriləcək zirvə görüşünə hazırlıq işləri gedirdi. Azərbaycan Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair məsələni zirvə görüşünün sənədlərinə daxil etmək üçün səylərə başladı. Azərbaycan Respublikasının Avstriyadakı səfiri, ATƏT yanındakı daimi nümayəndəsi Vaqif Sadıqov^^^ 1996-cı il noyabrın 5-də ATƏT üzvü olan ölkələrin təşkilat yanındakı daimi nümayəndələrinə

**The co-chairmanship of the OSCE Minsk Conference. Press Release. Moscow, 30 October 1996. - OSCE Archive in Prague. File: Minsk Conference.1993-2003. ’“Vaqif Sadıqov (1956) - Azərbaycan diplomatı. Xarici İşlər Nazirliyinin hərbi- siyasi məsələlər şöbəsinin müdiri (1993-1995). Azərbaycan Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri, eləcə də BMT-nin Vyana bölməsi, BMT-nin Sənaye İnkişafı Təşkilatı və ATƏT yanında daimi nümayəndəsi (1995- 2000). Nüvə sınaqlarının hərtərəfli qadağan olunmasına dair müqavilə üzrə təşkilatda Azərbaycan Respublikasının nümayəndəsi (1998-2000). Atom Enerjisi üzrə Beynəlxalq Agentlikdə Azərbaycan Respublikasının nümayəndəsi (2001- 2004). Xarici işlər nazirinin müavini (2004-2010). Azərbaycan Respublikasının İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri (2010-cu ildən).**

məktub göndərərək münaqişənin davam etməsindən Azərbaycanın narahatlıq keçirdiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyini, münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğuladı. O, nünaqişənin ölkələrin sosial, iqtisadi və ekoloji vəziyyətinə mənfi təsir etdiyini də xatırlatdı'^^.

Həmin məktubdan bir müddət sonra, noyabrın 27-də Azərbaycanın ATƏT-dəki nümayəndə heyəti Lissabon zirvə görüşünün yekun sənəd layihəsi müzakirə edilərkən müvafiq təkliflərini irəli sürdü'®'*. Noyabrın 29-da isə xarici işlər nazirinin müavini Araz Əzimov üzv ölkələrin nümayəndələrinə müraciət edərək sənəd layihəsinə daxil edilmək üçün təklifləri göndərdi. Həmin təkliflərdə münaqişənin Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması. Dağlıq Qarabağ regionuna Azərbaycan Respublikasının tərkibində ən yüksək müxtariyyət verilməsi. Dağlıq Qarabağ regionunda yaşayan bütün əhalinin təhlükəsizliyinin təmin edilməsi prinsipləri ilə mümkün olduğu bildirilirdi'®®.

Azərbaycan həmin müraciətlərlə də kifayətlənmədi. Prezident Heydər Əliyev ABŞ Prezidenti Bili Klintona məktubla müraciət etdi. Həmin məktubun surəti ATƏT üzvü olan bütün ölkələrin dövlət başçılarına da göndərildi. Məktubda Ermənistanın təcavüzü nəticəsində yaranmış münaqişənin sülh yolu həlli məsələsində Azərbaycanın yuxarıda qeyd edilən prinsipial mövqeyi əks olunmuşdu.

Azərbaycan Prezidentinin müraciəti böyük dövlətlərin rəhbərləri tərəfindən müsbət qarşılandı. 1996-cı il noyabrın 6-da, Lissabon zirvə görüşü ərəfəsində ABŞ Prezidenti Bili Klinton Heydər Əliyevə göndərdiyi məktubunda Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsini dəstəklədi'®®. ATƏT üzvü olan

**Vagif Sadykhov. Decision of the heads of States or govemment of the OSCE participating States on the settenment of the Nagorno Karabakh conflict. Draft. November 5,1996. - OSCE Archive in Pragua. Lisbon summit. 1996. File İN2221.**

**Delegation of Azerbaijan. November 27, 1996. - OSCE Archive in Pragua. Lisbon summit. Drafting Group. 27-28 November, 1996. File Ff2227.**

**Araz Azimov. Decision of the heads of OSCE participanting States on settlement of the Nagorno Karabakh conflict. Draft. November 29, 1996. - OSCE Archive in Pragua. Lisbon summit. Drafting Group. 27-28 November, 1996. Doc.s/26/96. File Ffo227.**

**Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda, s. 38.**

Ölkələrin rəhbərlərin bir çoxundan da belə cavablar alındı. Onlar Azərbaycanın ərazi bütövlüyünü müdafiə edirdilər. Beləliklə, Azərbaycanın səyləri nəticəsində Lissabon zirvə görüşünün yekun sənədinin layihəsinə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı maddə daxil edildi.

Lissabon zirvə görüşündə Azərbaycan diplomatiyasının qarşısında dayanan məqsədi Heydər Əliyev aşağıdakı kimi səciyyələndirirdi: "Bizim məqsədimiz ondan ibarətdir ki, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Lissabon görüşünün sənədlərində yeni imkanlar açılsın... ATƏT-in əsas prinsipləri - hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı prinsipi Azərbaycan barəsində Ermənistan tərəfindən indiyə qədər tanınmır. Bizim məqsədimiz ondan ibarətdir ki, bu barədə müəyyən münasibət bildirilsin. Mən ATƏT-in üzvü olan dövlətlərin başçılarının hamısına müraciət etmişəm, məktublar göndərmişəm, bir çox ölkələrin başçılarından cavablar da almışam. Hamı bunu müdafiə edir. Ancaq hamı bir yerə toplaşanda konsensus olmalıdır"'®'.

1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla nümayəndə heyəti, üzv ölkələrin dövlət rəhbərləri, həmçinin Asiya və Afrikadan müşahidəçi statusu ilə 10 dövlətin rəhbəri iştirak edirdilər'®*. Azərbaycan Respublikasının iştirakının konkret olaraq aşağıdakı məqsədləri var idi: zirvə görüşünün tribunasından və keçirilən ikitərəfli görüşlərdən istifadə edərək Ermənistan - Azərbaycan münaqişəsinin əsl mahiyyətini, davakar separatizm və onun nəticələrini, Ermənistanın beynəlxalq birliyin iradəsinə hörmətsizlik etməsini, BMT və ATƏT prinsiplərini pozduğunu, onun siyasətinin ümumavropa təhlükəsizliyi üçün təhlükə olduğunu çatdırmaq və işğalçı ölkənin əməllərinə qiymət verilməsinə nail olmaq; Minsk qrupunun gəldiyi nəticələri və Dağlıq Qarabağ münaqişəsinin həllinə dair başlıca prinsipləri yekun sənədinə və qəbul edilən bə-

**' Əliyev H.Ə. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon zirvə toplantısında iştirak etmək üçün yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə verdiyi bəyanat. 30 noyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.86-87.**

**OSCE. Lisbon summit. 2-3 December,I996. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Journal 1 and 2. Documents. List of participiants. File Jfa226; Həsənov Ə. Azərbaycan və ATƏT. Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda, s.46.**

yanatlara daxil etmək; dünyanın diqqətini Azərbaycan üçün daha əhəmiyyətli olan bu məsələyə yönəltmək.

Lissabon zirvə görüşündə ümumavropa problemləri ilə yanaşı Cənubi Qafqazda gedən proseslər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları aparıcı dövlətlərin rəhbərləri tərəfindən müzakirə edildi. Azərbaycan nümayəndə heyəti Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyünü bəyan edən maddəyə razı olmayacağma əmin idi. Bununla belə, həqiqətlərin dünya birliyi ölkələrinin rəhbərlərinin diqqətinə çatdırılmasını vacib hesab edirdi.

Zirvə görüşündə etdiyi nitqində Heydər Əliyev ölkədə aparılan sosial-iqtisadi, siyasi islahatlar barədə məlumat verdi, Ermənistanın Azərbaycana təcavüzü və onun nəticələri üzərində dayandı, beynəlxalq sülhün qorunmasında ATƏT-in rolunu yüksək qiymətləndirdi, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti nizamasalmada kompromisli üsulun aşağıdakı tərkib hissələrini açıqladı: Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ regionunun bütün əhalisi üçün təhlükəsizliyin təminatı. Azərbaycan tərəfi Ermənistana sülh və əməkdaşlıq üçün çağırış etdi’®^.

Azərbaycan Respublikası ATƏT prinsipləri əsasında ərazi bütövlüyünü qorumaq şərti ilə Dağlıq Qarabağ regionuna ən yüksək status verməyi təklif edirdi. Bu təklif Minsk qrupunun bütün üzvləri tərəfindən qəbul olundu. Lakin Ermənistan razılaşmayaraq konsensus vermədi. Nəticədə Lissabon zirvə görüşünün yekun bəyannaməsinin 20-ci maddəsi ən çox mübahisələrə səbəb oldu’™. Bu maddəyə görə, Azərbaycanın ərazi bütövlüyü tanınırdı. Ermənistan konsensus vermədiyi üçün bu maddə qəbul edilmədi. Belə olduqda Azərbaycan görüşün bütün yekun sənədinə konsensus vermədi. Heydər Əliyevin Levon Ter-Petrosyan ilə keçirdiyi görüş də nəticəsiz oldu. Belə olduqda ABŞ-m vitse-prezidenti Albert

**PeHb npesuneHTa AsepöaüflÄaHCKOH PecnyGnuKH Feıiflapa Ajınesa ua caM-MUTe OBCE. 2 neKaöpa 1996 r. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Statements. File N2220; Əliyev H.Ə. ATƏT-in Lissabon zirvə görüşündə nitq. 2 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.89-93.**

**™ A66ac6eHaH A., EacaHOB A. A3ep5afiÄ>KaH в CHCxeMe Me>KflyHapoÄHbix н perHOHajibHbix opraHHsauHH, c. 154.**

Qor'^' çıxış edərək dedi: "Mən yaranmış vəziyyətdən belə başa düşürəm ki, sənədlərdən heç birisi barədə konsensus yoxdur. Azərbaycan bütün mətni əhatə edən öz kvadratşəkilli mötərizələrini götürmədi. Sual belədir: Biz sənəddə əksini tapmalı olan tarazlıq barəsində razılığa gələrək, 20-ci maddənin mahiyyətini götürə bilərikmi və 20-ci maddənin bu mahiyyətini sənəddə deyil, ATƏT-in indiki sədrinin bəyanatına daxil edə bilərikmi? Bu, yaranmış vəziyyətdə mümkün olarsa, bəlkə onda Azərbaycan bütün sənədin ətrafındakı öz kvadratşəkilli mötərizələrini götürməyə razılıq verərdi"''^. Azərbaycan tərəfi Albert Qorun təklifi ilə razılaşdı.

Bundan sonra ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti münaqişənin həllinə dair müvafiq bəyanatla çıxış etdi''^. Sədrin bəyanatında Ermənistan - Azərbaycan münaqişəsinin həllinə dair iştirakçı dövlətlər tərəfindən (Ermənistan istisna olmaqla) aşağıdakı prinsiplərə razılıq verilirdi: Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; Azərbaycan tərkibində Dağlıq Qarabağ regionuna ən yüksək dərəcəli özünüidarəetmə hüququ verən öz müqəddəratını təyinetmə əsasında Dağlıq Qarabağın sazişlə müəyyən edilmiş hüquqi statusu, tənzimlənmə müddəalarına bütün tərəflərin riayət etməsini təmin edən qarşılıqlı öhdəliklər daxil olmaqla Dağlıq Qarabağın və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Bəyanat Lissabon zirvə görüşünün sənədlərinə daxil edildi''". Ermənistan nümayəndə heyəti etiraz əlaməti olaraq özünün dörd maddədən ibarət bəyanatını sədrə təqdim etdi"^. Burada ATƏT-in fəaliyyətdə olan

**Albert Qor (1948) - ABŞ-ın vitse-prezidenti (1993-2001).**

**Əliyev H.Ə. ATƏT-in Lissabon zirvə görüşünün yekun iclasında nitq. 3 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.95.**

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 1. ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, İNs 2, s. 120; /feKJiapauHu JİHCcaöoHCKOÜ BcxpeHU na BbicuıeM ypoBne. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Statements. File>fo226.**

**™ 3 December 1996. Lisbon Summit Documant. Annex 1. Statement of the OSCE Chairman-In-OfFıce. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.28.**

**3ajtBJieHne ttejıerauHH ApMenHH. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Statements. File Ro226; Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü. Lissabon. 3 dekabr 1996-cı il. Əlavə 2.**

sədrinin bəyanatında səslənən məsələlərdən narahatlıq ifadə edilir, münaqişənin hər şeydən əvvəl, öz müqəddəratını təyinetmə prinsipi əsasında həlli iddiası irəli sürülürdü.

Lakin Ermənistanın bəyanatı təsirli olmadı. Məsələ barədə Avropa İttifaqı adından bəyanat verən İrlandiya nümayəndə heyəti ATƏT-in fəaliyyətdə olan sədrinin bəyanatını müdafiə etdi''*". Türkiyə nümayəndə heyəti də bəyanat verərək sədrin bəyanatını bəyəndiyini bildirdi'". BMT- nin Qaçqınlar işi üzrə Ali Komissarı nitqində münaqişənin həlli üçün Minsk qrupunun səylər etdiyini bildirərək. Ali Komissarlığın qaçqınların şəraitini yüngülləşdirmək istiqamətində səylərini qeyd etdi"*.

Lissabon zirvə görüşü Azərbaycan diplomatiyasının Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində prinsipial mövqe tutduğunu göstərdi. Azərbaycan dövləti ərazi bütövlüyü məsələsinin müzakirə predmeti olmadığını birmənalı olaraq bəyan etdi. Bu məsələdə Azərbaycanın ədalətli mövqeyi, dövlət rəhbəri Heydər Əliyevin dünyada qəbul olunan şəxsi nüfuzu, bacarığı və qətiyyəti müstəsna rol oynadı. Nadia Kirilova Milanovanm yazdığı kimi, zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyü bir daha təsdiq olundu"^.

Lissabon zirvə görüşünün nəticələri bir sıra ölkələrin, o cümlədən Türkiyənin mətbuatında geniş şərh edilmişdi. Məsələn, Türkiyənin "Sabah", "Milliyyət", "Zaman", "Ortadoğu", "Türkiş Deyli Nyus", "Cümhuriyyət", "Türkiyə", "Yeni yüz il", "Radikal", "Qlobal", "Hürriyyət" qəzetləri zirvə görüşünün yekun sənədinin 20-ci maddəsinə Ermənistanın, Azərbaycanın isə bütün sənədə veto qoyduğunu, bununla da Lissabon sammitində diqqət mərkəzində məhz Azərbaycan - Ermənistan münaqişəsinin olduğunu yazırdılar. Türkiyə qəzetləri Heydər Əliyevin qətiy-

**Ermənistan nümayəndə heyətinin bəyanatı. - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, Jfs 2, s. 120-121.**

**™ SanBaenne aejıerauHH MpıtanaHH - EsponeHcKoro Coıosa. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Statements. File *N°226.***

**SaaeaeHHe aejıerauHH TypuuH. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Statements. File JÇ2226;**

**™ Statement from the offıse of the United Nations High Commissioner for Refugees for the OSCE summit in Lisbon. 2-3 October, 1996. - OSCE Archive in Prague. Lisbon summit. 2-3 December, 1996. Speeches. File 1^2220.**

**™ Nadia Kirilova Milanova. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolition opportunities. Two volumes. Second volume, p.371.**

yətini Azərbaycan diplomatiyasının qələbəsi kimi qiymətləndirərək vurğulayırdılar ki, Azərbaycanın bu qələbəsi yalnız Türkiyə deyil, digər dövlətlər tərəfindən də qeyd edilmişdir'*'*.

Lissabon zirvə görüşündən sonra ATƏT-in həmsədrlik institutunda dəyişiklik baş verdi. Qeyd etmək lazımdır ki, 1992-ci ildən ötən müddət ərzində Minsk qrupuna İtaliya (1992-1993), İsveç (1994), Rusiya və Finlandiya (1995-1996) sədrlik etmişdilər. 1997-ci il yanvarın 1-dən etibarən Minsk prosesini həmsədrlər qismində ABŞ, Rusiya və Fransa aparmağa başladılar. Fransa tərəfdən həmsədr Jak Blo oldu. ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ üzrə şəxsi nümayəndəsi vəzifəsinə isə Polşa nümayəndəsi səfir Anji Kaspşik təyin edildi. ATƏT-in fəaliyyətdə olan sədri Nils Peterson (Danimarka) ABŞ dövlət katibinin müavini Stroub Telbottu'*' fevralın 14-də Minsk konfransının həmsədri təyin etdi. Bu təyinat Ermənistan tərəfindən etirazla qarşılansa da, bir nəticə vermədi.

Minsk qrupunun həmsədri kimi bitərəf mövqe tutması lazım gəlir- kən Rusiya 1993-1996-cı illərdə xəlvəti olaraq Ermənistana 1 milyard ABŞ dolları dəyərində silah və sursat satmışdı. Bunlar əsasən T-72 tankları, zirehli maşınlar, operativ-taktiki raketlər və s. idi'*'. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 1997-ci il fevralın 21-də bəyanat verərək Rusiyanın hərəkətlərinin Minsk qrupu vasitəçiliyi ilə bir araya sığmadığını, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olduğunu bildirdi'**. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi martın 3-də təkrar bəyanat verərək məsələni yenidən gündəliyə gətirdi'*'*. Emıənistana silah verilməsi Azərbaycana təzyiq etmək və neft strategiyasının həyata keçirilməsinə mane olmaq məqsədi daşıyırdı.

Minsk qrupu çərçivəsində görüşlərin növbəti mərhələsi aprelin 1-5- də Moskvada keçirildi. Lissabon sammitindən sonra keçirilən ilk görüş olan bu mərhəl.ə iki hissədən ibarət idi; birinci hissədə silahlı münaqişənin dayandırılması haqqında saziş layihəsinin işlənib hazırlanması və

**™ ARXİNA. 27.07.1995-24.12.1996. Qovluq JföZl, v.25, 102.**

**Stroub Telbott (1946) - ABŞ diplomatı. Dövlət katibinin müavini (1994-** 2001).

**Makili-Aliyev K. Enforcement of International Law in the Nagorno Karabakh Conflict. Tbilisi, 2008, p.l 12.**

**Statement of the Ministry of Foreign Affairs of the Azerbaijan Republic. 21 February, 1997. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**^*'*Statement of the Ministry of Foreign Affairs of the Azerbaijan Republic. March 3, 1997. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

müzakirəsi, ikinci hissədə isə Azərbaycan, Ermənistan və maraqlı tərəflərin - Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icması və azərbaycanlı əhalisinin nümayəndələrinin iştirakı ilə və habelə onların iştirakı olmadan Minsk qrupunun iclasları keçirilməli idi.

Moskva görüşündə Azərbaycan tərəfi əsas diqqətini Ermənistanın Şuşa və Laçını boşaltması məsələsinə yönəltdi. Ermənistan isə Dağlıq Qarabağ regionunun erməni icmasının təhlükəsizliyi məsələsini status məsələsi ilə əlaqələndirdi. Azərbaycan diplomatiyası status məsələsinin Minsk konfransında müzakirə ediləcəyini bildirdi.

Azərbaycan tərəfi Rusiyanın Ermənistana qanunsuz olaraq silah göndərməsi məsələsini Moskva görüşündə deyərək Minsk qrupundan bu məsələyə münasibət bildirməsini istədi. Münaqişə bölgəsinə silah göndərilməsinin vəziyyəti gərginləşdirəcəyi qənaətində olan Minsk qrupu məsələyə dair aparılan tədqiqatın nəticələrini gözləməyi tövsiyə etdi.

Minsk qrupu çərçivəsində görüşlər 1997-ci ilin aprel ayından etibarən dayandırıldı. Görüşləri həmsədrlərin regiona səfərləri əvəz etdi. V.Lozinski, J.Blo və S.Telbott münaqişənin nizama salınmasına dair yeni təklifləri ilə iyunun 1-də Ermənistan və Azərbaycana gəldilər'*^. Həmsədrlər münaqişənin nizamlanmasına dair hərtərəfli saziş layihəsini tərəflərə təqdim etdilər. Paket həlli adlandırılan bu layihə iki hissədən ibarət

idi . Paket həlli tərəflərin bütün mübahisəli məsələlərə dair ilkin razılıq əldə etməsini, razılaşmanın qarşıdakı sülhün bütün problemlərini və aspektlərini əks etdirən paketdə toplanmasını və bu hərəkətlərin gələcəkdə gerçəkləşdirilməsini nəzərdə tuturdu. Buna əsasən silahlı münaqişə dayandırılmalı və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusuna dair razılaşma əldə edilməli idi.

Münaqişənin həllinə dair təklifə Minsk qrupu ölkələrinin dövlət başçıları da münasibətlərini bildirdilər. Kolorado ştatının inzibati mərkəzi olan Denverdə keçirilən böyük səkkizlərin toplantısı çərçivəsində görüşən ABŞ Prezidenti Bili Klinton, Rusiya Prezidenti Boris Yeltsin və Fransa Prezidenti Jak Şirak'*^ 1997-ci il iyunun 20-də Ermənistan - Azərbaycan

**Armenia - Azerbaijan conflict. GRS. Issue Brief. September 24, 1997, p.7.**

**Muradova B. Ə. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ATƏT-in rolu. Namizədlik dissertasiya işinin avtoreferatı, S.20.**

**Jak Şirak (1932) - Fransanın görkəmli siyasi və dövlət xadimi. Fransanın Baş Naziri (1974-1976; 1986-1988) Paris şəhərinin meri (1977-1995). Fransa Prezidenti (1995-2007).**

münaqişəsinin sülh yolu ilə həllinə kömək edilməsi barədə birgə bəyanat imzaladılar'^^. Bəyanatda dövlət başçıları münaqişənin davam etməsindən narahatlıqlarını bildirir, onun bütün Qafqaz regionunda iqtisadi və ictimai inkişafı, rifahı ciddi surətdə sarsıtdığını qeyd edir, 1 milyondan çox adamın evlərindən didərgin düşdüklərini göstərir, atəşkəsin davam etməsini müsbət qiymətləndirir, münaqişənin həllinə kömək edəcəkləri vədini verir, Azərbaycan və Ermənistan rəhbərlərinin birbaşa görüşlərinin keçirilməsini tövsiyə edirdilər. ABŞ, Rusiya və Fransa prezidentləri Minsk qrupu həmsədrlərinin yeni təkliflərini bəyənirdilər.

Üç dövlət başçısının bəyanatı böyük əhəmiyyət daşıyırdı. Bu, Minsk qrupunun üç həmsədr ölkəsinin dövlət başçılarının imzaladıqları ilk bəyanat idi. Onlar münaqişənin həllində maraqlı olduqlarını bəyan edirdilər.

Azərbaycan tərəfi Denver bəyanatını münaqişənin sülh yolu ilə həlli istiqamətində mühüm addım kimi qiymətləndirərək Minsk qrupu çərçivəsində fəaliyyətə tərəfdar olduğunu bildirdi.

Bəyanatın verilməsindən bir müddət sonra, iyulun 18-də Minsk qrupunun həmsədrləri Y.Yukalov, J.Vojye və C.Pressel regiona səfər edərək münaqişənin nizama salınması üzrə məsləhətləşmələr keçirdilər. Azərbaycan tərəfinin paket həlli layihəsi ilə bağlı konstruktiv məsləhətləşmələrə başlamağa hazır olmasına baxmayaraq, Ermənistan təklif olunan yanaşmanı rədd etdi. Beləliklə, paket həlli gerçəkləşmədən kənara qoyuldu.

Ona görə də həmsədrlər sentyabrın 19-23-də bölgəyə növbəti səfərləri zamanı münaqişənin mərhələli həllinə əsaslanan yeni təklif təqdim etdilər. Həmin təklif ilk mərhələdə 6 rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad olunmasını, ATƏT-in sülhyaratma əməliyyatlarının başlanmasını, məcburi köçkünlərin azad olunmuş ərazilərə qayıtmasını və münaqişə bölgəsində əsas kommunikasiya vasitələrinin bərpasını nəzərdə tuturdu. İkinci mərhələdə isə Laçın və Şuşa məsələləri həll edilməli, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsipləri qəbul olunmalı və nəticədə ATƏT-in Minsk konfransı çağırılmalı idi. Azərbaycan tərəfi bu təklifləri qəbul etdi.

Mərhələli həll planı Minsk qrupu həmsədrlərinin səyləri ilə 1997-ci il oktyabrın 10-da Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının ikinci zirvə toplantısı çərçivəsində [**]

**** Declaration by president Jacques Chirac of France, president Boris Yeltsin of the Russian Federation and president William J. Clinton of the United States of America on the Nagorno Karabakh conflict. June 20, 1997. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

Heydər Əliyev və Levon Ter-Petrosyan arasında keçirilən görüşdə müzakirə edildi. Hələ görüş ərəfəsində Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin yeni təkliflərinə müsbət münasibət bildirmişdi. Artıq qeyd edildiyi kimi, bu təkliflərdə münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə bütün erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş altı rayonundan çıxarılmalı; məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı; müharibə nəticəsində dağıdılmış bütün kommunikasiyalar bərpa edilməli idi. İkinci mərhələdə isə Şuşa və Laçın rayonları da azad edilməklə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu məsələsi həll olunmalı idi.

Ermənistan tərəfi də ATƏT-in Minsk qrupunun həmsədrlərinin verdikləri son təklifləri müzakirə etməyə razı olduğunu bildirdi. Görüş zamanı belə bir fikir ifadə edildi ki, münaqişə sülh yolu ilə aradan qaldırıla bilər və bu proses Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplərə əsaslanmalıdır.

Görüşün sonunda Heydər Əliyevin və Levon Ter-Petrosyanm birgə bəyanatı qəbul edildi. Prezidentlər münaqişənin siyasi vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə həllinə sadiq olduqlarını vurğuladılar. Bəyanatda deyilirdi: "Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk konfransı həmsədrlərinin Minsk qrupu çərçivəsində göstərdikləri fəallıq münaqişəyə cəlb olunmuş bütün tərəflərin konstruktivliyi şəraitində həmin münaqişənin aradan qaldırılması işində real irəliləyişə nail olmağa imkan verə biləcək bazanın yaradılmasına yönəlmişdir. Azərbaycan və Ermənistan belə hesab edirlər ki, Minsk qrupu həmsədrlərinin son təklifləri Minsk qrupu çərçivəsində danışıqların yenidən başlanması üçün ümidverici əsas- dır"'*^

Azərbaycan və Ermənistan prezidentləri Fransa Prezidenti Jak Şirak ilə ayrı-ayrılıqda görüşdülər. Jak Şirakın əvvəlki illərlə müqayisədə tənzimləməyə olan ümidləri çox idi. Münaqişənin həllinə dair onun mövqeyi aşağıdakı kimi idi: "Münaqişəyə sülh yolu ilə son qoyulması ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllini tapa bilər. Münaqişənin həmin prinsiplər əsasında aradan qaldınıması üçün biz əli

**Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair müzakirə və danışıqların yekunu barədə məlumatın və mətbuat üçün birgə bəyanatın mətninin elan edilməsi. 10 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s. 305-306.**

mizdən gələni edəcəyik. Bu məsələdə Fransanın mövqeyi dəyişməzdir”™.

Fransaya səfər çərçivəsində oktyabrın 15-də Parisdə Diplomatiya Akademiyasında çıxış edən Levon Ter-Petrosyan bildirdi ki, Dağlıq Qarabağın əhalisinin təhlükəsizliyini, həmçinin Dağlıq Qarabağ ilə Azərbaycan arasında birbaşa danışıqları təmin etmək lazımdır. Ermənistan Prezidentinin nikbinliyi Bakı və Xankəndinin məsələyə yanaşmasında baş verən dəyişikliklərlə bağlı idi. Artıq qeyd edildiyi kimi, bu zaman Xəzər dənizinin Azərbaycan sektorundan hasil ediləcək əsas neftin Ermənistan ərazisindən keçərək Türkiyəyə çatdırılması üçün boru kəmərinin tikintisi barədə də müzakirələr gedirdi. Levon Ter-Petrosyanın fikrincə, Azərbaycan Dağlıq Qarabağı anklav vəziyyətində saxlamaq ideyasından, Xankəndi isə müstəqilliyi birinci plana irəli sürmək ideyasından imtina etmişdi. O, Qarabağın öz müstəqilliyindən və Ermənistana birləşmək ideyasından imtina etməsini müsbət qiymətləndirdiyinə işarə verirdi’^'.

Levon Ter-Petrosyanın çıxışı Ermənistanda daxili siyasi böhran yaratdı. Baş Nazir Robert Koçaryan’’^ və müdafiə naziri Serj Sarqsyan onun əleyhinə çıxdılar.

Noyabr ayında ATƏT-in Minsk qrupunun həmsədrlərinin regiona səfəri zamanı Azərbaycan tərəfi münaqişənin mərhələli həllinə dair təklifləri qəbul etdiyini bir daha bildirdi. Ermənistan isə onun əleyhinə çıxdı.

Minsk qrupu həmsədrləri 1997-ci il dekabrın 2-də regiona səfər zamanı mərhələli həll planının həyata keçirilməsi məsələlərini müzakirə etdilər. Azərbaycan Prezidenti Heydər Əliyev həmsədrləri ləng işləməkdə tənqid etdi. Minsk qrupu adından danışan Yuri Yukalov Yerevan və Xankəndində apardıqları müzakirələrdən sonra “uzlaşmaya problem çıxarmayan” Bakıya gəldiklərini dedi. ATƏT planına görə, çoxmillətli sülhməramlı qüvvələr Tərtər-Horadiz xətti boyunca yerləşdirilməli, ilk mərhələdə Qubadlı, Kəlbəcər, Zəngilan, Cəbayıl, Ağdam və Füzuli rayonları boşaldılmalı, ərazilər minalardan təmizlənməli, köçkünlər yurdlarına dönməli, ikinci mərhələdə isə Azərbaycanın Dağlıq Qarabağ regionunun

**° Əliyev H.Ə. Fransa Prezidenti Jak Şirak ilə fikir mübadiləsi. 11 oktyabr 1997- ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, s.3I7.**

**ARXİNA. 18.07.1996-04.08.1998. Qovluq Xaio, v.120-122.**

**Robert Koçaryan (1954) — Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri. Ermənistanın Baş Naziri. Prezident (1998-2008).**

statusu müəyyənləşdirilməli, Şuşa və Laçından erməni qoşunları çıxarılmalı və normal hala qaytarılmalı idi™^.

Münaqişənin tənzimlənməsi üçün ciddi addımların atılması gözlənilirdi. Məsələ ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kopenhagendə (Danimarka) keçiriləcək altıncı görüşündə də müzakirə edildi. Azərbaycan Respublikasının Avstriyadakı səfiri və ATƏT-dəki daimi nümayəndəsi Vaqif Sadıqov görüş ərəfəsində 1997-ci il dekabrın 11-də üzv ölkələrin daimi nümayəndələrinə məktub göndərdi'^"*. Məktubda Minsk prosesi üzrə qəbul ediləcək qərar layihəsinə dair Azərbaycanın təklifləri əksini tapmışdı. Təkliflərdə silahlı münaqişənin həlli istiqamətində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, ATƏM/ATƏT qərarlan, ATƏT-in Lissabon zirvə görüşündə sədrin bəyanatı əsasında Minsk qrupunun hesabatı qəbul və səyləri müdafiə edilirdi; Rusiya Prezidenti Boris Yeltsin, ABŞ Prezidenti Bili Klinton, Fransa Prezidenti Jak Şirakm 1997-ci il noyabrın 20-də Dağlıq Qarabağ münaqişəsi üzrə Denverdə verdikləri bəyanat təqdir edilirdi; Strasburqda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyanm bəyanatı bəyənilirdi. Məktubda həmsədrlərin silahlı münaqişəni mərhələli yolla həll etməyə yönəlmiş səyləri dəstəklənir və bu, Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas kimi qəbul edilirdi. Belə yanaşma silahlı münaqişənin ağır nəticələrinin sürətlə aradan qaldırılmasını təmin etməyə yönəlmişdi. Yüksək Planlaşdırma Qrupuna Minsk konfransı çərçivəsində danışıqlar prosesinə kömək etmək tövsiyə olunurdu. Münaqişəyə cəlb edilmiş tərəflər tezliklə daha möhkəm sülh yaratmağa çağırılırdı. Bu isə region xalqlarının çiçəklənməsi və rifahı, Qafqazda demokratiya institutları və iqtisadi inkişaf üçün əsas yaradacaqdı.

ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının dekabrın 17-18-də Kopenhagendə keçirilən altıncı görüşündə^^^ çıxış edən xarici işlər naziri Həsən Həsənov üzv ölkələrin onun prinsiplərinə riayət etmələrinin, bu sahədə birgə səylərin vacibliyini qeyd etdi, Azərbaycan üçün təh

**^ Karabağda çözüm 1998'e kaldı. - " Zaman" gazetesi, İstanbul, 1997, 7 Aralık. Vagif Sadykhov. Decision on the OSCE Minsk process. Draft. Vienna. December 11, 1997. - OSCE Archive in Prague. OSCE Ministerial Council. Copenhagen. 18-19 December, 1997. File JÇ°254.**

**18-19 December 1997 (Copenhagen). 6"' Council of Ministers of Foreign Affairs. Journal No. 2. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.31-33.**

lükənin ölkə ətrafında gedən geosiyasi şəraitdən və Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış münaqişədən doğduğunu göstərdi, ATƏT ölkəsi olan Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün, insanın ali hüququ olan yaşamaq hüququnun pozulduğunu, Ermənistanın təcavüzünün ağır nəticələrini qeyd etdi. BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərinin qeyd-şərtsiz azad edilməsinə dair dörd qətnaməsinin, Lissabon zirvə görüşündə üzv dövlətlərin qəbul etdikləri üç prinsipin münaqişəni tənzimləmək üçün hüquqi baza yaratdığını, Azərbaycan tərəfinin münaqişənin mərhələli həllinə tərəfdar oluğu vurğuladı'^®.

Xarici İşlər Nazirləri Şurası Minsk konfransı həmsədrlərinin hesabatını dinlədi'^'. Ona dair qərar qəbul etdf^*. Qəbul edilən qərarda münaqişənin həllində irəliləyiş olduğu qeyd edilir, həmsədrlərin səyləri bəyənilir, onlarla tam həmrəylik bildirilir və işi davam etdirmək tapşırılırdı. Xarici İşlər Nazirləri Şurası həmsədrlərin təklifləri əsasında danışıqların bərpasını tövsiyə etdi.

Ölkəsinin düşmüş olduğu vəziyyəti real qiymətləndirən Ermənistan Prezidenti Levon Ter-Petrosyan Kopenhagen prinsiplərini qəbul etdi. Onun fikrincə, Ermənistan mövcud halda güclü olsa da, bir neçə ildən sonra zəifləyərək indiki mövqelərini saxlaya bilməyəcəkdi. Levon Ter-Petrosyanın mövqeyindən sonra Ermənistanda vəziyyət mürəkkəbləşdi.

Belə bir şəraitdə növbəti görüşün Parisdə keçirilməsi planlaşdırılmışdı. Lakin bu görüş baş tutmadı. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin xarici işlər naziri Həsən Həsənova 1998-ci il 3 fevral tarixdə yazdığı məktubundan aydın olur ki, görüş Rusiyanın təklifi əsasında "İraq ətrafında vəziyyətin xeyli gərginləşməsi" ilə əlaqədar olaraq təxirə salınaraq fevralın sonuna keçirilmişdi™^. Eyni zamanda

**° BbicrynjıeHHe MHHHcrpa HHocrpaHHbix aea AsepdaH^iKaHCKOH PecnyÖJiHKH facana FacaHOBa na CMH/^ OBCE. KoneHraren, 18 aeKaöpa 1997 ro^a. - OSCE Archive in Prague. Copenhagen. 1997. 6-th Ministerial Council Meeting. FileXo261.**

**Report by the co-charmen of the OSCE Minsk Conference on Nagomo Karabakh to the Ministerial Council of the OSCE. Copenhagen, 18 December, 1997. - OSCE Archive in Prague. OSCE Ministerial Council. Copenhagen. 18-19 December, 1997. FileJf2254.**

**Chairman's summary. - OSCE Archive in Prague. OSCE Ministerial Council. Copenhagen. 18-19 December, 1997. File X2254.**

**ARXINA. 11.12.1996-20.01.1998.Qovluq S, v.7.**

Rusiya tərəfi Ermənistandakı vəziyyəti sabitləşdirməyi müzakirə etmək üçün fevral ayının əvvəllərində Levon Ter-Petrosyanı Moskvaya səfərə dəvət etmişdi. ABŞ Rusiyanın təklifi ilə razılaşaraq bildirmişdi ki, vəziyyəti sabitləşdirmək üçün Yerevana vaxt vermək lazımdır. Lakin bu zaman Levon Ter-Petrosyanın mühafizə xidmətinin rəhbərinə sui-qəsd edildi. Nəticədə Ter-Petrosyan Moskvaya getməkdən imtina etdi və təhdidlərə məruz qaldığından yanvar ayında istefa verdi.

Bu zaman Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbərliyində dəyişiklik baş verdi. 1998-ci il fevralın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov işdən azad edildi. Həmin vəzifəyə Tofiq Zülfüqarov təyin olundu.

Ermənistanda yaranmış vəziyyət diqqətlə izlənilirdi. ABŞ hökuməti Ermənistan Prezidenti vəzifəsinə vətəndaşlıq senzi uyğun gəlməsə də, Azərbaycanda doğulan Baş Nazir Robert Koçaryanı görürdü*”®. Həqiqətən də mart ayında hakimiyyətə Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında dinc azərbaycanlı əhalinin məhv edilməsində xüsusi ad çıxarmış Robert Koçaryan gəldi. Münaqişənin nizama salınması prosesində imkanları məhdudlaşan Ermənistan vaxt udmaq və vəziyyətdən çıxmaq üçün ölkə daxilində qarşıdurma, silahlı təzyiq və terror yoluna keçdi. Radikal hərbçilər daxildə ictimai-siyasi vəziyyəti gərginləşdirdilər. Onlar münaqişənin tənzimlənməsi üçün təklif olunan mərhələli həllə qarşı çıxdılar. Robert Koçaryan münaqişənin mərhələli həllinə dair Ermənistanın əvvəlki razılığını geri götürdü. Həmsədrlərin bölgəyə növbəti səfəri zamanı Ermənistan rəsmi olaraq mövqeyini bildirdi. Ermənistan rəhbərliyi danışıqları uzatmaq məqsədi ilə münaqişənin həllinin Xankəndindən asılı olduğunu dedi. Bakı ilə Xankəndi arasında birbaşa danışıqların aparılması tezisini irəli sürdü.

Bundan sonra həmsədrlər münaqişənin həllinə dair yeni variantlar üzərində işləməyə başladılar. 1998-ci il noyabrın 9-da Azərbaycana səfər edən həmsədrlər Jorj Vojye (Fransa), Yuri Yukalov (Rusiya) və Donald Kayzeri (ABŞ) Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilərkən ümumi dövlət konsepsiyasına əsaslanan təklifi irəli sürdülər*”’. Bu təklifə əsasən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycan ilə

**ARXİNA. 11.12.1996-20.01.1998.Qovluq NaS, v.7.**

**Əliyev H.Ə. ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşündəki söhbətindən. 9 noyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVlll kitab, s. 211-217.**

birlikdə ümumi dövlət təşkil etməli idi. Azərbaycan tərəfi Ermənistanın bilavasitə hərbi təcavüzü nəticəsində yaradılmış qondarma qurum ilə "ümumi dövlət" yarada bilməzdi. Təkliflər Azərbaycan Respublikasının suverenliyinə və Lissabon zirvə görüşünün prinsiplərinə zidd olduğundan Azərbaycan dövləti noyabrın 19-da həmsədrlərə rəsmi məktub yazaraq onları rədd etdi.

Eyni zamanda Heydər Əliyev noyabrın 25-də ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri Bronislav Geremekin*®^ rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycan tərəfinin ümumi dövlət təklifini rədd etməsinin səbəblərini və ölkəsinin mövqeyini bir daha əsaslandırdı*®^. Ümumi dövlət təklifinin heç bir beynəlxalq hüquqi əsası yox idi. Bu təklif Azərbaycanın Dağlıq Qarabağ bölgəsini müstəqil dövlət və ərazi birliyi kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu ümumi dövlət statusu verir, Ermənistanın Azərbaycana qarşı təcavüzünü qanuniləşdirir, Azərbaycanı ərazisinin bir hissəsindən məhrum edirdi. Heydər Əliyev Ermənistanın sülh yolundan qaçdığını ATƏT-in fəaliyyətdə olan sədrinin diqqətinə çatdırdı.

Görüş zamanı Ermənistanda olan hərbi əsirlərin azad edilməsi məsələsi də müzakirə edildi. Azərbaycan Prezidenti ATƏT-in fəaliyyətdə olan sədrindən bu məsələyə yardım göstərməsini istədi. O da səylərini artıracağını vəd etdi.

Ermənistan tərəfi isə Rusiya, ABŞ və Fransanın Yerevandakı səfirlərinə məktub göndərərək danışıqları canlandırmaq üçün ümumi dövlət təklifini əsas kimi qəbul etdiyini bildirdi.

Azərbaycan ümumi dövlət təklifini rədd etdikdən sonra Minsk prosesi çıxılmaz vəziyyətə düşdü və fəaliyyəti zəiflədi. Bundan sonra heç bir yeni təklif irəli sürülmədi.

**Bronislav Geremek (1932-2008) - Polşanın xarici işlər naziri (1997-2000).**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT sədri Bronislav Geremekin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 1998, 28 noyabr; Əliyev H.Ə. ATƏT-in hazırki sədri Polşanın xarici işlər naziri Bronislav Geremek ilə təkbətək görüşdəki söhbətdən. 25 noyabr 1998- ci il. - Müstəqilliyimiz əbədidir. XVlll kitab, s. 261-265; Əliyev H.Ə. ATƏT-in hazırki sədri Polşanın xarici işlər naziri Bronislav Geremek ilə təkbətək görüşü başa çatdıqdan sonra nümayəndə heyətlərinin görüşündə çıxış. 25 noyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVlll kitab, s. 266-274.**

Yaranmış vəziyyət 1998-ci il dekabrın 2-3-də Osloda keçirilən ATƏT ölkələri Xarici İşlər Nazirləri Şurasının yeddinci iclasında müzakirə olundu. Toplantıda xarici işlər naziri Tofiq Zülfüqarov başda olmaqla Azərbaycan nümayəndə heyəti iştirak edirdi*"^. Tofiq Zülfüqarov etdiyi çıxışında Azərbaycanın ATƏT ilə əməkdaşlığa ciddi əhəmiyyət verdiyini, qitədə sülh və əməkdaşlıqda bu təşkilatın rolunu yüksək qiymətləndirdiyini, Ermənistanın münaqişənin tənzimlənməsində mərhələli həll variantından imtina etməsinin sülhə doğru atılan yolda mane olduğunu, dünya birliyinin iradəsini saya salmadığını, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini pozduğunu bildirdi. O, təzyiqlər və hərbi yolla Ermənistanın istəyinə çata bilməyəcəyini vurğuladı, Minsk qrupunun həmsədrləri tərəfindən Ermənistanın hərəkətlərinə lazımınca qiymət verilmədiyini də diqqətə çatdırdı. Bütün bunlara baxmayaraq, Azərbaycanın mövqeyinə görə, Minsk qrupu münaqişənin həllində məqbul format idi*°®.

İclasda çıxış edən Ermənistanın xarici işlər naziri Vartan Oskanyan*°' vasitəçilərin yeni təkliflərində maraqlı olduqlarını bildirdi [808]

**7-th OSCE Ministerial Council Meeting. Oslo, Norway, 2-3 December,1998. - OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3 December, 1998. File Xo262.**

**7-th OSCE Ministerial Council Meeting. Oslo, Norway, 2-3 December, 1998. - OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3 December, 1998. List of Delegation. File X2261; 2-3 December 1998 (Oslo). 7* Council of Ministers of Foreign Affairs. Journal No. 2 (C-I-0 Report. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.34-35.**

**Statement by the Minister of Foreign Affairs of the Republic of Azerbaijan, Tofık Zulfugarov, at the OSCE Ministerial Council Meeting. Oslo, 2-3 December, 1998. - OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3. December, 1998. File JÇo263; BbicxynjıeHHe MHHHCTpa HHOcxpaHHbix aejı AsepöaÜÄiKaHCKOH PecnyöJiHKU TоıJiHKa 3yji({)yrapoBa na saceaaHHH Cosexa MuHHCTpoB HHOCxpaHHbix flejı OBCE. Ocjıo, 2-3 neKaöpfl 1998 r. - OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3. December, 1998. File JÇo263.**

**Vartan Oskanyan (1955) - Ermənistanın xarici işlər naziri (1998-2008).**

**Statement by Vartan Oskanyan, Minister of Foreign Affairs Republic of Armenia. OSCE Ministerial Council. Oslo. December 2-3, 1998. — OSCE Archive in Prague. 7-th Ministerial Council. Oslo, 2-3. December, 1998. File Jfo263.**

Beləliklə, 1997-1998-ci illər ərzində Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair Minsk qrupunun həmsədrləri tərəfindən üç təklif - paket, mərhələli, ümum dövlət təklifləri irəli sürüldü.

Bu zaman Rusiya Ermənistan ilə hərbi əməkdaşlığını daha da genişləndirmişdi. Belə hərəkətlər Azərbaycanın maraqlarına uyğun deyildi. Ona görə də 1999-cu il yanvarın 29-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi bəyanat verdi*°^. Bəyanatda Rusiyanın Ermənistana silah verməsi Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə zidd hesab edilir, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT sənədlərinin pozulması kimi qiymətləndirilirdi. Bu fəaliyyət Minsk qrupu çərçivəsində vasitəçilik mandatı ilə bir araya sığmırdı.

Yaranmış vəziyyətdə, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bili Klintona məktubla müraciət edərək getdikcə uzanan, Avropada sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olan bu münaqişənin Lissabon sammitinin prinsiplərini həyata keçirərək tezliklə aradan qaldırılması üçün şəxsi fəaliyyətini və ABŞ-m xarici siyasətini fəallaşdırmağı xahiş etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin hələ də yerinə yetirilmədiyini, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilmədiyini, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmadığını bildirdi. Azərbaycan tərəfi Minsk qrupu həmsədrlərinin ümumi dövlət prinsipi təklifini kəskin tənqid etdi və onu qəbul etmədiyini bil- dirdi*'®.

Heydər Əliyev eyni zamanda Fransa Prezidenti Jak Şiraka da aprelin 20-də məktub göndərdi. Məktubda Ermənistanın Azərbaycana təcavüzü, onun nəticələri, münaqişəni nizama salmaq üçün BMT və ATƏT səyləri, Minsk qrupunun irəli sürdüyü təkliflər və Azərbaycanın onlara münasibəti barədə məlumat verilir, Lissabon sammitinin qəbul etdiyi prinsiplər əsasında münaqişənin həlli üçün həmsədrlərdən qətiyyət göstərilməsi xahiş edilirdi^".

**® Statement of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan. January 29, 1999. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**Əliyev H.Ə. Amerika Birləşmiş Ştatlarının Prezidenti B.Klintona məktub. 8 fevral 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s.137-138; Permanent Mission of the Republic of Azerbaijan to the OSCE. Statement at the 21.2'x' Meeting of the OSCE Permanent Council, February 25, 1999. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**Əliyev H.Ə. Fransa Respublikasının Prezidenti Jak Şiraka məktub. 20 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.25-28.**

Bu müraciət ABŞ və Fransanın səylərinin artmasına təsir etdi. ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi üçün digər yollardan da istifadə etməyə başladı. Nizamlama prosesinə təkan vermək məqsədi ilə 1999-cu ilin aprel ayından etibarən Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlər təşkil edildi. İlk əvvəl iki ölkə rəhbəri MDB toplantısı çərçivəsində 1999-cu il aprelin 1-də Moskvada görüşdülər, müzakirələrin nəticəsində atəşkəsin davam etdirilməsinə tərəfdar çıxdılar.

Digər bir görüş NATO-nun 50 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində ABŞ Prezidenti Bili Klinton və dövlət katibi Madlen Olbraytm*'^ təşəbbüsü ilə keçirildi. Onların sədrliyi altında aprelin 25-də Cənubi Qafqaz respublikaları prezidentlərinin görüşü oldu. Görüşdə Böyük Britaniya, AFR, Fransa və Türkiyənin xarici işlər nazirləri, ATƏT-in fəaliyyətdə olan sədri Norveçin xarici işlər naziri Knut Vollebek, ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Samuel Berger iştirak edirdilər*'^. Madlen Olbrayt Dağlıq Qarabağ münaqişəsinin davam etməsindən narahatlığını bildirdi. Görüşdə çıxış edən Heydər Əliyev ATƏT-in Minsk qrupunun səylərinin artırılmasının, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinin, işğal edilmiş ərazilərin boşaldılmasının vacibliyini, Eduard Şevardnadze Gürcüstan ilə Azərbaycan arasında xüsusi dostluq və qardaşlıq münasibətlərinin mövcudluğunu, Robert Koçaryan isə münaqişənin Minsk qrupu çərçivəsində aradan qaldırılmasına tərəfdar olduğunu bildirdilər. Fransanın xarici işlər naziri Yuber Ved- rin*'“* Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün səylərin artırılmasının zəruriliyini, ölkəsinin sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərini dəstəklədiyini qeyd etdi. Knut Vollebek atəşkəs rejimini müsbət qiymətəndirdi, münaqişənin davam etməsinin heç bir ölkənin mənafeyinə uyğun gəlmədiyini bildirdi. Böyük Britaniyanın xarici işlər naziri Robin Kuk^'^ dünya ölkələrinin

**Madlen Olbrayt (1937) - BMT-də ABŞ-ın daimi nümayəndəsi (1993-1997). Dövlət katibi (1997-2001).**

**ABŞ dövlət katibi Madlen Olbraytın sədrliyi ilə Azərbaycan, Gürcüstan, Ermənistan prezidentlərinin görüşü. 25 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.77-78.**

**Yuber Verdin (1947) - Fransa Prezidenti Fransua Mitteramn diplomatik müşaviri (1991-1995). Xarici işlər naziri (1997-2002).**

**Robin Kuk (1946) - Böyük Britaniyanın siyasi və dövlət xadimi. Xarici işlər naziri (1997-2001).**

region dövlətləri ilə əməkdaşlığının böyük perspektivləri olduğunu, münaqişənin həll edilməsi üçün yeni yollar axtarılmasının zəruriliyini qeyd etdi. AFR xarici işlər naziri Yoşka Fişer*'^ isə Cənubi Qafqaz regionunun Avropa ilə Asiya arasında siyasi və iqtisadi baxımdan mühüm mövqe tutduğunu qeyd edərək, sülh və sabitliyin vacibliyini vurğuladı. Türkiyənin xarici işlər naziri İsmail Cem^'^ region üçün sülh və sabitliyin əhəmiyyətini, bu məqsədlə bütün mexanizmi ərdən istifadə etməyin lüzumunu qeyd etdi.

Madlen Olbraytın təklifi və iştirakı ilə aprelin 26-da Heydər Əliyev və Robert Koçaryan arasında görüş keçirildi. İkitərəfli görüşlərin keçirilməsini Rusiya və Fransa da tövsiyə etmişdi. Qeyd etmək lazımdır ki, əvvəllər də Ermənistan və Azərbaycan nümayəndələri arasında birbaşa görüşlər olmuşdu. Lakin bu, Minsk qrupunun təklifi ilə prezidentlər arasında keçirilən birbaşa görüş idi. M.Olbrayt görüşün əhəmiyyətli olduğunu vurğuladı, Qafqazda sülhün bərqərar olması üçün ABŞ-m fəal rol oynamaq istəyini, ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması və Dağlıq Qarabağ regionuna Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilməsi şərti ilə münaqişənin həllinə tərəfdar olduğunu və bu sahədə praktik addımlar atılmasının vacibliyini bildirdi*'*. Daha sonra Heydər Əliyev və Robert Koçaryan görüşü ikilikdə davam etdirdilər. Onlar ikitərəfli görüşləri davam etdirmək barədə razılığa gəldilər.

Növbəti görüş iyulun 16-da Fransada Leman gölü sahilindəki Le Grand Saugy iqamətgahında keçirildi. Lakin bu görüşdə də heç bir nəticə əldə edilmədi. Görüş keçirilərkən Ermənistan atəşkəsi pozdu. İyulun 17- də ABŞ təmas xəttində atəşkəsin pozulmasına mənfi münasibət bildirən bəyanatını ATƏT üzvü olan ölkələrin arasında yaydı*'^.

**" Yoşka Fişer (1948) - AFR-in xarici işlər naziri, vitse-kansler (1998-2005). İsmail Cem (1940-2007) - Türkiyənin ictimai-siyasi xadimi. Xarici işlər naziri (1997-2002).**

**Əliyev H.Ə. ABŞ-m dövlət katibi Madlen Olbrayt ilə görüşdəki söhbətdən. 26 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.l 14-116.**

**Statement on Nagorno Karabakh. Delivered by Ambassador David T. Johnson to the Permanent Council, Vienna. 17 July, 1999. - OSCE Archive in Prague. File:Nagorno Karabakh.**

Heydər Əliyev ilə Robert Koçaryan arasında yeni görüş 1999-cu il avqustun 22-də Cenevrədə Le Seyi sarayında oldu*^°. Prezidentlər münaqişənin sülh yolu ilə tənzimlənməsinə dair məsələləri müzakirə etdilər. Görüşdə müdafiə nazirlərinə atəşkəs rejiminin möhkəmləndirilməsi üçün konkret tədbirləri müəyyənləşdirmək göstərişi vermək barədə razılığa gəlindi. Azərbaycan Prezidenti münaqişə vəziyyətində olsalar da, tərəflərin heç bir xarici ölkənin iştirakı olmadan atəşkəs rejiminə əməl etmələrini böyük nailiyyət kimi qiymətləndirdi və qarşılıqlı güzəştlərə getməyin vacibliyini vurğuladı*^'.

Həmin görüşdən bir müddət sonra, sentyabrın 1-də ABŞ-ın Minsk qrupunda yeni təyin edilmiş xüsusi nümayəndəsi Keri Kavano Azərbaycana səfər etdi. Səfərdə məqsəd münaqişənin həlli ilə bağlı Azərbaycan, Türkiyə və Ermənistanda müzakirələr keçirmək, sonra isə Minsk qrupunun digər həmsədrləri ilə birlikdə Osloya gedib ATƏT-in fəaliyyətdə olan sədri Norveçin xarici işlər naziri Knut Vollebekin Azərbaycana səfəri ərəfəsində onunla danışıqlar aparmaq idi*^". Keri Kavanonu qəbul edən Heydər Əliyev Minsk qrupu həmsədrlərinin fəaliyyətindən narazılıq etdi, ümumi dövlət prinsipinin Azərbaycan tərəfindən qəbul edilməməsinin səbəblərini açıqladı. ABŞ konqresində bir qrup ermənipərəst konqresmenin "əgər Azərbaycan ümumi dövlət prinsipini qəbul etməsə, onda Bakı - Tbilisi - Ceyhan əsas ixtac neft boru kəməri tikilməsin" fikirlərini onun diqqətinə çatdırdı. K.Kavano münaqişənin tənzimlənməsi istiqamətində ölkəsinin səylər göstərəcəyini bildirdi.

Bu zaman ATƏT-in fəaliyyətdə olan sədri Norveçin xarici işlər naziri Knut Vollebekin Azərbaycana səfərinə hazırlıq gedirdi. Səfər ərəfəsində, sentyabrın 10-da Yaltada Heydər Əliyev və Robert Koçaryan MDB toplantısı çərçivəsində görüşdülər. Heç bir nəticə verməyən bu görüşdən bir neçə gün sonra, sentyabrın 18-də Knut Vollebek Azərbaycana səfər etdi. Bu, Knut Vollebekin bölgəyə birinci səfəri idi. O özü ilə Ermənistan

**Declaration by the presidency on behalf of the European Union on the Meeting the presidents of Armenia and Azerbaijan in Geneva. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**Ermənistan Prezidenti ilə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidentinin bəyanatı. 22 avqust 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 201-203.**

**Əliyev H.Ə. ATƏT-in Minsk qrupunda ABŞ-ın yeni təyin olunmuş xüsusi nümayəndəsi Keri Kavano ilə görüşdə söhbət. 1 sentyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 270-279.**

da əsirlikdə olan üç azərbaycanlı əsgəri də gətirmişdi. Heydər Əliyev ilə görüşdə münaqişənin həlli istiqamətində sülh imkanları müzakirə edildi. Azərbaycan Prezidenti Minsk qrupunun fəaliyyətindən narazılığını bildirdi, Azərbaycanın ümumi dövlət prinsipini rədd etməsinin səbəblərini aydınlaşdırdı.

Görüşdə Azərbaycan və Ermənistanda saxlanılan əsirlər məsələsi də müzakirə olundu. Əvvəlki illərdə Ermənistanda olan azərbaycanlı əsirlərin sayı 800-dən artıq idi. ATƏT-in fəaliyyətdə olan sədrinin səfəri zamanı isə Ermənistan rəhbərliyi orada 15 azərbaycanlının əsir saxlandığını bildirmişdi. Azərbaycanda isə 4 nəfər erməni əsir saxlanılırdı. Heydər Əliyev Azərbaycandakı bütün erməni əsrilərinin Ermənistana qaytarılması barədə milli təhlükəsizlik nazirinə göstəriş verdi*^^. Eyni zamanda Ermənistanda saxlanılan azərbaycanlı hərbi əsrilərin hamısının verilməsinə yardım edilməsini ATƏT-in fəaliyyətdə olan sədrindən xahiş etdi. Heydər Əliyev Azərbaycandakı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə yaşadıqlarını bildirdi. Onların daimi yaşayış yerlərinə qayıtmasına kömək göstərilməsini istədi. Knut Vollebek Qafqaz forumunun keçirilməsini təklif etdi. Heydər Əliyev bu təklifin Azərbaycan üçün məqbul olmadığını, yalnız işğal etdiyi Azərbaycan ərazilərini boşaltdıqdan sonra Ermənistan ilə əməkdaşlıqda problem olmadığını bildirdi. ATƏT-in İstanbul zirvə görüşü ilə bağlı məsələlər də müzakirə edildi. ATƏT-in fəaliyyətdə olan sədri zirvə görüşünə qədər Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli görüşlərinin keçirilməsini əhəmiyyətli hesab edirdi.

ABŞ-ın vitse-prezidenti Albert Qor da 1999-cu ilin oktyabr ayında Heydər Əliyevə məktubla müraciət edərək “Azərbaycanın sakit, sülh şəraitində xoşbəxt gələcəyi üçün əsas maneələrin danışıqlar vasitəsilə aradan qaldırılması” arzusunu çatdırdı. Məktubda ATƏT-in İstanbul zirvə görüşü ərəfəsində Robert Koçaryan ilə ümumi razılığa gəlmək və bir qərar qəbul edilərdisə, İstanbul sammiti zamanı ATƏT və ABŞ-ın Azərbaycanla çiyin-çiyinə işləyəcəklərini bildirdi. Albert Qor danışıqların uğurla başa çatmasının Azərbaycanın gələcək inkişafına yardım göstərəcəyinə ümid ifadə etdi*^".

**Əliyev H.Ə. ATƏT-in hazırki sədri Norveçin xarici işlər naziri Knut Vollebek ilə görüşdə söhbət. 18 sentyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s.390-405.**

**Əliyev H.Ə. ABŞ-m Azərbaycandakı səfiri Stenli Eskudero ilə görüşdə söhbət. 9 oktyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXII kitab, s.390-405.**

Azərbaycan tərəfi Ermənistan Prezidenti ilə görüş keçirilməsi təklifini qəbul etdi. Oktyabrın 11-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu ərazisində Heydər Əliyev ilə Robert Koçaryan arasında təkbətək görüş oldu. Görüş zamanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məsələləri müzakirə edildi. Dövlət başçıları Minsk qrupunun fəaliyyətini nəzərdən keçirdilər və həmin fəaliyyətin davam etdirilməsinin vacibliyini vurğuladdan Tərəflərin bir-birinə yaxınlaşma dərəcəsini müzakirə etdilər. Görüş başa çatdıqdan sonra prezidentlər kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirdilər. Onlar keçirdikləri görüşü faydalı hesab etdilər*^^. Heydər Əliyev bəyanatında Minsk qrupu həmsədrlərinin fəaliyyəti ilə yanaşı prezidentlərin də görüşləri formatının davam etdirilməsini mümkün hesab etdi. Robert Koçaryan da görüşü müsbət qiymətləndirdi. Minsk qrupu həmsədrləri adından ABŞ tərəfindən oktyabrın 11-də yayılan bəyanatda bu görüş müsbət qiymətləndirildi*"®.

ATƏT-in İstanbul zirvə görüşünə hazırlıqlar aparılarkən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbərliyində dəyişiklik baş verdi. 1999-cu ilin oktyabr ayında xarici işlər naziri Tofiq Zülfüqarov vəzifəsindən getdi. Bu vəzifəyə Vilayət Quliyev*^^ təyin edildi.

Zirvə toplantısı ərəfəsində, noyabrın 9-da Heydər Əliyev Azərbaycana səfər edən ATƏT-in Minsk qrupunun Fransa tərəfindən təyin olunmuş yeni həmsədri Jan Jak Qayyard ilə görüşdü. Azərbaycan Prezidenti Minsk qrupunun fəaliyyətindən narazılığını bildirdi*^*. Onun fikrincə, Azərbaycan və Ermənistan prezidentlərinin görüşləri ilə paralel olaraq Minsk qrupu da fəaliyyətini davam etdirməli idi. Prezidentlərin görüşü Minsk qrupunun fəaliyyətini əvəz edə bilməzdi.

**^ Əliyev H.Ə. Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanla görüş. 11 oktyabr 1999-cu il. — Müstəqilliyimiz əbədidir. XXII kitab, s. 176-179.**

**Statement on Nagomo Karabakh. Delivered by Special Negotiator Carey Cavanaughto the Permanent Council. Vienna. 11 October, 1999. — OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**Vilayət Quliyev (1952) - tanınmış ədəbiyyatşünas alim. Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1995-2000). Xarici işlər naziri (1999-2004). Azərbaycan Respublikasının Polşadakı fövqəladə və səlahiyyətli səfiri (2004- 2010). Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri (2010-cu ildən).**

**Əliyev H.Ə. ATƏT-in Minsk qrupunun Fransa tərəfindən yeni həmsədri Jan Jak Qayyard ilə görüşdə söhbət. 9 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 56-62.**

Noyabrın 18-19-da İstanbulda keçirilən ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti zirvə görüşündə^^^ Minsk qrupu həmsədrlərinin məruzəsi dinlənildi*^®. Zirvə görüşündə etdiyi nitqində Azərbaycan Prezidenti Heydər Əliyev Avropada mövcud olan təhlükələrdən danışdı, ölkələrin suverenliyi və ərazi bütövlüyünə olan təhdidləri diqqətə çatdırdı, Azərbaycan ərazilərinin beşdə birinin işğal edildiyini, Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların qaçqın və məcburi köçkün olduğunu vurğuladı, Minsk qrupu həmsədrlərini münaqişəni həll etmək üçün səylərini artırmağa səslədi**'.

Zirvə toplantısı çərçivəsində Heydər Əliyevin ABŞ Prezidenti Bili Klinton, Fransa Prezidenti Jak Şirak, Rusiya Prezidenti Boris Yeltsin, Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə keçirilən görüşlərinin əsas məğzi Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün mövcud olan problemlərin, çətinliklərin, məsələnin həlli üçün dinc imkanların və mümkün yolların axtarılmasından ibarət idi.

Noyabrın 18-də ATƏT-in fəaliyyətdə olan sədrinin və Minsk qrupunun həmsədrləri olan ölkələrin xarici işlər nazirlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşləri keçirildi***. Görüşdə əsas ideya Minsk qrupunu yenidən regiona qaytarmaq və sülh prosesinə qüvvət vermək idi. Həmsədrlər münaqişənin dinc vasitələrlə aradan qaldırılmasını zəruri hesab edir, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa ikitərəfli görüşlərini dəstəkləyir və onun davam etdirilməsini zəruri sayırdılar.

**19 November 1999. istanbul summit. Extract form the summit Declaration. Annex 2. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.36.**

**Report by the co-charmen of the Minsk Conference of the OSCE on Nagorno Karabakh to the Meeting of heads of State or government. istanbul, 18 November, 1999. - OSCE Archive in Prague. istanbul summit. 18-19 November, 1999. Summary documents. File No225.**

**Statement Heydar Aliyev, President of the Republic of Azerbaijan. OSCE summit. istanbul, 18-19 November, 1999. - OSCE Archive in Prague. istanbul summit. 18-19 November, 1999. Summary documents. File JV2225.**

**Əliyev H.Ə. ATƏT-in icraçı sədrinin və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrinin xarici işlər nazirlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə görüşlərindəki söhbətdən. 18 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 156-160; Clinton, Koçaryan ile Aliyev'i buluşturdu. - "Türkiye" gazetesi, İstanbul, 1999, 19 Kasım.**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da İstanbul bəyannaməsini^^^ və Avropa təhlükəsizlik xartiyasını^" imzaladı. Bu sənədlər qarşıdakı illər ərzində ATƏT-in fəaliyyət istiqamətlərini müəyyənləşdirirdi. İstanbul bəyannaməsinin 20-ci bəndi Dağlıq Qarabağ münaqişəsi barədə idi®^^. Burada Bakıda ATƏT ofisinin açılması planının həyata keçirilməsinin dialoqu artıracağı qeyd edilir, Minsk qrupu həmsədrlərinin səyləri müsbət qiymətləndirilir və münaqişənin tənzimlənməsi üçün daha əlverişli format kimi qəbul olunurdu.

Böyük tarixi əhəmiyyətə malik olan İstanbul zirvə görüşü Avropada regional təhlükəsizliyin qorunması istiqamətində mühüm rol oynadı, dövlətlərin ərazi bütövlüyü və suverenliyini, sərhədlərinin toxunulmazlığını bir daha təsdiq etdi. Zirvə görüşü təhlükəsizlik sahəsində məsələlərə diqqəti artırdı.

İstanbul zirvə görüşündən sonra Minsk qrupunun fəaliyyəti bir qədər artdı. 1999-cu il dekabrın 14-də Minsk qrupunun həmsədrləri Keri Kavano (ABŞ), Jan Jak Qayyard (Fransa), Nikolay Qribkov (Rusiya) və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, BMT inkişaf proqramının. Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndələrindən ibarət bir heyət Bakıya səfər etdi. Qeyd etmək lazımdır ki, Minsk qrupu həmsədrlərinin regiona sonuncu səfəri 13 ay əvvəl olmuş, məhz o zaman ümumi dövlət layihəsi irəli sürülmüşdü. Nümayəndə heyətinin səfərində əsasən iki məqsəd var idi: birincisi, yeni təkliflər üzərində işə başlamaq; ikincisi, işğaldan azad ediləcək ərazilərdə bərpa və yenidənqurma işləri aparılması imkanlarını nəzərdən keçirmək. Nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Görüş zamanı Jan Jak Qayard bildirdi ki, həmsədrlər yeni təklifləri Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri əsasında qurmaq istəyirlər. Heydər Əliyev Minsk qrupunun fəaliyyətinin bir az

**İstanbul summit declaration. - OSCE Archive in Prague. istanbul summit.18- 19 November, 1999. Journalsl, 2. Final documents. Charter/Declaration. File** JJ2224.

**Charter for European Security. istanbul. November 1999. - OSCE Archive in Prague. istanbul summit. 1999. Summary documents. File *N°224.***

**istanbul summit declaration. - OSCE Archive in Prague. istanbul summit. 18- 19 November, 1999. Journals 1, 2. Final documents. Charter/Declaration. File JV2224; Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Zirvə görüşü, istanbul. 19 noyabr 1999-cu il. istanbul. Zirvə görüşünün bəyannaməsi. - “Diplomatiya aləmi” jurnalı, Bakı, 2003, yanvar-mart, Ff® 2, s. 122.**

dondurmağa məcbur olmasının guya Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri ilə əlaqələndirilməsi barədə verilən izahatın heç bir əsası olmadığını bildirdi. Azərbaycan tərəfinin baxışma görə, prezidentlərin görüşü Minsk qrupunun fəaliyyətini kənara qoymaq deyil, ona kömək etmək məqsədi daşıyırdı^^®.

Tərəflər sülhə yaxınlaşdıqları bir zamanda 1999-cu ildə Ermənistan parlamentində terror aktı törədildi. Bu hadisə Ermənistan siyasi hakimiyyətinin ölkə daxilində problemlərin həllində zorakılıq yolu tutduğunu və kriminallaşdığmı göstərirdi. Ermənistan sülh danışıqlarından imtina etdi. Lakin böyük dövlətlərin təkidindən sonra Yerevan yenidən ikitərəfli görüşün keçirilməsinə razılıq verdi. Belə bir görüşün keçirilməsi üçün hazırlıq işlərinə başlandı. ABŞ-m ATƏT-dəki daimi nümayəndəsi David T.Johnson 2000-ci il fevralın 3-də bəyanat verərək, getdikcə daha vacib olan çoxdankı münaqişənin həllinə doğru hərəkət edildiyini bildirdi, Ro- bert Koçaryan və Heydər Əliyevin birbaşa danışıqlarının nəticə verəcəyinə ümid ifadə etdi və dialoqun davam etdirilməsini istədi^^’. Bundan sonra, iyulun 2-də Minsk qrupunun həmsədrləri Keri Kavano, Nikolay Qrib- kov və Jan Jak Qayard Azərbaycana səfər etdilər. Onlar Heydər Əliyev tərəfindən qəbul olundular*^*. Həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşlərinin davam etdirilməsini istəyirdilər.

Səfərin ardınca, ATƏT-in fəaliyyətdə olan sədri Avstriyanın xarici işlər naziri Benita-Mariya Ferrero-Valdner*^^ iyulun 16-18-də Ermənistanda və Azərbaycanda oldu*'*®. Ermənistanda Prezident Robert Koçaryan və digər rəsmi şəxslərlə iyulun 17-də görüşdü. İyulun 18-də isə Bakıya gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən

**Əliyev H.Ə. ATƏT-in Minsk qmpunun nümayəndə heyəti ilə görüşdə söhbət. 14 dekabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 5-20.**

**Statement on Nagomo Karabakh Delivered by Ambassador David T. Johnson to the Permanent Council, Vienna. February 3, 2000. - OSCE Archive in Prague. File: Nagomo-Karabakh.**

**Əliyev H.Ə. ATƏT-in Minsk qrupunun nümayəndə heyəti ilə görüşdə söhbət. 2 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 402-416.**

**Benita-Mariya Ferrero-Valdner (1948) - Avstriyanın dövlət və siyasi xadimi. Xarici işlər naziri (2000-2004).**

**Information Visit of the CİO to Armenia and Azerbaijan.Vienna, 21 July, 2000. - OSCE Archive in Prague. File:Nagomo Karabakh.**

qəbul edildi^'. Daha sonra Baş Nazir Artur Rasizadə*"*^, xarici işlər naziri Vilayət Quliyev, ATƏT üzvü olan ölkələrin Bakıdakı səfirləri, qaçqın və məcburi köçkünlər və b. ilə görüşdü. Keçirdiyi görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin həlli üçün səylərini artıracağını bildirdi. O, münaqişənin tənzimləməsində məsuliyyəti hər iki ölkənin üzərinə qoyaraq ikitərəfli görüşlərin davam etdirilməsinin əhəmiyyətini vurğuladı və regionda iqtisadi əməkdaşlığı sabitləşdirici amil kimi qeyd etdi. Lakin bu məsələdə Azərbaycanın mövqeyi aydın və konkret idi. Ermənistan işğal etdiyi əraziləri boşaltmayana, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmayana qədər Azərbaycan bu ölkə ilə iqtisadi əməkdaşlığı mümkün hesab etmirdi.

2000-ci il noyabrın 27-28-də Vyanada ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclası keçirildi®'*^. Toplantıda həmsədrlər hesabat verdilər*'*'*. Nazirlər Şurası münaqişənin nizamlanması istiqamətində səylərin davam etdirilməsini tövsiyə etdi.

Münaqişənin nizamlanması ilə bağlı müzakirələr növbəti ildə də davam etdirildi. 2001-ci il yanvarın 26-da Avropa Şurasına Azərbaycan və Ermənistanın üzvlük mərasimi zamanı Heydər Əliyev və Robert Koçaryan ilə Parisdə təkbətək görüşdülər*'*^. Prezidentlər tam sülh əldə edilənədək atəşkəs rejiminin saxlanılmasının vacibliyini vurğuladılar.

Elə həmin gün Fransa Prezidenti Jak Şirak, Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Koçaryan arasında görüş

***'*' Əliyev H.Ə. ATƏT-in hazırki sədri Avstriyanın xarici işlər naziri xanım Beni- ta Ferrero-Valdner ilə təkbətək görüşdə söhbət. 18 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 204-205.**

***'*" Artur Rasizadə (1935)-Azərbaycan siyasi və dövlət xadimi. Baş Nazir (1996- 2003 və 2003-cü ildən).**

**27-28 November 2000 (Vienna). 8* Council of Ministers of Foreign Affairs. Journal No. 2.Extracts from the Chairperson's Statement Annex 2. — OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.37-38.**

***'*'' Report by the co-shairs of the OSCE Minsk Conference on Nagorno Karabakh to the OSCE Council of Ministers. Vienna, 28 November 2000. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.38-40.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 124.**

oldu*'*^. Dövlət başçılan münaqişə tərəfləri arasında birbaşa dialoqun davam etdirilməsinin vacibliyini bildirdilər.

Bu zaman Minsk qrupunun həmsədri olan Fransa Prezidenti Jak Şirak Heydər Əliyev və Robert Koçaryanm yeni görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdü. Azərbaycan tərəfi təklifi qəbul etdi.

Heydər Əliyev Minsk qrupu formatında münaqişənin həlli yollarını Ermənistan Prezidenti ilə müzakirə etmək məqsədilə Fransa Prezidenti Jak Şirakm dəvətinə əsasən 2001-ci il martın 4-6-da Parisə işgüzar səfər etdi^'*^. Görüş Parisdə Marini sarayında keçirildi. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin sayca 15-ci görüşü idi. Heydər Əliyev və Robert Koçaryanm təkbətək görüşü iki saat davam etdi. Daha sonra Fransa Prezidentinin iştirakı ilə üçtərəfli görüş keçirildi*'**. Bu görüş üç saat davam etdi. Münaqişənin aradan qaldırılmasına geniş yer ayıran dövlət başçıları Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa görüşlərin keçirilməsinin vacib olduğunu bir daha vurğuladdan

Müzakirələr başa çatdıqdan sonra Heydər Əliyev görüşün gedişini və nəticələrini qiymətləndirərək "çətin və gərgin" keçdiyini və "heç bir konkret nəticə" vermədiyini dedi. Çünki Ermənistan Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etmirdi. Minsk qrupunun həmsədrləri Ermənistana tələblərindən geri çəkilməyə təzyiq göstərmirdilər. Bu isə Ermənistanın beynəlxalq hüquqa zidd olan mövqeyində israr etməsinə kömək edirdi.

Prezident Jak Şirak isə danışıqların "dostcasına və səmimi" keçdiyini bildirdi. Tərəflərin münaqişəni həll etməkdə maraqlı olduqlarını qeyd etdi.

**Azərbaycan Prezidenti Heydər Əliyevin, Fransa Prezidenti Jak Şirakm və Ermənistan Prezidenti Robert Koçaryanm görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 125.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fransaya işgüzar səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 211- 218.**

**OSCE Personal Representative of the Chairman-in-Office on the Conflict Dealt With by the Minsk Conference Monthly Activity Report for March 2001. - OSCE Archive in Prague. File: Minsk Conference. 1993-2003; Azərbaycan Prezidenti Heydər Əliyevin, Fransa Prezidenti Jak Şirakm və Ermənistan Prezidenti Robert Koçaryanm görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 219-220.**

Görüşdən sonra, martın 12-17-də Heydər Əliyev Türkiyəyə rəsmi səfər etdi^"*^. O, Prezident Əhməd Necdət Sezer[850], Baş Nazir Bulent Ecevit*^' və digər rəsmi şəxslərlə görüşərək Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi və s. məsələləri müzakirə etdi.

Ermənistan xarici işlər naziri Vartan Oskanyan isə martın 16-da Moskvaya işgüzar səfər edib Rusiya xarici işlər naziri İgor İvanov*^^ və Milli Təhlükəsizlik Şurasının katibi Sergey İvanov*^^ ilə görüşərək ikitərəfli münasibətlər, regional və beynəlxalq problemlərə dair müzakirələr apardı. Daha sonra o, martın 19-20-də ABŞ-a getdi.

2001-ci il mart ayında ABŞ hökuməti Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdü. Tərəflər təklifi qəbul etdilər. ABŞ Dövlət Departamentinin nümayəndəsi Riçard Bauçer martın 14-də bununla bağlı bəyanat verdi*^'*. Bəyanatda Ki Vestdə Heydər Əliyev və Robert Koçaryan arasında keçiriləcək görüş 1999-cu ildən başlanan, 2000-ci il yanvarın 26-27-də və martın 4-5-də Parisdə Fransa Prezidenti Jak Şirakm təşəbbüsü ilə keçirilmiş birbaşa dialoqun davamı kimi qiymətləndirilirdi. ABŞ Dövlət Departamentinin mövqeyinə görə, bu görüş münaqişənin tənzimlənməsi potensialını artıra bilərdi. Bəyanatda münaqişənin 1988-1994-cü illərdəki fəal mərhələsində 35 min adamın həyatını itirdiyi, 1 milyondan artıq adamın qaçqına çevrildiyi, 1994-cü ildən sonra isə minalardan və snayper atəşlərindən insanların öldürüldüyü, regionda sabitliyə və tərəqqiyə mane olduğu vurğulanırdı.

Görüş ərəfəsində, martın 30-da ABŞ Dövlət Departamentinin hazırladığı "Dağlıq Qarabağ münaqişəsinin tarixi" adlı məlumatda yazılırdı ki, Rusiya imperiyası 1813-cü ildə region üzərində nəzarət qurduqdan sonra Dağlıq Qarabağ regionunun erməni əhalisi artdı, Azərbaycan türkləri isə

**Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 237-242.**

**Əhməd Necdət Sezer (1941) - Türkiyə Prezidenti (2000-2007).**

**Bulent Ecevit (1925-2006) - Türkiyənin Baş Naziri (1974, 1978-1979, 1999- 2002).**

**İgor İvanov (1945) — Rusiyanın xarici işlər naziri (1998-2004).**

**Sergey İvanov (1953) - müdafiə naziri (2001-2007). Rusiya hökuməti sədrinin müavini (2005-2007). Birinci müavini (2007-2008).**

**Unated States Mission to the OSCE. Key West Peace Talks on Nagorno Karabakh. Statement by Richard Boucher, Spokesman Department of State. March 14, 2001. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

Qarabağdan mühacirət etməyə başladılar. Sənəddə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması, etnik tərkibi, münaqişənin başlanması və nəticələri haqqında məlumat verilirdi*^^ . Dövlət Departamenti eyni zamanda Dağlıq Qarabağ sülh prosesi*^" və Minsk konfransının tarixi^” haqqında məlumatlar da hazırlamışdı.

Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il aprelin 1-də ABŞ-a işgüzar səfər etdi*^*. Aprelin 3-də əvvəlcə ABŞ dövlət katibi Kolin Pauell*^^ ilə görüşdü*'"®. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Daha sonra Heydər Əliyev, Kolin Pauell və Robert Koçaryan jurnalistlər ilə görüşdülər. Kolin Pauell bu görüşü regionda barışıq əldə olunması, sülhün bərqərar edilməsi üçün önəmli addım adlandırdı. Bəyanat verən Heydər Əliyev Ermənistanın Azərbaycana təcavüzü və münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələləri üzərində dayandı*®'. Bu bəyanat aprelin 5-də ATƏT-dəki Azərbaycanın daimi nümayəndəliyi tərəfindən təşkilatın üzvləri arasında yayıldı*®^ aprelin 6-da isə Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Eldar Quliyev tərəfindən BMT baş katibinə göndərildi.*®* Bəyanat Təhlükəsizlik Şurasının [***]

***** History of the Nagorno Karabakh conflict. U.S. Department of State. March 30, 2001. - OSCE Archive in Prague. File; Nagorno Karabakh.**

****® Nagorno Karabakh Peace process. U.S. Department of State. March 30, 2001. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**History of the Minsk Conference. U.S. Department of State. March 30,2001. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a işgüzar səfəri. -Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 346-351.**

**Kolin Pauell (1937)-ABŞ dövlət katibi (2001-2004).**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının dövlət katibi Kolin Pauell ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 351-352.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 353-357.**

**Ambassador Vaqif Sadiqov Permanent Representative Enclosure. To all OSCE Delegations. Statement of his Exselency Heydar Aliyev, President of the Republic of Azerbaijan at the Meeting with the secretary of State Colin Powell President of Armenia, and co-chirs of the OSCE Minsk Group. Key Wst. 3 April 2001. - OSCE Archive in Prague. File: Nagorno Karabakh.**

**E.Guliev. Letter dated 4 Aprel from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General. - UN.General Assembly. Security Council. 18 Aprel 2001. A\56\62-S\2001\334;**

sənədi kimi yayıldı*^'*. Sənəddə münaqişənin tənzimlənməsi üçün edilən səylərin nəticə vermədiyindən təəssüf hissi ifadə olunur, münaqişənin Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağı özünə ilhaq etmək cəhdləri ilə bağlı olaraq hələ SSRİ mövcud olduğu bir zamanda başlandığı vurğulanırdı. Öz niyyətlərinə çatmaq üçün Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionunda separatçı, terrorçu qüvvələri silahlı qarşıdurmaya təhrik etdiyi, sonra isə açıq şəkildə hərbi təcavüzə başladığı qeyd edilirdi. Təcavüz nəticəsində Dağlıq Qarabağ regionu separatçı erməni silahlı qüvvələrinin nəzarəti altına keçmiş və bu ərazidən azərbaycanlılar etnik təmizləmə nəticəsində qovulmuşdular. Dağlıq Qarabağ regionunu işğal edən erməni silahlı qüvvələri onun ətrafındakı əraziləri də işğal etmişdi. Bəyanatda daha sonra işğalın nəticələri barədə məlumat verilir, Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilmədiyi, münaqişənin tənzimlənməsi üçün beynəlxalq birlik tərəfindən müəyyənləşdirilən hüquqi bazanın saya salınmadığı vurğulanırdı. ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən təqdim edilmiş paket, mərhələli həll variantlarının Azərbaycan tərəfindən qəbul, ümumi dövlət təklifinin isə rədd edildiyi qeyd olunurdu. Azərbaycanın münaqişənin sülh yolu ilə nizamlanmasına tərəfdar olduğu bildirilirdi.

ABŞ-ın Florida ştatının Ki Vest şəhərində Kolin Pauell, Heydər Əliyev, Robert Koçaryan və ATƏT-in Minsk qrupunun həmsədrləri Keri Kavano, Jan Jak Qayyard, Nikolay Qribkov və Minsk konfransının həmsədri, Rusiya Federasiyasının xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov*^^ arasında görüş aprelin 3-də keçirildi™[866]. Görüşü

---

**E.KyjiHCB. rİHCbMO nocTOHHHoro npeflCTaBHxejıa A3ep5afifl>KaHa npu Opranusa- UHH Oö-beaHueHHbix Hauuü ox 4 anpeaa 2001 rona ua HMH reuepanbHoro cex- pexapa. - OOH. FeHepanbHaa AccaMÖaeH. CoBex BeBonacHocxu. A\56\62- C\2001\334.**

**Annex to the letter dated 4 Aprel 2001 from the Permanent Representative of Azerbaijan to the United Nations addressed to the Secretary-General. — UN. General Assambly. Security Council. A\56\62-S\2001\334; OpHJtojKeHHe K nncbMy nocxonHHoro npeacxaBUxena AsepöauÄJKaHa npu OprauHsauHH 05-beÄHHeHHbix HauHU ox 4 anpejıa 2001 rotta ua UMa reuepajibHoro cexpaxapa. - OOH. FeHepamjHaa AccaMÖJiea. Cosex BesonacHocxH. A\56\62-C\2001\334.**

**Vyaçeslav Trubnikov (1944) - Rusiya xarici kəşfiyyat xidmətinin direktoru (1996-2000). Xarici işlər nazirinin birinci müavini (2000-2004) . Hindistanda səfir (2004-2009).**

Kolin Pauel açdı. O, Heydər Əliyevin mövqeyini son dərəcə aydın, inandırıcı və qətiyyətli qiymətləndirdi. V.Trubnikov Minsk qrupu formatında münaqişənin həlli üçün səylərin gücləndirilməsinin vacibliyini bildirdi. Fransadan olan həmsədr Jan Jak Qayyard ölkəsinin münaqişənin həlli istiqamətində səylərini artıracağını qeyd etdi.

Daha sonra müzakirələr başladı. Bu, "yaxınlaşma danışıqları" idi. Tərəflər münaqişənin dinc vasitələrlə tənzimlənməsi yollarını müzakirə etdilər. ABŞ Dağlıq Qarabağ, Laçın dəhlizi və Naxçıvanın qərbinin Ermənistana verilməsi müqabilində Meğri dəhlizinin Azərbaycana verilməsini təklif etdi.

Lakin ərazi mübadiləsi təklifi reallaşmadı. Bunun da bir sıra səbəbləri var idi. Rusiya tədqiqatçısı Əhməd Butayevin fikrincə, Meğri sahəsi Ermənistan - Azərbaycan münasibətləri çərçivəsindən xeyli kənara çıxırdı. O yazırdı ki, Meğrinin Azərbaycana və ya beynəlxalq nəzarətə verilməsi türk dünyasının qloballaşması prosesinin başlanğıcı, faktiki olaraq yeni "Böyük Turan"m yaranması olar. Müəllifin fikrincə, bu vəziyyət İranı ciddi surətdə narahat edir, Türkiyə və Azərbaycan ilə sərhəddə olan və tamamilə azərbaycanlılardan ibarət olan şimal ərazilərinin parçalanmasından ehtiyat edirdi. Buna görə də, iranlıları indiki vəziyyət, Azərbaycan ərazilərinin işğalının, Meğri dəhlizinin xeyli genişləndirilməsi təmin edir- di"'.

Görüşdən sonra həmsədrlər mətbuat konfransı keçirdilər. Keri Kavano nikbin bəyanatla çıxış etdi*®*.

Azərbaycan Prezidenti elə həmin gün Rusiya nümayəndə heyətinin rəhbəri V.Trubnikov ilə görüşdü*®^. Görüşdə münaqişənin həlli üçün Minsk qrupunun səylərinin artırılmasının vacibliyi vurğulandı.

Aprelin 5-də Azərbaycan Prezidenti ATƏT-in baş katibi Yan Kubiş ilə görüşdü*'®. O, münaqişənin ədalətli həlli naminə ATƏT-in daha təsirli

**ABŞ dövlət katibinin Azərbaycan, Ermənistan prezidentləri və ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 358-359.**

867

868 **BуxaeB A. Kacnuü:** aaneM OH **3anaay, c.444.**

**ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Keri Kavanonun mətbuat konfransı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 359-365.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s. 365.**

tədbirlər görməsinə ehtiyac duyulduğunu qeyd etdi və ATƏT-in baş katibini sülh prosesində konstruktiv mövqe tutması üçün Ermənistana təsir etməyə çağırdı.

Həmin gün Heydər Əliyev Minsk qrupunun fransalı həmsədri Jan Jak Qayyard ilə görüşdü*^'. Görüşdə münaqişənin həlli üçün Minsk qrupunun səylərinin artırılmasının vacibliyi önə çəkildi.

Azərbaycan Prezidenti Minsk qrupunun amerikalı həmsədri Keri Kavano ilə aprelin 5-də görüşərək münaqişənin sülh yolu ilə tənzimlənməsi barədə fikir mübadiləsi apardı*'^.

Görüşün nəticəsində həmsədrlər aprelin 10-da bəyanat yaydılar*'^. Sənəddə tərəflərin görüşləri davam etdirmək barədə razılığa gəldikləri qeyd olunurdu.

Heydər Əliyev Ki Vest danışıqlarının nəticəsindən məmnunluğunu ifadə etdi. Bunu Ki Vest formatı adlandırdı. Münaqişənin tənzimlənməsi üçün hər hansı müharibəyə ehtiyac duymadığını bildirdi*^''.

Robert Koçaryan görüşü "çətin, lakin konstruktiv" qiymətləndirdi. O, Yerevanın təkid etdiyi üç aparıcı məsələyə riayət edəcəyini bildirdi: qondarma "Dağlıq Qarabağ Respublikası" Bakıya şaquli tabe edilməməlidir; Ermənistan ilə quru əlaqəsi olmalıdır; konkret təhlükəsizlik zəmanətləri təklif edilməlidir.

Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyev irəliləyiş barədə danışmağın tez olduğunu bildirdi. Bununla belə, görüş Minsk qrupunun yeni təkliflər işləyib hazırlamaları üçün imkan açırdı.

**Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in baş katibi Yan Kubiş ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 366-367.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Minsk qrupunun Fransa tərəfindən həmsədri Jan Jak Qayyard ilə görüşü. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 367-368.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun ABŞ tərəfindən həmsədri Keri Kavano ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 368-369.**

**OSCE Minsk Group co-shairmen's Communique on Key West Peace Talks. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] confiict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.41.**

**OSCE Personal Representative of the Chairman-in-Office on the confiict dealt with by the Minsk Conference Activity Report, 1-30 April. - OSCE Archive in Prague. Minsk Conference. 1993-2003.**

Keri Kavano görüşü "cürətli və əhəmiyyətli addım" adlandırdı. Onun fikrincə, İsveçrədə keçiriləcək görüş ərəfəsində yeni təkliflər hazırlamaq baxımından imkan yaranmışdı. O, regionun aparıcı dövləti olduğunu deyərək görüşlərə İranı cəlb etməyi, münaqişənin tənzimlənməsi ilə bağlı qərarların bu ölkənin marağına zidd olmadığını, Florida görüşünün nəticələri barədə həmsədrlərin İranı məlumatlandırmalarını təklif etdi. Keri Kavanonun bəyanatı bir sıra məqamlar baxımından qəribə idi: İran - ABŞ münasibətləri gərgin idi. Bu ölkələrin arasında diplomatik əlaqələr mövcud deyildi; İran ATƏT-in üzvü deyildi. Keri Kavano təklifini Azərbaycanın Dağlıq Qarabağ regionunun İran ilə sərhəddə yerləşməsi ilə əlaqələndirirdi. Belə bir təklif İranı regionda gedən proseslərə cəlb etmək niyyəti güdürdü.

Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayevin fikrincə, ABŞ nümayəndəsi danışıqlar üçün heç bir əsas hazırlamamışdı^'^.

Ki Vest görüşü münaqişənin nizama salınmasında irəliləyişə gətirmədi. Ondan sonra, aprelin 9-da Heydər Əliyev Vaşinqtonda ABŞ Prezidenti Corc Buş ilə görüşərək Azadlığı müdafiə aktına 907-ci düzəlişin ləğvi, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi və Xəzər dənizininin enerji ehtiyatlarından istifadə məsələlərini müzakirə etdi^'^. ABŞ münaqişənin yalnız dinc vasitələrlə tənzimlənməsinə tərəfdar idi.

Bundan sonra da Azərbaycan səylərini dayandırmadı. Azərbaycan Respublikası 2001-ci il sentyabrın 6-da ATƏT Daimi Şurasının 351-ci iclasına müraciət etdi. Məktubda münaqişənin tənzimlənməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələri, onların tələbləri, ATƏT-in qərarları və 1992-ci il martın 24-də verilmiş mandatı, həmsədrlərin təkliflərinin mahiyyəti xatırladılır, onlardan geri çəkilmənin yolverilməz olduğu bildirilirdi. Minsk qrupu həmsədrlərinin yeni təkliflər irəli sürmələri istənilirdi. Dağlıq Qarabağ regionunda yerli hakimiyyət orqanlarına keçirilən seçkinin qanunsuz olduğu bildirilirdi. ATƏT prinsiplərinin ardıcıllığının qorunmamasmın təhlükəli olduğu vurğulanırdı*". Qeyd etmək lazımdır ki.

**^ Paşayev H.M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri, s.9.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 370-372.**

**Of the Republic of the Azerbaijan to the SCE Statement at the 351st Meeting of the OSCE Permanent Council. September 6, 2001. - OSCE Archive in Prague. File: Nagomo Karabakh.**

bu seçkilərin keçirilməsinə Türkiyə, Gürcüstan, Moldova və Ukrayna da etiraz etdilər*^* . Tükiyə daha sonra yenidən müraciət edərək münaqişənin tənzimlənməsi üçün ATƏT-in səylərinin artırılmasım istədi [4:879]

2001-ci il noyabrın 26-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinə təqdim edilmiş hesabatı daxil oldu. Azərbaycan tərəfi bu hesabatı öyrəndi. Xarici işlər nazirinin müavini Araz Əzimov Avstriyadakı səfir Vaqif Sadıqova 2001-ci il dekabrın 1-də məktub göndərərək, Azərbaycan tərəfinin aşağıdakı məsələlər üzrə narazılığını bildirməsi barədə təlimat verdi**°: Minsk qrupunun həmsədrləri onlara həvalə edilən mandatı həyata keçirə bilmirlər; 1997-ci ildən sonra Minsk qrupu bütöv tərkibdə bir dəfə də görüş keçirməmişdir; Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa dialoq Minsk qrupunun fəaliyyətini əvəz edə bilməz; Ermənistan işğalçı olaraq təcavüzkar siyasət həyata keçirdiyindən bu dövlətin prezidentinin və işğala məruz qalmış, təcavüzün qurbanı olan Azərbaycan Respublikası Prezidentinin münaqişənin həll olunmasında daşıdıqları məsuliyyətləri eyni ola bilməz; Ki Vestdə aparılan sülh danışıqları iki prezident arasında görüş birbaşa deyil, vasitəçi, müvəqqəti formatını daşıyırdı və görüş zamanı hər hansı bir mühüm nəticə əldə edilməmişdir; Azərbaycan Respublikasının işğal altında qalan 20% torpaqları tam azad olunmayanadək və yüz minlərlə azərbaycanlı məcburi köçkünlər doğma yurdlarına qayıtmayanadək, Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi bərpa olunmayanadək hər hansı etimad tədbirlərinin həyata keçirilməsi qəbul olunmazdır; Ermənistan - Azərbaycan münaqişəsi qarşılıqlı güzəştlər əsasında deyil, beynəlxalq hüququn prinsipləri və normaları əsasında həll edilməlidir və s.

*** Delegaitons of Azerbaijan, Georgia, Moldova and Ukraine. Statement at the 35 Meeting of the Permanent Council. September 6, 2001. - OSCE Archive in Prague. File: Nagomo Karabakh.**

**Permanent mission of the Turkey to the OSCE-Vienna. Remarks by the Permanent Representative of Turkey in response to the briefıngs by the co- chairmen of the Minsk Group and by the Personal Representative of the OSCE Chairman-in-Off on the Conflict Dealt with by the Minsk Conference (14 November 2002, 42th Permanent Council). - OSCE Archive in Prague.File: Nagorno Karabakh.**

**ARXINA. 23.11.2001-19.12.2001. Qovluq X26, v.144-145.**

ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə şəxsi nümayəndəsi Anjey Kaspirşik 2001-ci il noyabr-dekabr aylarında regiona səfər edərək Xarici İşlər Nazirləri Şurasının iclası ərəfəsində görüşlər keçirdi**'. Səfərdən az sonra, dekabrın 4-də Buxarestdə ATƏT Xarici İşlər Nazirləri Şurasının doqquzuncu iclası keçirildi**^. İclasda Minsk qrupu həmsədrlərinin hesabatı dinlənildi və qəbul edildi . İclas çərçivəsində Azərbaycanın xarici işlər naziri Vilayət Quliyev və Ermənistanın xarici işlər naziri Vartan Oskanyan görüşdülər.

Minsk qrupunun həmsədrləri 2002-ci ilin mart ayında bölgəyə səfərləri zamanı görüşlərin Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsi təklifini irəli sürdülər. Bu təklif hər iki ölkə başçısı tərəfindən qəbul olundu. İlk görüşün Praqada keçirilməsi razılaşdırıldı. Bütün əngəllərə baxmayaraq, Praqa görüşü baş tutdu. Amma uğursuzluqla nəticələndi**'*.

Avqustun 14-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan və Ermənistan prezidentləri görüşərək münaqişənin həlli yollarını müzakirə etdilər **^. Onlar atəşkəs rejiminə əməl edilməsinin zəruriliyini vurğuladılar. Heydər Əliyev bəyanatında prezidentlərin birbaşa görüşləri üçün imkanların tükənmədiyini, Minsk qrupu formatında danışıqların davam etdirilməsinin vacibliyini bildirdi**^. Ermənistan

**OSCE Personal Representative of the Chairman-in-Office on the Conflict Dealt With by the Minsk Conference. Activity Report. 16 November - 31 December 2001. - OSCE Archive in Prague. File: Nagomo Karabakh.**

**4 December 2001 (Bucarest). 9th Ministerial Council Journal No.2 Extract from the Council Statements (MC-9/DEC2). - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.41-42.**

**Bucarest Ministerial Council Report by the co-chairman of the OSCE Minsk Group to the minister for foreign affaits of Romania, Chairman of the ninth Meeting of the Ministerial Council of the OSCE. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.42-43. ARXİNA. 2002. Qovluq JÇs N, v. 74, 205.**

**Azərbaycan Prezidenti Heydər Əliyev ilə Ermənistan Prezidenti Robert Koçar- yanın təkbətək görüşü. - Azsrbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s.567-568.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s.568.**

Prezidenti Robert Koçaryan isə qeyd etdi ki, proses mürəkkəbdir, sülh Ermənistana lazımdır. O, görüşü müsbət qiymətləndirdi**'.

2002-ci il dekabrının 7-də Portoda (Portuqaliya) keçirilmiş ATƏT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 10-cu iclasında iştirak edən Azərbaycan nümayəndə heyəti toplantı çərçivəsində Ermənistan - Azərbaycan münaqişəsinə dair müzakirələr apardı. Xarici İşlər Nazirləri Şurası dekabrın 7-də müvafiq bəyanat qəbul etdi**^. Bəyanatda Minsk qrupunun səylərinə baxmayaraq, münaqişənin həll edilməməsindən narahatlıq hissi keçirilir və səylərin davam etdirilməsi tövsiyə olunurdu.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi də regiona səfərlər etdi. O, 2003-cü il mayın 2-7-də, 18-25-də, 28-də, iyunun 21-23- də Ermənistanda, mayın 8-17-də, mayın 29-dan iyunun 2-dək, iyunun 15- 19-da, iyunun 24-də Azərbaycanda oldu*^°. Keçirilən görüşlərdə münaqişənin dinc yollarla həlli imkanları müzakirə edildi. Lakin müzakirələrin heç birində Ermənistan tərəfi konstruktiv mövqe tutmadı. Ermənistan rəhbərliyi münaqişənin həllini uzatmaqla məşğul idi.

İyulun 29-30-da Praqa yaxınlığında hər iki ölkə başçısının şəxsi nümayəndələrinin görüşü keçirildi. Lakin Ermənistan nümayəndəsi müzakirələrdə irəliləyişə hazır deyildi.

Ümumiyyətlə, 2003-cü ilədək davam edən görüşlər Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən münaqişənin tənzimlənməsinə gətirmədi. Ermənistan Azərbaycan ərazilərini işğal altında saxladı. Buna baxmayaraq, Azərbaycan tərəfi münaqişənin həllində sülh yoluna riayət etdiyini bir daha göstərdi. Ermənistan isə bir tərəfdən münaqişənin ***

**' Ermənistan Prezidenti Robert Koçaryanın bəyanatı. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s.569.**

***** 7 December 2002 (PORTO). lOth Ministerial Council. Journal No.2. Annex 3. Extract from the Statements by the Ministerial Council. - OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagomo Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.44-45.**

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Nazirlər Şurasının 10-cu görüşü. Porto. 7 dekabr 2002-ci il. Nazirlər Şurasının bəyanatları (4). - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2003, yanvar-mart, JÇo2, s. 124.**

**Report on the Activities of the Personal Representative of the OSCE Chairman-in-Office on the conflict dealt with by the OSCE Minsk Conference. 01 May-30 June 2003. - OSCE Archive in Prague. Azerbaijan fıle. OSCE Office in Baku. Field Activities. Actions/Reactions. Others. Press Releases. 2001-2003. I. Ro 577.**

nizamlanması üçün görüşləri davam etdirir, digər tərəfdən isə Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz fəaliyyətini genişləndirirdi.

## Ermənistanın təcavüzünün Azərbaycan üçün nəticələri və işğal olunmuş ərazilərdə vəziyyət

Ermənistanın hərbi təcavüzünün və əraziləri işğal etməsinin Azərbaycan Respublikası üçün ağır nəticələri olmuşdur. Azərbaycan ərazisinin təxminən beşdə biri işğal edilmişdir. İşğal nəticəsində Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədinin 70%-dən çoxu, İran İslam Respublikası ilə sərhədinin 132 kilometri Ermənistan silahlı qüvvələrinin nəzarəti altına düşmüşdür*®'. Bu ərazilər Ermənistanın qanunsuz fəaliyyət, terrorçu dəstələr hazırlamaq, narkotik maddələr və silah qaçaqmalçılığı məkanına çevrilmişdir. Ermənistan Azərbaycan ərazisində qoşun hissələrini yerləşdirmişdir. Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun materiallarından aydın olur ki, 1993-cü il üçün Azərbaycan ərazisində Ermənistan Respublikasının 8 min nəfər "könüllü" adlandırılan hərbçisi var idi*®^.

Azərbaycan Respublikasına böyük maddi ziyan vurulmuşdur. Ölkənin insan ehtiyatına ağır zərbə dəymişdir. Münaqişənin gedişində 20 min nəfər həlak olmuş, 50 min nəfər yaralanmış və ya əlil olmuşdur. Azərbaycan Respublikasının təqribən 5 min vətəndaşı itkin düşmüşdür. Minlərlə dinc əhali girov götürülmüşdür. Beynəlxalq humanitar hüququ və konvensiyaları kobudcasına pozan Ennənistan hərbi əsir və girovlara qarşı amansız davranmışdır*®*.

Ermənistanın həyata keçirdiyi etnik təmizləmə və hərbi təcavüzü nəticəsində ərazilərinin işğal edilməsi ilə Azərbaycanda qaçqın və məcburi köçkünlər ordusu yaranmışdır. Təqribən 1 milyon nəfər azərbaycanlı qaçqın və məcburi köçkündür*®". Ev-eşiklərini itirən bu insanlar ölkənin müxtəlif rayonlarına yerləşdirilmişlər.

Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında Ermənistanın həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində azərbaycanlıların soy-

**ARXİNA. 1994. Qovluq JVs9, v. 34.**

**The Military balance. 1993-1994. The International Institute for strategic studies. London, 1993, p. 73.**

**ARXİNA. 1994. Qovluq Xo9, v. 46.**

**Yenə orada, v. 33.**

qırımı, etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Xocalıda azərbaycanlılar kütləvi surətdə məhv edilmişlər. Ermənistan bəşəriyyətə və sivilizasiyaya qarşı dövlət səviyyəsində cinayət törətmişdir. Azərbaycanlıların insan haqları, xüsusən insanın ali hüququ olan yaşamaq hüququ kobud surətdə pozulmuşdur^®^

Azərbaycanın sosial-iqtisadi həyatına ciddi ziyan dəymişdir. Şəhər, kənd və qəsəbələr dağıdılmışdır. İlkin məlumatlara görə, təcavüz nəticəsində ölkəyə on milyardlarla ABŞ dolları məbləğində ziyan vurulmuşdur. İşğal ölkənin təsərrüfat həyatını pozmuşdur. Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə 890 yaşayış məntəqəsi, o cümlədən 11 şəhər, 12 qəsəbə, 867 kənd yandırılmış və ya yararsız hala salınmışdır.

Azərbaycan sənayesinə ağır zərbə vurulmuşdur. İşğal edilmiş ərazilərdə 173 sənaye obyekti, 122 tikinti obyekti, 3225 ticarət obyekti qalmışdır. Bəzi məlumatlara görə, bu obyektlərin illik istehsal həcmi 12,1 milyard ABŞ dolları təşkil edir. Minlərlə emal, kənd təsərrüfatı və başqa tipli fabrik və zavod talan edilmişdir. Yüzlərlə kilometr uzunluğunda suvarma kanalları sistemi, bölgənin infrastrukturu, o cümlədən minlərlə kilometr su və qaz boru kəmərləri, çoxlu sayda qaz paylama məntəqəsi dağıdılmışdır.

Azərbaycan dəmiryolunun 140 km sahəsi işğal altına düşmüşdür. Vurulan ziyanın təqribi miqdarı 14 milyon, vaqon təsərrüfatına dəyən ziyanın təqribi miqdarı 4 milyon 860 min, yol təsərrüfatı üzrə dəyən ziyanın miqdarı isə 10 milyon ABŞ dolları təşkil edir*®^. İşğal altındakı ərazilərdə 4498 km avtomobil yolu qalmışdır. Bunların 1065 km. respublika əhəmiyyətli yollardır. 110 ədəd körpü işğal altındakı ərazilərdə qalmışdır*^'.

Azərbaycanın kənd təsərrüfatına ağır zərbə endirmişdir. Əkin sahələri məhv edilmişdir. Kənd təsərrüfatı kompleksləri dağıdılmışdır. Heyvandarlığa ziyan dəymişdir. Yüz minlərlə iri və xırda buynuzlu heyvan işğal edilmiş ərazilərdən Ermənistana aparılmışdır. Azərbaycan otlaqlarının 70%-i işğal altındadır. İşğal edilmiş ərazilərdə 10 minə yaxın taxılbiçən maşın və digər kənd təsərrüfatı maşınları qalmışdır.

Azərbaycan vətəndaşlarının digər əmlakı da Ermənistana daşınmışdır. Sahəsi 9 mln. kv. m. olan 150 min yaşayış tikilisi talan edilmişdir.

**Aras O.N., Dedeyev B., Yilmaz R., İbayev V. Karabağ savaşı. Siyasi-hukuki-ekonomik analiz, s.68-113.**

[896] **ARXINA. 2003. Qovluq Xs S, v. 3-4.**

[897] **ARXİNA. 2003. Qovluq Xa S, v.5**

14 mindən çox şəxsi avtomobil Ermənistana aparılmışdır. Bu ziyanlar təqribən 10 milyard ABŞ dollara bərabərdir*^*.

Təcavüz nəticəsində Azərbaycanın sosial həyatına, mədəni irsinə və təhsil sisteminə ağır ziyan vurulmuşdur. İşğal zonasında 695 səhiyyə obyekti, 693 məktəb, 855 uşaq bağçası, 787 klub, 927 kitabxana, 3 teatr, 268 kino qurğusu, 44 məbəd, 9 məscid, 9 tarixi yer dağıdılmışdır*^^. Milyonlarla nüsxə fondu olan yüzlərlə kitabxana talan edilmiş, çoxlu sayda dəyərli əlyazmalar yandırılmışdır. 464 tarixi abidə və muzeylər məhv edilmişdir^®". İşğal edilmiş rayonlarda 4 texnikum, 4680 yerlik 11 texniki- peşə məktəbi və 34 məktəbdənkənar müəssisə qalmışdır®"'.

Azərbaycanın təbii sərvətləri talan edilmişdir. 260 min hektar meşə sahəsi işğal altında qalmışdır. Meşələrin təqribən 20%-i qırılaraq Ermənistana daşınmışdır. İki dövlət qoruğu talan edilmişdir. Ərazinin faunası 50% azalmışdır. Zəngin faydalı qazıntılar olan yataqlar Ermənistanın işğalı altındadır. Kəlbəcərin Zod qızıl mədənləri talan edilir. Qeyd etmək lazımdır ki, Azərbaycanın qızıl yataqları ehtiyatının 70%-ni özündə birləşdirən Zod yatağında 1976-1990-cı illərdə 27,6 ton qızıl çıxarılmışdı. Kəlbəcər işğal edildikdən sonra Ermənistan buradan ildə 1,5- 2 ton qızıl çıxarır®"^. Digər qiymətli daşların yerləşdiyi yataqlar da Ermənistan tərəfindən talan edilir. Kəlbəcərin nadir mineral su mənbəyi olan İstisunun sərvəti Ermənistana daşınır.

Ermənistanın hərbi təcavüzü nəticəsində Naxçıvan blokadaya alınmış, Azərbaycanın digər əraziləri ilə quru əlaqəsi kəsilmişdir. Bakı ilə Naxçıvan arasında yalnız hava yolu və İran ərazisindən keçməklə avtomobil əlaqəsi saxlamaq mümkündür. 1991-ci ilin dekabrın ayından Naxçıvana verilən qazın Ermənistan ərazisindən keçməsi dayandırılmışdır.

Qazax və Tovuz rayonlarının bir neçə kəndi işğal altındadır. Bu kəndlərdəki bütün yaşayış evləri və ictimai binalar yandırılmışdır.

Ermənistan xüsusi xidmət orqanları və terror təşkilatları 1989-cu ilin iyul ayından 1992-ci ilin noyabrmadək 100-dən çox təxribat aktı törətmişlər®"*. Terroru dövlət siyasətinə çevirən Ermənistan Azərbaycana

**ARXINA. 1994. Qovluq Xo9, v. 50.**
**Yenə orada, v. 51.**
**ARXİNA.20.05.1993-18.12.1997.**
**Qovluq Xo2, v. 14-19. ARXİNA.**
**31.05.2001-20.08.2001. Qovluq XsS, v.**
**32-40. ARXİNA. 1994. Qovluq Xo9, v.**

qarşı 32 terror aktı həyata keçirmişdir^'”". Terror aktlarının hədəfi əsasən dinc əhali və mülki obyektlər olmuşdur.

Ermənistan tərəfi atəşkəsi mütəmadi olaraq pozmaqda davam etmişdir. Ermənistan qoşunları atəşkəs xətti boyunca Azərbaycan əsgərlərinə, ətraf ərazilərdə yaşayan dinc əhaliyə atəş açır, onları qətlə yetirir. Yerevan birbaşa silahlı qüvvələri, hərbi yaxud digər dəstəyi sayəsində mövcud olan separatçı rejim vasitəsi ilə Azərbaycanın işğal etdiyi Dağlıq Qarabağ regionuna və digər ərazilərə nəzarəti həyata keçirir. Məlum olduğu kimi. Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nəinki ətraf, hətta keçmiş vilayətin inzibati ərazisi daxilindəki rayonları işğal etmək üçün iqtisadi, hərbi, maliyyə, hərbi-sənaye kompleksi və insan ehtiyatları mövcud deyildir.

Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində qanunsuz fəaliyyətlərini bir neçə istiqamətdə davam etdirmişdir; tarix və mədəniyyət abidələri, azərbaycanlılara məxsus yaşayış evləri, obyektlər dağıdılmış, təbii sərvətlər talan edilmiş, zorla məskunlaşdırma aparılmışdır və s.

Ermənistan hərbi təcavüzün əlverişli nəticələrindən yararlanaraq işğal yolu ilə əldə etdiyi mövcud vəziyyəti qoruyub-saxlamağa, möhkəmləndirməyə və daimi yaşayış yerlərindən didərgin salınmış azərbaycanlı əhalinin geri qayıtmasının qarşısını almağa yönəlmiş fəaliyyəti ilə “fait accompli”, yəni “oldu - bitdi” şəraiti yaratmağa çalışmışdır. Belə fəaliyyətə digərləri ilə yanaşı, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma, mülkiyyət hüquqlarının ciddi və sistemli şəkildə pozulması ilə müşayiət olunan iqtisadi fəaliyyətin davam etdirilməsi misaldır.

Atəşkəsin elan edilməsindən istifadə edən Ermənistan Respublikası 1994-cü il avqustun 23-də Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni nümayəndələri ilə vahid valyuta haqqında saziş imzaladı. Buna cavab olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə etiraz notası göndərdi®'’^. Notada yazılırdı ki, Azərbaycan ilə Ermənistan arasında münaqişənin dinc yolla həlli istiqamətində axtarışların davamlı surətdə getdiyi günlərdə Ermənistan Respublikası özünün sülhpərvər məramları barədə verdiyi bəyanatlarına zidd olaraq süni şəkildə elan edilmiş və heç bir dünya dövləti tərəfindən tanınmayan “Dağlıq Qarabağ Respublikası” ilə Xankəndində pul vahidlərinin birləşdirilməsi barədə saziş imzalamışdır. Azərbaycan

CeBÄHMajıueB **P.** MeÄayHapoaHbifi xeppopHSM - rjıoöajibHaa npoöJieMa coBpeMeHHOCTH, C. **269.**

[905] **ARXINA. 19.09.1994- 05.01.1995. Qovluq ffo 7, v.9.**

Respublikası bu addımı qəti şəkildə pisləyir, onu bütün beynəlxalq prinsip və normaların bir daha pozulması, suveren Azərbaycan dövlətinin daxili işlərinə qarışmaq və münaqişənin dinc yolla həlli müzakirələri prosesinə edilən təxribat kimi qiymətləndirir. Notada yazılırdı: "Ermənistan Respublikası bu sazişi imzalamaqla özünün təcavüzkar niyyətlərini bir daha bütün dünyaya sübut etmişdir". Azərbaycan Respublikası Ermənistanın bu qərəzli addımına etirazını bildirir, onu beynəlxalq prinsiplərə riayət etməyə çağırır, bu prinsiplərə uyuşmayan, digər suveren bir dövlətin daxili işlərinə kobudcasına müdaxilə və qonşu dövlətin ərazi bütövlüyünə təcavüz kimi qiymətləndirilən belə hallara son qoyulmasını və bütün qanunsuz qəbul edilmiş qərar və sazişlərin ləğv edilməsini qəti şəkildə tələb edirdi.

Nota Azərbaycanın BMT yanındakı daimi nümayəndəliyi tərəfindən rəsmi sənəd olaraq yayıldı^°f Eyni zamanda Azərbaycanın Respublikasının Rusiya Federasiyasındakı səfirliyi tərəfindən Ermənistan Respublikasının Moskvadakı səfirliyinə də təqdim edildi^"'.

Lakin Ermənistan qanunsuz fəaliyyətlərini davam etdirərək növbəti addımını atdı. Ermənistan Respublikasının Mərkəzi Bankı qondarma "Dağlıq Qarabağ Respublikasf'mn bank sisteminə yardım ayırmaq barədə qərar qəbul etdi. Bu hərəkətə etiraz olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi 1996-cı il iyulun 17-də etiraz notası verdi. Belə hərəkətlərin Azərbaycanın daxili işlərinə qarışmaq olduğunu, münaqişənin tənzimlənməsi prosesinə mənfi təsir edəcəyini və məsuliyyətin Ermənistan üzərinə düşdüyünü bildirdi®"*.

Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyətlərindən biri Azərbaycanın Dağlıq Qarabağ regionunda qanunsuz seçkilərin keçirilməsidir. 1996-cı ildə Dağlıq Qarabağ regionunda keçirilməsi hazırlanan qondarma "prezident" seçkilərinə hazırlıq barədə məlumatı alan kimi Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinə və nümayəndəliklərinə xüsusi tapşırıqlar verildi. Səfirlər Minsk qrupunun üzvləri olan ölkələrin nümayəndələri ilə görüşərək məsələni müzakirə etdilər®"®. Edilən səylər nəticəsini verdi. Minsk qrupunun üzvü olan və digər ölkələr bəyanatlar verərək qondarma seçkiləri pislədilər. Məsələn, Türkiyə XİN-in bəyanatında bu hərəkət qəti şəkildə pislənilir, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin pozulması, Minsk çərçivəsində danışıqlar prosesinə zərbə

**ARXİNA.28.05.1994 - 19.09.1994. Qovluq Xs 7, v. 8. ARXİNA. 19.09.1994 - 05.01.1995. Qovluq X2 7, v. 142. ARXİNA. 1996. Qovluq X2 6,**

olaraq qiymətləndirilirdi^'®. Minsk qrupunun həmsədr ölkələri də bəyanat verərək həmin addımı sülh prosesinə əngəl kimi qiymətləndirdilər.

Bütün bunlara məhəl qoymayan Ermənistan tərəfi işğalçılıq siyasətindən diqqəti yayındırmaq məqsədi ilə Azərbaycana qarşı təbliğat kampaniyasını bir an belə dayandırmırdı. Erməni rəsmiləri və kütləvi informasiya vasitələrinin guya Azərbaycan ərazisində yerləşən "erməni tarixi abidələri"nin dağıdılması ilə bağlı çıxışları gündən-günə artırdı. Ermənistanın xarici işlər naziri Vartan Oskanyan YUNESKO-ya müraciət edərək Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən guya "erməni tarix və mədəniyyət abidələrf'nin dağıdılmasının qarşısını almaq üçün Naxçıvana yoxlama missiyasının göndərilməsini xahiş etdi.

Eyni zamanda ABŞ konqresi nümayəndələr palatasının üzvü, konqresin erməni məsələləri üzrə işçi qrupunun həmsədri F. Pallone də erməni diasporasmm təsiri altında Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisindəki "erməni qəbiristanlığı"nm və Azərbaycanda erməni tarixi abidələrinin məqsədyönlü şəkildə guya dağıdılmasında Azərbaycan hökumətini əsassız yerə ittiham etdi. Hətta bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə məktub da ünvanladı.

Həmin məsələ Azərbaycanın digər dövlətlərlə münasibətlərində də müzakirə obyektinə çevrildi. Belə ki, Azərbaycanın AFR-dəki səfiri Hüseynağa Sadıqovun Almaniya bundestaqının sədr müavini xanım Antye Folmer ilə keçirdiyi görüş zamanı o, Armen Haqnazaryan adlı bir erməni tədqiqatçının guya Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisindəki "erməni qəbiristanlığının" dağıdılmasına dair bundestaqa məlumat verdiyini və şəkillər təqdim etdiyini bildirdi. A.Folmer tarix və mədəniyyət abidələrinin dağıdılması hallarının Almaniyada çox narahatlıqla qarşılandığını vurğuladı, bu məsələnin mətbuata çıxarılmasından əvvəl Azərbaycanın Almaniyadakı səfiri ilə görüşünün keçirilməsini üstün tutduğunu dedi. Hüseynağa Sadıqov məsələnin Azərbaycanın rəsmi siyasəti olmadığını söyləyərək Ermənistanda və Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələrinin dağıdılmasını faktlarla həmsöhbətinin nəzərinə çatdırdı.

Məsələ ilə əlaqədar olaraq bütün ermənilərin katolikosu II Qaregin 2003-cü il yanvarın 16-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadəyə məktub göndərərək guya "erməni qəbirüstü daşlarının dağıdılmasına" diqqəti cəlb etdi. O, həmin qəbirlərin guya V əsrə aid olduğunu yazır və tarixi kobudcasına saxtalaşdıraraq guya hələ

**' ARXİNA.1996. Qovluq Rç 22, v. 57.**

səkkizyüz il əvvəl bu torpaqda 10 min erməni abidəsinin olduğunu əsassız yerə iddia edirdi. Katolikos Şeyxi nüfuz və təsirindən istifadə edərək problemi həll etməyə çağırırdı^".

Şeyxülislam Hacı Allahşükür Paşazadə fevralın 27-də II Qareginə cavab məktubu göndərdi^'^. Məktubda vurğulanırdı ki, yazılanlar diqqətlə öyrənildikdən sonra biz həyəcan üçün heç bir əsas olmadığım müəyyənləşdirdik. Bütün bunlar saxta informasiyalar və uydurmalar olub iki dövlət arasında vəziyyətin gərginləşdirilməsi və münasibətlərin pisləşdirilməsi məqsədini güdür. Məktubda yazılırdı ki, Şimali Azərbaycanın demək olar, bütün ərazisi min illər boyu Albaniya dövlətinin tərkibində olmuşdur. Azərbaycan xalqının əcdadları olan albanlar hələ IV əsrdə xristian dinini qəbul edərək maddi və mənəvi mədəniyyət abidələri yaratmışlar. Azərbaycanın bütün rayonlarında, o cümlədən Naxçıvanda indiyədək o dövrə aid çoxlu tarix və memarlıq abidələri saxlanılır. Azərbaycan xalqı keçmişin tarix-mədəniyyət abidələrini göz bəbəyi kimi qoruyur, bütün tarix və mədəniyyət abidələri istisnasız olaraq dövlət tərəfindən mühafizə olunur. Hacı Allahşükür Paşazadə məktubunda Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində 500-dən artıq memarlıq abidəsinin, o cümlədən məscid, minarə və məqbərələrin tam və ya qismən dağıdıldığını, Şuşada tarix muzeyinin, nadir eksponatları olan Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin, Zəngilan rayonunda daş abidələr muzeyinin yerlə-yeksan edildiyini II Qareginin diqqətinə çatdırırdı. Qeyd edirdi ki, Azərbaycanın rəsmi hakimiyyəti Azərbaycan və Ermənistan ərazisində tarix-mədəniyyət abidələrinin vəziyyətini öyrənmək üçün YUNESKO ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir. Hacı Allahşükür Paşazadə çoxlu problemlərin həllinə kömək göstərməyə hazır olduğunu qeyd edərək yazırdı ki, bizim diqqətimizi əsas problemdən uzaqlaşdırma cəhdlərinə baxmayaraq, biz dini liderlər möhkəm sülh və mehriban qonşuluq üçün cəhd edəcəyik.

Ermənistanın uydurmalarını ifşa etmək üçün Azərbaycan hökuməti təcili tədbirlər həyata keçirdi. Xarici işlər naziri Vilayət Quliyev və nazir müavini Araz Əzimov martın 25-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəsi Həsən Zeynalova,®'^ Azərbaycan

**ARXİNA. 2003. Qovluq X2IO, v.43.**

**Yenə orada, v.44.**

[913] **ARXINA. 2003. Qovluq X2IO, v. 35-36.**

Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimova^'" məktub göndərərək Ermənistanın Naxçıvan Muxtar Respublikasına qarşı irəli sürdüyü əsassız iddia və bu istiqamətdə elm, mədəniyyət və təhsil sahələrində aparılan işlər haqqında Xarici İşlər Nazirliyinə məlumat verilməsini xahiş etdilər''^. Eyni tarixdə Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Abbasova^'®, mədəniyyət naziri Polad Bül- büloğluna'''göndərilən məktublarda da Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisindəki sözügedən qəbiristanlıq və onun mövcud vəziyyəti, həmçinin Ermənistanda, habelə Ermənistanın işğal etdiyi ərazilərdə yerləşən Azərbaycan tarix və mədəniyyət abidələrinin vəziyyəti barədə məlumatların Xarici İşlər Nazirliyinə çatdırılmasını istədilər^'*. Qısa müddət ərzində zəruri məlumatlar toplandı. Azərbaycan tərəfi YUNESKO-ya müvafiq məktub göndərdi. Məktubda bütün bunlar Ermənistanın saxta informasiyaları və uydurmaları olaraq rədd edilirdi. Azərbaycan tərəfi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə tarix və mədəniyyət, memarlıq abidələrinin dağıdıldığını konkret faktlarla təşkilatın diqqətinə çatdırır, Azərbaycanın rəsmi hakimiyyətinin Azərbaycan və Ermənistan ərazilərində tarix-mədəniyyət abidələrinin vəziyyətini öyrənmək üçün YUNESKO ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirirdi.

Məsələ ilə bağlı BMT-nin Din və Əqidə Azadlığı üzrə xüsusi məruzəçisi Abdelfəttah Amor da Azərbaycana məktub göndərdi. Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsində bu müraciət öyrənildi. Komitənin sədri Rafiq Əliyev Xarici İşlər Nazirliyinə yazdığı 2003-cü il 11 iyun tarixli məktubunda ermənilərin iddialarının əsassız ol-

**Mahmud Kərimov (1948) - fizik. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. AMEA-nın prezidenti (2001-2103).**

**ARXİNA. 2003. Qovluq X2IO, v. 41-42.**

**Namiq Abbasov (1940) - 1977-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində işə qəbul edilmişdir. Şöbə müdirinin müavini, şöbə müdiri, DTK sədrinin müavini olmuşdur. 1992-1994-cü illərdə milli təhlükəsizlik naziri və birinci müavini işləmişdir. 1994-1995-ci illərdə nazir vəzifəsini icra etmişdir. 1995-2004-cü illərdə nazir vəzifəsində işləmişdir. General-polkovnik. Azərbaycan Respublikasının Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri (2004-** 2012).

**Polad Bülbüloğlu (Məmmədov Polad Bülbül oğlu) (1945) - bəstəkar. Diplomat. Azərbaycanın xalq artisti (1982). 1989-2006-cı illərdə mədəniyyət naziri. 2006-cı ildən Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri.**

**' ARXINA. 2003. Qovluq X2IO, v. 39-40, 37-38.**

duğunu faktlarla göstərdi. Xaç daşlarının vaqonlarla daşınması haqqında erməni tərəfinin iddiası da əsassız idi. Çünki 1991-1992-ci illərdən sonra Naxçıvan Ermənistan tərəfindən blokadaya alınmışdı və dəmiryolu işləmirdi^'^.

Ermənistan tərəfinin belə uydurma və əsassız iddialarının konkret məqsədləri var idi. Bu, Azərbaycan ərazilərinə yeni iddialar və təcavüz hərəkətləri üçün ideoloji hazırlıq, münaqişənin tənzimlənməsindən diqqəti yayındırmaq məqsədləri güdürdü, eyni zamanda Ermənistan ərazisindən azərbaycanlıları vəhşicəsinə qovduğu, işğal etdiyi Qarabağ torpaqlarında min illər boyu tikilmiş tarixi abidələri, məscidləri, qədim türbə və kurqanları, memarlıq nümunələrini, təzə və köhnə qəbiristanlıqları, qədim türk-müsəlman sənət nümunələrini, tarix-diyarşünaslıq muzeylərini, vax- tilə orada nümayiş etdirilən eksponatları, məktəbləri, klubları, kitabxanaları və digər bir çox sənət incilərini dağıtdığını ört-basdır etmək üçün düşünülmüş, qərəzli bir yalan idi.

Beləliklə, Azərbaycan tərəfi Ermənistanın növbəti təxribatını təkzibedilməz faktlarla ifşa etdi. Azərbaycanın işğal edilmiş ərazilərində və Ermənistanda Azərbaycan xalqına məxsus tarixi və mədəniyyət abidələrinin dağıdılmasına dair fakt və materialların təqdim edilməsi və YUNESKO ilə əməkdaşlığa hazır olunmasının elan edilməsi ölkəyə diplomatik üstünlük gətirdi.

## Münaqişənin həllinə dair Azərbaycanın mövqeyi

ATƏT çərçivəsində uzun sürən vasitəçilik səylərinin heç də həmişə ardıcıl olmamasına və nəticə verməməsinə baxmayaraq, Azərbaycan tərəfi Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olmuşdur. Əraziləri işğal edilən Azərbaycan dövlətinin münaqişənin həllinə dair mövqeyi beynəlxalq hüquq normalarından irəli gələn prinsiplərə əsaslanır.

Azərbaycanın başlıca məqsədi bütün işğal olunmuş ərazilərin azad edilməsi, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtması və Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də bütün Cənubi Qafqaz regionunda sabitlik və davamlı sülhün bərqərar olmasıdır. Nizamlama prosesinin məqsədi Dağlıq Qarabağ regionunun Azərbaycan daxilində statusunu işləyib-hazırlamaq, onun modelini və hüquqi çərçivəsini müəyyənləşdirməkdir. Azərbaycan tərəfinin mövqeyinə görə, hər hansı statusun

**ARXİNA. 02.05.2003-01.09.2003. Qovluq XsS, v. 139-140.**

müəyyən edilməsi prosesi bölgənin bütün əhalisinin, o cümlədən erməni və azərbaycanlı icmalarının birbaşa, tam və bərabər iştirakı ilə normal sülh və onların Azərbaycan hökuməti ilə hüquqi və demokratik proseslər çərçivəsində konstruktiv qarşılıqlı əlaqəsi şəraitində olmalıdır. Bununla belə, bir şey qəti şəkildə aydındır: Azərbaycanın ərazi bütövlüyü kompromis mövzusu ola bilməz^^®.

Azərbaycanın baxışma görə, münaqişə tərəflərinin Dağlıq Qarabağ regionunun Azərbaycan daxilində özünüidarə statusunun müzakirələrinə başlaması mərhələsinə çatması üçün bir sıra mühüm addımlar atılmalıdır. Birincisi, münaqişənin həlli kontekstindən hərbi işğal amili kənarlaşdırıl- malı, yəni işğal edilmiş ərazilər azad edilməlidir. Ərazilərin azad edilməsinin gecikdirilməsi onsuz da çətin olan nizamlama prosesini mürəkkəbləşdirir. İkincisi, bölgədə münaqişədən əvvəlki demoqrafik şərait bərpa olunmalıdır. Dağlıq Qarabağ regionunun hüquqi statusu işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsi, yalnız erməni və azərbaycanlı icmalarının yanaşı yaşayışı şəraitində və hər iki icmanın birbaşa iştirakı ilə demokratik proseslə müəyyən olunmalıdır. Üçüncüsü, Dağlıq Qarabağ regionunun yeni özünüidarə statusu işlənib hazırlananadək Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə erməni icmasının yerli hakimiyyət orqanları arasında qarşılıqlı əlaqə yaradılmalıdır. Dördüncüsü, bölgə iqtisadi cəhətdən inkişaf etdirilməli və bərpa olunmalıdır. Bu, həyatı normallaşdırma prosesi və iki icmanın dinc yanaşı yaşaması və əməkdaşlığının bərpası üçün mühüm addımdır. Buraya iki icma, eləcə də iqtisadi əlaqələrin bərpası və inkişafı, hər iki istiqamətdə tərəflərin qarşılıqlı istifadəsi üçün kommunikasiyaların bərpası və açılması da daxildir. Belə olacağı təqdirdə Dağlıq Qarabağ bölgəsinin erməni icması Ermənistan ilə, Azərbaycan da Laçın dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə əlaqə qurmaq imkanı əldə edəcəkdir. Beşincisi, iki icma arasında humanitar sahədə əməkdaşlıq, təhsil və dözümlülük kimi xüsusi proqramlar həyata keçirilməlidir. Azərbaycan və Ermənistan arasında imzalanmalı olan sülh sazişinin yerinə yetirilməsinə gəldikdə, o, həmin sazişlə hər iki tərəfin üzərinə götürdüyü öhdəliklər, eləcə də böyük dövlətlər və beynəlxalq təşkilatlar da daxil olmaqla, müvafiq beynəlxalq zəmanətlərlə təmin edilməlidir. Sülh prosesinin müvəffəqiyyəti həmçinin tərəflərin konstruk-

**Mammadyarov E. Towards peace in the Nagomy Karabakh region of the Azerbaijan through reintegration and cooperation. - “Diplomatiya aləmi” jumalı, Bakı, 2005, oktyabr-dekabr, N°!3, s. 89-90.**

tiv yanaşmasından, eləcə də beynəlxalq ictimaiyyətin, xüsusilə də ATƏT- in Minsk qrupu həmsədrlərinin fəal yardımından asılıdır.

Ermənistanın beynəlxalq hüquqa zidd olan mövqeyi üzündən 2003- cü llədək münaqişənin sülh yolu ilə həllində nəzərəçarpan müsbət dəyişiklik olmadı. Əslində münaqişənin başlanğıcından Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün məqsədi tarixdə olmayan "Böyük Ermənistan" yaratmaq yolunda güc ilə ərazi ələ keçirmək və işğal edilən ərazilərdə demoqrafik şəraiti dəyişmək olmuşdur. Məhz birtərəfli ayrılmaya nail olmaq üçün Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı işğal olunmuş rayonlar üzərində nəzarəti saxlamağa, azərbaycanlı köçkünlərin yurd-yuvalarına qayıtmasının qarşısını almağa, beləliklə, hər iki icmanın fikirlərinin bərabər əsasda nəzərdən keçirilməsini əngəlləməyə çalışmışdır. Ermənistanın məsələyə yanaşması heç şübhəsiz, münaqişənin həlli üçün təməl rolunu oynamamışdır. Vəziyyətin belə saxlanılması qanunun aliliyinin və insan hüquqlarının pozulmasının nəticələrini qəbul etmək, yaxud başqa sözlə, zorakılığın ədalət üzərində qələbə çalması deməkdir. Münaqişənin sülh yolu ilə həllinə tərəfdar olan Azərbaycan tərəfi ərazi bütövlüyü məsələsində əsla güzəştə getmir, münaqişənin Ermənistan tərəfinin zorla qəbul etdirməyə çalışdığı "oldu-bitdi" anlayışı əsasında həllini qəbul etmir. Azərbaycanın baxışına görə, münaqişə yalnız ölkənin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət, eləcə də Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının demokratiya və inkişafdan tam və bərabər qaydada yararlanaraq dinc yanaşı yaşaması əsasında həll oluna bilər.

2003-cü ilədək olan proses göstərdi ki, münaqişənin tezliklə həlli üçün konkret perspektivin olmaması və "nə sülh, nə də müharibə" şəraitinin davam etməsi Azərbaycanın müstəqilliyinə və inkişafına daimi və birbaşa təhlükədir. Bu, eyni zamanda bütün Cənubi Qafqaz regionunda sa- bitsizliyin başlıca mənbəyidir. Ermənistanın təcavüz və işğal siyasəti regionun hərtərəfli siyasi, demokratik, sosial-iqtisadi inkişafına, uzunmüddətli sabitliyinə və təhlükəsizliyinə maneədir. Bölgədə aparıcı rol oynayan Azərbaycanın strateji əhəmiyyəti, tutduğu mövqeyi və Avropanın enerji təhlükəsizliyinin təminatına verdiyi mühüm töhfə nəzərə alındıqda regionda yeni böhranın baş verməsi Avropanın siyasi və iqtisadi maraqlarına ciddi zərbə vura bilər.

Azərbaycanın mövqeyinə görə, münaqişənin tənzimlənmə prosesində aşağıdakı prinsiplərin nəzərə alınması vacibdir^^': münaqişə ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və bu yanaşmanın heç bir alternativi ola bilməz; münaqişənin həlli prosesində məqsəd təkcə Dağlıq Qarabağ regionunun ətrafında olan yeddi rayonun qaytarılması deyildir. Başlıca məqsəd Azərbaycanın ərazi bütövlüyünün tam olaraq bərpa edilməsi, bu çərçivədə Dağlıq Qarabağın Azərbaycan tərkibində saxlanılması və müvafiq statusunun təmin edilməsidir. Dağlıq Qarabağ regionu ətrafında olan yeddi rayonun qaytarılması münaqişənin həllini təmin etmir; öz müqəddəratını təyinetmə yalnız dövlətin ərazi bütövlüyü çərçivəsində həyata keçirilə bilər. Beynəlxalq hüquqda həmin prinsipin məhz bu formada tətbiq edilməsi nəzərdə tutulmuşdur. Beynəlxalq hüquqa əsasən, öz müqəddəratım təyinetmə hüququ heç bir vəchlə müəyyən dövlətin ərazisinin bir hissəsinin həmin dövlətin razılığı olmadan ondan ayrılmasına əsas və icazə vermir; Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyən edilməsi üçün oradan qovulmuş azərbaycanlı əhali yurd-yuvalarına geri qayıtmalı və erməni mənşəli icma ilə eyni səviyyədə yaşayış və təhlükəsizliklə təmin edilməlidir. Yalnız bundan sonra statusun müəyyənləşdirilməsinə dair danışıqlar başlaya bilər; Laçın rayonu ərazisindən gedən yol hər iki tərəfin bərabər və qarşılıqlı istifadəsinə verilə bilər. Bu, onun normal, təhlükəsiz və davamlı istifadəsinin zəmanətidir; Azərbaycan Dağlıq Qarabağ bölgəsinin inkişafı üçün orada yaşayacaq hər iki icmanın xeyrinə bütün lazımi tədbirləri görməyə hazırdır. Həmin mərhələyə keçmək üçün başlıca maneə Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin boşal- dılmamasıdır.

Ermənistan tərəfi təcavüzünü ört-basdır etmək üçün Dağlıq Qarabağ bölgəsindəki hərəkətlərini öz müqəddəratını təyinetmə hüququ kimi qələmə verir. Artıq qeyd edildiyi kimi, öz müqəddəratını təyinetmə milli azlıqların hüququ deyildir^"^. Müvafiq beynəlxalq sənədlərdə təsbit

**Azimov A. Armenia - Azerbaijan Nagomo Karabakh conflict: Historical Background, Legal aspects and negotiation process. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 293- 295; ARXİNA. 2009.**

**AjiHee H. Haropno-KapaöaxcKHH KOHcjıaHKT; npaBOBbie acncKTbi yperyjmpo- BaHHB. - >KypH. “IfeHxpajibHaH ABHH H KaBKas” (LUBeumı) , 2005, X2б 3 (39), C. 27-35; AJIHCB H. Bonpocbi MOKayHaporiHoro npaBa B HaropHO-KapaöaxcKOM KOHcjniHKTe. TÖHJIHCH, 2009, c.25; Arpeccnsı PecnyÖJiHKH ApMCHHH npoxHB AsepSafiroKaHCKOH PecnyöjiHKH u ee npaBOBbie nocjıeacxBHn (CöopHHK flOKyMCHXOB). TönnHCH, 2009;**

edildiyi kimi, həmin hüququn təcrübədə reallaşdırılması əslində birtərəfli ayrılmanı deyil, dəqiq müəyyən edilmiş məhdudiyyətlər çərçivəsində beynəlxalq və daxili qanunlara uyğun olaraq həyata keçirilən prosesi nəzərdə tutur. Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsində öz müqəddəratını təyinetmə məsələsinin həyata keçirilməsində başlıca amil Azərbaycan ərazisinin bir hissəsinin qoparılmasma yönəldilmiş bütün fəaliyyət beynəlxalq hüququn əsas, xüsusilə də güc tətbiq edilməsini və ərazi ələ keçirilməsini qadağan edən qaydalarının pozulması ilə müşayiət edilmişdir. Azərbaycanın öz müqəddəratını təyinetmə hüququna yanaşması onun əsl dəyərindən qaynaqlanır və Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmasının dinc birgə yaşayışı və əməkdaşlığının təmin edilməsini, onların ictimai həyatda iştirakı üçün hüquqlarının səmərəli şəkildə, o cümlədən bütün səviyyələrdə legitim regional hakimiyyətin formalaşdırılması yolu ilə reallaşdırılmasına lazımi şəraitin yaradılmasını nəzərdə tutur.

Azərbaycanın mövqeyinə görə, münaqişələrin nizama salınması hər şeydən əvvəl, dövlətin ərazi bütövlüyünün bərpa edilməsinə və ona ciddi riayət edilməsinə, ərazisində yaşayan azlıqların özünəməxsusluqlarının qorunması və təşviq edilməsinə əsaslanmalıdır. Azlıqların hüquqları probleminin həlli hər hansı bir etnik qrup üçün dövlətin və ya yarım dövlətin yaradılması olmamalıdır. Bu təhlükəyə yol verməməyin mühüm səbəbi dövlətin bölüşdürülməsi deyil, onun möhkəmləndirilməsi, insan hüquqlarının daim müdafiəsi və təşviq edilməsində beynəlxalq institutların gücləndirilməsidir'^^.

Azərbaycan ərazilərini işğal etməklə Ermənistan BMT nizamnaməsini və ATƏT prinsiplərini kobud surətdə pozmuşdur. Konkret olaraq Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini pozaraq güc yolu ilə ərazilər tutmaq məqsədi ilə, o cümlədən ərazi və sərhəd mübahisəsini həll etmək üçün güc tətbiq etmişdir; qeyri-nizami qüvvələr, silahlı dəstələr yaratmışdır, onların təşkilinə dəstək vermişdir; Azərbaycanın daxili işlərinə qarışmışdır; terror aktları törətmişdir; güc tətbiq etməklə ərazilərini işğal

**qəddəratını təyinetmə hüququ nəzəri və praktiki problemlər. Hüquq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2010.**

**ARXİNA. 2002. Qovluq Xs S, v. 180-183; ARXİNA. 31.05.2001-20.08.2001. Qovluq Xs S, v. 44-48.**

etmişdir; ərazi bütövlüyünü pozmuşdur. Bütün bunların hamısı beynəlxalq hüquqa zidd hərəkətlərdir^^'*.

Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf rayonlarını işğal etməklə yeni ərazilər tutan Ermənistan uydurma "Böyük Ermənistan" yaratmaq istəyinin həyata keçirilməsi yolunda bir addım atmışdır. İşğal altında olan ərazilərdən Ermənistan silah qaçaqmalçılığı, narkotik maddələrin istehsalı və daşınması, terrorçuların hazırlanması üçün təlim mərkəzləri kimi istifadə edir®^^. Ermənistanın təcavüzkarlığının davam etməsi, etnik tənzimləmə və zorakılıq siyasəti, münaqişənin həll edilməməsi Qara dəniz - Xəzər dənizi hövzəsi regionunda təhlükəsizlik sahəsində əməkdaşlığa və iqtisadi inkişafa mane olur^^^.

Ermənistanın təcavüzünə son qoyulmayınca və Azərbaycan əraziləri işğaldan azad edilməyincə Cənubi Qafqazda sabitlik ola bilməz. Münaqişənin həllinin uzadılması və ya dondurulması cəhdləri regionu daha ağır nəticələri olan hadisələrə sürükləyir. Ermənistanın siyasəti Cənubi Qafqaz ölkələrinin regional və beynəxalq inteqrasiyası yolunda başlıca əngəldir.

Xəzər dənizinin Azərbaycan sektorunda enerji ehtiyatlarının işlənilməsinə dair danışıqlar və Xəzər dənizi - Qara dəniz tranzit sxemi üzərində işlərin getdiyi bir zamanda Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən bir-birinin ardınca işğal edilməsi həm də digər ölkələri regiona buraxmaq istəməyən dövlətlərin siyasətinin nəticəsi idi.

**Ruintən K.F. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti, s.28-31.**

**HoBpysorjıy P. Kapaöax: "nepubiü** pbiHOK" **fljıs MOKayHapoflHoro xeppopns- Ma. BaKy, 2003.**

**Nuriyev E. Avrasiyanın müasir geosiyasətində Azərbaycanın strateji rolu. - "Azerbaijan Focus", Bakı, 2009, X2İ(1), s. 74.**

# III FƏSIL

# AZƏRBAYCANIN ENERJİ DİPLOMATİYASI

## Azərbaycan neftinin tarixinə qısa baxış

Sovet İttifaqının dağılması nəticəsində bir neçə geosiyasi zona yarandı. Onların arasında Xəzər regionu mühüm yer tuturdu. Yeni şəraitdə Xəzər regionu xarici dövlətlərin siyasi, hərbi dairələrinin və iri neft şirkətlərinin diqqətini daha çox cəlb etməyə başladı. Bu da əsasən Xəzər dənizinin təbii sərvətlərinin - neft, qaz, canlı mühit sərvətlərinin zənginliyi və sahil ərazilərində yerləşən ölkələrin, ilk növbədə Azərbaycanın əlverişli coğrafi-siyasi və strateji mövqeyi ilə əlaqədar idi. Xəzər dənizi həm də nəqliyyat dəhlizidir. Qeyd etmək lazımdır ki, SSRİ-nin mövcudluğunun sonuna yaxın Xəzər regionunda enerji ehtiyatlarının tükəndiyinə dair müəyyən fikirlər səslənirdi. Lakin bu mülahizələr özünü doğrultmadı. Xəzər dənizində zəngin karbohidrogen ehtiyatlarının mövcudluğu məlum oldu. Belə bir fakt maraqlıdır ki, 1995-ci ildə ABŞ Energetika Nazirliyinin hazırladığı məruzədə Xəzər dənizində 12,3 milyard ton neft olduğu qeyd edilirdi. Bu isə dünya neftinin 7,2%-i demək idi. OPEK-ə görə isə Xəzər dənizindəki və sahillərindəki neft ehtiyatı 23 milyard ton idi^"’. Digər bir məlumata görə. Xəzər dənizinin şelfındə artıq təsdiq olunmuş karbohidrogen ehtiyatlarının həcmi təqribən 12 milyard tondur. Bu, dünya ehtiyatlarının təqribən 3%-nə bərabərdir. Onun 7 milyard tonu neft, 5 trilyon kubmetri qazdır^^*. Neft ehtiyatlarının həcminə görə. Xəzər dənizi yalnız Yaxın Şərq və Rusiyadan, qaz ehtiyatlarının həcminə görə isə Rusiya, Qatar və İrandan geri qahr®'^.

Azərbaycanda neftin hasil edilməsinin zəngin tarixi vardır. Son 150 il ərzində Xəzər dənizinin Azərbaycan hissəsində 432 milyon ton neft və

**UlapnnoB E.X. OpoöjıeMbi MexcÄyHapoÄHon ƏKcnjıyaxauHH pecypcoB Kacc- nHHCKoro Mopa н BneıiiHHe cBHSH KasaxcTana н XypKMeHHCTana. - U,eHxpajib- Haa Ashh в cHCxcMc MesKxıyHapoÄHbix oxnouenHH. CöopHHK nayHHbix cxaxeiı. M., 2004, c. 174-199.**

**OeflopoB K). KacnnRcKaa necjıxb н Me>KflyHapoaHaa öesonacHocxb. BbinycK 1. AnanHXHHecKHH flOKnaa no MaxepnajıaM Me>KflyHapoxiHOH KOHcjıepeHUHH, c.l7. ByxaeB A. KacnHÜ: saneın oн 3anaay, c.169.**

318 milyard kubmetr qaz hasil edilmişdir"". 1872-ci ildən etibarən Avropa qitəsinin neft nəhəngləri bölgədəki neft sahələrinə böyük maraq göstərməyə başladılar. Robert Nobel (1829-1896) Azərbaycan neft yataqlarının istifadəsi üçün qardaşları Lüdviq və Alfred ilə birlikdə 1879-cu ildə neft şirkəti yaratmışdı. 1877-ci ildə L.Nobelin sifarişi ilə dünyada ilk neft gəmisi tikilib istifadəyə verilmişdi. Azərbaycan neftinə daha sonra maraq göstərən Rotşildlər isə öz fəaliyyət dairəsinə görə ikinci yerə çıxmışdılar. Sonrakı illərdə Azərbaycan neft sənayesinə olan maraq daha da artmışdı. Belə bir fakt diqqəti cəlb edir ki, 1913-cü ildə bütün Rusiya imperiyası neftinin 83%-ni Azərbaycan verirdi. Azərbaycan nefti regionda maraqları olan dövlətlərin münasibətlərinə təsir edən mühüm amil olmuşdu. Birinci dünya müharibəsinin son mərhələsində böyük dövlətlər regionda əsasən Bakı neftinə yiyələnmək uğrunda mübarizə aparırdılar. Müharibənin gedişində imperiyanın dağılması və Bakı neftinin əlindən çıxması ilə Rusiya böyük dövlət statusunu da itirdi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti neft sahəsində bir sıra dövlətlərlə əməkdaşlıq qurdu. 1920- ci ilin aprelində bolşevik Rusiyası digər amillərlə yanaşı həm də neftə görə Azərbaycanı işğal edərək sovetləşdirdi. Bundan sonra Azərbaycan nefti mərkəzə daşınır, yerli əhaliyə isə mazutlu gölməçələr qalırdı. Xəzər regionunun neft-qaz yataqları iki qrupa bölünür: Xəzər regionu ölkələrinin quru ərazisində yerləşən və ümumi qəbul olunmuş yataqlar; Xəzər dənizinin dibinin təkində olan və milli sektorlardakı yataqlar. Azərbaycan neftçiləri 1935-ci ildə Xəzər dənizindən neft çıxarmağa başladılar.

İkinci dünya müharibəsi illərində Hitler Almaniyasının əsas hədəflərindən biri Azərbaycan neftini ələ keçirmək idi. 1941-ci il iyulun 3-də Adolf Hitler deyirdi: "İrəli baxmaq zamanı gəlmişdir... Söhbət Qafqaz neft rayonuna yiyələnmək üçün yaranmış imkanlardan gedir"". Lakin Hitler Azərbaycan neftini ələ keçirə bilmədi. SSRİ-nin müharibədə qələbə qazanmasında Azərbaycan nefti müstəsna rol oynadı.

Dünya müharibəsinin başa çatması ilə Azərbaycan neftinin tarixində yeni səhifə açıldı. İlk dəfə olaraq dənizdə 1949-cu ildə sənaye üsulu ilə neftin hasil edilməsinə Xəzər dənizində Neft daşlarında başlandı. Bununla da neft sənayesi inkişafının yeni bir dövrünə qədəm qoydu. 1951-ci ildə Bakı neft rayonu SSRİ-də neft hasilatı üzrə birinci yeri tuturdu. 1950-1960-cı illərdə Ural-Volqaboyu ("ikinci Bakı"), Qərbi Sibir

**Xəzərin tarixi haqqında. - http: //www/Azerbaijan/az/portal/World Community/Caspian Sea/.**

**EyraeB A. KacnHÜ: saneM OH 3anaay, s.l40.**

("üçüncü Bakı") neft rayonları istismara verildi. Bu qədər sərvətin mənimsənilməsində aparıcı rolu Rusiya oynayırdı. Artıq 60-cı illərdə Azərbaycan neftinin yarıdan çoxu dənizdəki yataqlardan çıxarılırdı. Azərbaycan neftçiləri Xəzər dənizində sənaye əhəmiyyətli 36 yataq kəşf etmişdilər. Bakı "Neft Akademiyası" adlandırılırdı. Lakin Azərbaycan xalqının bu təbii sərvəti üzərində sərəncam vermək hüququ yox idi. Azərbaycan nefti mərkəzə daşınır, respublikaya isə SSRİ büdcəsindən cüzi məbləğdə vəsait ayrılırdı.

### ■'Əsrin müqaviləsi"nə aparan çətin yol

80-ci illərin sonlarından etibarən vəziyyət dəyişdi. Bir sıra Qərb ölkələrinin kompaniyaları Xəzər dənizinin enerji mənbələrinə maraq göstərməyə başladılar. Öz növbəsində yeni Xəzəryanı ölkələr, o cümlədən Azərbaycan da xarici sərmayələrin qoyulmasında maraqlı idi. Çünki yeni neft yataqlarını istismar etmək üçün vəsaitləri yox idi.

1988-ci ilin payızında Azərbaycan SSR Dövlət Yanacaq Komitəsi yaradıldı. 1990-cı ilin may ayında isə Azərneftin SSRİ Neft-Qaz Sənayesi Nazirliyinin tərkibindən çıxarılması və onun bazasında xarici şirkətlər ilə birgə müəssisə yaradılması haqqında qanun qəbul edildi. Bu tarixdə neftin xarici bazarlarda satışı ilə məşğul olmaq üçün Dəniz assosiasiyası quruldu. Onun təsisçiləri Xəzərdənizneftqaz, Azneft və Xəzər dəniz gəmiçiliyi idarəsi idi. Assosiasiyanın məqsədi ABŞ, Böyük Britaniya və digər ölkələrin neft şirkətləri ilə əlaqə qurmaq və neftin satışı perspektivlərini müəyyənləşdirmək idi. 1990-cı il iyunun 10-da Azərbaycan hökuməti Xəzərdənizneftqaz İstehsalat Birliyinin əvəzində Azərbaycan SSR Neft və Qaz Sənayesi Nazirliyinin yaradılmasını SSRİ hökumətindən xahiş etdi. Lakin mərkəzi hakimiyyət buna icazə vermədi. Azərbaycan hökuməti iyunun 19-da Moskvaya təkrar məktub yazaraq xarici neft şirkətləri ilə birlikdə Xəzər dənizindəki neft yataqlarının kəşfiyyatı və istismarına icazə verilməsini xahiş etdi^^^. Mərkəzi hökumət həmin xahişi yerinə yetirdi. Bundan sonra xarici neft şirkətlərinin nümayəndələri Azərbaycana tanışlıq səfərləri etdilər. 1990-cı ildə başlanan danışıqlar uzun və çətin oldu. Lakin nəhayət, istənilən nəticə əldə edildi. Azərbaycan hökuməti 1991-ci ilin yanvar ayında tender elan etdi. Bu tenderdə dünyada məşhur olan Amoko,

**Yenə orada.**

Yunokal, Britiş Petrolium və Statoyl şirkətləri iştirak edirdilər. Tenderin yekununda, 1991-ci ilin iyun ayında Amoko şirkəti qalib gəldi. Bundan sonra Amoko şirkətinin rəhbərliyi altında Yunokal, BP/Statoyl alyansı, MakDermott və Remko şirkətlərinin iştirakı ilə neft konsorsiumu quruldu. Amoko və Azərbaycan tərəfi vahid müştərək müəssisə qurdular. Burada Azərbaycanın 85-88%, Amokonun isə 12-15% payı nəzərdə tutulurdu. Amoko Azərbaycan iqtisadiyyatına 650 mln. dollar vəsait qoymağı öhdəsinə götürürdü.

Xəzər neftinə marağın artdığı bir şəraitdə Azərbaycan hökuməti Xəzər dənizinin problemlərinə dair beynəlxalq toplantılar keçirməyə başladı. 1991-ci ilin iyun ayında Bakı şəhərində Xəzər dənizinin problemlərinə dair I beynəlxalq konfrans keçirildi. Konfransda dünyanın müxtəlif ölkələrindən nümayəndələr iştirak edirdilər. İştirakçılar bu nadir su hövzəsi üçün fəlakət törədə biləcək ağır ekoloji şəraitlə bağlı məsələlərin geniş dairəsini müzakirə etdilər. Konfransda bir sıra kəskin problemlərlə yanaşı Xəzər dənizinin səviyyəsinin xeyli yüksəlməsi nəticəsində geniş sahilboyu zonaları su basması kimi real təhlükəyə də diqqət yetirildi. Qeyd edildi ki, dörd müttəfiq respublikanın və həmhüdud dövlətin - İran İslam Respublikasının həyati əhəmiyyətli mənafeyinə toxunan Xəzər problemləri geniş miqyaslı təbiəti mühafizə tədbirləri görülməsini, bu sahədə vahid investisiya siyasəti hazırlanmasını, böyük maddi-texniki və əmək ehtiyatlarının cəlb olunmasını tələb edir. Xəzər dənizinin bütün dünya birliyi üçün əhəmiyyətini, baş verə biləcək ekoloji böhranın qlobalhğmı və bu problemlərin yalnız Xəzəryanı region dövlətlərinin qüvvəsi ilə həll edilməsinin mümkün olmadığını nəzərə alan konfrans iştirakçıları bütün beynəlxalq təşkilatları və fondları bu vacib və nəcib işə kömək göstərməyə çağıran müraciət qəbul etdilər.

Konfransın nəticələri və müraciət barədə Azərbaycan Respublikası Ali Soveti müvafiq qərar qəbul etdi^^^. Qərarda yazılırdı: "Xəzər dənizinin problemlərinə dair 1-ci beynəlxalq konfransın müraciəti nəzərə alınsın; Xəzərin ekoloji problemlərinin Ümumittifaq və dünya əhəmiyyətini nəzərə alaraq SSRİ Ali Sovetindən xahiş edilsin ki, bu məsələni öyrənməyi müvafiq komitələrə, komissiyalara tapşırsın və onu ümdə əhəmiyyətli məsələlər sırasında ölkə parlamenti sessiyasının gündəliyinə daxil etsin; Azərbaycan Respublikasının Dövlət Təbiəti Mühafizə Komitəsi

**Xəzər dənizinin problemlərinə dair 1-ci Beynəlxalq konfransın müraciəti haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. Bakı şəhəri, 28 iyun 1991- ci il. Ro 161-X1I.-ARXİNA. 1991.**

Azərbaycan Respublikası Ali Sovetinin ekologiya və təbii ehtiyatlardan istifadə olunmasına nəzarət daimi komissiyası ilə birlikdə Xəzər dənizinin ekoloji vəziyyəti ilə əlaqədar müvafiq materialları SSRİ Ali Sovetinə təqdim etmək üçün iki həftə müddətində hazırlasınlar".

Lakin konfransın qərarlarını həyata keçirmək mümkün olmadı. Dünyanın fbvqəlgüc dövlətlərindən biri olan SSRİ dağıldı. Sovet İttifaqının dünya siyasi səhnəsindən getməsi enerji mənbələri uğrunda amansız mübarizədə yeni bir dövrün başlanğıcını qoydu. Xəzər regionunda "böyük oyun" başladı. Bu oyunun mərkəzi meydanı isə Azərbaycan Respublikası oldu.

1992- ci ilin may ayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyindən sonra həmin ilin sentyabrın 7-də BP/Statoyl alyansı ilə "Çıraq" yatağı və perspektiv "Şahdəniz" sahəsi üzrə saziş imzalandı. İmzalanma mərasimində iştirak etmək üçün Böyük Britaniya və Şimali İrlandiya Krallığının keçmiş Baş Naziri Marqaret Tetçer^^"* Bakıya səfər etdi^^^. Aparılan danışıqlar nəticəsində enerji sahəsində əməkdaşlıq istiqamətində işlər sürətləndirildi. 1992-ci il sentyabrın 13-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı. Oktyabrın 1-də Penzoyl/Remko alyansı ilə "Günəşli" yatağı üzrə bir neçə saziş bağlandı. Noyabr ayında isə ARDNŞ ilə xarici neft şirkətləri arasında 5 memorandum imzalandı.

İran ərazisindən keçməklə Azərbaycan neftinin Aralıq dənizi sahillərinə çatdırılması üçün neft boru kəməri tikintisinə dair Türkiyə ilə 1993-cü ilin martında saziş imzalandı. Layihənin dəyəri 1,4 milyard dollar qiymətləndirilirdi.

Xarici neft şirkətləri ilə başlanan iş 1993-cü il mayın 6-da imzalanan 6-cı memorandum ilə başa çatdı. Beləliklə, ARDNŞ ilə xarici neft şirkətləri arasında "Günəşli", "Azəri" və "Çıraq" yataqlarının işlənilməsinə dair müqavilələr imzalanmaq üçün hazırlandı. Lakin yay aylarında Londonda nəzərdə tutulan imzalanma mərasimi baş tutmadı. Artıq qeyd edildiyi kimi, Azərbaycanda böhran yarandı. Polkovnik Surət Hüseynovun başçılığı altında hərbi hissə iyunun 4-də qiyam qaldırdı. Hərbçilər Bakıya doğru hərəkətə keçdilər. Eyni zamanda ölkənin şimalında və cənubunda separatçılıq baş qaldırdı. Bunda bəzi xarici dövlətlərin də rolu var idi. Beləliklə, təkcə neft müqaviləsinin taleyi deyil, Azərbaycanın dövlət müstəqilliyi təhlükə altına düşdü.

**Marqaret Tetçer (1925) - Böyük Britaniyanın Baş Naziri (1979-1990).**
**Dünən Marqaret Tetçer Bakıya gəlmişdir. - "Həyat" qəzeti, Bakı, 1992, 8 sentyabr.**

Belə bir ağır şəraitdə 1993-cü ilin iyun ayında Azərbaycanda hakimiyyətə gələn Heydər Əliyev yalnız dövləti və dövlətçiliyi dağılmaqdan xilas etmədi, eyni zamanda ölkənin yeni neft siyasətini müəyyənləşdirdi. Bununla əlaqədar olaraq sonralar İlham Əliyev^^^ yazırdı: "Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı vəziyyəti kökündən dəyişdirdi. Azərbaycanın dəqiq iqtisadi konsepsiyası formalaşdırıldı və neft sənayesinin inkişaf etdirilməsi həmin konsepsiyada üzvi surətdə öz yerini tutdu"'^'.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il iyunun 23-də verdiyi qərara uyğun olaraq xarici neft şirkətləri ilə bağlanmağa hazır olan müqavilələr müvəqqəti olaraq dayandırıldı. Bu addım onlarla əməkdaşlıqdan imtina etmək olmayıb, neftə dair imzalanacaq sənədləri və məsələni daha dərindən araşdırmaqla bağlı idi. Yaranmış vəziyyəti müzakirə etmək üçün avqustun 17-də Heydər Əliyev aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşərək imzalanmağa hazır olan müqavilələrin dayandırılmasının məqsədini və Azərbaycanın neft siyasətinin mahiyyətini izah etdi. Onun fikrincə, xarici neft şirkətləri ilə bağlanan istənilən müqavilə Azərbaycan xalqının maraqlarına, tərəqqisinə xidmət və dövlətin möhkəmləndirməsi üçün beynəlxalq təminatlara kömək etməli idi. Heydər Əliyev şirkətlərin nümayəndələrinə birmənalı olaraq dedi: "Əgər dünyanın böyük ölkələrinin neft şirkətləri Azərbaycanın neft yataqlarına maraq göstərirlərsə, güman edirəm ki, o ölkələrin dövlət dairələrini Azərbaycan Respublikasının bugünkü ictimai-siyasi vəziyyəti də maraqlandırmalıdır"^^*. Bununla da o, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllinə Azərbaycanın enerji strategiyası vasitəsi ilə beynəlxalq dəstək qazanmağa çalışırdı. Yeni neft strategiyası Azərbaycanın beynəlxalq mövqelərini güc-

**İlham Əliyev (1961) - görkəmli siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru. 1994-1996-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, 1996-2003-cü illərdə birinci vitse- prezidenti. "Əsrin müqaviləsi"nin işlənib hazırlanmasında müstəsna xidmətləri olmuşdur. 1995 və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyasının sədr müavini seçilmişdir. 2003-cü ilin avqust-noyabr aylarında Azərbaycan Respublikasının Baş Naziri. 2003, 2008 və 2013-cü illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Bir sıra nüfuzlu xarici universitetlərin fəxri doktoru.**

**AjTHeB H. KacnuHCKaa uecjiTb AsepöaüflxraHa, c. 252.**

**Əliyev H. Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə çıxış. 17 avqust 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 87.**

ləndirəcək, Dağlıq Qarabağ münaqişəsinin həllində əlavə imkanlar verəcək, eyni zamanda tərəfdaşlar, sərmayədarlar, təchizatçılar və alıcılar ehtiyatla və məsuliyyətlə hərəkət edəcəkdilər. Heydər Əliyev açıq şəkildə bildirdi ki, neft sərvətimizdən ilk növbədə Azərbaycan Respublikasının inkişafı, xalqının sosial-iqtisadi şəraitinin yaxşılaşdırılması, vətəndaşlarının maddi rifah halının yüksəldilməsi üçün istifadə olunmalıdır. Bu işlər qarşılıqlı fayda və anlaşma zəminində təşkil olunmalıdır, biz bu məsələləri daha dərindən araşdırmaq istəyirik.

Azərbaycan xarici ölkələrin təmsil olunan şirkətləri ilə iqtisadi əlaqələri davam etdirməyə tərəfdar idi^^^. Qərbin iri neft şirkətləri ilə əməkdaşlıq Azərbaycan Respublikasında sosial-iqtisadi inkişaf, xalqın rifahının yüksəldilməsi üçün real və uzunmüddətli zəmin yaratmalı, xarici sərmayələrin qoyuluşuna geniş imkanlar açmalı, Azərbaycanı dünya iqtisadiyyatı üçün açıq ölkə kimi tanıtmalı, dünya iqtisadiyyatına inteqrasiyasını reallaşdırmalı, demokratik ölkə kimi dünyaya tanıtmalı, Azərbaycana olan etimadı möhkəmləndirməli, xalqın öz sərvətlərinə sahib olduğunu dünyaya göstərməli, sabitliyin bərqərar edilməsinə və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək etməli idi.

1993- cü ilin avqust ayının sonlarında Londonda Azərbaycan və yeddi iri neft şirkəti ekspertlərinin üç neft yatağına dair danışıqları başlandı. Əsasən qeyri-rəsmi səviyyədə aparılan danışıqlar heç də asan getmirdi. Bəzi xarici ölkələrdə onun qatı əleyhdarları var idi. Məsələn, Xəzər dənizinin Azərbaycan sektorunda xarici neft şirkətləri ilə aparılan danışıqlara Boris Yeltsinin rəhbərlik etdiyi Rusiyada birmənalı münasibət mövcud deyildi. Bu ölkənin Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və neft şirkətləri arasında məsələyə yanaşmada fikir ayrılıqları mövcud idi. Xarici İşlər Nazirliyi imzalanacaq neft müqavilələrinin əleyhinə çıxırdı. Nazir Andrey Kozırev hətta Azərbaycana məktub göndərərək Rusiyanın Xəzər dənizində sovet zamanında inşa edilən neft platformaları üzərində hüquqi haqqı olduğuna dair iddia da irəli sürdü^'*®. Ondan fərqli olaraq Rusiyanın Baş Naziri Viktor Çernomirdin əməkdaşlığın əleyhinə olan bəyanatlar verməmişdi®'".

**Yenə orada.**

**Aliyev: Moskovo'dan izin almayız . - "Milliyet" gazetesi, İstanbul, 1994, 19 Ekim.**

**John Roberts. Caspian Pipelines. London, The Royal Institute of International Affairs, 1996, s. 51; Kamer Kasım. AzerbaycanTn dış politikası. - Emine**

Belə vəziyyət bir tərəfdən mürəkkəblik yaradır, digər tərəfdən isə Azərbaycanın manevr imkanlarını artırırdı. Bu zaman məsələyə dair Azərbaycan və Rusiya hökumətləri arasında danışıqlar gedirdi. Heydər Əliyevin dəvəti ilə 1993-cü il noyabrın 19-da Rusiyanın yanacaq və energetika naziri Yuri Şafrannik^'*^ və LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərov^"*^ Azərbaycana səfər etdilər. Görüşdə imzalanacaq müqavilədə LUKoylun iştirakı məsələsi müzakirə olundu^"*"*. Heydər Əliyev bu əməkdaşlıqda Rusiyanın da iştirak etməsinə, Azərbaycanın böyük dövlətləri və iri neft şirkətlərini əməkdaşlığa cəlb edən bir ölkəyə çevrilməsinə çalışırdı. Rusiya tərəfi gələcək konsorsiumda 20%-lik pay və yalnız iki yatağın işlənilməsini arzu edirdi. Nəhayət, danışıqlar uğurla başa çatdı. Azərbaycan ilə Rusiya arasında iki saziş bağlandı. Noyabrın 20-də Bakıda Azərbaycan Respublikası ərazisində neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, boru kəmərləri və neft-qaz maşınqayırması sahəsində əməkdaşlıq haqqında ARDNŞ ilə Rusiya Federasiyası Yanacaq və Energetika Nazirliyi arasında saziş imzalandı. Elə həmin gün ARDNŞ ilə LUKoyl arasında dənizdəki “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının mənimsənilməsi üzrə qurulmuş konsorsiumda iştiraka dair saziş bağlandı. Rusiya kompaniyası 10%-lik sərmayə hüququ aldı. Bundan başqa LUKoyla quruda yerləşən “Siyəzən” yatağının modemləşdirilməsində iştirak etmək hüququ da verildi.

Bu addımları atarkən Azərbaycan tərəfi məsələnin hərbi-siyasi tərəflərini də düşünürdü. Ölkə rəhbərliyi Rusiya ilə münasibətləri yaxşılaşdırmaq niyyətini güdürdü. Heç şübhəsiz, bu, Azərbaycanın Qərb şirkətləri ilə danışıqlardan imtina etməsi demək deyildi.

Danışıqlar çətinliklərsiz də deyildi. Azərbaycanın qonşusu olan Türkmənistan hələ 1959-cu ildə Azərbaycan neftçiləri tərəfindən kəşf edilmiş “Azəri” yatağını “Xəzər” adlandırırdı. Qeyd etmək lazımdır ki, 1987-ci ilədək həmin yataqda Azərbaycan neftçiləri intensiv şəkildə iş

**Gürsoy-Naskali ve Erdal Şahin (Der.). Bağımsızlıklannın 10 Yılında Türk Cumhuriyetleri. Haarlam, Hollanda: SOTA, 2001, s. 436-437.**

**Yuri Şafrannik (1952) - Rusiyanın yanacaq və energetika naziri (1933-1996). Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqı Şurasının sədri (2002-ci ildən).**

**Vahid Ələkbərov (1950) - SSRİ neft-qaz sənayesi nazirinin birinci müavini (1991-1992). LUKoyl neft kompaniyasının prezidenti (1993-cü ildən).**

**Terry D. Adams. Baku Oil diplomacy and “Early oil” 1994-1998: an extemal perspective. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.239; Kac-nHHCKaa HHTpura. - Taa. “HaBecrmı”, M., 1994, 19 oKTaöpn.**

aparmışdılar. "Azəri" yatağından qərbdə yerləşən "Çıraq" yatağı isə 1991- ci il yanvarın 18-də elan olunmuş tender layihəsinə daxil edilmişdi. Türkmənistan bu yatağı "Osman" adlandırırdı. Əssasız iddialar və qısqanclıq neftə dair danışıqları çətinləşdirirdi. Lakin Azərbaycan bu məsələni də həll etdi. 1993-cü ilin dekabr ayında Fransaya səfəri zamanı Azərbaycan Prezidenti məsələni geniş müzakirə etdi. Bu səfər enerji diplomatiyasının uğurlu inkişaf etdirilməsində xüsusi rol oynadı. Danışıqlar zamanı Fransa neft sahəsində əməkdaşlığa tamamilə tərəfdar çıxaraq Azərbaycanın səylərini müdafiə etdi. Bu, Azərbaycanın mövqelərinin möhkəmlənməsinə kömək edən amillərdən biri oldu. Fransaya səfər başa çatdıqdan bir müddət sonra, 1994-cü il yanvarın 30-da Heydər Əliyev Amoko şirkətinin rəhbərlərini qəbul edərkən bildirdi ki, dünyanın aparıcı neft şirkətləri ilə əməkdaşlığı davam etdirmək neft sənayesi sahəsində ölkəsinin strateji xəttidir və burada heç bir dəyişiklik ola bilməz®'*^.

Bu görüşdən bir neçə gün sonra, fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənllməsinin sürətləndirilməsi haqqında" sərəncam imzaladı. Sərəncama uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Amoko Kaspian Si Petroleum Ltd, BP Eksploreyşn (Kaspian Si) Ltd, Den Norske Stats Olyeselskap a. s., LUKoyl Səhmdar Cəmiyyəti, Mak- Dermott Azərbaycan ink, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerji Ltd, Türkiyə Petrolları a. s., Yunokal Xəzər Ltd şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Çıraq", "Azəri" yataqlarının, habelə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında sazişin bağlanmasına dair danışıqlara başladı. Danışıqları ARDNŞ-in prezidenti Natiq Əliyev®"^ vitse-prezidenti İlham Əliyev və digər şəxslər aparırdılar. Lakin danışıqlar heç də asan getmir, müəyyən fikir ayrılıqları səbəbindən dayanırdı. Bəzi şirkətlər beynəlxalq siyasi şəraitin necə olacağından, qonşu dövlətlərin, xüsusən Rusiya və İranın məsələdə tutduqları mövqedən narahat idilər.

Narahatlıqların aradan qaldırılmasında 1994-cü ilin fevral ayında Heydər Əliyevin Türkiyə və Böyük Britaniyaya səfərləri zamanı apardığı

**^ Respublika Prezidenti Amoko şirkətinin rəhbərlərini qəbul etmişdir. - "Azərbaycan" qəzeti, Bakı, 1994, 1 fevral.**

**Natiq Əliyev (1947) - neft sənayesi təşkilatçısı. 1993-2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti. Azərbaycan Respublikasının sənaye və energetika naziri (2006-cı ildən).**

danışıqlar, xüsusən fevralın 23-də Londonda “Energetika sahəsində əməkdaşlıq haqqında memorandum”un imzalanması xüsusi rol oynadı^”. Azərbaycan Prezidenti Ankarada bildirdi ki, ölkəsi neft boru kəmərinin Türkiyə ərazisindən keçməsinə etiraz etmir. Londona səfər zamanı isə Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlərə dair səkkiz hökumətlər- arası sənəd, o cümlədən neft sənayesi sahəsində əməkdaşlıq haqqında saziş imzalandı. BP “Çıraq” və “Azəri” yataqlarının işlənilməsi üzrə beynəlxalq konsorsiumda üstün yer aldı.

Azərbaycan Prezidentinin Londona səfərindən sonra beynəlxalq konsorsiumla danışıqlar rəsmi səviyyədə aparılmağa başlandı. Rusiya danışıqlardan və imzalanan sənəddən narahatlığını bildirərək məsələni BMT səviyyəsində qaldırdı. Xəzər dənizində Azərbaycan Respublikasının təktə- rəfli işlər aparmasına etiraz olaraq Rusiya hökuməti 1994-cü il aprel ayının 5-də BMT-yə müraciət etdi. Müraciətdə bu vəziyyətin davam edəcəyi təqdirdə Rusiyanın lazımi tədbirlər görəcəyi bildirilirdi. Rusiya hökuməti bununla da kifayətlənməyərək aprel ayının sonlarında Böyük Britaniya hökumətinə bir etiraz notası verdi^"*. Lakin bu təzyiqlərin elə bir nəticəsi olmadı. Azərbaycan xarici şirkətlərlə danışıqlarını və yeni neft siyasətini davam etdirdi.

Artıq qeyd olunduğu kimi, 1994-cü il may ayının əvvəllərində Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan edildi. Hərbi əməliyyatlar dayandırıldı. Bu, yeni neft strategiyasının həyata keçirilməsinə müsbət təsir edən amillərdən biri oldu. Atəşkəsin elan olunması Azərbaycana sərmayə qoymaqda maraqlı olan xarici neft şirkətləri tərəfindən rəğbətlə qarşılandı. Onlar əməkdaşlığı daha həvəslə davam etdirirdilər.

Azərbaycan isə əlavə tədbirlər həyata keçirdi. 1994-cü il mayın 24- də Bakıda Xəzər dənizində neft-qaz hasilatına dair birinci beynəlxalq sərginin açılışı oldu. Sərgidə 20 ölkədən 180-dək şirkət iştirak edirdi. Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkədə neft sənayesinin tarixinə qısa nəzər yetirdi. Qərbin iri neft şirkətləri ilə aparılan danışıqlardan, imzalanmış müqavilələrdən və əməkdaşlıqdan danışdı, Azərbaycanın neft strategiyasının mahiyyətini izah etdi^^^.

**""" ARXINA. 2008.**

**Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası, s.123. Əliyev H.Ə. Bakıda Xəzər dənizində neft-qaz hasilatına dair I beynəlxalq sərginin açılışında çıxış. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 594-597.**

Sərgidə xarici şirkətlərin iştirakı Azərbaycan ilə əməkdaşlığa olan marağı göstərir, danışıqların daha da intensiv aparılmasına təsir edirdi. Neft sahəsində əməkdaşlığa dair danışıqlar ümumiyyətlə, üç il idi aparılırdı. Danışıqların Bakıda keçirilən birinci mərhələsindəki müzakirələr əməkdaşlığın perspektivləri olduğuna inam yaratdı.

1994- cü ilin may və iyun aylarında İstanbulda Azərbaycan ilə iri neft şirkətləri arasında danışıqların ikinci mərhələsi keçirildi. Bu danışıqlarda yataqlarda neft hasilatının optimal səviyyəsi, maliyyələşmə mexanizmi, xərclərin ödənilməsi prinsipləri və şərtləri, gəlirlərin bölünməsi prinsipləri müzakirə edildi.

Danışıqların sonuncu mərhələsi isə iyulun 22-dən sentyabrın 1 O-dək Hyustonda oldu. Nəhayət, danışıqlar uğurla başa çatdı.

Beləliklə, təqribən 7 ay gərgin iş aparıldıqdan sonra müvafiq layihə hazırlandı. Layihə dörd elementi özündə ehtiva edirdi: sərmayədarların və dövlətin maraqlarını təmin edən ədalətli, lakin sərt kommersiya şərtləri. Müqavilələrdə erkən mərhələdə şərtlərin yenidən nəzərdən keçirilməsi istəyini doğuran müddəalar olmamalıdır; bütün neft müqavilələri maksimum dərəcədə müfəssəl olmalıdır, müqavilə öhdəlikləri ilə bağlı tərəflərin heç birində şübhə olmamalıdır; hər bir müqavilə Azərbaycan parlamentində təsdiq edilməlidir; müqavilələr ölkə iqtisadiyyatının dirçəlişinə kömək etməlidir.

Qeyd etmək lazımdır ki, danışıqların uğurla başa çatmasına Heydər Əliyevin 1994-cü il sentyabrın 6-da Misir Ərəb Respublikasına səfəri zamanı ABŞ-m vitse-prezidenti Albert Qor ilə görüşü ciddi təsir etdi. Türkiyənin “Hürriyef ’ qəzeti Heydər Əliyevin Misirə səfəri zamanı Albert Qor ilə görüşünün bu baxımdan böyük əhəmiyyət kəsb etdiyini yazırdı^^°.

Narahatlığını davam etdirən Rusiya Xarici İşlər Nazirliyi sentyabrın 12-də Azərbaycana nota verərək neft yataqlarının “birtərəfli tutulmasına etiraz etdi”^^'. Bunu Xəzər dənizinin hüquqi statusunun müəyyən- ləşdirilməməsi ilə əlaqələndirdi. Azərbaycan tərəfi əsassız etirazlara məhəl qoymayaraq başladığı işi davam etdirdi.

ARDNŞ hazırlanmış saziş layihəsi haqqında Azərbaycan Prezidentinə məruzə təqdim etdi. Həmin məruzənin əsasında 1994-cü il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haq-

**ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq JVb21, V. 125-126.**

**OeaopoB K). KacnuHCKaa ueejiTfa u MOKaynapo/iHaa öesonacHOCTb. BhinycK l,c.l08.**

qında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barədə fərman imzaladı®^^. Fərmanda “Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 4 fevral tarixli sərəncamında ifadə edilmiş prinsiplərə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Amoko Kaspian Si Petroleum Ltd, BP Eksploreyşn (Kaspian Si) Ltd, Den Norske Stats Olyeselskap a. s., LUKoyl Səhmdar Cəmiyyəti, MakDermott Azərbaycan ink, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerji Ltd, Türkiyə Petrolları a. s., Yunokal Xəzər Ltd şirkətlərinin daxil olduqları xarici neft şirkətləri konsorsiumu ilə Xəzər dənizinin Azərbaycan sektorunda “Çıraq”, “Azəri” yataqlarının, habelə “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi haqqında sazişin bağlanması barəsində üç ildən artıq davam edən danışıqların başa çatdığı və həmin ya- taqlardakı neft ehtiyatının 500 milyon tondan artıq qiymətləndirildiyi vurğulanırdı.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ölkə rəhbərinə təqdim etdiyi məruzədə hazırlanmış sazişin layihəsi Azərbaycan Respublikası üçün iqtisadi cəhətdən səmərəli və münasib variant kimi səciyyələndirilirdi. Qeyd edilirdi ki, yataqların işlənilməsi üçün lazım olan sərmayələrin 80%-i konsorsium tərəfindən qoyulacaq, saziş qüvvəyə mindikdən sonra ilk neft 18 ay ərzində çıxarılacaq, neft hasilatına əsas yataqlarda 48 aydan gec olmayaraq başlanacaq və Azərbaycan neftinin beynəlxalq bazara səmərəli yolla çıxışını təmin edən neft kəmərinin tikintisi isə 54 ay ərzində başa çatdırılacaqdır. Sazişə görə, Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə edilməsi hüquqlarını özündə saxlayırdı.

Bu prosesdə Azərbaycanın gəliri üç mənbədən alınacaqdı: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər; yataqların işlənilməsinə sərmayə qoyuluşlarında iştirak ilə bağlı gəlirlər; respublika büdcəsinə konsorsiumun gəlirinin dörddə bir hissəsi məbləğində vergi ayırmaları. Bunların hamısı mənfəət neftinin 80%-nin Azərbaycana çatmasını təmin edəcəkdi. Əlavə olaraq, neft ilə birgə çıxan və ehtiyatları 55 milyard kubmetr həcmində qiymətləndirilən səmt qazı da Azərbaycanın mülkiyyəti olacaqdı. Sazişin əhatə etdiyi sahədə 90 milyard kubmetr həcmində qiymətləndirilən qaz yataqlarının istismarı Azərbaycanın

**Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində Azərbaycan Respublikası Prezidentinin fərmanı. 14 sentyabr 1994-cü 1994.** **Xa 206. - ARXINA.**

müstəsna səlahiyyətində saxlanılırdı. Bu da sazişin iqtisadi səmərəsini daha da artırırdı.

Neft yataqlarının birgə işlənilməsi 30 il müddətinə nəzərdə tutulurdu. Bu, Azərbaycan xalqının iqtisadi və sosial rifahının təməlini qoyacaq, bazar iqtisadiyyatına keçid şəraitində on milyardlarla valyuta mədaxili bütün Azərbaycan iqtisadiyyatının və hər şeydən əvvəl, neft sənayesinin elmi və istehsal-texniki bazasının keyfiyyətcə yenilənməsini təmin edəcəkdi. Uzun müddət durğunluq vəziyyətində olmuş neft maşınqayırma, neft emalı və neft kimyası sənayesinə yeni təkan veriləcəkdi. Bu da ümumi iqtisadi göstəricilərin artımı ilə yanaşı kadr potensialının möhkəmlənməsinə kömək edəcək və yeni iş yerlərinin açılmasına imkan verəcəkdi. Azərbaycan sənayesi suyun dərinliklərində olan karbohidrogen yataqlarının istismarı sahəsində qabaqcıl xarici təcrübəyə yiyələnəcəkdi. Bu da gələcəkdə belə yataqlardan müstəqil istifadə etməyə imkan verəcəkdi. Əldə edilən mənfəət Azərbaycan iqtisadiyyatının bir çox sahələrində yüksək texnologiyalara keçməsini təmin edəcək, eyni zamanda infrastrukturun yeniləşdirilməsinə şərait yaradacaqdı. İri neft şirkətləri ilə uğurlu əməkdaşlıq beynəlxalq aləmdə Azərbaycan Respublikasına etimadı möhkəmləndirəcək və yeni xarici sərmayələrin cəlb edilməsinə zəmin yaradacaqdı.

Fərmanda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təqdim etdiyi məruzə və Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Ltd, BP Eksploreyşn (Kaspian) Ltd, Den Norske Stats Olyeselskap a.s., LUKoyl Səhmdar Cəmiyyəti, MakDermott Azərbaycan ink, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerji Ltd, Türkiyə Petrolleri a. o., Yunokal Xəzər Ltd şirkətləri arasında sazişin layihəsi bəyənilirdi.

Azərbaycan Prezidenti sentyabrın 16-da neft müqaviləsinin imzalanmağa hazır olması haqqında bəyanat verdi®^^. Bəyanatda üç ildən artıq neft şirkətləri ilə danışıqların aparıldığı qeyd edilir və onların təfərrüatları açıqlanırdı.

Bundan bir neçə gün sonra, sentyabrın 19-da Bakıda I Azərbaycan beynəlxalq Xəzərneftqaz-94 konfransı açıldı. İştirakçılara göndərdiyi təb-

**Əliyev H.Ə. Neft müqavilələrinin imzalanmağa hazırlanması ilə bağlı brifinqdə bəyanat. 16 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.226-233.**

rik məktubunda Azərbaycan Prezidenti Heydər Əliyev konfransın Azərbaycanın neft və qaz sənayesi problemlərinin həllini təmin etməyə xidmət göstərəcəyinə ümidini bildirdi^^'*. Konfrans Azərbaycanın həm enerji sahəsində beynəlxalq əməkdaşlığa olan niyyətini, həm də xarici şirkətlərin neft və qaz sənayesinə artan marağını göstərdi. Əməkdaşlıq üçün Azərbaycanın böyük potensialının olduğu artıq heç kimdə şübhə doğurmurdu.

Azərbaycan yeni neft strategiyasının rəsmiləşdirilməsinin astanasında dayanmışdı. Xəzər dənizinin Azərbaycan sektorundakı neft sahəsində əməkdaşlığı nəzərdə tutan müqavilə imzalanmağa hazır idi.

## Dönüş anı.
## Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsinin əsası qoyulur

Nəhayət, həmin gün gəlib çatdı. Sentyabrın 20-də müstəqil Azərbaycan tarixində mühüm bir hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq və dərinsulu "Günəşli" yatağında neftin birgə işlənməsi və pay bölgüsü haqqında Bakıda 8 ölkənin - Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının 13 neft şirkəti arasında 30 il müddəti üçün müqavilə imzalandı. Təqribən 400 səhifə olan müqaviləyə görə, kapital qoyuluşunun həcmi 7,4 milyard dollar, istismar xərcləri 5,9 milyard dollar idi. Müqaviləyə daxil olan ərazi 432,4 kv.km. idi. Bu müddət ərzində 510 milyon ton neft hasil etmək nəzərdə tutulurdu. Mənfəət neftinin 80%-i Azərbaycanın, 20%-i digər tərəflərin payına düşməli idi.

Paylar şirkətlər arasında aşağıdakı kimi bölüşdürülmüşdü: BP (Böyük Britaniya) - 17,12%, Amoko (ABŞ) - 17%, Yunokal (ABŞ) -10%, LUKoyl (Rusiya) - 10%, ARDNŞ (Azərbaycan) - 10%, Statoyl (Norveç) - 8,5%, Ekson (ABŞ) - 8%, TPAO (Türkiyə) payı sonralar - 6,75%, Pennzoyl (ABŞ) - 4,8%, İtoçi (Yaponiya) - 3,92%, Ramko (Böyük Britaniya) - 2%, Delta (Səudiyyə Ərəbistanı) - 1,6% idi. Qeyd etmək lazımdır ki, imzalanmış müqavilədə ARDNŞ-in ilkin payı 20% idi. Lakin

**Əliyev H.Ə. Birinci Azərbaycan Beynəlxalq Xəzərneftqaz-94 konfransının iştirakçılarına. 19 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.253.**

sonralar 1995-ci ildə onun 5%-i o vaxtadək müavilədə iştirak etməyən Eksona, 5%-i isə TPAO-ya verildi.

İmzalanma mərasiminin açılışında nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev neft sənayesinin inkişaf yolundan və imzalanan müqavilənin əhəmiyyətindən danışarkən dedi: "Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən - quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir"^^^.

İmzalanma mərasimindən sonra etdiyi yekun nitqində isə Heydər Əliyev deyirdi: "...bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağalayacaqdır. Ən ümdəsi ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xaqimın bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır"'^^.

Dünyanın iri neft şirkətləri ilə imzalanan bu müqavilənin böyük tarixi əhəmiyyəti var idi. O, "Əsrin müqaviləsi" adını aldı. Müqavilənin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı oldu. Bu müqavilə Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mədəni, mənəvi-psixoloji həyatında ciddi rol oynamaqla bərabər ölkənin beynalxalq mövqelərini möhəmləndirirdi. Müqavilə Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında, xüsusən neft sənayesinin inkişafında yeni bir mərhələ açırdı. Ölkəyə xarici sərmayə axını güclənirdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft siyasəti ölkənin ümumi inkişaf strategiyasının tərkib hissəsinə çevrildi. O daha çox iqtisadi səciyyə daşısa da, iqtisadi və siyasi amillər daim vəhdət təşkil edərək biri-birilərini üzvi surətdə tamamladı, dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində, sosial-iqtisadi, hərbi-siyasi təhlükəsizliyinin təmin edilməsində, Azərbaycan xalqının mənəvi-psixoloji ruhunun yüksəlməsində mühüm rol oynadı. Müqavilənin imzalanmasında Azərbaycanın məqsədi nefti təkcə hasil, nəql etmək və satmaq deyildi. Onun daha geniş məqsədləri var idi.

**^ Xəzər şelfındə yataqların birgə işlənilməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması mərasimində Azərbyacan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. 20 sentyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.254-261.**

**Əliyev H.Ə. Müqavilənin imzalanması mərasimində yekun nitqi. - Müstəqilliyimiz əbədidir. II kitab, s.261-262.**

Danışıqların uğurla başa çatmasında xüsusi xidmətləri olan İlham Əliyev bununla bağlı olaraq deyirdi: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir"'".

İmzalanan müqavilənin əhəmiyyətindən bəhs edən akademik Ramiz Mehdiyev yazırdı: "..."Əsrin müqaviləsi" adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, ... milyardlarla dollar xarici sərmayənin respublikaya axması üçün geniş imkanlar yaratmışdır"'^^. ARDNŞ-in prezidenti Natiq Əliyev isə yazırdı: "Bu strategiyanın reallaşdırılması Azərbaycana Qafqaz və Xəzər regionunun geopolitikasmda əsas rollardan birini oynamağa, respublikamızı təbii karbohidrogen ehtiyatlarının mənimsənilməsi və neft-qazın dünya bazarlarına ixrac olunması üzrə beynəlxalq mərkəzlərdən birinə çevriməyə imkan verdi"'".

Müqavilənin imzalanması ilə Xəzər dənizi dünyada mühüm geosiyasi mərkəzlərdən birinə çevrildi. Böyük ölkələrin neft şirkətləri Xəzər dənizinə maraq göstərərək işləməyə başladılar'®'. Xəzər regionunda siyasət və iqtisadiyyat çulğalaşdı. Xəzər dənizi dünya geosiyasətinin güzgüsünə çevrildi.

Qeyd etmək lazımdır ki, müqavilə iştirakçısı olan şirkətlər həmin vaxtadək dünyanın müxtəlif yerlərində işləmişdilər və işləyirdilər. Lakin onlar ilk dəfə olaraq Azərbaycanda konsorsium yaradaraq birlikdə işləməyə başlayırdılar. Bununla da Azərbaycan Respublikası ərazisinin kiçik, əhalisinin sayca az olmasına baxmayaraq, dövlətləri, transmilli neft şirkətlərini ayıran deyil, onları birləşdirən, əməkdaşlığa cəlb edən gücə, mərkəzə çevrildi. Bu, beynəlxalq münasibətlər tarixində nadir bir hadisə idi.

Bununla belə, müqavilənin imzalanması Qərb ölkələrini Xəzər dənizinə buraxmaq istəməyən dövlətlərin müqavimətinə rast gəldi. LUKoyla 10% pay verilməsinə baxmayaraq, Rusiya Xəzər dənizinin

**Əsrin müqaviləsi. - www.azerbaijan/az/economy/strategy**

**Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası, s. 175.**

**Əliyev N. Neft strategiyamızın xarakteri və mühüm məqamları. - "Azərbaycan" qəzeti, Bakı,** 2000, 24 **oktyabr.**

**FeonojiHTOKa KacnHÜCKoro peraona. C5opHHK cxareH. M., HMƏMOPAH,** 2005, C.4.

hüquqi rejiminin pozulmasını əsas gətirərək neft kontraktını tanımayaca- ğını bəyan etdi. Xarici işlər naziri A.Kozırev neft şirkətlərinə xəbərdarlıq edərək Xəzərin hüquqi statusu müəyyənləşməyənədək işə başlamağın mümkün olmadığını bildirdi. O, Xəzər dənizində hər hansı bir iş görülərkən Rusiyanın maraqlarının nəzərə alınmasının vacibliyini, Rusiyanın təcrid edilməsinin acı nəticələrə gətirəcəyini vurğuladı'^'. Bundan sonra Azərbaycana edilən təzyiqlər daha da artdı. Lakin bu məsələdə Rusiyada fikir birliyi mövcud deyildi. Xarici işlər nazirindən fərqli olaraq, Rusiyanın sənaye dairələri müqavilənin əleyhinə çıxmırdılar. Rusiyanın enerji naziri Yuri Şafrannik müqaviləni dəstəkləyir. Baş Nazir Viktor Çemo- mırdin isə bütün məsələlərin yoluna qoyula biləcəyini söyləyirdi.

"Əsrin müqaviləsi"ndən narazı qalan təkcə Rusiyadakı müəyyən dairələr deyildi. Müqavilədə iştirak etməyən İran da təzyiqlərini artırırdı. Qeyd etmək lazımdır ki. Xəzər neftində Azərbaycanın İran ilə əməkdaşlığı hələ 60-cı illərin ikinci yarısından başlamışdı. Azərbaycan geoloqları 1966-1968-ci illərdə İran şelfmdə 44 struktur müəyyənləşdirmişdilər. 1986-cı ildə Azərbaycan neftçiləri müqavilə əsasında Xəzər dənizinin İrana aid sektorunda quyular qazmağa başlamışdılar. Lakin bu quyulardan alınan neftin sənaye üçün əhəmiyyətinin böyük olmadığı aydınlaşmışdı.

Neft müqaviləsinin imzalanmasından sonra Azərbaycanda qarışıqlıq yaratmaq, dövlət çevrilişi cəhdləri və Prezident Heydər Əliyevə qarşı sui-qəsd planları işə salındı. 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təcridxa- nasmdan bir neçə dustaq qaçırıldı. Düşmən qüvvələr bununla da kifayətlənmədilər. Azərbaycan başqa faciələrlə də üzləşdi. Heydər Əliyev ölkədə olmadığı bir zamanda, Nyu Yorkda BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak edərkən Azərbaycanda terror aktları törədildi. Sentyabrın 29-da Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini Afıyəddin

Cəlilov və xüsusi idarənin rəisi Şəmsi Rəhimov qətlə yetirildilər.

Bütün bu hərəkətlər Azərbaycanın müstəqil siyasət yürütməsinin qarşısını almağa və neft müqaviləsinin həyata keçirilməsini dayandırmağa

**Aleskerov V. Achieving Azerbaijan's Strategis Vision: Negotiating the "Contract of the Century". — Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.222.**

**Afıyəddin Cəlilov (1946-1994) - dövlət xadimi. Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini (1993-1994).**

**Şəmsi Rəhimov (1924-1994) - polkovnik. Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarənin rəisi (1994).**

yönəlmişdi. Azərbaycan Prezidenti xəbəri eşidən kimi Nyu Yorkda bəyanat verərək terroru törədənləri ittiham etdi. Belə hərəkətlərlə Azərbaycam yolundan döndərməyin mümkünsüzlüyünü bildirdi. O, tezliklə Azərbaycana qayıtdı.

Bu zaman Azərbaycan yeni bir təhlükə ilə üz-üzə qaldı. Ölkədə dövlət çevrilişi cəhdi baş verdi. Xüsusi təyinatlı polis dəstəsi oktyabrın 2- də axşamdan qanunsuz hərəkətlərə başladı, respublika prokurorluğunun binasına hücum etdi. Az sonra, oktyabrın 3-5-də Baş Nazir Surət Hüseynovun rəhbərliyi ilə Bakıda və ölkənin bir sıra digər bölgələrində dövlət çevrilişi cəhdi edildi. Bütün bunlar Azərbaycanın müstəqilliyinə qarşı törədilmiş qəsd idi. Ölkədə ağır vəziyyət yaranmışdı.

Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Bakı və Gəncə şəhərlərində fövqəladə vəziyyət elan olundu. Heydər Əliyev televiziya və radio ilə çıxış edərək yaranmış vəziyyəti izah etdi və xalqı birliyə çağıraraq dedi: “Bu gün biz hamımız birləşib Azərbaycanın müstəqilliyini qoruyub saxlamalıyıq və qoymamalıyıq ki, bəzi qüvvələr Azərbaycan Respublikasını dağıtsınlar”^^".

Heydər Əliyev yaranmış ağır vəziyyətdə milli televiziya və radio ilə etdiyi müraciətində Azərbaycan xalqını dövləti müdafiə etməyə çağırdı^^^ Əhali Heydər Əliyevin çağırışına səs verərək Prezident sarayının qarşısına toplaşdı. Dövlət çevirilişi cəhdi baş tutmadı. Azərbaycan rəhbəri böyük bir izdihamlı mitinqdə çıxış etdi^“. O, digər bir toplantıda daxili və xarici qüvvələrin birləşməsi nəticəsində Azərbaycan dövlətçiliyinin dağıdılması üçün edilən cəhdlərin Azərbaycan üçün nə qədər təhlükəli olduğunu bir daha vurğuladı, xalqı birliyə, həmrəyliyə səslədi^^". Xalq qanuni hakimiyyəti müdafiə etdi. Qiyamçıların bir qismi xaricə qaçdı, bir qismi isə həbs edildi.

Azərbaycan xalqı dövlət müstəqilliyinə və yeni neft strategiyasına qarşı yönələn cəhdlərin qarşısını aldı. Surət Hüseynov işdən çıxarıldı. Baş

**Əliyev H.Ə. Respublika milli televiziyası və radiosu ilə çıxış. 3 oktyabr 1994- cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.345.**

**Əliyev H.Ə. Respublika milli televiziyası və radiosu ilə xalqa müraciət. 4 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.355-360.**

**Əliyev H.Ə. Prezident sarayı qarşısında Bakı zəhmətkeşlərinin mitinqində çıxış. 4 oktyabr 1994-cü il. — Müstəqilliyimiz əbədidir. II kitab, s. 361-364.**

**Əliyev H.Ə. 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələrinin toplantısında giriş sözü. 5-6 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.73.**

Nazir vəzifəsini Fuad Quliyev^*"* icra etməyə başladı. Çevriliş cəhdinin qarşısının alınmasında Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi müstəsna rol oynadı.

Baş verən hadisəyə dünya mətbuatı da geniş diqqət yetirdi. Məsələn, İranın "Tehran Tayms" qəzeti yazırdı ki, Azərbaycanda baş verən hadisələr, xüsusən Surət Hüseynovun istefası Rusiyanın ənənəvi təsirinin zəifləməsinə və milli cəbhənin mövqelərinin möhkəmlənməsinə kömək edəcək, güman ki, o, Azərbaycanda baş verən separatçı hərəkata diqqət yetirəcək və bu diqqət separatçı hərəkatın müdafiə edilməsini özündə birləşdirə bilər. Qəzet daha sonra yazırdı ki. Prezident Heydər Əliyev Rusiya tərəfindən ciddi aksiyalara hazırlaşmalıdır^®^.

Baş verən hadisələrlə bağlı olaraq Türkiyə Xarici İşlər Nazirliyi bəyanat verdi^™. Bəyanatda Türkiyə hökumətinin baş vermiş ardıcıl terror hadisələrini və qanuni hökumətə qarşı yönəldilən çevriliş təşəbbüsünü yaxından və böyük bir narahatlıqla izlədiyi qeyd edilir, sürətlə və tam olaraq həmin hadisələrin qarşısının alınmasından məmnunluq ifadə olunurdu. Türkiyə erməni işğalının davam etdiyi belə bir böhranlı dövrdə Azərbaycan xalqının vahid olaraq birləşməsinə, tam birlik və bərabərlik ruhu içərisində ölkə qarşısındakı daxili və xarici problemlərin öhdəsindən gələcəyinə, demokratik sistemi möhkəmləndirəcəyinə və iqtisadi yüksəlişə nail olacağına ürəkdən inandığını bəyan etdi. Türkiyə hökuməti Azərbaycan xalqını və onun demokratik yol ilə seçilmiş qanuni rəhbərliyini indiyə qədər olduğu kimi bundan sonra da dəstəkləyəcəyini bildirdi.

Dövlət çevrilişi cəhdi xarici ölkələrdə əsasən aşağıdakı kimi qiymətləndirilirdi: Azərbaycanın Qərbə yaxınlaşma siyasəti apardığını və imzalanmış neft müqaviləsindən sonra Bakının onun maraq dairəsindən çıxdığını görən Moskva Prezident Heydər Əliyevə qarşı olan çıxışların əsas ruhlandırıcısı və himayədarıdır; neft müqaviləsi imzalandıqdan sonra baş verən bu hadisələr Heydər Əliyev üçün gözlənilməz deyildi, çünki Azərbaycan rəhbərliyi ölkədə sabitlik yarandıqdan sonra hakimiyyət uğ- runda mübarizədə sosial bazasını itirməkdən qorxan qüvvələrin hərəkətə gələcəyini gözləyirdi; xalq birmənalı olaraq Heydər Əliyevi dəstəkləyirdi; son hadisələr onu göstərdi ki. Cənubi Qafqazın gələcəyi üçün Qərb, Rusiya və regionun başlıca dövlətlərinin tərtib edəcəkləri hər hansı siyasi

**Fuad Quliyev (1941)- Azərbaycan Respublikasının Baş Naziri (1995-1996).**
**ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq N921, v.81.**
970 **ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq fföZ 1, v. 122.**

kombinasiyada Heydər Əliyevin şəxsiyyəti amili get-gedə aparıcı rol oynayacaqdır’”.

Baş verən bu hadisələr Xəzər nefti ilə bağlı məsələnin nə qədər çətin və mürəkkəb olduğunu, kəskin müqavimətə rast gəldiyini göstərirdi. Lakin Azərbaycan dövləti xarici təzyiqlərə tab gətirərək və daxildəki qanunsuz hərəkətləri dayandıraraq yeni neft strategiyasını davam etdirdi. Eyni zamanda Azərbaycan höküməti bu sahədə əməkdaşlıq edən ölkələrin də mövqelərini bildirməsini istədi. Azərbaycan hökuməti 1994-cü il oktyabrın 13-də Böyük Britaniyanın dövlət katibi Duqlas Herdə”“ bir məktub ünvanladı. Məktubda neftə dair imzalanmış müqaviləyə İngiltərənin münasibətinin bir daha açıqlanması istənilirdi. Bu məktuba Böyük Britaniya Xarici İşlər Nazirliyinin Zaqafqaziya və Orta Asiya Departa- mentinin rəisi Linda DafFıld dövlət katibi adından cavab verdi. Məktubda yazılırdı: “Bir daha qeyd edirik ki, birgə neft çıxarılmasına dair 20 sentyabr tarixli müqavilənin imzalanmasından məmnunuq. Bu müqaviləyə Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında münasibətlərin inkişafının əsas istiqaməti kimi baxırıq”. Britaniya hököməti Azərbaycan hakimiyyətinin Bakıda yaxınlarda baş vermiş çətinlikdən az itki ilə çıxmasından sevinc hissi ifadə edirdi. Böyük Britaniya Rusiyanın Londona göndərdiyi təzyiq dolu məktublarını Azərbaycan, Qazaxıstan və Türkmənistan hökumətlərinə də təqdim etdi. Böyük Britaniya hökumətinin mövqeyinə görə. Xəzər dənizinin hüquqi statusuna dair məsələ Xəzəryanı beş dövlətin arasında müzakirələrlə həll edilə bilərdi”^. Bu yanaşma Azərbaycanın beynəlxalq mövqelərini gücləndirirdi.

Azərbaycan Respublikası Milli Məclisi 1994-cü il noyabrın 15-də neft kontraktını, Azərbaycan Respublikası hökumətinin təminatı və öhdəlikləri haqqında sənədləri təsdiq etdi”"*. Bütün təzyiqlərə baxmayaraq.

**ARXİNA. 14.10.1994-31.12.1994. Qovluq fto21, v. 194-196.**

**Duqlas Herd (1930) - Böyük Britaniyanın xarici məsələlər üzrə dövlət katibi (1989-1995).**

**ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq JV911, v.38.**

**Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Delta Nimir Xəzər Limited, Den Norske Stats Olyeselskap a.s., LUKoyl səhmdar cəmiyyəti, MakDermott Azərbaycan İnk, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerji Limited, Türkiyə Petrolları a. o., Yunokal Xəzər Ltd arasında**

1994-cü il noyabrın 19-da Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti quruldu. Onun tərkibinə Azərbaycan, Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanını təmsil edən iri neft şirkətləri daxil oldular. Dekabrın 2-də isə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Delta Nimir Xəzər Limited, Den Norske Stats Olyeselskap a. s., LUKoyl səhmdar cəmiyyəti, MakDermott Azərbaycan İnk, Pennzoyl Kaspian Kor- poreyşn, Remko Xəzər Enerji Limited, Türkiyə Petrolları a. o., Yunokal Xəzər Ltd arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının qanunu imza- landı"^ Saziş qəbul və təsdiq edildi, həyata keçirilməsinə icazə verildi.

Qərb tərəfdaşları ilə prinsipial problemlərini həll edən Azərbaycan İran ilə münasibətlərində böyük bir addım atdı. Azərbaycanın payının 5%- nin İrana verilməsi barədə razılıq əldə edildi. Lakin İranın ABƏŞ-də iştirakına Qərb şirkətləri, xüsusən ABŞ siyasi motivlər səbəbindən imkan vermədilər. Bu, Azərbaycan - İran münasibətlərində mürəkkəbliklər yaratdı. Ermənistan ilə əməkdaşlığını genişləndirən İran hər ay Azərbaycandan aldığı neft məhsullarının həcmini 120 min tondan 30 min tona endir- **di"^**

Azərbaycan müqaviləni imzalayan neft şirkətləri, o cümlədən LUKoyl ilə əməkdaşlıq etməyə başlasa da, Rusiya Xəzər dənizində bir dövlətin, yəni Azərbaycan Respublikasının təktərəfli təşəbbüslərinin digər

**sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 15 noyabr 1994-cü il. Xa 924. - ARXİNA. 1994.**

**Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amoko Kaspian Si Petroleum Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Delta Nimir Xəzər Limited, Den Norske Stats Olyeselskap a.s., LUKoyl səhmdar cəmiyyəti, MakDermott Azərbaycan İnk, Pennzoyl Kaspian Korporeyşn, Remko Xəzər Enerci Limited, Türkiyə Petrolları a. o., Yunokal Xəzər Ltd arasında sazişin qəbul və təsdiq edilməsi, onun həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının qanunu. 2 dekabr 1994-cü il. Xs 933. — ARXİNA. 1994.**

ChcÄopoB K). KacnHHCKas necjiTfa H MexcayHapoflHas öesonacnocTb. BbinycK 1, c.32.

Xəzəryanı dövlətlərin maraqlarına toxunduğunu bəyan etdi. Bununla əlaqədar olaraq Türkiyənin "Hürriyet" qəzetində "Rusiya Bakını boğmaq üçün qərar qəbul etdi" adlı bir məqalə dərc edilmişdi. Məqalədə yazılırdı ki, Rusiyanın xarici işlər naziri Andrey Kozırev Azərbaycanın bağladığı neft müqaviləsini Rusiyanın mənafelərinə zidd hesab etdiyi üçün Baş Nazir Viktor Çernomirdinə Azərbaycana qarşı lazımi tədbirlər görmək üçün məktub göndərmişdir. Həmin məktubda Azərbaycan, Qazaxıstan və Türkmənistanın Xəzər dənizinin mövcud statusunu dəyişdirmək səyləri Rusiya tərəfindən pislənilirdi. Qəzet Andrey Kozırevə istinadən "Azərbaycan hökumətinin imzaladığı neft müqaviləsi Rusiyanın milli mənafeyinə ziddir. İran da bizim kimi Xəzər dənizinə aid hər hansı bir qərarın bu dəniz hövzəsindəki beş ölkənin iştirakı ilə həll olunmasını arzu edir" yazırdı. Azərbaycan hökumətinə qarşı iqtisadi embarqo tətbiq edilməsini istəyən Andrey Kozırev məktubunda əlaqədar nazirliklərə "Azərbaycana qarşı iqtisadi sahədə tədbirlər görülməlidir. Bunları etmək lazımdır, əks təqdirdə Rusiya zərər çəkən vəziyyətə düşər" xəbərdarIğmı etdi^^'. Bununla kifayətlənməyən Rusiya Xarici İşlər Nazirliyi noyabr ayının sonlarında yenidən Azərbaycana etiraz notası verərək əvvəlki mövqeyini təkrar etdi.

Rusiya regionda digər təzyiq vasitələrinə də əl atdı. 1994-cü il dekabrın 14-də Çeçenistana ordu hissələri yeridərək hərbi əməliyyatlara başladı^'^. Bu hücumun bir sıra məqsədləri var idi. Rusiya hökuməti hər şeydən əvvəl, ölkənin bütövlüyünü qorumaq, Şimali Qafqazda silahlı dəstələri tərksilah etmək və sabitlik yaratmağa çalışırdı. Amma Rusiya hərbçiləri təkcə ölkənin ərazi bütövlüyünü bərpa etmək üçün deyil, eyni zamanda Moskvanın Azərbaycanda təsirinin bərpası naminə döyüşürdülər. Bu hərəkətlər neft müqaviləsinin həyata keçirilməsinin qarşısını almaq niyyətini. Xəzər dənizinin mənsubiyyətinə dair postsovet imperiya iddialarını əks etdirirdi. Məsələyə belə yanaşma qeyri-konstruktiv olub, əsasən Rusiya daxilində baş verən mürəkkəb sosial-iqtisadi və siyasi proseslərin nəticəsi kimi təzahür edirdi. Rusiya neft boru kəmərinin keçməsi üçün öz ərazisinin ən təhlükəsiz marşrut olduğuna inandırmaq üçün Çeçenistanda sabitlik yaratmaq istəsə də, niyyətini reallaşdıra bilmədi. Müharibə uzandı. Ölkə daxilində ictimai-siyasi və iqtisadi vəziyyət ağırlaşdı. Əhali müharibə əleyhinə etirazlara başladı. Neftin şimaldan keçməsinin təhlükəli olduğu bir daha aydınlaşdı.

**ARXINA. 06.09.1994 - 07.11.1996. Qovluq JViö 1, v. 107.**
**'ARXİNA. 21.05.1994 - 04.11.1996. Qovluq Xsl 1, v.63-70.**

Çeçenistanda aparılan hərbi əməliyyatların gedişində Azərbaycana gələn dəmiryolu və avtomobil yolu bağlandı. Azərbaycan gəmilərinin Həştərxana və Mahaçkalaya hərəkəti, Volqa çayına çıxışı da qadağan edildi. Beləliklə, Azərbaycan şimaldan blokadaya alındı. Tədbirlər Azərbaycana qarşı təzyiq idi, neft müqaviləsinin həyata keçirilməsinə mane olmaq üçün edilmişdi. Bu, Xəzər nefti ətrafında gedən böyük geosiyasi oyunun tərkib hissəsi idi.

Ümumiyyətlə, Rusiya neft və qaz siyasəti sahəsində əsasən aşağıdakı maraqları güdürdü; Xəzəryanı dövlətlərə xarici bazarda rəqibi kimi baxır və digər ölkələrin Xəzər dənizinə gəlməsinə imkan vermək istəmir, onu nəzarətində saxlamağa çalışırdı; Azərbaycanın imzaladığı "Əsrin müqaviləsi"nin reallaşdırılmasına mane olurdu; neft və qaz kəmərlərinin Rusiya ərazisindən keçməsinə çalışırdı.

Rusiyada bəzi dairələr belə hesab edirdilər ki. Çeçenistanda danışıqlar üçün bütün imkanlardan istifadə edilməmişdir. Belə vəziyyət Rusiyanın Qafqazda mühüm nəqliyyat dəhlizində problemlərin yaranması idi. Bir çox zabitlər digər millətlərə qarşı qəddar müharibənin aparılmasının əleyhinə idilər. Təyyarələr Çeçenistanda müdafiəsiz kənd və şəhərləri bombardman edirdi. Moskvadakı Fransa, AFR və ABŞ səfirliklərinin hərbi attaşeləri bu hərəkətləri soyuq müharibə dövründən sonra ordunun yenidən qurulmasına cəhd kimi qiymətləndirirdilər. Hadisələr ordunun siya- siləşdiyinin göstəricisi idi. Çeçenistanda yaranmış vəziyyət Rusiyada siyasi böhranın təzahürü olub, Budapeştdə NATO-nun genişlənməsinin əleyhinə çıxan Boris Yeltsinin ölkə daxilində şəraitə nəzarət edə bilmədiyini göstərirdi. Çeçenistanda müharibə aparmaqla siyasi dairələr Rusiyanın parçalanmasına yol verməyəcəklərinə işarə edirdilər. Digər ölkələri regiona buraxmaq istəməyən, bunun üçün bütün vasitələrdən istifadə edən Rusiya Azərbaycan ilə sərhəd rayonlarında 70 min hərbçi cəmləmişdi. Bu hərəkətlər xarici ölkələrdə etirazlar doğururdu.

Boris Yeltsin Rusiyası Azərbaycana təzyiq kimi Ermənistana 1 milyard dollar məbləğində qanunsuz silah verdi, Azərbaycanın Dağlıq Qarabağ regionunda separatçıları dəstəklədi. Eyni zamanda ATƏT-in Minsk qrupu vasitəsi ilə Azərbaycana qarşı təzyiqlərini artırdı. "Əsrin müqavilə"sinin həyata keçiriləməsinə və hələ ideya şəklində olan Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin reallaşdırılmasına mane olmaq üçün Türkiyə ərazisində PKK terror təşkilatı da fəallaşdı.

Belə vəziyyət Azərbaycanı heç cür qane edə bilməzdi. Buna görə də Azərbaycan tərəfi geniş diplomatik fəaliyyətə başladı. Azərbaycan Res

publikası Xarici İşlər Nazirliyi kommunikasiyaların bağlanmasına dair yanlış qərarı şərh etmək barədə xarici ölkələrdəki səfirlik və nümayəndəliklərə müvafiq təlimat göndərdi. Aparılan iş nəticəsini verdi. Səudiyyə Ərəbistanı bütün ölkələrə müraciət edərək Çeçenistanda qan axıdılmasmı dayandırmağa çağırdı. Bu məsələ eyni zamanda İKT dövlət və hökumət başçılarının Mərakeşdə keçirilən VII zirvə görüşündə də qaldırıldı. Çeçenistan hadisələri müsəlman ölkələrində antirusiya əhval-ruhiyyəsini gücləndirdi.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra baş verən bütün bu proseslər dünya ölkələrinin mətbuatının da diqqət mərkəzində idi. Türkiyənin "Cümhuriyyət" qəzetinin yazdığına görə, Rusiya energetika nazirinin birinci müavini Anatoli Şatalov Türkmənistan qazının İran və Türkiyə ərazisindən Avropaya nəql edilməsini nəzərdə tutan boru xətti məsələsinə dair Ankarada keçirilmiş zirvə toplantısı zamanı verdiyi müsahibəsində demişdi: "Azərbaycan neft boru xətti layihəsi... mən olmadan həyata keçirilə bilməz". O, Azərbaycan neft boru kəməri məsələsini həmişə Türkiyə ilə Rusiyanın müzakirə etməyə hazır olduğunu bildirmişdi®'^.

Türkiyənin "Yeni Günaydm" qəzeti isə 1995-ci il 4 fevral tarixli sayında yazırdı ki, Qafqazda müharibə küləkləri daha əsməyəcək, Qazaxıstan və Azərbaycan neftinin Türkiyə üzərindən xarici ölkələrə ixrac edilməsi nəticəsində bölgəyə sülh gələcəkdir. Neft boru kəmərinin Türkiyə üzərindən keçməsində israr edən ABŞ ilə Rusiya arasında təşkil ediləcək görüşdə Ermənistan - Azərbaycan müharibəsinin sona çatması, türk respublikalarına və Çeçenistana qarşı təcavüzün dayandırılması üçün Xəzər- Ceyhan neft boru xətti əsas olaraq götürüləcəkdir®*®. Mübahisənin həlli hər nə qədər çətin görünürdüsə də, ABŞ və Rusiya onu həll etməyə qadir idilər. Ancaq bu məsələdə Türkiyəni dəstəkləyən ABŞ daha artıq təsirə malik idi. Çünki Rusiyanın daşıma formulu həm bahalı idi, həm də Türkiyə onu qəbul etmirdi. Türkiyə Azərbaycan və Qazaxıstan neftinin No- vorossiysk limanında gəmilərə yüklənib özünün ərazi sulanndan keçərək dünya bazarlarına çıxarılmasına icazə vermirdi. Çünki neft daşıyan iri tankerlərin Qara dəniz boğazlarından keçməsi riskli olub, qəza baş verəcəyi təqdirdə İstanbul şəhərinin sakinləri üçün böyük faciələrə gətirə bilərdi. Bu, həm də ekoloji cəhətdən təhlükəli idi.

Belə bir şəraitdə Azərbaycanın daxilində müəyyən qruplaşmalar yenidən baş qaldırdılar. 1995-ci il martın 12-13-də Qazax və Ağstafada,

**' ARXİNA. 26.051994- 15.06.1994. Qovluq X2O, v.57-58.**
**'ARXINA. 06.09.1994-07.11.1996. Qovluq Xo21, v.56-59.**

martın 16-17-də Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvü silahlı çıxışa, qiyama başladı. Yerlərdə hakimiyyət orqanlarına qarşı qanunsuz fəaliyyətlər törədildi. Qiyam bir sıra amillərin, o cümlədən neft müqavilələrinin həyata keçirilməsinə mane olmaq və ya ondan çox pay almaq niyyəti güdən xarici qüvvələrin təsiri ilə qaldırılmışdı. Lakin çevriliş cəhdi Azərbaycam seçdiyi yoldan döndərə bilmədi. Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində çevriliş cəhdinin qarşısı alındı^*'. Qiyamçıların bəziləri atışma zamanı öldü, bir qismi isə həbs edildi. Çevrilişin boşa çıxması xalq ilə dövlətin tam həmrəyliyi nəticəsində mümkün oldu’^^. Xalq qanuni hakimiyyəti müdafiə etdi.

Beləliklə, Azərbaycanda dövlət çevrilişi cəhdlərinə və qanunsuz yollarla hakimiyyətə gəlmək istəklərini həyata keçirmək üçün törədilən hərəkətlərə birdəfəlik son qoyuldu. Bu, müstəqil dövlət quruculuğu və xalqın hakimiyyətə inamının artmasında müstəsna rol oynadı.

Dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasının ciddi beynəlxalq əhəmiyyəti oldu. Azərbaycan hakimiyyətinin xarici və daxili qüvvələrin təzyiqlərinə tab gətirməsi, qətiyyətli addımları sayəsində ölkədə sabitliyin bərqərar edilməsi xarici neft şirkətləri ilə əməkdaşlığa və sərmayə qoyuluşuna əminlik və etimad qazandırdı, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə təsir edən güclü amillərdən oldu. Bundan sonra xarici neft şirkətləri ilə əməkdaşlıq daha da genişləndi. Belə ki, ABŞ-m energetika naziri X.O'Lirinin Azərbaycana səfəri zamanı 1995-ci il aprelin 19-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin konsorsi- umdakı 15%-lik payının 5%-nin ABŞ-ın “Ekson” şirkətinə verilməsinə dair sənədlər imzalandı®*'*.

Rusiya isə Xəzər dənizinin Azərbaycan sektorunda aparılacaq işlərə dair imzalanan sənədlərə etirazını davam etdirirdi. “Əsrin müqaviləsi”ni tanımayan Rusiya Xarici İşlər Nazirliyi həmin il aprelin 25-də Böyük Britaniya hökumətinə nota göndərdi. Notada Xəzərin sahilyanı ölkələrin

**Qətiyyətin təntənəsi (Sənədli xronika). Bakı, 1995, s. 780-809.**

**Əliyev H.Ə. 1994-cü il oktyabr, 1995-ci il mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələrinin toplantısında giriş sözü. 5-6 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.85.**

**X.O'Liri (1937) - ABŞ-ın energetika naziri (1993-1997).**

**Əliyev H.Ə. Azərbaycanın beynəlxalq neft konsorsiumdakı payının bir hissəsini ABŞ-ın Ekson neft şirkətinə verməsi haqqında sənədlərin imzalanması mərasimində giriş sözü. 19 aprel 1995-ci il. - Müstəqilliyimiz əbədidir, 111 kitab, s.385- 386.**

Ümumi mülkiyyəti olduğu və bununla əlaqədar olaraq Xəzər dənizində həyata keçiriləcək bütün işlərin sahilyanı ölkələrin birgə qərarı ilə ola biləcəyi vurğulanırdı. Amma bu təzyiqlərin heç bir nəticəsi olmadı. Azərbaycan başladığı işi davam etdirdi. Alman faşizmi üzərində qələbənin 50 illiyinə həsr edilmiş mərasimlərdə iştirak edən Heydər Əliyev 1995-ci ilin may ayında Moskvada Bili Klinton, Londonda isə vitse-prezident Albert Qor ilə görüşərək Azərbaycan nefti ilə bağlı ən vacib məsələləri müzakirə etdi. Bili Klinton Azərbaycanın tam müstəqil siyasət yürütməsindən razılığını bildirdi və çoxşaxəli neft kəməri ideyasını müdafiə etdi. Çünki ABŞ hökuməti Xəzər nefti üstündə Rusiya ilə münasibətlərin kəskinləşməsində maraqlı deyildi. Çoxşaxəli neft kəməri sağlam rəqabəti və təhlükəsizliyi təmin edərdi.

Bu görüşlərdən az sonra, 1995-ci il mayın 23-də Bakıda II Beynəlxalq “Xəzərneftqaz - 95” sərgi konfransında 13 ölkəni təmsil edən 165- dən artıq şirkət, elmi idarə və digər müəssisələrin iştirak etməsi Azərbaycana olan marağı və əməkdaşlıq istəyini göstərdi. Sərginin açılışında nitq söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev neft müqaviləsinin uğurla həyata keçirildiyini xüsusi olaraq qeyd etdi^*^.

Azərbaycan səylərini daha da gücləndirərək bir sıra yeni addımlar atdı. 1995-ci il oktyabrın 2-də Heydər Əliyev ilə Bili Klinton arasında olan telefon danışığında Azərbaycan neftinin dünya bazarlarına çıxarılması məsələsində çoxvariantlılıq yenidən müdafiə edildi’**. Bundan iki gün sonra, oktyabrın 4-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının xarici neft şirkətləri ilə birlikdə kəşfiyyatının və işlənməsinin prinsipləri barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifləri qəbul edildi. Danışıqların aparılmasında, müqavilənin hazırlanmasında və bağlanılmasında ARDNŞ-ə səlahiyyət verildi’*^.

Sərəncam verildiyi gün İranın “Əbrar” qəzeti “Əliyev Klintondan razılıq almışdır” adlı bir məqalə dərc etmişdi. Burada yazılırdı ki, ABŞ

^ **Əliyev H.Ə. İkinci beynəlxalq “Xəzərneftqaz-95” sərgi konfransının açılışında çıxış. 23 may 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s. 448-454.**

OeaopoB **K). KacnHHCKaa He({)Tb н Me^aynapcaHaa öesonacHOCxb. BbinycK l,c.121.**

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının kəşfiyyatı və işlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 4 oktyabr 1995-ci il. JN2222. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15 oktyabr 1995-ci il. Bakı, Jfs 19 (944), s.12-13.**

Prezidenti Bili Klinton Prezident Heydər Əliyev ilə telefon danışığında Azərbaycan neftinin Gürcüstan və Türkiyə vasitəsilə ixracı məqsədilə iki neft boru kəmərinin tikintisinə dair razılığını bildirmişdir^**.

## Azərbaycan enerji sahəsində əməkdaşlığı genişləndirir. Nefti hansı ölkə ərazisindən nəql etməli?

Bu zaman Xəzər dənizinin Azərbaycan sektorunda hasil ediləcək neftin dünya bazarına çıxarılması yolları üstündə qızğın müzakirələr gedirdi. Məşhur C.Rokfeller bir zamanlar deyirdi: "Neftin nəqlinə kim nəzarət edirsə, o da neftin hasilatını və emalını əlində saxlayır"^*'. Tarixin təcrübəsi göstərir ki, neft boru kəmərləri ən azı iki şərtə cavab verməlidir: nəqlin uzunmüddətli olması üçün təminatlı məhsul olmalıdır; nefti bazara sabit çıxarmaq üçün imkanlar mövcud olmalıdır. Bu məsələnin bir sıra texniki-iqtisadi və siyasi tərəfləri var idi. Hər şeydən əvvəl. Xəzəryanı dövlətlər müstəqilliklərini bərpa edərkən Rusiyadan nəqliyyat-kommunikasiya asılılığında idilər. Bu vəziyyət neftin nəqli məsələsinə ciddi təsir edirdi. Məlum olduğu kimi, Azərbaycanın coğrafi baxımdan dünya okeanına birbaşa çıxışı yoxdur. Ona görə də neft tankerlərə yüklənmək üçün bir və ya iki xarici ölkənin sərhədini keçməli idi. Azərbaycan Ermənistanın təcavüzkar siyasətinə və işğallarına kömək edən, Azərbaycanda güclü dövlətin qurulmasına təhlükə olaraq baxan, onu qısqanan ölkələrlə, o cümlədən ərazilərini işğal edən, 1 milyon nəfər azərbaycanlını qaçqın və məcburi köçkünə çevirən Ermənistan və nəhayət, Gürcüstan ilə qonşu idi. Deməli, neft kəməri ya Rusiya, ya İran, ya Ermənistan, ya Gürcüstan, ya da Türkiyə ərazisindən keçə bilərdi. Bütün bunlar neftin ixracı məsələsinin təkcə iqtisadi deyil, eyni zamanda geosiyasi xarakter daşıdığını göstərirdi. Əsas ixrac neft boru kəmərinin Rusiya, yoxsa şərq-qərb dəhlizi ilə keçməsi üzərində mübahisələr getdikcə kəskinləşirdi.

Qafqaz regionunda iki münaqişənin mövcudluğu neftin nəqlinə ciddi təsir edirdi. Bu münaqişələr Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi və Çeçenistanda aparılan müharibə idi. Ermənistanın təcavüzünün davam etməsi neftin bu ölkə ərazisindən nəqlini mümkünsüz edirdi. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda

[988] **ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq Xb21, v. 215.**
**ByTaeB A. KacoHÜ: saneM OH Sanaay, c.297.** 

siyasi sabitsizliyə gətirmişdi. 1992 və 1993-cü illərdə Azərbaycanda böhranın baş verməsinin və hakimiyyət dəyişikliyinin bir səbəbi də cəbhədəki uğursuzluqlarla bağlı olmuşdu. Münaqişənin həll edilməməsi Rusiyanın mövqeyini regionda gücləndirir və geosiyasi mübarizəyə təsir edirdi.

Çeçenistanda aparılan müharibə də Azərbaycan neftinin nəqli ilə birbaşa bağlı idi. Bakı - Novorossiysk neft boru kəmərinin 80 km.-i Çeçenistan ərazisindən keçirdi. Bu ərazidə sabitlik bərqərar olmadan şirkətlər nefti nəql etməkdən boyun qaçırır, risk altına girmək istəmirdilər.

Neftin Gürcüstan ərazisindən keçməsi də problemlərsiz deyildi. Burada Gürcü-abxaz, Cənubi Osetiya münaqişəsi mövcud idi.

Türkiyə ərazisində boru kəmərinin keçdiyi ərazilərdə müəyyən çətinliklər mövcud idi. Həmin ərazilərdə xarici ölkələrdən alınan yardımlarla terror törədilirdi.

Rusiya neftin ərazisindən keçərək nəql olunmasında israr edir, başqa bir variantı qəbul etməyərək ciddi cəhdlə müqavimət göstərirdi. Lakin Rusiyanın neft boru kəmərləri sistemi Azərbaycan neftini dünya bazarlarına nəql etmək üçün köhnə, ötürücülük qabiliyyəti isə aşağı idi. Digər tərəfdən neftin nəql olunacağı Rusiya ərazisində iqlim şərtləri sərt idi. Novorossiysk və Tuapse terminalları il ərzində 87-112 gün işləmirdi.

Rusiyanın Şimali Qafqaz regionu təhlükəsizlik baxımından etibarlı deyildi. Həmin ərazidə müharibə aparılır, terror aktları törədilirdi. Bütün bu amillər neftin fasiləsiz nəqlini şübhə altına alırdı.

Neftin Rusiya ərazisindən keçməsi də hələ hər şeyin tam həll olunması demək deyildi. Rusiya ərazisindən keçən Azərbaycan nefti Novo- rossiyski limanında tankerlərə yüklənərək Qara dənizdəki Bosfor və Dardanel boğazlarından daşınmalı idi. Bu boğazlar üzərində Türkiyənin dünya birliyi tərəfindən qəbul edilən suveren hüquqları var idi. Türkiyə hökuməti boğazların neft daşınması üçün yola çevrilməsinin əleyhinə çıxırdı. 1936-cı ildə imzalanmış Monrtö konvensiyasını əsas gətirən Türkiyə hökuməti boğazlardan keçən gəmilərin sayının çoxaldığı və İstanbul üçün təhlükə törətdiyi qənaətində idi. Əgər 1938-ci ildə boğazlardan 4500 gəmi keçmişdisə, 90-cı illərdə ildə 51 minə yaxın gəmi keçirdi. Boğazlardan bir ildə yalnız 70-80 mln. ton neft daşıma bilərdi. Boğazlardan ən uzun 150 metrlik tankerlər keçməli olduğu halda, 250-300 metr uzunluğunda tankerlərin keçməsi qəza risklərini artırır, şəhər əhalisinin həyatını təhlükəyə atırdı. Buna görə də Türkiyə hökuməti hələ 1993-cü il noyabrın 23-də "Boğazlarda və Mərmərə bölgəsində dəniz keçidi qaydası haqqında reqlament" qəbul etmişdi. Bu reqlamentə görə, uzunluğu 200

metrdən çox olan gəmilər gündüz və müşayiətlə boğazlardan keçə bilərdi. Əgər bir ölkənin gəmisi boğaza girib keçişini tamamlamazdısa, onda onun digər gəmisinə keçiş üçün icazə verilmirdi. Bu qayda 1994-cü il iyulun 1- də qüvvəyə minmişdi'^". Bütün bunlarla yanaşı, Türkiyə neftin nəqli məsələsində Rusiyam tamamilə kənarlaşdırmağa çalışmırdı. Çünki iki ölkə arasında mehriban qonşuluq münasibətləri, ticarət-iqtisadi əlaqələr inkişaf edirdi. Türkiyəni təkcə iqtisadi deyil, təhlükəsizlik və ekologiya məsələləri də düşündürürdü.

Rusiya hökuməti tədbirlərə etiraz edərək Türkiyənin Xəzər neftinin daşınmasında Rusiyanın qarşısını kəsmək istədiyini bildirirdi. Bunu Montrö konvensiyasına zidd adlandırırdı.

Türkiyə isə bütün bunlarla yanaşı, neft boru kəmərinin keçəcəyi Rusiya ərazilərində təhlükəsizliyin etibarlı olmadığını, Novorossiysk limanında iqlim şərtlərinin də sərt olduğunu dəlil kimi gətirirdi. Bakı - Ceyhan xəttinin keçəcəyi ərazilərin iqlim şərtləri və əlverişli coğrafi mövqeyi Türkiyənin mövqelərini gücləndirən əsas amillərdən idi.

Heç şübhəsiz, belə mövqeni tutarkən Türkiyə bir sıra amilləri nəzərə alırdı. Neft boru kəmərini öz ərazisindən keçirməklə Türkiyə iqtisadi baxımdan böyük gəlir əldə edər, siyasi baxımdan isə Cənubi Qafqaz və Avropa - Yaxın Şərq münasibətləri sistemində strateji əhəmiyyətini daha da artırar, təhlükə və ekoloji riskləri aşağı salardı.

Xəzər dənizinin Azərbaycan sektorundakı neftin İran ərazisindən keçərək Fars körfəzinə, oradan da Avropaya və dünya bazarlarına çıxarılmasına dair müəyyən mülahizələr mövcud idi. İran neft boru kəmərinin ərazisindən keçərək ya qərbə - Türkiyəyə, ya da Fars körfəzinə çıxarılmasında maraqlı idi. Neft kəməri üçün Bakı-Təbriz-Naxçıvan-Ceyhan marşrutu təklif edilirdi. Bu kəmərin uzunluğu 1 min kilometr, layihə dəyəri 1, 2,0-2,5 milyard dollar, tikinti müddəti 2 il idi. İqtisadi baxımdan sərfəli olsa da, ABŞ və Qərb ölkələri İran ərazisindən keçməsi təklif edilən neft boru kəmərinə qəti etiraz edirdilər. İrana qarşı ABŞ-m tətbiq etdiyi sanksiyalara görə, iri Amerikan şirkətləri İran hökuməti ilə birgə iş görə bilməzdilər. Ona görə də neftin İran ərazisindən keçərək dünya bazarlarına çıxarılması yolu qəbul edilmirdi.

Əslində neft boru kəmərinin Ermənistandan keçərək Naxçıvana, oradan da Aralıq dənizinə çıxarılması ən ucuz və səmərəli ola bilərdi. Bununla Naxçıvanın Ermənistan tərəfindən blokadasına son qoyular.

**° Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Cilt II. 1980-2001,5.588.**

muxtar respublikanın enerji təchizatı problemi həll edilərdi. ABŞ bu variantı təklif və müdafiə edirdi^^'. Həmin təklifin reallaşması daha çox Ermənistandan asılı idi. Ermənistanda Levon Ter-Petrosyan hakimiyyəti neft boru kəmərinin ölkə ərazisindən keçməsi müqabilində mümkün kompromisləri müzakirə etdi. Lakin o, hakimiyyətdə qala bilmədi. ABŞ tədqiqatçısı Zeyno Baranm^^^ yazdığı kimi, əgər Yerevan Qarabağ məsələsinin həllinə razılıq versəydi^'^, Azərbaycana qarşı işğalçılıq planlarına son qoysaydı, Azərbaycan və Türkiyə Ermənistan marşrutunu dəstəkləyəcəkdi. Lakin Ermənistan işğalçılıq siyasətindən əl çəkmədiyi, Azərbaycan ərazilərinin işğalını davam etdirdiyi, Naxçıvana gedən bütün kommunikasiya xəttlərini dağıdaraq muxtar respublikanı blokadada saxladığı üçün Azərbaycan əsas ixrac neft boru kəmərinin Ermənistan ərazisindən keçirilməsinə etiraz etdi.

Belə bir şəraitdə neft boru kəmərinin keçməsi ilə bağlı olaraq başqa mülahizələr də söylənilirdi. Məsələn, Bolqarıstan və Yunanıstan hökumətləri Qara dəniz sahilindəki Burqasdan Egey dənizi sahilindəki Alek- sandropolis limanına qədər neft boru kəmərinin tikintisini, Ukrayna hökuməti Bakı - Supsa kəmərindən alınacaq neftin Odessadan Qərbi Avropaya daşınacaq boru kəməri layihəsini irəli sürürdülər. Rumıniya isə Supsadan Konstansa limanına qədər neftin tankelərlə daşınması layihəsini qəbul etdirməyə çalışırdı.

Rusiyanın mövqeyi vəziyyəti ağırlaşdırırdı. Çoxlu mübahisələrin olduğunu görən Azərbaycan Prezidenti Heydər Əliyev böyük siyasi və diplomatik məharətlə neft boru kəməri məsələsinin həllini iki mərhələyə böldü: ilkin neftin nəqli; əsas ixrac neftinin nəqli. Belə yanaşma Azərbaycana manevr etməyə imkan verir və beynəlxalq mövqelərini möhkəmləndirirdi. Buna görə də 1995-ci il oktyabrın 9-da Bakıda konsorsiumun rəhbər əməliyyat komitəsinin iclasında ilkin neftin ixracı üçün boru kəmərinin iki marşrutu seçildi. Marşrtutlardan biri Bakı - Qroznı - Tixoretsk — Novorossiysk, digəri isə Bakı - Supsa idi. Bakı-Supsa kəməri də Gürcüs-

**John J.Mareska. A Peace Pipeline to end the Nagomo Karabakh Conflict. - "Caspian Crossroads", Washington, 1995, Jfel, p.17-18.**

**Zeyno Baran (1972) - Strateji və Beynəlxalq Təlimlər Mərkəzinin Qafqaz layihəsinin direktoru (1999-2002).**

**Zeyno Baran. Azərbaycan - gələcəyi dərk edərək . - ■'Azerbaijan Focus", Bakı, 2009, J^oi (i), s. 126.**

tan ərazisi ilə yenə Qara dənizə çıxırdı. Marşrutların hər ikisi Azərbaycan üçün əhəmiyyətli idi®^'*.

Bu qərar bir sıra amillərin və şəraitin nəticəsində qəbul edilmişdi. Hər şeydən əvvəl, o, texniki məsələlərin operativ həllinə imkan verirdi. Neftin Rusiya boru kəməri ilə nəqli üçün 10 və 17 km. uzunluğunda olan iki yeni magistral tikilməli idi. Bu, çox xərc aparmasa da, tikintisi uzun sürə bilərdi. Bakı - Supsa neft boru kəmərini işlək vəziyyətə gətirmək üçün də vəsait və vaxt lazım gəlirdi.

Hər iki marşrutdan istifadə edilməsinin siyasi baxımdan da əhəmiyyəti var idi. Bu, həm Rusiyanın, həm də Azəraycan və Türkiyənin maraqlarına uyğun gəlirdi. Azərbaycan neftinin nəqli bir ölkə ərazisindən keçmirdi. Deməli, mümkün ola biləcək asılılıq və təzyiqlər aradan qaldırılırdı.

Bu marşrutların həyata keçirilməsi üçün sənədlərin hazırlanması işinə başlayan Azərbaycan xarici neft şirkətləri ilə əməkdaşlığını daha da genişləndirdi. 1995-ci il noyabrın 10-da hələ 1965-ci ildə açılmış "Qarabağ" neft strukturunda ARDNŞ ilə bir qrup xarici neft şirkəti - Rusiyanın LUKoyl, İtaliyanın Acip, ABŞ-m Pennzoyl Kaspian Development Kor- poreyşn, Rusiya və İtaliyanın ortaq şirkəti olan Lukacip arasında birgə iş haqqında saziş imzalandı. Bu, Xəzərin Azərbaycan sektorunda neftin hasilatına dair ikinci müqavilə idi. 427 kv.m. ərazini əhatə edən müqavilə 25 il müddətinə imzalanmışdı. Yataqdan 100-120 milyon ton neftin hasil edilməsi proqnozlaşdırılırdı. İlk neft 2003-cü ildə hasil edilməli idi. Müqavilənin imzalanma mərasimində çıxış edən Heydər Əliyev deyirdi: "Dünyanın bu böyük ölkələrinin tanınmış neft şirkətlərinin burada, Azərbaycanda müştərək iş görmək üçün bir araya gəlməsi, bir müqavilə ətrafında toplanması iqtisadi əhəmiyyətindən əlavə, çox böyük siyasi əhəmiyyət də daşıyır. Bu onu göstərir ki, Rusiya, Amerika Birləşmiş Ştatları, İtaliya və Azərbaycan doğrudan da iqtisadi sahədə səmərəli əməkdaşlıq edə bilərlər və bu gün bu sahədə böyük bir addım atırlar"''^. Müqavilə Azərbaycan tərəfindən 1996-cı il fevralın 14-də təsdiq edildi.

**Əliyev H.Ə. "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransına həsr olunmuş mətbuat konfransı. 29 noyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, S.34.**

**Əliyev H.Ə. "Qarabağ" neft strukturunda ARDNŞ ilə bir qrup xarici neft şirkəti - LUKoyl (Rusiya), Acip (İtaliya), Pennzoyl Kaspian Development Kor- poreyşn (ABŞ), Lukacip (Rusiya-İtaliya) arasında birgə iş haqqında sazişin imzalanma mərasimində çıxış.10 noyabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir, IV kitab, s.499-503.**

Beləliklə, 1995-ci ilin sonları üçün Azərbaycanın neft yataqlarının mənimsənilməsinə dair kifayət qədər inkişaf etmiş beynəlxalq əməkdaşlıq sistemi yarandı. Lakin regionda siyasi sabitsizlik hələ də davam etdiyindən, neft boru kəmərləri məsələsi həll olunmadığından müqavilələrin həyata keçirilməsi yubadıla bilərdi. Buna görə də Azərbaycan tərəfi neftin nəqli ilə bağlı məsələləri həll etməyə başladı. İlk olaraq şimal marşrutuna dair problemlər yoluna qoyuldu. 1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən Novorossiysk limanına nəql edilməsi haqqında müqavilə imzalandı. Bu, əslində Xəzər dənizinin hüquqi statusu məsələsində Rusiyanın Azərbaycanın milli sektorlara görə bölünməsinə dair mövqeyini qəbul etmək anlamına da gəlirdi. Kəmərin uzunluğu 1411 km. (bəzi mənbələrə görə 1348 km.) idi. Onun 174 km.-i Azərbaycan, qalanı isə Rusiya ərazisindən keçirdi. Boru kəməri ilə ildə 5-7 mln. ton neft nəql etmək olardı. Nəqliyyat tarifi 1000 km. üçün hər 1 tona görə 15,67 dollar təşkil edirdi®^^. Bu marşrutun normal işləməsi riskli idi. Neft kəməri şəraitin qeyri-sabit olduğu Dağıstan və Çeçenistan ərazisindən keçdiyindən etibarsız hesab edilirdi. Rusiya həmin ərazilərdə hərbi əməliyyatlar aparırdı. Şimali Qafqaz regionunda terror aktları dayanmırdı. Müqavilə imzaladıqdan az sonra Çeçenistan etiraz edərək Azərbaycan neftinin tranzitində müstəqil subyekt olmaq istəyini bəyan etdi. Yeni bir problem yarandı. Bu da həll edilməli idi.

Bundan sonra Supsa limanına neft kəmərinin çəkilişi məsələsi daha da aktuallaşdı. Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstana səfəri zamanı 1996-cı il martın 8-də ABƏŞ, Gürcüstan Beynəlxalq Neft Korporasiyası və ARDNŞ Bakı - Batum neft boru kəmərinin tikintisi və istismarı, Batumdan Supsa limanına neft kəmərinin tikintisinə dair saziş imzaladılar. Qeyd etmək lazımdır ki, buna qədər artıq Bakı - Batum kəməri fəaliyyət göstərirdi. Hələ 1896-cı ildə Azərbaycan neftini Qara dəniz sahillərinə nəql edən bu boru kəməri layihəsinin həyata keçirilməsinə başlanmışdı. Uzunluğu 867 km. olan və tikintisi 1906-cı ildə başa çatdırılmış bu kəmər 1907-ci ildə istismara verilmişdi^®’. Bakı - Supsa boru kəməri daha çox Baki - Ceyhan əsas ixrac neft boru kəməri üçün hazırlıq mənası da daşıyırdı. Gürcüstan və Azərbaycan Bakı - Supsa neft kəmərini layihələşdirməyə və çəkilişi üçün hazırlıq işlərinə başladılar. Kəmərin ümumi uzunluğu təqribən 926 km, idi. Bu, Qərb marşrutu idi. Kəmərin

EyraeB **A. KacnHÜ:** saneM OH **3anany?, c.309.**

**Arıxov C.C. Azərbaycan — Gürcüstan iqtisadi əməkdaşlığında neft amili, s. 6-7.**

illik neft ötürmə imkanı 5 mln. ton idi. ABƏŞ-m rəhbər komitəsi kəmərin tikintisinə 1997-ci fevralın 28-də 315 mln. dollar vəsait ayırdı. Dünya Bankı da kəmərin tikintisi üçün Gürcüstana 1,4 mln. dollar kredit verdi.

Bakı - Supsa boru kəməri yüksək keyfiyyətli Azərbaycan neftinin dünya bazarlarına təhlükəsiz və başqa keyfiyyətli neftlə qarışdırılmadan çıxarılmasına imkan verirdi. Bir müddət sonra, 1996-cı ilin payızında ABƏŞ Norveçin Kvaemer şirkəti ilə Bakı - Batum neft boru kəmərinin bərpası üçün müqavilə imzaladı. Bərpa işlərinin gedişində boru kəmərləri demək olar ki, dəyişdirildi, Batum yaxınlığındakı Supsa dəniz terminalına 150 km. uzunluğunda boru kəməri tikildi.

Bütün bu işlərlə yanaşı Bakı - Ceyhan neft boru kəmərinin tikintisi üçün lazım olan texniki-layihə işlərinə başlanıldı. Ceyhan terminalının illik gücü 120 mln. ton idi. Əvvəllər bu terminaldan İraq nefti Avropa ölkələrinə ixrac edilirdi. İraqa qarşı sanksiyalar tətbiq edildikdən sonra terminal demək olar ki, işləmirdi. Bu kəmərin tikintisi sonralar bütün region geosiyasətinin dəyişməsinə ciddi təsir edən bir amil oldu®®*. Boru kəməri Azərbaycanın iqtisadi və siyasi təhlükəsizlik maraqlarına cavab verir, neftin nəqlində bir dövlətin hegemonluğuna son qoyurdu. Amma qeyd etmək lazımdır ki, Bakı - Ceyhan əsas ixrac boru kəməri kommersiya baxımından əhəmiyyət kəsb etməsəydi, onun arxasında duran istənilən siyasi məqsədlərə baxmayaraq, neft şirkətləri və beynəlxalq maliyyəçilər belə bir layihənin üzərində dayanmaz, ona vəsait ayırmazdılar.

Həyata keçirilən bütün bu tədbirlər Azərbaycanın mövqelərini möhkəmləndirir, xarici neft şirkətlərinin ölkəyə olan marağını daha da artırırdı. Bu maraq özünü 1996-cı il iyunun 4-də Bakıda açılan Xəzəmeft- qaz-96 beynəlxalq sərgisində göstərdi. 20 ölkənin 190 neft və qaz şirkətinin nümayəndələrinin iştirak etdiyi sərgidə nitq söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev Xəzər nefti sahəsində imzalanmış 1994-cü il 20 sentyabr tarixli "Əsrin müqaviləsi"ndən, 1995-ci ilin noyabr ayında Xəzərin Azərbaycan sektorunda "Qarabağ" adlı neft və qaz yatağının işlənil- məsinə dair imzalanmış ikinci müqavilədən danışdı®®®. Neft sahəsində müxtəlif neft şirkətləri ilə qurulan əməkdaşlığı yüksək qiymətləndirdi.

*** Bakü - Ceyhan projesi ve jeostratejisi. - "Jeo ekonomi" dergisi, Ankara, 1999, İlkbahar, Nsl (1), s. 90-96.**

**Əliyev H.Ə. Bakıda "Xəzəmeftqaz -96" üçüncü beynəlxalq sərgisinin açılış mərasimində çıxış. 4 iyun 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 408-411.**

Sərgi açılan gün, iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft yatağına dair dünyanın 5 şirkəti ilə üçüncü müqavilə imzalandı. Müqaviləni Azərbaycan Respublikası, Böyük Britaniya və Şimali İrlandiya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa və İran imzaladılar. "Şahdəniz" yatağında 500 milyard kub metr qaz və 190 mln. ton neft ehtiyatının olduğu proqnozlaşdırılırdı. Müqavilədə nəzərdə tutulan ərazi 88 kv. km., müddəti isə 30 il idi. Paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: BP/Statoyl alyansı - 51%, ARDNŞ-10%, LUKoyl-10%, Elf Akiten-10%, TPAO-9%, İranın özəl olan OİEC-10%. Beləliklə, Azərbaycan tərəfi İranı da əməkdaşlığa cəlb etdi. İran şirkətinin müqaviləyə daxil edilməsi Azərbaycanın mehriban qonşuluq niyyətini və müstəqil siyasət yürütdüyünü göstərirdi. Azərbaycan Xəzər dənizində ixtilafların olmasında maraqlı deyildi.

Müqavilənin imzalanması üçün belə bir günün seçilməsi səbəbsiz deyildi. Məlum olduğu kimi, 1993-cü il iyunun 4-də Azərbaycanın dövlət müstəqilliyi təhlükə altına düşmüşdü. Lakin Azərbaycan həmin sınaqdan qalib çıxmışdı. Üçüncü müqavilənin imzalanması ilə Azərbaycan dövləti müqavimətlərə tab gətirdiyinə və müstəqilliyinin güclü olduğuna işarə edirdi. Mərasimdə çıxış edən Heydər Əliyev müqavilənin imzalanmasını Azərbaycan Respublikasının dünya ölkələri və şirkətləri ilə müstəqil əlaqələrini nümayiş etdirən əlamətdar hadisə kimi qiymətləndirdi"'®".

Çıxış edən Böyük Britaniyanın energetika və sənaye naziri Timoti Eqqar'""', Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini Vladimir Kostyunin, BP şirkətinin vitse-prezidenti Bayqon Qrod""'^, Türkiyə Petrolları şirkətinin prezidenti Sitqi Səncər, Fransanın Elf Akiten şirkətinin prezidenti Filip Jafre, İranın OİEK neft şirkətinin prezidenti Seyid Əli Əkbər Haşemi, LUKoyl şirkətinin vitse-prezidenti Ravil Maqa- nov çıxış edərək imzalanan müqavilənin əhəmiyyətini vurğuladdan

Müqavilənin imzalanması Azərbaycan dövlətinin dünya iqtisadiyyatına inteqrasiyasına yönəldilmiş siyasətini, ölkə iqtisadiyyatının açıq olduğunu və xarici sərmayədarlar üçün əlverişli imkan yaradıldığını göstə

**'°°° Əliyev H.Ə. "Şahdəniz" yatağının birgə işlənilməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində çıxış. 4 iyun 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 412.**

**Timoti Eqqar (1951) - Böyük Britaniyanın ticarət və sənaye naziri. İcmalar Palatasının üzvü (1979-1997).**

**Bayqon Qrod (1948) - BP şirkətinin vitse-prezidenti.**

rirdi. Bununla belə, müqavilənin imzalanmasının əleyhinə olan şəxslər nəinki xaricdə, həmçinin Azərbaycanın daxilində də var idi. Bütün müqavimətlərə baxmayaraq, müqavilə az sonra, 1996-cı il oktyabrın 4-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildi.

Bir müddət sonra, 1996-cı il avqustun 24-də suyun dərinliyində qazma işlərinin həyata keçirilməsini və neft çıxarılmasını təmin edən "Dədə Qorqud" qazma qurğusu fəaliyyətə başladı. Elə həmin gün Bakıda Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ofisinin açılış mərasimi oldu. Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə çıxış edərək xarici neft şirkətləri ilə əməkdaşlığın əhəmiyyətini qeyd etdi.

1996- cı il dekabrın 16-da ARDNŞ ilə ABŞ-m Amoko, Yunokal, Yaponiyanın İtoçu və Səudiyyə Ərəbistanının Delta şirkətləri arasında "Dan ulduzu" və "Əşrəfi" neft yataqlarının işlənilməsinə dair dördüncü müqavilə imzalandı. Onların ümumi sahəsi 453 kv.m. təşkil edirdi. Müqavilənin müddəti 25 il idi. Yataqlardan 150 milyon ton neftin hasil edilməsi proqnozlaşdırılırdı. Layihənin həyata keçirilməsinə təqribən 2 milyrad dollar sərmayə qoyulması nəzərdə tutulmuşdu. Müqavilədə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: Amoko - 30%, Yunokal - 25,5%, İtoçu - 20%, ARDNŞ - 20%, Delta - 4,5%. Müqavilənin reallaş- dırlması üçün yaradılmış konsorsium Şimali Abşeron adlandırıldı.

Heydər Əliyev bu müqaviləni əvvəlki üç müqavilədən daha əlverişli hesab edirdi'®®. Müqavilə böyük əhəmiyyət daşıyır, neft yataqlarının birgə işlənilməsi, ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi və xalqın rifah halının yaxşılaşdırılması üçün bir ciddi addım idi'®®'*. Heydər Əliyevin fikrincə, müqavilənin imzalanması Xəzər dənizinin statusu ilə əsla bağlı deyildi, status məsələsini hələ çox müzakirə etmək lazım idi. O, Xəzər dənizinin statusu haqqında hər hansı bir qərarın qəbul edilməsini son dərəcə çətin, hətta əslində qeyri-mümkün hesab edirdi

**Əliyev H.Ə. ARDNŞ ilə xarici neft şirkətləri arasında müqavilənin imzalanma mərasimi başa çatdıqdan sonra birgə mətbuat konfransı. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.I77.**

**Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorunda "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında müqavilə imzalanması mərasimində nitq. 14 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.167.**

**Əliyev H.Ə. Azərbaycanın və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün bəyanat. 6 dekabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.140.**

Azərbaycan Xəzər dənizində qarşıdurmaya yol verməmək üçün əməkdaşlıq yoluna davam edir, yeni neft şirkətlərini bu prosesə cəlb edirdi. 1997-ci il yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Fransa Prezidenti Jak Şirakm iştirakı ilə ARDNŞ-lə Fransanın Elf Akiten və Total şirkətləri arasında "Lənkəran dəniz" və "Talış dəniz" neft yataqlarının birgə işlənilməsinə dair 25 illik müqavilə imza- landı'°". Bu, beşinci böyük müqavilə idi. Müqavilədə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: Elf Akiten - 40%, Total - 10%, ARDNŞ - 25%, Deminikes (Almaniya) - 10%, OİEK (İran) - 10%, Portofma (Belçika) - 5%. Bununla da 11 ölkənin beynəlxalq aləmdə tanınmış 16 neft şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neftin hasil olunması işində əməkdaşlığa cəlb edildi.

Müqavilənin həyata keçirilməsinin böyük sosial-iqtisadi əhəmiyyəti var idi. Bu, ölkənin inkişafına ciddi təsir edir, yeni iş yerlərinin açılmasında mühüm rol oynayırdı. Belə ki, 1997-ci ildə "Əsrin müqaviləsi"nin həyata keçirilməsində 3 min nəfər azərbaycanlı çahşırdı'°°'.

Heç şübhəsiz, Azərbaycanın yeni neft siyasəti asan getmirdi. Bu yolda çoxlu çətinlikləri aradan qaldırmaq lazım gəlirdi. Mətbuatda Türkmənistanın "Azəri" və "Çıraq" neft yataqlarına iddia etdiyi barədə xəbərlərin yayılması ilə yeni bir problem meydana çıxdı. Bu məlumatlar Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun və Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradovun'™* imzaladıqları birgə bəyanatda təkzib edildi. Bəyanatda tərəflərin Xəzər dənizində neft və qaz yataqlarının axtarılması və işlənilməsinə etiraz etmədikləri bildirilirdi. Eyni zamanda Azərbaycan və Türkmənistanın Xəzər dənizinin orta xəttində perspektivli strukturların müəyyənləşdirilməsi, axtarışı və istifadəsi şərtlərinin müəyyən edilməsi üzrə ikitərəfli danışıqlara başlayacaqları göstərilirdi'°°^

**Əliyev H.Ə. Azərbaycan Dövlət Neft Şirkəti ilə Fransanın Elf Akiten və Total şirkətləri arasında neft müqaviləsinin imzalanması mərasimində nitq. 13 yanvar 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s.243-244.**

**Əliyev H.Ə. "Əsrin müqaviləsi" üzrə layihənin rəhbər komitəsinin üzvləri və ABƏŞ ilə görüşdə giriş sözü. 28 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab, s. 470.**

**Boris Şıxmuradov (1949) - Türkmənistanın xarici işlər naziri (1995-2000).**

**ARXINA. 04.01.1997-30.12.1997. Qovluğun İNb-si: Daxil olan sənədlər, V.209.**

Bu zaman ilkin neftin nəqli məsələsi qızğın müzakirə edilirdi. Məsələni müzakirə etmək məqsədi ilə 1997-ci il martın 25-27-də Moskvada ARDNŞ, ABƏŞ və Rusiyanın Transneft şirkəti arasında növbəti üçtərəfli görüş keçirildi. Görüşdə 1997-ci il oktyabrın 1-dən etibarən ilin sonu- nadək 200 min ton Azərbaycan neftinin şimal neft boru kəməri ilə nəqlinə dair razılıq əldə edildi. 7 il ərzində bu marşrut ilə 32 milyon ton neft nəql edilməli idi.

Bütün bunlar Azərbaycanın mövqelərini möhkəmləndirir və ona olan marağı artırırdı. 1997-ci ilin iyunun əvvəllərində Bakıda keçirilən IV Beynəlxalq "Xəzərneftqaz - 97" sərgisi və konfransı iştirakçıların sayına və müzakirə edilən məsələlərin əhatə dairəsinin genişliyinə görə əvvəlkilərdən fərqlənirdi. Toplantıda 25 ölkəni təmsil edən 250 şirkət iştirak edir- di'®'°. Bu, işgüzar bir görüş olmaqla, Xəzər dənizi hövzəsində olan ölkələrin və burada fəaliyyət göstərən neft və qaz şirkətlərinin işini əlaqələndirmək, informasiya mübadiləsi üçün əhəmiyyətli bir vasitə idi.

Azərbaycan hökuməti neft siyasətinin fəaliyyət dairəsini daha da genişləndirdi. 1997-ci ilin iyulunda Heydər Əliyevin Rusiyaya səfəri zamanı iki ölkə prezidentlərinin iştirakı ilə ARDNŞ ilə LUKoyl və Rosneft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Kəpəz" yatağının işlənilməsinə dair müqavilə imzalandı. Qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanmasmadək LUKoyl artıq üç müqavilədə iştirak edirdi.

Türkmənistan ilə sərhəddə yerləşən "Kəpəz" yatağı məlum olduğu kimi, 1959-cu ildə Azərbaycan neftçi geoloqları tərəfindən kəşf edilmişdi. Yatağın əsas hissəsi Azərbaycan sektorunda, digər bir hissəsi isə Türkmənistan sektorunda yerləşirdi. Buna görə də bu yatağa sovet dövründə rusca "Promejutoçnı" (Aralıqdakı) adı verilmişdi. Türkmənistan isə həmin yatağı "Sərdar" adlandırırdı.

Səfər zamanı eyni zamanda Xəzər dənizinin Azərbaycan sektoruna mənsub "Yalama/D-222" perspektiv sturkturu ilə bağlı ARDNŞ və LUKoyl arasında müqavilə bağlandı. Lakin az sonra LUKoyl maraqlarını birgə Rusiya - ABŞ şirkəti olan LUKArkoya güzəştə getdi. Burada LUKArkonun 60%, ARDNŞ-in isə 40% payı var idi.

Çeçenistan ərazisindən neftin nəqli məsələsi də həll edildi. İyulun 11-də Azərbaycan - Rusiya - Çeçenistan üçtərəfli sazişi imzalandı.

**Əliyev H.Ə. "Xəzəmeftqaz-97" 4-cü Beynəlxalq sərgisinin və konfransının açılışı mərasimində nitq.** 3 **iyun 1997-ci il. - Müstəqilliyimiz əbədidir. X kitab,** s.39.

Çeçenistan 153 km.-lik çeçen sahəsindən neft boru kəmərinin təhlükəsiz keçirilməsinə razılıq verdi. Bu, Azərbaycanın neft strategiyasının həyata keçirilməsi baxımından müstəsna əhəmiyyət daşıyırdı.

Bundan sonra enerji sahəsində əməkdaşlıqda növbəti addım Heydər Əliyevin ABŞ-a səfəri zamanı atıldı. Səfərin gedişində, 1997-ci il avqustun 1-də "Energetika sahəsində dövlətlərarası dialoqun yaradılmasına dair saziş" və Şevron, Ekson və Mobil ilə ARDNŞ arasında enerji emalına dair müqavilə imzalandı. Şevron ilə imzalanan müqavilə "Abşeron" neft yatağının kəşfi, məhsulun emalı və bölüşdürülməsi barədə idi. Yatağın ümumi sahəsi 300 kv. m.-dən artıq idi. Müqavilədə Şevronun payı 30%, ARDNŞ-in payı 50% təşkil edirdi. Qalan 20% Fransanın Total şirkətinə verilmişdi.

Mobil şirkəti ilə "Oğuz" yatağının istismarına dair müqavilə imzalandı. Yatağın sahəsi 225 kv.m. idi. Burada paylar bərabər bölünmüşdü.

Ekson şirkəti ilə "Naxçıvan" yatağına dair müqavilə imzalandı. Yatağın sahəsi 180 kv.m. idi. Bu layihədə də paylar bərabər bölüşdürülmüşdü.

Səfər zamanı ABŞ Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasına dair mövqeyini bəyan etdi. Bu mövqe qəti və aydın idi. ABŞ çoxlu boru kəmərlərinin olması ideyasım müdafiə edirdi; kommersiya baxımından həyat qabiliyyətli olan üç marşrutun nəzərdən keçirilməsində fayda görürdü; Bakıdan başlayıb Gürcüstan ərazisi ilə Qara dəniz sahilinə və Qafqazdan keçərək Türkiyənin Ceyhan limanına gedən neft kəmərlərinin tikintisini müdafiə edirdi; Qazaxıstandan başlayıb Bakı - Ceyhan boru kəməri ilə birləşən yerədək uzanan Transxəzər neft boru kəmərini dəstəkləyirdi; Türkmənistanın və digər ölkələrin qazını Azərbaycan vasitəsi ilə nəql etmək üçün Transxəzər qaz boru kəmərinin tikintisini müdafiə edirdi""*'.

Bakı - Ceyhan neft boru kəməri Bosfor boğazı vasitəsi ilə daşımaların alternativi idi. Türkiyə boğazlardan keçən daşımaların əleyhinə olub, Bakı - Ceyhan əsas ixrac neft boru kəməri ideyasını müdafiə edir. Qara dəniz boğazlarının neft daşınan yola çevrilməsini istəmirdi.

Azərbaycan da birmənalı olaraq bir neçə neft boru kəmərinin tikintisinə tərəfdar idi. Bununla əlaqədar olaraq Heydər Əliyev deyirdi: "Enerji ehtiyatlarının dünya bazarına. Qərbə ixrac edilməsi üçün bir çox neft kəmərlərinin çəkilməsi, o cümlədən Orta Asiyadan, Mərkəzi Asiyadan

[1011] **Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s.77.**

Xəzər vasitəsilə Qərbə neft kəmərlərinin çəkilməsi qarşıda duran vəzifələrimizdəndir”'®'^.

Beləliklə, 1997-ci ilədək Azərbaycan tərəfi Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair dünyanın neft şirkətləri ilə 9 müqavilə imzaladı. Neftin ixracı yolları barədə ölkələrin mövqeləri qəti olaraq aydınlaşdı. Azərbaycanın mövqeyi Qərbin böyük dövlətlərinin əksəriyyəti tərəfindən müdafiə edilirdi.

Mövqeləri möhkəmlənən Azərbaycan yeni neft srtategiyasmı daha qətiyyətlə davam etdirirdi. Belə ki, 1997-ci ilin sentyabrında Heydər Əliyevin İtaliyaya səfəri zamanı 10-cu müqavilə Acip şirkəti ilə imzalandı.

Azərbaycan qonşu dövlətlərlə neft siyasəti sahəsində olan bəzi çətinlikləri aradan qaldırmaq üçün səylərini genişləndirdi. Bu məqsədlə ABŞ-ı məsələnin həllinə daha yaxından cəlb etdi. Heydər Əliyevin ABŞ-a səfəri zamanı bu məsələlər prinsipcə həll edildi. Gürcüstan Prezidenti

Eduard Şevardnadze, Türkiyənin Baş Naziri Məsud Yılmaz və Türkmənistan Prezidenti Saparmurad Niyazov"'"* 1997-ci ildə ayrı-ayrılıqda ABŞ-a dəvət edildilər. Səfərlər zamanı Avrasiya enerji dəhlizinə dair məsələlər geniş müzakirə edildi. ABŞ tərəfi bir daha müxtəlif, çoxşaxəli neft boru kəmərləri ideyasını müdafiə etdi. ABŞ hökuməti İran ərazisindən boru kəmərinin keçirilməsinə dair narahatlığı barədə Türkmənistanın rəsmi nümayəndələri ilə danışıqlar apardı. Müzakirənin gedişində Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarının tez mənimsənilməsinin Qafqaz və Orta Asiya dövlətlərinin müstəqilliyi və çiçəklənməsi üçün böyük həyati əhəmiyyət daşıdığı bildirildi’”'^.

Səfərlər və keçirilən müzakirələrin nəticələri Azərbaycanın mövqelərini gücləndirdiyindən böyük əhəmiyyət daşıyırdı. Bu, Azərbaycanın bölgədə rolunun artdığını, yerinin möhkəmləndiyini və dünya dövlətləri üçün əhəmiyyət kəsb etdiyini göstərirdi.

1997- ci ilin noyabr ayında Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində mühüm bir hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən “Çıraq” yatağından noyabrın 12-də ilkin neft çıxarıldı. Bu, Azərbaycan Respubli

**^ Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, s. 71.**

**Məsud Yılmaz (1947) — Türkiyənin xarici işlər naziri (1987-1990). Baş Nazir (1991, 1996, 1997-1999).**

**Saparmurad Niyazov (1940-2006) - Türkmənistan Prezidenti (1990-2006). rociienapTaMeHT o6 enepropecypcax TypKMeHHCTaua u Hpaua. - lOCHA, 1997, 9 ceHTaöpjı.**

kasında ikinci neft bumunun başlanmasından xəbər verir, enerji siyasətinin böyük perspektivləri olduğunu göstərirdi. Bu münasibətlə Azərbaycanda keçirilən toplantıda Gürcüstan Prezidenti Eduard Şevardnadze, Türkiyənin Baş Naziri Məsud Yılmaz, Rusiya Baş Nazirinin birinci müavini Boris Nemtsov'®'^, ABŞ-m energetika naziri Federiko Pena'°'', Böyük Britaniyanın xarici işlər naziri Derik Façet, Ukrayna Baş Nazirinin birinci müavini Anatoli Qolubçenko, Özbəkistan Baş Nazirinin müavini Kayum Xakulov, Norveçin energetika və sənaye nazirinin müavini Hokon Gil, Almaniya, Yaponiya və Qazaxıstanın, Avropa komissiyasının nümayəndələri və b. rəsmi şəxslər iştirak edirdilər'®'*.

Artıq qeyd edildiyi kimi, bu zaman Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə dair 10 müqavilə imzalanmışdı. Nəzərdə tutulmuş sərmayə təqribən 30 milyard dollar təşkil edirdi. “Çıraq” yatağından çıxarılan ilkin neft Novorossiysk limanına axıdıldı. Qeyd etmək lazımdır ki, bu kəmərin yararlı hala gətirilməsi üçün 1996- 1997-ci illərdə 55 milyon dollar vəsait xərclənmişdi.

Frederiko Pena neftin nəqli üçün yeni əsas boru kəmərinin - Bakı ilə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanını birləşdirəcək boru kəmərinin tikiləcəyini bildirdi'®'®. O, Bili Klintonun adından bölgə dövlətlərinin liderlərinə Transxəzər və Bakı - Ceyhan boru kəmərlərinə olan münasibətlərini 1998-ci ilin oktyabrına qədər dəqiqləşdirməyi təklif etdi. Çünki bu tarixdə Türkiyədə Cümhuriyyətin qurulmasının 75 illiyinə həsr edilmiş tədbirlər zamanı müvafiq sənədlərin imzalanması nəzərdə tutulurdu.

Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan neftin çıxarılmasına bəzi ölkələr etiraz edirdilər. Xəzər dənizinin Azərbaycan sektorundan ilkin neftin çıxarılmasına qarşı olan İranın BMT-dəki daimi nüma

**Boris Nemtsov (1959) - Rusiya hökuməti sədrinin müavini (1997-1998). Federiko Pena (1947) - ABŞ-ın nəqliyyat naziri (1994-1997), energetika naziri (1997-1998).**

**’®'* Əliyev H.Ə. Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə təntənəli mərasimdə nitq. 12 noyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. Xlll kitab, s. 181-198.**

**Berls R.E. Qafqazdan və Mərkəzi Asiyadan keçən Qərb - Şərq dəhlizi: ABŞ- ın regiondakı strategiyasının formalaşması. - “Dirçəliş-XXI əsr” jurnalı, Bakı, 1998, X28-9, S.46.**

yəndəsi təşkilatın baş katibi Kofı Annana'°^® məktub göndərərək Azərbaycanın enerji ehtiyatları üzərində haqq iddia etməsini və birtərəfli qaydada istismara başlamasını sahilyanı dövlətlər arasında əldə edilmiş razılaşmalara və Xəzərin statusuna zidd adlandırdı. İran hökuməti Azərbaycana qəti şəkildə etiraz etdi'"'. Azərbaycan isə bu əsassız etirazlara məhəl qoymayaraq qanuni işlərini davam etdirdi.

Bu zaman Bakı - Supsa neft boru kəmərinin işə düşməsi üçün hazırlıq işləri aparılırdı. Bakı - Ceyhan boru xəttinin tikintisi haqqında isə artıq qərar qəbul edilmişdi. Bakı - Ceyhan əsas ixrac neft boru kəməri layihəsi ABŞ və Türkiyə tərəfindən fəal müdafiə olunsa da, qatı əleyhdarları da fəaliyyət göstərir, həyata keçirilməsinə hər vəchlə mane olmağa çalışırdılar. Onlardan biri Rusiya Prezidenti Boris Yeltsin idi. Boris Yeltsin neft boru kəmərinin Rusiya ərazisindən keçirilməsinə bütün vasitələrlə çalışırdı. Nəticədə 1997-ci ilin sonları - 1998-ci ilin əvvəllərində regionda yenidən təhlükəli hadisələr cərəyan etməyə başladı. Artıq qeyd edildiyi kimi, Levon Ter-Petrosyan neft boru kəmərinin Ermənistan ərazisindən keçirilməsi ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında mümkün kompromisləri müzakirə edirdi. Lakin bu məsələ Ermənistan hakimiyyətində ixtilaflar yaratdı. Levon Ter-Petrosyan istefaya getməyə məcbur oldu. Mart ayında hakimiyyətə Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlıların soyqırımında və etnik təmizləmə siyasətində xüsusi rol oynamış Robert Koçaryan gəldi.

1998- ci il fevralın 9-da isə Gürcüstan Prezidenti Eduard Şevardnad-zeyə sui-qəsd edildi. O, yalnız təsadüf nəticəsində salamat qaldı. Eduard Şevardnadzeyə qarşı sui-qəsd cəhdi ilk dəfə hələ 1995-ci ildə olmuşdu. Bu, neft məsələsində oynanılan böyük oyunda qaba bir metod idi. Son- ralar Eduard Şevardnadze xatirələrində yazırdı ki, sui-qəsddən sonra Boris Yeltsin ona zəng edərək sağ qalması münasibəti ilə təbrik edir və birdən- birə Xəzər dənizi nefti məsələsini müzakirə etmək istədiyini bildirir. Gürcüstan Prezidentinə müraciətlə "siz Xəzər neftini və qazını Qərbə nəql etmək istəyirsiniz. Siz bilməlisiniz ki, neftin nəqli Gürcüstandan keçməyəcəkdir" deyir. Eduard Şevardnadze bunun səbəbini soruşduqda Boris Yeltsin "enerji daşıyıcıları Gürcüstandan deyil, Rusiyadan nəql ediləcəkdir" cavabını verir. Eduard Şevardnadze isə "Gürcüstanın nefti və qazı

**Kofı Annan (1938) -**
**BMT baş katibi**

yoxdur, kim Gürcüstan ərazisindən boru kəmərlərinin çəkilişini istəsə, biz etiraz etməyəcəyik" deyərək məsələyə münasibətini bildirir'^^.

Bu hadisədən sonra Eduard Şevardnadze Robert Koçaryan ilə münasibətlərini bir qədər soyuqlaşdırdı. Heydər Əliyev ilə daha da yaxınlaşaraq ölkəsinin problemlərin həllinə, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin ölkəsinin ərazisindən keçməsinə daha ciddi səylərlə çalışdı. Bütün bunlar enerji mənbələri və nəqli uğrunda dövlətlər arasında gərgin mübarizənin getdiyini göstərir, eyni zamanda Cənubi Qafqazda yeni müharibə təhlükəsinin artmasının, neft uğrunda mübarizənin getdikcə şid- dətlənməsinin təzahürü olub Bakı - Ceyhan neft boru kəmərinin reallaş- dırılmasma qarşı çevrilmişdi'®^^.

Neft boru kəmərinin Gürcüstan ərazisindən keçməsinə mane olmağa çalışan qüvvələr digər vasitələrə də əl atdılar. Belə ki, "Dünyanın dostları" adlı beynəlxalq qeyri-hökumət təşkilatları Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri əleyhinə geniş kampaniyaya başladılar'®^". Onların fəaliyyətinin başlıca məqsədi kəmərin tikintisi üçün beynəlxalq maliyyə təsisatları tərəfindən vəsaitin dondurulması və dünya ictimaiyyətinin vasitəsi ilə əsas ixrac neft boru kəmərinin tikintisinə mane olmaq idi.

Azərbaycana edilən təzyiqlər nəticəsini vermədi. Azərbaycan, Türkiyə və Gürcüstan 1998-ci il mayın 15-də Bakı - Tbilisi - Ceyhan boru kəmərinə dair niyyət protokolu imzaladılar. Bu, irəliyə doğru ciddi bir addım idi. Sənədin imzalanmasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müstəsna xidməti oldu. Heç əbəs deyildir ki, ABŞ-ın energetika naziri Federiko Pena az sonra, mayın 27-də İstanbulda keçirilən beynəlxalq toplantı zamanı keçirdiyi mətbuat konfransında "Azərbaycan Prezidenti Heydər Əliyev boru kəmərinə münasibətdə qəti mövqe tutaraq Bakı - Ceyhan xəttini. Transxəzər boru kəmərləri tikintisi layihəsini müdafiə edir"'®^^ dedi.

Bundan sonra layihənin maliyyələşdirilməsi məsələləri aktuallaşdı. May ayının 27-də İstanbulda 14 ölkənin 150-dən çox kompaniyasının təqribən 750 nümayəndəsinin iştirakı ilə Xəzər dənizi regionunun potensial imkanlarının müzakirəsinə həsr edilmiş beynəlxalq konfrans açıldı.

**liIeBapÄHaflse Ə. Koraa** pyxnyjı x<ejıe3HbiH sanaBec. **Bcrpenn** н **BocnoMHHa- HHH, C. 397-398.**

**Esas petrol savaşı. - "Dünya" gazetesi, İstanbul, 1998, 12 Şubat.**

**ARXINA. 21.10.2002 -07.11.2002. Qovluq X28, v.198-199.**

**BbicTynjıeHHe MHHHcrpa IleHbH na npecc-KOHcjıepeHLiHH** в **CraMÖyjıe 27 ınaa. - lOCHA, 1998, 3 moHa.**

Konfransın təşkilatçıları ABŞ Ticarət və İnkişaf Agentliyi, ticarət, energetika nazirlikləri və Dövlət Departamenti idi. Konfransın məqsədi müxtəlif layihələrin həyata keçirilməsində ABŞ ilə region ölkələri arasında qarşılıqlı faydalı əlaqələr qurmaq idi. ABŞ Ticarət və İnkişaf Agentliyinin direktoru Cozef Qrandmeyson konfransı açaraq bildirdi ki. Xəzər və Qara dənizləri rayonunda sabitlik, təhlükəsizlik və ətraf mühitin vəziyyəti regionun enerji ehtiyatlarından tam istifadədən asılı olacaqdır'®^®.

Türkiyənin energetika naziri Cumhur Ersümer isə çıxışında tarixi əlaqələri və coğrafi vəziyyətləri ilə bağlı olan dövlətlərin boru kəmərləri vasitəsilə birləşəcəklərinə ümid ifadə etdi.

Konfransın keçirildiyi üç gün ərzində sərmayədarlar və regionun inkişafı proqramının təşkilatçıları arasında minə qədər görüş oldu'°^^. Dəyəri 20 milyard dollardan çox olan 65 layihə təqdim edildi'®^*. Layihə müəllifləri ABŞ-dan olan 800 sərmayədar ilə görüşdülər. ABŞ-in energetika naziri Federiko Pena yeni Xəzər təşəbbüsünün başlanması barədə məlumat verdi. O, üç müstəqil ticarət və sərmayə təşkilatına - Xaricdə Xüsusi Sərmayələr Korporasiyası (OPİK), ABŞ-m İdxal-İxrac Bankı və Ticarət və İnkişaf üzrə Agentliyinə ABŞ hökuməti adından müraciət edərək Xəzər dənizi hövzəsində həyata keçirilən layihələrin həyata keçirilməsinə konkret kömək etməyə çağırdı, Bakı - Ceyhan boru kəməri layihəsini müdafiə etdi, İran ərazisindən boru kəmərinin keçməsinə hökumətinin etiraz etdiyini bildirdi. Xəzər dənizinin hüquqi statusunun tezliklə müəyyənləşdirilməsinin vacibliyini vurğuladı. ABŞ hökumətinin Bakı - Ceyhan boru kəməri layihəsini müdafiə etməsinin bir səbəbi də Qara dəniz boğazlarında yaranmış ağır vəziyyətlə əlaqədar idi. Hər il orada baş verən bir neçə hadisə ətraf mühit üçün təhlükə törədirdi.

Federiko Pena və ABŞ Prezidentinin yeni müstəqil dövlətlərə yardım məsələləri üzrə köməkçisi Riçard Mominqstar, ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasında Rusiya, Ukrayna və Avrasiya məsələləri şöbəsinin müdiri Uilyam Kortni və Ticarət Nazir

**fl)K03e4) MejuıOT. KonıjıepeHUHa "IlepeKpecTKH Mupa"** oxKpbiBaexcH в **CxaMÖyjıe. - KDCHA, 1998, 30** Maa.

**/j)K03e4) Mejuıox. KoH^ıepenuHa "MupoBbie nepeKpecxKH" 3aBepuiHJia** cвoк) **paöoxy. HaHHuaexca npexBopeuHe ee peıueHMU** в >KH3Hb. **- K9CHA, 1998, 3 HHDHa.**

**.ü,5K03e4) Mejuıox. Ox rpoMKHX 3aaBjıeHHH** к **ynopnoH paSoxe - xaxoB uacx- poH ynacxHHKOB KouıjıepeHUHH "MnpoBbie nepeKpecxKu". - K)CHA, 1998, 2 HiOHa.**

liyinin müşaviri Yan Kalitski keçirdikləri mətbuat konfransında bildirdilər ki, ABŞ tərəfi İran istisna olmaqla Xəzər dənizi regionundan iqtisadi və ticarət əhəmiyyətli boru kəmərlərinin tikintisinə kömək edəcəkdir. ABŞ alternativ boru kəmərlərinin tikintisini vacib hesab edirdi. Riçard Mor- ninqstarm fikrincə, alternativ boru kəmərləri region ölkələrinin suverenliyini və müstəqilliyini möhkəmləndirəcək, onların təbii sərvətlərinin dünya bazarlarına çıxarılmasına imkan verəcəkdi. Alternativ boru kəmərinin keçməsində ABŞ hökuməti Türkiyəyə xüsusi yer verirdi.

Konfransın keçirilməsinin böyük əhəmiyyəti oldu. Hər şeydən əvvəl, bu konfrans Xəzər dənizi regionuna sərmayə qoyuluşunu artırmaq üçün mühüm rol oynadı. Xəzər regionunun enerji ehtiyatlarının nəqli məsələsində ABŞ-m mövqeyi bir daha aydın oldu.

Toplantının gedişində OPİK Transxəzər boru kəmərinin tikintisinə yardım məqsədi ilə Cənubi Qafqaz fonduna 30 milyon dollar vəsait ayırdıAyrılan vəsait əsasən infrastrukturun qurulması və inkişafı üçün nəzərdə tutulmuşdu.

Konfransdan az sonra, 1998-ci il iyunun 2-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Kürdaşı” dəniz blokunun və qurudakı “Cənub-Qərbi Qobustan”, “Kürsəngi-Qarabağlı” bloklarının birgə işlənilməsi haqqında ARDNŞ ilə İtaliyanın Acip, Yaponiyanın Mitsui, Türkiyənin TPAO, Böyük Britaniya və Kanadanın Komonvels Oyl ənd Qaz, ABŞ-ın Frontera Resourses, Amirada Hess, Yunion Teksas, Səudiyyə Ərəbistanının Delta şirkətləri arasında müqavilələr imzalandı. “Kürdaşı” dəniz bloku üç strukturdan - Kürdaşı, Araz dəniz və Kurqan dənizdən ibarət idi. Blokun sahəsi 550 kv. m. təşkil edirdi. Müqavilənin operatoru İtaliyanın Acip şirkəti idi. Paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü; ARDNŞ - 50%, Acip - 25%, Mitsui - 15%, TPAO - 5%, Pennzoyl - 5%.

Quruda yerləşən “Cənub-Qərbi Qobustan” yatağı “Şimal”, “Mərkəz” və “Sahil” bloklarından ibarət idi. Burada paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: ARDNŞ - 20%, Komonvels Oyl ənd Qaz - 40%, Yunion Teksas - 40%.

“Kürsəngi/Qarabağlı” yatağının işlənməsi üzrə sazişdə paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü: ARDNŞ - 50%, Frontera Ressourses - 30%, Delta/Hess - 20%.

**OriHK** BbiflejiaeT 30 MJIH. aojuıapoB ua noaaepjKKy SaxaBKascKoro (JıOHna. **KDCHA, 1998, 2** HK)H51.

Azərbaycanın enerji diplomatiyasında növbəti addım 1998-ci il iyulun 19-21-də Heydər Əliyevin Böyük Britaniyaya səfəri zamanı atıldı. Səfərin gedişində "Muradxanlı", "İnam", "Araz", "Alov", "Şərq" yataqları barədə Ramko şirkəti ilə müqavilə imzalandı. Quruda yerləşən "Muradxanlı" bloku üç - "Muradxanlı", "Cəfərli" və "Zərdab" strukturlarından ibarət idi. Hər üç yatağın ümumi neft ehtiyatı 13 milyon ton qiymətləndirilirdi. Müqaviləyə əsasən Remko ilə ARDNŞ arasında paylar bərabər bölüşdürülmüşdü. "Muradxanlı" yatağında qazılan quyu qurudakı yataqdan Azərbaycana gəlir gətirəcək ilk quyu olacaqdı'®^®.

"İnam" yatağının sahəsi 225 kv. m. idi. Buraya qoyulan sərmayə 1,5 milyard dollar təşkil edirdi. Paylar iştirakçılar arasında aşağıdakı kimi bölüşdürülmüşdü; ARDNŞ-50%, Amoko-25%, Monument Resorses-12%, Sentral Fyuel-12,5 %.

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan 120 km. məsafədə cənub-şərqdə yerləşən "Araz", "Alov", "Şərq" yataqları üzrə müqavilədə paylar aşağıdakı kimi idi; ARDNŞ - 40%, TPAO -10%, BP - 15%, Statoyl -15%. Qalan 20% - in sahəsi hələ müəyyənləşdirilməmişdi.

Bu zaman bəzi dairələr Bakı - Ceyhan boru kəməri layihəsinin baha olduğunu bəhanə gətirərək həyata keçirilməsinə mane olmağa çalışırdılar. Bakı - Supsa boru kəməri daha qısa olduğu üçün uyğun və Bakı - Ceyhana alternativ idi"'^'. Neft müqavilələrini maliyyələşdirən Beynəlxalq Əməliyyat Şirkəti, konsorsium Bakı - Ceyhan boru kəmərini dəstəkləmir, Bakı-Supsa kəmərinin Bakı - Ceyhandan 1 milyrad dollar ucuz olacağım deyirdilər. Onların fikrincə, neft Supsadan tankerlərlə Türkiyənin Bosfor boğazındakı Kankgöl limanına çatdırılmalı, oradan isə 50 km. uzunluğundakı neft borusu ilə Mərmərə dənizinə çıxarılmalı idi.

Konsorsiuma daxil olan şirkətlər də Bakı - Supsa xəttinə üstünlük verdiklərini bəyan etdilər. Onlar da Bakı - Ceyhanın boru kəmərinin bahalı olduğunu, bu kəmərə vurulacaq kifayət qədər neftin olmadığını, yalnız Qazaxıstan nefti əlavə edilərdisə boru kəmərinin tikintisinin mümkün olacağını deyirdilər'®^^. Şirkət nümayəndələrinin fikrincə, neftin nəqli bir ticarət işi olduğundan xərclərini ödəməli idi.

**Əliyev H.Ə. Böyük Britaniyanın Ramko şirkətinin rəhbərləri ilə görüşdə söhbət. 16 fevral 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XIX kitab, s. 179-180.**

**Aliyev; Bakü - Ceyhan için Türkiye taviz vermeli. - "Sabah" gazetesi, İstanbul, 1998, 1 1 Kasım.**

**Karar konsorsiyumun. - "Sabah" gazetesi, İstanbul, 1998, 27 Ekim.**

BP şirkəti boğazların daha çox yüklənməməsi üçün iki yol təklif edirdi; birincisi, neftin Supsadan tankerlərlə İstanbul - Sakarya arasında bir bölgədən keçən boru xətti ilə İzmit körfəsindəki anbarlara vurulması, ikincisi. Qara dənizdən gələn tankerlərin yükünün Trakyadan başlayan boru xətti ilə İzmirdəki Əliağa anbarlarına daşınması'®^^.

Bakı - Ceyhan layihəsinin həyata keçirilməsinin əleyhinə BP-nin çıxması vəziyyəti ağırlaşdırırdı. Konsorsium bir neçə ay əvvəl layihə üçün xərcləri əgər 2,9 milyard dollar hesablamışdısa, son olaraq 3,7 milyard dollar hesabladı. Bu, Azərbaycanda etirazla qarşılandı. Qısa bir müddətdə bu qədər fərqin əmələ gəlməsi narahatlıq doğururdu"'^'. Belə bir şəraitdə şirkətlər böyük ölkələrin rəsmi dairələrinə Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin bahalı olduğunu deyirdilər'®^^. Onlar daha ucuz yolların olduğu qənaətində idilər"'^®. Bu zaman " The Wall Street Journal" yazırdı ki, Türkiyə nə etsə belə, şirkətlər neft və qazın başqa yollarla daşınmasına hazırlaşırlar. Azərbaycan neftinin hətta Qara dənizdən Rumıniyaya daşınması variantı üzərində də dayanılırdı.

Şirkətlərin belə mövqeyi neftin nəqlinin Bakı - Novorossiysk boru kəməri ilə axıdılmasma üstünlük verilməsi demək idi. Bu isə son nəticədə Azərbaycana edilən siyasi təzyiqlərinin artmasına gətirə bilərdi.

Belə bir şəraitdə, 1998-ci ilin sentyabrında Rusiya Dövlət Duması BMT baş katibinə müraciət etdi. Bu müraciətdə BMT-dən Türkiyənin cənub-şərqində müharibənin dayandırılmasına və kürdlərin maraqlarının yerinə yetirilməsinə dair çağırış yer almışdı'®^'. Əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsinə qarşı olmağın səbəbləri aydın idi.

Lakin narahatlıq doğuran məqamlardan biri artıq qeyd edildiyi kimi, BP şirkətinin mövqeyi idi. Bu, işlərin irəli aparılması yolunda əngələ çevrilmişdi. Məsələni zamanında həll etmək lazım gəlirdi. Ona görə də Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər Bakıya səfər etdi. Səfərdə məqsəd BP-nin mövqeyini dəyişmək idi'°^*. Keçirilən

**Bakü - Ceyhan'da son oyun . - "Radikal" gazetesi, İstanbul, 1998,24 Ekim. Bakü - Ceyhan"a BP mühalif - "Milliyet" gazetesi, 1998, 6 Kasım.**

**Yalçın Doğan. Petrolçülerin oyunu. - "Milliyet" gazetesi, İstanbul, 1998, 11 Kasım.**

**Zafer Atay. Hazar oyunu. - "Dünya" gazetesi, İstanbul, 1998, 12 Kasım. Mahmut Torpakçıoğlu. Bir hain plan. — "Öncü" gazetesi, İstanbul, 1998, 14 Eylül.**

**Güntay Şimşek. Bakü - Ceyhan'da politik çukur. - "Zaman" gazetesi, İstanbul, 1998, 19 Ekim.**

müzakirələrdə Azərbaycan və Türkiyənin tutduğu qəti mövqe bu məsələdə konkret nəticəsini verdi.

Bundan az sonra, 1998-ci il oktyabrın 22-də ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Samuel Berger'"^ və Prezidentin Xəzər enerji məsələləri üzrə xüsusi müşaviri Riçard Mominqstar ABŞ neft şirkətlərinin rəhbərləri ilə görüşdülər. Görüşdə Bakı - Ceyhan boru kəmərinin tikintisinin vacibliyi şirkət rəhbərlərinə qəti şəkildə bildirildi. Bu, Azərbaycanın mövqeyini möhkəmləndirirdi.

Heydər Əliyev oktyabrın 27-də konsorsiumun rəhbərlərini qəbul edərək Azərbaycanın əsas ixrac neft boru kəməri məsələsində qəti mövqe tutduğunu, Bakı - Ceyhan boru kəmərinə üstünlük verdiyini birmənalı olaraq bildirdi. Heydər Əliyev "bizim üçün siyasət ticarətdən öndə gəlir" dedi [1040]

Azərbaycanın mövqeyi Rusiyanın əleyhinə getmək, ABŞ-m regiondakı strateji maraqlarını, Türkiyənin iqtisadi mənfəətlərini yerinə yetirmək deyil, ilk növbədə Azərbaycanın maraqlarının təmin edilməsinə yönəlmişdi. Azərbaycan çoxtərəfli beynəlxalq iqtisadi siyasət və çoxistiqamətli neft boru kəmərləri siyasətini seçmişdi. Burada da konkret məqsəd var idi: Azərbaycanın dövlət müstəqilliyini tam təmin etmək üçün əlverişli beynəlxalq şərait yaratmaq, heç bir ölkədən asılı olmamaq, xarici təzyiqləri azaltmaq. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində ayrı-ayrı dövlətlərin təzyiqlərini zəiflətmək, Azərbaycanı eksperimentlər və qarşıdurmalar meydanına çevirməmək, əməkdaşlıq üçün cəlbedici edərək sosial-iqtisadi problemləri həll etmək, ölkəni inkişaf etdirmək, xalqın həyat şəraitini yaxşılaşdırmaq.

Beləliklə, 1998-ci ilin oktyabr ayının sonuna kimi, dövlətlərin əsas ixrac neft boru kəmərinə dair mövqeləri dəqiqləşdi.

Türkiyə Cümhuriyyətinin qurulmasının 75 illiyi münasibəti ilə toplantıda iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 28-də ABŞ Prezidenti Bili Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi səfir Riçard Mominqstar ilə görüşərək Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri məsələsi barədə fikir mübadiləsi etdi. Görüşdə Bili Klintonun məktubu Heydər Əliyevə təqdim edildi'®'". Riçard

**® Samuel Berger (1945) - ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri (1997-2001).**

**Aliyev: konsorsiyumu takmam. - "Milliyet" gazetesi, İstanbul, 1998, 31 Ekim.**

**Bakü — Ceyhan tehlikede. - "Zaman" gazetesi, İstanbul, 1998, 19 Ekim.**

Morninqstar Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisi ilə bağlı ABŞ-ın cəhdləri və səyləri barədə danışaraq “bu məsələnin həllində aparıcı rol oynayan Azərbaycandır” dedi'®'*^. Azərbaycan tərəfi şirkətlərin mövqeyinin ziyanlı olduğunu bildirdi. Riçard Morninqstar şirkətlərin rəhbərləri ilə danışmaq üçün 15 gün vaxt istədi. Bu zaman ABŞ-m vitse- prezidenti Albert Qor Süleyman Dəmirələ məktub göndərərək Bakı - Ceyhan boru kəmərinin tikintisini istədiklərini bildirdi.

Türkiyədə toplantı çərçivəsində Heydər Əliyev Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə də görüşdü. Saparmurad Niyazov Xəzər dənizini sektorlara bölməyi, özü də təkcə səthini deyil, hər şeyi bölməyi təklif etdi'®'*^. Qeyd etdi ki, Azərbaycan və Türkmənistan Xəzərin bir qarış hissəsinə görə bir-biri ilə çəkişməyəcəkdir. Prezidentlər iki ölkənin ekspertlərinin Xəzər dənizinin hüquqi statusuna dair danışıqlara yenidən başlamaq barədə razılığa gəldilər. Saparmurad Niyazov hansısa qüvvələrin Azərbaycan ilə Türkmənistan arasında münasibətləri pozmaq cəhdlərinin baş tutmayacağını da vurğuladı.

Səfər zamanı Heydər Əliyev Türkiyənin Baş Naziri Məsud Yılmaz ilə görüşdü. Tərəflər Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisi məsələsində qəti qərara gəldilər'®''*. Heydər Əliyev və Məsud Yılmaz geriyə dönüşün mümkün olmadığını və növbəti mərhələyə keçdiklərini bil- dirdilər'®'*^.

Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Türkiyənin Baş Naziri Məsud Yılmaz, ABŞ-ın energetika naziri Bili Riçardson'®"*^ 1998-ci il oktyabrın 29-da Xəzər dənizi - Aralıq dənizi (Bakı - Tbilisi - Ceyhan) boru kəməri layihəsini əsas ixrac boru kəmərinə çevirmək barədə qəti qərara gələrək, 6 bənddən

**Əliyev H.Ə. ABŞ Prezidenti Bili Klintonun Xəzəryanı bölgə üzrə xüsusi nümayəndəsi, səfir Riçard Morninqstar ilə görüşdəki söhbətdən. 28 oktyabr 1998- ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-115.**

**Əliyev H.Ə.Türkmənistan Prezidenti Saparmurad Niyazovla görüşdəki söhbətindən. 29 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-118.**

**Bakü — Ceyhan hattına son nokta koydular. — “Cumhuriyyef ’ gazetesi, İstanbul, 1998, 1 Kasım.**

**Bakü — Ceyhan’a Aliyev güvencesi. — “Sabah” gazetesi, istanbul, 1998, 1 Kasım.**

**Bili Riçardson (1947) — ABŞ-ın energetika naziri (1998-2001). Nyu Meksika ştatının qubernatoru (2003-2011).**

ibarət Ankara bəyannaməsini imzaladılar'®'*^. Türkmənistan Prezidenti bu bəyannaməni imzalamadı. Bəyannamədə Xəzər dənizi - Aralıq dənizi (Bakı - Tbilisi - Ceyhan) boru kəməri layihəsinin əsas ixrac boru kəmərinə çevrildiyi vurğulanır, Qara dənizin, Aralıq dənizi sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyəti qeyd edilirdi.

Səfər çərçivəsində eyni zamanda Türkmənistan qazını Türkiyəyə gətirəcək boru kəmərinin tikintisinə dair saziş imzalandı'®"*. Bu, Azərbaycanın tranziti ölkəsinə çevrilməsində mühüm addım idi.

İmzalanma mərasimində nitq söyləyən Heydər Əliyev sənədlərin tarixinə qısa nəzər yetirərək Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri ideyasının həyata keçirilməsində dövlət rəhbərlərinin siyasi iradəsinin mühüm rol oynadığını qeyd etdi'®"^. Heydər Əliyev daha sonra: “Bakı - Ceyhan artıq var. Azərbaycan müstəqil dövlətdir. Öz qərarını özü verir” dedi'®^®.

Həmin gün Heydər Əliyev ABŞ-m energetika naziri Bili Riçardson ilə görüşərək neft siyasətini geniş müzakirə etdi. Azərbaycan Prezidenti Tükmənistan ilə məsələlərin tənzimlənməsi təklifini irəli sürdü. Bili Riçardson Azərbaycan ilə Türkmənistan arasında sərhəd məsələsində vasitəçi olmağa söz verdi. Bakı - Ceyhan əsas ixrac neft boru kəmərindən danışan Bili Riçardson dedi: “...Bakı - Ceyhan xəttinin çəkilməsi məsələsində böyük tərrəqqi əldə etmişik. Bunların da çoxu məhz Sizin liderliyiniz sayəsində baş verib”. Heydər Əliyev Ankara bəyannaməsinin imzalanmasının təşəbbüskarının Azərbaycan olduğunu vurğuladı'®^'. Bili Riçardson daha sonra dedi: “Bu andan etibarən daha heç kim Bakı - Ceyhan boru kəmərinin çəklib-çəkilməyəcəyi haqqında mühakimə yürütməməlidir. İndi söhbət kəmərin tikintisinin necə aparılacağından gedir”.

**Ankara bəyannaməsi. 29 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 89-125-127; Baku — Ceyhan and World Politics. — “Turkish Daily News”, İstanbul, 1998, 31 October.**

[1048] **75.Yılda iki büyük imza. — “Hürriyet” gazetesi, İstanbul, 1998, 30 Ekim.**

**Əliyev H.Ə. Bakı — Tbilisi — Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsinin imzalanması mərasimindəki çıxış. 29 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 121-124.**

**Tahir Kutsi Makal. Haydar Aliyevi dinlerken. - “Ortadoğu” gazetesi, İstanbul, 1998, 3 Kasım.**

**Əliyev H.Ə. ABŞ-ın energetika naziri Bili Riçardsonla görüşdəki söhbətdən. 29 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 130-131.**

Ankarada imzalanan sənədin tarixi əhəmiyyəti var idi. Heydər Əliyevin fikrincə, bununla böyük bir tarixi işin əsası qoyulmuşdu'*'^^.

Azərbaycan Prezidenti Bakıya qayıtdıqdan sonra Bili Klinton və Albert Qora məktub göndərərək əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsini istədi. Bununla Azərbaycanın enerji diplomatiyasında yeni bir səhifə açılırdı.

ABŞ-ın Ceyhan limanını seçməsi səbəbsiz deyildi. Artıq qeyd edildiyi kimi, Birləşmiş Ştatlar İrandan tranzit ölkə kimi istifadə edilməsinin əleyhinə idi. Türkiyə isə siyasi baxımdan sabit bir ölkə idi. Soyuq müharibə başa çatdıqdan sonra region və dünya siyasətində Türkiyənin rolunun artdığı qənaətində olan Bili Klinton layihəyə türk iqtisadiyyatını gücləndirən bir amil kimi baxır. Xəzər dənizi neftinin Qara dəniz boğazlarından keçirilməsini qəbul etmirdi. Heç şübhəsiz, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin mənfi tərəfi boğazlardan keçən neftdən daha bahalı olması idi. Bili Klintonun fikrincə, Bakı - Supsa boru kəmərinin işə düşməsi Bakı - Ceyhanın reallaşdırılmasma mane olmamalı idi. Bir çoxları hətta “Bakı - Tbilisi - Ceyhanın “ölü doğulduğu” qənaətində idi. Bəziləri isə Bakı - Tbilisi - Ceyhan əvəzinə Xəzər neftinin Aralıq dənizinə deyil, Bəsrə körfəzinə çıxarılmasının mənfəətli olacağını deyirdilər. ABŞ bu variantların heç birini qəbul etmədi.

Rusiya tərəfi Ankarada imzalanan Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dəstək verən bəyannaməni soyuqqanlı qarşılayaraq bildirdi ki, son söz bu layihədə iştirak edən Qərb şirkətlərinindir. Onlar da layihənin əleyhinə çıxırdılar. Rusiya boru kəmərinin mənfəətli olmadığını. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlarda kifayət qədər neftin olmadığını bildirirdi. Bu isə Türkiyə və Azərbaycanın səylərinin nəticə verməyəcəyinə bir işarə idi.

Geri çəkilərək gözləməyə başlayan Rusiya Bakı - Novorossiysk boru kəmərinin Çeçenistan ərazisindən keçməsinin təhlükəsiz olduğunu sübut etmək üçün Çeçenistanda atəşkəs elan etdi. Neftin daşınması üçün Bakı - Supsa - Novorossiysk neft boru kəməri layihəsini irəli sürdü. Lakin bu layihə qəbul olunmadı.

Bundan sonra Bakı - Tbilisi - Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisi ətrafında sanki bir müharibə başlandı. Layihə dövlətləri üz- üzə g ə t i r d i S u r i y a dövləti PKK terroru üçün əlverişli bir şərait yarat

**Əliyev H.Ə. İstanbulun Atatürk hava limanının şərəf salonunda Türkiyə Cümhuriyyətinə səfərinin yekunları barədə Jurnalistlər qarşısında bəyanat. 31 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 159.**

mışdı. Azərbaycan isə PKK terroruna qarşı mübarizədə Türkiyəni dəstəkləyirdi'®^". Belə bir vaxtda PKK rəhbəri Abdulla Ocalanın'®^^ Suriyadan Rusiyaya qaçırılması, bu ölkədən siyasi sığınacaq istəməsi və Dövlət Dumasının ona səs verməsi Azərbaycanda dərin narahatlıq yaratdı. Abdulla Ocalandan Bakı - Tbilisi - Ceyhan boru kəmərinə qarşı bir vasitə kimi istifadə edilə, burada Türkiyənin sərt mövqeyi mühüm rol oynaya bilərdi. Belə bir mövqe ortaya qoyuldu. Türkiyənin tələbi ilə Abdulla Ocalan Rusiya ərazisindən çıxarıldı.

Bakı - Tbilisi - Ceyhan əsas neft ixtac kəmərinə dair hüquqi-siyasi sənədlərin imzalanmasına baxmayaraq, iqtisadi və ideoloji baxımdan hələ xeyli iş aparmaq lazım idi. Ankara protokolları imzalandıqdan sonra-danışıqların ikinci raundu 1998-ci il noyabrın 18-də Bakıda keçirildi'®^®. Burada maliyyə və ticarət məsələləri müzakirə olundu. Lakin şirkətlər hələ də etiraz edirdilər. Onlar kəmərin bahalı olduğuna dair mövqelərində israrlı idilər. 1998-ci ilin noyabr ayında Beynəlxalq Əməliyyat Şirkəti Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisinin başlanmasının daha iki ay ertələndiyini bildirdi. Buna cavab olaraq Azərbaycan Prezidenti Heydər Əliyev ARDNŞ-in vitse-prezidenti İlham Əliyevi ABŞ-a şirkətlərlə danışıq aparmaq üçün səfərə göndərdi. İlham Əliyev ABŞ-ın iri neft şirkətlərinin rəhbərləri ilə danışıqlar apararaq Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri ilə bağlı qəti qərarın verilməsini istədi. Onlara boru kəmərinin tikintisinin təkcə iqtisadi deyil, siyasi, strateji əhəmiyyətini izah etdi. Şirkət rəhbərlərinin fikrincə, Türkiyə güzəştlərə getməzdisə və maliyyə olmazdısa, Bakı - Tbilisi - Ceyhan baş tutmayacaqdı. İlham Əliyev boru kəmərinin tikintisi ilə bağlı şirkətlərin verdikləri rəqəmlərin mübahisəli olduğunu deyərək, Azərbaycan ilə ABŞ-m mövqeyinin eyni olduğunu, bu ölkənin dəstəyinə ehtiyac duyulduğunu bildirdi'®^". Bununla bağlı qərar dekabrın 12-də veriləcəkdi'®^*.

^ **Yasemin Çongar, Cenk Başlamış. Yüzyılın petrol savaşı (A). - "Milliyet" gazetesi, İstanbul, 1998, 4 Kasım.**

**Aliyev: Şam'a karşı Türkiye ile biriz. - "Hürriyet" gazetesi, İstanbul, 1998, 12 Ekim.**

**Abdulla Ocalan (1949) - PKK terror təşkilatının rəhbəri.**

**Ankara protokolunda ikinci raut Bakü'de. - "Milliyet" gazetesi, İstanbul, 1998, 17 Kasım.**

**Bakü — Ceyhan'da iyumserim. - "Cumhuriyet" gazetesi, İstanbul, 1998, 23 Kasım.**

**Karar 12 Aralikta. - "Zaman" gazetesi, İstanbul, 1998, 23 Kasım.**

Şirkətlərin rəhbərləri belə bir dəlil gətirirdilər ki, Azərbaycanda hər il 10-11 milyon ton neft çıxarıldığı halda, Bakı - Tbilisi - Ceyhan boru kəməri tam gücü ilə işə düşəndən sonra kəməri 50-60 milyon ton neftlə doldurmaq mümkün olmayacaqdır. Digər tərəfdən, Bakı - Novorossiysk boru kəmərinin illik nəqletmə imkanları ən yaxşı halda 17 milyon ton idi. Bakı- Supsa boru kəməri vasitəsi ilə 5 milyon ton neft göndərilə bilərdi. Bütün bu dəlillər Bakı - Tbilisi - Ceyhan boru kəmərinin əleyhinə çevrilərək Azərbaycanı son nəticə etibarı ilə kəməri qeyri-sabit olan şimal regionundan keçirməyə vadar edirdi.

İlham Əliyevin ABŞ-da apardığı danışıqlar nəticəsini verdi. Beynəlxalq Əməliyyat şirkətinə daxil olan Mobil, Ekson, Pennzoyl, Amoko, Philips kimi neft şirkətlərinin rəhbərləri Ağ evə dəvət edildilər. Görüş zamanı Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dair geniş müzakirələr keçirildi. Onlara Bakı - Tbilisi - Ceyhanın son hədəf olduğu izah edildi. ABŞ rəsmiləri layihənin həyata keçiirlməsi üçün tələb olunan vəsaitin tapılmasının problem olmadığı qənaətində idilər.

ABŞ Prezidenti Bili Klintonun Xəzər hövzəsi enerji siyasəti üzrə xüsusi müşaviri, səfir Riçard Morninqstar 1998-ci ilin dekabrında Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə olan ümidlərini bildirdi. Bunun ardınca o, “şirkətlər Bakı - Ceyhan boru xətti layihəsinin regionda oynayacağı siyasi rolun əhəmiyyətini anladılar” dedi‘°^^.

ABŞ-m mövqeyi Azərbaycanın qətiyyətini daha da artırdı. Bundan sonra Azərbaycan tərəfi neft şirkətləri ilə yeni müqavilələrin imzalanması işini davam etdirdi. 1998-ci il dekabrın 25-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Yanan tava”, “Atəşgah” və “Muğan dəniz” blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Yaponiyanın Çapan Petrolium, İndoneziya Petrolium, İtoçu oyl Eksploreyşn və Teykoku oyl şirkətləri arasında müqavilə imzalandı. Yatağın ümumi sahəsi 510 kv. m. idi. Həmin yataqdan 75-90 milyon ton neftin hasil edilməsi gözlənilirdi. Buraya təqribən 2,3 milyard dollar sərmayə qoymaq nəzərdə tutulmuşdu. Qoyulan xərclərin hamısını Yaponiya şirkətləri ödəyəcəkdi. Müqaviləyə uyğun olaraq Yaponiyanın dörd şirkəti Azərbaycana gəlməli idi.

İmzalanma mərasimində çıxış edən Heydər Əliyev müqavilələrin əhəmiyyətindən danışdı'°“. Qeyd etmək lazımdır ki, “Əsrin müqavilə

**^ Bakü — Ceyhan’da umut. - “Zaman” gazetesi, İstanbul, 1998, 16 Aralık. Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorundakı “Yanan tava”, “Atəşgah” və “Muğan dəniz” blokunun kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haq**

si"ndən ötən müddət ərzində Azərbaycan xarici neft şirkətləri ilə 15 müqavilə imzalamışdı. Bu isə 16-cı müqavilə idi. Müqavilələrdə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edirdi.

Bundan sonra Heydər Əliyev Türkiyənin Azərbaycandakı səfiri Qədri Ecvet Tezcanı qəbul edərək Türkiyə hökumətinin qəti qərarını öyrənmək istədiyini bildirdi. O, səfirə müraciətlə "təşviq və maliyyə olmayacaqsa, hər şey boşa çıxacaqdır" dedi'"*'. Azərbaycan tərəfi layihənin gerçəkləşməsi və ətraf mühitin təhlükəsizliyini qorumaq üçün Türkiyənin güzəştə getməsini istədi.

1998- ci il dekabr ayının sonlarında Mobil, Şevron və Şell şirkətləri Xəzər dənizinin dibi ilə neft boru kəmərinin tikintisi və neftin Azərbaycan ərazisindən keçərək Ceyhan limanına nəqli barədə iqtisadi-texniki əsaslandırılmanın işlənilməsinə dair Qazaxıstan hökuməti ilə saziş imzaladılar. Bu saziş Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi bütün mübahisələrə son qoydu. Bütün diqqət kəmərin tikintisinə yönəldi.

Beynəlxalq konsorsiumun 1999-cu ilin mart ayında keçirilən iclasında Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi Türkiyəyə təklif edildi'®^^. Türkiyə tərəfi ilə aparılan danışıqlar nəticəsində məsələ həll edildi. Türkiyə layihənin 2,3-2,5 milyard dollara başa gələcəyini bildirdi. Beləliklə, Azərbaycanın neft strategiyasında yeni bir mərhələ başladı.

**qında Azərbaycan Dövlər Neft Şirkəti ilə Yaponiyanın Japan Petrolium, İndoneziya Petrolium, İtoçi oyl Eksploreyşn və Teykoku oyl neft şirkətləri arasında müqavilənin imzalanması mərasimində nitq. 25 dekabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 462-469.**

**Bakü — Ceyhan'a 2 ay erteleme. - "Zaman"gazetesi, İstanbul, 1998, 29 Kasım.**

**Bakü — Ceyhan inşaatı Türkiye'ye teklif edildi. - "Milliyet" gazetesi, İstanbul, 1999, 24 Mart.**

## Azərbaycanın neft strategiyasında yeni mərhələ

Bütün müqavimətlərə baxmayaraq, Bakı - Supsa neft boru kəməri tikildi. 1999-cu il aprelin 17-də Bakı - Supsa neft boru kəmərinin və Supsa yerüstü terminalının açılışı oldu'°®^. Kəmərin tikintisi 1995-1997-ci illərdə başlamış gərgin səylərin nəticəsi idi"'^'*. Onun tikintisinə 590 milyon dollar vəsait xərclənmişdi. Bütövlükdə 1998-ci ildə Azərbaycanın neft sənayesinə 2 milyrad 200 milyon dollar vəsait qoyulmuşdu'®®^. Gündəlik maksimum ötürmə gücü 115 min barrel neft olan boru kəmərinin işə düşməsi nəticəsində Azərbaycan neftinin "Azəri Layt" adı altında Qərb marşrutu ilə göndərilməsinə başlanıldı. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikildi. ABŞ Prezidenti Bili Klinton bu hadisə münasibəti ilə təbrik məktubu göndərdi. Məktubda Bakı - Supsa boru kəmərinin açılışının çoxdan gözlənilən məqsədin - Xəzər regionunun neft və qazını dünya bazarlarına çatdırmaq üçün neft boru kəmərləri şəbəkəsi yaradılmasının həyata keçirildiyi vurğulanırdı. Bu kəmər Şərq - Qərb dəhlizinin təməl daşı olacaq, bütün Qafqaz və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək edəcəkdi'®®®.

Elə həmin gün Poti - İliçovski - Vama bərə keçidinin təntənəli açılışı da oldu. Transqafqaz dəhlizinin mühüm elementi və tərkib hissəsi olan bu xətlə Ukrayna ərazisindən Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan və Özbəkistan vasitəsi ilə isə yüklərin şərqdən qərbə, qərbdən də şərqə daşınması təmin ediləcəkdi. Heydər Əliyev Bakı - Supsa neft kəmərini Azərbaycan ilə Gürcüstan arasında əməkdaşlığın zirvə nöqtəsi adlandırırdı.

Bakı - Supsa neft boru kəmərinin açılışının böyük əhəmiyyəti var idi. Bu, ilk Qərb marşrutu olub, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft

**Qərb neft kəməri və Supsa terminalı işə başladı. "Azərbaycan" qəzeti, Bakı, 1999, 18 aprel.**

**Əliyev H.Ə. Bakı — Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdə nitq. 17 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.l5- 22.**

**Əliyev H.Ə. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzindəki görüşdə nitq. 26 aprel 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.l07.**

**1066 ^Qş Prezidenti Bili Klintonun Bakı - Supsa ilkin neft xəttinin rəsmi açılışının iştirakçılarına məktubu. 15 aprel 1999-cu il. - "Azərbaycan" qəzeti, Bakı,**

**1999, 18 aprel.**

boru kəmərinə sanki hazırlıq mənası daşıyır və Azərbaycanın mövqelərini gücləndirirdi.

1999- cu il iyulun 12-də Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimi keçirildi. Toplantıda Böyük Britaniya, ABŞ, Norveç, Rusiya, İtaliya, Fransa, İran və Türkiyənin Azərbaycandakı səfirləri, “Şahdəniz” yatağına dair imzalanmış müqavilənin həyata keçirilməsinin iştirakçısı olan xarici şirkətlərin nümayəndələri iştirak edirdilər. Konsorsiumun prezidenti Endi Honvud, Statoyl şirkətinin maliyyə nəzarəti meneceri İnge Layf Rulendsholm, ARDNŞ-in vitse-przidenti Xoşbəxt Yusifzadə'®*"’ çıxış edərək əldə olunmuş nəticələr barədə məlumat verdilər. Xoşbəxt Yusifzadənin fikrincə, yataqda 1 trilyon kubmetrə qədər qaz var idi.

Azərbaycan Prezidenti Heydər Əliyev toplantıda geniş nitq söylədi'°*"*. O, Azərbaycanın enerji diplomatiyasının keçdiyi yola, qazanılan nəticələrə və gələcək perspektivlərinə diqqət yetirdi. Qeyd etmək lazımdır ki, bu zaman “Şahdəniz” yatağına 367 milyon dollar sərmayə qoyulmuşdu.

Belə bir vaxtda ATƏT-in İstanbulda keçiriləcək zirvə görüşü zamanı neft sahəsində əməkdaşlığa dair sənədlərin imzalanmasına hazırlıq işləri görülürdü. Azərbaycan bu tədbirə və imzalanacaq sənədlərə böyük əhəmiyyət verir, müzakirə ediləcək məsələlərlə bağlı bir sıra böyük dövlətlərlə məsləhətləşmələr aparırdı. 1999-cu il noyabrın 8-də Heydər

Əliyev ilə görüşən ABŞ-ın Azərbaycandakı səfiri Stenli Eskudero dedi: “...Sizin apardığınız siyasətin nəticəsində həm Sizin çox böyük tarixi qələbəniz, həm də Amerikanın tarixi qələbəsi hesab edilir ki, yaxın zamanlarda İstanbulda dörd böyük layihə üzrə müqavilənin, sənədin imzalanması gözlənilir... Amerika Birləşmiş Ştatları Xəzər regionundan dünyaya

**Xoşbəxt Yusifzadə (1930) - tanınmış neftçi geoloq. AMEA-nın həqiqi üzvü. ARDNŞ-in vitse-prezidenti (1994-2000). 2004-cü ildən birinci vitse-prezident.**

**Əliyev H.Ə. Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağında əldə edilmiş nəticələrin təqdimat mərasimində nitq. 12 iyul 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XX kitab, s.460-472.**

**Stenli Eskudero (1947) - ABŞ diplomatı. ABŞ-ın Azərbaycandakı səfiri (1997-2000).**

ixrac olunacaq bu enerji ehtiyatlarım dünyanın malı etmək üçün Sizin göstərdiyiniz çox qətiyyətli səyləri çox yüksək qiymətləndirir”'®™.

Nəhayət, noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşü zamanı tarixi bir hadisə baş verdi. Azərbaycan, Gürcüstan və Türkiyə neft boru kəmərinin Bakı - Tbilisi - Ceyhan xətti ilə inşasına dair sənədi imzaladılar'®’’. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin layihəsini dəstəkləmək, Qazaxıstanın neft həcmlərini bu layihəyə cəlb etmək üçün ABŞ-m şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul bəyannaməsi. Transxəzər qaz kəməri barədə, Türkmənistan qazının Türkiyəyə və Avropaya ixracı barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında hökumətlərarası bəyannamə, Azərbaycan ilə Türkiyə arasında Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən qarşılıqlı anlaşma memorandumu imzalandı.

Mərasimdə nitq söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl, ABŞ Prezidenti Bili Klinton, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursul- tan Nazarbayev və Türkmənistan Prezidenti Saparmurad Niyazov imzalanan sənədlərin tarixi əhəmiyyətini vurğuladılar. Bu, regionun bütün geosiyasətinin dəyişdirilməsinə yönələn tarixi bir hadisə olub, sənədləri imzalayan dövlətlərin rəhbərlərinin qəti iradəsini göstərirdi. Heç əbəs deyildir ki, bir müddət keçdikdən sonra Heydər Əliyev ABŞ-m keçmiş dövlət katibi Ləri İqlberger ilə söhbətində demişdi: “...əgər Amerika Birləşmiş Ştatlarının bizim regiona bu qədər diqqəti və qayğısı olmasaydı, “Əsrin müqaviləsi”nin imzalanmasında Amerika Birləşmiş Ştatlarının qətiyyətli dəstəyi olmasaydı və Bakı - Ceyhan neft kəmərinin yaradılması üçün bizim apardığımız işlərdə Amerika Birləşmiş Ştatlarının dəstəyi, köməyi

**° Əliyev H.Ə. ABŞ-ın Azərbaycan Respublikasındakı səfiri Stenli Eskudero ilə görüşdə söhbət. 8 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 51-52.**

**Əliyev H.Ə. Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının əraziləri ilə Bakı — Tbilisi — Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə respublikaları arasında sazişin imzalanması mərasimində nitq. 18 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 147-149.**

olmasaydı, xüsusən şəxsən Prezident cənab Bili Klintonun bu işə bilavasitə münasibəti və köməyi olmasaydı, biz buna nail ola bilməzdik”"’’^.

Böyük tarixi əhəmiyyət daşıyan bu sənədlərin ciddi siyasi məqsədləri var idi. Sənədi imzalayan dövlətlər Azərbaycana birmənalı olaraq mənəvi və siyasi dəstək verdilər. Bu isə Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və nüfuzunun artması demək idi.

Bu zaman dünya mətbuatı Xəzər nefti ətrafında gedən mübarizəyə dair müxtəlif mülahizələr irəli sürürdü. Məsələn, “Nyu York Tayms” qəzetinin yazdığına görə. Xəzər probleminin mərkəzində Bili Klinton hökumətinin bu bölgəni və onun neftini Rusiyanın nüfuz dairəsindən qoparıb çıxarmaq məqsədi dururdu. ABŞ Prezidenti bəyan etmişdi ki, onun siyasətinin ümdə məqsədlərindən biri Xəzər nefti üçün İrandan və Rusiyadan asılı olmayan boru kəmərinin tikilməsi məqsədi həyata keçirilməyə yaxındır'®”.

Neft strategiyası Azərbaycanın sosial-iqtisadi inkişafına təkan verən ciddi bir amil oldu. Neft şirkətləri ilə əməkdaşlıqdan gözlənilən neft gəlirlərinin ölkənin sosial-iqtisadi tərəqqisinə sərf edilməsi Azərbaycan Respublikasının dövlət siyasətinə çevrildi. Neft yataqlarının xarici şirkətlərlə birgə işlənilməsindən gələn mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər vəsaitlərin toplanması, səmərəli istifadə edilməsi, həmin vəsaitlərin əsas sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 1999-cu il dekabrın 29-da Dövlət Neft Fondu yaradıldı'®”.

2000- ci ilin yanvar ayında neftin Çeçenistandan keçən hissəsində nəqli dayandırıldı. Azərbaycan tərəfi bu məsələnin həlli üçün müvafiq addımlar atdı. Artıq qeyd edildiyi kimi. Xəzər hövzəsində enerji məsələləri təkcə sahilyanı ölkələrin deyil, eyni zamanda böyük dövlətlərin də müzakirə obyekti idi. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev 2000-ci il martın 9-da Birləşmiş Ştatların Xəzər hövzəsi enerji diplomatiyası məsələləri üzrə böyük müşaviri, səfir Elizabet Cons ilə

**^ Əliyev H.Ə. ABŞ-ın keçmiş dövlət katibi Ləri İqlberger ilə görüşdə söhbət. 22 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s.206.**

**“Nyu York Tayms” Xəzər bölgəsində coğrafi-siyasi problemlər haqqında. - “Azərbaycan” qəzeti, Bakı, 1999, 29 dekabr.**

**1074 “yy2;ərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı. - Azərbaycan Respublikasının qanunvericlik toplusu, Bakı, 1999, JV2İ2, maddə 720.**

görüşdü. Söhbət zamanı Elizabet Cons regiona səfəri zamanı keçirdiyi görüşlər barədə məlumat verdi. Onun Qazaxıstana səfərinin gedişində Astananın Bakı - Tbilisi - Ceyhan layihəsinə qoşulması barədə memorandum imzalanmış və Qazaxıstan hökuməti ilə sazişin və digər sənədlərin imzalanması üçün işlərə başlamaq barədə razılıq əldə olunmuşdu. ABŞ diplomatının fikrincə, sənədin qəbul olunmasında Valeh Ələs- gərov'°^^ başda olmaqla ARDNŞ nümayəndə heyəti böyük rol oynamışdı. ABŞ diplomatının dediyinə görə, bu zaman Malayziyada səfərdə olan Prezident Nursultan Nazarbayev ölkəsinə dönən kimi Elizabet Consu qəbul edərək Qazaxıstanın enerji ehtiyatlarının Azərbaycan və Gürcüstan ərazisindən keçirilməsi üçün mövcud olan şəraitdən razılığını bildirmiş, Kaşağan yatağından hasil edilən neftin Bakı - Tbilisi - Ceyhan boru kəməri ilə keçirilməsində əməkdaşlığın davam etdiriləcəyini demişdi'®'^. Elizabet Cons Tbilisidə olmuş, Moskvaya səfər edərək Viktor KalyuJ- nıy'°^', LUKoyl neft şirkətinin prezidenti Vahid Ələkbərov və digər şəxslər ilə görüşmüşdü. Viktor Kalyujnıy ilə görüşdə Xəzər mərkəzinin yaradılması məsələsi müzakirə edilmişdi. ABŞ diplomatının sözlərinə görə, mərkəz Xəzərin ekoloji problemləri, o cümlədən ətraf mühitin mühafizəsi, balıq sərvətlərinin qorunması problemləri ilə məşğul olacağı təqdirdə ABŞ həmin ideyanı müdafiə edəcəkdi. Yalnız bu halda ABŞ yaradılması nəzərdə tutulan mərkəzə maliyyə vəsaiti ayıra bilərdi.

Hafiz Paşayev Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisinə mane olan amillərə diqqəti yönəltdi. Kəmərin tikilməsi haqqında layihədə irəliləyiş olmasına baxmayaraq. Vaşinqtondakı Kato İnstitutu və Kamegi fondu ona mənfi münasibət bəsləyirdilər. Bir sıra mərkəzlər bu layihənin həyata keçirilməsi ilə ABŞ - Rusiya münasibətlərinin pisləşəcəyindən qorxurdular. Bütün bunlardan narazılığını bildirən Azərbaycan səfiri eyni zamanda Nyu Cersi ştatından olan demokrat konqresmen F.Pollonenin Bakı - Tbilisi - Ceyhan boru kəmərinin əleyhinə olan çıxışlarına da diqqəti cəlb etdi. Elizabet Cons bu instututlarm 5-6 ay əvvəl belə mövqedə olduqlarını, Qazaxıstanın Bakı - Tbilisi - Ceyhan kəməri layihəsinə qo- şulmağa razılıq verməsindən sonra vəziyyətin dəyişdiyini söylədi. F.Pollonenin çıxışına gəlincə isə onun enuənipərəst mövqeyində olduğunu

**Valeh Ələsgərov (1946) - tanınmış neftçi-mühəndis. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini.**

**' A R X İ N A . 08.01.2001 - 05.04.2001. Qovluq Xel 1, v. 169-171.**

**Viktor Kalyujnıy (1947) - Rusiyanın yanacaq və energetika naziri (1999- 2000). Xarici işlər nazirinin müavini (2000-2004).**

və kimsənin onu ciddi qəbul etmədiyini vurğuladı. Sonda söhbət “Şahdəniz” yatağından çıxarılan qazın alınmasına dair Azərbaycan - Türkiyə sazişinin imzalanması və qaz boru kəmərinin inşası barədə oldu. ABŞ bu layihəni qəti şəkildə müdafiə edirdi.

Azərbaycan səfiri boru kəmərlərinin təhlükəsizliyi məsələlərinə diqqəti cəlb etdi. Azərbaycan tərəfi təkcə boru kəmərlərinin deyil, eyni zamanda neft və qaz yataqlarının mühafizəsi sisteminin yaradılmasını da təklif edirdi. Bu sahədə iki ölkənin əməkdaşlığı terrorizm əleyhinə mübarizə şəraitində mümkün ola bilərdi. Çünki o, 907-ci düzəlişin fəaliyyət çərçivəsinə daxil deyildi. ABŞ diplomatı Ağ ev administrasiyasının boru kəmərlərinin təhlükəsizliyinin mühafizəsi barədə xüsusi məruzə üzərində işlədiyini və yaxınlarda konqresə göndəriləcəyini söylədi.

ABŞ-m bu mövqeyi enerji sahəsində əməkdaşlığın davam etdirilməsinə imkan verir, Azərbaycanın qətiyyətinin artmasına kömək edir, digər ölkələrin də baxışlarına təsir göstərirdi. Məlum olduğu kimi, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisinə dair sənədlər imzalansa da, tranzit xərcləri barədə məsələdə Gürcüstan ilə razılaşdırıla bilməyən bir sıra məqamlar qalırdı. Gürcüstan bəzi şərtlər irəli sürür, daha böyük tranzit tarifləri tələb edirdi. Bu şərtlər iqtisadi nöqteyi-nəzərdən heç bir çərçivəyə sığmırdı. Məsələni müzakirə etmək üçün Azərbaycan və Gürcüstanın nümayəndə heyətləri görüşmüşdülər. ARDNŞ-də bu işlə məşğul olan Valeh Ələsgərov da Gürcüstana səfər etmişdi. Azərbaycanın məqsədi neft boru kəmərinin keçirilməsinə dair kommersiya sazişi imzalamaq və məsələni həll etmək idi. Kəmərin tikintisinin yubadılması bu layihədə iştirak edən ölkələrin hamısı üçün zərərli idi. Onların mövqeyində tərəddüdlər yaradırdı. Bu məsələləri həll etmək üçün 2000-ci il martın 22- 23-də Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. Səfərdə məqsəd ikitərəfli münasibətlərə dair geniş müzakirələr aparmaq, həllini gözləyən Bakı - Tbilisi - Ceyhan neft boru kəməri ilə neftin tranzit tarifi ilə bağlı məsələləri həll etmək və müvafiq sənədləri imzalamaq idi.

Heydər Əliyev əvvəlcə Eduard Şevardnadze ilə təkbətək iki saatadək görüşərək Azərbaycan neftinin Gürcüstan ərazisindən tranzit tarifləri məsələsini geniş müzakirə etdi'°’*. Azərbaycan Gürcüstana güzəştə getdi. Neftin tranzit nəqli üçün Gürcüstana verilən pay artırıldı. Neftin Gürcüstan ərazisindən tranziti üçün hər 1 tona 2 dollardan aşağı, təqribən 1,3 dollar tarif məbləği müəyyənləşdirildi. Neftin tranzitindən Gürcüstan

[1078] **Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşdəki söhbətdən. 22 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 19-20.**

ildə 25-30 mln. dollar gəlir əldə edəcəkdi. Prezidentlər kommersiya sazişlərinin imzalanması və sənədləri aprel-may aylarında parlamentlərə ratifikasiya üçün təqdim etmək barədə razılığa gəldilər. Bu, dövlət başçılarının həll etdiyi ən mühüm məsələ idi. Prezidentlər enerji daşıyıcılarının beynəlxalq bazarlara nəqli üzrə Transxəzər əməkdaşlığı prosesinin hərtərəfli inkişafı və dərinləşdirilməsində maraqlı olduqlarını bildirdilər.

Şimal marşrutu ilə neftin nəqlində yaranmış problem də həll olundu. 2000-ci ilin aprel ayının ortalarında Çeçenistan ərazisindən keçməyən yeni neft boru kəməri istifadəyə verildi. Neftin Novorossiysk limanına nəqli bərpa edildi.

Bundan sonra 2000-ci il aprelin 28-də ABŞ Dövlət Departamentin- də ABŞ, Türkiyə, Azərbaycan və Gürcüstan nümayəndələri Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin yekun sənədini imzaladılar.

Azərbaycan, Türkiyə və Gürcüstan parlamentləri bu sənədi təsdiq etdi. Azərbaycan dövləti neft strategiyasını daha qətiyyətlə həyata keçirməkdə davam edirdi. Mayın 9-da Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftin nəqli ilə bağlı hökumətlərarası protokol imzalandı. Bütün bunlar Azərbaycanın yeni neft strategiyasının reallaşdırılmasma yönələn konkret addımlar idi.

Heydər Əliyevin 2000-ci il sentyabrın 12-də ABŞ-a səfəri zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Amerikanın Monkrif oyl və Türkiyənin Türk Petrolları şirkətləri arasında "Murovdağ" və "Kəla-
məddin" yataqlarında hasilatın pay bölgüsünə dair saziş imzalandı . Bu, ARDNŞ-in xarici neft şirkətləri ilə imzaladığı sayca 20-ci müqavilə idi. Qeyd etmək lazımdır ki, bu zaman bütövlükdə Azərbaycanın neft sektorunda görülən işlərin 30%-i ABŞ şirkətlərinin payına düşürdü.

Enerji sahəsində əməkdaşlıq digər ölkələrə də təsir edirdi. Belə ki, 2000-ci il sentyabrın 24-də qazax neftinin Bakı - Tbilisi - Ceyhan boru kəməri ilə nəqlinə dair Qazaxıstan ilə Azərbaycan arasında protokol imzalandı. Bundan sonra işlər daha da sürətləndirildi. Kəmərin tikintisi üçün sponsorlar qrupu formalaşdırılmağa başlandı. ARDNŞ, BP, Yunokal, TPAO, İtoçi, Remko, Delta Hess Sponsor Qrup 2000-ci il oktyabrın 3-də Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisinə dair sponsorlar qrupu

**Əliyev H.Ə. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Amerikanın Monkrif oyl və Türkiyənin Türk Petrolları şirkətləri arasında "Murovdağ" və "Kələməddin" yataqlarında hasilatın pay bölgüsünə dair sazişin imzalanma mərasimində nitq. 12 sentyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXX kitab, s. 72-77.**

olduqlarını elan etdilər. Oktyabrın 17-də isə Bakıda "Azərbaycan Respublikası hökuməti ilə əsas ixrac boru kəməri iştirakçıları və tranzit əraziyə malik ölkənin hökuməti arasında saziş" və "Bakı - Tbilisi - Ceyhan xam neft kəməri layihəsinin mühəndis işləri və layihələşdirilməsi üçün maliyyələşdirmə və əməkdaşlıq sazişi" imzalandı. Oktyabrın 18-də Tbilisidə ABƏŞ ilə Gürcüstan, oktyabrın 19-da isə bu şirkət ilə BOTAŞ arasında müvafiq sazişlər imzalandı.

İmzalanan sənədlərin böyük tarixi əhəmiyyəti var idi. Sənədlərin imzalanma mərasimində çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev dedi: "Sazişlərin imzalanması bu sahədə yeni bir mərhələ açacaqdır, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin əməli surətdə tikintisinə başlanacaqdır"'®*®.

Kəmərin tikintisi barədə texniki-kommersiya sazişləri imzalanarkən layihənin sponsorlar qrupunda iştirak payı belə bölüşdürülmüşdü: ARDNŞ - 50%, BP - 25,41%, Yunokal - 7,48%, Statoyl - 6,37%, TPAO - 5,02%, İtoçu - 2,92%, Remko - 1,5%, Delta Hess - 1,55%. Lakin Azərbaycanın bu qədər vəsaiti olmadığından payının bir hissəsini Fransa və Kanada şirkətlərinə verdi. 2001-ci il fevralın 8-də ABŞ-m Şevron şirkəti də Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin sponsorlar qrupuna daxil oldu. Həmin ilin martında ABŞ dövlət katibi Kolin Pauell bildirdi: "Biz Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisini müdafiə etməkdə davam edəcəyik". May ayında isə Prezident Corc Buş özünün milli energetika siyasətini bəyan etdi. Burada da Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru neft kəmərinin tikintisi müdafiə edilirdi.

Bu zaman "Şahdəniz" strukturundan təbii qazın hasil edilməsi Azərbaycanın mövqelərini daha da möhkəmləndirdi. 2001-ci ilin martında Azərbaycan ilə Türkiyə arasında 89,2 mlrd, m* həcmində qazın (ildə 6,6 mlrd, m*) 15 il müddətinə Bakı - Tbilisi - Ərzurum, daha sonra isə Avropaya nəqlinə dair hökumətlərarası saziş imzalandı. Eduard Şevardnad- zenin sözlərinə görə, qaz kəmərinin fəaliyyət göstərdiyi müddət ərzində Gürcüstan büdcəsinə 7 mlrd, dollar vəsait daxil olacaqdı. Qaz boru kəmərinin uzunluğu 1050 (800, 1030) km. idi. Kəmərin 2004-cü ildə işə salınması planlaşdırılmışdı. Gürcüstan ərazisindən keçən Azərbaycan qazının 5%-ni pulsuz alacaqdı. Bundan əlavə, Gürcüstan 20 il ərzində 1 min m*

**Müstəqil Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsində yeni mərhələ (Azərbaycan Prezidenti Heydər Əliyev Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsi barədə sazişlərin imzalanması mərasimində iştirak etmişdir). — "Azərbaycan" qəzeti, Bakı, 2000, 18 oktyabr.**

qaz üçün 55 dollar ödəməklə 500 mln. m^ qaz ala bilərdi. Türkiyə Azərbaycan qazının 1000 m^-ni 35 dollara alacaqdı"’*'. Azərbaycan üçün bu zaman əsas məsələ Avropa bazarına çıxmaq perspektivi idi.

Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin başlıca mühəndislik işləri layihəsi mayın 15-də tamamlandı. Həmin gün Bakıda keçirilən iclasda təkcə Azərbaycan neftinin Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri xəttini təmin edəcəyi məlum oldu. Azərbaycanın enerji diplomatiyasının böyük uğuru olan bu hadisə ixrac boru kəmərinin önünü açmış oldu"’*^.

Lakin kəmərin tikintisinə müqavimət göstərənlər səylərini dayandırmamışdılar. Xəzər dənizinin hüquqi statusuna dair keçirilən görüşlər nəticə vermir, Azərbaycana qarşı edilən təzyiqlər səngimirdi. Ona görə də Azərbaycan tərəfi ABŞ və digər ölkələrlə geniş məsləhətləşmələrini davam etdirirdi. Xəzər ətrafında yaranmış vəziyyəti və enerji məsələlərini müzakirə etmək üçün Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev ABŞ Prezidentinin və dövlət katibinin Xəzərin enerji diplomatiyası üzrə xüsusi müşaviri, ABŞ-m Türkmənistandakı keçmiş səfiri Stiven Mənn ilə 2001-ci il mayın 17-də görüşdü"’**. Görüşün əvvəlində Stiven Mənn bir neçə gündən sonra Viktor Kalyujnıy ilə danışıqlar aparmaq üçün Moskvaya gedəcəyini, iyulun 26-da Bakıda olacağını, iyulun 27-də “Şahdəniz” yatağından çıxarılacaq neftin nəqli ilə bağlı keçiriləcək tədbir zamanı Azərbaycan - Gürcüstan - Türkiyə qaz boru kəmərinin tikintisinə dair sənədlərin imzalanması mərasimində iştirak edəcəyini bildirdi. ABŞ hökuməti Azərbaycan ilə Gürcüstan arasında tranzit tariflərinə dair razılaşmadan məmnun qalmışdı. Çünki Gürcüstan ağır iqtisadi vəziyyətdə və böyük enerji asılılığında idi. Bakı - Tbilisi - Ceyhan neft boru kəməri üzrə tariflər aşağı idi. Buna görə də qaz boru kəməri üçün yüksək tranzit tarifləri Gürcüstan büdcəsinə ciddi kömək idi. ABŞ tərəfi BP şirkətinin rəhbəri Con Braun"’*"* ilə Gürcüstana qış mövsümündən əvvəl yardım edilməsi imkanlarını müzakirə etmişdi. Şirkət Gürcüstana kömək etməyə söz vermişdi. Öz növbəsində, ABŞ Gürcüstan tərəfi ilə

**ByraeB A. Kacmıü: saneM OH Sanaay, c.333-334.**

**Erdal Güven. Sir Browne’un bir bildiği var. - “Radikal” gazetesi, İstanbul, 2001, 24 Haziran.**

**ARXINA. 23.06.2001 - 07.08.2001. Qovluq Xel 1, v.95-96.**

**Con Braun (1948) - BP şirkətinin prezidenti olmuşdur. 1969-1983-ci illərdə Alyaska, Nyu York və Londonda neft və qazın kəşfiyyatı və çıxarılmasında müxtəlif vəzifələrdə çalışmışdır.**

birlikdə xüsusi işçi qrup təsis etmişdi. Bu qrup qış mövsümü ərzində enerji sektorunun idarə olunması və təşkilati problemlərin həlli ilə məşğul olmalı idi. Gürcüstanın əsas problemi iri müəssisələr tərəfindən ödəmələrin aparılmaması və əhalinin ağır maliyyə vəziyyəti idi.

Azərbaycan səfiri Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərləri layihələrinin Vaşinqtondakı bəzi analitik mərkəzlərin və etnik qrupların iqtisadi və siyasi məqsədlərə uyğun gəlməsinə şübhə ilə yanaşdıqlarını bildirdi. Belə mövqeyin yanlış olduğu şübhə doğurmurdu. Tikintiyə tərəfdar olanların bu layihənin həyata keçirilməsinə böyük inamı var idi. Ən başlıcası, uzun tərəddüdlərdən sonra BP şirkətinin Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisinə dair qərar qəbul etməsi bu məsələdə böyük rol oynamış, karbohidrogen ehtiyatlarının həcminin nəzərdə tutulan layihələri həyata keçirmək üçün kifayət etməsi barədə bəyanat vermişdi. Bu isə şübhələrə son qoymuşdu.

Görüşdə Rusiya ilə Türkiyə arasında "mavi axın" boru kəmərinin tikintisinə və İrandan Türkiyəyə qaz verilməsi məsələlərinə ABŞ-ın münasibəti də müzakirə edildi. ABŞ hökuməti Qara dənizin dibi ilə qaz boru kəmərinin çəkilişinə etiraz etmirdi. Bir sıra texniki çətinliklərə baxmayaraq, artıq bu tikintiyə başlanılmışdı. Türkiyənin indiki tələbatına görə qazın nəqli həcmi əvvəllər nəzərdə tutulduğu kimi 16 mlrd, kub metr deyil, 8 mlrd, kub metrə qədər ola bilərdi. Amerikalı diplomatın məlumatına görə, Türkiyə rəsmiləri İrandan qaz idxalını artırmaq niyyətində deyildilər. Bütövlükdə Ankara "mavi axın" xətti və "Şahdəniz" qazını almaq üzərində dayanırdı. ABŞ tərəfinin fikrincə. Transxəzər qaz boru kəmərinin tikintisi layihəsi böyük sual altında idi. Qeyd etmək lazımdır ki, bu zaman ABŞ diplomatiyası iki əsas istiqamətdə fəaliyyət göstərirdi: birincisi, regiondan qazın Türkiyə ərazisindən keçərək Avropaya nəqli üçün Xəzər dənizində, xüsusən onun Azərbaycan sektorunda qaz ehtiyatlarının ümumi həcmini müəyyənləşdirməyə çalışırdı. ABŞ hökuməti bu məsələni Avropa İttifaqı nümayəndələri ilə də müzakirə etmişdi. Danışıqlar zamanı mövcud şəraitdə Avropa istehlakçılarının daha çox Rusiya qazını almağa meyil etdikləri məlum olmuşdu. Qaz boru kəmərlərinin diversifikasiyası barədə ABŞ-ın təklifi Avropada müdafiə edilmişdi. İkincisi, Qazaxıstan neftinin Bakı - Tbilisi - Ceyhan boru kəmərinə qoşulmasına nail olmaq idi. Belə olduqda layihənin gəlirliliyi artacaqdı.

Azərbaycan tərəfinin fikrincə, boru kəməri layihələrinin həyata keçirilməsi şübhə doğurmurdu. Bütün nəqliyyat dəhlizi regiondan Avropaya getməli idi. Bununla əlaqədar olaraq ABŞ administrasiyasının səy

ləri, Böyük İpək yolu layihəsinin dəstəklənməsi region ölkələrinin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynayacaqdı. ABŞ Avropa İttifaqı ilə olan birgə layihələrin həyata keçirilməsi nəticəsində avtomobil, dəmiryol və limanların tikintisi və s. İnfrastrukturun inkişafında rol oynaya bilərdi. Digər ölkələr də bu işə qoşula bilərdilər. Özbəkistan öz pambığını Azərbaycan və Gürcüstan ərazisindən keçirməklə Avropaya daşımaq niyyətində idi. Bu, Rusiya ərazisindən keçməkdən 3 dəfə ucuz başa gəlirdi.

Görüşdə daha sonra Xəzər dənizinin hüquqi statusu məsələsi müzakirə edildi. ABŞ tərəfi bu məsələnin tezliklə həll ediləcəyinə şübhə ilə yanaşırdı. ABŞ diplomatının sözlərinə görə, Türkmənistanın oktyabr ayında keçirilməsini təklif etdiyi sammitin vaxtı dəyişdirilmişdi. Çünki tərəflər son variant üzərində razılığa gələ bilməmişdilər. Qeyd etmək lazımdır ki, hələ 1999-cu ildə ABŞ energetika naziri Bili Riçardsonun Aşqabada səfər etmişdi. O zaman Saparmurad Niyazov ABŞ-m Xəzər diplomatiyası üzrə səfirini və bütün Ağ evi yalnız Azərbaycanın maraqlarını müdafiə etdikləri üçün ittiham etmişdi. Türkmənistan Prezidentinin mövqeyinə Rusiya və İran təsir edirdi.

Söhbətin sonunda 907-ci düzəlişin energetika sahəsində ABŞ - Azərbaycan əməkdaşlığına vurduğu ziyan barədə fikir mübadiləsi aparıldı. ABŞ hökuməti regionda çalışan daha çox beynəlxalq neft və qaz kompaniyalarının diqqətini boru kəmərlərinin təhlükəsizliyi məsələlərinə cəlb etməyə tərəfdar idi. Ağ ev ərazilərindən boru kəmərləri keçən ölkələrə yardım etməyi planlaşdırırdı. Yardım kəşfiyyat, milli təhlükəsizlik, hərbi və b. sahələrdə ola bilərdi. ABŞ tərəfinin fikrincə, belə qarşılıqlı fəaliyyəti ictimaiyyətin diqqətini cəlb etmədən həyata keçirmək məqsədəmüvafiq idi. ABŞ-da olan məlumata görə, təkcə 2000-ci ildə Kolumbiyada neft boru kəmərlərinə 1100 hücum edilmişdi. Lakin kəmərlər yenə də fəaliyyət göstərirdi. ABŞ diplomatının fikrincə, boru kəmərləri ilə bağlı çoxlu müzakirələrin keçirilməsi potensial sərmayədarları qorxuda bilərdi.

Azərbaycan səfiri erməni lobbisinin konqresdə fəaliyyətini gücləndirdiyini ABŞ diplomatının nəzərinə çatdırdı. Onlar hətta nümayəndələr palatasına boru kəmərlərinin Ermənistandan keçməsi zəruriliyini əsaslandıran layihə də təqdim etmişdilər. Ermənilər konqresdəki lobbiləri vasitəsi ilə kəmərlərin maliyyələşdirilməsində iştirak edən təşkilatlara təsir edə bilərdilər.

Daha sonra Azərbaycan səfiri boru kəmərlərinin təhlükəsizliyinin mühafizəsi üçün Azərbaycandakı kadrların hazırlıq və təlim keçməsi mə

sələsi üzərində dayandı. 907-ci düzəliş buna mane olurdu. Məhz həmin düzəliş ucbatından Pentaqon Azərbaycan ilə tam şəkildə əməkdaşlıq edə bilmirdi.

Stiven Mənn ilə keçirilən görüş enerji sahəsində əməkdaşlığın perspektivlərini və görüləcək işləri müəyyənləşdirmək baxımından əhəmiyyətli idi. Müzakirələr tərəflərin məsələyə münasibətdə baxışlarının eyni olduğunu göstərirdi.

Bu zaman Xəzər neftinin bolqar - yunan, Transbalkan, Ukrayna, Rumıniya və b. marşrutlarla dünya bazarlarına çıxarılması məsələləri də müzakirə edilirdi. Lakin artıq Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri barədə qərar qəbul edilmişdi.

Müxtəlif səviyyələrdə göstərilən müqavimətlərə baxmayaraq, Azərbaycan işlərini davam etdirirdi. 2001-ci il iyunun 19-da Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi üzrə mühəndislik işləri başlandı. Bütün etiraz cəhdlərinə baxmayaraq, boru kəmərinin Ermənistandan deyil, Gürcüstandan keçməsi barədə qərarın qəbulu erməni dairələrini və lobbisini məyus etmişdi. Həm də təkcə erməniləri yox. Qonşu İran da bundan narazı qalmışdı. Azərbaycan tərəfi İran iiə araiarmda mövcud olan məsələləri müzakirə etmək üçün bəzi diplomatik addımlar atdı. 2001-ci il iyulun 2-də Azərbaycan Respublikasının Tehrandakı səfiri Abbasəli Həsənov İİR Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhani'°*^ ilə görüşərək Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyevin dəvət məktubunu ona təqdim etdi.

Həsən Ruhani Azərbaycan ilə əlaqələrin regionda İran üçün böyük əhəmiyyət kəsb etdiyini, Azərbaycan Respublikası ilə əlaqələrin inkişafında ölkəsinin maraqlı olduğunu dedi. O, bunun səbəbini hər iki ölkə xalqlarının tarixi, mədəni və dini bağlılığında görürdü. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının üzləşdiyi bir çox çətinliklərin aradan qaldırılmasında İranın hərtərəfli yardımına toxunan Həsən Ruhani İİR ali rəhbərliyinin xalqın istək və arzularını əsas tutaraq digər ölkələrlə əlaqələri qurduğunu bildirdi. Onun fikrincə, İran xalqı bu əlaqələrin qurulmasını istəmiş, dövlət də öz növbəsində xalqın və ölkənin mənafeyini əsas tutaraq həmişə Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsi üçün çalışm ı ş d ı İ r a n rəhbərliyi xalqın istəyini nəzərə almışdı, hər iki xalqın

**Həsən Ruhani (1948) —İran İslam Şura Məclisinin üzvü (1980-2000). Təhlükəsizlik Şurasının katibi (1989-2005). İİR Prezidenti (2013-cü ildən).**

**' ARXINA. 23.06.2001 - 07.08.2001. Qovluq Xbl 1, v. 40-42.**

iradəsini və istəyini əsas tutaraq regionda qardaş, qonşu və dost bir ölkə kimi əlaqələrin inkişafım, qarşılıqlı problemlərin danışıqlar yolu ilə çözülməsin! istəyirdi. İki ölkə arasında elə bir əsaslı problemin olmadığını qeyd edən Həsən Ruhani kiçik bir siyasi iradə göstərilməsi ilə bu xırda məsələlərin həllinin mümkünlüyünə toxunaraq bildirdi ki, Azərbaycan xalqının və İran xalqının mənafeyi, Azərbaycanın və İranın təhlükəsizliyi, regionda sülh və əmin-amanlığın bərqərar edilməsi həmin problemlərin həllini tələb edir. O, Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin tutduğu mövqeyə toxunaraq Azərbaycan xalqının ədalətli hüququnun bərpa edilməsinin İran üçün çox vacib olduğunu söylədi. İran Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə biganə qalmır, regionun təhlükəsizliyini milli maraqları baxımından qiymətləndirir, gedən prosesləri diqqətlə izləyir və bu məsələyə həssaslıqla yanaşırdı. O, Qafqaz regionunda İranın sülh və əmin-amanlıq üçün Azərbaycana hərtərəfli kömək göstərməyə həmişə hazır olduğunu bildirərək, məntəqəyə xarici qüvvələrin cəlb edilməsini təhlükəsizlik baxımından düzgün olmayan siyasət kimi qiymətləndirdi.

İran tərəfi Xəzər dənizinin hüquqi statusunun həlli məsələsini milli mənafeyi baxımından çox vacib hesab edir, bu məsələdə Azərbaycan ilə əməkdaşlığa önəmli yer verirdi. Xəzər məsələsində Rusiya və Qazaxıstanın ortaq məxrəcə gəldiyinə toxunan Həsən Ruhani Azərbaycan, İran və Türkmənistanın da səylərinin birləşdirilməsinin vacibliyini qeyd edərək Aşqabad ilə heç bir fikir ayrılığının olmadığını vurğuladı. İran tərəfi Azərbaycan Respublikası ilə də bu məsələyə dair anlaşma əldə etməyi mümkün sayırdı. Həsən Ruhani qarşılıqlı müzakirələr zamanı “bir-iki neft yatağı” üstündə əlaqələrin pisləşməsini yersiz saydığını, bu barədə razılıq və güzəşt əldə edilməsinin mümkünlüyünü vurğuladı. İran hökuməti Xəzər dənizinə xarici ölkəiərin cəlb edilməsi siyasətini milli mənafeyi və təhlükəsizliyi baxımından məqbul hesab etmirdi. İran bu məsələdə 1921 və 1940-cı illərdə SSRİ ilə imzaladığı müqavilələrə əsaslanırdı. Regionda təhlükəsizlik məsələləri barəsində iki ölkə arasında qarşılıqlı müzakirələrin aparılması zəruri idi.

Azərbaycan səfiri iki ölkə arasında münasibətlərin zəifləməsinin təəssüfedici olduğunu qeyd etdi. O, Ramiz Mehdiyevin, milli təhlükəsizlik naziri Namiq Abbasovun və sərhəd qoşunları komandanı Elçin Quliyevin"”*^ İrana səfər etmək istədiyini, iki ölkə arasında sərhəd və hüquqi məsələlər üzrə dövlətlərarası müştərək komissiyanın yaradılması barədə

**Elçin Quliyev (1967) - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhad Qoşunlarının komandanı (2002-ci ildən). General-polkovnik.**

müvafiq sənədin imzalanmasının nəzərdə tutulduğunu dedi. Bu səfərlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İİR-ə gözlənilən rəsmi səfərinə hazırlıq məqsədi daşıyırdı. Səfirin fikrincə, iki ölkə arasında inamsızlığa heç bir əsas olmamışdı. Lakin yaranmış inamsızlıq təsirini göstərmiş və bir sıra əhəmiyyətli layihələr həyata keçirilməmişdi.

Xəzər dənizinin hüquqi statusunun təyin edilməsi məsələsinə toxunan Azərbaycan səfiri bu məsələnin həllinin Xəzəryanı ölkələrin birlikdə razılığı əsasında mümkünlüyünü bildirdi. Qeyd etdi ki, məsələ təkcə Azərbaycana və İrana aid olsaydı çoxdan həllini tapardı. O, məsələnin Xəzəryanı beş ölkəyə aid olduğundan konsensus əsasında həll olunmasına dair Azərbaycanın mövqeyini çatdırdı. Səfir ikitərəfli əlaqələrin inkişaf etdirilməsini Xəzər dənizinin hüquqi statusunun həlli məsələsi ilə bağlanması və paket şəklində həll edilməsi fikrinin düzgün olmadığını vurğuladı. Bildirdi ki, mövcud olan imkanlardan istifadə edib yalnız iki tərəfə aid olan məsələlər həll edilməlidir.

Həsən Ruhaninin Azərbaycana səfəri ərəfəsində İran qəzetləri İran İslam Respublikasının regionda yerləşən ölkələrin problemlərinin aradan qaldırılmasında hərtərəfli kömək göstərməyə hazır olduğunu yazır, bu ölkəni regionun birləşməsi naminə Qafqazda, xüsusilə Xəzər dənizində regional təhlükəsizliyin və qarşılıqlı inamın yaradılmasının tərəfdarı kimi səciyyələndirirdi“Resalət” qəzeti 19 iyul tarixli nömrəsində yazırdı ki, guya Xəzər sahilində yerləşən ölkələr arasında Azərbaycan İranın gərginliyi azaltmaq siyasətinin əksinə siyasət yürüdür, bəzi məsələləri şişirtmək- lə və xaricilərin regiona ayaq açmalarına imkan verməklə inamsızlıq yaratmağa və İran İslam Respublikasının məqsədlərinə nail olmamasına çalı- şır'°^^

Əslində belə mülahizələrin heç bir əsası yox idi. Azərbaycan İrana münasibətdə mehriban qonşuluq siyasəti yürüdürdü, onun Avropa dövlətləri və ABŞ ilə əməkdaşlığı qətiyyən İrana qarşı yönəlməmişdi. Azərbaycan ərazisi İran əleyhinə fəaliyyət üçün meydan deyildi. Azərbaycan ayrı-ayrı ölkələri əməkdaşlığa cəlb edən, birləşdirən bir ölkə idi.

Azərbaycanda keçirilən beynəlxalq toplantılar, onlarda İranın da iştirakı deyilənləri aydın şəkildə göstərirdi. Belə ki, iyunun 5-də Bakıda açılan VIII Beynəlxalq “Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisi”ndə 25 ölkənin təqribən 337 şirkəti, o cümlədən İranın da iştirakı

**' ARXINA. 23.06.2001-07.08.2001. Qovluq Xal 1, v.142-143.**
**’ ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xal 1, v.165-166.**

Azərbaycanın neft, qaz, neftayırma və neft kimyasına artan beynəlxalq marağı göstərdi

İran İslam Respublikası Ali Milli Təhlükəsizlik Şurasının Katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti 2001-ci il iyulun 19- 21-də Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. İyulun 20-də nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi'°^'. Görüşdə iki ölkə arasında münasibətlərin gündən günə inkişaf etdiyi, təkcə Naxçıvandan hər gün gediş-gəliş edənlərin sayının 4 min nəfərə yaxın olduğu qeyd edildi. Heydər Əlyev İranı Azərbaycan üçün dost, qonşu və qardaş ölkə adlandırdı. Bu dostluğun qədim tarixi kökləri var idi. İki ölkəni bir-birinə bağlayan milli-mənəvi, dini dəyərlər, adət-ənələlər eyni idi. Heydər Əliyev Azərbaycan - İran münasibətlərinin Gürcüstan və Ermənistan ilə münasibətlərə bənzəmədiyini qeyd edərək Həsən Ruhaniyə müraciətlə dedi: "Burada oturanlar və ölkələrimizdəki insanlar hamısı bir- birinə bənzəyir. Məsələn, burada sizə bənzəyən azərbaycanlılar nə qədər- dir. Amma sizə bənzəyən bir erməni, gürcü tapa bilməzsiniz. Eləcə də sizin səfər yoldaşlarınızın hamısı haqqında bunu demək olar... Çünki bu, bizim bir kökdən olduğumuzu, genetik köklərimizin bir olduğunu gös- tərir""®l

Azərbaycan tərəfi İranın Ermənistana təsir imkanlarını işə salmasını istədi. O, Şimal-Cənub dəmiryol xəttinin əhəmiyyətini. Cənubi Qafqazda Azərbaycanın digər respublikalarla müqayisədə daha əlverişli mövqedə olduğunu vurğuladı. Azərbaycan İranın ərazi bütövlüyünü, vahid İranı tanıyırdı, onun qüdrətli dövlət kimi inkişaf etməsində maraqlı idi.

Danışıqların yekununda Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası ilə İİR Ali Milli Təhlükəsizlik Şurası arasında əməkdaşlıq haqqında memorandum imzalandı.

Səfərdən dərhal sonra, iyulun 21-də İİR xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini, İİR Prezidentinin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsi üzrə xüsusi nümayəndəsi Əli Ahəni Azərbaycan Respublikasının Tehrandakı səfiri Abbasəli

**Bakıda VIII Beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgisi və konfransı açılmışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s.571-581.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının nümayəndə heyətini qəbul etmişdir. 20 iyul 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s.344-351.**

**Yenə orada, s. 346.**

Həsənovu nazirliyə dəvət etdi'°". Görüşdə İran tərəfi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə BP şirkətinin "Alov", "Şərq" və "Araz" (İran bu yataqları "Əlborz" adlandırırdı - M.Q.) yataqlarında neft kəşfiyyatı və qazma işlərinə başlaması haqqında məlumata malik olduğunu qeyd edərək yataqların Xəzər dənizinin guya İrana məxsus 20%-lik ərazidə yerləşdiyini vurğuladı, Azərbaycan tərəfinin belə qanunsuz hərəkətlərin qarşısını alacağına ümidini bildirdi'®^". Xəzər dənizində Azərbaycan Respublikasının iştirakı ilə baş verən bütün hadisələr üçün Azərbaycanın məsuliyyət daşıdığını bildirən Əli Ahəni qanunsuz halların qarşısının tezliklə alınmasını istədi. Görüşün sonunda "Alov", "Şərq" və "Araz" yataqlarında ARDNŞ ilə BP şirkətinin apardığı neft kəşfiyyatı və qazma işlərinə başlanmasına dair İran tərəfinin etiraz notası təqdim olundu. Notada yazılırdı ki, 25 iyun 1998-ci il, 17 sentyabr 1998-ci il notalarında qeyd edildiyi kimi, göstərilən neft yataqlarında araşdırma, öyrənmə, kəşfiyyat, istehsal və hər hansı digər fəaliyyət üçün İran İslam Respublikası dövlətindən icazə alınmalıdır. Notada bu yataqlarda adı çəkilən tədbirlərin həyata keçirilməsi İİR-in qanuni hüquqlarına və milli mənafelərinə zidd olaraq qimətləndirilirdi. Xüsusi olaraq vurğulanırdı ki, İran İslam Respublikası heç bir ölkəyə və xarici şirkətə bu məntəqədə yuxarıda qeyd olunan fəaliyyətin həyata keçirilməsinə icazə verməyəcəkdir.'®^^

İran tərəfi bununla da kifayətlənmədi. Həsən Ruhani iyulun 23-də Böyük Britaniyanın İİR-dəki səfiri Nik Braunu Ali Milli Təhlükəsizlik Şurasına dəvət etdi. Səfir ilə görüşdə BP şirkətinin göstərilən məntəqədə qazıntı-kəşfiyyat işləri aparmasına etiraz bildirildi.'®®®

"İran" qəzeti iyulun 24-də yazırdı ki, keçən həftə Azərbaycan Respublikası ilə müqavilə imzalayan neft şirkətlərindən biri Xəzər dənizinin guya İrana aid 20% hissəsində fəaliyyət göstərməyə başlamışdır. Bu xəbər İran və region ölkələrinin siyasi və iqtisadi dairələrində geniş təhlil olunmuşdur. Qəzetin məlumatına görə. Tehrandakı Azərbaycan Respublikası səfirinə nota verilmiş, iyulun 23-də isə Azərbaycan ilə müqavilə imzalamış neft şirkətlərinə xəbərdarlıq edilmişdi. Qəzet İrandan lazımi icazə alınmadığı təqdirdə bütün müqavilələrin ləğvini tələb edirdi. İran Neft Nazirliyinin təqribi hesablamalarına əsasən Xəzər dənizinin 17-22%-lik sektorunda yerləşən bu hissədə 20 milyard barrel neft var idi. Qəzet

**' ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Nd ı, v.137-138. '**

**ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq** JVbl **l, y.l36.**

**' ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Rbl 1, v.l39.**

**' ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xsl 1, v.142-143.**

yazırdı ki, Xəzər dənizinin böyük neft yataqlarından sayılan “Əlborz” blokunda böyük neft yatağı olduğundan qonşu Azərbaycan Respublikası İrandan daha tez kəşfiyyat və istismar işlərinə başlamaq niyyətindədir. Təqribi hesablamalara görə, İranın Xəzər dənizindəki sektorunda neftin miqdarı aşağıdakı kimi idi: qəbul edilməyən xəttdən yuxarı məhdudlaşdırılmış sahədə Azərbaycan ilə müştərək “Əlborz” yatağının dərinliyi 500 metr idi. Qəbul edilməyən xəttin üzərində 14%-lə məhdudlaşdırılmış ərazidə - Çalusda dənizin dərinliyi 800 metr idi. Burada 3 milyard barrel neftin olduğu ehtimal edilirdi. Qəbul edilməyən xəttdən yuxarı 17%-lik məhdudlaşdırılmış ərazidə 3 milyard barrel, qəbul edilməyən xəttdən aşağı Nururuyan yatağında 2 milyard 550 milyon barrel, İran sahili yaxınlığında Ramsar yatağında 1 milyard 500 milyon, qəbul edilməyən xəttdən yuxarı 17%-lik məhdudlaşdırılmış ərazidə 1 milyard 400 milyon barrel, qəbul edilməyən xəttdən yuxarı 17%-lik məhdudlaşdınimış ərazidə 900 milyon barrel, sahil yaxınlığında Rudsər yatağında 500 milyon barrel neftin olması ehtimal edilirdi. Xəzər dənizinin cənub hissəsində 32 milyard 850 milyon barrel neft mövcud idi. Qəzetin yazdığına görə. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməməsi regionda sonrakı qarışıqlıqların baş verməsinə səbəb ola bilərdi.

İİR Xarici İşlər Nazirliyi mətbuat mərkəzinin rəisi Həmid Rza Asəfi iyulun 24-də keçirdiyi mətbuat konfransında dedi: “Azərbaycan Respublikası hökuməti və neft şirkətləri İran İslam Respublikasının diplomtik addımından və “Əlborz” neft məntəqəsi barədə tutduğu mövqedən xəbərdar idilər. Gözlənilirdi ki, Azərbaycan Respublikası İran İslam Respublikasının yumşaq xəbərdarlığını dərk edəcək və hər hansı anlaşılmazlığın artmasına səbəb ola biləcək addımları atmayacaqdır”'®®’. Daha sonra dedi ki, İran İslam Respublikası Xəzəryanı ölkələr arasında müzakirələrin sürətləndirilməsinə tərəfdardır və Xəzər dənizinin hüquqi statusunun həlli məsələsində qarşılıqlı razılaşma. Xəzəryanı ölkələrin mənafelərinə ehtiramla yanaşma yolunu ən münasib yol sayır və Xəzər dənizini sülh, dostluq və əməkdaşlıq dənizi kimi görmək niyyətindədir, İran hüquq və mənafelərini qətiyyətlə müdafiə edəcəkdir.

Bundan bir gün sonra, iyulun 25-də Xəzər dənizində münaqişə baş verdi'®®*. İran hərbi təyyarə və gəmiləri Azərbaycanın xarici şirkətlərlə müştərək işlənən “Alov” və “Şərq” yataqları və “Geofızik-3” gəmisi üzərinə hücuma keçdilər. Gəmini atəşə tutdular. İki ölkə arasında su sər-

**ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq ftbl 1, v.170-171. ‘**
**ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq ftbl l, y.l88.**

hədini göstərən işarənin birini dağıtdılar. Bu, Azərbaycan - İran münasibətlərində xoşagəlməz hal idi. Hadisədən sonra Tehran qəzetləri əvvəlki illərlə müqayisədə İran - Azərbaycan əlaqələri haqqında daha çox yazılar dərc etmişdilər. Demək olar ki, bütün mərkəzi mətbuat orqanları tərəfindən toxunulan bu mövzu qəzetlərin birinci səhifələrinə çıxarılmış, böyük hərflərlə cəlbedici başlıqlar - "İranın addımı müdafiə ilə əlaqədar olduğundan qanunidir", "İranın tədbirləri məntiqidir, İngiltərə tez başa düşdü", "Xəzəryanı ölkələr münaqişə olmayan yerlərdə fəaliyyət göstərməlidirlər", "Xəzər NATO-nun ərazisi deyildir", "Azərbaycan Xəzər dənizi hövzəsində özbaşına addım atmaq fikrindədir" və s. verilmişdi'®®^.

Azərbaycan tərəfi İrana etiraz notası verərək məlum hərəkətlərini pislədi. Xəzər dənizində Azərbaycan hərbi dəniz donanması hazırlıq vəziyyətinə gətirildi. Böyük dövlətlər Azərbaycanı müdafiə etdilər. Xəzər dənizində bu qarşıdurma ABŞ-da narahatlıq yaratdı. ABŞ Dövlət Departamentinin mətbuat katibi F.Rikers Birləşmiş Ştatların Xəzər dənizində münaqişədən narahat olduğunu bildirərək, İranın hərəkətlərinin Xəzər dənizinin hüquqi statusunun dinc yolla müəyyənləşdirilməsi ilə bir araya sığmadığını vurğuladı.

Belə bir şəraitdə Türkmənistan da siyasətini sərtləşdirdi. 2001-ci il iyulun 27-də Türkmənistan Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə nota göndərərək Xəzər dənizində Azərbaycanın guya hüquqa zidd hərəkətlərinə qarşı etirazını bildirdi. Azərbaycan tərəfi belə əsassız iddiaları rədd etdi.

İranın hərəkətlərinin konkret məqsədləri var idi. Bu ölkə Xəzər dənizinə digər dövlətlərin daxil olmasını milli maraqlarına zərbə kimi qiymətləndirir, "Əsrin müqaviləsi" həyata keçirildikdən sonra Azərbaycanın güclənəcəyindən və İranda tarixi torpaqlarında yaşayan azərbaycanlılar üçün cəlbedici olacağından narahat idi. Ərazisinin kiçik, əhalisinin sayının az olmasına baxmayaraq, Azərbaycan Respublikasının varlığını İranda bəzi dairələr təhdid kimi qiymətləndirirdilər. Digər tərəfdən İran özü neft ixtac edən bir ölkə idi. 1978-1979-cu illər islam inqilabından sonra ABŞ ilə münasibətlərin pozulması səbəbindən İran neft sənayesi bir sıra problemlərlə üzləşmişdi. Azərbaycan Respublikasının Qərb ölkələri ilə əməkdaşlıq edərək neft ixrac edən mərkəzlərdən birinə çevrilməsi, dünyanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlaması İranda bəzi dairələr tərəfindən qısqanclıqla qarşılanırdı. İran hakimiyyəti Qərb kapita-

**ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xal 1, v.191-194.**

lının regiona gəlməsini özünün milli maraqlarına təhdid kimi qiymətləndirirdi.

Münaqişə baş verdikdən bir neçə gün sonra, avqustun 7-də İran xarici işlər nazirinin müavini, İran Prezidentinin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələləri üzrə xüsusi nümayəndəsi Əli Ahəni Moskvaya səfər etdi. O, avqustun 8-də Rusiya xarici işlər nazirinin

müavinləri Viktor Kalyujnıy, Aleksandr Losyukov"°° və Aleksandr Avdeev"°' ilə görüşərək Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsi üzrə ikitərəfli məsləhətləşmələr keçirdi. Onlar Xəzər dənizində əməkdaşlıq məsələlərində mütəmadi olaraq Rusiya - İran məsləhətləşmələrinin keçirilməsinin, hüquqi status qəbul edilənədək 1921-ci il fevralın 26-da və 1940-cı il martın 25-də imzalanmış müqavilələri hüquqi əsas kimi götürməyin vacibliyini vurğuladılar. Tərəflər beş Xəzəryanı dövlətin ümumi razılığı ilə hüquqi statusun müəyyən edilməsinin. Xəzər dənizində qarşılıqlı sərfəli əməkdaşlığın və dənizin mineral, xüsusilə də neft-qaz ehtiyatlarından istifadənin möhkəm hüquqi əsasının qurulmasının vacibliyini qeyd etdilər, Xəzəryanı dövlətlərin sammitinin çağırılmasına da tərəfdar oldular.”®^. Viktor Kalyujnıy Xəzəryanı ölkələr arasında yaranan narazılıqların silah işlətmədən, mehriban qonşuluq münasibətləri ruhunda danışıqlar yolu ilə həll olunması barədə Rusiyanın qəti mövqeyini bəyan etdi.

Moskvada görüşlərini başa çatdıran Əli Ahəni Türkmənistana getdi. Avqustun 10-da Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazov, xarici işlər naziri Rəşid Meredov”®^, Türkmənistan Nazirlər Kabineti sədrinin neft-qaz məsələləri üzrə müavini Q.Muradov ilə keçirilən görüşdə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, neft-qaz sahəsində görülən işlər və s. məsələlər müzakirə edildi. Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsinin vacibliyi vurğulandı.

Keçirilən müzakirələr Azərbaycanın enerji siyasətinə qonşu dövlətlərin xüsusi maraq göstərdiklərini və həssaslıqla yanaşdıqlarını göstərirdi.

---

**° Aleksandr Losyukov (1943) ■ Rusiya xarici işlər nazirinin müavini (2000-2004).**

**Aleksandr Avdeev (1946) - Rusiya xarici işlər nazirinin müavini (1996-1998), birinci müavini (1998-2002)**

**^ ARXINA. 08.08.2001-12.09.2001. Qovluq N>11, v.50-51.**

**Rəşid Meredov (1960) - Türkmənistanın xarici işlər naziri (2001-ci ildən), Baş Nazirin müavini (2003).**

Azərbaycan isə daha qətiyyətlə yeni neft strategiyasını həyata keçirir, qonşu ölkələrlə mehriban münasibətlərinin davam etdirilməsinə çalışır və məsləhətləşmələri aparırdı. İran tərəfinin keçirdiyi danışıqlar Azərbaycanın da diqqətindən kənarda qalmadı. Azərbaycanın İrandakı səfiri Ab- basəli Həsənov 2001-ci il avqustun 12-də İran XİN MDB ölkələri idarəsinin rəisi Əlirza Biqdeli ilə görüşərək Əli Ahəninin Rusiya və Türkmənstana səfərlərinin nəticələri ilə maraqlandı. Səfər barədə məlumat verən İran diplomatı ölkəsinin Xəzərdə heç bir sərhəd tanımadığını söylədi"®". Xəzərin hüquqi statusu müəyyənləşdirilənə qədər İran və Rusiyanın 1921 və 1940-cı il müqavilələrinə əsaslanacaqlarını bildirdi. Eyni zamanda İran diplomatının səfərindən bir həftə əvvəl Ermənistan rəsmi nümayəndə heyətinin Aşqabadda olduğunu və təbii qaz almaq barədə razılıq əldə edildiyini və hətta alınacaq qazın qiymətləri müəyyənləş- dirildikdən sonra gələcəkdə tikiləcək İran - Ermənistan qaz kəməri ilə nəql olunacağı barədə fikir mübadiləsi apardığını dedi. İran tərəfi Azərbaycanın Xəzər dənizində Türkiyə və İsrail ilə birlikdə hərbi təlimlər keçirəcəyi barədə yayılan xəbərlərdən narahat idi.

İran “Alov”, “Şərq” və “Araz” neft yataqlarına dair verdiyi üç notaya Azərbaycanın məhəl qoymadığına. Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin səfərinin ilk günü tədqiqat gəmisinin qeyd olunan əraziyə göndərilməsinə etiraz etdi. İran diplomatı ölkəsinin verdiyi notanın arxasında hərbi güc dayandığını vurğulayırdı. Belə yanaşma yanlış idi. Çünki iki ölkə arasında sərhəd Astara - Həsənqulu xəttindən keçirdi. İran tərəfi bu ərazidən vaxtilə istifadə edə bilməməsini Azərbaycanın Dağlıq Qarabağ regionunun işğal edilmiş ərazisi ilə müqayisə edərək bildirdi ki, vaxtilə haqqımızdan istifadə edə bilməməyimiz heç kimə ərazimizə təcavüz etməyə imkan vermir. İran diplomatının sözlərinə görə. Xəzərin sahilyanı ölkələr arasında beş bərabər hissəyə bölünməsi barədə artıq Rusiya və Türkmənistan ilə razılıq əldə edilmişdi, Azərbaycanın bu məsələyə razılıq verəcəyi təqdirdə Qazaxıstanı razı salmaq asan idi.

İranın mövqeyi münasibətləri daha da gərginləşdirirdi və tərəflərə faydalı deyildi. İki ölkə arasında gərginliyi aradan qaldırmaq üçün xarici işlər naziri Vilayət Quliyev İranın xarici işlər naziri Kamal Xərrazi ilə telefonla danışdı. Bundan sonra hər iki ölkənin mətbuatında gərginlik yaradan məqalələrin dərci azaldı.

**' ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Nal l, v.61-63.**

Belə bir şəraitdə Azərbaycan səfiri Abbasəli Həsənov avqustun 19- da İİR XİN MDB ölkələri baş idarəsinin rəisi M.Dövlətabadi ilə görüşdü"®^. Azərbaycan tərəfi Prezident Heydər Əliyevin İrana səfərinin dəqiq tarixinin müəyyən edilməsi barədə məlumat gözləyirdi. İran Heydər Əliyevin səfəri ilə bağlı son hazırlıq işləri aparıldığı bir zamanda iki ölkə arasında hər hansı bir problem yaratmaq niyyətində olmasa da, Azərbaycan silahlı qüvvələrinin Türkiyə ordusu ilə birlikdə Xəzər dənizində hərbi təlimlər keçirəcəyi barədə yayılan xəbərlərdən narahat idi. İran diplomatı Xəzər dənizi məsələsində ordu tərəfindən XİN-ə təzyiqlər edildiyini, Xəzər dənizinin İİR-ə məxsus “20 %-lik ərazisində” heç bir dövlətə və ya hər hansı şirkətə güzəşt olunmayacağmı, bu ərazilərin istər su, istərsə də hava sərhədinin İran silahlı qüvvələri tərəfindən müdafiə olunduğunu qeyd etdi. Həmin ərazilərdə nəzarət uçuşları həyata keçirən İrana məxsus təyyarələrin döyüşə tam hazır vəziyyətdə olduğunu bildirən diplomat hər hansı təh- rikedici hadisə üçün Azərbaycan tərəfinin məsuliyyət daşıdığını bildirdi. Bu barədə məlumatın tez bir zamanda Azərbaycan Respublikası hökumətinə çatdırılmasını xahiş edən İran tərəfi Xəzər dənizi məsələsində mövqeyinin qəti olduğunu, “bu məsələdə İİR-in tutduğu mövqeni zarafat kimi qəbul edənlərə İİR silahlı qüvvələri öz yerini göstərməyə hazırdır” dedi.

Azərbaycan səfiri Rusiyanın Ermənistan ərazisində yerləşən 102 saylı hərbi hissəsinin Ermənistan ordusu ilə birgə təlimlər keçirməsinin regionda təhlükəsizliyə xidmət etmədiyini deyərək, bu məsələyə İranın nə üçün münasibət bildirməməsinə dair sual verdi. Eyni zamanda bildirdi ki, Azərbaycan və Türkiyə silahlı qüvvələrinin birgə təlimlər keçməsi İran üçün təhlükə törətmir, Azərbaycan ərazisindən İrana qarşı heç bir dövlət istifadə edə bilməz. Bu zaman Azərbaycan - İran sərhədinin Rusiya ilə birgə qorunmasına dair Moskvanın təklifi qəbul edilməmişdi.

İran tərəfi Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan çıxarılan neft və qaz məhsullarının daşınmasının Rusiyadan başqa yeganə təhlükəsiz yolunun İrandan keçdiyini bildirir, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərini siyasi oyun adlandırır, Azərbaycanda hasil olunan neftin daşınmasının ən ucuz yolu kimi Bakı - Təbriz boru kəmərini görür, Azərbaycan neftinin Təbriz neftayırma zavoduna daşınması əvəzində çox cüzi xərci çıxmaqla Fars körfəzində eyni miqdarda neft verilməsi və ya gündə 280 min barrel olmaqla İranın daxili istifadəsi üçün alınmasını hesab edirdi. İran ilə Türkmənistan arasında əldə olunan

**ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq *NıU,* v.155-157.**

razılığa əsasən Türkmənistandan alınan təbii qazın həcminə uyğun olaraq gələcəkdə tikiləcək İran - Ermənistan qaz boru kəməri vasitəsi ilə Ermənistana qaz verilməsi nəzərdə tutulurdu. Bu məsələ barədə Türkmənistan ilə İran arasında razılıq əldə edilmişdi. İran tərəfi Azərbaycan Respublikası ilə İİR arasında birgə icra olunması planlaşdırılan layihələrin xərcinin 85%-ni ödəməyə hazır olduğunu bildirdi.

Yaranmış vəziyyətdə qətiyyətli mövqe nümayiş etdirən Azərbaycan Respublikası İran və Türkmənistana nota verərək mövqeyini bildirdi. Azərbaycan tərəfi Xəzər dənizindəki işlərini davam etdirdi. Azərbaycana beynəlxalq aləmdən dəstək gəldi. NATO blokunun üzvü olan Türkiyə Azərbaycanı müdafiə etdi. Türkiyə hərbi hava qüvvələrinin təyyarələri Azərbaycana gələrək Bakı səmasında uçdular.

Bundan sonra İran da Xəzər dənizindəki sektorunda kəşfiyyat işlərinə başladı. 2002-ci il fevralın 2-də İran İslam Respublikası İslam Şurası Məclisinin Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının neft naziri B.Zəngənənin və XİN-in Xəzər dənizi məsələsi üzrə məsul şəxslərinin iştirakı ilə keçirilən iclasında komissiya üzvlərinə sahilyanı ölkələr ilə aparılan danışıqlar, əldə olunan razılaşmalar və həyata keçirilən tədbirlər barədə hesabat verildi. B. Zəngənəyə Neft Nazirliyinin ən tez bir zamanda Xəzər dənizində fəaliyyətini genişləndirmək, neft və qaz yataqlarının kəşfiyyatına və məlum yataqların istismarına başlamaq tövsiyə olundu. Qeyd etmək lazımdır ki, B.Zəngənə hələ yanvar ayında Əlcəzairdə dünyada təbii qaz istehsal edən ölkələrin toplantısı zamanı Əl-Cəzirə televiziya kanalma müsahibəsində bildirmişdi ki, İran xarici neft şirkətlərinin Xəzər dənizində fəaliyyətinə etiraz etmir və yaxın zamanlarda İran da Xəzər dənizində mövcud yataqların istismarına başlayacaqdır'

Belə yanaşma heç şübhəsiz, müsbət idi. Lakin Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisindən narahat olan qeyri-hökumət təşkilatları da fəaliyyətlərini dayandırmamışdılar. Onlar 2002-ci ilin iyun ayında Dünya Bankının prezidenti Ceyms Vulfonsona, Avropa İnvestisiya Bankının prezidenti Filipp Meystada, Avropa Yenidənqurma və İnkişaf Bankının direktoru Jan Lemerə, ABŞ İdxal-İxrac Bankının prezidenti Con Robsona və b. məktub göndərərək regionda neft və qaz istehsalının, xüsusən Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sosial inkişaf, insan hüquqları, ekologiya və təhlükəsizlik sahələrində nəticələrindən narahatlıqlarını bildirdilər""^. Kəmərin tikintisinin

[1106] **ARXINA. 02.02.2002-20.02.2002. Qovluq Xsl 1, v.l8.**
**ARXİNA. 10.07.2002 - 01.10.2002. Qovluq XaS, v.207-215.**

dayandırılmasını tələb edirdilər. Lakin onların əsassız tələbləri nəzərə alınmadı.

Belə bir vaxtda, iyunun 4-də Bakıda keçirilən ənənəvi "Xəzər neft, qaz, neftayırma və neft kimyası - 2002" IX Beynəlxalq sərgisində dünyanın 31 ölkəsindən 300-dən çox şirkətin iştirak etməsi Azərbaycanın enerji siyasətinin uğuru olmaqla yanaşı ona olan marağın artdığını göstərirdi. Toplantıda çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı'Belə bir sərginin keçirilməsi və beynəlxalq maraq Azərbaycanın müasir dünyanın neft mərkəzlərindən birinə çevrildiyini göstərirdi.

İstər ayrı-ayrı dövlətlərin Azərbaycanın daxili işlərinə kobud müdaxiləsi cəhdləri, istərsə də arxalarında bəzi böyük güclərin durduğu qeyri-hökumət təşkilatlarının təzyiqləri Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə mane ola bilmədi. Kəmərin tikintisi üzrə sponsorlar qrupu 2002-ci il avqustun 1-də Londonda BTC Co şirkətini qurdular. Şirkətin səhmdarları aşağıdakılar idi: ARDNŞ - 25%, BP - 38,21%, Yunokal - 8,90%, Statoyl - 9,58%, TPAO - 7,55%, Eni - 5%, İtoçi - 3,4%, Amerada Hess - 2,36%. Şirkətin direktorlar şurasının qərarı ilə nəticələri 2001-ci ilin sonlarında elan edilmiş tender əsasında ümumi uzunluğu 1760 km. olan kəmərin Azərbaycandan keçən hissəsinin (442 km.) tikintisi Yunanıstanın CCİC şirkətinə, Gürcüstan ərazisindən keçən (248 km.) hissəsinin, eləcə də Azərbaycan və Gürcüstanda nasos stansiyalarının tikintisi Fransanın Spie Capag şirkətinin rəhbərlik etdiyi və ABŞ-m Petrofac şirkətinin daxil olduğu birgə müəssisəyə, Türkiyədən keçən (1070 km.) hissəsinin tikintisi BOTAŞ şirkətinə həvalə edildi. Neft boru kəməri çoxlu çaylardan, 3 min metr hündürlükdə olan dağlardan keçəcəkdi. ABŞ hökuməti avqustun 2-də bəyanat verərək şirkətin qurulmasını bəyəndi və onu Xəzər bölgəsinin neftini dünya bazarına ixrac etmək sahəsində mühüm addım kimi qiymətləndirdi.

Bunun ardınca başqa mühüm bir hadisə baş verdi. 2002-ci il sentyabrın 18-də Səngəçal sahil terminalında Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu""®. Bu münasibətlə keçirilən

**Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 319-323.**

**Azərbaycan, Türkiyə, Gürcüstan prezidentləri Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimində iştirak etmişlər. -**

**Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 618.**

mərasimdə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri, ABŞ-ın energetika naziri Spenser Abraham‘"° iştirak edirdilər.

Təməlqoyma mərasimində nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dedi: “...boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı-Tbilisi- Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər”"".

Çıxış edən Türkiyə Prezidenti Əhməd Necdət Sezər Bakı - Tbilisi - Ceyhanın əfsanədən çıxaraq gerçəkliyə çevrildiyini dedi. Bu layihələri Xəzəryanı ölkələr ilə Qərb dövlətləri arasında ticarət körpüsü və siyasi körpü adlandırdı"’^.

Gürcüstan Prezidenti Eduard Şevardnadze kəməri Azərbaycan və gürcü xalqlarının Avroatlantik məkana inteqrasiyası kimi qiymətlən- dirdi"'^

ABŞ-ın energetika naziri Spenser Abraham çıxışında boru kəmərini Şərq - Qərb enerji dəhlizində mərkəzi komponent adlandırdı'Onun fikrincə, bu. Xəzəryanı ölkələrin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsinə, iqtisadi əməkdaşlığına və dünya iqtisadiyyatına inteqrasiyasına təkan verəcəkdi.

Boru kəmərinin təməlinin qoyulmasının böyük siyasi, iqtisadi və geosiyasi əhəmiyyəti var idi. Bu, Azərbaycanın on ilə yaxın apardığı enerji siyasətinin və neft diplomatiyasının konkret nəticəsi idi. Bununla regionun geosiyasəti dəyişirdi. Bu tarixi hadisəyə qiymət verən ABŞ politoloqu Zbiqnev Bjezinskinin"’^ fikrincə, Bakı - Ceyhan əsas ixrac

[1110] **Spenser Abraham (1954) - ABŞ-ın energetika naziri (2001-2005).**

**Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 619-622.**

**Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 623-625.**

**Gürcüstan Prezidenti Eduard Şevardnadzenin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 625-626.**

**ABŞ-ın energetika naziri Spenser Abrahamm çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 627-628.**

**Zbiqnev Bjezinski (1928) - ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri (1977-1981).**

neft boru kəmərinin tikintisinin başa çatması ilə Azərbaycan və onun qonşuları dünya iqtisadiyyatı ilə müstəqil kanal əldə edəcəkdilər"'^.

Bakıda başlanan təməlqoyma mərasimi Türkiyədə davam etdirildi. Sentyabrın 26-da Adanada Ceyhan terminalının təməli qoyuldu. Mərasim böyük təntənə ilə keçdi. Artıq Azərbaycan neftinin Gürcüstandan keçərək Türkiyə ərazisi ilə Aralıq dənizinə çıxarılması tarixi reallığa çevrilirdi.

2002-ci ilin oktyabrında isə Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə çatdırılmasını nəzərdə tutan Nabukko layihəsinə hazırlıqlara başlanıldı (Qaz kəmərinin adı Çüzeppe Verdinin Çar Navu-xodonosora həsr etdiyi "Nabukko" operasından götürülmüşdür - M.Q.) Qazın nəql ediləcəyi boru kəmərinin uzunluğu 3300 km., layihə gücü il ərzində 26-32 milyard kubmetr qaz idi. Layihənin dəyəri 7,9 mlrd, avro təşkil edirdi.

Lakin bu zaman təhlükəli bir addım atıldı. 2002-ci ilin sonlarında LUKoyl "Əsrin müqaviləsi"ndən çıxdı. Şirkətin prezidenti həmin qərarı LUKoylun əsas diqqətini bundan sonra operatoru olduğu layihələrin, o cümlədən, ARƏNŞ ilə bağlanmış saziş əsasında Yalama /D-222 layihəsinə cəmləşdirmək niyyəti ilə izah etdi"". Əslində belə bir qərarın qəbul edilməsinə təsir edən başlıca amil siyasi iradə idi. Bununla əlaqədar olaraq Rusiyanın xarici işlər naziri İqor İvanov açıq şəkildə deyirdi: " Bakı - Tbilisi - Ceyhan iqtisadi və təhlükəsizlik baxımından qeyri-rentabelli sayılır. Boru kəmərlərinin Gürcüstandan keçərək Türkiyəyə getməsi Rusiyanın milli təhlükəsizliyi üçün qorxu yaradır və biz yalnız Rusiyanın tarixi və siyasi maraqlarının nəzərə alınacağı təqdirdə bu istiqamətdə əməkdaşlığa qoşula bilərik""*.

Heç şübhəsiz, edilən təzyiqlər Azərbaycanın enerji siyasətini dayandırmaq gücündə deyildi. Azərbaycan tərəfi fəaliyyətini davam etdirirdi. 2003-cü il fevralın 27-də Bakıda toplanan konsorsium "Şahdəniz" təbii qaz layihəsinin həyata keçirilməsi üçün yekdilliklə qərar qəbul etdi. Beləliklə, Türkiyə və Azərbaycan çox əhəmiyyətli olan daha bir layihənin

**B>Ke3HHCKHH 3. Bbiöop.** fııoöanbHbie rocnoacxBO **nan** raoöajibHoe **JiHflep-**СТВО, С. **103.**

**AııeKnepoB В. KacnHÜCKHH peruoH н pasBHrae MnpoBofi neıjiTBHofi HHayc- xpHH (oÖ3op JieKUHH). - Fa3 ”BaKHHCKHH paöoHHİı”, BaKy, 2003, 10 ceHxaöpa.**

**Əliyev Z. Bakı - Tbilisi - Ceyhan ətrafında gedən geosiyasi proseslər. - "525-ci qəzet",**

həyata keçirilməsi üçün addım atdılar’"®. Bu, Azərbaycanın mövqelərini daha da möhkəmləndirirdi.

Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin əleyhinə olan qüvvələr fəaliyyətlərini dayandırmadıqlarından, tikintisinə mane olmağa çalışdıqlarından Azərbaycan da bir sıra tədbirlər həyata keçirdi. Böyük Britaniya siyasi-iqtisadi dairələrinin və ictimaiyyətinin diqqətini Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin üstünlüklərinə yönəltmək və bu ölkədə fəaliyyət göstərən bir sıra ətraf mühiti mühafizə qeyri-hökumət təşkilatlarının BTC layihəsinin əleyhinə apardıqları kampaniyaya əks-təsir etmək məqsədilə Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığındakı səfirliyinin dəstəyi, “Vətən” Azərbaycan diaspora cəmiyyətinin təşəbbüsü və “LSE Hayek Society” ilə birgə 2003-cü il martın 18-də London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində BTC mövzusunda toplantı keçirildi"^®. Toplantıda Böyük Britaniya Xarici İşlər Nazirliyinin nümayəndələri, bu ölkədə akkreditə olunmuş xarici ölkə səfirliklərinin diplomatları, işgüzar dairələrin, ictimaiyyət və akademik dairələrin nümayəndələri, mətbuat işçiləri, qeyri-hökumət təşkilatları, eləcə də Böyük Britaniyadakı azərbaycanlı və erməni icmasının nümayəndələri iştirak edirdilər. Britaniya Enerji İqtisadiyyatı İnstitutunun nümayəndəsi Tony Scanlanm sədrliyi ilə keçən toplantıda ABŞ-m Harvard Universitetində fəaliyyət göstərən Xəzər tədqiqatları mərkəzinin tədqiqatlar direktoru Brenda Şaffer, tanınmış amerikalı Jurnalist, Qafqaz regionu üzrə mütəxəssis Tomas Qolts, BTC layihəsinin əsas operatoru olan Böyük Britaniyanın BP neft şirkətinin nümayəndəsi və şirkətin daxilində BTC layihəsi ilə məşğul olan qrupun üzvü Barry Halton və BTC layihəsinin Türkiyədəki operatoru olan Botaş şirkətinin nümayəndəsi Caner Toksöz layihənin yaranma tarixi, siyasi, iqtisadi, hüquqi üstünlükləri və həyata keçirilmə prosesi barədə məlumat verdilər. Amerikalı jurnalist Tomas Qolts layihəni operatorlar, eləcə də Qafqaz üçün faydalı və qlobal olmaqla yanaşı, regionda sabitliyin və əmin-amanlığın bərqərar olması baxımından misilsiz adlandırdı. BP şirkətinin nümayəndəsi Barry Halton neft boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə iqtisadiyyatı üçün sərfəli olması ilə yanaşı, boru kəmərlərinin keçəcəyi yerlərdə münaqişələrin, işsizlik probleminin həllinə müsbət təsir edəcəyini, xüsusən Gürcüstan iqtisadiyyatı üçün layihənin əhəmiyyətli olacağını vurğuladı. O, layihədə

**'"® Fikret Ertan. Hazar’dakı son gelişmeler. - “Zaman” gazetesi, İstanbul, 2003, 6 Mart.**
**ARXİNA. 01.04.2003 - 11.04.2003. Qovluq XsS, v. 76-79.**

ən yaxşı mövqenin Azərbaycana məxsus olduğunu dedi. Botaş şirkətinin nümayəndəsi, ixtisasca hüquqşünas olan Caner Toksöz məsələnin hüquqi tərəfləri barədə danışaraq onu ideal layihə adlandırdı. Amerikalı alim Brenda Şaffer layihənin siyasi-ictimai, sosial və iqtisadi cəhətdən mükəmməl olduğunu bildirdi. O, layihəyə etiraz edən qrupların iddialarının əsası olmadığını və yalnız müəyyən siyasi qruplar tərəfindən təşkil edildiyini vurğuladı. Bu layihənin həyata keçirilməsi üçün Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllini gözləməyin lüzumsuz olduğunu qeyd etdi. Brenda Şaffer həmçinin Rusiya - Azərbaycan, Rusiya - Türkiyə münasibətlərinin getdikcə yaxşılaşmasının BTC-nin həyata keçirilməsinə xeyirli olacağı qənaətində idi.

Bundan bir müddət sonra, 2003-cü il mayın 23-də Gürcüstanın Tetri Skaro şəhərində Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin bu ölkənin ərazisindən keçəcək hissəsinin təməli qoyuldu. Təməl- qoyma mərasimi layihənin reallığa çevrildiyini bir daha təsdiq edirdi.

Azərbaycan enerji sahəsində tərəfdaşları ilə münasibətlərini daha da sıxlaşdırdı. Belə ki, 2003-cü il iyulun 30-da ABŞ-a səfər edən Qazaxıstanın energetika və mineral ehtiyatlar naziri Vladimir Şkolnik Karnegi mərkəzində Xəzər dənizinin Qazaxıstan sektorunun inkişafı məsələləri barədə çıxış edərək Xəzər dənizinin Qazaxıstana aid sektorunun inkişafına dair dövlət proqramının hazırlanmasına dair məlumat verdi. Xəzər dənizində neft yataqlarının işlənilməsi prosesini müsbət qiymətləndirdi, Qazaxıstanın Rusiya və Azərbaycan ilə Xəzərin delimitasiyasma dair imzaladığı sazişləri xüsusi olaraq vurğuladı”^'. Bunların Xəzər dənizində geniş fəaliyyətin aparılması üçün bünövrə olduğunu qeyd etdi. Nazirin sözlərinə görə, bu zaman Qazaxıstan nefti Rusiya üzərindən CPC boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılırdı. 2006-2010-cu illərdə isə neftin hasilatı artacaq və yeni boru kəmərinə ehtiyac duyulacaq, tikilməkdə olan BTC-dən istifadə ediləcəkdi. Onun fikrincə, 2012-ci ildən sonra İran və Çin ərazilərindən keçən üçüncü boru kəmərinin inşası mümkün idi. Qeyd etmək lazımdır ki, bu illərdə Qazaxıstan 52 mln. ton neft hasil edirdi. Onun 9 mln. tonu ölkə daxilində emala sərf edilir, 43 mln. tonu isə ixrac olunurdu. CPC vasitəsi ilə 13 mln. ton neft ixrac edilirdi. Çin də Qazaxıstan neftini almaqda maraqlı idi.

Beləliklə, 1994-2003-cü illərdə Azərbaycanın dənizdə və quruda neft-qaz ehtiyatlarının xarici şirkətlərə birgə işlənilməsinə dair mü-

**ARXİNA. 29.08.2003 - 18.08.2003. Qovluq JÇ98, v.208-209.**

qavilələrin ümumi sayı 22-yə, iştirakçı ölkələrin sayı 15-ə, təmsil olunan şirkətlərin sayı 23 oldu”^^. Azərbaycan Respublikasının enerji diplomatiyasının böyük uğuru nəticəsində ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoydu.

## Enerji diplomatiyasının həyata keçirilməsinin Azərbaycan üçün ilkin nəticələri

Ermənistanın təcavüzü nəticəsində ərazilərinin 20%-i işğal altında, qaçqın və məcburi köçkünü olan, Naxçıvanın ağır blokada şəraitində saxlandığı Azərbaycan üçün enerji diplomatiyasının uğurla həyata keçirilməsinin ölkə daxilində sosial-iqtisadi, siyasi, mədəni və psixoloji baxımdan bir sıra nəticələri oldu. Xarici sərmayələrin cəlb edilməsi ölkənin təkcə gələcək inkişafı üçün deyil, onun mövcud olması, siyasi sabitliyin təmin edilməsi, separatçılığın qarşısının alınması, dövlətin qüdrətlənməsi, xalqın yaxşı yaşayışının təmin edilməsi və geniş quruculuq işlərinə başlanması üçün başlıca vasitə oldu. Ölkədə təbii sabitliyin bərqərar edilməsi, müstəqil dövlət quruculuğu üçün tədbirlərin həyata keçirilməsinə başlandı. Neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin və iri investisiyaların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına Azərbaycanın çıxışı təmin olundu. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün çoxlu ixrac boru kəmərləri sistemi quruldu. Rusiyanın Novorossiysk və Gürcüstanın Supsa limanları vasitəsi ilə Azərbaycan nefti nəql edildi. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə başlanıldı. Boru kəmərin tikintisinin aparıldığı rayonların əhalisi inşaat işlərinə cəlb edildi. İnfrastruktur yenidən quruldu. Yeni iş yerləri açıldı. Kəmər marşrutu boyunca 17 tikinti sahəsində 10 min nəfər işçi çalışırdı. Onların 2200-dən çoxu azərbaycanlı idi"^^.

Neftdən gələn gəlirlər ölkə əhalisinin sosial ehtiyaclarının ödənilməsinə, dövlətin iqtisadi tərəqqisinin və qüdrətinin təmin edilməsinə yönəldildi. Qərbin qabaqcıl texnologiyası Azərbaycana gətirildi. Ölkədə

**Camalov Y. Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının memarıdır. - “Xalq qəzeti”, Bakı, 2004, 16 yanvar.**

**Bakı-Tbilisi-Ceyhamn təməlinin qoyulmasının bir ili tamam oldu. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 374.**

tikinti-quruculuq işləri genişləndirildi. Azərbaycan müasirləşən və rəqabətə davamlı bir ölkəyə çevrildi.

Sosial-iqtisadi cəhətdən Azərbaycan yeni bir inkişaf dövrünə qədəm qoydu. Ölkəyə xarici sərmayələr cəlb edildi. 1994-2002-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulmuş sərmayələrin həcmi təqribən 13 milyard dollar təşkil edirdi. Bunun 9,6 milyard dolları və ya 72,4%-i birbaşa xarici sərmayələr idi. Təkcə 2002-ci ildə qoyulan xarici sərmayənin həcmi 2,8 milyard dollar təşkil etmişdi. Bu da 1994-cü illə müqayisədə 9 dəfə çox idi”^'*. Xarici sərmayələr əsasən neft-qaz sektorunda konkret layihə və proqramların həyata keçirilməsinə yönəldilmişdi.

Azərbaycanın yeni neft strategiyası ölkədə “holland xəstəliyi” yaratmadı. Məlum olduğu kimi, 1960-1970-ci illərdə Niderland Krallığında neft və qaz hasilatı zamanı sənayenin inkişafı və iqtisadiyyatın digər sahələri unudulmuş, əhali dövlət yardımlarından asılı vəziyyətə düşmüşdü. Azərbaycanda isə belə olmadı. Ermənistanın təcavüzü nəticəsində ərazilərinin bir hissəsinin işğal edilməsinə, qaçqın və məcburi köçkünlərin olmasına baxmayaraq, Azərbaycan Respublikasında həyatın bütün sahələrində böyük tərəqqinin əldə edilməsi əsl Azərbaycan möcüzəsi idi. Ölkədə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildi. Azərbaycan gələn gəlirlərdən və sərmayələrdən səmərəli istifadə etdi. “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycanın qeyri-neft sektoruna 2,780 milyard dollar və ya ildə orta hesabla 309 milyon dollar sərmayə qoyuldu. Xarici kreditlər hesabına ölkədə 35 layihə həyata keçirildi. Ölkədə qaz, drenaj- suvarma sistemlərinin bərpası, Mil-Muğan kollektirunun, Xanarx kanalının tikintisi. Binə hava limanının inşası, müasir təchizatı, ölkənin elektrik sisteminin yenidən qurulması. Yenikənd SES-in, Şimal DRES-in, Mingəçevir SES-in, Ələt - Qazıməmməd avtomobil yolunun tikintisi, dağ rayonlarının, kəndli təsərrüfatının inkişafı və kreditləşdirilməsi, Transqaf- qaz dəmiryolunun bərpası, Koka Kola müəssisəsi, European Tobacco Baku, Qarabağ-Sement, Baku Stil Kompani, Qafqaz konserv zavodu, Xıllı nərə balıq zavodu, yüzlərlə ticarət mərkəzi, kiçik və orta sahibkarlıq müəssisələri və s. t i k i l d i Ö l k ə d ə yüz minlərlə iş yerləri açıldı, yoxsul-

^ **Yaqubova A. Azərbaycanın** neft **diplomatiyası: əfsanələr gerçəkləşir, s.93;** AxBepjiHeB **O.** HHBecTHUHOHHbiü 5yM в AsepöaÜÄxraHe npoaon>KaeTC5i. - “OöospeBaxejib”, **Baxy, 2003, 14** Hoaöpa.

**Haqverdiyev O. Zəfərlərlə keçən illər (Prezident seçkiləri ərəfəsində ölkənin sosial-iqtisadi inkişaf meyillərinə bir nəzər). - “İqtisadiyyat və audit” jurnalı, Bakı, 2003, Xo9, s.21-23.**

luğun səviyyəsi aşağı salındı. Yollar tikildi. Tikinti, abadlıq işləri genişləndirildi. Parklar salındı.

Enerji diplomatiyasının həyata keçirilməsi nəticəsində ölkə böhrandan çıxdı. İqtisadi islahatlar genişləndirildi. Azərbaycan enerji təhlükəsizliyini təmin etdi.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərindən Ermənistanın təcavüzkar və etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş adamların problemlərinin həlli məqsədilə istifadə edildi. Onlar üçün qəsəbələr tikildi. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 Rs-li, 2001-ci il 7 sentyabr tarixli 577 Jfo-li, 2002-ci il 13 may tarixli 700 Rb-li fərmanlarının icrasına uyğun olaraq qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşı- landırılması üçün 80,0 mln. manat vəsait ayrıldı. Artıq 2003-cü ilin sonlarında Neft Fondunun vəsaitləri 815 milyon dollar təşkil edirdi"^*". Bakının "Neft Akademiyası" kimi rolu daha da artdı.

Azərbaycanın yeni neft strategiyasının uğurla həyata keçirilməyə başlanması xalqda mənəvi-psixoloji ruh yüksəkliyi yaratdı. Dövlətə və hakimiyyətə olan inam artdı. Ölkədə təbii ictimai-siyasi sabitlik bərqərar oldu. Sabit, davamlı inkişaf dövrü başlandı. Demokratikləşdirmə sahəsində qanunvericilik aktları qəbul edildi. Təhsil, səhiyyə və s. sahələrdə islahatlar aparıldı. Müasir tipli yeni tibb müəssisələri, minlərlə məktəb binası tikildi. Azərbaycanlı gənclərin xarici ölkələrin qabaqcıl universitetlərində təhsil almaları üçün geniş imkanlar açıldı.

Güclü Azərbaycan ordusu yaradıldı. Ordunun təchizatı yaxşılaşdırıldı. Azərbaycan xalqının özünə inamı artdı. Bütün bunlar yeni neft strategiyasının ölkə daxilində yalnız ilk nəticələri idi.

Enerji diplomatiyasının həyata keçirilməsinin Azərbaycan Respublikası üçün mühüm beynəlxalq nəticələri oldu. Azərbaycan dövlətinin beynəlxalq mövqeləri gücləndi və siyasi-strateji əhəmiyyəti artdı. Azərbaycan ilə münasibətlər quran ölkələrin sayı çoxaldı, xaricdən edilən təzyiqlərin miqyası zəiflədi. Azərbaycanı dəstəkləyən ölkələrin sayı artdı, beynəlxalq əlaqələri genişləndi.

Azərbaycan əhalisinin sayının az, ərazisinin kiçik olmasına baxmayaraq, özündən dəfələrlə böyük və güclü dövlətləri birləşdirən, əməkdaşlığa cəlb edən ölkə oldu, onlar üçün qarşıdurma deyil, əməkdaşlıq meydanına çevrildi. Azərbaycan Xəzər dənizinin nəhəng enerji potensia-

**' Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s. 100.**

lını mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa ilə Asiya arasında siyasi və ticarət əlaqələrinin genişlənməsində, Qafqaz dəhlizinin inkişafında, İNOGEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlət oldu.

Azərbaycanın beynəlxalq və regional təşkilatlarda nüfuzu artdı. Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında yeni imkanlar qazanıldı. Yeni neft strategiyası Azərbaycanda təbii sabitliyin qurulub möhkəmlənməsində başlıca amillərdən biri oldu.

Zəngin təbii sərvətləri olan Azərbaycan müstəqil siyasət yürüdərək Avropadan Cənubi Qafqaza və Mərkəzi Asiyaya qədər uzanan və inkişaf edən geosiyasi, geoiqtisadi sistemdə tranzit, neft və qaz paylaşdıran, dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan bir ölkəyə çevrildi. Rusiyalı mütəxəssis Vladislav İnozemtsevun"^^ yazdığı kimi, enerji siyasətinin həyata keçirilməsi nəticəsində Azərbaycan dünya bazarını enerji ehtiyatlan ilə təchiz etməklə yanaşı özünü Mərkəzi Asiyada hasil edilən neft və qazın Qərbi Avropa bazarlarına nəqlinə nəzarət imkanı olan ölkə kimi təsdiq etdi”^*. Azərbaycan Avropanın enerji təhlükəsizliyində qovşaq bir ölkəyə çevrildi.

Azərbaycan neftinə beynəlxalq marağın artdığı və iri neft şirkətlərinin sərmayələr qoyaraq fəaliyyət göstərdikləri bir zamanda Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusu məsələsini müzakirə edirdilər.

**Vladislav İnozemtsev (1968) - Rusiya iqtisadçısı və filosofu.**

**İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? - “Azerbaijan Focus”, Bakı, 2009, Xaftl), s.69.**

# IV FƏSIL

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ DİPLOMATİK FƏALİYYƏT

## Xəzər dənizi beynəlxalq münasibətlərdə: tarixə baxış

Dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi Azərbaycan Respublikasının xarici siyasətinin problemlərindən birinə çevrildi. Qeyd etmək lazımdır ki, SSRİ dağılanadək Xəzər dənizi Sovet İttifaqının və İranın nəzarəti altında idi. SSRİ-nin dağılması nəticəsində Xəzər dənizinin ətrafında yeni müstəqil dövlətlərin - Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiyanın əmələ gəlməsi tamamilə yeni geosiyasi şərait yaratdı. Xəzəryanı dövlətlərin sayı ikidən beşə qalxdı. İran artıq nəhəng SSRİ ilə deyil, yeni yaranmış müstəqil dövlətlərlə qonşuya çevrilmişdi. Yeni geosiyasi şəraitdə yeni bir problem yarandı. Bu da Xəzər dənizinin hüquqi statusu məsələsi oldu.

Məlum olduğu kimi. Xəzər dənizi Avropa və Asiya sərhədində yerləşən, Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan, Azərbaycan və İran dövlətlərinin ərazisi ilə əhatə olunmuş dünyada ən böyük qapalı su hövzəsidir"^’. Bu hövzə özünün gözəlliyi və sirli aləmi ilə hələ qədim zamanlardan məşhur səyyahların, alimlərin və bəzi dövlət xadimlərinin diqqət mərkəzində olmuşdur.

Xəzər dənizinin formalaşması müxtəlif mərhələlər keçməsinə baxmayaraq, milyon il bundan əvvəl iqlimin kəskin dəyişməsi (Avropa, Asiya və Şimali Amerikada buzlaşma dövrü və ərimə prosesi) onun ərazisinin dövri olaraq dəyişməsinə təsir göstərmişdir. Antik dövrün Xəzər dənizini öyrənməklə məşğul olmuş alim və səyyahların maraqlı fikir və fərziyyələri əsasında demək olar ki, özünün çoxəsrlik tarixi ərzində Xəzər dənizinin çoxlu adları olmuşdur. Bəzi mənbələrdə adların sayı 40-dək,

**' Xəzərin tarixi haqqında. - http://www.azerbaijan.az/portal/World Community/Caspian sea.**

bəzilərində isə 100-dək göstərilir. Bu adlar adətən ya onun sahilində məskunlaşmış əhalinin, böyük tayfa birliklərinin adına görə, ya da sahilyanı zolaqda yerləşən şəhər, vilayət və ölkələrin adlarına görə verilmişdir. Adlar içərisində yalnız Xəzər və Kaspi tarixi və coğrafi hüquq qazanaraq indiyə kimi qalmışdır.

Xəzər dənizinin şimal-cənub uzunluğu təqribən 1200 km., orta eni 320 km., sahil xəttinin uzunluğu 6,5 min km. (o cümlədən, 800 km.-i Azərbaycanın ərazisində), sahəsi 370 min kv. km. (1929-cu ildə isə sahəsi 422 min kv. km. olmuşdur), dünya okeanı səviyyəsindən 28 metr aşağıdır. Ərazisində təqribən 50-dək ada vardır. Xəzər dənizinə irili-xırdalı 130-dək çay tökülür.

Xəzər dənizinin geosiyasi səciyyəsinin tarixi kökləri vardır”^®. Hələ XVIII əsrdən etibarən iqtisadi-siyasi əhəmiyyəti, təbii sərvəti ilə məşhurlaşan Xəzər dənizi Rusiyanın diqqət mərkəzində olmuşdur.

1723-cü il sentyabrın 12-də Rusiya ilə Səfəvilər dövləti (1935-ci ildən rəsmi adı iran - M.Q.) arasında imzalanmış Peterburq traktatı ilə İran tərəfi Rusiyanın Xəzər dənizində hərbi gəmiçilik məsələsində mövqeyini qəbul etdi”^’. 1732-ci il yanvarın 21-də İran ilə imzalanmış Rəşt müqaviləsinə görə, Rusiya Xəzər dənizində sərbəst ticarət və gəmiçilik hüququ aldı”^^. İran 1813-cü il oktyabrın 12-də imzalanmış Gülüstan, 1828-ci il fevralın 10-da imzalanmış Türkmənçay sülh müqavilələri ilə Xəzər dənizi üzərində nəzarətini itirdi. Sülh müqavilələrinə görə, hər iki dövlət Xəzər dənizində ticarət gəmilərini saxlaya bilərdi. Lakin İrana Xəzər dənizində hərbi donanma saxlamaq hüququ verilmirdi. Yalnız Rusiya Xəzərdə hərbi donanma saxlaya bilərdi. 1881-ci ildə iki ölkə arasında Xəzərdə sərhədlər müəyyənləşdirildi. Buna görə İran Astara - Həsənqulu xəttindən yuxarı keçə bilməzdi. Qeyd etmək lazımdır ki, Astara Azərbaycanda, Həsənqulu isə Türkmənistanda yerləşir.

Bu müqavilələr Xəzər dənizinin ilk hüquqi statusuna dair elementləri özündə ehtiva edir, əslində Xəzər dənizinin hansı ölkənin nəza-

**° Darabadi P.Q., Əliyev N.A. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan (qədim dövrlərdən XX əsrin sonuna qədər). Bakı, 2001.**

**CoBexcKO - HpancKHe OTHOuıeHHa** в **floroBopax,** КОНВСНUННХ Н **corjıameHH- HX. CocxaBHTenH** **C.H. CBIMOB, B.K.BOJIKOB. M., 1946, c. 7-10; /(HnjıOMaxHHec- KHH cjlOBapb. B xpex xoMax. T. II. M., 1985, c. 483.**

**CoBexcKo - npancKne oxHomeHHH** в **floroBopax, KOHBenuHsıx** Н **coraauıeHH- HX, c. 13-19.**

rətində olması və gəmiçilik məsələlərini tənzimləyirdi. Yəni Rusiya Xəzər dənizinə nəzarət edirdi və üçüncü dövlət oraya daxil ola bilməzdi.

1917-ci ildə Rusiya imperiyası dağıldı. Xəzəryanı coğrafiyada ciddi geosiyasi dəyişikliklər baş verdi. Azərbaycanın dövlət müstəqilliyi elan edildi. 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Cümhuriyyəti dünyanın bir sıra dövlətləri tərəfindən de-fakto olaraq tanındı. Beləliklə, Xəzər dənizi ətrafında üçüncü müstəqil dövlət yarandı'Lakin Xəzər dənizinin hüquqi statusu müəyyənləşdirilmədi.

1920-ci ildə regionda geosiyasi vəziyyət yenidən dəyişdi. Bolşevik Rusiyası Azərbaycanı işğal etdi. Xəzəryanı ölkə kimi Azərbaycan SSR formal müstəqil olsa da, yenə də Xəzər dənizinin hüquqi statusu müəyyənləşdirilmədi. Bu vəziyyət 1921-ci il fevralın 26-da imzalanmış Rusiya Sosialist Federativ Sovet Respublikası (RSFSR) ilə İran arasında dostluq və əməkdaşlıq haqqında müqaviləyədək davam etdi"^". Həmin tarixdə iki ölkə arasında bağlanan müqaviləyə görə, sovet Rusiyası çarizmin İrana münasibətdə əvvəllər zorla imzalatdırdığı bütün müqavilələri ləğv edirdi. Müqavilənin 3-cü maddəsinə görə, hər iki tərəf 1881- ci ildə sərhəd komissiyasının müəyyənləşdirdiyi sərhədi tanıyır və ona riayət edirdilər. Artıq qeyd edildiyi kimi, iki ölkə arasında sərhəd dənizdə Astara - Həsənquqlu xətti üzrə müəyyən edilmişdi. Müqavilənin 11-ci maddəsinə görə, İrana Xəzər dənizində donanma saxlamaq hüququ verilirdi. Hər iki dövlət Xəzərdə öz bayraqları altında bərabər əsasda sərbəst gəmiçilik hüququndan istifadə edə bilərdilər. Lakin müqavilədə üçüncü tərəfin - Azərbaycan SSR-in maraqları nəzərə alınmamışdı. Baxmayaraq ki, bu zaman hələ SSRİ qurulmamışdı və Azərbaycan SSR formal da olsa, müstəqil idi.

1922-ci ildə qurulan SSRİ-nin tərkibinə Xəzəryanı respublikalar olan Rusiya və Azərbaycan daxil oldular. Sovet hökuməti təhlükəsizliyi baxımından Xəzərə üçüncü dövlətin gəmilərinin daxil olmasına imkan verməməyə çalışırdı. Buna görə də tərəflər dənizdə münasibətlərini tən-

ВерННВСКНН **E.B.** КаспННСКНе аНХННОМНН. - **)КурН.** "пОЈІНТННеСКНе НССЈіе- **аоВаННа", M., 2006, Xs6, c. 125-134.**

**/],oroBop MeiKÄy** РОССННСКОН **CounajıncTHHecKOH (heÄepaxHBHOH** СОВСХСКОН **PecnySaHKOH н nepcnefı. 26 (jıeBpajıa 1921 r. - floKyMenxbi EHeLunen nojınxHKH CCCP. T.lll. M., 1959, c. 536-544; Qasımov (Qasımlı) M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998, s.201-204.**

zimləmək üçün yeni sənədlər hazırladılar. 1927-ci ildə Pəhləvi limanı haqqında SSRİ - İran müqaviləsi imzalandı. 25 illiyə imzalanmış bu müqavilədə Xəzərin sovet - İran dənizi olduğu vurğulanırdı. SSRİ Xalq Xarici İşlər Komissarlığının İranın xarici işlər naziri Əli Qulu xan Ansariyə göndərdiyi notada yazılırdı ki, sovet hökuməti qarşılıqlı maraqları nəzərə alaraq Xəzər dənizini müstəsna olaraq sovet-İran dənizi kimi qəbul edir. Limanda xarici ölkələrin vətəndaşları qulluqçu, fəhlə və icarədar olaraq işləyə bilməzdilər”^^.

1931-ci ildə iki ölkə arasında imzalanmış konvensiyaya görə isə Xəzər hövzəsində yalnız sahil dövlətlərin gəmiləri ola bilərdi. 1940-cı ildə imzalanmış ticarət və gəmiçiliyə dair müqavilədə də Xəzər SSRİ və İran dənizi olaraq təsbit edilmişdi'”^. Müqaviləyə görə, ölkələr 10 mil enində sahil zolağında balıqçılıqla məşğul ola bilərdilər.

İmzalanan bu müqavilələr Xəzər dənizinin konkret statusunu müəyyənləşdirmir, onu yalnız qapalı elan edirdi. Müqavilələrdə Xəzər dənizinin su səthinin və dibinin bölüşdürülməsi, ekologiyası, təbii sərvətlərindən istifadə barəsində bir söz deyilmirdi.

Ötən müddət ərzində SSRİ və İran Xəzər dənizinə dair siyasətlərini 1921 və 1940-cı illərdə imzalanmış müqavilələrə uyğun olaraq qurmuşdular. Lakin İran bu dövrdə Xəzər dənizinə az maraq göstərirdi. Xəzər əslində “sovet gölünə” çevrilmişdi. Xəzər dənizində üçüncü dövlətin gəmiləri ola bilməzdi. Sonrakı illərdə İran bu vəziyyətin dəyişdirilməsinə müəyyən cəhdlər etsə də, heç bir nəticə əldə edə bilmədi. Beləliklə, SSRİ dağılana qədər Xəzər dənizinin hüquqi statusu məsələsi ikitərəfli münasibətlərdə müzakirə mövzusu olmadı.

SSRİ-ni təşkil edən respublikalar arasında isə Xəzər dənizində iqtisadi fəaliyyət baxımından məsuliyyət zonaları müəyyən edilmişdi. Hələ 40-cı illərdən başlayaraq Xəzər dənizindəki bütün neft və qaz yataqlarının öyrənilməsi, kəşfiyyatı və istismarı Azərbaycan neftçiləri tərəfindən həyata keçirilirdi. Xəzər dənizində sənaye üsulu ilə neft və qaz hasilatına Azərbaycan SSR 1949-cu ildə başlamışdı. 1970-ci ildə isə SSRİ Neft və Qaz Sənayesi Nazirliyi Xəzərin gələcək delimitasiyasmm təməlini

OÖMCH HOxaMH MeÄfly npaBHxeabCTBOM **CCCP** H npaBHxejibcxBOM IlepcHH **o** nopxe OexjıeBH. Hoxa saMecxHxejıa HapoflHoro KOMuccapa HHOCxpauHbix *aen* **CCCP** MUHHCxpy HHOCxpauHbix flcjı riepcHH **Ajih** Fiojih xauy Ancapu. **1** OKxaöpa **1927 r.** - TfoKyMCHXbi BHeuiHeü noauxHKH **CCCP. T. X. M., 1965, c. 429.**

CSopHHK aeücxByıomHX floroBopoB, corjıameHHH H KOHBeuuHH, saKiıoHeH-**Hbix CCCP** C HHOcxpaHHbiMH rocyflapcxBaMH. **Bbin. X. M., 1956,** c. **71-72.**

q o y d u ' B e l ə ki, Xəzər dənizi qarşılıqlı razılaşmaya, onun hüquqi, coğrafi vəziyyətindən irəli gələn, beynəlxalq-hüquqi təcrübədə hamı tərəfindən qəbul edilmiş qaydalara uyğun olaraq orta xətt prinsipi əsasında SSRİ-ni təşkil edən müttəfiq respublikalar olan Rusiya, Azərbaycan, Qazaxıstan və Türkmənistan arasında milli sektorlara bölündü. Bölgüyə əsasən Xəzərin təqribən 70 min kv. km.-i Azərbaycanın, 80-min kv. km.-i Türkmənistanın, 60 min kv. km.-i Rusiyanın, 105 min kv. km.-i Qazaxıstanın payına düşür, 55 min kv. km.-i isə İrana qalırdı. Bu bölgü ilə İran da tanış edilmiş və bölgünün topoqrafik xəritəsi Tehrana göndərilmişdi. Rəsmi Tehran bölgünün aparılmasına heç bir etiraz etməmişdi"^*. Bundan sonra Xəzər dənizinin sektorlara bölünməklə istifadə edilməsi Xəzəryanı ölkələr arasındakı müqavilə təcrübəsində istifadə olunmuşdu. Bununla belə. Xəzərdə, o cümlədən Türkmənistan sektorunun bir hissəsində geoloji-kəşfiyyat işlərinin apariması işi Azərbaycan alimləri və neftçilərinə tapşırılmışdı.

## Xəzər dənizinin hüquqi statusu məsələsinin meydana çıxması və onun həlli istiqamətində diplomatik səylər

Artıq qeyd edildiyi kimi, SSRİ dağılanadək Xəzər dənizi İranın və Sovet İttifaqının nəzarəti altında idi. SSRİ-nin dağılması nəticəsində Xəzər dənizi ətrafında yeni müstəqil dövlətlərin - Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiyanın meydana gəlməsi ilə regionda tamamilə yeni geosiyasi şərait yarandı.

Hələ sovet dövründə Xəzər dənizində ciddi siyasi, iqtisadi, ekoloji və b. xarakterli problemlər mövcud idi. SSRİ-nin dağılması ilə həmin problemlər daha da kəskinləşdi. Xəzər dənizinin zəngin təbii, ilk növbədə enerji ehtiyatlarının mövcudluğunun təsiri altında vəziyyət tamamilə dəyişdi. Xəzəryanı dövlətlərdən hər biri maraq və mənfəətlərini güdərək mövqelərini əsaslandırmağa başladılar. Bir müddət sonra Xəzər dənizinin hüquqi statusu məsələsi sahilyanı ölkələr arasında gərgin diplomatik

**Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində, s. 361-362; AJIHCB H., K)cH(j)3afle X. Eme pas** K **sonpocy** paaaejıeHHsı **KacnHÜcKoro Mopa na** ЭKOHOMH- **HecKHe** 30HBI. **- "Caspian" (London) jurnalının "Xəzəmeftqaz-97" sərgi və konfransına həsr olunmuş xüsusi buraxılışı. Bakı, 1997, s. 82.**

**Xəzərin hüquqi statusu anlayışının meydana gəlməsi. - http://www.azerbaijan.az/portal/World Community/Caspian sea.**

müzakirələrin mövzusuna çevrildi. Xəzər dənizi hövzəsi geosiyasi, geoiqtisadi və geostrateji maraqların toqquşduğu meydan oldu. Bu isə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsini gündəliyə gətirdi”^’. Hər bir dövlət Xəzər dənizinin dibindən və su qatından daha çox pay almağa çalışırdı. Bəzi hesablamalara görə. Xəzər dənizində kəşf edilmiş neft ehtiyatları təqribən 13 mlrd, ton, kəşf edilməmiş və proqnozlaşdırılan ehtiyatlar isə 35-50 mlrd, ton idi'

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsini bir sıra amillər zəruri edirdi. Birincisi, artıq qeyd edildiyi kimi, SSRİ dağıldıqdan sonra regionda tamamilə yeni geosiyasi vəziyyət yaranmışdı. İkincisi, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi yalnız region dövlətlərinin inkişafı, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi deyil, eyni zamanda onun biomüxtəlifliyinin, flora və fauna zənginliyinin qorunub saxlanılması, ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından vacib idi. Nəhayət, Xəzər dənizi yerləşdiyi mövqeyi baxımından bütövlükdə region üçün xüsusi əhəmiyyət kəsb edirdi. Xəzər regionu əməkdaşlıq zonası da, münaqişə meydanı da ola bilərdi. Heç şübhəsiz, regionun gələcək inkişafı baxımından Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi istiqamətində anlaşma və razılığın əldə edilməsi bu regionda qarşılıqlı etimadı, sülhü və təhlükəsizliyi daha da möhkəmləndirməli, sıx əməkdaşlığa zəmin yaratmalı idi.

SSRİ dağıldıqdan sonra Xəzər dənizi hövzəsində formalaşmış yeni geosiyasi şəraitdə müstəqil dövlətlər RSFSR ilə İran arasında 1921-ci il tarixli müqavilənin, SSRİ ilə İran arasında ticarət və gəmiçilik haqqında 1940-cı il müqaviləsinin real tələblərə cavab vermədiyini və onun Xəzər dənizində müvafiq məsələləri tənzimləməyə qadir hüquqi baza olmadığını dərhal bildirdilər. Bu ölkələr özlərinin su sərhədlərinə nəzarət etməyə başladılar. Onlar SSRİ ilə İran arasında imzalanmış sənədlər əsasında formalaşmış köhnə vəziyyətin qəbuledilməzliyini milli maraqlarına uyğun gəlməməsi ilə əlaqələndirirdilər. Bundan fərqli olaraq Rusiya Federasiyası
1991- ci il dekabrın 21-də Alma-Atada imzalanmış bəyannamədə yeni dövlətlərin SSRİ-nin bütün müqavilə öhdəliklərinin qüvvədə qalmasını

**MaMeflOB P. Me>KflyHapoflHO-npaBaBOH cxaryc KacnHÜCKoro Mopa: BMepa, ceroflHH, saBTpa BaKy, 2006; PasrpaHHHeHHe KacnHHCKoro Mopa (Me^KZiyHapoa- HO-npaBOBbie Bonpocbi). BaKy, 2006; Qurbanov T. Le petrole de la Caspienne et la politique exterieure de L’ AzerbaidJan.Tome 1. Paris, 2007, p.23.**

**Məmmədov R. Azərbaycanın neft diplomatiyası və Xəzərin beynəlxalq hüquqi**

qəbul etdiklərini bildirdi. Rusiya bununla Xəzər dənizinin keçmiş SSRİ-yə aid olan bütün ərazisinə iddiasını ortaya qoyurdu. Bu, yeni müstəqil dövlətlərin suveren hüquqlarının pozulması demək idi. Belə yanaşmanın ciddi əsası yox idi. Çünki həmin sənədin imzalanmasında bütün Xəzəryanı dövlətlər iştirak etməmişdilər. Buna görə də Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə dair danışıqlara başlamaq haqqında ümumi razılığa gəldilər. Bu zaman Azərbaycan Respublikası Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici neft şirkətləri ilə əməkdaşlığa dair danışıqlar aparırdı.

Alma-Ata bəyannaməsi imzalandıqdan bir müddət sonra, 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatının Tehranda keçirilən konfransında İran İslam Respublikasının Prezidenti Əkbər Haşemi Rəfsəncani Xəzər dənizində əməkdaşlıq üzrə təşkilat qurulması təklifini irəli sürdü. Konfransın fevralın 17-də qəbul olunan yekun kommunikesində Xəzəryanı ölkələrə Xəzər dənizindən və onun ehtiyatlarından istifadə məsələsində bütün regional mexanizmləri işə salmaq üçün müraciət edildi.

Xəzər dənizinin beynəlxalq hüquqi statusu məsələsi Azərbaycan Respublikasının nümayəndə heyəti tərəfindən beş Xəzəryanı dövlətin 1992- ci ilin sentyabr - oktyabr aylarında Tehranda keçirilən konfransında qaldırıldı. Konfransda iştirak edən nümayəndə heyətləri Xəzər dənizininin təbii sərvətlərini qorumaq da daxil olmaqla birgə fəaliyyət sahələrini müəyyənləşdirmək, bioehtiyatlarmdan səmərəli istifadə etmək, bütün tərəflərin maraqlarını nəzərə almaqla dəniz yollarını müəyyənləşdirmək, ekoloji tələbatı ödəmək. Xəzər dənizinin səviyyəsinin qalxması üzərində nəzarət məsələlərində razılığa gəldilər . Xəzəryanı dövlətlər altı ixtisaslaşdırılmış komitə yaratmağı zəruri hesab etdilər. Bu komitələrdən biri Xəzər dənizinin beynəlxalq hüquqi statusu məsələsi ilə məşğul olmalı idi. Oktyabrın 4-də qəbul olunan birgə yekun bəyannaməsində tərəflər əməkdaşlığı davam etdirmək niyyətlərini bəyan etdilər.

Beləliklə, həmin zamandan etibarən Xəzəryanı dövlətlərin nümayəndə heyətlərinin ikitərəfli və çoxtərəfli əsasda görüşlərinin keçirilməsinə başlandı. Görüşlərdə nümayəndə heyətləri ilk olaraq aşağıdakı suallara cavab axtarmağa çalışırdılar; Xəzər dəniz, yoxsa göldür? Ona BMT-nin 1982-ci ildə qəbul olunmuş dəniz hüququna dair konsepsiyası və 1958-ci ildə kontinental şelfə dair qəbul edilmiş Cenevrə konvensiyası tətbiq oluna bilərmi? Əgər Xəzər göldürsə, onda onun ehtiyatları sahilyanı dövlət-

**ARXINA. 1992.**

lərin ümumi mülkiyyətidirmi və ya həmin ehtiyatlar onların arasında bölüşdürülməlidirmi? Xəzərin Rusiya ilə İran, SSRİ ilə İran arasında imzalanmış 1921 və 1940-cı il müqavilələri ilə müəyyənləşdirilmiş rejimi konkret olaraq nədən ibarətdir? Bu müqavilələrin müddəaları Xəzərin təkində yerləşən enerji ehtiyatlarının mənimsənilməsi və istismarı üçün əsas ola bilərmi?

Xəzəryanı ölkələrin nümayəndələri Xəzər dənizinin sahəsinin, dibinin, bioloji və mineral ehtiyatlarının bölüşdürülməsi, həmçinin Xəzər dənizi hövzəsində və regionda təhlükəsizliyin təmin edilməsinə dair məsələləri müzakirə obyektinə çevirdilər. Lakin bu məsələlər barədə razılıq əldə edilmədi. Razılığa gəlinməməsinin səbəblərindən biri ilk dövrlərdə heç də bütün dövlətlərin Xəzər dənizinin bölünməli olması fikrini qəbul etməməsi ilə bağlı idi. Bundan irəli gələrək həm prinsipial məsələlər, həm də təfsilatlar üzrə ümumi və ya üst-üstə düşən məqamları müəyyənləşdirmək mümkün olmurdu.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa görə. Xəzər üçün iki status mövcud ola bilər: göl və dəniz. Coğrafi baxımdan Xəzər göldür. Çünki dünya okeanına çıxışı yoxdur. Göl hüquqi rejiminə görə, onu əhatə edən dövlətlər arasında orta xətt üzrə bölünür və sahilyanı ölkələrin hər birinin milli sektoru olur.

Xəzərin dəniz statusu qəbul edilərdisə, onda daxili sular - ərazi suları, ərazi sularına yaxın zona-kontinental şelf, xüsusi iqtisadi zonalar tətbiq edilməli idi. Xəzər isə belə bölgü üçün xeyli kiçikdir. Belə olduqda sektorlar bir-birinin içinə girir.

Azərbaycan və Qazaxıstan Xəzəri göl hesab edirdilər. Onların mövqeyinə görə. Xəzər orta xətt prinsipi üzrə milli sektorlara bölünməlidir, belə bölünmə SSRİ dövründəki praktikaya əsasən aparılmalıdır. Hər bir ölkə öz milli sektorunda iş apara bilər.

Rusiya, İran və Türkmənistanın mövqeyinə görə. Xəzər nadir qapalı su hövzəsidir; Xəzəryanı dövlətlərin ümumi sərvətidir; milli sektorlar 45 mildən az olmamalıdır; Xəzərin milli sektorlara düşməyən orta hissəsində geoloji-kəşfiyyat və neft-qaz hasilatı beş Xəzəryanı dövlətin ümumi iştirakı ilə həyata keçirilməlidir; Xəzərin hüquqi statusu müəyyənləşdirilənə- dək ölkələrin milli sektorlarında qazma işlərini aparmasına yol vermək olmaz.

1993- cü ilin iyun ayında görkəmli dövlət və siyasi xadim Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində aparılan məsləhətləşmələr artırıldı.

Həmin ilin avqustun 23-26-da Xəzəryanı dövlətlərin nümayəndələrinin İranın Rəşt şəhərində keçirilən hökumətlərarası konfransının başlıca məqsədi Xəzər dənizinin bioehtiyatlarmm mühafizəsi və istifadəsi ilə bağlı məsələləri müzakirə etmək idi. Konfransda Rusiyanın təqdim etdiyi layihə müzakirə edildi"'*^. Tərəflər Xəzər dənizinin bioehtiyatlarmm mühafizəsinin vacibliyini vurğuladılar.

Xəzəryanı dövlətlərin nümayəndə heyətlərinin növbəti görüşü həmin ilin oktyabrın 14-də Rusiyanın Həştərxan şəhərində oldu. Görüş zamanı Xəzər dənizinin akvatoriyasının bölüşdürülməsi və təbii ehtiyatlarından istifadə zamanı əməkdaşlıq məsələləri müzakirə edildi. Nümayəndə heyətləri müvafiq saziş layihəsini hazırlamağı Qazaxıstana tapşırdılar.

Xəzəryanı ölkələrin baş nazirlərinin 1993-cü ilin oktyabrında keçirilən görüşündə Rusiya tərəfi Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsini qaldıraraq 12 millik balıqçılıq zonası ideyasını irəli sürdü. Azərbaycan isə 40 millik zona ideyasını təklif edirdi. Rusiyanın bu təklifi digər ölkələrin məsələyə dair mövqelərini üzə çıxarmaq məqsədini güdürdü.

1993-cü il dekabrın 8-10-da Aşqabadda keçirilən növbəti konfransda İranın Xəzər dənizi məsələləri üzrə beynəlxalq təşkilat yaratmaq təklifi müzakirə edildi. Lakin tərəflər razılığa gələ bilmədilər. Yaranmış vəziyyət tədricən digər dövlətlərin və mətbuatın da diqqətini özünə cəlb edirdi.

Bu zaman Xəzər dənizinin hüquqi statusu və enerji məsələləri dünya mətbuatının da gündəliyindən düşmürdü. Məsələn, Türkiyənin “Hür- riyef’ qəzetinin yaydığı məlumata görə, Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü ilin sentyabrında Misirə səfəri zamanı ABŞ-m vitse- prezidenti Albert Qor ilə görüşü enerji məsələsi baxımından mühüm əhəmiyyət kəsb etmişdi""^. Qəzet neft müqaviləsinin imzalanmasının yubanmasında Xəzər dənizinin hüquqi statusu məsələsinin müəyyən rol oynadığını qeyd edir, statusun ortaya atılmasında üç ehtimalın olduğunu vurğu- layırdı: 1. Rusiyanın sazişə mane olmaq üçün Xəzər məsələsini ortaya atması ehtimalı. 2. Qərb şirkətlərinin gəlir paylarını artırmaq üçün Xəzərin statusu haqqında bəhanənin üstündə durması ehtimalı. Hətta bəlkə bunları özləri irəli sürərək Rusiyadan atılan daş kimi təqdim edirlər. 3. ABŞ-da neft sazişinin mümkün olduqca gecikdirilməsinə çalışan qüvvələrin olması ehtimalı. Bunun səbəbi Azərbaycan neftinin dövrəyə daxil olması ilə dünyada neft qiymətlərinin aşağı düşməsinə yol açıla bilməsi idi. Qəzet

**ARXINA. 1993.**
**ARXİNA. 06.09.1994 -07.11.1996. Qovluq Xs21, v.125-126.**

qeyd edilən məsələlərlə əlaqədar olaraq ABŞ-ın İraqa qarşı tətbiq etdiyi embarqonu misal gətirirdi.

Məlum olduğu kimi, bütün təzyiqlərə baxmayaraq, Azərbaycan xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bundan sonra Xəzər dənizinin hüquqi statusu məsələsi ilə əlaqədar Azərbaycana edilən təzyiqlər daha da artdı. Yaranmış vəziyyətlə bağlı olaraq Heydər Əliyev sonralar deyirdi: "...Xəzərin statusu məsələsi 1994-cü ildə ARDNŞ ilə beynəlxalq konsorsium arasında ilk müqavilə imzalandıqdan sonra yaranmışdır. O vaxtadək heç kim bu məsələni qaldırmamışdır... Hesab edirəm ki. Xəzərin statusunu müəyyənləşdirmək lazımdır. Amma bu barədə ortaya çoxlu məsələ, ən əvvəl ekologiya, gəmiçilik, balıq ovu. Xəzərin ehtiyatlarının mühafizəsi, onun təkindən istifadə olunması ilə bağlı məsələlər çıxır. Xəzər dövlətlərinin təhlükəsizliyi yaranır. Odur ki, bu, kompleks məsələdir. Xəzərin statusunun müəyyənləşdirilməsinin təşəbbüsçüləri isə əsasən bunu rəhbər tuturlar ki. Xəzərdə nefti kim, harda və necə çıxarmalıdır. Prinsipcə, mənə elə gəlir ki, bu, kifayət qədər mürəkkəb məsələdir... Hesab edirəm ki, beynəlxalq praktikanı, beynəlxalq qaydaları əsas tutaraq, bütün bu məsələləri tədricən öyrənmək və müəyyən bir ümumi rəyə gəlmək lazımdır. Amma bu elə təxirəsalınmaz məsələ deyil ki, onu, bəzilərinin hesab etdiyi kimi, günü bu gün həll etmək lazım olsun. Daha mühüm dünya məsələləri var və hesab edirəm ki, onlarla məşğul olmaq gərək-
dir:^1144^

Rusiya tərəfi Azərbaycana etdiyi təzyiqləri artırırdı. Türkiyənin "Hürriyet" qəzetində dərc edilmiş "Rusiya Bakını boğmaq üçün qərar qəbul etdi" adlı məqalədə Rusiyanın xarici işlər naziri Andrey Kozırevin bağlanmış neft müqaviləsi Rusiyanın mənafelərinə zidd olduğu üçün Baş Nazir Viktor Çernomirdinə Azərbaycana qarşı lazımi tədbirlər görmək üçün məktub göndərdiyi yazılırdı. Həmin məktubda Azərbaycan, Qazaxıstan və Türkmənistanın Xəzər dənizinin mövcud statusunu dəyişdirmə səyləri Rusiya Xarici İşlər Nazirliyi tərəfindən pislənilirdi. Qəzetin yazdığına görə, Azərbaycan hökumətinin imzaladığı neft müqaviləsinin Rusiyanın milli mənafeyinə zidd olduğunu qeyd edən Andrey Kozırev demişdi: "İran da bizim kimi Xəzər dənizinə aid hər hansı bir qərarın bu dəniz hövzəsindəki beş ölkənin iştirakı ilə həll olunmasını arzu edir." Azərbaycan hökumətinə qarşı iqtisadi embarqo tətbiq edilməsini tələb

**Əliyev H.Ə. Azərbaycan, Rusiya və xarici ölkə jurnalistləri üçün mətbuat konfransında bəyanat. 19 oktyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, S.423.**

edən Andrey Kozırev məktubunda “əlaqədar nazirliklər Azərbaycana qarşı iqtisadi sahədə tədbirlər görməlidirlər. Bunları etmək lazımdır, əks- təqdirdə Rusiya zərər çəkən vəziyyətə düşər” xəbərdarlığını etmişdi””^.

Bütün bunlara baxmayaraq, Xəzər dənizi məsələlərinə dair müzakirələr davam edirdi. Belə ki, 1994-cü il oktyabrın 11-12-də Rusiya Federasiyasının təklifi ilə Xəzəryanı dövlətlərin səlahiyyətli nümayəndələrinin Moskvada keçirilən konfransında əsl qalmaqal baş verdi. Konfransın məqsədi Azərbaycan, Qazaxıstan və Rusiyanın Xəzər dənizinin hüquqi statusuna dair konvensiya layihəsini müzakirə etmək idi. Azərbaycan məsələyə dair öz layihəsini təqdim etdi. Layihədə Xəzərə sərhəd gölü statusu verilməsi və milli sektorlara bölünməsi nəzərdə tutulurdu. Buna görə, milli sektorlar sahilyanı dövlətlərin ərazi suları hesab edilməli və hər bir dövlət öz milli sektorunda bioloji ehtiyatlar, suyun səthi, gəmiçilik. Xəzər dənizinin dibinin və təkinin işlənilməsi və s. müstəsna hüquqa malik olmalı idi. Milli sektorlar Xəzər dənizinin orta xətt keçirmək və müvafiq sektorun xarici sərhədlərini çəkmək nəticəsində yaranır, dövlətlərin xarici sərhədləri hesab edilirdi. Bu təklif ABŞ və Kanada arasındakı Böyük göllər, Niger, Çad və Kamerun arasındakı Çad gölü və b. beynəlxalq təcrübəyə əsaslanırdı"”".

Qazaxıstan variantında isə Xəzər qapalı dəniz olaraq qəbul edilirdi. Lakin Rusiya və İranı Xəzərin dəniz variantı statusu təmin etmirdi. Çünki Xəzər dəniz və ya qapalı dəniz statusu aldıqda ona 1982-ci ildə qəbul olunmuş BMT-nin dəniz hüququ tətbiq edilməli idi. O zaman Xəzər dənizinin delimitasiyası zərurəti aradan qalxırdı. Göl variantı qəbul edildikdə isə sahilyanı ölkələr Xəzər dənizinin beynəlxalq hüquqi statusuna və delimitasiyasına dair ayrıca saziş bağlamalı idilər. Konfransda Azərbaycan və Qazaxıstan layihələri müzakirə edilmədi. İran və Rusiyanın təklif etdiyi variant müzakirəyə çıxarıldı. Azərbaycanın və Qazaxıstanın variantına bənzəməyən Rusiya variantında Xəzərin dəniz, yoxsa göl olması barədə aydın bir şey deyilmirdi. Xəzərin beynəlxalq hüquqi statusunun ayrıca konvensiya ilə müəyyənləşdiriləcəyi göstərilirdi. Rusiya beynəlxalq hüquqi status əvəzində Xəzər dənizi məsələləri üzrə dövlətlərarası şura yaratmaq təklifini irəli sürürdü. Bu təklifdə Xəzər dənizinin ehtiyatlarından istifadə üçün əlaqələndirmə və nəzarət üzrə komitə yaradılması

' **ARXİNA. 06.09.1994-07.11.1996. Qovluq X°21, v. 107.**

**MaMeaoB P. Me5KayHapoa.Ho-npaBOBbiH craryc KaonuficKoro Mopa: BHepa, ceroÄHB, saBTpa (Bonpocbi Teopuu u npaKTUKH). — TKypu. “UeHxpajibHaa Aaua H KaBKas”, 2000, JVo2(8), c.232-233.**

nəzərdə tutulurdu. Dörd dövlət layihəni paraflamaq barədə razılıqlarını bildirdilər. Azərbaycan tərəfi isə bu layihəyə razılıq vermədi. Bununla belə, Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsi üzərində işi davam etdirmək barədə ümumi razılıq əldə olundu”"’.

Artıq qeyd edildiyi kimi, Azərbaycan tərəfi yaranmış vəziyyət barədə 1994-cü il oktyabrın 13-də Böyük Britaniyanın dövlət katibi Duq- las Herdə bir məktub ünvanlamışdı. Böyük Britaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Orta Asiya departamentinin rəisi Linda Daffıld dövlət katibi adından verdiyi cavab məktubunda birmənalı olaraq bildirdi: “Bir daha qeyd edirik ki, birgə neft çıxarılmasına dair 20 sentyabr tarixli müqavilənin imzalanmasından məmnunuq. Bu müqaviləyə Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında münasibətlərin inkişafının əsas istiqaməti kimi baxırıq”.

Rusiya tərəfindən yuxarıda göstərilən təklifin irəli sürülməsi səbəbsiz deyildi. Əsas məqsəd “Əsrin müqaviləsi”nin reallaşdırılmasına mane olmaq idi. Lakin “Əsrin müqaviləsi”nin imzalanması mərasimində iştirak edən Rusiya Federasiyasının nümayəndəsi Yuri Şafrannik çıxışında əslində Xəzər dənizinin Azərbaycan sektorunun mövcudluğu faktını təsdiq etmişdi.

“Əsrin müqaviləsi” imzalandıqdan bir neçə ay sonra, dekabrın 5-də Rusiya Federasiyası BMT Baş Məclisinə “Xəzər dənizinin hüquqi rejiminə münasibətdə Rusiya Federasiyasının münasibəti haqqında” adlı bir sənəd göndərdi. Rusiya Federasiyası yalnız BMT Baş Məclisində Xəzərin hüquqi statusu ilə bağlı sənəd yayaraq xarici neft şirkətləri ilə birlikdə Xəzərdə aparılan işlərə kəskin etiraz etməklə kifayətlənmədi. Eyni zamanda Böyük Britaniya hökumətinə və müqavilədə iştirak edən digər dövlətlərə də etiraz dolu məktublar göndərdi.

Böyük Britaniya hökuməti Rusiyanın məktublarını Azərbaycan, Qazaxıstan və Türkmənistan hökumətlərinə də göndərdi. İngiltərənin mövqeyinə görə. Xəzər dənizinin hüquqi statusuna dair məsələ beş Xəzəryanı dövlətin arasında müzakirələrlə həll edilməli idi. İngiltərə Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi barədə keçirilən danışıqların nəticələri ilə maraqlanırdı”"*.

**ARXINA. 19.09.1994 - 05.01.1995. Qovluq Xa?, v. 38. '**
**ARXINA. 21.051994-04.11.1996. Qovluq Xal 1, v.38.**

Bundan sonra Azərbaycan Xəzər dənizinin hüquqi statusu ilə bağlı rəsmi mövqeyini xarici ölkələrdəki bütün səfirlik və nümayəndəliklərinə göndərdi'

Rusiya isə öz mövqeyində israr edirdi. Belə ki, bir müddət sonra Rusiya Şimali Qafqazda hərbi əməliyyatlara başladı. Heç şübhəsiz, müharibə təkcə Rusiyanın ərazi bütövlüyünü bərpa etmək üçün aparılmırdı. Bundan istifadə edərək Boris Yeltsin Rusiyası Azərbaycana gedən dəmiryolunu və digər kommunikasiyaları bağladı. Azərbaycan blokada vəziyyətinə düşdü. Lakin bir az sonra Rusiya blokadanı aradan qaldırdı.

Bu zaman Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələlərinə aydınlıq gətirilməsi məqsədi ilə elmi konfranslar keçirməyə başladılar. İlk belə konfrans 1995-ci il yanvarın 30- dan fevralın 2-dək Aşqabadda keçirildi. Xəzəryanı ölkələrin nümayəndələrinin görüşündə gündəlikdə Xəzərin təbii sərvətlərinin qorunması və istifadəsinə dair Rusiya layihəsinin müzakirəsinin davamı dururdu. Məsələnin müzakirəsi zamanı balıqçılarla diplomatlar arasında mübahisələr yarandı. Diplomatlar Xəzər dənizinin hüquqi statusu müəyyənləşdirilmə- yincə təbii sərvətlərdən istifadənin mümkün olmayacağını bildirirdilər. Balıqçılar isə balıqçılıq sənayesinin Xəzərin hüquqi statusunun müəyyən- ləşdirilməsinə qədər gözləyə bilməyəcəyi qənaətində idilər. Nəticədə Rusiya layihəsi müzakirə edilərək yalnız status xarakterli bir məsələ istisna olmaqla razılaşdırıldı. Azərbaycandan başqa bütün dörd dövlət sahildən 25 mil enində balıqçılıq zonası təklifi ilə razılaşdı. Hər bir dövlət 12 millik ərazi sulan hüququ əldə edir və həmin dəniz ərazisinə, eləcə də onun üzərindəki hava səmasına, dənizin həmin ərazidəki dibinə və təkinə sahilyanı dövlətin suverenliyi tam həcmdə şamil edilirdi. Bu təklifə görə, 12 millik ərazi sularının ardınca müstəsna iqtisadi zona başlanırdı, iqtisadi zona sahilyanı dövlətə məxsus olurdu, həm də ərazi sularının eninin hesablanmağa başladığı çıxış nöqtəsindən müstəsna iqtisadi zonanın eni 200 dəniz milindən artıq olmamalı idi. Lakin bütövlükdə Xəzər dənizinin maksimal eni 200 dəniz milindən artıq deyildi. Buna görə də qarışıq sahilləri olan dövlətlər arasında müstəsna iqtisadi zonaların xarici sərhədləri Beynəlxalq Məhkəmənin statunun 38-ci maddəsinə əsasən ədalət prinsipinə uyğun olaraq ən yaxın sahil nöqtələri arasında bərabər məsafədən keçən orta xətt prinsipi əsasında, saziş vasitəsi ilə müəyyənləşdirilirdi"^".

**' ARXİNA. 21.051994-04.11.1996. Qovluq Xbl 1, v. 100.**

[1150] **ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xbl 1, v. 94-96.**

Azərbaycan belə bir sazişin Xəzər dənizinin hüquqi statusunu və rejimini əvvəlcədən müəyyənləşdirdiyini bildirərək onu imzalamaqdan imtina etdi. Danışıqlar prosesini fəallaşdırmaq məqsədi ilə Qazaxıstan tərəfi 1995-ci il mayın 15-16-da Alma-Atıda beynəlxalq elmi-praktik konfrans çağırdı. Tədbirdə Xəzəryanı ölkələrdən alimlərlə yanaşı diplomatlar da iştirak edirdilər. Qazaxıstanın təklifi ilə mayın 16-da Türkmənistan istisna olmaqla dörd dövlətin xarici işlər nazirlərinin müavinlərinin görüşü keçirildi. Həm konfrans, həm də görüş zamanı müzakirə olunan əsas mə

sələ Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi idi . Qazaxıstan, Rusiya və İran nümayəndələri Xəzər dənizi üzrə beynəlxalq şura yaradılması işini sürətləndirməyi və bu məqsədlə daimi danışıqlar mexanizmi üçün komitə yaradılması təklifində israr edirdilər. Konfransda Rusiya nümayəndə heyəti Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 1994- cü ilin payızında verdiyi bəyanatı təkrar edərək Xəzər dənizində kon- dominium qurulmasında və ya birgə istifadədə israr etdi. Bu təklifə görə. Xəzər dənizi beş sahilyanı dövlətin sərvəti elan edilirdi. Onlardan birinin razılığı olmadan digər heç bir ölkə Xəzər dənizinin sərvətlərindən və sahəsindən təktərəfli qaydada istifadə edə bilməzdi. Rusiya Xəzərin milli sektorlara bölüşdürülməsinin əleyhinə çıxırdı. Çıxış edən Rusiya xarici işlər nazirini müavini Albert Çernışev"^^ bildirdi ki, Rusiya Xəzər dənizinin bölüşdürülməsinin əleyhinədir. Qeyd etdi ki, kim nə istəyirsə, onu da edir, Rusiya Xəzərin mineral ehtiyatlarının talan edilməsinin əleyhinədir. Rusiyalı diplomat ABŞ-a işarə edərək dedi ki, kimsə Xəzər dənizini özünün strateji maraqları zonası elan edir. Daha sonra əlavə etdi: “Xəzərdə maraqlar vardır. Amma bu, bizim maraqlarımızdır. Biz əməkdaşlığa hazırıq, amma bizim şərtlərlə. Bizi bir-birimizə qarşı qızışdırırlar. Kompromis üçün imkanlar vardır. Lakin biz beş dövlətin razılaşması olmayana qədər Xəzərdə neft çıxarılmasının əleyhinəyik. Biz məsələni ədalət və vicdanla həll etmək istəyirik”'

Qeyd etmək lazımdır ki, bu dövrdə Boris Yeltsinin rəhbərlik etdiyi Rusiya neft və qaz sahəsində əsasən iki maraq güdürdü. O, hər şeydən əvvəl. Xəzəryanı dövlətlərə xarici bazarda rəqib kimi baxır və digər dövlətlərin Xəzər dənizinə gəlməsinə, deməli, Azərbaycanın imzaladığı

**ARXİNA. 1995. Qovluq ftb S, v. 34-35.**

**Albert Çemışev (1936-2012) - SSRİ xarici işlər nazirinin köməkçisi (1982- 1987). Türkiyədə səfir (1987-1993). Rusiya xarici işlər nazirinin müavini (1993- 1996). Hindistanda səfir (1996-1999).**

**ARXİNA. 1995. Qovluq Xe S, v. 34-35.**

"Əsrin müqaviləsi"nin reallaşdınimasına imkan verməməyə çalışırdı. İkincisi, neft və qaz boru kəmərlərinin Rusiya ərazisindən keçməsinə səylər edirdi.

İran İslam Respublikasının mövqeyi Rusiyaya yaxın idi. İran xarici işlər nazirinin müavini Abbas Maleki Xəzər dənizindən beş dövlətin birgə istifadə etməsinin vacibliyini bildirərək, kondominium əsasında kompromisə tərəfdar çıxdı, hüquqi statusun müəyyənləşdirilməsinə dair danışıqların davam etdirilməsi təklifini müdafiə etdi. Əlavə etdi ki. Xəzərin bölünüb-bölünməməsi sualına ekspertlər cavab verməlidirlər. Onun fikrincə, hər iki variantın heç biri olduğu kimi qəbul edilə bilməzdi. Abbas Maleki hansısa simbiozun gərəkliyinə inanır. Xəzəryanı dövlətlərin və başqa regionların dövlətlərinin tarixi təcrübəsini nəzərə almağı vacib hesab edirdi.

Xəzərin hüquqi statusuna dair Qazaxıstan layihəsinin ikinci variantında Xəzərə dəniz statusunun verilməsi, hər bir ölkəyə 12 mil ərazi sularının və 200 mil iqtisadi zona ayrılması təklifi irəli sürülürdü. Bu təklifə görə. Xəzər hövzəsində dəniz məkanının delimitasiyası beynəlxalq dəniz hüququna uyğun bölüşdürülməli, onda ərazi suları, iqtisadi zonalar, kontinental şelf və s. məsələlər ayrılmalı idi. Artıq qeyd edildiyi kimi. Xəzərin eni 200 mil məsafəni ötüb keçmədiyindən əslində Qazaxıstanın təklifinə əsasən orta xətt prinsipi qüvvəyə minirdi. Bu da Azərbaycanın mövqeyinə yaxın idi. Azərbaycan isə əvvəllərdə olduğu kimi. Xəzəri sərhədboyu göl kimi görürdü. Belə yanaşmaya görə. Xəzər dənizi orta xətt üzrə müvafiq sektorlara bölünməli idi.

Yaranmış vəziyyətdə Azərbaycan nümayəndə heyəti Qazaxıstan Xarici İşlər Nazirliyinin rəhbərliyi və İranın xarici işlər nazirinin müavini Abbas Maleki ilə ilkin ikitərəfli məsləhətləşmələr keçirdi. Azərbaycan tərəfi Xəzər dənizi üzrə beynəlxalq şuranın yaradılmasının gərəksiz olduğuna dair mövqeyinə onları inandıra bildi. Belə bir şuranın əvəzində Azərbaycan tərəfi kompromis variant kimi daimi xüsusi işçi qrupun yaradılmasını təklif etdi. Görüş zamanı Abbas Maleki Azərbaycanın imzaladığı neft kontraktında İranın iştirak etməməsindən təəssüfləndiyini, bu məsələnin ikitərəfli qaydada müzakirəsini istədi. Onun fikrincə, İran tərəfi məsələyə yanaşmasını hələ dəqiqləşdirməmişdi. Buna baxmayaraq, Abbas Maleki Xəzər dənizinə dair məsələlərdə Rusiyanın mövqeyi ilə hesablaşmağı zəruri sayırdı. Görüşdə müzakirələri Tehranda davam etdirmək barədə razılıq əldə edildi.

Almatı görüşünün qərarına uyğun olaraq Xəzəryanı ölkələrin xarici işlər nazirliklərinin hüquq xidməti rəhbərlərinin Xəzər dənizinin hüquqi

statusunun müəyyənləşdirilməsi üzrə birinci görüşü 1995-ci il iyunun 28-29-da Tehranda keçirildi. Görüşdə Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan nümayəndələri ölkələrinin Xəzər dənizinin hüquqi statusuna dair konseptual mövqeyini bəyan etdilər. Onlar belə bir qərara gəldilər ki. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi özündə aşağıdakı elementləri birləşdirməlidir: balıqçılıq; o cümlədən Xəzərin su səviyyəsinin qalxması; mineral ehtiyatlardan istifadə; Xəzəryanı ölkələrin suveren hüquqlarının predmetinin müəyyənləşdirilməsi.

Görüşdə Qazaxıstan nümayəndə heyəti Xəzərin hüquqi statusuna dair konvensiya layihəsini təqdim etdi. Türkmənistan nümayəndə heyəti isə Xəzər dənizinin statusu məsələsində qarşılıqlı anlaşma. Xəzəryanı dövlətlərin onun akvatoriyasında, təkində və ehtiyatlarının istifadəsində, həmçinin Xəzər hövzəsinin ətraf mühitinin mühafizəsində əməkdaşlıq haqqında memorandum hazırlamağı və qəbul etməyi təklif etdi"^'*.

Müşavirə iştirakçıları belə razılığa gəldilər ki. Xəzər dənizinin hüquqi statusu bütün Xəzəryanı dövlətlərin razılığı əsasında müəyyənləşdirilməli, hüquqi tənzimləmənin göstərilən hər bir elementi Xəzər dənizinin hüquqi statusuna dair vahid sənəddə əskini tapmalıdır. Tərəflər regional əməkdaşlığı vacib hesab edərək növbəti görüşün sentyabr ayında Almatıda keçirilməsi barədə razılaşdılar.

Sentyabrın 26-27-də Almatıda keçirilən görüşdə Rusiya nümayəndə heyəti iştirak etmirdi. Görüş iştirakçıları Xəzər dənizində Xəzəryanı dövlətlərin fəaliyyətinin aşağıdakı prinsiplər əsasında həyata keçiriləcəyi barədə razılaşdılar: BMT nizamnaməsi əsasında, xüsusən suverenliyə, ərazi bütövlüyünə, siyasi müstəqilliyə, dövlətlərin suveren bərabərliyinə hörmət; zor işlətməmə və zor işlətməklə hədələməmə; Xəzər dənizinin hərbsizləşdirilməsi və ondan yalnız dinc məqsədlər üçün istifadə edilməsi; Xəzər dənizinin sülh, mehriban qonşuluq, dostluq və əməkdaşlıq dənizinə çevrilməsi; Xəzər dənizi ətrafında bütün mübahisələrin dinc vasitələrlə həll edilməsi; ətraf mühitin mühafizəsi və Xəzər dənizinin çirklənməsinin qarşısının alınması; Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, təkrar istehsalı və regional istifadəsi. Xəzər dənizindən istifadə nəticəsində ətraf mühitə dəyən ziyanlar üçün Xəzər dənizi dövlətlərinin məsuliyyəti; Xəzər dənizində Xəzəryanı dövlətlərin ticarət gəmilərinin sərbəstliyi və təhlükəsizliyinin təmin edilməsi.

[1154] **ARXİNA. 21.05.1994-04.11.1996. Qovluq Xsl 1, v.125-126.**

Görüşün yekununda birgə bəyannamə qəbul edildi. İranın irəli sürdüyü Xəzər dənizinin statusu və rejiminin vahid sənəddə formalaşdırılması ideyası bəyannamədə əks olunmuşdu. Azərbaycan Xəzər dənizinin hüquqi statusunun ayrıca sazişlə müəyyənləşdirilməsini təklif edir və belə hesab edirdi ki, yalnız bundan sonra Xəzər dənizindən istifadə ilə bağlı məsələlər üzrə ayrıca müqavilələr bağlana bilər.

Bu görüşdən sonra Xəzər dənizi problemlərinə dair hökumətlərarası əməkdaşlıq təşkilatının qurulması ideyası arxa plana keçdi, xüsusi işçi qrupu məsələsi aktuallaşdı.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı yaranmış vəziyyət, Rusiya və İranın təzyiqləri Azərbaycanı narahat edirdi. Buna görə də Azərbaycan Respublikası daha qətiyyətli addımlar ataraq Xəzər dənizinin özünə məxsus sektoruna hüquqi status vermək qərarına gəldi. 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikası konstitusiyasının 11-ci maddəsində Xəzər dənizinin sahilyanı göl-sektor variantında statusunun olması təsbit edildi. Həmin maddədə yazılırdı: "I. Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. II. Azərbaycan Respublikasının daxili suları. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. III. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər"."^^

Beləliklə, Xəzər dənizinin Azərbaycan sektorunun dibi, su səthi və hava sahəsi üzərində Azərbaycan Respublikasının suverenliyi və yurisdiksiyası təsbit olundu. Azərbaycan Respublikası suveren hüquqları əsasında Xəzərdə həyata keçirməyə başladığı bütün beynəlxalq müqavilələri bir daha möhkəmləndirdi. Bu, Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan dövlətinin qəti iradəsini və dəyişməz mövqeyini göstərirdi.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində səylər 1996-cı ildə də davam etdirildi. Həmin ilin yanvarın 19-da Moskvada Xəzər dənizi məsələlərinə dair Azərbaycan ilə Rusiya arasında birgə bəyanat imzalandı. Bəyanatda Xəzər dənizində bütün məsələlərin

**' Azərbaycan Respublikasının konstitusiyası (əsas qanunu). Bakı, 1997, s. 12.**

sahilyanı ölkələrin birgə razılığı ilə həllinin vacibliyi vurğulanırdı. Bu sənəd iki ölkə arasında mövcud məsələdə yaxınlaşmanı göstərirdi.

Fevralın 13-də isə Almatıda Azərbaycan, Qazaxıstan və Rusiya hidroqrafık xidmət ekspertlərinin görüşü keçirildi. İran tərəfi bu görüşə nümayəndəsini göndərməmişdi. Türkmənistan isə tədbirdə Almatıdakı səfirliyinin nümayəndəsi səviyyəsində təmsil olunurdu. Müzakirələr nəticəsində iştirakçılar Xəzər dənizində təhlükəsiz gəmiçilik məsələlərinin tənzimlənməsi üçün əlaqələndirilmiş səylərin vacibliyi qənaətinə gəldilər. Lakin Rusiya hidroqrafıya xidməti nümayəndələri Xəzəri göl deyil, dəniz hesab etdikləri üçün razılıq əldə edilmədi. Buna görə də Rusiyanın təklif etdiyi Xəzərdə təhlükəsiz gəmiçilik üzrə konvensiya layihəsi müzakirəyə çıxarılmadı.

Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi təkcə sahilyanı dövlətlər deyil, Amerika, Avropa və Asiya ölkələri üçün də əhəmiyyət kəsb etməyə başladı. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məqsədi ilə çoxsaylı rəsmi görüşlər və elmi-praktik konfranslar keçirildi. Xəzər dənizi məsələlərinə dair müzakirələrə başqa ölkələr də cəlb edildi. Belə ki, 1996-cı il martın 5-6-da Moskvada "Xəzər nefti və beynəlxalq təhlükəsizlik" mövzusunda keçirilən beynəlxalq elmi seminarda Rusiya, Azərbaycan, ABŞ, Almaniya, Qazaxıstan, Yunanıstan, Gürcüstan və b. ölkələrin rəsmi strukturlarının, neft kompaniyalarının nümayəndələri və alimlər iştirak edirdilər. Seminarda Xəzər dənizinin neft və qaz ehtiyatlarının dünyanın istilik-enerji bazarında rolu, iqtisadi və siyasi problemlər. Xəzərin beynəlxalq hüquqi statusu, Azərbaycan neftinin nəqli yolları, ekologiya və s. məsələlər müzakirə edildi. Rusiya alimləri Xəzər dənizinin qanunsuz olaraq bölüşdürüldüyünü, qapalı su hövzəsi olduğu üçün onu üçüncü dövlətin istifadəsinə verməyin mümkünsüzlüyünü bildirdilər. Belə mövqe Qazaxıstan və Azərbaycan nümayəndələri tərəfindən etirazla qarşılandı. Azərbaycanın mövqeyi beynəlxalq hüquqa və sahil göllərinin orta xəttlə bölüşdürülməsinə dair ümumdünya praktikasına əsaslanırdı, ədalətli idi, sahilyanı ölkələr arasında sıx əməkdaşlığa yönəlmişdi. Azərbaycan Xəzər dənizinin qarşıdurma deyil, əməkdaşlıq meydanına çevrilməsində maraqlı idi. Seminarda Azərbaycan, Rusiya və Qazaxıstanın mövqelərinin dəyişmədiyi məlum oldu.

Xəzər dənizi problemlərinə həsr edilmiş tədbirlər Fransa və b. ölkələrdə də keçirildi. Bütün bunlar Xəzər məsələlərinə beynəlxalq marağın artdığını göstərirdi.

1996-ci il mayın 17-19-da Həştərxanda keçirilən konfransda Xəzər dənizi rayonunda transsərhəd əməkdaşlığı. Xəzərin ekologiyasına kömək etmək üçün Avropa İttifaqının yardımlarını cəlb etmək imkanları müzakirə olundu. Konfrans Xəzər dənizi regionuna Avropa İttifaqı dövlətlərinin maraqlarının artmasının göstəricisi olmaqla, Azərbaycanın da mövqelərini möhkəmləndirirdi.

Bu tədbirin ardınca mayın 20-22-də Tehranda Azərbaycan, Rusiya, İran və Türkmənistan nümayəndələrinin Xəzər dənizində balıqçılıq və bioresurslar məsələlərinə həsr edilmiş konfransı keçirildi. Konfransda Qazaxıstan nümayəndə heyəti iştirak etmirdi. Müzakirələrin nəticəsində tərəflər görüşləri davam etdirmək barədə razılığa gəldilər.

Xəzər dənizi ətrafında gedən bütün ziddiyyətli proseslərə baxmayaraq, Azərbaycan və Qazaxıstan qətiyyət göstərərək 1996-cı il sentyabrın 16-da Xəzər dənizi məsələləri üzrə birgə bəyannamə imzaladılar. Bəyannamədə yazılırdı ki, hər iki ölkə öz milli sektorunda mineral və bioloji sərvətlərin istifadə haqqını tanıyırlar.

Bundan az sonra, Rusiya, İran və Tükmənistanın hazırladığı layihələr tərəflərə təqdim edildi. Layihələr həmin dövlətlərin məlum iddialarını əks etdirirdi.

Beləliklə, 1996-cı ilədək Xəzəryanı dövlətlərin əməkdaşlığının başlıca nəticələri Xəzər dənizinin beynəlxalq hüquqi statusunun təyin edilməsi üçün şəraitin, ilkin şərt və qarşılıqlı münasibətlərin prinsiplərinin müəyyənləşdirilməsi oldu. Çoxtərəfli əsasda Xəzərin beynəlxalq hüquqi statusunu müəyyənləşdirmək mümkün olmasa da, aparılan müzakirələr tərəflərin mövqelərini üzə çıxarmaq baxımından əhəmiyyətli idi. Qeyd etmək lazımdır ki, bu dövrdə Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməməsinə təsir edən bir sıra amillər var idi. Hər şeydən əvvəl, problem ilkin hazırlıq işləri aparılmadan, birdən-birə meydana çıxmışdı. İkincisi, ölkələrin heç də hamısı müzakirələrə hazır deyildilər. Əməkdaşlığın birinci mərhələsində Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsi məsələsinə hər bir dövlətin özünün xüsusi yanaşmasının olduğu aydınlaşdı. Prezident Boris Yeltsinin rəhbərlik etdiyi Rusiyanın yanaşması Xəzərin mənsubiyyətinə dair postsovet imperiya iddialarını özündə əks etdirirdi. Bu dövrdə Rusiyanın məsələyə yanaşması qeyri-konstruktiv olub, əsasən ölkə daxilində baş verən mürəkkəb sosial-iqtisadi və siyasi proseslərin nəticəsi kimi təzahür edirdi.

İran İslam Respublikası isə Xəzər dənizi məsələlərinin həllinə iqtisadi və geosiyasi maraqları baxımından yanaşırdı. Rəsmi Tehran "Əsrin

müqaviləsi"nin həyata keçirilməsini və Xəzər dənizində qərb ölkələri şirkətlərinin mövcudluğunu milli təhlükəsizliyinə təhdid kimi qiymətləndirirdi. İran tərəfi status məsələsində 1921 və 1940-cı il müqavilələrinə istinad edirdi. Tehranın məsələyə yanaşması məhdud milli maraqlarını ifadə edirdi. İran yeni yaranmış müstəqil dövlətlərin neft yataqlarını istifadəyə verərək inkişaf edib güclənməsində və Fars körfəzinin zəngin neft mənbələrinə alternativin yaradılmasında maraqlı deyildi.

Azərbaycan, Qazaxıstan və Türkmənistan isə iqtisadi rifah naminə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün səylər edirdilər. Lakin bu ölkələrin də problemə yanaşmada hazırlıq səviyyələri müxtəlif idi. Qazaxıstan Xəzərin qapalı dəniz statusunu təklif edirdi. Türkmənistan konkret mövqe bildirmirdi. Azərbaycanın mövqeyi isə tam aydın idi. Azərbaycan Xəzərin coğrafi mövqeyini nəzərə alaraq onun qapalı dəniz və ya beynəlxalq göl variantını təklif edirdi. Bu təklif BMT- nin 1982-ci ildə qəbul edilmiş və 1994-cü ilin noyabrında qüvvəyə minmiş "Dəniz hüququ haqqında konvensiyası" na əsaslanırdı"^^. Beləliklə, 1996-cı ilədək aparılan danışıqlarda Xəzərin coğrafi adının dəniz, yoxsa göl olmasını müəyyənləşdirmək mümkün olmadı.

1996-CI ilin sonlarından etibarən Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində əməkdaşlıqda ikinci mərhələ başlandı. Həmin ilin oktyabrın 20-də Tehranda Xəzəıyanı ölkələrin xarici işlər nazirlərinin müavinlərinin görüşü keçirildi. Çıxış edən Azərbaycan nümayəndəsi bildirdi ki, Xəzəryanı ölkələr dəqiq proqramlaşdırma və əməkdaşlıq əhval-ruhiyyəsi ilə Xəzər dənizindəki paylarından ədalətli və qanuni surətdə istifadə edə bilərlər'"^. Bu görüş Xəzərin hüquqi statusu məsələsində ciddi fikir ayrılıqlarının olduğunu göstərdi.

Noyabrın 11-12-də Aşqabadda beş Xəzəryanı dövlətin xarici işlər nazirlərinin Xəzərin hüquqi statusuna və hövzə ölkələrinin iqtisadi əməkdaşlığına həsr edilmiş konfransı keçirildi. Konfrans iştirakçıları o vaxtadək keçirilmiş Almatı, Moskva, Tehran və b. görüşlərdəki müzakirələri məqbul hesab etdilər. Konfransın yekununda Rusiya, İran və Türkmənistan birgə memorandum imzaladılar. Burada "açıq dəniz" variantı irəli sürülürdü. Bu variant dəniz akvatoriyasının bir hissəsi kimi müəyyənləşdirilən və sahilyanı dövlətlərin dövlət sərhədləri ilə hüdudlaşdırılan 20 millik ərazi suları zonasından istifadəni nəzərdə tuturdu. Sahilyanı dövlətin suverenliyi qeyd-şərtsiz olaraq həm sahildən dənizin içərilərinə

**Me5KÄyHapoa,Hoe npaso в noKyMCHTax. 2-e HsaanHe M., 1997, c.376-385. ""**
**ARXINA. 31.07.1996 - 17.12.1996. Qovluq N>21, v.65.**

doğru 20 millik su ərazisinə, həm də su ərazisinin üstündəki hava səmasına, su qatma, dənizin dibinə və təkinə şamil edilirdi. Təklif edilən varianta əsasən ərazi sularının ardınca daha bir 20 millik zona - müstəsna iqtisadi zona gəlirdi. Sahilyanı dövlət bu zonada dənizin dibindəki canlı və qeyri-canlı təbii ehtiyatların kəşfiyyatı və mühafizəsi üçün dənizin dibində və təkində suveren hüquqa malik olurdu. Müstəsna iqtisadi zonada həm sahilyanı dövlətlər, həm də dənizə çıxışı olmayan dövlətlər gəmiçilik və uçuşlar keçirməkdə, kabel və boru kəmərləri çəkməkdə və beynəlxalq hüquqa uyğun fəaliyyətlərdə sərbəst idilər. Xəzər dənizinin qarşıda duran sahillərindən başlanan bu 40 millik zonanın arxasındakı dəniz ərazisi Xəzəryanı dövlətlərin birgə istifadəsinə verilir, ümumi idarəçiliyə keçirdi. Belə olduqda dövlətlər yataqların işlənilməsində bərabər hüquq əldə edirdilər. Xəzər dənizi isə kondominium zonasına çevrilirdi.

Rusiya tərəfi Xəzəryanı ölkələr üçün 45 millik müstəsna dəniz iqtisadi zonasını tanımağı təklif etdi. Eyni zamanda 45 millik zonadan kənarda yerləşən neft və qaz yataqları üzərində milli yurisdiksiya ideyasının müzakirə etmək istəyini bildirdi. Rusiyaya görə, bütün digər yataqlar "birgə sahiblik" dairəsində olmalı və bu beş Xəzəryanı ölkənin səhmdar şirkətlərinin yaradılması yolu ilə reallaşdırılmalı idi. Azərbaycanın neft yataqları 45 millik məsafədən kənarda yerləşdiyindən həmin təklifdən imtina etdi. Qazaxıstan da bu sənədə qoşulmadı. Bununla belə, fikir ayrılıqlarına və fərqliliyə baxmayaraq, tərəflər danışıqları dayandırmadılar.

Aşqabadda keçirilən konfransın yekununda xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupu yaradılması haqqında bəyanat qəbul edildi. Qəbul edilən bəyanatın böyük əhəmiyyəti var idi. O, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində tərəflərin niyyətlərini göstərirdi.

Bu zaman ABŞ bəyanat verərək Xəzər dənizinin hüquqi statusu məsələsində milli sektorlara bölünmə prinsipini dəstəklədi. ABŞ prezidentinin yeni müstəqil dövlətlər üzrə xüsusi elçisi Ceyms Kollinz Heydər Əliyevə 1996-cı ilin noyabr ayında məktub göndərərək ölkəsinin sərmayə layihələrini və Xəzər dənizinin milli sektorlara bölünməsi ideyasını dəstəklədiyini bildirdi"^^. Bu, danışıqlarda Azərbaycanın mövqeyini daha da möhkəmləndirirdi. Beləliklə, Xəzər dənizinin hüquqi statusu məsələsi tədricən Xəzəryanı dövlətlərin çoxtərəfli danışıqları mövzusundan kənara çıxaraq daha geniş miqyas almağa başladı. 1997-ci il mayın 13-14-də

AJIHCB H.r. **KacuHÜCKan uecJiTb AsepöaHÄXcaua, c. 124.**

Aşqabadda Türkmənistan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Pakistan, Özbəkistan və Tacikistan dövlət və hökumət başçılarının görüşündə infrastrukturun, nəqliyyatın inkişafı, həmçinin Xəzər hövzəsində beynəlxalq neft-qaz kəmərləri şəbəkəsi məsələləri müzakirə edildi. Konfransda Xəzər dənizində enerji ehtiyatlarının olduğu, çoxlu dövlətlər istifadə etdiyi üçün onun problemlərinin regional çərçivədən kənara çıxdığı xüsusi vurğulandı.

Görüşdən bir neçə gün sonra, mayın 22-23-də Almatıda Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın hazırlanması üzrə Xüsusi İşçi Qrupun ilk iclası keçirildi. İclasın başlıca məqsədi əvvəllər olduğu kimi. Xəzər dənizinin hüquqi statusuna dair gələcək konvensiyaya ümumi yanaşmanı işləyib hazırlamaq idi. Müzakirəyə Azərbaycan, Rusiya, İran və Qazaxıstan variantları təqdim edildi. Lakin qısa məsləhətləşmədən sonra Qazaxıstan layihəsini müzakirə etmək qərara alındı. Müzakirə zamanı Rusiya əvvəlki mövqeyini, Azərbaycan sərhədboyu gölün orta xətt prinsipi ilə milli sektorlara bölünməsini, Qazaxıstan dənizin dibinin delimitasiyasmı, İran Xəzəryanı dövlətlər razılığa gəlməyincə 1921 və 1940-cı il müqavilələrinə riayət edilməsini, Türkmənistan isə Rusiya variantını qəbul etməyi, bu olmadıqda isə Xəzər dənizini bölməyi təklif edirdi. Beləliklə, Xəzər dənizinin hüquqi statusu məsələsinə yanaşmada beş ölkənin hər birinin fərqli mövqeyi olduğundan ümumi razılıq əldə edilmədi.

Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi məsələsində Azərbaycanın mövqeyi aydın və konkret idi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xəzər dənizinin statusu ilə bağlı deyirdi: "Xəzər dənizinin statusunun müəyyən olunmasında bu prinsipə üstünlük verilir: Xəzər dənizi qeyri-adi bir su hövzəsidir, ancaq dünyada buna bənzər göllər, su hövzələri var və onların sektorlara bölünməsi və yaxud sərhədə görə ayrı-ayrı ölkələrə mənsub olması presedenti var. Bizim fikrimiz budur və biz bu fikrimizdən dönməyəcəyik""^^. Azərbaycan Xəzər dənizi üzərində bir ölkənin üstünlüyünə yol vermək istəmirdi. Bu mövqe dünyanın böyük dövlətləri tərəfindən müdafiə edilirdi.

Fikir ayrılıqlarına baxmayaraq. Xəzəryanı dövlətlərin məsələyə dair müzakirələri və məsləhətləşmələri dayanmadı. 1997-ci ilin iyunun 24-27- də Həştərxanda "Neft və Xəzər regionunun ekoloji təhlükəsizliyi"

**Əliyev H.Ə. ABŞ-ın tanınmış politoloqları, siyasi xadimləri və mətbuat nümayəndələri ilə görüşdə çıxış. 30 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XI kitab, S.121.**

mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Konfransın yekununda Xəzəryanı dövlətlərin başçılarına, dənizdə neftin kəşfiyyatı, axtarışı və hasilatı ilə məşğul olan idarə və müəssisələrin rəhbərlərinə müraciət qəbul edildi. Müraciətdə Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadənin regionun nadir təbii mühiti ilə birbaşa bağlı olduğu, dənizdə ekoloji böhranın ildən-ilə dərinləşdiyi göstərilir və birgə səylərin vacibliyi vurğulanırdı.

Beləliklə, Xəzər dənizinin hüquqi statusu məsələsini müəyyənləşdirmək mümkün olmasa da, aparılan danışıqlar və müxtəlif səviyyəli müzakirələr məsələnin irəli getdiyini, tərəflərin problemə daha peşəkar yanaşdıqlarını, xırdalıqlarına qədər öyrəndiklərini, maraqlarını dəqiq müəyyənləşdirdiklərini göstərirdi.

Çoxtərəfli danışıqlar aparılarkən ikitərəfli formatda da Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində səylər genişləndirildi. Azərbaycan ilə Türkmənistan arasında dialoq quruldu. 1998-ci il yanvarın 6-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında yaradılmış ekspert qrupu Xəzər dənizinin orta xəttinin müəyyən edilməsinə dair Türkmənistan tərəfi isə danışıqlara başladı. Danışıqların nəticəsində fevralın 5-də Aşqabadda və martın 30-da Bakıda birgə bəyanat imzalandı. Türkmənistan Xəzər dənizinin dibinin orta xətt prinsipi ilə milli sektorlara bölünməsi təklifini qəbul etdi.

Azərbaycan tərəfi Rusiya ilə də müzakirələri genişləndirdi. 1998-ci il martın 27-də Bakıda keçirilən Azərbaycan - Rusiya məsləhətləşmələri nəticəsində qəbul edilmiş "Xəzər dənizinin hüquqi statusu məsələsinə dair Azərbaycan - Rusiya məsləhətləşmələrinin protokolu"nda tərəflər Xəzər dənizinin dibinin sektorlara bölünməsi barədə razılığa gəldilər. Beləliklə, Rusiya kondominium konsepsiyasından imtina etdi.

Bundan az sonra, aprelin 14-də Aşqabadda Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə dair keçirilən Rusiya - Türkmənistan məsləhətləşmələri nəticəsində tərəflər beştərəfli konvensiyanın yalnız konsensus yolu ilə qəbul edilməsinə tərəfdar olduqlarını bildirdilər.

Rusiya və Qazaxıstan 1998-ci il iyulun 6-da Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi haqqında saziş imzaladılar"^®. Bu saziş Azərbaycanın təklif etdiyi milli sektorlara görə bölünməyə əsaslanan və

**®°CoraaıueHHe MejKny PoccHHcKOH OeaepauHeH H PecnyöJiHKOH KaaaxcraH o pasrpaHHHCHHH ana ceBepHoü lacTH KacnHHCKoro Mopa** в UCJIHX **ocymecTB- jıeHHB cyBepeHHbix npas Ha HeaponojibsOBaHHe. 6 Hiojnı 1998 r. - BHeuiHaH nojiHTHKa PoccHH. CöopHHK ÄOKyMCHTOB. 1998. M.,**

Xəzər dənizinin hüquqi statusunun işlənib hazırlanmasına yeni, praktik işə keçid mərhələsini təşkil edən ilk sənəd oldu. Sazişdə yeddi əsas prinsip ifadə edilmişdi; orta xətt üzrə dənizin dibinin bölüşdürülməsi; su səthinin ümumi istifadəsi; dənizin dibinin ölkəyə aid olan hissəsinin hüdudlarında suveren hüquqlarının həyata keçirilməsi; sərhədyanı yataqların birgə işlənilməsi; ətraf mühitin mühafizəsi; Xəzər dənizinin hüquqi statusu. Burada qeyd edilirdi ki, saziş Xəzəryanı dövlətlərin hüquqi status üzrə ümumi razılıq əldə etməsinə mane olmur və tərəflər onu Xəzəryanı dövlətlərin ümumi razılaşmasının bir hissəsi kimi qəbul edirlər.

Rusiya - Qazaxıstan sazişi Xəzər dənizinin hüquqi statusunun işlənib hazırlanması istiqamətində irəliyə doğru atılmış əhəmiyyətli bir addım idi. Dövlətlər artıq Xəzərdə qarşıdurmanın deyil, əməkdaşlığın vacibliyini dərk etmişdilər. Qarşıdurma Xəzəryanı dövlətlərin heç birinin maraqlarına uyğun deyildi. Bir neçə il sonra, 2002-ci il mayın 13-də isə Rusiya və Qazaxıstan bu sazişə əlavə olaraq iki hissədən ibarət protokolu da imzaladılar. Protokolun birinci hissəsi dənizin dibinin tərəflər arasında modifıkasiya olunmuş orta xəttin coğrafi koordinatlarını, ikinci hissəsi isə sərhədyanı hesab olunan “Kurmanqazı” və “Sentralnya” strukturlarının, “Xvalinskoye” yatağının birgə işlənilməsi haqqında idi.

Sənəd ratifikasiya edildikdən sonra “Kurmanqazı” strukturu üzərində suveren hüquqlar Qazaxıstana, “Sentralnaya” strukturu və “Xvalinskoye” yatağı üzərindəki suveren hüquqlar Rusiyaya verildi. Tərəflərin iştirak payı 50:50 nisbətində idi. Uzun müddət razılaşa bilməyən bu ölkələrin sənədi imzalamasına təsir edən amillər, heç şübhəsiz, regionda baş verən geosiyasi dəyişikliklər. Xəzər dənizinin şimal hissəsinin təkində işlərin aparılmasının hüquqi əsaslarının yaradılması istəyi oldu.

Lakin Rusiya - Qazaxıstan sazişi digər dövlətlər tərəfindən heç də birmənalı qarşılanmadı. İran hökuməti Rusiya - Qazaxıstan sazişinin imzalanmasına etirazını bildirərək. Xəzər məsələsi barədə beş dövlətin konsensus əldə etməsinin vacibliyini vurğuladı.

Artıq qeyd edildiyi kimi. Xəzər dənizinin milli sektorlara bölünməsi prinsipini ilk dəfə olaraq Azərbaycan Respublikası “Əsrin müqaviləsi”ni imzalamaqla və ölkə konstitusiyasına daxil etməklə reallaşdırmışdı. Yalnız bundan sonra 1995-1996-cı illərdə Qazaxıstan, 1996-cı ildə isə Türkmənistan milli iqtisadiyyatları üçün Xəzərin sektorlara görə delimita- siyası prinsipinin əhəmiyyətini qəbul etmişdilər. Rusiya isə 1997-1998-ci illərdə Xəzərin dibinin milli sektorlara bölünməsi mövqeyinə yaxınlaşdı. Bunun da bir sıra səbəbləri var idi. Azərbaycan, Qazaxıstan və Türkmə

nistanın Rusiyadan yan keçməklə neft və qaz boru kəmərlərinin tikintisinə dair layihələri hazırlamaları heç şübhəsiz, Rusiyanın mövqeyinin dəyişməsinə təsir etmişdi. Belə ki, Xəzər dənizi məsələlərinə dair Rusiya - Qazaxıstan sazişinin imzalanmasından sonra Rusiya ilə İran arasında dənizin gələcək statusu ilə bağlı ciddi fikir ayrılıqları ortaya çıxdı. Bu isə Xüsusi İşçi Qrupun görüşlərinin intensivliyini aşağı saldı. Qna görə də Rusiya Xüsusi İşçi Qrupun fəaliyyətini yenidən canlandırmaq qərarına gəldi.

Bu səylərin nəticəsi olaraq 1998-ci il dekabrın 16-17-də Moskvada Xüsusi İşçi Qrupun ikinci iclası keçirildi. İclas əvvəldən axıradək İran diplomatiyasının şıltaqlığı ilə müşayiət olunurdu. İran tərəfi Xəzər dənizinin sahil su sahəsinin bölüşdürülməsinin əleyhinə çıxır, dənizin böyük hissəsinin bütün sahil ölkələri tərəfindən istifadəsi hüququnun olması təklifində israr edirdi. Təkidlərinə baxmayaraq, İranın Xəzər dənizinin suyunun səthi, dibi və təkinin ümumi mülkiyyət olmasına dair iddiaları qəbul olunmadı. Belə olduqda İran tərəfi Xəzər dənizinin hər bir ölkəyə bərabər qaydada 20% sahəsinin çatması təklifini irəli sürdü. Rusiya bu təklifə tərəddüd etdi. Nəticədə İranın təklifi qəbul edilmədi.

Bununla belə. Xəzər dənizinin delimitasiyasmm milli sektorlara görə aparılması prinsipinin qəbul edilməsi hüquqi statusun müəyyənləşdirilməsi isitqamətində əhəmiyyətli addım hesab olunurdu. Görüşün yekununda qəbul olunmuş bəyannamədə bütün tərəflərin suyun dibinin sektorlara bölünməsi məsələsində ümumi konsensusa gəlmələrini bəyan etmələri ciddi irəliləyiş idi.

Moskva görüşündən sonra İran tərəfi təşəbbüsü əlinə almaq məqsədi ilə 1999-cu il iyunun 22-23-də Tehranda Orta Asiya və Qafqaz üzrə “Xəzər dənizi: imkanlar və perspektivlər” mövzusunda VII elmi-praktik konfrans keçirdi. Tədbirdə 25 ölkədən diplomatlar, alimlər və ekspertlər iştirak edirdilər. Xəzər dənizinin delimitasiyasmm milli sektorlara görə aparılması prinsipi barədə Azərbaycanın mövqeyini xarici işlər nazirinin müavini Xələf Xələfov"^' konfrans iştirakçılarının diqqətinə çatdırdı, iran və Rusiya Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəyyənləşdiril- məsinə tələsməməyi vurğuladılar. İran yenidən ədalət prinsipini irəli sürərək 20%-lik bölgü təklifini təkrar etdi, iran nümayəndəsi Azərbaycanı hüquqi status müəyyənləşmədən Xəzər dənizinin bir hissəsini birtərəfli qaydada tutmaqda ittiham etdi. Azərbaycan tərəfi həmin iddiaları rədd

**Xələf Xələfov (1959) - Azərbaycan diplomatı. Xarici işlər nazirinin müavini (1997-ci ildən).**

edərək ölkəsinin mövqeyini bir daha əsaslandırılmış şəkildə konfrans iştirakçılarının nəzərinə çatdırdı.

Konfrans İranın Xəzər dənizi ətrafında gedən beynəlxalq proseslərdən razı qalmadığını göstərirdi. Xəzərin dəniz, yoxsa göl olması barədə bir qərara gələ bilməyən tərəflər yalnız suyun dibinin milli sektorlara bölünməsi prinsipinə tərəfdar çıxdılar. Əslində Rusiya, Qazaxıstan və Türkmənistan Xəzərin sərhədboyu göl olmasını qəbul edirdilər. Bu isə Azərbaycanın mövqeyinin qəbul edilməsi idi. İran belə yanaşmaya etiraz edirdi. İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazinin”®' fikrincə, hüquqi status yalnız bütün sahilyanı ölkələr tərəfindən yekdilliklə qəbul edildikdən sonra qüvvəyə minə bilərdi. O açıq şəkildə bildirdi ki, birtərəfli qaydada hərəkət edən sahilyanı ölkələr digər sahilyanı ölkələrin

hüquqlarına vurduğu ziyana görə məsuliyyət daşıyırlar . Bu, Azərbaycana təzyiq etmək cəhdi idi. Lakin Azərbaycan tərəfi bütün iddiaları rədd edərək mövqeyində qaldı. Xəzər dənizindəki öz milli sektorunda yeni neft strategiyasını həyata keçirməkdə davam etdi.

İran da fəaliyyətini dayandırmadı. İran tərəfi 1999-cu il sentyabrın 3-6-da YUNESKO xətti ilə Ramsar şəhərində beynəlxalq konfrans keçirməyi planlaşdırırdı. Bu konfransda alimlər iştirak edəcək, fransız alimlərinin Xəzər dənizi haqqında çəkdiyi film nümayiş etdiriləcəkdi. Hələ bir il əvvəl, 1998-ci ilin may-avqust aylarında məşhur fransız okeanoloqu Jak-İv Kusto"^" fondunun nümayəndə heyəti beynəlxalq okean ili çərçivəsində YUNESKO-nun himayəsi ilə Azərbaycana gələrək Xəzərdə araşdırmalar aparmışdı. Komandanın üzvlərindən olan J.Kulbanis Azərbaycan Milli Elmlər Akademiyasının Xəzər problemləri ilə məşğul olan alimləri ilə görüşərək Xəzər dənizi haqqında film çəkmək istədiyini bildirmişdi. Film Azərbaycan ekspertlərinin iştirakı ilə çəkilmişdi.

J.Kulbanis “Xəzər dənizinin sərvətləri” adlı hesabat hazırlayaraq əvvəlcədən iştirakçı ölkələrə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə və YUNESKO rəhbərliyinə” ^ təqdim etmişdi. Hesa-

**' K a m a l Xərrazi (1994) - İranın xarici işlər naziri (1997-2005).**

**XappasH K. TCKCT BbiCTynjıeHua** ua aaceaauHn **oxKpbixHn ceabMoü KOHcJıepeHUHH IfeHxpanbHOÜ ASUH H KasKasa. - JKypu. “AMy-JJapa”, Terepau, 1999, Xa 3, c. 19; MaMeaoB P. Me>KayHapoaHO-npaBOBOH cxaxyc** KaconticKoro Mopa: **BHepa,** ceroflua, **aaBxpa, c. 81.**

**Jak-İv Kusto (1910-1997) - məşhur fransız okeanoloqu, fotoqrafı, rejissoru. ARXİNA. 08.01.1999-19.11.1999. Qovluq XaÇ, v.77.**

**ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xç9, v.l33.**

batda Xəzər dənizinin karbohidrogen ehtiyatlarına, nərə balığı növlərinə və sahilyanı zonaların rütubətliliyinə diqqət yetirilirdi. J.Kulbanis təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, onların mühafizəsi və yenidən bərpası kimi məsələləri həm sosial, həm iqtisadi, həm də humanitar aspektdən nəzərdən keçirmiş və bəzi tövsiyələr vermişdi. Hesabat 1999-cu ilin may-iyun aylarında Budapeşt şəhərində YUNESKO çərçivəsində keçirilmiş Ümumdünya Elm Konfransının bölmə iclaslarının birində müzakirə edilmiş və maraqla qarşılanmışdı"^'.

İyulun 20-də J.Kulbanis Azərbaycanın Fransadakı səfiri Eleonora Hüseynova ilə görüşərək hesabatda nəzərdə tutulan məsələlərin həllinə kömək göstərilməsini xahiş etdi"^*. Onun fikrincə, YUNESKO tərəfindən xərcləri ödəniləcək gəmi konfrans iştirakçılarını götürərək Bakıdan İranın Xəzər dənizindəki Ramsar limanına doğru hərəkət edəcəkdi. Konfrans gəmidə keçiriləcəkdi"^^. YUNESKO-nun baş katibi Federiko Mayor"'® və Kusto cəmiyyətinin rəhbəri J. Kulbanis Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə məktub"" göndərərək hesabatda əksini tapmış tövsiyələrin Azərbaycan tərəfindən dəstəklənməsini xahiş etdilər"'.

Təkliflər Azərbaycanın müvafiq təşkilatlarında öyrənildi. Azərbaycan Respublikası Dövlət Ekologiya Komitəsinin sədri Əli Həsənov"'® Baş Nazir Artur Rasizadəyə yazdığı 17 avqust tarixli məktubunda konfransda iştirakı məqsədəmüvafiq hesab edir, tövsiyələrdəki siyasi məsələlərin müzakirəsini elmi konfransın gündəliyindən çıxarılmasını uyğun görürdü"'*.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev isə avqustun 24-də xarici işlər naziri Tofiq Zülfüqarova yazdığı məktubunda məsələyə dair şirkətin mövqeyini əsaslandırdı, toplantıda

**ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xo9, v.43-44.**

**' ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq JVs9, v.48.**

**ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xo9, v.131-132.**

**Federiko Mayor Caparoca (1934) - ispan alimi, siyasətçisi, ictimai xadimi, yazıçı. İspaniyanın dövlət naziri, elm və təhsil naziri (1972-1976). YUNESKOnun baş katibi (1987-1999).**

**'" ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq X29,** V. **117-11**8.

**' ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xo9, v.73.**

**Əli Həsənov (1948) - ekologiya naziri. 1998-ci ildən Azərbaycan Respublikası Baş Nazirinin müavini. Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri.**

**ARXINA. 08.01.1999-19.11.1999.Qovluq Xo9, v.l4.**

nümayəndələrin iştirakım vacib hesab etdi"’^ Dövlət Neft Şirkətinin ətraf mühitin mühafizəsi, əməyin mühafizəsi və texniki təhlükəsizlik şöbəsinin rəisi A.Siracovun yazdığı rəydə qeyd olunurdu ki, tullantılar Xəzərin ekoloji mühiti üçün real təhlükədir"’®. J. Kulbanisin təklif etdiyi regional səviyyədə Xəzər ekoloji proqramında Azərbaycan artıq iştirak edirdi.

İranın YUNESKO-dakı daimi nümayəndəliyi 2000-ci ildə Tehranda sivilizasiyalararası dialoq çərçivəsində YUNESKO konfransına hazırlıqla bağlı olaraq beş Xəzəryanı dövlətin nümayəndələrinin görüşü və J. Kusto komandasının hesabatı təqdim ediləcək konfransın oktyabrın 16-18-ə keçirilməsini təklif etdi"”. Azərbaycan tərəfi bu konfransa ciddi hazırlaşırdı"”.

Məsələyə dair Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Fərəməz Maqsudovun xarici işlər nazirinin müavini Xələf Xələfova yazdığı 1999-cu il 21 oktyabr tarixli məktubda J. Kusto komandasının verdiyi məlumata istinad edərək, filmin çəkilişinin siyasi xarakter daşımadığı, maraq Xəzərin nadir olması, məqsəd isə onun ehtiyatlarının qorunub saxlanılmasına və artırılmasına beynəlxalq ictimaiyyətin marağını cəlb etmək olduğu vurğulanırdı"’^. Xəzər dənizinin ekoloji şəraiti gərgin idi. Onun sağlamlaşdırılmasına, mühafizəsinə və bioloji ehtiyatlarının artırılmasına ehtiyac duyulurdu. Ancaq belə mənfi halların yaranmasının səbəbkarı Azərbaycan deyildi. SSRİ dövründə bütün müttəfiq respublikalar Xəzər dənizinin ekoloji problemləri üçün bərabər məsuliyyət daşıyırdılar. Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın Xəzər dənizinin sahili zonasında yerləşmiş sənaye obyektlərinin əksəriyyəti işləmirdi. Buna görə də Xəzər dənizinin Azərbaycan sektorunda ekoloji şəraitin yaxşılaşması müşahidə edilirdi. 1992-ci illə müqayisədə Xəzər dənizinin Azərbaycan sektorunda çirklənmə 5-10 dəfə azalmışdı. Beynəlxalq şirkətlərlə bağlanmış müqavilələrdə neftin kəşfiyyatı, hasilatı və nəqli ən yüksək ekoloji tələblərə cavab verən texnologiya əsasında aparılırdı. Xəzər dənizi üçün ekoloji normativlər Azərbaycanda hazırlanırdı. Xəzər dənizinə axan suların 80%-i Volqa çayı vasitəsi ilə tökülürdü. Rusiya Federasiyasının işləyən sənaye potensialının əsas hissəsi Volqa çayı hövzəsində yerləşmiş və əhalinin 70 milyonu burada məskunlaşmışdı. İranın Xəzər

**ARXİNA. 08.01.1999-19.11.1999.QovluqXo9, v.23.**
[1176] **ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xs9, v.24-25.**
**ARXİNA. 08.01.1999-19.11.1999.Qovluq Xb9, v.31. ARXİNA. 08.01.1999-19.11.1999. Qovluq Xo9, v.32, 35. ARXİNA. 08.01.1999-19.11.1999.QovluqJÇo9, v.9-11.**

dənizi sahilində yerləşmiş şəhər və digər yaşayış yerlərinin heç birində təmizləyici qurğu yox idi. Xəzər dənizində Qazaxıstan və Türkmənistan sektorlarının vəziyyəti də neft hasilatı ilə əlaqədar olaraq qənaətbəxş sayıla bilməzdi. Xəzər dənizinin bu probleminin həllinin əsas yolu çirklən- diricilərin yayılmamasmm müasir kompleks modelinin yaradılması idi. Xəzər dənizinin səviyyəsinin artması da problem olaraq qalırdı.

Azərbaycan tərəfi təklifi dəstəkləyərək müasir avadanlıqla təchiz olunmuş "Əlif Hacıyev" gəmsini həmin məqsəd üçün ayırdı. J.Kulbanis regional səviyyədə Xəzər ekoloji proqramı çərçivəsində ətraf mühitin qorunması üçün uzunmüddətli layihənin həyata keçirilməsini və geniş tədbirlərin həyata keçirilməsini təklif edirdi.

Keçirilən konfrans Xəzər dənizinin problemlərinə diqqətin artdığını və tərəflərin əməkdaşlığının zəruri olduğunu göstərdi.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə Xüsusi İşçi Qrupun növbəti iclası 1999-cu ilin oktyabrında İranda keçirildi. Ümumiyyətlə, Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəy- yənləşdirilməsinə dair keçirilən danışıqların ikinci mərhələsi sınaq illəri oldu. İran qonşuluğunda yerləşən Xəzəryanı yeni müstəqil dövlətlərin xarici sərmayələri regiona gətirməsinə və onların köməyi ilə dünya bazarlarına çıxmasına isti münasibət bəsləmirdi. Azərbaycan, Qazaxıstan və Türkmənistan isə Xəzər dənizi siyasətində müstəqil olmağa çalışırdılar. Dünyanın böyük dövlətləri və energetika sahəsində marağı olan ölkələr isə regiona sürətlə daxil olurdular.

Belə bir şəraitdə, 2000-ci ilin aprelində Vladimir Putinin sədrliyi ilə keçirilən Rusiya Federasiyası Təhlükəsizlik Şurasının iclasında Xəzər regionunda şərait müzakirə edildi və Rusiyanın bu regionda siyasətinin əsas istiqamətləri müəyyənləşdirildi. İclasdan bir neçə ay sonra, iyul ayında Rusiya Federasiyası Prezidentinin Xəzər məsələləri üzrə nümayəndəsi Viktor Kalyujnıy Azərbaycana işgüzar səfərə gəldi. Keçirdiyi görüşlərdə o. Xəzər dənizinin statusuna dair Rusiyanın təkliflərinin mahiyyətini açıqladı. Rusiyanın yeni konsepsiyasına görə. Xəzər dənizinin problemləri, o cümlədən gəmiçilik, ekologiya, bioloji resurslardan istifadə, sahil xəttinin koordinatları və s. mərhələli həll edilməli idi. Rusiyanın mövqeyinə görə, bölgü xətti üzərinə düşən yataqlar 50:50 prinsipi əsas götürülməklə istifadə edilməli; dənizin dibi sahilyanı dövlətlər tərəfindən istifadə üçün milli sektorlara bölüşdürülməli, dənizin su səthi və enliyi ümumi istifadə üçün qalmalı; Xəzərin gələcək beynəlxalq hüquqi statusu məsələlərinə dair MDB-nin sahilyanı ölkələrinin hansısa vahid platfor

ması yaradılmalı; mənzil-qərargahı Bakıda olmaqla Xəzər problemlərinə dair strateji mərkəz təsis edilməli idi. Mərkəzin baçlıca vəzifələri hövzənin monitorinqini keçirmək, çirklənmə mənbələrini üzə çıxarmaq, təbii mühafizə fəaliyyətini, gəmiçiliyi və balıqçılığı əlaqələndirmək olmalı idi. Əgər dövlətlərdən hər hansı biri Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsinə dair danışıqlara mane olardısa, digər dövlətlər vaxt itirmədən özləri razılığa gəlməli idilər'

İyulun 13-də nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi"*'. Viktor Kalyujnıy Xüsusi İşçi Qrupun növbəti görüşünün Həştərxanda keçirilməsinə dair Rusiya təklifini çatdırdı. Görüş zamanı Xəzərin hüquqi statusu və "Əsrin müqaviləsi" ilə bağlı Azərbaycan Prezidenti bunları dedi: "...Lukoyl şirkətinin iştirakı ilə "Əsrin müqa- viləsi"ni imzaladıq. Biz bu müqaviləni imzalayan kimi həmin məsələnin müzakirəsi gücləndi, bəziləri deyirdilər ki, necə yəni, axı Xəzərin statusu var. Biz isə onda bəyan etdik, bu gün də bəyan edirik ki, belə bir sabit qayda var - əgər yeni qanun, yeni müqavilə və sair yoxdursa, deməli, təşəkkül tapmış praktika mövcuddur. Praktika isə göstərir ki, hələ sovet dövründə Sovetlər İttifaqı hökuməti və Neft Sənayesi Nazirliyi neft hasilatı baxımından Xəzəri sektorlara bölmüşdü”"*^.

SSRİ dövründə Xəzər dənizində İranın sektoru müəyyən edilmişdi. Dənizdə sərhəd mövcud idi. SSRİ dağıldıqdan sonra isə İran yerində qalırdı. İran tərəfinin yeni su ərazisinə iddiası doğru olmayıb, beynəlxalq praktikaya uyğun deyildi.

Rusiyanın məsələyə belə yanaşması təkcə reallığı əks etdirmirdi, eyni zamanda Azərbaycanın da mövqelərini möhkəmləndirirdi. SSRİ dağıldıqdan sonra Xəzər dənizində yürüdülən siyasətin mahiyyətini və hegemonluq cəhdlərinin məqsədlərini başa düşən Rusiya əvvəlki mövqeyindən imtina etdi.

Təkliflərini irəli sürdükdən sonra Rusiya bəzi konkret addımlar da atdı. 2000-ci ilin oktyabr ayında Rusiya və Qazaxıstan Xəzər dənizində əməkdaşlığa dair bəyannamə imzaladılar. Tərəflər dənizin dibinin həm-

**Məmmədov R. Azərbaycanın neft diplomatiyası və Xəzərin beynəlxalq hüquqi statusu. — "Azərbaycan" qəzeti, Bakı, 2000, 14 noyabr.**

**Əliyev H.Ə. Rusiya Federasiyası xarici işlər nazirinin müavini. Xəzərin statusunun tənzimlənməsi məsələləri üzrə prezidentin xüsusi nümayəndəsi Viktor Kal- yujnıy başda olmaqla Rusiyanın nümayəndə heyəti ilə görüşdə söhbət. 13 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 177-181.**

**Yenə orada, s. 179-180.**

hüdud və qarşıda yerləşən dövlətlər arasında orta xətt prinsipi ilə bölüşdürülməsinin məqsəduyğunluğunu qeyd etdilər. Rusiyanın belə mövqeyi danışıqlar prosesinin sürətləndirilməsinə təsir göstərirdi. Bu isə Rusiya ilə Azərbaycanın mövqelərinin yaxınlaşması demək idi. Heç əbəs deyil ki, 2000-ci il noyabrın 9-10-da Bakıda keçirilən beynəlxalq konfrans zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Viktor Kalyujnıy ilə görüşündə Xəzər dənizinin dibinin delimitasiyasmm aparılmasına mane olan bütün maneələr aradan qaldırıldı'Xəzər dənizi məsələlərinə yanaşmada Rusiya və Azərbaycanın ortaq fikrə gəlmələri, müvafiq sənədin imzalanması zərurətinin qəbul edilməsi uğur idi. Məhz bu görüşdən sonra məsələyə dair müvafiq sənədlər hazırlanmağa başlandı.

Lakin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi hələ də problem olaraq qalırdı. Çünki İran öz mövqeyində israr edirdi. Belə bir şəraitdə İİR xarici işlər nazirinin müavini Əli Ahəni regiona səfəri çərçivəsində 2000-ci il noyabrın 21-23-də Azərbaycan Respublikasında oldu. Onu İİR Xarici İşlər Nazirliyinin 2-ci MDB idarəsinin rəisi Əlirza Biqdeli və nazirin müşaviri Sirus Naseri müşayiət edirdilər. Nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi. Qonaqlar daha sonra Baş Nazir Artur Rasizadə, xarici işlər naziri Vilayət Quliyev, xarici işlər nazirinin müavinləri Araz Əzimov və Xələf Xələfov ilə görüşdülər"*". Görüşlərdə iki ölkə arasında münasibətlər və regional problemlər ilə yanaşı Xəzərin hüquqi statusu məsələsi də müzakirə edildi.

Noyabrın 22-də Xələf Xələfov və Əli Ahəni görüşdülər. Azərbaycan tərəfi Xəzər dənizinin hüquqi statusuna dair ikitərəfli və çoxtərəfli danışıqların keçirilməsini dəstəkləyir, nazir müavinləri səviyyəsində müzakirələrin davam etdirilməsinə tərəfdar çıxırdı. İran tərəfinin fikrincə, 1921 və 1940-cı illərdə bağlanmış müqavilələrə görə. Xəzər dənizi Rusiya və İrana məxsus idi, əgər bölünmə olardısa, dənizin səthi və dibi beş bərabər hissəyə bölünməli idi. Əgər dənizin bölünməsi haqqında dörd ölkə bir nəticəyə gələrdisə, bir ölkə razı olmazdısa, ondan istifadə etmək mümkün olmazdı. Əli Ahəni İranın mövqeyinin Azərbaycan və Türkmənistan ilə

**^ Əliyev H.Ə. Rusiya Federasiyası Prezidentinin Xəzərin statusunun tənzimlənməsi məsələləri üzrə xüsusi nümayəndəsi, xarici işlər nazirinin müavini Viktor Kalyujnıy ilə görüşdə söhbət. 9 noyabr 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXXI kitab, s.24-29.**

[1184] **ARXINA. 21.09.2000-28.12.2000. Qovluq XsS, v.45-51.**

yaxın olduğunu bildirdi. Xəzər dənizi haqqında Rusiya və Qazaxıstan arasında bağlanmış müqavilə haqqında danışan Əli Ahəni qeyd etdi ki, bu ölkələr Xəzər dənizinin şimal və cənub hissələrinə ayrı-ayrılıqda baxırlar. Türkmənistana səfər edəcəyini söyləyən Əli Ahəni Rusiyanın da Xəzər dənizinin statusu məsələsini mərhələlərlə həll etmək istədiyini, əvvəlcə Xəzər dənizinin dibini bölmək, dənizin səthində isə öz mənafelərini saxlamaq niyyətində olduğunu bildirdi.

Xələf Xələfov Azərbaycan tərəfinin mövqeyini Əli Ahəninin diqqətinə çatdırdı. Buna görə, Xəzər dənizinin hüquqi statusunun təyin olunması məsələsi həm İran, həm də Azərbaycan üçün böyük əhəmiyyət kəsb edirdi; İran və Azərbaycanın mövqelərinin yaxınlaşması üçün imkanlar var idi; ikitərəfli məsləhətləşmələr olduqca vacib idi; Xəzərin statusu məsələsi beş sahilyanı ölkə arasında təyin olunmalı idi; bir sıra regional məsələlər həll olunmalı idi. Azərbaycan tərəfi Xüsusi İşçi Qrupunun növbəti iclasının Tehranda keçirilməsinə razılığını bildirdi.

Xələf Xələfov ilə Əli Ahəni arasında görüşün ikinci mərhələsi noyabrın 23-də keçirildi. Xələf Xələfov bildirdi ki, ikitərəfli münasibətlərin böyük potensialı və problemlərin həlli üzrə Azərbaycan və İran prezidentlərinin iradəsi vardır. Görüşdə Xudafərin bəndinin tikintisi üçün İran tərəfindən aparılan işlərin Azərbaycanda narahatlıqla qarşılandığı, imzalanmış bəzi layihələrin həyata keçirilmədiyi, sərhəd, kommunikasiya, enerji mübadiləsi məsələlərində mövcud olan problemlər barədə fikir mübadiləsi aparıldı. Həmçinin Naxçıvanın Ermənistan tərəfindən blokadada saxlanılması, Təbrizdə Azərbaycan Respublikası konsulluğunun açılmaması, İran - Ermənistan əlaqələrinin Azərbaycanın haqlı narazılığına səbəb olması və b. məsələlər müzakirə edildi. Xələf Xələfov Ermənistanın gələcəkdə İrana qarşı ərazi iddiaları irəli sürməsinin mümkünlüyündən bəhs etdi. İranın bəzi ölkələrlə görüşlərinin keçirilməsindən Azərbaycanın narahatlıq keçirdiyini, bu əməkdaşlığın əsasının hərbi əməkdaşlıq təşkil etdiyini bildirdi. Azərbaycanın mövqeyinə görə. Xəzər dənizinin hüquqi statusunun həlli üçün yeganə yol beş sahilyanı ölkə arasında məsləhətləşmələrin keçirilməsi idi. Status məsələsinin həlli dünyada qəbul edilmiş qaydalara əsaslanmalı idi.

Azərbaycanın mövqeyi beynəlxalq praktikaya tamamilə uyğun idi. Bununla bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ABŞ-a səfəri zamanı etdiyi nitqində birmənalı olaraq deyirdi: “Hələ 1970-ci ildə, sovet hökuməti zamanı Xəzər dənizi sektorlara bölünmüşdü. Bilirsiniz ki. Xəzər dənizinin İran hissəsi vaxtilə bu xətt üzrə bölü-

nübdür... Çünki bu xətt hələ 1921-ci ildə, sonra 1940-cı ildə İran ilə SSRİ arasında imzalanmış sənədə görə SSRİ-nin və İranın sərhədi hesab olunurdu. Bu sərhəd həmişə SSRİ sərhəd qoşunları tərəfindən mühafizə edilibdir. Bu xəttdən yuxarı hissə Sovet İttifaqına, keçmişdə isə Rusiya imperiyasına məxsus olubdur... Azərbaycan... 1949-cu ildən Xəzər dənizində neft yataqlarını istismar etməyə başlayanda, təbiidir ki, sovet hökuməti belə qərar qəbul etdi ki. Xəzər dənizi sektorlara bölünsün.................................Biz bu prinsipi əsas götürmüşük. Başqa prinsip yoxdur və bu prinsiplər əsasında da biz işimizi görürük. Bilirdik ki, başqa prinsiplərə gəlmək mümkün deyildir. Gördülər ki, biz işimizi görmüşük, Qazaxıstan da, Rusiya da, Türkmənistan da öz sektorunda iş görməyə başladı. Hətta Rusiya ilə Qazaxıstan arasında orta xətt haqqında saziş imzalanıbdır. Bu orta xətt müəyyən olunubdur. Orta xətt çox əhəmiyyətlidir. Xəzərin o tərəfi ilə bu tərəfində olan Xəzəryanı dövlətlərə mənsub olan sektorların sərhədidir. Ancaq indi bəziləri deyirlər ki, gərək Xəzər dənizi beş bərabər yerə bölünsün və beş Xəzəryanı dövlətin hər birinin eyni bərabərdə sektoru olsun. Bu, nə cür ola bilər? Təsəvvür edin, İran üçün bir sektor yaratmaqdan ötrü gərək elə bölünsün ki, onun 20% payı olsun. Onda Azərbaycana nə qalacaq? Onda gərək Azərbaycan ya Qazaxıstandan, ya da Türkmənistandan götürsün. Bu real bir şey deyildir... Son vaxtlara qədər Rusiya o qədər də dəqiq mövqedə deyildi. Amma son 5-6 ayda Rusiyanın yeni Prezidenti cənab Putin Xəzər dənizi üzrə öz xüsusi nümayəndəsini təyin etdi... O, Xəzəryanı ölkələrin hamısında oldu. Azərbaycana da gəldi. Rusiya Xəzərin bu sektorlara bölünməsinə razıdır"'

Xəzər dənizi məsələlərinə dair bütün fikir ayrılıqlarına baxmayaraq, tərəflər müzakirələri davam etdirirdilər. 2001-ci ilin yanvarından etibarən Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsində yeni - üçüncü mərhələ başladı. Bu, Rusiyada hakimiyyətə gələn Vladimir Putinin regiona münasibətdə daha geniş baxışları ilə bağlı idi. Məhz həmin ildən etibarən Rusiya məsələnin həlli istiqamətində səylərini daha da artırdı.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 2001-ci il yanvarın 9-10-da Bakıya səfəri həm Azərbaycan - Rusiya münasibətlərində, həm də Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqa-

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Vaşinqtonda Amerika - Azərbaycan Ticarət Palatası tərəfindən təşkil olunmuş "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda keçirilmiş beynəlxalq konfransda çıxışı. 11 sentyabr 2000-ci il. - Sabaha doğru, s. 110.**

mətində yeni bir mərhələ açdı. Yanvarın 9-da Heydər Əliyev və Vladimir Putin Bakı bəyannaməsini və Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında birgə bəyanatı imzaladılar[1186].

Azərbaycan Respublikasının Prezidenti Xəzər dənizinin dibinin bölüşdürülməsi ideyasını müdafiə etdi. Xəzər dənizinə dair qəbul edilmiş birgə Azərbaycan – Rusiya bəyanatında ümumi su prinsipinin həlli nəzərdə tutulmamışdı.

Rusiyanın mövqeyində baş verən dəyişikliyə qiymət verən rus tədqiqatçısı V.N.Mamyaşın yazdığına görə, böyük dövlətlər Xəzər dənizinin hüquqi statusu məsələsindən istifadə edib regiona girməyə çalışırdılar. Belə bir şəraitdə Rusiyanın mövqeyinin dəyişilməsi MDB-nin möhkəmləndirilməsinə yeni impuls vermək cəhdləri ilə bağlı idi[1187]. Bundan sonra MDB ölkələrinə Rusiyanın münasibəti dəyişilməyə başladı. Belə yanaşma şərti olaraq Putin doktrinası adlandırıldı[1188].

Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında birgə bəyanatı Azərbaycan Respublikası tərəfindən 2001-ci il fevralın 2-də təsdiq edildi.

Sənədlərin imzalanmasının tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Xəzər dənizi məsələlərində iki ölkənin mövqeyi bir-birinə xeyli yaxınlaşırdı. Artıq Rusiya və Azərbaycan Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi məsələsində rəqib deyildilər.

Bununla belə, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi hələ də həllini tapmamışdı. Bu isə əlavə səylər tələb edirdi. 2001-ci il yanvarın 29-da Türkmənistan Prezidenti Saparmurad Niyazov Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində yeni bir görüşün təşkili təklifi ilə çıxış etdi. O, martın 8-9-da Türkmənistanda Xəzəryanı dövlət başçılarının zirvə görüşünün keçirilməsini təklif etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə də dəvət

---

[1186] Бакинская декларация Российской Федерации и Азербайджанской Республики. 9 января 2001 г. – Внешняя политика России. Сборник документов. 2001. М., 2007, с.10-16; Совместное заявление Российской Федерации и Азербайджанской Республики о принципах сотрудничества на Каспийском море. 9 января 2001 г. – Внешняя политика России. Сборник документов. 2001. М., 2007, с. 16-18; Дипломатический вестник. М., 2001, №2, с. 48-49.

[1187] Мамящ В.Н. Россия и США в Каспийском регионе – XXI век: проблемы и перспективы. Политический анализ, с.44-45, 60-61.

[1188] Yenə orada, s.48.

məktubu göndərdi. Azərbaycan tərəfi dəvəti qəbul edərək, bu barədə fevralın 12-də Türkmənistana cavab məktubu yolladı.

Qeyd edildiyi kimi, bu zaman hüquqi status məsələsinə dair Xəzəryanı ölkələrin çoxtərəfli danışıqları donmuş halda idi. Ona görə də Rusiya Federasiyası səylərini daha da artırdı. İşçi Qrupun fəaliyyətini canlandırmaq cəhdləri nəticəsini verdi. Tərəflər Xüsusi İşçi Qrupun fəaliyyətini bərpa etmək qərarına gəldilər. İranın təşəbbüsü ilə Xüsusi İçşi Qrupun üçüncü iclası 2001-ci il fevralın 21-22-də Tehranda keçirildi. Tərəflər Türkmənistan Prezidenti Saparmurad Niyazovun təşəbbüsü ilə Aşqabadda keçirilməsi nəzərdə tutulan Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün bəyannaməsinin layihəsini müzakirə etdilər. İran Xəzərin 20%- lik əsasında bölüşdürlməsi təklifini təkrar etdi. Azərbaycan tərəfi Türkmənistan ilə Xəzəri orta xətt prinsipi ilə bölüşdürməyə razı olduğunu bildirdi. Qazaxıstan nümayəndəsi də orta xətt prinsipinin yeganə doğru prinsip, Azərbaycan, Qazaxıstan və Türkmənistanın mövqelərinin bir-birinə yaxın olduğunu bəyan etdi. Rusiya nümayəndəsi də Xəzər dənizinin dibinin bölüşdürülməsi prinsipi ilə ölkəsinin razılaşdığını bildirdi. Rusiya tərəfi Xəzərin dibindən istənilən xarakterli boru kəmərinin tikintisinin və həm də İranın 20%-lik iddialarının əleyhinə çıxdı. Razılığın əldə edilməməsinə baxmayaraq. Xüsusi İçşi Qrupun üçüncü iclasının qəbul etdiyi bəyannamədə tərəflər yekdilliklə Xəzər dənizindən yalnız dinc məqsədlər üçün istifadə etmək niyyətlərini bildirdilər.

Azərbaycan Xəzər dənizində xarici şirkətlərlə əməkdaşlığı genişləndirdi. Artıq qeyd edildiyi kimi, 1994-2001-ci illərdə Xəzərin Azərbaycan sektorunda neft ehtiyatlarının axtarışı üzrə artıq 21 saziş imzalanmışdı. Bu layihələrə ümumən 60 mlrd, dollardan çox sərmayə qoymaq nəzərdə tutulmuşdu. Neft sənayesi sahələrini inkişaf etdirmək üçün Azərbaycanda Neft Fondu yaradılmışdı”®^.

Bu zaman Rusiya ilə İran arasında müzakirələr artdı. İran Prezidenti Seyid Məhəmməd Xatəminin”’® Moskvaya səfəri zamanı 2001-ci il martın 12-də Xəzər dənizinin hüquqi statusu barədə Rusiya - İran birgə bəyanatı imzalandı. Bəyanat Rusiya və İranın Xəzər siyasətinin bütün əsas cəhətlərini özündə ehtiva edirdi. Bu dövlətlər sahilyanı bütün beş dövlət tərəfindən Xəzər dənizinin hüquqi statusuna dair birgə saziş imzalanma- ymca Xəzər dənizində heç bir sərhəd tanımayacaqlarmı bəyan edir, Xəzər dənizinin dibindən hər hansı boru kəmərinin tikintisinə etiraz edir, buna

**ARXINA. 08.08.2001-12.09.2001. Qovluq Xsl 1, v.6.**
**Seyid Məhəmməd Xatəmi (1943)- İİR Prezidenti (1997-2005).**

heç zaman yol verməyəcəklərini bildirir, Xəzər dənizinin hüquqi statusu haqqında məsələnin müstəsna olaraq Xəzəıyam dövlətlərin özləri tərəfindən həll edilməli olduğunu vurğulayırdılar"®'.

Bəyanat Xəzər dənizində enerji diplomatiyasının necə mürəkkəb və çətin olduğunu göstərir, Azərbaycandan əlavə səylər tələb edirdi. Ona görə də 2001-ci il aprelin 26-27-də İstanbulda keçirilən türkdilli dövlət başçılarının zirvə toplantısı zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə görüşərək iki ölkə arasında iqtisadi, siyasi və mədəni sahələrdə əlaqələr, bir sıra regional və beynəlxalq problemlər haqqında fikir mübadiləsi apardı. Onlar Xəzər dənizinin hüquqi statusu məsələsində mövqelərin yaxmlaş- dırılması, Azərbaycan Respublikası ilə Türkmənistan arasında Xəzər dənizinin dibinin bölünməsi üzrə Azərbaycanın və Türkmənistanın ekspertlər qrupunun görüşlərinin keçirilməsi barədə razılaşdılar.

Bundan bir müddət sonra, mayın 25-də Həştərxanda “Xəzər - XXI: siyasətdən biznesə” adlı I Beynəlxalq neft-qaz sammiti keçirildi. Toplantıda dünyanın 17 ölkəsinin siyasi, işgüzar, elmi və ictimai dairələrinin nümayəndələri iştirak edirdilər. İştirakçılar Xəzərdə karbohidrogen ehtiyatları yataqlarının istismarı zamanı mühüm siyasi, iqtisadi və ekoloji məsələləri müzakirə edərək regional əməkdaşlıq üçün əlverişli mühitin olmasını. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində fəallığın artmasını və müsbət meyilləri qeyd etdilər. Onların fikrincə. Xəzər dənizinin dünya iqtisadiyyatında rolu daim artdığından statusun qəbul edilməməsi itirilmiş imkanlar olmamalı idi. Tərəflər bu sahədə fəaliyyətlərini davam etdirməli idilər.

Yekunda Azərbaycan, İran, Qazaxıstan, Rusiya, Türkmənistan prezidentlərinə, hökumətlərinə və parlamentlərinə müraciət qəbul olundu”^^. Müraciətdə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində birgə səylərin artırılması. Xəzər dənizinin ətraf mühitinin mühafizəsinin monitorinqini keçirən Xəzər mərkəzinin qurulması tövsiyə edilirdi. Sammit iştirakçılarının iyunun 25-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə etdikləri müraciətdə regional əməkdaşlıq üçün əlverişli mühitin olması. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində fəallığın artması və müsbət meylilərin mövcudluğu qeyd olunmuşdu"®^.

**Yaqubova A. Azərbaycanın neft diplomatiyası: əfsanələr gerçəkləşir, s.l35. ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xsl 1, v.203-205.**
**ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xal ı, v.202-203.**

Tərəflər arasında ümumi fikir birliyinin əldə olunmamasına baxmayaraq, səylər davam edirdi. Xüsusi İşçi Qrupun dördüncü iclası 2001-ci il iyunun 15-16-da Bakıda keçirildi. İclasın gündəliyində iki əsas məsələ dururdu: 2001-ci ilin payızında Türkmənistanda keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə imzalanması nəzərdə tutulan Xəzər dənizinin statusunun müəyyənləşdirilməsinə dair bəyanat layihəsinin müddəalarının razılaşdırılması; Xəzər dənizinin hüquqi statusu məsələsinin müzakirəsi.

Bakı görüşündə Azərbaycan tərəfi Xəzər dənizinin hüquqi statusuna dair konvensiya layihəsini təqdim etdi. Bu, ciddi bir addım idi.

Qeyd etmək lazımdır ki, dördüncü görüşə qədər artıq Rusiya Qazaxıstan və Azərbaycan ilə Xəzər dənizinin dibinin sektorlara bölünməsinə dair ikitərəfli sazişlər imzalamışdı. İran yenə də kondominium prinsipində israr edirdi. Türkmənistan dənizin dibinin, su səthinin və enliyinin sektorlara bölünməsinə tərəfdar idi. Türkmənistan ilə Azərbaycan arasında mübahisəli neft və qaz yataqlarının mənsubiyyəti məsələsi də həll edilməmiş qalırdı.

Görüşün yekunlarına dair kommunike imzalandı'.[1194]

Artıq qeyd edildiyi kimi, 2001-ci ilin yayında Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Xəzər mərkəzi haqqında yaddaş qeydini Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə təqdim etmişdi”®^. Yaddaş qeydində Xəzər dənizinin təbii mühitinin monitorinqi ilə məşğul olacaq Xəzər mərkəzinin qurulması təşəbbüsü izah edilir. Xəzər dənizinin ekoloji problemlərinin həllində sahil dövlətlərinin maraqlı olmasına əsaslanaraq Xəzər dənizinin təbii mühitinin qorunması üçün regional mühafizə sistemi və kompleks şəkildə idarə olunması. Xəzər dənizinin təbii mühitinin idarə olunmasında fəaliyyətlərin əlaqələndirilməsi zərurəti qeyd edilirdi. Sənəddə Xəzər dənizinin təbii ehtiyatlarının konkret növlərinin istifadəsinin ekoloji təhlükəsizliyinin ümumi meyarlarının hazırlanması, müasir ölçü vasitələri və uzaq məsafədən zondla tədqiq etmə əsasında Xəzər dənizinin təbii mühitinin kompleks şəkildə idarə olunması istiqamətində qərarların qəbul edilməsi üçün informasiya sisteminin qurulması. Xəzər dənizinin səviyyəsinin tərəddüd etməsi ilə bağlı olan yüksək ekoloji riskin nəzərə alınması ilə sahilyanı zonada təbii ehtiyatların kompleks istifadəsinə yardım üzrə təkliflərin hazırlanması və Xəzər mərkəzinin strukturu barədə məlumat əks olunmuşdu.

**'ARXINA. 2001.**
**‘ ARXINA. 23.06.2001 -07.08.2001.Qovluq X2İl,v. 29-32.**

Yaddaş qeydi Azərbaycan Respublikasında öyrənildi və qəbul edilmədi. Bununla bağlı olaraq xarici işlər naziri Vilayət Quliyev 2001-ci il iyunun 14-də Baş Nazir Artur Rasizadəyə məktubunda yazırdı;"... Xəzər mərkəzinə dair Yaddaş qeydində Mərkəzə nəzarət, inzibati və əlaqələndirmə funksiyasının verilməsi və yuxarıda qeyd olunmuş məsələlər ilə əlaqədar əks olunmuş müddəalar Azərbaycan Respublikasının Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə mövqeyi ilə üst-üstə düşmür. Keçirilən görüşlər zamanı qeyd olunan məsələ Rusiya Federasiyasının nümayəndələrinin diqqətinə çatdırılmışdır”"®^.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində müzakirələr davam edərkən dənizdə münaqişə də yarandı. Artıq qeyd edildiyi kimi, İranın kəşfiyyat təyyarələri Xəzər dənizində uçuşlar edərək silahlı münaqişə törətməyə cəhd etdilər. Lakin onun qarşısı alındı.

Belə bir şəraitdə Xəzər dənizinin hüquqi statusuna və əməkdaşlığa dair məsələlər müzakirə obyekti olaraq qalırdı. 2001-ci il avqustun 1-3-də Soçi şəhərində MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının qeyri- rəsmi görüşü çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev arasında keçirilən təkbətək görüşdə Xəzər dənizinin hüquqi statusuna dair məsələlər müzakirə olundu. Onlar Xəzərdə hər hansı silahlı münaqişənin yol verilməsinin qəbul olunmazhğını bildirdilər.

Soçi görüşü zamanı MDB iştirakçısı olan Xəzəryanı dövlətlərin başçıları bir araya gələrək birgə səylərin davam etdirilməsi vacibliyini bildirdilər. Bu, əhəmiyyətli bir görüş idi.

Bir neçə gün sonra, avqustun 7-də Moskvaya işgüzar səfər edən İran xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini, İran Prezidentinin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələləri üzrə xüsusi nümayəndəsi Əli Ahəni avqustun 8-də Rusiya xarici işlər nazirinin müavinləri Viktor Kalyujnıy, Aleksandr Losyukov və Aleksandr Avdeev ilə Xəzərin hüquqi statusunun müəyyən edilməsi məsələsi üzrə ikitərəfli məsləhətləşmələr keçirdi. Görüşlərdə Xəzər dənizində əməkdaşlıq məsələlərinə dair mütəmadi olaraq Rusiya - İran məsləhətləşmələrinin keçirilməsinin vacibliyi qeyd edildi. Xəzər dənizinin hüquqi statusu qəbul edilənədək 1921-ci il fevralın 26-da və 1940-cı il martın 25-də imzalanmış müqavilələrin hüquqi əsas kimi götürülməsinin, beş Xəzəryanı dövlətin ümumi razılığı ilə hüquqi statusun müəyyən

**' ARXINA. 23.06.2001-07.08.2001.Qovluq Xsl 1, v.27-28.**

edilməsinin. Xəzər dənizində qarşılıqlı faydalı əməkdaşlığın və dənizin mineral, xüsusilə də neft-qaz ehtiyatlarından istifadənin möhkəm hüquqi əsasının yaradılmasının vacibliyi vurğulandı"®^. Onlar Xəzəryanı dövlətlərin sammitinin çağırılması təklifini bəyəndilər. Viktor Kalyujnıy Xəzəryanı ölkələr arasında yaranan narazılıqların silah işlətmədən, mehriban qonşuluq ruhunda danışıqlar yolu ilə həll olunması barədə Rusiyanın qəti mövqeyini bəyan etdi.

Rusiyadan sonra Türkmənistana səfər edən Əli Ahəni avqustun 10- da Prezident Saparmurad Niyazov, xarici işlər naziri Rəşid Meredov, Türkmənistan Nazirlər Kabineti sədrinin neft-qaz məsələləri üzrə müavini Q.Muradov ilə görüşərək Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, neft-qaz sahəsində həyata keçirilən işlər, regional problemlərdə və Əfqanıstan böhranının həllində əməkdaşlıq məsələlərini müzakirə etdi, Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsinin vacibliyini vurğuladı.

Artıq qeyd edildiyi kimi, bu səfərdən bir neçə gün sonra, avqustun 12-də Azərbaycanın İrandakı səfiri Abbasəli Həsənov ilə görüşən İran Xarici İşlər Nazirliyinin MDB ölkələri idarəsinin rəisi Əlirza Biqdeli ölkəsinin Xəzər dənizində heç bir sərhəd tanımadığını. Xəzər dənizinin hüquqi statusu müəyyənləşdirilənə qədər İran və Rusiyanın 192 i və 1940- cı il müqavilələrinə əsaslanacağım söyləmişdi"®*. İran tərəfinin “Alov”, “Şərq” və “Araz” neft yataqları barədə verdiyi üç rəsmi notasına Azərbaycanın məhəl qoymadığını, İranın Milli Təhlükəsizlik üzrə ali şurasının katibi Həsən Ruhaninin səfəri başlanan günü tədqiqat gəmisinin qeyd olunan əraziyə göndərilməsinin İranda kəskin həssaslıq yaratdığını, bunun İran ərazisinə təcavüz kimi qymətləndirildiyini bildirən iranlı diplomat İran tərəfinin verdiyi notanın arxasında hərbi güc dayandığını vurğula- mışdı. İranın Xəzərdə sərhəd tanımaması fikrinin 2001-ci il 12 mart tarixdə imzalanan Rusiya - İran birgə bəyanatında əksini tapdığını qeyd edən diplomat İran tərəfinin Xəzərin sahilyanı ölkələr arasında beş bərabər hissəyə bölünməsi barədə Rusiya və Türkmənistan ilə razılıq əldə etdiyini, Azərbaycanın həmin məsələdə razılaşacağı təqdirdə Qazaxıstanı razı salmağın asan olacağını vurğuladı.

Avqustun 19-da Azərbaycan səfiri Abbasəli Həsənov ilə görüşdə İİR Xarici İşlər Nazirliyininin MDB ölkələri baş idarəsinin rəisi M.Dövlətabadi Xəzər dənizi məsələsində ordu tərəfindən XİN-ə təzyiqlər

**ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq ftoll, v.50-51. ‘**

**ARXINA. 08.08.2001-12.09.2001. Qovluq Xal 1, v.61-63.**

olduğunu qeyd edərək, Xəzər dənizinin İİR-ə məxsus “20 %-lik ərazisində” heç bir dövlətə və ya hər hansı şirkətə güzəşt olunmayacağını vurğuladı. İran tərəfi bu ərazilərin istər su, istərsə də hava sərhədinin İran silahlı qüvvələri tərəfindən müdafiə olunduğunu qeyd etdi, nəzarət uçuşları həyata keçirən İrana məxsus təyyarələrin döyüşə tam hazır vəziyyətdə olduğunu bildirdi, hər hansı təhrikedici hadisə üçün Azərbaycanın məsuliyyət daşıdığını söylədi. Müvafiq məlumatın tez bir zamanda Azərbaycan Respublikası hökumətinə çatdınuağı xahiş edən iranlı diplomat İranın Xəzər dənizi məsələsində tutduğu mövqeyin qəti olduğunu söylədi. “Bu məsələdə İİR-in tutduğu mövqeni zarafat kimi qəbul edənlərə İİR silahlı qüvvələri öz yerini göstərməyə hazırdır” deyə vurğuladı. O, Azərbaycanı təhrikedici hərəkətlərdən çəkindirməyə çağıraraq əlavə etdi: “İİR-in verdiyi hər bir notanın və tutduğu mövqenin arxasında hərbi qüvvə dayanır”. Rusiyanın digər məsələlərdə olduğu kimi Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsində də ikibaşlı oyun oynadığını bildirən iranlı diplomat “Rusiya Xəzər dənizində aparıcı rol oynamağa çalışır, amma İran bu məsələnin baş tutmasına heç vaxt imkan verməyəcək. Əgər İran ilə Azərbaycan Respublikası arasında Türkmənistan - İran razılaşmasına bənzər razılıq əldə olunarsa onda İran+ Azərbay- can+Türkmənistan təzyiqlərinə davam gətirə bilməyən Qazaxıstan da üç Xəzəryanı ölkənin dedikləri ilə razılaşar, Rusiya tək qaldıqda məsələnin həlli sürətlənər” dedi”^^.

Göründüyü kimi. Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycana bəzi qonşu ölkələr tərəfindən edilən təzyiqlər səngimir, açıq şəkildə güc mövqeyindən danışırdılar. Sanki region yeni müharibə astanasında idi. Lakin yenə də siyasi realizm və diplomatiya üstün gəldi. Danışıqların və müzakirələrin yeganə vasitə olduğu qətiləşdi. 2001-ci il avqustun 23-də Rusiyanın Azərbaycandakı səfirliyi nota verərək Xəzər dənizinin bioehtiyatlarının qorunması və istifadəsi haqqında sazişin tezliklə bağlanmasını reallaşdırmaq üçün sentyabrın üçüncü ongünlüyündə Moskvada balıqçılıq təsərrüfatları rəhbərlərinin görüşünü keçirməyi təklif etdi. Bu barədə hələ Xəzəryanı ölkələrin adı çəkilən qurumlarının 2001-ci il iyunun 12-13-də Cenevrədə keçirilən görüşündə razılıq əldə edilmiş, saziş layihəsi iyul-avqust aylarında Xəzəiyanı ölkələrə təqdim olunmuşdu’^””. Azərbaycan tərəfi dəvəti qəbul etdi.

**ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Xçl 1, v.155-157.**
**ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Xbl 1, v.l69.**

Bu zaman Xəzəryanı dövlətlərin başçılarının zirvə görüşünə hazırlıq gedirdi. Ekspertlərin qarşıdakı görüşünə və Xəzəryanı dövlətlərin başçılarının sammitinə hazırlıq məqsədi ilə 2001-ci il avqustun 31-də Rusiya xarici işlər nazirinin müavini, Rusiya Prezidentinin Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi üzrə xüsusi nümayəndəsi Viktor Kalyujnıy başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi'^°'. Viktor Kalyujnıy Türkmənistanın Xəzər məsələsində tutduğu mövqedən narazılıq etdi. Ölkəsinin zirvə görüşünün keçirilməsini istədiyini bildirdi.

Görüşdən az sonra, sentyabrın əvvəllərində Tehrana səfər edərən Türkmənistanın xarici işlər naziri Rəşid Meredov İran xarici işlər naziri ilə keçirdiyi görüşdə ikitərəfli münasibətlər və Xəzər dənizi ilə bağlı məsələləri müzakirə etdi. Tərəflər Xəzərin hüquqi statusu məsələsinin yalnız bütün sahilyanı ölkələrin iştirakı ilə həll ediləcəyini və məsləhətləşmələrin keçirilməsinin vacibliyini bildirdilər'^®^. Danışıqlarda iki ölkə arasında neft və qaz sahəsində əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd edildi.

Bundan bir neçə gün sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İrana səfər etdi. Səfər Azərbaycan - İran münasibətlərindəki gərginliyi aradan qaldırdı. Sentyabrın 18-də Tehran şəhərində iki ölkə arasında Xəzər dənizi barəsində birgə bəyanat qəbul edildi'^®^. 14 maddədən ibarət olan birgə bəyanatda bildirilirdi ki. Xəzər dənizi sahilyanı ölkələrin mənafelərinə uyğun qarşılıqlı hörmət prinsipi əsasında sülh, dostluq və anlaşma, faydalı əməkdaşlıq dənizi olacaqdır; Xəzər dənizi və onun ehtiyatları sahilyanı ölkələrin müştərək mülkiyyəti elan edilir və ona qarşı bərabər hüquqla faydalanırlar; Xəzər dənizinin hüquqi statusu bütün sahilyanı ölkələrin razılaşma və qərarları ilə həll edilir və ona qeyri-sa- hilyanı dövlətlərin müdaxiləsi yolverilməzdir; Xəzər dənizinin hüquqi statusu müəyyən edilənədək tərəflər 1921 və 1940-cı il müqavilələrini əsas götürürlər. Azərbaycan və İran rəhbərləri Xəzəryanı dövlət başçılarının yeni zirvə görüşünün keçirilməsi barədə Türkmənistan Respublikasının Prezidenti Saparmurad Niyazovun təklifinə tərəfdar oldular.

**Azərbaycan Prezidenti Heydər Əliyev Rusiyanın nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 850-856.**

1202

**ARXINA. 08.08.2001-12.09.2001. Qovluq Rsl 1, v.200-201.**

**ARXİNA. 08.08.2001-12.09.2001. Qovluq Xsl 1, v.230-233.**

Tarixi əhəmiyyət daşıyan bu səfər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində danışıqları önə çəkdi. Məhz bu səfərdən sonra Xüsusi İşçi Qrupun fəaliyyətində canlanma yarandı. Xüsusi İşçi Qrupun 2001-ci il sentyabrın 19-20-də Astanada olan beşinci iclasında müzakirə edilən əsas məsələ Aşqabadda keçiriləcək zirvə görüşünə hazırlıq və Bakıda keçirilmiş iclasda razılaşdırılmayan müddəaların razılaşdırılması idi. Ümumi razılıq əldə edilməsə də, tərəflər müzakirələri davam etdirməyi qərara aldılar.

Artıq qeyd edildiyi kimi, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi və ekoloji problemləri Rusiya xarici siyasətinin mühüm istiqamətlərindən biri olaraq qalırdı. 2001-ci il noyabrın 19-da Rusiya Dövlət Dumasında bu məsələyə dair parlament dinləmələri keçirildi'^®". Müzakirələrə Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan nümayəndələri də dəvət edilmişdi. Bu ölkələrin məsələ barəsində mövqeləri dinlənildi. Çıxış edənlər Xəzər dənizinin hüquqi statusunun beş dövlət tərəfindən müəyyənləşdirilməsinin vacibliyini bildirdilər. Dinləmələrin sonunda tövsiyələr qəbul edildi.

Səylərini artıran Azərbaycan tərəfi Qazaxıstan ilə daha da yaxınlaşdı. 2001-ci il noyabrın 29-da Moskvada MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü zamanı “Xəzər dənizinin dibinin bölünməsi haqqında saziş” imzalandı'^®^. 7 maddədən ibarət olan saziş Xəzər dənizinin dibinin orta xətt prinsipi üzrə milli sektorlara görə bölünməsini nəzərdə tuturdu. Orta xəttin coğrafi təsviri və onun koordinatları ayrıca protokolda təsbit ediləcəkdi. Sazişə görə. Xəzər dənizinin dibi və onun təki, sahil xətti və adalardakı çıxış bazis nöqtələrindən bərabər uzaqlıqda çəkilən orta xətt üzrə bölünürdü. Tərəflər öz milli sektorlan hüdudlarında Xəzər dənizinin dibinin və yerin təkinin ehtiyatlarının kəşfiyyatı, tədqiqi və idarə olunması. Xəzər

**O** npaBOBOM craxyce н 3KOJiornMecKHx npoöJicM KacnHÖCKoro Mopa; Maxe- pHanbi napjıaMCHXCKHX cjıyuıaHHH. 19 Hoaöpa 2001 rofla. **M., Haa.** Tocyaapcx- BeHHOH TlyMbi, 2003, c.3-48.

**‘^“Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında saziş. 29 noyabr 2001-ci il. - Müqavilələr toplusu. 1 cild, s. 226-228; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 11 hissə, s. 305-306; Azərbaycan — Qazaxıstan sazişi imzalanmışdır. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 1052.**

dənizinin dibi ilə sualtı kabellərin və boru kəmərlərinin keçirilməsi, süni adaların, bermalarm, dambalarm, estakadalarm, platformaların və sair mühəndis qurğularının yaradılması, habelə dənizin dibində digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyətlə məşğul olmaq məqsədi ilə suveren hüquqlanm həyata keçirmək barədə razılaşırdılar. Azərbaycan və Qazaxıstan Xəzər dənizində fikir ayrılıqlarının danışıqlar və tərəflərin seçimi ilə digər dinc vasitələrlə həlli barədə razılığa gəlirdilər.

Sazişi Azərbaycan parlamenti 2002-ci il aprelin 9-da‘^”®, Qazaxıstan isə 2003-cü il iyunun 11-də ratifikasiya etdi. 2003-cü il fevralın 27-də Bakıda bu sazişə əlavə protokolu xarici işlər nazirlərinin müavinləri Xələf Xələfov və Kayrat Abusəidov'^°’ imzaladılar. Azərbaycan Respublikası Milli Məclisi 2003-cü il dekabrın 9-da həmin protokolu təsdiq etdi'^°^.

Sənədin imzalanması heç şübhəsiz, böyük əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, Qazaxıstanın və Azərbaycanın mövqeləri yaxınlaşır, birgə səyləri güclənirdi. Sazişin müddəaları əvvəllər imzalanmış sənədləri daha da möhkəmləndirirdi. İmzalanan sazişin və qəbul edilən birgə bəyanatın Xəzər problemlərini həll etmədiyi, statusun müəyyənləşdirilməsinin hazırlanmasının vacibliyi qeyd olunurdu.

2002-ci ildə də Xüsusi İşçi Qrupun fəaliyyəti davam etdirildi. Belə ki, həmin ilin yanvarın 23-24-də Moskvada Xəzərin hüquqi statusu üzrə xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupun altıncı iclası keçirildi'^°’. İclasda Xəzər dənizinin hüquqi statusuna dair geniş fikir mübadiləsi aparıldı, Türkmənistanda keçirilməsi nəzərdə tutulan zirvə görüşünün yekun sənədi layihəsi ətrafında müzakirələr davam etdirildi.

İclasda İran tərəfi imzalanan Azərbaycan - Qazaxıstan sənədlərinə etirazını bildirdi. Nəticədə Xəzəiyam ölkələrin dövlət başçılarının zirvə

**■ “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında” sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. - Azərbaycan Respublikasının qanunvericilik toplusu. İNbS (59), 31 may 2002-ci il. Bakı, 2002, s. 797-798.**

**Kayrat Abusəidov (1965) - Qazaxıstan Respublikası xarici işlər nazirinin müavini (1999-2002), birinci müavini (2002-2004).**

**“Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında sazişə əlavə protokol”un təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. - Azərbaycan Respublikasının qanunvericilik toplusu. X9İ2 (78) (iki kitabda), 31 dekabr 2003-cü il. I kitab. Bakı, 2003, s. 2180.**

**Xarici işlər nazirinin müavini Xələf Xələfov Moskvada olmuşdur. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s. 30-31.**

görüşündə qəbul ediləcək bəyannamənin hazırlanması məsələsində irəliləyiş əldə olunmadı. Beləliklə, Xəzəryanı ölkələrin dövlət başçıları birinci zirvə görüşünə hazır olmayan bəyannamə ilə getdilər.

Bundan sonra İran mövqeyini daha da sərtləşdirdi. İranın BMT-dəki daimi nümayəndəliyinin müvəqqəti işlər vəkili hökumətinin göstərişinə uyğun olaraq 2002-ci il fevralın 28-də BMT baş katibinə müraciət etdi. Müraciət martın 1-də BMT Baş Məclisinin sənədi kimi (A/56/850) yayıldı. Müraciətdə İran tərəfi Qazaxıstan və Azərbaycanın imzaladığı sazişin mövcud hüquq sənədlərinə uyğun gəlmədiyini iddia edirdi.

Cavab olaraq Azərbaycanın və Qazaxıstanın BMT yanında daimi nümayəndələri BMT baş katibinə məktub göndərərək İranın iddialarını rədd etdilər. Bildirdilər ki, ölkələri Xəzər dənizində suveren hüquqlarını həyata keçirirlər və saziş iki ölkə arasında Xəzər dənizinin dibinin bölüşdürülməsi prinsiplərini tənzim edir və digər sahilyanı dövlətlərin hüquqlarına toxunmur'^'®. Məktubda Rusiya ilə Qazaxıstan arasında belə bir müvafiq sənədin imzalandığı da xatırlanırdı. Azərbaycan və Qazaxıstanın BMT baş katibinə müraciəti Baş Məclisin rəsmi sənədi kimi yayıldı.

Bununla da kifayətlənməyən Azərbaycan tərəfi zəngin enerji ehtiyatları olduğundan. Xəzəryanı dövlətlər və planetin digər ölkələri üçün əhəmiyyət kəsb etdiyindən dənizin problemlərinin artıq regional çərçivəni aşaraq dünya əhəmiyyətli məsələyə çevrildiyini bildirdi. Azərbaycanın mövqeyi böyük dövlətlər və Avropa İttifaqı tərəfindən müdafiə edildi. Belə ki, 2002-ci il martın 11-13-də Berlində Almaniya hökuməti, xüsusilə Avropa İttifaqının dəstəyi ilə keçirilən "Avropa İttifaqı və Xəzər hövzəsində dialoq: bölgədə inkişaf və ətraf mühiti mühafizə siyasəti" adlı simpoziumda iştirak edən Azərbaycan, İran və digər ölkələrdən olan mütəxəssislər məruzələrində Xəzər dənizinin ekologiyasının qorunması, əməkdaşlıq məsələlərini qaldırdılar və geniş müzakirə etdilər'^".

Xəzər dənizinin problemlərinə həsr olunmuş digər bir beynəlxalq konfrans da keçirildi. 2002-ci il martın 18-23-də Londonda Uilton Park müstəqil elm mərkəzində, həmçinin Kembric Biznes Məktəbində Xəzər bölgəsinə həsr olunmuş "Xəzər dənizi: yeni əsrdə siyasət" adlı konfrans təşkil edildi. Qeyd etmək lazımdır ki, bu. Xəzər dənizi məsələlərinə həsr olunmuş üçüncü toplantı idi. 50 il əvvəl qurulmuş Uilton Park elm mərkəzi ideoloji baxımdan müstəqil olsa da. Böyük Britaniya Xarici İşlər Nazirliyi ilə əlaqəli bir qurum idi.

**' ARXINA. 13.02.2002- 06.04.2002. Qovluq XsS, v.17-19. ARXINA. 02.02.2002 - 20.02.2002. Qovluq Xbll, v.208-209.**

Konfransda Azərbaycan, Gürcüstan, Rusiya, Ermənistan, Qazaxıstan, Ukrayna və Türkiyə hökumətlərinin və şirkətlərinin təmsilçisi olan 70-ə yaxın nümayəndə iştirak edirdi. İran konfransa dəvət olunsa da, tədbirin keçirilməsinə az qalmış qeyri-müəyyən səbəblərə görə iştirakdan imtina etmişdi. Konfransın təşkilatçıları Türkmənistan tərəfini dəvət etməmişdilər. Toplantıda həmçinin Xəzər dənizi üzrə müşavir Stiven Mənn daxil olmaqla ABŞ Dövlət Departamentinin nümayəndələri, Rusiya xarici işlər nazirinin müavini Viktor Kalyujnıy, Xəzər dənizi üzrə səfir Andrey Urnov'^*^, o cümlədən Böyük Britaniya Xarici İşlər Nazirliyinin, Fransa, Türkiyə, İsveç, Estoniya, Norveç, Almaniya, Yunanıstan və s. ölkələrin xarici işlər nazirliklərinin nümayəndələri iştirak edirdilər. Konfransda Azərbaycanı ARDNŞ-in xarici sərmayələr idarəsinin rəisi Valeh Ələsgərov və Londondakı səfirliyin əməkdaşları təmsil edirdilər. Toplantıda Xəzər bölgəsində çalışan çoxsaylı neft şirkətlərinin nümayəndələri, Avropa ölkələri və ABŞ-dan müstəqil tədqiqatçılar da var idi'^'^.

Valeh Ələsgərov çıxış edərək Xəzər dənizi məsələsində Azərbaycanın mövqeyini şərh etdi, bölgədəki coğrafi-siyasi şəraitdən və münaqişələrdən asılı olmayaraq məhsulun bölünməsi və neft-qaz boru kəmərlərinin tikintisinə dair sazişlərin həyata keçirilməsinin praktiki tərəfləri barədə danışdı. Azərbaycan nümayəndəsinin çıxışının məğzi ondan ibarət idi ki, bölgəyə neft və qaz hasilatını və onların dünya bazarlarına ötürülməsinin bazar mexanizmlərini bötüvlükdə həyata keçirməyə imkan verən sülh və sabitlik gərəkdir. Öz növbəsində bu, bölgəyə neft satışından əldə edilmiş vəsait və xarici sərmayə axınını artıracaqdı. Valeh Ələsgərov gec- tez Xəzər dənizi ətrafındakı fikir ayrılıqlarının dayandırılmasını istəyən düşüncənin qalib gələcəyinə əmin olduğunu bildirdi. Onun məsələyə yanaşmada praktik mövqeyi auditoriyaya böyük təsir etdi.

Konfransda yalnız ABŞ nümayəndəsi açıq şəkildə antiiran mövqeyindən çıxış etdi. Böyük Britaniya tərəfi, xüsusi ilə Xarici İşlər Nazirliyinin Şərq departamentinin rəhbəri Saymon Bat ABŞ-ın İrana qarşı apardığı siyasətlə razılaşmadığını bəyan etdi. Viktor Kalyujnıy və Andrey Urnov isə İranın mövqeyinə hörmətlə yanaşmağa. Xəzər dənizinin hüquqi statusu ətrafında razılıq əldə edilməsi istiqamətində Azərbaycan rəhbərliyini güzəştə getməyə çağırdılar. Bunula yanaşı, Rusiya və ABŞ nüma-

**^ Andrey Urnov (1937) - Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri. Xəzər dənizinin hüquqi statusu üzrə Rusiya işçi qrupunun rəhbəri.**

**ARXİNA. 01.04.2002-25.04.2002. Qovluq Xsl 1, v. 193-195.**

yəndələri Xəzər dənizinin hüquqi statusu məsələsində İranın mövqeyinin (birgə istifadə-kondominium, yaxud hər sərhədyanı ölkəyə 20% verilməsi) qəbuledilməz olduğunu bildirdilər. Viktor Kalyujnıy qeyd etdi ki, onun fikrincə, İranın mövqeyində təkamül gedir və İran tərəfi artıq bərabər bölgünü, yaxud da kondominiumu əvvəlki kimi qəti təkid etmir. O, Xəzərin hüquqi statusu ətrafında Rusiya - Azərbaycan dialoqunda irəliləyiş olduğunu da qeyd etdi.

Türkiyə nümayəndələri çıxışlarında diqqəti genişlənən Türkiyə bazarında satılması və Avropaya göndərilməsi üçün karbohidrogen ehtiyyatlarmın daşınması məsələsinə yönəltdilər. Stiven Mənn Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin ABŞ-m Xəzər bölgəsində əsas siyasəti olduğunu qeyd etdi. Viktor Kalyujnıy isə Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin çox ehtimal, tikiləcəyəni təsdiq etsə də, bu layihəni və analoji layihələri siyasət aləti kimi deyil, kommersiya məsələsi kimi nəzərdən keçirməyə səslədi.

Konfrans iştirakçıları bölgədəki həlli uzadılmış münaqişələrə də ötəri nəzər yetirdilər. Stiven Mənn Dağlıq Qarabağ münaqişəsinin ABŞ-ın bölgədə yürütdüyü neft siyasətinə təhlükə yaratmadığını qeyd etdi.

Gürcüstandakı ictimai-siyasi şərait konfrans iştirakçıları və qonaqlarda bədbinlik yaratdı. Ölkədə yarana biləcək qarışıqlıq enerji siyasətinin həyata keçirilməsinə mane ola bilərdi.

Bu zaman, 2002-ci il aprelin 9-da Türkmənistan tərəfi Azərbaycana məktub göndərərək Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşünə hazırlığı sürətli aparmaq üçün qısa müddətdə nümayəndə heyətinin tərkibinin və müşayiət edəcək şəxslərin siyahısının təqdim edilməsini istədi'^". Azərbaycan istəyi yerinə yetirdi.

Aprelin 23-24-də Aşqabadda keçirilən zirvə görüşündə başlıca məqsəd Xəzər dənizinin hüquqi statusunun hazırlanması idi. Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev başda olmaqla nümayəndə heyəti iştirak edirdi'^'^. Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan, Rusiya və Qazaxıstanın ümumi mövqeyi var idi. Rusiya Prezidenti Vladimir Putin dənizin dibinin bölüşdürülməsi, suyun balıqçılıq və gəmiçilik üçün azad olması fikrini müdafiə edirdi. Zirvə görüşündə etdiyi nitqində Vladimir Putin tərəflərin maraqlarını nəzərə alaraq Rusiyanın əvvəlki mövqeyindən geri çəkildiyini deyərək, Qaza-

**ARXİNA. 01.04.2002-25.04.2002. Qovluq X211, v. 112.**

**Azərbaycan Prezidenti Heydər Əliyev zirvə görüşündə iştirak etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 177-181.**

xıstan və Azərbaycan ilə imzalanan bəyanatı yüksək qiymətləndirdi. İran Prezidenti Məhəmməd Xatəmi isə Xəzər dənizini beş bərabər hissəyə bölməyi, ya da kondominium tətbiq etməyi irəli sürdü. İranın təklifi baş tutardısa, Azərbaycan və Türkmənistanın bir sıra perspektivli yataqları İrana keçirdi. Bütün cəhdlərinə baxmayaraq, zirvə görüşündə Tehranın mövqeyi müdafiə edilmədi.

Nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev zirvə görüşünü Xəzəiyanı ölkələrin Xəzər dənizində daha sıx əməkdaşlığı üçün başlanğıc kimi qiymətləndirdi. Onun fikrincə, hüququ statusun olmaması Xəzəryanı dövlətlərin öz suveren hüquqlarının həyata keçirilməsinə maneçilik törətmələri idi. Azərbaycan Prezidenti qarşılıqlı münasibətlərdə güc işlətməklə təzyiq etməyin və hədə-qorxunun hər hansı forma və metodlarından istifadənin yolverilməz olduğunu deyərək vurğuladı: "Hüquqi statusun olmaması sahilyanı dövlətlərin Xəzər barəsində öz suveren hüquqlarının həyata keçirilməsini davam etdirməsinə mane olmamalıdır və artıq təşəkkül tapmış müvafiq sektorlarda Xəzər dənizinin təbii ehtiyatlarının işlənilməsi və istifadəsi sahəsində işləri dayandırmaq üçün əsas ola bilməz. Xəzər dənizinin hüquqi statusu məsələsinin sahilyanı dövlətlər arasında həlli onların suveren hüquqlarına hörmət, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə, danışıqlar yolu ilə həyata keçirilməlidir. Sahilyanı dövlətlər arasında münasibətlərdə güc işlətməklə təzyiq göstərməyin və hədə-qorxunun hər hansı forma və metodlarından istifadə edilməsi yolverilməzdir. Xəzər dənizi Xəzəryanı ölkələrin mehriban qonşuluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq dənizi, dostluq, sülh və təhlükəsizlik dənizi olmalıdır"'^'®.

Zirvə görüşü Xəzəryanı dövlətlər arasında fikir ayrılıqlarının olduğunu bir daha göstərdi. Buna görə də yekunda birgə bəyannamə imzalanmadı. Tərəflər yalnız müzakirələrin davam etdirilməsinin vacibliyini bildirdilər. Beləliklə, zirvə görüşündə Xəzər dənizinin hüquqi statusunu müəyyənləşdirmək mümkün olmadı və nəticəsiz başa çatdı'^^'.

Birgə bəyannamə imzalanmasa da, zirvə görüşünün müəyyən əhəmiyyəti var idi. İlk dəfə olaraq Xəzəryanı ölkələr dövlət başçıları səviy-

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 183; Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Aşqabad, 24 aprel 2002-ci il. - Sabaha doğru, s. 163.**

**Mustafa Balbay. Hazar'm statusu. - "Cumhuriyyet" gazetesi, İstanbul, 2002, 30 Nisan.**

yasində bir yerə toplaşaraq mövcud problemləri açıq şəkildə gündəliyə gətirir və mövqelərini şərh edirdilər.

Xəzər dənizinin problemləri təkcə sahilyanı ölkələrin deyil, bəzi beynəlxalq qurumların da diqqətində idi. Belə ki, 2002-ci il mayın 7-8-də NATO-nun elm komitəsi Bakıda Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş seminar keçirdi'^'^. NATO baş katibinin elm və ekologiya məsələləri üzrə müavini Jan Fümerin iştirak etdiyi seminarın əsas mövzusu Xəzər dənizinin ekologiyası haqqında məlumat toplanılması və regional proqramın həyata keçirilməsi, Xəzər dənizinin çirklənməsi problemləri, səbəbləri və həlli yolları, dəniz səviyyəsinin enib-qalxması, sahil ərazilərinin səhralaşması, bioresurslarm mühafizəsi idi.

Belə bir problemə həsr edilmiş seminarın təşkilinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl. Xəzər dənizi coğrafi mövqeyinə görə, bütün regiondakı ekoloji şəraitə təsir edirdi. Xəzərin ekoloji şəraiti gərgin idi.

Seminarın yekununda Xəzər dənizi üzrə qısa müddətli xüsusi ekoloji layihə hazırlandı. Həmin layihə Xəzərdə ekoloji gərginliyin aşağı salınmasına yönəlmişdi.

Xəzər dənizi problemləri müzakirə olunarkən hüquqi statusun müəyyənləşdirilməsi üzrə Xüsusi İşçi Qrupun fəaliyyəti də davam edirdi. Belə ki, 2002-ci il iyulun 29-30-da Xüsusi İşçi Qrupun Tehranda yeddinci iclası keçirildi. İclasda Xəzər dənizinin hüquqi statusunun bəyannamə deyil, konvensiya formasında müəyyənləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi barədə razılığa gəlindi.

Azərbaycan Respublikası bu istiqamətdə səylərini ikitərəfli əsasda da genişləndirdi. Rusiya ilə danışıqlar uğurla aparılırdı. Nəticədə 2002-ci il sentyabrın 23-24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya növbəti səfəri zamanı altı maddədən ibarət "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş" imzalandı""^. Sazişdə iki ölkə arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xəttinin keçdiyi coğrafi koordinatlar müəyyən olunurdu. Buna görə,

**ARXINA. 12.01.2002-02.05.2002. Qovluq XaS, v.l28, 130-131.**

**Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş. 23 sentyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.11 hissə, s.329-331; Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında saziş. 23 sentyabr 2002-ci il. - Müqavilələr toplusu. 1 cild, s.242-245.**

Xəzər dənizinin dibinin həmhüdud hissələrinin göstərilən bölgü xəttinin başlanğıc nöqtəsi, 1979-cu ilin nəşri olan 1:200000 miqyaslı topoqrafik xəritə üzrə müəyyən olunmuş şərq uzunluq dairəsi koordinatları ilə Azərbaycan Respublikası və Rusiya Federasiyasının dövlət sərhədinin Xəzər dənizinin suyu ilə kəsişən çıxışında yerləşən nöqtə hesab olunurdu. Azərbaycan həmin sazişi 2003-cü il mayın 13-də təsdiq etdi'^^°.

Azərbaycan tərəfi Qazaxıstan ilə də müzakirələri fəallaşdırdı. Qazaxıstan xarici işlər nazirinin birinci müavini Kayrat Abusəidovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2002-ci il dekabrın 9-11-də Azərbaycana səfəri zamanı iki ölkə arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında 2001-ci il noyabrın 29-da dövlət başçıları tərəfindən imzalanmış sazişin tərkib hissəsi olacaq protokol layihəsinin mətni müzakirə edilərək razılaşdırıldı'^^'. Bütün bunlar ciddi irəliləyişlər idi.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istqamətin- də Azərbaycan diplomatiyasının səyləri 2003-cü ildə də davam etdirildi. Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan nümayəndələrindən ibarət Xüsusi İşçi Qrupun növbəti, səkkizinci iclası fevralın 26-27-də Bakıda keçirildi . İclasın işində bütün beş Xəzəryanı ölkənin nümayəndələri iştirak edirdi.

İclası açan Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov çıxışında dedi ki, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməməsi dövlətlərin Xəzərdə suveren hüquqlarının həyata keçirilməsinə mane olmamalıdır. Görüşdə Xəzəryanı dövlətlərin təklifləri əsasında Azərbaycan tərəfinin hazırladığı Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın birləşdirici layihəsi müzakirə edildi. Layihədə Xəzər dənizinin hərbsizləşdirilməsi. Xəzəryanı dövlətlərin ticarət gəmilərinin sərbəst üzməsi, digər ölkələrin gəmilərinə belə hüququn veril-

**Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 13 may 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.329.**

**Xəzərin dibinin bölüşdürülməsinə dair sazişlə bağlı protokol layihəsinin mətni razılaşdırılmışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 916.**

**Xəzərin hüquqi statusu haqqında konvensiyanın hazırlanması üzrə Xüsusi İşçi Qrupun 8-ci iclası işə başlamışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 109-110.**

məməsi, balıqçılığın razılaşdırılmış normasının müəyyənləşdirilməsi, ətraf mühitin mühafizəsi və s. məsələlər əksini tapmışdı.

Müzakirələr nəticəsində konvensiya layihəsinin üç müddəası üzrə rəylər razılaşdırıldı. Görüşləri davam etdirmək barədə razılıq əldə edildi.

İclas zamanı Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2001-ci il noyabrın 29-da imzalanmış sazişə artıq razılaşdırılmış əlavə protokolu xarici işlər nazirlərinin müavinləri Xələf Xələfov və Kayrat Abusəidov imzaladı- lar'^^^ Protokolda milli sektorların sərhədlərinin koordinatları müəyyənləşdirilirdi.

Xəzər dənizinin hüquqi statusu məsələsi digər Xəzəryanı dövlətlər arasında da ikitərəfli müzakirə obyekti olaraq qalırdı. Belə ki, 2003-cü il martın 11-12-də Rusiyanın xarici işlər naziri İqor İvanovun İrana səfəri zamanı ikitərəfli, regional və beynəlxalq məsələlər, o cümlədən Xəzər dənizinin hüquqi statusuna dair məsələ də müzakirə edildi'^^^. Səfərin yekununda qəbul edilmiş birgə bəyanatda Xəzər probleminin müzakirəsi zamanı Xəzər dənizinə dair bütün məsələlərin konsensus yolu ilə həllinin əhəmiyyəti. Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın hazırlanması üzrə xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupun fəaliyyətinin davam etdirilməsinin vacibliyi vurğulanırdı'^^^. Həmçinin Xəzər dənizinin ətraf mühitinin qorunması və ekologiyasına ziyan vurulmamasınm zəruriliyi qeyd edilirdi.

Mayın 12-də Xüsusi İşçi Qrup Almatıda doqquzuncu iclasına başladı. Bu, o vaxta qədər keçirilən iclaslar içərisində ən səmərəlisi oldu. Müzakirələrin gedişində İran kondominiumdan imtina edərək, yenidən 20%-lik bölgü məsələsinə qayıtdı. Buna baxmayaraq, İran tərəfi Xəzəryanı ölkələrlə əməkdaşlıq etmək niyyətini bəyan etdi.

İclasın sonunda, mayın 14-də Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında saziş imzaladılar. Saziş Xəzərdə sülh, sabitlik və əməkdaşlıq üçün tərəflərin qarşılıqlı istək-

**Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan ilə Qazaxıstan arasında sazişə dair əlavə protokol imzalanmışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s.l 11.**

**’ ARXINA. 04.02.2003-28.03.2003. Qovluq X211, v.257.**
**‘ ARXINA. 04.02.2003-28.03.2003. Qovluq X211, v.258-260.**

lərini möhkəmləndirirdi. Azərbaycan Respublikası Milli Məclisi 2003-cü il dekabrın 9-da həmin sazişi ratifikasiya etdi'^^®.

Xüsusi İşçi Qrupun onuncu iclası 2003-cü il iyulun 22-24-də Moskvada keçirildi'^^'. İclası açan Rusiya xarici işlər naziri İqor İvanov görülən işləri və müzakirələrin davam etdirilməsini müsbət qiymətlən- dirdi . Bu iclas Xəzər dənizinin hüquqi statusuna dair konvensiyanın işlənib hazırlanması üçün yaxşı zəmin oldu. Rusiya Xəzər dənizinin dibinin orta xətt prinsipi ilə bölünməsini, akvatoriyasının isə Xəzəryanı dövlətlərin ümumi istifadəsində qalmasını ən optimal variant hesab edirdi. İrandan fərqli olaraq, Rusiya nümayəndəsi Viktor Kalyujnıy bunu ölkəsinin maraqlarının pozulması kimi qiymətləndirmirdi. Rəsmi Tehran isə yenə də bərabər bölgü prinsipini təklif edirdi.

İclasın yekununa dair birgə bəyanat qəbul edildi. Sənəddə Moskva görüşünün yekunları müsbət qiymətləndirilir. Xəzər dənizinin hüquqi statusu məsələsində ümumi razılığa gəlmək məqsədi ilə dialoqu davam etdirmək niyyəti təsdiq olunurdu.

Xüsusi İşçi Qrupun növbəti - 11-ci iclası sentyabrın 8-9-da Türkmənistanın xarici işlər naziri Rəşid Meredovun sədrliyi ilə Aşqabadda keçirildi'^^^. Nümayəndə heyətləri Xəzər dənizinin hüquqi statusuna dair mövqelərini bildirdilər. Xəzəryanı dövlətlərin təklifləri əsasında hazırlanmış Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsinin müzakirəsini davam etdirdilər, layihənin Xüsusi İşçi Qrupun Moskva görüşündə başlanılan ikinci oxunuşunu sona çatdırdılar. Tərəflər mövqelərin yaxınlaşdığını qeyd etdilər.

Əsas müzakirə mövzusu Xəzərin hüquqi statusu haqqında konvensiyanın işlənilməsi üzrə milli yurisdiksiyada olan zonalar barədə idi.

**Xəzərin dənizinin hüquqi statusuna dair arayış. - http://www.azerbaijan.az/portal/World Community/Caspian sea.**

**Xarici işlər nazirinin müavini Xələf Xələfov Moskvada olmuşdur. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s.286.**

**BbicTynjıeHne MHHHcxpa HHocxpanHbix nejı PoccHHCKOH Oe^epauMH H.C.HBanoBa na saceaaHHH cneuHaabHon paöoHen rpynnw no paspaöoxKe KOHBCHUHH o npaBOBOM cxaxyce KaconücKoro Mopa. 22 mojıa 2003 r. - BHeıuHHfl nojiHXHKa PoccHH. CöopHHK ÄOKyMenxoB. 2003. M., 2008, c. 338-340; flHnnoMaxHHecKHH BecxHHK. 2008, JVs 8, c.45-46.**

**Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın hazırlanması üzrə Xəzəryanı dövlətlərin işçi qrupunun 11-ci iclası. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 355.**

ya Xəzər ekoloji mərkəzinin qurulmasını təklif edirdi. İclasda Xəzərin ekoloji sisteminin mühafizəsi, dənizdə beynəlxalq terrorizmə, qanunsuz silah daşınmasına, qeyri-qanuni balıq ovuna, narkotik maddə qaçaqmalçılığına qarşı mübarizəyə dair məsələlər, həmçinin sənədin yekun maddələri müzakirə edildi. Görüşləri davam etdirmək barədə razılıq əldə edildi.

Dekabrın 9-10-da Tehranda Xüsusi İşçi Qrupun 12-ci iclası keçirildi'^^”. İclasda Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunurdu. Nümayəndə heyətləri tərəfindən Xəzər dənizinin hüquqi statusuna dair dövlətlərinin mövqeləri bildirildi və Xəzəryanı dövlətlərin təklifləri əsasında hazırlanmış Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsinin müzakirəsi davam etdirildi. Nümayəndə heyətləri konvensiyanın ekologiya və bioresurslara dair daha dörd maddəsini razılaşdırdılar. 2003- cü ildə keçirilən bu son görüşün yekununda birgə bəyanat qəbul edildi. Tədbirdən sonra İran tərəfi Xəzəryanı ölkələrlə bərabər səviyyəli ikitərəfli danışıqlar aparacağını bildirdi.

Beləliklə, 1992-ci ildən başlayaraq 2003-cü ilədək Xəzər dənizinin beynəlxalq hüquqi statusu haqqında keçirilən danışıqlar tərəflərin problemə dair baxışlarını və onu həll etmək niyyətlərini göstərdi. Ümumiyyətlə, SSRİ dağıldıqdan sonrakı dövr ərzində Xəzər dənizinin hüquqi statusuna dair çoxtərəfli əsasda keçirilən danışıqları üç mərhələyə ayırmaq olar: Birinci mərhələ 1992-ci ildən 1996-cü ilədək olan dövrü əhatə edir. Bu mərhələni problemin öyrənilməsi və həlli üçün qarşılıqlı məqbul variantlar axtarılması mərhələsi də adlandırmaq olar. Birinci mərhələdə danışıqlar prosesi konkret bir mexanizm çərçivəsində deyil, daha çox məsələyə dair ümumi danışıqlar şəklində aparılmışdır.

İkinci mərhələ 1996-2000-ci illəri əhatə edir. Bu mərhələ danışıqların Xüsusi İşçi Qrupu çərçivəsində davam etdirilməsi ilə səciyyələnir. Xüsusi İşçi Qrupun ilk iclası məhz bu dövrdə keçirildi. Eyni zamanda Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin ilk iclası da ikinci mərhələdə təşkil edildi. Xəzəryanı dövlətlər arasında Xəzər dənizinin hüquqi statusu ilə bağlı ola biləcək ilk sənəd dənizin dibinin bölünməsi haqqında Qazaxıstan - Rusiya müqaviləsi ikinci mərhələdə, 1998-ci ildə imzalandı.

Bu mərhələdə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdi-rilməsinə dair fərdi qaydada real baxışlar və mövqelər formalaşdı. Hüquqi

**' ARXINA. 2003.**

statusun müəyyənləşdirilməsi məsələsinin müzakirə edildiyi çoxlu konfrans keçirildi. İkitərəfli və çoxtərəfli görüşlər intensivləşdi.

Üçüncü mərhələ 2001-ci ilin yanvarından başlandı. Vladimir Putin Prezident vəzifəsinə seçildikdən sonra yürütdüyü siyasət ilə Rusiya Federasiyasının Xəzər regionuna və hüquqi status məsələsinə yanaşmasının tamamilə yeni konsepsiyasını formalaşdırdı. Bu mərhələ Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə işçi qrupun fəaliyyətinin gücləndirməsi və hüquqi statusla bağlı ikitərəfli razılaşmaların əldə edilməsi ilə səciyyələnir. Əhəmiyyətli məsələlərdən biri müzakirələrin mexanizminin yaradılması oldu.

Üçüncü mərhələ bir də onunla əlamətdardır ki, Xüsusi İşçi Qrupun ilk iki iclası istisna olmaqla digər iclaslarının hamısı bu dövrdə keçirilmişdir. Bundan əlavə, Xəzəryanı ölkələrin dövlət başçılarının ilk iki zirvə toplantısı üçüncü mərhələni səciyyələndirən hadisədir. Qeyd edilməlidir ki, dənizin dibinin bölünməsi haqqında Qazaxıstan - Rusiya sazişi istisna olmaqla Xəzər dənizinin hüquqi statusu ilə bağlı ola biləcək Xəzəryanı dövlətlər arasında imzalanmış bütün ikitərəfli (dəniz dibinin bölünməsi haqqında Azərbaycan - Qazaxıstan və Azərbaycan - Rusiya sazişləri, Qazaxıstan - Rusiya müqaviləsinin protokolu) və çoxtərəfli (dənizin dibinin bölünməsinə dair Azərbaycan - Qazaxıstan-Rusiya müqaviləsi və "Xəzər dənizinin dəniz ətraf mühitinin qorunması haqqında Çərçivə Konvensiyası") sazişlər bu mərhələyə təsadüf edir. Üçüncü mərhələnin digər mühüm hadisəsi ondan ibarətdir ki. Xüsusi İşçi Qrup çərçivəsində aparılan danışıqları sürətləndirmək və daha mütəşəkkil şəklə salmaq məqsədilə vahid mətn əsasında müzakirələrin davam etdirilməsi üçün 7-ci iclasda "Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya" layihəsinin bütün Xəzəryanı dövlətlərin mövqeləri nəzərə alınmaqla Azərbaycan tərəfindən hazırlanaraq təqdim edilməsi qərara alınmışdır.

Rusiya, Qazaxıstan və Türkmənistan Azərbaycanın mövqeyini qəbul edərək Xəzər dənizindəki milli sektorlarında geoloji-kəşfiyyat işlərinə başladılar. Lakin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi hələ də müzakirə obyekti olaraq qalır. Bununla belə, keçirilən görüşlər Xəzər dənizində əməkdaşlıq üçün yeni perspektivlərin olduğunu göstərir.

2003-cü ilədək Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan Respublikasının mövqeyi aşağıdakı kimi olunmuşdur'^^': Azər-

[1231] **ARXINA. 08.08.2001-12.09.2001. Qovluq X211, v.27-31.**

baycan tərəfi Xəzər dənizinin tərəflər arasında bölünməsi məsələsinin beynəlxalq hüquq normaları, Xəzər dənizində təşəkkül tapmış təcrübə və orta xətt bölgüsü əsasında mərhələli həllinə tərəfdar idi. İlkin mərhələdə dəniz dibini bərabər uzaqlıqda yerləşən nöqtələr nəzərə alınmaqla çəkilən və tərəflərin razılığı ilə modifikasiya edilən orta xətt metodu əsasında milli sektorlara bölmək və bu bölgü əsasında yaranmış sektorlarda sahilyanı dövlətlərin dənizin dibindəki mineral ehtiyatlara və digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyətə münasibətdə müstəsna hüquqlarını tanımaq təklif olunurdu. İkinci mərhələdə su hövzəsi ilə əlaqədar məsələlər müzakirə olunub əsas prinsiplər müəyyən edilə, o cümlədən ətraf mühitin mühafizəsi, balıqçılıq, gəmiçilik və digər məsələləri tənzimləyən çoxtərəfli sazişlər imzalana bilərdi. Azərbaycan Respublikası Xəzər dənizinin təbii ehtiyatlarının mənimsənilməsi üzrə fəaliyyətin davam etdirilməsinə və bu sahədə çoxtərəfli beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verirdi.

Məlum olduğu kimi, dünya okeanı ilə təbii əlaqəsi olmayan istənilən həcmli su tutarı göl adlanır. Bu yanaşma Xəzər dənizinə tam uyğun gəlir. Xəzər dənizi beynəlxalq sərhəd gölüdür. Azərbaycanın mövqeyinə görə. Xəzər dənizi orta xətt prinsipi ilə milli sektorlara bölünməli, milli sektorlara bölünmə isə keçmiş SSRİ-nin iş praktikasına və o zaman müəyyənləşdirilmiş bölgüyə əsaslanmalıdır. Xəzər dənizinin hüquqi statusuna dair aparılan müzakirələr imzalanmış neft müqavilələrinin reallaşdırıl- masına mane olmamalıdır.

Ciddi təkamül yolu keçən Rusiyanın mövqeyi Xəzər dənizinin dibinin orta xətt prinsipi üzrə sektorlara bölünməsindən, su səthinin ümumi istifadədə qalmasından ibarət olmuşdur. Buna görə, hər bir dövlət dəniz dibində mineral ehtiyatlara və digər hüquqa uyğun təsərrüfat-iqtisadi fəaliyyətə münasibətdə müstəsna hüquqlara malik idi. Xəzər dənizinin su səthi üç hissəyə - ərazi sularına, balıqçılıq zonasına və bitərəf sulara bölünməli idi. Ərazi suları 12 dəniz mili məsafəsini keçməməli idi. Dövlətin suverenliyi dənizin dibi və üzərindəki hava qatı da daxil olmaqla ərazi sularına şamil edilirdi. Balıqçılıq zonası ərazi suları ölçülən çıxış nöqtələrindən 15 dəniz mil məsafəsinədək olan su səthi hesab olunmalı idi. Bitərəf sular isə ərazi suları və balıqçılıq zonasının sərhədlərindən kənarda qalan sular hesab edilirdi. Rusiya Xəzər dənizində ətraf mühitin mühafizəsi, balıqçılıq və gəmiçilik məsələlərini tənzimləyən çoxtərəfli sazişlərin imzalanmasına tərəfdar idi. Bununla əlaqədar olaraq, Rusiya Xəzər dənizinin təbii mühitinin monitorinqi ilə məşğul olacaq və məsələ ilə

əlaqədar sahilyanı dövlətlərin hökumətlərinə tövsiyə verə biləcək Xəzər mərkəzinin qurulmasını tövsiyə edirdi.

İran 1921 və 1940-cı illər müqavilələrini Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsində əsas sənəd kimi qəbul edirdi. Həmin müqavilələrə əsaslanan İran tərəfi kondominium rejiminin Xəzər dənizinə tətbiq edilməsinə çalışırdı. İran Xəzər dənizində ekologiya məsələləri ilə məşğul olacaq Xəzər mərkəzinin qurulmasına dair Rusiyanın təklifinə qarşı çıxır, Xəzər dənizinin ehtiyatlarının qorunması, onlardan səmərəli istifadə və Xəzər dənizinin sülh və təhlükəsizlik dənizi olması məsələləri ilə məşğul olacaq Xəzər fondunun qurulmasını irəli sürürdü. İran əvvəlcə kondominiuma, sonra isə Xəzərin bərabər paylara, yəni 20%-lik əsasında bölünməsini təklif edirdi. Bu, Astara - Həsənqulu xətti ilə üst-üstə düşmür, üçbucaq formasını təşkil edirdi.

Qazaxıstanın mövqeyinə görə. Xəzər qapalı dənizdir və ona BMT- nin dəniz hüququ üzrə konvensiyasının əsas müddəaları tətbiq edilməlidir. Bununla belə, Qazaxıstan bu konvensiyanın bütün müddəalarının avtomatik tətbiq edilməsini tələb etmir, onun Xəzər dənizinə uyğunlaşdırılma- sına tərəfdar çıxırdı. Qazaxıstan Xəzər dənizinin təkinin karbohidrogen ehtiyatlarının mənimsənilməsində konkret mövqe tuturdu. Buna görə, hər bir ölkə həmin ehtiyatların mənimsənilməsində sərbəstdir’^^^.

Türkmənistan 1998-ci ildə kondominium prinsipindən imtina edərək Xəzər dənizinin tam və eyni vaxtda həm dibinin, həm də su hövzəsinin milli sektorlara bölünməsi mövqeyini tutdu. Aşqabadın baxışma görə, ətraf mühitin mühafizəsi, balıqçılıq, gəmiçilik və digər məsələləri tənzimləyən çoxtərəfli sazişlər yalnız Xəzər dənizinin hüquqi statusu müəyyən edildikdən sonra imzalana bilərdi. Türkmənistan, həmçinin İran tərəfinin Xəzər dənizinin bərabər paylara bölünmə mövqeyindən uzaqlaşaraq orta xətt üzrə milli sektorlara bölünmə mövqeyini qəbul etmişdir. Türkmənistan dənizdəki yataqların mənimsənilməsində xarici neft şirkətləri ilə əməkdaşlıq qurmuşdur.

Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsində Xəzəryanı dövlətlərin mövqeləri onların maraqlarını əks etdirir, daha çox enerji ehtiyatları, digər sərvətlər və əlverişli strateji mövqelər uğrunda diplomatik mübarizənin təcəssümü idi.

d>eflopoB **K).** KacnHHCKafl ne^iTb n Me)KayHapoflHaH öeaonacHOCTb. **BbinycK** 1, C.55.

Azərbaycanın bu məsələdə siyasəti qarşıdurmaya deyil, regionda maraqlan olan və regionda yerləşən dövlətlərin, xüsusən qonşu ölkələr ilə əməkdaşlığa yönəlmişdi. Heç əbəs deyildir ki, dövlət müstəqilliyi bərpa edildikdən sonra qonşu ölkələr ilə münasibətlər Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri oldu.

# V FƏSIL

# AZƏRBAYCAN RESPUBLİKASININ QONŞU DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən biri qonşu dövlətlər - Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə münasibətlərin qurulması oldu. Azərbaycanın Xəzəryanı ölkələr olan Rusiya, İran, Qazaxıstan və Türkmənistan ilə su sərhədinin uzunluğu 713 km,-dir‘^^1

## TÜRKIYƏ CÜMHURIYYƏTI ILƏ MÜNASIBƏTLƏR

### Qarşılıqlı münasibətlərin qurulması və ilk addımları

Artıq qeyd edildiyi kimi, SSRİ-nin dağılması dünyadakı tarazlığı pozaraq beynəlxalq münasibətlərdə tamamilə yeni bir şərait yaratmışdı’^^'*. “Dəmir pərdə”nin götürülməsi uzun illər boyu bir-birindən aralı düşmüş türk xalqlarının taleyinə də təsir etdi. Bu xalqların arasındakı əlaqələrdə yeni bir dövr başladı'^^^. Yaranmış şərait Azərbaycan - Türkiyə əlaqələrinə də təsir etdi. Qarşılıqlı münasibətlərdə yeni bir dövr açıldı. Qeyd etmək lazımdır ki, Azərbaycan ilə Türkiyə arasında sərhədin uzunluğu cəmi 15 km.-dir’^^^

Dünyada yaranmış yeni şərait Türkiyə üçün bir sıra fürsətlər yaratdı. Türkiyə regional güc dövlətinə çevrildi’^^’. Bu ölkənin təsiri artdı. Bir tərəfdən regionda əməkdaşlıq üçün yeni imkanlar açıldı, digər tərəfdən

^ Azərbaycan sərhəd mühafizəsi. Bakı, 2009, s. 3.
Onur Öymen. Türkiye’nin gücü. 21.Yüzyılda Türkiye, Avrupa ve dünya, s. 101.
Ramazan Özey. Jeopolitik ve jeostratejik açıdan Türkiye, s.l94.
Azərbaycan sərhəd mühafizəsi, s. 3.
William Hale. Türk dış politikası. 1774-2000. İstanbul, 2003, s. 307, 310.

risklər, sabitsizlik artdı, yeni dövlətlərdə sistem dəyişikliyi və model axtarışı başladı, rəqabət gücləndi'^^^.

Hələ sovet dövründə Türkiyə SSRİ ilə qarşılıqlı münasibətlərində Azərbaycana xüsusi diqqət və maraq göstərirdi. İstər 1920-İ922, istərsə də ondan sonrakı müəyyən dövrlərdə Azərbaycan Rusiya - Türkiyə, SSRİ - Türkiyə münasibətlərində mühüm, etibarlı körpü rolunu oynamışdı. SSRİ-yə səfər edən Türkiyə dövlət, siyasi və ictimai xadimlərinin Azərbaycana gəlişi ona verilən diqqətin nümunəsi idi'^^'.

SSRİ-nin mövcudluğunun son ilində, 1991-ci il martın 13-də Türkiyənin Baş Naziri Turqut Özal'^"° SSRİ-yə səfəri çərçivəsində Azərbaycana da gəlmiş, respublika rəhbərləri ilə danışıqlar aparmışdı. Türkiyə bu zaman qurulması planlaşdırılan Qara dəniz İqtisadi Əməkdaşlığına Azərbaycam da daxil etmək istəyirdi.

Səfərin yekununda əsasən iqtisadi əməkdaşlığa dair üç sənəd - Türkiyə ilə Azərbaycan arasında Araz çayı üzərində körpünün tikilməsi və sərhəd qapısının açılması, iki ölkə arasında rabitə qurulması və turizm sahəsində əməkdaşlığa dair protokollar və birgə bəyanat imzalanmışdı. Azərbaycan tərəfi əməkdaşlıq üçün Türkiyə nümayəndə heyətinə 25 layihə təqdim etmişdi.

T.Özahn səfərindən bir neçə gün sonra, martın 26-da Türkiyə xarici işlər nazirinin müavini Ömər Lütəmin'^" Bakıya səfəri zamanı dünyada və regionda yaranan yeni şəraitdə Azərbaycan - Türkiyə münasibətləri, qurulacaq Qara dəniz İqtisadi Əməkdaşlığında Azərbaycanın iştirakı məsələləri müzakirə edildi. Azərbaycan tərəfi həmin təklifə müsbət cavab verdi. Bütün bunlar hələ SSRİ-nin mövcud olduğu bir zamanda Azərbaycanın Türkiyə ilə ikitərəfli və çoxtərəfli əlaqələrində ilk addımlar idi.

Bu zaman Azərbaycan dövlət müstəqilliyini bərpa etmək ərəfəsində idi. Azərbaycanın dövlət müstəqilliyinin tanınması mümkünlüyü ilə bağlı ilk bəyanatı 1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişi cəhdi boşa

**1238 jış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Ciltll. 1980-2001, s. 367.**

**Bax; Qasımlı M. Azərbaycan — Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-cil il - dekabr 1922-ci il). Bakı, 1998; Qasımlı M. SSRİ — Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I - II cild. Bakı, 2007,2009.**

**Turqut Özal (1927-1993) - Türkiyənin Baş Naziri (1983-1989). 8-ci Prezident (1989-1993).**

**Ömər Lütəm (1933) - Türkiyə diplomatı.**

çıxdıqdan və Azərbaycan parlamentinin 30 avqust tarixli məlum qərarından sonra Türkiyənin Baş Naziri Məsud Yılmaz sentyabr ayında verdi. Lakin bundan sonra ABŞ, Avropa dövlətləri, hətta Türkiyənin bəzi siyasətçiləri SSRİ ilə problemlər yaranacağından ehtiyat edərək Azərbaycanın dövlət müstəqilliyini tanımamaq üçün hökumətə təzyiqlər etməyə başladılar. SSRİ-nin dağılacağı isə artıq şübhə doğurmurdu. Belə bir şəraitdə Azərbaycan xarici ölkələrlə birbaşa əlaqələr qurmağa çalışırdı. 1991-ci il noyabrın 4-də Azərbaycan Respublikasının Baş Naziri Həsən Həsənov İtaliya səfərindən geri dönərkən Türkiyədə keçirdiyi görüşlərdə türk hökumətini Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımağa çağırdı. Lakin Türkiyədə bəzi siyasətçilər, ictimai xadimlər və mətbuat orqanları tanınma məsələsinə ehtiyatla yanaşırdılar. "Cümhuriyyət" qəzetinin yazarı Yasemin Congar Türkiyənin Azərbaycanın və digər türk respublikalarının dövlət müstəqilliklərini tanımasının aşağıdakı beş çətinliyinin olduğunu yazırdı: bu respublikalar müstəqil olarlarsa, islamçı cərəyanlar yayılar; müstəqillik pantürkizmə, turançıhğa gətirə bilər; Moskvanın razılığı olmadan tanımaq olmaz; Ermənistan - Azərbaycan gərginliyi o qədər artmışdır ki, Türkiyə buna qatılmağa məcbur olar; Azərbaycandakı daxili çəkişmələr Ankaranın qayğılarını artırar'^'*^. Bu çətinliklər əslində müstəqilliyi tanımamaq demək idi.

Sentyabrın 8-də xarici işlər naziri Səfa Giray'^"^ ATƏM-in Moskvada keçirilən konfransında iştirak edərkən sovet xadimləri ilə bir sıra məsələləri müzakirə etdi. Daha sonra sentyabrın 12-də Azərbaycana bir nümayəndə heyəti göndərildi. Bakıda keçirilən müzakirələrdə Azərbaycan Prezidenti A.Mütəllibov və Baş Nazir H.Həsənov müstəqilliyin tanınmasını xahiş etdilər'^'*". Bu xahişi Azərbaycan ziyalıları, ictimai və siyasi təşkilatlarının liderləri də etdi.

Səfər nəticəsində Türkiyə nümayəndə heyəti yəqin etdi ki, Azərbaycanda bir yandan kommunist sistemi, digər yandan isə müstəmləkə sistemi dağılır, demokratikləşməyə və liberallaşmaya doğru gedilir. Nümayəndə heyəti səfər barəsində geniş hesabat hazırlayaraq müstəqilliyinin tanınmasını lazım bildi.

**Yasemin Congar. Ankaranın Azerbaycan kaygısı. - "Cumhuriyet", İstanbul, 1990, 12 Eylül.**

**Səfa Giray (1931-2011) - Türkiyə siyasətçisi və diplomatı. Xarici işlər naziri (1991).**

**Bilal N. Şimşir. Azerbaycan. Azerbaycanın yeniden doğuş sürecinde Türkiye — Azerbaycan ilişkileri, s.244-248.**

Noyabrın 1-də Azərbaycan tərəfi dövlət müstəqilliyinin tanınması üçün Türkiyə hökumətinə rəsmi müraciət etdi. Lakin Türkiyənin müttəfiqi olan ABŞ tanınma məsələsində tələsməməyi məsləhət gördü. Bildirdi ki, fövqəldövlət olan SSRİ-nin hələ mövcud olduğu bir zamanda Türkiyənin tələskənliyi dünyada gərginliyin artması ilə nəticələnə bilər'^"*^. Lakin Türkiyə hökuməti qətiyyətli hərəkət etdi. Noyabrın 9-da hələ SSRİ-nin mövcud olduğu bir şəraitdə Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıdı. Bu, Türkiyə Cümhuriyyəti dövlətinin cəsarətli bir addımı, tarixi qərar idi. Noyabrın 10-da xarici işlər naziri Səfa Giray bəyanatla çıxış edərək Sovet İttifaqının əsaslı dəyişikliklər yoluna qədəm qoymasının bütün dünyaya olduğu kimi türk-sovet münasibətlərinə də müsbət təsir etdiyini bildirdi. Noyabrın 11-də isə Türkiyənin Bakıdakı baş konsulu Altan Karamanoğlu Türkiyənin xarici işlər naziri Səfa Giraym türk hökumətinin Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımasına dair bəyanatını Azərbaycan hökumətinə təqdim etdi. Beləliklə, Türkiyə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk dövlət oldu. Bundan sonra Türkiyə Azərbaycana və digər türk respublikalarına münasibətdə üç mərhələli bir siyasət yürütməyə başladı: tanıtma; diplomatik əlaqələr qurma; səfirlik açma.

Türkiyə bu zaman Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzündən narahatçılıq keçirirdi. 1991-ci il noyabr ayının sonlarında Baş Nazir seçilmiş Süleyman Dəmirəl Azərbaycanın Baş Naziri Həsən Həsənova məktub göndərərək regionda gərginliyi artıra biləcək hərəkətlərdən çəkinməyə çağırdı'^'’^. Dekabrın 19-da yazdığı cavab məktubunda Həsən Həsənov ərazi bütövlüyünün qorunması şərtilə münaqişənin sülh yolu ilə həllinə Azərbaycanın tərəfdar olduğunu bildirdi.

Bir müddət keçmiş SSRİ dağıldı. TBMM-də etdiyi çıxışında Süleyman Dəmirəl SSRİ-nin dağılması və Avropadakı dəyişikliklərin baş verdiyi şəraitdə türk və müsəlman sovet respublikaları ilə əməkdaşlıq qurmağın zəruri olduğunu bildirdi. Bundan sonra Türkiyə fəal diplomatik addımlar atdı. 1991-ci il dekabrın 30-da Türkiyə hökuməti yeni müstəqil dövlətlərdə səfirliklər açmaq barədə qərar qəbul etdi. 1992-ci il yanvarın 14-də Türkiyə Xarici İşlər Nazirliyinin siyasi işlər idarəsinin rəisi Bilal

**Yenə orada, s.265-267; Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri), s.31.**

**Mustafa Budak. Azerbaycan — Ermenistan ilişkilerinde Dağlık Karabağ mese- lesi ve Türkiye’nin politikası. — “Kafkas araştırmaları” dergisi. İstanbul, 1996, Xo2, s. 133.**

Şimşirin'^**’ Bakıya səfəri zamanı Azərbaycan ilə Türkiyə arasında diplomatik münasibətlərin qurulması məsələləri müzakirə edildi və müvafiq protokol Azərbaycanın xarici işlər naziri Hüseynağa Sadıqov və Bilal Şimşir tərəfindən imzalandı. Yanvarın 14-də iki ölkə arasında diplomatik əlaqələr quruldu'^'**. 1992-ci ilin yanvar ayında Türkiyənin Azərbaycandakı səfirliyi, Naxçıvanda isə baş konsulluğu açıldı. Altan Karaman- oğlu Azərbaycanda Türkiyənin ilk səfiri təyin edildi. Beləliklə, Türkiyə Azərbaycanda səfirlik açan ilk ölkə oldu.

Bundan sonra Azərbaycan Respublikasının xarici siyasətində Türkiyə ilə münasibətlər mühüm yerlərdən birini tutdu. İki ölkə arasında münasibətlərin qurulmasına və inkişafına təsir edən bir sıra amillər mövcud idi. Hər şeydən əvvəl, Azərbaycan və Türkiyə xalqlarını coğrafiya, tarix, dil, mədəniyyət birləşdirirdi. Bu xalqların kökü eyni idi. Türkiyə Avropa və Asiya dövləti əlverişli coğrafi-siyasi mövqedə yerləşirdi. Dünya okeanına çıxış olan boğazlara nəzarət edirdi. Regionun iqtisadi və hərbi cəhətdən güclü dövləti idi. NATO ölkəsi kimi qüdrətli və döyüşkən silahlı qüvvələri var idi. Dünya və region siyasətində nüfuzu və dəsti-xətti olan dövlət hesab edilirdi.

Azərbaycan Türkiyə üçün coğrafi-siyasi mövqeyi, etnik, mədəniyyət, tarix və dil baxımından böyük əhəmiyyət kəsb edirdi. Məlum olduğu kimi, Türkiyə türk dünyasından coğrafi baxımdan uzun illər boyu aralı düşmüşdü. Türkiyənin Naxçıvanda kiçik sərhəd istisna olmaqla Azərbaycan və türk dünyası ilə birbaşa quru sərhədi mövcud deyildi. Azərbaycan Türkiyə üçün Orta Asiyaya keçid, körpü rolunu oynayırdı. Türkiyə tədqiqatçılarının fikrincə. Xəzər dənizi Türkiyənin Orta Asiyaya açılan kilid dəniz hövzəsi kimi qiymətli idi’^"*^.

Region ilə qonşu və həmsərhəd olan Türkiyənin Cənubi Qafqazda milli, hərbi-strateji maraqları var idi. Azərbaycan və Türkiyə xalqları etnik, mədəni və dini kökləri baxımdan qardaş idi. Türkiyədə təqribən 3 milyon nəfər azərbaycanlı y a ş a y ı r d ı T ü r k i y ə müsəlman dünyasının müasir, demokratik bir dövləti kimi cəlbedici idi. Lakin iki ölkə arasında

[1247] **Bilal Şimşir (1933) - Türkiyə diplomatı.**

**^ ARXİNA, 2008.**

**Ahmet Davutoğlu. Strateji derinlik. Türkiyenin uluslararası konumu. İstanbul, Küre yaymları, 2001, s. 181.**

**Azərbaycan — Türkiyə əlaqələri, Heydər Əliyev və Şərq. 6 cilddə. IKT dövlətləri. V kitab, s. 183.**

münasibətlər etnik və dini mənsubiyyət amilləri deyil, beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər üzərində qurulurdu.

Dövlət müstəqillyinin bərpasından sonra Azərbaycan ilə Türkiyə arasında iqtisadi münasibətlərin qurulması və inkişafı üçün yeni imkanlar açıldı'^^'. Türkiyə əlverişli nəqliyyat dəhlizi olan Cənubi Qafqaz regionunda təhlükəsizliyin təmin edilməsində maraqlı idi. Zəngin təbii sərvətləri ilə Azərbaycan Türkiyənin Qafqaz siyasətində müstəsna yer tuturdu. Türkiyə Azərbaycanı Orta Asiyaya açılan bir körpü və eyni zamanda enerji ehtiyatları səbəbindən sabitlik olmasında türk respublikaları üçün strateji əhəmiyyətli bir ölkə kimi qiymətləndirirdi. Bütün bunlar Türkiyənin üstünlüyü olsa da, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi Türkiyənin Qafqaz siyasətində çətinliklər yaradırdı.

Müstəqilliyin ilk illərində Azərbaycan - Türkiyə münasibətlərinin inkişaf etdirilməsi üçün bəzi addımlar atıldı. 1992-ci il yanvarın 24-25-də Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovun Türkiyəyə səfəri zamanı iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq etmək məsələləri müzakirə edildi. 11 maddədən ibarət dostluq, əməkdaşlıq və mehriban qonşuluq müqaviləsi imzalandı'^^^.

Azərbaycan Prezidentinin Türkiyəyə səfərinin və imzalanan sənədlərin əhəmiyyəti var idi. Bu, qarşılıqlı münasibətlərin qurulub inkişaf etdirilməsində ilk addımlardan biri kimi mühüm rol oynayırdı.

Qeyd etmək lazımdır ki, Türkiyə tərəfi Ermənistanın Azərbaycana qarşı təcavüzünə müdaxilə etməkdə ehtiyatlı mövqe tuturdu. Bu da səbəbsiz deyildi. Ona təsir edən bir sıra beynəlxalq amillər var idi. Hər şeydən əvvəl, Rusiya açıq şəkildə Ermənistanı müdafiə edirdi. NATO üzvü olan Türkiyə Rusiya ilə qarşıdurmaya getməkdə maraqlı deyildi. NATO-nun Rusiyanın da bilavasitə daxil olduğu Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllinə müdaxilə məsələsində istəksiz olması və Türkiyəni Rusiya qarşısında yalnız

**Sinan Oğan. Azerbaycan' ın Türkiye ile iktisadi münasebetleri ve gelecegi. - "Türk yurdu" dergisi, İstanbul, 1992, Eylül, 12(61), s. 39-41.**

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə. - "Xalq qəzeti", Bakı, 1992, 29 yanvar; Türkiye ile türk cumhuriyetleri arasında anlaşmalar (1990- 1992). Cilt 1. Ankara, 1993, s.62-64; Jfs 26; Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 — Haziran 1993). Bir bağımsızlık müca- delesinin diplomatik öyküsü, s.l22.**

buraxması ehtimalı da təsirsiz deyildi'^^^. İkincisi, Türkiyə SSRİ-nin dağılması ilə zəifləmiş, lakin hələ güclü olan Rusiya ilə yaxşı münasibətlər qurmağa çalışırdı. Türkiyə malları üçün Rusiya kimi geniş və əlverişli bir bazar yaranmışdı. Ankara bu bazarı itirmək istəmirdi. Nəhayət, ABŞ və Fransadakı güclü erməni diasporası Ermənistanın xeyrinə lobbi fəaliyyətləri aparır, türk düşmənçiliyindən qətiyyən imtina etmirdi. Türkiyə məlum mövqeyi ilə həmin düşmənçiliyi diplomatik yolla zəiflətməyə çalışırdı. Buna görə də Türkiyə qarşıdurma deyil, əməkdaşlıq yolunu seçmişdi. Türkiyə hökuməti Ermənistan ilə münasibətlərini yumşaltmaq üçün bəzi addımlar da atdı. 1992-ci ilin qışından etibarən Ermənistana göndərilən beynəlxalq yardımların ölkənin hava məkanından keçirilməsinə icazə verdi. Lakin Türkiyənin bu xoşməramlı hərəkəti Ermənistanın Azərbaycana qarşı olan təcavüzünü dayandıra bilmədi.

Belə bir şəraitdə Türkiyə türk dünyası ilə əlaqələrin qurulması və inkişafına əhəmiyyət verərək NATO üzrə müttəfiqlərinin diqqətini bu məsələyə yönəltdi. Baş Nazir Süleyman Dəmirəl 1992-ci il yanvarın 30-dan fevralın 2-dək Davosda keçirilən ümumdünya iqtisadi forumunda, fevralın 10-15-də isə ABŞ-a səfəri zamanı keçirdiyi görüşlərdə yeni müstəqil türk dövlətlərinə diqqətin artırılmasının vacibliyini bildirdi. ABŞ həmin dövlətlər üçün Türkiyə modelini qəbul edirdi. Qeyd etmək lazımdır ki, bu model Avropa dövlətlərinin əksəriyyəti tərəfindən də bəyənilirdi. Süleyman Dəmirəl BMT baş katibinə Azərbaycanın və digər Cənubi Qafqaz respublikalarının təşkilata üzv qəbul edilməsi təşəbbüsü ilə müraciət etdi.

1992-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ regionunda Ermənistan ordu hissələrinin dinc əhaliyə qarşı həyata keçirdiyi kütləvi qırğınlar, xüsusən Xocalıda törədilən soyqırım Türkiyədə hiddətlə qarşılandı. Bu hadisədən bir neçə gün sonra, TBMM insan hüquqları komitəsinin üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycana səfər etdi. Martın 10-da nümayəndə heyəti Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov tərəfindən qəbul edildi. Nümayəndə heyəti Xocalıda baş verən soyqırıma görə Ermənistanı ittiham etdi. Türkiyəyə döndükdən sonra nümayəndə heyətinin üzvləri bir neçə xarici ölkəyə səfər edərək Xocalıda törədilənlər barədə geniş məlumat verdilər.

Türk ictimaiyyəti də Ermənistanın təcavüzünə etiraz etdi. Ölkənin iri şəhərlərində Ermənistanın işğalçılıq siyasətinin əleyhinə mitinqlər

**' Türk dış politikası. 1919-2008, s.835-836.**

başladı. Türk hökuməti Ermənistanın hərbi təcavüzünə biganə qalmayaca- ğını dünya ictimai rəyinə çatdırdı.

Türkiyə bu məsələdə qəti mövqeyini bildirdi. ABŞ və Rusiyanın Ankaradakı səfirləri Türkiyə Xarici İşlər Naziliyinə dəvət edildilər. Onlardan Dağlıq Qarabağ münaqişəsində bitərəf davranmaları istənildi. TBMM-də çıxış edən Süleyman Dəmirəl "Qərb Qarabağ məsələsində Ermənistanı dəstəklərsə və Ermənistan uyuşmaz bir mövqe tutarsa, regional müharibə başlanar"'^^" deyərək xəbərdarlıq etdi.

Belə bir şəraitdə Rusiyanın xarici işlər naziri Andrey Kozırev Türkiyənin xarici işlər naziri Hikmət Çətinə məktub göndərərək Dağlıq Qarabağ münaqişəsinin həllinə müdaxilə etməyə çağırdı. 1992-ci il fevralın 28-dən martın 6-dək Hikmət Çətin türk respublikalarına, o cümlədən Azərbaycana səfər etdi. Səfərdə məqsəd yeni türk dövlətləri ilə qurulmuş əlaqələri möhkəm təməllər üzərində inkişaf etdirmək, onlara yardım edə bilmək, konkret əməkdaşlıq layihələrini sürətləndirmək məsələlərini müzakirə etmək idi. Azərbaycanda keçirdiyi görüşlərində Hikmət Çətin atəşkəsə nail olunmasını və münaqişənin dinc yollarla həllini tövsiyə etdi, eyni zamanda münaqişənin ATƏM çərçivəsində həlli üçün bir sıra təkliflər irəli sürdü. Fevralın 28-də iki ölkə arasında viza, xarici işlər nazirlikləri arasında arasında məsləhətləşmələr, Azərbaycan diplomatlarının Türkiyədə staj keçmələri və təhsil nazirlikləri arasında əməkdaşlığa dair protokollar imzalandı.

Ermənistanın təcavüzünün davam etdiyi bir zamanda Azərbaycan - Türkiyə əməkdaşlığı tədricən genişlənərək yeni sahələri əhatə edirdi. Belə ki, martın 13-də isə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq protokolu imzalandı. Martın 22-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyəyə rəsmi səfər edərək, Naxçıvana 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 nəfər tələbəninin Türkiyədə təhsil alması haqqında protokolu imzaladı. İmzalanan sənəddə Araz çayı üzərində körpü tikilməsi də nəzərdə tutulmuşdu. Bu səfər Naxçıvan Muxtar Respublikasının Ermənistanın təcavüzündən qorunmasında mühüm rol oynadı.

Ermənistan silahlı qüvvələri 1992-ci ilin may ayında Naxçıvan üzərinə hücuma keçdikdə Türkiyə tərəfi təcavüzün davam edəcəyi təqdirdə hərbi müdaxiləyə başlayacağını bildirdi. Türk hökuməti yalnız bəyanatlar verməklə kifayətlənmədi. Süleyman Dəmirəl 1992-ci il mayın

**Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi, s. 166-167.**

2-3-də Azərbaycana səfər etdi. Səfər zamanı o, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov və digər şəxslərlə görüşdü'^^^. Görüşlərdə əsasən iki ölkə arasında münasibətlərə dair məsələlər müzakirə edildi. Süleyman Dəmirəl Azərbaycan parlamentində çıxış etdi. Onun fikrincə, SSRİ rəsmən dağılsa da, Rusiya hələ keçmiş sovet məkanında təsirini saxlayırdı.

Səfər ərəfəsində Türkiyə heyəti türk cümhuriyyətlərini yaxşı tanıdığını zənn etmişdi. Ancaq səfərdən sonra Süleyman Dəmirəl bəyan etdi: "Heç bir şey bilmədiyimizi anladıq". Səfər başa çatdıqdan sonra Türkiyə özünü bütün türk xalqlarının dövləti olaraq görməyə başladı, eyni zamanda Türkiyə yeni türk dövlətlərinin böyük qardaşı olmadığını bildirdi. Bu isə bərabərhüquqlu münasibətlərin qurulması istiqamətində yeni imkanlar açırdı. Süleyman Dəmirəlin fikrincə, Azərbaycanda daxili siyasi sabitlik Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək edərdi.

Mayın 3-də Bakıda Türkiyə səfirliyi açıldı. Süleyman Dəmirəl səfirliyin binası üzərində Türkiyə bayrağını qaldırarkən Azərbaycan bayrağını nəzərdə tutaraq "Türkiyənin ay-ulduzlu bayrağının yanına daha bir ay-ulduzlu bayraq gəldi" deyərək, Bakıda açılan Türkiyə səfirliyinin Azərbaycanın dünyaya açılan pəncərəsi olduğunu vurğuladı. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan, ilk səfir göndərən və ilk səfirlik açan ölkə Türkiyə oldu.

Səfər zamanı dörd sənəd - iki ölkə arasında hava nəqliyyatı, texniki və elmi əməkdaşlıq haqqında müqavilələr, radio-televiziya sahəsində əməkdaşlıq protokolu və birgə bəyanat imzalandı'^^^

Bu səfərin böyük əhəmiyyəti var idi. Bakıda keçirilən müzakirələr və səfirliyin açılması iki ölkə arasında münasibətlərdə yeni səhifə açırdı. Bu, tarixdə iz buraxacaq bir səfər idi. Tarixdə ilk dəfə olaraq müstəqil Azərbaycana Türkiyənin Baş Naziri səfər etmişdi. Səfər cığır açan bir səfər oldu. Bu səfərlə Türkiyə Azərbaycana və digər türk dövlətlərinə xüsusi yer verdiyinin göstərirdi. Türkiyə bu regionda ağırlığının, maraqlarının olduğunu göstərərək, türk dünyasına xarici siyasətində mühüm diqqət ayrıldığını nümayiş etdirdi; onları müasir dünya ilə bütünləşməyə çağırdı. Türkiyə daxilində və beynəlxalq həyatda əks-səda doğuran səfərin

**Demirel: Artık 180 milyonuz. "Tercuman" gazetesi, İstanbul, 1992, 4 Mayıs.**

**1256 'pQj.j^jyg iig cumhuriyetleri arasındakı anlaşmalar (1990-1992). Cilt 1, s. 77-78, JNo 33; s.89-91, JNğ 34; s.91-95, Ng 35; s.96-97, No36.**

ən əhəmiyyətli nəticəsi türk ölkələri dövlət başçılarının zirvə toplantısının keçirilməsi barədə ümumi fikrin əldə edilməsi oldu.

Lakin səfərdən az sonra Azərbaycanda sabitsizlik dərinləşdi. Hakimiyyət dəyişikliyi baş verdi. Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı münasibətlərdə əvvəlkindən fərqli bir mərhələ başladı. 1992-ci il mayın 21-də Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvana gəldi. Nümayəndə heyətini qəbul edən Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin Sədərək və Şərur istiqamətində hücumları barədə danışdı. Nümayəndə heyəti döyüş bölgələrinə səfər etdi. Heyət Süleyman Dəmirəlin Naxçıvana səfərini hazırlayırdı.

Bu zaman, mayın 22-də Rusiya Prezidenti Boris Yeltsin Naxçıvandan rus sərhəd qoşunlarının çıxarılması barədə təlimat verdi. Naxçıvana səfərdən əvvəl Süleyman Dəmirəl mayın 25-26-da Moskvaya səfər etdi. Daha sonra isə mayın 28-də uzunluğu 286 metr, eni 12,50 metr olan "Həsrət körpüsü" və ya "Ümid körpüsü"nün açılış mərasimində iştirak etmək üçün Naxçıvana gələrək Heydər Əliyev ilə birlikdə körpünü açdı. Körpünün açılması Naxçıvanın blokadasını yüngülləşdirməyə kömək etdi. Səfər zamanı Naxçıvanda Türk Bankı açıldı.

İki ölkə arasında əlaqələrin genişlənməsində Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin 1992-ci il iyunun 24-27-də Türkiyəyə işgüzar səfəri mühüm bir addım oldu. O, İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlığı və Boğazlar bəyannaməsini imzaladı'^^^.

Toplantıdan sonra Azərbaycan Prezidenti Ankaraya gələrək Süleyman Dəmirəl ilə danışıqlar apardı. Müzakirələr zamanı münasibətləri müxtəlif sahələrdə inkişaf etdirmək barədə razılıq əldə edildi. Birgə bəyanat imzalandı.

Azərbaycan Prezidentinin səfərinin konkret nəticələri oldu. Ondan az sonra, iyulun 13-17-də xarici işlər nazirinin birinci müavini Özdem

Sanberq başda olmaqla 23 nəfərdən ibarət olan nümayəndə heyəti Azərbaycan səfər edərək siyasi, iqtisadi, mədəni, təhsil və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan saziş layihələri üzərində iş apardı'^^^.

Azərbaycan tərəfi Türkiyə ilə münasibətləri möhkəmləndirmək üçün digər addımlar da atdı. Azərbaycan Respublikası Milli Məclisi 1992- ci il avqustun 5-də Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətində

**Anadolu torpağında görüşlər. - "Xalq qəzeti", Bakı, 1992, 30 iyun.**

**Özdem Sanberq (1938) - Türkiyə diplomatı. Xarici işlər nazirinin müavini (1991-1995).**

1259 **Azərbaycan - Türkiyə birgə bəyanatı. - "Xalq qəzeti", Bakı, 1992, 21 iyul.**

səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etdi. Avqustun 7-də Məmməd Əliyev'^®° Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edildi. Avqustun 11-də Türkiyə Respublikasının İstanbul şəhərində Azərbaycan Respublikasının baş konsulluğu təsis edildi. Abbas Acalov (Abbas Abdulla) baş konsul vəzifəsinə təyin olundu.

Bu zaman Azərbaycan Prezidentinin Türkiyəyə səfəri planlaşdırılırdı. Sentyabr ayında Türkiyəyə nəzərdə tutulan səfəri hazırlamaq, ikitərəfli münasibətləri və vacib beynəlxalq məsələləri müzakirə etmək məqsədi ilə 1992-ci il avqustun 10-12-də xarici işlər naziri Tofiq Qasımov Ankaraya rəsmi səfər etdi. O, xarici işlər naziri Hikmət Çətin ilə görüşərək Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdi. Türkiyə üçün regionda sülhün bərqərar olması çox vacib idi. Ona görə də Hikmət Çətin Dağlıq Qarabağ münaqişəni həll etmək üçün Azərbaycana sülh yolunu məsləhət gördü. Danışıqlardan sonra Türkiyə hökuməti xarici ölkələrdəki türk səfirliklərinə Azərbaycanın mövqeyini izah etməyi tapşırdı'^^'. Bu, bir qardaşlıq yardımı idi.

Azərbaycanın xarici işlər naziri Baş Nazir Süleyman Dəmirəl ilə görüşdü. Türkiyə tərəfi Azərbaycanın seçdiyi inkişaf yolunun doğru olduğunu, çətinliklərin aradan qaldırılması üçün zamana ehtiyac duyulduğunu bildirdi.

TBMM sədri Hüsaməddin Cindoruk ilə keçirilən görüşdə iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq, islahatlar və idarəçiliyin təkmilləşdirilməsi məsələləri müzakirə edildi.

Azərbaycanın xarici işlər nazirini Prezident Turqut Özal da qəbul etdi. Görüşdə ikitərəfli münasibətlər, Ermənistanın davam edən təcavüzü məsələləri müzakirə olundu. Azərbaycan tərəfi maliyyə məsələlərində və diplomatların hazırlanmasında Türkiyədən yardım istədi. Türkiyə tərəfi Azərbaycana yardım edəcəyini bildirdi.

Avqustun 11-də hər iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq və məsləhətləşmələrə dair protokol, konsul konvensiyası və müvafiq protokol imzalandı'^®^. Səfər zamanı Türkiyə ilə Azərbaycan

**° Məmməd Əliyev (1942) - 1992-ci ildən Azərbaycan Respublikasının Türkiyə Respublikasında, daha sonra İspaniyada fövqəladə və səlahiyyətli səfiri. 2010-cu ildən XİN-də idarə rəisi, müşavir.**

**Azərbaycanın xarici işlər nazirinin Türkiyəyə ilk rəsmi səfəri başa çatmışdır. - "Xalq qəzeti", Bakı, 1992, 15 avqust.**

**' Yenə orada.**

arasında 23 maddədən ibarət hərbi təhsil sahəsində əməkdaşlığa dair müqavilə bağlandı.

1992-ci il oktyabrın 28-dən noyabrın 5-dək Əbülfəz Elçibəy Türkiyəyə səfər etdi'^". Azərbaycan Prezidenti əvvəlcə oktyabrın 30-31-də türk dövlət başçılarının zirvə toplantısına qatıldı. Toplantıda çıxış edən Turqut Özal ölkələr arasında iqtisadi maneələrin aradan qaldırılmasının, sərbəst ticarətə başlanılmasının, gömrük qaydalarının sadələşdirilməsinin, bölgənin inkişafı üçün sərmayə bankının qurulmasının, mövcud dəmiryolları və avtomobil yollarının birləşdirilməsinin, hava və dəniz yollarının inkişaf etdirilməsinin, telekommunikasiya əlaqələrinin genişləndirilməsinin, Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistan neftinin Türkiyə ərazisindən keçərək Aralıq dənizinə, oradan da Avropaya nəql edilməsi imkanlarının öyrənilməsinin, Türkmənistan və digər ölkələrdəki təbii qazın Türkiyə ərazisindən Avropaya boru xətti ilə nəqli üçün çalışmaların başladılmasmın vacibliyini vurğuladı. Toplantının yekununda birgə bəyannamə imzalandı.

Noyabrın 1-dən etibarən Azərbaycan Prezidentinin Türkiyəyə rəsmi səfəri başladı. Süleyman Dəmirəl ilə keçirilən danışıqlarda əsasən iki ölkə arasında münasibətlərin bütün sahələrdə genişləndirilməsi məsələləri müzakirə edildi. Türkiyə tərəfi Azərbaycanın problemlərinin həllinə yardım göstərəcəyini bildirdi.

Noyabrın 2-də Turqut Özal və Əbülfəz Elçibəy tərəfindən Azərbaycanın Türkiyədə səfirliyi açıldı. Bu, qarşılıqlı münasibətlərin inkişafına yeni imkanlar açırdı.

Həmin gün iki ölkə arasında dostluq, əməkdaşlıq, mehriban qonşuluq, ticarət, nəqliyyat və b. sahələrdə əməkdaşlığa dair 6 müqavilə və bir sıra digər sənədlər imzalandı. Bir müddət sonra, 1993-cü il martında Türkiyə Cümhuriyyəti Nazirlər Şurası Azərbaycan ilə imzalanan dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilənin təsdiqini uyğun bildi'^®". Türkiyənin Eksimbankı tərəfindən Azərbaycana 300 milyon

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s.125.**

**Azerbaycan ile imzalanan dostluk, işbirligi ve iyi komşuluk anlaşmasının onaylanmasının uyğun bulunduğuna dair karar. - T.C. Resmi gazete, Ankara, 1993,21 Mart.**

dollarlıq kredit verilməsi məsələsi razılaşdırıldı. Lakin həmin kreditin yalnız 100 milyon dolları verildi'^®^.

İki ölkə arasında münasibətlər 1992-ci ilin sonlarından etibarən sınağa çəkildi. Bunun da başlıca səbəbi Qərb ölkələrinin, o cümlədən ABŞ- m təzyiqləri ilə Türkiyənin Ermənistan ilə sülh və xoşniyyətli münasibətləri qurması üçün atdığı addımlar oldu. Bu zaman Qərb ölkələrinin Türkiyədən istəkləri əsasən aşağıdakılardan ibarət idi; Türkiyə üzərindən Ermənistana yardım aparılmasına icazə verilsin; Türkiyə Ermənistana humanitar yardım adı altında buğda göndərsin və elektrik enerjisi versin.

Türkiyə hökuməti xeyirxahlıq edərək aclıqdan əziyyət çəkən Ermənistana 1992-ci ilin noyabr ayında 100 min ton buğda satdı. Eyni zamanda enerji probleminin həllinə kömək məqsədilə Türkiyə ilə Ermənistan arasında enerji protokolu imzalandı. Həmin protokola uyğun olaraq Türkiyə hökuməti Ermənistana 1992-1993-cü illərdə 2 milyard kilovat saat elektrik enerjisi satdı. Bu hərəkət Azərbaycanda narazılıqla qarşı- landı'^“. Azərbaycan Respublikasının xarici işlər naziri enerji protokolunu “arxadan vurulan bıçaq” kimi qiymətləndirdi'"®’. Türkiyədəki müxalifət partiyaları da həmin protokolu tənqid etdilər. Ona görə də Süleyman Dəmirəl hökuməti protokolun şərtlərini sonadək həyata keçirə bilmədi.

Azərbaycan və Türkiyə münasibətlərini daha da sıxlaşdırmaq xəttini davam etdirirdilər. 1992-ci il dekabrın 5-də Türkiyənin Azərbaycan nefti üçün yaradılacaq konsorsiuma daxil ediləcəyi barədə razılıq əldə olundu. Dekabrın 7-də isə Türkiyə Baş Nazirinin müavini, dövlət naziri Ərdal İnönü Azərbaycana səfər edərək iki ölkə arasında yaranmış son vəziyyəti müzakirə etdi.

Ərdal İnönünün Baş Nazir Rəhim Hüseynov'’®* ilə görüşündə əsasən iki ölkə arasında iqtisadi əməkdaşlıq, xüsusən Türkiyənin Azərbaycanda yaradılacaq neft konsorsiumunda iştirakı məsələləri müzakirə

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü,s. 126.**

**Azeri Foreign ministry sends note to Ankara. - "Turan News Agency", 1992, 26 November.**

**Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası, s. 30.**

**Rəhim Hüseynov (1936) - Azərbaycan Respublikasının Baş Naziri (1992- 1993).**

olundu. İmzalanmış müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinin vacibliyi vurğulandı’^®^.

Əldə edilən razılaşmaya uyğun olaraq ARDNŞ-in rəhbəri Sabit Bağırov 1993-cü ilin mart ayında Ankaraya gələrək neft sahəsində əməkdaşlığa dair danışıqlar apardı. Türkiyənin yaradılacaq neft konsorsiumunda iştirakı məsələsi həll edildi.

Belə bir şəraitdə Türkiyə ərazisindən keçməklə Ermənistana yardım edilməsi Azərbaycanın maraqlarına cavab vermədiyindən Ankaradakı səfir Məmməd Əliyev türk rəsmiləri ilə görüşərək ölkəsinin narahatlığını çatdırdı'^''. Bu zaman Türkiyədəki bir sıra təşkilatlar da Ermənistanın işğalçılıq siyasətinin və Ermənistana yardım göstərilməsinin əleyhinə mitinqlər keçirərək hökumətə təzyiqlər edirdilər.

Yaranmış vəziyyətdə 1993-cü ilin mart ayında Türkiyənin xarici işlər naziri Hikmət Çətin Bakıya səfər etdi. Bundan əvvəl o, Moskvada Rusiya xarici işlər naziri Andrey Kozırev ilə görüşərək regionda yaranmış vəziyyəti, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli barədə müzakirələr aparmışdı. Hikmət Çətin Azərbaycanda keçirdiyi görüşlərdə münaqişənin nizamlanması üçün sülh səylərinin artırılmasının, Rusiya ilə birgə siyasət yürüdülməsinin vacibliyini. Cənubi Qafqazda ABŞ, İngiltərə və Fransanın da maraqlarının olduğunu söyləyərək təcili atəşkəsə nail olunmasını tövsiyə etdi. Azərbaycan tərəfi Ermənistanın apardığı müharibəyə son qoyulmasını istəyirdi. Bildirildi ki, yalnız Azərbaycan atəşkəs tələb edə bilməz. Minsk konfransı çərçivəsində sülh yalnız Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarıldıqdan sonra mümkün ola bilər'^’^.

Lakin həmin səylər nəticəsiz oldu. 1993-cü ilin aprelində Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal etdikdə, türk ictimaiyyəti və müxalifət partiyaları hökuməti qorxaqlıqda ittiham etməyə başladılar. Ermənistanı yerində oturtmağı tələb etdilər. Parlamentdə hətta Azərbaycana silah göndərilməsi tələbləri də səsləndirildi. TBMM iclasında çıxış edən deputatlar Kəlbəcərin işğalını Türkiyənin Ermənistana qarşı yumşaq siyasətinin nəticəsi kimi qiymətləndirdilər. Süleyman Dəmirəl və

**^ Ərdal İnönü Bakıda. - “Xalq qəzeti”, Bakı, 1992, 9 dekabr.**

**Sabit Bağırov (1948) - Azərbaycan Republikası Dövlət Neft Şirkətinin Prezidenti (1992-1993).**

**Bakı Ankaradan inciyə bilər. - “Xalq qəzeti”, Bakı, 1993, 3 fevral.**

**Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri), s.50.**

xarici işlər naziri Hikmət Çətin Ermənistanın təcavüzünü pislədilər. Kəlbəcərin işğalından sonra Türkiyə Ermənistan ilə sərhədlərini bağladı'^’^ Bu, Ermənistanın davam edən təcavüzünə, Türkiyədən tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımını tanıma, əsassız ərazi iddiaları və təzminat tələb etmək siyasətinə bir cavab idi. Türkiyəli tədqiqatçı Cem Oğuzun yazdığı kimi, Türkiyə Ermənistan ilə sərhədlərini bağlamaq qərarı ilə həm Ermənistanın Türkiyə ilə sərhədlərinin tanınmamasmdakı iddialı mövqeyinə, həm də Dağlıq Qarabağ münaqişəsində Azərbaycana qarşı təcavüzünə birmənalı cavab verdi’^^'*.

Əraziləri işğal edilsə də Azərbaycan tərəfi Türkiyəyə münaqişəyə silahlı müdaxilə etmək üçün heç bir zaman rəsmi müraciət etmədi'^^^. Türkiyə də Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq üçün təktərəfli müdaxilə etmədi'^’®.

1993-cü il aprelin 4-də Türkiyə Prezidenti Turqut Özal Orta Asiya dövlətlərinə və Azərbaycana səfərə çıxdığı gün Ankarada Esenboğa hava limanında Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əliyev Prezidentə və onu yola salan Baş Nazir Süleyman Dəmirələ, müdafiə naziri Doğan Güreş Paşaya, Prezidenti səfərdə müşayiət edən xarici işlər naziri Hikmət Çətinə müraciət edərək Kəlbəcərin işğalından sonra Füzuli və Ağdam kimi başqa bölgələrin də işğal təhlükəsi altında olduğunu bildirdi və təcili ciddi tədbirlərin görülməsini rica etdi. Cavab olaraq Turqut Özal “işğalçı Ermənistana dişimizi göstənnəliyik”, “Ermənistana 5-6 bomba düşsə, ağılları başlarına gələr” dedi. Bu fikirlər mətbuatda da yer aldı. Sərhədin bağlanması nəticəsində Türkiyə ərazisi üzərindən Avropadan Ermənistana göndərilən yardımların qarşısı kəsildi. Türk ordusu sərhəd bölgələrində hərəkətləndi. Bundan qorxuya düşən Ermənistan rəsmiləri Türkiyə sərhədinə yaxın ərazilərdən 40-a yaxın kəndin əhalisini Ermənistanın iç bölgələrinə köçürdülər. Turqut Özal səfər zamanı ilk ziyarət etdiyi Özbəkistanda “Ermə-

**^ Freddy De Pauw. Turkey’s policies in Transcaucasia. Bruno Coppieters, Contested Borders in the Caucasus. Brussels, VUB, 1996, p.l82.**

**Cem Oğuz. Azərbaycan beynəlxalq fokusda. - “Azerbaijan Focus”, Bakı, 2009, J4ol (1), s. 139-140**

**Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Ciltll. 1980-2001, s. 367.**

**Elekdağ Ş. Şaşkınhğın danıskası. - “Milliyet” gazetesi, İstanbul, 1993, 27 Hazıran.**

nistana dişimizi göstərməliyik" ifadəsini təkrar etdi, erməni işğalının qəbuledilməz olduğunu söylədi.

Yaranmış şəraiti və iki ölkə arasında münasibətlərin ən vacib məsələlərini müzakirə etmək üçün 1993-cü il aprelin 13-14-də Türkiyə Prezidenti Turqut Özal Azərbaycana səfər etdi. Keçirilən danışıqlarda ikitərəfli münasibətlərin inkişafı və Kəlbəcərin işğalından sonrakı vəziyyət müzakirə edildi. Türkiyə Ermənistanın Azərbaycana təcavüzünü pisləyir, işğal edilmiş ərazilərin boşaldılmasını istəyirdi. Turqut Özalın fikrincə, sülh niyyətlərinə qarşı çıxan Ermənistan və onu dəstəkləyən dövlətlər rüsvay olacaqdılar.

Aprelin 14-də Turqut Özal Azərbaycan parlamentində çıxış etdi. Həmin gün ona Bakı Dövlət Universitetinin fəxri doktoru diplomu təqdim olundu. Çıxışlarında o, Türkiyənin Azərbaycanı yalnız buraxmayacağmı, ərazilərin işğalım qınadıqlarını bildirdi.

Hələ səfər ərəfəsində Türkiyə ilə Azərbaycan arasında birgə müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilə layihəsi hazırlanmışdı. Belə bir sənədin imzalanacağı gözlənilirdi. Lakin sənəd imzalanmadı. Bunun əvəzində hərbi təhsil sahəsində əməkdaşlıq haqqında müqavilə bağlandı. Turqut Özalın fikrincə, münaqişəni hərbi ittifaq bağlayaraq zor gücünə həll etmək mümkün deyildi. Belə vəziyyət münaqişəni genişləndirə, ona digər dövlətlər də qoşula, hətta Yaxın və Orta Şərqdə böyük fəlakətlər yarada bilərdi. Bu isə həll deyil, qeyri-müəyyənlik yaradardı'^^^. Türkiyə münaqişənin ATƏM-in Minsk konfransı çərçivəsində həllinə üstünlük verirdi.

Azərbaycana səfərdən bir neçə gün sonra Turqut Özal vəfat etdi. Ölkə prezidenti vəzifəsinə Süleyman Dəmirəl seçildi. Türkiyə hökuməti iki ölkə arasında hərbi təhsil sahəsində əməkdaşlıq haqqında müqavilənin təsdiqini uyğun bildi'^'*. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq əlaqələrini möhkəmləndirmək, suverenlik, milli müstəqillik, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanaraq, mülki, ticarət və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsini, təqsirkarların qaytarılmasım və məhkum olunmuş şəxslərin verilməsini nizama salmaq istəyini rəhbər tutaraq mülki, ticarət və cinayət işləri üzrə

**Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana səfəri. - "Xalq qəzeti", Bakı, 1993, 16 aprel.**

**Azerbaycan ile imzalanan askeri eğitim işbirliği anlaşmasının onaylanmasmın uyğun bulunduğuna dair kanun. - T.C. Resmi gazete, Ankara, 1993,21 Nisan.**

qarşılıqlı hüquqi yardım göstərilməsi haqqında Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müqaviləni 1993-cü il sentyabrın 3-də təsdiq etdi'^™.

Ümumiyyətlə, 1991-1993-cü illərdə Türkiyənin Azərbaycan siyasətinin başlıca məqsədləri aşağıdakılar olmuşdur; Azərbaycanın tam və hüquqi müstəqilliyinin əldə edilməsi ilə Qafqazda həqiqi bir müttəfiq qazanmaq; Azərbaycanın vasitəsi ilə Orta Asiyanın türk dövlətləri ilə əlaqələr quraraq türk şüurunu gerçəkləşdirmək; Azərbaycanda İranın güclənməsinin və yenidən Rusiyanın təsir dairəsinə düşməsinin qarşısını almaq; Azərbaycanın və Orta Asiyanın türk dövlətlərinin Qərbə ixrac edəcəkləri neft boru kəməri üçün tranzit rolunu oynayaraq regionda güclü bir vəziyyətə gəlmək.

Həmin məqsədləri həyata keçirmək üçün Azərbaycan ilə Türkiyə arasında siyasi, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf etdirildi. Bir sıra sənədlər imzalandı'^*”. İki dövlət strateji tərəfdaşa çevrildi. Ölkələr arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində dövlət və hökumət xadimlərinin, iqtisadi məsələlər üzrə aidiyyətli qurumların rəhbərlərinin qarşılıqlı səfərləri, sahələr üzrə idarələrarası qurumların, müştərək komissiyaların iclasları davamlı şəkildə keçirildi. Beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə Azərbaycan ilə Türkiyənin mövqeləri çox yaxın idi və ya üst-üstə düşürdü. Tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparır, bir-birinə qarşılıqlı dəstək verirdilər.

Qeyd etmək lazımdır ki, həmin illərdə qarşılıqlı münasibətlərdə bəzi nöqsanlara da yol verilmişdi. Ona görə də Türkiyənin model olmağa çalışdığı Adriatikdən Böyük Çin səddinə qədər bütün türkləri birləşdirmək istəkləri bir xəyala döndü'^*'.

**"‘'^ARXINA. 1993.**

**1280 'pjjj-ı^jyg ijg cümhuriyetleri ve türk topluluklan arasında yapılan anlaşmalar, ilişkiler ve faaliyetler. I. Birinci kitab. 1990-1992. Ankara, 1993; I. İkinci kitab. 1990-1992. Ankara, 1993; I.İkinci kitab. 1990-1993. Ankara, 1993.**

**Türk dış politikası. Kurtuluş savaşından bugüne olgular, belgeler, yorumlar. Ciltll. 1980-2001, s. 372.**

## Azərbaycan - Türkiyə münasibətlərində yeni dövrün başlanması

Artıq qeyd edildiyi kimi, 1993-cü ilin iyun ayında görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi ilə Azərbaycan - Türkiyə ikitərəfli münasibətlərdə bir dövr başa çatdı'^*^. Yeni bir dövr başladı.

Türkiyə hökuməti Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın xarici siyasət xəttinin dəyişəcəyindən narahat idi. Lakin Süleyman Dəmirəl "Türkiyə ilə Azərbaycan arasında münasibətlər heç za- man pis ola, pozula bilməz" deyərək narahatlığa son qoydu . Yeni şəraitdə Türkiyə Azərbaycanın daxili işlərinə qarışmasa da, daxildə baş verən proseslərə, xarici siyasətdə atılan addımlara, xüsusən Ermənistanın davam edən təcavüzünə seyrçi də qalmadı'^*'*. Türk hökuməti işğalı dayandırmaq üçün diplomatik səylərini artırdı. Süleyman Dəmirəl iyulun 27-də Fransa Prezidenti Fransua Mitteran ilə keçirdiyi danışıqlarda Ermənistan üzərində təsirindən istifadə edərək işğal edilmiş Azərbaycan torpaqlarının boşaldılmasını istədi. Həmçinin Rusiya Prezidenti Boris Yeltsinə də məktub göndərərək Ermənistana təsir göstərməsini xahiş etdi'^*^. Bunlarla kifayətlənməyən Süleyman Dəmirəl sentyabrın 6-da Ermənistan Prezidenti Levon Ter-Petrosyan ilə telefonla danışaraq Azərbaycan ərazilərinin işğal edilməsinin Türkiyədə hiddətlə qarşılandığını bildirdi və işğala dərhal son qoyulmasını istədi. Cavabında Levon Ter- Petrosyan həmin hadisələrin Ermənistanın nəzarətindən çıxdığını, guya Dağlıq Qarabağ erməniləri tərəfindən həyata keçirildiyini bildirdi'"^^.

Türkiyə Ermənistanın təcavüzü gedişində ev-eşiklərini itirmiş azərbaycanlı qaçqın və məcburi köçkünlərin ağır vəziyyətinə də biganə qal-

**^ Tayfiın Atmaca. Yirminci yüzyılın sonunda Azerbaycan ve Türkiye münasebet- leri (1993-1999), s.l99.**

**Bütün silahlar düşmənə qarşı. - "Xalq qəzeti", Bakı, 1993, 2 iyul.**

**Heydər Əliyev; "Uzun-uzadı diplomatik danışıqlardan konkret işlərə". - "Xalq qəzeti", Bakı, 1993, 22 iyul.**

**Dəmirəl narahatlığını bildirmişdir. - "Xalq qəzeti", Bakı,1993, 30 iyul.**

**İslam Konfransı Təşkilatı ermənilərin Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb etmişdir. - "Xalq qəzeti", Bakı, 1993, 8 sentyabr.**

madı. 1993-cü ilin payızında Türkiyə Azərbaycanın Dağlıq Qarabağ regionundan qovulan məcburi köçkünlər üçün düşərgələr qurdu, onlara humanitar yardımlar etdi.

Ermənistanın hərbi təcavüzünün davam etdiyi bir şəraitdə Azərbaycan Türkiyə ilə məsləhətləşmələrini davam etdirirdi. Heydər Əliyev sent yabr ayının əvvəllərində Moskvada Türkiyənin Baş Naziri Tansu Çillər^ [1287] ilə görüşərək ikirətərfli və regional məsələləri müzakirə etdi. Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il 14 sentyabr tarixli iclasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər ilə Moskvada apardığı danışıqlar haqqında məlumatını dinləyərək bəyəndi'^**.

Bu zaman Azərbaycanın MDB-yə daxil olması haqqında Türkiyədə də müzakirələr aparılırdı. Türkiyə hökuməti Azərbaycanın MDB-yə daxil olduqdan sonra xarici siyasətinin necə qurulacağından narahat idi. Bəziləri Azərbaycanın Qərbdən ayrılaraq Rusiyaya yaxınlaşacağını düşünürdülər. Ona görə də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Türkiyədəki səfirliyə müvafiq izahat işlərini aparmağı tapşırdı. Xarici işlər naziri Həsən Həsənov sentyabrın 13-də Türkiyədəki səfir Məmməd Əliyevə məktub göndərərək Azərbaycanın demokratik inkişaf yolu seçdiyi barədə izahat işləri aparmaq və iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq üçün fəallıq göstərmək təlimatım verdi. Ölkədə baş verən siyasi proseslər barədə gündəlik operativ məlumatların verilməsi və əlaqələri daha da yaxşılaşdırmaq üçün təkliflər irəli sürülməsi tapşırıldı'^®^. Digər tədbirlər də həyata keçirildi. Türkiyə ilə Azərbaycan arasında mövcud olan əlaqələri dərinləşdirib yeni səviyyəyə qaldırmaq, Azərbaycanın dünya ictimaiyyətinə daha dolğun tanıdılması işində mədəni, elmi, humanitar əlaqələrin mühüm rolu olduğunu nəzərə alaraq, eyni zamanda erməni lobbisinin yaratdığı informasiya blokadasını yarmaq üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi təkliflər hazırlayıb 1993-cü il sentyabrın 17-də Tür-

**Tansu Çillər (1946) - Türkiyənin ilk qadın baş naziri (1993). Xarici işlər naziri (1996-1997).**

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillərlə Moskvada apardığı danışıqlar haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 14 sentyabr 1993-cü il. - ARXİN arxivinin materialları. 1993.**

**ARXINA. 13.09.1993-30.09.1993. Qovluq Ro22, v.115-116.**

kiyədəki səfirliyə göndərdi'^^°. Təkliflər elmi, ictimai, mədəniyyət, ədəbiyyat, kütləvi informasiya vasitələri və s. əlaqələrin genişləndirilməsini əhatə edirdi.

Lakin Türkiyənin Azərbaycanın inkişaf yolu ilə bağlı narahatlığı hələ də qalırdı. 1993-cü ilin noyabr ayında Ankaraya səfəri zamanı xarici işlər naziri Həsən Həsənovun nəzərinə Azərbaycanın Rusiya ilə yaxınlaşmasından Türkiyənin narahat olduğu çatdırıldı‘^^'. Həsən Həsənov isə Azərbaycanın xarici siyasət xətti barədə geniş danışdı, ölkəsinin demokratiya və azad bazar iqtisadiyyatı yolunu seçdiyini, Azərbaycanın hər hansı bir ölkə ilə münasibətlərini qurarkən yalnız öz milli maraqlarını güddüyünü bildirdi.

1994-cü ilin yanvar ayında Süleyman Dəmirəl Heydər Əliyevə məktub göndərərək iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi istəyini çatdırdı, onu Türkiyəyə rəsmi səfərə dəvət etdi. Dəvəti qəbul olundu. Azərbaycan tərəfi münasibətlərin geniş perspektivlərini öyrənərək təhlil etdi. Türkiyənin xarici siyasəti haqqında analitik təhlillər aparıldı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində hazırlanan “İran, Türkiyə və Orta Asiya” başlıqlı analitik yazıda qeyd olunurdu ki, Türkiyə Mərkəzi Asiyada əsas, həlledici rol oynamaq istəyir, o, mühüm iqtisadi yardım və geniş ticarətdən əlavə özünün türk modelini - Qərb demokratiyası əsasında islam ölkəsini dünyəvi xarakter ilə birləşdirən cəmiyyət modelini təklif edir. Bu model Tehranın islam inqilabı ixracından daha üstün idi. Mərkəzi Asiyada İran və Türkiyə rəqabət aparırdılar. Türkiyənin arxasında islam təməlçiliyinin Mərkəzi Asiyaya yayılmasından ehtiyat edən ABŞ və Qərb ölkələri dururdu‘^^^.

Geniş hazırlıq işlərindən sonra 1994-cü il fevralın 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə dörd günlük rəsmi səfər etdi'^®^. Türk mətbuat orqanları bu səfəri imic yaratmaq cəhdi kimi qiymətləndirirdi. Səfərə verilən qiymətlər heç də birmənalı deyildi. Məsələn, Ankaradakı Azərbaycan Mədəniyyət Mərkəzi bu səfərə soyuq yanaşırdı. Ona görə də xarici işlər naziri Həsən Həsənov Ankaradakı səfir Məmməd Əliyevə Azərbaycan Mədəniyyət Mərkəzində mütləq görüş

**ARXİNA. 13.09.1993-30.09.1993. Qovluq X222, v. 66.**
**Aslanh A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası,**

**S.148.**
**ARXİNA. 06.09.1994 - 07.11.1996. Qovluq Xo21, v.84-86. ARXİNA. 21.01.1994 -11.02.1994. Qovluq XsH, v. 15-17.**

keçirməyi, Azərbaycanın indiki siyasəti barədə söhbət aparmaq təlimatı verdi'^^"*. Təlimat yerinə yetirildi.

Səfərə xüsusi əhəmiyyət verən Azərbaycan Prezidenti jurnalistlərə müsahibəsində deyirdi: “Türkiyə Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkədir. Xalqlarımız arasında böyük tarixə malik dostluq, qardaşlıq əlaqələri var... Azərbaycan müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha da möhkəmlənmişdir. Lakin görüləsi işlər hələ çoxdur”'^^^.

Heydər Əliyevin Süleyman Dəmirəl və digər rəsmi şəxslərlə keçirdiyi danışıqlarda iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri, regional problemlər, Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü haqqında məsələlər müzakirə edildi. Azərbaycan tərəfi münaqişənin dinc yollarla həllini, bu məsələdə böyük dövlətlərdən və Minsk qrupundan dəstək istəyirdiAzərbaycanın birinci problemi Ermənistan tərəfindən ərazilərin işğalı idi. Azərbaycan Prezidentinin fikrincə, ötən illərdə Azərbaycanın daxilində baş verən siyasi çəkişmələr Ermənistanın işinə yaramış, ölkənin 20 % ərazisi işğal edilmiş, təsərrüfat həyatı pozulmuşdu. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə Türkiyə tərəfi danışıqlar zamanı tam dəstək verdi. Azərbaycan Prezidentinin Türkiyədən 100 min ton taxıl almaq xahişini türk hökuməti yerinə yetirdi.

Danışıqlarda Heydər Əliyev Azərbaycanın məqsədinin çoxpartiyalı demokratiya olduğunu, konkret olaraq ölkədə 600 qəzetin nəşr edildiyini vurğuladı. Azərbaycanda guya PKK-ya yardım edilməsi xəbərlərini böhtan adlandırdı.

Fevralın 9-da Türkiyə Böyük Millət Məclisində nitq söyləyən'^®’ Azərbaycan Prezidenti ölkəsinin keçdiyi yol üzərində dayandı, iki xalq arasında əlaqələrin tarixinə diqqət yetirdi və dedi: “Türkiyə və Azərbaycan arasında əlaqələrin böyük tarixi var. Biz kökü bir olan xalqıq. Bizim

**ARXİNA. 27.01.1994-08.02.1994. Qovluq XeM, v. 99.**

**Əliyev H.Ə. Türkiyə Cümhuriyyətinə rəsmi səfərə yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 8 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, S.358.**

**Aliyev’in Ankara çıkarması. - “Zaman” gazetesi, İstanbul, 1994, 4 Şubat. Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisində nitq. 9 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.365-373; Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev’in, Türkiye - Azerbaycan dostluğuna ilişkin Genel Kurula hitaben konuş- ması. - T.B.M.M. Tutanak dergisi. Cilt 53. 69. birleşme. 9.2.1994, s. 14-22; Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev TBMM Genel Kurulu’nda konuştu. - TBMM aylık bülteni, Ankara, 1994, Şubat, s. 11.**

tariximiz bir, dilimiz bir, dinimiz birdir... Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər. Azərbaycan ilə Türkiyə arasında əlaqələri dostluq, qardaşlıq əlaqələri adlandırmışlar. Bu əlaqələr bir xalqdan, bir kökdən gələn xalqların əlaqələridir”'^^*.

Daha sonra Heydər Əliyev Ermənistanın təcavüzü və onun nəticələri üzərində dayandı. Münaqişənin həllində Azərbaycanın mövqeyini geniş izah etdi.

Fevralın 9-da iki ölkə arasında müxtəlif sahələri əhatə edən 16 sənəd imzalandı'^^’. Azərbaycan ilə Türkiyə arasında 19 maddədən ibarət dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilədə’*"' tərəflərin çoxlu sahələrdə əməkdaşlığı nəzərdə tutulmuşdu.

Səfər zamanı imzalanan iki ölkə arasında sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında müqaviləni Türkiyə Cümhuriyyəti Nazirlər Şurası 1997-ci il 21 mart tarixli qərarı ilə təsdiq etdi’*'".

İmzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Bu sənədlər iki ölkə arasında münasibətlərin müqavilə-hüquq bazasını möhkəmləndirirdi. Sənədlərin imzalanma mərasimində etdiyi nitqində Heydər Əliyev deyirdi: “...Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir. Bu mərhələ əvvəldən indiyədək görülmüş işlərin üzərində qurulur”’* *, “hazırlanmış sazişlər, müqavilələr, anlaşmalar tarixi sənədlərdir və bizim gələcək əlaqələrimiz üçün yeni yollar, yeni cığırlar açır”’*"*.

Azərbaycan Prezidenti səfər zamanı Türkiyənin elm dairələrinin, Ankarada akkreditə olunmuş xarici ölkələrin səfirləri və diplomatik

**Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisində nitq. 9 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 366.**

**Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Tərtibçilər: Nazim İbrahimov, İbrahim Şükürov. Bakı, 1994, s. 82.**

**Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə. - Müqavilələr toplusu. I cild, s.24- 28.**

**1301 'pQj.p.jyg Cumhuriyeti ile Azerbaycan Cümhuriyeti arasında yatırımların karşı- lıkh teşviki ve korunması anlaşmasının onaylanması. 21.03.1997. - T.C. Resmi gazete, 1997, 26 Mayıs.**

**Əliyev H.Ə. Türkiyə — Azərbaycan sənədlərinin imzalanması mərasimində nitq. 9 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir, İ kitab s.374.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə birinci rəsmi səfəri. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, 2005, S.58.**

heyətlərinin nümayəndələri ilə görüşərək Azərbaycanın daxili ictimai- siyasi vəziyyəti, xarici siyasəti və Ermənistanın təcavüzünün nəticələri barədə danışdı, ölkəsinin mövqeyini şərh etdi'^®".

Türkiyənin iş adamları ilə görüşdə bəzi türk iş adamlarının Ermənistanın hərbi təcavüzü və siyasi sabitsizlik səbəbindən Azərbaycana sərmayə qoymağa ehtiyatla yanaşmasına diqqəti çəkən Heydər Əliyev müharibənin daim davam etməyəcəyini, daxili siyasi sabitsizliyin müvəqqəti olduğunu bildirdi. Azərbaycanın müstəqilliyinin təmin ediləcəyini, Azərbaycan xalqının sərvətlərinə sahib olduğunu və sahib olacağını, gündən-günə ölkədə sabitliyin qurulacağını vurğuladı. Türk iş adamlarını sərmayə qoymağa gecikməməyə çağırdı. Ölkəsinin zəngin təbii sərvətləri olduğunu qeyd edən Azərbaycan Prezidenti Türkiyə ilə əməkdaşlığı genişləndirmək arzusunu bildirdi.

Görüşdə çıxış edənlər Bakı şəhərinin yalnız Xəzər dənizi deyil. Orta Asiyaya açılmaq baxımından da əhəmiyyətli olduğunu vurğula- **dılar'^“^**

Heydər Əliyev Türkiyədə yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdü, kütləvi informasiya vasitələrinin nümayəndələrinin suallarına cavab verdi.

Səfərin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Azərbaycan Prezidentinin Türkiyəyə etdiyi bu ilk səfər zamanı iki ölkə arasında münasibətlərdə olan bəzi anlaşmazlıqlar aradan qaldırıldı, Türkiyədə Azərbaycanın inkişaf yolu barədə aydın təsəvvür yarandı. İmzalanan sənədlər qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasını möhkəmləndirir, daha da inkişaf etdirilməsinə əsas verirdi.

Səfərdən sonra əməkdaşlıq daha da genişləndi. 1994-cü ilin aprelin sonlarında xarici işlər naziri Hikmət Çətin Azərbaycana qısa müddətli səfər edərək Ermənistanın iri miqyaslı hücumlarının qarşısını almaq məsələlərini müzakirə etdi. Görüşdən sonra Türkiyə hökuməti Minsk qrupunun üzvü olan ölkələrə və beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın təcavüzünü dayandırmağa çağırdı.

Az müddət keçmiş, artıq qeyd edildiyi kimi, may ayında Rusiyanın vasitəçiliyi ilə cəbhə xəttində atəşkəs elan edildi. Türkiyə atəşkəsi normal

**Əliyev H.Ə. Ankarada dünya ölkələrinin Türkiyədəki səfirləri və diplomatik heyətlərinin üzvləri ilə görüşdə çıxış. 9 fevral 1994-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s.383-385.**

**Azerbaycan Cumhurbaşkanı Aliyev’den türk işadamlarına çağrı: Üikemize yatırım yapın. - “Zaman” gazetesi, İstanbul, 1994, 11 Şubat.**

qəbul etdi. Lakin Türkiyənin bəzi dairələri Ermənistanın Azərbaycana təcavüzünə bilavasitə ölkənin təhlükəsizliyi baxımından yanaşırdılar. Məsələn, Türkiyə Cümhuriyyəti silahlı qüvvələri quru qoşunlarının komandanı Atilla Ateşin'^®^ yazdığına görə, Dağlıq Qarabağ müharibəsinin davam etməsi Türkiyənin məqsədlərinin həyata keçirilməsinə mane ola bilər, Rusiyanı Cənubi Qafqaza qaytarar, İranı regiona cəlb edər, daha böyük bir müharibə olardı. Müharibədən istifadə edərək Azərbaycanı parçalaya bilərdilər. Türkiyə münaqişəyə hərbi müdaxilə edərdisə, MDB ölkələri ilə üzbəüz qala bilərdi. Türkiyə Cənubi Qafqazda şəraiti təkbaşına dəyişdirə bilməz, yalnız ikinci dərəcəli rol oynaya bilərdi^^”^.

Atəşkəsin elan edilməsi ilə regionda yeni bir şərait yarandı. 1994-cü il iyunun 9-10-da Heydər Əliyev Türkiyəyə qısamüddətli işgüzar səfər etdi'^°*. Səfərinin məqsədləri barədə o deyirdi: “Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə, bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız var”'^°^. Azərbaycan Prezidentinin fikrincə, səfərdə əsas məqsəd iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi, bir sıra məsələlərin həllinin sürətləndirilməsi idi'^'°.

Bu səfər ilə eyni vaxtda Türkiyədə bir neçə toplantı da var idi. İstanbulda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında dəniz yataqlarının birgə işlənməsinə dair danışıqlar aparılır və Şimali Atlantika Əməkdaşlıq Şurasının iclası keçirilirdi.

Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəl, Baş Nazir

Tansu Çillər, Baş Nazirin birinci müavini Murad Karayalçın , xarici işlər naziri Hikmət Çətin, İstanbulda keçirilən NATO tədbirində iştirak

**° Atilla Ateş (1937) - Türkiyə hərbçisi. Quru qoşunları komandanı (1998- 2000).**

**Atilla Ateş. Dünya meselelerinin kesişme noktasında Türkiyenin stratejik ko- numu, s. 55-60.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə birinci işgüzar səfəri. 9-10 iyun 1994-cü il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s.86-89.**

**Əliyev H.Ə. Türkiyə Cümhuriyyətinə qısamüddətli işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. - Müstəqilliyimiz əbədidir. II kitab, s.l5.**

**Əliyev H.Ə. Türkiyədən vətənə qayıdarkən İstanbulun Atatürk hava limanında jurnalistlər üçün brifinqdə bəyanat. - Müstəqilliyimiz əbədidir. II kitab, s.l9.**

**Murad Karayalçın (1943) - Türkiyə siyasətçisi. Baş Nazirin müavini (1993- 1995).**

edən ABŞ dövlət katibi Uorren Kristofer, Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herd, İsveçin xarici işlər naziri Marqareta af Uqlas, Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın xarici işlər naziri Karalos Papu- lias’^'^ ilə keçirdiyi görüşlərdə Azərbaycanın mövcud ağır vəziyyətindən çıxış yolları, müharibəyə son qoyulması, məsələnin sülh yolu ilə həll olunması barədə fikir mübadiləsi apardı. Bu ölkələr Dağlıq Qarabağ münaqişəsinin yalnız dinc vasitələrlə, ATƏM-in Minsk qrupu çərçivəsində həllinə tərəfdar çıxırdılar.

Səfərdən sonra iki ölkə arasında münasibətlərdə dinamizm artdı. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1994-cü il fevralın 9-da Ankara şəhərində imzalanmış protokol Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 1994-cü il iyunun 14-də təsdiq edildi'^’^. Bu tarixdə həmçinin Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə imzalanmış müqavilə'^"* və b. təsdiq edildi.

Bu zaman Ermənistan Prezidenti Levon Ter-Petrosyan Türkiyə ilə diplomatik əlaqələr qurmaq arzusunda olduğunu bəyan etdi. “Ankaranın Yerevan ilə diplomatik əlaqələr qurması əvəzində işğal etdikləri Azərbaycan torpaqlarından çəkiləcəkləri” barədə Ter-Petrosyanm Türkiyənin Baş Naziri Tansu Çillərə gizli xəbər göndərdiyi yayıldı. Azərbaycanın İstanbuldakı baş konsulu Abbas Abdulla “Yeni Günaydm” qəzetinə verdiyi müsahibəsində “Çillər Petrosyanın bu oyununa getməz” deyərək əlavə etdi ki, Levon Ter-Petrosyan bu günə qədər dünya ictimaiyyətinə Ermənistanın Azərbaycan torpaqlarına girmədiyini, Qarabağ ermənilərinin savaşdığını, “bu müharibənin Azərbaycanın daxili problemi” olduğunu

**Karalos Populias (1929) - Yunanıstan siyasətçisi. Xarici işlər naziri (1985- 1989). Prezident (2005-ci ildən)**

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Milli Məclsinin qərarı. Bakı şəhəri, 14 iyun 1994-cü il. JÇg 821. - ARXİNA. 1994.**

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. Bakı şəhəri, 14 iyun 1994-cü il. JVa 823. -ARXİNA. 1994.**

söyləyirdi. İndi isə işğal altındakı Azərbaycan torpaqlarından çəkilə biləcəklərini vəd edərək Ermənistanın işğalçı dövlət olduğunu isbat edir”’^’^

“Hürriyet” qəzetinin 1994-cü il 7 sentyabr tarixli sayında dərc edilən məlumata görə, Baş Nazir Tansu Çillər Yerevanda nəşr edilən “AZQ” qəzetinə verdiyi müsahibəsində’^'^ demişdi: “Azərbaycandan çıxması və 1 milyon azərbaycanlının evlərinə qayıtmalarına imkan verilməsi halında Ermənistanla diplomatik əlaqələr ilə birlikdə hər cür əlaqələr qurmağa hazırıq. Ermənistandan gözlədiyimiz yeganə şey - beynəlxalq prinsip və normalara hörmət etməsi, Azərbaycan sərhədlərinin dəyişməzliyini və torpaq bütövlüyünü tanımasıdır. Əgər Ermənistan bu prinsiplərə riayət edər və Azərbaycan torpaqlarının işğalına son qoyarsa, Türkiyənin qonşusu olan bu ölkə ilə münasibətlərimizin normal şəkildə inkişaf etməsinin önündə heç bir əngəl qalmaz”. Ermənistan ilə Azərbaycan arasında əldə ediləcək sülhün regionun təhlükəsizliyi və inkişafına yardım edəcəyini bildirən Baş Nazir müharibənin sona çatmasının Orta Asiya neftinin Türkiyə - Azərbaycan neft boru kəməri xətti ilə Aralıq dənizinə çıxmasına fürsət verəcəyini, Türkiyənin boru xəttinin Ermənistan ərazisindən keçməsindən narahat olmayacağını bildirmişdi.

Türkiyə rəsmi dairələrində Azərbaycan ilə bağlı ən çox müzakirə edilən məsələlərdən biri atəşkəs elan edildikdən sonra münaqişə bölgəsinə sülhməramlı qüvvələrin yerləşdirilməsi idi. Tansu Çillər türk hərbi müşahidəçilərinin ATƏM-in sülhməramlı qüvvələri tərkibində münaqişə bölgələrinə göndərilməsi üçün qərar verilməsi barədə TBMM-ə müraciət

etdi . Lakin bu məsələyə dair bir qərar qəbul edilmədi . Ümumiyyətlə, münaqişə bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilmədi.

Atəşkəs elan edildikdən sonra Azərbaycanda yaranmış vəziyyəti, imzalanacaq neft müqaviləsinə dair məsələləri müzakirə etmək üçün 1994-cü il sentyabrın 10-11-də Türkiyənin xarici işlər naziri Mümtaz Soysal Azərbaycana gəldi’^’^. Türkiyə hökuməti Azərbaycan ilə Ermənistan arasında atəşkəsin elan edilməsindən və Bakıda imzalanacaq neft müqaviləsindən razı idi.

---

**Çillər, Petrosyanın oyununa getmez. - ‘Yeni Günaydın” gazetesi, İstanbul, 1994, 19Eylül.**

**ARXİNA. 26.05.1994-15.06.1994. Qovluq NeS, v.159-160.**

**ARXİNA. 26.05.1994 - 15.06.1994. Qovluq XsS, v.203.**

**ARXİNA.. 26.05.1994-15.06.1994. Qovluq NsS, v.204.**

**'^'^Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyə. Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1 kitab, s. 152.**

Səfərdən bir neçə gün keçmiş qarşılıqlı münasibətlərə təsir edən mühüm bir hadisə baş verdi. 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan - Türkiyə münasibətlərinin yeni səviyyəyə qalxmasında mühüm rol oynadı. Türkiyə tərəfdən müqaviləni imzalayan dövlət naziri N.Cevheri’^^° onun hər iki dövlət üçün kəsb etdiyi əhəmiyyəti vurğuladı. “Əsrin müqaviləsi” imzalanan gün Türkiyənin xarici işlər naziri Mümtaz Soysal müsəlman ölkələrinin Ankaradakı səfirləri ilə görüşərək onlara “Əsrin müqaviləsi” barədə məlumat verdi. Bu uğur münasibəti ilə Azərbaycanı təbrik etdi'^^‘.

“Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan - Türkiyə əməkdaşlığında yeni imkanlar açırdı. Azərbaycanın Ankaradakı səfiri Məmməd Əliyev oktyabrın 10-da Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi İsmayıl Haqqı Karadayı'^^^ ilə görüşərək Azərbaycan ilə imzalanmış müqavilələr çərçivəsində görülə biləcək işləri müzakirə etdi. Baş qərargah rəisi Prezident Heydər Əlyevin Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və əmin-amanlığı yolunda fəaliyyətini bəyənir və yüksək qiymətlən- **dirirdi'^^l**

Belə bir vaxtda, 1994-cü il oktyabrın 18-19-da İstanbulda keçirilən türk dövlət başçılarının li zirvə toplantısı Azərbaycan - Türkiyə münasibətlərinin inkişaf göstəricilərindən biri oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tədbirdə iştirak edirdi.

Zirvə görüşünün keçirilməsini bəzi qonşu ölkələr narahatlıqla qarşıladılar. Rusiyadakı müəyyən qruplar Türkiyənin türk dövlətləri ilə yaxınlaşmasından narahat olur, onların təbirincə, guya pantürkist cizgilər daşıyan zirvə görüşünə zərərli baxırdılar. Diplomatik dairələrdə zirvə görüşü iki baxımdan qiymətləndirilirdi. Tarixi, mədəniyyət və digər baxımlardan bir-birinə yaxın olan ölkələr arasında belə bir zirvəni Rusiya normal qarşılayırdı. Lakin bu ölkənin tək narahatlığı zirvənin millətçi bir toplantıya çevrilməsi barədə ehtimallar idi'^^'*. Rusiya Türkiyəni regional məsələlərə yanaşmada təbii tərəfdaşı kimi görür, lakin iş millətçiliyə keçdikdə

**Nəcməddin Cevheri (1930) - Türkiyənin dövlət xadimi. Turizm və tanıtma naziri (1969-1971). Ədliyyə naziri (1977-1978). Əkinçilik və kənd təsərrüfatı naziri (1991-1993).**

**ARXINA. 29.08.1994-11.10.1994. Qovluq JÇo21, v.79.**

**İsmayıl Hakkı Karadayı (1932) - Türkiyə Silahlı Qüvvələrinin 22-ci baş qərargah rəisi (1994-1998).**

**ARXİNA. 26.05.1994-15.06.1994. Qovluq XaS, v.65.**

**Rusya’da zirve endişesi. -“Milliyet” gazetesi, İstanbul, 1994, 18 Ekim.**

mövqeyi dəyişirdi'^^^. Həm Şimali Qafqazdan, həm də türk respublikalarından Türkiyəyə gələn nümayəndə heyətlərinin sayının artması, Xəzər dənizinin Azərbaycan sektorundakı neftə dair Qərb şirkətləri ilə imzlanan müqavilə, nüfuz dairəsi hesab etdiyi keçmiş sovet respublikalarında digər dövlətlərin, xüsusən mədəniyyət, dil və tarix baxımından yaxın olan Türkiyənin təsirinin artması Rusiyanı narahat edirdi.

Lakin bu narahatlığın əsası yox idi. Çünki zirvə görüşündə türk dövlətlərinin tarixi keçmişi, ənənələri ilə bağlı həm mədəni, elmi, təhsil, tarixi məsələlər, eyni zamanda dövlətlərin müasir dövrdə əməkdaşlığı, beynəlxalq aləmdə gedən proseslər müzakirə olunur, fikir mübadiləsi apa- **rılırdı'^^^**

Zirvə görüşünü açan Süleyman Dəmirəl tədbirin məqsədinin başqa bir ölkəyə qarşı yönəlmədiyini deyərək vurğuladı: “Düşmənçilik yox, dostluq və sülh var. Narahat olmağa əsas yox. Kimsəyə düşmənçilik və cəbhə açmaq müzakirə mövzusu deyil. Narahat olmaq və həssasiyət gərəksizdir.”

Toplantıda türk dövlətləri arasında əməkdaşlığın müxtəlif sahələrinin inkişafı məsələləri müzakirə edildi. Birinci zirvə görüşündən ötən müddət ərzində türk dövlətləri arasında ikitərəfli əməkdaşlıq xeyli genişlənmişdi. Türk şirkətlərinin Azərbaycanda həyata keçirdiyi layihələrin dəyəri 500 milyon dollar idi’^^’.

Çıxış edən Azərbaycan Prezidenti türk xalqları arasında əlaqələrin tarixinə qisa nəzər yetirdi, dövlət müstəqilliyinin bərpasından keçən dövrdə Azərbaycanın bu ölkələrlə əlaqələrinin qurulması və inkişafına diqqəti yönəltdi, Ermənistanın təcavüzünün nəticələri və münaqişənin həllinə dair Azərbaycanın mövqeyini bəyan etdi'^^*. Heydər Əliyev deyirdi: “...zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni, bizim türk mənşəli, türk dilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlan-

**Rusya’yı korkudan zirvə. - “Milliyet” gazetesi, İstanbul, 1994, 18 Ekim.**
**1326 dövlətləri başçılarının II zirvə toplantısı (Oktyabr, 1994, İstanbul) . - Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 368-384.**
**™ İşbirliğinde gelişme. - “Milliyet” gazetesi, İstanbul, 1994, 19 Ekim.**
**Əliyev H.Ə. Türk dövlətləri başçılarının 2-ci zirvə toplantısının açılışında nitq. 18 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.400-406.**

dırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm”'^^®. Onun fikrincə, zirvə görüşü Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirəcəkdi. Azərbaycan Prezidentinin müstəqilliyin möhkəmləndirilməsi ilə bağlı söylədiklərinə reaksiya verən Moskvada çap edilən “Kommersant” qəzeti yazırdı ki, Əliyev kimdən müstəqil olmağı nəzərdə tutur.

Zirvə görüşündə nüfuz deyil, əməkdaşlıq təminatı verilməsinə baxmayaraq, Rusiya Xarici İşlər Nazirliyi “İstanbulda etnik təmələ dayanan bir zirvənin Rusiyanı narahat etməməsi düşünülə bilməz. Türkiyə xətalı addım atır”'^^' deyə mövqeyini bildirdi.

Əlbəttə, belə mülahizələrin heç bir əsası yox idi. Türk dövlətləri və xalqları arasında əlaqələr dünyada gedən inteqrasiya proseslərinin tərkib hissəsi idi və digər dövlətlərə qarşı yönəlməmişdi. Azərbaycan Respublikasının Prezidenti söylənən iddialara cavab olaraq belə toplantıların keçirilməsi üçün kimsədən icazə almalı olmadıqlarını bildirdi. O, türk dövlətləri arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd edərək “zirvəyə həvəslə gəldik. Daha da yaxınlaşırıq” dedi‘^^^.

Məsələyə münasibət bildirən Süleyman Dəmirəl vurğuladı: “Nəzakət qaydalarını pozmaq istəmirəm, ancaq Türkiyənin və zirvəyə qatılan Orta Asiya ölkələrinin müstəqil olduqlarını xatırlamamız gərəkdir”.

Türkmənistan Prezidenti Saparmurad Niyazov “siyasi bir məqsədlə başqa bir qrupa zərər verməyi düşünmürük”, Qazaxıstan Prezidenti Nur- sultan Nazarbayev “gələcəyimiz əməkdaşlıqdadır”, Özbəkistan Prezidenti İslam Kərmiov isə “BMT və ATƏM prinsiplərinə uyğundur” dedilər

**Əliyev H.Ə.Türk dövlətləri başçılarının 2-ci zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə.**
**18 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.399.**

**Cenk Başlamış. Ruslar Aliyev’e çatdı. - “Milliyet” gazetesi, İstanbul, 1994, 20 Ekim.**

**Sami Kohen. Türk - rus duellosu. 2. türk zirvesi toplandı, Rusya ayağa kalktı ve Ankara’yı beyin yikamakla suçaldı. - “Milliyet” gazetesi, İstanbul, 1994,**
**19 Ekim.**

**Aliyev: Moskovo’ dan izin almayız . - “Milliyet” gazetesi, İstanbul, 1994,**
**19 Ekim.**

**Moskova’ya altı cevap. Türk zirvesinə tavır koyan Rusya’ya altı cumhurbaş- kanı hep bir ağızdan karşıhk verdi. - “Milliyet” gazetesi, İstanbul, 1994,**
**20 Ekim.**

Türkiyənin xarici işlər naziri Mümtaz Soysal da toplantının qonşu ölkələr ilə əlaqələrin pozulması deyil, yaxşılaşması üçün təşkil edildiyini vurğuladı, “bizim heç bir zaman pantürkist, turanist əməllərimiz yox-
dur”"^34

Zirvə görüşündə Heydər Əliyev Orta Asiya dövlətlərinin Azərbaycana əvvəlki illərdə olmuş soyuq davranışlarının aradan qaldırılması üçün səylər etdi. Bu işdə Süleyman Dəmirəl də ona kömək göstərdi.

Heydər Əliyev toplantının diqqətini Azərbaycandakı qaçqınlar və məcburi köçkünlər probleminin, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəltdi’^^^.

Zirvə görüşünün yekununda 24 maddədən ibarət İstanbul bəyannaməsi qəbul edildi’^^^. Bəyannamədə Ermənistan - Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə uyğun olaraq dinc yolla həllinin vacibliyi qeyd edilir, təbii qaz və neft boru kəmərinin Türkiyə ərazisindən keçərək Avropa və Aralıq dənizinə çıxarılması istiqamətində səylər dəstəklənir, türk dövlətləri arasında əməkdaşlığın vacibliyi və s. məsələlər qeyd edilirdi.

İmzalanma mərasimində nitq söyləyən Heydər Əliyev Azərbaycanın türk dövlətləri ilə əlaqələrin inkişafına tərəfdar olduğunu və bəyan- naməni bu istiqamətdə yeni bir addım kimi qiymətləndirdi . Azərbaycan Prezidenti zirvə görüşlərinin davam etdirilməsini vacib sayırdı.

Zirvə görüşünün böyük əhəmiyyəti var idi. Görüş türk xalqları arasında əhəmiyyətli hadisə olub, əlaqələrin möhkəmləndirilməsində bir vasitə idi. Dövlət başçıları türk dövlətləri arasında əsasən elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyətini müzakirə edərək, perspektivlərini müəyyənləşdirdilər.

Artıq qeyd edildiyi kimi, 1994-cü ilin oktyabr ayında Azərbaycanda dövlət çevrilişi cəhdi baş verdi. Türkiyə mətbuatında bu hadisə geniş işıqlandırıldı. Məsələn, “Tərcüman” qəzetinin 30 noyabr tarixli sayında

**Zirveden rahatsız olmasınlar. - “Milliyet” gazetesi, İstanbul, 1994, 19 Ekim.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ikinci işgüzar səfəri. 18-19 oktyabr 1994-cü il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s.l 10-127.**

**İstanbul bildirişi. - “Milliyet” gazetesi, İstanbul, 1994, 20 Ekim.**

**Türk dövlət başçılarının 2-ci zirvə toplantısında qəbul edilmiş İstanbul bəyannaməsinin imzalanma mərasimində çıxış. 19 oktyabr 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.407-409.**

**Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s.l 10-127.**

dərc edilən “Heç kim Azərbaycanda çevriliş edə bilməz” adlı məqalədə çevriliş cəhdlərinin uğursuz olduğu, dövlətin gücləndiyi vurğulanırdı'^^’.

Türkiyə Azərbaycanın sabit inkişafında maraqlı idi. Bütün bunlar Türkiyənin xarici siyasətində Azərbaycanın mühüm yer tutduğunu göstərirdi. Azərbaycan neftindən Rusiyaya 10%, Türkiyəyə isə 1,75% pay verilməsi türk mətbuatında geniş şərh edilirdi. Türkiyə Azərbaycan neftin- dəki payının artırılmasında maraqlı idi. “Yeni Günaydm” qəzeti 1994-cü il 23 noyabr tarixli sayında Ferruh Sezginin Azərbaycan haqqında bir yazısını dərc etmişdi. Məqalədə gündəlikdə duran neft məsələsi ilə əlaqədar fikirlər əsasən iki nöqtədə cəmləşmişdi. Birincisi, müəllif yazırdı ki, guya açıq şəkildə bildirilməsə də, Türkiyənin Azərbaycana qarşı bir növ müstəmləkə siyasəti yeritməsi azərbaycanlıları yaralamışdır. Türkiyə hökumətinin daima neft, neft deməsi ilə yanaşı, bir milyondan çox qaçqın və məcburi köçkünün taleyinə biganə qalması, yeni-yeni yardımların göndərilməsi yerinə açılmış kreditlərin dondurulması siyasəti Azərbaycan tərəfindən heç də müsbət qarşılanmır. İkincisi, Qarabağ münaqişəsinin həlli ilə əlaqədar olaraq fransız Aleksandr Adler'^"® və amerikalı Pol Qobl’^'" tərəfindən ortaya atılmış Laçın dəhlizinin ermənilərə, əvəzində isə Zəngəzur dəhlizinin azərbaycanlılara verilməsi formulası Azərbaycan tərəfindən mənfi qarşılandığı halda, Türkiyə həmin formulam müsbət qarşılamış- dır'^'“l

Yanlış mülahizələrlə dolu məqalə ilə tanış olan Ankaradakı Azərbaycan səfirliyi etirazını bildirdi. Etiraz bəyanatının çapını tələb etdi. Qəzetdə səfirliyin bəyanatı çap edildi'^'^^

Belə bir şəraitdə, noyabrın 28-də Türkiyənin xarici işlər naziri Mümtaz Soysal vəzifəsindən istefa verdi. Onun yerinə müvəqqəti olaraq Murad Karayalçın təyin edildi’^'*'’.

Bu zaman TBMM sədri Hüsaməddin Cindorukun Azərbaycana rəsmi səfərinə hazırlıq işləri görülürdü. Dekabrın 15-də o. Ankaradakı

**ARXINA. 14.10.1994-31.12.1994. Qovluq JSaZl, v.73-75.**

**Aleksandr Adler (1950) - Fransa tarixçisi, jurnalisti. SSRİ və Yaxın Sərq ölkələrinin geosiyasəti üzrə ekspert.**

**Pol Qobi (1949) - ABŞ təhlilçisi, Rusiya, Avrasiya və xalq diplomatiyası üzrə ekspert.**

1342 **ARXINA. 26.05.1994 -15.06.1994. Qovluq XsS, v.23.**

1343 **ARXINA. 26.05.1994-15.06.1994. Qovluq XsS, v.lOO.**

**ARXINA. 14.10.1994-31.12.1994. Qovluq X22I, v.87-90.**

Azərbaycan səfiri Məmməd Əliyevi dəvət edərək, səfər proqramım və müzakirə ediləcək məsələlərə dair fikir mübadiləsi apardı'^" .

1994-cü il dekabrın 26-28-də Hüsaməddin Cindoruk Azərbaycana rəsmi səfər etdi. Parlamentdə görüşlər keçirən Hüsaməddin Cindoruk əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi apardı. İki ölkənin parlamentləri arasında əməkdaşlığa dair sənəd imzalandı.

TBMM sədrini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Görüşdə neft konsorsiumunda Türkiyənin payının 5%-ə qədər artırılması barədə razılıq əldə edildi.

Səfər zamanı müzakirə edilən məsələlərə dair fikir birliyinin əldə edilməsi əhəmiyyətli idi. Xəzər dənizinin Azərbaycan sektorundan hasil edilən neftdə Türkiyənin payının artırılması barədə razılıq türk cəmiyyətində müsbət qarşılandı. “Hürriyət” qəzeti 1994-cü il 27 dekabr tarixli sayında yazırdı ki, Azərbaycan Prezidenti Heydər Əliyev bu barədə söz vermişdir'^'**’.

Qəzetin 29 dekabr tarixli sayında da “Azərbaycanın neft vədi” adlı məqaləsində Hüsaməddin Cindorukun səfəri zamanı neft kontraktında Türkiyənin payının artırılması məsələsinin müzakirə edildiyi. Heydər Əliyevin Türkiyənin payının 5% artırılmasını vəd etdiyi vurğulanırdı'^'*’. Hüsaməddin Cindorukun fikrincə, Türkiyə - Azərbaycan münasibətləri yüksək səviyyədə idi. Həm o, həm Süleyman Dəmirəl, həm Baş Nazir Tansu Çillər, həm də xarici işlər naziri Murad Karayalçm Azərbaycana münasibətdə belə bir ümumi fikrə gəlmişdilər ki, Azərbaycan Respublikası Heydər Əliyevin rəhbərliyi altnda tam rifaha çatacaqdır.

Hüsaməddin Cindorukun səfəri ilə təxminən eyni vaxtda Çeçenistan hadisələrini əsas gətirərək Rusiyanın Azərbaycan və Gürcüstan ilə sərhədlərini bağlaması Azərbaycanda ağır sosial-iqtisadi vəziyyət yaratdı. Yaranmış şəraitdə Türkiyə mövqeyini açıq şəkildə bəyan etdi. Xarici işlər naziri Murad Karayalçm dekabrın 27-də Türkiyə Böyük Millət Məclisində etdiyi çıxışında birmənalı olaraq dedi: “Biz dost və qardaş Azərbaycan xalqına hər cür yardımı göstərməkdə davam edəcəyik”'^'**.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təlimatına uyğun olaraq Türkiydəki Azərbaycan səfirliyi yaranmış vəziyyətlə bağlı geniş iş

**‘ A R X İ N A . 14.10.1994-31.12.1994. Qovluq Xo21, v.46.**

**Azerbaycandan neft sözü. - “Hürriyet” gazetesi, İstanbul, 1994, 29 Aralık; ARXİNA.26.05.1994-15.06.1994. Qovluq XsS, v.63.**

[1347] **ARXINA. 26.05.1994-15.06.1994. Qovluq NaS, v.5-6.**

**‘ARXİNA. 14.10.1994-31.12.1994. Qovluq Xb21, v.8-9.**

aparmağa başladı. Dekabrın 28-də səfirliyin nümayəndələri Türkiyə Xarici İşlər Nazirliyinin MDB ölkələri departamentinin baş direktoru Bilal Şimşir ilə görüşərək vəziyyəti müzakirə edilər. B.Şimşir Türkiyənin atdığı addımlar barədə məlumat verdi. Məlumatdan aydın olurdu ki, dekabrın 26-da Rusiyanın Ankardakı səfiri Vadim Kuznetsov Türkiyə Xarici İşlər Nazirliyinə çağırılmışdı. Xarici işlər naziri Murad Karayalçm səfirə Rusiyanın Azərbaycan ilə bütün kommunikasiyaların bağlanmasının ölkə iqtisadiyyatına mənfi təsir edəcəyini söyləmişdi. Cavabında səfir kommunikasiyaların qısa müddət üçün məcburi olaraq bağlandığını və yaxın zamanlarda açılacağını demişdi

Türkiyə xarici işlər nazirinin müşaviri Özdem Sanberk isə Vadim Kuznetsovu qəbul edərək bildirmişdi ki, Moskvanın gördüyü tədbirlər qanuni təməldən ayrılaraq hüquqa zidd səviyyəyə çatmışdır. Buna görə də həmin tədbirlər dünya dəstəyini və hörmətini itirəcəkdir'^^®.

Daha sonra Türkiyə Xarici İşlər Nazirliyi dekabrın 29-da bəyanat verərək, Rusiyanın hərəkətlərinin narahatlıq doğurduğunu, iqtisadi çətinliklər yaradacağını, qonşu ölkələrdə sabitsizliyə gətirəcəyini bildirdi və blokadanın aradan qaldırılmasını tələb etdi'^^'.

Türkiyənin mövqeyi yaranmış problemin həllinə təsir etdi. Rusiya Azərbaycanın blokadasını aradan qaldırdı.

Artıq qeyd edildiyi kimi, iki ölkə arasında münasibətlərdə müzakirə edilən başlıca məsələlərdən biri Azərbaycan neftindən Türkiyəyə verilən payın artırılması idi. Türkiyə payın artırılmasını və buna dair müvafiq sənədin imzalanmasını istəyirdi. Ankaradakı Azərbaycan səfiri Məmməd Əliyev 1995-ci ilin əvvəllərində Türkiyənin "Sabah" qəzetinin müxbiri Sedat Sertoğlunun Türkiyənin neft payının 5% artırılması barədə sualına cavabında bu məsələnin müsbət həll edilə biləcəyini bildirdi. Onun fikrincə, bunun üçün Türkiyə əvvəlcə maddi öhdəlikləri yerinə yetirməli idi. Əks halda Azərbaycan başqa mənbələr axtarmaq məcburiyyətində qalacaqdı.

İkitərəfli əlaqələrdə müzakirə edilən digər bir məsələ isə Türkiyə - Ermənistan münasibətləri idi. Azərbaycan ərazilərini işğal altında saxlayan Ermənistan hakimiyyəti ölkəni sosial-iqtisadi böhrandan çıxarmaq üçün uydurma erməni soyqırımı, əsassız torpaq və təzminat iddialarını aradan qaldırmadan Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyirdi.

[1349] **Yenə orada.**
[1350] **ARXINA. 26.05.1994 -15.06.1994. Qovluq NbS, v.63.**
**ARXINA. 14.10.1994-31.12.1994. Qovluq Xo21, v.2, 3.** 

Türkiyədəki müəyyən iş adamları da Ermənistan ilə əlaqələrin qurulmasında maraqlı idilər. Lakin bu ölkə ilə münasibətlərin normallaşmasma Türkiyədə birmənalı münasibət mövcud deyildi.

Bu zaman Türkiyə ilə Ermənistan arasında Kars sərhəd qapısının açılması haqqında məlumatların yayılması Azərbaycanda narahatlıqla qarşılandı. “Milliyyət” qəzetinin siyasi şərhçisi Şahin Alpay Türkiyə - Ermənistan sərhədinin açılmasına dair məsələyə həsr etdiyi “Ermənistan qapısı” adlı məqaləsində Ermənistan qapılarının açılmasının eynilə digər qapıların açılması kimi sərhəd ticarətini genişləndirəcəyi, Türkiyənin fıravanhğını artıracağını yazır və sual edirdi: görəsən Ermənistan qapılarının açılmasının yeganə faydası bu olarmı? Onun fikrincə, Ermənistan qapılarının açılması ilə Türkiyə və Orta Asiya türk respublikaları arasındakı nəqliyyat asanlaşa bilərdi. Müəllif işin Ermənistan tərəfinə də diqqət yetirərək yazırdı ki, ticarəti inkişaf etdirərək Türkiyə bu ölkənin şah damarını ələ keçirə bilər və yaramaz qonşularından heç olmasa birini bitərəfləşdirə bilər. Ermənistanla ticarət Türkiyəyə Qərbin yanında mühüm bir müttəfiq kimi imkan verə, tarixən mövcud olan düşmənliyinin üstünün kül ilə örtülməsinə xidmət edə bilərdi. Müəllifin fikrincə, guya Türkiyə bu şəkildə Ermənistanın Azərbaycanın yaxasını buraxmasına nail olma baxımından da daha böyük bir təsir qüvvəsi qazana bilərdi'^^^.

Sərhəd qapısının açılması məsələsi hökumət dairələri tərəfindən “Yunanıstanın NATO-nun hərbi qanadına qayıda bilməsi üçün vetonun qaldırılması” ilə müqayisə olunurdu. Diplomatik mənbələr münasibətlərin normallaşdırılması yolunda o zamanlar hər iki tərəfdən başlayan görüş cəhdlərinin iki ölkə ictimaiyyətinin psixoloji cəhətdən hazırlanmasına yönəldiyinə diqqəti cəlb edir, lakin “Azərbaycan buna hazır deyildir. Bakının hazır olmadığı məsələdə Türkiyənin irəliyə bir addım atması düşünülməməlidir” deyə bildirirdilər. Ermənistan ilə münasibətlərin qurulması yolundakı ilkin şərt işğal edilmiş Azərbaycan torpaqlarının boşaldılması idi.

Müəyyən şərtlər yerinə yetirilmədən Ermənistan ilə münasibətlərin qurulması istiqamətində addımların atılmasının təhlükəli olduğunu Ankarada yaxşı bilirdilər. Bir tərəfdən Türkiyə və Ermənistan ictimaiyyəti psixoloji baxımdan münasibətlərin normallaşdırılmasma hazır deyildi. Digər tərəfdən isə Azərbaycan torpaqları işğal altında olduğundan Bakının •

**• ARXİNA. 26.05.1994- 15.06.1994. Qovluq XsS, v.57-58.**

Yerevan ilə münasibətləri qurmağa hazır olmadığı Ankara - Yerevan əlaqələrinin qarşısında ən böyük əngəl idi.

Sərhədin açılmasının qarşısını almaq üçün Azərbaycan səfirliyi Türkiyədə geniş fəaliyyətə başladı. Ankaradakı səfirliyin prezident aparatı, baş nazirlik və kütləvi informasiya vasitələri ilə aparığı iş nəticəsində Türkiyə Prezidenti Süleyman Dəmirəl 1995-ci il yanvarın 12-də televiziya ilə çıxış edərək Ermənistan ilə münasibətlərin, o cümlədən ticarət sahəsindəki əlaqələrin yalnız Ermənistanın Azərbaycana qarşı təcavüzündən əl çəkməsi, erməni hərbi qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması halında mümkün ola biləcəyini bəyan etdi. Bununla, Türkiyə tərəfi mətbuatda yer almış Kars sərhəd qapısının açılması istiqamətində aparılan kampaniyaya rəsmi cavab verdi'^^^.

"Cümhuriyyət" qəzeti 1995-ci il 17 fevral tarixli sayında yazırdı ki, Türkiyə ilə münasibətləri normallaşdırmaq üçün Ermənistanın atdığı addımların cavabında işğal altında olan Azərbaycan torpaqlarından ermənilərin çıxarılmasından əvvəl Ankaranın müsbət cavab verməyə meyil göstərməsi təhlükəli ola bilər'^^''.

Belə bir şəraitdə bəzi ABŞ siyasətçiləri yanlış olaraq Türkiyəni Ermənistana qarşı embarqo tətbiq etməkdə təqsirləndirir və təzyiqlər edir dilər. Məsələn, senatdakı respublikaçı çoxluğun lideri Robert Doul saxtakarlıq edərək,səbəblərini göstərmədən Türkiyənin Ermənistana qarşı tətbiq etdiyi embarqonun nə hüquqa, nə də əxlaqa sığdığını söyləyərək Türkiyə hökumətini Ermənistan ilə sərhədi açmağa çağırdı'^^^. Onun çıxışı Türkiyədə etirazla qarşılandı. Türkiyə XİN-in mətbuat katibi Ferhat Ataman senator Robert Doulun müdafiə etdiyi və "Humanitar yardım dəhlizi" başlıqlı ermənilərə xidmət edən qanun layihəsinin hansı ölkəni hədəf aldığını izah etməyə ehtiyac olmadığnı bildirdi. Qeyd etmək lazımdır ki, bu zaman ABŞ senatının Azərbaycana humanitar yardıma qadağa qoyan 907-ci düzəlişi qüvvədə idi. Bir tərəfdən, ərazilərinin 20%-i işğal altında olan, xalqının 1 milyon nəfərinin ağır qış şəraitində qaçqın və məcburi köçkün vəziyyətində olduğu bir ölkəyə humanitar yardımlara

**ARXINA. 26.05.1994-15.06.1994. Qovluq XsS, v.59.**

**Ermenistan ile tehlikeli isnişme. - "Cumhuriyet" gazetesi, İstanbul, 1995, 17 Şubat.**

**Robert Doul (1923) - ABŞ siyasətçisi. Senatda respublikaçı çoxluğun lideri (1985-1996).**

**Uğur Akınçı. Doul Türkiyəni günahlandırdı. - "Yeni Yüzyıl" gazetesi, 1995, 16 Şubat.**

qadağa qoyulduğu halda, digər tərəfdən BMT-nin bütün qərarlarına baxmayaraq, işğalı davam etdirən və Azərbaycanın suverenliyinə hörmət etməyən, regionda sülh və sabitliyi pozan Ermənistan ilə bağlı belə bir qanun layihəsinin senata təqdim edilməsinin arxasındakı məntiqi başa düşmək mümkün deyildi.

Bütün bunlara baxmayaraq, 1995-ci ilin aprel ayında Türkiyə ABŞ- ın təzyiqləri altında Ermənistan ilə hava sərhədini açdı. Azərbaycan bu addıma Türkiyənin daxili işi kimi baxır və belə hesab edirdi ki, regionda şəraiti normallaşdırmaq üçün erməni tərəfi kompromis addımlar atmalıdır'^^'. Lakin Türkiyənin xeyirxah iradəsinin ifadəsi olan bu addım Ermənistan tərəfindən doğru qiymətləndirilmədi. Hava sərhədinin açılması Ermənistanı yumşaltmadı və işğal etdiyi Azərbaycan ərazilərini boşaltmadı. Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə keçirilən danışıqlarda mövqeyini daha da sərtləşdirdi.

Artıq qeyd edildiyi kimi, bu zaman Azərbaycan ilə Türkiyə arasında münasibətlərdə müzakirə edilən əsas məsələlərdən biri Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq neftdə Türkiyənin payının artırılması idi. Belə bir sənədin imzalanacağı barədə xəbər İranda narahatlıq yaratmışdı. Tansu Çillər Azərbaycana səfər edərkən, İran xarici işlər naziri Əli Əkbər Vilayəti Azərbaycanın konsorsiumdakı payından 5%-ini İrana deyil, Türkiyəyə verməsinin Bakının xeyrinə olmayacağmı bildirərək dedi: "Bakı - Tehran müqaviləsinin təktərəfli ləğv edilməsi ilə Azərbaycan verdiyi sözdə durmamışdır. Bu uzun vədədə Bakının xeyrinə deyildir""^^*. Lakin etirazların elə bir nəticəsi olmadı. Həm ikitərəfli münasibətləri müzakirə etmək, həm də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Türkiyə Petrolları Anonim Ortaqhğı şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istifadə olunmasına dair sazişi imzalamaq məqsədilə 1995-ci il aprelin 12-də Türkiyənin Baş Naziri Tansu Çillərin rəhbərliyi altında nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdə oldu'^^^

Tansu Çillərin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşündə iki ölkə arasında əməkdaşlıq məsələləri geniş müzakirə

**ARXINA. 14.10.1993-05.04.1995. Qovluq X2 14, v. 123.**

**İran, Azerbaycan'ı uyardı. - "Hürriyet" gazetesi, İstanbul, 1995, 11 Nisan. Aliyev, Çillər'i burakmam. - "Hürriyet" gazetesi, İstanbul, 1995,12 Nisan.**

edildi'^®°. O, 1995-ci ilin martında baş vermiş dövlət çevirilişi cəhdinin darmadağın edilməsində Azərbaycan rəhbərinin iradəsini bəyəndi, Türkiyənin Heydər Əliyevi müdafiə etdiyini birmənalı olaraq bildirdi.

Bu zaman əsas ixrac neft boru kəmərinin Ermənistan və ya Gürcüstan üzərindən Türkiyəyə çatdırılması planlaşdırılırdı. Qazaxıstan və Azərbaycanın, hətta Türkmənistan təbii qazının da eyni yerdən keçməsi mümkün idi. Tansu Çillər İranın hökumətinin Türkiyəyə etdiyi xahiş barədə də məlumat verdi. İran Xarici İşlər Nazirliyi aprel ayının əvvəllərində Tehrandakı Türkiyə səfirliyinə müraciət edərək, Suriyadan Ermənistana mal daşıyan yük maşınlarına keçiş icazəsi verilməsini xahiş etmiş, Türkiyə tərəfi isə bunu rədd etmişdi'^^'.

Heydər Əliyev Bakıdan sonra ABŞ-a səfər edəcək Tansu Çillərə Prezident Bili Klintona çatdırmaq üçün bir mesaj verdi. Azərbaycan Prezidenti Ermənistan ilə 11 aydan bəri davam edən atəşkəsin illərlə davam etməyəcəyini vurğulayaraq münaqişənin həllini istəyirdi. Ermənistan ilə müzakirələrin dalana dirəndiyini söyləyən Heydər Əliyev belə vəziyyətin regionun təhlükəsizliyi baxımından qorxulu olduğunu qeyd edir, ermənilərin işğal etdikləri Azərbaycan ərazilərini boşaltmalarının vacibliyini, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərə muxtariyyət verməyə hazır olduğunu bildirirdi'^^^.

Tansu Çillər Ermənistanın Azərbaycan ərazilərini işğal etməsini qınadı. "Əgər Ermənistan Azərbaycan sərhədlərini dəyişdirməyi düşünürsə, yanılır" söylədi.

Azərbaycan Prezidenti isə türk iş adamlarına təminat verərək dedi: "Üç ildə üç çevriliş oldu. Son çevrilişi də vurduq, onları devirdik. Dünyaya göstərdik ki, Azərbaycan xalqı özünü qorumaq gücündədir. Artıq çevrilişlər sona çatdı. Azərbaycan demokratiya yoluna girdi. Sosialist iqtisadiyyatından çıxmaqdan ötrü əlimizdən gələni edəcəyik"'^^^.

**° Türkiyə Cümhuriyyətinin Baş Naziri xanım Tansu Çillərin Azərbaycana işgüzar səfəri. 12 aprel 1995-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s. 171-177.**

**Ertüğrul Özkök. Bakü'de Aliyev'e verilən istihbarat. - "Hürriyef' gazetesi, İstanbul, 1995, İSNisan.**

**Aliyev'den Clinton'a sürpriz mesaj. - "Hürriyet" gazetesi, İstanbul, 1995, 13 Nisan.**

**Aliyev: Darbe rekorunu kırdık. - "Hürriyet" gazetesi, İstanbul, 1995, 13 Nisan.**

Səfər zamanı Azərbaycan ilə Türkiyə arasında neft sahəsində əməkdaşlığa dair saziş imzalandı. Qeyd edildiyi kimi, 1994-cü il sentyabrın 20- də müqavilə imzalanarkən konsorsiumda Türkiyənin payı 1,75% idi. Azərbaycan imzalanmış sazişlə payında olan 20%-in 5%-ni Türkiyəyə verdi . Beləliklə, konsorsiumda Türkiyənin payı 6,75 %-ə qalxdı 1365 Türkiyə mətbuatının yazdığı kimi, bütün bunların hamısı ABŞ-m dəstəyi ilə oldu. ABŞ hökuməti Türkiyəni Azərbaycan neft boru kəməri məsələsində müdafiə etdi'^®®.

Türkiyə vəsaitinin Azərbaycanın neft sənayesinə qoyulması və bu müqavilədə iştirak etməsi həm Azərbaycan, həm də Türkiyə üçün əhəmiyyətli idi. Azərbaycanda xarici sərmayənin qoyulması üçün hər cür imkan yaradılmışdı.

İki ölkə arasında həllini gözləyən bir sıra məsələləri müzakirə etmək üçün 1995-ci il iyulun 10-12-də Tansu Çillər Azərbaycana rəsmi səfər etdi'^^^. Azərbaycan Prezidentinin fikrincə, bu səfər iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı üçün yeni mərhələ açacaqdı.

Səfər zamanı Ermənistanın Azərbaycana təcavüzü və nəticələri, iki ölkə arasında iqtisadi əməkdaşlıq, kredit məsələləri müzakirə edildi. Tərəflər əlaqələri dərinləşdirmək barədə razılaşdılar. İqtisadi əlaqələri inkişaf etdirmək üçün ortaq əməkdaşlıq komissiyasının yaradılmasına dair razılıq əldə edildi . Səfərin gedişində müştərək Azərtürkbankm açılışı oldu.

Danışıqlarda 1992-ci ildə Türkiyə Cümhuriyyətinin Azərbaycan iqtisadiyyatını canlandırmaq üçün ayırdığı 250 milyon dollarlıq kreditin istifadə olunmuş 60 milyon dollarlıq hissəsinin geri qaytarılması məsələsi müzakirə edildi. İyulun 11-də iki ölkə arasında kreditin ödəniş vaxtının iki

**Əliyev H.Ə. Azərbaycan və Türkiyə respublikaları arasında neft sahəsində əməkdaşlığa dair sazişin yüksək səviyyədə imzalanması mərasimində çıxış. 12 aprel 1995-ci il. — Müstəqilliyimiz əbədidir. III kitab, s. 327-331.**

**Bakü'de mutlu imza. - "Hürriyet" gazetesi, İstanbul,1995, 13 Nisan.**

**Çillər: Amerika'dan büyük destek aldıq. - "Hürriyet" gazetesi, İstanbul, 1995, 13 Nisan.**

**1367 Cümhuriyyətinin Baş Naziri Tansu Çillərin Azərbaycana rəsmi səfəri. 10-12 iyul 1995-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, S.I79-I93.**

**Əliyev H.Ə. Türkiyə Respublikasının Baş Naziri xanım Tansu Çillərin Azərbaycana rəsmi səfəri ilə əlaqədar Binə hava limanında bəyanat. 10 iyul 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.85.**

İl müddəti üçün təxirə salınması haqqında qarşılıqlı razılığa dair memorandum imzalandı.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində blokada şəraitində olan Naxçıvana yardım edilməsi barədə razılıq əldə olundu.

Danışıqlarda Azərbaycan neftinin Türkiyə ərazisindən keçərək dünya bazarlarına nəqli məsələsi müzakirə edildi. Azərbaycan tərəfi əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisindən keçməsini özünün siyasəti olaraq qəbul etmişdi.

Səfərin yekununa dair birgə bəyanat qəbul edildi. Bəyanatda iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və perspektivləri əks olunmuşdu.

Artıq qeyd edildiyi kimi, Türkiyə Ermənistan ilə hava yolunu açmışdı. Tansu Çillər bilrdirirdi ki, guya hava yolunu açandan sonra Ermənistana təsir etmək imkanı olacaq və Yerevan yumşalacaqdır. Ancaq Türkiyə Baş Nazirinin düşüncələri reallaşmadı. Ermənistan yumşalmadı, Azərbaycan ərazilərini boşaltmadı.

Bütün bunlar Azərbaycanda narahatlıq doğursa da, Türkiyə ilə münasibətlərə mane olmadı. İki ölkə arasında hərbi sahədə əməkdaşlıq genişləndi. 1995-ci ildə Azərbaycana göndərilən 50 türk hərbçisi Azərbaycan əsgərlərinin təlimi ilə məşğul olmağa başladı'^®^. Bu, qarşılıqlı münasibətlərin inkişafında ciddi bir addım idi.

90-cı illərin ortalarında Azərbaycanın müstəqillik dövrü tarixində mühüm bir hadisə baş verdi. 1995-ci il noyabrın 12-də ilk dəfə olaraq parlament seçkiləri keçirildi və müstəqil Azərbaycan Respublikasının konstitusiyası • qəbul edildi. Bundan sonra Azərbaycan yeni bir inkişaf mərhələsinə qədəm qoydu.

Həmin hadisədən az sonra, 1995-ci il dekabrın 7-9-da Azərbaycana rəsmi səfər edən Türkiyə Prezidenti Süleyman Dəmirəl Heydər Əliyev ilə keçirdiyi danışıqlarda ikitərəfli münasibətlərin genişləndirilməsi, regional və beyjrəlxalq məsələləri, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli, Bakı - Ceyhan neft boru kəməri və Türkiyə ilə Azərbaycan arasında ticarətin həcminin artırılması məsələ

**A** **■'Cumhuriyet" gazetesi, İstanbul,**

**skeri**

-

lərini müzakirə etdi'^'°. Qeyd etmək lazımdır ki, bu zaman iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 300 milyon dollar idi'^''.

Tərəflər ATƏT prinsiplərinə, Paris xartiyasına tərəfdar olduqlarını, beynəlxalq və regional problemlərin həllinin dövlətlərin suverenliyinə, müstəqilliyinə ehtiram, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət və daxili işlərinə qarışmama prinsiplərinə əsaslanmasının gərəkliyini bildirdilər. Türkiyə Ermənistanın Azərbaycana qarşı təcavüzünü pislədi, işğal edilmiş ərazilərdən BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq qeyd-şərtsiz və tezliklə çıxmasını tələb etdi, Minsk qrupunun bütün üzvlərinin sülh prosesinin bütün mərhələlərində iştirak etməsinin vacibliyini vurğuladı. Türkiyə tərəfi münaqişənin həlli üçün Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərinin keçirilməsini vacib hesab edir, üzv kimi Minsk qrupunun işində fəal iştirak etmək istəyirdi.

Danışıqlarda Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftin, imzalanan neft müqaviləsinin həyata keçirilməsinin bölgədə iqtisadi və siyasi sabitliyin bərpası üçün müstəsna əhəmiyyət daşıdığı xüsusi qeyd edildi. Neftin ixracı marşrutlarının seçilməsi bəyənildi. Əsas ixrac neft kəmərinin Türkiyənin Ceyhan terminalına yönəldilməsi istəkləri təsdiq edildi. Danışıqlarda iki ölkə arasında iqtisadi, siyasi, nəqliyyat sahəsində əməkdaşlığın dərinləşdirilməsi barədə razılığa gəlindi. Azərbaycan ilə Türkiyə ərazisində dəmiryolu xəttinin çəkilməsinin və gələcəkdə Orta Asiya respublikaları ilə birləşdirilməsinin əhəmiyyəti qeyd olundu. Viza rejiminin sadələşdirilməsi, Ankarada Azərbaycan səfirliyinin, Bakıda Türkiyə səfirliyinin binasının tikintisi üçün münasib yer ayrılması barədə razılıq əldə edildi.

Regional məsələlər müzakirə edilərkən Azərbaycan Prezidenti dedi: "..."nə müharibə, nə də sülh" vəziyyəti daha da uzana bilməz. Biz Ermənistan ilə Azərbaycan arasında sülh əldə etmək istəyirik. Biz Qafqazda sülh yaranmasına çalışırıq. Biz bütün bu regionu sülh regionuna çevirmək istəyirik. Bizim başqa məqsədimiz yoxdur"[1372]

**ARXİNA. 25.061993-21.04.1998. Qovluq ftbl 1, s.87-88.**

**Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Azərbaycana birinci rəsmi səfəri. 7-9 dekabr 1995-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 11 kitab, s.218-254; Demirel'den Bakü'ye dostluk ziyareti. - "Cumhuriyet" ga- zetesi, İstanbul, 1995, 9 Aralık.**

**Əliyev H.Ə. Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan Respublikası Milli Məclisi üzvlərinin görüşündə nitq. 8 dekabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.l47.**

Milli Məclisdə çıxış edən Süleyman Dəmirəl müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbulunu və ilk parlamentinin seçilməsini müsbət qiymətləndirdi. Parlamentin tribunasından Ermənistana müraciət edərək münaqişənin həllində konstruktiv mövqe tutmağa səslədi və Türkiyənin Azərbaycanı yarı yolda buraxmayacağını bildirdi'^^^.

Danışıqların yekununda, dekabrın 8-də Azərbaycan ilə Türkiyə arasında birgə bəyanat imzalandı. Bəyanatda danışıqların ümumi məzmunu ifadə edilmişdi. Türkiyə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pisləyir, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipini əsas tutaraq Qarabağ regionunun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu, işğal edilmiş ərazilərdən erməni qüvvələrinin təcili və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Bəyanatda qaçqın və məcburi köçkünlərin torpaqlarına qayıtmasının təmin edilməsinin, bölgədə ədalətli və möhkəm sülhün yaradılması üçün lazımi beynəlxalq və regional səylərin artırılmasının, Minsk qrupunun bütün üzvlərinin sülh prosesinin bütün mərhələlərində iştirak etmələrinin, iki ölkə arasında siyasət, iqtisadiyyat, nəqliyyat, elm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin, Türkiyə, Azərbaycan və Gürcüstanın enerji sistemlərinin bir-birinə bağlanması layihəsini hazırlamaq üçün işçi qrupun yaradılmasının vacibliyi qeyd edilirdi'^''*.

Türkiyə Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. Bu, müstəqil Azərbaycan Respublikasının birinci konstitusiyası qəbul edildikdən və parlament seçkiləri keçirildikdən sonra ilk xarici dövlət rəhbərinin səfəri idi'^'^. Səfər qarşıqhqlı münasibətlərin inkişafına yeni keyfiyyət halı verirdi.

Bu zaman Türkiyə - Ermənistan sərhədlərinin açılması məsələsi yenidən gündəliyə gəldi. Türkiyənin yeni Baş Naziri Məsud Yılmaz Ermənistan ilə sərhəd qapısının açılacağını bildirdi. Həmin məsələni müzakirə etmək üçün Heydər Əliyev onu 1996-cı il aprelin 14-15-də Azərbaycana

**' ^ Lale Sarıibrahimoğlu. - Karabağ için somut öneri çağnsı. - "Hürriyet" gaze- tesi, İstanbul, 1995, 9 Aralık.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin birgə bəyanatı. 8 dekabr 1995-ci il. — Müstəqilliyimiz əbədidir. V kitab, s.157-161; Azərbaycan Respublikası Prezidentinin və Türkiyə Respublikası Prezidentinin birgə bəyanatı. 8 dekabr 1995-ci il. - Müqavilələr toplusu. I cild, s. 48-53.**

**Əliyev H.Ə. Azərbaycan və Türkiyə prezidentlərinin birgə mətbuat konfransında bəyanat. 8 dekabr 1995-ci il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.162.**

səfərə dəvət Danışıqlar zamanı Azərbaycan Prezidenti Ermənistan ilə hava yolu açıldıqdan sonra Yerevanın yumşalmadığını və Azərbaycan torpaqlarını boşaltmadığını bildirdi. Məlum olduğu kimi, hava yolu açıldıqdan sonra Ermənistan sülh istiqamətində Türkiyənin gözlədiyi addımları atmamışdı. Ona görə də Azərbaycan tərəfi Türkiyəni belə fikrindən daşmdırmağa səylər göstərdi'^''.

Danışıqların mərkəzində Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları dururdu. Hər iki tərəf münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində həlli vacibliyini qeyd etdilər. Onların fikrincə, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini boşaltmalı, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalı idi. Beynəlxalq və regional məsələlərin müzakirəsində tərəflərin mövqeləri üst-üstə düşürdü.

Məlum olduğu kimi, qarşılıqlı münasibətlərdə neft məsələsi mühüm yer tuturdu. Ona görə də danışıqlarda Xəzər neftinin dünya bazarına çıxarılması məsələsi müzakirə edildi. Türkiyə tərəfi əsas ixrac neftinin Türkiyə ərazisindən keçərək Aralıq dənizinə çıxarılmasında maraqlı idi'^'*.

Danışıqlardan sonra keçirilən mətbuat konfransında Ermənistan ilə Türkiyə arasında Alıcan sərhəd qapısının açılmasına dair Türkiyənin mövqeyini Məsud Yılmaz belə ifadə etdi: "Ermənistan Azərbaycanla apardığı ikitərəfli danışıqlarda razılığa gəlmədikcə və Azərbaycanın ərazi bütövlüyünü tanıması və hazırda işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyi öhdəsinə götürməsi barədə prinsiplər bəyannaməsi imzalamadıqca Türkiyənin bu sərhəd qapısını açmasından bəhs edilə bilməz. Türkiyə bu addımı atarkən qardaş Azərbaycanın mənafeyini öz mənafeyi hesab edir, bunu Azərbaycan torpaqlarının Ermənstan işğalından azad edilməsinə bir töhfə kimi qiymətləndirir. Türkiyədən bunun əksi olan bir hərəkət gözləmək olmaz və bu günə kimi Azərbaycanla birlikdə göstərdiyimiz nü

**° Türkiyə Cümhuriyyətinin Baş Naziri Məsud Yılmazın Azərbaycana rəsmi səfəri. 14-15 aprel 1996-cı il. - Heydər Əliyev və Şərq.6 cilddə. Türkiyə. II kitab, s. 256-275.**

**Aliyev'in başdanışmanı Vefa Guluzade'den Mesut Yılmaz'a teşhis: Karabag konusunda amaratör. — "Cumhuriyet" gazetesi, İstanbul, 1996, 16Nisan.**

**Tayfun Atmaca. Azerbaycan - Türkiye münasebetleri ve petrol. - "Türk dünyası tarih dergisi", İstanbul, 1996, Eylül, fts 117, s. 31-34.**

munəvi həmrəylik bizə başqa cür hərəkət etməyə izn verməz”'^’^. Beləliklə, Türkiyə tərəfi Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini boşaltmayınca sərhəd qapısının açılmayacağma təminat verdi.

Qeyd etmək lazımdır ki, bu zaman Rusiya Dövlət Duması SSRİ-nin bərpasına dair bir qərar qəbul etmişdi. Həmin məsələ Azərbaycan - Türkiyə danışıqlarında da müzakirə edildi. Türkiyə tərəfi Rusiya Dövlət Dumasının keçmiş SSRİ-ni bərpa etmək barədə qərarını beynəlxalq hüquq baxımından həyata keçirilməsi mümkün olmayan qərar kimi qiymətləndir-
dil380

Səfərin yekununda Azərbaycan - Türkiyə birgə bəyanatı qəbul edil- di . Bəyanatda qarşılıqlı münasibətlərin mövcud vəziyyəti, inkişaf istiqamətləri və perspektivləri əksini tapmışdı.

Bu səfərdən sonra iki ölkə arasında digər sahələrdə də əməkdaşlıqda ciddi irəliləyişlər oldu. 1996-cı il iyunun 9-12-də Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin'^®^ Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi İsmayıl Hakkı Karadaymın dəvəti ilə Ankaraya rəsmi səfəri zamanı hərbi əməkdaşlığın dərinləşdirilməsi məsələləri müzakirə edildi’^*^. İyunun 10-da hərbi təhsil, texniki və elmi əməkdaşlıq haqqında müqavilə imzalandı’^*^ Azərbaycan xalqı və silahlı qüvvələrinin həyatında tarixi əhəmiyyət daşıyan bu sənəd iki ölkə arasında əməkdaşlığı dərinləşdirirdi.

Müdafiə sahəsində əməkdaşlıqda növbəti addım iyunun 24-dən 26- dək İsmayıl Hakkı Karadaymın Azərbaycana səfəri oldu. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələlərinin geniş müzakirə edildiyi həmin səfərdən sonra Türkiyə tərəfi Azərbaycana iki hərbi gəmi verdi'^^^. Bütün bunlar iki ölkə arasında hərbi sahədə əməkdaşlığın təməllərinin

**Əliyev H.Ə. Azərbaycan - Türkiyə sənədlərinin imzalanması mərasimindən sonra Türkiyənin Baş Naziri Məsud Yılmazla birgə mətbuat konfransında bəyanat. 14 aprel 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VI kitab, s.l 14.**

**Yılmaz’dan Aliyev’ə güvence. - “Cumhuriyet” gazetesi, İstanbul, 1996, 15 Nisan.**

**Azərbaycan - Türkiyə birgə bəyanatı. 14 aprel 1996-cı il. - Müqavilələr toplusu. I cild, s. 91-94.**

**Səfər Əbiyev (1950) - general-polkovnik. Müdafiə naziri (1995-2013). Azərbaycan — Türkiyə əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT ölkələri. V kitab, s. 135.**

**Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış politikası, s. 162.**

**Yenə orada, s.l64.**

möhkəm olduğunu və inkişafını göstərir, digər istiqamətlərdə də əlaqələrə təsir edirdi.

Türkiyə tərəfi bu illərdə türk dövlətləri parlamentlərinin birliyini qurmağa çalışırdı. Həmin məqsədi həyata keçirmək üçün 1997-ci il martın 19-20-də TBMM sədri Mustafa Kalemli'^*® Orta Asiyanın türk dövlətləri nə və Azərbaycana səfər etdi . Azərbaycanda keçirilən görüşlərdə Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması, Türkiyə - Ermənistan quru sərhədinin, Trabzon - Yerevan təyyarə reysinin açılacağı barədə yayılan xəbərlər müzakirə edildi. Mustafa Kalemlinin fikrincə, Türkiyə dövlət olaraq Ermənistan ilə heç bir əlaqə yaratmamışdı və saxlanılan əlaqələri özəl şirkətlər həyata keçirirdilər.

Danışıqlarda Rusiyanın Ermənistana 1 milyard dollarlıq qanunsuz silah satması və türk ölkələrinin parlament təşkilatının qurulması məsələləri müzakirə edildi. Türkiyə tərəfi Ermənistanın silahlandırılmasınm Cənubi Qafqazda sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etmədiyi qənaətində idi. Bu silahlar təkcə Azərbaycana deyil, əslində NATO ölkələrinə, o cümlədən Türkiyəyə qarşı yönəlmişdi.

Səfərdən sonra Türkiyə hökuməti Ermənistana qanunsuz silah verilməsi məsələsinə münasibətini bildirdi. 1997-ci il martın 24-də Türkiyə Xarici İşlər Nazirliyi Rusiyanın Ermənistana qanunsuz silah ötürməsi məsələsinə dair bəyanat verdi’^**. Bəyanatda bu hərəkətin bölgədə sülhə və əmin-amanlığa mənfi təsir etdiyi, Avropada adi silahlı qüvvələr haqqında müqavilə çərçivəsində götürülmüş öhdəliklərin pozulması kimi və Minsk qrupunun həmsədri mandatı ilə bir araya sığmadığı vurğulanırdı. Türkiyə hökumətinin Rusiyanın Ermənistana qanunsuz silah ötürməsini pisləməsi Azərbaycan - Türkiyə münasibətlərinə əlavə stimul verir, onun daha da dərinləşdirilməsini zəruri edirdi.

Azərbaycan tərəfi türk ölkələri parlamentlərinin birliyinin yaradılması ideyasını müdafiə edirdi. Bu ideyanın reallaşdırılması üçün bütün lazım olanları etməyə hazır idi.

Qarşılıqlı münasibətlərdə növbəti addım 1997-ci il mayın 5-8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci

**Mustafa Kalemli (1943) - TBMM sədri (1996-1997).**

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyə. - Heydər Əliyev və Şərq. 6 clldə. Türkiyə. 1 kitab, s. 192.**

[1388] **Türkiyə Xairici İşlər Nazirliyinin bəyanatı. "Azərbaycan" qəzeti, Bakı, 1997, 26 mart.**

rəsmi səfəri oldu'^*^. Səfərin məqsədi qarşılıqlı münasibətləri dərinləşdirmək və daha yüksəklərə qaldırmaq idi'^®°.

Qeyd etmək lazımdır ki, bu vaxtadək iki ölkə arasında dövlətlər- arası və hökumətlərarası bir çox sənədlər imzalanmışdı. Ancaq iqtisadi əməkdaşlıq, elmi, mədəni və digər sahələrdə ikitərəfli Türkiyə - Azərbaycan əlaqələrinin daha da genişləndirilməsi, inkişaf etməsi ilə bağlı danışıqlar aparmağa və yeni sənədlər imzalamağa ehtiyac duyulurdu. Əlaqələri daha yüksək səviyyəyə çatdırmaq üçün bütün imkanlardan tam istifadə edilməli idi.

Danışıqlarda ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər, Türkiyə - Ermənistan sərhəd qapılarının açılması məsələsi müzakirə edildi. Türkiyə ilə Ermənistan arasında əlaqələrin qurulmasına tərəfdar olmayan Azərbaycan tərəfi belə hesab edirdi ki, bu, Ermənistanı yumşaltmayacaq, əksinə daha da gücləndirərək siyasətini sərtləşdirməyə gətirəcəkdir. Danışıqlarda iki ölkə arasında münasibətlərin bütün tərəfləri dərindən müzakirə edildi və inkişafı zəruri hesab olundu. Yekunda 9 sənəd imzalandı'^^'. Onların arasında 16 bənddən ibarət olan iki ölkə arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə xüsusi yer tutur- du'^^^. Sənəddə bütün sahələr üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi məsələləri əksini tapmışdı. Bu, Azərbaycan ilə Türkiyə arasında münasibətlərin yeni mərhələyə çıxdığını göstərirdi.

Heydər Əliyev xarici ölkələrin iqamətgahları Ankarada yerləşən, eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş səfirləri ilə görüşdə çıxış etdi'^^^, ölkədəki mövcud vəziyyət, iqtisadiyyatdakı artım və aparılan islahatlar barədə danışdı.

**® Azərbaycan - Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq. Bakı, Şərq- Qərb, 1997; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ikinci rəsmi səfəri. 5-8 may 1997-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s. 364-502.**

**Əliyev H.Ə. İstanbulda mətbuat nümayəndələri ilə görüşdə bəyanat. 7 may 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.367.**

**Azərbaycan - Türkiyə əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 137.**

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında bəyannamə. 5 may 1997-ci il. - Müqavilələr toplusu. I cild, s. 131-135.**

**Əliyev H.Ə. Xarici ölkələrin iqamətgahları Ankarada yerləşən, eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuş səfirləri ilə görüşdə çıxış. 5 may 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.282-285.**

Səfər zamanı Azərbaycan səfirliyinin yeni binasının təməlqoyma mərasimi oldu.

Mayın 6-da TBMM-də nitq söyləyən Azərbaycan Prezidenti imzalanmış sənədlər haqqında məlumat verdi, iki xalq arasında münasibətlərin tarixinə qısa səyahət etdi. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərin üzərində dayandı. Rusiyanın Ermənistana silah verməsini diqqətə çatdırdı. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın daxilində yaranmış ictimai-siyasi şəraiti, Xəzərdə enerji diplomatiyasını və imzalanan sənədləri təhlil etdi. Türkiyənin əsrin əvvəllərində Azərbaycana etdiyi qardaşlıq yardımını vurğuladı. İki ölkə arasında münasibətlərə verdiyi qiyməti yekunlaşdıraraq dedi: "Biz bütün gücümüzlə, varlığımızla bu dostluğu qoruyub möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik"'^^". Daha sonra isə "bu günə qədər Bakı - Ceyhan haqqında nə dediksə, onu yerinə yetirdik. Türkiyənin heç şübhə olmasın ki, bundan sonra da sözlərimizi gerçəkləşdircəyik" deyə vurğuladı'^'^.

Azərbaycan Prezidenti Türkiyə ilə Ermənistan arasında sərhəd qapılarının açılmasının xeyir gətirməyəcəyini, bundan əvvəl hava yolu açılarkən Türkiyə hökumətinin umduğunu ala bilmədiyini vurğulayaraq, Tansu Çillərin Ermənistana yönəlik yumşaq siyasətini sərt bir dillə tənqid etdi. Bunu nəticəsiz siyasət adlandırdı'^®*'.

Böyük tarixi əhəmiyyəti olan bu səfər zamanı bütün sahələrdə iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi və inkişaf etdirilməsi üçün danışıqlar aparıldı, münasibətləri təmin edən müqavilələr və digər sənədlər imzalandı. Həmin sənədlər iki ölkə arasında münasibətlərin müqavilə- hüquqi bazasını daha da möhkəmləndirirdi. Azərbaycan Prezidentinin fikrincə, strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə iki ölkə arasındakı əlaqələrin yeni bir mərhələyə, səviyyəyə çatdığını gös

**Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisi üzvləri ilə görüşdə çıxış. 6 may 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.327; Azerbaycan Cumhurbaş- kanı Haydar Aliyev'in Genel Kurula hitaben konuşması. - T.B.M.M. Tutanak dergisi, Cilt 26, 89-uncu birleşim, 6.5. Ankara, 1997, s.10-23.**

**Aliyev: sözümüzü tutarız. -"Türkiye" gazetesi, İstanbul, 1997, 8 Mayıs. Aliyev'den Ermenistan eleştirisi. -"Milliyet" gazetesi, İstanbul, 1997, 8 Ma**

**yıs.**

tərirdi'^®’. Səfər çərçivəsində Türkiyə tərəfi Azərbaycana strateji dəstək verdi

Azərbaycan Prezidentinin səfəri Türkiyə mətbuatında geniş işıqlandırıldı. Mətbuat səfəri iki ölkə arasında münasibətlərdə mühüm mərhələ kimi qiymətləndirirdi. Azərbaycan tərəfinin baxışma görə, Ermənistan işğal etdiyi əraziləri azad edərdisə, neft boru kəmərinin Ermənistandan keçməsi məsələsi müzakirə edilə bilərdi. Lakin Heydər Əliyevin “Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını boşaldarsa, neft boru kəməri Ermənistan ərazisindən keçə bilər” fikrinə Levon Ter Petrosyandan bir cavab gəlməd i

Əsas ixrac boru kəmərinin Türkiyə ərazisindən keçməsinə dair Azərbaycan tərəfinin qəti mövqeyi Ankarada müsbət qiymətləndirilirdi. Artıq qeyd edildiyi kimi, Azərbaycan ilə Türkiyə arasında münasibətlərdə müzakirə mövzusu olan əsas ixrac neft boru kəməri məsələsinin həllində 1997-ci ilin iyul-avqust aylarında Heydər Əliyevin ABŞ-a səfəri müstəsna rol oynamışdı. O, Azərbaycan neftinin Türkiyə ərazisindən keçərək dünya bazarına çıxarılmasını istəyərək “Türkiyə bizim dünyaya açılan pəncərəmiz” demişdi. Bakı - Ceyhan boru kəmərinin iqtisadi və strateji baxımdan əhəmiyyətli olduğunu deyərək, bunun şərt olduğunu bildirmişdi. Azərbaycan torpaqlarında erməni dövlətinin qurulmasına qarşı çıxmışdı’"®".

Azərbaycan tərəfinin Bakı - Ceyhan əsas ixrac neft boru kəməri üzərində durması Ankarada petrol zəfəri kimi qiymətləndirilirdi’"®’. Türkiyə tərəfi Ermənistan ilə sərhədlərini açmamaq barədə qərarın qüvvədə qaldığını, iki ölkə arasında münasibətlərin normallaşmasınm Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu çərçivəsində həlli istiqamətində təsirli bir nəticə olduqdan sonra mümkün ola biləcəyini bildirdi. Azərbaycan Prezidentinin Bakı -

**Əliyev H.Ə.Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənədlərin imzalanma mərasimində mətbuat üçün bəyanat. 5 may 1997-ci il. - Müstəqilliyimiz əbədidir. IX kitab, s.277.**

**‘^^^Aliyev’e stratejik destek . - “Milliyet” gazetesi, İstanbul, 1997, 7 Mayıs.**

**Ankarada zorlu pazarlık . - “Türkiye” gazetesi, İstanbul, 1997, 6 Mayıs.**

**P ‘Sabah” gazetesi, İstanbul, 1997,**

**etrol**

**Petrol zaferi. - “Türkiye” gazetesi, İstanbul, 1997, 9 Eylül.**

Ceyhan ilə bağlı sözlərini yüksək qiymətləndirən Türkiyənin xarici işlər naziri İsmail Cem “görünür, bu iş olur ” dedi"*®^.

1997-ci il avqustunda Doğru Yol Pariyasınm sədri Tansu Çillərin Ermənistan ilə sərhəd qapısının açılmasının mümkünlüyünü bildirməsi ilə müzakirələr yenidən qızışdı. DYP belə bir addımın atılmasının Azərbaycan - Türkiyə münasibətlərinə mənfi təsir edəcəyini dedi. Qeyd etmək lazımdır ki, Tansu Çillər hələ Refah-Yol koalisiyah hökumətində xarici işlər naziri vəzifəsində Karsa gedərkən Ermənistan ilə sərhəd qapısının açılması fikrini söyləyərək əlavə etmişdi: “Açarlar Azərbaycanın əlindədir, biz Əliyev ilə görüşüb həll etməyə çalışarıq”. Bu xəbərlər narahatlıq yaratmış, Azərbaycan tərəfi Tansu Çilləri ermənilərə boş-boşuna güzəştə getməkdə tənqid etmişdi . Buna baxmayaraq, Tansu Çillər Ermənistana hava yolunu açmışdı. Lakin həmin addım Ermənistanın işğal siyasətindən imtina etməsinə kömək göstərməmişdi.

Belə bir zamanda, avqustun 24-də Türkiyənin “Sabah” qəzetində Fatik Çakırcanm dərc edilmiş “Ermənistana yeni dönüş” adlı məqaləsində dövlət naziri Işm Çələbiyə istinadən Türkiyə ilə Ermənistan arasında 60 kilometrlik tranzit yolunun tezliklə bərpa edilməsi, bərabər sərbəst bölgə elan olunması və qapıların açılması layihəsinin hazırlandığı yazılırdı. Azərbaycanın Ankaradakı səfirliyinə bu məlumatları dəqiqləşdirmək, dövlət naziri ilə görüşmək, layihənin Baş Nazir Məsud Yılmaza təqdim edilib-edilmədiyini öyrənmək tapşırığı verildi"*®". Azərbaycan səfirliyi məsələ ilə bağlı görüşlər keçirərək dövlətinin mövqeyini izah etdi.

Məsud Yılmazın koalisiyah hökuməti bu addımın Ermənistana yaxşı niyyət mesajı olacağına, münaqişənin həllinə kömək edəcəyinə Azərbaycanı inandırmaq istəyirdi. Ermənistan rəhbərliyi də sərhəd qapısının açılmasının Türkiyə ilə yaxşı münasibətlər üçün başlanğıc olacağını və Dağlıq Qarabağda sülh prosesinin belə addımlarla bağlı olduğunu d e y i r d i .

**Bakü - Ceyhan boru hattı üçün son viraj. - “Sabah” gazetesi, İstanbul, 1997, 24 Ekim.**
**1403 j)YP-nin “kapı” çarkı. - “Hürriyet” gazetesi, İstanbul, 1997, 20 Ağustos.**
**ARXİNA. 04.01.1997-30.12.1997. Qovluğun Xa-si daxil olan sənədlər, v.58-59.**
**Cem’den Azerbaycan’ı ikna turu . - “ Milliyet ” gazetesi, İstanbul, 1997, 16 Ağustos.**

Bu yanaşma yanlış olub, münaqişənin həllinə kömək etmirdi. Ona görə də Azərbaycan tərəfi Baş Nazir Məsud Yılmaza müraciət etdi"*°^. Türkiyənin xarici işlər naziri Azərbaycana dəvət olundu. Ermənistan ilə sərhəd qapısının açılması məsələsində Azərbaycanı razı salmaq üçün xarici işlər naziri İsmail Cem və dövlət naziri Əhəd Əndican 1997-ci il sentyabrın 7-8-də Bakıya səfər etdilər.

Səfər başlamazdan əvvəl qəzetlərə müsahibə verən xarici işlər naziri Həsən Həsənov Türkiyə - Ermənistan sərhədinin açılmasına dair Azərbaycanın mövqeyini bir daha izah etdi. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə qarşı çıxanların olduğunu söylədi*'*®'. Türkiyə üçün Bakı - Ceyhan boru kəməri xətti strateji, iqtisadi və siyasi səbəblər baxımından həyati əhəmiyyət daşıyırdı*'*®*.

ABŞ isə Türkiyə - Ermənistan sərhədinin açılmasını təkid edirdi. Bunun əvəzində Azərbaycan tərəfi Bakı - Ceyhan məsələsini ortaya qoydu*'*®®. Neftin dünya bazarlarına çıxarılması üçün ən uyğun yol kimi Azərbaycan Bakı - Ceyhanı görürdü. Boru kəməri ilə Orta Asiya nefti də Türkiyə ərazisindən keçiriləcəkdi. Azərbaycan Prezidenti Türkiyənin Ermənistan ilə sərhədinin açmamasmm vacibliyini qeyd edərək "bu sərhədlərin açarı Azərbaycanda deyildir. Başqa bir açarla açmaq istəyirsiniz. Türkiyə - Azərbaycan əlaqələrində neft ikinci yerdədir. Mənəvi dəyərlərimizi unutmamalıyıq" dedi. İşğal edilmiş ərazilər boşaldılmaymca Ermənistana heç bir zaman güzəştə gedilməyəcəyini bildirdi.

Müzakirələrdən sonra İsmail Cem Azərbaycan ilə Türkiyə arasında münasibətlərin təməl prinsiplərinin heç bir zaman dəyişməyəcəyini, sərhədləri açmayacaqlarmı, Ermənistan ilə ticarət etməyəcəklərini dedi. Tərəflər Bakı - Ceyhan boru xətti üçün birgə işçi qrupunun yaradılması barədə razılığa gəldilər.

Daha sonra Azərbaycan tərəfi Rusiyanın Ermənistana satdığı 1 milyard dollarlıq silah üzərində dayandı. Azərbaycan Prezidenti "bizim dövlətimiz gəncdir, təhlükəsizlik orqanlarımız bilməyə bilərdilər, ancaq türk kəşfiyyatı bilməliydi. Ermənistana göndərilən raketlər təkcə Azərbaycan deyil, Türkiyə baxımından da təhdid edir" dedi*'**®. Görüşdə İsmail

**ARXINA. 04.01.1997-30.12.1997. Qovluğun Xe-si daxil olan sənədlər, v.l4. Ya kapı ya petrol. - "Hürriyet" gazetesi, İstanbul, 1997, 8 Eylül.**

**Hasan Cemal. Petrol cxığrafıyasında yeni kavşak noktasında yeni Türkiye. - "Sabah" gazetesi, İstanbul, 1997, 3 Eylül.**

**Bakü'de gergin pazarlık. - "Hürriyet" gazetesi, İstanbul, 1997, 9 Eylül.**

**Aliyev'den petrol müjdəsi. -"Milliyet" gazetesi, İstanbul, 1997, 9 Eylül.**

Cemin qarşısına raketlərin Türkiyəni necə vura bilməsini əks etdirən xəritə qoyuldu. Azərbaycan və Türkiyənin birlikdə hərəkət etməsinin, Rusiya - Ermənistan sazişinə uyğun olaraq Azərbaycan - Türkiyə sazişinin imzalanmasının vacibliyi vurğulandı. Rusiya ilə Ermənistan arasında imzalanan sənədlər regionun təhlükəsizliyi baxımından qorxulu olaraq qiymətləndirildi. İsmail Cem Rusiyanın Ermənistana silah satması məsələsində qəti bir mövqe tutmayaraq "silahlı hücum olursa, yanınızdayıq" dedi. Rusiyanın Ermənistana verdiyi silahların bir hissəsinin terrorçulara getdiyi bildirildi"".

Əhəd Əndican və İsmail Cem Xəzər neftindən Türkiyəyə daha çox pay ayrılmasını xahiş etdilər.

Səfərin sonunda Azərbaycan və Türkiyə xarici işlər nazirlikləri arasında əməkdaşlıq və siyasi məsləhətləşmələr haqqında sənəd imzalandı. Bu sənəd Türkiyə Cümuhuriyyəti Nazirlər Şurasının 1997-ci 6 oktyabr tarixli qərarı ilə təsdiq edildi""^. İmzalanma mərasimində hələ 1994-cü fevralın 9-da imzalanmış sərmayələrin qarşılıqlı qorunması və təşviqi, əməkdaşlıq və qarşılıqlı yardım haqqında sənədlərin təsdiq fərmanlarının mübadiləsi oldu.

Səfərin yekunlarına dair birgə bəyannamə qəbul edildi. Bəyannamədə tərəflər Azərbaycan neftinin dünya bazarlarına çıxarılması baxımından Türkiyənin Ceyhan limanına çəkiləcək boru kəmərinin həyata keçirilməsini istədiklərini, bu məqsədlə birgə işçi qrupun yaradılmasını uyğun gördüklərini qeyd edirdilər. Azərbaycan tərəfi bəyannaməyə Ermənistana satılan raketlər məsələsini salmağı təklif etsə də, Türkiyə tərəfi bu məsələni Rusiya ilə ikitərəfli şəkildə müzakirə edəcəklərini söyləyərək, bəyannaməyə daxil edilməsinə razı olmadı.

Qeyd etmək lazımdır ki, Türkiyə Xarici İşlər Nazirliyinin müşaviri Əli Tuğay həmin günlərdə Moskvaya gedərək S-300 raketləri məsələsində narahatlığı Rusiya tərəfə çatdırdı. Müvafiq izahat istədi. Rusiya tərəfi həmin silahların Türkiyəyə qarşı yönəlmədiyini bildirdi.

Belə bir şəraitdə Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinə dair Türkiyədə müxtəlif mülahizələr söylənirdi. Belə mülahizələrdən birini 1997-ci ilin sentyabrında Bülent Ecevit söylədi. O, Londonda

---

**Sami Kohen. Elbet kardeşik, ama. - "Milliyet" gazetesi, İstanbul, 1997, 9 Ey- lül.**

**Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti Dışişleri Bakanlıklan arasındakı işbirliğine ve siyasal danışmalara ilişkin anlaşmanın kararlaştırılmasına dair Ba-**

**kanlar Kurulunun karan. 06.10.1997.** **-T.C. Resmi gazete,**

ərəb dilində nəşr edilən həftəlik “Əl Vadat” qəzetinə verdiyi müsahibəsində Azərbaycan ilə Ermənistan arasında ərazi mübadiləsi təşəbbüsü ilə çıxış edərək bildirdi ki. Zəngəzur Stalin tərəfindən Ermənistana verildikdən sonra Azərbaycan Naxçıvandan ayrı düşmüşdür.

Müsahibəni Fransadakı erməni icmasının “Qamk” qəzeti tənqid etdi. Məqalə müəllifi yazırdı ki, 1991-ci ildə Süleyman Dəmirəlin Adria- tikdən Çin səddinə qədər türk dünyasının dirçəlişi barədə ideyası dünənkinə nisbətən artıq bir xülyadır. Döyüş meydanlarında Ermənistanın ərazi işğalları erməni sərhədlərini şərqə doğru genişləndirmiş, Azərbaycan ilə Türkiyənin yaxınlaşma imkanlarını daraltmışdır. Yalnız 40 km. uzunluğu olan Zəngəzur Azərbaycan sərhədlərinin içərilərinə doğru təkcə Qarabağa doğru deyil, cənuba, İran - Azərbaycan sərhədinə doğru daha da genişlənmişdir. Ermənilər yüz kilometrlər olan bu sərhəd zolağına nəzarət edirlər, sülh sazişi imzalanacağı təqdirdə İran ilə olan qiymətli sərhədlərini güzəştə getmək və İrana olan yeganə yollarını itirmək istəmirlər*'"^.

Bu zaman ilkin Azərbaycan nefti ixrac üçün artıq hazır idi. Türkiyənin Baş Naziri Məsud Yılmazın fikrincə, Rusiya ilə razılaşmadan Azərbaycan neftinin ixracı ilə bağlı məsələ həll edilə bilməzdi. Ona görə də ən doğru yol birgə maraqlan tapmaq idi*'**'*. Bakıda keçirilən “Çıraq” yatağından ilkin neftin alınmasına həsr olunmuş mərasimdə iştirak etmək məqsədi ilə 1997-ci il noyabrın 12-də Məsud Yılmaz Azərbaycana səfər etdi*'"^. Heydər Əliyev Məsud Yılmaz ilə görüşərək Bakı - Ceyhan əsas ixrac neft boru kəməri üçün ona ümid verdi*'*'^. Türkiyə tərəfi nefti region ölkələri arasında ayırıcı deyil, birləşdirici bir ünsür olaraq görür, dünyanın üç böyük neft ehtiyatlarından biri olan Xəzər neftinin dünya bazarlarına daşınmasında bir deyil, bir neçə boru kəmərinin olmasını vacib hesab edirdi. Türkiyə hökuməti Xəzər dənizinin Azərbaycan sektorundakı neftin dünya bazarına çıxarılmasında Bakı-Ceyhan boru kəmərinin tikintisi üçün Azərbaycandan tam dəstək aldı. Bu zaman şimal istiqaməti, Bakı - Novo- rossiysk boru kəməri ilə neftin ixracına başlandı. Bakı - Supsa neft boru

**[1413] ARXINA. 18.07.1996-04.08.1998. Qovluq XolO, v.125-126.**

**Zülfü Livaneli. Türkiye - Rusya. - “Milliyet” gazetesi, İstanbul, 1997, 11 Eylül.**

**Fikret Bilal. Ceyhan hattı. - “Milliyet” gazetesi, İstanbul, 1997, Bakü 13 Kasım.**

**En uyğunu Bakü - Ceyhan. - “Sabah” gazetesi, İstanbul, 1997, 13 Kasım.**

kəməri isə 1998-ci ilin oktyabr ayında hazır olmalı idi"”’. O, ilk Qərb marşrutu olacaqdı.

Lakin regionda birdən-birə hər şey qarışdı. Artıq qeyd edildiyi kimi, ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin mərhələli həll planını qəbul edən Ermənistan Prezidenti Levon Ter-Petrosyan 1998-ci ilin əvvəllərində hakimiyyətdən devrildi. Onun yerinə Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlıların öldürülməsində xüsusi rol oynamış Robert Koçaryan gəldi. Az sonra isə Gürcüstan Prezidenti Eduard Şevardnazdzeyə sui-qəsd edildi. O, təsadüfən sağ qaldı. Bütün bunların hamısı Cənubi Qafqazda yeni müharibə təhlükəsinin və neft uğrunda mübarizənin artmasının göstəricisi olmaqla, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin reallaşdılmasma qarşı çevrilmişdi""*. Sui-qəsd hadisəsindən sonra Robert Koçaryanla münasibətlərini bəlli bir səviyyədə soyuqlaşdıran Eduard Şevardnadze Azərbaycan ilə daha da yaxınlaşaraq ölkəsinin problemlərini həll etməyə, Bakı - Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstanın keçməsinə çalışdı. Sui-qəsd neft məsələsində oynanılan qaba bir metod idi.

Belə bir şəraitdə Türkiyə ilə Azərbaycan qarşısında siyasi məsləhətləşmələri aparmaq və hərbi əməkdaşlığı gücləndirmək vəzifəsi dururdu. Ərazisində Rusiyanın hərbi bazasını saxlamayan tək ölkə olan Azərbaycan üzərində təhlükələr artırdı. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün irəli sürülən təkliflər barədə fikir ayrılığı yaranmışdı. Danışıqlar dalana dirənmişdi. Ona görə də Azərbaycan rəhbərliyi Türkiyə ilə məsləhətləşmələr aparmağı vacib hesab edirdi. Bu məqsədlə fevralın 2-4-də Türkiyə xarici işlər nazirinin müşaviri M.Ə.İrtemçelikin""^ başçılıq etdiyi nümayəndə heyəti Bakıya səfər edərək siyasi məsləhətləşmələr apardı"*^". Eyni zamanda ATƏT-in Minsk qrupunda Türkiyə tərəfdən təyin edilmiş xüsusi təmsilçi, səfir A.H.Alp da fevralın 4-də Azərbaycana gəldi. Keçirilən danışıqlar iki ölkə arasında yüksək səviyyəli görüşün keçirilməsini zəruri edirdi.

**Bakü - Ceyhan’a tam destek. - “Zaman” gazetesi, İstanbul, 1997,27 Aralık. Esas petrol savaşı. - “Dünya” gazetesi, İstanbul, 1998, 12 Şubat.**

**Mehmet Əli İrtemçelik (1959) - Oman sultanlığında (1991-1995), Bolqarıstanda səfir (1995-1997). Dövlət naziri (1999-2000).**

**'“'^“Azərbaycan - Türkiyə əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 152.**

Azərbaycan - Türkiyə münasibətləri barədə geniş fikir mübadiləsi aparmağa ehtiyac duyulurdu"*^'. Bu məqsədlə 1998-ci il fevralın 13-də Heydər Əliyev Türkiyəyə səfər etdi‘'*^^. Səfərinin məqsədlərindən danışan Heydər Əliyev deyirdi: “Birinci növbədə Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrini daha da irəli aparmaq, daha da yüksəklərə qaldırmaq üçün, həm də ki, bölgədə mövcud olan vəziyyəti təhlil etmək üçün, dünyada, beynəlxalq aləmdə gedən proseslərə nəzər salmaq, fikirlərimizi müəyyən qədər aydınlaşdırmaq üçün mənim buraya gəlməyim çox zəru-
ridir”>‘»23

Azərbaycan Prezidenti fevralın 13-də TBMM sədri Hikmət Çətin"*^'" və Baş Nazir Məsud Yılmaz'**^^ ilə görüşüb ikitərəfli və regional məsələləri müzakirə etdi. Türkiyə tərəfi daim Azərbaycanın haqq işini dəstəkləyəcəyini bir daha bəyan etdi.

Azərbaycan və Türkiyə prezidentlərinin görüşündə Bakı - Ceyhan neft boru kəmərinin strateji əhəmiyyət daşıdığı bildirildi. Transqafqaz nəqliyyat dəhlizinin böyük gələcəyinin olduğuna inam ifadə edildi. İpək yolunun bərpasının əhəmiyyəti vurğulandı. Hər iki dövlət rəhbəri Gürcüstanı strateji müttəfiq və əhəmiyyətli ölkə kimi qiymətləndirərək, ölkədəki mövcud hakimiyyəti müdafiə etdilər”*”*. Belə mövqenin Gürcüstanda yaranmış vəziyyətdə ölkə rəhbərliyi üçün müstəsna əhəmiyyəti var idi.

**Əliyev H.Ə. Türkiyəyə qısamüddətli işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavablar. 13 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 240.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə beşinci işgüzar səfəri. 13-14 fevral 1998-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s.503-529; Haydar Aliyev Türkiye’de. - “Cumhuriyet” gazetesi, İstanbul, 1998, 14 Şubat.**

**Türkiyənin Atatürk adına hava limanında rəsmi qarşılanma mərasimində Azərbaycan və Türkiyə prezidentlərinin jurnalistlər qarşısında bəyanatla çıxışları. Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 13 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.244.**

**Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisinin sədri Hikmət Çətinlə görüşdəki söhbətdən. 13 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.246-248.**

**Əliyev H.Ə. Türkiyənin Baş Naziri Məsud Yılmaz ilə görüşdəki söhbətdən. 13 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.249-250.**

**Əliyev H.Ə.Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə təkbətək görüşdəki söhbətindən. 14 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.256-258.**

Azərbaycan Prezidenti həmin gün Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi, ordu generalı İsmayıl Haqqı Karadayı ilə görüşərək hərbi sahədə əməkdaşlığı genişləndirmək məsələlərini müzakirə etdi"*^'.

Türkiyə iş adamları ilə görüşən Heydər Əliyev onları Azərbaycana sərmayə qoymağa çağırdı.

Keçirilən danışıqlar xüsusi əhəmiyyət daşıyırdı. Regional məsələlərə münasibətdə Azərbaycan və Türkiyənin baxışları eyni idi.

Artıq qeyd edildiyi kimi, Cənubi Qafqazda mürəkkəb proseslər cərəyan edirdi. Robert Koçaryan Ermənistan Prezidenti seçildikdən sonra yenidən müharibə başlaması təhlükəsi artmışdı. Belə bir şəraitdə 1998-ci il aprelin 13-14-də Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi İsmayıl Hakkı Karadayı Azərbaycana səfər etdi'""^. Azərbaycan Prezidenti ilə keçirilən görüşdə iki ölkə arasında hərbi əməkdaşlıq. Xəzər neftini daşıyan boru kəmərinin keçəcəyi yerlərin təhlükəsizliyinin təmin edilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edildi. Heydər Əliyev münaqişənin təkcə Azərbaycanın deyil, eyni zamanda Türkiyənin də məsələsi olduğunu vurğuladı.

İsmayıl Hakkı Kardaymın səfəri Ermənistanda baş verən son hadisələr baxımından əhəmiyətli idi"*^^. Bu, Azərbaycanın mövqelərinin güclənməsinə təsir edirdi.

Əsas ixrac neft boru kəməri məsələsində Azərbaycana edilən təzyiqlər heç bir nəticə vermədi. 1998-ci il aprelin 21-də Azərbaycana səfər edən Türkiyənin enerji və təbii ehtiyatlar naziri Cümhur Ərsümər"*^® Bakı - Ceyhan əsas ixrac neft boru tikintisinə dair müzakirələr apardı.

Bundan az sonra, aprelin sonlarında Heydər Əliyev Trabzon yaxınlığındakı Artvin məntəqəsində Gürcüstan ilə Türkiyə arasında sərhəddə Dərinər su bəndinin təməlinin qoyulması mərasimində iştirak etmək məq

**Əliyev H.Ə. Türkiyə silahlı qüvvələri baş qərargahının rəisi, ordu generalı İsmayıl Haqqı Karadayı ilə görüşdəki söhbətdən. 14 fevral 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s.259-160..**

**Mehmetçige Kafkas görevi. - "Milliyef ' gazetesi, İstanbul, 1998, 16 Nisan. İrfan Ülkü. Türk silahlı kuvvetleri ve dış politika. - "Ortadoğu" gazetesi, İstanbul, 1998, 15 Nisan.**

**Cumhur Ərsümər (1952) — Türkiyə dövlət və siyasi xadimi.**

sədilə Türkiyəyə işgüzar səfər etdi’"*^'. Mərasimdə Süleyman Dəmirəl və Eduard Şevardnadze də iştirak edirdilər.

Aprelin 26-da Çoruh çayı üzərində su bəndinin və su elektrik bəndinin tikintisinin təməli qoyuldu"*^^. Nitq söyləyən Azərbaycan Prezidenti Qafqazda sülhün bərqərar edilməsinin vacibliyini vurğuladı"*^^.

Trabzonda keçirilən üç dövlət başçısının zirvə görüşündə Azərbaycan tərəfi Bakı - Ceyhan neft boru kəməri məsələsində Türkiyəni heç bir şey etməməkdə tənqid etdi, Türkiyə və Gürcüstandan qəti addımlar atmalarını istədi

Azərbaycanın ardıcıl səyləri nəticəsini verdi. 1998-ci il mayın 15-də Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinə dair ilk rəsmi sənədi Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər, Azərbaycan Respublikası Baş Nazirinin müavini Abid Şərifov"*^^, Gürcüstan dövlət başçısı Eduard Şevardnadzenin xüsusi nümayəndəsi, neft konsorsiumunun rəhbəri Geogi Çanturiya imzaladılar'"*^®. Sənəddə boru kəmərinin tikintisinə dair iş prinsipləri müəyyənləşdirilmişdi. Bu, Xəzər dənizinin Azərbaycan sektorundakı neftin dünya bazarlarına çıxarılması yolunda mühüm
bir addım idi . Sənəd kəmərin təməl əsaslarını müəyyənləşdirir , əsas ixrac boru kəmərinin tikintisində dövlətlərin niyyətlərini ortaya qoyur- du'*^^

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə altıncı işgüzar səfəri. 26 aprel 1998-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. II kitab, s. 530-**

**Çoruhda kardeşlik barajı. - “Milliyet” gazetesi, İstanbul, 1998,27 Nisan.**

**Əliyev H.Ə. Türkiyədə Dərinər su bəndinin-su elektrik stansiyasının təməlinin qoyulmasına həsr edilmiş təntənəli mərasimdə nitq. 26 aprel 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XV kitab, s. 234 -238.**

**Bakü - Ceyhan için üçlü ittifak. - “Radikal” gazetesi, İstanbul, 1998, 27 Nisan.**

**Abid Şərifov (1940) - Azərbaycan Respublikası Baş Nazirinin müavini (1995-ci ildən).**

**Bakü - Ceyhan’da ilk somut adım. - “Yeni Şafak” gazetesi, İstanbul, 1998, 17 Mayıs.**

**Bakü - Ceyhan’a bir adım daha. - “Akşam” gazetesi, İstanbul, 1998, 16 Mayıs.**

**Bakü - Ceyhanda tam mutabakat. - “Hürriyet” gazetesi, İstanbul, 1998, 15 Mayıs.**

**Bakü - Ceyhan’a ilk imza. - “Sabah”gazetesi, İstanbul, 1998, 16 Mayıs.**

Bundan sonra boru kəmərinin tikintisi üçün lazım olan işlərə başlanıldı*""®. Ölkələr yeni bir əməkdaşlıq mərhələsinə qədəm qoydular.

Digər sahələrdə də əməkdaşlıq dərinləşdirildi. 1998-ci il iyunun 3- də Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi Hüseyn Kıvrıkoğlu- nun*"'' başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər edərək iki ölkə arasında hərbi əməkdaşlıq məsələlərinə dair müzakirələr apardı. Türkiyə Azərbaycan üçün hərbçi kadrların hazırlanmasında xüsusi rol oynayırdı.

Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycan ilə Türkiyə arasında digər sahələrdə əməkdaşlıq yüksələn xətt üzrə getsə də, ticarət-iqtisadi əməkdaşlıq tərəflərin imkanlarından aşağı səviyyədə idi. 1998-ci ilin iyun ayına olan məlumata görə, Türkiyə ilə Azərbaycan arasında ticarətin həcmi cəmi 250 milyon dollar idi. Azərbaycanda 700 türk şirkəti, Türkiyədə isə 42 min azərbaycanlı işləyirdi *""^.

Ticarət-iqtisadi əlaqələri daha da genişləndirməyə ehtiyac duyulurdu. Bu məsələdə 1998-ci il sentyabrın 8-9-da Bakıda keçirilən İpək yolunun bərpasına həsr edilən konfransın qərarları mühüm rol oynadı.

Zirvə görüşündə Avropa - Qafqaz - Asiya dəhlizi ilə yüklərin daşınmasına dair sənədlər imzalandı. Konfransda iştirak edən Türkiyə Prezidenti Süleyman Dəmirəlin fikrincə, İpək yolu üzrə imzalanmış sənədlərin həyata keçirilməsi Türkiyəyə böyük xeyir verəcəkdi*""®. Azərbaycan neftinin Qərbə daşınması ilə bağlı olaraq Süleyman Dəmirəl “boğazlar yol keçən yer və ya boru xətti deyildir”, İsmail Cem isə “boğazlarımızı neft boru kəməri xəttinə və avtomobil yoluna çevirə bilmərik” dedilər*"'''. Türkiyə çoxlu miqdarda neftin boğazlardan keçidini İstanbul üçün ekoloji və insanların həyatı baxımından təhlükəli hesab edirdi.

Tarixi İpək yolunun bərpasının təkcə iqtisadi deyil, eyni zamanda siyasi əhəmiyyəti var idi. Bu, ölkələr arasında ziddiyyətləri yumşaltmağa və əməkdaşlığa yönəlmişdi.

Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə hazırlıq işlərinə başlanılması Rusiyanı narahat edirdi. Ona görə də 1998-ci

**Bakü - Ceyhan tamam. - “Cumhuriyef’ gazetesi, İstanbul, 1998, 16 Mayıs. Hüseyn Kıvnkoğlu (1934) - Türkiyə Silahlı Qüvvələrinin baş qərargah rəisi (1998-2002).**

**Kadri Ecvet Tezcan. Hep sevecegimiz benzersiz üike. - “Zaman” gazetesi, İstanbul, 1998, 7 Temmuz.**

**Demirel, İpek yolu zirvesinde. - “Akşam” gazetesi, İstanbul, 1998, 8 Eylül. Boğazlar boru hattı degil. — “Radikal” gazetesi, İstanbul, 1998, 9 Eylül.**

ilin sentyabrında Rusiya Dövlət Duması BMT baş katibinə müraciət barədə qərar qəbul etdi. Qərarda BMT-dən Türkiyənin cənub-şərqində müharibənin dayandırılmasına və kürdlərin maraqlarının yerinə yetirilməsinə dair çağırış edilirdi. Bu zaman PKK da Ermənistanın bir neçə şəhərində nümayəndəliklərini açmışdı"*"^. Artıq qeyd edildiyi kimi, Rusiya əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsinə qarşı çıxırdı. Lakin narahatlıq doğuran məqamlardan biri BP şirkətinin də Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin əleyhinə olması idi. Bu, işlərin irəli aparılması yolunda əngələ çevrilmişdi. Ona görə də Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər Bakıya səfər etdi"*'’^. Keçirilən müzakirələr, Azərbaycan və Türkiyənin qəti mövqeyi konkret nəticəsini verdi. Kəmərin tikintisinin əleyhinə olan qüvvələrin niyyəti baş tutmadı. 1998-ci il oktyabrın 28-31-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qurulmasının 75 illiyi münasibəti ilə keçirilən toplantıda iştirak etmək məqsədi ilə Türkiyədə səfərdə olarkən Baş Nazir Məsud Yılmaz ilə görüşərək Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi məsələsində son nöqtəni qoydular*""*’. Onlar geriyə dönüşün mümkün olmadığı qərarına gələrək növbəti mərhələyə keçdiklərini bildirdilər'***. Xəzər neftini dünya bazarına çıxaracaq Ankara bəyannaməsi və Türkmənistan qazını Türkiyəyə gətirəcək kəmərin tikintisi barədə saziş imzalandı'**^. Hər iki imzalanma mərasimində ABŞ-m enerji naziri Bili Riçardson iştirak edirdi. 6 bənddən ibarət olan Ankara bəyannaməsində tərəflər Xəzər dənizi - Aralıq dənizi (Bakı - Tbilisi - Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə qəti qərara gəldiklərini bəyan edirdlər'*^°.

Bu, tarixi əhəmiyyət daşıyan bir sənəd idi. Baş Nazir Məsud Yılmaz Azərbaycan Prezidentinə müraciətlə, “Cümhuriyyətin 75-ci ildö-

**'**^Mahmut Torpakçıoğlu. Bir hain plan. - “Öncü” gazetesi, İstanbul, 1998, 14 Eylül.**

**Güntay Şimşek. Bakü - Ceyhan’da politik çukur. - “Zaman” gazetesi, İstanbul, 1998, 19 Ekim.**

**Bakü - Ceyhan hattına son nokta qoydular. - “Cumhuriyyet” gazetesi, İstanbul, 1998, 1 Kasım.**

**Bakü - Ceyhan’a Aliyev güvencesi. — “Sabah” gazetesi, İstanbul, 1998, 1 Kasım.**

**1449 75 Yılda iki büyük imza . - “Hürriyet” gazetesi, İstanbul, 1998, 30 Ekim.**

**Tahir Kutsi Makal. Haydar Aliyevi dinlerken. - “Ortadoğu” gazetesi, 1998, 3 Kasım.**

nümündə iştirak etməklə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığa nə qədər əhəmiyyət verdiyinizi bir daha sübut etdiniz” dedi"’^'.

Ankara byannaməsi imzalandıqdan sonra Bakı - Tbilisi - Ceyhan əsas neft ixrac boru kəmərinin tikintisi ətrafında sanki bir müharibə başlandı. Dövlətlər üz-üzə gəldilər'"*^^. Türkiyə ərazisində PKK terroru artdı'"'^^. Belə bir vaxtda PKK rəhbəri Abdulla Ocalanın Suriyadan Rusiyaya qaçaraq siyasi sığınacaq istəməsi və Dövlət Dumasının ona səsə verməsi Azərbaycanda dərin narahatlıq yaratdı. Abdulla Ocalanadan Bakı - Tbilisi - Ceyhana qarşı bir vasitə kimi istifadə edilə bilərdi. Lakin Türkiyənin tələbindən sonra Rusiya hökuməti onu ölkə ərazisindən çıxardı.

Belə bir şəraitdə Rusiyanın Ermənistana silah verməsi təkcə Azərbaycana deyil, eyni zamanda Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin reallaşdırılmasına qarşı yönəlmişdi. Ona görə də Azərbaycan bəzi diplomatik addımlar atdı. Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Vəfa Quluzadə’"'^'* 1999-cu ilin yanvar ayında Türkiyə və NATO-nun Azərbaycanda hərbi baza qurmasını təklif etdi. Lakin Türkiyə Xarici İşlər Nazirliyi belə bir məsələnin gündəlikdə olmadığını bildirdi. Türkiyə hökuməti Azərbaycanın hərbi birlik istəyinə isti yanaşmırdı"’^^ Ümumiyyətlə, Türkiyə Cənubi Qafqazda digər dövlətlərlə, xüsusən Rusiya ilə rəqabətə girməkdə maraqlı deyildi.

Bütün bu məsələləri müzakirə etmək üçün Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Zülfüqarov 1999-cu il fevralın 16-da Ankaraya səfər etdi. O, əvvəlcə TBMM sədri Hikmət Çətin, daha sonra isə xarici işlər naziri İsmail Cem ilə müzakirələr apardı, ölkəsinin Müstəqil Dövlətlər Birlisindən ayrılmağa hazır olduğunu bildirərək Türkiyədən dəstək istədi"*^ . Azərbaycanın xarici işlər naziri regiona silah gətirilmə

**Əliyev H.Ə. Türkiyənin Baş Naziri Məsud Yılmazla görüşdəki çıxış. 31 oktyabr 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XVIII kitab, s. 152.**

**Yasemin Çongar, Cenk Başlamış. Yüzyılın petrol savaşı (A). - “Milliyet” gazetesi, İstanbul, 1998,4 Kasım.**

**Aliyev; Şam’a karkı Türkiye ile biriz. - “Hürriyet” gazetesi, İstanbul, 1998, 12 Ekim.**

**1454 Vgfa Quiuzaüa (1940) - Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri (1990-1999).**

**Azerbaycan’a gönderilmiyor. - “Cumhuriyet” gazetesi, İstanbul, 1999, 27 Ocak.**

**Azerbaycan Türkiye’den destek istedi. - “Cumhuriyet” gazetesi, İstanbul, 1999, lyŞubat.**

sini istəmədiklərini deyərək vurğuladı: "Silahlar bölgəyə gəlirsə Türkiyənin yanımızda olacağına inanırıq". Türkiyə isə regionun böyük dövlətlər arasında rəqabət meydanı olmasını arzulamır, Qafqazda sürətlə silahlanmaya qarşı çıxdı, üzv olduğu NATO-nun bu məsələyə münasibət bildirməsini istəyirdi.

Danışıqların yekununda qəbul edilən birgə bəyanatda Ermənistandan gələn təhdidlərin regionda sabitliyi əngəllədiyi, Azərbaycan ərazilərinin bir hissəsinin işğal altında olmasının təhlükəsizliyi birbaşa təhdid etdiyi, Türkiyənin Azərbaycana dəstəyinin davam etdiriləcəyi qeyd olunurdu. Bəyanatda həmçinin Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığın inkişaf etdirilməsi üçün mexanizmlərin qurulmasının, NATO ilə əlaqələrin artırılmasının əhəmiyyəti vurğulanır, Bakı - Tbilisi - Ceyhan və digər layihələrin həyata keçirilməsinin sürətləndirilməsi niyyəti ifadə olunurdu"*^^.

Artıq qeyd edildiyi kimi, Ermənistanın silahlandırılması tikiləcək neft boru kəmərinə və regionda təhlükəsizliyə birbaşa təhdid idi. Bütün bunlar Azərbaycan tərəfinin ölkə ərazisində bir baza qurmaq istəyini ortaya çıxarmışdı. Xəzər dənizində enerji mənbələrinin qorunması üçün Abşeron yarımadasında NATO bazasının qurulmasına dair Azərbaycanın təklifi xarici işlər nazirinin müavini Araz Əzimovun 1999-cu ilin martın əvvəllərində Ankaraya səfəri zamanı Türkiyə tərəfmə bildirildi. Danışıqlar zamanı Azərbaycan tərəfi Ermənistanın sürətlə silahlandırılmasmı önə çəkdi, enerji ehtiyatlarının təhlükə altında olduğunu bildirdi. Azərbaycanın hazırladığı plan təqdim edildi. Həmin plan Türkiyə və ABŞ hərbi təyyarələrində azərbaycanlı heyətin birgə xidmət keçməsini nəzərdə tuturdu.

Türkiyə baş qərargahında və Xarici İşlər Nazirliyində keçirilən müzakirələrdə həmin təklifə isti yanaşıldıABŞ-ın Ankaradakı səfiri Mark Parrisə bu təklifi ən qısa zamanda NATO və ATƏT-in gündəliyinə gətirməsi təklif edildi. Lakin NATO Rusiya ilə qarşıdurma yaranacağını əsas gətirərək həmin məsələyə isti yanaşmadı. Əməkdaşlığın digər yollarına üstünlük verilməsi uyğun görüldü.

1999-cu ilin aprel ayında tarixi bir hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorundakı ilkin nefti dünya bazarlarına çıxaran Bakı - Supsa boru kəməri Heydər Əliyev və Süleyman Dəmirəl tərəfindən açıldı.

**Azerbaycan'a destek artacak. - "Cumhuriyet" gazetesi, 1999, İstanbul, 18 Şubat.**

**' Azeri üssü masada. - "Radikal" gazetesi, İstanbul, 1999, 4 Mart.**

Mərasimdə ABŞ Prezidentinin xüsusi müşaviri Riçard Mominqstar iştirak edirdi"*^’.

Bundan sonra Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümərin Bakıya səfəri zamanı Azərbaycan Prezidenti ondan Bakı - Ceyhan boru kəmərinin gecikməsinin səbəblərini soruşaraq işləri sürətləndirməyin vacibliyini vurğuladı"’^.

“Əsrin müqaviləsi”nin imzalanmasının 5-ci ildönümü münasibəti ilə 1999-cu ilin sentyabrında keçirilən tədbirdə iştirak edən Türkiyənin türk dövlətləri üzrə naziri Əbdülxalıq Çay"’®' söylədiyi nitqində iki ölkə arasında əməkdaşlığın əhəmiyyətini vurğuladı. Azərbaycan Prezidenti isə Xəzər dənizində təbii qazın olduğunu deyərək Türkiyənin 25 illik ehtiyacını ödəyəcəyini bildirdi’^®^.

ABŞ rəhbərlərinin təklifi ilə Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisi məsələsində tərəddüdlər və əngəllər aradan qaldırıldı"*®^. Boru kəmərinin tikintisi üçün lazım olan maliyyə məsələsi də sponsoplar qrupu tərəfindən həll edildi"'®".

Beləliklə, 90-cı illərin əvvəllərindən etibarən gedən mübahisələrə son qoyuldu. Bir zamanlar Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinə isti yanaşmayan iri şirkətlər də onun tikintisinə tərəfdar çıxdılar. Türkiyə mətbuatının yazdığı kimi, Bakı - Ceyhan neft boru kəmərinin tikintisi barədə imzalanan saziş ərəfəsində neft müharibəsində siyasət qazandı"'*®®. Bununla Azərbaycan - Türkiyə münasibətlərində yeni bir keyfiyyət mərhələsinin başlanğıcı qoyuldu.

1999-cu il oktyabrın 18-də Türkiyə Prezidenti Süleyman Dəmirəlin Bakıya işgüzar səfəri münasibətlərdə əhəmiyyətli bir addım oldu"'*®®. Bu

**‘‘®’ Supsa açıldı, dalısı Ceyhana. - “Akşam” gazetesi, İstanbul, 1999, 18 Nisan.**

**"'®° Boru hattı projesini hızlandırmalıyız. - “Cumhuriyet” gazetesi, İstanbul, 1999, 3 Haziran.**

**'“'®' Əbdülxaliq Çay (1945) - Türkiyə elm və siyasət adamı.**

**Aliye’e doğalgaz sürprizi. - “Cumhuriyet” gazetesi, İstanbul, 1999, 14 Temmuz.**

**"'®' ABD yönetimi bastırdı, BP Bakü Ceyhan’a çekincelerini kaldırdı. BP böyle yola geldi. • “Radikal” gazetesi, İstanbul, 1999, 21 Ekim.**

**Azerbaycan Cumhurbaşkam Aliyev; Bakü - Ceyhan imzalanıyor. - “Türki- ye” gazetesi, İstanbul, 1999, 1 Kasım.**

**A dan Z ye Bakü - Ceyhan Petrol savaşını siyaset kazandı (A). - “Radikal” gazetesi, İstanbul, 1999, 25 Ekim.**

**1466 q-jj^ı^iyg Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasına işgüzar səfəri. 18-19 oktyabr 1999-cu il. - Heydər Əliyev və Şərq. 6**

tarix Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 8-ci ildönümü ilə eyni vaxta düşürdü"*®’. Keçirilən danışıqlarda iki ölkə arasında siyasi, iqtisadi, hərbi əməkdaşlıq, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisi məsələləri müzakirə edildi. Heydər Əliyev Bakı - Ceyhan ilə bağlı işlərin zəif getməsindən şikayətləndi"*®*. Dövlət başçıları Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair sənədin İstanbulda keçiriləcək ATƏT-in zirvə görüşü zamanı imzalanması barədə razılaşdılar*'*®". Boru kəmərinin vaxtında tikintisinə başlanılması üçün görülən hazırlıq işlərini təsdiq etdilər. Süleyman Dəmirəl Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərini XXI əsrin sülh layihəsi adlandırdı*'*™. O, Türkiyənin ətrafındakı üç təpəni - Orta Şərq, Qafqaz və Balkanları nəzərdə tutaraq sülhün olmasını vacib hesab edərək, bu məsələdə Rusiyanın əhəmiyyətini önə çəkib dedi: “Bölgədə Rusiyasız barış düşünülməz. Rusiyanın yer almadığı bir iş uğurlu olmaz. Rusiya hələ böyük dövlətdir”*'*’*.

Ermənistanın təcavüzünə dair məsələlərin müzakirəsi zamanı Türkiyənin mövqeyini Süleyman Dəmirəl belə ifadə etdi: “Biz istəyirik ki, Azərbaycanın məruz qaldığı böyük haqsızlıq aradan qaldırılsın, daimi sülh əldə edilsin və Qafqazda hər şey yaxşı olsun”. O, Türkiyənin həmişə Azərbaycanın yanıda olduğunu vurğuladı*'*™, “...Türkiyə münaqişənin

**cilddə. Türkiyə. III kitab, s.l 16-134; Kenan Akın. Azerbaycanın güvenliği. - “Türkiye” gazetesi, İstanbul, 1999, 19 Ekim.**

***‘*®’ Bakü’de destek zirvesi. - “Türkiye” gazetesi, İstanbul, 1999, 19 Ekim.**

***'*®* Hasan Cemal. Petrol coğrafiyasında kavşak noktası olmak. - “Milliyet” gazetesi, İstanbul, 1999, 19 Ekim.**

**Muharrem Sarıkaya. Demirel: Bakü - Ceyhan AGİT’te imzalanacak. - “Hürriyet” gazetesi, İstanbul, 1999, 19 Ekim; Bakü - Ceyhan imzaya kaldı. - “Milliyet” gazetesi, İstanbul, 1999, 19 Ekim.**

**"*’° Demirel: Bakü - Ceyhan 21. Yüzyıhn barış projesi. - “Akşam” gazetesi, İstanbul, 1999,21 Eylül.**

**Rusya’sız barış olmaz. - “Cumhuriyet” gazetesi, İstanbul, 1999, 19 Ekim; Üç təpədə barış: Kafkasya, Balkanlar, Orta Doğu. — “Hürriyet” gazetesi, İstanbul, 1999, 19 Ekim.**

**"*” Əliyev H.Ə. Azərbaycan - Türkiyə nümayəndə heyətləri arasında danışıqlar zamanı çıxış. 18 oktyabr 1999-cu il. -Müstəqilliyimiz əbədidir. XXII kitab, s.314 -320.**

aradan qaldırılmasında Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir”"’’^ dedi.

Heydər Əliyev Süleyman Dəmirəlin səfərini Türkiyə - Azərbaycan dostluğunun, əməkdaşlığının daha da inkişaf etməsi üçün yeni bir mərhələ kimi qiymətləndirirdi.

Türkiyə Prezidentinin səfərindən sonra 1999-cu il oktyabrın 21-də Ankaraya gələn Bili Klintonun xüsusi nümayəndəsi Con Vulf"”’ Süleyman Dəmirəl, enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər ilə görüşərək ABŞ hökumətinin birmənalı olaraq Transxəzər qaz boru kəmərinə üstünlük verdiyini bildirdi"”^. Beləliklə, bundan sonra “Mavi axın” və Bakı - Tbilisi - Ceyhan boru kəmərləri arasında sanki yarış başladı. ABŞ “Mavi axın”a üstünlük verəcəyi təqdirdə Türkiyəyə dəstəyindən imtina edəcəyini vurğulayaraq bu ölkənin enerji dəhlizinə çevrilməsi üçün diplomatik səylərini genişləndirdi. Həmin məsələlər oktyabrın 31-dən noyabrın 2-dək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri zamanı da müzakirə edildi"”®. Azərbaycan Prezidenti “Mavi axın” yerinə Transxəzər təbii qaz boru xəttinin həyata keçirilməsi barədə Süleyman Dəmirəl ilə danışdı"”’. Türkiyə tərəfi Transxəzər qaz boru kəməri ilə yanaşı “Mavi axın” layihəsinin də reallaşdırılmasmda maraqlı idi.

İstanbulda keçiriləcək ATƏT-in zirvə toplantısının başlanmasına 15 gün qalmış, noyabrın əvvəllərində Baş Nazir Bülent Ecevit Moskvaya səfər etdi. Bu zaman Rusiyanın Qafqazda iki narahat nöqtəsi var idi; Çeçenistan və Gürcüstan. Bülent Ecevit Moskvada ikən Boris Yeltsin Rusiya Baş Nazirinin birinci müavini Nikolay Aksyonenkonu Azərbaycana səfərə göndərdi. N.Aksyonenko ölkəsinin Bakı - Tbilisi - Ceyhan boru kəmərinin xəttinin tikintisindən vaz keçilməsində, neftin Bakı -

**^ Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirləin Azərbaycan Respublikasına üşgüzar səfəri. 18-19 oktyabr 1999-cu il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s.l20.**

**Con Vulf (1948) - ABŞ Prezidentinin Xəzər hövzəsi enerji diplomatiyası üzrə xüsusi nümayəndəsi.**

**İsmet Berkan. Yollar açılırken. - “Radikal” gazetesi, İstanbul, 1999,21 Ekim.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə səkkizinci işgüzar səfəri. 31 oktyabr-2 noyabr 1999-cu il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 138-184.**

**Ankaranın derdi gaz. - “Radikal” gazetesi, İstanbul, 1999, 2 Kasım.**

Novorossiysk boru kəməri ilə göndərilməsində israr etdiyini bildirdi. Heydər Əliyev bu təklifi qəbul etmədi.

Enerji daşıyıcıları və yerləşdikləri coğrafi mövqe baxımından Türkiyə üçün ən əhəmiyyətli ölkələr Azərbaycan, Türkmənistan və Qazaxıstan idi"^^^. Türkiyə alternativ olaraq Türkmənistan qazının İran üzərindən keçərək Türkiyəyə, oradan Avropaya nəqlində və Rusiya qazını almaqda maraqlı idi.

Nəhayət, 1999-cu il noyabrın 18-19-da İstanbulda keçirilən ATƏT- in zirvə görüşü zamanı əhəmiyyətli qərarlar qəbul edildi*"*''. Zirvə görüşündə iştirak edən Heydər Əliyev Süleyman Dəmirəl ilə görüşərək ikitərəfli və regional məsələləri müzakirə etdi. Noyabrın 18-də Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri barədə sənədi İstanbulun Çırağan sarayında ABŞ Prezidenti Bili Klintonun iştirakı ilə Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri imzaladılar*"*'. Eyni zamanda Azərbaycan, Türkiyə, Gürcüstan və Türkmənistan prezidentləri Xəzər dənizindən keçən boru kəmərinin prinsiplərinə dair hökumətlərarası bəyannaməni qəbul etdilər.

Heydər Əliyev çıxış edərək sənədlərin imzalanmasında ABŞ Prezidenti Bili Klintonun əməyinin çox olduğunu qeyd etdi. Süleyman Dəmirəl talelərinin birləşdiyini, yeni bir tarixin yazıldığını və İstanbulun kabusdan qurtaracağını vurğuladı. Bili Klinton isə bu layihənin çox əhəmiyyətli olduğu və dövlətlərin müstəqilliyinin inkişafına kömək edəcəyi qənaətində idi.

Sənədin imzalanması ərəfəsində Rusiya ərazisindən Azərbaycan neftinin tranzitini dayandırıldı. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə mane olmaq üçün cəhdlər edildi. Lakin Viktor

**Fu 'Türkiye" gazetesi, İstanbul, 1999, at Bol.**

**Bülent Aras. Türkiye ve Hazar bölgesi zenginlikleri. - "Zaman" gazetesi, İstanbul, 1999,26 Ekim.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə doqquzuncu işgüzar səfəri. 17-19 noyabr 1999-cu il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 185-203.**

**1481 j(j|.ı^jyg Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petrolün Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerinden. Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla daşınmasına ilişkin anlaşma. 1999, 18 Kasım. -T.C.Resmi gazete, Ankara, 2000, 10 Eylül.**

Kalyujnıy Bakı - Tbilisi - Ceyhan boru kəmərinə Rusiyanın qatılmaması- nın layihənin həyata keçirilməsinə əngəl olmayacağı qənaətində idi*'**^.

Sənədin imzalanması və keçirilən görüşlər ikitərəfli Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı baxımından əhəmiyyətli idi. Bu, qarşılıqlı münasibətlərin təməllərini möhkəmləndirir və ölkələri bir-birinə daha sıx bağlayırdı.

Məlum olduğu kimi, Azərbaycan ilə birbaşa quru əlaqəsinin olmaması Türkiyə xarici siyasətinin problemlərindən biri idi'"*®^. Gürcüstan ərazisindən keçən Sarp (Artvin) sərhəd qapısı Azərbaycandan 600 km., Türkgözü (Ardahan) sərhəd qapısı isə 350 km uzaqlıqda idi. Ona görə də Türkiyə alternativ yollar axtarırdı. Türkiyə Laçının bir dəhliz olmasında, bunun müqabilində Naxçıvanla Zəngəzur yolu ilə Azərbaycan arasında birbaşa yolun qurulmasında maraqlı idi. Digər tərəfdən, Türkiyə ilə Azərbaycan arasında Gürcüstan ərazisindən iki yol ortaya çıxırdı: Birincisi, Aktaş (Türkiyə) - Boqdanovka - Tsalka - Tetritskaro (Ağbulaq) - Mar- neuli - Qazaxda Smıqkörpü; ikincisi, Aktaş (Türkiyə) - Boqdanovka - Dmanisi (Başkeçid) - Qazaxda Smıqkörpü. İkinci yolun Tbilisi - Gümrü yoluna bağlanması üçün Boqdanovka - Dmanisi istiqamətində dağların arasından 20 km.-lik yol açılmalı idi. Bu yollardan biri açılardısa, Azərbaycan ilə Türkiyə arasında yol 100 km qısalardı. Türkiyə tərəfinin baxışına görə, Kars - Gümrü yolunun açılması Karsı iqtisadi cəhətdən inkişaf etdirərdi. Digər bir yol İqdırda Ermənistan ilə sərhəddəki Alican qapısı idi. Bəzi türk mətbuatı müasir dövrdə sərhədlərin qapalı qalmasının heç bir mənası olmadığını yazırdı.

Amma bu illərdə iki ölkə arasında münasibətlərdə əsas məsələ Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi idi. Neft boru kəmərinin tikintisinə dair imzalanmış sənədin yerinə yetirilməsinə dair məsələləri müzakirə etmək məqsədi ilə 2000-ci il yanvarın 6-da Türkiyənin enerji və təbii ehtiyatlar nazirinin müavini Yurdakil Yıgıtgüden, xarici işlər nazirinin müavini Murat Balkan və Xarici İşlər Nazirliyinin enerji departamentinin rəisi Hacı Sarıbaş Azərbaycana səfər etdilər. Nümayəndə heyəti Azərbaycana gəlməzdən əvvəl Gürcüstanda Eduard Şevardnadze ilə görüşərək Süleyman Dəmirəlin məktubunu təqdim və boru kəmərinin tikintisi ilə bağlı konkret məsələləri müzakirə etmişdi. Bakıda Heydər Əliyevə Süleyman Dəmirəlin məktubu təqdim olundu. Məktubda Türkiyə

**Enerji trafigi sıkışık. - “Milli gazete”, İstanbul, 1999, 6 Kasım.**
**Halit Kakmc. Aktaş kapısı. -“Star” gazetesi, İstanbul, 1999, 25 Kasım.**

tərəfi boru kəmərinin tikintisinə dair məsələlərin sürətləndirilməsini istəyirdi."**" Azərbaycan da eyni mövqedə idi.

Azərbaycan əsas ixrac neft boru kəmərinin tikintisini daha da sürətləndirmək üçün əlavə addımlar atdı. Heydər Əliyevin 2000-ci il yanvarın 9-13-də Türkiyəyə səfərində də başlıca məqsəd Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinə dair imzalanmış sənədin həyata keçirilməsi ilə bağlı işləri sürətləndirmək, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair məsləhətləşmələr aparmaq idi"'*^ Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinə dair sənəd Gürcüstan parlamentində hələ təsdiq edilməmişdi. Bu isə Türkiyə və Azərbaycanın işləri aparmasına mane olurdu. Digər bir məsələ ondan ibarət idi ki, Ermənistan Azərbaycan ərazilərini işğal etdikdən sonra Türkiyə onunla sərhədləri bağlamışdı və diplomatik əlaqələr də mövcud deyildi. İki ölkə arasında dəmiryolu, hava yolu və avtomobil yolu işləmirdi. Süleyman Dəmirəl ilə keçirilən görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli imkanları, Cənubi Qafqazda təhlükəsizlik, Qafqazın, Orta Asiyanın Avrasiya qitəsi olaraq bir-birinə yaxınlaşması, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisinin sürətləndirilməsi məsələləri müzakirə edildi"**®.

Azərbaycan Prezidentinin səfəri ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və digər ölkələrin mətbuatında geniş işıqlandırıldı. ABŞ mətbuatı Heydər Əliyevin Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin yubadılmasını müzakirə etdiyini, Türkiyənin iştirakı olmadan regionda problemlərin həllinin mümkün olmadığına dair fikirlərini xüsusi qeyd edirdi. Böyük Britaniya mətbuatı səfər zamanı Türkiyə-Ermənistan sərhədinin açılması mümkünlüyünün müzakirə edildiyini, Türkiyənin Qafqazda təhlükəsizlik paktına Rusiyanı daxil etməsi istəyini vurğulayır- dı. Fransa mətbuatı səfər zamanı əsas ixrac neft boru kəmərinin tikintisi məsələsinin müzakirə edildiyinə diqqət ayırırdı. Rusiya mətbuatı isə Türkiyənin Ermənistana təzyiqinin bir nəticə vermədiyini, Ankara ilə Yere

**Əliyev H.Ə. Türkiyə nümayəndə heyəti ilə görüşdə söhbət. 6 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 156-158.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə onbirinci işgüzar səfəri. 9-13 yanvar 2000-ci il. - Heydər Əliyev və Şərq. 6 clddə. Türkiyə. III kitab, s.234-247.**

**1486 0|jygy ıq 0 Xürkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl ilə görüşdə söhbət. 9 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s.172-173.**

van arasında dialoqun başlanmasının faydalı ola biləcəyini, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin Rusiyanın mənfəətinə uyğun olmadığını yazırdı"**’.

Belə bir şəraitdə Azərbaycan və Türkiyə hərbi sahədə əməkdaşlığı davam etdirirdilər. Bunun nümunəsi 2000-ci il aprelin 5-də Azərbaycan ilə Türkiyə arasında Azərbaycan Respublikası Müdafiə Nazirliyi qoşun növləri ixtisas məktəbinin təşkili və təliminə dair protokolun imzalanması oldu'"***. Bu, hərbi sahədə əməkdşalıqda mühüm addım idi.

İki ölkə arasında bu zaman müzakirə olunan əsas məsələlər Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri, Azərbaycan qazının alınması, siyasi münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, Qafqazda baş verən proseslər, Ermənistan - Azərbaycan münaqişəsinin tənzimlənməsi, Azərbaycanın Avropa Şurasına qəbulu və digər məsələlər idi'"*^. Həmin məqsədlə 2000-ci il mayın 28-29-da xarici işlər naziri İsmail Cem Bakıya səfər etdi’'*®". O, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycanın qəbul etdiyi həlli Türkiyənin də qəbul edəcəyini, Azərbaycana hər zaman dəstək verəcəyini, Qafqazda sabitliyin bərqərar edilməsinin çox çətin olduğunu bildirdi"*^'. Görüşdə Azərbaycan qazının alınması məsələsi müzakirə edildi"*®’. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsi zəruri hesab edildi"*®*. Müzakirələr eyni zamanda Türkiyə Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana qarşıdakı səfərinə hazırlıq məqsədi daşıyırdı.

**‘'*®’ Dış başınında Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev’in Türkiye ziyareti (9-16 Ocak). - Ankara, T.C. Başbakanlık Basın-Yayın ve İnformasyon Genel Müdürlüğü, 2000, s. 1,4, 7-9.**

**'"*** Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Azərbaycan Respublikası Müdafiə Nazirliyi Qoşun Növləri İxtisas Məktəbinin təşkli və təliminə dair protokol. 5 aprel 2000-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s.89-94.**

**"*®^ Əliyev H.Ə. Türkiyənin xarici işlər naziri İsmayıl Cem ilə görüşdə söhbət. 29 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s. 399-409.**

**‘'*®° İsmail Cem Azerbaycan’da. - “Türkiye” gazetesi, İstanbul, 2000, 29 Mayıs. "*®‘ Kafkaslarda istikrar zor. - “Sabah” gazetesi, İstanbul, 2000, 30 Mayıs.**

***'**’ Sırada azeri gazı var. - “Milliyet” gazetesi, İstanbul, 2000, 29 Mayıs.**

***'*’’ Boru hattmın önü açıldı. - “Milliyet” gazetesi, İstanbul, 2000, 30 Nişan.**

2000-ci il iyulun 11-12-də Türkiyə Prezidenti Əhməd Necdet Sezər Azərbaycana rəsmi səfər etdi"*®'*. Bu, onun ölkə prezidenti seçildikdən sonra həm ilk xarici səfəri, həm də Azərbaycana birinci rəsmi səfəri idi. Səfərdə məqsəd ikitərəfli münasibətləri qarşılıqlı əsasda daha da dərinləşdirmək, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı genişləndirmək və regional məsələləri müzakirə etmək idi"*^^. Azərbaycan Prezidenti ilə keçirilən görüşdə ikitərəfli münasibətlərin çoxlu tərəfləri müzakirə edil- di"'^^. Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olan Türkiyə Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılmasında Azərbaycanın haqlı mövqeyini birmənalı olaraq müdafiə edirdi. Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində səylərin davam etdirilməsi vacib idi. Məsələyə dair ölkəsinin mövqeyini açıqlayan Əhməd Necdət Sezər bəyan etdi; “Azərbaycan xalqı münaqişənin hansı həllini qəbul edəcəksə, həmin həll Türkiyə tərəfindən də dəstəklənəcəkdir”

Danışıqlarda Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri üstündə Azərbaycana edilən təzyiqlər də müzakirə olundu'^'^*. Rusiya Novorossiysk limanına qədər Azərbaycan neftinin nəqlinə görə 30 milyon dollar vəsait tələb edirdi. Bu iddia qəbul olunmadı. Azərbaycan və Türkiyə dövlət başçıları ilk hədəfin Bakı - Tbilisi - Ceyhan olduğunu bildirdilər’"®^. Neft boru kəmərinin işə düşməsi Türkiyənin təkcə iqtisadi potensialını artırmayacaq, eyni zamanda onu Avropa Birliyi və Avropa dövlətləri ilə daha da yaxınlaşdıracaq, əhəmiyyətini artıracaq və mövqelərini möhkəmləndirəcəkdi.

**^ Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin Azərbaycan Respublikasına birinci rəsmi səfəri. 11-12 iyul 2000-ci il. - Heydər Əliyev və Şərq. 6 clilddə. Türkiyə. III kitab, s. 326-339.**

**Sezer bu gün Azerbaycan’a gidiyor. - “Vakit” gazetesi, İstanbul, 2000, 17 Temmuz.**

**Əliyev H.Ə. Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşdə söhbət. 11 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 142-143.**

**Əliyev H.Ə. Azərbaycan Respublikasının və Türkiyənin nümayəndə heyətləri arasında Azərbaycan - Türkiyə danışıqlarında çıxış. 11 iyul 2000-ci il. — Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.144-150.**

**Bakü’ye enerji çıkarması. - “Cumhuriyet” gazetesi, İstanbul, 2000, 11 Temmuz.**

**İlk hedef Bakü - Ceyhan. - “Hürriyet” gazetesi, İstanbul, 2000, 12 Temmuz.** 

Qeyd etmək lazımdır ki, bu illərdə iki ölkə arasında iqtisadi əlaqələrdə də artım müşahidə edilirdi. Belə ki, əgər 1992-ci ildə Azərbaycandan Türkiyəyə ixrac 35,1 mln. dollar idisə, 1997-ci ildə 58 mln. dollara çatmışdı. Azərbaycanın Türkiyədən etdiyi idxal əgər 1992-ci ildə 102, 8 mln. dollar idisə, 1997-ci ildə 320 mln. dollara çatmışdı'^”®. Beş il içində Azərbaycanın Türkiyəyə ixracı 65%, idxalı isə 221% artmışdı. Bütövlükdə Türkiyə Azərbaycanın xarici ticarətində idxalda birinci, ixracda isə dördüncü yeri tuturdu.

Səfər zamanı Milli Məclisdə çıxış edən Əhməd Necdət Sezər iki ölkə arasında münasibətlərin mövcud vəziyyəti və inkişafına diqqət yetirdi, onu dərinləşdirməyin vacibliyini bildirdi.

İyulun 12-də Azərbaycan qazının Türkiyəyə nəqli barədə saziş imzalandı’^®’. Sazişə görə, Azərbaycan 2004-cü ildə Türkiyəyə 2 milyard kub metr, 2007-ci ildə isə 6,3 milyard kubmetr qaz satacaqdı’^®^. Azərbaycan Prezidenti Türkiyə nümayəndə heyətinə xitabən “bizim qazımız sizin qazınızdır” dedi’^°^. İki ölkə ABŞ-m da dəstək verdiyi Şərq-Qərb və ya Transxəzər layihəsinə tərəfdar çıxdı'^°'*. Bakı - Tbilisi - Ceyhan neft boru kəməri layihəsindən sonra “Şahdəniz” yatağından çıxan qazın Türkiyə ərazisindən ixracı məsələsi də gündəliyə gəldi. Bu, əslində Xəzər dənizi - Aralıq dənizi layihəsi idi. Beləliklə, ikinci böyük meqalayihə həyata qədəm qoydu‘^°^.

**Mehmet Çiftlikli. Türk Cumhuriyetleri’nde yatınm-iş potanseyeli (4). - “Gözlem” gazetesi, İstanbul, 2000,25 Eylül.**

**'^“‘Sami Kohen. Azeri gazına yeşil ışık. - “Milliyet” gazetesi, İstanbul, 2000, 11 Temmuz.**

**Ferruh Demirmen. Azeri gazı: kaçırılan fırsat. - “Cumhuriyet” gazetesi, İstanbul, 2001, 18 Nisan.**

**Aliyev: Bizim qazımız sizin qazınızdır. - “Sabah” gazetesi, İstanbul, 2000, 12 Temmuz.**

**Ferai Tmc. Sezer’in Bakü ziyareti yeni bir başlanğıc. - “Hürriyet” gazetesi, İstanbul, 2000, 10 Temmuz.**

**Sıra Azerbaycan doğalqazında. - “Türkiye” gazetesi, İstanbul, 2000, 11 Aralık.**

Səfərin yekununda birgə bəyanat qəbul edildi’^®®. Bəyanatın imzalanma mərasimində prezidentlər çıxış etdilər’^®’. Azərbaycan Prezidenti iki ölkə arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün hüquqi-normativ baza yaradıldığını, strateji tərəfdaşlıq xarakteri daşıyan sənədlərin əhəmiyyətini qeyd etdi. Əhməd Necdət Sezər isə Türkiyə və Azərbaycanı bölgənin iki mühüm ölkəsi adlandıraraq, Transxəzər layihəsinin böyük əhəmiyyət daşıdığını vurğuladı'^®*.

Bu səfər qarşılıqlı münasibətlərdə yeni imkanlar açırdı. Belə ki, ondan bir müddət sonra, iyul ayında Türkiyə quru qoşunlarının komandanı, ordu generalı Atilla Ateş müdafiə naziri Səfər Əbiyevin dəvəti ilə Azərbaycana səfər etdi. İyulun 17-də onu Heydər Əliyev qəbul etdi'^°®. Görüşdə iki ölkənin quru qoşunları arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Belə bir vaxtda Azərbaycan - Türkiyə münasibətlərinə təsir edən yeni bir məsələ meydana çıxdı. Türkiyənin NATO-da müttəfiqləri olan Fransa və ABŞ-da müzakirə ediləcək uydurma erməni soyqırımı ilə bağlı qərar layihəsinin qəbul olunması gündəliyə gəldi. Bu təhlükənin qarşısını almaq üçün Türkiyə Xarici İşlər Nazirliyi Ermənistan ilə münasibətləri normallaşdırmaq məqsədilə bir strategiya işləyib hazırladı. Lakin həmin məsələdə Türkiyədə fikir birliyi yox idi. Bülent Ecevit Ermənistan ilə ən kiçik normallaşmanın Azərbaycan tərəfindən etirazla qarşılanacağını bildirirdi’^’®.

**° Azərbaycan Respublikası Prezidentinin və Türkiyə Respublikası Prezidentinin birgə bəyanatı. 11 iyul 2000-ci il. - Müqavilələr toplusu. I cild, s.202-206; Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında bəyanat. 11 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 151-155.**

**Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı 11 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.151-152.**

**Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra birgə mətbuat konfransında Türkiyə Prezidenti Əhməd Necdət Sezərin bəyanatı. 11 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s.152-155.**

**Əliyev H.Ə. Türkiyə Cümhuriyyəti quru qoşunlarının komandam, ordu generalı Atilla Atəş ilə görüşdə söhbət. 17 iyul 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIX kitab, s. 202-203.**

**Ermeni planı azerilere sorulacak. - “Milliyet” gazetesi, İstanbul, 2000, 10 Arahk.**

ABŞ və digər dövlətlər isə Türkiyə hökumətinə təzyiqlər edir, Ermənistan ilə sərhəd qapısım açmasını istəyirdilər. Bu vaxtadək Türkiyə Ermənistana hava yolunu açmış, dərmanlar və buğda göndərmiş, carter təyyarələrinin uçuşuna icazə vermişdi. Türkiyə və Ermənistan iş adamları Gürcüstan ərazisindən keçərək ticarət edirdilər. Ermənistan vətəndaşlarına Türkiyəyə vizasız girməyə icazə verilmişdi. Edilməyən bir iş təkcə sərhəd qapısının açılması idi. Lakin Türkiyə bu yaxşı niyyətinin qarşılığında müsbət heç nə almamışdı. Yəni, Ermənistan yumşalmamış, işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmamış, Rusiyadan 1 milyard dollar həcmində silah alaraq Türkiyə ilə sərhəddə yığmış, Türkiyəyə qarşı əsassız ərazi iddiaları, uydurma erməni soyqırımı və təzminat tələblərindən imtina etməmişdi'^". Bütün xarici təzyiqlərə baxmayaraq, Türkiyə Ermənistan ilə sərhəd qapısını açmadı.

Bu zaman Azərbaycan ilə Türkiyə arasında əvvəllər imzalanmış bir sıra sənədlər təsdiq edildi. Türkiyə Cümhuriyyəti Nazirlər Şurası 1999-cu il noyabrın 18-də İstanbulda imzalanmış Türkiyə Cümhuriyyəti, Azərbaycan Respublikası və Gürcüstan arasında neftin Azərbaycan, Gürcüstan və Türkiyə ölkələri üzərindən Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri ilə daşınmasına dair sazişi və 2000-ci il mayın 9-da İstanbulda imzalanan Türkiyə Cumhuriyəti, Azərbaycan Respublikası və Gürcüstan torpaqları üzərindən neftin daşınmasına dair Türkiyə, Azərbaycan və Gürcüstan arasındakı sazişin dəyişdirilməsinə dair üç ölkə arasında protokolu 2000-ci il iyunun 23-də səsverməyə tövsiyə etdi'^'^. Bu sənəd sentyabrın 3-də təsdiq edildi [1513]

**Fatih Altaylı. Azerbaycan, petrol lobisini devreye sokuyor. - "Hürriyet" gazetesi, İstanbul, 2000, 6 Ekim.**

**Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petro- lün Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerin- den, Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla taşmmasına ilişkin anlaşmanın ve Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan toprakları üzerinden petrol taşmmasına dair Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan toprakları üzerinden petrol taşmmasına dair Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasındakı anlaşmanın degiştirilmesine ilişkin Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında protokolun onaylanmasına uyğun bulunduğu hakkmda kanun. 23.06.2000. - T.C.Resmi gazete, Ankara, 2000, 24 Haziran.**

**Türkiye Cumhuriyeti, Azerbaycan Cumhuriyeti və Gürcistan arasında petrolun Azerbaycan Cumhuriyeti, Gürcistan ve Türkiye Cumhuriyeti üikeleri üzerinden, Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattıyla taşmmasına ilişkin anlaşmanın**

İki ölkə arasında münasibətlər müdafiə sənayesi sahəsini də əhatə etməyə başladı. Türkiyənin müdafiə naziri S.Çakmakoğlunun'^’" 2000-ci il sentyabrın 20-22-də Azərbaycana səfəri zamanı müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında müqavilə imzalandı'^'^. Müqavilənin şərtlərinin həyata keçirilməsi Azərbaycan ordusunun ehtiyaclarının ödənilməsində mühüm rol oynayacaqdı.

Bundan bir müddət sonra, oktyabrın 17-də Bakıda Azərbaycan ilə Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri ilə bağlı ev sahibi ölkə sazişi imzalandı. Mərasimdə çıxış edən Heydər Əliyev Xəzər neftinin 2004-cü ildə dünya bazarına çıxarılacağını bildirdi, layihəyəyə mane olan daxili və xarici qüvvələri Azərbaycanın son 7 ildə gördüyü işlərdən dərs almağa çağırdı'^'®. Bu, bir siyasi qələbə idi'^'^. Belə bir saziş Gürcüstan ilə oktyabrın 18-də Tbilisidə imzalandı. Bir gün sonra, oktyabrın 19-da isə Ankarada Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dair ev sahibi və təminatçı sazişləri imzalandı'^'^. Türkiyənin enerji və təbii sərvətlər naziri Cumhur Ərsümər imzalanma mərasimində bu kəmərin əhəmiyyətindən danışarkən onu Türkiyəni Avropaya bağlayan körpü olaraq qiymətləndirdi. Bülent Ecevit isə “XXI əsrin ən əhəmiyyətli layihəsi həyata keçirilməyə hazırdır. Layihə Türkiyə, Qafqaz ölkələri və Orta Asiya ölkələrinin siyasi baxımdan güclənməsinə böyük təsir edəcəkdir”'^’^ dedi.

Artıq boru kəmərinin tikintisi üçün yalnız qazma işləri qalırdı. 2000-ci il dekabrın 13-də Türkiyənin enerji və təbii ehtiyatlar nazirinin müavini Y.Yigitgüdenin başçılıq etdiyi nümayəndə heyətin Azərbaycana səfərində də başlıca məqsəd Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi ilə bağlı məsələlər idi. Kəmərin tikintisinin yubadılması bu sahədə əməkdaşlıq edən ölkələrin heç birinə faydalı deyildi. Tə

**kararlaşdırılmasına dair Bakanlar Kurulunun karan. 03.08.2000. - T.C.Resmi gazete, Ankara, 2000, 10 Eylül.**

**Sabahattin Çakmakoğlu (1930) - Türkiyə dövlət və siyasi xadimi. Daxili işlər naziri (1991). Müdafiə naziri (1999-2002).**

**Azərbaycan - Türkiyə əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 182.**

**Bakü - Ceyhan için en büyük adım. - “Akşam” gazetesi, İstanbul, 2000, 18 Ekim.**

**Bakü - Ceyhanda ilk imza. - “Sabah” gazetesi, İstanbul, 2000, 18 Ekim.**

**Bakü - Ceyhan’da iş artık kazmaya kaldı. - “Hürriyet” gazetesi, İstanbul,**

**2000, 20 Ekim.**

**Bakü - Ceyhan’da son imza. - “Milliyet” gazetesi, İstanbul, 2000, 20 Ekim.**

rəflər boru kəmərinin tikintisinin sürətləndirilməsinin vacibliyini bildirdilər.

Bütün bunlar iki ölkə arasında əməkdaşlığın inkişaf dinamikasını göstərir, münasibətlərin maddi təməllərini möhkəmləndirir, ticarətin həcminin artmasına təsir edirdi. Belə ki, 2000-ci ildə Türkiyə artıq Azərbaycanın xarici ticarətində üçüncü yeri tuturdu. İki ölkə arasında ümumi ticarət dövriyyəsi 150,7 milyon dollar idi. Türkiyədən əsasən avtomobillər, metalkonstruksiya, ərzaq, rabitə avadanlığı, mebel və tikinti materialları ixrac edilirdi. Azərbaycandan Türkiyəyə ixracda neft və neft məhsulları, ilkin alüminium, pambıq mahlıcı, gön-dəri məmulatı və s. mühüm yer tuturdu. Türk kapitalının iştirakı ilə Azərbaycanda istehsal, tikinti və digər sahələr üzrə 1141 müəssisə qeydə alınmışdı. Türkiyə şirkətlərinin Azərbaycana qoyduqları sərmayə təqribən 1,5 milyard dollar həcmində idi.

Azərbaycan - Türkiyə münasibətləri möhkəmləndiyi bir zamanda, 2001-ci ildə Fransa parlamenti uydurma erməni "soyqırımı" layihəsini qəbul etdi. Belə olduqda Türkiyə ona qarşı bəzi embarqolar tətbiq etmək istədi. Türkiyə tərəfi Azərbaycanı da bu məsələyə cəlb etməyə çalışırdı. Həmin məqsədlə Türkiyə Xarici İşlər Nazirliyinin müşaviri Faruk Loğoğlu'^^° Bakıya səfər etdi. Lakin Bakıda keçirilən müzakirələr istənilən nəticəni vermədi. Bunun da əsas səbəbi Fransanın Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə yaradılmış Minsk qrupunun həmsədrlərindən biri olması idi. Bununla belə, Azərbaycan Türkiyə ilə birgə hərəkət etməyə hazır olduğunu bildirdi. Məsələyə Heydər Əliyevin Fransaya səfərindən sonra qəti cavab veriləcəkdi'^^'.

Fransa Prezidenti Jak Şirakın təşəbbüsü ilə Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşmək üçün Parisə gedən Heydər Əliyev Fransa parlamentinin uydurma erməni soyqırımı haqqında qərarına etirazını bildirdi. J.Şirak qanun layihəsini dəstəkləmir, Türkiyə ilə münasibətlərin davamlı inkişafına tərəfdar çıxırdı.

Həm bu, həm də Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri haqqında məsələnin müzakirəsinə ehtiyac duyulurdu. Kəmər barədə qərar qəbul edilməmişdən əvvəl Türkiyədə bir sıra dairələr boru kəmərinin olub-olmayacağı barədə çoxlu suallar verir, müzakirələr açırdılar.

---

**Faruk Loğoğlu (1941) - Azərbaycanda səfir (1996-1998). Türkiyə Xarici İşlər Nazirliyi baş katibinin müavini (2000-2001). ABŞ-da səfir (2001-2005).**

**Loğoğlu Bakü'den eli boş döndü. - Ocak. 'Hürriyef' gazetesi, İstanbul, 2001, 24**

Kəmərin tikintisi barədə qərar qəbul edildikdən sonra sanki Türkiyədə bu barədə unutmuşdular. Ona görə də Heydər Əliyev Türkiyənin Azərbaycandakı səfiri Qədri Ecvet Tezcanı fevralın 12-də qəbul edərək bu məsələlər barəsində fikirlərini çatdırdı'^^^. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin gecikdirilməsinin yolverilməzliyini bildirdi. Türkiyə tərəfi Heydər Əliyevi martın ortalarında Türkiyəyə səfərə dəvət etdi.

Səfər ərəfəsində iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq daha da intensivləşdi. 2001-ci il fevralın 28-də Türkiyə silahlı qüvvələri baş qərargahının müdafiə planlaşdırması və mənbələrin istiqamətləndirilməsi idarəsinin rəisi Ş.Telyazanm rəhbərlik etdiyi nümayəndə heyətinin səfəri çərçivəsində müdafiə sahəsində əməkdaşlığa dair iki sənəd imzalandı. Sənədlərdən biri iki ölkə arasında təmənnasız hərbi yardım müqa- viləsi'^^^, ikincisi isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə baş qərargahı arasında maliyyə yardımı haqqında protokol idi'^^'*. Protokolda Türkiyənin Azərbaycan silahlı qüvvələrinə 3 milyon dollar yardım etməsi nəzərdə tutulurdu'^^^. Sənədlər Azərbaycan Respublikası Prezidentinin 8 may tarixli sərəncamı ilə təsdiq edildi’^^^.

Bütün bu məsələləri müzakirə etmək üçün Heydər Əliyev martın 12-17-də Türkiyəyə üçüncü dəfə rəsmi səfər etdi’^^’. Səfərdə başlıca

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə səfirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 150-156.**

**Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında müqavilə. 28 fevral 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 141-143.**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası silahlı qüvvələrinin baş qərargahı arasında maliyyə yardımı haqqında protokol. 28 fevral 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 143-146.**

**Aslanlı A., Hesenov İ. Haydar Aliyev dönemi Azerbaycan dış poltikası, s.164-165.**

**2001-ci il fevralın 28-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 8 may 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 530.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 237-242; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə üçüncü rəsmi səfəri. 12-17 mart 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 413-498; Sezer ve Aliyev’den Erivana mesaj: ille de**

məqsəd Azərbaycan - Türkiyə əlaqələrini daha da yüksək səviyyəyə qaldırmaq, “Şahdəniz” yatağından çıxarılacaq təbii qazın Türkiyəyə ixracı ilə əlaqədar sazişi imzalamaq, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri. Xəzər dənizini Avropa ilə Orta Asiya arasında bir tranzit yoluna çevirəcək Azərbaycan və Türkiyə arasında imzalanacaq layihələrin həyata keçirilməsi üçün görüləcək işləri dəyərləndirmək; Naxçıvanın problemlərinin həllinə kömək etmək, Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə tənzimlənmək haqqında müzakirələr aparmaq idi'^^^.

Türkiyə mətbuatı Azərbaycan Prezidentinin səfərinə böyük əhəmiyyət verirdiDanışıqlarda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Naxçıvanın problemlərinin həllinə yardım, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisi və Azərbaycan qazının Türkiyəyə verilməsi məsələləri müzakirə edildi'^^°.

Türkiyə hökuməti Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həllinə tərəfdar çıxırdı. Azərbaycan tərəfi Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çəkilmədikcə Türkiyənin Ermənistan ilə sərhədləri açmasının və diplomatik münasibətlər qurmasının əleyhinə idi. Türkiyə Prezidenti bu barədə söz verdi'^^'. Türkiyə tərəfi Naxçıvanın problemlərinin həllinə yardım edəcəyini bildirdi.

Heydər Əliyev daha sonra iki ölkə arasında mövcud olan bəzi məsələləri gündəliyə gətirdi'^^^. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri ilə yanaşı Azərbaycan təbii qazının da Türkiyə tərəfindən satın alınması məsələsini qaldırdı'^^^. Danışıqlarda Azərbaycan qazının Türki-

**Karabağ. - “Hürriyet” gazetesi, İstanbul, 2001, 13 mart; Murat Sökmenoğlu. Haydar Aliyevin ziyareti ve Türkiye. - “Ortadoğu” gazetesi, İstanbul, 2001, 14 Mart.**

**1528 Respublikasının Prezidenti Əhməd Necdət Sezərin bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 243.**

**Ferai Tınc. Önemli ziyaret. - “Hürriyet” gazetesi, İstanbul, 2001, 12 Mart.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin və Türkiyə Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. 1 hissə, s.245-246.**

**Ankara söz verdi. - “Akşam” gazetesi, İstanbul, 2001, 13 Mart.**

**Aliyev’in sitemiyle gezi 5 güne çıkarıldı. - “Hürriyet” gazetesi, İstanbul, 2001, 13 Mart.**

**Bakü - Ceyhan üçün. - “Radikal” gazetesi, İstanbul, 2001, 13 Mart.**

yəyə verilməsi məsələsi müzakirə edildi . Artıq qeyd eildiyi kimi, Türkiyənin Rusiya ilə “Mavi axın” layihəsini imzalaması Azərbaycanda narazılıqla qarşılanmışdı'^^^. Azərbaycan “Şahdəniz” yatağından çıxarılan qaza Türkiyənin maraq göstərməyəcəyindən narahat idi. Bu narahatlıq aradan qaldırıldı. Ankarada Azərbaycan, Türkiyə və türk respublikaları arasında təbii qaz sazişi imzalandı'^^^. Azərbaycan ilə Türkiyə arasında imzalanmış qaz sazişinə görə, Azərbaycan qazı “Şahdəniz”dən Ərzuruma çatdırılmalı idi. Azərbaycan və beynəlxalq əməliyyat şirkəti 250 km.lik qaz boru kəməri xətti inşa edəcəkdi. Bu proses 2004-cü ildə tamamlanacaq və Bakı - Tbilisi - Ərzurum boru kəməri işə salınacaqdı. Sazişə görə, Azərbaycan Türkiyəyə 6 milyard kubmetr qaz satmalı idi. Sazişin həyata keçiriləcəyi təqdirdə Gürcüstanın Rusiyadan asılılığı zəifləyəcəkdi. Türkmənistan qazı bu boru kəməri ilə göndərilməli idi. Sazişə uyğun olaraq Xəzər dənisinin Azərbaycan sektorundan konsorsiumun çıxaracağı qaz Türkiyəyə 15 il boyunca satılmalı idi. Qazın həcmi 86 milyard kubmetr nəzərdə tutulmuşdu. Türkmənistan ilə imzalanması yubadıldığmdan Türkiyə Azərbaycan ilə belə bir sazişi qısa müddətdə işləyib hazırlayaraq im- zaladı'^^^.

Danışıqların yekununda, martın 12-də iki ölkə arasında 9 sənəd - dövlət rəhbərlərinin birgə bəyanatıAzərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və b. imzalandı. Azərbaycan təbii qazının Türkiyəyə nəqlinə dair sazişi Türkiyə Cümhuriyyəti Nazirlər Şurası 2002- ci il aprelin 9-da təsdiq etdi'^^®. Bu saziş Şərq - Qərb enerji dəhlizinin genişləndirilməsi, boru kəmərlərinin gerçəkləşdirilməsi istiqamətində yeni

**Prezident Heydər Əliyevin və Prezident Əhməd Necdət Sezərin rəhbərliyi ilə Azərbaycan - Türkiyə nümayəndə heyətinin görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 247-249.**

**Sami Kohen. Gaza basıldı... - “Milliyet” gazetesi, İstanbul, 2001, 15 Mart.**

**İrfan Ülkü. Demirel - Aliyev - Sezer. - “Ortadoğu” gazetesi, İstanbul, 2001, 14 Mart.**

**Aliyev’le Ankara’da jet imza: türkmen yerine azeri doğalgazı. - “Milliyet” gazetesi, İstanbul, 2001, 13 Mart.**

**Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin və Türkiyə Respublikasının Prezidenti Ə.N. Sezərin birgə bəyanatı.12 mart 2001-ci il. - Müqavilələr toplusu. I cild, s. 217-221.**

**Türkiye Cumhuriyeti ile Azerbaycan Cumhuriyeti arasında Azerbaycan doğal gazımn Türkiye Cumhuriyeti’ne sevkiyatma ilişkin anlaşma’mn onaylanmasına dair Bakanlar Kurulunun karan. 09.04.2002. - T.C.Resmi gazete, Ankara, 2002, 29 Mayıs.**

bir dövrün əsasını qoyur, Azərbaycan ilə Türkiyə arasında ticarət və iqtisadi əlaqələrdə mühüm rol oynayırdı.

Səfər zamanı Azərbaycan Prezidenti TBMM sədri Ömər İzgi'^'*'' ilə görüşdü'^'". Martın 13-də TBMM-də millət vəkilləri qarşısında etdiyi nitqində Heydər Əliyev Azərbaycan - Türkiyə əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını vurğuladı, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın qarşılaşdığı problemlər, ilk növbədə Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi üzərində dayandı, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəblərini izah etdi. Onun fikrincə, birincisi, SSRİ dağıldıqdan sonra Ermənistana bir neçə ölkədəki erməni diasporası yardım etmiş, Azərbaycana isə heç bir yardım edilməmişdi. İkincisi, ermənilər Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal etmək üçün daxildəki bütün ziddiyyətləri aradan qaldıraraq hamısı bir ideya ətrafında birləşmişdilər. Azərbaycan xalqı isə birləşə bilməmiş, hakimiyyət uğrunda mübarizə getmişdi. 1988-1993-cü illərdə Azərbaycanda dörd dəfə hakimiyyət dəyişmişdi'^'*^.

Azərbaycan Prezidenti iki ölkə arasındakı münasibətlərin mövcud vəziyyətinə diqqəti yönəltdi. Türkiyənin Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində iştirakı məsələlərinə toxundu. Məlum olduğu kimi, "Əsrin müqaviləsi" imzalanan zaman Türkiyənin payı 1,75% idi, Azərbaycan öz payından 5%-ni Türkiyəyə vermişdi. "Şahdəniz" yatağında Türkiyənin payı 10% idi. Ümumiyyətlə, Azərbaycan nefti və qazı ilə bağlı imzalanmış bütün müqavilələrdə Türkiyənin payı 35% idi'^"*^. Türkiyə tərəfi Azərbaycana təqribən 460 milyon dollar sərmayə qoymuşdu.

Azərbaycan Prezidenti sözdə erməni soyqırımı iddialarına TBMM kürsüsündən cavab verərək, əsl qətliamı ermənilərin etdiyini, onların dünyanı aldatdıqlarını, belə bir şəraitdə Azərbaycan ilə Türkiyənin birlikdə hərəkət etməsinin vacibliyini vurğuladı

**Ömər İzgi (1940) - TBMM sədri (2000-2002).**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Böyük Millət Məclisinin sədri Ömər İzgi ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 263-264.**

**1542 'pfjj.ı^iyg Böyük Millət Məclisində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, 264-273; Azerbaycan Cumhurbaşkanı Haydar Aliyev'in Genel Kurula hitaben konuşması. - T.B.M.M. Tutanak dergisi. 68-ci birleşim. 13.3.2001, s.480-488.**

**Yenə orada, s. 484.**

**Meclis'te Aliyev ruzgarı. - "Akşam" gazetesi, İstanbul, 2001, 14 Mart.**

Azərbaycan Prezidenti İstanbulda hərbi akademiyaların komandanlarının illik toplantısına qatıldıTürkiyədən geri döndükdə Heydər Əliyev Azərbaycanda türk hərbi bazasının yaradılmasının mümkünlüyünü bildirərək “qurulsa, yaxşı olur” dedi.

Səfərdən dərhal sonra, martın 22-də Türkiyə silahlı qüvvələri baş qərargahının plan və əməliyyat idarəsinin rəisi E.Erdal Azərbaycana səfər edərək Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə silahlı qüvvələrinin baş qərargahı arasında hərbi əməkdaşlığa dair protokolu imzaladı. Aprelin 30-da isə Türkiyə silahlı qüvvələri baş qərargahının maddi-texniki təminat rəisi general Hurşid Tolon'^"^ Azərbaycana gələrək silahlı qüvvələr arasında əməkdaşlıq və hərbi təhsil məsələlərini müzakirə etdi. O, hərbi məktəbdə oldu və hissələrə baş çəkdi'^'*®. Mayın 1-də Türkiyə jandarma qüvvələrinin baş komandanı Aytac Yalman'^'*® Azərbaycana səfər edərək müavafıq dövlət qurumları ilə əməkdaşlıq məsələlərini müzakirə etdi'^^°. Onun fikrincə, Azərbaycanda daxili qoşunlar üçün kadr hazırlığı mükəmməl və dürüst həll edilirdi.

Mayın 13-də Türkiyə xarici işlər nazirinin müavini Yigit Alpoğ- lan'^^' Azərbaycana səfər edərək iki ölkə arasında əməkdaşIğm müxtəlif

**^ Azərbaycan və Türkiyə prezidentləri İstanbulda hərbi Akademiya komandanlarının illik konfransında iştirak etmişlər. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 275-276.**

**Azerbaycan’a türk üssü. - “Milliyet” gazetesi, İstanbul, 2001, 19 Mart.**

**Hurşid Tolon (1942) - Türkiyə hərbçisi. 1 ordu komandanı (2001-2003). Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələrinin nümayəndəsini qəbul etmişdir. 30 aprel 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 clddə. Türkiyə. 111 kitab, s.524-527; Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələrinin nümayəndəsini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 422-423.**

**Aytac Yalman (1940) - Türkiyə hərbçisi. Jandarma baş komandanı (2000-2002). Quru qoşunları komandanı (2002-2004).**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin jandarma qüvvələri baş komandanını qəbul etmişdir. 1 may 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 527-529; Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin jandarma qüvvələri baş komandanını qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 427-428.**

**Yigit Alpoğlan (1945) - Türkiyə diplomatı. Milli Təhlükəsizlik Şurasının ilk mülki baş katibi (2004).**

tərəflərini müzakirə etdi'^^^. Mayın 15-də Azərbaycan təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında saziş imzalandı'^^^. Elə həmin gün Heydər Əliyev Türkiyə silahlı qüvvələri baş qərargahının əməliyyat rəisi, korpus generalı Köksal Karabayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi'^^'*. Görüşdə iki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edildi. Bu zaman Türkiyənin Azərbaycanda piyadalar, topçular və tank- çılar üçün məktəblər qurması nəzərdə tutulmuşdu. İyulun 17-də Türkiyə quru qoşunlarının komandanı Atilla Atəşin Azərbaycana səfəri zamanı iki ölkə arasında hərbi sahədə əməkdaşlığın həyata keçirilməsi, müdafiə və ordu quruculuğu məsələləri müzakirə edildi'^^^. Azərbaycan Prezidenti Türkiyə baş qərargahının nümayəndə heyətini qəbul etdi'^^*. Görüşdə müdafiə nazirlikləri arasında əməkdaşlıq və əsgər hazırlığı məsələləri müzakirə edildi. Bundan az sonra Naxçıvanda Türkiyə silahlı qüvvələrinin yardımı ilə hərbi məktəb açıldı.

2001-ci ilin yayında Xəzər dənizində baş verən hadisə Azərbaycan - Türkiyə münasibətlərinin təməllərinin möhkəm olduğunu göstərdi. Artıq qeyd edildiyi kimi, İran Xəzər dənizinin Azərbaycan sektorunda kəşfiyyat işlərini aparan Azərbaycan gəmiləri və "Alov" və "Şərq" yataqlan üzərinə hərbi təyyarələrlə hücuma keçərək təhdid etmişdi. Kəşfiyyat işlərini aparan "Geofızik 3" gəmisini oradan uzaqlaşdırmışdı. İran təyyarələri 50 dəqiqə ərzində Xəzər dənizində Azərbaycan hava məkanı üzərində uçmuşdular. Azərbaycan İrana etiraz notası vermişdi. Lakin bu az idi. Ona güc göstərilməliydi. Ankara bu məsələdə Azərbaycanın arxasında durduğunu Tehrana

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə xarici işlər nazirinin müavinini qəbul etmişdir. 13 may 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, S.531-533.**

**Azərbaycan təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında saziş. 25 may 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 178-180.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələri baş qərargahının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 641-644.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti quru qoşunlarının komandanının qəbul etmişdir. 17 iyul 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s.551-553.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələri baş qərargahının nümayəndə heyətini qəbul etmişdir. 16 iyun 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s.546-550.**

bildirdi'^^^. irana nota verən Türkiyə bununla da Xəzər dənizi məsələsinə qatılmış oldu'^^*.

NATO üzvü olan Türkiyə və ABŞ Azərbaycanı birmənalı olaraq müdafiə etdilər'^^®. İsrail də Azərbaycanın haqlı mövqeyini dəstəklədi. Avqustun əvvəllərində Ankaraya səfər edən İsrailin Baş Naziri Ariel Şaron'^^° Baş Nazir Bülent Ecevit ilə keçirdiyi danışıqlarda Xəzər dənizi məsələsində Azərbaycana yardım edilməsinin vacibliyini vurğuladı.

Xəzər dənizində gərginlik yarandığı bir zamanda Türkiyə Milli Təhlükəsizlik Şurası Orta Asiya və Qafqaza dair yeni təşəbbüslər irəli sürdü'^^'. Bu təşəbbüslər çərçivəsində baş qərargah rəisi Hüseyn Kıvrıkoğlunun Azərbaycana səfəri və türk hərbi təyyarələrinin Bakıya göndərilməsi barədə qərar qəbul edildi. Yeni təşəbbüsə görə, Türkiyə türk cümhuriyyətlərinin Xəzər dənizi kimi region problemlərinə xüsusi maraq göstərəcək, bu ölkələrlə hərbi əməkdaşlığını genişləndirəcəkdi. Aşağıdakı istiqamətlərdə konkret addımların atılması barədə qərar qəbul edildi: diplomatk nümayəndəliklər gücləndirilsin; diplomatik nümayəndəliklərin sayı artırılsın; regiona daha peşəkar diplomatlar göndərilsin; türk cümhuriyyətlərinin təhlükəsizlik problemləri səbəbi ilə bölgə güclərinin təsirinə qarşı hərbi əməkdaşlıq gücləndirilsin; Ermənistan istisna olmaqla bütün digər ölkələrlə hərbi və təhsil sahəsində əməkdaşlıq gücləndirilsin; Özbəkistan və Qırğızıstanda islamçı terrora qarşı mübarizəyə dəstək verilsin; bunları daha da gücləndirmək üçün yollar axtarılsın; Xəzər dəni- zlninin hüquqi statusu məsələsində daha təsirli mövqe tutulsun; region siyasətini dərindən izləmək üçün yeni bir qurumun yaradılması məsələsinə baxılsın; regiona yüksək səviyyəli nümayəndə heyətləri göndərilsin.

Əvvəllər region siyasətində ləng hərəkət edən Türkiyə bu dəfə mövqeyini açıq şəkildə ortaya qoydu. Bunun da çoxlu səbəbləri var idi. Səbəblərdən biri Azərbaycan ilə İranı üz-üzə qoyan Xəzər dənizinin

**'^^'Özgen Acar. Bakü - Tahran - Ankara gerginliği. - "Cumhuriyet" gazetesi, İstanbul, 2001,21 Ağustos.**

**Cengiz Çandar. Türkiye, İsrail, İran, Azerbaycan karışık hesablar. -"Yeni Şafak" gazetesi, İstanbul, 2001, 14 Ağustos.**

**Cengiz Çandar. Türkiye'nin İran yanlışı. - "Yeni Şafak" gazetesi, İstanbul, 2001, 19 Ağustos.**

**Ariel Şaron (1928) - İsrailin Baş Naziri (2001-2006).**

**1561 -pürkiyeden Orta Asiya atağı. - "Cumhuriyet" gazetesi, İstanbul. 2001, 24 Eylül.**

sektorundakı zəngin neft yataqları idi. İran neftə daha çox sahib olmaq istəyirdi. Bu isə Azərbaycan ilə İran arasında münasibətləri gərginləşdirirdi.

Azərbaycan Respublikasında 7 milyon, İranda isə 30 milyondan çox azərbaycanlı, türk yaşayırdı. Tehran şəhərinin əhalisinin üçdə biri azərbaycanlı idi. İranı uzun tarix boyu türk sülalələri idarə etmişdilər. İran ilə Türkiyə arasında tarixi və mədəni bağlar var idi. Amma Türkiyə bütün bu amillərin üstünlüyünü qəbul edərdisə, həm Xəzər dənizini, həm də Orta Asiyaya gedən yola nəzarəti itirərdi. Türkiyə İran ilə qonşu, həm də ticarət ortağı idi. Təkcə 2001-ci ilin ilk dörd ayında Türkiyə İrandan 1,5 milyard kubmetr qaz almışdı

Türkiyənin Xəzər dənizi məsələsinə münasibəti yalnız neftlə bağlı deyildi. Məlum olduğu kimi, beynəlxalq dəniz hüququ konvensiyasına görə, dəniz sahələrində sərhəd 12 mildir. Türkiyə Egey dənizi baxımından həmin konvensiyaya qoşulmamışdı və Xəzər dənizində buna bənəz bir qayda qurulmasına çalışırdı. Əgər eyni şey Xəzər dənizində tətbiq olunardısa, onda bu. Egey dənizinə də aid edilə bilərdi. Ona görə də Türkiyə Xəzər dənizinin hüquqi statusu məsələsini diqqətlə izləyirdi.

Belə bir gərgin şəraitdə, Hüseyn Kıvrıkoğlu Azərbaycana səfər etdi. Səfərdə başlıca məqsəd Azərbaycan ordusunun qurulması sahəsində məlumat almaq, hərbi məktəbdə məzun gününə qatılmaq, Türkiyə hərbi hava qüvvələri təyyarələrinin Bakı səması üzərində uçuşlarını izləmək idi.

Avqustun 25-də Hüseyn Kıvnkoğlunu qəbul edərkən Azərbaycan Prezidenti "Sizin bu səfəriniz son günlərdə baş verən hadisələr üzündən çox böyük əhəmiyyət daşıyır" dedi. Səfər zamanı Hüseyn Kıvrıkoğlu "Azərbaycan bayrağı" ordeni ilə təltif edildi'^^". Azərbaycan tərəfi Türkiyə ilə hərbi əməkdaşhqldan məmnun idi'^^^.

**Cengiz Çandar. Hazarda olmak veya olmamak. - "Yeni Şafak" gazetesi, İstanbul, 2001, 22 Ağustos.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi Hüseyn Kıvnkoğlunu qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001.1 hissə, s. 816-818; Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi Hüseyn Kıvnkoğlunu qəbul etmişdir. 25 avqust 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 clddə. Türkiyə. 111 kitab, s.557-559.**

**Türkiyə silahlı qüvvələrinin baş qərargah rəisi Hüseyn Kıvnkoğluna "Azərbaycan bayrağı" ordeni təqdim edilmişdir. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001.1 hissə, s. 818.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. 25 avqust 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 111 kitab, s. 560-564.**

Təltifolunma mərasimindən sonra Hüseyn Kıvrıkoğlu və Heydər Əliyev Zığ qəsəbəsində yerləşən Azərbaycan hərbi məktəbində məzunlara diplom təqdimedilmə mərasiminə qatıldılar. Bu zaman türk silahlı qüvvələrinin 10 ədəd F-16 təyyarəsi Bakı səmasında 20 dəqiqə dövrə vurdu'^®®. Türkiyə təyyarələrinin Bakı üzərində uçuşları bir çox şeyə işarə edirdi. Hər şeydən əvvəl, belə bir hadisə o vaxtadək Azərbaycanda heç görünməmişdi. İkincisi, Türkiyə hərbi hava qüvvələrinin dünyanın öndə gələn gücə sahib olmasında idi.

Baş qərargah rəisi Azərbaycana hərbi yardımların davam edəcəyini bildirdi və Xəzər neft mənbələri üzərində gərginlik yaradan hərəkətlər əleyhinə Azərbaycana tam dəstək verdi. Regionda sülh və sabitliyin olması Türkiyənin ən böyük arzusu idi'^^^.

Hüseyn Kıvnkoğlunun Azərbayc'ana səfərinin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Türkiyə - Azərbaycan əməkdaşlığı ortaq maraqlara əsaslanırdı. Bu səfər bir müddət unudulmuş coğrafiyaya Türkiyənin dönüşü anlamına gəlirdi. Türkiyə uzun illər boyu Xəzər dənizi məsələsində Azərbaycan - İran anlaşmazlığında bitərəfliyini qoruyub saxlamışdı. Lakin bu səfər Türkiyənin Xəzər dənizində təhlükəsizlik məsələlərində bitərəf olmadığını göstərdiHüseyn Kıvnkoğlunun səfəri Türkiyənin bir NATO ölkəsi olaraq davranışından doğurdu'^*^.

Türkiyə hərbi hava qüvvələri təyyarələrinin Bakı səmasında uçuşlarını bəzi türk mətbuat orqanları "akrobatik diplomatiya" kimi qiymətləndirdilər. Amma qeyd etmək lazımdır ki, bu uçuş bir il, Hüseyn Kıvrıkoğ- lunun səfəri isə üç ay əvvəl planlaşdırılmışdı'^™. Xəzər dənizindəki məlum hərəkətlərdən sonra türk təyyarələrinin Bakı səmasında uçuşları ona tamam başqa məna verirdi. Azərbaycanlılar bu səfəri və uçuşları Türkiyənin mövqelərinin möhkəmləndirilməsi, türklər isə Türkiyənin gücü kimi qiymətləndirirdilər. Lakin Türkiyə Xarici İşlər Nazirliyinin və baş qərargahın yaydığı məlumatda uçuşların məqsədinin Ermənistan olduğu vurğu-

**Bu mesaj anlaşılır. - "Milliyet" gazetesi, İstanbul, 2001, 26 Eylül; Türk yıldızları Bakü'yü coşturdu. - "Hürriyet" gazetesi, İstanbul, 2001,25 Eylül.**

**Tek millet, iki devletiz. - "Hürriyet" gazetesi, İstanbul, 2001, 26 Eylül.**

**Semih İdiz. Türk - azeri ilişkileri ortak çıkarlara dayanıyor. - "Star" gazetesi, İstanbul, 2001,28 Ağustos.**

**Uhsan Çaralan. Buyurun ulusal güvenlik'e. - "Evrensef'gazetesi, 2001, 28 Ağustos.**

**'^^"Erdal Güven. Akrobatik diplomasi. - "Radikal" gazetesi, İstanbul, 2001, 26 Ağustos.**

lanırdı. Əlbəttə, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarında Türkiyənin payının da olduğu, sərmayə qoyduğu nəzərdən qaçırılmazdısa, səfərin və türk hərbi təyyarələrinin hansı ölkələrə qarşı yönəldiyi tam aydın olurdu. Bu məsələdə ABŞ və Türkiyə Azərbaycanı birmənalı olaraq müdafiə edirdilər.

Əgər Xəzər dənizi məsələsində Ankara ilə Tehran arasında bir fikir ayrılığı üzə çıxmasaydı, Hüseyn Kıvnkoğlu Azərbaycana səfər etməsəydi və türk təyyarələri Bakı səmasında uçmasaydılar onda İran heç bir zaman etiraz etməzdi. İran hökuməti Türkiyənin hərəkətlərini qızışdırıcılıq kimi qiymətləndirdi. Ankara isə bu hərəkəti ilə Xəzər dənizi məsələsinin danışıqlar vasitəsilə həll edilməsi barədə Tehrana bir işarə verdi'^’’. İranın Türkiyəyə qarşı olan etimadının aşağı olmasının bir sıra səbəbləri var idi. İran tərəfi Türkiyəni regionda rəqib, siyasətini həyata keçirməkdə bir maneə olaraq görür, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərini milli mənafelərinin əleyhinə olan kimi qiymətləndirir, Azərbaycan neftinin öz ərazisindən keçərək dünya bazarına çıxarılmasına çalışırdı.

Bu hadisədən sonra Azərbaycan mətbuatında Türkiyə ordusunun Xəzər dənizində bir təminatçı olması barədə fikirlər yer aldı'^’^. Türkiyə və Azərbaycan mətbuatı həmin hadisəni “türk düşmənlərinə mesaj” kimi qiymətləndirdi. Türk mətbuatı yazırdı ki, Hüseyn Kıvnkoğlunun səfəri “Azərbaycanın özünə inamını artırdı ,[1573] “Türkiyə möhtəşəm dönüş etdi” [1574]

Türkiyə hərb təyyarələrinin və Hüseyn Kıvnkoğlunun Azərbaycana gəlişi artıq qeyd edildiyi kimi, İranda narahatlıq yaratmışdı . İranda nəşr ediıən “Resalet” qəzeti “Xəzərdə qundaqçıhq” başlıqlı yazısında Türkiyə və Azərbaycanın hərəkətlərinin region ölkələrinin təhlükəsizliyini təhdid etdiyini yazırdı. İran baş qərargahı Türkiyə təyyarələrinin Azərbaycana gəlməsini “macəraçı bir jest” adlandıraraq, gərginliyi artırmaqda ABŞ-ı təqsirkar hesab etdi'^’®. İranın xarici işlər naziri Kamal Xərrazi “regionda

**Sami Kohen. İran neden kızıyor? “Milliyet” gazetesi, İstanbul, 2001, 25 Ağustos.**

1572 **Hazarda ittifaq dönemi. -“Yeni Şafak” gazetesi, İstanbul, 2001, 21 Eylül.**

**Halit Kakınç. Türkiye, Azerbaycanda üs kurmalı. - “Star” gazetesi, İstanbul, 2001, 23 Ağustos.**

**İrana gözdağı. - “Hürriyet” gazetesi, İstanbul, 2001, 23 Eylül.**

**^Baküye çıkarma. - “Radikal” gazetesi, İstanbul, 2001, 23 Eylül.**

1576 **F-16 hüzursuzluğu. - “Sabah” gazetesi, İstanbul, 2001, 20 Eylül.**

qızışdırıcı hərəkətlərin olmayacağına ümidini" bildirdi . Xəzər dənizinin sahilyanı ölkələrin olduğu qənaətini bəyan edən İran tərəfi Azərbaycana nota verdi. Azərbaycanın cavabı İranı qane etmədi. Kamal Xərrazi dedi: "Əliyev qonşu bir ölkənin prezidentidir və biz daim Bakı ilə dostluq əlaqələrini inkişaf etdirmək istəyirik".

Xəzər dənizində gərginliyin artdığı bir zamanda ABŞ-da dəhşətli terror aktları törədildi. 2001-ci sentyabrın 11-də terrorçular qaçırdıqları iki təyyarə ilə Nyu Yorkda Dünya ticarət mərkəzini dağıtdılar, ölkənin bir neçə yerində terror aktı törətdilər. Bu, ağır bir hadisə idi. ABŞ İkinci dünya müharibəsindən sonrakı dövrdə ilk dəfə olaraq evində vurulmuşdu.

Terror hadisəsi dünya ölkələri, o cümlədən Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq məsələsini gündəliyə gətirdi. Bundan sonra terrorizm əleyhinə mübarizə daha da aktuallaşdı. Terrorizm əleyhinə mübarizədə Türkiyənin böyük təcrübəsi var idi. Türkiyə, Azərbaycan və Gürcüstan terrorizm, mütəşəkkil cinayətkarlıq və qaçaqmalçılıq əleyhinə mübarizədə səyləri birləşdirmək qərarına gəldilər. Türkiyə Prezidenti bu barədə təklifini ilk olaraq Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə söylədi. Onun razılığını aldıqdan sonra məsələni Heydər Əliyev ilə müzakirə edərək razılaşdılar. Üç dövlət başçısının yüksək səviyyəli görüşünün keçirilməsi qərarlaşdırıldı'^™.

ABŞ Əfqanıstanda hərbi əməliyyatlara başladıqda Türkiyə Prezidenti Əhməd Necdet Sezər Azərbaycan Prezidentinə zəng edərək Birləşmiş Ştatlara dəstək verilməsinin beynəlxalq əhəmiyyətini vurğuladı. Azərbaycan tərəfi terrorizm əleyhinə mübarizədə hava sahəsini açacağını bildirdi . Azərbaycan Türkiyə ilə bu sahədə sıx əməkdaşlığa başladı.

Bundan sonra iki ölkə arasında enerji sahəsində bir sıra sənədlər təsdiq edildi. Oktyabrın 17-də Türkiyə Respublikasının Nazirlər Şurası Azərbaycan, Gürcüstan, Türkiyə və Türkmənistan arasında Xəzər dənizindən keçəçək boru xəttinin prinsiplərinə dair hökumətlərarası bəyannaməni təsdiq etdi'^*°.

**[1577] Kıvnkoğlunun Bakü çıkarması. - 'Cümhuriyet" gazetesi, İstanbul, 2001, 23 Eylül.**

**Teröre karşı üçlü ittifak. -"Yeni Şafak" gazetesi, İstanbul, 2001, 17 Eylül.**

**ABD'ye destek üçün telefon diplomasisi. - "Hürriyet" gazetesi, İstanbul, 2001,28 Eylül.**

**Azerbaycan, Gürcistan, Türkiye ve Türkmensitan arasında Hazar geçişli boru hattı projesinin uygulanmasına ilişkin Hazar geçişli boru hattının uyğulanma**

Türkiyənin xarici işlər naziri İsmail Cem 2001-ci ilin oktyabr ayında Azərbaycan, Türkiyə və Gürcüstan dövlət başçılarının təhlükəsizliyə dair görüşünə hazırlıq məsələlərini müzakirə etmək məqsədi ilə Bakıya səfər etdi. Oktyabrın 21-də İsmail Cemi qəbul edən Heydər Əliyev terror əleyhinə mübarizədə Türkiyənin böyük təcrübəsinin olduğunu bildirdi'^*'. Görüşdə Azərbaycan Prezidenti Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərlərinin təhlükəsizliyinin təmin edilməsini, Ermənistanın terror siyasətini önə çəkdi, ABŞ-da baş verən terror hadisəsini ittiham etdi'^*^.

Azərbaycan və Türkiyənin hər zaman bir-birinə arxa olduqlarını, Əfqanıstan və Qafqazda vəziyyətin qarışdığını deyən Türkiyənin xarici işlər naziri üç ölkə arasında təhlükəsizliyə dair əməkdaşlığın vacibliyini, Azərbaycanın bu məsələdə əhəmiyyətini qeyd etdi. Türkiyə tərəfi Azərbaycanın Əfqanıstana hərbçilərini göndərməsini təklif etdi. Azərbaycan antiterror hərəkatında iştirak etməyə hazır idi. Az sonra Azərbaycan hərbçiləri Türkiyə sülhməramlı qüvvələrinin tərkibində Əfqanıstana yola salındı.

11 sentyabr terror hadisəsindən sonra Orta Asiyanın əhəmiyyəti daha da artdı. Bundan istifadə edən ABŞ və Rusiya regionu nəzarət altına almaq üçün sanki yarışa girdilər. Orta Asiyanın və Qafqazın ən böyük "gözü" olan Qəbələ Radiolokasiya sistemi Orta Şərq, Hind okeanı, Çin və Avstraliyaya qədər hava məkanına nəzarət etmək imkanı verirdi. Azərbaycan və Rusiya prezidentləri müvafiq sənədi imzaladıqdan sonra Qəbələ RLS 10 illiyə Rusiyaya icarəyə verilmişdi. Azərbaycan və Rusiya ondan birgə istifadə edirdilər. ABŞ hələ 90-cı illərin əvvəllərində Körfəz müharibəsi zamanı İraqdakı Skad tipli raketləri müəyyənləşdirmək üçün RLS-in məlumatlarından yararlanmışdı. Qəbələ obyektində 1500 nəfər çalışırdı. Onların 500 nəfəri azərbaycanlı idi. Rusiya icarə haqqı olaraq Azərbaycana 2010-cu ilə qədər 101 milyon dollar ödəməli idi.

Artıq qeyd edildiyi kimi, ABŞ-dakı terror hadisəsi Türkiyənin də regiona diqqətini artırmışdı. Türkiyə, Azərbaycan və Gürcüstan arasında

**iikeleri hakkmda hükümetlerarası deklarosyonun onaylanmasına uyğun bu- lunduğuna dair kanun. 17.10.2001. -T.C. Resmi gazete, Ankara, 2001, 18 Ekim.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 970- 974.**

**İsmail Cem: İKÖ ile AB bir araya gelsin. - "Milli gazete" gazetesi, İstanbul, 2001,22 Ekim.**

imzalanan müqaviləyə görə, türk hərbi təyyarələri Gürcüstanın ardınca Azərbaycanın da hərbi hava limanlarından istifadə edə bilərdi. Bu, Türkiyənin Qafqazda hərbi varlığını gücləndirməsi yönündə bir addım idi. Buna qədər Gürcüstanın Marneuli rayonunda hərbi hava bazası açılmışdı. Gürcüstanın Kvemo Kartli (Borçah) regionunun qubernatoru Levon Ma- maladzenin sözlərinə görə, bazadan Əfqanıstan və digər yerlərdə antiterror əməliyyatlarına qatılan Türkiyə hərbi hava qüvvələrinə məxsus təyyarələr istifadə edirdi'^*^ Türkiyənin Bakıdakı səfiri Əhməd Ünal Çe- viközün'^*'' fikrincə, Gürcüstanda olduğu kimi Azərbaycanda da bir hərbi bazadan istifadə edilməsi ilə türk hərbi hava qüvvələri təyyarələri yeni bir hava sahəsindən istifadə edəcək, hərbi mövqeyini gücləndirəcək, digər tərəfdən bu ölkələr Türkiyə vasitəsi ilə NATO-ya yaxınlaşacaqdılar. Bu isə Rusiya və Ermənistanın narahatlığına səbəb olurdu. Ona görə də münasibətlərin ən vacib məsələləri 2002-ci il fevralın 6-10-da Türkiyə Böyük Millət Məclisinin sədri Ömər İzginin Azərbaycana rəsmi səfəri zamanı müzakirə edildi. Səfəri ərəfəsində o, baş qərargah rəisi Hüseyn Kıvnkoğlu və ABŞ-m Ankaradakı səfiri Robert Pearson, Baş Nazir Bülent Ecevit ilə görüşdü. Müzakirə edilən məsələlərdən biri Türkiyənin baza adlandırdığı Qəbələ analitik-informasiya mərkəzi haqqında idi'^*^.

Azərbaycan parlamentində keçirilən görüş zamanı TBMM sədri Rusiyanın Qəbələ RLS-in uzun müddət icarəyə götürməsinə ölkəsinin isti yanaşmadığını bildirdi. Bunu Rusiyanın regionda təsirinin artması kimi qiymətləndirərək Ankaranın narahatlığını çatdırdı'^^^. Rusiyanın Qəbələ RLS-ni 10 il müddəti üçün icarəyə götürməsi, iki il ərzində 16 dəfə saziş imzalaması isti qarşılanmırdı. Onun fikrincə, Rusiya bu addımları atarkən Türkiyəni də diqqətə almalı idi. Qeyd etmək lazımdır ki, BBC televiziyası bu fikirləri "Türkiyə Bakı - Moskva radar anlaşmasını qınadı" kimi xəbərlər yayımladı'^*'.

Azərbaycan parlamentinin sədri Qəbələ RLS-in Rusiyaya icarəyə verilməsini iqtisadi məsələlərlə əlaqələndirdi. Onun sözlərinə görə. Orta Şərq, Orta Asiya və cənub yarımkürəsindəki bütün raketlərin hərəkətlərini

[1583] **Türkiye'ye iki üs. - "Milliyet" gazetesi, İstanbul, 2002, 3 Ocak.**

**Əhməd Ünal Çeviköz (1952) Türkiyə diplomatı. Azərbaycanda səfir (2001-2004).**

**Yavuz Donat. Derin kulisler. - "Sabah" gazetesi, İstanbul, 2002, 12 Şubat. ' Türk-rus üs kavgası. — "Milliyet" gazetesi, İstanbul, 2002, 10 Şubat. Radar krizi. - "Zaman" gazetesi, İstanbul, 2002, 10 Şubat.**

izləyən Qəbələ RLS-in məlumatları Türkiyəyə verilə, gələcəkdə belə bir müqavilə imzalana bilərdi.

Ömər İzgi Azərbaycanın suverenlik haqqı olduğunu, istənilən ölkə ilə istədiyi müqaviləni imzalaya biləcəyini söylədi. Ancaq “ruslara bir dinləmə bazası qurma izni verməniz bizi çox rahatsız edir” dedi. Əlavə etdi ki, Türkiyə Ermənistan ilə bir anlaşma edərkən Azərbaycanın maraqlarını udur və yaxşı münasibətləri zədələmək istəmir. Azərbaycan rəsmiləri Qəbələdən Türkiyənin dinlənmədiyini bildirdilər. Cavabında Ömər İzgi dedi: “Yəni Tehran, Pekin, Əfqanıstan, Orta Asiya dinlənəcək, Ankara dinlənməyəcəkdir?”

Rusiyada isə Azərbaycan ərazisində baza qurulması məsələsinə fərqli münasibət var idi. Rusiya Müdafiə Nazirliyi Qəbələ RLS-in Qafqaz bölgəsində təhlükəsizliyin təmin edilməsində rol oynadığı qənaətində idi. Nazirliyin nümayəndəsi İnterfaks agentliyinə verdiyi müsahibəsində Azərbaycan ərazisində hərbi baza yaradılması məsələsinə gəlincə qeyd etdi ki, Azərbaycan bir müstəqil dövlət olaraq ərazilərindən sərbəst istifadə etmək hüququna sahibdir. Ancaq Moskvanın belə bir hadisəni müsbət qarşılayacağını gözləmək olmazdı. Rusiya mətbuatı “ümid edirik, Azərbaycan parlamenti sədrinin sözləri Bakının rəsmi mövqeyi deyildir” kimi üstüörtüklü bir fikir ifadə etdi'^^*.

Məlum olduğu kimi. Cənubi Qafqaz regionunda terrorizm, qanunsuz narkotik və psixotrop maddə qaçaqmalçılığı əleyhinə mübarizədə əməkdaşlıq məsələləri aktual olaraq qalırdı. Bölgədə beynəlxalq terror təşkilatlarının bazaları mövcud idi'^*®. Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərlərinin təhlükəsizliyinin qorunması zərurəti Türkiyə, Azərbaycan və Gürcüstanın səylərini birləşdirməsini zəruri edirdi. Ona görə də 2002-ci il aprelin 29-30-da Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Trabzonda zirvə görüşü keçirildi’^^®. Trabzon görüşündə əsasən iki məqsəd var idi: əməkdaşlığı artırma və təhlükəsizliyi gücləndirmə. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Əhməd Necdət Sezər soyuq müharibə başa çatdıqdan sonra Azərbaycan və Gürcüstanın dövlət müstəqilliklərinin elan edilməsinin əhəmiyyətini, Türkiyənin Qafqaz və Orta Asiya siyasətində yeni imkanlar açdığını, Bakı -

**Radar krizi. - “Yeni Asır” gazetesi, İstanbul, 2002, 10 Şubat.**

**Kafkasya üçlemesi. - “Hürriyet” gazetesi, İstanbul, 2002, 30 Nisan. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə onüçüncü işgüzar səfəri. 29 aprel 2002-ci il. - Heydər Əliyev və Şərq.**

**6 cilddə. Türkiyə. III kitab, s.604-616.**

Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərlərinin dünyanın enerji xəritəsində dəyişiklik etdiyini, 11 sentyabr terror hadisəsindən sonra təhlükəsizlik məsələlərinin ön plana çıxdığını qeyd etdi.'^^'

Nitq söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev terrorizm əleyhinə mübarizədə əməkdaşlığın zəruriliyini vurğuladı və bu sahədə ABŞ-m səylərini dəstəklədi'^^'. Beynəlxalq terrorizm, narkotik və psixotrop maddə qaçaqmalçılığı əleyhinə mübarizənin vaciblyini, ölkələrin daxilində siyasi sabitliyin əsas amillərindən biri olan regional təhlükəsizliyin qorunmasının, buna görə də Qafqazda təhlükəsizliyin təmin edilməsinin əhəmiyyətini qeyd etdi.

Zirvə görüşünün nəticəsində aprelin 30-da Türkiyə, Azərbaycan və Gürcüstan arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında 27 maddədən ibarət saziş imzalandı’^®^. Sazişin məqsədi Qafqazda sülh və təhlükəsizliyin saxlanılması idi'^^'*. Sənəddə Şərq - Qərb enerji dəhlizinin təhlükəsizliyinin qorunması məsələləri əksini tapmışdı. Sazişi Türkiyə Cümhuriyyəti Nazirlər Şurası 2002- ci il iyunun 1-də'^^^ Azərbaycan tərəfi isə iyulun 2-də'^®* təsdiq etdi. Gürcüstan da sazişi təsdiqlədi.

**Sezer: Barış kalıcı olmalı. - “Cumhuriyet” gazetesi, İstanbul, 2002, 30 Nisan. Türkiyə Respublikası, Azərbaycan Respublikası və Gürcüstan Respublikası prezidentlərinin Trabzon zirvə görüşündə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqi. 29 aprel 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s.607-610; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 191-194.**

**Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında saziş. 30 aprel 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 427-433.**

**Trabzonda tarihi güvenlik anlaşması. - “Hürriyet” gazetesi, İstanbul, 2002, 1 Mayıs.**

**Gürcistan, Azerbaycan ve Türkiye arasında imzalanan terörizm, örgütlü suçlar ve diger önemli suçlarla mücadele anlaşmasının onaylanmasına dair karar. 01.06.2002. -T.C. Rezmi gazete, Ankara, 2002, 9 Temmuz.**

**Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ağır cinayətlərə qarşı mübarizə haqqında sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu. 2 iyul 2002- ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 427.**

Zirvə görüşünün yekununda dövlət başçıları birgə bəyanat verdilər. Azərbaycan Prezidenti beynəlxalq terrorizm əleyhinə mübarizəni bütün bəşəriyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri kimi qiymətləndirdi'^'^

Görüşün və imzalanan sənədin böyük əhəmiyyəti var idi. Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri terrorizm, mütəşəkkil cinayətkarlıq və qaçaqmalçılıq əleyhinə mübarizə məsələlərində birgə əməkdaşlığın əsasını qoydular. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dair qəti mövqe nümayiş etdirdilər'^^*. Türkiyə üçün vacib məsələ olan boru kəmərinin təhlükəsizliyinin təmin edilməsində və Orta Asiyaya dəhliz açılmasında irəliləyiş əldə edildi.

Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin Trabzon görüşü Ermənistanda və bəzi digər ölkələrdə yanlış anlaşıldı'^'^. Rusiya mətbuatında Trabzon zirvə görüşü ABŞ-ın dəstəyi ilə Türkiyənin Qafqazda Rusiya əleyhinə bir cəbhə qurmağa hazırlığı kimi qiymətləndirilirdi'®''®. Rusiya və Ermənistanı düşündürən əsas məsələ üç dövlətin göstərilən sahədə birgə əməkdaşlıq mexanizmi yaradıb-yaratmamaları idi'®'''. Görüşdə boru kəmərlərinin keçəcəyi ərazilərdə təhlükəsizliyin təmin edilməsi məsələlərinin müzakirəsi Rusiya tərəfindən yanlış olaraq üç dövlətin ittifaqı kimi qiymətləndirilirdi. Rusiyanın qayğısını artıran amillər əsasən aşağıdakılar idi: ABŞ gürcü ordusunun təlimi ilə məşğul olurdu; bu işdə Türkiyəyə xüsusi əhəmiyyət verirdi; üç dövlət başçısı belə görüşlərin davamlı keçirilməsini zəruri hesab edirdilər; üç ölkənin daxili işlər nazirləri təhlükəsizlik üçün müqavilə imzalamışdılar; boru xəttlərinin keçdiyi yerlərdə təhlükəsizliyin təmin edilməsinə dair əməkdaşlıq protokolunun imzalanması.

Trabzon zirvə görüşü üç dövlət arasında münasibətlərdə yeni səhifə açırdı. Belə ki, həmin görüşdən az sonra, 2002-ci il mayın 14-də Bakıda Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında 5 maddədən ibarət müqavilə

**Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin birgə mətbuat konfransında Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. 29 aprel 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. III kitab, s. 611-6I4.**

**Sami Kohen. Kafkas ekseni. - "Milliyet" gazetesi, İstanbul, 2002, 1 Mayıs. Semih İdiz. Yanlış anlaşmalara açık bir zirve. - "Star" gazetesi, İstanbul, 2002, 30 Nisan.**

**Zeynep Gürcanlı. Kafkasya kaleleri yıkılırken... - "Star" gazetesi, İstanbul, 2002, 4 Nisan.**

**Moskova'da zirve kaygısı. - "Cumhuriyet" gazetesi, İstanbul, 2002, 2 Mayıs.**

imzalandı'^”^. Müqaviləyə görə, Türkiyə Azərbaycan hökumətinə üç trilyon yeddi yüz səksən altı milyard yüz qırx milyon Türkiyə lirəsinə bərabər ABŞ dolları məbləğində təmənnasız yardım etməli idi. Onun bir qismi avadanlıq və xidmət, digəri isə maliyyə yardımı şəklində ediləcəkdi.

Bu sənəd iki ölkə arasında hərbi sahədə əməkdaşlığın müqavilə- hüquq bazasını möhkəmləndirirdi. Sənəd imzalandıqdan bir müddət sonra, iyulun 10-da Türkiyə silahlı qüvvələrinin yeni baş qərargah rəisi Hilmi Özkökün'^°^ Azərbaycana səfəri çərçivəsində Heydər Əliyev'®°'‘ və Səfər Əbiyev ilə keçirilən görüşlərdə ikitərəfli hərbi əməkdaşlıq məsələləri müzakirə edildi. Hilmi Özkök hərbi məktəblərdə və hissələrdə hərbi hazırlığın vəziyyəti ilə tanış oldu.

Belə bir şəraitdə iki ölkə arasında təhlükəsizliyə dair məsələlərin müzakirəsinin keşirilməsi zəruri idi. Avqustun 2-də Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhlükəsizlik dialoqu keçirildi. Gündəlikdə Cənubi Qafqazda ümumi təhlükəsizliyə dair məsələlər; NATO - Azərbaycan əlaqələri və bu istiqamətdə Azərbaycan-Türkiyə əməkdaşlığı; Azərbaycanın Sülh naminə tərəfdaşlıq proqramında və Avro- atlantik Tərəfdaşlıq Şurasının işində iştirakı, NATO-nun qarşıdan gələn Praqa sammitindən gözləntilər; Avropada adi silahlı qüvvələr haqqında müqavilə ilə bağlı son vəziyyət; kütləvi qırğın silahlarının yayılması əleyhinə həyata keçirilən tədbirlərin qiymətləndirilməsi (raket və raket texnologiyalarının yayılması əleyhinə görülən tədbirlər); ATƏT çərçivəsində terrorizmə qarşı mübarizə, ATƏT-in islahatı, XXI əsrdə yeni hədə və təhdidlərin qarşısının alınması istiqamətində tədbirlər dururdu'^°^.

Müzakirələrdən dərhal sonra, avqustun 3-də “Turkish Daily News” qəzetində dərc edilmiş bir yazıdan İqdır Ticarət və Sənaye Palatasının dəvəti ilə erməni komitəsinin nümayəndələrinin İqdır şəhərinə səfər etdikləri məlum olurdu. Erməni komitəsi üzvlərinin sözlərinə görə, tərəflər iki ölkə arasında mümkün ticarət əməkdaşlığının imkanlarını, Türkiyə - Ermənistan sərhədinin açılmasını və Türkiyə ilə ticarət əlaqələrinin yaxşı-

**Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında müqavilə. 14 may 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.11 hissə, s.533-534.**

**Hilmi Özkök (1940) - Baş qərargah rəisi (2002-2006).**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 473- 474.**

**’ ARXINA. 10.07.2002-01.10.2002. Qovluq XaS, v.217.**

laşdırılması məsələlərini müzakirə etmişdilər. Ermənistan sərhədin açılmasım istəyirdi.

Məlumatı alan kimi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Türkiyədəki səfir Məmməd Əliyevə məktub göndərib məsələ ilə bağlı Türkiyənin müvafiq qurumları ilə lazımi işlər aparmaq haqqında təlimat verdi'^°®. Belə məlumatlar Türkiyə mətbuatında daha çox yayılırdı. Məsələn, avqustun 27-də “Turkish Daily News” qəzetində “Ermənistana qoyulmuş embarqo türkiyəli iş adamlarını narahat edir” adlı bir məqalə dərc edilmişdi’^®’. Məqalədə sərhədlərin bağlı olmasının ziyanlı olduğu vurğulanırdı. Bu fikirlərin arxasında heç şübhəsiz, müəyyən niyyətlər dururdu'^®*. Azərbaycan diplomatiyası sərhədin açılmasının Türkiyəyə bir fayda gətirməyəcəyini, Ermənistanın uydurma erməni soyqırımı, əsassız ərazi, təzminat tələblərindən imtina etməyəcəyini, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmayacağmı izah etdi.

Bu zaman Azərbaycanda Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasiminə hazırlıq işləri gedirdi. Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasimində iştirak etmək məqsədi ilə 2002-ci il sentyabrın 17-18-də Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycanda işgüzar səfərdə oldu. Azərbaycan və Türkiyə prezidentləri arasında keçirilən görüşdə iki ölkənin əməkdaşlığının möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı’®®^. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibli görüşdə Azərbaycan - Türkiyə əməkdaşlığının perspektivləri müzakirə edildi. Dövlət başçıları əlaqələrin dərinləşdirilməsinin vacibliyini vurğuladılar'®’®.

Sentyabrın 18-də Bakıda Səngəçal terminalında Heydər Əliyev, Əhməd Necdet Sezer və Eduard Şevardnadze Bakı - Tbilisi - Ceyhan

**ARXİNA. 10.07.2002 - 01.10.2002. Qovluq XaS, v.l56.**

**Trade embargo imposed on Armenia troubles Turkish businessmen. - “Turkish Daily News”, İstanbul, 27.08.2002.**

**ARXİNA. 10.07.2002 - 01.10.2002. Qovluq XaS, v.94.**

**1609 Respublikasının Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana iş-güzar səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 608.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məsmuəsi. 2002.1 hissə, s. 608-609.**

əsas ixrac neft boru kəmərinin təməlini qoydular'*". Bakıdan başlayıb Ceyhan terminlama qədər uzanan boru kəməri ildə 50 milyon ton neft daşıma gücünə malik idi . "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından hasil ediləcək neftin dünya bazarlarına daşınması 2, 9 milyard dollara başa gələcəkdi . Boru xətti 40 il çalışmalı idi . Təməlatma mərasimi tarixi bir hadisə olub bütün xarici təzyiqləri rədd edən Azərbaycanın enerji diplomatiyasının qələbəsi idi.

2002-ci il noyabrın 3-də Türkiyədə parlament seçkiləri keçirildi. Yeni hökuməti seçkilərdə 34,4% səs çoxluğu ilə qalib gələn Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan'* * formalaşdırdı. Türkiyə tarixində yeni bir dövr başladı. Belə bir şəraitdə hökumətin xarici, xüsusən Cənubi Qafqaz siyasətinin necə olacağı maraq doğururdu'*'*. Türk mətbuatı bu marağı əsasən aşağıdakı amillərlə əlaqələndirirdi; Cənubi Qafqaz Türkiyə üçün əhəmiyyətli idi; Bakı - Tbilisi - Ceyhan neft boru kəməri Türkiyə üçün tarixi əhəmiyyət daşıyırdı; Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında erməni işğalı davam edirdi; Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinə təhdidlər hələ də qalırdı'*'^.

Yeni Türkiyə hökumətinin xarici siyasətinin üstün istiqaməti Qafqaz, Orta Asiya, Əfqanıstan, Avropa Birliyi və Kipr idi. Türkiyə qonşuları ilə münasibətdə yeni strategiya həyata keçirməyə başladı. Bu da səbəbsiz deyildi. Çünki Suriya ilə ticarət dövriyyəsi həmin dövrədək 750 milyon dolları keçmirdi. Düşmüş olduğu vəziyyətdə İraq ticarət ortağı rolunu oynaya bilmirdi. İran yürütdüyü siyasət baxımından narahatlıq doğururdu. Rusiya Fedrasiyası ilə ticarət dövriyyəsi 5 milyard dolları keçmirdi'*'*.

**'*" İrfan Sarpmaz. Efsane gercege dönüştü. - "Star" gazetesi, İstanbul, 2002, 20 Eylül.**

**Boru hattı istikrar getirecek. - "Cumhuriyyet" gazetesi, İstanbul, 2002, 18 Ocak.**

**'*'^ Sezer: Bakü - Ceyhan özveriyle doğuyor. - "Hürriyet" gazetesi, İstanbul, 2002, 18 Eylül.**

**Sonucda gercek oluyor. - "Radikal" gazetesi, İstanbul, 2002, 18 Eylül.**

**Rəcəb Tayyib Ərdoğan (1954) - Türkiyənin Baş Naziri (2003-2014). Türkiyənin XII Prezidenti (2014-cü ildən)**

**İrfan Sarpmaz. Yeni hükümetin dış politikası nasıl olmalı. - "Star" gazetesi, İstanbul, 2002, 5 Kasım.**

**İrfan Sarpmaz. Erdoğan, Kafkasya'yı acilen ziyaret etmelidir. - "Star" gazetesi, İstanbul, 2002, 8 Kasım.**

**Kenan Mortan. Komşularla ticaret. - "Dünya" gazetesi, İstanbul, 2003, 10 Haziran.**

Ermənistan ilə sərhəd qapısı qapalı idi. Azərbaycan isə Türkiyənin dostu və qardaşı, geniş ticarəti olan bir ölkə idi.

Ona görə də Türkiyə bütün qonşuları ilə əlaqələri genişləndirmək siyasəti yürütməyə başladı. Dövlətlərin xarici siyasətində demək olar ki, mümkün olmayan “sıfır problemli” xarici siyasətə üstünlük verdi. Problemlərsiz münasibətlər qurmaq üçün geniş fəaliyyətə başlandı. Ancaq qarşılıqlı münasibətlərin normallaşması təkcə Türkiyə tərəfindən deyil, eyni zamanda Ermənistan tərəfindən də asılı idi.

2003-cü il yanvarın 7-8-də Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərdə yeni bir mərhələnin başlandığını xəbər verirdi Bu, Ərdoğanın ikinci xarici səfəri idi. O, bundan əvvəl Rusiyaya səfər etmişdi. R.T.Ərdoğan özü ilə 150 nəfər türk iş adamım da gətirmişdi. Səfər başlayarkən R.T.Ərdoğan Azərbaycanla bağlı o zamanadək yürüdülən siyasəti tamamilə dəyişdirmək, bütün türk dövlətləri ilə daha intensiv əlaqələr qurmaq əzmində olduğunu bildirdi.

Azərbaycan Prezidenti ilə yanvarın 7-də keçirilən danışıqlarda Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin sürətləndirilməsinin, iki ölkə arasında qarşılıqlı ticarətin həcminin artırılmasının vacibliyi vurğulandı'®^®. Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Azərbaycan qazının Türkiyə ərazisindən keçərək Avropaya nəqli'®’, həmçinin ikitərəfli münasibətlərin inkişaf etdirilməsi məsələləri müzakirə edildi'®^^.

Azərbaycan Respublikası Milli Məclisinin sədri ilə yanvarın 8-də keçirilən görüşdə terrorizm əleyhinə mübarizə məsələləri müzakirə olundu'®^^. Ermənistanın terrorundan əziyyət çəkən Azərbaycan terrorizmin və

**'®'^ Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003.1 hissə, s.3-4.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 4-5.**

**Aliyev’e rica: Bakü - Ceyhanı öne çekelim. - “Hürriyet” gazetesi, İstanbul, 2003, 8 Ocak.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti:sənədlər məcmuəsi. 2003.1 hissə, s.5-8.**

**Milli Məclisdə görüş. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 17.**

terrorçu təşkilatların əleyhinə idi. Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyədən yardım istədi. R.T.Ərdoğan işğal etdiyi Azərbaycan torpaqlarından çəkilməyincə Türkiyənin Ermənistan ilə sərhədi açmayacağmı bildirdi. O, Azərbaycan ilə iqtisadi və mədəni əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğuladı, Azərbaycanda PKK-nm mədəniyyət adı altında təşkilatlandığını bildirdi'^'*.

Baş Nazir Artur Rasizadə ilə keçirilən görüşdə əsasən iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi'^^^. Türkiyə tərəfi Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisinin sürətləndirilməsini istəyirdi.

R.T.Ərdoğan Türkiyə-Azərbaycan ortaq komissiyasının işində və biznes forumunda iştirak etdi‘“^. O, Azərbaycan gömrüyündə Rusiya və İrana edilən güzəştlərin Türkiyəyə də tətbiqini xahiş etdi. Heydər Əliyev Türkiyənin Azərbaycana daha çox diqqət ayırmasını istədi'^^’. Türk nümayəndə heyəti Səngəçal terminalına gedərək onun işi ilə tanış oldu.

Türkiyə Baş Nazirinin Azərbaycana səfəri qarşılıqlı münasibətlərdə yeni bir addım kimi əhəmiyyətli idi. İki ölkə arasında münasibətlərdə yeni səhifə açılırdı.

2003-cü il fevralın 27-də “Şahdəniz” təbii qaz layihəsinin həyata keçirilməsi üçün yekdilliklə qərar qəbul edildi. Beləliklə, Türkiyə və Azərbaycan çox əhəmiyyətli olan bir layihənin həyata keçirilməsi üçün addım atdılar’®^®. Digər tədbirlər də həyata keçirildi. Martın 27-də Türkiyə, Azərbaycan və Gürcüstan Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dair bir sıra əlavə sənədləri imzaladılar. Mayın 27-də Türkiyə Cümhuriyyəti Nazirlər Şurası həmin sənədləri təsdiq etdi'^^’.

**Türkiye’den çifte uyan. - “Hürriyet” gazetesi, İstanbul, 2003, 9 Ocak.**

**Baş Nazir Türkiyə nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 18.**

**Azərbaycan - Türkiyə biznes forumu. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 18-19.**

**İrfan Sarpmaz. Erdoğanın Azerbaycan gezisi. - “Star” gazetesi, İstanbul, 2003, 8 Ocak.**

**Fikret Ertan. Hazar’dakı son gelişmeler. - “Zaman” gazetesi, İstanbul, 2003, 6 Mart.**

**1629 -pjjri^jyg Cumhuriyeti, Azerbaycan Cumhuriyeti ve Gürcistan arasında petro- lün Bakü - Tiflis - Ceyhan ana ihrac boru hattı yoluyla taşınması hakkında anlaşmanın eklerini teşkil eden ev sahibi hükümet anlaşması, anahtar teslimi mütaeah- hitlik anlaşması ile hükümet garantisine ilişkin tecdit ve degişiklik anlaşmalarının onayına dair karar. 27.03.2003. - T.C. Resmi gazete, Ankara, 2003, 23 Haziran.**

Bu zaman ABŞ hökuməti Türkiyə - Ermənistan sərhəd qapısının açılmasında israr edirdi'®^®. ABŞ-da səfərdə olan xarici işlər naziri Abdulla Gül'®^' Ermənistan ilə sərhəd qapısının açılması məsələsini amerikalılarla müzakirə etdi. O, daha sonra Madriddə Ermənistanın xarici işlər naziri Vartan Oskanyan ilə görüşərək iki ölkə arasında münasibətlərin nor- mallaşdırılması məsələlərinin vacibliyini vurğuladı. Ankaranın Türkiyə ilə Ermənistan arasında münasibətləri normallaşdırması prosesinə başlaması, həm Yerevanla, həm də ABŞ-dakı erməni diasporası ilə əlaqələr qurması Azərbaycan tərəfindən narahatlıq yaratdı'^^^. Məsələyə münasibət bildirən Azərbaycanın Türkiyədəki səfiri Məmməd Əliyev "yanlış addımlar atılarsa, Azərbaycan xalqının Türkiyəyə sevgisi azalar. Ermənistan heç bir zaman "Böyük Ermənistan" niyyətlərindən vaz keçməyəcəkdir" dedi. Türkiyə tərəfi Ermənistan ilə münasibətləri normallaşdırmaq istəsə də, Yerevan işğal etdiyi Azərbaycan ərazilərini boşaltmaq, Türkiyəyə qarşı əsassız torpaq, təzminat və tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımını tanıtmaq iddialarından imtina etmirdi. Bu isə münasibətlərin "ölü nöqtədən" tərpənməsinə mane olurdu.

Belə bir şəraitdə Azərbaycan - Türkiyə əməkdaşlığı müxtəlif sahələrdə dərinləşirdi. 2003-cü il iyunun 3-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə jandarma qüvvələrinin baş komandanı ordu generalı

M.Şener Eruyğur ilə görüşündə silahlı qüvvələr sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi. Qeyd etmək lazımdır ki, 1993-cü ildən ötən müddət ərzində 1600 nəfərə yaxın azərbaycanlı Türkiyədə, 25 min nəfər Azərbaycanda təlim keçmişdi. 1992-ci illə müqayisədə Azərbaycan əsgəri hər cəhətdən dəyişmiş, ordunun qüdrəti artmışdı.

Səfərdən az sonra, iyunun 25-də Ankarada Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası silahlı qüvvələrinin baş qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında protokol im-

**'®^°Azerbaycan darbesi yeniden gündemde. - "Star" gazetesi, İstanbul, 2003, 23 Temmuz.**

**Abdulla Gül (1950) - Türkiyənin Baş Naziri (2002-2003). Xarici işlər naziri (2003-2007). 11-ci Prezident (2007-2014).**

**Sevgimizi azaltmayın. - "Hürriyef' gazetesi, İstanbul, 2003, 13 Haziran.**

**Mehmet Şener Eruyğur (1941) - Türkiyə hərbçisi. General. Jandarma qüvvələrinin baş komandanı (2002-2007).**

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 234- 236.**

zalandı’®^^. Maliyyə yardımı Azərbaycan hərbi qulluqçularının Türkiyədə NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində kurslarda iştirakı, xarici hərbi yardımın planlaşdırılması ilə bağlı xərclər, Azərbaycan Respublikasına səfər edəcək türk hərbi heyətlərinin xərcləri, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və Sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində toplantılarda iştirak etmək məqsədi ilə Azərbaycan hərbi qulluqçularının Türkiyəyə edəcəkləri səfərlərlə bağlı xərclər, KFOR əməliyyatlarında iştirak edən Azərbaycan sülhməramlı tağımmm gündəlik xərcləri, Belçika Krallığının Mons şəhərində yerləşən NATO-nun tərəfdaşlığın əlaqələndirmə qrupunda fəaliyyət göstərən Azərbaycan Respublikasının əlaqələndirici zabitinin xərcləri və digər ehtiyaclarla bağlı xərclər idi. Ediləcək maliyyə yardımı 562 milyard 500 milyon türk lirəsinə bərabər ABŞ dolları idi.

Həmin tarixdə həmçinin iki ölkə hökuməti arasında təmənnasız hərbi yardım haqqında 4 maddədən ibarət saziş imzalandı'^^®. Sazişə əsasən Türkiyə Azərbaycana 5 trilyon 512 milyard 500 milyon Türkiyə lirəsinə bərabər ABŞ dolları həcmində hərbi yardım etməyi üzərinə götürürdü.

Heç şübhəsiz, bu zaman enerji dəhlizinin təhlükəsizliyinin qorunması məsələləri aktual olaraq qalırdı. Azərbaycan, Türkiyə və Gürcüstan arasında Şərq - Qərb enerji dəhlizinin təhlükəsizliyinin qorunmasına dair 2003-cü il iyulun 23-də imzalanmış protokolu Türkiyə Cümhuriyyəti Nazirlər Şurası həmin il sentyabrın 17-də təsdiq etdi'^^’.

2003-cü il avqustun 29-da Azərbaycan hökuməti ilə Türkiyə hökuməti arasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti - Sərhəd Qoşunlarına Türkiyə Respublikasının silahlı qüvvələri tərəfindən təlim-tədris və maddi-texniki təminat sahəsində yardım edilməsi haqqında

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası silahlı qüvvələrinin baş qərargahı arasında maliyyə yardımının tətbiqi haqqında protokol. 25 iyun 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 496-499.**

**Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında saziş. 25 iyun 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 500-501.**

**Azerbaycan, Türkiye ve Gürcüstan arasında Doğu - Batı enerji koridorunun güvenliginin sağlanmasına ilişkin protokolün onaylanması hakkmda karar. — T.C.Resmi gazete, Ankara, 2003, 4 Kasım.**

20 maddədən ibarət protokol imzalandı'^^*. Protokol tərəflərin hərbi təhsil müəssisələrində və hərbi hissələrində təlim-tədris alacaq zabit, gizir, müdavim və mülki mütəxəssislər ilə onlara təlim-tədris keçəcək hərbi heyət arasında məlumat və təcrübə mübadiləsi ilə əlaqədar məsələləri əhatə edirdi. Bütün bunlar qarşılıqlı münasibətlərin möhkəmliyini və etibarlı olduğunu göstərirdi.

2003-cü ilin ortalarından etibarən Türkiyəni narahat edən məsələlərdən biri Heydər Əliyevdən sonra Azərbaycanda kimin ölkə rəhbəri seçiləcəyi idi. Çünki Heydər Əliyevin səhhəti pozulmuşdu'®^^. Bu narahatlığın ciddi əsasları var idi. Hər şeydən əvvəl. Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında münasibətləri qardaşlıq və strateji müttəfiqlik səviyyəsinə qaldırmış böyük dövlət və siyasət adamı idi'^“. O, qarşılıqlı münasibətlərin möhkəm əsaslarını qurmuşdı. Azərbaycan ilə Türkiyə “Bir millət - iki dövlət” şüarını reallaşdırmışdı. Azərbaycanın yeni lideri Türkiyə ilə münasibətləri sabit bir şəkildə davam etdirə biləcəkdimi? İkincisi, Azərbaycan Türkiyə üçün Orta Asiyaya açılan bir qapı və körpü idi. Türkiyə Qafqazda yeni bir problemlə üzləşmək istəmirdi. Üçüncüsü, Türkiyə Heydər Əliyevdən sonra Azərbaycanın daxilində şəraitin necə olacağından narahat idi. Çünki yaxın tarixdə Azərbaycanda çoxlu qanlar tökülmüşdü. İqtidarlar bir-birinin ardınca dəyişmişdi. Yalnız 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan dövləti və dövlətçiliyi dağılmaqdan xilas edilmiş, ölkədə sabitliyin bərqərar olmasının təməlləri qoyulmuşdu. Azərbaycanda sabitliyin pozulması mümkünlüyü Türkiyənin başlıca qayğılarından biri idi. Yeni lider Azərbaycandakı siyasi sabitliyi, onun təbii əsaslarını qoruya biləcəkdimi?

Türkiyənin əndişələri davam edərkən Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev iki ölkə arasında münasibətləri müzakirə etmək

**Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti - Sərhəd Qoşunlarına Türkiyə Respublikasının silahlı qüvvələri tərəfindən təlim-tədris və maddi-texniki təminat sahəsində yardım göstərilməsi haqqında protokol. 29 avqust 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi.2003. II hissə, s. 466-475.**

**Hakan Aksay. Aliyev'siz Azerbaycan. - “Akşam” gazetesi, İstanbul, 2003, 19 Haziran.**

**Sami Köhen. Azerbaycan yeni döneme girerken... - “Milliyet” gazetesi, İstanbul, 2003, 7 Ağustos.**

üçün 2003-cü il sentyabnn 8-də Türkiyəyə rəsmi səfərə gəldi'®"". O, ilk xarici səfərini məhz Türkiyəyə etdi. Bu da səbəbsiz deyildi. Bununla Azərbaycanın Baş Naziri xarici siyasətdə Türkiyəyə xüsusi diqqət ayıracağına, iki ölkə arasında münasibətləri daha da inkişaf etdirəcəyinə işarə edirdi.

Səfər zamanı İlham Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Baş Nazir Rəcəb Tayyib Ərdoğan və Baş Nazirin müavini, xarici işlər naziri Abdullah Gül ilə görüşərək ikitərəfli və regional məsələlərə dair danışıqlar apardı. Müzakirələrin əsas mövzusu iki ölkə arasında qarşılıqlı siyasi, iqtisadi, mədəniyyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi, Bakı - Tbilisi - Ceyhan neft, Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərləri və s. məsələlər idi'®"*^. Türkiyə rəhbərləri Dağlıq Qarabağ münaqişəsində Azərbaycanı müdafiə edəcəklərini bildirdilər. İlham Əliyev Azərbaycanda sabitlik və layihələrin həyata keçirilməsi üçün Türkiyədən dəstək istədi'®"*^. Səfər zamanı iki ölkə arasında viza almağı sadələşdirən sənəd imzalandı’®""*. Viza haqqı aşağı salındı. İlham Əliyev qarşıda gələn prezident seçkilərində qalib gələcəyini və Heydər Əliyev siyasətini davam etdirəcəyəni bildirdi. O, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşma- nm əleyhinə olmadıqlarını, lakin ilk növbədə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini boşaltmasının vacibliyini türk dövlət və hökumət rəhbərlərinin diqqətinə çatdırdı.

Danışıqlar Azərbaycanın gələcək daxili və xarici siyasəti ilə bağlı Türkiyənin narahatlıqlarına son qoydu. Türkiyə rəhbərliyi əvvəlki illərdə yürüdülən siyasətin davam etdiriləcəyinə əmin oldu.

Səfərdən az sonra, sentyabrın 11-də xarici işlər naziri Vilayət Quliyev Türkiyəyə rəsmi səfər etdi'®^®. Səfər zamanı Prezident Əhməd Necdət Sezər, Baş Nazir Rəcəb Tayyib Ərdoğan, Baş Nazirin müavini, xarici işlər naziri Abdullah Gül ilə keçirilən görüşlərdə Türkiyə - Azərbaycan mü-

**'®'" Azərbaycanın Baş Naziri İlham Əliyevin Türkiyəyə işgüzar səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s.343; Azərbaycan 2003: inkişaf strategiyasında yeni mərhələ. Bakı, 2005, s.120- 133.**

**Cumhurbaşkanı olacağım. - “Cumhuriyet” gazetesi, İstanbul, 2003, 9 Eylül. '®‘*^ Aliyev destek arayışında. - “Akşam” gazetesi, İstanbul, 2003, 9 Eylül.**

**1644 'pQj.j^iyg Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılqılı viza tətbiqi haqqında sazişin imzalanma mərasimi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 345.**

**'®‘*® Xarici işlər nazirinin Türkiyəyə rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 359.**

nasibətləri, Bakı - Tbilisi - Ceyhan neft və Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərləri layihələrinin həyata keçirilməsi, Ermənistanın Azərbaycana təcavüzü və nəticələrinin sülh yolu ilə həllinə dair danışıqlar prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə edildi.

2003-cü il oktyabrın 15-də Azərbaycanda prezident seçkiləri keçirildi. İlham Əliyev səslərin 79,57%-ni qazanaraq ölkə prezidenti seçildi. Bununla da Azərbaycan tarixində yeni bir dövr başladı.

Ümumiyyətlə, Azərbaycan - Türkiyə münasibətləri 1991-2003-cü illər ərzində daim yüksələn xətt üzrə inkişaf etmişdir. İki ölkə arasında bütün sahələrdə əməkdaşlığın inkişafı üçün hüquq-müqavilə əsasları yaradılmışdır. Münasibətlərin mənəvi tərəfləri ilə yanaşı maddi təməlləri də möhkəmləndirilmişdir. Ermənistanın və digər ölkələrin Azərbaycan -Türkiyə münasibətlərini soyuqlaşdırmaq və zəiflətmək cəhdləri uğursuzluğa düçar olmuşdur.

1991-2003-cü illərdə Azərbaycan - Türkiyə münasibətlərində müzakirə edilən başlıca məsələlər aşağıdakılar olmuşdur: Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; Ermənistanın Azərbaycana təcavüzünün dayandırılması və nəticələrinin sülh yolu ilə aradan qaldırılması; Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftə dair imzalanan müqavilədə Türkiyənin iştirakı; regional məsələlərə dair siyasi məsləhətləşmələr; türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsi; enerji dəhlizinin təhlükəsizliyinin qorunması və s. Ötən illər ərzində Azərbaycan və Türkiyə strateji müttəfiqə çevrilmişlər.

# RUSİYA FEDERASİYASI İLƏ MÜNASİBƏTLƏR

## İlk addımlar

Azərbaycan Respublikasının diplomatik əlaqələr qurduğu qonşu ölkələrdən biri Rusiya Federasiyasıdır. Azərbaycanın Rusiya ilə sərhədinin uzunluğu 390,3 km.-dir’^"*.

Qeyd etmək lazımdır ki, hələ sovet dövründə Moskvada Azərbaycanın səlahiyyətli nümayəndəliyi fəaliyyət göstərirdi. SSRİ-nin dağılmasından bir müddət əvvəl Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 28 iyul tarixli fərmanı ilə SSRİ Nazirlər Kabineti yanında Azərbaycan Respublikası Nazirlər Kabinetinin daimi nümayəndəliyi Azərbaycan Respublikasının Moskva şəhərində səlahiyyətli nümayəndəliyinə çevrilmişdi. Daimi nümayəndə Zaur Rüstəmzadə Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi təyin edilmişdi'*'*’.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktının qəbulundan sonra qarşılıqlı münasibətlərdə yeni şərait yarandı. İki ölkə arasında müstəqil münasibətlərin qurulması üçün müəyyən addımlar atıldı. Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 29-da RSFSR, Ukrayna, Belarus, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Ermənistan, Türkmənistan və Estoniya respublikalarına müraciət qəbul etdi'*'**. Azərbaycan Respublikasının keçmiş sovet respublikalarına münasibətdə siyasətini müəyyənləşdirən həmin müraciətdə yazılırdı: “Azərbaycan Respublikasının Ali Soveti on illər boyu öz respublikasının dövlət müstəqilliyini bərpa etməyə can atmış Azərbaycan xalqının iradəsini ifadə edərək 1991- ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul etmişdir...

Ona görə də xalqlarımız və dövlətlərimiz arasında dostluq münasibətlərinə və əməkdaşlığa keyfiyyətcə yeni məzmun verərək bu münasibətləri qoruyub saxlamaq və dərinləşdirmək zəruridir. Azərbaycanın başqa respublikalarla münasibətlərini qarşılıqlı mənafelər və qarşılıqlı etimad müəyyən etməlidir.

**' Azərbaycan sərhəd mühafizəsi, s.3.**

**ARXINA. 1991.**

**ARXİNA. 1991.**

Əsl dostluq münasibətləri yalnız hüquq bərabərliyi və qarşılıqlı fayda əsasında, yalnız bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləyən, qarşıya çıxan məsələləri dinc vasitələrlə, danışıqlar aparıb müqavilələr və sazişlər bağlamaq yolu ilə həll edən azad dövlətlər arasında yarana bilər”'^'’.

Müraciətin qəbulundan bir müddət sonra SSRİ dağıldı. Müstəqil inkişaf yolunu seçən hər bir respublika öz problemlərinin həlli ilə məşğul olmağa başladı. Yem şəraitdə Azərbaycanın xarici siyasətinin qarşısında duran başlıca vəzifələrdən biri dövlət müstəqilliyinin Rusiya Federasiyası tərəfindən tanınması, diplomatik əlaqələrin qurulması və bərabərhüquqlu qarşılıqlı münasibətlərin inkişaf etdirilməsi idi.

Lakin Azərbaycanın dövlət müstəqilliyinin tanınması heç də asan olmadı. Çünki Rusiyada onun əleyhinə olan qüvvələr fəaliyyət göstərirdilər. SSRİ rəsmi olaraq dağılsa da, bəzi siyasətçilər hələ də Azərbaycana nüfuz dairəsi kimi baxırdılar.

Buna baxmayaraq, Rusiyada siyasi realizm üstün gəldi. 1992-ci ilin aprelində Rusiya Federasiyasının xarici işlər naziri Andrey Kozırev Azərbaycana səfər etdi. Bakıdakı danışıqlarda əsasən müstəqil dövlətlər kimi iki ölkə arasında münasibətlərin qurulması və inkişafı məsələləri müzakirə olundu. Səfərin gedişində, aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik əlaqələr quruldu'^^°. Həmin ildə Bakıda Rusiyanın, Moskvada isə Azərbaycanın səfirliyi açıldı. Bununla da Azərbaycan - Rusiya münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başladı. Bu, əvvəllər ümumi bir dövlətin tərkibində olmuş iki respublikanın müstəqil münasibətləri idi. Həmin münasibətləri bir sıra amillər şərtləndirirdi. Hər şeydən əvvəl, Azərbaycan və Rusiya uzun illər boyu həm çarizm, həm də sovet dövründə ümumi iqtisadi, hüquqi, siyasi və ideoloji sistemdə olmuşdular. Dövlət müstəqilliyinin bərpasından sonra bu dövlətlər arasında münasibətlər əslində sıfırdan başlayırdı. Çünki əvvəllər müstəqil dövlətlər kimi onların arasında belə münasibətlər qurulmamışdı. Müstəqillik qazandıqdan sonra da bu iki dövlətin siyasi, hərbi və iqtisadi sistemlərində oxşarlıqlar qalırdı. Ölkələrin arasında viza rejimi mövcud deyildi. Qeyd etmək lazımdır ki. Avrasiya ölkəsi kimi Rusiya yalnız Qərb, yalnız Şərq, yalnız Avropa və yalnız Asiya deyil, həm də xristian və müsəlman ölkəsidir. Rusiya ərazisində yüz minlərlə azərbaycanlı yaşayırdı. Bütün bunlar münasibətlərin qurulmasına müsbət təsir edən amillər idi.

**ARXINA. 1991.**
**ARXINA. 2008; ARXİNA. 1993.**

Hər iki xalq bir-birinin psixologiyasını, məişətini və mədəniyyətini yaxşı bilirdi.

Lakin iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafına mənfi təsir edən bir sıra amillər də var idi. Bu da Boris Yeltsinin rəhbərlik etdiyi Rusiyanın keçmiş sovet məkanında iddiaları, onu nüfuz dairəsi hesab etməsindən doğurdu. Rusiya digər dövlətləri Cənubi Qafqaz regionuna buraxmamağa, Azərbaycanın Avropaya inteqrasiyasına mane olmağa çalışırdı. Müstəqilliyin ilk illərində qarşılıqlı münasibətlərdə daha çox Rusiyanın iddiaları nəzərə çarpırdı.

Məlum olduğu kimi, Azərbaycan - Rusiya münasibətləri Ermənistanın işğal siyasətinin davam etdiyi bir vaxtda qurulurdu. Rusiyadakı müəyyən dairələr Ermənistandan Azərbaycana təzyiq vasitəsi kimi istifadə edirdilər. Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlılar yaşayan məntəqələrin işğalı keçmiş sovet hərbçilərinin, xüsusən Xankəndində yerləşən 366-cı motoatıcı polkun iştirakı ilə həyata keçirilirdi. Bununla belə, mayın 8-də Şuşa şəhəri işğal edildikdən bir neçə gün sonra, mayın 13-də Rusiya Xarici İşlər Nazirliyi bəyanat verərək Ermənistan ilə Azərbaycan arasında davam edən münaqişənin Rusiya ictimaiyyətini və dünya birliyini narahat etdiyini bildirdi.

Şuşanın və Laçının işğalı Azərbaycanda ağır siyasi böhran yaratdı. Bu, ölkədə hakimiyyət dəyişkənliyinə gətirdiyi kimi, Azərbaycan - Rusiya münasibətlərinə də təsir etdi. Hakimiyyətə gələn Azərbaycan Xalq Cəbhəsi iki ölkə arasında münasibətlərə bəzi yeniliklər etdi. Rusiyada Azərbaycan Respublikasının səfirliyi təsis olundu. 1992-ci il mayın 19-da Z.Rüstəmzadə başqa işə keçməsi ilə əlaqədar Azərbaycan Respublikasının Moskva şəhərində səlahiyyətli nümayəndəsi vəzifəsindən azad edildi'^^'. Azərbaycanın Rusiyadakı səfiri vəzifəsinə Hikmət Hacızadə’^^^ təyin edil- di'^^l

Azərbaycan bu zaman siyasi və iqtisadi təzyiqlərdən xilas olmaq üçün Rusiya qoşunlarının ərazisindən çıxarılmasına nail olmağa, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin müzakirəsini ATƏM-ə verməyə, MDB-dən çıxmağa və üzv ölkələr ilə birbaşa əlaqələr qurmağa çalışırdı.

---

**ARXİNA. 1992.**

[1652] **Hikmət Hacızadə (1954) ■ Azərbaycanın Rusiyadakı səfiri, Baş Nazirin müavini (1992-1993).**

[1653] **ARXINA. 1992.**

Rusiya hərbi bazalarının ləğvi tələbləri Azərbaycana edilən təzyiqləri artırdı. Bəzi Rusiya hərbçiləri Ermənistan ordusu ilə birlikdə Azərbaycan ərazilərinin işğalında iştirak edirdilər. ABŞ tarixçisi Tadeuş Svyato- xovski bununla əlaqədar olaraq yazır ki, rus qoşunlarının Azərbaycandan çıxarılmasına başlamaq haqqındakı tələblər rus muzdlularının və hərbi texnikasının getdikcə azərbaycanlılar üçün bir bəlaya çevrilən Qarabağ münaqişəsində ermənilər tərəfində iştirak etməsinə Moskvanın razılıq verməsini asanlaşdırdı'^^'*.

Azərbaycan tərəfi məqsədlərinə çatmaq üçün bəzi tədbirlər həyata keçirdi. İyunun 10-da Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının Prezidentinə və Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə ikitərəfli danışıqlara başlamağı və həmin danışıqlar haqqında Azərbaycan Respublikasının Milli Məclisinə mütəmadi məlumat verməyi tövsiyə etdi'^^^. Danışıqların nəticəsində, avqustun 7-də Azərbaycan - Rusiya münasibətlərində mühüm bir hadisə baş verdi. Rusiya sərhəd qoşunlarının Azərbaycandan çıxarılmasına dair protokol paraflandı. Oktyabrın 6-da isə Moskvada iki ölkə arasında Rusiya sərhəd qüvvələrinin 1993-cü il iyunun 1-dək Azərbaycandan çıxarılmasına dair üç protokol imzalandı'®^^. Protokola əsasən Rusiya hərbi hissələri tam çıxarılanadək iki ölkə arasında sərhədi Rusiya və Azərbaycan hərbçiləri qorumalı idi.

Bütün bunlar iki ölkə arasında yüksək səviyyəli görüşlər üçün zəmin yaradırdı. 1992-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy Moskvaya səfər etdi. Oktyabrın 12-də Əbülfəz Elçibəy və Boris Yeltsin arasında keçirilən danışıqlarda iki ölkə arasında münasibətlərin ən aktual məsələləri müzakirə edildi. Azərbaycan tərəfi ölkə ərazisindən Rusiya əsgərlərinin çıxarılması məsələsini qaldırdı. Boris Yeltsin əvvəlcə bu məsələyə etiraz etsə də, sonda ordu hissələrinin bir-iki il müddətinə çıxarılmasına razılıq verdi.

Səfərin yekununda iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəszilik haqqında müqavilə imzalandı'^^’.

**Svyatoxovski T. Rusiya və Azərbaycan; sərhədyanı bölgə keçid dövründə,** S.301.
**ARXİNA. 1992.**
**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s. 97.**

**ARXINA. 14.10.1993-05.04.1995. Qovluq Xs 14, v. 133, 134-145.**

Bundan sonra qarşılıqlı münasibətlərdə müəyyən istiləşmə meyliləri yarandı. 1992-ci il oktyabrın 21-də Azərbaycan Respublikası Milli Məclisi Moskva şəhərində Azərbaycan Respublikasının ticarət nümayəndəliyinin açılması haqqında qərar qəbul etdi'®^*. Noyabrın 13-də Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında qarşılıqlı hesablaşmalar üzrə borc öhdəliklərinin tənzimlənməsi və hökumət- lərarası kreditin rəsmiləşdirilməsi qaydaları haqqında saziş, noyabrın 15- də Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Ali Soveti arasında parlament əlaqələrinin inkişafı haqqında protokol və b. sənədlər imzalandı.

Sənədlərin imzalanmasının böyük əhəmiyyəti var idi. Onlar iki ölkə arasında əməkdaşlığın istiqamətlərini müəyyənləşdirərək yeni əsaslar üzərində inkişafına kömək edirdi. Lakin Rusiya parlamenti ölkə prezidentlərinin imzaladığı müqaviləni təsdiq etmədi.

Qeyd edildiyi kimi, Rusiya ordu hissələrinin Azərbaycandan çıxarılma müddəti iki il üçün nəzərdə tutulmuşdu. Lakin bu proses tez 1993-cü il martın 13-dək həyata keçirildi. Rusiyanın hərbi gəmiləri də imzalanan sənədlərə uyğun olaraq Xəzər dənizinin Azərbaycan sektorundan çıxarıldılar. Bundan sonra Azərbaycan dövləti Rusiya ilə quru və su sərhədlərinə özü nəzarət etməyə başladı.

Lakin Azərbaycan - Rusiya münasibətləri heç də rəvan deyildi. Azərbaycan neftini dünya bazarlarına çıxarmaq üçün ABŞ, Böyük Britaniya, Türkiyə və Norveçin daxil olduğu konsorsiumu yaratmaq istəyi Moskvanı narahat edirdi'^^^. Bu da səbəbsiz deyildi. Bir zamanlar SSRİ xarici siyasətində mühüm məsələlər hərbi qüdrət və energetika idisə, yeni şəraitdə energetika, neft və qaz Rusiyanın xarici siyasətində yeganə mühüm məsələyə çevrilmişdi. Çünki Qərb ölkələrindən xeyli geri qalan Rusiyanın fövqəlgüc olmasını köhnə texnologiya və hərbi qüdrət deyil, məhz neft və qaz təmin edə bilərdi. Neft və qaz Rusiyanın postsovet qonşuları, Çin və İran ilə münasibətlərində üstün rol o y n a y ı r d ı R u s i y a məhz enerji daşıyıcıları ilə Avropaya və dünyaya təsir etməyə, neft və qaz sahə-

[1658] **ARXINA. 1992.**

**Amalia Van Gent. Azerbaijan Oil, Armenians, Russians and Refugees. - Swiss Review of World Affairs, No. 2, February 1994, p.22.**

**Celeste A. Wallander. Russian transimperilaism and its implications. - Global powers in the 2L‘ centry. Strategies and relations. Edited by Alexander T.J. Lennon and Ananda Kozlowski. A Washington Quarterly Reader, 2008, p. 221.**

sində üstünlüklə digər sahələrdəki geriliyi aradan qaldırmaq üçün imkan qazanardı.

Belə bir şəraitdə digər keçmiş sovet respublikaları da Rusiya təsirindən xilas olmağa çalışırdılar. Buna mane olmaq üçün Boris Yeltsin "yaxın əhatə" konsepsiyasını irəli sürərək keçmiş sovet məkanını Rusiyanın nüfuz dairəsinə salmaq üçün Azərbaycana təzyiqlərini artırdı, Cənubi Qafqazda həyati vacib maraqlarının mövcud olduğunu bildirdi. Nəticədə 1993-cü ilin əvvəllərində iki ölkə arasında münasibətlər yenidən soyuqlaşdı. Heç əbəs deyildir ki, Rusiya Sənayeçilər İttifaqının sədri Arkadi Volski deyirdi ki. Cənubi Qafqazda geosiyasi reallıqlar mahiyyətinə görə, XIX əsrdə olduğu kimi qalmışdır. Biz istəsək də indi Qafqazdan çıxa bilmərik, buna çağırmaq sadəlöhvlükdür'®*".

XIX əsrdə çarizmin Cənubi Qafqazda yürütdüyü siyasət məlumdur. Yeni Rusiya rəhbərliyi Cənubi Qafqaza xarici. Şimali Qafqaza isə daxili təhlükəsizliyi baxımından vacib rayon kimi baxaraq, təhlükəsizlik boşluğunun yaranmasına imkan verməк istəmirdi. Ona görə də Rusiyadakı müəyyən dairələr qonşu ölkələrdə, o cümlədən Azərbaycanda gərginliyin və qarışıqlığın olmasında maraqlı idilər. Bununla belə, Rusiya geosiyasi tərəfdaş kimi Azərbaycan ilə əlaqələri kəsmək, eyni zamanda Azərbaycana hərbi təcavüz edərək ərazilərini işğal edən Ermənistanı da itirmək barədə düşünmürdü. Rusiya cənub sərhədlərinin təhülkəsizliyindən, islam flında- mentalizminin yayılmasından və Türkiyə ilə yeni müstəqil türk dövlətlərinin potensial ittifaqının qurulması perspektivlərindən narahat olurdu.

Ümumiyyətlə, 1992-1993-cü illərdə Azərbaycan Respublikası ilə Rusiya arasında münasibətlərdə diqqəti cəlb edən başlıca məsələlər aşağıdakılar olmuşdur: Rusiya orduları ölkə ərazisindən çıxarıldı; Rusiyanın Ermənistanın işğalçılıq siyasətini müdafiə etməsinə cavab olaraq Azərbaycan hökuməti ATƏM-in vasitəçiliyinə üstünlük verdi; MDB-yə daxil olmadı; Rusiya ilə bərabərhüquqlu münasibətlər qurmağa çalışdı.

Ermənistanın təcavüzü nəticəsində ərazilərin işğal edilməsi Azərbaycanda çoxlu problemlər yaratdı. Ölkə siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrana düşdü.

**OaHHH B.H. PerHOHajibHaa CHCTeMa öesonacHOCTH: pojıı, POCCHH H Aptue- HHH.- MaüeHÄopcjıcKası flCKJiapauHH 2 Hoaöpa 2008 roaa H Haropuoro KapaGaxa. CöopHHK cTarefi, c. 17.**

## Münasibətləri yaxşılaşdırmaq cəhdləri

Yaranmış ağır şəraitdə hakimiyyətə gələn Heydər Əliyev Rusiya əleyhinə deyil, onunla əməkdaşlıq siyasəti yürütməyə başladı. Azərbaycan tarazlaşdırılmış xarici siyasət xəttini seçdi. Azərbaycan tərəfi Rusiya ilə qarşılıqlı münasibətlərin normallaşdırılmasını xarici siyasətin qarşısında duran mühüm vəzifələrindən biri kimi qəbul etdi. Bu məqsədlə bir sıra konkret addımlar atıldı. H.Hacızadə Azərbaycanın Rusiyadakı səfiri vəzifəsindən azad olundu"“^. 1993-cü il iyulun 3-də Ramiz Rizayev Azərbaycan Respublikasının Moskva şəhərində səlahiyyətli nümayəndəsi təyin edildi"“l

Digər tədbirlər də həyata keçirildi. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev başda olmaqla nümayəndə heyəti 1993-cü il sentyabrın 5-dən 8-dək Moskva şəhərində səfərdə oldu"“^. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin, Rusiya Federasiyası Ali Sovetinin sədri Ruslan Xasbulatov’^^^ Nazirlər Sovetinin-hökumətin sədri Viktor Çemo- mırdin, xarici işlər naziri Andrey Kozırev, müdafiə naziri Pavel Qraçov, hökumətin sədr müavini, Dövlət Federasiya və Millətlərin İşləri Komitəsinin sədri Sergey Şaxray'^®^ Moskva şəhərinin meri Yuri Lujkov’^®’, digər dövlət və hökumət nümayəndələri ilə keçirilən görüşlərdə ikitərəfli

münasibətlərin bütün məsələləri geniş müzakirə edildi . Tərəflər münasibətləri yaxşılaşdırmağın zəruriliyini qeyd edərək iki ölkə arasında siyasi, iqtisadi və digər əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olun-

**ARXINA. 1993.**

**ARXİNA. 1993.**

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Rusiya Federasiyasına səfərinin yekunları haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 14 sentyabr 1993-cü il.-ARXİNA. 1993.**

**Ruslan Xasbulatov (1942) - Rusiyanın siyasi xadimi. Alim, publisist. Rusiya Federasiyası Ali Sovetinin sonuncu sədri (1991-1993).**

**Sergey Şaxray (1956) - Rusiya dövlət və siyasi xadimi. Hökumətin sədr müavini (1994-1996).**

**1667 Lujkov (1936) - Moskva şəhərinin meri (1992-2010).**

**PaflTKaöJiH A. HauHOHaribHbie HHTepecbi н MeTKflyHapoflHaa öesonacHOCTb (aHanH3 BHemHenojiHTHHecKoro HanpaaııeHHH), c. 253.**

masının, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsinə qarşılıqlı səy göstərilməsinin vacibliyini vurğuladılar. Onlar iki dövlət arasında dostluq münasibətlərini və əməkdaşlığı təsbit edən müvafiq sənədin imzalanması barədə razılaşdılar. Səfər zamanı keçmiş SSRİ-nin xarici dövlət borcunun və aktivlərinin tənzimlənməsi haqqında saziş imzalandı. Tərəflər Azərbaycan ərazisində hərbi əməliyyatların güclənməsindən, onların Azərbaycanın cənub sərhədinə yaxınlaşmasından, yeni-yeni ərazilərin işğal olunmasından, qaçqınların sayının artmasından dərin təşviş keçirdiklərini bildirdilər. Döyüş əməliyyatları zonasında yaranmış şərait bölgədə sülh və təhlükəsizlik üçün yeni təhlükə yaradırdı. Rusiya Federasiyası və Azərbaycan Respublikasının bölgədə sülhün bərqərar edilməsinə səy göstərəcəkləri barədə razılıq əldə edildi. Tərəflər BMT Təhlükəsizlik Şurasının 822 və 853 nömrəli qətnamələrinə uyğun olaraq Dağlıq Qarabağ regionunda və Azərbaycan Respublikasının digər rayonlarında əhalini ağır müsibətlərə düçar edən silahlı münaqişənin dinc siyasi vasitələrlə aradan qaldırılmasında, ilk növbədə atəşin və qan tökülməsinin dərhal dayandırılmasında, qəsb edilmiş bütün torpaqlardan işğalçı qüvvələrin tamamilə çıxarılmasına nail olmaqda, habelə hərbi əməliyyatlara yenidən başlanmasına yol verməyən möhkəm təminatların hazırlanmasında sıx əməkdaşlıq etməyə hazır olduqlanm bildirdilər.

Danışıqlar zamanı Qəbələ radiolokasiya sisteminə dair məsələ də qaldırıldı. Tərəflər bu barədə müzakirələrin davam etdirilməsi barədə razılığa gəldilər.

Səfərin gedişində Azərbaycan Respublikası MDB-yə üzv qəbul edildi. Bununla da Azərbaycanın MDB-yə münasibətdə siyasətində yeni mərhələ başladı.

Keçirilən müzakirələr böyük əhəmiyyəti daşıyırdı. Hər şeydən əvvəl tərəflərin məsələlərə baxışı aydınlaşdı. İki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinin vacibliyi bildirildi.

Bundan sonra münasibətlərdə canlanma yarandı. Rusiya Cənubi Qafqazda sabitliyin bərpa edilməsi məqsədi ilə müəyyən təşəbbüslər etdi.
1993- cü il oktyabrın 8-də Rusiya, Azərbaycan, Ermənistan və Gücüstan Qafqazda təhlükəsizliyi qorumaq haqqında sənəd imzaladılar. Sənəd Rusiyanın region siyasətini və ölkələrlə əməkdaşlıqda mövqeyini əks etdirirdi.

Lakin Rusiyada müəyyən dairələr hər vəchlə Cənubi Qafqazda mövqeləri bərpa etmək üçün səylər edirdilər. Rusiyanın əsas istəklərindən biri Azərbaycanda hərbi baza qurmaq idi. Müdafiə naziri Pavel Qraçov
1994- cü il fevralın əvvəllərində ölkəsinin Qafqazda hərbi baza qurmaq

niyyətini bəyan etdi'®®^. Qeyd etmək lazımdır ki, bu zaman Rusiyanın Ermənistan və Gürcüstanda hərbi bazaları var idi. Deməli, Rusiyanın müdafiə naziri bu sözlər ilə Azərbaycanı nəzərdə tuturdu. Ölkə ərazisinə xarici hərbi qüvvənin gətirilməsində maraqlı olmayan Azərbaycan tərəfi Rusiyanın təklifinə soyuq yanaşdı.

Belə bir şəraitdə Rusiyanın müdafiə naziri Pavel Qraçov Azərbaycana səfər etdi. Səfərdə başlıca məqsəd Qəbələdə yerləşən hava hücumundan müdafiə sisteminə dair məsələni həll etmək idi. Bu, Azərbaycan Respublikasının Qəbələ rayonunda fəaliyyət göstərən keçmiş SSRİ-nin raketdən müdafiə kompleksinin 8 əsas stansiyalarından biri olan "Daryal" tipli stasionar radiolokasiya stansiyası idi. Stansiyanın tikintisinə 1978-ci ildə başlanılmış, 1985-ci ildə isə istismara verilmişdi. Texniki parametrlərinə görə, stansiya 7200 km. radiusdakı məsafəni nəzarətdə saxlayırdı. Bu isə İran, Türkiyə, Hindistan daxil olmaqla Yaxın Şərqi, Hind okeanı və Avstraliya qitəsinin müəyyən bir hissəsini izləməyə imkanı verirdi. Stansiya həmçinin həmin ərazilərdən atılmış orta mənzilli nüvə başlıqlı raketlərin trayektoriyasmı ilk atəş anından etibarən müəyyən edə bilirdi. Qeyd etmək lazımdır ki, SSRİ dağıldıqdan sonra stansiya Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 16 dekabr tarixli sərəncamı ilə Azərbaycanın mülkiyyətinə çevrilmişdi. Sovet İttifaqı dağılsa da, Rusiya ondan istifadə edirdi, lakin statusu hələ müəyyənləşdirilməmişdi.

Səfər zamanı Pavel Qraçov ölkəsinin Azərbaycan ərazisində hərbi baza qurmaq istəyinə dair müzakirələr apardı. Lakin Azərbaycan tərəfi ölkə ərazisində Rusiya hərbi bazasının qurulmasına icazə vermədi. ABŞ politoloqu Zbiqnev Bjezinskinin yazdığı kimi, Türkiyə və ABŞ tərəfindən müdafiə edilən Azərbaycan Rusiyanın nəinki hərbi baza qurmaq haqqında təklifini rədd etdi, həmçinin vahid neft boru kəmərinin Rusiya ərazisindən keçməsinə dair təklifindən açıq şəkildə imtina etdi.*^™

Rusiyanın belə istəyi qonşu ölkələrdə də narahatlıq yaradırdı. Heç əbəs deyildir ki, Türkiyənin Baş Naziri Tansu Çillər Moskvaya rəsmi səfəri zamanı ölkəsinin bu məsələdə narahatlığını açıq şəkildə bildirdi.

Qeyd etmək lazımdır ki, bu illərdə iki ölkə arasında münasibətlər ziddiyyətli şəkildə inkişaf edirdi. Azərbaycan şimal qonşusu ilə münasibətlərin bərabərhüquqlu və möhkəm əsaslarda qurulmasında, problemlərin

**"Zaman" gazetesi, İstanbul, 1994, 17 Şubat.**

**BjKesHHCKHH 3. BejiHKas uıaxMaraas** ÄOCK3.**focnoÄCTBO** AMBPHKHH**ero reocTparerHHecKHe HMnepaxHBbi, c. 174**

yaranmamasında maraqlı idi. Bunun üçün özündən asılı olan hər şeyi edirdi.

1994-cü il fevralın 16-da Ramiz Rizayevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi’^’'. İyulun 29-da Azərbaycan Respublikasının Moskva şəhərindəki daimi nümayəndəliyi əsasında Azərbaycan Respublikasının Rusiya Federasiyasında səfırliyi- səlahiyyətli nümayəndəliyi təsis edildi'®’^. Avqustun 15-də Ramiz Riza- yev səlahiyyətli səfır-səlahiyyətli nümayəndə təyin olundu'®’^.

Azərbaycan hakimiyyətinin iki ölkə arasında münasibətləri yaxşılaşdırmaq istəkləri və cəhdlərinə baxmayaraq, 1994-cü ilin payızında Azərbaycan - Rusiya münasibətləri yenidən gərginləşdi. Rusiya tərəfi 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi”ni tanımayaca- ğını bildirdi. O, bu mövqeyini təkcə bəyan etməklə kifayətlənmədi, eyni zamanda təzyiqlərə keçdi. Bundan sonra Azərbaycan - Rusiya münasibətlərində müzakirə edilən əsas məsələlər neft, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi, Xəzər dənizinin hüquqi statusu. Çeçenistanda şərait və s. oldu.

İki ölkə arasında münasibətlərdə mövcud olan məsələləri müzakirə etmək üçün bir sıra yeni addımlar atıldı. 1995-ci il iyunun 6-da Azərbaycan ilə Rusiya arasında siyasi məsləhətləşmələr haqqında protokol imzalandı'^’'*. Protokola görə, zərurət ortaya çıxardısa hər iki dövlətin rəhbərliyinin rəyi ilə yüksək səviyyəli görüşlər, ildə iki dəfədən az olmayaq nazirliklər arasında onların rəhbərləri səviyyəsində müntəzəm olaraq danışıqlar və məsləhətləşmələr keçirilə bilərdi. Məsləhətləşmələrin parlamentlər, ayrı-ayrı nazirliklər arasında da həyata keçirilməsi də nəzərdə tutulmuşdu.

Bundan sonra iki ölkə arasında qarşılıqlı əlaqələr genişlənərək digər sahələri də əhatə etməyə başladı. 1995-ci ilin iyulunda Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Vladimir Şumeyko'^’^ başda olmaqla parlament nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfər zamanı Vladimir Şumeyko Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qə-

**ARXINA. 1994.**

**ARXİNA. 1994.**

**ARXİNA. 1994.**

**Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında siyasi məsləhətləşmələr haqqında protokol. 6 iyun 1995-ci il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu. Bakı, 2002, s.230-231.**

**Vladimir Şumeyko (1945) - Rusiya dövlət və siyasi xadimi. Rusiya hökuməti sədrinin birinci müavini (1992-1994). Federasiya Şurasının sədri (1994-1996).**

bul edildi. Danışıqlarda iki ölkə arasında münasibətlərin vəziyyəti, problemləri və perspektivləri açıq şəkildə müzakirə olundu. Vladimir Şumey- ko Azərbaycan parlamentində müzakirə apardı, Ermənistanın etnik təmizləmə və təcavüz siyasəti nəticəsində ev-eşiklərindən didərgin düşmüş qaçqın və məcburi köçkünlərlə görüşdü.

Səfər ciddi əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, danışıqlar zamanı Azərbaycan - Rusiya münasibətlərinə dair bütün məsələlər açıq şəkildə müzakirə edilmişdi. Azərbaycan Prezidenti bu səfəri iki ölkə arasındakı münasibətlərdə mərhələ kimi qiymətləndirdi’^^^.

Lakin münasibətlər heç də istənilən kimi inkişaf etmirdi. 1995-ci il sentyabrın 14-də Boris Yeltsin “MDB iştirakçısı olan dövlətlərlə Rusiyanın strateji xətti” adlı sənədi imzaladı'^’’. Sənəddə MDB ərazisi Rusiyanın iqtisadi, müdafiə, təhlükəsizlik, rusiyalıların hüquqlarının qorunması sahəsində başlıca həyati mənafelərin toplandığı ərazi hesab edilirdi. Onların təmin edilməsi Rusiyanın milli təhlükəsizliyinin əsaslarından biri kimi qəbul olunurdu. Rusiya tərəfi MDB-nin “xarici sərhədlərinin” nəzarət altına alınmasına və birgə qorunmasına, MDB daxilində istənilən sülhüqoruma əməliyyatlarında Rusiya ordusunun həlledici rol oynamasına, MDB ölkələrinin ümumi xarici siyasətinin formalaşdırılmasma, “yaxın xaric” ölkələrində Rusiya televiziya və radio proqramlarının yayımlanmasına çalışırdı.

Rusiya Xəzər dənizinin Azərbaycan sektorundakı neft ilə əlaqədar olaraq Qərb dövlətlərinin iştirakı ilə yaradılmış konsorsiumun planlarının reallaşdırılmasma mane olmağa çalışır, onların Azərbaycanda möhkəmlənməsinə, cənub-qərb sərhədlərində yeni regional lider kimi Balkanları, Qafqazı, Yaxın Şərqi birləşdirən və Qara dənizdən dünya okeanına yeganə çıxışa nəzarət edən, NATO üzvü olan Türkiyənin rolunun artmasına ehtiyatla yanaşırdı. Yeni neft boru kəmərləri layihələrinin reallaşdırılmasma təkcə Qafqazı və Orta Asiyanı itirmək deyil, bütün regiondan sıxışdırılması kimi baxırdı. Bu məqsədlə daim siyasi, hərbi, iqtisadi və s. maneələr törədirdi. Davakar etnik separatçılıq təşviq edilir, Ermənistan

**Əliyev H.Ə. Azərbaycanda rəsmi səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Vladimir Şumeykonun şərəfinə təşkil edilən qəbulda nitq. 14 iyul 1995-ci il. - Müstəqilliyimiz əbədidir. III kitab, s.107-114.**

**Yxas npesHfleHxa PocchÜckoh Oe^epaunn 05 yrBep>KaeHHH CrpaTerane-CKoro Kypca Pocchhckoh cpeaepauHH c rocyflapcTBaiMH - ynacTHHKaMH Cojtpy- jKecTBa HesaBHCHMbix FocyflapcxB. 14 ceHxaSpa 1995 r. - Azərbaycan Respublikası Milli Məclisinin arxivi. Beynəlxalq münasibətlər şöbəsinin 1995-ci ilə dair sənədləri; Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s. 32.**

silahlandınlırdı. MDB vasitəsi ilə keçmiş sovet məkanında nüfuzun bərpası üçün səylər edilirdi.

Həmin sənədin qəbulundan az sonra, oktyabrın 7-9-da Rusiya hökumətinin nümayəndə heyəti Bakıya səfər etdi. Səfər çərçivəsində keçirilən danışıqlarda iki ölkə arasında siyasi, iqtisadi, elmi-texniki, hərbi, mədəni və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə edildi. Tərəflər gələcəkdə də dövlətlərarası münasibətləri möhkəmləndirmək və müxtəlif sahələrdə ikitərəfli əlaqələri inkişaf etdirmək barədə razılığa gəldilər. Səfər zamanı iki ölkə arasında münasibətlərin hüquq- müqavilə bazasını möhkəmləndirən 7 saziş - Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası dövlət sərhədində buraxılış məntəqələri, elektroenergetika sahəsində əməkdaşlığın prinsipləri, elmi-texniki əməkdaşlıq haqqında sazişlər. Xəzər dənizi üzrə birgə bəyanat və s. İmzalandı'®’®.

Qeyd edildiyi kimi, Rusiya bu zaman Azərbaycan neftinin öz ərazisindən nəql edilməsində maraqlı idi. Azərbaycan tərəfi isə məsələnin müzakirəsindən imtina etmirdi. Ona görə də Transneft şirkətinin prezidenti V.D.Çemyayev və Lukoyl şirkətinin prezidenti Vahid Ələkbərov Bakıya səfər etdilər. Səfərdə məqsəd Azərbaycan neftinin Rusiya ərazisi ilə Qara dənizin Novorossiysk limanına ixrac edilməsinə dair sazişin hazırlanması idi. Keçirilən görüşlərdə əməkdaşlığın geniş perspektivləri müzakirə edildi. Müvafiq sənəd hazırlanaraq razılaşdırıldı.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası hökuməti arasında Azərbaycan neftinin Rusiya ərazisi vasitəsi ilə nəql edilməsi barədə 10 maddədən ibarət bu saziş Heydər Əliyevin 1996-cı il yanvarın 18-də Moskvaya səfəri zamanı imzalandı'®’^. Sazişə görə, Azərbaycan tərəfi Rusiya ərazisindən tranzit üçün təhvil verilən neftin həcmini ilbəil artıracağına və 2002-ci ildə hər il azı 5 milyon ton olacağını əsas götürməklə 1996-cı ilin dekabrından etibarən müvafiq həcmlərdə neftin göndərilməsinə təminat verirdi.

Sazişin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında Rusiya Federasiyasının Baş Naziri Viktor Çernomirdin dedi: “Saziş

PaÄ>Ka5aH **A.** Me>KflyHapoflHbie CBH3H POCCHHCKOH OenepaiiHH. Baxy, 2005, C.173.

**Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında müqavilə. 18 yanvar 1996-cı il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu, s.305-308.**

imzalandığı andan işləməyə başlayacaqdır və deyə bilərik ki, onun elə bu gün həm Azərbaycan, həm də Rusiya üçün faydası olacaqdır. Biz hesab edirik ki, bu yol etibarlı, çoxillik təcrübə ilə sınaqdan çıxarılmış yoldur və işləyəcəkdir. Həm də onu genişləndirməyə və inkişaf etdirməyə imkan var...Odur ki, bütün mübahisələr əvvəl-axır bununla qurtarmalıdır. Əslinə qalsa heç bir mübahisə olmayıbdır. O ki qaldı başqa variantların olmasına, burada pis nə var ki? Vaxt gələcək hər şey ondan asılı olacaqdır ki, biz nə qədər neft çıxaracağıq, yəni Rusiyada nə qədər, Azərbaycanda nə qədər neft hasil olunacaqdır. Mən əminəm ki, iqtisadi qanunlar işləməlidir, ən əvvəl iqtisadi səmərə diqqət mərkəzində durmalıdır...”’®*®. Azərbaycan Prezidenti Heydər Əliyev isə imzalanan bu sənədi “Əsrin müqaviləsi”nin əməli surətdə həyata keçirilməsi yolunda böyük addım qiymətləndirdi’®*’.

Səfər zamanı həmçinin iki ölkə arasında 2000-ci ilə qədər olan dövrdə iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında saziş imzalandı.

Bundan az sonra Rusiyanın xarici işlər naziri Yevgeni Primakov Cənubi Qafqaza səfər edərək, regiondakı şəraiti, daha təsirli qərarların qəbul edilməsi üçün regionun dörd dövlət başçısının görüşünün keçirilməsi məsələlərini müzakirə etdi. Səfər zamanı Ermənistanda və Azərbaycanda saxlanılan 110 nəfər hərbi əsir və girov azad edilərək vətənlərinə qaytarıldı.

Rusiya tərəfi Qafqazda sabitliyin bərəqərar edilməsi məsələlərini müzakirə edərkən bu ölkənin bəzi siyasətçiləri əsassız olaraq guya Azərbaycanın çeçen yaraqlılarına kömək göstərdiyini bildirirdilər. Rusiya mətbuatı isə yazırdı ki, guya ərəb ölkələri, İran, Türkiyə və Əfqanıstandan silah gətirən təyyarələr Azərbaycana enir, oradan da silahlar Çeçenistana daşınır. Bu, Azərbaycana qarşı bir təxribat idi. Azərbaycan Prezidenti Heydər Əliyev həmin uydurmaları qətiyyətlə təkzib etdi’®*^. Çünki iki

**Əliyev H.Ə. Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında sazişlər imzalandıqdan sonra Rusiyanın Baş Naziri V.S.Çemomirdinlə birgə mətbuat konfransı. - Müstəqilliyimiz əbədidir. V kitab, s.279-280.**

**Əliyev H.Ə. Azərbaycanda çıxarılan ilkin neftin Rusiya Federasiyasının ərazisi vasitəsilə nəqlinə dair sənədlərin imzalanma mərasimində çıxış. 16 fevral 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.336-337.**

**Əliyev H.Ə. Azərbaycan Respublikası və Rusiya Federasiyası hökumətləri arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında sazişlər**

ölkə arasında sərhədi təkcə Azərbaycan sərhədçiləri qorumurdular. Dağıstan tərəfdən sərhədi Rusiya sərhədçiləri qoruyurdular.

Dedi-qodulara son qoymaq məqsədi ilə 1996-cı il fevralın ortalarında Rusiya Sərhəd Xidmətinin direktoru Andrey Nikolayev'^*^ Azərbaycana səfərə dəvət edildi. Keçirilən görüşlərdə sərhəddəki vəziyyət geniş müzakirə olundu. Nümayəndə heyəti bir həftə ərzində Azərbaycan sərhədçiləri ilə birlikdə iki ölkə arasındakı bütün sərhədi gəzdi. Amma silah keçirmək üçün yerləri tapa bilmədi.

Danışıqların yekununda iki ölkə arasında sərhəd əməkdaşlığının istiqamətlərini müəyyənləşdirən saziş paraflandı. Azərbaycan hökuməti Rusiya ilə sərhədin etibarlı qorunmasında maraqlı idi'®*'*.

Səfərin böyük əhəmiyyəti oldu. Ondan sonra Rusiya mətbuatında bu barədə verilən yazıların sayı bir qədər azaldı.

Belə əməkdaşlıq iki ölkə arasında münasibətlərin daha da inkişafı üçün imkanlar açırdı. Lakin bu zaman başqa bir hadisə baş verdi. 1996-cı il martın 15-də Rusiya Federasiyası Dövlət Duması "Belovejsk sazişi"nin ləğvi haqqında qərar qəbul etdi. Bu, SSRİ-nin bərpasına yönəlmiş bir addım idi. Rusiya keçmiş sovet məkanını "yaxın qonşular" hesab edir və öz nüfuz dairəsi sayır, bütün Avrasiya üzərində nəzarət qazanmağa çalışırdı. Heç bir hüquqi əsası olmayan bu qərar SSRİ-ni bərpa etmək cəhdi olub, yeni müstəqil dövlətlərin müstəqilliyinin əleyhinə idi və yeni təhlükəli meyillərdən xəbər verirdi. Həmin qərar qəbul edildikdən bir gün sonra bəyanat verən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Rusiya Federasiyası Dövlət Dumasının 15 mart tarixli qərarının heç bir hüquqi əsası olmadığını bildirərək qətiyyətlə rədd etdi, Azərbaycanın müstəqil və suveren inkişaf yolu ilə irəliləmək əzmini göstərdi'^*^.

**imzalandıqdan sonra Rusiyanın Baş Naziri V.S.Çemomirdinlə birgə mətbuat konfransı.-Müstəqilliyimizəbədidir. V kitab, s.279-281.**

**Andrey Nikolayev (1949) - sovet və Rusiya hərbi xadimi, ordu generalı. Federal Sərhəd Xidmətinin direktoru (1994-1997).**

**Əliyev H.Ə. Rusiya Federal Sərhəd Xidmətinin direktom A.İ.Nikolayevlə görüşdən sonra mətbuat üçün bəyanat. 14 fevral 1996-cı il. — Müstəqilliyimiz əbədidir. V kitab, s.327.**

**Əliyev H.Ə. 1991-ci il dekabrın 8-də Rusiyanın, Ukraynanın və Belarusiyanın imzaladığı "Belovejs sazişi" ni ləğv etmiş Rusiya Fedrasiyası Dövlət Dumasının 1996-cı il 15 mart tarixli qərarı ilə əlaqədar bəyanat. 16 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s. 456-459.**

Bütün təzadlı məqamlarına baxmayaraq, iki ölkə arasında münasibətlər tədricən yeni sahələri əhatə edirdi. Belə ki, 1996-cı il mayın 22-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyi arasında Azərbaycan Respublikası silahlı qüvvələri aviasiyasının yük və sərnişin hava gəmilərinin və Rusiya Federasiyası silahlı qüvvələri aviasiyasının yük və sərnişin gəmilərinin hərbi aerodromlarda qəbulunun təşkili, aerodrom-texniki təminatı və mühafizəsi haqqında saziş imzalandı.

Artıq qeyd edildiyi kimi, bu zaman Qafqazda yaranmış gərgin vəziyyəti sabitləşdirmək cəhdləri region ölkələrinin başlıca qayğısına çevrilmişdi. Ona görə də 1996-cı il iyunun 3-də Kislovodsk şəhərində Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan prezidentləri görüşərək Qafqazdakı şəraiti müzakirə etdilər. Müzakirələr nəticəsində “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda bəyannamə” imzalandı’^*^. Bəyannamədə tərəflər regionda baş verən silahlı münaqişələrin dağıdıcı və antihumanist xarakter daşıdığını qeyd edir. Çeçenistanda hərbi əməliyyatların dayandırılması haqqında razılaşmanı bəyənir, qaçqın və məcburi köçkünlərin doğma yaşayış yerlərinə qaytarmalarına səylər edəcəklərini bildirir, təcavüzkar separatçılığı, dinlər arasında ədavəti və dini ekstremizmi rədd edir, terrorçuluğu pisləyir, region xalqları arasında mədəni, elmi, humanitar ünsiyyəti genişləndirməyə səy göstərəcəklərini bəyan edirdilər.

Azərbaycan tərəfi bəyannamədə nəzərdə tutulan məsələlərin həlli ilə yaxından məşğul olmağa başladı. Lakin bu zaman yeni bir problem ortaya çıxdı. Azərbaycan neftinin şimal marşrutu ilə nəqli dayandırıldı. Rusiya bir tərəfdən Çeçenistanı öz ərazisi hesab edir, digər tərəfdən isə neft boru kəməri ilə neftin bu ərazidən təhlükəsizlik keçməsinə təminat vermirdi. 1997-ci il iyulun 2-4-də Azərbaycan Prezidenti Heydər Əliyev Rusiyaya ilk dəfə olaraq etdiyi rəsmi səfəri ərəfəsində Çeçenistan Prezidenti Aslan Məshədov’®*’ ilə görüşərək şimaldan keçən neft boru kəmərinin təhlükəsizliyi məsələlərini müzakirə etdi. Novorossiysk limanına axıdılan Azərbaycan nefti Çeçenistan ərazisindən də keçdiyindən

**Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyası dövlət başçılarının görüşündə qəbul edilmiş “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda bəyannamə”. - Müstəqilliyimiz əbədidir. VI kitab, s. 402-405.**

**Aslan Məshədov (1951-2005) - İçkeriya-Çeçen Respublikasının Prezidenti (1997-2005).**

boru kəmərinə qarşı terror aktları törədilməsi ehtimalları da qalırdı. Azərbaycan Prezidenti bu görüşədək həmin məsələni Rusiyanın Baş Naziri Viktor Çemomirdin, Baş Nazirin birinci müavini Anatoli Çubays'*’**, Baş Nazirin müavini Boris Nemtsov ilə də müzakirə etmişdi. Lakin məsələ həll edilməmişdi. Onlar neft boru kəmərinin bağlanmasını Çeçenistanda aparılan hərbi əməliyyatlarla əlaqələndirmişdilər. Buna görə də Heydər Əliyev Aslan Məshədov ilə görüşmək qərarına gəlmişdi. Aslan Məshədov ilə görüşdə Qafqazdakı şərait, aparılan hərbi əməliyyatların nəticəsində Azərbaycanın blokadada qalmasının aradan qaldırılması məsələləri müzakirə edildi. Transneft, ARDNŞ və Çeçenistan neft şirkətinin neft kəmərindən istifadəyə dair saziş bağlamaları məqsədəuyğun hesab olundu. A.Məshədov Azərbaycan neftinin tranzitinə qarşı heç bir hərəkət etmək niyyətlərinin olmadığını bildirdi. Beləliklə, Moskvaya səfər ərəfəsində Heydər Əliyev neft boru kəmərinin bağlanmasına dair bəhanələrin əsassız olduğuna bir daha əmin oldu və mövqeləri möhkəm halda səfərə yollandı.

Azərbaycan Prezidentinin Rusiyaya səfərində başlıca məqsəd ikitərəfli siyasi, iqtisadi və digər münasibətləri, Minsk qrupunun həmsədri kimi Rusiyanın fəaliyyətinin gücləndirilməsini istəmək, Rusiyanın Ermənistana silah satışı. Çeçenistan hadisələri zamanı Azərbaycanın blokadaya alınmasının aradan qaldırılması və digər məsələləri müzakirə etmək idi'^*^. Artıq qeyd edildiyi kimi, Rusiya Azərbaycanı blokdaya salmışdı. Çeçenistan hadisələri ilə heç bir əlaqəsi olmadığı halda Azərbaycan gəmiləri Volqa-Don kanalına girə bilmirdilər. Azərbaycan tərəfi yolun açılması məsələsini dəfələrlə qaldırmışdı. Lakin qarşı tərəf məsələni həll etməyə tələsmirdi. Ona görə də bu səfərdən çox şey gözlənilirdi.

Səfər ərəfəsində keçirdiyi brifinqdə Heydər Əliyev imzalanacaq sənədlərin əhəmiyyətini vurğuladı. Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların istismarı üçün dünyanın bir çox ölkələrinin ən nüfuzlu şirkətləri ilə Azərbaycanın bağladığı müqavilələrdə, yaradılmış konsorsiumlarda Rusiyanın neft şirkətinin yaxından iştirakından razı qaldığını və

**Anatoli Çubays (1955) - Rusiya Federasiyasının ictimai, dövlət xadimi, Dövlət Əmlak Komitəsinin sədri (1991-1994). Rusiya hökuməti sədrinin müavini (1992-1994). Prezident administrasiyasının rəhbəri (1996-1997). Maliyyə naziri (1997). Energetika şirkətinin rəhbəri (1998-2008).**

**Əliyev H.Ə. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin dəvəti ilə Moskvaya rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jumalistlərun suallarına cavab. 2 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. X kitab, s.235-238.**

ARDNŞ ilə LUKoyl arasında imzalanacaq daha bir sənədin bu sahədə əməkdaşlıqda yeni mühüm addım olacağını bildirdi’*’®.

Rusiya Prezidenti ilə keçirilən danışıqlarda hələ neftin şimal marşrutu ilə nəqlinə dair 1996-cı ildə imzalanmış sazişin yerinə yetirilməməsi və şimal neft boru kəmərinin bağlanması məsələsi müzakirə edildi. Azərbaycan Prezidenti sazişin yerinə yetirilməməsinin səbəblərini soruşaraq həllini istədi. Məsələnin həlli üçün Transneft, ARDNŞ və Çeçenistan neft şirkəti arasında neft boru kəmərindən istifadəyə dair saziş bağlamaq barədə razılıq əldə olundu. Rusiya tərəfi məsələnin həllini təmin edəcəyinə söz verdi.

Dövlət başçıları Ermənistan - Azərbaycan münaqişəsinə dair fikir mübadiləsi etdilər. Azərbaycan Prezidenti ABŞ, Rusiya və Fransa prezidentlərinin Denver bəyannaməsini və digər sənədləri yüksək qiymətləndirdi. Boris Yeltsin Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə yaxından məşğul olacağına, üç dövlət rəhbərinin Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqlar aparılması barədə qərara gəldiklərini bildirdi.

Azərbaycan tərəfi Rusiyanın Ermənistana 1 milyard dollar həcmində qanunsuz silah verməsi məsələsini qaldırdı. Azərbaycan Prezidenti bu səfərə qədər qanunsuz silah verilməsi ilə bağlı Rusiya Prezidentinə bir neçə məktub yazmışdı. Qeyd etmək lazımdır ki, Rusiya silahları Ermənistana 1994, 1995 və 1996-cı illərdə, yəni atəşkəs dövründə göndərilmişdi. Bu barədə müzakirənin aparılması iki ölkə arasında münasibətləri daha səmimi məcraya yönəldə bilərdi. Azərbaycan tərəfi məsələnin ətraflı araşdırılması məqsədi ilə üçtərəfli komissiya yaradılması təklifini ilk addım kimi müsbət qiymətləndirdi. Boris Yeltsin məsələni təhqiq etmək üçün Rusiya Baş Prokurorluğuna göstəriş verdiyini bildirdi.

Rusiya tərəfinin Şimali Qafqazda yaranmış gərgin şəraiti nəzərə alaraq Azərbaycan - İran sərhədini birgə qorumağa dair təklifi Azərbaycanın suverenliyini məhdudlaşdırdığı üçün qəbul olunmadı. Azərbaycan dövləti sərhədlərini özünün etibarlı qorumaq gücündə idi.

Danışıqlarda eyni zamanda Xəzər dənizinin hüquqi statusu, təbii ehtiyatlarından istifadə edilməsi, Qafqazda sülhün, əmin-amanlığın təmin olunması, Rusiya ilə Azərbaycan arasında dəmiryolu əlaqəsinin, naviqasiya xəttinin tam bərpa edilməsi və bir sıra digər məsələlər barəsində geniş fikir mübadiləsi aparıldı.

**Əliyev H.Ə. Rusiya və Azərbaycan prezidentlərinin görüşündə çıxış. 3 iyul 1997-ci il. — Müstəqilliyimiz əbədidir. X kitab, s.239-241.**

İyulun 3-də Azərbaycan - Rusiya münasibətlərində strateji tərəfdaşlığı təmin edən sənədlər imzalandı. Bunlardan biri dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 29 maddədən ibarət olan müqavilə idi^^'. Sənədin əsas normasını dost və bərabərhüquqlu dövlətlərin münasibətlərini etimad və strateji tərəfdaşlıq, dövlət suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və sərhədlərinin pozulmazlığı prinsiplərinə qarşılıqlı hörmət təşkil e d i r d i İ k i ölkə arasında iqtisadi və maliyyə sahələrində əməkdaşlığı nəzərdə tutan sənədlər də imzalandı.

Səfər zamanı enerji sahəsində əməkdaşlıqda da irəliləyiş əldə edildi. İki ölkə prezidentlərinin iştirakı ilə ARDNŞ ilə LUKoyl və Rosneft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Kəpəz” yatağının işlənilməsinə dair müqavilə imzalandı. Bu sənədin imzalanması- nadək LUKoyl artıq Azərbaycan neftinə dair üç müqavilədə iştirak edirdi.

Heydər Əliyev Rusiya Federasiyası Federasiya Şurasının sədri Yeqor Stroyev'®^^ ilə görüşərək parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə etdi. Federasiya Şurası iki ölkə arasında imzalanmış bütün sənədləri dəstəkləyirdi.

Daha sonra Azərbaycan Prezidenti Rusiya hökuməti sədrinin birinci müavini Boris Nemtsov ilə görüşdü. Boris Nemtsovun fikrincə, Rusiyanın neft şirkətləri Xəzər nefti məsələlərindən kənarda qalmamalı idilər. O deyirdi ki, yaxşı olar, Rusiyanın neft şirkətləri kənarda qalmasınlar, çünki neft yataqlarını mənimsəmək hüququ uğrunda indi çox böyük mübarizə gedir. Boris Nemtsova görə, Azərbaycanla bu cür sıx tarixi, mədəni əlaqələr ola-ola, Rusiyanın yaxınlığındakı şelfm mənimsənilməsi ilə bağlı iri iqtisadi layihələrdən kənarda qalmağa mənəvi və iqtisadi baxımdan

**jforoBop o apyxcöe, coxpyflHHHecTBe u BsauMHoR öesonacHOCTH MOKay Poc-
CHHCKOÜ OeaepauHeü н AaepöaÜÄJKaHCKOH PecnyöJiHKoü. 3 uıojıa 1997 r. - EıoajıCTeH MOKflyuapoflHbix floroBopoB. M., 1999, *N°7,* c. 12-18; Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə. 3 iyul 1997-ci il. - Müqavilələr toplusu. I cild, s.158-167; Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə. 3 iyul 1997-ci il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu, s.332-339.**

**MaMCflHpoB 3. /^oöpbie coceau, uaÄexcHbie napTuepbi. K-15 neruıo ycranoB-
jıeHHH aunjıoMaTHHecKHX OTuornennü MOK/ıy AsepöaHaaraHCKOH PecnyöjinKoü и PoccHHCKOü OeaepauHef. - “Diplomatiya aləmi” jurnalı. Bakı, 2007, №17, s. 9 [illegible]**

**Yeqor Stroyev (1937) - Oryol vilayətinin qubernatoru (1993-1996). Federasiya Şurasının sədri (1996-2001).**

İxtiyarı yox idi. O, Qafqazda "parçala və hökm sür siyasətini səfeh bir siyasət" adlandırırdı'^^'*.

Azərbaycan Prezidenti Rusiya Federasiyasının baş prokuroru Yuri Skuratov ilə görüşərək Ermənistana qanunsuz silah satışı və cinayətkarlığa qarşı mübarizə məsələlərini müzakirə etdi. Rusiya dövlət rəhbərləri ilə görüşdən sonra üçtərəfli - Rusiya, Azərbaycan və Ermənistan komissiyasının yaradılması haqqında qərar qəbul edildi. Komissiya qanunsuz silah verilməsi məsələsini təhqiq etməli idi.

Keçirilən danışıqların və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. İmzalanan sənədlər iki ölkə arasında münasibətləri inkişaf etdirmək və dərinləşdrimək üçün müqavilə-hüquqi əsas yaradırdı. Rusiya tərəfi Azərbaycan gəmilərinin Volqa çayı ilə hərəkət etməsinə icazə verdi. Bu, Azərbaycanın mövqelərinin möhkəmlənməsi idi.

Səfərdən az sonra, 1997-ci il iyulun 11-də Azərbaycan neftinin Bakı - Qroznı - Tixoretsk - Novorossiysk boru kəməri ilə nəql olunması haqqında Azərbaycan - Rusiya - İçkeriya-Çeçen Respublikası arasında saziş imzalandı'^®^. Sazişin imzalanması ilə neftin nəqlinə dair razılaşmaların əməli surətdə həyata keçirilməsinə başlanıldı. Azərbaycan neftinin şimal marşrutu ilə nəqlinə törədilən əngəllər aradan qaldırıldı.

Azərbaycan Prezidentinin Rusiyaya rəsmi səfəri münasibətlərdə yeni bir səhifə açırdı. Səfərdən sonra qarşılıqlı əlaqələr genişləndi. 1997-ci il oktyabrın 7-də Rusiyanın xarici işlər naziri Yevgeni Primakov Bakıya səfər etdi. Keçirilən danışıqlarda iki ölkə arasında münasibətlərin inkişaf məsələləri, ATƏT-in Minsk qrupunun səyləri, həmsədrlərin sonuncu mərhələli həll təklifləri müzakrə edildi. Azərbaycan bu təklifləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında danışıqlar üçün əsas kimi

**^ Əliyev H.Ə. Rusiya hökuməti sədrinin birinci müavini Boris Nemtsovla görüşdən sonra jurnalistlərin suallarına cavablar. - Müstəqilliyimiz əbədidir. X kitab, S.255.**

**Yuri Şkuratov (1952) - Rusiya hüquqşünası və siyasətçisi. Baş prokuror (1995-1999).**

**Əliyev H.Ə. Azərbaycan neftinin Bakı - Qroznı — Tixoretsk - Novorossiysk kəməri ilə nəql olunması haqqında Azərbaycan - Rusiya - İçkeriya-Çeçen Respublikası arasında saziş imzalandıqdan sonra Rusiya Federasiyasının nümayəndə heyətini qəbul edərkən çıxış. 11 iyul 1997-ci il. - Müstəqilliyimiz əbədidir. X kitab, s. 373-374.**

qəbul edirdi. Daha sonra böyük miqdarda Rusiya silahlarının Ermənistana qanunsuz verilməsi məsələsi müzakirə olundu.

Səfər zamanı keçirilən danışıqların əhəmiyyəti var idi. Bu, iki ölkə arasında mehriban qonşuluq münasibətləri yolunda olan əngəllərin aradan qaldırılmasında yönəlmişdi. İmzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə Qəbələ informasiya-analitik mərkəzi barədə məsələdə də irəliləyiş üçün zəmin yaradırdı. Həmin məsələdə irəliləyişə nail olunması 1972-ci il mayın 26-da SSRİ ilə ABŞ arasında imzalanmış raketdən müdafiə sistemlərinin məhdudlaşdırılması haqqında müqavilə ilə müəyyənləşdirilmiş rejimə əməl edilməsinə və strateji sabitliyə kömək edərdi. Artıq qeyd edildiyi kimi, həmin mərkəz kosmik fəzanın radiolokasiya müşahidəsini həyata keçirirdi.

Rusiya tərəfi 1997-ci il noyabrın 13-də Qəbələ informasiya-analitik mərkəzinin saxlanılması və istifadə qaydaları haqqında saziş layihəsinin hazırlanması məqsədi ilə danışıqlara başlamağa hazır olduğunu bildirdi*®^*. 25 maddədən ibarət saziş layihəsini də təqdim etdi’®’®. Layihəyə görə, mərkəzdəki daşmar əmlak Rusiyanın, daşınmaz əmlak isə Azərbaycanın mülkiyyəti idi. Operativ məsələlərin həllində mərkəzin administrasiyası Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərirdi.

Bütün bunlarla paralel olaraq Azərbaycan diplomatiyası Rusiyanın Ermənistana qanunsuz silah verməsi məsələsinin araşdırılmasını daim gündəlikdə saxlayırdı. Belə ki, 1998-ci il aprelin 28-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan müştərək komissiyasının iclasında Rusiyanın Ermənistana qanunsuz silah satması məsələsi müzakirə edildi. Azərbaycan tərəfindən iclasda Baş Nazirin birinci müavini Abbas Abbasov, müdafiə naziri Səfər Əbiyev, baş prokuror Eldar Həsənov'™® iştirak edirdilər. Müzakirə göstərdi ki, məsələnin sona çatdırılması qəsdən ləngidilir.

**Əliyev H.Ə. Bakıya səfərə gəlmiş Rusiyanın xarici işlər naziri Yevgeni Pri- makovla görüşdə söhbətdən. 7 oktyabr 1997-ci il. - Müstəqilliyimiz əbədidir. XII kitab, S.275.**

**ARXİNA. 05.02.1997-24.05.1998. Qovluq X°11, v. 133, 131.**

**ARXİNA. 05.02.1997-24.05.1998. Qovluq Xali, V. 134-142.**

**Eldar Həsənov (1955) - Azərbaycanın baş prokuroru (1995-200). Rumıniyada fövqəladə və səlahiyyətli səfir (2001-2013). Serbiya, Monteneqro və Bosniya və Herseqovinada fövqəladə və səlahiyyətli səfir (2013-cü ildən).**

Bütün bunlara baxmayaraq, az sonra Rusiya Dövlət Dumasının komitə sədri general Lev Roxlin'™’ Ermənistana silah verilməsini təsdiqlədi. Həmin hərəkətə etirazını bildirərək Azərbaycan ilə münasibətlərin yaxşılaşdırılmasını tələb etdi’™^.

İki ölkə arasında münasibətlərin müxtəlif məsələləri 1998-ci il iyulun 28-29-da Rusiya xarici işlər nazirinin birinci müavini Boris Pastu- xovun"°^ Azərbaycana səfəri zamanı müzakirə edildi. Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin bütün tərəflərin səyləri ilə qarşılıqlı maraqlar və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin vacibliyi bildirildi'™". Xəzər dənizinin hüquqi statusu məsələsinin bütün Xəzəryanı dövlətlərin ümumi razılığı ilə həll edilməsi barədə ümumi fikir ifadə olundu. Rusiyanın bu məsələdə mövqeyinin dəyişildiyi və tərəflərin mövqelərinin yaxınlaşdığı bildirildi. Danışıqlarda Xəzərin su səthi və dibindən istifadə ilə bağlı iki variant müzakirə edildi: dənizin dibi bölünməklə su səthindən birgə istifadə; su səthi və dibinin mili sektorlara bölünməsi. Tərəflər hər iki variant barədə mövqelərini bildirdilər. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində məsləhətləşmələri davam etdirmək qərara alındı. Rusiyanın baxışına görə, status müəyyənləşdirilənə qədər 1921-ci il 26 fevral və 1940-cı il 25 mart tarixli müqavilələr qüvvədə qalmalı idi. Azərbaycan tərəfi Xəzər dənizinə dair Rusiya ilə Qazaxıstan arasında iyulun 6-da imzalanmış müqaviləni bəyənirdi. Səfər zamanı Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci il iyulun 3-də Moskvada imzalanmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə və 1995-ci il iyunun 6-da Bakıda imzalanmış konsul konvensiyasının ratifikasiyası haqq'mda qramotalar mübadilə edildi.

**Lev Roxlin (1947) - Rusiya Dövlət Dumasının müdafiə komitəsinin sədri (1996-1997). General-leytenant.**

**Robert O. Freedman. Russia and Azerbaijan Are relations beginning to İmprove. -“Caspian Crossroads”, Washington, 1997, No: 12.**

**Boris Pastuxov (1933) - Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin birinci katibi (1977-1986). Danimarkada (1986-1989), Əfqanıstanda (1989-1992) səfir. Rusiya xarici işlər nazirinin birinci müavini (1996-1998). MDB üzrə nazir (1998-1999).**

**'™‘' CoBMCCTHoe poccHHCKO-a3ep6aHÄ>KaHCKoe saaBjıeHne no HToraM BHSUTB n.e- nerauHH POCCHHCKOH cpe^epaumr B AsepöaRflÄaHCKyıo PecnyöJiHKy. 28 mona 1998 r. - BHemHHH nojiHXHKa POCCHH. CöopHHK flOKyMCHTOB. 1998. M., 2003, C. 365-367.**

Artıq qeyd edildiyi kimi, Rusiya bu zaman Qafqazda sabitlik yaratmaq üçün təkbaşına cəhdlər etsə də, istəyinə nail ola bilmədiyindən Cənubi Qafqaz dövlətlərinin səylərini birləşdirməyə çalışırdı. Həmin məqsədlə 1999-cu il sentyabrın 2-4-də Rusiyanın xarici işlər naziri İqor İvanov Cənubi Qafqaz ölkələrinə səfər etdi'™^ Səfərdə başlıca məqsəd 1996- cı ildə Prezident Boris Yeltsinin irəli sürdüyü "Kislovodsk ideyası"nı canlandırmaq idi. O, Azərbaycan Respublikasının xarici işlər naziri və Baş Naziri ilə görüşdü'™®. Danışıqlarda Dağlıq Qarabağ münaqişəsinin həlli, Rusiyanın Ermənistana qanusuz silah satması. Xəzər dənizinin hüquqi statusu və ikitərəfli ticarət-iqtisadi əlaqələr müzakirə edildi.

İqor İvanovu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi'™". O, Rusiya Prezidentinin məktubunu Heydər Əliyevə təqdim etdi. Məktubda ikitərəfli münasibətlərə dair məsələlər barəsində Rusiyanın təklifləri verilmişdi. Rusiya Prezidenti Qafqazın sülh və sabitlik zonasına çevrilməsində maraqlı olduğunu yazırdı. Azərbaycan da Qafqazda sülhün, sabitliyin bərqərar olmasına tərəfdar idi. Lakin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı davam etdikcə Qafqazda sabitlik və təhlükəsizlik mümkün deyildi. Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqazda gərginlik mənbəyi idi.

Danışıqlarda ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər, Qafqaz dövləti kimi Rusiyanın regionda sülh, sabitlik və əməkdaşlıqda rolunun artırılması məsələləri müzakirə edildi. İqor İvanov Kislovodsk prosesinin canlandırılmasınm vacibliyini bildirdi. Qafqazda sülh və sabitliyə nail olunmasını Rusiyanın uzunmüddətli marağı kimi təqdim etdi. Nazir Rusiyanın bu regionda sülh, sabitlik və əməkdaşlıq istədiyini bildirdi. Danışıqlarda həmçinin Şimali Qafqazda şəraitin kəskinləşməsi ilə əlaqədar olaraq Cənubi Qafqaz ölkələri ilə Rusiya arasında münasibətlər, ekstremizmə və terrorizmə qarşı mübarizə məsələləri, münaqişələrin dinc yolla həlli də müzakirə olundu. Rusiya tərəfi Dağlıq Qarabağ münaqişəsində razılaşmanın Azərbaycan və Ermənistandan asılı olduğunu bildirdi.

СooöuıeHHe o paöoHHX BHSHTax MHHHcrpa HHOcTpauHbix .aea PoccHHCKOÜ OeaepauHH H.C.HBaHoea в AsepöaüfliKaH, ApMeHHio **u** fpysHio. **2** ceHTHÖpa **1999** r. - BHeııiHHH nojiHTHKa PoccHH. CöopuHK ÄOKyMeHTOB, c. **294-295.**

**Yenə orada.**

**Əliyev H.Ə. Rusiyanın xarici işlər naziri İqor İvanov və onu müşayiət edən nümayəndə heyəti ilə görüşdə söhbət. 2 sentyabr 1999-cu il. — Müstəqilliyimiz əbədidir. XXI kitab, s. 280-304.**

Tərəflər ATƏT-in Minsk qrupunun səylərinin artırılmasının vacibliyini qeyd etdilər.

Danışıqlarda Xəzər dənizinin hüquqi statusu məsələsi də müzakirə edildi. Rusiyanın mövqeyinə görə, bu məsələ Xəzəryanı dövlətlərin maraqları nəzərə alınmaqla həll edilməli idi.

Azərbaycan Prezidenti Cənubi Qafqazdakı münaqişələrin həlli məsələsində Rusiyanın passivliyini qeyd etdi və tənqidi fikirlərini açıq şəkildə söylədi. Onun fikrincə, Rusiya xarici işlər nazirinin səfəri Rusiyanın Cənubi Qafqaz siyasətində ölkələrlə münasibətlərinin təkmilləşdirilmə- sinə, səviyyəsinin yüksəldilməsinə yönəlmiş addım idi. Azərbaycan ilə Rusiya arasında münasibətlərdə mövcud olan məsələlərin müzakirəsi vacib idi. Azərbaycan Prezidenti Minsk qrupunun təkliflərini və ona münasibəti şərh etdi. Rusiyanın Ermənistana yardım etməsinin yolverilməz olduğunu dedi. İqor İvanov Ermənistandakı Rusiya bazasının münaqişədən əvvəl və sonra deyil, hələ sovet dövründə qurulduğunu, onun heç vəchlə Azərbaycana qarşı yönəlmədiyini bildirdi.

Tərəflər Rusiya Federasiyasının Prezidenti Boris Yeltsinin irəli sürdüyü “Kislovodsk ideyasf’nm canlandırimasını məqsədəmüvafıq hesab etdilər. Bunun üçün konkret addımların atılması barədə razılığa gəldilər.

Danışıqlar başa çatdıqdan sonra Heydər Əliyev bəyanat verərək iki ölkə arasında bütün sahələrdə münasibətləri inkişaf etdirib dərinləşdirmək məsələlərinin müzakirə olunduğunu bildirdi'™. İqor İvanov isə Rusiyanın Azərbaycan və Qafqazın bütün dövlətləri ilə münasibətlərini fəal inkişaf etdirmək əzmində olduğunun qeyd etdi'™.

Səfərdən az sonra, noyabrın 4-də Rusiya Çeçenistanda yaranmış şəraitlə əlaqədar olaraq Azərbaycana nota verərək viza rejiminin tətbiq olunacağını bildirdi. Bu addım MDB iştirakçısı olan dövlətlər arasında imzalanmış Bişkek sazişinə zidd idi. Həmin sazişə görə, viza rejiminin ləğvi barədə dövlətlər 90 gün əvvəl məlumat verməli idilər. Digər tərəfdən Azərbaycanın Çeçenistanda baş verən hadisələrlə heç bir əlaqəsi yox idi.

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiyanın xarici işlər naziri İqor İvanov ilə görüşdən sonra danışıqların yekunları haqqında birgə mətbuat konfransında bəyanatı. 2 sentyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXİ kitab, s. 305-307.**

**'™Rusiyanın xarici işlər naziri İqor İvanovun bəyanatı. 2 sentyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. XXI kitab, s.307-308.**

Məlum hadisələr Rusiyanın daxili işi idi. Azərbaycan isə Rusiyanın daxili işlərinə qarışmırdı.

Bundan bir gün sonra, noyabrın 5-də Rusiya hökuməti sədrinin birinci müavini Nikolay Aksyonenko'’’° başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Səfər zamanı iki ölkə arasında müştərək komissiyanın iclası keçirildi. Əsasən iqtisadi məsələlər müzakirə edildi. Həmin gün nümayəndə heyətini qəbul edən Heydər Əliyev birmənalı olaraq bildirdi: “...xarici siyasətimizin strateji istiqaməti bütün sahələrdə, o cümlədən siyasət sahəsində Rusiya ilə münasibətlərimizi inkişaf etdrimək və möhkəmləndirməkdən ibarətdir”

Tərəflər ərazilərindəki bazarları itirməmək barədə razılığa gəldilər. Heydər Əliyev Rusiyanın regionda yürütdüyü siyasətin Azərbaycan ictimaiyyətində yaratdığı narazı məqamları diqqətə çatdırdı. Moskvada törədilən terror aktlarından sonra “Qafqaz millətindən olan şəxslər” adı altında azərbaycanlıların sıxışdırılmasma, Rusiyada bəzi şəxslərin Ermənistana qanunsuz olaraq 1 milyard dollar dəyərində silah satmasına, Rusiyanın Ermənistan ərazisində böyük miqdarda silahlar, hətta C-300 raketləri, MİQ-29 təyyarələri yerləşdirməsinə, televiziya kanallarında və mətbuatda Azərbaycan əleyhinə aparılan təbliğata etiraz etdi. Azərbaycan ərazisindən guya Çeçenistana silah və yaraqlıların keçməsi barədə yayılan yanlış məlumatlara da kəskin etirazını bildirərək dedi: “Siz fakt verin. Yeri gəlmişkən, dünən mən televizora baxırdım, Rusiya hökumətinin iclasını göstərirdilər. Orada sərhəd qoşunlarının rəisi Konstantin Totski”'^ məlumat verirdi. O, burada, daha doğrusu, Azərbaycanın Rusiya ilə sərhədində - Dağıstanda olub, bizim sərhəd qoşunlarının rəisi ilə görüşübdür. Onlar informasiya, rəy mübadiləsi aparıblar. O, Moskvaya qayıtdıqdan sonra bəyan etdi ki, onlar Azərbaycandan Çeçenistana silah və ya yaraqlılar keçdiyini təsdiqləyən heç nə tapmadılar”’”'^.

**Nikolay Aksyonenko (1949-2005) - Rusiyanın nəqliyyat naziri (1997-1999, 2000-2002). Hökumətin sədrinin birinci müavini (1999-2000).**

**Əliyev H.Ə. Rusiya Federasiyası hökuməti sədrinin birinci müavini Nikolay Aksyonenko başda olmaqla Rusiyanın hökumət nümayəndə heyəti ilə görüşdə söhbət. 5 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 30.**

**Konstantin Totski (1950) - Rusiya Federal Sərhəd Xidmətinin direktoru (1998-2003). Ordu generalı.**

**”'^Əliyev H.Ə. Rusiya Federasiyası hökuməti sədrinin birinci müavini Nikolay Aksyonenko başda olmaqla Rusiyanın hökumət nümayəndə heyəti ilə görüşdə söhbət. 5 noyabr 1999-cu il. - Müstəqilliyimiz əbədidir. XXIII kitab, s. 30-35.**

Heydər Əliyevin belə açıq danışması Rusiya ilə münasibətlərin mehriban qonşuluq əsasında inkişafı istəyinin və qarşılıqlı münasibətlər verilən diqqətin göstəricisi idi. Azərbaycan tərəfi Rusiya ilə münasibətlərində daim səmimiliyə və şəffaflığa tərəfdar çıxırdı. Heydər Əliyev Çeçenistan hadisələri ilə bağlı Azərbaycana viza rejimi tətbiq edilməsi fikrini sərt bir şəkildə tənqid etdi. Açıq şəkildə bildirdi ki, terroru törədənləri tapın, onların Azərbaycan ilə heç bir əlaqəsi yoxdur.

Nikolay Aksyonenko Rusiya hökumətinin Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin əleyhinə çıxdığını, Bakı - Novorossiyski xəttinə üstünlük verdiyini bildirdi. Azərbaycan tərəfi isə alternativ neft boru kəmərləri ideyasına tərəfdar idi.

Rusiya hökuməti sədrinin birinci müavini Azərbaycan ilə əməkdaşlığa, dostluğa və bu münasibətlərin inkişafına kömək edə biləcək şərait yaradılması üçün mövcud hüquq çərçivəsində hər şeyi edəcəklərinə, iki ölkə arasında artıq təşəkkül tapmış bütün maksimum şəraiti qoruyub saxlamağa çalışacaqlarını bildirdi.

Azərbaycanın qəti mövqeyi və təkzibedilməz dəlillərindən sonra Rusiya hökuməti viza rejimini tətbiq etmək niyyətindən imtina etdi. 1999- cu ildə Azərbaycan və Rusiya sərhədçiləri iki dəfə "Sərhəd-sipər əməliyyatı" keçirdilər. Sərhəddə bir neçə terrorçu zərərsizləşdirildi. Həmin əməliyyatların uğurla keçirilməsi iki ölkə arasında əməkdaşlığın geniş perspektivlərinin olduğunu göstərirdi.

Bundan az sonra, Moskvada Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan dövlət başçılarının keçiriləcək görüşünə hazırlıq məsələlərini müzakirə etmək məqsədi ilə 2000-ci il yanvarın 17-də Rusiya xarici işlər nazirinin müavini Qriqori Berdennikov'^"' başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Nümayəndə heyətini qəbul edən Heydər Əliyev Şimali Qafqazda yaranmış şəraitlə əlaqədar olaraq Rusiya mətbuatında Azərbaycan əleyhinə çap edilən məqalələrə, iki ölkə arasında gərginlik yaradılması cəhdlərinə, BMT-də Ermənistan - Azərbaycan münaqişəsinə dair layihəyə səsvermə zamanı Rusiyanın iştirak etməməsinə diqqəti cəlb etdi. Azərbaycan dövlətinin Rusiyanın ərazi bütövlüyünü dəstəklədiyini

**Qriqori Berdennikov (1950) — Rusiya xarici işlər nazirinin müavini (1992-ci ildən). Tərksilaha dair Cenevrə konfransında Rusiyanın nümayəndəsi (1993). RF XIN təhlükəsizlik və tərksilah departamentinin direktoru (1998-ci ildən).**

bildirdi. Lakin Rusiya tərəfindən bəzi hərəkətlərin olduğuna etiraz etdi"’^. Azərbaycan dörd dövlət başçısının görüşünün keçirilməsinə etiraz etmədi.

Yanvarın 25-də dörd ölkənin dövlət başçılarının Qafqazda şəraitin müzakirəsinə həsr edilmiş görüşü keçirildi'^'^. Görüşdə Heydər Əliyev, Vladimir Putin, Eduard Şevardnadze və Robert Koçaıyan iştirak edirdilər. Bu, 1996-cı ildə Kislovodskda əsası qoyulmuş dialoqun davamı idi.

Görüş başlamazdan əvvəl, yanvarın 24-də Heydər Əliyev Rusiya Prezidentinin vəzifəsini icra edən Baş Nazir Vladimir Putin ilə görüşərək ikitərəfli münasibətlər. Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli məsələlərini müzakirə etdi. Vladimir Putin dedi: “Biz Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə - iqtisadiyyat, mədəniyyət, elm sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik”'^'’. Heydər Əliyev Azərbaycandan Şimali Qafqaza silah və sursat göndərilməsi barədə yayılan yalan xəbərləri qəti şəkildə rədd etdi.

Heydər Əliyev Robert Koçaryan ilə görüşərək Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə etdi. Ermənistan rəhbəri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istədiklərini, lakin bu zaman hər iki tərəfin istəklərinin nəzərə alınmasının zəruriliyini bildirdi. Azərbaycan Prezidenti münaqişənin həllini hər iki ölkə xalqları üçün ən vacib və mühüm məsələ kimi qiymətləndirdi, məcburi köçkünlərin doğma yerlərinə qaytarılmasının, atəşkəs rejiminin saxlanılmasının vacibliyini qeyd

**Əliyev H.Ə. Rusiya xarici işlər nazirinin müavini Qriqori Berdennikov başda olmaqla Rusiya nümayəndə heyəti ilə görüşdə söhbət. 17 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 203-205.**

**CooömeHHe o paöoHen Bcrpene rnaB HCTbipex rocyaapcTB CHT, nocBameH- HOH CHTyauHH na KaBxase. 25 anBapa 2000 r. — Bnemnaa nojiHXHKa PocchH. CöopHHK ÄOKyMenxoB. 2000. M., Me>KflyHapoaHbie oxnomenna, 2004, c. 13-14; Əliyev H.Ə. Azərbaycan Prezidenti Heydər Əliyev, Rusiya Federasiyası Prezidentinin vəzifəsini icra edən Vladimir Putin, Gürcürstan Prezidenti Eduard Şevardnadze və Ermənistan Prezidenti Robert Koçaryan arasında keçirilən görüşdə söhbət. 25 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 278-280.**

**Əliyev H.Ə. Rusiya Federasiyasının Prezidenti vəzifəsini icra edən Vladimir Putin ilə görüşdə söhbət. 24 yanvar 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 263-264.**

etdi”'*. Görüşün ikinci hissəsində Vladimir Putin də iştirak etdi. Tərəflər dialoqu davam etdirmək barədə razılığa gəldilər.

Dördlərin görüşündə Qafqazda şərait, regionun sabit inkişafı üçün imkanların axtarılması, terrorizmin ittiham olunması, beynəlxalq hüquq normalarına əməl olunması və vasitəçilik səyləri müzakirə edildi. Prezidentlər Qafqaz dördlüyü çərçivəsində görüşlərin davam etdirilməsi barədə razılaşdılar.

Görüşdən sonra Azərbaycan ilə Rusiya arasında təhlükəsizlik, mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı birgə mübarizə sahəsində konkret addımlar atıldı. 2000-ci il fevralın əvvəllərində Rusiyanın daxili işlər naziri Vladimir Ruşaylo'^'^ Azərbaycana səfər edərək daxili işlər naziri Ramil Usubov''^" ilə görüşdü. Onlar terrorizmə, narkotiklərin yayılmasına, ekstremizmə qarşı mübarizə məsələlərini müzakirə etdilər. Qeyd etmək lazımdır ki, bu vaxtadək Rusiya tərəfi 500-dən çox cinayətkarın axtarılmasında Azərbaycana kömək etmişdi. Səfər zamanı, fevralın 4-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi ilə Rusiya Federasiyası Daxili İşlər Nazirliyi arasında sərhədyanı regionların daxili işlər orqanlarının əməkdaşlığı haqqında saziş, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin 2000-ci ildə əməkdaşlığı haqqında protokol imzalandı

Həmin gün V.Ruşaylonu qəbul edən Heydər Əliyev iki ölkə arasında cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlığı gücləndirməyi tövsiyə etdi, Ermənistanın təcavüzündən sonra Azərbaycanda siyasi sabitliyin pozulduğunu və cinayətkar qrupların fəallaşdığını, ölkəsinin Şimali Qafqazda sabitliyin bərqərar olmasında maraqlı olduğunu bildirdi. Şəraitin sabitləşməsinə təsir etmək üçün Azərbaycan Rusiya və Çeçenistan ilə əməkdaşlıq edirdi'^^'.

**Əliyev H.Ə. Ermənistan Respublikasının Prezidenti Robert Koçaryan ilə təkbətək görüşdəki söhbətdən. 24 yanvar 2000-ci il . - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 276-277.**

**Vladimir Ruşaylo (1953) - Rusiya dövlət xadimi. Daxili işlər naziri (1999-2001). Təhlükəsizlik Şurasının katibi (2001-2004). MDB-nin icraçı katibi (2004-2007).**

**Ramil Usubov (1948) - general-polkovnik. Azərbaycan Respublikasının daxili işlər naziri (1994-cü ildən).**

**Əliyev H.Ə. Rusiyanın daxili işlər naziri Vladimir Ruşaylo ilə görüşdə söhbət. 4 fevral 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXIV kitab, s. 436-443.**

Lakin qarşılıqlı münasibətlərdə etimadsızlıq, anlaşmazlıq hələ də davam edirdi. Bu isə tərəflərin heç birinin maraqlarına uyğun deyildi.

## Qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanması

2000-ci il mayın 7-də Vladimir Putin Rusiya Prezidenti seçildikdən sonra iki ölkə arasında münasibətlərdə istiləşmə üçün bir zəmin yarandı. O, əvvəlki illərdə Azərbaycana münasibətdə yürüdülən siyasətin Rusiyanın maraqlarına uyğun olmadığı qənaətində idi. Belə mövqenin seçilməsinə hələ Baş Nazir olarkən Azərbaycan Prezidenti Heydər Əliyev ilə keçirilən görüşlərdəki müzakirələrin böyük təsiri olmuşdu. Lakin münasibətləri yeni keyfiyyət mərhələsinə çıxarmaq asan deyildi. Ona mane olan bir sıra amillər hələ də qalırdı. Rusiyanın kütləvi informasiya vasitələri guya Azərbaycan ərazisindən silah, sursat və yaraqlıların Çeçenistana keçməsi barədə məlumatları yaymaqda davam edirdilər. Buna görə də 2000- ci il iyunun 5-də Heydər Əliyev Rusiya Federal Sərhəd xidmətinin direktoru, general-polkovnik Konstantin Totski başda olmaqla nümayəndə heyətini qəbul edərək belə məlumatlara qəti etiraz etdi və konkret faktların verilməsini istədi’’^^. Artıq qeyd edildiyi kimi, iki ölkə arasında sərhədi bir tərəfdən Azərbaycan, digər tərəfdən isə Rusiya sərhədçiləri qoruyurdu. Rusiya belə bəhanələrdən istifadə edərək Azərbaycanın İran ilə sərhədinin Azərbaycan və Rusiya hərbçiləri tərəfindən birgə qorunmasını təklif edirdi. Azərbaycan isə sərhədlərini müstəqil dövlət kimi özü qorumaq gücündə idi. Konstantin Totski keçirdiyi görüşlərdə silah və sursatın Azərbaycan ərazisindən Rusiyaya keçirilmədiyinə tam əmin oldu.

Bu səfərdən az sonra, iyunun 14-də Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey İvanov başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər edərək ikitərəfli əməkdaşlıq, MDB-nin fəaliyyətinin səmərəliliyinin artırılması. Cənubi Qafqazda təhlükəsizlik, dörd dövlət başçılarının görüşünə dair məsələləri müzakirə etdi"’^^. Azərbaycan tərəfi

**Əliyev H.Ə. Rusiya Federal Sərhəd Xidmətinin direktoru, general-polkovnik Konstantin Totski başda olmaqla nümayəndə heyəti ilə görüşdə söhbət. 5 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIII kitab, s. 21-29.**

**Əliyev H.Ə. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi və onu müşayiət edən şəxslərlə görüşdə nitq. 14 iyun 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVIIl kitab, s. 138-1145.**

Qafqazın dörd dövlətinin rəhbərlərinin görüşünə tərəfdar idi. Səfərin gedişində, iyunun 14-də Bakıda iki ölkənin təhlükəsizlik şuraları arasında əməkdaşlığa dair dörd maddədən ibarət protokol imzalandı'™. Sənəddə əməkdaşlığın əsas istiqamətləri kimi siyasi, iqtisadi, hərbi-texniki, humanitar sahələrdə Azərbaycan - Rusiya əməkdaşlığının genişləndirilməsi və möhkəmləndirilməsinə kömək edilməsi, cinayətkarlıq, beynəlxalq terrorizm, təcavüzkar separatizm və ekstremizm, silahların və narkotiklə- rin qanunsuz dövriyyəsi, münaqişələrin həll olunması problemləri, təhlükəsizlik, etimad tədbirləri və əməkdaşlıq məsələləri, təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı üzrə təkliflərin hazırlanması, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanılmasına, Avropada və dünyada hərtərəfli təhlükəsizlik sisteminin möhkəmləndirilməsinə kömək edilməsi müəyyənləşdirilirdi. Protokolun imzalanması Azərbaycan - Rusiya əməkdaşlığında yeni imkanlar açırdı.

İki ölkə arasında münasibətləri dərinləşdirmək məsələlərini müzakirə etmək üçün 2000-ci il oktyabrın 15-17-də xarici işlər naziri Vilayət Quliyev Rusiya Federasiyasına rəsmi səfər etdi. O, Rusiya Federasiya Şurasının sədri Yeqor Stroyev, Dövlət Duması sədrinin birinci müavini Lyu- bov Sliska'^^^, Rusiya Federasiyası hökuməti sədrinin müavini Viktor Xristenko'™, Rusiyanın Federasiya, federasiya milli və miqrasiya siyasəti üzrə naziri Aleksandr Bloxin'^^' və Moskva şəhərinin meri Yuri Lujkov ilə görüşdü''^*.

Danışıqlarda iki ölkə arasında münasibətlərin intensivliyi və məzmunlu olduğu. Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səyləri artırmağın vacibliyi. Cənubi Qafqazın dörd dövləti arasında dialoqun

**Azərbaycan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurası və Rusiya Federasiyası Təhlükəsizlik Şurası arasında əməkdaşlıq haqqında protokol. 14 iyun 2000-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.11 hissə, s. 77-79.**

**Lyubov Sliska (1953) - Rusiya siyasi xadimi. Dövlət Duması sədrinin birinci müavini (2000-2007).**

**Viktor Xristenko (1957) - Rusiya dövlət xadimi. Rusiya hökuməti sədrinin müavini (1998), birinci müavini (1999-2000), müavini (2000-2004). Sənaye və energetika naziri (2004-2008).**

**Aleksandr Bloxin (1951) - Rusiya dövlət xadimi. Diplomat. Federasiya, milli və miqrasiya siyasəti üzrə nazir (2000-2001).**

**CooömeHne o5 0(})HUHanbH0M BHSHxe MHHHCxpa HHOCxpauHbix a,ejı Aaepöau- fl5KaHa B.M.ryjiHeaa B POCCHK). 17 OKXHÖpa 2000 r. - Bucmujıa nojmxuKa Poc- CHH. CÖOpHHK aOKyMBHXOB. 2000, C.283-284.**

davam etdirilməsinin vacibliyi vurğulandı. Xəzər dənizinin hüquqi statusuna dair geniş müzakirələr oldu. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və ticarət-iqtisadi əlaqələri genişləndirmək vacib hesab edildi. Səfərin gedişində, oktyabrın 16-da Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında informasiya və miqrasiya sahələrində əməkdaşlıq haqqında saziş imzalandı.

Azərbaycan - Rusiya hərbi əməkdaşlığının inkişafı üçün addımlar atıldı. 2000-ci il dekabrın 25-26-da Rusiya Federasiyasının müdafiə naziri Azərbaycana səfərə gələrək ikitərəfli hərbi əməkdaşlıq məsələlərini müzakirə etdi. Müzakirələrin nəticəsində, dekabrın 25-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Rusiya Federasiyası Müdafiə Nazirliyi arasında Rusiya Federasiyası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində kadrların hazırlanmasına dair saziş imzalandı'^^^. Bu, iki ölkə arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətli bir sənəd idi.

Bütün bunlar Rusiya Prezidentinin Azərbaycana yüksək səviyyəli səfəri üçün zəmin hazırladı. Nəhayət, 2001-ci il yanvarın 9-11-də Vladimir Putin Azərbaycana səfər etdi"^°. Bu, Rusiya dövlət başçısının dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycana ilk səfəri idi. Bir neçə dəfə təxirə salınan bu səfər Heydər Əliyevin təkidləri nəticəsində baş tutmuşdu"". Azərbaycanda səfərə ciddi hazırlıq işləri aparılmışdı.

Danışıqlarda iki ölkə arasında münasibətlərin bütün tərəfləri, regional və beynəlxalq problemlər, terrorçuluğa və separatçılığa qarşı mübarizədə əməkdaşlıq məsələləri geniş müzakirə edildi. Tərəflər Qafqazda, o cümlədən Cənubi Qafqazda şəraitə dair baxışlarını bildirdilər. Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini qaldırdı. Vladimir Putin münaqişənin Rusiyanın Cənubi Qafqaz ölkələri ilə sıx əməkdaşlığına mane olduğunu, onun tezliklə sülh yolu həllinin vacibliyini qeyd etdi. Prezidentlər iki ölkə ara-

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Rusiya Federasiyası Müdafiə Nazirliyi arasında Rusiya. Federasiyasının Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində hərbi kadrların hazırlanması haqqında saziş. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 29-30.**

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s.30-31.**

**Sinan Oğan, Hasan Kanbolat. Kafkasya terazisinde yeni dengeler: Putin'in Azerbaycan ziyareti. - "Stratejik Analiz" dergisi, Ankara, 2001, Şubat, cilt 2, sayı 2, s. 34.**

sında ticarət, sərhədlər, hərbi sahədə əməkdaşlıq, Rusiyanın regionları ilə birbaşa əlaqələr, Azərbaycandakı rus icması, Rusiyadakı Azərbaycan diasporu ilə bağlı məsələlərə diqqət yetirdilər, qarşılıqlı münasibətlərin inkişafına mane olan bütün əngəllərin aradan qaldırılmasının vacibliyini vur- ğuladılar*’^^. Danışıqlarda Azərbaycan -Rusiya münasibətləri strateji tərəfdaşlıq olaraq qiymətləndirildi. Heydər Əliyev Vladimir Putinin Azərbaycana səfərini tarixi hadisə adlandırdı.

Həmçinin iki ölkə arasında iqtisadiyyat, mədəniyyət, enerji sahəsində əməkdaşlıq və Xəzər dənizinin hüquqi statusu məsələləri müzakirə edildi'^^^. Qeyd etmək lazımdır ki, bu zaman iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 300 milyon dollar idi. Ticarət-iqtisadi əməkdaşlığın səviyyəsi tərəflərin imkanlarından aşağı idi. Rusiya Azərbaycanın kənd təsərrüfatı məhsullarının satışı üçün ənənəvi bazar olduğundan həmin mövqenin bərpasının arzuedilən olduğu bildirildi.

Danışıqlar başa çatdıqdan sonra, yanvarın 9-da iki ölkə arasında hökumət rabitəsi, informasiya təhlükəsizliyi, beynəlxalq avtomobil nəqliyyatı sahəsində əməkdaşlıq, kütləvi informasiya vasitələri müxbirlərinin statusu, fövqəladə halların xəbərdarlığı və aradan qaldırılması, Azərbaycan Dövlət Neft Şirkəti, LUKoyl Ltd ilə ARDNŞ-in ortaq neft şirkəti arasında Azərbaycan Respublikasındakı Zığ və Hövsan neft yataqlarını əhatə edən blok üzrə bərpa, kəşfiyyat, işlənilmə və hasilatın pay bölgüsü haqqında saziş imzalandı’™.

Dövlət başçıları Bakı bəyannaməsini imzaladılar'^'’^. Bəyannamədə tərəflər ikitərəfli əlaqələrin inkişafına tərəfdar çıxır, suverenliyə, müstəqilliyə qarşılıqlı hörmət, daxili işlərə qarışmama, zor işlətməmə və ya zor işlətməklə hədələməmə, bərabərhüquqluluq, ərazi bütövlüyü, sər-

**Azərbaycan Prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s.31-33; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXXII kitab, s.35-38.**

**Azərbaycan - Rusiya danışıqları. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s.33-45.**

**Rusiya - Azərbaycan sənədlərinin imzalanması. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s.45-46.**

**Azərbaycan Respublikası və Rusiya Federasiyasının Bakı bəyannaməsi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s.34-38; Azərbaycan Respublikası və Rusiya Federasiyasının birgə bəyannaməsi. 9 yanvar 2001-ci il. - Müqavilələr toplusu. I cild, s. 207-213; Əliyev H. Müstəqilliyimiz əbədidir. XXXII kitab, s.88-95.**

hədlərin toxunulmazlığı, mübahisələrin sülh yolu ilə həlli barədə razılığa gəlir, geniş sahələrdə əməkdaşlığı vacib hesab edirdilər.

Səfər zamanı Xəzər dənizində əməkdaşlığın prinsiplərinə dair 6 bənddən ibarət olan birgə bəyanat imzalandı'"®. Bəyanatda yazılırdı ki. Xəzərin hüquqi statusunun işlənib hazırlanması Xəzəryanı dövlətlərin işidir və belə status yalnız onların ümumi razılığı əsasında hazırlana bilər. Xəzər dənizindən müstəsna olaraq yalnız dinc məqsədlər üçün istifadə edilməlidir.

İmzalanan sənədlər, xüsusən Bakı bəyannaməsi ciddi əhəmiyyət daşıyırdı. Heydər Əliyev deyirdi: "Bu bəyannamə Rusiya ilə Azərbaycan arasında qarşılqıh münasibətlərin bugünkü reallığını və ikitərəfli münasibətlərlə bağlı məsələlərdə, həm beynəlxalq, həm də regional xarakterli bir çox məsələlərdə, o cümlədən də münaqişələrdə və s. mövqelərimizi əks etdirir""'^

Vladimir Putin isə ölkəsinin Azərbaycan ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini belə ifadə edirdi: "Biz Azərbaycanla münasibətlərin inkişafına ciddi əhəmiyyət veririk""'*.

Vladimir Putin Azərbaycan Respublikası Milli Məclisində çıxış etdi'"^. O, səfərini iki ölkə arasında münasibətlərin yeni mərhələsinə doğru mühüm addım kimi qiymətləndirdi. Rusiya Prezidentinin fikrincə, Azərbaycan ilə Rusiya arasında iqtisadiyyat, parlamentlərarası əlaqələr, yanacaq-energetika, elm və mədəniyyət. Xəzər dənizində əməkdaşlıq vacib idi. Rusiya terrorrizmin və separatçılığın əleyhinə çıxırdı.

Səfərin gedişində parlamentlərarası əməkdaşlıq sahəsində mühüm bir addım atıldı. Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Fe-

**Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Azərbaycan Respublikası və Rusiya Federasiyasının birgə bəyanatı. 9 yanvar 2001-ci il. - Müqavilələr toplusu. I cild, s. 214-216; Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığının prinsipləri haqqında birgə bəyanatı. 9 yanvar 2001-ci il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu, s.507-508; Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığının prinsipləri haqqında birgə bəyanatı. 9 yanvar 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001,11 hissə, s. 39A0.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin başçılıq etdiyi Azərbaycan - Rusiya danışıqlarında söhbətdən. 9 yanvar 2001-ci il. - Sabaha doğru, s. 146.**

**Yenə orada, s. 147.**

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin çıxışı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 61-65.**

derasiyasının Federal Məclisi arasında əməkdaşlıq haqqında saziş imzalandı.

Vladimir Putinin Azərbaycana səfəri tarixi əhəmiyyət daşıyırdı. Rusiya tədqiqatşısı S.İ.Çemyayevskinin fikrincə, bu səfər son 10 ildə ilk dəfə olaraq münasibətlərdə müsbət irəliləyişlər üçün imkanlar açdı, siyasi əməkdaşlığa fəallıq gətirdi'^"°. Səfərdən sonra iki ölkə arasında siyasi əməkdaşlıq nəzərə çarpacaq dərəcədə f ə a l l a ş d ı D ö v l ə t başçılarının qarşılıqlı səfərləri Azərbaycan - Rusiya münasibətlərinin inkişafına mühüm impuls verdi. İllərlə yığılıb qalmış məsələlərin həllinə cəhd edildi. Münasibətlərin gələcək inkişaf yolları müəyyənləşdirildi. Azərbaycan Respublikası və Rusiya Federasiyası prezidentləri arasında yüksək etimadın mövcudluğu və siyasi dialoqun davam etdirilməsi iki dövlət arasında əməkdaşlığın müvəffəqiyyətinə möhkəm zəmin yaradırdı.

Rusiya Prezidentinin Azərbaycana səfəri münasibətlərdə yeni keyfiyyət mərhələsi açırdı. Bundan sonra iki ölkə arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlər çoxaldı. 2001-ci il aprelin 15-18-də Azərbaycan Respublikası Milli Məclisi sədrinin Rusiyaya rəsmi səfəri zamanı Milli Məclis ilə Rusiya Federasiyası Federal Məclisi arasında əməkdaşlıq haqqında 14 maddədən ibarət saziş imzalandı"'*'. Sazişdə qanunvericlik orqanları arasında əməkdaşlığın forma və istiqamətləri əksini tapmışdı.

İki ölkə arasında münasibətlər heç şübhəsiz, dünyada baş verən hadisələrin də təsiri altında inkişaf edirdi. 2001-ci il sentyabrın 11-də ABŞ- da terror aktlarının törədilməsi - Nyu Yorkdakı Dünya Ticarət Mərkəzinin binasının terrorçular tərəfindən qaçırılan təyyarələrlə vurulması ölkənin digər şəhərlərində də terror aktları beynəlxalq münasibətləri silkələyən və dünya düzəninə ciddi təsir edən, tamamilə yeni bir şərait yaradan hadisə olmaqla yanaşı, bir sıra ölkələrin, o cümlədən Azərbaycan ilə Rusiyanın təhlükəsizlik sahəsində əməkdaşlığının genişləndirilməsini yenidən gündəliyə gətirdi. Azərbaycan kimi Rusiya da törədilən terror aktlarını pisləyərək antiterror koalisiyasına qoşuldu.

**'4epHaeBCKHH C.H. BUCUIHSIH nojiHxuKa AsepöaHruKaHCKOH PecnyöaHKH (1991-2005 rr.). - CxpaHbi CHT в CHcreMC MeacnyHapoflHbix OTHOUICHHH (CSopuHK craTeü), c. 67-103.**

**Bax: Gasımlı M. Rusyanın Azerbaycan politikası. - "Avrasiya dosyası" dergisi, Ankara, 2002, cilt 7, sayı 4, s.253-269.**

**Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Şurası arasında əməkdaşlıq haqqında saziş. 16 aprel 2001-ci il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu, s.564-567.**

Yaranmış yeni şəraitdə iki ölkənin əməkdaşlığına dair məsələləri müzakirə etmək üçün 2002-ci il yanvarın 24-26-da Heydər Əliyev Rusiyaya dövlət səfəri etdi'^'*^. Bu səfər əvvəlki illərdə əsası qoyulmuş dialoqun davamı idi. İlk olaraq dövlət başçıları təkbətək görüşdülər’"*". Danışıqlarda ikitərəfli münasibətlərin uğurla inkişafı, Azərbaycan və Rusiya hərbçilərinin danışıqlara başladığı, iki ölkə arasında münasibətlərin böyük perspektivlərinin olduğu qeyd edildi”"^.

Tərəflər ABŞ-da baş vermiş terror aktlarını pisləyərək beynəlxalq terrorizmi və ekstremizmi ittiham etdilər. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı genişləndirmək, məsləhətləşmələri davam etdirmək haqqında razılığa gəldilər. İqtisadi əməkdaşlığın davamlı olması istəklərini ifadə etdilər. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi sahəsində atılan addımları bəyəndilər. Bu məqsədlə Xüsusi İşçi Qrupun fəaliyyətinin davam etdirməsini məqsədəuyğun hesab etdilər. Vladimir Putin və Heydər Əliyev Qafqaz dördlüyü çərçivəsində görüşlərin davam etdirilməsi zəruriliyini bildirdilər. Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli məsələləri müzakirə edilərkən Vladimir Putin Rusiyanın həm müstəqil, həm də Minsk qrupu çərçivəsində səylərini artırmaq istəyini ifadə etdi. Eyni zamanda Azərbaycan - Ermənistan prezidentlərinin birbaşa danışıqlarının keçirilməsinə tərəfdar oldu.

Səfərin yekununda, yanvarın 25-də sənədlərin imzalanma mərasimi oldu”*^. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin 18 bənddən ibarət birgə

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 31-35; CooömeHHe o rocyaapcxBeHHOM BHSHxe npesHflCHxa AsepöaiiruKaHCKOH PecnyÖJiHKH r.A.AnneBa B POCCHIO. 26 sHBapa 2002 r. - BHeuiHfla nojınxHKa PoccHH. CöopHHK ÄOKyMeHxoB. 2002. M., Me>nayHapoÄHbie oxnomenna, 2008, c. 41-43; /fnruıOMaxHMecKHH BBCXHHK, M., 2002, X22, c.53-54.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 35-37.**

**Geniş tərkibdə Rusiya - Azərbaycan danışıqları. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 37-38.**

**Rusiya - Azərbaycan sənədlərinin imzalanması. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s.39.**

bəyanatı”'”, 2010-cu ilədək uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında dövlətlərarası müqavilə, iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında saziş bağlandı”'**. Həmçinin Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Qəbələ radiolokasiya stansiyasının statusu, istifadə prinsipləri və şərtləri haqqında saziş”'” imzalandı. Bu saziş Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 2002-ci ilin mart ayında ratifikasiya edildi. Rusiya bundan sonra ballistik raketlərin izlənməsi sisteminin tərkib hissələrindən olan Qəbələ RLS-i 2012-ci ilə kimi il ərzində 7 milyon ABŞ dolları ödəməklə icarə əsasında istifadə etməyə başladı. Sazişin 4-cü maddəsinə görə, Azərbaycanın razılığı olmadan Rusiya üçüncü tərəflə Qəbələ RLS-ə dair saziş bağlamaq hüququna malik deyildi. Sənədə əsasən 1000 Rusiya hərbiçisi ilə yanaşı Qəbələ RLS-də təlim keçən Azərbaycan mütəxəssisləri də işləyirdilər.

Məlum olduğu kimi. Qafqazdakı vəziyyəti nəzərə alaraq və beynəlxalq terrorizmlə mübarizə məqsədindən irəli gələrək sərhəd əməkdaşlığı iki ölkə arasında əlaqələrdə böyük əhəmiyyət kəsb edirdi. Buna görə də hökumətlər arasında sərhəd xidməti nümayəndələrinin fəaliyyəti haqqında saziş imzalandı”*®. Bu zaman hər iki dövlətin ərazilərində sərhəd xidmətlərinin rəsmi nümayəndəliklərinin açılması haqqında saziş layihəsi artıq razılaşdırılma mərhələsində idi. Qeyd etmək lazımdır ki, iki dövlətin sərhəd idarələri arasında əməkdaşlıq birgə fəaliyyət üzrə illik plan əsa-

**' Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin birgə bəyanatı. 25 yanvar 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 233-236; Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin və Rusiya Federasiyası Prezidenti V.V.Putinin birgə bəyanatı. 25 yanvar 2002-ci il. - Müqavilələr toplusu. I cild, s. 229-234; CoBMecTHoe saaBJieHHe npesHtteHTa POCCHHCKOH tbeaepauHH B.B.HyraHa n npesHfleHTa AsepSaRaiKaHCKOH PecnyönnKH F.A.AjiHCBa. 25 aHBapa 2002 r. - BHeuiHfla nojınxHKa POCCHH. CöopnHK aoKyMenxoB. 2002, c. 37-41; flnnıo- MaxHHecKHH BecxHHK, 2002, Jf22, C.54-56; Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin birgə bəyanatı. 25 yanvar 2002-ci il. - Azərbaycan - Rusiya: 1992-2002. Sənədlər toplusu, s.572-575.**

**Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 244-266.**

**Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ radiolokasiya stansiyasının (RLS “Daryal”) statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında saziş. 25 yanvar 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s.237-243.**

**ARXINA, 2008.**

sında həyata keçirilirdi. Azərbaycan ilə Rusiya arasındakı dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə iş davam edirdi. Dövlətlərarası sərhədin 90%-i artıq razılaşdırılmış, işçi protokollarla, kartoqrafiya və təsviri sənədlərlə rəsmiləşdirilmişdi. İmzalanan sənəd münasibətləri daha da möhkəmləndirirdi.

Heydər Əliyev səfər çərçivəsində Rusiya Federasiyası hökumətinin sədri Mixail Kasyanov"^', xarici işlər naziri İqor İvanov, Moskva şəhərinin meri Yuri Lujkov və digər rəsmi şəxslərlə görüşərək qarşılıqlı münasibətlərin ən vacib məsələlərini müzakirə etdi. Yanvarın 26-da Azərbaycan Beynəlxalq Bankının Moskvada törəmə bankının açılışı oldu. Bu, iki ölkə arasında əməkdaşlıqda mühüm addım idi.

Azərbaycan Prezidentinin Rusiyaya dövlət səfərinin böyük əhəmiyyəti var idi. Səfər zamanı iki ölkə arasında ən mühüm məsələlər müzakirə edildi. Əhəmiyyətli sənədlər imzalandı. Bu sənədlər Azərbaycan - Rusiya əməkdaşlığına impuls verirdi. Səfər qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirirdi. İki ölkə arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq genişlənirdi.

Səfərdən sonra, 2002-ci il martın 28-29-da Qafqaz ölkələri milli təhlükəsizlik şuraları katiblərinin Soçidə görüşü keçirildi. Görüşdə regionda baş verən hadisələr müzakirə edildi. Sabitliyin bərqərar edilməsinin vacibliyi vurğulandı. Görüşün yekununda qəbul edilən birgə bəyanatda tərəflər Qafqaz regionunda beynəlxalq terrorizmə, mütəşəkkil cinayətkarlığa, silah ticarətinə, miqrasiya və narkotik maddələr alverinə qarşı müştərək səyləri artırmaq, MDB-nin antiterror mərkəzinin fəaliyyətində Qafqaz dövlətlərinin iştirakını gücləndirmək üçün müvafiq tədbirləri həyata keçirmək barədə razılığa gəldilər. Sənəddə humanitar əməkdaşlığın genişlənməsi ideyası hərtərəfli dəstəklənir və mədəni mübadilənin əhəmiyyəti vurğulanırdı.

Görüş iştirakçılarını qəbul edən Vladimir Putin əməkdaşlığın əhəmiyyətindən danışarkən vurğuladı: "...sizin gündəliyinizdə regional təhlükəsizlik problemlərinin geniş diapazonuna dair fikir mübadiləsi var idi: enerji daxil olmaqla, ekoloji və informasiya məsələləri, silahlı qüvvələr və hərbi texniki əməkdaşlıq üçün imkanlar açmaq, Qafqazın yer nəqliyyat arteriyaları. Mən güman edirəm ki, bu çox vacib problemdir".

---

**Mixail Kasyanov (1957) Rusiya dövlət və siyasi xadimi. Rusiya hökumətinin sədri (2000-2004).**

Dağlıq Qarabağ münaqişəsindən danışan Vladimir Putin Rusiyanın onu yoluna qoymaq ilə maraqlandığını, Ermənistan və Azərbaycan arasında əlaqələri inkişaf etdirməyi arzuladığını bildirdi. Əlavə etdi: "Biz tənzimləmənin formulasını birlikdə tapmağa cəhd edirik. Mən bilirəm, bu, necə çətindir. Mən, həmçinin bilirəm ki, əvvəlcədən qoyulan müəyyən şərtlərsiz, tarixi perspektivdə münaqişəni yoluna qoymaq qeyri-mümkün olacaqdır. Xeyirxahlıq əvvəlcədən qoyulan şərtlərdən biridir. Mən güman edirəm ki, iki ölkənin prezidentləri xeyirxahlığa malikdir. Əlbəttə, proses çox mürəkkəb və həssasdır. Mən fikirləşirəm ki, münaqişəni həll etmək üçün kompromislər lazımdır. Kompromisləri axtarmaq həmişə çətindir, ancaq qeyri-mümkün deyildir".

Görüş zamanı müzakirə edilən məsələlər və qəbul olunan sənədlər qarşılıqlı münasibətlərin genişləndiyini göstərirdi. Tərəflər əməkdaşlığın vacibliyini daha dərindən dərk edirdilər.

Bu görüşdən sonra ikitərəfli və regional münasibətlərə dair məsələləri müzakirə etmək məqsədi ilə həmin ilin may ayının 14-16-da Rusiya Federasiyası Milli Təhlükəsizlik Şurasının sədri Vladimir Ruşaylo başda olmaqla nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Səfər zamanı Minsk qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həlli, Qafqazda təhlükəsizlik və Qafqaz dördlüyünün görüşünü hazırlamaq məsələləri müzakirə edildi. Vladimir Ruşaylo Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində təminatçı rol oynamağa hazır olduğunu bildirdi. Buna baxmayaraq, Rusiya tərəfinin fikrincə, son qərarı yalnız Ermənistan və Azərbaycan prezidentləri özləri qəbul etməli idilər.

Azərbaycanın mövqeyinə görə, Qafqaz dördlüyünün normal işi Ermənistanın təcavüzünə son qoyulmadan, münaqişə həll edilmədən mümkün deyildi. Heydər Əliyev açıq şəkildə bildirdi ki, dörd dövlətin əməkdaşlığı bütün sahələrdə nəzərdə tutulursa, iki ölkə hərbi münaqişədə- dirsə, bu qeyri-mümkündür.

Səfərin ardınca, mayın 23-24-də Azərbaycana gələn Rusiya Federasiyası Federasiya Şurasının sədri Sergey Mironovla keçirilən görüşlərdə iki ölkə arasında parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə edildi. Danışıqlarda tərəflər ölkələri yaxınlaşdıran bütün imkan və vasitələrdən istifadə etmə zəruriliyini vurğuladılar. Rusiya Xəzəryanı ölkələrin Parlamentlərarası Assambleyasının yaradılmasını təklif edirdi.

Rusiya nümayəndə heyətinin Azərbaycan Prezidenti ilə görüşdə iki ölkə arasında əlaqələrin genişləndirilməsi. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələləri müzakirə edildi. Azərbaycan tərəfinin fik-

rincə. Xəzəryanı ölkələrin Parlamentlərarası Assambleyasının qurulması təşəbbüsü diqqətəlayiq olsa da, həmin formatdan kənarda qalan dövlətləri təcrid edə bilər, bu isə mövqelərin yaxınlaşmasına kömək etməzdi. Azərbaycan Xəzər dənizinin hüquqi statusu məsələsinin Xəzəryanı ölkələr tərəfindən həllinə tərəfdar idi''^^.

Qarşılıqlı münasibətlərin inkişafında yeni bir addım 2002-ci il sentyabrın 22-24-də Rusiya Dövlət Dumasının sədri Gennadi Seleznyov'^^^ başda olmaqla nümayəndə heyətinin Azərbaycana səfəri oldu'^^''. Səfərdə başlıca məqsəd parlamentlərarası əlaqələrə dair məsələləri müzakirə etmək, qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasını təhlil etmək idi. Bu vaxtadək artıq iki ölkə arasında parlamentlərarası əlaqələrin yaxşı nümunəsi yaranmışdı.

Nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi''^^. Görüşdə ikitərəfli münasibətlərin geniş tərəfləri - Xəzər dənizinin hüquqi statusu, Ermənistanın Azərbaycana təcavüzünə Rusiyanın münasibəti, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli yolları, Minsk qrupunun təklifləri, neft və qaz boru kəmərlərinin tikintisi. Cənubi Qafqazda şərait və s. məsələlər müzakirə edildi.

Səfər çərçivəsində G.Seleznyov Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri, Azərbaycan - Rusiya parlamentlər- arası dostluq qrupunun üzvləri ilə görüşdü. Azərbaycanın neft qanunvericiliyi Rusiya nümayəndə heyətinin marağına səbəb oldu. Bu, Rusiya üçün faydalı idi.

Rusiya parlament nümayəndə heyətinin səfəri və keçirilən danışıqlar əhəmiyyət daşıyırdı. O, parlamentlərarası əməkdaşlığın inkişafı üçün böyük başlanğıc idi.

**Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyası Federal Məclisi Şurasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 285-287.**

**Gennadi Seleznyov (1947) - Rusiya dövlət və siyasi xadimi. Dövlət Dumasının sədri (1996-2003).**

**Rusiya Federasiyası Dövlət Dumasının nümayəndə heyətinin Azərbaycana rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002. I hissə, s.657-672.**

**Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Dövlət Dumasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 657-668.**

Qarşılıqlı münasibətlərin inkişafında Azərbaycan Prezidenti Heydər Əliyevin 2002-ci il sentyabrın 23-24-də Rusiyaya işgüzar səfəri mühüm rol oynadı. O, əvvəlcə Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək gö- rüşdü'^^^. Görüşdə Xəzər dənizinin hüquqi statusu, iki ölkə arasında təhsil sahəsində əlaqələr və s. məsələlər müzakirə edildi. Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibli görüş oldu'^^’. Qeyd etmək lazımdır ki, bu zaman Rusiya Azərbaycanın xarici ticarətində birinci yeri tuturdu. Tərəflər münasibətlərin genişləndirilməsinə tərəfdar çıxdılar.

Sentyabrın 23-də iki ölkə arasında sənədlərin imzalanma mərasimi oldu. Heydər Əliyev və Vladimir Putin Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında 7 maddədən ibarət sazişi imzaladılar”^*. Saziş Xəzər dənizinin hüquqi statusu üzrə Xəzəryanı dövlətlərin ümumi razılığının əldə olunmasına əngəl törətmirdi. Tərəflər ona ümumi razılaşmanın tərkib hissəsi kimi baxırdılar. Bu sazişi 2003-cü il iyunun 18-də Dövlət Duması qəbul etdi, iyunun 25-də isə Federasiya Şurası bəyəndi. İyunun 3-də isə Prezident Vladimir Putin sazişin ratifikasiya edilməsi barədə federal qanunu imzaladı”*^. Danışıqların sonunda iki ölkə arasında təhsil, elmi dərəcə və elmi adlar haqqında sənədlərin qarşılıqlı surətdə tanınması sahəsində əməkdaşlıq, iqtisadi və elmi-texniki əməkdaşlıq, hərbi təyinatlı məhsulların istehsalında iştirak edən müəssisə və təşkilatlarda ixtisaslaşmanın saxlanılması haqqında sazişlər də imzalandı.

Səfər və aparılan danışıqlar faydalı oldu. Dövlət rəhbərləri iki ölkə arasında münasibətlərin inkişafını qeyri-formal şəraitdə incəliklərinə qədər müzakirə etmək imkanı tapdılar. Vladimir Putin Azərbaycan Preziden-

**® Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 675.**

**Geniş tərkibdə Azərbaycan - Rusiya münasibətləri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 675-677.**

**Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında saziş. 23 sentyabr 2002-ci il. - Müqavilələr toplusu. I cild, s.242-245; Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında saziş. 23 sentyabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 329-331.**

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan ilə Rusiya arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında sazişin ratifikasiya edilməsi barədə qanunu imzalamışdır. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s.264.**

tinin səfərini “dövlətlərarası münasibətlərin qurulmasında daha bir mərhələ” kimi qiymətləndirdi"’^®. Heydər Əliyev isə Rusiya ilə münasibətləri Azərbaycanın xarici siyasəti üçün öncül istiqamət olaraq qiymətləndirərək vurğuladı; “İki xalq və ölkə iki əsrə birlikdə olmuş və o qədər qaynayıb-qarışmışdır ki, onları qırmaq olmaz”’’®'.

Bu səfərdən sonra qarşılıqlı münasibətlərdə intensivlik artdı. 2002- ci il sentyabrın 26-30-da Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Lebedev"®’ başda olmaqla nümayəndə heyətinin Azərbaycana səfəri zamanı iki ölkənin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu. Sentyabrın 30-da Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidməti arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında sazişə əlavə 10 saylı protokol imzalandı. Oktyabrın 29-30-da Azərbaycan Respublikasının müdafiə naziri Səfər Əbiyevin Moskvaya işgüzar səfəri zamanı isə hərbi sahədə əməkdaşlıq, hərbi təhsil və s. məsələlər barədə razılıq əldə edildi.

İki ölkə arasında münasibətlərin inkişafı 2003-cü ildə də saxlanıldı. Həmin ilin fevralında Rusiya Təhlükəsizlik Şurasının sədri Vladimir Ruşaylonun Azərbaycana səfəri çərçivəsində Prezident Heydər Əliyev ilə keçirilən görüşdə Azərbaycan - Rusiya münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, beynəlxalq şərait, Ermənistanın Azərbaycana təcavüzünə dair fikir mübadiləsi edildi"’®®. Azərbaycan tərəfi Rusiya ilə terrorizmə qarşı birgə mübarizə apanimasını, iki ölkənin güc strukturları arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsini əhəmiyyətli hesab edirdi.

Bundan sonra, fevralın 26-27-də Rusiyanın müdafiə naziri Sergey İvanovun Azərbaycana səfəri zamanı keçirilən görüşlərdə iki ölkə arasında hərbi sahədə əməkdaşlığı dərinləşdirmək məsələləri müzakirə edildi. Müzakirələrin yekununda, fevralın 27-də Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında hərbi-texniki əməkdaşlıq

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bəyanatı. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 679.**

**”®‘ Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2002.1 hissə, s. 679-680.**

**Sergey Lebedev (1948) - Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000-2007). Ordu generalı. MDB-nin icraçı katibi (2007-ci ildən)**

**Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Təhlükəsizlik Şurasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 63-66.**

haqqında 10 maddədən ibarət saziş imzalandı''^'*. Sazişə əsasən tərəflər hərbi-texniki əməkdaşlığın aşağıda göstərilən yollarla həyata keçirilməsinə çalışacaqdılar: dövlətlərin müdafiə ehtiyacı və təhlükəsizliyi üçün hərbi təyinatlı məhsulların və maddi-texniki vəsaitlərin qarşılıqlı təchizatının həyata keçirilməsi; hərbi-texniki təyinatlı xidmətlərin təqdim edilməsi; hərbi təyinatlı məhsulların yaradılması və istehsalı zamanı mövcud kooperasiya əlaqələrinin saxlanılması və inkişafı və s.

Ümumiyyətlə, 1991-ci ildən ötən sonrakı dövrdə Azərbaycan ilə Rusiya arasında 140-dan çox dövlətlərarası, hökumətlərarası və idarə- lərarası sənəd imzalanmışdır. Bu sənədlər qarşılıqlı münasibətlərin hüquq- müqavilə əsaslarını möhkəmləndirmiş və əlaqələrin inkişafına zəmin yaratmışdır.

İki ölkə arasında iqtisadi əməkdaşlıq da inkişaf etmişdir. Belə ki, Azərbaycanda Rusiyanın 400-dək kompaniyası fəaliyyət göstərmişdir''^^.

Qarşılıqlı münasibətlərdə Rusiyada daimi və müvəqqəti yaşayan azərbaycanlılar mühüm rol oynamışlar. 1989-cu ildə keçirilən siyahıya- almaya görə, Rusiyada 335 min 889 nəfər azərbaycanlı qeydiyyatdan keçmişdi. Azərbaycanlıların əsas hissəsi Şimali Qafqaz və mərkəzi iqtisadi rayonunda yaşayırdı''^. Təkcə 1989-cu ildə Azərbaycandan Rusiyaya 50 min 526 azərbaycanlı getmişdi. Onlardan 22 min 999 nəfəri Şimali Qafqazda, 10 min 802 nəfəri Mərkəzi iqtisadi rayonlarda məskunlaşmışdı''®'. Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin məlumatına görə, ölkədə 1998-ci ildə rəsmi olaraq 150-200 min Rusiya vətəndaşı olan azərbaycanlı yaşayırdı. 1989-cu il siyahıyaalınmasına görə, təkcə Moskvada 300 min nəfər azərbaycanlı yaşayırdı''®*. Sankt-Peterburqda azərbaycanlıların sayı 200 min nəfərə çatmışdı. Tümen vilayətində rəsmi məlumata

**Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyası hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında saziş. 27 fevral 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 380-383; Azərbaycan və Rusiya hərbi-texniki əməkdaşlıq haqqında hökumətlərarası saziş imzaladılar. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 112-113.**

**Khalafov Kh. Azerbaijan in the post-soviet realm. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p.l77.**

**''®® Novruzova G.T. Rusiya Fedrasiyasında Azərbaycan diasporu: tarixi-demoqrafiya problemləri (1989-2002-ci illər). Dissertasiya işinin avtoreferatı. Bakı, 2010,** s.17.

**fleMorpacjiHHecKHÜ e>KerottHHK CCCP. 1990 rofl. M., 1990, c. 562-563.**

**Kojokin Y. Rusiya və Azərbaycan; əməkdaşlıq və qarşılıqlı əlaqələrin perspektivləri. - "Azerbaijan Focus", Bakı, 2009, ffsl (1), s.l21.**

görə, 23 min azərbaycanlı qeydiyyatdan keçsə də, vilayətdə olan azərbaycanlıların sayı 100 min nəfər idi. Omsk vilayətində 20 minə qədər, Tomsk vilayətində 50 mindən artıq, cənubi Sibir şəhərlərində isə 150 min azərbaycanlı yaşayırdı. Vladivostokda yaşayan azərbaycanlıların sayı 70 mindən artıq idi[1769].

Rusiya Federasiyasında azərbaycanlıları rəsmi şəkildə təmsil edən əsas təşkilat – Ümumrusiya Azərbaycanlılar Konqresi (ÜAK) idi. ÜAK 2001-ci ilin mart ayında ümumrusiya ictimai təşkilat kimi yaradılmışdı. O, Rusiya Federasiyasının 68 subyektində 73 regional bölmələri və azərbaycanlıların ictimai təşkilatlarını birləşdirirdi. ÜAK Rusiyadakı azərbaycanlıların milli-mədəni maraqlarının və vətəndaş hüquqlarının həyata keçirilməsi məqsədi ilə diasporu birləşdirir və iki dövlət arasında dostluğun möhkəmləndirilməsi, dərin siyasi, iqtisadi və mədəni əlaqələrinin inkişafı naminə çıxış edirdi. Rusiyanın ayrı-ayrı bölgələrdə çoxsaylı nümayəndəlikləri fəaliyyət göstərən Rusiya azərbaycanlılarının federal milli-mədəni muxtariyyatı (RAFMM) fəaliyyət göstərirdi.

Qeyd etmək lazımdır ki, 2002-ci ildə keçirilən siyahıyaalmaya görə, Rusiyadakı azərbaycanlıların sayı 621 min 840 nəfərə çatmışdı[1770]. Rusiyada azərbaycanlılar ölkənin yerli olan 16 xalqı içərisində çoxluq təşkil edirdi[1771].

Azərbaycanda isə sayı 120-160 min nəfər olan[1772] rusdilli əhali yaşayırdı. Onların da cəmiyyətləri fəaliyyət göstərirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan – Rusiya münasibətlərində müzakirə edilən məsələlər diplomatik-siyasi, iqtisadi, hərbi və s. sahələri əhatə edərək, əsasən aşağıdakılar olmuşdur: Azərbaycanın dövlət müstəqilliyinin tanınması və diplomatik əlaqələrin qurulması; qarşılıqlı münasibətlərin müqavilə-hüquq bazasının yaradılması; enerji; neft

---

[1769] Yenə orada, s. 122.

[1770] Национальный состав населения и владения языками, гражданство. Кн. 1. Т.4. Итоги всероссийской переписи населения 2002 года. В 14 томах. М., 2004, с. 6.

[1771] Население по национальности и владению русским языком по субъектам Российской Федерации. – Национальный состав населения и владения языками, гражданство. Кн.1. Т.4. Итоги всероссийской переписи населения 2002 года. В 14 томах, с.25-122.

[1772] Южный фланг СНГ. Центральная Азия-Каспий-Кавказ: возможности и вызовы для России. Под ред. М.М.Наринского и А.В.Малыгина. М., 2003, с.66.

boru kəmərlərinin tikintisi; təhlükəsizlik; sərhədlərin mühafizəsi; Qəbələ RLS-i; terrorçuluğa qarşı mübarizə; Xəzər dənizinin hüquqi statusu; Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli; Rusiyanın Ermənistana qanunsuz silah verməsi; Qafqazda şərait və s.

İki ölkə arasında münasibətlər mürəkkəb inkişaf yolu keçərək etimadşızhqdan strateji tərəfdaşlığa və mehriban qonşuluğa çevrilmişdir. Azərbaycan - Rusiya münasibətlərində siyasi realizm üstün gəlmişdir. Qarşılıqlı münasibətlərin inkişafına mane olan amillərin aradan qaldırılması üçün səylər göstərilmişdir. Beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər və mehriban qonşuluq ənənələri üzərində qurulan Azərbaycan - Rusiya münasibətləri üçüncü ölkəyə və ölkələr qrupuna qarşı yönəlməmişdir.

## İRAN İSLAM RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

### Diplomatik-siyasi münasibətlərdə ilk addımlar. Ermənistanın təcavüzünü dayandırmaq üçün İranın vasitəçilik səyləri

Artıq qeyd edildiyi kimi, SSRİ-nin dağılması nəticəsində regionda geosiyasi şərait dəyişdi. Cənubi Qafqazda yeni müstəqil dövlətlər yarandı. Azərbaycan Respublikası müstəqil dövlət olaraq İranın qonşusuna çevrildi. Azərbaycanın xarici siyasətində İran İslam Respublikası əhəmiyyətli yerlərdən birini tutdu. Bu da səbəbsiz deyildi. İki ölkə xalqları tarix, coğrafiya, din, mədəniyyət, dil və etnik baxımından yaxındırlar. Azərbaycan - İran sərhədinin uzunluğu 765 km.-dir'^^^. Statistik məlumatlara görə, İran əhalisinin yarısını etnik azərbaycanlılar təşkil edir və dünyadakı azərbaycanlıların təqribən dörddə üçü İranda tarixi ərazilərində yaşayır’’’'*. Hər iki ölkənin heç bir digər ölkə ilə bu qədər yaxın tarixi əlaqələri yoxdur. Buna görə də İran İslam Respublikası ilə hərtərəfli münasibətlərin inkişafı Azərbaycan Respublikası xarici siyasətinin əsas istiqamətlərindən biri oldu"”^. Azərbaycan tərəfinin başlıca məqsədi dövlət müstəqilliyinin İran tərəfindən tanınması, qarşılıqlı faydalı ticarət-iqtisadi, mədəni əlaqələrin qurulması, Ermənistanın təcavüzünün dayandırılması üçün Tehranın diplomatik-siyasi yardımını almaq, blokada şəraitində olan Naxçıvanın problemlərinin həllini yüngülləşdirmək idi.

Bu məqsədləri həyata keçirmək üçün bəzi addımlar atıldı. 1991-ci ilin dekabr ayında Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini Ziyad Səmədzadə”’’ İran İslam Respublikasına səfər etdi. Danışıqların gedişində Azərbaycan Respublikasının İrana münasibətdə mövqeyi izah olundu, iki ölkə arasında iqtisadi və mədəni əlaqələrin dərinləşdirilməsi üçün münasibətlərin inkişafına dair təkliflər irəli sürüldü. Səfərin

**Azərbaycan sərhəd mühafizəsi, s.3.**

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 47-133.**

**Azərbaycan — İran əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 215-260.**

**Ziyad Səmədzadə (1940) - Azərbaycan dövlət xadimi. İqtisadçı, akademik. Milli Məclisin deputatı (2005-ci ildən).**

nəticələri Azərbaycan parlamentində müzakirə edildi. Nümayəndə heyətinin İran İslam Respublikası ilə parlamentlərarası əlaqələri sahmana salmaq üçün müəyyən iş gördüyü qeyd olundu"”.

Tehranda keçirilən müzakirələrdən az sonra İİR xarici işlər naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi rəsmi nümayəndə heyətinin Bakıya işgüzar səfəri zamanı, dekabrın 25-də İİR Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. İran Azərbaycanın dövlət müstəqilliyini tanıyan 11-ci ölkə oldu. Qeyd etmək lazımdır ki, SSRİ dağıldıqdan sonrakı illərdə İranın Azərbaycana münasibətdə siyasətinin konkret hədəfləri var idi: Tehran regionda nüfuzunu artırmağa. Şimali Qafqaz, Orta Asiya və Volqaboyu müsəlmanlarına təsir etməyə, yeni əlverişli satış bazarları və ucuz xammal mənbələri əldə etməyə və s. çalışırdı.

Səfər zamanı iki ölkə arasında münasibətlərin perspektivləri müzakirə edildi və müvafiq sənədlər imzalandı. Birbaşa münasibətlərin qurulması baxımından əhəmiyyətli olan həmin sənədlərin imzalanmasından sonra əlaqələr genişlənməyə başladı. Bunun bir nümunəsi Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibovun 1991-ci ilin sonlarında İrana səfəri oldu. Səfər zamanı iki ölkə arasında iqtisadi əlaqələrin qurulması, Naxçıvana keçid üçün İran ərazisindən istifadə edilməsi və həmin bölgənin sərbəst iqtisadi zona elan edilməsi barədə razılıq əldə olundu"”*. Naxçıvanın azad iqtisadi zona elan edilməsi və iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi haqqında sənədlər imzalandı.

Qeyd etmək lazımdır ki, bu zaman İran tərəfi müstəqil Azərbaycan Respulikasmın Cənubi Azərbaycanı özünə birləşdirmək tələbləri ola biləcəyindən narahatlıq keçirirdi. Həmin narahatlığa son qoyuldu. İran inqilabının ildönümü münasibəti ilə 1992-ci il fevralın 12-də İrana səfər edən Azərbaycan Prezidenti Şimali və Cənubi Azərbaycanın birhşdirilməsinin mümkünsüzlüyünü bildirdi. Keçirilən görüşlərdə İranın Ermənistana hərbi müdaxiləsini dayandırmaq üçün vasitəçilik səylərindən istifadə edilməsi məsələləri müzakirə olundu.

Bundan sonra, fevralın 25-də xarici işlər naziri Əli Əkbər Vilayəti Bakıya səfər edərək Ermənistan ilə Azərbaycan arasında vasitəçilik səyləri üçün təşəbbüs etdi. Səfər zamanı Azərbaycan - İran iqtisadi-ticarət və siyasi əlaqələrinin genişləndirilməsini nəzərdə tutan yeni sənədlər imzalandı. Lakin İranın vasitəçilik səyləri bir nəticə vermədi. Səfərdən dərhal

**”” ARXİNA.1991.**

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s. 67-68.**

sonra Ermənistan qoşunları keçmiş sovet hərbçiləri ilə birlikdə Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırım törətdilər. Azərbaycanda şərait pisləşdi. Ölkə Prezidenti Ayaz Mütəllibov istefaya getdi.

Azərbaycan Respublikası ilə İİR arasında diplomatik əlaqələr yalnız 1992-ci il martın 12-də quruldu. Beləliklə, İran İslam Respublikası Azərbaycan Respublikası ilə diplomatik əlaqələr quran 19-cu ölkə oldu'^^^. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra İran İslam Respublikası istiqamətində diplomatil-siyasi iş XİN-də yeni yaranmış dövlət- lərarası münasibətlər idarəsində aparılırdı. Bu sahədə çalışmaq üçün Azərbaycan Respublikası Elmlər Akademiyası Şərqşünaslıq İnstitutundan XİN-ə tarix elmləri namizədləri Cavanşir Vəkilov''*° və Cavanşir Axundov'^*' işə götürüldülər. Həmin idarə sonralar Yaxın Şərq və Afrika ölkələri idarəsi, İslam Konfransı ölkələri İdarəsi və nəhayət, 2-ci (Şərq) Ərazi idarəsi adlandırıldı.

Əvvəllər müxtəlif sahələrdə mövcud olmuş təmaslar daha da konkretləşdi. Gediş-gəliş sadələşdirildi. Sərhədlər açıldı. İqtisadi və humanitar əlaqələr intensivləşdi. Sərhədlərə və keçid məntəqələrinə nəzarət birdəfəlik hər iki qonşu ölkənin əlinə keçdi. İranın Bakıdakı konsulluğu səfirliyə çevrildi. Tehranda Azərbaycan Respublikasının səfirliyinin açılması üçün hazırlıq işlərinə başlandı.

Qonşuluğunda müharibənin getməsindən narahat olan İran tərəfi Ermənistanın təcavüzünün dayandırılması üçün səylərini davam etdirirdi. 1992-ci il aprelin 20-də xarici işlər nazirinin müavini Mahmud Vaezi*'*^ Bakı və Yerevana səfər edərək Azərbaycan və Ermənistan rəhbərlərinin görüşünün keçirilməsinə dair məsləhətləşmələr etdi. Səfər zamanı Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti

**ARXINA. 2008.**

**Cavanşir Vəkilov (1951-2013) - 1995-1998-ci illərdə Azərbaycan Respublikasının Tehrandakı səfirliyində 2-ci katib, 2003-2007-ci illərdə isə müşavir vəzifəsində çalışmış, 2004-cü il oktyabr ayının 20-də Azərbaycan Respublikasnın Təbrizdə baş konsulluğunun açılışını təşkil etmiş və orada 2005-ci il mart ayının 7-dək ilk baş konsul vəzifəsini icra etmişdir. XİN-də müşavir (2007-2013).**

**Cavanşir Axundov (1955) - 1995-1999-cu illərdə Azərbaycan Respublikasının Tehrandakı səfirliyində əvvəllər attaşe, sonra isə 3-cü katib, 2003-2007-ci illərdə Azərbaycan Respublikasının Moskvadakı səfirliyində müşavir-elçi vəzifəsində çalışmışdır. 2008-2009-cu ihərdə XİN informasiya idarəsinin rəisi olmuşdur. 2009-cu ildən Azərbaycan Respublikasının İranda fövqəladə və səlahiyyətli səfiri, f.**

**Mahmud Vaezi - İran xarici işlər nazirinin müavini (1988-1999).**

arasında diplomatik və xidməti pasportlar əsasında vətəndaşların qarşılıqlı surətdə viza almaqdan azad edilməsi, konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında sənədlər imzalandı. Mayın 7-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq, əməkdaşlıq, mehriban qonşuluq haqqında birgə kommunike bağlandı.

Mayın 7-8-də Tehranda İran Prezidenti Əkbər Haşemi Rəfsəncani- nin vasitəçiliyi ilə Yaqub Məmmədov və Levon Ter-Petrosyan atəşi dayandırmaq haqqında sənəd imzaladılar. Lakin həmin vaxt Şuşa şəhərinin işğalı üçün əməliyyatlar gedirdi. Bəzi böyük dövlətlər İranın vasitəçilik etməsinin qarşısını almaq üçün onun bu missiyasını heçə endirdilər. Mayın 8-də Şuşa şəhəri işğal edildi. İran hökuməti Şuşanın işğalını qınadı.

## Qarşılıqlı münasibətiərin təzadlı inkişaf yollan

Azərbaycan ərazilərinin işğalının davam etməsi hakimiyyət dəyişikliyinə gətirdi. Hakimiyyətə Əbülfəz Elçibəy gəldi. Bununla da Azərbaycan Respublikasının İran siyasətinin bir dövrü arxada qaldı. Bu zaman Azərbaycanın İrana münasibətdə xarici siyasətinin qarşısında əsasən iki vəzifə dururdu: pozulmuş tarazlığı bərpa etmək və Azərbaycan Respublikasının İranda varlığını tanıtmaq^’*^. Azərbaycan Respublikası həmin vəzifələrin həyata keçirilməsi üçün fəaliyyətə başlandı. 1992-ci il avqustun 5-də İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi haqqında qərar qəbul edildi”*". Nəsib Nəsibzadə”*^ Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olundu”*^. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verildi”*’.

Bu addımlar münasibətlərə yeni keyfiyyət halı verirdi. Qarşılıqlı münasibətləri inkişaf etdirmək zərurətə çevrilmişdi. Həmin məqsədlə 1992-ci il avqustun 18-20-də Azərbaycan Respublikasının xarici işlər

**Nəsibli N. Azərbaycanın geopolitikası və neft, s.l53.**

**ARXINA. 1992.**

**Nəsib Nəsibzadə (Nəsibli) (1956) - İsfahandakı istilik elektrik stansiyasında tərcüməçi (1987). Elmi fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri (1992-1993). Milli Məclisin deputatı (2005-2010).**

**'ARXINA. 1992.**

1787 **ARXİNA. 1992.**

naziri Tofiq Qasımovun İrana ilk rəsmi səfəri zamanı iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlığa dair protokol imzalandı . Naxçıvanda İranın, Təbrizdə isə Azərbaycan Respublikasının konsulluqlarının açılmasına dair razılıq əldə edildi. İrandan Azərbaycana qaz verilməsi və İran ərazisindən keçərək Naxçıvana gediş-gəliş məsələləri razılaşdırıldı.

Səfərdən az sonra, avqustun 26-da Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulluğu təsis edildi"*^. Lakin onun açılması yubadıldı.

İran İslam Respublikasının Xarici İşlər Nazirliyi İranın xarici ölkələrdəki səfirliklərinə Azərbaycan diplomatlarına və vətəndaşlarına lazımi köməklik göstərmək barədə tapşırıq verdi*'^°. Bu, iki ölkə arasında münasibətlərdə müsbət meyillər idi.

Azərbaycan tərəfi İran ilə əlaqələri genişləndirmək üçün əlavə tədbirlər həyata keçirdi. 1992-ci il oktyabrın 8-də İran İslam Respublikası ilə hərtərəfli iqtisadi, ticarət və humanitar əlaqələrin inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının dövlət komissiyası yaradıldıKomissiyanın sədri Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini Afıyəddin Cəlilov təyin edildi. Dövlət komissiyası İran İslam Respublikası ilə iqtisadi, ticarət və humanitar sahələrdə danışıqlar apara bilərdi.

Noyabrın 16-20-də iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlətlərarası müştərək komissiyanın birinci iclası keçirildi. Müzakirələrin yekununda 1 memorandum və 9 saziş imzalandı. Beləliklə, Azərbaycan - İran münasibətlərinin inkişafı üçün maddi zəmin yaradıldı.

Lakin iki ölkə arasında münasibətləri çətin sınaqlar gözləyirdi. Azərbaycanda hakimiyyətdə olan bəzi şəxslərin İrana münasibətdə ehtiyatsız çıxışlar etməsi, İranda isə islam inqilabını dünyaya yaymaq istəyən radikal qüvvələrin hərəkətləri nəticəsində münasibətləri normal məcraya yönəltmək mümkün olmadı. Bu iki ölkə arasında mehriban münasibətlərin inkişafında maraqlı olmayan ölkələrə xeyir verirdi. Nəticədə Azərbaycan Respublikası ilə İİR arasında münasibətlərdə ehtiyatlılıq və etimadsızlıq dövrü başladı. Az sonra isə münasibətlər donmuş vəziyyətə düşdü.

**Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 - Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü, s. 115. ARXİNA. 1992.**

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. - Heydər Əliyev və Şərq. 6 clddə. İran. IV kitab, s.49.**

**ARXINA. 1992.**

Heç şübhəsiz, belə vəziyyət tərəflərin heç birinin maraqlarına uyğun deyildi. Ona görə də Azərbaycan əvvəllər imzalanmış sənədlərin yerinə yetirilməsi üçün bəzi addımlar atdı.l992-ci ilin dekabrında Tehranda Azərbaycanın səfirliyi fəaliyyətinə başladı. Münasibətləri yaxşılaşdırmaq üçün digər tədbirlər də həyata keçirildi. 1993-cü ilin yanvar və mart aylarında Azərbaycan Respublikasının dövlət katibi Pənah Hüseynovun İrana səfərləri zamanı iqtisadi və mədəni sahələrdə əməkdaşlığa dair sənədlər imzalandı. İran qısa müddət ərzində Azərbaycan Respublikasının Rusiyadan sonra ikinci ticarət ortağına çevrildi.

Lakin az sonra münasibətlər yenidən gərginləşdi. Bu da səbəbsiz deyildi. 1993-cü ilin ortalarınadək iki ölkə arasında münasibətlər İran diplomatlarının standart olaraq dedikləri k i m i , "müsəlman Azərbaycan xalqı ilə heç də tam səmimi və dostcasına" deyildi. Azərbaycan rəhbərliyinin ölkənin inkişafında Türkiyəni model olaraq görməsi İranda yaxşı qarşılanmırdı. İranın Azərbaycan siyasətinə Cənubi Azərbaycan, Xəzərin enerji ehtiyatlarından istifadə amilləri təsir edirdi"^^. Bütün bunlar İranın diqqətindən kənarda qalmırdı. Mövcud şərait Azərbaycana münasibətdə müvafiq xarici siyasət doktrinasının formalaşmasına təsir edirdi. Nəticədə Azərbaycanın bütün müsəlman dünyasında gözdən salınması cəhdləri edilirdi.

Belə bir şəraitdə Azərbaycanda hakimiyyət dəşiyikliyi baş verdi. Əbülfəz Elçibəy hakimiyyətdən getdi.

## Yeni mərhələnin başlanması. Etimadsızlıqdan qarşılıqlı anlaşmaya doğru

Hakimiyyətə gələn Heydər Əliyevə Azərbaycan - İran münasibətlərində acı bir miras qalmışdı. O, İran hakimiyyətinin Azərbaycana münasibətdə siyasətində tədrici dəyişikliklər edilməsinə çalışaraq, bu ölkə ilə bərabərhüquqlu və yaxın qonşuluq münasibətlərini inkişaf etdirməyi Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətlərindən biri kimi müəyyənləşdirdi. İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisində etdiyi nitqində İranla münasibətlərdən danışan Heydər Əliyev bir-

**Brenda Shaffer. İran's Internal Azerbaijani Challenge: Implications for Policy in the Caucasus. - The Caspian Region A Re-Emerging Region. London, Rotledge, 2004, p. 123-124; Brenda Shaffer. Borders and Brethren. iran and Challenge of Azerbaijani Identity. Cambridge, The MIT Press, 2002.**

mənalı olaraq dedi; "Qonşu İran İslam Respublikası ilə bizim münasibətlər yaxşılaşdırılmalıdır, inkişaf etdirilməlidir""™.

Ümumi sərhədi olduğundan İran da Azərbaycan Respublikasında siyasi sabitliyin olmasında maraqlı idi. Bu istək həm də İranda azərbaycanlıların yarada biləcəyi sabitsizlik qorxusundan doğurdu. Azərbaycandakı sabitsizlik İrana da keçə bilərdi..

Azərbaycan hakimiyyəti İran ilə münasibətləri sağlamlaşdırmaq üçün konkret tədbirlər həyata keçirməyə başladı. 1993-cü il avqustun 17- 18-də İİR xarici işlər naziri Əli Əkbər Vilayətinin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı iki ölkə arasında münasibətlərə dair məsələlər geniş müzakirə edildi. İran Prezidentinin Azərbaycan Respublikasına səfəri barədə razılıq əldə olundu. Avqustun 18-də Əli Əkbər Vilayətinin Azərbaycan Respublikasına səfərinə dair memorandum imzalandı'™. 12 bənddən ibarət olan memorandumda tərəflər münasibətlərini daha da genişləndirmək və dərinləşdirmək məqsədi ilə sənaye sahəsində birgə müəssisələrin yaradılması zəruriliyinə; neft sənayesi sahəsində əməkdaşlığa böyük əhəmiyyət verərək quruda və dənizdə neft yataqlarının kəşfiyyatı, hasilatı və istehsalı, köhnə quyuların bərpası, neft maşınqayırması sahəsində bir-biriləri ilə əməkdaşlıq barədə razılığa gəlirdilər. İran tərəfi 1993-1994-cü illərdə bu ölkəyə dizel yanacağı satılması haqqında Azərbaycanın təklifini qəbul etdi. Tərəflər təbii qaz yataqlarının kəşfiyyatı, hasilatı və satılması barədə razılığa gəldilər. Azərbaycan tərəfi İranın Astara (Azərbaycan) - Astara (İran) dəmiryolu xəttinin tikintisi təklifini qəbul etdi. Tərəflər həmçinin Mincevan - Ordubad dəmiryolu xəttinin bir hissəsinin İran ərazisindən keçməsi şərtilə tikilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı və bu sahədə mütəxəssis mübadiləsi. Xəzər dənizinin canlı aləmindən daha yaxşı istifadə edilməsi, balıq kürüsünün birgə istehsalı və satışı, gəmiçilik sahəsində ortaq dəniz nəqliyyatı şirkətlərinin yaradılması və bir-birinə gəmi icarəyə vermək, vətəndaşların adi pasportlarla vizasız gediş-gəlişi məsələlərini araşdırmaq və müzakirə etmək barədə razılığa gəldilər. Naxçıvan Muxtar Respublikası ilə İran arasında həmsərhəd bölgələrdə sərhədyanı bazarların qurulmasına, İranda metro tikintisində Azərbaycanın iştirakına dair təklif İran tərəfindən qəbul edildi.

**Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il. - Müstəqilliyimiz əbədidir. I kitab, s. 11-12.**

**Azərbaycan Respublikası və İran İslam Respublikası arasında memorandum. 18 avqust 1993-cü il. - Müqavilələr toplusu. 1 cild, s.9-10.**

İki ölkə arasında münasibətləri inkişaf etdirmək üçün digər addımlar da atıldı. 1993-cü il sentyabrın 6-da İran İslam Respublikasının Azərbaycan Respublikasına humanitar yardımı haqqında protokol imzalandı. İran tərəfi Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş azərbaycanlılara etdiyi humanitar yardımı artırdı. Ermənistanın işğalçılıq siyasətinin ilk günlərindən İranın "Helal Ahmar" (Qırmızı Aypara) təşkilatı İmişli, Saatlı və Biləsuvar rayonlarında çadır şəhərcikləri qurmuşdu. Təşkilat həmin çadırlarda yaşayanları ərzaq və ilkin tələbat malları ilə təmin edirdi. Ayatulla Xomeyni adma "İmdad" təşkilatı da azərbaycanlı məcburi köçkünlərə yardım göstərirdi. İran 1993-cü ilin sentyabrında Azərbaycan Respublikasının cənubunda 55 min məcburi köçkün üçün 7 çadır düşərgəsi qurdu. Bu məsələ İranın milli təhlükəsizlik konsepsiyası ilə sıx bağlı idi. Belə ki, azərbaycanlı məcburi köçkünlərin İrana keçməsi ölkədə sabitsizlik yarada bilərdi.

Bu zaman İran tərəfi "Əsrin müqaviləsi"ndə iştirakdan kənarda qalmasından narazılıq edirdi. Lakin həmin məsələnin həlli təkcə Azərbaycan tərəfindən asılı deyildi.

İki ölkə arasında münasibətlərdə yığılıb qalmış problemləri həll etmək üçün yüksək səviyyəli danışıqların keçirilməsinə ehtiyac var idi. Həmin məqsədlə 1993-cü il oktyabrın 26-28-də İran İslam Respublikasının Prezidenti Əkbər Haşemi Rəfsəncaninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfər etdi. Danışıqlar zamanı qarşılıqlı münasibətlərdəki etimadsızhğı aradan qaldırmağın əhəmiyyəti qeyd edildi. Azərbaycan Prezidenti iki qardaş və dost xalq arasında hərtərəfli münasibətlərin genişləndirilməsi və dərinləşdirilməsinin vacibliyini vurğuladı. Danışıqlarda İpək yolu layihəsini həyata keçirmək məsələləri müzakirə edildi. İran tərəfinin baxışma görə, onun həyata keçiriiməsinin yubanmasına aşağıdakı amillər təsir edirdi: yeni müstəqil dövlətlərdə keçmiş kommunist rejimindən qalan mövcud olan idarəçilik sistemi müasir tələblərə cavab vermirdi; iqtisadiyyatın mərkəzsizləşdirilmiş sistemi mövcud idi və ictimai islahatlar əsaslı deyildi. Zəif iqtisadiyyat böhranların və münaqişələrin elementi idi; yeni yaranmış müstəqil dövlətlərin əksəriyyətində etnik böhranların və dini azlıqların problemləri ilə siyasi sabitlik və təhlükəsizlik pozulmuş, regiona xarici kapital ayaq açmışdı; Boris Yeltsinin rəhbərlik etdiyi Rusiya bu dövlətlərin müstəqil olduqlarını hələ də qəbul edə bilmir və daim onlara təzyiqlər edirdi; ərazi üstündə və etnik qarşıdurmalar səbəbindən baş verən münaqişələr bu ölkələri nəinki bölmüş, eyni

zamanda bir-birinə qarşı qoymuşdu; siyasi-sosial böhranlar baş verirdi və .

Oktyabrın 28-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 22 maddədən ibarət memorandum i m z a l a n d ı S ə n ə d ə görə, iki ölkə aralarında əlaqələri hamılıqla qəbul olunmuş beynəlxalq hüquq prinsipləri və normalarına uyğun olaraq qarşılıqlı etimad, faydalı əməkdaşlıq əsasında siyasi, iqtisadi, ticarət, kənd təsərrüfatı, elm və texnika, nəqliyyat, mədəniyyət, informasiya, turizm, idman və digər sahələrdə genişləndirməyə, ticarət-iqtisadi və maliyyə sahələrində əməkdaşlığı ən əlverişli rejim yaratmaq prinsipi əsasında həyata keçirməyə; ikitərəfli, məhəlli və regional məsələlərlə bağlı məsləhətləşmələr keçirməyə; Xəzər dənizi sahilində müstəqil dövlətlərin yaranmasını nəzərə alaraq Xəzəryanı ölkələrin əməkdaşlıq təşkilatını yaratmağa və Xəzər dənizinin hüquqi statusunu müəyyən etməyə tərəfdar çıxırdılar; iki ölkənin sərhədini dostluq, qardaşlıq və əməkdaşlıq sərhədi elan edirdilər; meydana çıxa biləcək bütün mübahisəli məsələləri qarşılıqlı anlaşma şəraitində danışıqlar yolu ilə həll etmək və s. barədə razılığa gəlirdilər.

Beş il müddətinə bağlanmış memorandumun ən mühüm maddələrindən biri 11-ci maddə idi. Sənəddə tərəflərdən biri digər tərəfə qarşı yönəldilən hər hansı bir hərəkətdə iştirak etməkdən çəkinməyi və ərazisindən digər tərəfə qarşı təcavüzkarlıq və ya zorakılıq hərəkətləri üçün istifadə olunmasına yol verməməyi öhdəsinə götürürdü. Memorandumda yazılırdı ki, iki ölkə arasında əməkdaşlığın və dostluq əlaqələrinin genişləndirilməsi qətiyyən digər dövlətlərin mənafelərinə toxunmur və onların başqa dövlətlərlə imzaladıqları ikitərəfli və çoxtərəfli müqavilələrdən irəli gələn öhdəliklərdən azad etmir.

Həmin gün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və İran İslam Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında protokol, iki ölkə vətəndaşlarının adi xarici pasportlarla gediş-gəlişini asanlaşdırmağa dair memorandum, elm, təhsil və elmi-tədqiqatlar

^ KoMMCHTapHM K noesÄKe **npesHfleuTa** Hc.aaMCKOH **PecnyÖJiHKu Hpan** в **Cpea-HK3K) A**SHK**) н KaBKaa. - ÜHcjıopMauHOHHbiH öıojuıereH IfeHTpa annjıoMaxHHec- Koro oöyneHHH MHfl HPH. 1993, XsS, 22 Hoaöpa; ARXİNA. 06.09.1994- 07.11.1996. Qovluq Xo21, v.106-108.**

**Azərbaycan Respublikası və İran İslam Respublikası arasında memorandum. 28 oktyabr 1993-cü il. - Müqavilələr toplusu. I cild, s. 11-16.**

sahəsində əməkdaşlıq haqqında memorandum, tranzit barədə saziş və s. sənədlər imzalandı.

Səfərin və imzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Bununla iki ölkə arasında münasibətlərdə soyuqluq dövrü arxada qalırdı. Sənədlərin imzalanma mərasimindən sonra keçirilən mətbuat konfransında Heydər Əliyev dedi: "...imzalanan sənədlər İran İslam Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır"

Səfərdən sonra Azərbaycan tərəfi münasibətləri yaxşılaşdırmaq üçün konkret addımlar atdı. Naxçıvan Muxtar Respublikasında İİR-in baş konsulluğu 1993-cü ilin mart ayının əvvəllərində açıldı. Konsulluq iki ölkə arasında əlaqələrdə mühüm rol oynayırdı. 1993-cü ilin dekabr ayının əvvəllərində Azərbaycan Respublikası Milli Məclisinin sədri Rəsul Quliyevin'™* İrana səfəri iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması və parlamentlərarası münasibətlərin qurulması yolunda impuls oldu''™.

Dekabr ayının sonlarında xarici işlər naziri Həsən Həsənovun İrana səfəri də münasibətlərdəki mövcud əngəlləri aradan qaldırmaq məqsədi daşıyırdı. Danışıqlar zamanı tərəflər mehriban qonşuluq münasibətlərini genişləndirməyin vacibliyini bildirdilər. Səfərdən sonra, 1994-cü il yanvarın 24-də Nəsib Nəsibzadə Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən azad edildi'*™. İyulun 4-də Əliyar Səfərli'*" Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edildi'*"^. Ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfir dərəcəsi verildi'*™.

Bundan sonra iki ölkə arasında əməkdaşlıq tədricən genişlənməyə başladı. 1994-cü ilin may ayında İran və Azərbaycan neft şirkətləri arasında imzalanan müqaviləyə uyğun olaraq Azərbaycan neftçiləri Xəzər

**Əliyev H.Ə. Azərbaycan və İran prezidentləri arasında danışıqların yekunlarına həsr olunmuş birgə mətbuat konfransında bəyanat. 28 oktyabr 1993-cü il. - Müstəqilliyimiz əbədidir. 1 kitab, s.222.**

**Rəsul Quliyev (1947) - Azərbaycan Respublikası Milli Məclisinin sədri (1993-1996).**

**ARXINA. 31.07.1996-17.12.1996. Qovluq fto21, v. 172.**

**'^"ARXİNA. 1994.**

**Əliyar Səfərli (1937)-Professor. lİR-də səfir (1994-1998).**

**ARXİNA. 1994.**

**ARXfNA.1994.**

dənizinin İran şelfmdə neft və qaz yataqlarında geoloji-kəşfiyyat işlərinə başladılar. Görülən işlərin ümumi dəyəri 2 milyon ABŞ dollarından çox idi'*°". Həmin sahədə 20 azərbaycanlı mütəxəssis çalışırdı. Bu, iki ölkənin geoloqları və neftçiləri arasında əməkdaşlığın bir nümunəsi idi.

1994- cü il iyunun 14-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 1993-cü il oktyabrın 28-də Bakı şəhərində imzalanmış memorandum təsdiq edildi’*”^.

Azərbaycan - İran münasibətlərində yeni bir səhifə 1994-cü il iyunun 29-dan iyulun 2-dək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin Tehrana səfəri oldu. Artıq qeyd edildiyi kimi, iki ölkə arasında münasibətlərinin dərin kökləri vardır. Bu münasibətlər xüsusi xarakter daşıyır. Azərbaycan ilə İran xalqları əsrlər boyu bərabər yaşamış, bir yerdə olmuşlar. Tarixi və mənəvi dəyərləri eyni olan bu xalqları elmi, mədəni əlaqələr tarix boyu birləşdirmişdir. Azərbaycan Respublikası ilə İran İslam Respublikasının böyük bir sərhədi vardır. Bunları nəzərə alaraq Azərbaycan Respublikası qonşu İran İslam Respublikası ilə dostluq əlaqələrini inkişaf etdirmək əzmində idi. Heydər Əliyevin fikrincə, iki ölkə arasında soyuqluq aradan qaldırılmışdı’*®^. Səfərdə başlıca məqsəd münasibətləri daha səmimi və mehriban etmək idi.

Səfər zamanı Azərbaycan Prezidentinin İran İslam Respublikasının ali rəhbəri Seyid Əli Xameneyi’*®’, Prezident Əkbər Haşemi Rəfsəncani, İran Məclisinin sədri Nateq Nuri’*®*, xarici işlər naziri Əli Əkbər Vilayəti, koopersiya naziri Qulam Rza Şafeyi ilə danışıqlarında iki ölkə arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, texnika sahələrində əməkdaşlığın inkişafı məsələləri müzakirə edildi. Ermənistanın təcavüzü nəticəsində yaranmış şərait təhlil olundu'*®^.

**ARXİNA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, s. 172-173.**

**ARXİNA. 1994.**

**Əliyev H.Ə. İran İslam Respublikasına rəsmi səfər zamanı İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxış. 2 iyul 1994-cü il. -Müstəqilliyimiz əbədidir. II kitab, s.47-48.**

**Seyid Əli Xameneyi (1939) - İranın dövlət xadimi. İran Prezidenti (1981- 1989). 1989-cu ildən İran İslam Respublikasının dini rəhbəri.**

**Nateq Nuri (1944) - İran parlamentinin sədri (1992-2000).**

**Əliyev H.Ə. Tehranda mətbuat konfransında bəyanat. 2 iyul 1994-cü il. - Müstəqilliyimiz əbədidir. II kitab, s.50.**

Azərbaycan Prezidenti İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa vurmuş Azərbaycan XİN-dən olan müdavimlər qarşısında çıxış edərək iki ölkə arasında qurulacaq əlaqələrin yolları və perspektivlərini, ölkəsinin mövqeyini izah etdi'*'°. Azərbaycan Respublikası dövləti İranın daxili işlərinə qarışmırdı. İran ilə Azərbaycan arasında münasibətlərin xüsusi xarakter daşıdığım qeyd edən Heydər Əliyev dedi: "İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını öz torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona hörmək etmişik və hörmət edirik"'^".

Səfərin yekununda, iyulun 2-də iki ölkə arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət bəyanat qəbul edildi'*'^. Sənəddə tərəflər siyasi və b. sahələrdə əməkdaşlığın vacibliyini qeyd edir, xarici işlər nazirlikləri arasında münasibətlərin və əməkdaşlığın genişləndirilməsi, siyasi məsləhətləşmələr, Xoy-Culfa qaz kəmərinin çəkilməsi. Xudafərin və Qız qalası su bəndlərinin tikintisində hər iki ölkənin mənafeyini nəzərə alaraq qarşılıqlı faydalı əməkdaşlıq etmək və s. sahələrdə əməkdaşlıq barədə razılığa gəlirdilər. Bəyanatın 9-cu maddəsində iki ölkə sərhədləri dostluq sərhədi elan edilir, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına riayət etməyin zəruriliyindən çıxış edərək, iki dövlət arasında dostluq münasibətlərini inkişaf etdirmək, sərhədçilər arasında əməkdaşlığı gücləndirmək, sərhəd məsələlərinin tənzimlənməsi və təhlükəsizliyin təmin edilməsi məqsədi ilə müştərək sərhəd komissiyasının yaradılması barədə razılığa gəlirdilər. 11-ci maddədə tərəflər beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin pozulmazlığı prinsipini əsas tutaraq Ermənistan hərbi qüvvələrinin zor işlətməsini və təcavüzünü pisləyir. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu təsdiq etməklə, erməni silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını.

**Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfəri zamanı İran Xarici İşlər Nazirliyinin siyasi araşdırmalar mərkəzinin diplomatik kurslarında təhsilini başa çatdırmış müdavimlər qarşısında çıxışı. 2 iyul 1994-cü il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 189-192.**

**Yenə orada, s. 191-192.**

**Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq münasibətlərinin inkişafı haqqında bəyanat. 02 iyul 1994-cü il . — Müqavilələr toplusu. I cild, s. 34-37.**

Dağlıq Qarabağ münaqişəsinə dair BMT qətnamələrinin icrasını və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılmasını tələb edirdilər.

Azərbaycan Prezidentinin İrana səfərinin böyük tarixi əhəmiyyəti var idi. Danışıqlar zamanı tərəflərin ikitərəfli və regional məsələlərə dair mövqeləri aydınlaşdı. İmzalanan sənədlər münasibətlərin hüquq-müqavilə əsaslarını möhkəmləndirir, Azərbaycan Respublikası ilə İİR arasında əməkdaşlığın gələcək inkişafında mühüm bir mərhələnin başlanğıcını qoyurdu.

Lakin iki ölkə arasında qarşılıqlı münasibətlərdə bəzi şübhələr hələ də qalırdı. 1994-cü il oktyabrın 27-də Aşqabadda Türkmənistanın müstəqilliyinin üçüncü ildönümü və Türkmənistan - İran - Türkiyə - Avropa qaz boru kəmərinin rəmzi açılış mərasimində iştirak edərkən Azərbaycan Prezidenti İran Prezidenti ilə görüşərək iki ölkə arasında münasibətləri pozmağa çalışan qüvvələrin fəaliyyətini təxribatçı adlandırdı. Azərbaycan dövlətinin rəsmi siyasətinə görə, İran İslam Respublikası Azərbaycanın dostu, qardaşı idi. Bu ölkə ilə dostluq və qardaşlıq davam etdirilməli idi. Azərbaycan İranın daxili işlərinə qarışmırdı'**^. İki ölkə energetika sahəsində əməkdaşlığı davam etdirirdilər. Belə ki, 1995-ci ilin sentyabrında "Mehdad" yatağında qazma işlərinə başlanıldı. Buradakı "Xəzər-5" qazma platformasında 220 azərbaycanlı mütəxəssis işləyirdi. Müqavilənin smeta dəyəri 14,5 milyon dollar idi'**".

Azərbaycan ilə əməkdaşlığını davam etdirməklə yanaşı İİR-in Azərbaycan ərazilərini işğal edən Ermənistan ilə əlaqələr qurması və genişləndirməsi azərbaycanlılar tərəfindən etirazla qarşılanırdı. 1995-ci il oktyabrın 3-də "Keyhan" qəzetinin verdiyi məlumata görə, Ermənistan ilə İran arasında illik ticarət dövriyyəsinin həcmi 100 milyon dollar təşkil edirdi'*'*. İran hökuməti bərabərhüquqlu əməkdaşlığa tərəfdar çıxsa da, əslində münasibətləri inkişaf etdirmək barədə Azərbaycanın təkliflərinə açıq şəkildə reaksiya vermirdi. Belə yanaşma özünü İran parlamentinin bəzi deputatlarının məclisdəki çıxışlarında da aydın şəkildə göstərirdi. Onlar əsassız yerə Azərbaycan Respublikasının daxili və xarici siyasətini tənqid edirdilər. Bu isə münasibətlərin səmimiliyinə şübhə yaradırdı.

**'*'^Heydər Əliyevin Türkmənistan - İran - Türkiyə - Avropa qaz kəmərinin rəmzi açılış mərasimindəki çıxışı. — Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 196-197.**
**'^"'ARXİNA. 31.07.1996-17.12.1996. Qovluq RO21,v. 172-173.**

**' ARXINA. 04.10.1995-09.09.1996. Qovluq Xo21, v.l25.**

İranın koopersiya naziri, Azərbaycan - İran iqtisadi-ticarət əlaqəiəri üzrə döviətlərarası müştərək komissiyasının həmsədri Qulam Rza Şafeyi- nin 1995-ci ilin oktyabr ayında Bakıya səfəri zamanı münasibətlərin yaxşılaşdırılmasına dair təkliflərini Azərbaycan tərəfi yenidən səsləndirdi. Qeyd etmək lazımdır ki, coğrafi cəhətdən yaxın olmalarına baxmayaraq, İran ilə Azərbaycan Respublikası arasında ticarət-iqtisadi münasibətlər xeyli zəif, tərəflərin imkanlarından aşağı səviyyədə idi. İkitərəfli münasibətlərdə mövcud olan bəzi siyasi məqamlar ticarət-iqtisadi əlaqələrə də mənfi təsir edirdi. 1995-ci ildə İran - Azərbaycan ticarət dövriyyəsi 211703, 1 min dollar, idxal 66036,8 min dollar, ixrac 145666,3 min dollar idi.

1995- ci il noyabrın 12-də qəbul edilən Azərbaycan konstitusiyası İranda bir sıra müzakirələrə yol açdı. İran mətbuatında konstitusiyada islam dininə yer ayrılmadığı barədə məlumatlar yayılır, Azərbaycan dövlətinin siyasətinə kölgə salınmasına cəhdlər edilirdi. Hətta noyabrın 16-da Urmiyada tələbə və müəllimlər nümayiş keçirərək Azərbaycan Respublikasında guya islam dininə qarşı həyata keçirilən siyasəti tənqid etdilər'*'®. Nümayişçilər Azərbaycan Respublikasında guya özünə yer almış dünya imperializminə və sionizmə, islam düşmənlərinə nifrət ifadə etdilər. Bir müddət sonra Culfa və Mərənd şəhərlərinin sakinləri Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə müraciətlər edərək islam dininə qarşı guya olan yanlış münasibətin dayandırılmasını istədilər.

Məlum olduğu kimi, Azərbaycanda din dövlətdən ayrıdır. Bununla belə, Azərbaycan Respublikası müsəlman ölkəsidir. Azərbaycan xalqı müsəlman olaraq islam adət-ənənələrinə əməl edir, ölkədə məscidlər fəaliyyət göstərir, islam dini ayinlərinin icra olunmasına heç bir maneçilik törədilmir.

İrandakı yanlış təbliğatı dayandırmaq üçün Tehrandakı Azərbaycan səfirliyi fəaliyyətə başladı. Münasibətlərin gərginləşməsində maraqlı olmayan Azərbaycan tərəfi yeni təkliflər irəli sürdü. Bu təkliflər 1995-ci ilin dekabrında İİR xarici işlər nazirinin müavini M.Vaezinin Bakıya səfəri zamanı səsləndirildi'*'^. Qeyd etmək lazımdır ki, Azərbaycan - İran münasibətlərində müzakirə edilən məsələlərdən biri İranın Xəzər dənizinin Azərbaycan sektorunda neftin hasil edilməsinə dair beynəlxalq konsorsiumda iştirak etmək istəməsi idi. Konsorsiumda iştirak etməmək İranda narazılıq yaratmışdı. Xəzər dənizinin hüquqi statususna dair İranın

[1816] **ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq ftb21, v.213.**
**ARXINA. 31.07.1996-17.12.1996. Qovluq ftb21, v. 166.**

tutduğu mövqe də ikitərəfli münasibətlərdə soyuqluq yaradırdı. Ona görə də İran Avropa ilə əlaqələr üçün alternativ yollar axtarırdı. İran bolqarlara Avropa - Bolqarıstan (Burqas) yolunu təklif etmişdi'*'*. Onun fikrincə, bu yol Qara dənizdəki Poti və Batum limanlarına qədər uzana bilər, daha sonra geriyə - Gürcüstandan Ermənistana, oradan da İrana getməli idi. İran tərəfi Ermənistandan və Naxçıvandan keçərək gedən yol barədə də düşünürdü. Lakin Ermənistan işğalçılıq siyasətini davam etdirdiyindən Naxçıvan ərazisindən keçmək mümkün olmadı. Həmin yol mövcud şosse yolu əsasında ola bilərdi. İran bununla Rusiya və Türkiyənin istifadə etdiyi yolun bir hissəsindən istifadə etməyə çalışırdı.

Azərbaycan tərəfi İran dövlət adamlarını mehriban qonşuluq münasibətlərinin dərinləşdirilməsinin dönməz və vacib bir məsələ olduğuna inandıra bildi. İran da Azərbaycan ilə münasibətlərini soyuqlaşdırmaqda maraqlı deyildi. Belə ki, 1996-cı il fevralın 8-da İİR Prezidenti Əkbər Haşemi Rəfsəncani Azərbaycan Respublikası səfirliyinin əməkdaşına demişdi: "Düşmənlər mənimlə Heydər Əliyev arasında zəhərli toxumlar səpmək istəyirlər, lakin bunun heç bir faydası olmayacaqdır. Xalqlarımız arasında münasibətlər əvvəlkindən də yaxşı inkişaf etməlidir"'*'®.

1996- cı il martın 2-3-də Azərbaycan Respublikasına səfərə gələn xarici işlər naziri Əli Əkbər Vilayəti ilə keçirilən danışıqlarda Azərbaycan tərəfi İrana enerji sahəsində əməkdaşlıq təklifi etdi. Yalnız bundan sonra İran Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair mövqeyini yumşaltdı. İki ölkə arasında əlaqələri genişləndirmək üçün əlavə addımlar atıldı. 1996-cı ilin martında Biləsuvarda sərhəd nəzarət-buraxılış məntəqəsi açıldı. Bu, Azərbaycana və onun quru yolu ilə əlaqəsi kəsilmiş Naxçıvana daşınan malların həcminin artırılmasına kömək edirdi. Qeyd etmək lazımdır ki, hər gün Astara və Biləsuvar nəzarət- buraxılış məntəqələrinin hər birindən təqribən 200 maşın keçirdi. Bütün bunlar qarşılıqlı münasibətlərdə müsbət hadisələr idi.

Aprelin 30-da isə “Comhuri-ye Eslami” qəzetində İİR-in Bakıdakı müvəqqəti işlər vəkili Əfşar Süleymaninin “Ermənistan ya Azərbaycan, hansı birisi?” adlı məqaləsi dərc edildi. Məqalə Azərbaycan Prezidenti Heydər Əliyevin Məşhəd - Təcən - Sərəxs dəmiryolunun açılışı münasi- [1820]

bəti ilə Məşhədə səfəri ərəfəsində dərc edilmiş və müsbət yazılmışdı Bu, həmin illərdə İran mətbuatında Azərbaycan haqqında dərc olunan ilk

' **ARXİNA. 12.06.1995-28.06.1995. Qovluq ftoH, v.83.**

' **ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq Xe21, v.171-172.**

[1820] **ARXİNA. 31.07.1996- 17.12.1996. Qovluq Xo21, v.226.**

müsbət məqalə olmaqla münasibətlərin genişləndirilməsində rəsmi Tehranın baxışlarını əks etdirirdi. İkitərəfli münasibətlərdə mühüm addımlar 1996-cı il mayın 12-14-də Heydər Əliyevin Sərəxs - Təcən dəmiryol xəttinin açılışında və mayın 15-də Aşqabatda İƏT dövlət başçılarının toplantısında iştirak zamanı atıldı. Azərbaycan Prezidenti İran Prezidenti Əkbər Haşemi Rəfsancani ilə görüşərək qarşılıqlı münasibətlərə isitilik və anlaşma gətirmək üçün səylər etdi.

Lakin az keçməmiş Təbriz şəhərindən olan üç nəfər deputat İran məclisində 17 Qafqaz şəhərinin müsəlmanlarının taleyinə diqqət yetirilməsi və bu şəhərlərin İrana qaytarılması haqqında çıxış etdi. 17 şəhər dedikdə, Azərbaycan Respublikasının ərazisi nəzərdə tutulurdu. Belə mövqe Azərbaycan Respublikasının daxili işlərinə qarışmaq demək olduğundan etirazla qarşılandı. Sanki söylənənlərə cavab olaraq Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə müşaviri Vəfa Quluzadə Türkiyənin Anadolu agentliyinin müxbirinə müsahibələrinin birində "İranda azərbaycanlılara təzyiq edilməsi xəbərləri təəssüflərə səbəb olur. Lakin Azərbaycan Respublikası İranın daxili işlərinə qarışmır" dedi. O daha sonra İrandakı dəyişikliklər haqqında dünya ictimai fikrinin həssaslığının güclənə biləcəyinə ümid ifadə etdi. Bu xəbərin əleyhinə olaraq İranın "Comhuriye-Eslami" qəzetində mayın 23-də çap edilmiş "Anadolu

şeytanlığı" adlı məqalədə yazılırdı ki, Bakının rəsmi məqamları ölkələrinin milli mənafeyinə zidd olaraq, Arazdan şimalda yaşayan 7 milyon şiənin ürək istəklərinə qarşı mənfi mətləblər bəyan etmək hisslərindən daha ağıllıdırlar. Qəzet bu xəbərin Türkiyə xəbərlər mərkəzi tərəfindən saxtalaşdırdığı qənaətində idi.

Bütün bunlara baxmayaraq, iki ölkə arasında münasibətlərdə qarşılıqlı maraqlar üstün gəldi. Azərbaycan İran ilə neft sahəsində əməkdaşlıq etmək üçün addımlar atdı. 1996-cı il iyunun 4-də Bakıda beynəlxalq neft konsorsium ilə İranın özəl OIEC şirkəti tərəfindən "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında müqavilə imzalandı. Bu, üçüncü konsorsium idi. Konsorsiumda İranın payı 10% idi'*^^. Müqavilənin imzalanma mərasimində iştirak edən İranın milli neft şirkətinin birinci vitse-prezidenti Mehdi Hüseyni və OİEC neft kompaniyasının prezidenti Mehdi Haşemi (Əkbər Haşemi Rəfsəncaninin oğlu - M.Q.) Azərbaycan Prezidenti ilə görüşdə iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması yolları müzakirə

**ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq Xo21, v.56-58.**

**" Azərbaycan - İran əlaqələri, Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 258.**

edilərkən İran tərəfinə münasibətləri tarixi reallıqlar və ənənələr nəzərə almaqla qurmaq təklif olundu. Məhz həmin təklifdən sonra İran - Azərbaycan hökumətlərarası komissiyası fəaliyyətini genişləndirdi, yeni keyfiyyət dəyişkənliyi oldu və imzalanmış sənədlərin həyata keçirilməsinə xüsusi diqqət yetirildi.

Müqavilədə Azərbaycan, Norveç, Böyük Britaniya, Türkiyə, Fransa, Rusiya ilə birlikdə İranın da iştirakı qonşu ölkə üçün böyük əhəmiyyət kəsb edirdi. Azərbaycan tərəfi neft məsələsində İran ilə əməkdaşlıq etmək istəyini ortaya qoyurdu. Bu, Azərbaycanın İrana münasibətdə mehriban qonşuluq siyasətinin konkret ifadəsi idi.

İki ölkə arasında münasibətlərdə mövcud olan problemləri müzakirə edib aradan qaldırmağa ehtiyac duyulurdu. Bu məqsədlə Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun İİR-ə səfərinə hazırlıq işləri aparılırdı. Səfərlə bağlı məsələləri müzakirə etmək üçün 1996- cı il avqustun 5-də Azərbaycan Respublikasının Tehrandakı səfiri Əliyar Səfərli, Xarici İşlər Nazirliyinin İKT ölkələri idarəsinin rəisi Vəhdət Sultanzadə və səfirliyin ikinci katibi Cavanşir Vəkilov İİR Xarici İşlər Nazirliyinin MDB və Qafqaz ölkələri ikinci idarəsinin rəisi Baqeri ilə görüş dülər . Görüşdə Həsən Həsənovun qarşıdakı bir günlük səfərinə dair məsələlər müzakirə edildi. Nazirlər görüşməmişdən əvvəl iki ölkə arasında məsələləri nizama salmaq vacib idi. Xəzər dənizinin hüquqi statusu məsələsində İranın mövqeyi bəlli deyildi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi həmin məsələyə ekspertlər səviyyəsində baxılmasına hazır idi. Baqeriyə Xəzər dənizinə dair xəritələr təqdim edildi. Sonra qarşılıqlı münasibətlərə xələl gətirən ayrı-ayrı şəxslərin fəaliyyəti üzərində dayanıldı. İranın Ermənistan ilə əlaqələrinin Azərbaycanda yaxşı qarşılanmadığı bildirildi. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazilərini işğal edən və azərbaycanlıları qaçqın və məcburi köçkünə çevirən işğalçı Ermənistan ilə əlaqələrini genişləndirməsi İran İslam Respublikasının Azərbaycan Respublikasına və regiona münasibətdə siyasətində çoxlu suallar doğururdu.

Əliyar Səfərli, Vəhdət Sultanzadə və Cavanşir Vəkilovun avqustun 6-da İİR Xarici İşlər Nazirliyinin MDB və Qafqaz ölkələri baş idarəsinin rəisi Macedi ilə görüşündə də məqsəd Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənovun İrana səfərinin vaxtını dəqiqləşdirmək idi■[1824] Səfər zamanı Azərbaycanın xarici işlər naziri Prezident Əkbər

‘ ARXİNA. 31.07.1996 -17.12.1996. Qovluq Xo21, v. 224-225. '
ARXİNA. 31.07.1996 -17.12.1996. Qovluq fto21, v. 197.

Haşemi Rəfsəncani ilə görüşmək və İran tərəfi ilə danışıqlarda Xəzər dənizinin hüquqi statusu ilə bağlı müzakirələr aparmaq istəyirdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi tərəfindən İrana Xəzər dənizinin hüquqi statusunun təyin edilməsi ilə bağlı dörd xəritə təqdim edildi. Xəritələrin verilməsi səmimilik əlaməti olub, müzakirələri aparmaq üçün qapıların dostların üzünə daim açıq saxlandığını göstərirdi.

Avqustun 8-də İran xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini Mahmud Vaezi ilə keçirilən görüşdə səfər proqramı, Təbrizdə Azərbaycan Respublikasının konsulluğunun açılması məsələsi də müzakirə edildi. Konsulluğun açılmasına İran tərəfinin icazə verməməsi anlaşılmaz idi. Qazaxıstanın Məşhəddə konsulluğunun açılmasına dair müraciətindən altı ay sonra icazə verildiyi halda, Azərbaycanın Təbrizdə konsulluğunun açılmasına dair müraciətdən altı ay keçməsinə baxmayaraq, hələ də icazə verilməmişdi'®^^. İran bu məsələyə həssas yanaşırdı.

İran tərəfinin fikrincə. Xəzər dənizinin hüquqi statusuna dair məsələdə problemlər var idi. Mahmud Vaezi bildirdi ki, mübahisəli məsələ olduğundan heç bir dövlət Xəzər dənizində sərmayə qoymaz, yalnız Xəzər problemi həll olduqdan sonra marağı olanlar sərmayələrini qoyacaqlar, onlar Azərbaycanla yaxınlıq edəndə qorxurlar, niyə özümüzü Rusiya ilə pis etməliyik.

Nəhayət, 1996-cı il avqustun 26-28-də Həsən Həsənov İrana səfər etdi'®^^. Səfərdə başlıca məqsəd ikitərəfli və regional münasibətlərə dair daha vacib olan məsələlərin həlli, o cümlədən blokadada saxlanılan Naxçıvanın qaz təminatını ödəmək üçün Xoy-Naxçıvan qaz boru kəmərinin tikintisi, muxtar respublikaya aparılan yüklərin İran ərazisindən keçidini sadələşdirmək, Azərbaycan Respublikasının Təbrizdə konsulluğunun açılması və b. məsələlərin həlli idi.

İran mətbuatı səfərə xüsusi yer ayırmışdı. Qəzetlər yazırdı: “Azərbaycan Respublikasının xarici işlər nazirinin İrana səfəri elə bir zamanda həyata keçirilir ki, Bakı radiosunun verilişləri İran İslam Respublikasının əleyhinə şiddətlənmişdir. Bu şəraitdə Azərbaycan Respublikası rejiminin başçıları iddia edirlər ki, iki ölkə arasında sərhəd dostluq sərhədidir”'®^’.

İranın xarici işlər naziri Əli Əkbər Vilayəti ilə keçirilən danışıqlarda ikitərəfli münasibətlərin ən vacib məsələləri müzakirə edildi. Azərbaycan

**ARXİNA. 31.07.1996 -17.12.1996. Qovluq Xo21, v. 211-213.**

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 80.**

**ARXINA. 31.07.1996-17.12.1996. Qovluq N>21, v. 138.**

tərəfinin mövqeyinə görə, Xəzər dənizinin hüquqi statusu məsələsi münaqişə deyil, müzakirə problemi olmalı idi. Bu məsələnin müzakirəsinin davam etdirilməsinə dair razılıq əldə edildi. Xəzər problemlərinin həlli ilə məşğul olan komitə yaradılmalı idi. Azərbaycan tərəfi İranın aşağıdakı məsələlərdə mövqeyini bildirməsini istəyirdi : Xəzər dənizində hansı problemlərin əsas götürülməsi müəyyənləşdirilməlidir: yerin altındakı neft; balıqçılıq; ticarət gəmiçiliyi; ekologiya; sərhəd məsələsi; Xəzər dənizində hərbi vəziyyət. Azərbaycan və İran bunların hansının birinci, hansının ikinci, hansının üçüncü dərəcəli olduğu müəyyənləşdirməli idi. Onda kompromis tapmaq asan olardı. Əli Əkbər Vilayətinin fikrincə, birinci dərəcəli məsələ neft idi. Həsən Həsənov və Əli Əkbər Vilayəti Azərbaycan tərəfinin variantının İrana təqdim edildikdən sonra öyrənilməsi və daha sonra iki həftə ərzində nümayəndə heyətinin Bakıya səfəri barədə razılaşdılar.

Əli Əkbər Vilayəti Azərbaycan mətbuatında İran əleyhinə dərc olunan mənfi yazıların ölkəsində həssaslıq yaratdığını deyərək, Azərbaycana qarşı həssas olmayan bir şəhərdə - Məşhəddə konsulluq açmağı təklif etdi. Həsən Həsənov Vilayətidən "yəni azərbaycanlılar olmayan bir şəhərdə?" sualını verdi. Vilayəti konsulluğun açılmamasının başlıca səbəbini xalq arasında olan həssaslıqla əlaqələndirdi. Həsən Həsənov soruşdu ki, Azərbaycana münasibət İran Azərbaycanında bir cürdür, Məşhəddə başqa cür? İran azərbaycanlıları bizi istəmirlər ? Əli Əkbər Vilayəti Azərbaycan mətbuatında dərc olunan mətləblərdən xoşu gəlmədiyini bildirərək əlavə etdi ki, orada deyəndə Cənubi Azərbaycanı özümüzə birləşdirək, Təbrizi xilas edək, İran azərbaycanlıları bundan inciyirlər.

Danışıqlarda daha sonra ayrı-ayrı şəxslərin iki ölkə arasında münasibətlərə xələl gətirən fəaliyyətlərinə toxunuldu. Bunun ziyanlı olduğu qeyd edildi.

Naxçıvana qaz verilməsi məsələsi müzakirə olundu. Qazın verilməsində Azərbaycan ilə İranın qiymətləri arasında fərq var idi. Onların aradan qaldırılması Azərbaycan tərəfindən təklif edildi. Əli Əkbər Vilayətinin fikrincə, Naxçıvana satılan qaz ilə digərlərinə satılan qaz arasında fərq olmalı idi. Naxçıvana qaz verilməsi məsələlərinin həlli ancaq maliyyə imkanları ilə bağlı idi. Onlar müvafiq maliyyə imkanlarının axtarılması barədə razılığa gəldilər.

Astara (İran) - Astara (Azərbaycan Respublikası) dəmiryolunun tikintisi və Xudafərin bəndi məsələləri də müzakirə edildi. Bütün bunlar maliyyə imkanları ilə bağlı idi.

Avqustun 27-də Həsən Həsənov İran İslam Respublikası İslam Şurası Məclisinin sədri Nateq Nuri ilə görüşdü'^^*. Nateq Nuri ilk növbədə iki ölkə arasında bağlanılacaq müqavilələrlə maraqlandı. İran tərəfinin fikrincə, iki Astara arasında dəmiryolu birləşdirilərdisə, İranın Avropaya yolu Azərbaycan Respublikası vasitəsi ilə daha qısa olardı. O, Astara - Qəzvin dəmiryolunun tikintisini də zəruri hesab edirdi. İran tərəfi Naxçıvana ediləcək yardımları artıracağına söz verdi. Daha sonra Nateq Nuri dedi; “Azərbaycanın istiqlaliyyətindən sonra sevindik ki, münasibətlərimiz sərbəstləşəcəkdir. Həmin vaxtlar sevincimiz sizinkindən az deyil- di”i829 Q sonra Azərbaycan televiziyasında guya İran əleyhinə aparılan təbliğatdan narahatlığını çatdırdı. Təbrizdə Azərbaycan konsulluğunun açılmasına mane olan amillərdən danışdı. İran tərəfi əvvəlki illərlə müqayisədə münasibətlərin yaxşı olmasını, ona xələl gətirən ünsürlərin yığışdırılmasını istəyirdi.

Həsən Həsənov Azərbaycan Prezidenti Heydər Əliyevin iki ölkə arasında münasibətləri sağlam zəmində inkişaf etdirmək istəyini və münasibətlərin bir radio verilişi ilə bağlanmasının ağır olduğunu dedi. İran Məclisində deputatların “Azərbaycan Respublikası dövlət deyil, onu İrana birləşdirin” fikirlərinə diqqəti cəlb etdi.

Nateq Nurinin fikrincə. Məclis müstəqil, radio və televiziya isə rəsmi təşkilat idi. Bu işləri guya Azərbaycan Respublikasının başladığını, həmin hərəkətlərin qarşısını almağa gücü çatdıqlarını, ancaq Bakı radio və televiziyasının verilişlərini eşidəndə qarşısını ala bilmədiklərini söylədi.

Heç şübhəsiz, belə mülahizələr əsassız idi. Çünki, Azərbaycan Respublikası dövlətinin xarici siyasətini Prezident müəyyənləşdirir. Xarici İşlər Nazirliyi həyata keçirirdi.

Daha sonra Həsən Həsənov İran Prezidenti Əkbər Haşemi Rəfsən- cani ilə görüşdü, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məktubunu ona təqdim etdi. Məktubda Azərbaycan dövlətinin İran ilə ikitərəfli münasibətləri genişləndirmək və dərinləşdirmək istəkləri ifadə olunmuşdu.

Səfər zamanı qaldırılan bütün məsələlər barədə tərəflər qarşılıqlı anlaşmaya nail oldular. Xoy - Naxçıvan qaz boru kəmərinin tikintisinə dair tezliklə müqavilə imzalanması haqqında razılıq əldə edildi. Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycan və İranın mövqelərini ya-

**ARXINA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, v.76-78. Yenə orada, v.77.**

xınlaşdırmaq üçün problemin müzakirəsini davam etdirmək məqsədi ilə birgə ekspert komissiyası yaratmaq barədə razılığa gəlindi. Bir sıra sənədlərin - hava nəqliyyatı, ticarət gəmiləri, poçt və pul göndərişləri, ticarət- sənaye palataları arasında əməkdaşlıq. Biləsuvar nəzarət-keçid məntəqəsinə beynəlxalq status verilməsi, qarşılıqlı hüquqi yardım, iki ölkə sərhədlərinin delimitasiyası və demarkasiyası haqqında sənədlərin imzalanmaq üçün hazırlanması haqqında razılıq əldə edildi.

Azərbaycanın xarici işlər nazirinin görüşləri keçirilən gün, avqustun 27-də "Əbrar" qəzeti Bakının indiki rəhbərlərinin İrana münasibətdə "bir dam iki hava" siyasət yürütdüyünü yazırdı'^^®. Qəzet Azərbaycanın xarici dövlətlərlə əməkdaşlığını müsəlmanlar arasında nifaq salmaq, islam ölkələrinin təbii mənbələrini ələ keçirmək və nəhayət, islam dünyasında hegemonluq kimi qiymətləndirir, "ən ağıllısı odur, Bakı başçıları Arazın o tayındakı xalqın istəyini icra etməklə hal-hazırki siyasətlərini kənara qoysunlar, regionun qüdrətli böyük dövləti olan İran İslam Respublikasına arxa bağlasınlar" - yazırdı.

Səfərdən sonra, avqustun 28-də "Əbrar" qəzetində dərc edilən məqalədə yazılırdı: "İran xalqı Azərbaycan kütləvi informasiya vasitələrindən əsəbidir. Həsən Həsənov isə təkrar olmayacağını bildirmişdir"'*^'. Avqustun 29-da isə "Əbrar" qəzeti Təbrizdə nəşr olunan "Fəcr-e Azərbaycan" qəzetində dərc edilmiş bir yazıya istinadən yazırdı ki, Azərbaycan Respublikası bizim bədənin bir parçası hesab olunur, qılınc gücünə bizdən ayrı düşmüşdür, lakin ağrısı ürəklərdə qalmaqdadır'**^. Qəzet hətta ayrı düşmüş 17 şəhərin İrana qaytarılmasını tələb edirdi. Azərbaycan Respublikası xarici işlər nazirinin İrana səfəri "Ettelat", "Keyhan", "Comhuri-ye eslami", "Həmşəri" kimi qəzetlərdə işıqlandırılmışdı.

Azərbaycanın xarici işlər nazirinin səfərindən sonra iki ölkə arasında birgə iqtisadi komissiyanın fəaliyyəti canlandırıldı. 1996-cı il oktyabrın 3-7-də Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini, İran - Azərbaycan iqtisadi komissiyasının həmsədri Yaşar Əliyev'*** başda olmaqla nümayəndə heyəti bu ölkəyə səfər etdi'**'*. Oktyabrın 3-də

**ARXİNA. 04.10.1995-09.09.1996. Qovluq Wo21,v.l44-146.**

**ARXİNA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, v.l31.**

**ARXİNA. 31.07.1996 - 17.12.1996. Qovluq X22I, v.153-155.**

**Yaşar Əliyev - Azərbaycan parlamentinin sədr müavini (1993-2002). ÇXR- də səfir (2002-2011).**

**ARXİNA. 31.07.1996 -17.12.1996. Qovluq No21, v.83.**

Tehranda sənaye, ticarət və humanitar məsələlər üzrə İran - Azərbaycan komissiyasının birinci iclası keçirildi. Yaşar Əliyev komissiyanın İran tərəfindən həmsədri Qulamrza Şafeyi ilə görüşərək əməkdaşlığın inkişaf etdirilməsi məsələlərini müzakirə etdi. Komissiyanın iclasında nəqliyyat (yerüstü, hava, su, terminal tikintisi); energetika (elektroenergiya, hidroenergetika); neft və qaz (neft-qaz ehtiyatlarının istifadəsi və Xoy -Naxçıvan qaz boru kəmərinin tikintisi); ticarətdə bank işi; kənd təsərrüfatı, balıqçılıq, heyvandarlıq, quşçuluq; sərhəd və gömrük; sənaye və dağ-mədən işi (sement zavodunun tikintisi); rabitə (telefon, teleqraf); sənədlərin imzalanmaya hazırlığı üzrə komitələri yaradıldı’*^^. Azərbaycan nümayəndə heyəti əlavə iki komitənin - Naxçıvanın problemləri və humanitar məsələlər (səhiyyə, təhsil, din və elm) komitələrinin yaradılmasını təklif etdi. Bu təklif qəbul olundu.

Səfər zamanı İran qəzetləri iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsinə dair məqalələr dərc etmişdilər. Məsələn, “Comhuri-ye Eslami” qəzeti 5 oktyabr tarixli sayında “Azərbaycan Respublikası və İran İslam Respublikası iqtisadi əlaqələrinin inkişaf etməsinə təkid edirlər” - yazırdı'*^®.

İki ölkə arasında iqtisadi əməkdaşlığı dərinləşdirmək üçün 1996-cı il oktyabrın 28-31-də İİR-in birinci vitse-prezidenti Həsən Həbibi’*^’ Azərbaycan Respublikasına rəsmi səfər etdi. Səfər zamanı Astara - Astara dəmiryolunun çəkilişi. Xudafərin bəndi, Xoy - Naxçıvan qaz boru kəməri və Naxçıvanda sement zavodunun tikintisi məsələləri müzakirə edildi'®^*. Danışıqların nəticəsində, oktyabrın 28-də Bakıda Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş imzalandı. Bu, əməkdaşlıq üçün yeni imkanlar açırdı.

İki ölkə arasında münasibətlərdə daha bir addım atıldı. 1997-ci il yanvarın 13-də “Lənkəran-dəniz” və “Talış-dəniz” perspektiv strukturlarında birgə işə dair saziş imzalandı. Bununla da 5-ci konsorsium quruldu.

---

[1835] **ARXINA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, V.80-81.**

[1836] **ARXINA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, v.82.**

**Həsən Həbibi (1937) İranın ədliyyə naziri (1985-1989). İranın birinci vitse-Prezidenti (1989-2001).**

[1838] **“Keyhan” qəzeti, 29.10.1996; ARXINA. 31.07.1996-17.12.1996. Qovluq Xo21, V.60.**

Konsorsiumda iranın payı 10% təşkil edirdi'*^^. Bu, Azərbaycan - iran münasibətlərinin istiləşməsində mühüm rol oynadı. 1997-ci il aprelin 23- də İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Bakıya səfəri zamanı münasibətlərin inkişafından məmnunluğunu bildirdi.

Azərbaycan - İran iqtisadi əlaqələri getdikcə genişlənirdi. Bu işdə birgə komissiya mühüm rol oynayırdı. Komissiyanın üçüncü iclasında iştirak etmək üçün 1997-ci il noyabrın 18-də iranın kooperasiya naziri, iqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran - Azərbaycan dövlətlərarası müştərək komissiyasının həmsədri Morteza Hacı Azərbaycana səfəri zamanı Heydər Əliyev tərəfindən qəbul edildi. İran Prezidenti Seyid Məhəmməd Xatəminin məktubu Azərbaycan Prezidentinə təqdim olundu. Məktubda Azərbaycan ilə əməkdaşlığı təmin etdirmək arzusu ifadə edilmişdi.

Birgə komissiyanın üçüncü iclasında iqtisadi-texniki, elmi və mədəni əməkdaşlıq haqqında sazişi və yekun sənəd kimi ikitərəfli münasibətləri inkişaf etdirmək məqsədi ilə memorandum imzalandı. Bu sənədlərdə əməkdaşlıq yolları müəyyənləşdirilmiş, Bakı - Tehran telefon kanallarının sayının 60-dan 180-ə çatdırılması, Bakı - Biləsuvar - Culfa - Naxçıvan istiqamətində Naxçıvana yeni 60 telefon kanalı çəkilməsi nəzərdə tutulmuşdu.

Noyabrın 20-22-də Morteza Hacı Naxçıvanda oldu. Keçirilən görüşlərdə Naxçıvan Muxtar Respublikası ilə İran arasında əməkdaşlığın genişləndiriməsi məsələləri müzakirə edildi. O, Şahtaxtı - Poldəşt sərhədyanı bazarında, Şahbuzda İran vəsaiti və yerli dindarların köməyi ilə tikilmiş məscidin açılışında iştirak etdi. Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığın genişlənməsi haqqında memorandum imzalandı.

İran ilə münasibətlərin inkişafında 1997-ci il dekabrın 8-11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Tehranda keçirilən İslam Konfransı Təşkilatının 8-ci zirvə görüşü zamanı İran Prezidenti Seyid Məhəmməd Xatəmi, ölkənin ali rəhbəri ayətüllah Xameneyi, Məsləhət Şurasının sədri Əkbər Haşemi Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimləri ilə keçirdiyi görüşlər əhəmiyyətli oldu. Heydər Əliyevin fikrincə, Azərbaycan Respublikasının böyük qonşusu olduğundan İran ilə əlaqələri daim yaxşılaşdırmalı idi. O dedi: “Bizim arzumuz, istəyimiz

**Azərbaycan - İran əlaqələri, Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab, s. 258.**

ondan ibarətdir ki, bu münasibətlər daha geniş, sıx, mehriban, səmimi olsun. Əməkdaşlığımızı genişləndirmək üçün insani, elmi, mədəni, ticarət əlaqələrinin durmadan möhkəmləndirilməsi çox vacibdir”"*"’.

Səfər zamanı keçirilən müzakirələr iki ölkə arasında münasibətlərdəki problemləri aradan qaldırmaq baxımından əhəmiyyətli olub, tərəflərin iradəsini göstərirdi. Belə müzakirələr digər sahələrdə də əlaqələrin qurulması və müqavilə-hüquq bazasının möhkəmləndirilməsinə təsir edirdi. Belə ki, 1998-ci il avqustun 7-8-də Bakıda keçirilən “Tarixi İpək yolunun bərpası” konfransında iştirak edən İran dəmiryol idarəsinin icraçı direktoru Rəhman Dadman, dəmiryol idarəsi tədqiqat mərkəzinin baş direktoru Abbasəli Qurbanəlibəy, xarici sərmayə qoyuluşları idarəsinin baş direktoru Məhəmməd İsmayıl Əlixani görüşlərdə ikitərəfli münasibətlərdə nəqliyyat-kommunikasiyanın inkişaf etdirilməsi məsələlərini geniş müzakirə etdilər'*". İran Azərbaycana Avropaya açılan əlverişli keçid məkanı və qısa yol kimi baxırdı. İki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın geniş perspektivləri var idi.

Həmin məqsədlə 1998-ci il avqustun 12-13-də İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazinin rəhbərliyi altında nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etdi. Bu zaman iki ölkə arasında münasibətlərdə müzakirə edilən əsas məsələlər Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, neft boru kəməri marşrutlarının optimal variantları, iqtisadi-ticarət əlaqələrin perspektivləri və s. idi.

Danışıqlar zamanı Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə yaradılmış Xüsusi İşçi Qrupun fəaliyyətini davam etdirməsi, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi zəruri hesab edildi. Neft boru kəməri marşrutu məsələsində Azərbaycan birmənalı olaraq Bakı - Tbilisi - Ceyhan boru kəmərinin tikintisində israr edirdi. Buna dair müvafiq sənədlər hazırlanırdı. Tərəflər Dağlıq Qarabağ münaqişəsinin tezliklə dinc yolla aradan qaldırılmasının zəruriliyini qeyd etdilər. İran tərəfi Ermənistanın təcavüzünü pisləyir, eyni zamanda Azərbaycan ilə Ermənistan arasında ikitərəfli görüşlərin keçirilməsinin faydalı nəticələr

**Azərbaycan Prezidenti Heydər Əliyevin İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin VIII zirvə görüşündəki nitqi. 9 dekabr 1997-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 217-220.**

**'^‘"Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s.92.**

verə biləcəyinə ümid edirdi. İran münaqişənin aradan qaldırılmasına hər cür səy göstərməyə hazır idi'^"^.

İki ölkə arasında iqtisadi əlaqələrin səviyyəsi də tərəfləri qane etmirdi. Belə ki, 1993-1997-ci illərdə Azərbaycanın ticarət ortaqları arasında ticarət dövriyyəsinin həcminə görə İran qabaqcıl yerlərdən birini tuturdu. 1998-ci ildə isə Azərbaycanın xarici ticarət dövriyyəsində İran 5-ci, 1999-cu ildə isə 7-ci yerə enmişdi. Geriləmə Azərbaycandan İrana elektrik enerjisinin qarşılığında neft məhsullarının verilməsinin dayandırılması ilə bağlı idi. 1997-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 238,5 mln. ABŞ dolları idi. Bunun da 48,8 mln. dolları idxalın, 189,7 mln. dolları isə ixracın payına düşürdü. 1999-cu ildə ticarət dövriyyəsi 70 mln. dollar təşkil edirdi. 1993-1999-cu illərdə İrandan idxal edilən mallar əsasən ərzaq, təsərrüfat malları, avtomobillər, elektrik enerjisi və s. idi. Azərbaycandan İrana əsasən xam neft və neft məhsulları, kimyəvi məhsullar, tullantılar, qara metal və s. göndərilirdi. İran sərmayəsinin iştirakı ilə Azərbaycanda istehsal, tikinti və s. sahələrdə 200-dək müəssisə qeydə alınmışdı'*"^. 1999-cu il sentyabrın 30-dan oktyabrın 7-dək Tehranda iqtisadi-ticarət və mədəni əlaqələr üzrə İran - Azərbaycan dövlətlərarası müştərək komissiyasının dördüncü iclasında ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı, sərhədyanı bazarlar, bank işi və sığorta, gömrük, dəmiryolu, hava və avtomobil daşımaları, ticarət gəmiçiliyi və s. məsələlər müzakirə edildi. Qəbul edilən qərarlar əməkdaşlığın daha da genişləndirilməsinə və sərhəd prosedurlarının sadələşdirilməsinə yönəlmişdi.

Heç əbəs deyildir ki, 2000-ci il fevralın 11-də İİR milli bayramı münasibəti ilə keçirilən mərasimdə çıxış edən Heydər Əliyev iki ölkə arasında münasibətlərə xüsusi əhəmiyyət verərək deyirdi: "Azərbaycan dövlət müstəqiliyini əldə etdikdən sonra sərhədlər açılmış, insanlar bir-birinə qovuşmuşdur. Bu illər ərzində bir milyon insan İrandan Azərbaycana, Azərbaycandan da İrana gedib-gəlmişdir. Güman edirəm ki, Azərbaycanın başqa ölkələrlə bu qədər insani əlaqələri yoxdur... İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır. Bəzi qüvvələr İran-Azərbaycan əlaqələrini gərginləşdirmək, onlara ləkə vurmaq, yaxud hansısa problemlər yaratmaq istəyirlər. Belələri hər yerdə var - başqa ölkələrdə də var. Azərbaycanda da var.

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s.93.**

**Azərbaycan - İran əlaqələri. - Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri.V kitab, s. 257.**

İranda da var. Bunu İranda bilirlər, həm də Azərbaycanda biz bilirik... heç bir qüvvə İran - Azərbaycan, Azərbaycan - İran dostluq və qardaşlıq əlaqələrini poza bilməz. Biz heç kəsin başqa ölkənin daxili işlərinə qarışmasına tərəfdar çıxmamışıq və çıxmayacağıq. Hər dövlət öz ölkəsinin siyasətini müstəqil olaraq aparır və müstəqil də aparmalıdır”"*"". Azərbaycan İranın daxili işlərinə qarışmırdı, onunla mehriban qonşuluq münasibətlərinin, ticarət-iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsində maraqlı idi.

Qarşılıqlı münasibətləri dərinləşdirmək məqsədi ilə 2000-ci il mart ayının 13-dən 16-dək Azərbaycan Respublikasının xarici işlər naziri Vilayət Quliyevin başçılıq etdiyi nümayəndə heyəti İranın xarici işlər naziri Kamal Xərrazinin dəvəti ilə İrana rəsmi səfər etdi. Keçirilən danışıqlarda Xəzər dənizinin hüquqi statusu məsələsi, Təbrizdə Azərbaycanın baş konsulluğunun açılması, digər siyasi və iqtisadi məsələlər müzakirə edildi. Tərəflər münasibətlərin sağlam təməllər üzərində inkişaf etdirilməsinin zəruriliyini bildirdilər.

Martın 15-də Təbrizə gələn xarici işlər naziri Şərqi Azərbaycan ostanınm valisi Yəhya Məmmədzadə ilə görüşdü. Bu səfər iki ölkə arasında həllini gözləyən məsələlərin, xüsusən Təbrizdə Azərbaycan konsulluğunun açılmasının sürətləndirilməsi baxımından əhəmiyyətli idi.

Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycan - İran münasibətlərinə mane olan əngəllər demək olar ki, aradan qaldırılmışdı. Münasibətlərin maddi təməlləri möhkəmləndirilmiş, beynəlxalq və regional məsələlərə dair siyasi məsləhətləşmələr intensivləşmişdi. Bununla belə, regional təhlükəsizlik məsələlərinə İranın xüsusi baxışı var idi. İran tərəfinin fikrincə, regional təhlükəsizlik regiondakı ölkələrin, eyni zamanda qonşu ölkələrin birgə tərəfdaşlığı sayəsində təmin edilməli idi. Belə bir baxış mayın 15- 18-də İranın xarici işlər nazirinin müavini Murtuza Sərmədi tərəfindən Bakıya səfər zamanı bildirildi. Azərbaycan Respublikasının Prezidenti ilə •görüşdə əsasən regiondakı şərait və təhlükəsizlik məsələləri müzakirə edildi'*^^

**İran İslam Respublikasının milli bayramı - islam inqilabının 21-ci ildönümü münasibətilə İİR-in Azərbaycandakı səfirliyinin təşkil etdiyi rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. 11 fevral 2000-ci il. - “Respublika” qəzeti, Bakı, 2000, 13 fevral.**

**Əliyev H.Ə. İran İslam Respublikasının xarici işlər nazirinin müavini Murtuza Sərmədi və onu müşayiət edən şəxslərlə görüşdə söhbət. 17 may 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVII kitab, s. 198-203.**

Nazir müavini İran tərəfinin iqtisadiyyat və enerji daşıyıcıları sahəsində Azərbaycan ilə əməkdaşlıq üçün irəli sürdüyü təkliflərin əhəmiyyətini qeyd etdi. İran regiona, xüsusən Xəzər dənizinə kənar dövlətlərin gəlməsində maraqlı deyildi. Buna milli təhlükəsizliyinə təhdid kimi baxırdı.

İranın region siyasətində yeni bir addım 2000-ci il noyabrın 21-23- də İİR xarici işlər nazirinin müavini Əli Ahəninin regiona səfəri oldu. Səfəri çərçivəsində o, Azərbaycan Respublikasına da gəldi. Onu İİR Xarici İşlər Nazirliyinin 2-ci MDB idarəsinin rəisi Əlirza Biqdeli və nazirin müşaviri Sirus Naseri müşayiət edirdilər'*'*^. Səfərdə məqsəd Xəzər dənizinin hüquqi statusu və regional təhlükəsizlik məsələləri barədə məsləhətləşmələr aparmaq idi. Əli Ahəni Azərbaycandan sonra Xəzəryanı ölkələrə gedərək, məsləhətləşmələrini davam etdirəcək və xarici işlər nazirlərinin görüşünü təşkil etməyə çalışacaqdı.

Noyabrın 22-də nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi. Əli Ahəninin fikrincə, bölgənin iki mühüm ölkəsi olan İran və Azərbaycanın sülh və anlaşma şəraitində əməkdaşlığının böyük potensialları var idi. İran diplomatının sözlərinə görə. Xəzər bölgəsi həmişə sülh və dostluq regionu olmuşdu və bundan sonra da belə olmasına çahşılmah, bölgənin ehtiyatlarından Xəzəryanı ölkələrin razılığı ilə istifadə olunmalı idi.

Azərbaycan Prezidenti Naxçıvanın elektrik enerjisi ilə təmin edilməsi məsələsi üzərində dayandı. Məlum olduğu kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Naxçıvan blokadaya düşmüşdü. Avtomobil və dəmiryolları işləmirdi. Muxtar respublika ilə əlaqə yalnız hava yolu ilə saxlanılırdı. Naxçıvan əhalisi ağır şəraitdə yaşayırdı. Hələ 1992-ci ildə İrandan Naxçıvana elektrik enerjisi xəttinin çəkilməsi haqqında razılıq əldə edilmiş və qısa bir zamanda həmin xətt çəkilmişdi. Lakin iki ölkə arasında borclar məsələsi həll edilmədiyindən Naxçıvana elektrik enerjisinin verilməsini dayandırılmışdı. Bu vəziyyət Azərbaycanı narahat edirdi. Naxçıvanın indi qaranlıqda saxlanıldığını deyən Heydər Əliyev Naxçıvanı vaxtilə işıqlandırıb, sonra onu işıqsız qoymağın qonşuluq münasibətlərinə uyğun olmadığını v u r ğ u l a d ı İ r a n d a n bu məsələnin həllini istədi. İran tərəfi məsələni həll etmək üçün tədbirlər görəcəyini bildirdi.

Əli Ahəninin Azərbaycan Respublikasının Baş Naziri Artur Rasiza- də ilə görüşündə iki ölkə arasında iqtisadi əməkdaşlığın perspektivləri müzakirə edildi. Həmçinin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdi

**' ARXİNA. 21.09.2000-28.12.2000. Qovluq XbS, v.45-51.**

1847 **Yenə orada, v. 46.**

rilməsi zamanı Xəzəryanı ölkələr arasında məsləhətləşmələri davam etdirməyin zəruriliyi bildirildi. Görüşdə Ermənistanın ağır blokada şəraitində saxlandığı Naxçıvanın elektrik enerjisi ilə təmin olunması, yaranmış borcların ləğvi üçün yolların axtarılması, neftin və qazın nəqli, o cümlədən, Xoy - Culfa qaz boru kəməri. Şimal - Cənub magistralı və TRASEKA layihələrində birgə fəaliyyət, müasir səviyyəli yolların tikintisi, habelə qarşılıqlı maraq doğuran digər layihələr və s. məsələlər müzakirə edildi.

Xarici işlər naziri Vilayət Quliyev ilə görüşdə İran diplomatının diqqətinə Xəzər dənizinin hüquqi statusu məsələsində Azərbaycanın mövqeyinin aydın və birmənalı olduğu çatdırıldı. Azərbaycan Xəzər dənizində orta xəttin müəyyənləşdirilməsinə və onun milli sektorlara bölünməsinə tərəfdar idi. Heç şübhəsiz, söhbət Xəzər dənizinin enerji ehtiyatlarının işlənilməsindən gedirdi. Azərbaycan tərəfi belə hesab edirdi ki. Xəzər dənizi onun ətrafındakı ölkələri və xalqları ayırmamalı, əksinə birləşdirməlidir. Əli Ahəni isə Xəzər dənizinin hüquqi statusu probleminin həll edilməməsinin xarici neft şirkətlərinə geniş miqyaslı fəaliyyəti həyata keçirməsində əngəl törətdiyi qənaətində idi.

İran diplomatının Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimov ilə görüşündə regional problemlərin həllində və beynəlxalq təşkilatlarda hər iki qonşu dövlətin səmərəli əməkdaşlığının qurulması məsələləri müzakirə edildi. Cənubi Qafqaz həm Azərbaycan, həm də İran üçün əhəmiyyətli bir region olduğundan regionun beynəlxalq aləmə açılmasının hamı, o cümlədən Türkiyə və Rusiya üçün də faydası var idi. Azərbaycan diplomatı daha sonra Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Əli Ahə- niyə müfəssəl məlumat verdi. Azərbaycan Respublikası Prezidentinin ATƏT-in İstanbul sammitində Qafqazda təhlükəsizlik və sabitlik haqqında pakt təşəbbüsündən danışdı. Söhbət zamanı iranlı diplomata İranın Ermənistan siyasətinin dəyişməsinin, Ermənistanın təcrid olunmasının və dəstəklənməməsinin vacibliyi qeyd edildi. Əli Ahəninin sözlərinə görə, İranın Ermənistan ilə əlaqələri məxfi deyildi. Bu əlaqələr Azərbaycana ziyan vurmayacaqdı. Əksinə İranın Ermənistan ilə əlaqələrindən bölgə təhlükəsizliyinin yaradılması üçün istifadə edilə bilərdi. İran tərəfi həmin məsələlər barədə siyasi məsləhətləşmələrin aparılmasına ehtiyac duyurdu.

Heç şübhəsiz. Əli Ahəninin regiona səfəri təsadüfi deyildi. İran tərəfi Azərbaycanın xarici neft şirkətlərini Xəzər dənizinə guya NATO-nu bölgəyə gətirmək və gəmilərini Xəzər dənizində yerləşdirmək niyyətindən əsassız olaraq narahatlıq keçirirdi. Azərbaycan isə əraziləri işğal altında

qaldığı bir şəraitdə İran - Ermənistan əlaqələrinin genişləndirilməsindən narahat idi.

Qeyd etmək lazımdır ki, bu zaman Azərbaycanın NATO-ya üzvlüyü məsələsi gündəlikdə durmurdu. Azərbaycan tərəfi NATO gəmilərinin verilməsinin qəzet şayiələri olduğunu, yalnız Türkiyənin Azərbaycana gəmi verdiyini bildirdi. Daha sonra BMT Baş Məclisində Azərbaycan Respublikasının irəli sürdüyü "BMT və ATƏT arasında əməkdaşlıq" qətnaməsinə dair məsələni qaldıraraq İranı layihəyə səs verməyə çağırdı. İran tərəfi nəinki Azərbaycanın ənənəvi düzəlişinə səs verəcəyini, eyni zamanda nüfuzundan Afrika və Latın Amerikası ölkələrinin də layihəni dəstəkləmələri üçün istifadə edəcəyini bildirdi. İran diplomatı Azərbaycana BMT-də İranda insan hüquqlarının pozulmasına dair qətnamə layihəsinin əleyhinə səs verdiyi üçün təşəkkür etdi

Əli Ahəni xarici işlər nazirinin müavini Xələf Xələfov ilə görüşərək Xəzər dənizinin hüquqi statusuna dair məsələləri müzakirə etdi. Onlar Xüsusi İşçi Qrupun görüşlərinin intensivliyinin artırılmasının vacibliyini vurğuladılar.

2001-ci il iki ölkə arasında ticarət-iqtisadi əlaqələrə və Xəzər dənizinin hüquqi statusuna dair məsələnin müzakrəsinin intensivləşməsi ilə səciyyələnirdi. Belə ki, həmin ilin yanvar ayında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərovun'*^' İrana səfəri zamanı iki ölkə arasında gömrük qaydalarının sadələşdirilməsi məsələləri müzakirə edildi. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə İİR Baş Gömrük İdarəsi arasında anlaşma memorandumu imzalandı. Bu, Azərbaycan-İran ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsində əhəmiyyətli addım idi.

Mart ayının 27-29-da isə İranın energetika naziri Həbibulla Bitərəfin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərindən sonra İrandan Naxçıvana elektrik enerjisinin verilməsi məsələsi həll edildi. Əldə edilmiş razılaşmaya uyğun olaraq İran tərəfi Naxçıvana elektrik enerjisini mübadilə və tranzit üsulu ilə həyata keçirəcəkdi'*^". Tranzit dedikdə, Azərbaycanın öz enerjisini İran vasitəsi ilə Naxçıvana çatdırması nəzərdə

**ARXINA. 21.09.2000-28.12.2000. Qovluq NgS, v.58.**

**Kəmaləddin Heydərov (1961) -general-polkovnik. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri (1995-2000). 2006-cı ildən Azərbaycan Respublikasının fövqəladə hallar naziri.**

**Azərbaycan Prezidenti Heydər Əliyev İran nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 338-342.**

tutulurdu. Heydər Əliyev Araz çayı üzərində İran ilə Ermənistanın birlikdə Xudafərin su elektrik stansiyasını tikməsinə etiraz etdi. Bildirdi ki, oralar işğal altında olan Azərbaycan əraziləridir.

Artıq qeyd edildiyi kimi ABŞ-m vasitəçiliyi ilə 2001-ci ilin aprelində Azərbaycan və Ermənistan prezidentlərinin Ki Vestdə keçirilən danışıqlarında iki ölkə arasında ərazi mübadiləsi məsələsi gündəliyə gəlmişdi. ABŞ aparılan danışıqlar barədə İrana məlumat verməyi uyğun görmüşdü. Bu zaman İran da ATƏT-in Minsk qrupunun fəaliyyətində iştirak etməyə çalışırdı. Azərbaycan tərəfi İranın ATƏT ilə əməkdaşlıq istəyinin əleyhinə deyildi. Hətta Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən 2001-ci ilin aprel ayında Vyanadakı səfir Vaqif Sadıqova göndərilən məktubda İran nümayəndələri ilə ikitərəfli formatda görüşməyin, ATƏT-in fəaliyyətdə olan sədri Rumıniya ilə İranın bu təşkilatla əməkdaşlığının mümkünlüyü barədə məlumatı müzakirə etməyin məqsəduyğunluğu bildirilmişdi'*^'. Lakin ATƏT-in Minsk qrupunun üzvü olan ölkələr İranın bu qrupun işində iştirakında maraqlı deyildilər.

Həmin məsələ İran ilə Azərbaycan arasında görüşlərdə də müzakirə edildi. 2001-ci il iyunun 3-də Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənovun İİR Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə ikinci idarəsinin rəisi Əlirza Beqdeli ilə görüşündə İran diplomatı Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllində İranın iştirakının Fransa tərəfindən dəstəkləndiyini bildirdi. Bununla bağlı olaraq İran nümayəndəsi Firuz Dövlətabadı Moskvaya da dəvət edilmişdi. İran münaqişənin həllində ABŞ-m iştirakının əleyhinə deyildi. Rəsmi Tehran Minsk qrupu çərçivəsində keçirilən görüşlər barədə İrana məlumat verilməməsindən narazılıq edirdi. İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirdi. İran tərəfinin İran ilə Minsk qrupu arasında bitərəf bir ölkədə görüş keçirilməsi təkilfinə Azərbaycan səfiri etiraz etmədi. Lakin bu təklif geniş müzakirə edilməli idi. Qeyd etmək lazımdır ki, İran tərəfi Azərbaycan ilə Ermənistan arasında ərazi mübadiləsi təklifinə isti yanaşmırdı.

Bu zaman iki ölkə arasında Xəzər dənizi məsələlərinin müzakirəsi intensivləşmişdi. 2001-ci il iyunun 16-da İran xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini. Xəzər dənizinin hüquqi statusu məsələsi üzrə İranın xüsusi nümayəndəsi Əli Ahəninin Azərbaycana növbəti səfərində məqsəd iki ölkə arasında əlaqələrin inkişafı və Xəzər mə-

[1851] **ARXİNA. 03.04.2001-08.05.2001. Qovluq Ro6, v.223.**

şələlərinin həlli yollan barədə müzakirələr etmək idi. Azərbaycanın baxışma görə. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi yalnız Xəzəryanı ölkələrin müştərək səyləri nəticəsində sona çata bilərdi'*^^. Statusun müəyyənləşdirilməsi üçün yaradılmış ekspertlər qrupu işini davam etdirməli idi.

İki ölkə arasındakı münasibətlərdə mövcud olan bütün bu məsələləri müzakirə etmək üçün Azərbaycan tərəfi İran Təhlükəsiziik Şurasının katibi Həsən Ruhanini Bakıya səfərə dəvət etdi. İyuiun 2-də Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov İİR Təhlükəsiziik Şurasının katibi Həsən Ruhani ilə görüşərək Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri, Azərbaycan Respubiikası Təhlükəsizlik Şurasının katibi Ramiz Mehdiyevin Həsən Ruhanini Bakıya səfərə dəvət etməsi barədə məktubunu təqdim etdi. Həsən Ruhaninin fikrincə, Azərbaycan ilə əlaqələr regionda İran üçün böyük əhəmiyyət kəsb edir və ölkəsi Azərbaycan Respublikası ilə əlaqələrin inkişafında maraqlı idi. O bunun səbəbini hər iki ölkə xalqlarının tarixi, mədəni və dini bağlılığında görürdü. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının üzləşdiyi bir çox çətinliklərin aradan qaldırılmasında İranın hərtərəfli yardımına toxunan Həsən Ruhani İİR ali rəhbərliyinin xalqın istək və arzularını əsas tutaraq digər ölkələrlə əlaqələr qurduğunu bildirdi. Onun fikrincə, İran xalqı həmişə belə əlaqələrin qurulmasını istəmiş, dövlət də öz növbəsində xalqın və ölkənin mənafeyini əsas tutaraq Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsi üçün çahşmışdı'^^^. Həsən Ruhani hər iki xalqın iradəsini və istəyini əsas tutaraq regionda qardaş, qonşu və dost bir ölkə kimi İran tərəfinin əlaqələrin inkişafını, qarşılıqlı problemlərin danışıqlar yolu ilə çözülməsin! istədiyini bildirdi. İki ölkə arasında elə bir əsaslı problemin olmadığını qeyd edən Həsən Ruhani kiçik bir siyasi iradə göstərilməsi ilə həmin xırda məsələlərin həllinin mümkünlüyünə toxunaraq bildirdi ki, Azərbaycan xalqının və İran xalqının mənafeyi, Azərbaycanın və İranın təhlükəsizliyi, regionda sülh və əmin-amanlığın bərqərar edilməsi həmin problemlərin həllini tələb edir. O, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəsinin tutduğu mövqeyi izah edərkən Azərbaycan xalqının ədalətli hüququnun bərpa edilməsinin İran üçün çox vacib olduğunu vurğuladı. Cənubi Qafqazda təhlükəsizlik

**Azərbaycan Prezidenti Heydər Əliyev İran nümayəndə heyətini qəbul etmişdir. — Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2001.1 hissə, s. 645- 648.**

**ARXINA. 23.06.2001- 07.08.2001.Qovluq Xsl 1, v. 40-42.**

məsələlərinə biganə qalmadıqlarını, regionun təhlükəsizliyinin İranın milli maraqları baxımından vacib olduğunu bildirən Həsən Ruhani Cənubi Qafqazda gedən proseslərin diqqətlə izləndiyini və ölkəsinin həmin məsələyə həssaslıqla yanaşdığını qeyd etdi. O, Qafqaz regionunda sülh və əmin-amanlıq üçün Azərbaycana hərtərəfli kömək göstərməyə İranın həmişə hazır olduğunu bildirdi, regiona xarici qüvvələrin cəlb edilməsini təhlükəsizlik baxımından düzgün olmayan siyasət kimi xarakterizə etdi.

Daha sonra Xəzər dənizinin hüquqi statusu məsələsinə dair fikir mübadiləsi aparıldı. Həsən Ruhani Xəzər dənizinin hüquqi statusunun həllini İranın milli mənafeyi baxımından çox vacib hesab edir, bu məsələdə Azərbaycan - İran əməkdaşlığına önəmli yer verirdi. Xəzər məsələsində şimal ölkələrinin - Rusiya və Qazaxıstanın ortaq məxrəcə gəldiyinə toxunan Həsən Ruhani cənub ölkələrinin - Azərbaycan, İran və Türkmənistanın da səylərinin birləşdirilməsinin vacbiliyini qeyd etdi. Bu məsələdə İran ilə Türkmənistan arasında heç bir fikir ayrılığı yox idi. Azərbaycan Respublikası ilə də anlaşma əldə etməyin mümkünlüyünü bildirən Həsən Ruhani qarşılıqlı müzakirələr zamanı "bir-iki neft yatağı" üstündə əlaqələrin pisləşməsini yersiz sayırdı. Onun fikrincə, bu barədə razılıq və güzəşt əldə edilməsi mümkün idi. Xəzər dənizinə xarici ölkələrin cəlb edilməsi siyasətini İran tərəfi milli mənafeyi və təhlükəsizliyi baxımından ziyanlı hesab edirdi. İran Xəzər dənizinin hüquqi statusu məsələsində 1921-ci ildə Rusiya və 1940-cı illərdə SSRİ ilə imzaladığı müqavilələrə əsaslanır, bu məsələnin ədalətli və hər iki ölkə xalqının mənafeyinə uyğun tərzdə həll edilməsinə tərəfdar idi. Həsən Ruhani regionda təhlükəsizlik məsələlərinə dair iki ölkə arasında qarşılıqlı müzakirələrin aparılmasının zəruri olduğunu qeyd edərək Bakıya səfəri zamanı məhz bu barədə danışıqlar aparmaq istədiyini bildirdi. O belə müzakirələrin hər iki ölkənin mənafeyinə uyğun olduğuna əmin idi.

Azərbaycan tərəfi iki ölkə arasında münasibətlərin zəifləməsini istəmirdi. Ramiz Mehdiyevin, milli təhlükəsizlik naziri Namiq Abbasovun və sərhəd qoşunları komandanı Elçin Quliyevin İrana planlaşdırılan səfərləri zamanı iki ölkə arasında sərhəd və hüquqi məsələlər üzrə dövlətlərarası müştərək komissiyanın qurulması barədə müvafiq sənəd imzalanmalı idi. Bu səfərlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İİR-ə rəsmi səfərinə hazırlıq məqsədi daşıyırdı.

Xəzər dənizinin hüquqi statusunun təyini məsələsinə toxunan Azərbaycan səfiri həmin problemin həllinin Xəzəryanı ölkələrin birlikdə razılığı əsasında mümkünlüyünü bildirdi. Onun fikrincə, bu məsələ təkcə

Azərbaycan və İrana aid olsaydı çoxdan həllini tapardı. Məsələ Xəzəryanı beş ölkəyə aid olduğundan konsensus əsasında həll olunmalı idi. İkitərəfli əlaqələrin inkişaf etdirilməsinin Xəzər dənizinin hüquqi statusunun həlli məsələsi ilə bağlanması və paket şəklində həll edilməsi fikri düzgün deyildi. Mövcud olan imkanlardan istifadə edib yalnız iki tərəfə aid olan məsələlər həll edilməli idi. Azərbaycan tərəfinin mövqeyinə görə, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməməsi iki ölkə arasında digər sahələrdə əlaqələrin inkişafına mane olmamalı idi.

Azərbaycan səfiri Azərbaycan Respublikasının Təbriz şəhərində baş konsulluğunun açılması məsələsinə toxundu. Məsələnin həllini tapmama- sının ikitərəfli əlaqələrə mənfi təsir etdiyini, bunun iki ölkə əlaqələrinin inkişafını istəməyən qüvvələrin əlində vasitəyə çevrildiyini diqqətə çatdırdı. Məlum olduğu kimi, hələ 1992-ci ilin avqust ayında əldə edilmiş razılığa əsasən İran tərəfi Naxçıvan Muxtar Respublikasında, Azərbaycan Respublikası isə Təbriz şəhərində baş konsulluq açmalı idi. Azərbaycan tərəfi götürdüyü öhdəliyə əməl edərək Naxçıvanda baş konsulluğun açılmasına icazə vermiş, onu müvafiq şəraitlə təmin etmişdi. Ermənistanın təcavüzü nəticəsində blokada vəziyyətinə düşmüş Naxçıvan üçün İİR baş konsulluğunun açılması mühüm rol oynamış, iqtisadi sıxıntı içində yaşayan əhali Culfa keçid məntəqəsi vasitəsilə həyati mənafelərini təmin edə bilmişdi. İran isə götürdüyü öhdəliyə əməl etməmişdi. Təbrizdə Azərbaycan Respublikasının baş konsulluğunun açılması iki xalqın əlaqələri baxımından faydalı olar, ölkələr arasında daha da yaxınlaşmaya gətirib çıxarardı.

Görüşdə energetika sahəsində Azərbaycan - İran - Türkiyə, şimal dəhlizinin perspektivləri sahəsində Rusiya - Azərbaycan - İran üçtərəfli əməkdaşlığının böyük potensialının olduğu qeyd edildi. İran Azərbaycana Avropa ilə nəqliyyat əlaqələrinin qurulması və inkişafında əlverişli tranzit ölkə kimi baxırdı.

Həsən Ruhani Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ölkəsinin mövqeyini bəyan etdi. İran münaqişənin ədalətli həllini istəyirdi. Regionun təhlükəsizliyi milli mənafeyinə uyğun gəldiyi üçün İran bu məsələnin həllində mühüm rol oynamağa çalışırdı. Onun fikrincə, Azərbaycan da münaqişənin həllində İranın vasitəçilik rolunun əhəmiyyətini bildirməli, münaqişənin həllini ancaq Minsk qrupuna və ABŞ-a həvalə etməməli idi. Azərbaycan Respublikasının bəzi rəsmilərinin İranın vasitəçiliyinə heç bir ehtiyac duyulmadığı barədə bəyanat verməlɘri İranın bu məsələdə geri çəkilməsinə və yal

nız seyrçi mövqe tutmasına səbəb olurdu. Onun sözlərinə görə, geri çəkilmə İranın milli maraqlarından geri çəkilməsi demək deyildi. Həsən Ruhaninin fikrincə, İran həmişə regionda mövqeyi, sözü olan bir ölkə kimi siyasət yeridəcəkdi. Sabitlik əldə edilməsi üçün müzakirələrə ehtiyac duyulurdu, qarşılıqlı səfərlərin və dialoqun artırılması vacib idi.

2001-ci il iyulun 16-da Azərbaycan Respublikası Sərhəd Qoşunlarının komandanı Elçin Quliyevin İrana səfəri zamanı keçirilən görüşlərdə iki ölkənin sərhəd xidmətləri arasında qarşılıqlı fəaliyyət məsələləri müzakirə edildi. Tərəflər əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəldilər.

Bundan bir neçə gün sonra, iyulun 19-21-də İran İslam Respublikası Ali Milli Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə oldu. İyulun 20-də onu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi'*^'*. Görüşdə iki ölkə arasında münasibətlərin bütün tərəfləri müzakirə edildi. Qeyd etmək lazımdır ki, bu zaman təkcə Naxçıvandan hər gün İrana gediş-gəliş edənlərin sayı 4 min nəfərə çatırdı. Heydər Əliyev İranı Azərbaycan üçün dost, qonşu və qardaş ölkə adlandırdı. Bu dostluğun qədim tarixi kökləri var idi. İki ölkəni bir-birinə bağlayan milli-mə- nəvi, dini dəyərlər, adət-ənənələlər eyni idi. Qarşılıqlı münasibətlərə xüsusi əhəmiyyət verən Heydər Əliyev Azərbaycan - İran əməkdaşlığının Gürcüstan və Ermənistan ilə əlaqələrə bənzəmədiyini dedi.

Azərbaycan tərəfi İranın Ermənistana təsir imkanlanni işə salmasını xahiş etdi. Şimal - Cənub dəmiryol xəttinin əhəmiyyətini. Cənubi Qafqazda Azərbaycanın digər respublikalarla müqayisədə daha əlverişli mövqedə olduğunu vurğuladı. Azərbaycan İranın ərazi bütövlüyünü tanıyır, vahid İranı qəbul edir və onun qüdrətli dövlət kimi inkişafında maraqlı idi.

Müzakirələr zamanı Xəzər dənizinin hüquqi statusu haqqında fikir mübadiləsi edildi. Azərbaycan tərəfinin fikrincə. Xəzər dənizinin hüquqi statusunu beş dövlət müəyyənləşdirməli idi.

Səfərin yekununda Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası ilə İİR Ali Təhlükəsizlik Şurası arasında əməkdaşlıq

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının nümayəndə heyətini qəbul etmişdir. 20 iyul 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s.344-351; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İran İslam Respublikasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 758- 765.**

haqqında memorandum imzalandı. Ciddi əhəmiyyət daşıyan bu sənəd iki ölkə arasında əlaqələrin dərinləşdirilməsinə yönəlmişdi.

## Xəzər dəırizində münaqişə.
## Münasibətlər sınağa çəkilir

Bu zaman Azərbaycan - İran münasibətləri heç də rəvan inkişaf etmirdi. Qarşılıqlı münasibətlər enişli-yoxuşlu yollardan keçir, bəzən münaqişələr də yaranırdı. Belə anlardan biri 2001-ci il iyulun 25-də axşam Xəzər dənizində baş verdi'*^^ Artıq qeyd edildiyi kimi, İranın hərbi təyyarə və gəmiləri Azərbaycanın xarici şirkətlərlə müştərək işlədiyi "Alov", "Araz" və "Şərq" yataqları və "Geofizik-3" gəmisi üzərinə hücuma keçərək onu atəşə tutdular. Su sərhədini göstərən işarənin birini dağıtdılar. İran tərəfi İngiltərəyə də nota verərək bu yataqlarda işlərin dayandırılmasını tələb etdi.

İran mətbuatı münaqişəyə geniş yer ayırdı. İyulun 26-də Tehran qəzetləri İran-Azərbaycan əlaqələri haqqında ötən günlərlə müqayisədə daha çox yazılar dərc etmişdi. Deməк olar ki, bütün mərkəzi qəzetlər bu mövzunu birinci səhifələrinə çıxarmış, böyük hərflərlə cəlbedici başlıqlar - "İranın addımı müdafiə ilə əlaqədar olduğundan qanunidir", "İranın tədbirləri məntiqidir, İngiltərə tez başa düşdü", "Xəzəryanı ölkələr münaqişə olmayan yerlərdə fəaliyyət göstərməlidirlər", "Xəzər NATO-nun ərazisi deyil", "Azərbaycan Xəzər dənizi hövzəsində özbaşına addım atmaq fikrindədir" və s. altında vermişdilər'^^^.

Bu hadisə iki ölkə arasında münasibətlərdə pis an olub, əməkdaşlığa mənfi təsir edirdi. İranın hərəkətləri Azərbaycan tərəfindən qəti etirazla qarşılandı. İrana nota verildi.

Rəsmi Tehran Xəzər dənizindəki bu hərəkətini müxtəlif motivlərlə əsaslandırırdı. İran tərəfi Xəzər dənizinə başqa dövlətlərin daxil olmasını, regiona Qərb kapitalının gəlməsini milli maraqlarına zərbə kimi qiymətləndirir, "Əsrin müqaviləsi" həyata keçirildikdən sonra Azərbaycanın güclənəcəyindən və İranda tarixi torpaqlarında yaşayan azərbaycanlılar üçün cəlbedici olacağından narahat idi. Azərbaycan Respublikasının varlığına İranda bəzi dairələr qorxu kimi baxırdılar. Həm də İran özü neft ixrac

[1855] **ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq X211, v.l88.**
**' ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq Xsl 1, v.191-194.**

edən bir ölkə idi. İnqilabdan sonra ABŞ ilə münasibətlərin pozulması və tətbiq olunan sanksiyalar səbəbindən İran neft sənayesi bəzi problemlərlə üzləşmişdi. Azərbaycan Respublikasının Qərb ölkələri ilə əməkdaşlıq etməsi və neft ixrac edən alternativ mərkəzlərdən birinə çevrilməsi İranda qısqanclıqla qarşılanırdı.

Xəzər dənizində baş verən münaqişə region çərçivəsini aşırdı. Artıq qeyd olunduğu kimi, ABŞ, Türkiyə, İsrail və digər dövlətlər Azərbaycanı müdafiə etdilər. ABŞ Dövlət Departamentinin mətbuat katibi F.Rikers Birləşmiş Ştatların Xəzər dənizindəki münaqişədən ölkəsinin narahat olduğunu bildirərək, İranın hərəkətlərinin Xəzər dənizinin hüquqi statusunun dinc yolla müəyyənləşdirilməsi ilə bir araya sığmadığını bildirdi. Artıq əvvəllərdə qeyd edildiyi kimi, Türkiyə hərbi hava qüvvələrinin təyyarələri Bakı səması üzərində uçdular. İsrail də diplomatik dəstək verdi.

Belə bir şəraitdə Azərbaycan tərəfi İran ilə yaranan bütün məsələlərin dinc yolla həllinə tərəfdar idi. Münasibətlərin gərginləşdirilməsi Azərbaycanın maraqlarına uyğun deyildi. Azərbaycan yenə də konstruktiv müzakirələr yolunu tutdu. Bu mövqe 2001-ci il avqustun 28-də İran xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini Əli Ahəninin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı keçirilən danışıqlarda ifadə edildi. Danışıqlarda qarşılıqlı münasibətlərin dönməzliyi, ikitərəfli müştərək komissiyasının işi, sərhədyanı bazarın təşkili Xəzər dənizinin hüquqi statusu məsələləri müzakirə edildi'*". Görüşdə Azərbaycan Prezidenti "Alov", "Şərq" və "Araz" yataqlarında işlərin görülməsinə dair xarici neft şirkətləri ilə bağlanan müqavilələrdən danışdı. Həmin yataqlarda artıq kəşfiyyat işləri aparılırdı. İranın orada gəmi, təyyarə ilə hədə-qorxu gəlməsinə Azərbaycan tərəfi etiraz edərək Xəzər dənizinin hüquqi statusu məsələsinin müzakirəsinin vacibliyini bildirdi. Azərbaycanın mövqeyinə görə, status məsələsi iki ölkə arasında digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə mane olmamalı idi.

Sərhədyanı bazar avqustun 30-da açıldı və əməkdaşlıqda yeni bir addım oldu.

Xəzər dənizində baş vermiş münaqişə Azərbaycan ilə İran arasında nəzərdə tutulmuş məsələlərin müzakirəsinin keçirilməsinin təxirə salınma-

**' Azərbaycan Prezidenti Heydər Əliyev İran nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s.834- 840; Azərbaycan Prezidenti Heydər Əliyev İran nümayəndə heyətini qəbul etmişdir. 28 avqust 2001-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 352-358.**

sına səbəb olmadı. Sentyabrın 4-7-də Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri Namiq Abbasov İrana səfər etdi. İki ölkə arasında təhlükəsizlik məsələri geniş müzakirə olundu. Tərəflər təhlükəsizlik sahəsində əməkdaşlığın vacibliyini bildirdilər.

Bu zaman dünyanı sarsıdan və bütün beynəlxalq münasibətlərə ciddi təsir edən dəhşətli bir hadisə baş verdi. 2001-ci il sentyabrın 11-də ABŞ-da terror aktları törədildi. Həmin hadisə Azərbaycan Respublikası - İran münasibətlərinə də təsir etdi. Bundan sonra regionda təhlükəsizlik məsələləri ön plana çıxdı. Azərbaycan və İran əməkdaşlığı daha da genişləndirdilər.

2002-ci il yanvarın 21-25-də İİR-in daxili işlər naziri Əbdülvahid

Musəvi Larinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respub- likasina səfər etdi. Bu, İranın daxili işlər nazirinin Azərbaycana ilk səfəri idi. Onu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etdi. Görüşdə iki ölkə arasında əlaqələrin daha da sıxlaşdırılması məsələləri müzakirə olundu. Səfərin nəticəsində yanvarın 22-də Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında sərhəd məsələləri, narkotik vasitələr, psixo- trop və digər maddələrin qaçaqmalçılığına qarşı mübarizə sahəsində əməkdaşlığa dair memorandum imzalandı. İmzalanan sənəd iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açırdı. Heç əbəs deyildir ki, həmin il aprelin 11-də İİR-in xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri zamanı keçirilən danışıqlarda'*^^ iki ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafından razılıq ifadə edildi. Kamal Xərrazinin fikrincə. Dağlıq Qarabağ münaqişəsinin həlli regionda iqtisadi əlaqələrin inkişafı üçün lazımi bir şərt idi. İki ölkə arasında məsələləri müzakirə etmək üçün xarici işlər nazirlərinin altı aydan bir görüşmək niyyəti bəyənildi. Azərbaycan Prezidenti İran xarici işlər nazirinə Ermənistanla münasibətləri, Azərbaycan ilə münasibətlərlə eyni tərəzidə saxlamağı, bərabərləşdirməyi məsləhət görmədi. Xəzər dənizində enerji məsələlərində əməkdaşlığın vacibliyini vurğuladı. Görüşlər

**Əbdülvahlid Musəvi Lari (1954)- İranın daxili işlər naziri (1998-2005).**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İranın xarici işlər nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 154-158; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İranın xarici işlər nazirini qəbul etmişdir. 11 aprel 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 clddə. İran. IV kitab, s. 366-370.**

zamanı Azərbaycan Prezidentinin İrana qarşıdakı səfərinə dair məsələlər müzakirə edildi. Mehriban qonşuluğun ən düzgün yol olduğu bildirildi.

## Mehriban qonşuluq ən düzgün yoldur

İki ölkə arasında əlaəməkdaşlığın davamlı inkişafı həm İrana, həm də Azərbaycana faydalı idi. Azərbaycan İran, İran da Azərbaycan üçün çox əhəmiyyətli ölkə idi. Azərbaycan ilə İran arasında münasibətlərdə yeni səhifə açan bir səfər nəhayət, reallaşdı. 2002-ci il mayın 18-20-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti İrana rəsmi səfər etdi. Azərbaycan Prezidentinin səfəri iki ölkəni bir-biri ilə daha da mehriban, dost etmək və əlaqələri genişləndirmək məqsədi güdürdü.

Azərbaycan Prezidenti əvvəlcə İİR Prezidenti Məhəmməd Xatəmi ilə təkbətək görüşdü'*^". Məhəmməd Xatəmi Ermənistanın Azərbaycana təcavüzünü pislədi. İran tərəfi Azərbaycanın ərazi bütövlüyünü İran üçün əhəmiyyətli hesab edir, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı ekspertlər səviyyəsində müzakirələrin davam etdirilməsinə, hüquqi statusun Xəzəryanı ölkələr tərəfindən region ölkələrinin təhlü- kəsizliynə xələl gətirmədən həllinə tərəfdar çıxırdı. Tərəflər iki ölkə arasında siyasi məsləhətləşmələri davam etdirmək və daha da intensivləşdiril- mək, iqtisadi əlaqələri genişləndirmək barədə razılığa gəldilər. Energetika, kommunikasiya, nəqliyyat, gömrük, kənd təsərrüfatı və humanitar sahələrdə əməkdaşlığın geniş imkanları mövcud idi. Danışıqlarda Təbrizdə Azərbaycanın baş konsulluğunun açılması məsələsi də müzakirə edildi. Məhəmməd Xatəmi dedi: "Cənab Heydər Əliyevə demişik ki, Təbrizdə baş konsulluq açmaq istəsələr, "xoş gəldiniz" deyirik"'^^'.

**'^"Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 245-248; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü. 18 may 2002-ci il. - Heydər Əliyev və Şərq.6 cilddə. İran. IV kitab, s.373-378.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşü. 18 may 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. s. 375.**

Azərbaycan və İran nümayəndə heyətləri arasında keçirilən geniş tərkibli danışıqlarda iqtisadi əlaqələri genişləndirmək üçün energetika, kommunikasiya, nəqliyyat sahəsində əməkdaşlığın böyük imkanlarının olduğu qeyd edildi. Belə əlaqələr hər iki tərəf üçün faydalı idi.

Mayın 19-da Heydər Əliyev İran parlamentinin - İslam Şurası Məclisinin sədri Mehdi Kərrubi'*^^ ilə görüşdü'^^^. Mehdi Kərrubi Xəzər dənizini sülh, təhlükəsizlik və əmin-amanlıq dənizi adlandırırdı. Görüşdə parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulandı.

Heydər Əliyev İranın lideri ayatullah Seyid Əli Xameneyi ilə görüşdü'*®". Seyid Əli Xameneyi Azərbaycan Prezidentinin səfərinin iki ölkə arasında əlaqələrin inkişafında yeni mərhələ açacağına ümid ifadə etdi. Bölgə üçün əhəmiyyətli olan Şimal - Cənub nəqliyyat dəhlizi layihəsində iki ölkənin birgə iştirakı. Xəzər dənizində əməkdaşlıq məsələləri müzakirə edildi, onun sülh və dostluq dənizi olması arzu edildi. Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli yolları müzakirə olundu. İran tərəfi Ermənistanın Azərbaycana qarşı təcavüzünə qarşı çıxdı.

Həmin gün Azərbaycan Prezidenti İranın xarici işlər naziri Kamal Xərrazi ilə görüşdü'*®®. Kamal Xərrazi Bakı - Astara avtomobil yolunun, Astara (Azərbaycan) - Astara (İran), Astara - Qəzvin dəmiryolunun açılmasının hər iki ölkə və region üçün əhəmiyyətli olacağını bildirdi. Azərbaycan Şimal - Cənub nəqliyyat dəhlizinə böyük əhəmiyyət verirdi. Görüşdə həmçinin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi məsələləri müzakirə olundu. Azərbaycan Xəzər dənizinin hüquqi statusunun beş dövlət tərəfindən

**Mehdi Kərrubi (1937)- İran parlamentinin sədri (1989-1992), (2000-2004).**

**Azərbaycan Prezidenti Heydər Əliyevin İran İslam Şurası Məclisinin sədri Mehdi Kərrubi ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 249-250; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Şurası Məclisinin sədri Mehdi Kərrubi ilə görüşü. 19 may 2002-ci il. — Heydər Əliyev və Şərq. 6 clddə. İran. IV kitab, s.379-380.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İranın ali dini rəhbəri Seyid Əli Xameneyi ilə görüşü. 19 may 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s.378-379.**

**Azərbaycan Prezidenti Heydər Əliyevin İranın xarici işlər naziri Kamal Xərrazi ilə görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi: 2002. 1 hissə, s. 253-254.**

müəyyənləşdirilməsinə tərəfdar idi. İran qonşuluqda yerləşən ölkələrin ərazisində hərbi əməliyyatların aparılmasının əleyhinə çıxırdı.

May ayının 20-də sənədlərin imzalanma mərasimi oldu'*^^. Heydər Əliyev və Məhəmməd Xatəmi iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında 30 maddədən ibarət 10 il müddəti üçün müqavilə imzaladılar'^®’. Müqavilədə tərəflər qonşu, dost, bərabərhüquqlu və müstəqil dövlətlər olaraq münasibətlərini suverenlik və ərazi bütövlüyünə hörmət, bir-birinin daxili işlərinə qarışmama prinsipləri və digər ümumi qəbul edilən beynəlxalq hüquq prinsip və normaları əsasında inkişaf etdirmək; regional və beynəlxalq səviyyələrdə sülh, əməkdaşlıq, xüsusilə, BMT, İKT və İƏT çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsinə təkid edirdilər; region ölkələrinin etibarlı təhlükəsizliyinə, sülh və əmin-amanlığın təmin olunmasına yönəldilən əməkdaşlığı artırmaq, beynəlxalq və regional təhlükəsizlik sistemlərinin möhkəmləndirilməsi və səmərəliliyinin artırılması üçün ardıcıl səylər göstərmək barədə öhdəlik götürürdülər; Xəzəryanı dövlətlərin ümumi razılığı əsasında Xəzər dənizinin hüquqi statusuna dair danışıqların sürətləndirilməsi və mövqelərinin yaxınlaşdırılmasma tərəfdar olduqlarını bildirirdilər; Xəzərin sülh, dostluq və əməkdaşlıq dənizi olmasına əminlik ifadə edirdilər; Xəzər dənizinin hərbiləşdirilməsinin əleyhinə çıxır, ekologiyasına dair məsuliyyətlərini təsdiq edirdilər; siyasi, iqtisadi, ticarət, texnologiya, elm, təhsil, mədəniyyət, tarix və mədəniyyət abidələrini qorunması, rabitə, mətbuat, radio, televiziya, siyasi, ictimai təşkilatlar, həmkarlar ittifaqları, ekologiya və s. sahələrdə əməkdaşlığa dair ayrıca sazişlərin imzalanacağı, Xoy - Culfa qaz boru kəmərinin tikintisi. Şimal - Cənub nəqliyyat dəhlizinin gücləndirilməsi barədə razılığa gəlirdilər.

Həmin gün Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında hava nəqliyyatı, beynəlxalq avtomobil daşımaları, gömrük məsələlərində qarşılıqlı yardım və əməkdaşlıq haqqında sazişlər, mədəni əməkdaşlıq, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikası Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və İran İslam Respublikasının

**Sənədlərin imzalanma mərasimi. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi; 2002.1 hissə, s. 259-260.**

**Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilə. 20 may 2002-ci il. - Müqavilələr toplusu. I cild, s. 235-241; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 434-439.**

Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq, təhsil, tədqiqat və texnologiya haqqında memorandumlar və s. imzalandı

Səfərin yekununa dair birgə məlumat yayıldı. Məlumatda yazılırdı ki, tərəflər bir-birinin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və ehtiram göstərməklə faydalı əməkdaşlıq edəcəklər.

Tarixi əhəmiyyəti daşıyan bu səfər zamanı iki ölkə arasında münasibətlərə dair bütün məsələlər müzakirə edildi. Tərəflər bir-birini anlamaq və əməkdaşlığı dərinləşdirmək üçün cəhdlər etdilər. İki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında imzalanan müqavilə ilk böyük hüquqi sənəd idi. O, əlaqələri bütün sahələrdə tənzimləyirdi. İki ölkə arasında münasibətlərdə dönüş nöqtəsi olan və yeni mərhələnin başlanğıcını qoyan bu səfər zamanı ikitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi və digər sahələrə dair səmərəli müzakirələr keçirildi. Qarşılıqlı münasibətləri yaxşılaşdırmaq üçün yollar axtarıldı. İran ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev deyirdi: "...mənim kimi, prezident Xatəmi də əməkdaşlığı səmimi olaraq inkişaf etdirmək istəyir, bəzi halların aradan qaldırılmasını istə-
yir"1869^

Səfərdən sonra Azərbaycan - İran münasibətlərində mövcud olan problemlərin aradan qaldırılması üçün yeni tədbirlər müəyyənləşdirildi, müzakirələr genişləndi və konkret addımlar atıldı. 2002-ci il iyulun 24-27- də İİR-in informasiya naziri (milli təhlükəsizlik naziri) Əli Yunesi'*™ başda olmaqla nümayəndə heyətinin Bakıya səfəri'*^' iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığın geniş inkişaf etdirilməsi baxımından əhəmiyyətli oldu. Hər iki ölkə terrorizmə, narkotik maddələr dövriyyəsi və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə əməkdaşlıq edirdilər. Bu sahədə texniki hazırlıq, əməliyyat işlərinin aparılması və kadr hazırlığı vacib idi.

[1868] **Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 500-515.**

**Prezident Heydər Əliyevin xarici siyasət konsepsiyasında İran. - Heydər Əliyev və Şərq. 6 cilddə. İran. IV kitab, s. 127.**

**1870 QU Yunisi (1956)- İranın informasiya naziri (2000-2005).**

**Azərbaycan Prezidenti Heydər Əliyev İran İslam Respublikasının nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. I hissə, s. 554-556.**

Danışıqların nəticəsində iki ölkənin müvafiq orqanları arasında əməkdaşlıq haqqında 10 maddədən ibarət memorandum imzalandı’^’^. Memorandumda tərəflər beynəlxalq mütəşəkkil cinayətkarlığın, narkotik maddələrin qanunsuz dövriyyəsi və qaçaqmalçılığı, partlayıcı, radioaktiv maddə və vasitələrin qanunsuz daşınması və kütləvi qırğın silahlarının yayılmasının qarşısınını alınması, beynəlxalq terrorizmin və onun digər təzahürlərinin maliyyələşdirilməsi mənbələrinin, terrorçu şəxslər və təşkilatların maliyyələşdirilməsi, hər iki ölkənin milli təhlükəsizliyini təhdid edə biləcək terror aktı törədən və törətmək niyyətində olan terror təşkilatları və şəxslər barəsində, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq təhlükəsizlik problemləri sahəsində və s. əməkdaşlıq etmək haqqında razılığa gəlirdilər.

İki ölkə arasında qarşılıqlı münasibətlərin maddi təməlinin möhkəmləndirilməsində 2002-ci il oktyabrın 29-30-da Bakıda keçirilən iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlətlərarası müştərək komissiyanın 5-ci iclası mühüm rol oynadı. İclasın yekununda tərəflər arasında memorandum imzalandı'*’^. Sənəddə enerji, nəqliyyat və rabitə, dəmiryolu, hava və dəniz daşımaları, rabitə, sənaye, aqrar-sənaye və kənd təsərrüfatı, sərhədyanı çaylardan birgə istifadə edilməsi, balıqçılıq, ticarət, maliyyə və bank, sərhəd məsələləri, elm, təhsil, mədəniyyət və səhiyyə sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdu.

2003-cü ildə də iki ölkə arasında münasibətlər inkişaf dinamikasını qoruyub saxladı. Yanvarın 14-də İranın Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gələrək Xəzər dənizinin hüquqi statusuna dair məsələləri müzakirə etdi'*'’*. Fevralın 22-26-da Azərbaycan Respublikasının ədliyyə nazıri Fikrət Məmmədov İran İslam Respublikasının ədliyyə naziri Məhəmməd İsmayıl Şüştərinin dəvəti ilə lİR-də səfərdə oldu. Səfər

**^ Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə İran İslam Respublikası Təhlükəsizlik Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s.44-46.**

**Azərbaycan Respublikası və İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə dövlətlərarası müştərək komissiyanın 5-ci iclasının nəticələri barədə memorandum. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 36-44.**

**Xarici işlər naziri İranın Xəzər məsələləri üzrə xüsusi nümayəndəsini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə, s. 23.**

**Fikrət Məmmədov (1955) - ədliyyə naziri (2000-ci ildən).**

zamanı hər iki ölkənin ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında saziş layihəsi razılaşdırıldı. Aprelin 12-14-də Azərbaycan Respublikasının daxili işlər naziri Ramil Usubov İran İslam Respublikasının daxili işlər naziri Əbdülvahid Musəvi Larinin dəvəti ilə İİR-də səfərdə oldu. Danışıqların sonunda, aprelin 13-də iki ölkənin daxili işlər nazirlikləri arasında əməkdaşlığa dair İ1 maddədən ibarət memorandum imzalandı’*’®. Memorandumda tərəflər mütəşəkkil cinayətkarlığa, terrorizmə, narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə, iqtisadi cinayətkarlığa, əntiq əşyalar və incəsənət əsərlərinin qaçaqmalçılığına qarşı, sənədlərin və qiymətli kağızların saxtalaşdırılmasına qarşı və s. sahələrdə əməkdaşlıq etmək niyyətlərini ifadə etdilər.

Bütün bunlar Azərbaycan ilə İran arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndiyini göstərirdi. Aprelin 28-29-da İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazi bölgə ölkələrinə səfəri çərçivəsində Azərbaycan Respublikasına da gəldi’*”. Səfərdə başlıca məqsəd iki ölkə arasında əlaqələrin genişləndirilməsi üçün məsləhətləşmələr aparmaq və regionun inkişafı idi. Cənubi Qafqazda sabitliyin olması İran üçün əhəmiyyət daşıyırdı. Nümayəndə heyətini Azərbaycan Prezidenti Heydər Əliyev qəbul etdi’*’*. Görüşdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, Naxçıvana İrandan qaz veriiməsi, Astara - Bakı avtomobil yolunun tikintisi, energetika sahəsində əməkdaşlıq, Azərbaycanda elektrik stansiyalarının bərpası layihələri haqqında fikir mübadiləsi edildi. Xəzər dənizinin hüquqi statusuna dair aparılan danışıqların davam etdirilməsinin məqsəduyğunluğu bildirildi. Səfər zamanı imzalanan sənəddə İranın Azərbaycana 2 milyon ABŞ dolları həcmində qrant ayırması nəzərdə tutulmuşdu.

Beləliklə, Azərbaycan Respublikası ilə İran İslam Respublikası xalqları arasında coğrafi, tarixi, mədəni, dini bağlılıq iki ölkə arasındakı əlaqələrin təbii təməllərini təşkil edir. İki ölkə arasında münasibətlər ehtiyatlılıqdan normallaşmaya, qarşılıqlı anlaşmaya, mehriban qonuluğa və əməkdaşlığa doğru inkişaf yolu keçərək tərəflərin maraqlarına cavab ver-

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlığa dair memorandum. 13 aprel 2003-cü il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s. 441-443.**

**İranın xarici işlər nazirinin Azərbaycana səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 185.**

**Azərbaycan Prezidenti Heydər Əliyev İran nümayəndə heyətini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003.1 hissə, s. 186-187.**

mişdir. 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlərin hüquq-müqavilə bazası yaradılmışdır. Bu dövr ərzində Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən 70-dən çox sənəd imzalanmışdır. Qarşılıqlı münasibətlərdə müzakirə edilən başlıca məsələlər Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dayandırılması üçün vasitəçilik səyləri, ticarət- iqtisadi, elmi-texniki, mədəni, humanitar sahələrdə əməkdaşlıq, nəqliyyat əlaqələri, ikitərəfli və regional problemlərə dair siyasi məsləhətləşmələr. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, Təbrizdə Azərbaycan konsulluğunun açılması, enerji sahəsində əməkdaşlıq. Xəzər dənizinin Azərbaycan sektorunda əməkdaşlıq, Ermənistanın hərbi təcavüzü nəticəsində blokada şəraitinə düşmüş Naxçıvanın problemlərinin həlli, regional təhlükəsizlik, sərhəd təhlükəsizliyi və s. olmuşdur.

Azərbaycan və İran mehriban qonşulara, ticarət-iqtisadi ortağa çevrilmiş, bərabərhüquqlu münasibətlər qurmuş və etimad əsasən möhkəmlənmişdir. İran tərəfi Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq hüquq normalarına, dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiq qalaraq BMT və İKT təşkilatları çərçivəsində də Azərbaycanı dəstəkləmişdir.

# GÜRCÜSTAN İLƏ QARŞILIQLI MÜNASİBƏTLƏR

## Münasibətlərin qurulması və problemləri

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində qonşu Gürcüstan ilə münasibətlərin qurulub inkişaf etdirilməsi mühüm yerlərdən birini tutdu. Qeyd etmək lazımdır ki, Azərbaycan ilə Gürcüstan arasında sərhədin uzunluğu 480 km.-dir'*^^.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 30-da, hələ SSRİ rəsmi olaraq dağılmamış Gürcüstana dair qəbul etdiyi müraciətində bu ölkənin vahid və firavan Qafqaz evinin yaradılmasının fəal işti

rakçısı olacağına ümid ifadə etdi . Həmin tarixdə həmçinin Gürcüstanın dövlət müstəqilliyinin tanınması barədə bəyanat da qəbul edildi'**'. Bununla da iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafı üçün ilk addımlar atıldı. 1991-ci il dekabrın 16-da Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə parlamentdə təsdiq edildi'**^.

Bu zaman Gürcüstanın daxilində milli münasibətlər kəskinləşmişdi. Ölkə vətəndaş müharibəsi astanasında dayanmışdı. Belə gərgin şərait Azərbaycanın maraqlarına uyğun deyildi. Ona görə də dekabrın 25-də Azərbaycan Respublikası Ali Soveti Milli Şurası gürcü xalqına müraciət

qəbul etdi . Müraciətdə Gürcüstan xalqının əmin-amanlığı və xoşbəxt gələcəyi naminə dinc dialoq yolu ilə həmrəylik əldə olunacağına ümid ifadə edilmişdi. Azərbaycan Gürcüstanda milli barışıq əldə olunması işində vasitəçi rolu oynamağa hazır idi'**". Lakin Gürcüstanda sabitliyin bərpası xeyli çətin idi.

**' Azərbaycan sərhəd mühafizəsi, s. 3.**

**’ ARXINA. 1991.**

**ARXİNA. 1991.**

1882 **ARXİNA.1991.**

**ARXİNA. 1991.**

**ARXİNA. 1991.**

1992-ci il noyabrın 18-də Azərbaycan ilə Gürcüstan arasında diplomatik əlaqələr quruldu'**^. Bundan sonra münasibətlərdə yeni bir səhifə açıldı.

İki ölkə arasında münasibətlərin qurulmasını və rəvan inkişafım bir sıra amilllər zəruri edirdi'^^*'. Azərbaycan və Gürcüstanın yaxşı münasibətlər qurması ən təbii bir hal idi. Hər şeydən əvvəl, bu ölkələr qonşu idilər. Onları ilk növbədə coğrafi yaxınlıq birləşdirirdi. Gürcüstan Azərbaycanın Avropaya, Azərbaycan isə Gürcüstanın Asiyaya açılan qapısı idi. Hər iki ölkə uzun illər boyu əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində olmuşdular. İki ölkə xalqları mədəni baxımdan yaxın idilər. Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq normalar, mənafelərin tarazlığı əsasında qurulan münasibətlər üçüncü dövlətə və ya dövlətlər qrupuna qarşı yönəlməmişdi. Münasibətlərdəki özünəməxsusluqlar xalqlar arasında tarixi amillərlə, müasir və perspektiv əməkdaşlıqla səciyyələnirdi. Hər iki ölkəni və xalqı tarixi ənənələr, coğrafi-siyasi sərhədlər, mehriban qonşuluq münasibətləri birləşdirirdi. Gürcüstanın dövlət müstəqilliyi Azərbaycan üçün qiymətli idi. Gürcüstan qonşu Ermənistandakı bəzi qüvvələr tərəfindən təhdid edilir, ona qarşı ərazi iddiaları irəli sürülürdü. Abxaziyada erməni batalyonu Gürcüstana qarşı vuruşurdu'**'. Gürcüstan ərazisində erməni separatizmi güclənirdi.

Azərbaycan ilə əməkdaşlıq Gürcüstanda iqtisadi-sosial inkişafa müsbət təsir edən mühüm amillərdən biri idi. Gürcü dövlət və siyasi xadimləri Gürcüstanda siyasi və iqtisadi islahatların Azərbaycanın yardımları olmadan həyata keçirilməsinin çətinliyini birmənalı olaraq qeyd edirdilər. Nəhayət, Gürcüstanda yarım milyon nəfərdən çox azərbaycanlı yaşayırdı. Azərbaycanda da gürcülər var idi. Onlar qarşılıqlı münasibətlərdə təsirli rol oynayırdılar.

Lakin Zviad Qamsaxurdiyanın'*** hakimiyyəti illərində qarşılıqlı münasibətlər bir sıra amillər, o cümlədən azərbaycanlılara qarşı yürüdülən

**ARXİNA. 2008.**

**Qasımlı M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri), s.42-45. ApMHHOHSbiHHoe HacejiBHHe Bceü fpysHH n xenesbie cxopoHbi u npoöJieMbi B03po>KaeHH5i e^uHOM xpysHHCKOH xocyaapcxBeHHOCxH (Maxepuajibi HayHHOÜ KOHtjıepeHUHH. TÖHaucH, 27 OKxaöpa). TÖHJIHCU, 2006; TexBaaae 111., TexBaase O. ApMBHe** B rpysHH. **TÖHJIHCH, 2008; ApBeaaase B., MHOnyann T. APMHHCKHH öaxajibOH** UMCHu **BarpaMana** u axHUHUcxKa **rpysuH** в **A6xa3HH.T6ujiHCH, 2009.**

**Zviad Qamsaxurdiya (1939-1993) - Gürcüstan SSR Ali Sovetinin sədri (1990- 1991).**

siyasət səbəbindən arzu edilən səviyyədə deyildi. Müstəqilliyin ilk illərində Gürcüstandakı azərbaycanlıların vəziyyəti ağır idi. Onlara qarşı ayrı- seçkilik siyasəti yürüdülürdü. Qatı millətçi qüvvələr azərbaycanlıları sıxışdırır, tarixi torpaqlarından çıxıb getmələrinə təhrik edirdilər.

Bütün bunlar qarşılıqlı münasibətlərdə mənfi hal olduğundan Azərbaycan tərəfi Gürcüstan ilə münasibətləri yaxşılaşdırmaq üçün konkret addımlar atdı. 1993-cü il yanvarın 27-də Tbilisi şəhərində Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi haqqında qərar qəbul olundu'**'.

Zviad Qamsaxurdiyanın hakimiyyətdən getməsindən sonra şərait tədricən dəyişməyə başladı. Gürcüstan parlamentinin sədri seçilən Eduard Şevardnadze Azərbaycan ilə əlaqələrə xüsusi diqqət yetirirdi. 1993-cü ilin fevral ayında o, Azərbaycana səfər etdi. Səfər zamanı ikitərəfli münasibətlərin ən vacib məsələləri müzakirə edildi. Yekunda Azərbaycan və Gürcüstan parlamentləri arasında əməkdaşlığa dair sənəd imzalandı. Fevralın 3-də isə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə bağlandı. Bu müqavilə Azərbaycan tərəfindən aprelin 21-də təsdiq edildi'*". Lakin həmin illərdə iki ölkə arasında müstəqil münasibətlər hələ yenicə formalaşma mərhələsində idi.

## Dönüş anı. Qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsinin başlanması

1993-cü ilin ortalarından etibarən qarşılıqlı münasibətlərdə yeni keyfiyyət mərhələsi başladı. Bu da Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bağlı idi. SSRİ dağıldıqdan sonra iki ölkə arasında yığılıb qalmış problemlərin həlli zərurətə çevrilmişdi. Ona görə də 1994-cü ildə Gürcüstanın Baş Naziri Otar Pasasiya'*'' başda olmaqla nümayəndə heyəti Azərbaycana səfər etdi. Danışıqlar zamanı iki ölkə arasında iqtisadi, siyasi və mədəni əməkdaşlıq məsələləri müzakirə edildi. Tərəflər qarşılıqlı əlaqələri genişləndirmək barədə razılaşdılar.

**ARXİNA. 1993.**

[1890] **ARXINA. 1993.**
**Otar Pasasiya-Gürcüstanın Baş Naziri (1993-1995).**

Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verən Gürcüstan tərəfi 1995-ci ilin fevral ayında Bakıda səfirlik açdı. Həmin ildə Gürcüstan parlamentinin sədri Vaxtanq Qoquadze'*®", Baş Nazirini birinci müavini Zviad Kervalaşvili, parlamentin insan hüquqları və millətlərarası münasibətlər komitəsinin sədri Sandro Kaxsadze Azərbaycana səfər edərək ikitərəfli və regional məsələləri müzakirə etdilər. Aprelin 15-də Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında müqavilə imzalandı. Bütün bunlar münasibətlərin inkişafında əlavə imkanlar açır, yüksək səviyyəli görüşlərə şərait yaradırdı.

Nəhayət, iki ölkə arasında münasibətlərdə dönüş baş verdi. 1996-cı ilin martında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstana səfər etdi. Səfərin başlıca məqsədi iki ölkə arasında dostluq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək, Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə tanış olmaq və onlara mümkün olan köməyi etmək idi'*^\

Azərbaycan dövləti Xəzər neftinin ixracının Gürcüstan ərazisindən keçirilməsinə də çalışırdı. Bu mövqe Gürcüstanın maraqlarına tamamilə cavab verirdi. Həmin məsələnin də müzakirəsi vacib idi.

Azərbaycanın Gürcüstana xüsusi diqqət yetirməsinin bir sıra səbəbləri var idi. Artıq qeyd edildiyi kimi, Gürcüstan Azərbaycan üçün dost və qonşu ölkə idi. İki ölkə arasında çox zəngin tarixi əlaqələr mövcud idi. Bu ölkədə azərbaycanlılar yaşayırdı. Gürcüstan onlann doğma vətəni idi. Ulu babaları orada yaşamışdı, tarixi kökləri orada idi.

Dövlət rəhbərləri arasında keçirilən görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər barəsində fikir mübadiləsi aparıldı. Müzakirə edilən məsələlər üzrə tərəflər arasında fikir birliyi mövcud idi.

Səfərin yekununda iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında 22 maddədən ibarət müqavilə imzalandı'*^'*. Böyük tarixi əhəmiyyəti olan müqavilə münasibətlərə yeni keyfiyyət halı verirdi.

**^ Vaxtanq Qoquadze (1940) - Gürcüstan parlamentinin sədri (1992-1996). Əliyev H.Ə. Gürcüstana rəsmi səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 8 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.403.**

**Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə. 8 mart 1996-cı il. - Müqavilələr toplusu. I cild, s.61-67.**

İki dövlət rəhbəri həmçinin “Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannaməni imzaladılar'*^^. Bu, həmin qəbildən olan ilk mühüm siyasi sənəd idi. Onun mühümlüyü bundan ibarət idi ki, Qafqaz sabitsizlikdən, münaqişələrdən əziyyət çəkirdi. İki ölkə rəhbərinin məqsədi regionda sülhə, sabitliyə və əməkdaşlığa çalışmaq idi'*^^. İmzalanan sənəd xarakteri etibarı ilə belə bir əməkdaşlığa yol açırdı. Bu sənəd artıq qeyd edildiyi kimi, 1996-cı ildə Kislovodskda Azərbaycan, Gürcüstan, Rusiya və Ermənistan prezidentlərinin imzaladıqları “Qafqazda sülhün yaradılmasına dair bəyannamə”nin müddəalarını daha da möhkəmləndirirdi.

Səfər zamanı ilkin Azərbaycan neftinin Gürcüstan ərazisi vasitəsi ilə Qara dəniz sahilinə nəqlinə dair sənəd imzalandı. Bu neft boru kəməri Azərbaycan və Gürcüstan iqtisadiyyatı üçün əhəmiyyətli olmaqla yanaşı həm də dostluq və əməkdaşlıq kəməri idi. Boru kəməri sosial və iqtisadi xarakterli bir sıra maraqları özünə cəlb edəcəkdi. Azərbaycan Prezidenti Heydər Əliyevin fikrincə, boru kəmərinin tikintisi barədə qərarın qəbul edilməsi ilə heç kim itirməmişdi, hamı qazanmışdı. Bu, tarixi bir addım idi.

Azərbaycan Prezidenti Gürcüstan parlamentinin xüsusi iclasında nitq söylədi'*’^. Nitqində iki xalq arasında olan dostluq münasibətlərinin tarixinə qısa nəzər yetirən Heydər Əliyev 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin Tiflisdə elan edilməsini xatırlatdı, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın üzləşdiyi çətinliklər üzərində dayandı, Ermənistanın təcavüzünün nəticələri və münaqişənin nizama salınması səylərindən danışdı. MDB iclaslarında Gürcüstan ilə bağlı Abxaziya məsələsi müzakirə edilərkən Eduard Şevardnadzeni birinci olaraq müdafiə etdiyini xatırladı və imzalanan sənədlərin əhəmiyyətini qeyd etdi. Onun fikrincə, xüsusən, Azərbaycan neftinin Gürcüstan ərazisindən keçərək Qara dəniz sahilinə nəql edilməsinə dair imzalanan sənəd tarixi əhəmiyyət daşıyırdı.

**Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında bəyannamə. 8 mart 1996-cı il. - Müqavilələr toplusu. I cild, s.68-70.**

**Əliyev H.Ə. Azərbaycan və Gürcüstan nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan və sənədlər imzalandıqdan sonra Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə birgə mətbuat konfransında bəyanat. 8 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.404-407.**

**Əliyev H.Ə. Gürcüstan parlamentinin xüsusi iclasında nitq. 8 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.408-416.**

Səfər zamanı Tbilisidə Azərbaycanın səfirliyi açıldı. Azərbaycanın Gürcüstandakı ilk səfiri Hacan Hacıyev'*^* təyin edildi. Heydər Əliyev 1920-ci il iyunun 19-da erməni terrorçusu tərəfindən Tiflisdə qətlə yetirilmiş Azərbaycanın Baş Naziri Fətəli xan Xoyskinin abidəsini açaraq nitq söylədi’^^^. Daha sonra şəhərdəki Cümə məscidində mömin azərbaycanlılarla görüşərək onların problemləri ilə maraqlandı'^™.

Tbilisi Dövlət Universitetində etdiyi nitqində Azərbaycan Prezidenti neftin nəqli məsələsi üzərində dayanarkən deyirdi: “Azərbaycanda çıxarılan təbii qaz 1959-cu ildə ilk dəfə Gürcüstan torpağına gəldi, Tbilisidə ilk dəfə olaraq qaz məşəli yandırıldı. İndi isə bizim ölkələrimiz müstəqil dövlətlər olduğu bir zamanda Azərbaycanın zəngin neft yataqlarından çıxarılan neftin Gürcüstan ərazisindən keçməsi haqqında və böyük neft kəmərinin çəkilməsi haqqında qəbul edilmiş qərar da Azərbaycan ilə Gür cüstan arasında, xalqlarımız arasında mövcud dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir”'^''.

Martın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tbilisi şəhərindəki Dövlət Akademik Opera və Balet Teatrının binasında Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdü. Gürcüstan Prezidenti Eduard Şevardnadzenin iştirakı ilə keçirilən bu görüşdə azərbaycanlıların fəal nümayəndələrinin çıxışlarında toxunulan məsələlərin və Azərbaycan Prezidentinin tarixi nitqinə reaksiyanın, söylədikləri sözlərin dərin mənası və böyük əhəmiyyəti var idi. Xüsusən S.S.Orbeliani adına Tbilisi Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Valeh Hacıyevin çıxışında söylədiyi "XII əsrdə Qurucu Davidin 45 minlik qoşununun 40 mini türklərdən ibarət idi. Məhz həmin dövrdə Gürcüstan özünün ən yüksək səviyyəsinə çatmışdır"""™ sözləri gözəl tarix bilicisi olan Heydər Əliyevin diqqətini cəlb etdi və həmin görüşündəki nitqində

**Hacan Hacıyev (1946) - Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri (1996-2004).**

**Əliyev H.Ə. Tbilisi Nəbatat bağında Fətəli xan Xoyskinin abidəsinin açılışı mərasimində nitq. 9 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s. 421-424.**

**Əliyev H.Ə. Cümə məscidində mömin soydaşlarımızla görüşdə çıxış. 9 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.425-426.**

**Əliyev H.Ə. Tbilisi Dövlət Universitetinin fəxri diplomunun təqdim olunması mərasimində çıxış. 9 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.429.**

**Azərbaycan - Gürcüstan: Dostluğumuzun təntənəsi (tərtibçilər: H.Orucov, Ş.Şahməmmədov). Bakı, 1996, s.96.**

bu şəkildə öz əksini tapdı: "Bugünkü çıxışlarda deyildi ki, hələ XII əsrdə burada, Gürcüstanda yaşayan azərbaycanlılar, sizin ulu babalarınız, gürcü xalqı ilə Azərbaycan xalqı yadellilərə qarşı birgə vuruşublar və öz torpaqlarını müdafiə ediblər. Bu dostluq XII əsrdən indiyədək davam edir. Ona görə də əziz bacılar, qardaşlar, bu, sizin doğma vətəninizdir. Bu, sizin doğma torpağınızdır... Borçalı mahalı Gürcüstan üçün əziz olduğu kimi Azərbaycan üçün də əzizdir"

Gürcüstan Prezidentinin iştirakı ilə keçirilən görüşdə söylənən və "azərbaycanlılar Gürcüstana orta əsrlərdə Səfəvi hökmdarı şah Abbas tərəfindən köçürülmüşlər" kimi əsassız mülahizələr irəli sürən bir neşə gürcü şovinist tarixçilərinə ən tutarlı cavab olan bu sözlər SSRİ parçalanandan sonra tarixi vətənlərində təzyiqlərə məruz qalan, sıxışdırılma siyasəti ilə üzləşən, Ziad Qamsaxurdiyanın hakimiyyəti dövründə "gəlmələr" adlandırılan Gürcüstan azərbaycanlılarını öz dədə-baba yurdlarına daha möhkəm bağladı və onların öz ata ocaqlarında yaşayıb inkişaf etmələrinə böyük bir stimul yaratdı.

Azərbaycan Prezidenti nitqində iki xalq arasında dostluğun tarixini xatırlatdı, həm Azərbaycanın, həm də Gürcüstanın ərazi bütövlüyünün pozulduğunu dedi, münasibətləri daha da sıxlaşdırmağı tövsiyə etdi, Ermənistanın təcavüzü və münaqişənin sülh yolu ilə həlli səyləri barədə məlumat verdi

Azərbaycan Prezidentinin Gürcüstana səfərinin böyük tarixi əhəmiyyəti var idi. Səfər zamanı keçirilən müzakirələrin səmərəli nəticələri oldu. İmzalanan sənədlər iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ açırdı. Səfər Azərbaycan və gürcü xalqları arasında münasibətlərin məntiqi davamı idi’^°^.

Tərəflər münasibətləri inkişaf etdirmək əzmində idilər. Bu baxımdan 1997-ci il fevralın 18-də Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Azərbaycana rəsmi dövlət səfəri qarşılıqlı münasibətlərin inkişafında mühüm rol olynadı. Səfərin iki ölkə arasında münasibətlərdə yeni mərhələ

**Yenə orada.**

**Əliyev H.Ə. Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdə ÇIXIŞ. 9 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, s.432-445.**

**Azərbaycan - Gürcüstan: dostluğumuzun təntənəsi (tərtibçilər: H.Orucov, Ş.Şahməmmədov). Bakı, 1996.**

olacağına, əməkdaşlığı bundan sonra da inkişaf etdirəcəyinə, iki xalq və ölkə arasında dostluğu, qardaşlığı möhkəmləndirəcəyinə ümid edilirdi’’®^.

Danışıqlarda iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi, iqtisadi əməkdaşlıq, regionda, xüsusən Gürcüstan və Azərbaycan ərazlərdə münaqişələr müzakirə olundu. Dövlət başçıları regionda sabitliyin bərqərar edilməsinin vacibliyini vurğuladdan

Səfərin yekununda iki ölkə arasında münasibətlərə dair 22 sənəd imzalandı. Qeyd etmək lazımdır ki, həmin vaxtadək artıq Azərbaycan-Gürcüstan münasibətlərinə dair 32 sənəd imzalanmışdı. Beləliklə, Azərbaycan ilə Gürcüstan arasında imzalanan sənədlərin sayı 54-ə çatdı. Sənədlər siyasi, iqtisadi, mədəni və humanitar əlaqələri əhatə edirdi. İmzalanan sənədlər içərisində strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsi haqqında 15 bənddən ibarət bəyannamə əhəmiyyətli idi’^°^. Azərbaycan Prezidentinin fikrincə, sənəd hər iki ölkənin və xalqın milli mənafelərinə tam uyğun idi'^°*.

Həmçinin iki ölkə arasında neft və qaz sənayesi sahəsində əməkdaşlığa dair müqavilə imzalandı. Müqaviləyə görə, tərəflər karbohidrogen ehtiyatları və onların nəqli sahəsində əməkdaşlıq edəcəkdilər. Bu sənəd enerji daşıyıcılarının dünya bazarlarına çıxarılmasında və Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlıqda mühüm rol oynayırdı. Eyni zamanda mədəniyyət və sərhəd məsələləri üzrə əməkdaşlıq haqqında sazişlər də imzalandı.

Səfərin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, imzalanan sənədlər ilə iki ölkə arasında münasibətlərin təməlləri möhkəmləndirilirdi. İkitərəfli və regional məsələlərə münasibətdə tərəflərin baxışlarının eyni olması, enerji ehtiyatlarının nəqli məsələsində əməkdaşlıq hər iki ölkəni strateji müttəfiqə çevirməkdə başlıca rol oynayırdı.

**Əliyev H.Ə. Azərbaycana rəsmi səfərə gələn Gürcüstan Prezidenti Eduard Şevardnadzen Binə hava limanında qarşılanması mərasimində bəyanat. 18 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. Vlll kitab, 8, s.415.**

**Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında bəyannamə. 18 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. 1 cild, s. 116-119.**

**Əliyv H.Ə. Azərbaycan Respublikası və Gürcüstan arasında ikitərəfli sənədlər imzalandıqdan sonra Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə birgə mətbuat konfransında bəyanat. 18 fevral 1997-ci il. - Müstəqilliyimiz əbədidir. VIII kitab,**
S.417.

Bu səfərdən sonra münasibətlərin müqavilə-hüquq bazasının möhkəmləndirilməsi işi davam etdirildi. 1997-ci il il martın 8-də Tbilisidə Azərbaycan Respublikası və Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin qüwətləndirilməsi haqqında müqavilə, mayın 13-də isə Azərbaycan, Gürcüstan, Türkmənsitan və Özbəkistan arasında tranzit yük daşımalarının tənzimlənməsi sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.

Artıq qeyd edildiyi kimi, bu zaman Azərbaycanın enerji ehtiyatlarının Gürcüstan ərazisindən nəqli məsələsi dünyanın diqqət mərkəzində idi. Gürcüstana qarşı bəzi ölkələr ciddi təzyiqlər edirdilər. Belə bir şəraitdə Gürcüstana verilən diplomatik-siyasi dəstəyin əhəmiyyəti var idi. Ona görə də 1998-ci il yanvarın 24-də Azərbaycan Prezidenti Gürcüstana işgüzar səfər etdi. Səfər iki ölkə rəhbəri arasında daimi məsləhətləşmələrlə, əlaqələrlə, həm də Eduard Şevardnadzenin anadan olmasının 70 illiyi ilə əlaqədar idi’^°^. Dövlət rəhbərləri ikitərəfli münasibətlərin geniş tərəflərini müzakirə etdilər. Görüş zamanı Eduard Şevardnadze Azərbaycan Prezidentinə xitabən dedi: “Xalqlarımızın tarixi qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsində və Azərbaycan - Gürcüstan əməkdaşlığının durmadan inkişaf etdirilməsində... Sizin müdrik siyasətiniz böyük rol oynamışdır”’^'®.

Azərbaycan və Gürcüstan beynəlxalq və regional məsələlərin həllində beynəlxalq hüquq normalarını əsas tutur və sülh mövqeyindən çıxış edirdilər. MDB-də və beynəlxalq təşkilatlarda onların mövqeləri eyni idi. Hər iki ölkə əvvəlki illərdə böyük sıxıntılara məruz qalmışdılar.

Eduard Şevardnadzenin 70 illiyi mərasimində etdiyi nitqində Heydər Əliyev iki xalq arasındakı dostluqdan söhbət açdı. Gürcüstanın ərazi bütövlüyünün bərpasına tərəfdar olduğunu, dövlət müstəqilliyi bərpa edildikdən sonra iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni xarakter aldığını bildirdi. Gürcüstanın dövlət müstəqilliyinə sevindiyini bəyan etdi'®”.

**Əliyev H.Ə. Gürcüstana qısamüddətli işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab. 24 yanvar 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 169.**

**Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşdəki söhbətdən. 24 yanvar 1998-ci il. - Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 170.**

**Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadzenin 70 illiyi münasibətilə onun Azərbaycan Prezidenti tərəfindən təbrik edilməsi mərasimində nitq. 24 yanvar 1998-ci il. -Müstəqilliyimiz əbədidir. XIV kitab, s. 173-188.**

Məlum olduğu kimi. Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neftin Gürcüstan ərazisindən nəql edilməsinə dair razılaşmalar Rusiyada hiddətlə qarşılanmışdı. 1998-ci ilin fevralında Eduard Şevardnadzeyə sui-qəsd edildi. O, təsadüf nəticəsində sağ qaldı. Lakin sui-qəsd cəhdləri Gürcüstanı seçdiyi yoldan döndərə bilmədi. Bu işdə Azərbaycanın dəstəyi mühüm rol oynadı.

1999-cu ilin aprelində iki ölkənin və regionun həyatında mühüm bir hadisə baş verdi. Xəzər dənizinin Azərbaycan sektorundakı neftin Qərb istiqamətində ixracı üzrə boru kəmərinin, Supsa yerüstü terminalının və Vama - Poti - Batumi - İliçevsk bərə keçidinin açılışı oldu'®'^. Azərbaycan Prezidenti Heydər Əliyev mərasimdə iştirak etdi. Gürcüstanlı tədqiqatçı Vladimir Papavanın yazdığına görə, dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan və Gürcüstanın iqtisadi tərəfdaşlığının əsasları Bakı - Supsa, Bakı - Tbilisi - Ceyhan neft boru kəmərləri və “Şahdəniz” yatağından hasil edilən təbii qazın nəql olunması üçün inşa olunmuş Cənubi Qafqaz boru kəməri layihəsi ilə qoyuldu'®'^.

Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin tikintisinə dair sənədlər imzalansa da, tranzit xərcləri barədə Gürcüstanla razılaşdırıla bilməyən bir sıra məqamlar qalırdı. Gürcüstan bəzi şərtlər irəli sürür, daha böyük tranzit tarifləri tələb edirdi. Həmin şərtlər iqtisadi nöqteyi-nəzərdən heç bir çərçivəyə sığmırdı. Azərbaycan və Gürcüstanın nümayəndə heyətləri məsələni həll etmək üçün görüşmüşdülər. ARDNŞ-də bu işlə məşğul olan Valeh Ələsgərov da Gürcüstana səfər etmişdi. Azərbaycan tərəfi neft boru kəmərinin keçirilməsinə dair kommersiya sazişinin imzalanmasına çalışırdı. Kəmərin tikintisinin yubadılması layihədə iştirak edən ölkələrin hamısı üçün zərərli idi. Bu məsələnin həlli tələb edilirdi. Həmin məqsədlə 2000- ci il martın 22-23-də Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. Səfər proqramı iki ölkə arasında siyasi və iqtisadi sahələrdə ən müxtəlif məsələlərin müzakirəsi ilə zəngin idi.

Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti məsələsinin də müzakirəsi planlaşdırılmışdı. Azərbaycanlılar əsasən Qardabani, Marneu- li, Bolnisi, Dmanisi rayonlarında, Kaxeti, Şida-Kartli bölgələrində və Aca- rıstan Muxtar Respublikasında yaşayırdılar. Qeyd etmək lazımdır ki, SSRİ dağıldıqdan sonra rəsmi statistikaya görə, əgər Gürcüstanda 307 min azər-

**^ Arıxov C. Azərbaycan - Gürcüstan dostluq münasibətlərinin inkişaf dinamikası (1992-2003-cü illər), s. 29.**

**Papava V. “Qafqaz tandemi” nin yaradılması və inkişafı. - “Azerbaijan Focus”, Bakı, 2009, X2İ(1), s. 85.**

baycanlı yaşayırdısa, 2002-ci ildə 284 min 761 nəfər azərbaycanlı qalmışdı'"*. Məlum olduğu kimi, müstəqilliyin ilk illərində Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti xeyli ağır olmuş, onların hüquqları kobudcasına pozulmuş, köçmək təhlükəsi ilə üzləşmişdilər. 1993-cü ildən sonra Gürcüstan - Azərbaycan münasibətlərində yeni keyfiyyət dəyişikliyi yaranmışdı. Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti nisbətən yaxşılaşmışdı. İlya Çavçavadze adma Tbilisi Dövlət Pedaqoji Universitetində Xarici dillər fakültəsində Azərbaycan dili və ədəbiyyatı bölməsi fəaliyyət göstərirdi. Azərbaycan dilində həftədə bir dəfə yarım saatlıq veriliş efirə gedirdi. Tbilisidə dövlət himayəsi ilə Azərbaycan dilində həftədə bir dəfə “Gürcüstan” qəzeti nəşr olunurdu. Bundan başqa azərbaycanlıların yığcam yaşadığı digər şəhər və rayon mərkəzlərində də Azərbaycan dilində müstəqil qəzetlər nəşr olunurdu. Tbilisidə azərbaycanlıların Mədəniyyət Mərkəzi fəaliyyət göstərir, M.F.Axundov, C.Məmmədquluzadə və N.Nərimanovun ev-muzeyləri var idi. 1997-ci ildə Gürcüstan Yazıçılar Birliyi nəzdində Azərbaycan şöbəsi yaradılmışdı. Gürcüstan Prezidenti Tbilisidə Azərbaycan Dram Teatrının bərpası və bu məqsədlə Şota Rustaveli adma Tbilisi Dövlət Teatr və Kino Universitetində təhsil almaq üçün 10 azərbaycanlı tələbəyə yer ayrılması barədə sərəncam imzalamışdı. Bütün bunlar iki ölkə arasında qarşılıqlı münasibətlərə təsir edən amillər idi.

Səfər zamanı dövlət rəhbərləri əvvəlcə təkbətək görüşdülər. İki saata qədər davam edən danışıqlarda neftin Gürcüstan ərazisindən tranzit tarifləri məsələsi geniş müzakirə edildi. Azərbaycan tərəfi öz payından kəsib Gürcüstana verdi. Prezidentlər kommersiya sazişlərinin imzalanması və sənədlərin aprel-may aylarında ratifikasiya üçün parlamentlərə təqdim edilməsi barədə razılığa gəldilər. Bu, dövlət başçılarının həll etdiyi ən mühüm məsələ idi. Onlar enerji daşıyıcılarının beynəlxalq bazarlara nəqli üzrə Transxəzər əməkdaşlığı prosesinin hərtərəfli inkişafında və dərinləşdirilməsində maraqlı idilər.

Daha sonra prezidentlər ölkələrindəki siyasi, iqtisadi və sosial proseslərin gedişinə dair aparılmış fikir mübadiləsi zamanı ikitərəfli əməkdaşlığın daha da inkişafı və dərinləşməsi məsələlərini, qarşılıqlı maraq kəsb edən aktual regional və beynəlxalq problemləri müzakirə etdilər. Qeyd etmək lazımdır ki, iki dövlət arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrin səviyyəsi yüksək idi. Dövlət başçıları beynəlxalq

**Paul Goble. Georgia’s Azerbaijanis; problems and possibilities. ■ “Azerbaijan in the World”, volume 1, Baku, 2008, p.l33.**

hüquq normalarına uyğun olaraq müstəqil, suveren, demokratik Azərbaycan və Gürcüstan dövlətlərinin qurulmasında, habelə XXI əsrdə döv- lətlərarası münasibətlərin keyfiyyətcə yeni səviyyəsinin inkişafı üçün qarşılıqlı surətdə maraqlı olduqlarını göstərdilər. Onlar XXI əsrdə ayırıcı xət- lərsiz Avropanın qurulmasının tarixi zəruriliyini, yeni beynəlxalq reallıqlar şəraitində regionda sabitliyin əsaslarının təmin edilməsi və təhlükəsizliyin yeni sisteminin formalaşdırılması prosesinə yardım edilməsi baxımından Azərbaycan - Gürcüstan əməkdaşlığının möhkəmləndirilməsini əhəmiyyətli hesab edirdilər. Dövlət suverenliyi, hüquq bərabərliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, bir-birinin daxili işlərinə qarışmama, mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə, habelə hamı tərəfindən tanınmış digər beynəlxalq hüquq normaları və prinsiplərinə riayət olunması Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə təminat verə bilərdi. Cənubi Qafqazda təhlükəsizlik məsələlərinin müzakirəsi Azərbaycan və Gürcüstan üçün ciddi əhəmiyyət daşıyırdı. Çünki hər iki ölkə davakar separatizmdən əziyyət çəkirdi. Azərbaycanda və Gürcüstanda siyasi sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsi vacib idi.

Dövlət başçıları region ölkələrinin beynəlxalq miqyasda tanınmış sərhədlərinin zorla dəyişdirilməsinə yönəldilmiş, onların təhlükəsizliyini və ərazi bütövlüyünü təhlükə altına alan, insan hüquq və əsas azadlıqlarını, demokratiya prinsiplərini və ümumbəşəri dəyərləri sarsıdan təcavüz aktlarını, davakar separatizm və terrorizmin bütün forma və təzahürlərini pislədilər. Azərbaycan və Gürcüstan bu təhlükələrə qarşı birgə mübarizə aparmaq əzmində idilər. Qeyd etmək lazımdır ki, iki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında 1996-cı il 8 mart tarixli müqavilə, həmin tarixdə Tbilisidə imzalanmış Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə, Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında 1997-ci il 18 fevral tarixli bəyannamə qarşılıqlı münasibətlərin bazasını təşkil edirdi. Bu isə Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasına yönəldilmiş əsaslı sənədin hazırlanması üçün zəmin yaradırdı. Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı haqqında ATƏT-in İstanbul zirvə görüşündə irəli sürülmüş təklif və zirvə görüşünün nəticələri bu baxımdan yüksək idi. XXI əsrdə Avropada təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə yönəldilmiş Avropa Təhlükəsizlik Xartiyasının və zirvə görüşünün keçirildiyi zaman qəbul olunmuş digər sənədlər əhəmiyyət daşıyırdı. Azərbaycan və Gürcüstan BMT, ATƏT, Avroatlantika Əməkdaşlıq Şu

rası, Avropa Şurası, MDB və digər beynəlxalq təşkilatlar və forumlar çərçivəsində əməkdaşlığı gələcəkdə də davam etdirməyə hazır idilər. Avropa təhlükəsizliyinin yeni strukturunun səmərəliliyi hər şeydən əvvəl, bütün dövlətlər tərəfindən götürülmüş öhdəliklərin lazımi şəkildə yerinə yetirilməsindən, ATƏT, Avropa Şurası, Avroatlantika Əməkdaşlıq Şurası, Avropa İttifaqı, NATO, BMT arasında qarşılıqlı fəaliyyət mexanizmlərinin yaradılmasından asılı idi.

Azərbaycan və Gürcüstan prezidentləri Dağlıq Qarabağ münaqişəsi və Gürcüstanda Abxaziya münaqişəsi üzrə BMT və ATƏT çərçivəsində qəbul olunmuş sənədlərin tezliklə həyata keçirilməsini təsdiq etdilər. Onlar münaqişələrin həllinin dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsinə əsaslanmasına əmin idilər. Bu isə Cənubi Qafqaz dövlətləri arasında sülh, sabitlik və etimadın əldə olunması üçün etibarlı təminat yaradardı.

Danışıqlar zamanı GUÖAM çərçivəsində əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi məsələləri də müzakirə edildi. Tərəflər müntəzəm məsləhətləşmələr keçirmək, qarşılıqlı fəaliyyət mexanizmlərini təkmilləşdirmək və möhkəmləndirmək niyyətində idilər.

Avrasiya nəqliyyat dəhlizinin tam miqyaslı fəaliyyəti. Böyük İpək yolunun bərpası, TRASEKA və İNOGEYT proqramlarının həyata keçirilməsinin tezləşdirilməsi üçün birgə əməli tədbirlərin həyata keçirilməsinin müstəsna əhəmiyyəti var idi.

Azərbaycan və Gürcüstan rəhbərləri iki ölkə arasında dövlət sərhədinin delimitasiya və demarkasiyasının əhəmiyyətini, dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini vurğuladılar. İqtisadiyyatın bütün sahələrində qarşılıqlı faydalı əməkdaşlığın inkişafına kömək etmək, həmçinin bu əməkdaşlıq üçün əlverişli şəraitin təmin olunmasına dair tədbirlər həyata keçirmək əzmi təsdiq edildi.

Gürcüstanda yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan gürcülərin hüquqlarına riayət olunması və mənafelərinin qorunması məsələləri böyük əhəmiyyət kəsb edirdi. Ona görə də dövlət başçıları onlara qayğı göstərilməsini dövlət siyasətinin mühüm sahəsi hesab edirdilər. Danışıqların gedişində Eduard Şevardnadze hakimiyyətə gələnə qədər Gürcüstandan 800 azərbaycanlı ailəsinin öz doğma tarixi ərzilərindən köçürüldüyünü təəssüf hissi ilə qeyd etdi. Yalnız onun yenidən hakimiyyətə gəlişindən sonra ayrı-seçkilik dayandırılmışdı. Heydər Əliyev isə Azərbaycanda yaşayan gürcülərin mədəni inkişafı üçün yaradılmış əlverişli şəraitdən söhbət açdı. Eduard Şevardnadze "səmimi dostluq, mehriban qon

şuluq və strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan - Gürcüstan münasibətlərinin geniş imkanları və perspektivləri” olduğunu qeyd etdi'^'^.

Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilən geniş tərkibdə danışıqlarda iki ölkə arasında münasibətlərin bütün tərəfləri müzakirə edildi və əməkdaşlığı dərinləşdirmək iradəsi ifadə olundu’’’^.

Danışıqlar başa çatdıqdan sonra sənədlərin imzalanma mərasimi oldu. İki dövlət rəhbərinin birgə bəyanatı qəbul edildi . İmzalanma mərasimində sonra çıxış edən Heydər Əliyev və Eduard Şevardnadze keçirilən danışıqları yüksək qiymətləndirdilər.

Heydər Əliyev martın 22-də Gürcüstan ictimaiyyətinin nümayəndələri ilə görüşdü. O, Azərbaycan və gürcü xalqları arasında dostluğun yaranmasına və möhkəmləndirilməsinə sanballı töhfə verdiyini, müstəqillik illərindəki dövlət arasında münasibətlərin strateji tərəfdaşlıq münasibətlərinə çevrilməsi üçün çox işlər gördüyünü nəzərə alaraq Eduard Şevard- nadzeni Azərbaycan Respublikasının ali mükafatı olan “İstiqlal” ordeni ilə təltif etdi. Bu təltif aprelin 8-də Gürcüstanda keçiriləcək prezident seçkiləri ərəfəsində xüsusi məna daşıyırdı. Azərbaycan rəhbəri Gürcüstanda etdiyi bütün çıxışlarında Eduard Şevardnadzenin yenidən prezident seçilməsinə açıq-aşkar dəstək verdi.

Səfər çərçivəsində Heydər Əliyev Gürcüstan parlamentində oldu. Parlamentdə etdiyi çıxışında iki ölkə arasında parlamentlərarası əməkdaşlığın vacibliyini vurğuladı.

Böyük əhəmiyyət daşıyan bu səfər ikitərəfli münasibətlərin inkişafı baxımından faydalı oldu. Səfər və nəticələri əməkdaşlığı daha da möhkəmləndirirdi.

**Əliyev H.Ə. Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə təkbətək görüşdəki söhbətdən. 22 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 19-20.**

**Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin təkbətək görüşü başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyəti arasında Azərbaycan - Gürcüstan danışıqlarında çıxış. 22 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 21-26.**

**Azərbaycan - Gürcüstan sənədlərinin imzalanması mərasimindən sonra birgə bəyanat və mətbuat konfransı. 22 mart 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 27-38; Azərbaycan Respublikası Prezidentinin və Gürcüstan Prezidentinin birgə bəyanatı. 22 mart 2000-ci il. - Müqavilələr toplusu. 1 cild, s. 195-198.**

2001-ci il avqustun 15-də Gürcüstanın xarici işlər naziri İrakli Menaqaraşvilinin”"* Azərbaycana gəlişində başlıca məqsəd Eduard Şevardnadzenin qarşıdakı səfəri ilə bağlı məsələləri müzakirə etmək idi. Gürcüstan nazirini qəbul edən Heydər Əliyev iki ölkə arasında münasibətlərin inkişaf perspektivlərinin böyük olduğunu vurğuladı'^'®.

Eduard Şevardnadzenin səfərinə hazırlıq aparıldığı bir zamanda dünyanı sarsıdan bir hadisə baş verdi. 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilən dəhşətli terror aktı Azərbaycan - Gürcüstan münasibətlərinə də təsir göstərdi. Həmin hadisədən az sonra, sentyabrın 29-da Eduard Şe- vardnadze Azərbaycana rəsmi səfər etdi'^^°. Danışıqlarda dövlət başçıları ABŞ-da törədilən terror aktlarını pislədilər, TRASEKA proqramının həyata keçirilməsinin. Böyük İpək yolunun bərpasının, habelə Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasının, bununla bağlı Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin və Bakı - Tbilisi - Ərzurum qaz boru kəmərinin reallaş- dırılmasmm xüsusi əhəmiyyəti olduğunu bildirdilər. Cənubi Qafqazda münaqişələrin dinc vasitələrlə aradan qaldırılması və regionda təhlükəsizliyin təmin olunmasına dair fikir mübadiləsi apardılar'^^'.

Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə keçirilən geniş tərkibdə danışıqlarda tərəflər qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq problemləri müzakirə etdilər’^"^. İki ölkə arasında münasibətlərin möhkəm təməlləri var idi. Dövlət başçıları terrorizm əleyhinə səylərin birləşdirilməsində fəal iştirak etməyə hazır olduqlarını bildirdilər, ABŞ-da törədilən terror aktını pislədilər. Sərhədlərin dəyişdirilməsinin yolverilməz olduğunu, münaqişələrin BMT və ATƏT çərçivəsində həllinin zəruriliyini, Avropa - Asiya nəqliyyat dəhlizinin tammiqyash fəaliyyət göstərməsinin müstəsna əhəmiyyət daşıdığını qeyd etdilər. Azərbay-

**İrakli Menaqaraşvili (1951) - Gürcüstanın xarici işlər naziri (1995-2003).**

**Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstanın xarici işlər nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s.803- 805.**

**Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001.1 hissə, s. 894-895.**

**Azərbaycan Prezidenti Heydər Əliyev ilə Gürcüstan Prezidenti Eduard Şevardnadzenin təkbətək görüşü. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 895-896.**

**Azərbaycan - Gürcüstan danışıqları. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 896-902.**

can ilə Gürcüstan arasında sərhədlərin delimitasiyası və demarkasiyası mühüm əhəmiyyət daşıyırdı. Ona görə də dövlət başçıları müfaviq dövlət komissiyalarının işinin davam etdirilməsini zəruri saydılar. Danışıqlar zamanı Azərbaycanda yaşayan gürcülərin və Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti müzakirə edildi. Dövlət rəhbərləri onların hüquq və azadlıqlarının qorunmasını və qayğı göstərilməsini dövlət siyasətinin mühüm sahəsi kimi qiymətləndirdilər'^^^. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi. Bu baxımdan neft və qaz boru kəmərlərinin tikintisi xüsusi əhəmiyyət daşıyırdı.

Danışıqlar başa çatdıqdan sonra iki ölkə arasında sənədlərin imzalanması mərasimi oldu. Cənubi Qafqaz boru kəməri sistemi vasitəsi ilə təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və onların hüdudlarından kənarda tranziti, nəqli və satışı haqqında saziş bağlandı. Dövlət başçıları birgə bəyanat imzaladılar'^^".

Gürcüstan dövlət rəhbərinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. Danışıqlar qarşılıqlı anlaşma ruhunda keçmişdi. İmzalanan sənədlər Azərbaycan və Gürcüstanın Qərb ölkələri ilə inteqrasiyasına kömək edirdi. Həyata keçirilən proqramlar ölkələr üçün iqtisadi və sosial baxımdan əhəmiyyət daşıyır və problemlərinin həllinə yönəlmişdi, müstəqilliyin möhkəmləndirilməsi baxımından faydalı idi.

Səfərdən sonra iki ölkə arasında digər sahələrdə də əməkdaşlıq genişləndi. Belə ki, 2002-ci il martın 26-da Gürcüstan Sərhəd Mühafizəsi Departamentinin sədri Valeri Çxeidzenin Azərbaycana səfəri zamanı üç sənəd imzalandı'^'^^. Həmin sənədlər sərhədyanı rayonlarda yaşayan əhalinin gediş-gəlişini asanlaşdırmaq məqsədi güdürdü. Aprelin 11-də isə Gürcüstanın müdafiə naziri David Tevzadzenin'^^® Bakıya səfərində regional təhlükəsizlik və sabitlik yaradılması üçün hər iki tərəfin imkanları, Azərbaycan və Gürcüstan ərazilərindən keçəcək boru kəmərlərinin təhlükə-

**Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin və Gürcüstan Prezidenti Eduard Şevardnadzeninin birgə bəyanatı. 29 sentyabr 2001-ci il. - Müqavilələr toplusu. I cild, s. 222-225.**

**Azərbaycan Respublikası ilə Gürcüstan arasında birgə bəyanat. 29 sentyabr 2001-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 311-313.**

**Azərbaycan və Gürcüstanın sərhəd xidmətlərinin rəhbərləri üç protokol imzalamışlar. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002.1 hissə, s. 131.**

**David Tevzadze (1949) — general-leytenant. Gürcüstanın müdafiə naziri (1998-2004).**

sizliyi məsələləri müzakirə edildi. Boru kəmərlərinin mühafizəsi müdafiə nazirliklərinə həvalə edilmişdi. Bu isə hərbi əməkdaşlığın inkişafı üçün lazım olan əsaslardan biri idi. Belə əməkdaşlığa hava məkanına nəzarət, kadr hazırlığı sahəsində toplanmış təcrübə mübadiləsi də daxil idi. Danışıqlar zamanı gürcüstanlı zabitlərin təhsil almaları üçün Azərbaycana göndərilməsi məsələləri də müzakirə edildi.

David Texvadze Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi'^^'. Görüşdə hərbi sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyi vurğulandı.

Artıq qeyd edildiyi kimi, iki ölkə arasında münasibətlərdə regional təhlükəsizlik məsələləri mühüm yer tuturdu. 2002-ci il aprelin 29-30-da Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin Trabzonda keçirilən zirvə görüşündə iki əsas məqsəd var idi: əməkdaşlığı artırma və təhlükəsizliyi gücləndirmə'®^*. Zirvə görüşünün nəticəsində aprelin 30-da Türkiyə, Azərbaycan və Gürcüstan arasında terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotik qaçaqmalçılığına qarşı mübarizə, neft və qaz boru kəmərlərinin keçiriləcəyi yerlərdə təhlükəsizliyin təmin edilməsinə dair imzalanan müqavilənin məqsədi Qafqazda sülh və təhlükəsizliyin saxlanılması idi'®^®. Dövlət başçıları zirvə görüşünün nəticələri haqqında birgə bəyanat qəbul etdilər.

Müzakirələrin və imzalanan sənədin böyük əhəmiyyət var idi. Bununla Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri terrorizmə, mütəşəkkil cinayətkarlığa və qaçaqmalçılığa qarşı mübarizə məsələlərində birgə əməkdaşlığın əsasını qoydular. Eyni zamanda Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəməri barədə tam bir qərarlıq nümayiş etdirdilər'®*®.

Həmin görüşdən bir müddət sonra, 2002-ci il dekabrın 16-da Azərbaycan və Gürcüstan müdafiə nazirlikləri arasında hərbi sahədə əmək-

**Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstanın müdafiə nazirini qəbul etmişdir. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. 1 hissə, s. 158-159.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə onüçüncü işgüzar səfəri. 29 aprel 2002-ci il. - Heydər Əliyev və Şərq. 6 clddə. Türkiyə. III kitab, s.604-616.**

**Trabzonda tarihi güvenlik anlaşması. - "Hürriyet" gazetesi, İstanbul, 2002, 1 Mayıs.**

**Sami Kohen. Kafkas ekseni. - "Milliyef' gazetesi, İstanbul, 2002, 1 Mayıs.**

daşlıq haqqında 12 maddədən ibarət saziş imzalandı'^^'. Tərəflər hərbi quruculuq, hərbi-iqtisadi, hərbi-elmi, hərbi-hüquqi fəaliyyətlər; hərbi təhsil və kadrların yenidən hazırlanması, hava hücumundan müdafiə, silahlar və hərbi texnikanın işlənib hazırlanması, istehsalı, təchizatı, istismarı, modernləşdirilməsi və təmiri üzrə müəssisələrin inkişafına hərbi- texniki yardım, NATO-nun Sülh naminə tərəfdaşlıq proqramı, GUÖAM çərçivəsində, beynəlxalq terrorizmə qarşı mübarizə, neft və qaz boru kəmərlərinin qorunması üzrə ikitərəfli və çoxtərəfli təlimlərin keçirilməsi və b. sahələrdə əməkdaşlıq etmək barədə razılaşdılar.

Qeyd edildiyi kimi, Azərbaycan Respublikası ilə Gürcüstan arasında münasibətlərdə sərhəd məsələləri də mühüm yer tuturdu. İki ölkə arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının işi nəticəsində dövlət sərhədinin 300 kilometri (bu, Azərbaycan - Gürcüstan sərhədinin təqribən 65 faizini təşkil edirdi) dövlət komissiyaları səviyyəsində beynəlxalq standartlara uyğun olaraq razılaşdırıldı.

Ümumiyyətlə, 1991-2003-cü illərdə iki ölkə arasında münasibətlərdə müzakirə edilən başlıca məsələlər Azərbaycan neft və qazının Gürcüstan ərazisindən keçərək dünya bazarlarına çıxarılması, sərhəd, təhlükəsizlik, Gürcüstanda yaşayan azərbaycanlıların, Azərbaycanda yaşayan gürcülərin hüquqlarının qorunması, iqtisadi, elmi-texniki, mədəni və humanitar əməkdaşlıq olmuşdur. Bu illərdə qarşılıqlı münasibətlər mürəkkəb və ziddiyyətli inkişaf yolunu keçərək strateji müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Gürcüstan Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş. 16 dekabr 2002-ci il. - Azərbaycanın xarici siyasəti; sənədlər məcmuəsi. 2003. II hissə, s. 156-159.**

# QAZAXISTAN RESPUBLİKASI İLƏ MÜNASİBƏTLƏR

## İlk addımlar

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində dənizaşırı qonşusu Qazaxıstan Respublikası, özünəməxsus yer tutmuşdur. Azərbaycan - Qazaxıstan münasibətlərini bir sıra amillər şərtləndirirdi. Hər şeydən əwəl, qazax və Azərbaycan xalqlarını soykök, dil, din, mədəni, tarixi, coğrafi-siyasi yaxınlıq birləşdirirdi. İki respublika uzun illər boyu SSRİ tərkibində vahid iqtisadi, mədəni və siyasi sistemdə birlikdə olmuşdular. Azərbaycan Qazaxıstan üçün Türkiyəyə və Avropaya çıxmaqda etibarlı körpü rolunu oynayırdı. Eyni zamanda Qazaxıstan Azərbaycan üçün Çinə və Hindistana çıxmaqda əlverişli bir məkan idi. Zəngin təbii sərvətlərinin mövcudluğu və dünyanın aparıcı neft şirkətlərinin Qazaxıstana maraq göstərməsi bu ölkəni ABŞ, Rusiya, Çin və Avropa ölkələri üçün geosiyasi mərkəzlərdən birinə çevirmişdi

Qeyd etmək lazımdır ki, hələ dövlət müstəqilliyi bərpa edilməmişdən əvvəl, 1991-ci il sentyabrın 30-dan oktyabrın 2-dək Azərbaycan nümayəndə heyəti Qazaxıstana səfər etmişdi. Səfər iki respublika arasında əməkdaşlığın və mehriban qonşuluğun inkişaf etdirilməsi məqsədi daşıyırdı. Danışıqların yekununda, oktyabrın 1-də Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında 10 il müddətini nəzərdə tutan müqavilə imzalanmış- dı’^^^. Müqavilədə iki ölkənin mövcud sərhədlər daxilində bir-birilərinin suverenliyini, ərazi bütövlüyünü qəbul etdiyi, qarşılıqlı münasibətlərdə daxili işlərinə qarışmama prinsipini rəhbər tutduqları bildirilirdi. Tərəflər kollektiv təhlükəsizlik sisteminin tələblərini, o cümlədən özlərinin sülhü daha da möhkəmləndirmək səylərini nəzərə almaqla müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın zəruriliyini etiraf edirdilər. Onlar bir-birinə səlahiyyətli nümayəndəliklər göndərəcəklərinə dair razılığa gəlir, fikir ayrılıqlarını və mübahisəli məsələləri yalnız siyasi məsləhətləşmələr və birbaşa danışıqlar yolu ilə həll etmək haqqında öhdəlik götürürdülər.

---

**Haaapöaee H.A. KpHTHHecKoe flecaxHJieTHe. AjiMaxbi, 2003, c.215-216.**

**Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında dostluq, əmək-daşlıq və mehriban qonşuluq haqqında müqavilə. “Xalq qəzeti”, Bakı, 1991, 8 oktyabr.**

Həmin tarixdə eyni zamanda Qazaxıstan SSR və Azərbaycan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlığın prinsipləri haqqında saziş imzalandı. Azərbaycan parlamenti 1991-ci il dekabrın 16-da Azərbaycan Respublikası ilə Qazaxıstan Sovet Sosialist Respublikası arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqaviləni təsdiq etdi''^ . Bundan bir neçə gün sonra SSRİ dağıldı. Regionda və dünyada tamamilə yeni bir şərait yarandı. Artıq Azərbaycan və Qazaxıstanın da daxil olduğu Sovet İttifaqı mövcud deyildi. Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr SSRİ dağıldıqdan bir müddət sonra, 1992-ci il avqustun 30-da quruldu''^^. Bu, qarşılıqlı münasibətlərdə ilk müstəqil addım idi. 1993-cü il yanvarın 9-da isə Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətə başladı. İbrahim Amanqaliyev Qazaxıstan Respublikasının Azərbaycanda ilk səfiri oldu.

Tərəflər qarşılıqlı münasibətlərinin ilk mərhələsində əsasən maliyyə və iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verirdilər. Belə ki, 1993-cü il fevralın 24-də Almatıda Azərbaycan Respublikası hökuməti və Milli Bankı ilə Qazaxıstan Respublikası hökuməti və Milli Bankı 1993-cü il üçün texniki kredit haqqında razılaşmanın həyata keçirilməsinə dair protokol, Azərbaycan Respublikasının Milli Bankı ilə Qazaxıstan Respublikasının Milli Bankı arasında hesablaşmaların təşkili, Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında 1992-ci il üçün borc öhdəliklərinin və tələblərinin nizamlanmasının qaydası və vaxtı, poçt rabitəsi, nəqliyyat sahəsində əməkdaşlığın əsas şərtləri, 1993-cü il üçün ticarət-iqtisadi əməkdaşlığın əsas şərtləri, 1994-cü il üçün ticarət-iqtisadi əməkdaşlıq haqqında sazişlər imzalandı.

Azərbaycan - Qazaxıstan münasibətlərinin qurulub-inkişaf etdirilməsi baxımından əhəmiyyətli olan bu sənədlər əməkdaşlığın maddi təməllərinin formalaşdırılmasmda ilk addımlar kimi mühüm rol oynayırdı. Lakin münasibətlərin səviyyəsi tərəflərin imkanlarından xeyli aşağı idi.

**'ARXINA. 1991. '**
**ARXİNA. 2008.**

## Qarşılıqlı münasibətlərdə dönüş mərhələsi. Strateji tərəfdaşlığa doğru

1993-cü ilin yayında Azərbaycan Respublikasında Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra qarşılıqlı münasibətlərdə dönüş mərhələsi başladı. Bununla bağlı olaraq beynəxalq məsələlər üzrə mütəxəssis Novruz Məmmədov'^ ^ yazır ki, Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Orta Asiya respublikaları ilə münasibətlər tamamilə yenidən qurdu’’^’. Azərbaycan Respublikası Qazaxıstanla münasibətlərə xüsusi diqqət yetirməyə başladı. İki ölkə arasında münasibətlərdə dinamizm artdı. 1995- ci il avqustun əvvələrində Heydər Əliyev qazax mütəfəkkiri və filosofu, maarifçisi, yeni qazax ədəbiyyatının banisi Abay Kunanbayevin anadan olmasının 150 illiyi münasibətilə təşkil edilmiş toplantıda iştirak edərkən Nursultan Nazarbayev ilə keçirdiyi görüşdə ikitərəfli münasıbətlərin mövcud vəziyyəti və perspektivlərini. Xəzər dənizinin hüquqi statusu məsələsini müzakirə etdi. Dövlət başçıları münasibətlərin inkişafına yeni keyfiyyət halı vermək barədə razılaşdılar. Bu zaman Azərbaycan tərəfi Qazaxıstanın enerji daşıyıcılarının ölkə ərazisindən keçirilməsi istiqamətində əməkdaşlığın qurulmasına xüsusi diqqət verirdi. Digər məsələlərin də müzakirəsi və həlli vacib idi. Bu baxımdan 1996-cı il sentyabrın 16-17-də Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycana ilk rəsmi səfəri mühüm rol oynadı’’^*. Səfər zamanı ikitərəfli münasibətlərin inkişafı, iqtisadi əlaqələrin genişləndirilməsi, Ermənistanın təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli yolları. Xəzər dənizinin hüquqi statusu. Transxəzər magistralı, MDB-də fəaliyyət haqqında və s. məsələlər müzakirə edildi. Xəzər dənizinin sərvətlərindən

**° Novmz Məmmədov (1947) - diplomat, alim. 1967-1968-ci illərdə Əlcəzairdə, 1971-1973-cü illərdə Qvineyada, 1978-1981-ci illərdə Əlcəzairdə tərcüməçi, baş tərcüməçi işləmişdir. Təhsil sistemində müxtəlif vəzifələr tutmuşdur. 1995-1997-ci illərdə Azərbaycan Respublikası Prezidentinin fransız dili tərcüməçisi olmuşdur. 1997-ci ilin aprelindən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici əlaqələr şöbəsinin müdiri.**

**Mammadov N. Azerbaijan’s relations with the Islamic world and the countries of Asia. - Azerbaijan in Global Politics: Crafting Foreign Policy, p. 150.**

**Azərbaycan - Qazaxıstan münasibətləri. - Heydər Əliyev və Şərq. 6 clddə. Türk dünyası. VI kitab, s. 71.**

səmərəli istifadə edilməsi məsələsində Azərbaycan və Qazaxıstanın mövqeləri bir-birinə uyğun gəlirdi"".

Heydər Əliyev Nursultan Nazarbayevə Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstanın imzaladıqları dördtərəfli sazişə - Transqafqaz dəhlizinə qoşulmağı təklif etdi. Artıq qeyd edildiyi kimi, əsası Sərəxsdə dörtərəfli sazişin imzalanması ilə qoyulmuş Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Transqafqaz dəhlizi iqtisadi baxımdan səmərəli, siyasi baxımdan təhlükəsiz və etibarlı idi. Qazaxıstan Prezidenti ölkəsinin həmin dəhlizə qoşulmasına razılıq verdi. Bu, regionda geosiyasi şəraitə ciddi təsir edən bir amil oldu. Nursultan Nazarbayev də öz növbəsində Azərbaycana Mərkəzi Asiya İqtisadi İttifaqı çərçivəsində əməkdaşlıq qurmağı təklif etdi. Bu təklif Azərbaycan üçün maraq doğururdu.

Danışıqlarda Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli barədə fikir mübadiləsi aparıldı. Münaqişənin həllinə münasibətdə Qazaxıstanın mövqeyi qəti idi. Nursultan Nazarbayevin birmənalı olaraq deyirdi: "...Qazaxıstan da, Ermənistan da, Azərbaycan da, Gürcüstan da dövlətlərin mövcud sərhədlərinin, ərazi bütövlüyünün pozulmaması prinsipini əsas götürən ATƏT-in üzvləridir. Mən davakar separatçılığın əleyhinəyəm. Əgər yer üzündə yaşayan bütün xalqlar və millətlər öz dövlətini yaratmaq üçün müharibə etməyə başlasaydılar, təsəvvür edin, onda nələr baş verərdi""".

Qazaxıstanın mövqeyi həm ikitərəfli münasibətlərin inkişafı, həm də regionda münaqişələrə baxış nöqteyi-nəzərindən əhəmiyyətli, obyektiv və ədalətli idi.

Danışıqların yekununda, sentyabrın 16-da 13 sənəd - Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında müqavilə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş və s. imzalandı.

**Əliyev H.Ə.Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin görüşündə çıxış. 16 sentyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.310.**

**Azərbaycan və Qazaxıstan prezidentlərinin birgə mətbuat konfransında bəyanat. 16 sentyabr 1996-cı il. - Müstəqilliyimiz əbədidir. VII kitab, s.320-321.**

İki ölkə arasında münasibətlərin əsasları haaqında 24 maddədən ibarət olan müqavilə xüsusi əhəmiyyət kəsb edirdi'^'". Sənəddə münasibətlərin təməlləri müəyyənləşdirilir, əməkdaşlığın yolları və formaları göstərilirdi.

Dövlət başçıları Xəzər dənizi məsələləri üzrə 6 maddədən ibarət birgə bəyanat imzaladılar'^"*^. Bu bəyanat digər Xəzəryanı ölkələrə qarşı çevrilməmişdi. Əksinə, Xəzər dənizinə dair məsələlərin düzgün, qarşılıqlı surətdə məqbul həllini tapmaq üçün əsas yaradırdı. Azərbaycan tərəfi hüquqi status məsələsi müəyyənləşdirilərkən problemin münaqişəyə çevrilməsinə yol verməməyə tərəfdar idi.

Qazaxıstan Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti var idi. İmzalanan sənədlər iki müstəqil dövlət arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün müqavilə-hüquqi baza yaradırdı.

Artıq qeyd edildiyi kimi, iki ölkə arasında münasibətləri dərinləşdirmək, Qazaxıstan neftinin Xəzər dənizindən keçərək Azərbaycan marşrutu ilə beynəlxalq bazarlara nəqli zamanı neft və qaz sənayesi sahəsində əməkdaşlıq məsələləri müzakirə və qərarlar qəbul etmək Azərbaycan - Qazaxıstan münasibətlərində prioritet idi. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci il iyunun 10-da Qazaxıstana ilk rəsmi səfər etdi'^"*^.

Danışıqlar zamanı hər şeydən əvvəl, iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi. Xəzər dənizi vasitəsi ilə ümumi sərhədin olması və keçmiş əlaqələrin mövcudluğu əməkdaşlıq üçün geniş imkanlar açırdı. Artıq uzun illər idi ki, Azərbaycan ənənəvi olaraq neft hasilatı, neft məhsullarının emalı, neft avadanlığı və texnologiyasının istehsalı, xüsusən dənizdə neft çıxarılması sahəsində böyük təcrübə toplamışdı. Bu sahədə əməkdaşlığın və təcrübənin öyrənilməsi vacib idi. Neft maşınqayırması sahəsində əməkdaşlığın qurulması məsələləri müzakirə edilərək razılaşdırıldı. Nur- sultan Nazrabayevin fikrincə, Qazaxıstanın neftinin dünya bazarına çıxarılması üçün Şimali Qafqaz neft boru kəmərindən başqa iki-üç boru kəmərinə ehtiyac var idi. Qeyd etmək lazımdır ki, əvvəlki illərdə Nursultan Na-

**Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında müqavilə. 16 sentyabr 1996-cı il. - Müqavilələr toplusu. I cild, s.105-112.**

**Xəzər dənizi məsələləri üzrə birgə bəyanat. 16 sentyabr 1996-cı il. - Müqavilələr toplusu. I cild, s.l 15.**

**Azərbaycan - Qazaxıstan münasibətləri. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s. 71.**

zarbayev Qazaxıstan neftinin dünya bazarlarına çıxarılmasının ən uyğun yolu kimi yalnız Novorossiysk limanını görürdü. Bunun da başlıca səbəbi digər bir layihənin olmaması idi'®''"*. Müzakirələrdən sonra Qazaxıstan tərəfi yüklərinin Qafqaz dəhlizi ilə daşınmasına tərəfdar çıxdı. Bu dəhliz ilə o vaxtadək təqribən 200 min ton Qazaxıstan nefti nəql edilmişdi. Qazaxıstan Xəzər dənizi ilə 10 milyon ton neft göndərməyi nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, hələ sovet dövründə Qazaxıstan Xəzər dənizi vasitəsi ilə Bakıya 7 milyon ton neft göndərmişdi. Yeni şəraitdə Qazaxıstan Aktau dəniz limanını bərpa edərək bu işi davam etdirmək niyyətini həyata keçirmək üçün təməl yaratmışdı. Danışıqlar zamanı Xəzər dənizinin dibi ilə Bakıyadək, oradan da Aralıq dənizinə qədər neft boru kəmərinin tikintisi məsələləri müzakirə edildi və razılıq əldə olundu.

Daha sonra Xəzər dənizinin hüquqi statusu məsələsi müzakirə edildi. Bu məsələdə Azərbaycan və Qazaxıstanın mövqeləri oxşar idi. Hüquqi statusu müəyyənləşdirmək üçün məsləhətləşmələrin keçirilməsi vacib hesab edildi'^'*^.

Danışıqlarda MDB-də şərait və münaqişələrin həlli məsələləri müzakirə edildi. Bu məsələlərdə də mövqelər üst-üstə düşürdü. Tərəflərin fikrincə, MDB keçmiş amirlik qaydasına qayıdış olmamalı idi. MDB-də iştirak etməklə dövlətlər müstəqilliklərini və ikitərəfli münasibətlərini möhkəmləndirməli idilər. Dövlət başçıları bu qurumun daxilində bir dövlətin hegemonluğuna qarşı çıxdılar.

İki ölkə rəhbəri Ermənistanın Azərbaycana hərbi müdaxiləsi nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli barədə fikir mübadiləsi etdilər. Onların fikrincə, bütün münaqişələr ölkələrin ərazi bütövlüyü əsasında və dinc vasitələrlə həll edilməli idi. Nursultan Nazarbayev birmənalı olaraq deyirdi: "...mən separatçılığın hər hansı növlərinin qəti əleyhi- **nəyəm"'''*^.**

Səfərin başlıca yekunu dövlətlərarası və hökumətlərarası 17 sənədin imzalanması oldu. İyunun 10-da Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərin-

**Barçın Ymanc. Nazarbayev, umut vermədi. - 1994, 'Milliyet" gazetesi, İstanbul, 18 Ekim.**

**Əliyev H.Ə. Azərbaycan - Qazaxıstan dövlətlərarası və hökumətlərarası sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransında bəyanat. 10 iyun 1997-ci il. — Müstəqilliyimiz əbədidir. X kitab, s.63-72.**

**1946 Yenə orada, s.66.**

ləşdirilməsi haqqında 15 maddədən ibarət bəyannamə'®"^, neftin beynəlxalq bazarlara nəql olunması üzrə əməkdaşlıq haqqında memorandum, dəniz və ticarət gəmiçiliyi, gömrük işlərində əməkdaşlıq, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri və s. sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalandı.

Həmin sənədlərin içərisində neftin nəqli sahəsində əməkdaşlıq haqqında memorandum xüsusi əhəmiyyət daşıyırdı. Memorandumda nefti beynəlxalq bazarlara çıxarmaq üçün Qazaxıstandan Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisinə, sonra isə Gürcüstan və Türkiyə ərazisi ilə Aralıq dənizi sahilinə neft boru kəmərinin tikintisi nəzərdə tutulmuşdu.

İmzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Onlar iki ölkə arasında münasibətlərin normativ-hüquqi bazasını möhkəmləndirir, daha da inkişaf etdirilməsinə, dərinləşdirilməsinə və genişləndirilməsinə təkan verir, iqtisadiyyat sahəsində əməkdaşlığı uzun müddətə şərtləndirirdi. Səfərin yekunları Azərbaycan - Qazaxıstan münasibətlərini yeni səviyyəyə qaldırırdı.

Səfərdən sonra Azərbaycan və Qazaxıstan enerji sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün bir sıra konkret addımlar atdılar. 1998-ci il oktyabrın 23-24-də Qazaxıstan Respublikasının Baş Naziri N.U.Balqımbayev'^'** Bakıya rəsmi səfər etdi. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. Baş Nazir Artur Rasizadə və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti ilə görüşdü, Dübəndi və Sangəçal neft terminallarında oldu. Danışıqlar zamanı TRASEKA layihəsi çərçivəsində 1999-2000-ci illərdə Azərbaycan - Qazaxıstan ticarət-iqtisadi əməkdaşlığının inkişafı, Bakı-Aktau bərə xəttinin açılması və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi.

Səfərin yekununda, oktyabrın 23-də Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsi haqqında saziş, Qazaxıstan Respublikasının Baş Na-

**Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında bəyannamə. 11 iyun 1997-ci il. - Müqavilələr toplusu. I cild, s.136-138.**

**Nurlan Balqımbayev (1947) - Qazaxıstanın neft və qaz sənayesi naziri (1994-1997). Qazaxoyl neft və qaz kompaniyasının prezidenti (1997). Qazaxıstanın Baş Naziri (1997-1999). Qazaxoyl neft və qaz kompaniyasının prezidenti (1999-2002). Qazaxıstan neft investisiya kompaniyasının prezidenti (2002-2007). Qazaxıstan Prezidentinin müşaviri (2007-2008).**

ziri N.U.Balqımbayevin səfərinin nəticələrinə dair birgə bəyannamə, Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında rabitə sahəsində əməkdaşlıq haqqında saziş, sənaye mülkiyyətinin mühafizəsi haqqında saziş, Qazaxıstan Respublikasının hökumət nümayəndə heyəti və Azərbaycan Respublikasının hökumət nümayəndə heyəti arasında aparılan danışıqların nəticələri haqqında protokol, Azərbaycan Respublikası Milli Bankı və Qazaxıstan Respublikası Milli Bankı arasında informasiya mübadiləsi və maliyyə bank sistemində tədqiqatlar sahəsində saziş imzalandı.

Bu sənədlər əhəmiyyətli olub, əməkdaşlığın təməllərini, xüsusən enerji sahəsində möhkəmləndirirdi. Sənədlərin imzalanması ATƏT-in İstanbul zirvə görüşü ərəfəsində ciddi bir addım idi. Nəhayət, Azərbaycan - Qazaxıstan münasibətlərində mühüm bir hadisə baş verdi. 1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in zirvə görüşü zamanı Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistanın dövlət başçıları Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin dəstəklənməsi haqqında İstanbul bəyannaməsini imzaladılar. Bu, tarixi bir an idi.

İstanbul bəyannaməsinin qəbulundan az sonra, 1999-cu ilin oktyabr ayının axırlarında Qazaxıstanın Aktau limanından Bakıya bərə hərəkəti yenidən bərpa olundu. Azərbaycanda Qazaxıstanın “Ontustık” broker şirkəti, “Şıqıs”, “Oner-Azərbaycan”, “Tərəqqi” birgə müəssisələri və “Eyr Qazaxıstan” şirkətinin nümayəndəliyi fəaliyyətə başladılar. Azərbaycanın “İMAİR” səhmdar şirkəti Bakı - Almatı - Bakı marşrutu ilə təyyarələrin uçuşunu təşkil etdi.

Qarşılıqlı münasibətlərdə yeni bir səhifə Nursultan Nazarbayevin 2000-ci il aprelin 7-də Azərbaycana həm rəsmi səfəri, həm türk dövlətləri başçılarının görüşündə, həm də “Kitabi Dədə Qorqud” dastanının 1300 illiyinə həsr edilmiş toplantıda iştirakı oldu. Azərbaycan Prezidenti ilə keçirilən danışıqlarda Xəzər dənizinin enerji ehtiyatlarının birgə işlənilməsi, hasil edilən nefti dünya bazarına çıxaracaq boru kəmərlərinin inşası sahəsində mövcud vəziyyət, TRASEKA proqramının həyata keçirilməsi məsələləri müzakirə edildi. Bakı - Aktau bərə keçidinin işə salınması ticarət əlaqələrinin səviyyəsini artırmağa imkan verirdi. Qazaxıstan tərəfi Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Minsk qrupunun fəaliyyətini daim diqqətdə saxlayırdı. Danışıqlarda ikitərəfli əlaqələrin daha da dərinləşdirilməsi. Tarixi İpək yolunun, Avropa - Qafqaz - Asiya nəqliyyat dəhlizinin daha da səmərəli işləməsi

üçün əməkdaşlığın möhkəmləndirilməsi vacib sayıldı'^'*’. Təkbətək danışıqlar başa çatdıqdan sonra geniş tərkibdə keçirilmiş danışıqlar zamanı Azərbaycan ilə Qazaxıstan arasında siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsi, regional, beynəlxalq problemlərə aid məsələlər müzakirə edildi. Nursultan Nazarbayev iki ölkə arasında ticarət dövriyyəsinin üç dəfə artırılaraq 100 milyon dollara çatdırılmasını təklif etdi'®^°.

Səfərin yekununda ölkə rəhbərləri birgə bəyanat qəbul etdilər’’^'. Münasibətləri yeni keyfiyyət səviyyəsinə yüksəldən 8 sənəd imzalandı.

Qeyd etmək lazımdır ki, Qazaxıstan Ermənistanın Azərbaycana qarşı təcavüzünün əleyhinə idi. 2001-ci il noyabrın 11-də Qazaxıstan Respublikasının xarici işlər naziri Erlan İdrisov'^^^ Azərbaycanın xarici işlər naziri Vilayət Quliyevə məktub göndərərək ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin davam etməsindən narahatlıq keçirdiyini, daxili işlərə qarışmanın hər hansı təzahürünü pislədiyini, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyini, münaqişənin sülh, kompromis yolu ilə həllinə tərəfdar olduğunu vurğu 1 adı

İki ölkə Xəzər dənizi məsələsində də razılığa gəldilər. 2001-ci il noyabrın 29-da Moskvada Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev Xəzər dənizinin dibinin bölünməsi haqqında iki ölkə arasında saziş

**Əliyev H.Ə. Azərbaycan Prezidentinin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə təkbətək görüşündəki söhbətdən. 7 aprel 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 117-119.**

**Əliyev H.Ə. Azərbaycan Respublikası Prezidentinin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü başa çatdıqdan sonra hər iki ölkənin nümayəndə heyəti arasında Azərbaycan - Qazaxıstan danışıqlarında çıxış. 7 aprel 2000-ci il. - Müstəqilliyimiz əbədidir. XXVI kitab, s. 120-131.**

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin birgə bəyanatı. 7 aprel 2000- ci il. - Müqavilələr toplusu. I cild, s. 199-201; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin birgə bəyanatı. 7 aprel 2000-ci il. - Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 125-127.**

**Erlan İdrisov (1959) - Qazaxıstanın xarici işlər naziri (1999-2002). Böyük Britaniya, İsveç, Norveç, ABŞ, Braziliyada və b. ölkələrdə səfir.**

**ARXİNA. 2001. Qovluq Xo 6, v.l4.**

imzaladılar’^^'*. Bu, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində tərəflərin mövqelərinin eyniliyini göstərməklə yanaşı əməkdaşlıq üçün əlavə imkanlar açırdı,

2003-cü mayın 12-14-də Almatı şəhərində keçirilən Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupun doqquzuncu iclasmdakı geniş müzakirələrdən sonra mayın 14-də Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında saziş imzalandı’^^^

Qeyd etmək lazımıdr ki, Azərbaycan və Qazaxıstan arasında siyasi münasibətlərin inkişaf dinamikası ticarət-iqtisadi əlaqələrinin həcminin artmasına da təsir edirdi. Belə ki, 2001-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 106,1 mln. dollar idisə, 2002-ci ildə artaraq 161,2 mln. dollara çatdı. Ancaq 2003-cü ildə ticarət dövriyyəsi azalaraq 148, 5 mln. dollar oldu.

İki ölkə arasında münasibətlərin inkişafında azərbaycanlı diasporası mühüm rol oynayırdı. 1999-cu ilin fevralında keçirilən əhalinin siyahıyaalınmasına görə, Qazaxıstanda 78,3 min azərbaycanlı yaşayırdı. Qazaxıstanda yaşayan azərbaycanlıların bir sıra təşkilatları fəaliyyət göstərirdi.

Ümumiyyətlə, 1991-2003-cü illərdə Azərbaycan - Qazaxıstan münasibətləri möhkəm zəmin əsasında qurularaq zəngin inkişaf yolu keçmiş, hər iki ölkənin və xalqın köklü maraqlarına xidmət etmişdir. Qarşılıqlı münasibətlərdə müzakirə edilən əsas məsələlər Qazaxıstanın Transqafqaz dəhlizinə qoşulması. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla həlli, ikitərəfli ticarət-iqtisadi əlaqərin inkişaf etdirilməsi, təhlükəsizlik və s. olmuşdur. Qazaxıstan davakar separatizmin əleyhinə çıxmışdır. Azərbaycan - Qazaxıstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Hər iki ölkə region siyasətində mühüm aktora çevrilmişlər.

**Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında saziş. 29 noyabr 2001-ci il. - Müqavilələr toplusu. I cild, s. 226- 228; Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. II hissə, s. 305-306.**

**Azərbaycan - Qazaxıstan münasibətləri. - Heydər Əliyev və Şərq. 6 cilddə. Türk dünyası. VI kitab, s.74.**

# TÜRKMƏNİSTAN İLƏ MÜNASİBƏTLƏRİN QURULMASI VƏ TƏZADLI İNKİŞAF YOLLARI

## İttifaq dövlətindən mehriban qonşuluğa doğru

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının yeni əsaslarla birbaşa münasibətlər qurduğu qonşu ölkələrdən biri Türkmənistan oldu. İki ölkə arasında diplomatik əlaqələr yalnız 1992-ci il iyunun 9-da quruldu’’^®. Qarşılıqlı münasibətləri bir sıra amillər şərtləndirirdi. Türkmənistan və Azərbaycan xalqlarını soykök, dil, din, mədəni, tarixi, coğrafi-siyasi yaxınlıq birləşdirir. Onlar uzun illər boyu SSRİ tərkibində vahid siyasi, təsərrüfat-iqtisadi və mədəni sistemdə birlikdə olmuşdular. Azərbaycan Türkmənistan üçün Türkiyə və Avropaya, Türkmənistan isə Azərbaycan üçün Orta Asiyaya çıxmaqda əlverişli məkandır.

Diplomatik-siyasi əlaqələrin qurulmasına baxmayaraq, qarşılıqlı münasibətlər inkişaf etməmişdi. Belə şərait tərəflərin maraqlarına uyğun deyildi. Ona görə də iki respublika arasında münasibətlərin müqavilə- hüquq bazasının qurulması üçün ilk addımlar atıldı. 1992-ci il oktyabrın 16-da Azərbaycan Respublikası hökuməti və Türkmənistan hökuməti arasında nəqliyyat sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş imzalandı*^^’.

Lakin 1991-1993-cü illərdə iki ölkə arasında münasibətlər Xəzər dənizinin hüquqi statusu, onun təbii ehtiyatlarından istifadə məsələlərinə baxışların fərqliliyi səbəbindən xeyli zəif idi və tərəflərin maraqlarına cavab vermirdi. Azərbaycanda hakimiyyət dəyişikliyindən sonra Türkmənistan ilə münasibətlərin yaxşılaşdırılması üçün müəyyən tədbirlər həyata keçirildi. 1993-cü il dekabrın 23-24-də Aşqabadda keçirilən MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistan Prezidenti Saparmurad Niyazov ilə görüşərək iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsinə, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair geniş fikir mübadiləsi etdi. Hər iki ölkə başçısı münasibətləri möhkəmləndirmək barədə razılığa gəldilər. Bu görüş az sonra öz bəhrəsini verdi. 1994-cü il fevralın 26-da iki ölkə arasında iqtisadi-ticarət sahəsində

[1956] **ARXINA. 2008.**
**Yenə orada.**

əməkdaşlıq haqqında saziş imzalandı. Bu saziş münasibətlərin maddi təməllərinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Azərbaycan və Türkmənistan prezidentləri növbəti dəfə 1994-cü il mayın 14-də İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Aşqabadda keçirilən zirvə toplantısı çərçivəsində görüşərək münasibətləri yaxşılaşdırmağın yolları barədə fikir mübadiləsi etdilər. Həmin il oktyabrın 26-27-də Türkmənistanın müstəqillik günü münasibəti ilə bu ölkəyə səfər edən Heydər Əliyev eyni zamanda Türkmənistan - İran - Türkiyə - Avropa qaz boru kəmərinin rəmzi açılış mərasimində iştirak etdi’^^*. Etdiyi çıxışında Azərbaycan Prezidenti Türkmənistanın müstəqilliyini böyük hadisə adlandırdı, iki xalq arasında köklərin eyniliyini, qonşuluğunu və qarşılıqlı münasibətlərin inkişafını vurğuladı.

1995-ci il mayın 7-də isə İkinci dünya müharibəsində qələbənin 50 illik yubileyinə həsr edilmiş tədbirlər çərçivəsində Londonda görüşən Heydər Əliyev və Saparmurad Niyazov qarşılıqlı münasibətlərin yaxşılaşdırılması, Xəzər dənizinin hüquqi statusu barədə fikir mübadiləsi etdilər. Onlar Xəzər dənizinin hüquqi statusu məsələlərini işləyib hazırlamaq üçün işçi qruplarının yaradılmasının və bu qrupların vaxtaşırı görüşlərinin keçirilməsini əhəmiyyətli hesab edirdilər.

Görüşdən sonra qarşılıqlı münasibətlərdə müəyyən irəliləyişlərə nail olundu. 1995-ci il iyunun 14-də Türkmənistana səfər edən Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov ölkə Prezidenti Saparmurad Niyazov, Baş Nazirin müavini, xarici işlər naziri Boris Şıx- muradov ilə görüşərək ikitərəfli münasibətlərin genişləndirilməsi, qarşılıqlı maraq doğuran regional və beynəlxalq problemləri. Xəzər dənizinin hüquqi statusu məsələsini müzakirə etdi. Tərəflər Xəzər dənizi məsələsində qarşılıqlı anlaşmaya nail olunmasının, məsləhətləşmələrin və müzakirələrin keçirilməsinin zəruriliyini vurğuladılar. Səfərin yekununda iki ölkənin xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalandı'®^^. İkitərəfli, regional və beynəlxalq məsələlərə dair siyasi məsləhətləşmələrin aparılmasını nəzərdə tutan həmin protokol ciddi əhəmiyyət daşıyırdı. Bu səfər iki ölkə arasında münasibətlərin yaxşılaşdırılmasının vacib olduğunu göstərdi.

**‘ Heydər Əliyev və Şərq. 6 clddə. Türkiyə. II kitab, s. 128 - 129.**

**Aşqabadda Türkmənistan Azərbaycan danışıqları. - “Azərbaycan” qəzeti. Bakı, 1995, 16 iyun.**

## Türkmənistan Prezidentinin Azərbaycana səfəri

1996-cı ildə Azərbaycan - Türkmənistan münasibətlərində dönüş baş verdi. Həmin il martın 18-19-da Türkmənistan Prezidenti Saparmurad Niyazov Azərbaycana rəsmi səfər etdi’^®°. İkitərəfli münasibətlərin və regional məsələlərin müzakirə edildiyi danışıqlarda iki ölkə arasında münasibətlərin yaxşılaşdırılmasının zəruriliyi vurğulandı.

Xəzər dənizində münasibətlərə dair məsələlər müzakirə edildi. Dövlət başçıları Xəzər dənizindən istifadəyə dair müzakirələrin davam etdirilməsi barədə razılığa gəldilər.

Azərbaycan və Türkmənistan Prezidentləri 1991-ci il “Belovejsk sazişi”ni ləğv etmək haqqında Rusiya Federasiyası Dövlət Dumasının 1996-cı il 15 mart tarixli qərarını nəzərdən keçirərək onun hüquqi əsası olmadığını, ölkələrinin müstəqil və suveren inkişaf yolu ilə irəliləmək qətiyyətini bildirdilər.

Martın 18-də Bakı bəyanatı imzalandı. Bəyanatda dövlət başçılarının ikitərəfli və çoxtərəfli dövlətlərarası və beynəlxalq münasibətlərə dair aktual məsələləri müzakirə edərək milli dövlətçiliyi möhkəmləndirmək siyasətini davam etdirmək, ölkələrinin siyasi və iqtisadi suverenliyini təmin etmək üçün lazımi şərait yaratmaq əzmində olduqları bildirilirdi’^^'.

Azərbaycan Respublikası və Türkmənistan arasında digər sənədlər - dostluq və əməkdaşlıq haqqında müqavilə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Türkmənistan Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında protokol, konsulluq konvensiyası, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Türkmənistan Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət və s. sahələrdə əməkdaşlığa dair sazişlər imzalandı.

İmzalanan sənədlərin böyük əhəmiyyəti var idi. Onlar iki ölkə arasında qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxarmaq məqsədi güdür, münasibətlərin hüquq-müqavilə bazasını möhkəmləndirirdi. Həmin sənədlərin içərisində dostluq və əməkdaşlıq haqqında 28 mad-

**ARXİNA. 1996.**

**Azərbaycan və Türkmənistan prezidentlərinin Binə hava limanında birgə imzaladıqları Bakı bəyanatı. — Müstəqilliyimiz əbədidir. V kitab, s. 481-482.**

dədən ibarət müqavilə xüsusi məna daşıyırdı”^^. Münasibətlərin inkişafının əsas istiqamət və formalarım müəyyənləşdirən bu müqavilə iki ölkə arasında əməkdaşlıqda yeni imkanlar açırdı. Sənədlərə qiymət verən Heydər Əliyev deyirdi: “Bunlar çox mühüm sənədlərdir və Türkmənistan ilə Azərbaycan arasında bütün sahələrdə dostluq, mehriban qonşuluq münasibətlərinin daha uğurlu inkişafını təmin edəcəkdir””^.

Türkmənistan tərəfi də imzalanan sənədləri yüksək qiymətləndirirdi. Xəzər dənizi məsələlərindən danışan Saparmurad Niyazov deyirdi: “Biz müxtəlif fikirlərdə (Xəzər problemlərində - M.Q.) idik. Lakin düşünürəm ümumi rəyə gələcəyik”'^

Türkmənistan Prezidentinin Azərbaycana səfərinin böyük əhəmiyyəti olub, iki ölkə arasında münasibətlərin normallaşdırılması, müqavilə- hüquq əsaslarının qurulması və möhkəmləndirilməsi istiqamətində ciddi addım idi.

Səfərdən sonra iki ölkə arasında ən vacib məsələlərin müzakirəsi intensivləşdi. 1996-cı il mayın 13-14-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak edən Heydər Əliyev Saprmurad Niyazov və Türkmənitan parlamentinin sədri Səhhət Muradov ilə görüşərək Xəzər dənizinin təbii sərvətlərinin istismarı sahəsində birgə əməkdaşlıq məsələlərini müzakirə etdilər. Azərbaycan tərəfi Xəzər dənizindən birgə istifadəni faydalı hesab edirdi.

Bir müddət sonra isə Cənubi Qafqaz və Mərkəzi Asiya dəmiryollarının İran ərazisindən keçən dəmiryol xətti ilə birləşdirilməsi münasibəti ilə Türkmənistanın Sərəxs sərhəd məntəqəsində keçirilmiş mərasimdə Azərbaycan, Özbəkistan, Türkmənistan və Gürcüstan prezidentləri iştirak edərək dörd ölkə arasında dəmiryol nəqliyyatının əlaqələndirilməsinə və yük daşımalarının tənzimlənməsinə dair müqavilə və saziş imzaladılar. Bu, Transqafqaz dəhlizi adlandırıldı. Transqafqaz dəhlizi regional və beynəlxalq əhəmiyyət daşımaqla yanaşı, Azərbaycan ilə Türkmənistan arasında münasibətlərdə mühüm amillərdən birinə çevrildi. Qarşılıqlı münasibətlər sanki möhkəmlənmə astanasında idi. Lakin belə olmadı.

**Azərbaycan Respublikası ilə Türkmənistan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə. 18 mart 1996-cı il. - Müqavilələr toplusu. 1 cild, s. 71-79.**

**Azərbaycan - Türkmənistan sənədlərinin imzalanmasından sonra birgə mətbuat konfransı. 18 mart 1996-cı il. - Müstəqilliyimiz əbədidir. V kitab, S.461-468.**

**Yenə orada.**

## Münasibətlər sınağa çəkilir. Müzakirələrdə fayda vardır

1996-cı ilin sonlarından etibarən Türkmənistan Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarına iddia ilə çıxış etdi. Türkmənistan tərəfi Rusiyanın Lukoyl və Rosneft kompaniyaları ilə ARDNŞ arasında 1997-ci ilin yayında "Kəpəz" (Türkmənistanda bu yatağı "Sərdar" adlandırırlar - M.Q.) yatağının məhsulunun kommersiya prinsipləri əsasında bölüşdürülməsinə dair bağlanan müqaviləyə etirazını bildirdi. Rusiya yatağın sovet dövründə Türkmənistanın mülkiyyəti olduğunu "əsas gətirərək" imzaladığı müqaviləni 1997-ci il avqustun 31-də ləğv etdi. Bundan sonra Türkmənistan Xəzər dənizinin türkmən şelfının mənimsənilməsi üçün beynəlxalq tender elan etdi. Tenderi ABŞ-m Mobil kompaniyası uddu. 1997-ci ilin yayında Aşqabadda keçirilən İslam Konfransı Təşkilatı dövlət və hökumət başçılarının zirvə toplantısında görüşən Saparmurad Niyazov geoloji-inzibati xarakterli sovet xəritəsini Heydər Əliyevə göstərərək "Azəri" və "Çıraq" yataqlarının Azərbaycanın yuris- diksiyasından kənarda olduğunu bildirdi. Bu, Azərbaycan - Türkmənistan münasibətlərində xoşagələn bir hal deyildi. Türkmənistanın Azərbaycana ərazi iddiası irəli sürməsinin heç bir hüquqi və tarixi əsası yox idi. Bundan sonra Aşqabad Xəzər dənizinin orta xətt prinsipinə əsasən milli sektorlara görə bölünməsinə əsaslanmağa başladı.

Azərbaycan tərəfi Türkmənistanın irəli sürdüyü iddianı müzakirələr yolu ilə həll etmək istəyirdi. Ona görə də Heydər Əliyev İKT ölkələrinin dövlət və hökumət başçılarının Tehranda keçirilən VIII zirvə görüşü çərçivəsində, 1997-ci il dekabrın 8-də Saparmurad Niyazov ilə görüşərək Xəzər dənizi məsələlərini müzakirə etdi. Azərbaycan tərəfi Türkmənistan ilə dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərinin saxlanılmasına tərəfdar idi. Mübahisənin münaqişəyə çevrilməsini istəməyən Azərbaycan Xəzər dənizinin orta xəttinin müəyyən edilməsi və Xəzər dənizində bir sıra neft yataqlarının mənsubluğu məsələlərinin həlli üçün iki ölkə arasında ekspertlər qrupunun yaradılmasını təklif etdi. Türkmənistan tərəfi həmin təklifə razılaşdı.

Səfərdən bir müddət sonra 1998-ci il yanvarın 6-da Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman ilə Xəzər dənizinin orta xətt koordinatları üzrə Azərbaycan Respublikası ilə Türkmənistan arasında danışıqların aparılması üçün Azərbaycan tərəfindən ekspertlər qrupu yara

dıldı. ARDNŞ-in prezidenti Natiq Əliyev qrupun sədri təyin edildi. 1998- ci il yanvarın 13-də isə Türkmənistan Prezidentinin də sərəncamı ilə ekspertlər qrupu yaradıldı. Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, neft-qaz sənayesi və mineral ehtiyatları naziri B.Sarcayev qrupun rəhbəri təyin edildi.

İki ölkə arasında ekspertlər qrupunun yaradılması və fəaliyyəti heç şübhəsiz, müsbət hal idi. Bu, tərəflərin bütün məsələləri dinc, müzakirələr yolu ilə həlli istəklərini göstərir, digər sahələrdə də əlaqələrin inkişafına təsir edirdi.

Geniş müzakirələr başlandı. 1998-ci il fevralın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Tofiq Zülfüqarovun başçılıq etdiyi nümayəndə heyəti Aşqabadda ekspertlər qrupunun birinci iclasında iştirak etdi. İclasın sonunda qəbul edilmiş bəyanatda hər iki dövlətin Xəzər dənizinin delimitasiyasını orta xətt üzrə beynəlxalq hüquq normalarına və beynəlxalq praktikaya uyğun bölüşdürməsi zəruriliyi bildirilirdi. Qrupun üzvlərini qəbul edən Türkmənistan Prezidenti Saparmurad Niyazov müzakirələri əhəmiyyətli adlandırdı. Azərbaycanın xarici işlər naziri isə ölkəsinin Türkmənistan ilə münasibətlərə böyük əhəmiyyət verdiyini vurğuladı.

Azərbaycan və Türkmənistan ekspertlər qrupunun martın 30-da Bakıda keçirilən ikinci iclasında iştirak edən Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradovun başçılıq etdiyi nümayəndə heyəti Xəzər dənizinin Azərbaycan və Türkmənistan sektorlarında orta xəttin müəyyənləş- dirilməsinə dair müzakirələr apardı. Görüşün nəticəsində müzakirələrin davam etdirilməsi barədə razılıq əldə edildi. Türkmənistanın xarici işlər nazirini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Baş Nazir Artur Rasizadə qəbul etdilər'^^^. Boris Şıxmurdaov Türkmənistan Prezidenti Saparmurad Niyazovun şəxsi məktubunu Heydər Əliyevə təqdim etdi. Məktubda iki ölkə arasında əməkdaşlığı genişləndirmək niyyətləri ifadə edilmişdi.

Ekspertlər qrupunun qənaətinə görə. Xəzər dənizinin dibinin milli sektorlara bölüşdürülməsi mümkün idi. Dənizin səthi və üstü gələcək danışıqların predmeti kimi müəyyənləşdirildi. Artıq qeyd edildiyi kimi,

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistanın Baş Nazirinin müavinini, xarici işlər nazirini qəbul etmişdir. - "Xalq qəzeti", Bakı, 1998, 31 mart.**

hələ SSRİ dövründə Xəzər dənizinin sektorlara əsasən bölgü prinsipi mövcud idi'®®^.

Görüşdən bir müddət sonra, 1998-ci il avqustun 24-də Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Abbas Abbasovun Aşqabada səfəri zamanı ikitərəfli və beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı. Xəzər dənizinin orta xəttinin müəyyənləşdirilməsi məsələləri müzakirə edildi. Danışıqların nəticəsində birgə bəyannamə qəbul olundu.

Lakin az sonra Türkmənistan orta xətt prinsipində yerə nəzərən, yəni müxtəlif sahil nöqtələrini birləşdirən coğrafi orta xətt metodunu seçərək əvvəlki mövqeyindən uzaqlaşdı. Azərbaycan belə yanaşmanı qəbul etmirdi. Beləliklə, ikitərəfli münasibətlərdə irəliləyişə nail olunmadı.

Buna baxmayaraq, Azərbaycan tərəfi Türkmənistan ilə münasibətləri yaxşılaşdırmaq cəhdlərini davam etdirirdi. Belə ki, Türkiyə Respublikasının 75 illiyi münasibəti ilə 1998-ci il oktyabrında Ankarada keçirilən toplantı çərçivəsində Türkiyə Prezidenti Azərbaycan - Türkmənistan münasibətlərinin yaxşılaşdırılmasına təşəbbüs etdi. Oktyabrın 29-da Heydər Əliyev Saparmurad Niyazov ilə görüşərək ikitərəfli əlaqələrin inkişafı və bir sıra regional məsələlərə dair fikir mübadiləsi etdi. Dövlət başçıları Xəzər dənizi məsələsində əməkdaşlıq yollarının axtarılması barədə razılaşdılar.

1999-cu il aprelin 2-də Moskvada MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının zirvə toplantısında görüşən Heydər Əliyev və Saparmurad Niyazov Xəzər dənizi məsələsində müzakirələrin davam etdirilməsini lazım bildilər. Bundan sonra münasibətlərdə sanki bir istilik yarandı. 1999-cu il iyunun 8-də Türkmənistanın Azərbaycan Respublikasında səfirliyi fəaliyyətə başladı. Avqustun 3-də iki ölkə vətəndaşlarının gediş- gəlişi qaydaları haqqında saziş imzalandı. Avqustun 5-də isə Azərbaycan və Türkmənistan Prezidentləri iki ölkə arasında əməkdaşlıq və Transxəzər boru xəttinin layihəsinə dair fikir mübadiləsi etdilər. Bütün bunlar qarşılıqlı münasibətlərdə müsbət meyillər idi.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilən zirvə toplantısı zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkmənistan Prezidenti Saparmurad Niyazov Transxəzər qaz boru xəttinə dair hökumətlərarası bəyannaməni imzaladılar. Zirvə görüşündə Türkiyə, Azərbaycan və Gürcüstan prezi-

**K)cH(|)3aÄe X.B. Cxaıyc Kacnmı. - Caspian. The official publication of the Caspian region. M., 1995, p.205.**

dentləri arasında Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinə dair imzalanmış sazişin dəstəklənməsi haqqında İstanbul bəyannaməsini ABŞ, Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan prezidentləri ilə yanaşı Türkmənistan Prezidenti də imzaladı. Həmin gün görüşən Türkmənistan və Azərbaycan prezidentləri iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına, bir sıra regional məsələlərə və Türkmənistan təbii qazının Transxəzər boru kəməri vasitəsi ilə nəqlinə dair fikir mübadiləsi etdilər. Bütün bunlar müsbət addımlar olsa da. Xəzər dənizinin Azərbaycan sektorundakı yuxarıda qeyd olunan neft yataqlarına Türkmənistanın iddiaları davam edirdi. 2000-ci ilin yanvarında Türkmənistan Xarici İşlər Nazirliyi bütün xarici neft kompaniyalarına xəbərdarlıq edərək "Azəri" və "Çıraq" yataqlarının Türkmənistana məxsus olduğunu bildirdi. Türkmənistanın Xəzər dənizinin orta xəttinin müəyyənləşdirilməsi üçün coğrafi enlik prinsipinə əsaslanması Azərbaycan sektorundakı neft yataqlarına iddiası üçün irəli sürülmüşdü. Rusiya Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Viktor Kalyujnının Bakı, Aşqabad və Tehrana səfərləri zamanı bu problem daha da aktuallaşdı. Türkmənistanın təklifləri ilə tanış olan Viktor Kalyujnı belə bir prinsipin dünya praktikasında olmadığını, "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının Azərbaycana məxsus olduğunu bildirdi.

Az sonra Qazaxıstanın ardınca Azərbaycan da Rusiya ilə Xəzər dənizinin dibinin bölüşdürlüməsinə dair sənədləri imzaladı. Buna görə, dənizin dibi bölüşdürlür, su səthi isə Xəzəryanı dövlətlərin ümumi mülkü olurdu. ARDNŞ-in "Kəpəz" yatağının 50-50 prinsipi ilə işlənilməsi təklifini Türkmənistan qəbul etməyərək Xəzəryanı MDB dövlətlərinin vahid mövqeyinin formalaşmasına mane oldu, Azərbaycana təzyiqlərə keçərək hətta Beynəlxalq Məhkəməyə müraciət edəcəyi ilə hədələdi.

Bütün bunlara baxmayaraq, hər iki ölkə əməkdaşlığı davam etdirirdi. 2000-ci il yanvarın 14-də Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Baş Nazirin müavini Abid Şərifovun rəhbərliyi altında Transxəzər qaz boru xəttinə dair dövlət komissiyası yaradıldı. Bundan bir neçə gün sonra, yanvarın 18-də Aşqabadda Transxəzər qaz boru xəttinin tikintisi üzrə Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyənin işçi qruplarının görüşü oldu. Martın 9-da isə Heydər Əliyev Saparmurad Niya- zov ilə telefonla danışaraq ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi etdi. Onlar iki ölkə arasında 2000-2005-ci illər üçün iqtisadi tərəfdaşlıq proqramının işlənib hazırlanması barədə müvafiq təşkilat

lara tapşırıqlar verilməsi barədə razılaşdılar. Söhbətdə həmçinin Transxəzər qaz boru kəməri məsələsi də müzakirə olundu.

Həmin ilin iyunun 9-da Tehranda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının toplantısı çərçivəsində Heydər Əliyev ilə Saparmurad Niyazovun arasında keçirilən görüşdə ikitərəfli əlaqələrin inkişaf perspektivləri və Xəzər dənizinin təbii ehtiyatlarının dünya bazarlarına çıxarılması yolları müzakirə edildi.

Azərbaycan və Türkmənistan mübahisəli məsələlərin müzakirəsini davam etdirirdilər. 2001-ci il mayın 2-5-də Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsində mövqelərin yaxmiaşdırılması və Azərbaycan Respublikası ilə Türkmənistanın Xəzər dənizindəki sektorlarının orta xətt koordinatlarının müəyyənləşdirilməsi məqsədilə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Aşqabadda səfərdə oldu. Türkmənistan Xarici İşlər Nazirliyi Azərbaycana yeni nota təqdim etdi. Burada orta xəttin müəyyənləş- dirilməsinə dair Azərbaycan metodikasının guya beynəlxalq praktikaya uyğun gəlmədiyi qeyd edilirdi. Ziddiyyətin mahiyyəti belə idi: Azərbaycan orta xətti sahil xəttindən hesablamağı təkilf edirdi. Aşqabad isə coğrafi enlilik prinsipini əsas götürürdü. Bu, Xəzər dənizinin Azərbaycan sektorunun yarısının Türkmənistana keçməsi demək idi. Nəticədə Aşqabadda iki ölkə arasında danışıqlar boşa çıxdı. Türkmənistan Azərbaycanın “Azəri” və “Çıraq” yataqlarına olan iddialarını əsaslandırmaq üçün müxtəlif diplomatik vasitələrdən istifadə etdi. Digər addımlar da atdı. 2001-ci il iyunun 4-də Türkmənistan Xarici İşlər Nazirliyi maliyyə vəsaitlərinin çatışmazlığını səbəb gətirərək Azərbaycan Respublikasındakı səfirliyinin iqamətgahmın müvəqqəti olaraq Aşqabada köçürülməsi haqqında qərar qəbul etdi.

Azərbaycan isə Türkmənistan ilə münasibətləri normallaşdırmaq üçün yeni addımlar ataraq bu ölkədə səfirlik təsis etdi. 2002-ci il avqustun 8-də Azərbaycanın Türkmənistanda ilk səfiri Elxan Hüseynov'®^’ təyin

**Elxan Hüseynov (1948) - Azərbaycan Respublikasının Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri (2002-2010). BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru (2010-2011). Təhsil nazirinin müşaviri (2011-2014). SDU-nun rektoru (2014-cü ildən).**

edildi'®®*. Həmin il oktyabrın 18-də səfirlik fəaliyyətə başladı. Bu, Azərbaycan tərəfinin Türkmənistan ilə münasibətlərin inkişafına xüsusi diqqət verdiyini göstərirdi.

Fikir ayrılıqlarına baxmayaraq, Xəzər dənizinin hüququ statusunun müəyyənləşdirilməsi istiqamətində ikitərəfli görüşlərin keçirilməsi dayandırılmadı. 2003-cü il sentyabrın 8-9-da Türkmənistanın xarici işlər naziri Rəşid Meredovun sədrliyi ilə Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupun 11-ci iclası keçirildi. Xələf Xələfovun rəhbərliyi altında nümayəndə heyəti Xəzər dənizinin hüquqi statusuna dair ölkəsinin mövqeyini bildirdi. İclasda Xəzəryanı dövlətlərin təklifləri əsasında hazırlanmış Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsinin müzakirəsi davam etdirildi. Qəbul edilən kommunikedə məsələyə dair iki ölkənin mövqelərinin yaxınlaşdığı qeyd olunurdu.

Qeyd etmək lazımdır ki, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi də tədricən artırdı. Belə ki, əgər 2001-ci ildə ticarət dövriyyəsinin həcmi 136,2 mln. dollar idisə, 2003-cü ildə 194,2 mln. dollar təşkil etmişdi. Bu, qarşılıqlı münasibətlərdə müsbət meyillər idi.

Azərbaycan ilə Türkmənistan arasında münasibətlərdə azərbaycanlı diasporası da müəyyən rol oynayırdı. Rəsmi statistikaya görə, Türkmənistanda 30 min nəfərə qədər azərbaycanlı yaşayırdı. Əslində isə onların sayı 45 min nəfərə çatırdı.

Beləliklə, 1991-2003-cü illərdə Azərbaycan - Türkmənistan münasibətləri mürəkkəb inkişaf yolu keçmişdir. Qarşılıqlı münasibətlərdə müzakirə edilən məsələlər Xəzər dənizinin enerji ehtiyatlarından istifadə. Xəzər dənizinin hüquqi statusu, Türkmənistanın Transqafqaz dəhlizinə qoşulması, ticarət-iqtisadi əlaqələr və s. olmuşdur. Münasibətlərə mane olan əngəllərin aradan qaldırılması üçün diplomatik səylər dayanmamışdır. Azərbaycan tərəfi Türkmənistan ilə qarşılıqlı münasibətlərin mehriban qonşuluq və tarixi ənənələrə dayanaraq inkişafına daim səy etmişdir.

**® E.B.Hüseynovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 8 avqust 2002-ci il. — Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2002. II hissə, s. 473.**

Ümumiyyətlə, qonşu ölkələrlə qarşılıqlı münasibətlərin qurulması və inkişafı Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqaməti olmuşdur. Azərbaycan bu ölkələrlə münasibətlərini həm beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər, həm də Azərbaycan xalqının adət-ənənələrinə uyğun olaraq mehriban qonşuluq və işgüzar əsasda qurmağa çalışımışdır. Azərbaycan Respublikası dövləti münasibətlərin inkişafına mane olan problemlər yaratmamışdır.

**Musa Cəfər oğlu Qasımlı**
*tarix üzrə elmlər doktoru, professor*

**Azərbaycan Respublikasının xarici siyasəti
(1991-2003)**

***2 hissədə***

**I hissə**

*Kitab "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində
yığdmış, səhifələnmiş və çap olumıışdıtr.*

**Nəşriyyat redaktoru: Əliş Ağamirzəyev
Texniki redaktor: Mətanət Qaraxanova
Üz qabığının dizaynı: Cavid Kişiyev**

Çapa imzalanıb: 04.07.2015. Format: 60x90 1/16 . Qamitur: Times.
Ofset çap. Həcmi: 40.5 ç.v. Tiraj: 1500. Sifariş 19.

-a*
MLTOKC İM

**TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ**

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: rnutarjim@mail.ru